Abuzər Xələfov

MƏQALƏLƏR TOPLUSU



Bakı - 2011


YAŞADIKÇA
YAZILANLAR

ABUZƏR XƏLƏFOV

MƏQALƏLƏR TOPLUSU

(1990-2011-ci illər)

AZ1-1655509

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI – 2011

Elmi redaktor: **Knyaz Aslan**

Rəyçilər: **E.Y.Əhmədov**
M.Ə.Məmmədov

Xələfov Abuzər Alı oğlu.
X.49 Məqalələr toplusu (1990-2011-ci illər). Bakı: "Bakı Universiteti" Nəşriyyatı, 2011, 464 s.

Məqalələr toplusunda müəllifin Azərbaycanın müstəqilliyi illərində (1990-2011-ci illər) kitabxana işinin müxtəlif sahələrinin aktual problemlərinə dair elmi məqlələri, eləcə də bir sıra publisistik yazıları öz əksini tapmışdır.

Məqalələr toplusu mədəniyyət və kitabxana mütəxəssisləri, müəllimlər, tələbələr, ümumiyyətlə, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$X\frac{500200000-06}{M-658(07)-06}-2011$

© *"Bakı Universiteti" nəşriyyatı, 2011*

ÖN SÖZ

BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademia-sının akademiki, Əməkdar mədəniyyət işçisi, Əməkdar elm xadimi, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, "Şöhrət" ordenli, Prezident təqaüdçüsü, tarix elmləri doktoru, professor Abuzər Xələfov Azərbaycan kitabxanaşünaslıq elminin banisi, ali kitabxanaçılıq təhsilinin təşkilatçısı, görkəmli elm və mədəniyyət xadimidir.

Prof. A.Xələfov mədəniyyət, kitabxana işi, kitabxanaşünas-lıq, təhsil və informatika sahələrinin tarixinə və nəzəriyyəsinə dair 300-dən artıq monoqrafiya, dərslik, dərs vəsaiti, elmi məqalə, tədris-metodik materialı və s. əsərlərin müəllifidir. Bütün yaradıcılıq fəaliyyəti dövründə mədəniyyət və kitabxana işi quruculuğunun tarixi problemləri, kitabxanaşünaslığın nəzəriyyəsi və metodologiyası, ali kitabxanaçılıq-biblioqrafiya təhsili məsələləri, habelə kitabxana işi nəzəriyyəsi və bir sıra digər aktual elmi problemlər A.Xələfovun diqqət mərkəzində dayanmışdır. Onun elmi tədqiqatlarının nəticələri bütövlükdə mədəniyyətşünaslıq, kitabxanaçılıq elmi və təcrübəsi üçün böyük əhəmiyyət kəsb edən sanballı əsərlərdə öz parlaq əksini tapmışdır. Bu əsərlərin əksəriyyəti həm Azərbaycanda, həm də xarici ölkələrdə yüksək qiymətləndirilmişdir.

Prof. A.Xələfovun "Məqalələr toplusu (1990-2011-ci illər)" adlı əsərində sosial və mədəni həyatımızın demək olar bütün sahələrində baş vermiş proseslərə dair alimin fikir, düşüncə və münasibətləri öz əksini tapmışdır.

Prof. A.Xələfov Azərbaycanda kitabxana işinin çoxəsrlik tarixinə onlarla kitab, elmi məqalə və başqa materiallar həsr etmişdir. Onun elmi tədqiqat fəaliyyətində humanitar elm kimi kitabxanaşünaslığın ümumnəzəri və metodoloji problemlərinin işlənilməsi, kitabxanaların sosial funksiyalarının inkişafının araşdırılması, cəmiyyətin intellektual inkişafı prosesində, insanların mədəni-mənəvi tərbiyəsində, təhsil prosesində kitabxanaların rolunun öyrənilməsi çox böyük yer tutur. Alimin ayrı-ayrı elmi məqalələrində dünyada və Azərbaycanda kitabxanaşünaslıq fikrinin inkişaf tarixi, kitabxanaşünaslığın nəzəriyyə, motodologiya və metodikasının əsasları, elmlər sistemində kitabxanaşünaslığın yeri, kitabxanaların bir sistem kimi struktur xarakteristikası, kitabxanaların tipologiyası, kitabxanaçılıq peşəsinin, bir sözlə, kitabxanaşünaslıq elminin inkişaf problemləri və müasir vəziyyəti və s. kimi aktual məsələlər əhatə olunmuş, bütün bu məsələlər yüksək elmi səviyyədə ümumiləşdirilmişdir.

Müəllifin əsərlərində 1990-2011-ci illərdə respublikamızda kitabxana şəbəkələrinin formalaşması prosesinin geniş mənzərəsi yaradılmışdır. Alim Azərbaycanda kitabxana quruculuğunun inkişaf dinamikasını ümumiləşdirərək, həmin mərhələdə sosial-iqtisadi və mənəvi həyatın bütün cəhətlərini qarşılıqlı əlaqədə göstərir. Kitabxana işinin inkişafı Azərbaycan tarixi və mədəniyyəti ilə sıx əlaqədə, cəmiyyətin siyasi, iqtisadi və mədəni həyatının ayrı-ayrı sahələrində baş verən proseslər fonunda əks etdirilir. Bu məqalələrdə

Azərbaycanda kitabxana işinin inkişafının elmi əsasları və təcrübi metodları açılıb göstərilir, kitabxana quruculuğu sahəsində dövlət siyasəti təhlil edilir. Müstəqillik dövründə respublikanın şəhərlərində və kənd rayonlarında müxtəlif tipli kitabxanalarda (kütləvi, elmi, texniki, ali məktəb, həmkarlar ittifaqı və s.) əhaliyə xidmətin forma və metodları da əsərdə özünün ətraflı təhlilini tapır. A.Xələfov elmi dövriyyəyə demək olar ilk dəfə daxil etdiyi çoxlu sayda faktlar əsasında inandırıcı şəkildə göstərir ki, Azərbaycanda kitabxana işinin təkmilləşdirilməsi onun məzmununun keyfiyyətcə xeyli dəyişməsinə və daha da dərinləşməsinə, kitabxana işinin respublikanın sosial-iqtisadi vəzifələri ilə sıx bağlanmasına, cəmiyyətdə kitabxanaların rolunun və əhəmiyyətinin hiss olunacaq dərəcədə artmasına, beləliklə, kitabxana işinin xalqın mədəni inkişafında həlledici amillərdən birinə çevrilməsinə gətirib çıxarmışdır.

Müstəqillik illərində A.Xələfovun elmi araşdırmalarının mühüm xarakterik cəhətlərindən biri də onun Azərbaycanda kitabxanaların yaranmasının tarixi köklərinə, ayrı-ayrı mərhələlərdə kitabxanaların tarixi təcrübəsinə müntəzəm müraciət etməsi və bu zaman kitabxanaların inkişafını Azərbaycan xalqının mənəvi mədəniyyətinin inkişafı ilə sıx əlaqədə öyrənməsi, varislik məsələsini diqqətdə saxlamasıdır.

Bu kitabda toplanmış materiallar bir daha göstərir ki, müstəqillik illərində kitabxana işinin tarixi, nəzəriyyəsi və metodikası sahəsində A.Xələfovun elmi-tədqiqat fəaliyyəti Azərbaycan Respublikasının müstəqilliyi və suverenliyi şəraitində keyfiyyətcə yeni tarixi biçimdə meydana çıxmışdır. Alim bu illərdə özünün çoxsahəli elmi və pedaqoji fəaliyyətini Azərbaycanda hüquqi, demokratik cəmiyyət quruculuğu şəraitində siyasi plüralizmin, informasiya azadlığının, milli və ümumbəşəri dəyərlərin ilkinliyinin nəzərə alınması əsasında kitabxana xidmətinin təşkilinin metodik problemləri ilə, şəxsiyyətin və bütövlükdə cəmiyyətin intellektual və mənəvi inkişafında kitabxanaların rolu ilə sıx şəkildə bağlayır.

Alimin "Müasir şəraitdə kitabxana işinin nəzəri və təcrübi metodoloji əsasları haqqında", "Müasir dövrdə kitabxanaların sosial funksiyaları" və başqa konseptual məqalələrində cəmiyyətdə baş verən sosial-iqtisadi və mədəni proseslərin elmi şəkildə dərk edilməsi əsasında Azərbaycanda kitabxana işinin nəzəriyyə və təcrübəsinin inkişaf konsepsiyası hazırlanmışdır ki, bu da yeni cəmiyyətin reallıqlarını özündə hərtərəfli əks etdirir. Müasir cəmiyyətdə kitabxanaların sosial funksiyalarına həsr olunmuş məqaləsində A.Xələfov kitabxanaların sosial funksiyaları haqqında konsepsiyanı əhəmiyyətli dərəcədə işləyib tamamlamış və zənginləşdirmişdir.

XXI əsrin əvvəllərində Abuzər Xələfovun xalqımızın mədəniyyət tarixinə verdiyi qiymətli töhfələrindən biri də Azərbaycanda kitabxana işinin tarixinə dair bir sıra sanballı elmi məqalələr yazıb dərc etdirməsidir. Bu əsərlər xalqımızın mənəvi mədəniyyət tarixi sahəsindəki mövcud boşluğu aradan qaldırmaq baxımından böyük əhəmiyyət kəsb edir. Həmin məqalələrdə müəllif Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq qədim dövrlərdən XX əsrə qədər

Azərbaycanda kitab və kitabxanalar tarixinin inkişaf mərhələlərini tarixi mənbələri əsasında araşdırmış, Azərbaycan mədəniyyətinin mühüm tərkib hissələrindən biri olan kitabxana mədəniyyəti ilə əlaqədar yazının meydana gəlməsi, əlifbanın yaranması, kitabçılıq işinin təşəkkülü, kitabxanaların yaranması və onların xalqımızın mədəni-mənəvi inkişafındakı rolunu müəyyənləşdirə bilmişdir.

A.Xələfovun son illər ərzində apardığı tədqiqatlar nəticəsində Azərbaycanın müstəqilliyi şəraitində ölkədə kitabxana-informasiya fəaliyyətinin strateji istiqamətləri, informasiya cəmiyyətinin vəzifələrinə uyğun yeniləşməsi, kitabxanaşünas-biblioqraf peşəsinin yeni keyfiyyətləri və s. məsələlər ətraflı şərh edilmişdir.

Yeni tarixi şəraitdə Azərbaycanda kitabxana işinin nəzəriyyə və təcrübəsinin inkişaf strategiyasını müəyyənləşdirərkən A.Xələfov kitabxana işinin təşkili və idarə edilməsinin bütün sisteminin demokratikləşdirilməsini, kitabxanaların ideoloji ehkamlardan azad edilməsini, oxucuların informasiya alınmasında hüquq və azadlıqlarının təmin olunmasını ilk plana çıxarır. O, qeyd edir ki, Azərabycanda kitabxana işinin kompüterləşdirilmə yoluna çıxmalı, başqa sözlə, hesablama texnikası, telekommunikasiya, şəbəkə texnologiyası, dünya informasiya və intellektual məkanı ilə birləşmə prosesləri kompleks şəkildə, ümumi miqyasda kitabxanalarda tətbiq olunmalıdır. Kitabxanaşünaslığı kitabxana-informasiya proseslərinin və sosial kommunikasiyaların qanunauyğunluqları haqqında elm kimi şərh edən müəllif onun inkişafının tarixi və nəzəri cəhətlərini hərtərəfli açıqlayır.

Müəllif oxuculara kitabxana informasiya xidmətinin müasir konsepsiyasını qısa və aydın üslubda şərh etmiş, kitabxanalarda oxuculara xidmət işində demoqrafik prinsiplərin tətbiqi məsələlərini sovet rejimi ilə müqayisəli şəkildə verə bilmişdir. Bu məqalələrdə alimin qeyd etdiyi kimi, dünyanın son möcüzələrindən olan İnternetin qlobal informasiya məkanından başəri məlumatın əldə edilməsində kitabxanaların vəzifələrinə dair ümumiləşdirilmiş fikirləri xüsusi maraq kəsb edir.

Prof. A.Xələfovun XXI əsrin ilk illərində yazdığı elmi məqalələrdə ölkəmizin müstəqilliyi şəraitində cəmiyyətdə kitabxana işinin sosial-siyasi, iqtisadi və tərbiyəvi əhəmiyyəti, informasiya cəmiyyətinin formalaşmasında kitabxanaların rolu və vəzifələri hərtərəfli işıqlandırılmışdır. Bunlardan "İnformasiya cəmiyyəti və kitabxana işi", "İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri", "Avtomatlaşdırılmış kitabxana informasiya idarəetmə sistemləri", "Elektron kataloqların əhə-miyyəti və təşkili prinsipləri", "Müasir dövrdə kitabxana fəaliy-yətinin əsas istiqamtləri" kimi məqalələr Azərbaycanda kitabxanaşünaslıq fikrinin çoxcəhətli bir istiqamət almasına səbəb olmuşdur. Bu məqalələr müasir dövrdə kitabxana işinin modernləşdirilməsi, informasiyalaşdırılması, ayrı-ayrı kitabxana proseslərinin yeniləşməsi vəzifələri haqqında geniş təsəvvür yaradır.

Müasir kitabxanaçılıq fəaliyyətində informasiya funksiyalarının təşəkkül

tapıb inkişaf etməsi, əhaliyə kitabxana xidmətində müasir elektron informasiya vasitələrindən istifadə edilməsi, qlobal internet şəbəkəsinin kitabxana işinə daxil edilməsi, elektron kitab və elektron kataloqların təşkili problemləri A.Xələfovun son illərdə yazdığı məqalələrinin əsas mövzu dairəsini təşkil edir.

Abuzər Xələfovun elmi məqalələri əksər hallarda konkret obyekt, şəxs və ya problem əsasında qurulmuş təhlil xarakteri daşıyır, ayrı-ayrı kitabxanaların fəaliyyətinə qiymət verir, onların gələcək inkişaf perspektivlərinə dair qiymətli tövsiyələr verilir. Bunlardan "Azərbaycan elminin qızıl fondu (AMEA Mərkəzi Elmi Kitabxanasının bu günü və sabahı)", "Kitab öz ünvanına çatdıqda", "Qədim kitab məbədi" və s. məqalələri xüsusilə fərqlənir.

Müstəqillik illərində prof. A.Xələfovun elmi-tədqiqat istiqamətlərindən birini də ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda kitabxana işinin inkişafındakı xidmətlərinin təhlili, onun nəzəri irsinin kitabxanalarda təbliği məsələləri təşkil edir. Alimin bu dövrdə yazdığı "Azərbaycan xalqının milli mənəvi dəyərlərinin formalaşmasında Heydər Əliyev irsinin rolu", "Heydər Əliyev əsərlərinin nəşri və təbliği məsələləri", "Xalqımızın milli iftixarı", "Heydər Əliyev və Bakı Dövlət Universiteti bir-birindən ayrılmayan iki böyük varlıqdır", "Xatirələrdə əbədi yaşayan dahi", "Heydər Əliyevin əməlləri əbədidir" adlı məqalələrində ümummilli liderin həyata keçirdiyi siyasət nəticəsində ölkədə sabitliyin yaranması, müstəqilliyin məqsədyönlü şəkildə həyata keçirilməsi, Azərbaycanın vətəndaş müharibəsi və parçalanma təhlükəsindən xilas edilməsi respublikada səmərəli iqtisadi islahatların həyata keçirilməsi hüquqi və demokratik dövlət quruculuğu istiqamətində böyük nailiyyətlərin qazanılması məsələlərin geniş planda əks olunmuşdur.

Beləliklə, prof. A.Xələfovun müstəqillik illərində dövri mətbuatda dərc etdirdiyi məqalələrində qədim dövrlərdən başlayaraq bu günümüzədək Azərbaycanda kitabxanaşünaslığın keçdiyi inkişaf yolu öyrənilmiş, bu inkişafa təkan verən alimlərin fəaliyyəti araşdırılmış, qarşıdakı prespektivlər müəyyənləşdirilmişdir. Alim kitabxana işinin tarixi ilə bağlı tədrübəni öyrənməklə yanaşı, inkişafın qanunauyğunluqlarını müəyyənləşdirmiş, fakt və dəlilləri dövrün ictimai-siyasi hadisələri fonunda, tarixilik və elimilik prinsiplərinin tələbləri baxımından qiymətləndirmiş, müasir dövrdə kitabxana işinin təşkili və kitabxanaşünaslıq elmi ilə bağlı dəyərli fikirlər söyləmiş, nəzəri konsepsiyalar irəli sürmüşdür. A.Xələfovun bu əsərləri Azərbaycanın mədəniyyət tarixinin müəyyən sahələrini öyrənmək baxımından çox qiymətlidir. Bu əsərlər ömrünü Azərbaycanda kitabxanaşünaslıq elminin inkişafına, kitabxana işinin tədqiqinə və kitabxanaçılıq təhsilinin formalaşmasına həsr edən ağsaqqal alimimizin zəngin elmi yaradıcılıq irsinin öyrənilməsi cəhətdən də təqdirəlayiqdir.

Knyaz ASLAN

KİTABXANAÇILIQ TƏHSİLİNİN İNKİŞAFI

Həyatımızda baş verən müsbət dəyişikliklər, inqilabi ideyaların geniş vüsəti əsaslı yeniləşmə prosesi yerinə yetirilməsi zəruri olan konkret tələblər irəli sürür. Belə bir məqamda cəmiyyətdə bir çox vacib sosial funksiyaların həyata keçirilməsinə xidmət edən kitabxanalar elmi-texniki tərəqqinin sürətləndirilməsində, iqtisadi, sosial və mədəni vəzifələrin həll olunmasında, qabaqcıl ideyaların kütlələr içərisində yayılmasında fəal iştirak etməli, böyük təbliğat-təşviqat və təşkilatçılıq işi aparmalıdır.

Aydındır ki, yüksək ixtisaslı kitabxanaçı kadrlar olmadan bu mühüm vəzifələrin öhdəsindən gəlmək mümkün deyildir. Ölkəmizdə Sovet hakimiyyəti illərində elm, texnika, xalq təsərrüfatı və mədəniyyətin bütün üçün yüksək ixtisaslı kadrlar hazırlayan ali və orta ixtisas məktəblərinin geniş sistemi yaradılmışdır. Bu sistem böyük tarixi inkişaf yolu keçmiş, getdikcə təkmilləşmiş və dünyada mütərəqqi sistemlərdən birinə çevrilmişdir. Təsadüfi deyil ki, hazırda sovet ali məktəbləri dünyanın bir çox ölkələri üçün müxtəlif ixtisaslı kadrlar hazırlayır.

İxtisaslı kitabxanaçı kadrların hazırlanması sahəsində də respublikamız zəngin təcrübə məktəbi keçmişdir. Kitabxanaçılıq təhsili sisteminin yaradılması və minlərlə ali və orta ixtisaslı kitabxanaçı kadrların hazırlanması respublikamızda mədəni quruculuq sahəsində əldə edilmiş uğurlar sırasındadır.

Azərbaycanda kitabxanaçı kadrların hazırlanması uzunmüddətli, getdikcə təkmilləşən ilk kitabxanaçılıq kurslarından universitet təhsilinə qədər əhəmiyyətli bir yol keçmişdir.

Hələ Sovet hakimiyyətinin ilk illərindən mədəni quruculuğun mühüm sahəsi olan kitabxana işinin inkişafına, yeni kitabxanalar yaradılmasına xüsusi diqqət yetirilmişdir. İlk dövlət dekretləri ilə bütün kitabxanalar millileşdirilmiş və yeni kitabxanaların təşkili üçün inqilabi tədbirlər həyata keçirilməyə başlanmışdır. Bu tədbirlərin nəticəsi olaraq cəmi bir neçə ay müddətində Azərbaycanda 234 min 210 cild kitab fondu olan 45 kitabxana təşkil edilmişdir. 1925-ci ildə artıq respublikamızda 584 min 177 cild kitab fonduna malik 91 kitabxana fəaliyyət göstərdi. Beş il müddətində kitabların sayı 6 dəfə, kitabxanaların sayı isə 10 dəfə artmışdı.

Həmin dövrdə kitabxanaçı kadrların hazırlanması böyük siyasi və mədəni əhəmiyyətə malik bir vəzifə idi. Azərbaycan SSR Maarif Komissarlığı tərəfindən hazırlanmış tədbirlər planında kitabxana işində ziyalılardan, partiya və dövlət işçilərindən, müəllimlərdən istifadə edilməsinə xüsusi diqqət yetirilirdi.

1938-ci ilə kimi Azərbaycanda orta və ya ali təhsilli kitabxanaçı kadrlar hazırlayan ixtisas məktəbi olmadığına görə kitabxanaçı kadrlar yalnız vaxtaşırı təşkil edilən aylıq, üçaylıq, bəzən isə altıaylıq kurslarda hazırlanırdı. Respublikada ilk kitabxanaçılıq kursları 1920-ci ildən təşkil edilməyə başlanmışdı.

Sovet kitabxana quruculuğu bünövrəsinin qoyulmasında və möhkəmləndirilməsində yaxından iştirak etmiş ilk sovet mütəxəssis kitabxanaçıları məhz bu kursların yetişdirmələri idilər. İlk vaxtlar əsasən Bakı şəhərində keçirilən kursları Azərbaycan SSR Xalq Maarif Komissarlığı, Bakı Şəhər Xalq Maarif Şöbəsi Azərbaycan Həmkarlar İttifaqları Mərkəzi Şurası, M.F.Axundov adına Respublika Dövlət Kitabxanası və bəzi hallarda kitabxana şəbəkəsi olan digər nazirliklər təşkil edilirdi.

30-cu illərin axırında bu cür kurslar respublikanın bir sıra böyük şəhərlərində, rayon mərkəzlərində, Naxçıvan MSSR-də və Dağlıq Qarabağ Muxtar Vilayətində də təşkil edilməyə başlandı.

Respublika Xalq Maarif Komissarlığı kitabxanaçı kadrlar hazırlanmasında mühüm rol oynayan bu kursların işinə xüsusi fikir verirdi. Kursların tədris planlarının tərtibi geniş müzakirə edilir, yalnız mühüm məsələlər və kitabxana işinin özünəməxsus xüsusiyyətlərini əhatə edən ixtisas fənləri tədris planına daxil edilirdi. Müəllim heyətinin seçilməsinə ayrıca diqqət yetirilir, görkəmli partiya və dövlət xadimləri, rəhbər işçilər, mütəxəssislər, kitabxanaların ən təcrübəli işçiləri kurslarda dərs deməyə cəlb olunurdular. Bəzən Moskva və Leninqrad kitabxanaçılıq institutlarının müəllimləri də kurslarda mühazirə oxumaq üçün dəvət edilirdilər.

Göründüyü kimi, 20-30-cu illərdə respublikamız üçün kitabxanaçı kadrlar hazırlayan qısamüddətli kurslar yeganə vasitə olaraq qalırdı. Əlbəttə, Azərbaycanda kitabxanaların, o cümlədən, elmi və xüsusi kitabxanalar şəbəkəsinin sürətlə genişlənməsi, kitabxana işi prosesinin getdikcə mürəkkəbləşməsi, əhalinin ümumi mədəni səviyyəsinin yüksəlməsi, oxucuların sayının durmadan artması mütəxəssis kitabxanaçı kadrlara olan tələbatı daha da artırırdı. Təbiidir ki, bu tələbat qısamüddətli kurslar vasitəsilə heç cür ödənilə bilməzdi. Məhz buna görə də orta və ali ixtisas təhsilli kitabxanaçı kadrların hazırlanması məsələsi 30-cu illərdə tam kəskinliyi ilə qarşıda durmuşdu.

Nəhayət, 1938-ci ilin martında Azərbaycan SSR Xalq Komissarlığı Soveti ixtisaslı kitabxanaçı kadrlara böyük ehtiyacı nəzərə alaraq 1938-39-cu dərs ilində Bakıda kitabxanaçılıq texnikumunun təşkil edilməsi haqqında qərar qəbul etdi.

Bakı Kitabxanaçılıq Texnikumunun (indiki N.K.Krupskaya adına Bakı Mədəni-Maarif Məktəbi – *hazırda Bakı Humanitar Kolleci adlanır – red.*) təşkili əlamətdar hadisə idi.

Bununla belə, kitabxana işinin inkişafı, respublikamızın elmi və mədəni həyatında onların rolunun və əhəmiyyətinin artması, xalq kütlələri içərisində mütaliəyə marağın çoxalması əhaliyə günün tələbləri səviyyəsində kitabxana xidmətinin təşkil edə biləcək yüksək ixtisaslı mütəxəssis kitabxanaçılar hazırlanmasını tələb edirdi.

Odur ki, Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi 1947-ci il «Respublika mədəni-maarif müəssisələri üçün kadr hazırlamaq haqqında» xüsusi qərar qəbul etdi. Qərarda 1947-48-ci tədris ilində Bakı Dövlət Univer-

sitetinin filologiya fakültəsi nəzdində kitabxanaçılıq şöbəsinin təşkil edilməsi və onun gələcəkdə ayrıca fakültəyə çevrilməsi göstərilirdi. Elə həmin tədris ilində universitetdə kitabxanaçılıq şöbəsi fəaliyyətə başladı.

Bu şöbənin təşkili respublikamızın mədəni həyatında əlamətdar hadisə idi. Şöbənin açılması sosialist mədəniyyətinin mühüm tərkib hissəsi olam kitabxanaların yüksək ixtisaslı mütəxəssis kadrlarla təmin edilməsi üçün əsaslı zəmin yaradır, kitabxana işinin inkişafına təkan verirdi. Onun universitetdə yaradılması burada tədris prosesinin uğurlu təşkilinə səbəb olmaqla yanaşı, kitabxanaçılıq ixtisasının, kitabxanaçılıq sənətinin perspektivləri və şöbənin gələcəkdə fakültəyə çevrilməsi üçün də şərait yaradırdı.

Məlum olduğu kimi, kitabxanaçı-biblioqraf ixtisasları üzrə kadr hazırlanması üçün tərtib edimiş tədris planlarına əsasən kitabxanaçı-biblioqraf bu sənətin xüsusiyyətinə uyğun olaraq müxtəlif fənlərdən dərs keçməlidir. Ona görə də, yalnız hərtərəfli elmi kadrlara malik olan universitet müxtəlif fənlərin tədrisini təşkil etmək imkanına malik idi.

Belə bir faktı qeyd etmək yerinə düşər ki, SSRİ-də universitetdə ilk kitabxanaçılıq təhsili məhz Bakı Dövlət Universitetində təşkil edilmişdir. Təcrübə göstərir ki, kitabxanaçı kadrların mədəniyyət institutlarında və pedaqoji institutlarda deyil, universitetdə hazırlanmasının olduqca böyük üstünlükləri vardır. Beşillik tədris planı ilə işləyən universitetlərdə kadr hazırlığının keyfiyyətini yüksəltmək, əsaslı və ictimai elmlərə dərindən yiyələnmiş genişprofilli kadrlar hazırlamaq üçün şərait olduqca əlverişlidir.

Universitetdə kitabxanaçılıq şöbəsinin yaradılmasında Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsinin sədri, görkəmli partiya və dövlət xadimi, məşhur yazıçı Süleyman Rəhimovun xidməti böyük olmuşdur. Məhz Süleyman Rəhimovun mədəni-maarif müəssisələrinə başçılıq etdiyi dövrdə (1945-ci ildən) respublikamızda kitabxana işinin hərtərəfli inkişafı, xüsusilə kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, şəbəkəsinin artması, fondlarının çoxalması, əhaliyə kitabxana xidmətinin təkmilləşdirilməsi sahəsində müffəqiyyətlər əldə edilmişdir.

Respublikamızda ali təhsilli kitabxanaçı kadrlara olan böyük tələbat nəzərə alınaraq 1955-ci ildə kitabxanaçılıq şöbəsinin qiyabi bölməsi təşkil olundu. Böyük iş təcrübəsinə malik olan kitabxanaçılar istehsalatdan ayrılmadan yüksək ixtisasa yiyələnmək imkanı əldə etdilər. 1959-cu ildə qiyabi şöbənin Zaqafqaziyada yeganə rus bölməsi yaradıldı. Burada Gürcüstan və Ermənistandan gələn kitabxanaçı kadrlar da təhsil almağa başladılar.

Kitabxanaçılıq şöbəsi 1947-ci ildən 1958-ci ildək filologiya fakültəsinin, 1958-ci ildən 1960-cı ildək isə şərqşünaslıq fakültəsinin nəzdində fəaliyyət göstərmişdir. Lakin kitabxanaşünaslıq və biblioqrafiya üzrə dissertasiya və diplom mövzuları, dərs vəsaitləri, tədris proqramları, həmçinin kitabxanaçılıq şöbəsinin digər elmi, metodiki məsələləri şərqşünaslıq fakültəsi elmi şurasının profilinə uyğun gəlmədiyi üçün orada lazımi səviyyədə müzakirə və həll edilə bilmirdi. Məhz buna görə də, həmin uyğunsuzluğun tezliklə aradan qaldırıl-

ması üçün müəyyən tədbirlər həyata keçirilməyə başlandı.

Qeyd edək ki, həmin dövrdə kitabxanaçılıq fakültəsinə qəbul olduqca az idi. Hər il gündüz şöbəsinə 25 nəfər, qiyabi şöbəyə 50 nəfər tələbə qəbul edilirdi.

Bütün bunları nəzərə alaraq, Azərbaycan KP MK-nın göstərişinə əsasən 1962-ci ilin avqust ayında Azərbaycan SSR Nazirlər Sovetinin Ali və Orta İxtisas Təhsili Komitəsi kitabxanaçılıq şöbəsinin əyani və qiyabi bölmələrinin birləşdirilməsi və müstəqil fakültə yaradılması haqqında əmr verdi. Həmin il oktyabr ayının 1-də universitetdə ayrıca kitabxanaçılıq fakültəsi təşkil olundu. Fakültənin ilk dekanı vəzifəsinə kitabxanaçılıq şöbəsinin yetişdirməsi, tarix elmləri namizədi, bu məqalənin müəllifi, dosent Abuzər Alı oğlu Xələfov təyin edildi.

Fakültənin yaranmasında və inkişafında Azərbaycan SSR Elmlər Akademiyasının Akademiklərindən A.Qarayev, Ş.Mehdiyev və başqalarının xeyli xidməti olmuşdur.

1963-cü ildə isə kitabxanaçılıq fakültəsinin axşam şöbəsi təşkil olundu. Şöbənin təşkili Bakıda yaşayan və işləyən kitabxanaçıların ali təhsil almaları üçün əlverişli şərait yaratdı.

Respublikamızın kitab ticarəti müəssisələrinin yüksək ixtisaslı mütəxəssis kitabşünas-biblioqraf kadrlara olan böyük tələbatı nəzərə alınaraq 1963-cü ildə (kitabxanaçılıq fakültəsinin nəzdində) yeni bir şöbə - kitabşünaslıq şöbəsi təşkil edildi. Şöbənin yaradılması mədəniyyətimizin mühüm sahələrindən biri olan kitabşünaslığın inkişafına mühüm töhfə idi. Təəssüf ki, sonralar bu şöbə bağlandı.

70-ci illər Azərbaycanda kitabxanaşünas-biblioqraf kadrlarının hazırlanmasında xüsusi mərhələ olmuşdur. Bu dövrdə fakültə kadr hazırlığı həm kəmiyyət, həm də keyfiyyətcə inkişaf edib təkmilləşmişdir.

1947-ci ildə cəmi 25 nəfər tələbə qəbul edən kitabxanaçılıq şöbəsi hazırda 1200 nəfər tələbəsi olan fakültəyə çevrilmişdir. Fakültənin əyani, qiyabi və axşam şöbələrinə qəbul artırılmışdır.

Kitabxanaçılıq fakültəsi (şöbəsi) 1947-1987-ci illər ərzində, yəni 40 il müddətində 2,876 nəfər yüksək ixtisaslı kadr hazırlamışdır. Onlar hazırda respublikamızın müxtəlif kitabxanalarında, habelə partiya, sovet və dövlət orqanlarında, idarə və təşkilatlarında çalışırlar.

Aydındır ki, universitetdə yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanması tez bir zamanda bu şöbədə ixtisas fənlərindən dərs deyə biləcək müəllimlərin müəyyənləşdirilməsini tələb edirdi. Bu məqsədlə də 1947-ci ilin oktyabr ayında filologiya fakültəsinin yanında kitabxanaşünaslıq və biblioqrafiya kafedrası yaradıldı. Kafedra ixtisas elmlərinə dair əsaslı elmi tədqiqat işləri aparmaq üçün geniş imkan yaratdı. Əliheydər Qəhrəmanov kafedranın ilk müdiri oldu.

Hüseyn Tağıyev, Məryəm Səmədova, bir qədər sonra isə şöbənin məzunları Abuzər Xələfov, Murad Şəmsizadə, Zöhrab Əliyev, Hacı Həsənov, Əşrəf Xələfov və başqaları kafedranın ilk ixtisas müəllimləri kimi fəaliyyətə başladılar. Gənc mütəxəssislərin kitabxanaşünaslıq və biblioqrafiya kafedrasına

cəlb olunması kafedranın elmi-tədqiqat işini canlandırdı, ciddi araşdırmalar aparıldı, ilk dərs vəsaitləri, monoqrafiya və dissertasiyalar yazıldı.

60-cı illərdə kafedranın müəllim kontingentinin artması, dərs yükünün çoxalması, ixtisas üzrə ilk elmlər namizədlərinin yetişməsi müstəqil biblioqrafiya kafedrası yaratmağa imkan verdi. 1968-ci ildə təşkil edilən həmin kafedranın müdiri vəzifəsinə pedaqoji elmlər namizədi, dosent Ə. Xələfov seçildi. Müstəqil biblioqrafiya kafedrasının yaranması biblioqrafiya fənlərinin tədrisini elmi-tədqiqat və metodik işləri xeyli yaxşılaşdırdı, yeni tədris və metodik vəsaitlərin, göstəricilərin meydana çıxmasına səbəb oldu.

70-80 illər fakültənin həyatında xüsusi iz buraxmışdır. Bu illərdə fakültə müəllimlərinin sırasına çoxlu gənc qüvvələr gəldi, kitabxanaşünaslıq və biblioqrafiya kafedralarında əyani aspirantura daha da mütəşəkkilləşdi, elmi-tədqiqat işləri keyfiyyətcə yaxşılaşdırıldı. Fakültənin əməkdaşları 1968-ci ildə «Orta əsr Azərbayca» (XI-XVIII)», F.Bayramov 1970-ci ildə «Cəlil Məmmədquluzadə irsinin nəşri tarixi və yazıçının biblioqrafiyası», R.Kazımov 1972-ci ildə «Azərbaycan bədii ədəbiyyat və ədəbiyyatşünaslığın biblioqrafiyası (1920-1965-ci illər), S.Rzayev 1973-cü ildə «Sosializm təkmilləşməsi dövründə Azərbaycan SSR-də kənd əhalisinə kitabxana xidmətinin təşkili (1959-1970)», Ə.Rüstəmov 1976-cı ildə «Azərbaycan neft sənayesi işçilərinin biblioqrafik informasiya təminatı sistemi» mövzularında yazdıqları tədqiqat işləri kitabşünaslıq və biblioqrafiyanın mühüm problemlərinin həllində qiymətli rol oynamışdır.

1970-ci ildə Bakı Dövlət Universiteti Elmi əsərlərinin «Kitabxanaşünaslıq və biblioqrafiya seriyası» (redaktoru A.Xələfov) nəşr olunmağa başladı. İttifaq üzrə yalnız bizim universitetdə nəşr edilən bu seriya kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabxanaşünaslığın bir elm kimi inkişaf edib formalaşması, bu sahədə aparılan elmi-tədqiqat işlərinin təkmilləşdirilməsi, müəllim və aspirantların hazırlanması üçün əhəmiyyətli kömək göstərmişdir.

Seriyanın nəşri dayandırıldıqdan sonra fakültə elmi əsərlərinin mövzu məcmuələrinin buraxılmasına başlandı. 1981-ci ildən bəri həmin mövzu məcmuələrində dərc edilən elmi-nəzəri və təcrübi məqalələrin əksəriyyəti respublikamızın qabaqcıl kitabxanalarının iş təcrübəsinin tədqiqinə və ümumiləşdirilməsinə həsr olunmuşdur.

Yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanmasında tələbə elmi cəmiyyətinin özünəməxsus rolu vardır. Hazırda fakültədə «Kitabxanaşünaslıq» «Biblioqrafiyaşünaslıq», «Kitabşünaslıq» və «İnformatika» dərnəkləri fəaliyyət göstərir və bu dərnəklər özündə 200 nəfərə yaxın tələbəni birləşdirir. Tələbə tədqiqatçılar ixtisas elmlərinin müxtəlif problemlərinə dair araşdırmalar aparır, elmi mərkəzlərlə çıxış edirlər. TEC-də müzakirə olunub bəyənilən məruzələr respublika elmi konfranslarına tövsiyə olunur. Təsadüfi deyil ki, fakültənin tələbələrindən bir çoxu həmin konfranslarda xüsusi medal və fəxri fərmanlara layiq görülmüşlər.

Ümumiyyətlə, ali kitabxanaçılıq təhsilinin inkişaf tarixinin öyrənilib ümumiləşdirilməsi göstərir ki, ötən 40 ildən artıq müddət ərzində yüksək ix-

tisaslı kitabxanaçı kadrların hazırlanması işində xeyli kəmiyyət və keyfiyyət dəyişikliyi baş vermiş, kadr hazırlığının məzmunu yüksəlmiş, tədris prosesinin təşkili kökündən yaxşılaşmışdır.

İndi fakültə bilavasitə ittifaqda ən universal və böyük perspektiv imkanları olan, elmi-texniki tərəqqinin sürətləndirilməsi ilə ayaqlaşan tədris planı ilə işləməyə başlamışdır. Fakültənin pedaqoji kadrlarının elmi-nəzəri və metodiki səviyyəsinin yüksəlməsi və daha da təkmilləşməsi ixtisas fənnlərinin tədrisinin keyfiyyətcə yaxşılaşması üçün əsaslı şərait yaratmışdır. Hazırda fakültədə ixtisas fənləri üzrə bir elmlər doktoru, professor və 12 nəfər elmlər namizədi, dosent çalışır ki, bu ölkəmizin kitabxanaçılıq ali məktəbləri ilə müqayisədə yüksək göstəricidir. Son zamanlar fakültənin maddi-texniki bazası da xeyli möhkəmlənmişdir. Hazırda fakültə 2 kafedra, 4 laboratoriya fəaliyyət göstərir. Yeni laboratoriyaların yaranması təcrübi dərslərin keyfiyyətinin yüksəlməsini təmin etməklə bərabər, tələbələrlə aparılan fərdi işin yaxşılaşdırılması üçün də əlverişli şərait yaratmışdır.

Qeyd edim ki, BDU-nun kitabxanaçılıq fakültəsi böyüklüyünə görə ölkəmizdəki eyni fakültələr arasında ilk yerlərdən birini tutur. Bu fakültənin məhz universitetdə təşkil edilməsi və elmin müxtəlif sahələrində çalışan görkəmli alimlərin fakültənin tədris prosesində yaxından iştirak etməsi hərtərəfli kitabxanaçı kadrların hazırlanmasına müsbət təsir göstərir. Bununla belə yenidənqurma fakültəmizdə də bir sıra qüsur və nöqsanları aşkara çıxarmışdır. Biz hazırda tədris prosesinin yenidən qurulması, dərs keyfiyyətinin yüksəldilməsi, müasir tələbata cavab verə biləcək kadrlar hazırlanması üçün çox iş görməliyik.

Məlumdur ki, tədris prosesinin təkmilləşdirilməsində texniki vasitələrin tətbiqi mühüm əhəmiyyət kəsb edir. Bu sahədə təəssüf ki, fakültəmizin imkanları aşağıdır, laboratoriyaların texniki vasitələrlə təchiz edilməsi qənaətbəxş deyildir. Müasir tələblərə uyğun olaraq fakültədə kitabxana işinin mexanikləşdirilməsi və avtomatlaşdırılması labotatoriyasının təşkilinə böyük ehtiyac hiss olunur. Belə bir vacib laboratoriyanın təşkil edilməsi mühüm bir vəzifə kimi qarşıda dursa da, hələ buna nail ola bilməmişik.

Fakültənin kadr hazırlığında müəyyən çatışmazlıqlar da var. Elmlər namizədlərinin və elmlər doktorlarının hazırlanması barədə də ciddi düşünmək lazımdır.

Əsas nöqsanlardan biri də Azərbaycan dilində ixtisas fənlərinə dair dərslik və dərs vəsaitlərinin azlıq təşkil etməsidir. Bu sahədə son illər müəyyən addımlar atılmışdır. Lakin bu kifayət deyildir. Elə etmək lazımdır ki, heç olmazsa 1995-ci ildək ana dilində ixtisas fənlərinə dair dərslik və dərs vəsaitləri bütövlükdə çap edilsin.

Bir sözlə, yüksək ixtisaslı kitabxanaçı kadrlara böyük tələbat hiss edilən müasir şəraitdə kitabxanaçılıq fakültəsinin qarşısında daha böyük vəzifələr durur.

Gələcəyin kitabxanaçıları elmi-texniki tərəqinin sürətləndirilməsində, ölkənin iqtisadi və sosial inkişafında yaxından iştirak edən mütəxəssislər olmalıdırlar. Məhz buna görə də, bu günün kitabxana mütəxəssisi müasir iqtisadi

və siyasi təfəkkürə, idarəetmə və təşkilatçılıq işi vərdişlərinə, kitabxana fəaliyyətinin profilinə müvafiq surətdə informatika texnikasından istifadə metodlarına yiyələnmiş bir şəxs olmalıdır. Bütün bunlar fakültə kollektivinin qarşısında mühüm vəzifələr qoyur.

70 yaşı tamam olan Bakı Dövlət Universitetinin bütün kollektivi kimi, kitabxanaçılıq fakültəsi də həmin vəzifələrin təxirəsalınmadan həyata keçirilməsi, gələcək mütəxəssislərin əsl vətəndaş və geniş dünyagörüşlü ziyalı kimi yetişdirilməsi üçün öz qüvvələrindən tam şəkildə istifadə etməyə çalışır.

Sovet İttifaqı yüksək ixtisaslı kitabxanaçı kadrlar hazırlanması üzrə universitet sisteminin təşəkküləndə, formalaşmasında və inkişafında əvəzsiz xidməti olan kitabxanaçılıq fakültəsinin professor-müəllim və işçi heyəti doğma universitetimizin bu şanlı yubileyini təhsildə və işdə qazandıqları uğurlarla qeyd edirlər.

"Mədəni-maarif işi" jurnalı.
1990, №1. s. 24-27

РЕАЛЬНЫЕ ШАГИ К СУВЕРЕНИТЕТУ СИСТЕМЫ ОБРАЗОВАНИЯ

На днях на страницах «Бакинского рабочего» прочел интервью министра народного образования республики профессора Р.Б.Фейзуллаева о концепции развития национального непрерывного образования. Не скрою, беседа министра произвела на меня большое впечатление.

Прежде всего хочу отметить, что за многие годы впервые так остро и принципиально ставится вопрос о самостоятельности и реальном суверенитете всей системы образования в Азербайджане, которого так долго ждала научно-педагогическая общественность республики.

Особенностью документа является то, что он наряду с решением самых неотложных актуальных задач сегодняшнего дня, вместе с тем содержит в себе и глубоко аргументированную концепцию перспектив развития всей системы народного образования, что может стать важным подспорьем для практической деятельности работников данный отрасли.

Долголетний опыт моей научно-педагогической деятельности в системе высшего образования республики позволяет мне утверждать, что десятилетиями сложившаяся в нашей стране излишняя регламентация всех аспектов учебного процесса, начиная от набора абитуриентов, кончая учебными планами, привела к серьезным в деле подготовки кадров деформационным явлениям отчуждению ученых-педагогов от самостоятельной творческой деятельности, всей системы народного образования – от национальных традиций.

Отрадно, что как вытекает из этого документа с нового года открываются реальные перспективы для утверждения самостоятельности республики в решении многих организационных проблем народного об-

разования: изменении в структуре специальностей, создании и закрытии филиалов вузов, присвоении ученых звании организации специализированных ученых советов по зашите кандидатских диссертаций и т.д. и т. п.

Изучение и анализ этого документа наводит на некоторые размышления относительно перспектив дальнейшего развития суверенных прав республики в деле организации национального непрерывного образования. В этой связи хотелось бы высказать следующие пожелания:

Прежде всего следует добиться полной самостоятельности республики в утверждении новых учебных планов, во включении в учебные планы курсов и дисциплин, связанных со спецификой национальной культуры, языка и истории, региональными особенностями;

Необходимо иметь полную самостоятельность в осуществлении обмена преподавательскими кадрами, аспирантами и студентами с вузами других стран;

Необходимо добиться поступления в республику валютного дохода от подготовки вузами Азербайджана молодых специалистов для зарубежных стран;

Следует в корне укрепить материально-техническую базу народного образования в деле оперативного выпуска самых современных форм учебно-методических материалов.

Меня несколько огорчило отсутствие в документе предложений об улучшении деятельности библиотек, обслуживающих систему народного образования республики. Ведь эта система располагает крупной сетью библиотек, общее количество которых приближается к четырем тысячам, в которых сосредоточены миллионные фонды, и где накопилось множество проблем.

Нужно помнить, что для успешной деятельности любого учебного заведения необходимо иметь прежде всего хорошо укомплектованную библиотеку с современными техническими средствами. Жизнь настоятельно требует расширения прав вузовских библиотек в установлении прямых контактов с библиотеками зарубежных стран в организации книгообменных операций, приобретении современной научной и учебной литературы на иностранных языках.

Наконец обший дух интервью министра народного образования тов. Р.Б.Фейзуллаева наводит меня на мысль о том, что в ближайшее время Бакинский Государственный Университет как флагман вузов республики наконец-то получит долгожданную автономию.

В заключение хотелось бы подчеркнуть, что как отмечено в документе путь к экономическому и культурному возрождению республики лежит через реализацию программы суверенитета народного образования. Программа заложенная в интервью министра профессора Р.Б.Фейзуллаева, весомый вклад в это дело.

"Bakı Universiteti" qəzeti. 8 dekabr 1990.

SOVET AZƏRBAYCANINDA KİTABXANA İŞİNİN NAİLİYYƏTLƏRİ

Azərbaycan xalqının mədəni inkişaf sahəsindəki ən böyük nailiyyətlərindən biri kitabxana işinin misilsiz tərəqqisidir.

Görkəmli inqilabçı N.Nərimanovun başçılığı ilə təşkil edilmiş Azərbaycan inqilab komitəsinin həyata keçirdiyi ilk tədbirlər sırasında mədəniyət və xalq maarifinin inkişafı mühüm yerlərdən birini tuturdu. Az bir müddət içərisində mədəniyyət və xalq maarifinə rəhbərlik etmək üçün dövlət orqanları yaradıldı. Bu sahədə sovet hökumətinin əsas prinsipləri elan edildi, ana dilində məktəblər açılması, hər cür təhsil haqqında ləğv edilməsi, qızlarla oğlanların bir yerdə təhsil alması, dinin məktəbdən ayrılması, kitab nəşrinin genişləndirilməsi, mədəni-maarif müəssisələrinin yaradılması sürətlə həyata keçirilməyə başladı.

Ölkəmizdə kitabxana işinin inkişafı bilavasitə Leninin adı ilə bağlıdır. Krupskaya deyirdi: kitabxana işinin nə dərəcədə qaydaya salınması əsasında İliç mədəniyyətin səviyyəsi haqqında fikir yürüdürdü. Kitabxana işi onun nəzərində ümumi mədəniyyət göstəricisi idi.

Lenin 1919-cu ildə məktəbdənkənar təhsil işləri üzrə I ümumrusiya qurultayındakı nitqində göstərirdi: Biz indi əlimizdə olan kitablardan istifadə etməli və mütəşəkkil kitabxanalar şəbəkəsi yaratmalıyıq ki, onlar malik olduğumuz hər bir xalqın istifadəsinə kömək etsin, biz paralel təşkilatlar deyil, vahid planlı təşkilat yaratmalıyıq. Bu kiçik işdə bizim inqilabımızın əsas vəzifəsi əks olunur.

Leninin mədəniyət və xalq maarifi sahəsindəki göstərişlərini dönmədən həyata keçirən Azərbaycan sovet hökuməti RSFSR-in mədəni quruculuq təcrübəsindən geniş istifadə edirdi.

Sovet rusiyasının mədəni quruculuq sahəsində qazandığı təcrübənin böyük əhəmiyətini qeyd edən Azərbaycan inqilab komitəsinin sədri N.Nərimanov yazırdı: Bu işdə bizə heç şübhəsiz RSFSR-in üç illik təcrübəsi kömək edəcəkdir.

RSFSR-in mədəniyyət və xalq maarifi sahəsində bilavasitə Leninin rəhbərliyi altında inqilabi yolla həyata keçirilmiş qiymətli təcrübəsindən istifadə, Azərbaycan sovet hökuməti üçün qısa bir müddət ərzində mühüm nailiyyətlər əldə etməyə şərait yaratdı. Hər cür çətinliyə baxmayaraq xalq maarif komissarlığının respublikada mədəniyət və xalq maarifini inqilabi yolla qurması sahəsində həyata keçirdiyi tədbirləri bütün xalq coşqunluqla müdafiə edirdi.

Xalq maarif komissarlığının işinə xüsusi qiymət verən N.Nərimanov Azərbaycan mədəniyyət və maarif işçilərinin II qurultayındakı çıxışında deyirdi: Dünyada elə bir quruluş yoxdur ki, o dərhal xalq maarifinin yayılmasını tələb etsin. Mütləqiyyət demokratiya quruluşu bu sahədə elə bir gərginlik olmadan da uzun müddət yaşaya bilər. Lakin sovet quruluşu xalq maarifini genişləndirmədən uzun müddət yaşaya bilməz.

1920-ci il iyun ayının 5-də Azərbaycan xalq maarif komissarlığı Azərbaycanın bütün zəhmətkeşlərinə müraciətnamə qəbul edərək evlərdə olan kitabları yeni təşkil edilən kitabxanalara verməyə çağırırdı: "Yoldaşlar! Azərbaycanın zəhmətkeş kütlələri, siyasi və iqtisadi zülmdən azad olanlar bu vaxtadək yaşadıqları mənəvi əsarətdən, cəhalətdən və avamlıqdan xilas olmalıdırlar. Yeni yüksək həyat tərzi yaratmalı olan sovet Azərbaycanı zəhmətkeşlərinin həqiqi kitabı və qəzeti olmalıdır. Proletariat kapitalizm quruculuğunun qayda qanunlarının bütün zəncirlərindən öz siyasi fəaliyyəti ilə xilas etmək kimi əzəmətli bir vəzifəni öz qarşısına məqsəd qoymuş olan inqilabi hökumət bütün qəzalarda və kəndlərdə kitabxanalar və qiraətxanalar təşkil edir. Kitab azdır, demək olar ki heç yoxdur. Sovet Rusiyasından və Türkiyədən alınan kitablar Azərbaycana gec gəlib çıxır.

Yoldaşlar! Xalq maarif komissarlığı sizə müraciətlə deyir, türk və rus dillərində kitablar və jurnalları bağışlayın. Kitabı kilid altında saxladığınız bəsdi. İnqilab və proletariat qarşısında öz borcunuzu yerinə yetirərək öz kitablarınızı zəhmətkeşlərə verin. Kitabların azlığından utanmayın."

Proqram xarakteri daşıyan bu mühüm müraciətnamədə hökümətin kitabxanaçılıq siyasəti öz əksini tapmışdır. 1920-ci il oktyabrın 31-də kitabxanaların xalq maarif komissarlığına verilməsi haqqında Azərbaycan inqilab komitəsinin dekreti verildi. Dekretə göstərilirdi: xalq maarif komissarlığı ölkənin bütün mədəni-maarif işlərini mərkəzləşdirən ali orqan olduğu üçün qərara alır: Azərbaycan Sovet Sosialist Respublikasının ərazisində olan bütün kitabxanalar hansı müəssisənin olursa olsun istər inzibati, istəsə də ideya cəhətdən xalq maarif komissarlığının sərəncamına verilir.

N.Nərimanov tərəfindən imzalanan bu dekret Azərbaycanda kitabxana işinin inqilabi yolla yenidən qurulmasının əsasını qoydu və böyük dövlət əhəmiyyətini müəyyənləşdirdi. Bu dekretə müvafiq olaraq bütün kitabxanaların millisləşdirilməsi başa çatdırıldı, kitabxanalar vahid rəhbərlikdə birləşdirildi. Hər cür çətinliyə baxmayaraq Azərbaycan hökuməti geniş xalq kütlələrini kitabxana xidməti ilə əhatə etmək üçün mövcud imkanlardan istifadə edərək şəhərlərdə və kəndlərdə kitabxanalar və qiraət komaları acmaq işini müvəffəqiyyətlə davam etdirirdi. 1921-ci ilin mayında, Azərbaycan SSR-nin yaradılmasının birinci ilində respublikada 45 kitabxana təşkil edilmişdi. Bunlardan 25-i qəzalarda, 20-si isə Bakı şəhərində yerləşirdi. Respublika üzrə bütün kitabxanalarda 234 210 nusxə kitab var idi. İnqilabdan əvvəlki keçmişlə muqayisə edildikdə bir il muddətində kitabxanaların sayı beş dəfədən cox, kitabların sayi isə iki dəfəyə qədər artmışdır. Bu Azərbaycan xalqının əldə etdiyi cox mühüm mədəni naliyyətlərindən biri idi. İnqilabın ilk illərində və bərpa dövründə respublikamızda dövlət kitabxanaları ilə yanaşı ayrı-ayrı idarə və təşkilatların kitabxana şəbəkəsi də yaranıb formalaşmağa başlamışdı. Həmkarlar ittifaqı kitabxanaları və partiya kitabxanalarının geniş kitabxanası fəaliyyət göstərirdi. Həmçinin respublikamızda elmi, elmi-texniki kitabxanalar meydana gəlməyə başladı. 1923-cü ildə M.F.Axundov adına Dövlət Kitabxanasının yaranması

respublikanın mədəni həyatında mühüm hadisə oldu. Bu kitabxana respublikanın elmi metodiki mərkəzi kimi kitabxana işinin gələcək inkişafına böyük təkan verdi. İnqilabın ilk illərində və bərpa dövründə respublikamızda əhaliyə kitabxana xidmətinin ideya-siyasi səviyyəsinin yüksəldilməsində, kitabxanaların təbliğatçılıq fəaliyyətinin istiqamətləndirilməsində əhaliyə kitabxana xidmətinin təşkilində ÜİKP MK-nın "Kitabxana işinə partiya təsirinin gücləndirilməsi haqqında", "Kənd kitabxanaları və onları təchiz etmək üçün kütləvi ədəbiyyat haqqında" qərarlarının və Azərbaycan KP MK-nın mədəniyyət və maarif haqqında qəbul etmiş olduğu qərarların mühüm rolu olmuşdur. Bərpa illərinin axırlarında Azərbaycanda kitabxana işi sabitləşmiş, geniş şəhər, qəza, rayon və kənd kitabxana şəbəkələri meydana gəlmişdi.

Göstərilən müvaffəqiyyətlərlə yanaşı bir sıra ciddi nöqsanlar kitabxana işinin inkişafına mane olurdu. Bu nöqsanların bir qismi obyektiv səbəblərdən irəli gəlirdi. Kitabxana işinə ayrılan vəsaitin azlığı, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə imkan vermirdi. İnqilabın ilk illərində təşkil edilmiş bir çox kitabxanalar, xüsusilə idarə və müəssisə kitabxanaları vəsait ayrılmadığı üzündən kütləvi surətdə bağlanırdılar. Azərbaycan dilində ədəbiyyatın az nəşr edilməsi, ixtisaslı milli kadrların olmaması mövcud kitabxanaların Azərbaycan dilində ədəbiyyatla təkmilləşdirilməsinə, azərbaycanlıların oxucular sırasına cəlb edilməsinə, onların arasında kütləvi işlərin aparılmasına lazımi şərait yaratmırdı. Azərbaycan tarixində, milli ədəbiyyatımıza aid kitabların azlığı və bir çox hallarda isə mövcud ədəbiyyatın düzgün qiymətləndirilməməsi halları kitabxanalarda ədəbiyyat təbliği prosesində ideoloji səhvlərə gətirib çıxarırdı.

Bu baxımdan Azərbaycan kəndlərində vəziyyət daha acınacaqlı idi. 1920-25-ci illərdə kəndlərdə müstəqil kənd kitabxanaları yaradılmışdı. Kənd əhalisinə kitabxana xidməti kənd qiraət komaları tərəfindən həyata keçirilirdi ki, bu da kitaba olan böyük tələbatı qətiyyən ödəmək iqtidarında deyildi. Azərbaycan əhalisinin əksəriyyətinin kənddə yaşamasını nəzərə alsaq, həmin dövrdə respublikamızda əhaliyə kitabxana xidmətinin daha düzgün mənzərəsini görə bilərik.

Xalq təsərrüfatının bərpasının başa çatdırılması və ölkənin sosialistcəsinə sənayeləşməsinə başlanması respublikamızda sosializm quruculuğu planının tərkib hissələrindən biri olan mədəni quruculuğun daha da inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmışdı. Maarif işinin tərəqqisi, savadsızlığın kütləvi ləğvi, kitab nəşrinin genişlənməsi, kitabxana işinə ayrılan dövlət vəsaitinin artırılması, 1926-cı ildən başlayaraq kitabxanaların böyük əksəriyyətinin dövlət büdcəsinə keçirilməsi respublikamızda kitabxana işinin yeni əsaslar üzərində qurulmasını təmin etmiş, onun təsir dairəsini genişləndirmişdi. Kitabxanalar geniş mədəni tədbirlər planı həyata keçirir, savadsızlığın ləğvində, yaşlı əhalinin kitabxana oxucuları sırasına cəlb edilməsində, xalqın mədəni səviyyəsinin yüksəldilməsində, istehsalat birliyinin artırılmasında yaxından iştirak edirdilər. 1926-cı ildə respublikamızda artıq 905100 nüsxə kitab fondu

Az. 965509

Azərbaycan Milli Kitabxanası

olan 108 kitabxana var idi. Bu kitabxanalardan 25-i qəzalarda xidmət göstərirdi.

Azərbaycanda inqilabın ilk illərində bərpa, sənayeləşdirmə və birinci beşillik dövründə əhaliyə kitabxana xidmətinin təşkili işinə qiraət komaları da yaxından kömək göstərirdi. Kəndlərdə yeganə mədəni maarif müəssisələri olan qiraət komaları öz təbliğatçılıq-təşviqatçılıq və siyasi-maarif işlərini həyata keçirərkən kitab təbliğindən geniş istifadə edirdilər. 1932-ci ildə respublikamızda 608 qiraət komaası fəaliyyət göstərirdi.

Respublikamızda kitabxana işinin inkişafına köməklik göstərən amillərdən biri də 1929-cu ildə kitabxana yürüşünün keçirilməsi oldu. Bu yürüş geniş xalq kütlələrinin kitabxana işində iştirakına böyük təkan verdi, onu ölkənin siyasi və iqtisadi həyatı ilə daha dərindən bağladı, bu prosesin daha təsirli və məqsədyönlü olmasına kömək etdi.

1932-ci ildə artıq respublikamızda kütləvi kitab fonduna malik 140 kitabxana fəaliyyət göstərirdi. Kütləvi kitabxanalarla yanaşı olaraq elmi, elmi-texniki və xüsusi kitabxanalar şəbəkəsi meydana gəlib formalaşmışdı.

SSRİ-də o cümlədən Azərbaycanda yeni tələblərə uyğun olaraq kitabxana işinin inkişaf proqramı öz əksini SSRİ Mərkəzi İcra Komitəsinin "SSRİ-də kitabxana işi haqqında" adlı qərarında tapdı. 1935-ci ilin iyun ayında bu qərar əsasında "Azərbaycan SSR-də kitabxana işi haqqında" qərarı qəbul edildi. Bu qərarda respublikamızda ilk dəfə olaraq kitabxana işinin bütün sahələri kompleks halında götürülür, təhlil edilir və onun konkret olaraq necə yaxşılaşdırılması yolları müəyyənləşdirilirdi. Qərarda respublikamızda kitabxana işinə rəhbərliyi yaxşılaşdırmaq üçün Xalq Maarif Komissarlığının yanında kitabxanaçılıq idarəsi yaradılması və tabe olduğu təşkilatdan asılı olmayaraq bütün kitabxanalara dövlət nəzarətinin ona həvalə edilməsi qeyd edilirdi.

Kitabxana fondlarının qorunmasına dövlət nəzarətinin gücləndirilməsində və kitabxana fondlarının mühafizəsi məsuliyyətinin artırılmasında SSRİ Xalq Maarif Komissarlığı Şurasının "Kitabxana fondunun mühafizə olunması üçün məsuliyyət haqqında" 1935-ci il tarixli qərarı da böyük əhəmiyyət kəsb etdi. Bu qərar kitabxana fondlarının sosialist əmlakı kimi qorunması və mühafizəsi sahəsində lazimi qayda yaratmaqla gələcəkdə kitabxana işinin inkişafı üçün geniş perspektivlər açdı və oxuculara kitabxana xidməti işinə olduqca müsbət təsir göstərdi.

Ölkənin sosialistcəsinə sənayeləşdirilməsi və kənd təsərrüfatının kollektivləşdirilməsi illərində Azərbaycanda kitabxana quruculuğu sahəsində böyük müvəffəqiyyətlər əldə edilmiş, kitabxana şəbəkələri xeyli geniş inkişaf etdirilib təkmilləşdirilmişdi.

30-cu illərin əvvəllərindən başlayaraq uşaq və məktəb kitabxanalarının təşkil edilməsinə diqqət daha da artırılırdı. Məhz bu dövrdə Azərbaycanın kənd rayonlarında müstəqil uşaq və məktəb kitabxanaları şəbəkəsi yaranıb möhkəmləndi. İkinci və üçüncü beşillik Azərbaycanda məktəb kitabxanalarının yaranması, inkişafı və möhkəmləndirilməsində xüsusi mərhələ təşkil edir.

Artıq 1940-cı ildə Azərbaycanda 1367321 nüsxə kitab fonduna malik olan 480 məktəb kitabxanası var idi.

Müharibədən əvvəlki beşillik dövründə respublikamızda elmin hərtəfli inkişafı, elmi-texniki müəssisələrin yaranması, ali məktəb şəbəkələrinin genişlənməsi elmi və xüsusi kitabxanalar şəbəkəsinin yaranmasına da geniş imkan yaratmışdı.

İkinci və üçüncü beşilliklər dövründə elmi tədqiqat və tədris müəssisələri ilə yanaşı zavodlar, fabriklər və neft mədənlərində bilavasitə fəhlə sinfinə xidmət edən texniki kitabxanalar şəbəkəsi meydana gəlmiş, onların zəhmətkeşlərə kitabla xidmət işi kökündən dəyişmişdi. 1940-cı ildə istehsalatda çalışan mühəndis, fəhlə və başqa işçilərə xidmət edən kitabxanaların sayı 77-yə çatmışdı. Bu dövrdə həmkarlar ittifaqı kitabxanalarının şəbəkəsi də müntəzəm olaraq genişlənmiş, kitab fondları artmış, onların maddi-texniki bazası möhkəmlənmişdi. 1940-cı ildə respublika həmkarlar ittifaqının 845918 kitab fonduna malik olan 127 kitabxanası var idi. Bu kitabxanalar 90 min oxucuya xidmət edirdi.

Məlumdur ki, kitabxana işinin müvəffəqiyyətli təşkili kitab fondlarının vəziyyətindən olduqca çox asılıdır. Kitab fondu nə qədər zəngin olarsa, nə qədər məqsədyönlü komplektləşdirilərsə, oxucuya xidmət prosesində o qədər əhəmiyyətli keyfiyyət dəyişiklikləri baş verər. 20-ci illərin axırları və 30-cu illərdə respublikamızda kitabxana fondlarının təkmilləşdirilməsində və fondların qorunub saxlanılmasında ciddi nöqsanlar meydana çıxıb formalaşmış, oxucular bir çox qiymətli ədəbiyyatın mütaliəsindən məhrum olmuşlar. Bu dövrdə ölkəmizin başqa regionlarından fərqli olaraq Azərbaycan kitabxana fondları daha çox məhrumiyyətlərə məruz qalmışdı. Cəmisi on il müddətində respublikamızda əlifbanın iki dəfə dəyişdirilməsi kitabxana fondlarını Azərbaycan dilində ədəbiyyatdan tamamilə məhrum etmişdir.

1929-cu ildə respublikamızda ərəb əlifbasının latın əlifbası ilə əvəz edilməsi bu əlifbanı tətbiq edənlər tərəfindən böyük inqilab adlandırılır, köhnə əlifba keçmişin qalığı kimi xarakterizə edilir, həmin əlifba ilə nəşr edilən kitablar zərərli kitablar kimi kitabxana fondlarından çıxarılırdı. Özünü o dövrün görkəmli ideoloqları kimi qələmə verən bəzi üzdəniraq ziyalılarımız kitabın məzmunu, tarixi və elmi əhəmiyyətini, ədəbi-bədii dəyərini, nadirliyini nəzərə almadan əgər kitab ərəb əlifbası ilə yazılıbsa, onu zərərli bir kitab kimi kitabxana fondlarından çıxarmağı tələb edirdilər. Hətta iş o yerə gəlib çıxmışdı ki, kənd rayonlarında "Yeni əlifba qəbul edildi, köhnə kitablar öldü" şüarı irəli sürülmüş, köhnə əlifba ilə olan kitabları toplayıb dəfn etmişdilər.

Şəxsiyyətə pərəstişin ağır nəticələr verdiyi 30-cu illərdə Azərbaycan kitabının taleyi daha acınacaqlı olmuş, şəxsiyyətə pərəstiş qurbanlarının kitabları ilə yanaşı olaraq qədim tariximizə, ədəbiyyatımıza aid kitablara millətçi, pantürkist damğası vurularaq kitabxanalardan çıxarılmışdır.

Beləliklə, 10 ildə respublikamızda iki dəfə əlifba islahatının keçirilməsi, xalqımızın zəngin kitab xəzinəsinin məhv olmasına gətirib çıxarmış, qədim

tariximizin və mədəniyyətimizin öyrənilməsinə ağır və ciddi zərbələr vurmuşdur.

Azərbaycanda kitabxana quruculuğu sahəsində əldə edilmiş mühüm nailiyyətlərin gələcək inkişafı Böyük Vətən müharibəsinin başlanması ilə dayandırıldı. Müharibənin ilk günlərindən baslayaraq respublikamizin kitabxanaları öz islərini muharibə ilə əlaqədar "Hər sey qələbə ücün" şuarına tabe etdirdilər.

Bu dövrdə kitabxanalarin fəaliyyəti marksizm-leninizim klassiklərinin müharibə haqqındakı əsərlərini təbliğ etmək, zəhmətkeşlərə sovet vətənpərvərliyi hisslərini aşılamaq qızıl ordunun müvəffəqiyyətlərinə, xalqımızın qəhrəman kecmişinə cəbhədə və arxada göstərilən qəhrəmanlıqlara dair ədəbiyyatı təbliğ etmək, əhaliyə hərbi biliklərə yiyələnməkdə kömək etmək xalq təsərrüfatının müdafiyə sənayesinin inkişaf etdirilməsinə dair materialların geniş yayılması istiqamətinə yönəldilmişdir.

Müharibə illərində kitabxanaların fəaliyyətində təbliğat işi, xüsusilə yeni yaranmış təbliğat məntəqələrində siyasi kütləvi işlər mühüm yer tutur. Bu dövrdə kitabxanalar Respublikada yerləşdirilmiş hərbi xəstəxanalara və qospitallara xidmət sahəsində xususi rol oynadılar. Ayrı-ayrı kibxanalar qospitallara təhkim olunur, yarali əsgərlərə kitabla xidmət göstərir, onlar üçün ucadan oxular, şeir gecələri, sərgilər, başqa kütləvi tədbirlər təşkil edirdilər. Müharibə illərində respublikanın kitabxanaları bilavasitə döyüşən orduya xidmət edir, onlara kitab göndərirdilər.

Kitabxanalar fabriklərdə, zavodlarda, xəstəxanalarda səyyar məntəqələr vasitəsilə fəhlə və qulluğçulara iş yerlərində xidmət edirdilər.

Dördüncü beşillik dövründə Azərbaycanda kitabxanaların maddi texniki bazasının möhkəmləndirilməsi sahəsində də mühüm işlər görüldü. Bu dövrdə respublikanın rayonlarında kütləvi surətdə mədəni-marif müəssisələri tikilməyə başladı. Nəticədə respublikanın 13 rayonunda xüsusi kitabxana binaları tikilib istifadəyə verildi. Yüzlərlə rayon və kənd kitabxanaları binaları əsaslı təmir edildi. Müharibədən sonrakı beşillik planı yerinə yetirilməsi nəticəsində təkcə mədəni maarif müəssələri komitəsiz sistemində olan kitabxanaların sayı 1946-cı ildəki 764-dən 1951-ci ildə artıq 2452-yə catmış, 5 il müddətində 1728 yeni kitabxana acılmışdır.

Beşillik dövründə bu kitabxanaların kitab fondu 3 dəfəyə qədər artdı. Bundan əlavə dördüncü beş illik dövründə 50-dən artıq həmkarlar ittifaqi kitabxanası, 20-dən cox elmi kitabxana, 36 ali məktəb kitabxanası yenidən fəaliyyətə başladı.

1952-53-cü illərdə 1 il müddətində mədəniyyət nazirliyi kitabxanalarına 500 mindən artıq kitab daxil olmuş, kitab verilişi 8 milyona catmışdır. Kitab fondunun orta hesabla dövriyyəsi 3 dəfə artmışdı. Dövlətin qayğısı sahəsində kitabxana işinə ayrılmış vəsait müntəzəm olaraq artırdı. Kitabxanaların yeni ədəbiyyatla təchiz edilməsi məqsədilə 1953-cü ildə 6 milyon, 1954-cü ildə isə 7 milyon manat vəsait ayrılmışdır. Respublikamızda mədəni-maarif işlərinə

1955-ci ildə 38.8 milyon manat ayrılmışdırsa, 1958-ci ildə bu vəsait 48.7 milyona çatmışdı. Görülən bu tədbirlər nəticəsində müharibədən sonrakı ikinci beşillik dövründə kütləvi kitabxana şəbəkəsinin inkişafı böyük vüsət almışdı. Altıncı beşillikdə respublikada kutləvi kitabxana şəbəkəsi əhəmiyyətli dərəcədə genişlənmişdir.

Muharibədən sonra ikinci beşillik dövründə kitabxanaların fondu iki dəfədən çox artmışdı. Bu, hər şeydən əvvəl, respublikada kitab nəşrinin surətli inkişafı və kitabxanaların maddi bazasının möhkəmlənməsi ilə əlaqədar idi.

Respublikamizda kitabxana şəbəkəsinin artması kitab fondunun surətlə zənginləşməsi onların oxucularla apardığı işin məzmununun yaxşılaşmasına, kitab hər bir ailəyə catdırmağa zəhmətkeşlərin oxucular sırasına cəlb edilməsinə olduqca müsbət təsir göstərmişdir. Bütün bunların nəticəsində 1955-ci ildə 1950-ci ilə nisbətən oxucuların sayı 1526 nəfər, kitab verilişi isə 29817 nüsxə artmışdı.

Sov. İKP-nin XX qurultayı 1956-cı ilin fevralı partiyanın tarixində mühüm hadisə oldu. Qurultay mədəni quruculuğun muhum sahələrindən biri olan mədəni-maarif muəssisələrinin inkişafina, onların maddi texiki bazasinin möhkəmləndirilməsinə də xususi diqqət yetirdi.

Azərbaycan partiya təşkilatı respublikada kitabxana işini inkişaf etdirmək, əhaliyə kitabxana xidmətini yaxşılaşdırmaq ucun mühüm tədbirlər görməyə başladı. Bu dövurdə zəhmətkeşlərin ideya-tərbiyə işinin güclənməsində, təbliğat və təşviqat işində kitabxanalarin rolu dahada atrmış və möhkəmlənmişdir.

Partiyanin XX qurultayının qərarları respublikada kitabxana işinin inkişafına böyuk təkan verdi onun hərtərəfli inkişafi ucun şərait yaratdı. Yerlərdə partiya təşkilatlari mədəni maarif muəssisələrinin işinə rəhbərliyi dahada yaxşılaşdirilmasina, onların işinin ideya siyasi məzmunun dərinləşməsinə, kütlələrin kommunist tərbiyəsində onların rolunun artmasina kömək etdi. Bəhs olunan illərdə respublikda kitabxana şəbəkəsi genişlənməklə yanaşi onun maddi bazasi da möhkəmləndi.

Əgər 1946-ci ildə ali və orta təhsilli kitabxana işlərinin sayi 60 faiz, 1954-cu ildə 70 faiz təşkil edirdisə, 1957 ci ildə bu rəqəm 66,2 faizə catmişdi.

1952-58-illərdə kitabxana işi sahəsində görülən tədbirlər nəticəsində kitabxana şəbəkəsi sürətlə artdı. 1958-ci ildə Azərbaycanda 20 milyondan artıq kitab fonduna malik 5776 kitabxana var idi. Bu kitabxanaların 2583-ü kütləvi kitabxanalar idi. Respublika kitabxana şəbəkəsi içərisində mühüm yeri dövlət kitabxana şəbəkəsi tuturdu. 1958-ci ildə Azərbaycan SSR Mədəniyyət nazirliyi sistemində 79211 min nüsxə kitab fonduna malik olan 1115 kütləvi kitabxana fəaliyyət göstərirdi. Bu kitabxanaların həmkarlar ittifaqlarının və kolxozların da böyük 'ütləvi kitabxana şəbəkəsi var idi. 1958-ci ildə kolxozların 8873 min kitab fo .du olan 492 kitabxanası və həmkarlar ittifaqının 22229 min kitab fondu olan 157 kitabxanası var idi.

Respublikamızda kütləvi kitabxana şəbəkəsi ilə yanaşı elmi, elmi-

texniki və xüsusi kitabxanalar da xeyli inkişaf etmişdi. Yeni elmi və texniki müəssisələrin yaranması elmi-texniki kitabxana şəbəkəsinin inkişafına səbəb olmuş, onların maddi bazası möhkəmlənmiş, oxuculara xidmət işi təkmilləşmişdi. 1958-ci ildə 149 elmi, elmi-texniki və xüsusi kitabxana fəaliyyət göstərirdi. Ali və orta ixtisas məktəblərində 56 kitabxana müəllim və tələbələrə xidmət edirdi. Respublikanın ümumtəhsil müəssisələrində isə 2657 məktəb kitabxanası var idi.

Nəticə olaraq deyə bilərik ki, müharibədən sonrakı beşilliklər dövründə Azərbaycanda kitabxana quruculuğu sahəsində inkişaf və tərəqqi illəri olmuş, əhaliyə kitabxana xidməti daha da təkmilləşmişdi.

1959-cu ilin sentyabr ayında Sov İKP MK "Ölkədə kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" adlı qərar qəbul etdi. Bu qərar ölkəmizdə eləcə də respublikamızda kitabxana işinin inkişafının yeni tarixi mərhələsinin başlanğıcını qoydu. MK-nın bu qərarında kitabxanaların maddi texniki bazasının möhkəmləndirilməsi, kitabxana şəbəkələrinin genişləndirilməsi və kitabxana kitabının hər bir ailəyə çatdırılması kimi qabaqcıl müddəalar irəli sürülmüşdür.

Sov. İKP MK-nın 1974-cü ildə qəbul etdiyi "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında" qərarı sosializm quruculuğunun növbəti mərhələsində kitabxanaların ideoloji, mədəni-maarif və məlumat funksiyalarını müəyyənləşdirdi və kitabxana işini müasir şəraitdə cəmiyyətdə həyata keçirilən mürəkkəb iqtisadi, siyasi və sosial vəzifələrin həllinə yönəltdi. Azərbaycan KP MK bu mühüm partiya sənədlərinin respublikamızda həyata keçirilməsi üçün xüsusi qərar qəbul etdi. Respublika partiya təşkilatının bilavasitə rəhbərliyi altında yaxın müddətdə qərarın əsas müddəalarının həyata keçirilməsi sahəsində ciddi işlər görüldü. Qərardan keçən dövr respublikamızda kitabxana işinin inkişafında yeni mərhələ olmuşdur. Məhz bu mərhələdə kitabxana işi sahəsində baş verən çox dərin dəyişikliklər, kitabxana işinin əsaslı şəkildə yenidən qurulması, bilavasitə sosializm cəmiyyətinin özünün kitaba və məlumata olan tələbatının obyektiv şəkildə artması ilə əlaqədardır. 70-80-ci illərdə respublikada kitabxana işi sahəsində indiyə qədər həll edilməsi mümkün olmayan bir çox keyfiyyətcə yeni, mürəkkəb problemlər həll edilmişdir. Bu problemlər içərisində: kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşməsi təşkilinin köklü şəkildə təkmilləşdirilməsi, kitabxanaların məlumat fəaliyyətinin inkişafı ilə əlaqədar onların funksiyalarının əhəmiyyətli dərəcədə genişlənməsi, kitabxana fondlarının formalaşmasının əsaslı şəkildə yaxşılaşdırılması, depozitar kitabxana fondlarının yaranması, kitabxanaşünaslıq və biblioqrafiya sahəsində elmi-tədqiqat işlərinin genişlənməsi və elmi-metodiki fəaliyyətin genişlənməsi, müxtəlif kitabxana şəbəkələrinin işinin əlaqələndirilməsi və s. daha çox diqqəti cəlb edir.

Bu dövrdə respublikamızın iqtisadiyyat, elm və mədəniyyət sahəsində əldə etdiyi nailiyyətlər kitabxana işinin inkişafına böyük təkan vermiş, əhaliyə

kitabxana xidmətinin təşkili sahəsində mühüm uğurlar qazanılmasına imkan yaratmışdır.

Respublikamızda kitabxana kadrları BDU-nun kitabxanaçılıq fakültəsi, Krupskaya adına Bakı Mədəni-Maarif məktəbi və Şuşa mədəni-maarif məktəbi habelə mədəniyyət işçilərinin respublika ixtisasartırma kursu tərəfindən hazırlanır və təkmilləşir. İldən-ilə respublikamızda kitabxanaşünaslıq sahəsində elmi-tədqiqat işləri genişlənir, elmi pedoqoji kadrların sayı artır.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1984-cü ildə təsdiq etdiyi "SSRİ-də kitabxana işi haqqında əsasnamə"də kitabxana işinin sosialist cəmiyyətində tutduğu mövqeyi, rolu və vəzifələri bir daha müəyyənləşdirilmiş, onun gələcək inkişaf istiqamətləri göstərilmişdir.

Cəmiyyət həyatında yeni siyasi fəallıq dövrünün başlanması, insan amilinin, rolunun güclənməsi respublikamızda da aydın şəkildə müşahidə olunur ki, bu da öz növbəsində kitabxanalara müraciət edən oxucuların miqdarının artmasına, onların sorğularının dolğunlaşmasına və mürəkkəbləşməsinə səbəb olur. Məhz buna görə də, respublika kitabxanaları köhnə iş formalarından birdəfəlik əl çəkməyə, öz işlərini yenidənqurmanın tələbləri səviyyəsində qurmağa başladılar.

Durğunluq dövründə formalaşmış və kitabxana işində kök salmış nöqsanların aşkara çıxarılması, uzun illərdən bəri yığılıb qalmış problemlərin həlli yollarının axtarılması, çatışmazlıqların aradan qaldırılması, şübhəsiz kitabxana işində xeyli keyfiyyət dəyişiklikləri etməyi, onun fəaliyyətini günün tələbləri səviyyəsində qurmağı qarşıya əsas məqsəd qoyur. Vaxtilə yarıtmaz xidmət prosesindən narazı qalaraq kitabxanalardan uzaqlaşan, onunla əlaqəni tamamilə kəsən və ya kitabxanalar haqqında qeyri-sağlam düşüncəyə malik olan oxucuların tədricən kitabxanalara cəlb edilməsi, onlar arasında lazımi təbliğat işinin aparılması da kitabxana işinin yenidən qurulması vəzifələrinə daxil edilməlidir.

Əlbəttə, kitabxana işinin yenidən qurulması xeyli mürəkkəb proses olduğundan bu işə kitabxana ictimaiyyəti və kitabxanaşünaslıq elmi müəssisələri ilə yanaşı, bütün oxucular da yaxından cəlb olunmalıdır. Bu hər şeydən əvvəl ölkəmizin iqtisadi, siyasi və mədəni həyatında baş verən yeniləşmə prosesində kitabxana işçilərinin fəal iştirakını, onların şüurunda və psixologiyasında mühüm dəyişikliklər yaradılmasını tələb edir. Çünki kitabxanaçı fəal ideoloji işçi, təbliğatçı və təşviqatçı olmadan, öz yaradıcılıq fəaliyyətini və təşəbbüskarlığını kitab təbliği ilə əlaqələndirmədən yenidənqurma prosesində uğurla iştirak edə bilməz.

Bununla birlikdə, kitabxana işinin daha canlı və dinamik olması üçün onun ümumxalq işinə çevrilməsini, bütün zəhmətkeşlərin bu prosesdə iştirakının təmin edilməsini ön plana çəkmək və onu daha da demokratikləşdirmək lazımdır. Müasir dövr ölkəmizdə gedən inqilabi yenidənqurma vəzifələri də məhz bunu tələb edir. Bununla bərabər 1986-89-cu illərdə kitabxana işi sahəsində müşahidə edilən kəmiyyət artımlarını da qeyd etməmək olmaz. Əslində

istənilən inkişaf prosesinin dialektik vəhdətdə olan iki tərəfi kitabxana işinin müasir inkişaf mənzərəsini yaratmaq işinə eyni dərəcədə xidmət göstərir.

Respublikada kitabxana işinin inkişafının geniş perspektiv proqramı vardır. Bu proqramın yerinə yetirilməsi əhaliyə kitabxana xidmətinin təşkilində xüsusi mərhələ olacaq və respublikamızda kitabxana işinin mədəniyyətimizin mühüm sahəsi kimi formalaşmasını təmin edəcəkdir.

Respublikamızda kitabxana işi tarixinin öyrənilməsindən danışarkən yekun olaraq demək lazımdır ki, son vaxtlara qədər, yəni ölkəmizdə yenidənqurmanın başlanmasına qədər kitabxana tarixi bir tərəfli öyrənilmişdir. Kitabxana tarixinə dair yazılan əsərlərdə ancaq inkişaf göstərilir, bu sahədə mövcud səhvlər, olduqca ciddi nöqsanlar aşkara çıxarılmır, onlar ümumiləşdirilib təhlil edilmirdi. Bu da heç şübhəsiz ki, kitabxana işinin gələcək inkişafına, perspektivlərin müəyyənləşdirilməsinə, inzibati əmirlik dövrünün səhv, zərərli metodlarının, iş üsulunun vaxtında ortaya çıxarılıb rədd edilməsinə mane olurdu.

Yenidənqurma dövründə kitabxana işinə aşkarlıq və demokratiya proseslərinin tələbləri baxımından nəzər saldıqda belə bir həqiqət aşkara çıxır ki, bizim ölkəmiz mədəniyyətimizin ən mühüm sahələrindən biri olan kitabxana işi sahəsində dünyanın qabaqcıl ölkələrindən çox geri qalmışdır. Ona görə də, bu sahədə hələ çox iş görmək lazımdır.

Elmi əsərlərin mövzu toplusu.
Bakı: Bakı Universiteti Nəşriyyatı, 1991. s. 3-20

PARLAMENT KİTABXANASI NECƏ OLMALIDIR?

1994-cü il 26 oktyabr tarixli sayımızda Milli Məclisin üzvü Xeyrulla Əliyevin «Azərbaycan Respublikasının Parlament Kitabxanası haqqında» qanunvericilik təşəbbüsü haqqında Azərbaycan Respublikasının qanun lahiyəsi M.Ə.Rəsulzadə adına BDU-nun kitabxanaçılıq fakültəsinin professor-müəllim heyətinin nəzər-diqqətini cəlb etmişdir. Bununla əlaqədar aşağıdakıları bildirmək istərdik.

1. Milli Məclisin üzvü, hörmətli deputat Xeyrulla Əliyevin respublikamızın mədəniyyət problemləri və o cümlədən kitabxana işinin müasir vəziyyətinə müntəzəm surətdə qayğı və diqqətlə yanaşması və bu problemlərlə məşğul olması, şübhəsiz ki, hər cür təqdirəlayiqdir. Azərbaycan kitabxana ictimaiyyəti və eləcə də BDU-nun kitabxnaçılıq fakültəsinin alim və mütəxəssisləri bu səyləri çox yüksək qiymətləndirir.

2. M.Ə.Rəsulzadə adına BDU-nun kitabxanaçılıq fakültəsinin professor-müəllim heyəti hörmətli Milli məclis üzvü Xeyrulla Əliyevin dövlət rəhbərliyi və millət vəkillərinin informasiya tələbatını tam və operativ şəkildə ödəyə biləcək xüsusi parlament kitabxanasının yaradılması təşəbbüsünü tamamilə

dəstəkləyir və belə bir kitabxananın yaradılmasının təşkilati-metodiki və texnoloji məsələlərinin həllində peşəkar mütəxəssislər kimi iştirak etməyə hazır olduğunu bildirir.

3. Hörmətli Milli Məclis üzvü Xeyrulla Əliyevin «Azərbaycan Respublikasının Parlament Kitabxanası haqqında» layihəsinə gəldikdə isə təəssüflə qeyd etməliyik ki, onun təqdim etdiyi sənədlə istər kitabşünaslıq nəzəriyyəsi və metodikası, istərsə də müasir kitabxanaçılıq təcrübəsi baxımından bir sıra nöqsanlara yol verilmişdir.

Bu nöqsanları aşağıdakı qaydada ümumiləşdiririk:

a) Xeyrulla Əliyevin redaksiyaya məktubundan məlum olur ki, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasına Milli Kitabxana statusu verilməsi haqqında qanun yenidən işlənərək Azərbaycan Respublikası Parlament Kitabxanası haqqında qanun lahiyəsi kimi təqdim edilir.

Deputatın bu fikri ilə əlaqədar qeyd etmək istərdik ki, «milli kitabxana» və «parlament kitabxanası» anlayışları tamamilə fərqli olduğundan onlar birbirini əvəz edə bilməz.

Dünya kitabxanaçılıq təcrübəsində ən nüfuzlu kitabxana statusu «milli kitabxana» statusudur və hər bir hüquqi dövlətin mühüm atributu heç də hörmətli deputatın qeyd etdiyi Parlament Kitabxanası deyil, məhz Milli Kitabxana sayılır.

İnkişaf etmiş Qərb və Şərq ölkələrinin əksəriyyətində, o cümlədən Türkiyədə məhz milli kitabxanalar ölkə miqyasında ən iri universal elmi kitabxanalar olub, dövlətin kitabxanaçılıq siyasətini həyata keçirən, milli kitabsaxlayıcı, milli biblioqrafiyanın təribçisi, digər kitabxanaların fəaliyyətini istiqamətləndirən, əhalinin bütün təbəqələrinə xidmət edən, kitabxanaşünaslıq, biblioqrafiya, informatika və kitabşünaslıq sahələri üzrə elmi-tədqiqat mərkəzləri kimi fəaliyyət göstərirlər.

Parlament kitabxanaları isə deputatalara, dövlət orqanları qulluqçularına, əlaqədar şəxslərə və təşkilatlara xidmət edən ixtisaslaşdırılmış xüsusi kitabxanalar sayılır. Bu baxımdan qanun lahiyəsinin I fəslinin 2-ci maddəsində Parlament Kitabxanasının ümumi istifadəli mərkəzi elmi kitabxana kimi qeyd edilməsi yanlışdır.

b) Qanun lahiyəsinin II fəslinin «Parlament kitabxanalarının vəzifələri» adlandırılan 9-cu maddəsində də bir sıra dəqiqləşdirilmələrə ciddi ehtiyac hiss edilən fikirlər mövcuddur.

Bu maddənin 1-6-cı bəndlərində bütün dünya kitabxanaçılıq təcrübəsində məhz milli kitabxanalar tərəfindən yerinə yetirilən vəzifələr, nədənsə parlament kitabxanasının vəzifələrinə aid edilir ki, bu da qeyd etdiyimiz kimi uzun illərdən bəri dünya kitabxanaçılıq təcrübəsində formalaşmış ənənələrə ziddir.

Onu da qeyd edək ki, Azərbaycan Respublikasında da həmin vəzifələr on illərdən bəri M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası və Dövlət Kitab Palatası tərəfindən həyata keçirilir.

Qanun lahiyəsinin 9-cu maddəsində parlament kitabxanasına həvalə edilən vəzifələr nəinki onun statusuna uyğun deyildir, eyni zamanda həmin vəzifələr parlament kitabxanasının məqsədyönlü fəaliyyəti üçün maneələr yarada bilər.

c) Qanun lahiyəsində bir sıra yanlış ifadələr, terminoloji xətalar və s. vardır ki, onları bu məktubda sadalamağı lüzumsuz sayırıq.

Beləliklə, biz M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasına Azərbaycan Respublikasının Milli Kitabxanası statusu verilməsi haqqında qanun lahiyəsinin parlament kitabxanası haqqında qanun lahiyəsi ilə əvəz edilməsini və milli kitabxananın vəzifələrinin parlament kitabxanasına həvalə edilməsini yanlış mövqe sayaraq belə hesab edirik ki:

M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasına milli kitabxana statusu verilməsi haqqında qanun lahiyəsi dünya milli kitabxanaları təcrübəsinə uyğun şəkildə yenidən işlənib mətbuatda dərc edilsin və geniş kitabxana ictimaiyyəti tərəfindən müzakirə edildikdən sonra Milli Məclisin təsdiqinə verilsin.

Parlament kitabxanasının məqsəd, vəzifə və funksiyaları bir daha dəqiqləşdirildikdən sonra həmin işlər mövcud iqtisadi vəziyyət nəzərə alınaraq parlament kitabxanasını Mərkəzi şəhər kitabxanasının bazsında respublika kitabxanaları və kitabxana ictimaiyyətinin köməyi ilə yaratmaq məqsədə müvafiqdir.

Hər iki sənədin (milli kitabxana statusu və parlament kitabxanasına dair qanun lahiyəsinin) yenidən hazırlanmasında M.Ə.Rəsulzadə adına BDU-nun kitabxanaçılıq fakültəsinin professor-müəllim heyəti yaxından iştirak etmək arzusunu bir daha bildirir.

R.Kazımovla birlikdə.
"Azərbaycan" qəzeti. 24 dekabr 1994.

DÖVLƏT QAYĞISINA MÖHTACDIR

Təkzib edilməz faktdır ki, son zamanlar haqlı olaraq sosial institut adlandırılan kitabxanalarımız hazırda həm fiziki, həm də mənəvi cəhətdən sıradan çıxıb məhv olmaq təhlükəsi ilə üzləşiblər. Sovet hakimiyyəti illərində də üzdəniraq "qalıq" prinsipi ilə maliyyələşdirilən zəif maddi texniki bazaya malik olan kitabxana işi son dövrdə Ermənistan-Azərbaycan müharibəsi nəticəsində daha da pisləşmiş, demək olar ki, tamamilə böhran vəziyyətinə düşmüşdür.

Ümumi təsəvvür yaratmaq üçün qeyd edək ki, 1986-cı ilin statistik məlumatına əsasən Azərbaycanda ümumi kitab fondu 1.15 milyon nüsxəyə çatan 9548 müxtəlif tipli və növlü kitabxana olmuşdur. Bu kitabxanaların 4200-dən çoxu respublika mədəniyyət nazirliyinin, 4500-ə qədəri respublika təhsil

nazirliyinin kitabxana şəbəkələrinə daxildir. Qalanları isə ayrı-ayrı nazirliklərin, sənaye sahələrinin, ictimai təşkilatların, idarə və müəssisələrin elmi-texniki və xüsusi kitabxanalarıdır.

Təəssüflə bildirməliyik ki, son 5-6 ildə kitabxanaların sayı nəinki artmış, əksinə çox kəskin şəkildə azalmışdır. Məsələn respublika kitabxana şəbəkəsinin ümumi sayına daxil olan, lakin ermənı icmasının yaşadığı ərazilərdə yerləşən kitabxanaların miqdarını nəzərə almasaq, Ermənistanla həmsərhəd rayonlarımızda və təcavüzkar ermənistanın silahlı qüvvələrinin işğal etdiyi bölgələrimizdə respublika mədəniyyət nazirliyinin 800-ə qədər, respublika təhsil nazirliyinin 800-dən çox, həmkarlar ittifaqı təşkilatlarının, ayrı-ayrı idarə və müəssisələrin isə təxminən 2 min kitabxanası məhv edilmişdir.

Bundan başqa, son illərdə respublikamızın bəzi şəhərlərində yerləşmiş bir sıra kitabxana binalarının bütövlükdə və ya qismən müxtəlif kommersiya strukturları tərəfindən ələ keçirilməsi də kitabxanaların normal fəaliyyəti üçün dözülməz şərait yaradır, kitabxana işinin inkişafına ciddi ziyan vurur.

Unutmaq olmaz ki, kitabxanalar təkcə çoxəsrlik mədəni sərvətlərin, o cümlədən milli mədəniyyətin özülü deyil. Belə ki, kitabxanaların müəyyən dövr ərzində zərrə-zərrə toplayıb saxladığı və milyonların istifadəsinə verdiyi informasiya ehtiyatları həm də iqtisadiyyatın və siyasətin tərkib hissəsini təşkil edir. Bu da həqiqətdir ki, milli mədəniyyətimizin gələcəyi onun bugünkü inkişaf səviyyəsi ilə müəyyən edilir.

Məlum olduğu kimi dünyanın qabaqcıl ölkələrində və MDB-yə daxil olan digər respublikalarda xeyli müddətdir ki, kitabxanaçılıq cəmiyyətləri və ya assosiasiyaları fəaliyyət göstərir. Onların təcrübələrindən faydalanmağa çalışan Bakı Dövlət Universiteti kitabxanaşünaslıq fakültəsinin aparıcı mütəxəssisləri bir neçə il bundan əvvəl, daha doğrusu, keçmiş SSRİ dövründə kitabxana işinin demokratikləşməsində və təkmilləşdirilməsində, beynəlxalq təşkilatlarla əlaqələr yaradılmasında və başqa sahələrdə mühüm rol oynaya biləcək Azərbaycan kitabxanaçılıq cəmiyyətinin yaradılmasına təşəbbüs göstərmişdi. Hətta cəmiyyətin əsasnamə layihəsi də mətbuatda dərc olunmuş və müzakirə obyektinə çevrilmişdi. Lakin kitabxana işinə rəhbərlik edən mühafizəkar dairələr bu təşəbbüsün həyata keçməsinə və gerçəkləşməsinə hər cür maneəçilik törətdilər. Nəticə göz qabağındadır: bu gün Azərbaycan respublikası inkişaf etmiş dünya ölkələri və MDB dövlətləri içərisində kitabxanaçılıq cəmiyyəti birliyi və ya assosiasiyası olmayan yeganə respublikadır.

Təəssüflə qeyd etməyi lazım bilirik ki, müstəqillik qazandığımız vaxtdan bizi üçillik zaman məsafəsi ayırsa da indiyə qədər kitabxana işinə dair milli inkişaf konsepsiyası və qanunları işlənib hazırlanmamışdır. Bu da acı bir faktdır ki, xeyli müddət bundan əvvəl qəzetdə dərc olunmuş "Mədəniyyət haqqında qanun layihəsi"ndə kitabxana işi öz əksini lazımi səviyyədə tapmamışdır.

Göründüyü kimi Azərbaycanda kitabxana işi ciddi təhlükə qarşısındadır və onu bu təhlükədən yalnız və yalnız həqiqi dövlət qayğısı xilas edə bilər. Ona görə də milli kitabxana işinin inkişafı naminə proqram əhəmiyyətli

tədbirlərin həyata keçirilməsi məqsədilə öz tərəfimizdən bir sıra təvsiyə xarakterli təkliflər irəli sürür, əlaqədar orqanların bu təkliflərin gerçəkləşməsi üçün müvafiq tədbirlər görəcəyinə ümid bəsləyirik.

Birincisi, respublikanın qabaqcıl kitabxana ictimaiyyətini birləşdirmək, onların gücündən səmərəli istifadə etmək, fəallığını artırmaq, kitabxana işinin nəzəriyyəsini və təcrübəsini ümumiləşdirmək, əhaliyə kitabxana xidmətini günün tələbləri səviyyəsinə qaldırmaq, kitabxanalara ideoloji və metodiki rəhbərliyi təkmilləşdirmək, Azərbaycan kitabxanaçılarının beynəlxalq əlaqələrini yaxşılaşdırmaq məqsədilə tezliklə Azərbaycan Kitabxanaçılıq Cəmiyyəti təsis edilməli və fəaliyyətə başlamalıdır.

İkincisi, bəllidir ki, respublika nazirlikləri sistemində fəaliyyət göstərən idarə və müəssisələrin böyük kitabxana şəbəkəsi mövcuddur. Lakin təəssüf ki, bu böyük kitabxana şəbəkəsinə vahid rəhbərliyi həyata keçirən və kitabxana siyasətini yerinə yetirən heç bir dövlət orqanı yoxdur. Əvvəllər bu vəzifəni Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında təşkil edilmiş idarələrarası dövlət komissisiyası yerinə yetirirdi. Lakin ayrı-ayrı nazirliklərin idarə və müəssisə kitabxanaları mədəniyyət nazirliyinə tabe olmaqdan boyun qaçırdıqlarına görə həmin dövlət komissiyası xeyli vaxtdır ki, öz fəaliyyətini dayandırıb.Yaranmış vəziyyəti nəzərə alaraq respublikamızda kitabxana işinə dair konsepsiya və qanunlar hazırlamaq, bu sahədə dövlət siyasətini həyata keçirmək, müvafiq islahatlar aparmaq üçün Azərbaycan respublikası nazirlər kabineti yanında ictimai əsaslarla da olsa kitabxana işi üzrə dövlət komissiyası yaradılması məqsədə uyğundur.

Üçüncüsü, yeni qanunlar hazırlanıb qəbul olunana qədər kitabxanaların və onların ştat vahidlərinin ləğv edilməsi haqqında ayrı-ayrı nazirliklərin, komitələrin, idarə və müəssisələrin verdiyi qərarlar respublika nazirlər kabinetinin xüsusi sərəncamı ilə dayandırılmalı, ləğv olunmuş kitabxanaların yenidən bərpa edilib fəaliyyətə başlaması barədə müvafiq göstəriş verilməlidir.

Dördüncüsü, indiki ağır iqtisadi çətinlik və gündən-günə dərinləşən infilyasiya şəraitində kitabxanaların öz fondlarını komplektləşdirə bilmələri üçün onlara güzəştli şəkildə ədəbiyyat almağa əlverişli imkan yaradılmalıdır.

Beşincisi, müharibə nəticəsində dağıdılmış və ya ciddi zərər vurulmuş kitabxanaların bərpası məqsədilə dövlət ədəbiyyat fondunun yaradılması olduqca zəruridir.

Altıncısı, respublika kitabxana işçilərinin ixtisasartırma kurslarının pərakəndə təşkilinə son qoyulmalıdır. İxtisasartırma kursunun vahid elmi mərkəzdə - yüksək səviyyəli mütəxəssislərə malik Bakı Universitetinin İxtisasartırma İnstitutunun nəzdində yaradılması məqsədəuyğun hesab edilməlidir.

Yeddincisi, Azərbaycanda mədəniyyətin, o cümlədən kitabxana işinin üzücü iqtisadi məngənədə boğulduğunu nəzərə alaraq, respublika nazirlər kabinetinin təşəbbüsü və ya sərəncamı ilə mədəniyyət nazirliyinin yanında Mədəniyyət Bankı, yaxud kitabxana bankı yaradılmalı, müxtəlif xeyriyyə təşkilatlarının, imkanlı şəxslərin və digər birliklərin könüllülük prinsipi əsasında

həmin banka köçürəcəkləri pul vəsaiti bu sahələrin inkişafına sərf edilməlidir. Milli mədəniyyətimizin dirçəlişinə yardım göstərənlərin bəzi dövlət vergilərindən azad olunması bu təşəbbüsə qoşulanların sayını xeyli çoxaldır.

Nəhayət, bütün bu sadaladığımız tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə dövlət səviyyəsində kitabxana işinin yaxşılaşdırılması haqqında proqram xarakterli ayrıca qərar qəbul edilməli və onun yerinə yetirilmə mexanizmi dəqiq müəyyənləşdirilməlidir.

Knyaz Aslanla birlikdə.
"Azərbaycan" qəzeti. 28 yanvar 1995.

MİLLİ DÖVLƏTÇİLİYİMİZ NAMİNƏ

Son zamanlar Azərbaycan Respublikası müstəqillik yollarında inamla adımlamaqdadır. Təcavüzkar Ermənistanın silahlı hərbi birləşmələrinin bəzi havadarlara arxalanaraq Dağlıq Qarabağı və onun ətrafındakı 6 rayonumuzu işğal altında saxlaması, soydaşlarımızın 1 milyondan çoxunun doğma yurd-yuvalarından qaçqın və köçkün düşməsi, illərdən bəri dərinləşməkdə olan böhranın iqtisadiyyatımıza ağır zərbə vurması, xarici və daxili düşmənlərin 1993-cü ildən bu yana üç dəfə dövlət çevrilişinə cəhd göstərməsi və s. kimi ciddi problemlərə baxmayaraq, suveren Azərbaycanın dünya dövlətləri sırasında özünəlayiq yer tutmasından ötrü mühüm tədbirlər həyata keçirilir.

Etiraf etməliyik ki, milli dövlətçiliyimizin təşəkkül tapıb inkişaf etməsi beynəlxalq aləmdə nüfuz qazanmağa başlaması sözün həqiqi mənasında yalnız 1993-cü ilin ortalarında – görkəmli siyasi xadim Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının başçısı kimi yenidən fəaliyyətə başlamasından sonra gerçəkləşmişdir. Azərbaycan Prezidentinin daxili və xarici siyasətin düzgün qurulması istiqamətlərindəki uğurlu və orijinal addımları, maraqlıdır ki, təkcə respublikamızda deyil, onun hüdudlarından kənarda da yüksək qiymətləndirilir.

Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin son illərdə dünyanın ən nüfuzlu dövlətlərinə rəsmi səfərlərə dəvət olunması, əsrimizin görkəmli siyasi xadimləri ilə mühüm danışıqlar aparması bir tərəfdən yenicə müstəqillik yoluna qədəm qoymuş respublikamıza maraqdan irəli gəlirsə, digər tərəfdən hələ Sovetlər Birliyinin vaxtında beynəlxalq aləmdəki fəaliyyəti ilə böyük şöhrət və hörmət qazanmış Azərbaycan oğlunun dünya siyasətində tutduğu yüksək yerdən xəbər verir. Heydər Əlirza oğlunun müstəqil dövlətimizin təmsilçisi kimi xarici ölkələrə rəsmi səfərlərə getməsi suveren Azərbaycanın beynəlxalq miqyasda daha artıq tanınmasına, aparıcı dövlətlərlə, ən nüfuzlu beynəlxalq təşkilatlarla ikitərəfli əlaqələr qurulmasına, respublikamızın problemlərinin dünya ictimaiyyətinə çatdırılmasına, haqq işimizin, ədalətli mövqeyimizin müəyyən dairələr tərəfindən müdafiə olunmasına təkan verir.

"Əsrin müqaviləsi" adlandırılan, dünyanın ən böyük dövlətlərinin nüfuzlu neft konsersumlarını özündə birləşdirən kontraktın imzalanması Azərbaycanın müstəqil dövlət kimi beynəlxalq nüfuzunun xeyli yüksəlməsinə səbəb olmuşdur. 1983-cü ildən bəri Azərbaycanın faciələr içərisində yaşadığı hamıya bəllidir. O vaxtlar yeni-yeni meydana çıxan Dağlıq Qarabağ probleminin həllində Azərbaycan rəhbərliyinin tam savadsızlıq göstərməsi, Moskvanın tapşırıqlarını can-başla yerinə yetirməsi, yerli sakinlərin əlindən hətta quş tüfənginin belə aldırılması məntiqi olaraq kəndlərimizin, qəsəbələrimizin ermənilər tərəfindən işğal olunması ilə nəticələnməliydi. Sonralar Qarabağın yaşayış məntəqələrində, Bakıda digər regionalarda bir-birinin ardınca faciələrin baş verməsi, rayonlarımızın erməni təcavüzkarlarına döyüşsüz təhvil verilməsi ilk növbədə respulika rəhbərliyinin xalqdan uzaq düşməsinin mövcud problemləri həll etmək üçün əhaliyə arxalanmasının nəticəsi idi.

Açıq deməliyik ki, xalqla rəhbər arasında uzun müddətdən bəri süni şəkildə yaradılmış bu uçurum yalnız 1993-cü ilin ortalarında aradan qaldırıldı. Belə ki, həmin ilin iyun ayında Azərbaycanın bir neçə "müstəqil" bölgəyə parçalanması prossesi gedirdi və "xanlıqlar" deyilən qurumların yaradılması havası ilə yaşayan, lakin xalq tərəfindən tanınmayan bəzi üzdəniraq liderlər üçün hakimiyyət ehtirası vətən, xalq, torpaq kimi müqəddəs anlayışlardan çox-çox yüksəkdə dururdu. Ölkəmizin real vətəndaş müharibəsi ilə üz-üzə dayandığı bir zamanda xalqın çoxdan bəri arzuladığı şəxsiyytin – Heydər Əlirza oğlu Əliyevin Azərbaycan rəhbərliyinə qayıtması və qısa müddət ərzində özbaşınalıq edən silahlı dəstələri, necə deyərlər, öz yerində oturtması hamının ürəyincə oldu. Azərbaycanın xilaskarlarına qarşı müəyyən qüvvələr xalq arasında heç bir dayaq tapa bilməyərək qınlarına çəkilməyə məcbur oldular.

Məlumdur ki, ölkə Prezidenti Heydər Əliyevin həm respublikamızdakı bu və ya digər tədbirlərdəki sanballı məruzələri və çıxışları, həm də nüfuzlu beynəlxalq təşkilatlarda və xarici dövlətlərdəki nitqləri başdan-ayağa milli dövlətçilik, milli ideologiya ideyalarına söykənir. Həmçinin onun məruzələrində, çıxışlarında, müsahibələrində irəli sürülən elmi-nəzəri fikirlər və mülahizələr milli ideologiyamızın formalaşması və milli dövlətçiliyimizin möhkəm elmi əsaslar üzərində qurulması üçün olduqca böyük elmi-nəzəri əhəmiyyət kəsb edir.

Təəssüf ki, dövlət başçısının bu çıxış və məruzələri ilə hamının istənilən vaxt tanış olmaq imkanı yoxdur. Doğrudur, "Azərbaycan" qəzeti müntəzəm olaraq bu materialları ardıcıl dərc edir və bununla da dövlətçiliyimizin inkişafına öz sanballı töhfəsini verir. Lakin mənim apardığım müşahidələr göstərir ki, bir çox kitabxanalar mövcud iqtisadi çətinlik ucbatından bu qəzetin bütün nömrələrini ala bilməyəndə, bu sahədə ciddi çətinliklər yaranır. Halbuki, elm və mədəniyyətimizin müxtəlif sahələri ilə məşğul olan araşdırıcılarımızın həmin materiallara istinad etməsinə ciddi ehtiyac duyulur.

Bütün bunları nəzərə alaraq təklif edirəm ki, dövrümüzün görəkəmli, siyasi xadimi, milli Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin 1993-cü

ildən bəri müxtəlif tədbirlərdə söylədiyi çıxışlar və məruzələr tematik məcmuələr və ya ayrı-ayrı nəşrlərdən ibarət kitablar şəklində çap olunsun və geniş oxucu kütləsinin, bütün elmi ictimaiyyətin, çoxminli tələbələrin istifadəsi üçün ümumi kitabxanalarda və təhsil müəssisələrinin kitabxanalarına verilsin.

Belə bir nəşrdən Azərbaycanın müstəqilliyini istəyən xarici ölkələrdəki dostlarımız və soydaşlarımız da faydalanar, suveren Azərbaycanda gedən demokratik proseslərlə tanış ola bilərlər. Kitabı maliyələşdirəcək sponsorların tapılacağına da əminəm. Çünki söhbət milli idelogiyadan və milli dövlətçilikdən gedirsə, deməli, hec kəs öz xidmətini əsirgəməməlidir.

"Azərbaycan" qəzeti. 17 may 1995.

MƏRKƏZLƏŞDİRİLMİŞ KATALOQLAŞDIRMA

1. Mərkəzləşdirilmiş kataloqlaşdırmanın mahiyyəti və əhəmiyyəti

Kitabxanalara daxil olan müxtəlif nəşrlərin kataloqlarda əks olunması mühüm məsələlərdən biridir. Odur ki, çap əsərlərinin kataloqlaşdırılmasının zəruriliyi, kitabxanalarda təsvir, təsnifləşdirmə, predmetləşdirmə proseslərinin həyata keçirilməsi mərkəzləşdirilmiş kataloqlaşdırmaya ehtiyacı daha da artırır.

Kitabxanalara daxil olan sənədlərin sayının durmadan artması və onların məzmununun mürəkkəbləşməsi ilə əlaqədar olaraq kataloqlaşdırma proseslərinin səmərələşdirilməsi və elmi təşkili xüsusi əhəmiyyət kəsb edir. Buna görə də mərkəzləşdirilmiş kataloqlaşdırma kitabxana biblioqrafiya işinin mühüm sahələrindən biri hesab olunur.

Mərkəzləşdirilmiş kataloqlaşdırma təsvirin mərkəzləşdirilməsindən, mərkəzləşdirilmiş təsnifləşdirmə və predmetləşdirmədən ibarətdir. Nəşriyyatlarda çıxan kitablarla yanaşı, qəzet və jurnalların, dövrü bülleten və məcmuələrin, ardı davam edən nəşrlərin ayrı-ayrı nömrələri də çap qaydasında təsvir edilir. Beləliklə, məqalələrə və çap kartoçkalarına təsnifat indeksləri, predmet rubrikaları verilir.

Mərkəzləşdirilmiş kataloqlaşdırmanın tam və kompleks forması çap kartoçkalarıdı. Bu işlə hazırda müstəqil respublikaların kitab palataları məşgul olur. Mərkəzləşdirilmiş kataloqlaşdırma kitab təbliği və oxucu tələbatının ödənilməsi üzrə kitabxanalarda işin səviyyəsinin yüksəldilməsinə yönəldilmiş mühüm dövlət tədbirlərindən biridir. Onun başlıca vəzifəsi kataloq və kartotekalarının səmərəliliyini daha da artırmaqdan ibarətdir. Buna nail olmaq üçün kitablara verilən təsvir, təsnifat indeksləri, predmet rubrikaları, annotasiyalar vahid mərkəzlərdə ixtisaslı mütəxəssislər tərəfindən yerinə yetirilsin. Mərkəzləşdirilmiş kataloqlaşdırma nəşrlərindən istifadə edilməsi müxtəlif tipli

kitabxanalarda kitabın işlənməsində paralelçiliyin aradan qaldırılmasına təsvirin, təsnifləşdirmənin, predmetləşdirmənin vahid metodlarının kitabxana praktikasına tətbiq edilməsinə, kitabxanaçı əməyinin yüngülləşdirilməsinə, vaxta və vəsaitə qənaət edilməsinə, ədəbiyyatın kataloqlarda düzgün və dolğun əks olunmasına kömək edir.

Sənədlərin təsvirinə dair vahid təlimatların müəyyən tipli və növlü kitabxanalar üçün məcburi və tövsiyə xarakterli olması, müxtəlif təsnifat elmlərinin yaradılması mərkəzləşdirilmiş kataloqlaşdırmanın həyata keçirilməsi üçün zəmin olmuşdur.

Müttəfiq respublikalarda və bir çox xarici ölkələrdə mərkəzləşdirilmiş kataloqlaşdırma müxtəlif istiqamətlərdə inkişaf edir: milli, məhəlli, kitabxanadaxili sistem milli səviyyəli mərkəzləşdirilmiş kataloqlaşdırma ölkənin əksər nəşriyyatlarının çap məhsulunu əhatə edir, onların nəşrləri bütün kitabxanalar üzrə yayılır. Milli səviyyəli mərkəzləşdirilmiş kataloqlaşdırma işi bir qayda olaraq milli kitabxana və ya biblioqrafiya müəssisələri tərəfindən yerinə yetirilir.

Mərkəzləşdirilmiş məhəlli xarakterli kataloqlaşdırma məhəllə daxilində nəşr olunan çap məhsulu ilə kifayətlənir və bu nəşrlərin yayılmasını təmin edir. Respublikaların kitab palatalarının bu sahədəki fəaliyyəti mərkəzləşdirilmiş məhəlli xarakterli kataloqlaşdırma nümunə ola bilər.

Kitabxana daxili mərkəzləşdirilmiş kataloqlaşdırma mərkəzi kitabxana tərəfindən həyata keçirilir və sistemə daxil olan kitabxanalar arasında yayılır. Rusiya elmlər akademiyası kitabxana sistemindəki mərkəzləşdirilmiş kataloqlaşdırmanı buna misal göstərmək olar.

Müasir mərkəzləşdirilmiş kataloqlaşdırma öz forma müxtəlifliyi ilə fərqlənir. Ən çox təkmilləşmiş forma əsəri xarakterizə edən biblioqrafik təsvirin indekslərini, predmet rubrikalarını və digər məlumatları özündə işıqlandıran kartoçkasıdır. Metodik mərkəzdə tərtib olunan kartoçkalar lazımi miqarda mətbəə üsulu və ya çoxaldıcı aparatlar vasitəsilə artırılır və maraqlanan bütün idarə və müəssisələrə abunə vasitəsilə göndərilir.

Mərkəzləşdirilmiş kataloqlaşdırmanın digər forması nəşrlərdə verilən kataloqlaşdırmadır, yəni kataloqlaşdırma məlumatlarının biblioqrafik təsvirlərin, kataloq kartoçkası maketinin nəşrlərdə yerləşdirilməsidir. Kitablarda kataloq kartoçkası maketinin yerləşdirilməsinin əsas məqsədi onun çoxaldıcı aparatın köməkliyi ilə standart kataloq kartoçkalarında kitabın kataloqlarda əks olunması üçün lazımi miqdarda hasil edilməsidir.

Kataloqlaşdırma formalarından biri də nümunəvi kataloqlar-metodiki mərkəzlərdə tərtib olunan kitabxanalar üçün rayon, kənd, uşaq, universal məzmunlu tövsiyə-biblioqrafik göstəriciləridir. Bunlar tərkibi və təşkili üzrə kitabxana fondunun modeli rolunu oynayır. Nümunəvi kataloqa daxil olan hər bir kitabın təsviri təsnifatın müvafiq cədvəllərinə əsasən tam indekslə təmin olunur. Çap kartoçkalarında nə nəşrlərin kataloqlaşdırmasından fərqli olaraq nümunəvi kataloqda təkcə ayrı-ayrı kitabların indeksini və təsvirini deyil,

habelə şöbələrin doldurulmasını, onlar arasındakı əlaqələri, təsnifləşdirmənin metodikasını göstərmək imkanı var. Lakin öz operativliyinə görə mərkəzləşdirilmiş kataloqlaşdırma digər formalarından geri qalır.

Mərkəzləşdirilmiş kataloqlaşdırma formalarından kitabların, məqalələrin tam biblioqrafik təsvirini və indeksini əhatə edən biblioqrafik və referativ nəşrləri də əhatə etmək olar.

Son illərdə SSRİ-də, ABŞ-da və digər ölkələrdə mərkəzləşdirilmiş kataloqlaşdırma maşınla oxuma forması hazırlanmışdır. Sənədlər haqqında biblioqrafik təsvir və digər məlumatlar kataloqlaşdırma şəkildə kitabxanalara göndərilən maqnit lentlərində yerləşdirilir. Həmin lentlərin və EHM-lərin köməyilə kitabxanalar standart çap kartoçkalarını və kataloqlarını bibloqrafik göstəriciləri yarada bilirlər. Mərkəzləşdirilmiş kataloqlaşdırma maşınla oxuma forması olduqca operativdir. O maqnit lentlərində mühafizə edilən məlumatların mübadilə yolu ilə mərkəzləşdirilmiş kataloqlaşdırma beynalxalq miqyasda inkişafı üçün şərait yaradır. Hələlik maşınla oxuma sahəsində mərkəzləşdirilmiş kataloqlaşdırma lazımi səviyyəyə qalxmamışdır, cunki onun tətbiqi təkcə qiymətli texnika ilə deyil, habelə bibloqrafik təsvirlərin standartlaşması, o cümlədən beynalxalq miqyasda mürəkkəb metodiki məsələlərini həlli ilə bağlıdır. Lakin onun böyük perspektivi var.

Mərkəzləşdirilmiş kataloqlaşdırma bir sıra tərkib hissələrindən ibarətdir: mərkəzləşdirilmiş təsvir, mərkəzləşdirilmiş təsnifləşdirmə, mərkəzləşdirilmiş predmetləşdirmə və s. mərkəzləşdirilmiş kataloqlaşdırma bəzi nəşrlərin bu hissələr ücündə mövcuddur. Kecmiş kitab palatasının elmi kitabxanalar üçün hazırladığı cap kartockalarını buna misal gətirmək olar. Mərkəzləşdirilmiş təsnifləşdirmə mərkəzləşdirilmiş biblioqrafik təsviri müşayət edə bilər. Eyni zamanda müstəqil də ola bilər. Belə ki, indekslər kitablarda, məqalələrin sərlövhələrində məcmuələrin, dövri və ardı davam edən nəşrlərin təsvirlərində göstərilir. Ölkəmizdə və xaricdə nəşr edilən patentlərə, standartlara, müxtəlif şəhadətnamələrə əlavə olunmuş ixtiraların təsvirləri də indeks göstəriciləri ilə çıxır. Deməli, mərkəzləşdirilmiş təsnifləşdirmə yalnız mərkəzləşdirilmiş kataloqlaşdırmanın tərkib hissəsi kimi deyil, daha geniş şəkildə inkişaf edir. Mərkəzləşdirilmiş predmetləşdirmə çap kartoçkaları predmetləşdirmə rubrikalarının dərc olunması formasında daha çox yayılmışdır.

2. Mərkəzləşdirilmiş kataloqlaşdırma sistemi

Mərkəzləşdirilmiş kataloqlaşdırma geniş inkişaf etmiş sistemi yaradılmışdır. Bu sistemə mərkəzləşdirilmiş kataloqlaşdırma bütün formaları onların tərkib hissələri daxildir. Mərkəzləşdirilmiş kataloqlaşdırma işləri təkcə kataloqları deyil, habelə çap məhsulunun digər növlərini də əhatə edir. O müxtəlif istiqamətlərdə, müxtəlif tipli kitabxanalarda təşkil olunan kataloqların məzmun və quruluş xüsusiyyətlərini nəzərə almaqla həyata keçirilir. Bütün bunlar sistemin mürəkkəbliyinə səbəb olmuşdur.

Ölkəmizdə mərkəzləşdirilmiş kataloqlaşdırma çoxillik tarixə malikdir. Belə ki, kitabxanalarda yaymaq məqsədilə çap kartoçkaları buraxılmasının ilk layihələri və ona səy göstərilməsi XIX əsrin axırlarına təsadüf edir. Onluq Təsnifat indeksləri ilə təmin olunmuş ilk kitablar da bu dövrdə meydana gəlmiş, XX əsrin əvvəllərində bir sıra biblioqrafik göstəricilərdə, nümunəvi kataloqlarda kitab və məqalələrin indeksləri göstərilmişdir. Lakin inqilaba qədərki Rusiyada bu formaların heç biri geniş yayıla bilməmişdir. mərkəzləşdirilmiş kataloqlaşdırma tətbiqi yalnız 1917-ci ildən sonra mümkün olmuşdur. Müntəzəm olaraq mərkəzləşdirilmiş kataloqlaşdırma işinə başlanması 1925-ci ilə aiddir. Belə ki, həmin ildən RSFSR Xalq Maarif Komissarlığının baş siyasi maarif idarəsi yanında təşkil olunan mərkəzləşdirilmiş kataloqlaşdırma bürösu kütləvi kitabxanalar üçün annotasiyalı çap kartoçkaları buraxılışına başladı.

Mərkəzləşdirilmiş kataloqlaşdırmanın çap kartoçkaları formasında olan əsas növləri

Bölgünün əsası	*Mərkəzləşdirilmiş kataloqlaşdırmanın növləri*	*Əks olunan çap məhsulu*
Sənədlərin nəşr ili	Cari Perspektiv	Çapdan çıxanlar (müəyyən keçmiş dövr daxilində)
Sənədlərin növləri	Kitabların mərkəzləşdirilmiş kataloqlaşdırılması Dövri nəşrlərin mərkəzləşdirilmiş kataloqlaşdırılması Məqalələrin mərkəzləşdirilmiş kataloqlaşdırılması Ayrı-ayrı nəşr növlərinin mərkəzləşdirilmiş kataloqlaşdırılması	Rus, milli, xarici dillərdə olan kitablar Jurnallar, ardı davam edən nəşrlər Məcmuələrdən, dövrü və ardı davam edən nəşrlərdən məqalələr Xəritələr, notlar, texniki normativ sənədlər
Təyinatı	Kütləvi kitabxanalar üçün Elmi və xüsusi kitabxanalar üçün Texniki kitabxanalar və elmi texniki məlumat orqanları üçün	Kitab jurnal və qəzetlərdən məqalələr Kitablar dövrü və ardı davam edən nəşrlərdən notlar, xəritələr Kitablar, məqalələr, texniki normativ sənədlər
Səhiyyə	Milli məhəlli	

Kitabxanadaxili sistemin mərkəzləşdirilmiş kataloqlaşdırılması. Cədvəldən göründüyü kimi çap kartoçkalarını müxtəlif əlamətlərə görə qruplaşdırmaq olar. Hər nəşr özündə bir neçə əlaməti birləşdirir. Məsələn, annotasiyalı çap kartoçkalarının nəşri cari mərkəzləşdirilmiş kataloqlaşdırmaya (çap əsərlərinin nəşr ilinə görə), kitabların mərkəzləşdirilmiş kataloqlaşdırılmasına (çap əsərlərinin növünə görə) aiddir. Kartoçka formasında olan mərkəzləşdirilmiş kataloqlaşdırmanın inkişafının başlıca istiqaməti caridir.

Yeni çıxan kitablar və məqalələr üçün çap kartoçkaları kitabxanaların tipinə görə qruplaşdırılır, təhlil edilir.

Elmi kitabxanalar üçün rus dilində çapdan çıxan yeni kitabların çap

kartoçkalarının tərtibi keçmiş ümumittifaq kitab palatasına həvalə olunmuşdur. Bu kartoçkaların nəşrləri 1927-ci ildən həyata keçirilir ki, bunlar da illik komplektlərlə və sahəvi seriyalarla buraxılaraq abunə yolu ilə yayılır. Kartoçkaların tam illik komplektində cari ildə rus dilində nəşr edilən bütün kitabların, o cümlədən pulsuz(məhdud idarə xarakterli nəşrlərdən başqa) kitabların təsviri verilir. İldə 40 mindən çox əsəri əhatə edən bu komplekt iri universal kitabxanalar üçün nəzərdə tutulmuşdur.Hər bir kitabxana müəyyən bilik sahəsi üzrə və ya sahənin hissəsi üzrə ədəbiyyatı əhatə edən ayrı-ayrı seriyalara dair kartoçkalar əldə edə bilər. Çap kartoçkalarını kiçik maştablı kitabxanalar üçün əlverişli etmək üçün kitab palatası 1953-cü ildən ixtisar kartoçka komplektlərinə abunə yazılışını tətbiq etdi. Bu komplektlər universaldır, tirajı 8000 nüsxədən az olmayaraq, rus dilində olan kitabların təsvirini əhatə edir. İllik komplektdə 10-12 min kartoçka olur.

Keçmiş ümumittifaq kitab palatasının kartoçkalarında təsvirlər "kitabxana kataloqları üçün sənədlərin vahid təsvir qaydaları"nın tam variantı əsasında aparılır. Lazım olduqda kartoçkalarda əlifba kataloqu üçün əlavə təsvir haqqında məlumat verilir. Hər kartoçkada təsnifat indeksləri, müəllif işarəsi və predmet rubrikaları göstərilir. Sistemli kataloqların təşkilində müxtəlif elmi kitabxanaların tarixən yaranmış təcrübəsini nəzərə alaraq kitab palatası müxtəlif təsnifləşdirmə sistemləri üzrə kartoçkalarda indekslər verir. Kitablara verilən kartoçkalardan başqa abunəçilərə isnad və məlumat kartoçkaları, yeni təsnifat indeksləri, təsvir, təsnifləşdirmə və predmetləşdirmə metodikasındakı dəyişikliklər haqqında da məlumatlar göndərilir.

Beynəlxalq səviyyədə mərkəzləşdirilmiş kataloqlaşdırma inkişafı ilə əlaqədar olaraq kitabxanalar və maraq göstərən digər təşkilatlar təsvir edilmiş kitabların kartoçkalarını və ya maqnit lentlərini xarici ölkələrdən ala bilər ki, bu da xarici kitabların oxuculara çatdırılmasını sürətləndirər, kitabxanaçıların vaxtına qənaət edər.

Kütləvi kitabxanalar üçün kitabların çap kartoçkaları 1925-ci ildən nəşr edilir, hazırda isə lenin adına dövlət kitabxanası tərəfindən tərtib olunur. Həmin kartoçkalarda kitabların qısa annotasiyaları verildiyi üçün onlara annotasiyalı çap kartoçkaları deyilir. Annotasiyalı çap kartoçkaları mərkəzi nəşriyyatların nəşr etdiyi yeni kitablar üçün tərtib olunur. Onların tirajı nisbətən çoxdur və kütləvi kitabxanaların oxucuları üçün maraqlıdır. Kartoçkalar abunə vasitəsilə komplektlərlə kütləvi kitabxanaların növləri üzrə yayılır: şəhər, rayon, kənd, uşaq və məktəb kitabxanaları üçün. Hər komplektə bütün bilik sahələrinə dair kitabların kartoçkaları daxil edilir, lakin kitabları seçərkən müxtəlif tipli kitabxanaların komplektləşdirilməsi xüsusiyyətləri nəzərə alınmalıdır. Buna görə də, şəhər kitabxanalarının komplektinə texnikaya dair daha çox kartoçka daxil edilir, kənd kitabxanaları üçün nəzərdə tutulan komplektlərdə texnikaya dair az, kənd təsərrüfatına dair isə çox kitab olur və s.

Kitabların təsviri kiçik kitabxanaların kataloqları üçün nəzərdə tutulan vahid təsvir qaydaları üzrə aparılır, təsnifləşdirmə indeksi kütləvi kitabxanalar

üçün cədvəllər üzrə müəyyənləşdirilir. Annotasiyalı kartoçkalardan daha çox sistemli kataloqlarda istifadə olunur. Odur ki, hər dörd komplektdən birinə bir neçə indeksi olan və sistemli kataloqun bir neçə şöbəsində əks olunan kitabların əlavə kartoçkaları daxil edilir. Kitab kartoçkalarından başqa, abunəçilər komplektlərdə kitabların təsviri və təsnifinə dair metodik göstərişləri əks edən kartoçkalar da alırlar.

Kütləvi kitabxanalar üçün müttəfiq respublikalarda nəşr edilən kitabların çap kartoçkalarını respublika kitab palataları buraxır. Müttəfiq respublikaların kitab palatalarının kartoçka komplektlərinə rus və milli dillərdə olan kitablar daxil edilir. Kitab orijinal dildə təsvir olunur. Əsər haqqında məlumatlar-müəllif, sərlövhə buraxılış məlumatları respublika kitab palatalarının kartoçkalarında rus dilində də verilir. Kartoçkalarda kütləvi kitabxana üçün cədvəllər üzrə təsnifat indeksi göstərilir, bəzi kitab palataları kartoçkalarda annotasiyalar dərc edir.

Respublikamızda kataloqlaşdırma işinin mərkəzləşdirilməsi ilə Azərbaycan Dövlət Kitab Palatası məşğul olur. Bu məqsədlə 1927-ci ildən etibarən respublikada çıxan kitabların təsviri verilmiş kartoçkalar çap edilir. Lakin kartoçkaların nəşri Böyük Vətən müharibəsi illərindən dayandırılmış və Kitab Palatası 1950-ci ilə kimi respublikada kitabxana və biblioqrafiya işinin təşkilində mühüm əhəmiyyəti olan çap kartoçkalarını nəşr etdirə bilməmişdir. 1949-cu ildə çağırılmış Kitab Palataları direktorlarının IV müşavirəsində Azərbaycan və həmin işə başlamamış başqa respublikaların kitab palatalarına ciddi tapşırıldı ki, tezliklə yeni çapdan çıxan kitabların kartoçkalarının çapına başlanılsın.

Respublika kitab palatası 1950-ci ildən plana görə ildə 500 adda kartoçka çap edib respublikanın şəhər, rayon və kənd kitabxanaları ilə yanaşı müttəfiq respublika kitabxanalarına, habelə ayrı-ayrı elmi müəssisələrə göndərməyə başladı. Hazırda respublika kitab palatası ildə 630 adda çap kartoçkası nəşr etdirib 237 ünvana göndərir.

Jurnal və qəzetlərdəki məqalə və resenziyalara aid çap kartoçkalarının dərc edilməsi mərkəzləşdirilmiş kataloqlaşdırmanın nailiyyətidir. Bu kartoçkalardan başlıca olaraq müxtəlif biblioqrafik kartoçkaların tərtibində istifadə edilir. Bunlardan kataloqlarda da istifadə etmək olar.

Dövri nəşrlərdən materiallardan çap kartoçkalarını Kitab Palatası tərtib edir. Jurnal və ardı davam edən nəşrlərdə dərc edilən məqalə kartoçkalarının buraxılışı elə təşkil edilmişdir ki, kitabların kartoçkaları kimi ildə 100 mindən artıq kartoçkası olan və elmi kitabxanalar üçün nəzərdə tutulan tam komplektə ayrı-ayrı elm sahələrinə aid məqalələrin kartoçkaları daxil olan seriyalı komplektlər və ixtisar edilmiş komplektlər də aid edilir. Dövri nəşr materiallarına yazılan çap kartoçkaları kütləvi kitabxanalar üçün nəzərdə tutulur, bura mərkəzi, ictimai, siyasi, ədəbi-bədii və elmi kütləvi jurnallardakı məqalələrin təsvirləri daxildir. Bütün kartoçkalar biblioqrafik təsvir və təsnifləşdirmə indeksləri ilə təmin olunmuşdur. İxtisar edilmiş komplekt kartoçkalarında in-

dekslər kütləvi kitabxanalar üçün cədvəllər əsasında verilir ki, bu da məqalələrin sistemli kartotekasının aparılmasını asanlaşdırır.

Elmi kitabxanaların fondlarında mərkəzləşdirilmiş kataloqlaşdırmaya qədər nəşr edilən kitablar saxlanır. Bu kitabların çoxu oxucu üçün öz əhəmiyyətini saxlayır, odur ki, nəinki xidmət, həmçinin oxucu kataloqlarında da əks olunmalıdır. Köhnə kitabların biblioqrafik təsviri çox hallarda hətta təcrübəli kitabxanaçıların işini çətinləşdirir. Vaxtilə bu kitablara tərtib edilən kartoçkalar əsasən köhnəlmiş, çünki təsvir qaydalarında, təsnifləşdirmə metodikasında dəyişikliklər baş vermiş, kartoçkaların əksəriyyəti yarasız hala düşmüşdür. Kitabxanaçılar qarşısında köhnə kartoçkaların yeni, müasir kartoçkalarla əvəz edilməsi məsələsi durur. Bu işin eyni vaxtda kitabxanaların əksəriyyətində aparılması səmərəsiz ola bilər. Köhnə kitabların yenidən kataloqlaşdırılması işində retrospektiv mərkəzləşdirilmiş kataloqlaşdırma kitabxanaya kömək edə bilər. Zəngin kitab fonduna və yüksək ixtisaslı kitabxanaçı kadrlara malik olan iri kitabxanaları bir neçə il ərzində kitab palatasının ilk kartoçkasının buraxılışına qədər mülki şriftli rus kitablarının habelə sonrakı illərin ən qiymətli kitablarının çap kartoçkalarını nəşr edirdi. Bu kartoçkalar təkcə kataloqların təşkili üçün əhəmiyyətli deyil, onlar həmçinin yüksək elmi, tarixi, mədəni əhəmiyyətə də daxil olub, kitab palatasının çap kartoçkaları ilə birlikdə mülki rus çap kitabının ümumi kataloqunun əsasını təşkil edir, vətən kitablarının tarixi üzrə qiymətli və zəngin material verir.

Çap kartoçkaları başqa vəzifələri də yerinə yetirir: onlar yeni kitablar və dövri nəşrlər haqqında kitabxanalara məlumat verir, milli biblioqrafiyanın yaradılmasına kömək göstərir, ümumi kataloqların müxtəlif tipli biblioqrafiya kartotekalarının tərtibini ünsürlərlə təmin edir. Çap kartoçkalarından habelə nəşriyyatlarda və kitab ticarəti təşkilatlarında da istifadə olunur.

Metodik mərkəzlərin tərtib etdiyi çap kartoçkalarının nəşri kitabxanaların tələbatını tam ödəmir. Mərkəzləşdirilmiş kataloqlaşdırmanın bu formasındakı əsas nöqsanlar ondan ibarətdir ki, metodik mərkəzlər kartoçkaları kitablarla birlikdə göndərə bilmir. Bir qayda olaraq kartoçkalar kitabxanalara nisbətən daha gec daxil olur. Bundan başqa komplekt şəklində alınan kartoçkalar əldə olunan kitablara uyğun gəlmir. Belə uyğunsuzluq xüsusən annotasiyalı çap kartoçkalar komplektində daha çox nəzərə çarpır. Burada da kartoçkalar komplekti və kitabxanaya daxl olan yeni kitablar arasında fərqlər yaranır. Bəzi kartoçkalar artıq olur, kitabların bir hissəsinə kartoçkalar gəlib çatmır və kitabxanaçı həmin kitablarla müstəqil işləmək məcburiyyətində qalır. Bütün bunlar mərkəzləşdirilmiş kataloqlaşdırmanın digər formalarına keçməyi tələb edir.

1960-cı ildən başlayaraq ölkənin nəşriyyatları kitabın özündə biblioqrafik təsvirinin və təsnifləşdirilmiş indeksinin çapına başladılar. Bu da nəşrlərdə kataloqlaşdırma adlanır. 1970-ci il yanvarın 1-dən "Nəşriyyat məhsullarında buraxılış məlumatları " 7.4-69 dövlət standartı nəşriyyatlar qarşısında kütləvi kitabxanalar üçün nəzərdə tutulan kitablarda annotasiyalı çap kartoç-

kalarının maketini dərc etmək vəzifəsini qoydu. Maket titul vərəqinin arxa tərəfində və ya kitabın sonuncu səhifəsində verilir. Sonrakı illərdə isə təsvirə dair yeni dövlət standartları meydana gəlir.

Mərkəzləşdirilmiş kataloqlaşdırmanın bu formasının üstünlüyü göz qabağındadır: çap kartoçkalarının nəşri mövcud sistemdəki başlıca nöqsanları, yəni kitab və kartoçkaların daxil olma vaxtı və adlarının uyğun gəlməməsini aradan qaldırır, kitabxanalar hazır biblioqrafik təsvir və təsnifləşdirmə indekslərindən istifadə edir, kitab daxil olana qədər onu kataloqda əks etdirmək imkanı əldə edir. Kitabxanalarda yerləşdirilən indekslər yaxın mövzulu digər kitabların seçilməsi üçün rəflərin və ya sistemli kataloqun müvafiq şöbələrinə müraciət etmək istəyən oxuculara da xeyir verə bilər.

Nəşrlərdə verilən kataloqlaşdırmanın nöqsanları və çətinlikləri onunla əlaqədardır ki, biblioqrafik təsvir kitabın istehsalı prosesində tərtib edilir və bu da bəzən qeyri dəqiqlik əmələ gətirir. Başlıcası isə maketi yenidən istehsal etmək zərurəti yaradılır ki, bunun üçün də çoxaltma maşını lazımdır. Hər kitabxananı süratçoxaltma aparatı ilə təmin etmək səmərəli olmadığına görə 1974-cü ildən başlayaraq kitabların mərkəzləşdirilmiş qaydada işlənməsi, o cümlədən kataloq kartoçkalarının maketi əsasında çoxaldılması kitabxana kollektorlarına həvalə edilmişdir.

Nəşrlərdə verilən kataloqlaşdırma müxtəlif səviyyədə həyata keçirilir. Onun milli səviyyəsini mərkəzi nəşriyyatlar tərəfindən buraxılan annotasiyalı çap kartoçkaları maketi olan kitablar təmsil edir. Maketi nəşriyyatın işçiləri hazırlayır. Məhəlli səviyyəni respublika və vilayət nəşriyyatlarının kitabları təmsil edir. Kitabların təsviri və təsnifləşdirilməsi ilə müvafiq respublika, ölkə, vilayət kitabxanaları və müttəfiq respublikaların kitab palataları məşğul olur. Nəşrlərdə verilən kataloqlaşdırmaya metodiki rəhbərlik SSRİ Dövlət Kitabxanası tərəfindən həyata keçirilir. Bu üsul kütləvi kitabxanalar üçün nəzərdə tutulur və bir neçə səbəblərlə izah olunur: 1) kitabxanalar üçün təsvir üzrə dövlət təlimatı ilə təsdiq edilmiş və təsnifat cədvəllərindən istifadə etmək üçün vacib olan təsvir və təsnifləşdirmə unifikasiyası əldə edilmişdir; 2) bir mərkəzdən göndərilən çap kartoçkaları ilə kütləvi kitabxanaların tələbatını tam ödəmək mümkün deyil; 3) kitabda maket kartoçkasının nəşri üzrə mövcud təcrübədə elmi kitabxanalar üçün vacib olan tam və dəqiq təsvirə nail olmaq çətindir.

Nəşrdə kataloqlaşdırmanın təkmilləşdirilməsi və maketlərin mərkəzləşdirilmiş çoxaldılmasının qaydaya salınması ilə əlaqədar olaraq, kütləvi kitabxanalar üçün nəzərdə tutulan çap kartoçkalarının mərkəzləşdirilmiş kataloqlaşdırma forması öz əhəmiyyətini itirir. Müasir dövrdə mərkəzləşdirilmiş kataloqlaşdırma hər iki formasının eyni zamanda tətbiq edilməsi daha məqsədə uyğundur.

Elmi kitabxanalar üçün çap kartoçkalarının nəşri kitabların işlənməsi, mərkəzləşdirilmiş məlumatların çoxaldılması və yayılması prosesində istifadə edilən elektron-hesablama texnikası əsasında təkmilləşdirilir.

3. Xarici ölkələrdə mərkəzləşdirilmiş kataloqlaşdırma

Mərkəzləşdirilmiş kataloqlaşdırma dünyanın bir çox ölkələrində mövcuddur. O, kitabxana işinin milli xüsusiyyətlərindən asılı olaraq müxtəlif şəkildə həyata keçirilir. Eyni zamanda ayrı-ayrı ölkələrdə mərkəzləşdirilmiş kataloqlaşdırma vəziyyətində və inkişafında ümumi cəhətləri müşahidə etmək olar: Yeni nəşrlərin çap kartoçkaları mərkəzləşdirilmiş kataloqlaşdırmanın digər formaları içərisində həmişə aparıcı rol oynayır. Bu forma kitabxanaları qane etmədiyindən kartoçkaların çapı ilə yanaşı, nəşrlərə verilən kataloqlaşdırma işi də inkişaf edir. Kitabxana şəbəkəsi inkişaf edən ölkələrdə mərkəzləşdirilmiş kataloqlaşdırma bir neşə idarə tərəfindən müxtəlif səviyyədə həyata keçirilir.

Şərqi Avropa ölkələrinin əksəriyyətində mərkəzləşdirilmiş kataloqlaşdırma 1945-ci ildən sonra inkişaf etməyə başladı. Kapitalist ölkələrində ilk növbədə mərkəzləşdirilmiş kataloqlaşdırmanın iqtisadi cəhəti nəzərə alınır. Buna kitabxana kataloqlarının keyfiyyətinin yaxşılaşdırılması deyil, onların tərtibinin ucuz başa gəlməsi üsullu kimi baxılır. Ölkələrin əksəriyyətində milli kataloqlaşdırma milli kitabxanalar tərəfindən həyata keçirilir və maddi yardımı ondan alırlar, bu da kartoçkaların nisbətən baha başa gəlməsinə gətirib çıxarır. Bəzi ölkələrdə kitabxanalarla yanaşı mərkəzləşdirilmiş kataloqlaşdırma şəxsi ticarət orqanları da həyata keçirir.

Mərkəzləşdirilmiş kataloqlaşdırma ABŞ-da daha geniş inkişaf etmişdir. Belə kataloqlaşdırma 70 ildən çoxdur ki, fəaliyyət göstərir və müntəzəm olaraq onun yeni formaları yaranır, mövcud formalar təkmilləşdirilir. ABŞ-da kataloqlaşdırma xidmətinin bir neçə üsulundan istifadə olunur: Konqres Kitabxanasının və digər iri kitabxanaların apardığı mərkəzləşdirilmiş kataloqlaşdırma, ticarət kompaniyaları tərəfindən həyata keçirilən mərkəzləşdirilmiş kataloqlaşdırma, kooperativ kataloqlaşdırma. Çap kartoçkalarının və ya kataloqlaşdırmanın digər formalarının bir neçə kitabxana tərəfindən birgə hazırlanmasına kooperativ kataloqlaşdırma deyilir. ABŞ-da mərkəzləşdirilmiş kataloqlaşdırmanın bütün formaları mövcuddur: çap kartoçkaları, nəşrlərdə aparılan kataloqlaşdırma, nümunə kataloqlar, maqnit lentlərində maşınla oxunan kataloqlaşdırma.

Çap kartoçkalarını buraxan əsas təşkilat 1901-ci ildən bu sahədə fəaliyyət göstərən Konqres Kitabxanası hesab olunur. Hazırda çap kartoçkası Konqres Kitabxanasına daxil olan yeni kitabları, o cümlədən uşaq kitablarını, habelə notları və xəritələri əhatə edir. Müəssisələr üçün dövri nəşrlərin rolunun artmasına baxmayaraq, həmin nəşrlərin məqalələri kitabxana fəaliyyətindən kənarda qalır. Kartoçkada biblioqrafik təsvir, Konqres Kitabxanasının təsnifat sistemi və Onluq Təsnifat əsasında verilən təsnifləşdirmə indeksləri, predmet rubrikaları göstərilir. Kartoçkalar abunə yolu ilə yayılır və ölkə kitabxanalarında geniş istifadə olunur. Lakin Konqres Kitabxanasının kartoçkalarında çap məhsulu tam əhatə olunmadığından, xüsusilə də kartoçkaların hazırlanmasına

uzun vaxt sərf edildiyindən kitabxanalara kitablardan gec daxil olur. Buna görə də çap kartoçkalarını hazırlamaqla yanaşı, Konqres Kitabxanası nəşrlərdə kataloqlaşdırmanın, habelə maşınla oxunan kataloqlaşdırmanın həyata keçirilməsi üzrə eksprementlər aparır.

Mərkəzləşdirilmiş kataloqlaşdırma ticarət orqanları içərisində Uilsonun kompaniyası daha məşhurdur. Bu kompaniya məktəb və kiçik umumi kitabxanalar üçün nəzərdə tutulan annotasiyalı çap kartoçkalarını nəşr edir. Konqres Kitabxanasının kartoçkalarındakı təsvirdən fərqli olaraq,bu kartoçkalardaki bibliqrafik təsvir daha sadədir, indekslər Onluq Təsnifatın qısadılmış nəşrinə əsasən verilir, predmet rubrikaları da sadələşdirilmişdir. Təsvirin, təsnifləşdirmənin və predmetləşdirmənin bu metodları kompaniyanın məktəb, umumi kitabxanalar üçün nəşr etdiyi nümunəvi kataloqlarda da tətbiq edilir. Bu, mərkəzləşdirilmiş kataloqlaşdırmanın iki formasından qarşılıqlı istifadə edilməsini asanlaşdırır.

İri Avropa olkələrində mərkəzləşdirilmiş kataloqlaşdırma əsasən 50-ci illərdən inkisaf etməyə başlamışdır. Fransada cap kartoçkaları 1952-ci ildən buraxılır ki, bunlardan da elmi və xususi kitabxanalarda istifadə olunur. İngiltərədə yalnız 1956-cı ildən Biritaniya Muzeyi kitabxanası nəzdində Britaniya Milli Biblioqrafiya Şurası (BMBŞ) tərəfindən olkədə çıxan yeni kitabxanaların və dövrü nəşirlərin çap kartoçkaları buraxılır. BMBŞ-nin kartoçkaları əsasən elmi və umumi kitabxanalara göndərilir.

Mərkəzləşdirilmiş kataloqlaşdırmanın inkişafına baxmayaraq, dunyanın heç bir ölkəsində kitabxanalar çap kartockaları ilə təmin olunmamışdır. Bunun səbəbi kartoçkaların gecikdirilməsi, çap məhsulunun tam əhatə olunmamasıdır. Kitabların və digər çap əsərlərinin bir hissəsi kitabxanalarda mustəqil işlənməlidir.

Müxtəlif səviyyələrdə mərkəzləşdirilmiş kataloqlaşdırma işi ilə məşğul olan idarələr muxtəlif tipli kitabxanalar üçün çap məhsulunun bəzi hissəsini paralel olaraq tərtib edir. Məsələn, kitablarin muəyyən hissəsinə Rusiya Dovlət Kitab Paltası tərəfindən həm annotasiyalı, həm də annotasiyasız kartoçkalar nəşr edilir, eyni zamanda kitabxanalardakı kartoçkaların maketi hazırlanır. Buna bənzər vəziyyət ABŞ-da da müşahidə olunur. Beləliklə, hər bir cap əsəri yalnız bir dəfə kataloqlaşdırmalı, birdəfəlik işlənməli, sonra isə kataloqlaşdırma məlumatları hər hansı məlumatları hər hansı bir maraqlanan idarələr arasında yayılmalıdır.

Bu problemlərin həlli mərkəzləşdirilmiş kataloqlaşdırmanın səmərəliliyini xeyli dərəcədə yüksəldə bilərdi. Həm də bu sahədə nəzəri və metodiki məqalələrin daha da təkmilləşdirilməsinə ehtiyac duyulur. Bütün bunlar yenidən qurmanın tələbləri ilə də six surətdə bağlıdır.

"Kitabxana kataloqları": Dərs vəsaiti.
Bakı, Bakı Universiteti Nəşriyyatı, 1996. s. 197-218

MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA KİTABXANA QURUCULUĞU NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏSİNİN ELMİ ƏSASLARI

Müstəqil və suveren Azərbaycan Respublikasının yaranması xalqımızın taleyində boyuk tarixi hadisədir. Müstəqillik şəraitində ölkənin sosial iqtisadi tərəqqisi, xalqın mədəni-mənəvi potensialının güclənməsi, milli mədəniyyətimizin hərtərəfli inkişafı üçün böyük şərait yaranmışdır. Artıq ölkədə demokratiyanı genişləndirmək, hüquqi, dünyəvi dövlət yaratmaq üçün böyük tədbirlər həyata keçirilməyə başlanılmışdır. Bu tədbirlər içərisində dövlət quruculuğunda fəal iştirakı vacib sayılan geniş xalq kütləsinin ümummədəni və intellektual səviyyəsinin ardıcıl olaraq yüksəldilməsi, informasiya ilə təmin olunması məsələsi mühüm əhəmiyyət kəsb edir. Bu vəzifələrin yerinə yetirilməsi digər mədəniyyət, təhsil, mətbuat orqanları ilə yanaşı, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kitabxanalarının qarşısında da mühüm tələblər qoyur.

Məhz buna görədir ki, yeni cəmiyyət quruculuğu, bazar iqtisadiyyatı şəraitində kitabxana işinin , kitabxanaçılıq elminin demokratik elmi nəzəri və metodoloji əsaslarının yenidən işlənilməsi və kitabxanaşünaslığın gələcəyinin müəyyənləşdirilməsi zərurəti meydana çıxır. Yeni iqtisadi və siyasi sistemin təşəkkül tapdığı bir şəraitdə başlıca söhbət kitabxana işi sahəsində mövcud prinsiplərin yeniləşdirilməsindən qismən dəyişdirilməsindən deyil, onların köklü surətdə təzədən formalaşdırılmasından gedir. Bu da hər şeydən əvvəl keçmiş totalitar rejimdən, sosializm quruculuğu illərindən miras qalmış kitabxanaların ideologiyalaşdırılması, sinfilik, partiyalılıq, partiya təşkilatlarının dayaq bazası kimi antielm və qeyri-humanist prinsiplərin rədd edilməsini, onun dünyəvi humanist prinsiplərlə əvəz edilməsini tələb edir. Bu prinsiplərin müəyyənləşdirilməsi kitabxanaşünaslığın da qarşısında böyük vəzifələr qoyur. Kitabxanaşünaslıq qədim tarixə, dərin nəzəri məzmuna, geniş elmi aparata, hərtərəfli təcrübi tətbiq sahəsinə, həmçinin bir çox elmi fənlərə xas olan xüsusiyyətlərə malik elm sahəsidir.

Tarixi inkişaf prosesində minlərlə xüsusi istilaha malik olan kitabxanaşünaslıq bir çox humanitar və ictimai elmlərlə dərin inteqrasiya prosesində inkişaf edib təkmilləşmişdir. XX əsrdə respublikamızda milli dəyərlərə söykənən kitabxanaşünaslığın inkişafı sahəsində ilk ciddi addımlar atılmış, bir çox qiymətli elmi tədqiqat əsərləri monoqrafiyalar meydana çıxmış, o, humanitar elm kimi təşəkül tapıb formalaşmışdır.

Siyasi-iqtisadi və ideoloji sahədə ciddi dəyişikliklərin baş verdiyi indiki şəraitdə cəmiyyətdə informasiyanın rolu getdikcə artır. Cəmiyyətin informasiya tələbatının ödənilməsi, kitabxana işinin yeni siyasi, iqtisadi ideloji proseslərə tabe edilməsini, yeni yaranıb formalaşmaqda olan demokratik proseslərə xidmət etməsini irəli sürür. Bütün bunlar isə öz növbəsində kitabxana işinin gələcəyi, onun cəmiyyətdəki mövqeyi və elmlər sistemində yeri haqqında

bitkin olmasa da, müəyyən qədər ümumiləşdirilmiş şəkildə məlumat verməyi tələb edir. Azərbaycanda kitabxana işinin hazırki tarixi şəraitlə ayaqlaşa bilməsi üçün ancaq onun ayrı-ayrı sahələrinin, bölmələrinin öyrənilməsi yox, dayandığı bünövrənin elmi əsaslarla yenidən nəzərdən keçirilməsi tarixi zərurətə çevrilmişdir.

Cəmiyyətdə baş verən iqtisadi, siyasi, ideoloji dəyişikliklər, bazar iqtisadiyyatına keçid, sosializm quruluşunun süqutu, bununla da sosializm və kommunizm nəzəri əsası olan marksizm və leninizmdən imtina edilməsi bütün humanitar və ictimai elmlər kimi kitabxanaşünaslığın da nəzəri təcrübi və metodoloji əsaslarının yenidən işlənilməsini tələb edir.

Kitabxanaşünaslığın elmi nəzəri və metodoloji problemlərinin yenidən tədqiq edilib öyrənilməsi, hər şeydən əvvəl respublikamızın spesifik və milli xüsusiyyətləri, kitabxana işi sahəsində əldə edilmiş ənənələr nəzərə alınmaqla dünya kitabxanaşünaslığının elmi nəzəri müddəalarından təcrübəsindən və ümumbəşəri dəyərlərdən istifadə etməyi ön plana çəkir. Yeni dünyagörüşü təfəkkür tərzi baxımından müasir Azərbaycan kitabxanaşünaslığına ötəri nəzər saldıqda bu həqiqət dərhal ortaya çıxır.

Əlbəttə, söhbət heç də indiyə qədər elmimizdə formalaşan qabaqcıl ənənə və ideyalardan imtina etməkdən, öz-özünü məhvdən, milli zəmin üzərində inkişaf etmiş elmi-nəzəri baxışların ləğvindən deyil, məsələyə açıq fikirlə yanaşmaqdan, mütərəqqi elmə, xalqa xidmət edən nə varsa hamısını qoruyub saxlamaqla köhnəlikdən azad olmaqdan gedir. Bu zaman problemə çox böyük ehtiyatla, zərgər dəqiqliyi ilə yanaşılmalı, kitabxanaşünaslıq dövrlə, zamanla ayaqlaşa bilən, zamanın sınaqlarından müvəffəqiyyətlə çıxmış, milli mədəniyyətimizin xəzinəsinə daxil olmuş sərvətləri qoruyub saxlamalı, ancaq öz əhəmiyyətini itirmiş, müasir inkişafa mane olan müddəalardan əl çəkilməlidir. Dünya kitabxanaşünaslığı cəbbəxanasından istifadə edərək elə nəzəri konsepsiya hazırlamaq lazımdır ki, təkcə bizim ölkədə yox, dünyanın qabaqcıl dövlətlərində tətbiq edilən konsepsiyalara uyğun gəlsin, onlarla ayaqlaşsın, inteqrasiyaya girmək imkanı əldə etsin. Ancaq kitabxana işinin nəzəriyyəsində də təcrübəsində mövcud olan boşluqları doldurmaq yox, həmçinin uzun illərdən bəri kitabxanaşünaslığın özündə kök salmış köhnə prinsiplərdən cəsarətlə imtina etmək tarixi zərurətə çevrilmişdir.

Öz təbiəti etibarilə mürtəce xarakterli olan bu prinsiplər uzun illərdən bəri kitabxanaşünaslığın inkişafında buxova çevrilmiş, kitabxana işində dünyanın bütün demokratik dövlətlərində müvəffəqiyyətlə həyata keçirilən həqiqi islahatlar aparmağa maneçilik törətmiş, kitabxanalarımızın başqa ölkələrin kitabxanaları ilə əlaqəsini məhdudlaşdırmış, beləliklə də dünya kitabxanaşünaslığını bir-birinə düşmən olan sosializm kitabxanaşünaslığı və burjua kitabxanaşünaslığı cəbhəsinə parçalamışdır. Bu böyük tarixi səhv uzun müddət sovet kitabxanaşünaslığında formalaşan prinsiplərin yeniləşməsini, dünya kitabxanaşünaslığı prinsiplərindən və elmi-nəzəri metodlarından bəhrələnməsini tələb edir. Ölkə kitabxanaşünaslığında kitabxana işinin siyasətə yox,

dünya kitabxanaşünaslığına xas olan obyektiv tarixi qanunlara tabe olması prinsipinin reallaşdırılması əsas vəzifə kimi ortaya çıxır.

O dövrdə kitabxana quruculuğu sahəsində hakim mövqe tutan partiyalılıq prinsipi sovet kitabxanaşünaslığında mühüm istiqamətverici rola malik idi. Kitabxanaşünaslıq öz elmi tədqiqatlarını tarixi inkişafın ümumi qanunauyğunluqları əsasında yox, əvvəlcədən müəyyənləşdirilmiş, təcrübə ilə heç bir əlaqəsi olmayan mücərrəd müddəalar əsasında qururdu. Məhz buna görə də kitabxana işi sahəsində baş verən hadisələr onları doğuran obyektiv şəraitə uyğun təhlil edilmir, əvvəlcədən müəyyənləşdirilmiş ehkama uyğunlaşdırılırdı. Bu prinsip ilk növbədə totalitar senzuranın yaranmasına səbəb olmuşdur. Senzura kitabxana fondlarının komplektləşdirilməsində, fondların qorunub saxlanmasında ciddi maneəçilik yaratmaqla kitabxana fonduna, kitabxana təsnifatına dair nəzəriyyənin saxtalaşdırılmasına gətirib çıxarırdı.

Kitabxanalardan istifadə işinə nəzarət qoyulması, fondda kitabların heç də bütün oxucu kütləsinə verilə bilməməsi qaydaları dünya təcrübəsində tətbiq edilməyən yeni fondlar-xüsusi fondlar yaradılmasına səbəb olmuşdur. Xüsusi fondlarda kitabxananın bütün oxucularına yox, müəyyən qrup oxucuya xidmət edən kitablar saxlanılırdı. Belə kitabların seçilib xüsusi fondlara verilməsi yüksək rütbəli məmurlar tərəfindən müəyyənləşdirilirdi. Bu məmurların mütəxəssis olmaması, kitab repertuarından baş çıxarmaması, bəzən ən qiymətli, elmi və mədəni əhəmiyyətə malik olan kitabların belə fondlara düşməsinə, geniş oxucu kütləsinin istifadəsindən kənarda qalmasına səbəb olurdu. Bu antidemokratik iş heç bir müzakirə olmadan ancaq yuxarıların göstərişi ilə həyata keçirildiyindən yüzlərlə elmi-bədii, tarixi qiymətə malik olan əsərlər ya məhv edilir, ya da ictimai istifadədən çıxarılırdı. Bu iş 30-cu illərdə şəxsiyyətə pərəstişin şiddətləndiyi dövrdə daha kütləvi xarakter almış, xalq düşməni adı ilə həbs edilən görkəmli şəxslərin əsərləri kitabxanalardan çıxarılıb məhv edilmişdir. Kitab fondlarının ciddi surətdə azalmasına səbəb olan amillərdən biri də 70 il müddətində Azərbaycan əlifbasının iki dəfə dəyişdirilməsi olmuşdur. 1929-cu ildə ərəb qrafikasından latın qrafikasına keçilməsi kitabxanalarda saxlanılan və ərəb əlifbası ilə çap edilən kitabların taleyinə olduqca pis təsir göstərdi. Ərəb əlifbası ilə çap edilmiş kitabları yerlərdə olan məmurlar kitabxana fondlarından kütləvi surətdə çıxarmağa başladılar. Belə faktlara Azərbaycan kitabxana tarixində tez-tez rast gəlmək olur. Bəzi kənd rayonlarında əlifba dəyişdirildikdən sonra köhnə əlifba öldü deyə ərəb əlifbasında olan kitabları yığıb dəfn etmişdilər.

Belə bir həqiqəti söyləmək yerinə düşər ki, 30-cu illərdə şəxsiyyətə pərəstişin şiddətləndiyi dövrdə insanlar öz evlərində ərəb əlifbası ilə yazılmış kitabları saxlamağa qorxurdular. Məhz bu dövrdə belə kitablar kitabxanalardan da kütləvi surətdə təmizlənmişdi. 1939-cu ildə latın qrafikasının rus qrafikası ilə əvəz edilməsi bu prosesin təkrarlanmasına səbəb olmuşdur. Bundan başqa həmin prinsiplər yeni kitabxana-biblioqrafiya təsnifatı yaratmağı, bu təsnifatda marksizm-leninizm klassiklərinin əsərlərini ön plana çəkməyi bu işə

milyonlarla artıq vəsait xərcləməyi tələb edirdi. Amerika kitabxana təsnifatı olan Onluq Təsnifatın yenidən işlənməsini onun yeni sovet variantının yaradılmasını və bu təsnifatın kitabxanalarda tətbiqini buna misal göstərə bilərik. Belə təsnifatların yaradılmasına sonrakı illərdə də böyük əmək sərf edilmiş, bu işlə böyük elmi kollektivlər məşğul olmuşdur. Dünya kitabxana kataloqları təcrübəsində olmayan kataloqların meydana gəlməsi əhaliyə kitabxana xidməti işində demokratiyanın ciddi şəkildə pozulmasına əsaslı misal idi.

Ölkə üçün nümunəvi kataloqların yaranması və onun məcburi surətdə bütün regionlarda qəbul edilməsi də kitabxana işinin demokratik məzmununa, kitabxana işçilərinin və nəzəriyyəçilərinin fəaliyyətinə, təşəbbüskarlığına olduqca mənfi təsir göstərirdi. Həmçinin kitabxana işinə metodiki kömək sahəsində bürokratik iş üsulu, inzibati amirlik metodu özünə geniş yer tapmışdır. Bu rəhbərlik üsulu bəzi hallarda ayrı-ayrı burokrat məmurlar cinovniklər tərəfindən məcburiyyətə çevrilirdi ki, bu da ümumi işin təşkilinə mənfi təsir göstərirdi. Kitabxanaşünaslıqda kommunist partiyalılığı prinsipinin, xüsusilə oxuculara xidmət prosesinə geniş tətbiq edilməsi tələb edilirdi. Oxuculara işə aid metodik göstəricilər, dərsliklər, dərs vəsaitləri, oxu təvsiyə siyahıları, oxucu kataloqları ciddi nəzarət altında saxlanılırdı.

Ölkədə ictimai kitabxana cəmiyyətlərinin, assosiasiyalarının, birliklərinin təşkilinə şərait yaradılmırdı. Ona görə də 70 il müddətində Azərbaycan kitabxana işçilərinin dünya kitabxanaçıları ilə əlaqəsinə diqqət yetirilmirdi, qarşılıqlı yaradıcılıq münasibətləri yox dərəcəsində idi. Kitabxana işinin elmi-nəzəri metodiki və təşkilati məsələlərini həll edəcək qurultaylar, konfranslar, elmi yığıncaqlar kitabxana işçilərinin cəmi bir qurultayı keçirilmişdir ki, o da XXI qurultayın qərarlarının yerinə yetirilməsi məsələsinə müzakirə etmişdilər. Halbuki sovet hakimiyyəti illərində ilk dəfə keçirilən bu qurultayda respublikamızda kitabxana işinin mühüm problemlərinin həll edlməsi zəruri idi. Həqiqi xalq kitabxana hərəkatı kitabxana işində ictimai əsaslarla əvəz edilmişdi. İctimai əsaslar isə bəzi hallarda kitabxana işinə xeyir vermək əvəzinə zərər verirdi. Məsələn, Azərbaycanın timsalında bunun daha bariz nümunəsini görə bilərik. 1960-cı illərdə respublika mədəniyyət nazirliyinin büdcəsi azaldılan zaman o dövrdə nazirliyə rəhbərlik edən məmurlar bu büdcə kəsirini ödəmək üçün respublikanın bütün kənd kitabxanalarını ictimai əsaslara keçirdilər. Az bir müddət içərisində bu kitabxanalar tamamilə dağıldı. Tezliklə bu işin səhv olduğu aydınlaşdı. Sonrakı 20 il ərzində bu kitabxanaları ancaq bərpa etmək mümkün oldu.

İnzibati amirlik sisteminin təbiətindən doğan belə bir məsələni də qeyd etmək yerinə düşər ki, bu dövrdə kitabxana işi haqqında dövlət qərarları işləmir, nizamnamə və rəhbər sənədlər də yerli-yersiz pozulur, yerinə yetirilmirdi. Əgər bu qərarlar partiya orqanlarında çalışan məmurun xoşuna gəlmirdisə, o, həmin qərarın mənasız olduğunu söyləyir və onun fəaliyyətini dayandırırdı.

Kitabxana işinin inkişafına mane olan amillərdən biri də onun maliyyələşdirilməsi idi. Bir qayda olaraq SSRİ miqyasında maaşlar artırılarkən

ən axırda mədəniyyət işçilərinin, o cümlədən kitabxana işçilərinin maaşı artırılırdı.

Kitabxana işi sahəsində baş verən bütün bu hadisələr yeni demokratik və dünyəvi dövlət quruculuğu şəraitində dərindən dərk edilməli, demokratiyaya uyğun elmi nəzəri metodoloji və təşkilati tədbirlər həyata keçirilməlidir.

Əlbəttə, müharibə, iqtisadi böhran, və keçid dövrü şəraitində göstərilən məsələləri, xüsusilə də maliyyə və təşkilati məsələləri tezliklə həll etmək mümkün deyildir. Ancaq dövlət quruculuğumuzun tədricən möhkəmləndirilməsi, respublikamızda sabitlik yaranması, iqtisadiyyatımızda inkişafın baş verməsi, Azərbaycan dövlətinin siyasi imicinin artması kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji əsaslarının hazırlanması vəzifələrini tarixi bir zərurət kimi qarşıya qoyur. Müasir şəraitdə Azərbaycan kitabxanaşünaslığının əsasında kitabxana quruculuğunun nəzəriyyə və təcrübəsinin demokratikləşdirilməsi prinsipi durmalıdır. Kitabxanaşünaslığın metodoloji bazasını cəmiyyət və təfəkkürün ən ümumi qanunlarını öyrənən fəlsəfə təşkil etməlidir. Digər ictimai elmlər kimi həmin qanunlar kitabxanaşünaslıq üçün də aparıcı rol oynamalıdır. Həmçinin əsrlərdən bəri formalaşan, böyük elmi-nəzəri və metodoloji bazaya, ümumbəşəri dəyərlərə malik olan beynəlxalq kitabxanaşünaslığın müddəalarından yaradıcılıqla istifadə edilməlidir.

Müasir mərhələdə Azərbaycan kitabxanaşünaslığının qarşısında duran məqsədlər cəmiyyətdə baş verən keyfiyyət dəyişikliklərinə uyğun olaraq ümumbəşəri biliklərin, humanist ideyaların yayılmasına, insan hüquqlarının qorunmasına, demokratiyanın bərqərar olmasına, Azərbaycan milli ideologiyasının yayılmasına, müstəqil suveren Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə xidmət edən sosial institut kimi kitabxanaların vəzifələrinin və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsini tələb edir.

İdeoloji əsrlikdən azad olduğumuz müasir şəraitdə kitabxana işinə müəyyən qrupun, partiyanın mövqeyini ifadə edən ideoloji cəhətdən deyil, fəlsəfi, metodoloji baxımdan yanaşmaq lazımdır. Cəmiyyətin öz inkişafının yeni daha mürəkkəb mərhələsinə qədəm qoyduğu indiki dövrdə bu mürəkkəb mərhələnin xüsusiyyətlərini fəlsəfi cəhətdən dərk etmək, kitabxana işinin fəlsəfəsini araşdırmaq xüsusilə zəruridir. Formalaşmaqda olan müasir cəmiyyətdə kitabxanaların mədəni, informasiya, sosial əhəmiyyət və vəzifələri, başqa ictimai institutlar və sosial dəyərlər sistemində yeri aydınlaşdırılmalıdır. Kitabxanaçılıq nəzəriyyəsi bütün bunlara yeni təfəkkür baxımından, dünya kitabxanaşünaslığının mütərəqqi elmi nəliyyətlərini nəzərə almaq, ondan bəhrələnmək nöqteyi-nəzərindən yanaşılmalıdır.

Dünya ictimaiyyəti tərəfindən kitabxana işinin bünövrəsi kimi qiymətləndirilən informasiyanın ümumaçıq olması prinsipi kitabxanaşünaslığın əsas prinsipi olmalı, cəmiyyət üzvlərini informasiya ilə maksimum təmin etmək və bu sahədə əməli fəaliyyət göstərmək kitabxana işinin məhək daşına çevrilməlidir.

Humanitar elm kimi kitabxanaşünaslıq fəlsəfə, sosiologiya, tarix, peda-

qogika, psixologiya, kitabşünaslıq, biblioqrafiyaşünaslıq, informatika və s. elmlərin nailiyyətlərindən, nəticələrindən və nəzəri müddəalarından istifadə edərək müasir kitabxanaçılıq nəzəriyyəsini işləyib təkmilləşdirməli, əhaliyə kitabxana xidmətinin səmərəli təşkili yolu ilə ümumbəşəri biliklərin təbliğinin forma və üsulları haqqında beynəlxalq standartlara uyğun tövsiyələr hazırlanmalıdır.

Respublikamızda kitabxana quruculuğunu dünya kitabxanaçılığı səviyyəsinə qaldırmaq üçün kitabxana işi sahəsində dövlət siyasətini müəyyənləşdirmək, Azərbaycan Respublikasının kitabxana işi haqqında qanununu qəbul etmək lazımdır. Uzun illərdən bəri kitabxana quruculuğunda davam edən böhranı tezliklə aradan qaldırmaq, kitabxana işinin dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edərək dünya standartları səviyyəsinə qaldırmaq Azərbaycan dövlətinin kitabxana ictimaiyyətinin əsas vəzifəsi olmalıdır. Bu vəzifənin yerinə yetirilməsi isə kitabxana işinə dövlət tərəfindən əsaslı kapital qoyulmasından, kitabxana işinin kompüterləşdirilməsindən asılıdır.

Həmçinin kitabxana işinin dövrün tələbləri səviyyəsinə qaldırılmasında, dünyanın qabaqcıl ölkələrində olduğu kimi təhsil elm mədəniyyət incəsənət sənaye kənd təsərrüfatı işçilərinin yerli idarə orqanlarının bütün ziyalıların köməyinə ciddi ehtiyac duyulur.

"Kitabxanaşünaslıq və biblioqrafiya"
elmi, nəzəri və təcrübi jurnalı, 1997, №1. s.18-26

AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNƏ VƏ MİLLİ İDEOLOGIYASINA QİYMƏTLİ TÖVHƏ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin əsərlərinin nəşri haqqında

Son illərdə müstəqil Azərbaycan dövlətinin qurucusu respublika Prezidenti Heydər Əliyevin apardığı müdrik daxili və xarici siyasət sayəsində ölkəmizdə tam sabitlik yaranmış, beynəlxalq aləmdə Azərbaycanın nüfuzu xeyli artmışdır. Belə ki, milli müstəqillik xətti dönmədən və məqsədyönlü şəkildə həyata keçirilmiş, ölkəmiz vətəndaş müharibəsi və parçalanma təhlükəsindən xilas olmuş, Azərbaycan milli ordusunun yaradılması istiqamətində əsaslı işlər görülmüş, aparıcı dünya dövlətlərinin və beynəlxalq qurumların köməyilə Dağlıq Qarabağ müharibəsinin sülh yolu ilə nizama salınması üçün ümidverici addımlar atılmış, respublikada səmərəli iqtisadi islahatların aparılmasına başlanılmış, "Əsrin müqaviləsi" adlandırılan beynəlxalq neft kontraktlarının imzalanması sahəsində uğurlar qazanılmış, bir sözlə hüquqi və demokratik dövlət quruculuğu prosesi məqsədə uyğun və ardıcıl olaraq davam etdirilmişdir. Bu illərdə ilk dəfə demokratik prinsiplər əsasında müstəqil Azərbaycanın Milli Məclisi - birinci parlament seçilmiş, dövlətimizin başçısı

Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış ilk müstəqil Azərbaycan Konstitusiyası ümumxalq referendumu əsasında qəbul olunmuş, milli dövlətçilik ideyaları real həyatda öz parlaq ifadəsini tapmağa başlamışdır. Artıq neçə ildir ki, Prezidentimiz Heydər Əliyev hər cür maneələrə və çətinliklərə baxmayaraq, doğma xalqa arxalanmaqla Azərbaycanın ən yeni tarixini yaradır.

Xatırlatmaq istəyirəm ki, təxminən üç il bundan əvvəl bu məsələnin həlli istiqamətində, demək olar ki, heç bir iş görülmürdü. Elə həmin vaxt daha dəqiq desək, 1995-ci il mayın 17-də "Azərbaycan" qəzetində "Milli dövlətçiliyimiz naminə" sərlövhəli bir yazı dərc olundu. Bu məqalədə Heydər Əliyev şəxsiyyətinə yüksək qiymət verilir, müstəqil Azərbaycan dövlətçiliyinin və milli ideologiyanın inkişafında onun misilsiz xidmətləri qeyd olunur, nəhayət, təklif edilirdi ki, dövrümüzün görkəmli siyasi xadimi, milli Azərbaycan dövlətinin başçısı Heydər Əliyev 1993-cü ildən bəri müxtəlif tədbirlərdə söylədiyi çıxışlar və məruzələr tematik məcmuələr və ayrı-ayrı nəşrlərdən ibarət kitablar şəklində çap olunsun, geniş oxucu kütləsinin, bütün elmi ictimaiyyətin, çoxminli tələbələrin istifadəsi üçün universal və xüsusi kitabxanalara, o cümlədən təhsil müəssisələrinin kitabxanalarına verilsin.

"Səhər" qəzetinin redaksiyası dərhal bu faydalı təşəbbüsə qoşulduğunu bəyan etmiş, dövlət rəhbərinin 1989-1995-ci illərdəki fəaliyyətini əhatə edən irihəcmli 848 səhifəlik "Qətiyyətin təntənəsi" kitabını az sonra, elə 1995-ci ildə oxucuların istifadəsinə vermişdir.

Ümumiyyətlə, "Zəruri ön söz"dən və "Mən hec vaxt susmamışam", "Söz istəyirəm", "Naxcıvan yaşayır, döyüşür", "Xalqın iradəsi ilə", "Biz vətən müharibəsi aparırıq", "Sülhü arzulamaq azdır", "Dövlət özünü müdafiə etməyə qadirdir" başlığı 7 bölmədən ibarət olan "Qətiyyətin təntənəsi" kitabı Heydər Əliyevin zəngin ideya-nəzəri irsinin ayrı-ayrı nümunələrini ilk dəfə olaraq sistem halında təsnifləşdirən əvəzsiz mənbə kimi olduqca qiymətli və əhəmiyyətlidir.

Olduqca təqdirəlayiqdir ki, 1997-ci ildən latın qrafikalı Azərbaycan əlifbası ilə Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin buraxılışı həyata keçirilməkdədir. Azərbaycan Dövlət Nəşriyyatında yüksək poliqrafik icrada hazırlanan bu çoxcildliyin buraxılışına məsul Ramiz Mehdiyev və Hidayət Orucovdur. Çoxcildliyin çapa hazırlanmasında və nəşrində Ramiz Mehdiyevin və Hidayət Orucovun xüsusi xidmətlərini qeyd etmək yerinə düşərdi.

"Müstəqilliyimiz əbədidir" çoxcildliyinə Heydər Əliyevin xalqımızın istəyi və tələbi ilə 1993-cü ilin iyunунda Azərbaycanın rəhbərliyinə qayıdışından sonrakı çıxışları, nitqləri, bəyanatları, müsahibələri və başqa əsərləri daxil edilmişdir.

Qeyd etməliyik ki, Heydər Əliyevin son 4-5 illik ictimai-siyasi fəaliyyətinin salnaməsi olan "Müstəqilliyimiz əbdidir" çoxcildliyinə dövlət başçısının rəsmi qəbullarındakı materiallar daxil edilməyib. Buna baxmayaraq, çox vaxtında nəşr edilən bu çoxcildlik Azərbaycan xalqının, müstəqil Azərbaycan dövlətinin tarixinin son dərəcədə ağır məhsuliyyətli bir dövrünə həsr

edildiyindən böyük elmi və tarixi əhəmiyyətə malikdir. Onun alimlər, politoloqlar, siyasətşünaslar və digər mütəxəssislər üçün qiymətli və əvəzsiz mənbəyə çevriləcəyi tamamilə şəksizdir.

Fərəhlə qeyd etmək lazımdır ki, həmin nəşrlə yanaşı olaraq "Azərbaycan" nəşriyyatı da 1997-ci ildən kirill qrafikalı Azərbaycan əlifbası ilə Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcidliyini buraxmağa başlamışdır. Çoxcidliyin buraxılışına məsul Fatma Abdullazadədir. Nəfis şəkildə yüksək bədii və poliqrafik tərtibatda nəşr edilən bu çoxcidliyin artıq arıtq 4 cildi işıq üzü görmüş və oxuculara çatdırılmışdır.

Çoxcidliyin 1-ci cildində verilmiş "Ön söz"də deyildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitq və çıxışlarını əhatə edən "Müstəqillik yollarında" çoxcidliyi siyasi tariximiz üçün əhəmiyyət kəsb edən bir əsərdir.

XX əsrin görkəmli siyasi xadimi Heydər Əliyev Azərbaycanın müstəqillik səlnaməsi olan bu kitabla xalqına dövlət quruculuğu dərsliyini bəxş etmişdir. Kitabın baş qəhrəmanı Azərbaycan xalqı, əsas mövzusu isə siyasi tarix olduğundan o, eyni zamanda vətəndaşlıq dərsliyidir.

1997-ci ildə Azərbaycan Universiteti Nəşriyyatı Heydər Əliyevin "Müstəqillik yolu" (Seçilmiş fikirlər) və "Aforizmlər" kitablarını nəfis şəkildə çapdan buraxmışdır.

"Müstəqillik yolu" (Seçilmiş fikirlər) və "Aforizmlər" kitablarında Azərbaycan Prezidenti Heydər Əliyevin konkret dövrdə müəyyən hadisə və proseslərlə, ictimai-siyasi, hüquqi, sosial, elmi-mədəni və mənəvi həyatın aktual məsələləri ilə bağlı söylədiyi dərin fəlsəfi məzmunlu fikirləri toplanmış, sistemləşdirilmiş və oxuculara çatdırılmışdır.

Prezidentin aforizmlərində xalqımızın tarixinə hörmət, bu gününə inam və gələcəyinə böyük nikbinlik, vətənimizin işıqlı sabahına qürur hissi öz parlaq ifadəsini tapır. Heydər Əliyevin ən müxtəlif sahələrə dair söylədiyi hikmətli fikirlər və müdrik ideyalar bu günkü və gələcək nəsillər üçün həqiqətən qiymətli tövhə, dəyərli hədiyyədir.

Böyük şəxsiyyət Heydər Əliyevin zəngin həyat və fəaliyyətini öyrənmək baxımından 1997-ci ildə işıq üzü görmüş "Heydər Əliyev və Bakı Dövlət Universiteti" kitabı da mühüm əhəmiyyət kəsb edir. Nəfis şəkildə və yüksək zövqlə tərtib edilmiş bu kitabın buraxılışına məsul, ön sözün və məqalələrin müəllifi Bakı Dövlət Universitetinin rektoru, professor Misir Mərdanov, tərtib edəni isə Əli Əhmədovdur.

Kitabda Azərbaycan xalqının böyük oğlu görkəmli dövlət xadimi və siyasi xadim Heydər Əliyevin BDU-ya diqqəti və qayğısının tarixi məqamları sənədlər və faktlarla göstərilir. Əsərin əsas məzmunu BDU-nun 50 illik və 75 illik yubileylərində bu nəhəng elm və təhsil ocağında keçirilən müxtəlif mərasimlərdə Heydər Əliyevin parlaq çıxışları və həmin tarixi anları əks etdirən rəngarəng fotoşəkillər təşkil edir.

Ümumiyyətə, geniş oxucu kütləsinə ünvanlanmış 140 səhifəlik "Heydər

Əliyev və Bakı Dövlət Universiteti" kitabı yarım əsrlik dostluq münasibətlərinin mühüm mərhələlərini əks etdirmək, gənc nəslin mənəvi tərbiyəsinə kömək göstərmək baxımından olduqca əhəmiyyətlidir. Kitabın müəllifi və tərtibçisi müxtəlif sənədlərin və fotoşəkillərin dili ilə zəngin tarixi həqiqətlərin mahiyyətini açıb göstərməyə çalışmış və buna uğurlu şəkildə nail olmuşlar.

Bir cəhəti qeyd və etiraf etmək lazımdır ki, Heydər Əliyevin indiyə qədər nəşr olunmuş əsərlərini diqqətlə nəzərdən keçirdikdə bu böyük şəxsiyyətin mütaliə dairəsinin genişliyi insanda böyük heyrət doğurur. Onun çıxış və nitqlərində başəriyyət tarixinin çoxlarına məlum olmayan maraqlı səhifələri açıqlanır, dünyanın, o cümlədən Azərbaycanın görkəmli filosoflarının, tarixçilərinin, alimlərinin, şairlərinin, yazıçılarının, bəstakarlarının və başqa xadimlərinin adları çəkilir ki, geniş və hərtərəfli mütaliə dairəsinə malik olmadan bütün bunlardan bəhs etmək mümkün deyil. Prezidentin nitqlərindəki məntiqi ardıcıllıq, fəlsəfi və tarixi ümumiləşdirmə qabiliyyəti, müdrik şəxsiyyətlərin əsərlərindən yerli-yerində istifadə etmək bacarığı onu böyük və ardıcıl mütaliəçi kimi xarakterizə edir.

Mühüm bir məsələ haqqında da öz fikrimi bildirmək istəyirəm. Məlum həqiqətdir ki, Heydər Əliyev 30 ilə yaxındır bacarıqlı və müdrik şəxsiyyət kimi Azərbaycana rəhbərlik edir. Onun bu 30 ildə müxtəlif məclislərdə söylədiyi nitq, məruzə və çıxışlarında, qəzet və jurnallarda dərc olunmuş məqalə və müsahibələrində Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mənəvi-mədəni tarixi öz geniş əksini tapmış, xalqımızın nailiyyətləri və uğursuzluqları dəqiq ifadə olunmuşdur. Heydər Əliyevin sovet hakimiyyəti dövründə keçirilən partiya qurultaylarında və konfranslardakı məruzələrində respublikamızın həyatının ayrı-ayrı sahələrinə dair konkret rəqəmlər və faktlar göstərilmiş, mövcud vəziyyət tutarlı məlumat əsasında təhlil edilmiş, ümumi nəticələr çıxarılmış, perpektiv inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Aydındır ki, bu məruzələrdən istifadə etməzdən o dövrün obyektiv tarixini yazmaq mümkün deyildir. Bu məruzələrdə həmin dövr xarakterizə edilməklə cəmiyyətin inkişafındakı müsbət və mənfi meyllər, uğurlar və nöqsanlar, baş verən neqativ hallar, onların səbəbləri, mübarizə metodları və s. öz geniş əksini tapmışdır.

Ona görə də, 70-90-cı illərin Azərbaycan tarixini obyektiv yazmaq, cəmiyyətdə baş verən prosesləri, mənfi və müsbət istiqamətləri müəyyənləşdirmək, xalqımızın qazandığı elmi və mədəni nailiyyətləri, sosial-iqtisadi inkişafın xüsusiyyətlərini hərtərəfli öyrənib ümumiləşdirmək üçün Heydər Əliyevin o dövrdəki əsərlərinin diqqətlə araşdırılmasına və təhlil edilməsinə ciddi ehtiyac duyulmaqdadır. Göstərdiyimiz dəlillər belə bir fikir söyləməyə əsas verir ki, Heydər Əliyevin təkcə 1993-cü ildən sonrakı çıxışları və nitqləri yox, eyni zamanda sovet dövründəki bütün məruzələri, müsahibələri və s. xronoloji ardıcıllıqla çoxcildli kitablar şəklində nəşr edilməlidir. Yalnız bu halda, yəni böyük və zəngin elmi mənbəyi yaratmaqla xalqımızın müasir dövrdəki obyektiv tarixini yazmaq, bu şərəfli vəzifənin öhdəsindən gəlmək olar.

Yuxarda dediklərimi nəzərə alaraq hörmətli Prezidentimiz Heydər Əli-

yevin əsərlərinə cəmiyyətin demək olar ki, bütün sosial qruplarının: alimlərin, müəllimlərin, tələbələrin və başqalarının ehtiyacının və tələbatının ödənilməsilə əlaqədar bu böyük şəxsiyyətin əsərlərinin kütləvi tirajlarla nəşr etmək, birinci növbədə müxtəlif növlü kitabxanalara vermək lazımdır. Çünki yalnız respublikamızın geniş kitabxana şəbəkələri vasitəsilə cəmiyyətin, bütün oxucu qruplarının müstəqil və milli dövlət quruculuğu prosesində mühüm əhəmiyyət kəsb edən bu zəngin sərvətlə tanış olması və ondan faydalana bilməsi mümkündür. Bir cəhəti də yaddan çıxarmaq olmaz ki, Azərbaycan Respublikasının Prezidenti, zəmanəmizin dahi şəxsiyyəti, möhtərəm Heydər Əliyevin böyük elmi-siyasi və tarixi əsərləri yalnız dövlətimizin qayğısı ilə əhatə edilən çoxsaylı kitabxana fondlarında qorunub saxlanmaqla gələcək nəsillərə, Azərbaycanın azad və firavan vətəndaşlarına çatdırıla bilər.

"Azərbaycan" qəzeti. 10 fevral 1998.

H.Ə.ƏLİYEVİN RƏHBƏRLİYİ DÖVRÜNDƏ AZƏRBAYCANDA KİTABXANA İŞİNİN İNKİŞAFI (1970-1980-ci illər)

60-cı illərdə Azərbaycanın iqtisadi və mədəni həyatında durğunluq hökm sürür, xalq təsərrüfatı, sənaye və kənd təsərrüfatı sahələrində dövlət plan və tapşırıqları yerinə yetirilmirdi. Bütün bunlar mədəniyyət sahəsinə, o cümlədən kitabxana işinə də mənfi təsir göstərirdi.

Məhz belə bir şəraitdə 1969-cu ilin iyun ayında Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildi. Həmin ilin avqustunda respublika KP MK-nın plenumunda məruzə edən H.Əliyev xalq təsərrüfatında və mədəni həyatda mövcud olan nöqsanları cəsarətlə acıb göstərdi və onların aradan qaldırılması yollarını müəyyənləşdirdi. Onun təşkilatçılığı nəticəsində respublikanın iqtisadiyyatında və mədəni quruculuq sahəsində əsaslı dönüş baş verdi.

Azərbaycan tarixində mühüm mərhələ təşkil edən 1970-1980-ci illərdə respublikamızda xalq təsərrüfatının, sənayenin, iqtisadiyyatın bütün sahələri ilə yanaşı olaraq mədəniyyət, elm və təhsil də sürətlə inkişaf etmişdir. Bu illər eyni zamanda kitabxana işi tarixi üçün də əlamətdar olmuşdur. Bunu aşağıdakı rəqəmlərdən görmək olar: 1981-ci ildə respublikamızda 92,8 milyon nüsxə kitab fonduna malik olan 8905 müxtəlif tipli kitabxana fəaliyyət göstərirdi. Bunların 4245-i kütləvi kitabxana idi və fondlarında 38,8 milyon nüsxə kitab vardı. Əgər 1970-ci ildə 2923 kütləvi kitabxana və onların fondunda 25,4 milyon nüsxə kitab var idisə, 1985-ci ildə kütləvi kitabxanaların sayı 4300-ü keçmiş, kitab fondu isə 60 milyon nüsxəyə çatmışdır. Yəni kütləvi kitabxanaların sayı1377-yə çatmış, kitab fondu isə 13,4 milyon nüsxə artmışdı. Bütün bu göstəricilər oxuculara xidmət işini keyfiyyətcə yeni mərhələyə qaldırmışdı. Kitabxanaların maddi-texniki bazası möhkəmlənmiş, onlar yüksək ixtisaslı kadrlarla təmin edilmiş, əhaliyə kitabxana xidmətinin təşkilində mühüm

uğurlar qazanılmışdır. Eyni zamanda respublikamızda kitabxanaşünaslıq sahəsində elmi-tədqiqat işləri genişlənmiş, elmi-pedaqoji kadrların sayı artmışdır.

70-80-ci illərdə Azərbaycanın mədəni və elmi nailiyyətləri təkcə keçmiş ittifaq məkanında deyil, həm də beynəlxalq aləmdə şöhrət qazanmışdır. Bu inkişaf və tərəqqinin əldə edilməsində, şübhəsiz o dövrdə Azərbaycana bacarıqla rəhbərlik edən Heydər Əliyevin xüsusi xidmətləri olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş elmi konfransın materialları. C.2. Humanitar və sosial siyasi elmlər seriyası, 1998. s .222-223

1998-ci İLİ KİM NECƏ BAŞA VURDU?

1998-ci il həyatımda ən uğurlu illərdən biri olub. Bu il bir monoqrafiyam, beşdən çox məqaləm mətbuatda dərc olunub. Bu günlərdə "Kitabxana işi haqqında"a Azərbaycan Respublikasının Qanunu hazırlanıb. Mən bu qanunun hazırlanması ilə bağlı yaradılmış işçi qrupunun sədri idim. Artıq qanun Milli Məclisin ikinci oxunuşundan keçib.

Həmçinin Səudiyyə Ərəbistanının kralı cənab Fəhdin xüsusi dəvəti ilə martın 31-dən aprelin 16-na kimi respublikadan 250 zəvvar müqəddəs Məkkə və Mədinə şəhərlərində ziyarətdə olmuşdur. Xoşbəxtəm ki, bu ziyarətdə BDU-dan iştirak edən 30 əməkdaşdan biri də mən olmuşam.

Qarşıma məqsəd qoymuşdum ki, tələbələr üçün dərslik yazıb çap etdirəm. Təəssüf ki, buna müvəffəq ola bilmədim.

"Bakı Universiteti" qəzeti. 25 dekabr, 1998.

ИЗ ОПЫТА ПОДГОТОВКИ БАКАЛАВРОВ И МАГИСТРОВ ПО СПЕЦИАЛЬНОСТЯМ «БИБЛИОТЕКОВЕДЕНИЕ И БИБЛИОГРАФОВЕДЕНИЕ» НА БИБЛИОТЕЧНОМ ФАКУЛЬТЕТЕ БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА ИМ. М.А РАСУЛЗАДЕ

В современных условиях образование приобретает большое стратегическое значение в жизни человека, общества и государства.

Сегодня каждое демократическое, правовое и светское государство выступает гарантом обеспечения прав граждан на образование, что способствует повышению его роли и престижа в обществе.

Коренная реорганизация системы образования в Азербайджане

началась после провозглашения им своей независимости в 1991 г.

Одним из первых законов, принятых независимым государством Азербайджаном в 1992 г. стал «Закон об образовании». В соответствии с ним по примеру европейских государств Азербайджанская Республика перешла на трехступенчатую систему образования, где предусматриваются степени бакалавра, магистра и доктора.

Лица, завершившие образование на уровне бакалавра, по решению Государственной аттестационной комиссии могут начать свою производственную деятельность или в соответствии с правилами продолжить учебу на второй ступени образования- магистерской.

Лица, окончившие магистратуру, получают высшую профессиональную степень магистра, которая одновременно является первой ученой степенью. Специалисты, получившие степень магистра, имеют право начать свою практическую деятельность или продолжить образование уже на следующей ступени - докторской.

В отличие от степени бакалавра, в магистратуре осуществляется более глубокая специализация. Особое внимание уделяется привитию будущим магистрам навыков научно-исследовательской работы, изучению иностранных языков.

Лица, имеющие степень магистра, получают право на преподавательскую деятельность в учебных заведениях, в том числе на первой ступени образования, а также работать в научно - исследовательских учреждениях. Магистры могут осуществлять свою практическую Деятельность и на ответственных должностях в научных, научно-техничеких библиотеках.

Срок обучения на первой ступени образования на Библиотечном факультете Бакинского Государственного университета началось в 1993-1994 учебном году и первый выпуск бакалавров состоялся в 1996-1997 учебном году. В том же году из числа завершивших программу бакалавра 8 человек были отобраны для продолжения образования в магистратуре.

В соответствии с правилами прием в магистратуру осуществляется в порядке конкурса из расчета не более 20% окончивших степени бакалавра с высокими оценками. Из числа обучающихся в магистратуре 5 человек специализируются в области библиотековедения, 3- библиографоведения. На факультете созданы соответствующие мировым стандартам учебные планы по подготовке бакалавров и магистров.

Тезисы докладов и сообщений международной научной конференции. 1998. .с. 126-127

CƏMİYYƏTİN İNFORMASİYA TƏMİNATINDA KİTABXANALARIN TARİXİ ROLU

Dünya elmi, texnikası, mədəniyyəti, sivilizasiyası tarixində mühüm yer tutan, bəşəriyyətin inkişafında və tərəqqisində özündən əvvəlki bir çox əsərlərlə müqayisədə indiyə qədər görünməmiş fantastik nailiyyətlərə meydan açmış XX əsr başa çatmaqdadır.Əgər biz XX əsri şərti olaraq "atom əsri", "elmi-texniki tərəqqi əsri", "informasiya partlayışı əsri" kimi qiymətləndirsək onda bəşəriyyətin qapısını XXI əsr necə adlanacaq, keyfiyyətcə yeni mərhələnin başlanğıcı olan bu əsrə nə cür müraciət ediləcək? İndi bu problem dünyanın bütün alimlərini düşündürməkdədir.

Dünya mətbuatı ilə tanışlıqdan məlum olur ki, XX əsrin sonunda bu problem daha intensiv şəkildə öyrənilməyə başlamışdır. Hazırda bu əsrin yaratdığı elmi potensialın və mədəni sərvətlərin ümumiləşdirilib öyrənilməsi əsasında üzümüzə gələn XXI yüzilliyin informasiya əsri olacağına daha ciddi və əsaslandırılmış fikirlər söylənilməkdədir.Belə bir cəhət bütün tədqiqatçılar tərəfindən qəbul edilmişdir ki, bəşəriyyətin inkişafına XX əsr digər xüsusiyyətləri və keyfiyyətləri ilə yanaşı, həm də kompüterin meydana gəlməsi və informasiyalaşdırılmış cəmiyyətin formalaşdırılmasının başlanğıc əsri kimi daxil olmuşdur. Kompüterləşdirmənin və informasiyalaşdırmanın müxtəlif ölkələrdə müxtəlif inkişaf mərhələsində olmasına baxmayaraq bu proses dünyanın bütün ölkələrini bürümüş, digər ölkələrdə isə, yavaş-yavaş da olsa yayılmaqdadır. Bu gün insan fəaliyyətinin bütün sahələrini kompüterləşdirmək cəmiyyətin əsas vəzifəsi sayılır, sosial inkişafın mühüm və qeyd-şərtsiz amili hesab edilir. Bu vəzifəni müsbət həll etmədən cəmiyyətin humanistcəsinə yenidən qurulması, iqtisadi inkişafı, insanların maddi rifahının layiqincə yaxşılaşdırılması, yüksək maddi təminatı mümkün deyildir. Görkəmli rus alimi A.İ.Ratikov informasiyalaşdırılmış cəmiyyətin aşağıdakı xarakterik xüsusiyyətlərini göstərir: İnformasiyanın hamı üçün açıq olması; İnformasiyanın hamı üçün açıq olmasının real təminatı; İnformasiyanın istehsalı; Təsərrüfatın və idarəetmənin bütün sahələrində avtomatlaşdırmanın və robotlaşdırmanın sürətləndirilməsi; informasiya fəaliyyəti və xidmət sahəsinin yüksək inkişafı.

İnformasiyalaşdırılmış cəmiyyətə məxsus olan xarakterik xüsusiyyətlər baxımından dünya kitabxanalarının tarixinə nəzər saldıqda belə bir qaçılmaz, indiyə qədər heç də hamı tərəfindən lazımi səviyyədə qiymətləndirilməyən belə bir fakt ortaya çıxır ki, bütün dövrlərdə kitabxanalar xalqın yaratmış olduğu elmi, mədəni sərvət kimi həmişə bəşəriyyətin işıqlı gələcəyinə, təhsilinə, maarifinə, mədəniyyətinə, elminə, tərbiyəsinə xidmət etmiş, bilik, elm, informasiya mərkəzi kimi bəşər sivilizasiyasının yüksəldilməsi vasitəsi olmuşdur. Hələ miladdan öncə bəşər mədəniyyətinin beşiyi olan Şumerdə, Assuriyada, Kiçik Asiyada, qədim Misirdə, Romada, ərəb və Avropa ölkələrində informasiya daşıyıcıları olan kitabları və s. yazılı materialları toplayıb saxlayan, onu nəsildən-nəsilə ötürən kitabxanalar ən böyük elmi əhəmiyyət kəsb edən

mədəni müəssisə olmuşdur.

Kitabxanalar Şumer və Nineva gil lövhələrdən, Misir papiruslarından, orta əsr kilsə, monastr və məscid kitabxanalarının kasıb fondlarından başlayaraq bu günki milli kitabxanalara qədər keşməkeşli mürəkkəb bir yol keçmişlər. Bu tarixi yolu keçərkən kitabxanalar cəmiyyətdə baş verən proseslərlə əlaqədar dəyişmiş, yeni keyfiyyətlər kəsb etmişlər. Ancaq kitabxanaların işində baş verən yeniləşmələr heç də kitabxana işinin özünəməxsus qanunauyğunluqlarının dəyişməsinə təsir edə bilmədiyindən kitabxanaların institut bütövlüyü həmişə qalmışdır.

Kitabxana tarixinin tədqiq edilib öyrənilməsi nəticəsində məlum olmuşdur ki, kitabxanalar həmişə sosial tələbatı ödəmək üçün yaranmış və onun inkişafı fikir tarixi ilə sıx əlaqədə olmuşdur.

Qədim dövrlərdə yaranmış saray, kilsə, məscid və şəxsi kitabxanalar indiki milli, ümumi, elmi, xüsusi, təhsil və s. Kitabxanaların sələfləridir. Kitabxanaların inkişafına və formalaşmasına orta əsr universitetləri və dini təhsil müəssisələri də böyük təsir göstərmişlər. Beləliklə, kitabxanalar sosial vasitə kimi həmişə fəaliyyət göstərdiyi sosial mühitlə şərtləşmiş və ona müvafiq formalaşmışdır. Cəmiyyət kitabxanaların hamisi olduğundan kitabxanalar daimi öz fəaliyyəti ilə cəmiyyətin tələbatına cavab vermiş, onu yaratmış olan cəmiyyətə xidmət etmişdir. Kitabxanalar həmişə onu yaratmış cəmiyyətin mühiti ilə, onun mədəni sərvətlər sistemi ilə bağlı olmuşdur. Bütün bunlara isnad edərək kitabxanaların tarixinə nəzər salmaq, onların necə olduğunu və gələcəkdə necə olacağı haqqında fikir yürütmək lazımdır.

Sivilizasiyanın başlanğıcından zamanəmizə qədər kitabxana tarixinə nəzər saldıqda həm qədim dünya kitabxanalarının, həm də inkişaf etmiş müasir kitabxanaların 2 mühüm amili diqqəti cəlb edir. Bu amillərin hər ikisi bir-biri ilə əlaqədar olduğundan, biri digərini tamamlayaraq cəmiyyətin informasiyalaşdırılması işinə xidmət etmişlər. Bu amillər aşağıdakılardır: 1) Kitabxana bəşəriyyətin yaratmış olduğu elmi sərvətləri toplayıb, qoruyub, saxlayıb, onları ardıcıl olaraq təmənnasız insanların istifadəsinə verməklə elmin, mədəniyyətin, iqtisadiyyatın, texniki biliklərin, elmi kəşflərin tərəqqisi və yayılması üçün şərait yaratmışdır; 2) Kitabxana həmçinin elmin, fəlsəfənin, mədəniyyət və ədəbiyyatın, incəsənətin, təhsil sisteminin və ümumiyyətlə, cəmiyyətin mənəvi sərvətlərinə dair çap əsərlərinin, informasiya daşıyıcılarının biliyinin yayılmasında fəal iştirak etməklə tərbiyə və təlim prosesinə, bəşəri, əxlaqi biliklərə yiyələnmə prosesinə fəal təsir etməklə cəmiyyətin mənəvi aləminin formalaşmasına, intellektual səviyyəli cəmiyyət üzvlərinin yetişdirilməsində yaxından iştirak etmişdir. Məhz kitabxanaların bəşəriyyətin inkişafındakı bu mühüm tarixi xidməti və müasir cəmiyyətdə onların fəaliyyətinin nəzərə alınması onların statusunu, informasiyalaşdırılmış cəmiyyətdə yerini müəyyənləşdirməyə imkan verir. Bu baxımdan müasir dövrdə kitabxanalar elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi qiymətləndirilir sosial institut statusuna malik müəssisə hesab edilir.

Görkəmli Amerika alimi Cess X.Şiraya görə kitabxanaların ictimai inkişafda çox mühüm rolu vardır. O, göstərir ki, yazılı əsərlər insanın komunikativ bacarığını genişləndirir. Kitabxana isə öz növbəsində yazılı sənədin ömrünü uzatmaq vasitəsi kimi mühüm iş görür. Başqa ictimai müəssisələr kimi kitabxanalar da cəmiyyətdə yaranan böyük tələbata müvafiq olaraq meydana gəlmişdir. Cəmiyyətdə yazı meydana gəldikdən, buna müvafiq əlyazmaları yarandıqdan və bu əlyazmalarına cəmiyyətdə böyük mənəvi tələbat əmələ gəldikdən sonra onları toplayıb saxlayan, gələcək nəsillərə çatdıran bir müəssisənin - kitabxanaların yaradılması zərurəti meydana çıxmışdır.

Başəriyyətin keçdiyi mürəkkəb keşməkeşli yola ötəri nəzər saldıqda aydın olur ki, sivilizasiyalı cəmiyyətin bütün mərhələlərində kitab böyük ictimai, elmi və mədəni rol oynamışdır. Bu da bir həqiqətdir ki, informasiya daşıyıcıları içərisində kitab heç nə ilə əvəz edilə bilməyən bir vasitə kimi bəşər elminin, təhsilinin və mədəniyyətinin yaranmasında və inkişafında böyük informasiya mənbəyi olmuşdur. Hələ çox qədim zamanlardan başlayaraq kitabın bu böyük rolunu dərk etmiş cəmiyyət, kitabların yazılması, üzünün köçürülməsi, nəşr edilməsi, toplanıb saxlanması qayğısına qalmış, zəngin kitabxanalar yaratmış, onu nəsildən-nəslə verməyə ciddi diqqət və qayğı göstərmişdir. Kitabxanalar həmişə informasiya mənbəyi kimi xalqa, onun bütün təbəqələrinə xidmət etmiş, biliyi, informasiyanı yaymış, bəşəriyyət sivilizasiyasına xidmət etmişdir. Azərbaycan kitabxanalarının tarixi, onun keçdiyi yol bizim bu fikirlərimizi təsdiq edir. Hələ qədim dövrlərdən yazıya, kitab mədəniyyətinə malik olan xalqımızın çox qiymətli, böyük bəşəri əhəmiyyət kəsb edən, dünya kitabxanaşünaslıq elminin diqqətini cəlb edən, dünya alimləri tərəfindən ardıcıl olaraq öyrənilən "Avesta" və "Dədə Qorqud" kimi kitabları Azərbaycan kitab mədəniyyətinin uzaq keçmişindən xəbər verir. Tarixi mənbələrdə hələ miladdan əvvəl Manna, Midiya və Alban dövlətlərində yazılı abidələrin, kitab və kitabxanaların olması haqqında məlumatlar vardır. Qədim və orta əsr tədqiqatçılarının Azərbaycan ərazisində kitabxanaların, məktəb və mədrəsələrin olması haqqında məlumatları fikrimizi təsdiqləyir. Bizim eranın V-VII əsrlərində o dövrdə xristianlığı qəbul etmiş Albaniyada kilsələrin və dini məktəblərin yanında kitabxanaların olması məlumdur.

VII əsrdə ərəblər Azərbaycanı işğal etdikdən sonra azərbaycanlıların islam dinini qəbul etməsi nəticəsində burada dini müəssisələr meydana gəlmişdir. Məlum olduğu kimi, ərəblər bir qayda olaraq məscid və mədrəsə kitabxanalarının yaranmasına xüsusi diqqət yetirir, bu müəssisələrdən əhali arasında dini yaymaq və islam dini mütəxəssisləri hazırlamaq üçün geniş istifadə edirdilər. Həmçinin orta əsrlərdə hökmdarların, şahların sarayında kitabxanaların təşkilinə də ciddi fikir verilirdi. Azərbaycan hökmdarları kitaba böyük hörmət edir, onu toplamağa, böyük saray kitabxanaları yaratmağa məxsusi qayğı göstərirdilər.

Qədim və orta əsrlərdə Azərbaycanda kitabxanaların 3 tipi: saray, dini və şəxsi kitabxanalar şəbəkəsi geniş yayılmağa başlamışdı. XI əsrdə Gəncədə,

XII əsrdə Şirvanşahlar sarayında, XIII-XVIII əsrlərdə Cənubi Azərbaycanda böyük saray kitabxanaları fəaliyyət göstərmişdir.

XVI əsrdə Şah İsmayıl Xətai tərəfindən Təbriz şəhərində yaradılmış saray kitabxanası xüsusilə diqqəti cəlb edirdi. Şah tərəfindən yaradılan, maliyyələşdirilən bu kitabxanaya sarayda ən gözəl bina ayrılmışdı. Kitabxananın yaradılması və idarə olunması haqqında 1522-ci ildə Şah İsmayıl fərman vermişdi. Saray kitabxanaları öz quruluşu və statusu etibarilə dövlət kitabxanası xarakteri daşıyırdı. Ölkədə yaranan ən qiymətli əsərlərlə yanaşı olaraq xarici ölkələrdən də saray kitabxanalarına kitablar toplanırdı. Saray kitabxanalarında beynəlxalq kitab mübadiləsinin aparılmasına xüsusi diqqət yetirilməsi onların fondunu daha da zənginləşdirirdi.

Orta əsrlərdə Azərbaycanda ən böyük şəbəkəyə və nadir fonda malik olan kitabxana şəbəkələri məscid kitabxanaları idi. Dini kitabxana statusunu daşıyan məscid kitabxanaları İslam dininin müqəddəs kitabı olan "Quran"ı və digər qiymətli nadir dini kitabları saxlamaq üçün yaradılmışdı. Məscidlərdə kitabxanalar üçün xüsusi otaqlar ayrılırdı. Məscidlərdə xüsusi kitabdar vəzifəsi var idi.Bu vəzifəyə ən yüksək təhsilli ruhanilər təyin edilirdi. Məscid kitabxanaları ruhanilər üçün yaradılsa da islamşünaslıqla məşğul olan, dini kitabları mütaliə etməyi sevən dindarlara da xidmət edirdilər.

Orta əsr kitabxanalarının ikinci ən mühüm tipi mədrəsə kitabxanaları idi. Zaman keçdikcə ölkədə mədrəsələrin sayı əhəmiyyətli dərəcədə artmışdır. Ona görə də mədrəsə kitabxanaları ölkədə ən böyük şəbəkəyə malik idi. Mədrəsə kitabxanaları məktəb kitabxanası, təhsil kitabxanası statusuna malik olsa da yeri gəldikcə kitab həvəskarları da bu kitabxanaları həmçinin öz fondlarının zənginləşdirməsi və məzmun genişliyi ilə də digər kitabxanalardan fərqlənirdilər. Məscid və mədrəsə kitabxanaları dini kitabxanalar olmasına baxmayaraq onlar dünyəvi ədəbiyyat fondunda özünə geniş yer tapa bilirdi. Xüsusilə mədrəsə kitabxanalarında mədrəsədə tədris edilən fənlərə dair kitab toplanmasına geniş yer verilirdi.

Məscid və mədrəsə kitabxanaları qapalı xarakterli dini kitabxanalar olsalar da, onlar həmişə kitab həvəskarlarının üzünə açıq olmuş, informasiya mənbəyi kimi dövrün ziyalılarına xidmət etmişdir.

Orta əsrlərdə Azərbaycanda şəxsi kitabxanalar da böyük inkişaf yolu keçmiş, ən böyük şəbəkəyə və öz sahibinin ixtisasına və həvəs dairəsinə məxsus ən zəngin fonda malik olan kitabxanalar kimi şöhrətlənmişlər. Həmin dövrdə böyük ziyalılar yetişdirmiş Azərbaycan ən böyük şəxsi kitabxanaları olan bir ölkəyə çevrilmişdir. Bir qayda olaraq böyük mütəfəkkirlər, alimlər, alimlər, filosoflar, şairlər, yazıçılar, din xadimləri, ümumiyyətlə, elmlə, ədəbiyyatla, sənətlə məşgul olan ziyalılar, kitab həvəskarları şəxsi kitabxanalar yaratmaga böyük həvəs göstəriridilər. Tarixi mənbələrdə Azərbaycanın görkəmli şəxsiyyətlərindən N.Gəncəvinin, Xaqaninin, Qətran Təbrizinin, Xətib Təbrizinin, N.Tusinin, Ş.İ.Xətainin, A.Bakıxanovun, M.F.Axundovun və b. zəngin şəxsi kitabxanaları olması haqqında məlumatlar vardır. Şəxsi kitabxana hər bir insanın öz istifadəsi üçün yaradılmasına baxmayaraq, tarixi faktlar göstərir ki, belə kitabxanalardan digər oxucular, dövrün görkəmli şəxsiyyətləri də istifadə etmişlər. Məhz buna görədir ki, görkəmli şəxslərin kitabxanaları təkcə şəxsi kitabxana olmaqla qalmamış, cəmiyyətin mənəvi inkişafına xidmət göstərmiş, milli sərvətə çevrilmişdir.

Beləliklə, Azərbaycan kitabxanalarının tarixindən gətirdiyimiz faktlar göstərir ki, onlar tarixi inkişafın bütün mərhələlərində özünün fəaliyyəti ilə informasiya mənbəyi kimi Azərbaycan elminin və mədəniyyətinin yaranmasına və inkişafına böyük töhfə vermiş, xalqımızın inkişafına xidmət göstərmişdir.

Kitabxanaların cəmiyyətdə informasiya daşıyıcıları olan kitabların qorunub saxlanmasındakı xidməti əvəzedilməzdir. Mübaliğəsiz demək olar ki, kitabxanalar olmasa idi, bəşəriyyətin yaratmış olduğu elmi, mədəni, fəlsəfi və ədəbi-bədii sərvətləri qoruyub zəmanəmizə gətirib çıxarmaq olmazdı, mədəni inkişaf və tərəqqi baş verməzdi, cəmiyyət yerində sayardı, öyrənilmiş, ümumiləşdirilmiş, sistemləşdirilmiş insan fəaliyyətinin nəticəsi olan bilikləri və kəşfləri yenidən kəşf etmək lazım gələrdi. Azərbaycan kitabxanalarının tarixindən gətirdiyimiz dəlillər fikrimizi bir daha təsdiq edir və milli kitab sərvətimizin qorunub saxlanmasında onların əvəzsiz xidmətini meydana çıxarır.

Azərbaycan xalqının tarixindən məlumdur ki, miladdan öncədən başlayaraq bizim eranın VII əsrinə qədər Azərbaycan xalqı Midiya və Alban əlifbasından istifadə edərək kitab mədəniyyətini yaratmışdır. VII əsrdə ərəblər Azərbaycanı işğal etdikdən sonra mövcud əlifbaları və bu əlifbalarla yazılan kitabları məhv etmişlər. VII əsrdən başlayaraq 1928-ci ilə qədər Azərbaycan kitabı ərəb əlifbasından istifadə əsasında yaranmış və Azərbaycan kitab mədəniyyəti 1928-ci ilə qədər ərəb əlifbası əsasında inkişaf etmişdir. Deməli, təxminən XIII əsr Azərbaycanın təhsil sistemi ərəb əlifbası ilə aparılmış, onun elmi və milli sərvətləri ərəb əlifbası ilə yazılan və çap edilən kitablarda öz əksini tapmışdır. 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra kommunistlərin rəhbərlik etdiyi hökumət ərəb əlifbasının latın əlifbası ilə əvəz edilməsi haqqında qərar qəbul etdi. Bu qərara müvafiq olaraq 1921-ci ildən əlifbanın dəyişdirilməsi üçün hazırlıq işləri aparılmağa başladı və 1928-ci ildə yeni latın əlifbasına keçildi. Ərəb əlifbasını köhnəliyin, cəhalətin qalığı hesab edən rəsmi dairələr ərəb əlifbası ilə yazılmış əlyazmaları və çap kitablarını saxlamağı arzuedilməz sayır, bəzən belə kitabları dini xurafatla əlaqələndirib məhv etməyə çalışırdılar. Respublikamızın əyalət mərkəzlərində ərəb əlifbası ilə yazılan qiymətli əlyazmaları və çap kitablarını sovet ideologiyasına xidmət etmədiyi üçün məhv etməyə çalışırdılar. Əgər Azərbaycan xalqının 13 əsr müddətində yaratmış olduğu milli sərvət əlindən çıxardısa, gələcək nəsil onu oxumaqdan məhrum edilərdisə, bu millətin vəziyyəti necə ola bilərdi? Bu böyük milli fəlakət idi. Ancaq bu milli fəlakətdən xalqımızı böyük çətinliklərlə olsa da, kitabxanalar xilas etdi. Əsrlər boyu xalqın yaratdığı milli sərvəti, qismən də olsa, öz fondlarında qoruyub saxlamağa

müvəffəq oldu. Onun gələcək nəsillərə çatması üçün şərait yaratdı. Əgər kitabxanalar olmasa idi, xalq bu böyük kitab mədəniyyətindən, milli sərvətdən məhrum ola bilərdi. Bu da Azərbaycan elmi və mədəniyyəti üçün böyük itgi olardı. Heç də təsadüfi deyil ki, bu əlifbanı bilən yaşlı nəsil belə qiymətli xəzinəni qorumaqla orijinallarını saxlamış, ən qiymətli kitabları isə yeni əlifba ilə çap etdirmişdilər. Bu kitabların və əlyazmalarının bir çoxu, ən qiymətliləri, nadir əlyazmalar və kitablar əlyazmaları institutunun, milli və elmi kitabxanalarımızın fondunda indi də saxlanmaqdadır. Oxucular bu qiymətli xəzinədən bu gün də müvəffəqiyyətlə istifadə edirlər.

1928-ci ildən başlayaraq 1938-ci ilə qədər Azərbaycanda təhsil sistemi latın əlifbası ilə aparılmış, kitablar on il müddətində latın qrafikasında çap edilmişdir. 1938-ci ildə Moskvanın göstərişi ilə heç bir müzakirə keçirilmədən, xalqla, ziyalılarla, alimlərlə məsləhətləşmədən latın qrafikasından kirill qrafikasına keçilmək haqqında qərar qəbul edildi. Beləliklə, xalq yenidən son on ildə latın qrafikası ilə çap edilmiş kitablardan məhrum oldu.

Nəhayət, 1991-ci ildə Azərbaycanda müstəqil suveren respublika yaradıldıqdan sonra yenidən 1992-ci ildə latın qrafikasına keçmək haqqında Azərbaycan Respublikasının Milli Məclisi qərar qəbul etdi. Doğrudur, hələlik respublikada tam latın qrafikasına keçmək başa çatdırılmamışdır. Kitabların bir hissəsi latın, bir hissəsisə kiril əlifbası ilə çap edilir. Lakin nəzərə almaq lazımdır ki, Sovet hakimiyyəti illərində Azərbaycanda kitab nəşri sahəsində misilsiz inkişaf baş vermiş, kitab həm kəmiyyət, həm də keyfiyyətcə böyük tərəqqiyə nail olmuşdur. Hazırda Azərbaycan kitabxanalarının fondunda 150 milyondan artıq kitabın saxlanması dediklərimizə parlaq misaldır. Bu xalqımızın əldə etdiyi böyük milli və bəşəri sərvətdir. Bu sərvətdən müvəffəqiyyətlə istifadə etmədən xalqın işıqlı gələcəyini düşünmək olmaz. Belə milli sərvətimiz hələ uzun müddət xalqın informasiya təminatının əsas xəzinəsi kimi onun gələcək inkişafı və tərəqqisi naminə xidmət göstərəcəkdir.

Azərbaycanda suveren, müstəqil demokratik respublikanın yaranması yeni cəmiyyət quruculuğu üçün geniş imkanlar açdı.

Azərbaycanda bazar iqtisadiyyatına keçmək ölkənin həyatında böyük siyasi, iqtisadi dəyişikliklərin baş verməsinə, reformaların həyata keçirilməsinə səbəb oldu. Ölkənin siyasi, iqtisadi həyatında baş veren dəyişikliklər onun mədəni-ideoloji həyatına da böyük təsir göstərdi. Xalqımız öz soy kökünə, öz milli ideologiyasına qayıtmaq imkanı əldə etdi. Xalq öz taleyinin sahibinə çevrilməklə milli mənliyini dərk etməyə, milli dövlətçiliyimizi möhkəmləndirməyə ciddi səy göstərdi. Belə bir şəraitdə milli mədəniyyətin inkişafı, onun bəşəri sərvətlərlə zənginləşdirilməsi, yeni demokratik məzmun kəsb etməsi zərurəti qarşıya çıxırdı. Bu baxımdan böyük kitabxana şəbəkəsinə malik olan respublikamızda kitabxana quruculuğu məsələlərinin yeni dünyagörüşü, demokratik prinsiplər baxımından həll edilməsi böyük əhəmiyyət kəsb etdi. Yeni şəraitlə əlaqədar kitabxanalarımız öz işini keçmiş cəmiyyətdən qalmış, hər cür ideoloji buxovlardan azad olmaq, sinfilik və partiyalılıq pirinsip-

lərindən imtina etmək ruhunda qurmağa başladılar. Kitabxanalar çoxpartiyalı cəmiyyətin mühüm prinsipləri olan: demokratikləşmə, plyüralizim, azadfikirlilik pirinsiplərinə müvafik olaraq fəaliyyət göstərməyə xüsusi diqqət yetirirdilər. Yeni şərait həmçinin kitabxanalarımıza xalqımızın mütərəqqi milli ən; ənələrinə, milli mentalitetimizə qayıtmağa ümumbəşəri sərvətlərdən istifadə etməyə böyük imkanlar açdı. Yeni şəraitlə əlaqədar böyük hüquqlar əldə etmiş kitabxanalar əhalinin informasiya tələbatını hərtərəfli ödəmək, cəmiyyətin informasiyalaşdırılması işində yaxından iştirak etmək üçün özünün xidmət fəaliyyətini hərtərəfli təkmilləşdirmək, oxucuya xidmətin yeni iş forma və üsullarından geniş istifadə etmək imkanı əldə etmişdir.

Doğrudur, respublikamız suverenlik əldə etdikdən sonra böyük çətinliklərlə qarşılaşmalı oldu. Ölkənin iqtisadi tənəzzülü respublikamızın mədəni həyatına da mənfi təsir göstərdi. Kitabxanalara ayrılan maliyyə vəsaitinin azalması onların fəaliyyətini xeyli məhdudlaşdırdı. Məhz kitabxanalarımız üçün bu ağır illər kitabxanaların yaşaması uğrunda mübarizə illəri olmuşdur. Azərbaycan kitabxana sistemi, xüsusilə dövlət kitabxana şəbəkəsi bu sinaqdan əsasən müvəffəqiyyətlə çıxdı. Dövlət kitabxana şəbəkəsi demək olar ki, azalmadı. Bütün şəbəkə saxlanıldı. Bunu da mədəniyyətimizin böyük uğuru hesab etmək olar. Çətinlikdən cıxmaqda öz peşəsinə sadiq qalan yüksək peşə səviyyəsilə fərqlənən Azərbaycan kitabxanaçılarının böyük xidməti olmuşdur. Kitabxanaların işində baş veren bu müsbət keyfiyyətlər onların cəmiyyətin demokratikləşdirilməsindəki fəaliyyətinin xeyli dərinləşmişdir.

"Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası". 1999, № 4. s. 221-228

MÜASİR KİTABXANALARIN SOSİAL FUNKSİYALARI

«Funksiya» latın sözüdür, mənası icra etmək, yerinə yetirmək deməkdir. Funksiya hər hansı bir müəssisənin yerinə yetirməli olduğu vəzifələrin məcmusudur. Funksiya həmçinin mövcud münasibətlər sistemində hər hansı bir obyektin xassələrinin xarici təzahürüdür. Təsadüfi deyil ki, elmi ədəbiyyatda tez-tez dövlətin funksiyası, hiss orqanlarının funksiyası, məktəbin funksiyası, kitabxananın funksiyası və s. kimi elmi istilahlara rast gəlirik. Bu baxımdan hər hansı bir müəssisənin, o cümlədən kitabxananın fəaliyyət sahəsi funksional cəhətdən təhlil edilib öyrənilərkən funksiya sistemdaxili əlaqələrin aşkara çıxarılmasına, öyrənmə prosesinin sistemli şəkildə aparılmasına kömək edir. Kitabxananın sosial funksiyaları kitabxanaçılıq nəzəriyyə və təcrübəsinin çox mühüm problemlərindən biridir. Bu problemin hərtərəfli tədqiqi kitabxananın sosial rolu, kitabxana və cəmiyyət, kitabxana və informasiya, kitabxana və oxucu, kitabxana və kütləvi mütaliə problemlərini dərindən öyrən-

məyə imkan verməklə yanaşı, müasir cəmiyyətdə kitabxanaların yerini və ictimai rolunu müəyyənləşdirməyə də şərait yaradır.

Kitabxananı bir institut kimi cəmiyyət yaratmışdır. Onun əsas məqsədi isə cəmiyyətin intellektual, mədəni inkişafına kömək etmək, onu insanların (oxucuların) vasitəsi ilə təkmilləşdirməkdən ibarətdir. Kitabxanalar cəmiyyətin əsas sosial tələbatını yerinə yetirmək üçün yaradıldığından onun həyata keçirdiyi funksiyalar da bilavasitə sosial xarakter daşıyır. Kitabxananın sosioloji əsaslarının öyrənilməsində və sosial funksiyalarının elmi cəhətdən əsaslandırılmasında görkəmli Amerika alimi C.X.Şiranın böyük xidməti olmuşdur. Şira hələ 1967-ci ildə çap etdirdiyi «Kitabxana işinin sosioloji əsasları» adlı kitabında bu problemi əsaslı surətdə həll etmiş, dünya kitabxanaşünaslığı üçün tamamilə yeni olan çox qiymətli fikirlər irəli sürmüşdür. O, bu əsərində kitabxananın cəmiyyətlə, insanla, mədəniyyətlə, təhsillə, tərbiyə ilə qarşılıqlı əlaqəsini və bu əlaqələrin qanunauyğunluqlarını aşkara çıxarmışdır. Həmçinin kitabxananın sosioloji əsaslara söykənməsini cəmiyyətin sosial tələbatının ödənilməsindəki rolunu və sosial funksiyalarını göstərməyə nail olmuşdur. Müəllif çox haqlı olaraq XX əsrin ikinci rübündə elmi-texniki tərəqqinin geniş vüsət almasını, cəmiyyətdə informasiyaya tələbatın yüksək dərəcədə artması ilə əlaqədar kitabxanaların informasiya fəaliyyətinin yeni elmi əsaslar özrə təşkilini zəruri hesab etmiş, kitabxanaların avtomatlaşdırılması və mexanikləşdirilməsini, kitabxana işinə elektron-hesablayıcı maşınların tətbiq edilməsini dövrün tələbi kimi qiymətləndirmişdir.

Məlumdur ki, kitabxanaların sosial funksiyaları ilə yanaşı texnoloji (istehsalat) funksiyaları da vardır. Bunları bir-biri ilə qarışdırmaq doğru olmaz. Sosial funksiya kitabxananın xarici aləmlə, cəmiyyətlə əlaqələri, cəmiyyətin inkişafına təsiri, öz növbəsində isə cəmiyyətin kitabxana fəaliyyətinə təsiri kimi başa düşülməlidir. Texnoloji funksiya, ümumiləşdirilmiş şəkildə desək, «Kitabxana istehsalatı»dır. Texnoloji funksiya kitabxananın daxilində aparılan işləri, professional kitabxana fəaliyyətini həyata keçirir. Texnoloji funksiya sosial funksiyanın həyata keçirilməsinə şərait yaradır. Kitabxananın daxili iş prosesini, kitabxana fondunun komplektləşdirilməsindən kitabın oxucuya verilməsinə qədər olan texnoloji prosesi əhatə edir. Sosial funksiyadan fərqli olaraq cəmiyyətdə texnoloji funksiyanın mövcudluğu hiss edilmir. Texnoloji funksiya kitabxana işçiləri tərəfindən həyata keçirildiyindən bu funksiyaya aid biliklər ancaq kitabxanaçılar üçün məcburidir. Texnoloji funksiya kitabxana işçilərinin yaradıcı, professional əməyi sayəsində baş verir. Sosial funksiya haqqında isə cəmiyyətin hər bir üzvünün təsəvvürü olmalıdır. Texnoloji funksiya kitabxananın daxili tələbatına, əmək texnologiyasına müvafiq yaranır və sosial funksiyaların həyata keçirilməsinə xidmət edir. Sosial funksiya isə cəmiyyətin tələbatına uyğun formalaşır və bu tələbatın həyata keçirilməsinə xidmət edir.

Nəticə olaraq demək lazımdır ki, texnoloji funksiya kitabxananın mühüm komponentlərindən biri kimi bilavasitə sosial funksiyaların yerinə

yetirilməsinə xidmət edir. Belə ki, kitabxananın sosial funksiyalarının yerinə yetirilməsində, cəmiyyətin kitabxanalar qarşısında qoyduğu tələbatın müvəffəqiyyətlə həyata keçirilməsində texnoloji funksiyanın sistemli, səmərəli təşkilinin olduqca böyük rolu vardır. Sosial və texnoloji funksiyaların qarşılıqlı əlaqələrinin elmi təhlili əsasında məlum olur ki, texnoloji funksiya bilavasitə sosial funksiyaların həyata keçirilməsinə xidmət edir. Kitabxananın sosial funksiyalarının müəyyənləşdirilməsi, onlardan müasir kitabxanaların fəaliyyətində ardıcıl olaraq istifadə edilməsi kitabxanaların cəmiyyətin inkişaf prosesinə və istiqamətinə təsirini gücləndirməklə, cəmiyyət qarşısında öz vəzifələrini həyata keçirmək imkanı verir.

Dünya kitabxanaşünaslığında kitabxananın funksiyaları haqqında uzun illərdən bəri mübahisə obyekti olan fikirlər mövcuddur. Qədim zamanlardan XX əsrin əvvələrinə qədər texnoloji funksiya kitabxanaların əsas funksiyası kimi qəbul edilmişdir. Zaman keçdikcə cəmiyyətdə kitabxanaların informasiya fəaliyyətinin daha həlledici mərhələyə daxil olması, sosial funksiyaların artmasına səbəb oldu. Artıq XX əsrdə dünya kitabxanaşünaslığında sosial funksiyalar kitabxananın əsas funksiyaları kimi qəbul edildi. Bu da cəmiyyətdə kitabxanaların sosial institut statusuna malik bir müəssisə kimi formalaşmasını elmi cəhətdən əsaslandırdı. Kitabxanaların sosial funksiyalarının müəyyənləşdirilməsinə dünyanın ayrı-ayrı ölkələrində müxtəlif nöqteyi-nəzərlər vardır. 1994-cü ildə Rusiya Federasiyasında qəbul edilmiş kitabxana işi haqqında qanunda kitabxanaların öz sosial funksiyası – informasiya, mədəniyyət və təhsil funksiyası müəyyənləşdirilmişdir. Bu qanunda nədənsə dünya ölkələrinin əksəriyyətində qəbul edilmiş kitabxananın tərbiyə funksiyası nəzərdə tutulmamışdır. Məlumdur ki, bu və ya digər obyekt haqqında qanunvericilik aktı qəbul edilərkən mövcud təcrübəyə və həmzinin elmi nəticələrə əsaslanmaq zərurəti meydana çıxır. Azərbaycanda sovet hakimiyyəti illərində kitabxana işinə dair ayrıca qanun qəbul edilməmişdir. Kitabxanaların sosial funksiyalarının müəyyənləşdirilməsinə gəldikdə isə Rusiya konsepsiyası əsas götürülmüşdür. Bu konsepsiya həm kitabxanaların təcrübəsində, həm də kitabxanaçılıq nəzəriyyəsində özünə geniş yer tapmışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra başqa sahələrdə olduüu kimi, kitabxana işi sahəsində də qanunvericilik aktları qəbul edilməyə başlandı. 1999-cu ildə Milli Məclis «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Bu qanun qəbul edilərkən respublika kitabxanalarının təcrübəsi, kitabxanaşünaslığın elmi nəticələri, kitabxanaların milli xüsusiyyətləri və ənənələri nəzərə alınmışdır. Bu qanunda kitabxanaların cəmiyyətdəki rolu əsas götürülmüş, sosial institut kimi fəaliyyəti ön plana çəkilmişdir. Qanunda yazılır: «Kitabxana elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur» Göründüyü kimi, qanunda kitabxananın beş sosial funksiyası: elm, informasiya, mədə-

niyyət, təhsil və tərbiyə funksiyaları göstərilmişdir. Kitabxanalara məxsus funksiyaların müəyyənləşdirilməsində Azərbaycan konsepsiyasının daha da dolğun olması diqqəti cəlb edir.

Müasir informasiyalaşdırılmış cəmiyyətdə kitabxanaların kommunikasiya sistemində rolu və əhəmiyyəti o qədər artmışdır ki, kitabxanalarsız cəmiyyətin informasiya tələbatını ödəmək mümkün deyildir. Kitabxana cəmiyyətdə elmin və mədəniyyətin inkişafında, təhsil və tərbiyənin yüksəlməsində, həmçinin insanların informasiya təminatında mühüm sosial institut kimi yaxından iştirak etməklə ən çox istifadə olunan müəssisəyə çevrilmişdi.

1. Kitabxanaların elmi funksiyası

Dünya kitabxanalarının tarixinə nəzər saldıqda ilk baxışdan belə bir fakt diqqəti cəlb edir ki, kitabxanalar həmişə elm adamları, görkəmli alimlər, filosoflar, yaradıcı ziyalılarla bağlı olmuşdur. Qədim dünya və orta əsr kitabxanalarının yaranması və formalaşması görkəmli alimlərin adı və fəaliyyəti ilə əlaqədardır. Qədim dünyanın və orta əsrlərin ən böyük kitabxanalarına: saray, məscid, mədrəsə, kilsə, monastr kitabxanalarına görkəmli alimlər, din xadimləri rəhbərlik etmiş, müdir, rəis, rəhbər və direktor vəzifələrində işləmişlər. Görkəmli alimlər, filosoflar, yaradıcı ziyalılar rəhbərlik etdikləri, fəaliyyət göstərdikləri kitabxanaların işində bir elmilik, elmi idarəetmə, oxuculara elmi əsaslarla xidmət mühiti formalaşdırmışlar. Beləliklə, qədim dünyanın və orta əsrlərin böyük kitabxanaları elmi müəssisə kimi formalaşmış, onların fəaliyyətində elmi tərəqqiyə, elmi tədqiqat işlərinin aparılmasına xidmət geniş yer tutmuş, bununla da elmi funksiyaları daha qabarıq şəkildə diqqəti cəlb etmişdir.

Qədim və orta əsr kitabxanalarının fəaliyyətində, elmi funksiyalarının daha əhatəli formalaşmasında imperatorların, çarların, şahların, knyazların və digər dövlət xadimlərinin mühüm rolu ol-muşdur. Qədim dünyada digər elmi-tədqiqat müəssisələri, akademiyalar olmadığından hökmdarlar tərəfindən yaradılan kitabxanalar və bu kitabxanalarda toplaşıb fəaliyyət göstərən görkəmli alimlər kitabxana işinin elmi xarakter daşımasını əsaslandırır, kitabxanalarda müxtəlif elm sahələrinə dair informasiya daşıyıcılarının toplanılmasını və qoruyub saxlanılmasını təmin etməklə yanaşı, elmlərin tədqiqində və öyrənilməsində elmi müəssisə kimi də fəaliyyət göstərməsini təşkil edirdilər. Fikirlərimizi dəqiqləşdirmək üçün dünya kitabxanaları tarixindən bəzi məlumatlara diqqət yetirək. Dünyada ilk kitabxananın nə vaxt və harada meydana gəlməsi sualı mədəniyyət tarixçilərini həmişə düşündürmüş, ciddi tədqiqatların mövzusu olmuşdur. XX əsr tədqiqatları, qismən də olsa bu suala cavab vermişlər. Amerika tarixçisi S.N.Kramer «Tarix Şumerdən başlanır» adlı tədqiqatında göstərir ki, miladdan öncə, ən azı min il əvvəlki qədim Şumerdə güclü mədəniyyət, elm, ədəbi ənənə olmuşdur. Şumerdə zəngin «kitabxana» və orada gil lövhələrdən ibarət «kitab»lar, yüzlərcə müxtəlif növ kitabələr, elmi

əsərlər vardı. Bu kitabxanalarda görkəmli alimlər zalışırdı. Burada dünyada ilk kitabxana kataloqu yaranmışdı. Şumer kitabxanaları zəngin informasiya daşıyıcılarına malik olmaqla elmi mərkəz kimi formalaşmışdı. Beləliklə, başqa mədəniyyətinin beşiyi, «tarixin başlanğıcı» sayılan Şumer dünyada kitabxanaların vətəni olmuş, kitab-xanaçılıq işi buradan başlamışdır.

Maraqlıdır, bəs ilk kitabxanaları yaradan Şumerlər kimdir? Bu barədə ciddi tədqiqatlar müəllifi, görkəmli Azərbaycan alimi Elməddin Əlibəyzadə dünya şumerşünaslığına söykənərək yazır: «Şumerlər dünyanın ilk sivilizasiyalı xalqıdır: Şumerlər müasir türk xalqlarının əcdadlarıdır». Şumerlərdən sonra gil lövhələrdən ibarət kitabxanalar yaratmaq və onu gələcək nəsillərə ötürmək sahəsində Assuriya çarlığının xüsusi xidməti vardır. Miladdan əvvəl VII əsrdə Assuriya çarı Aşurbanipal qədim dünyanın ən böyük kitabxanası olan Neynəva kitabxanasını yaratmışdı. Bu kitabxanada 20000-dən çox gil lövhə saxlanılırdı. Bəzi tarixzilər göstərirlər ki, kitabxanada 100000 gil lövhə olmuşdur. Qarşısında «Nəsihət və məsləhət evi» yazılmış Neynəva kitabxanasında görkəmli Assuriya alimləri-qrammatiklər, astronomlar, astroloqlar, riyaziyyatçılar işləyirdilər. Burada bir çox elmi kəşflər edilmiş, kitabxana o dövrdə elm məbədi kimi məhşurlaşmışdır. Assuriya imperiyası dağıldıqdan sonra diqqəti Yunanıstan daha zox cəlb edir. Yunan coğrafiyaçısı

Strabon yazırdı ki, mənə məlum olduüuna görə Aris-totel kitab toplamağa böyük diqqət yetirən və Misir fironlarına kitabxana təşkil etməyi öyrədən ilk adam olmuşdur. Beləliklə, Misirdə kitabxanaların inkişafına Yunanıstan böyük təsir göstərmişdi. Dünyanın ilk ensiklopediyaçı alimi Aristotelin ilk kitabxana yaratması, kitabxanaların təşkilinə diqqət yetirməsi qədim dünya kitabxanalarının işinə elmi xarakter verməklə, kitabxana işinin elmi funksiyasını əsaslandırmış, kitabxana işini elmə xidmət edən, onu yayan və inkişaf etdirən bir müəssisə kimi formalaşması ən'ənəsini möhkəmləndirmişdir.

Yunanıstanda ilk ümumi kitabxana miladdan əvvəl 330-cu ildə Afinada yaradılmışdı. Bu kitabxana özündən əvvəlki kitabxanalara nisbətən daha geniş oxucu dairəsinə xidmət edən, görkəmli alimlər çalışan, elmi tədqiqatlar aparan zəngin kitabxanalardan biri idi. Kitabxananın əməkdaşları içərisində görkəmli alimlərin olması və onların apardıqları tədqiqatlar kitabxana işinin elmi xarakter almasına, elmi müəssisə kimi formalaşmasına gətirib çıxarmışdır. Çox vaxt Misiri başəriyyətin beşiyi adlandırırlar. Misir, həmçinin başəriyyətin fikir xəzinəsi olan kitabxanaların da beşiyi olmuşdur. Buradan «fikir karvanı» (Frensis Bekon) başəriyyətə yeni biliklər kəşf etmək üzün ucsuz-bucaqsız səfərə çıxmışlar.

Bu səfər heç də qüursuz olmamış, dünya sivilizasiyasının əsas nailiyyətlərindən biri olan kitabxanaların yaranması və inkişafı sahəsində böyük uğurlar qazanmış, qədim dünyanın elmi fikrinin böyük məbədgahı, başəriyyətin fəxri olan İsgəndəriyyə Kitabxanası meydana gəlmişdir. Bu kitabxana miladdan əvvəl 3-cü əsrdə yaranmış, hökmdar Filadelfin dövründə böyük inkişafa nail olmuş, başər elminin tərəqqisində, qədim dünyanın nailiyyətləri-

nin gələcək nəsillərə çatdırılmasında böyük rol oynamışdır. Hökmdar Filadelf bu kitabxanaya rəhbərlik etməyi öz müəllimi və tərbiyəçisi, görkəmli alim Zenodota tapşırmışdı. Bu böyük alimin rəhbərliyi və köməyilə dünya elm və mədəniyyət tarixində ən böyük elmi nailiyyət hesab edilən Homerin «İliada» və «Odisseya» əsərləri tam şəkildə yenidən yazıya alınmış, bəşəriyyətin istifadəsinə verilmişdir. Belə böyük elmi əhəmiyyətə malik bir işin başa çatdırılması kitabxanada aparılan elmi tədqiqatlara əsaslı sübutdur. Kitabxanada ən görkəmli alimlərin, yaradıcı ziyalıların işləməsi, ölkənin bütün elmi potensialının bu kitabxana ətrafında birləşməsi əsas elm mərkəzi kimi formalaşmasını və fəaliyyət göstərməsini təmin etmişdi. İsgəndəriyyə Kitabxanası həmçinin qədim dünyanın kitabxanaşünaslıq fikrinin meydana gəlib formalaşmasında, kitabxanaşünaslığın və biblioqrafiyanın əsasının meydana gəlməsində mühüm rol oynamış, mükəmməl kitabxana kataloqunun və biblioqrafik göstəricilərin yaranmasının əsasını qoymuşdur.

İlk görkəmli kitabxanaçı və biblioqraf da burada yetişmişdir. Bu, öz dövrünün görkəmli alimi, özündən sonra 800-dən artıq əsər qoyub getmiş, 20 il İsgəndəriyyə Kitabxanasına başçılıq etmiş, ilk biblioqrafik əsər yazmış Kallimaxdır. Kallimax bu əsərində ilk dəfə olaraq yunan ədəbiyyatına dair əsərlərin təsvirini və müəlliflər haqqında biblioqrafik məlumat vermişdir. Bunlar bir daha sübut edir ki, qədim dünyanın fəxri, bəşəriyyətin ümummilli sərvəti olan bu böyük kitabxana mühüm elm mərkəzi olmuş, hərtərəfli elmi funksiyalar yerinə yetirmişdir. İsgəndəriyyə Kitabxanası təxminən 10 əsr müddətində, yəni miladdan əvvəl III əsrdən bizim eranın VII əsrinə qədər bəşəriyyətə xidmət göstərmiş, dünya elminin və mədəniyyətinin inkişafına böyük töhfələr bəxş etmişdir. Dünya kitabxanaçılıq təcrübəsini zənginləşdirən, gələcək kitabxanaların elmi fəaliyyətini istiqamətləndirən bu böyük elmi mərkəz kitabxanaçılıq fikrinin meydana gəlib formalaşmasına, dünyanın böyük kitabxanalarının təşkili və idarə olunmasının elmi həllinə ciddi təkan vermişdir.

Qədim dünya kitabxanaları içərisində Roma kitabxanalarının da xüsusi yeri vardır. Roma kitabxanaları qədim dünyanın digər kitabxanalarından fərqli olaraq daha geniş oxucu dairəsinə xidmət etməyi, kitabxana işinə dövrün görkəmli alimlərini cəlb etməyi, elmi işə xidmət etməyi ilə fərqlənmişlər. Roma hökmdarları kitabxanaların yaradılması, saxlanılması və idarə olunması, dövlət kitabxanaları kimi tanınan hökmdarlara məxsus kitabxanalara alimləri daha geniş cəlb etməsi ilə fərqlənmişlər. Romada kitabxanalara rəhbərlik prokuratorlara tapşırılırdı. Qaydaya görə bu vəzifəni ancaq görkəmli alimlər və yaxud şairlər tuta bilərdilər. Beləliklə, qədim dünya kitabxanalarının tarixindən gətirdiyimiz misallar bir daha təsdiq edir ki, bəşəriyyətin yaddaşı kimi şöhrət tapan bu kitabxanalar böyük elmi mərkəzlər kimi fəaliyyət göstərmiş, elmi funksiyalar yerinə yetirmişlər. Daha doğrusu, qədim dünya kitabxanalarının funksiyaları içərisində elmi funksiya daha geniş inkişaf tapmışdı.

Azərbaycan kitabxana tarixinə nəzər saldıqda, qədim Azərbaycan kitabxanalarının fəaliyyətini təhlil etdikdə belə bir həqiqət ortaya çıxır ki, qədim

dünya kitabxanalarına xas olan elmi xüsusiyyətlər və kitabxanaların geniş elmi funksiyalar yerinə yetirməsi Azərbaycan kitabxanalarının təcrübəsində də geniş tətbiq edilmişdir.

VII əsrin ortalarında Azərbaycan ərəblər tərəfindən işğal edildikdən sonra ölkədə islam mədəniyyəti yayılmağa başladı. Ərəblər islam dinini yaymaq üçün məscidlər və mədrəsələr yaratmağa xüsusi diqqət yetirirdilər. Orta əsr məscid və mədrəsə kitabxanalarının tarixindən məlum olur ki, bir qayda olaraq məscid və mədrəsələrin yanında zəngin kitabxanalar təşkil edilmişdir. Məscid və mədrəsə kitabxanalarının fonunda əsasən dini kitablar toplanılmasına baxmayaraq, dünyəvi və elmi ədəbiyyata da rast gəlmək olurdu. Kitabxanalara bir qayda olaraq alim ruhanilər, yüksək təhsil görmüş din xadimləri başçılıq edirdilər. Məscid və mədrəsə kitabxanaları islamşünaslığın mərkəzi kimi çıxış edir, islam ideyalarının öyrənilməsi və yayılmasında xüsusi rol oynayırdılar. Məscid və mədrəsə kitabxanalarının fəaliyyətində islamın tədqiqi və təbliği mühüm yer tutduğundan elmi funksiya mühüm amil kimi ortaya çıxırdı.

Azərbaycan kitabxanaçılıq tarixində də qədim və orta əsr kitabxanalarının elmi müəssisə kimi inkişaf və fəaliyyəti, elmi funksiyalar yerinə yetirməsi haqqında istənilən qədər elmi dəlillər və faktlar mövcuddur. Dərin elmi araşdırmalar əsasında meydana çıxan, əsaslı və elmi cəhətdən səhih faktların ümumiləşdirilməsi nəticəsində meydana çıxarılıb sistemləşdirilən elmi biliklər fikrimizi bir daha təsdiq edir.

Qədim dövrlərdə və orta əsrlərdə Azərbaycanda kitabxana işi əsasən üç istiqamətdə inkişaf edirdi: hökmdarlar tərəfindən təşkil edilən saray kitabxanaları; məscid və mədrəsələrin dini kitabxanaları; böyük şairlərin, filosofların, alimlərin, feodalların və vəzirlərin şəxsi kitabxanaları. Saray kitabxanaları dövlət kitabxanaları statusuna malik idi. Onların zəngin universal və elmi fondları vardı, hökmdarlar öz kitabxanalarını zənginləşdirmək, ən qiymətli əlyazmaları və kitabları əldə etmək üçün vəsait əsirgəmirdilər. Sarayda belə kitabxanalar üzün ən yaxşı bina ayrılırdı. Saray kitabxanalarında dövrün ən görkəmli alimləri, yazıçıları, filosofları, şairləri işə cəlb edilirdi. Belə kitabxanalara misal olaraq, XII əsrdə fəaliyyət göstərmiş, Şirvanşahlar sarayının, Ağqoyunlu və Qaraqoyunlu hökmdarlarının, həmçinin Səfəvi şahlarının kitabxanalarını göstərmək olar. Saray kitabxanaları kitabı toplayıb, qoruyub saxlamaqla yanaşı olaraq, əlyazma kitablarının üzünün köçürülüb çoxaldılmasında da yaxından iştirak edirdilər. Saray kitabxanalarında kitabın üzünü köçürən, onları cildləyən, miniatürlərlə bəzəyən, bir sözlə, kitab istehsalını təşkil edən qu-rumlar da var idi.

Şirvan hökmdarı Mənüçöhrün XII əsrdə yaradılmış kitabxanası dövrün ən böyük kitabxanası idi. Kitabxananın yanında böyük şairlər məclisi fəaliyyət göstərirdi. Bu məclisə məşhur şairlərlə yanaşı, görkəmli alimlər də gəlir və kitabxananın idarə olunmasında bilavasitə iştirak edirdilər.

Ağqoyunlu və Qaraqoyunlu hökmdarlarının saraylarında da universal

elmi kitabxanaların fəaliyyət göstərməsi haqqında tarixi məlumatlar vardır. Ağqoyunluların ən qüdrətli hökmdarı Uzun Həsənin (1453-1478) kitabxanasında 60-a qədər alim çalışırdı.

Orta əsrlərdə Azərbaycanda ilk elmi kitabxanalar da meydana gəlmişdi. Belə kitabxanalara misal olaraq böyük Azərbaycan alimi Nəsirəddin Tusinin XIII əsrdə yaratmış olduğu Marağa rəsədxanası kitabxanasını göstərə bilərik. Bu kitabxananın fondunda 400 mindən artıq kitab saxlanılırdı. Kitabxana o dövrdə Şərq ölkələrində ən böyük kitabxanalardan biri idi. N.Tusinin rəhbərliyi və təşəbbüsü ilə təşkil edilən bu kitabxanada böyük elmi işlər aparılır, əlyazma kitabları hazırlanır, onların çoxaldılması və istehsalı təşkil edilirdi. Kitabxanada görkəmli alimlər işləyirdilər. Bu kitabxananın idarə edilməsi işində 20-dən artıq alimin fəaliyyət göstərməsi məlumdur.

Rəsədxanada aparılan elmi-tədqiqat işlərinin müxtəlifliyinə və əhatəliliyinə əsaslanaraq demək olar ki, kitabxana zəngin elmi fonda malik olmuş, alimlərin sorğularını ödəmək üzün burada ciddi elmi tədqiqat əsərləri toplanmışdı. Elmi və saray kitabxanalarının yaranmasına Azərbaycanda XIII-XVI əsrlərdə daha çox təsadüf edilir. Məlum olduğu kimi, 1256-1257-ci illərdə Azərbaycan monqollar tərəfindən işğal edilmişdi. Monqol hakimi Qazan xanın hakimiyyəti dövründə Təbriz şəhərindəki sarayda böyük bir kitabxana binası tikilmiş, burada zəngin kitabxana yaradılmışdı. Xan bu kitabxanada işləmək üçün dövrün ən görkəmli alimlərini cəlb etmişdi. Orta əsr Azərbaycan kitabxanalarından danışarkən Qazan xanın vəziri, görkəmli tarixçi - alim Rəşidəddinin fəaliyyətini xüsusi qeyd etmək yerinə düşər. Öz dövrünün məşhur tarixçisi, istedadlı dövlət xadimi kimi şöhrət tapmış Rəşidəddin həm də tanınmış kitab həvəskarı, kitabxana təşkilatçısı və kitabxanaçı idi. Rəşidəddinin o dövrdə yaratdığı kitabxana Şərqin ən böyük və ən zəngin, nadir kitablar saxlayan kitabxanalarından biri olmuşdur. 60 mindən artıq kitab fondu olan bu kitabxana görkəmli alimlər, kitabçılar, xəttatlar tərəfindən idarə olunurdu.

Orta əsr kitabxanalarının elmi funksiyalar daşımasına təsir göstərən mühüm amil kimi XVI əsrdə Təbrizdə görkəmli dövlət xadimi Şah İsmayıl Xətai tərəfindən yaradılmış saray kitabxanasını misal göstərmək yerinə düşər. Dünyanın ən zəngin kitabxanaları səviyyəsinə yüksəlmiş bu kitabxana Şah Ismayıl Xətainin qayğısı sayəsində böyük elmi mərkəzə çevrilmişdi. Kitabxana işinə xüsusi diqqət yetirən Şah Ismayıl sarayda bu məqsədlə ən yaxşı otaqlar ayırmışdı. Kitabxananın yaradılmasına, avadanlıqla təchiz edilməsinə, tərtibatına xeyli vəsait sərf edilmişdi. Kitabxana öz dövrünün ən zəngin kitabxanalarından biri hesab edilirdi. Burada Şərqin ən nadir əsərlərinə belə rast gəlmək olardı. Şah Ismayılın şəxsi təşəbbüsü sayəsində dövlət kitabxanası səviyyəsinə yüksəlmiş bu kitabxana haqqında ilk dövlət fərmanı imzalanmışdır. Bu fərmanla o dövrün görkəmli rəssamı Kəmaləddin Behzad kitabxananın rəisi vəzifəsinə təyin edilmiş, kitabxana dövlət kitabxanası elan olunmuş, onun quruluşu, kitabxana işçilərinin tərkibi, həmçinin kitabxananın vəzifələri müəyyənləşdirilmişdir. Kitabxananın fəaliyyətinin təhlili nəticəsində

belə bir fikir ortaya çıxır ki, o, dövlət kitabxanası, universal elmi kitabxana funksiyasını yerinə yetirən, elmi tədqiqat işinə xidmət edən bir kitabxana olmaqla yanaşı, həm də böyük alimlər ordusunun fəaliyyət göstərdiyi elmi müəssisə olmuşdur.

Yekun olaraq göstərmək olar ki, qədim və orta əsr kitabxanaları cəmiyyətin tərəqqi və inkişafında elmi müəssisə kimi mühüm rol oynamış, böyük elmi funksiya həyata keçirmişdir. İndi də müasir kitabxanaların elmi funksiyasını nəzərdən keçirək. Hazırda respublikamızda 800-dən artıq elmi və elmi-texniki kitabxana fəaliyyət göstərir. Bu kitabxanalar içərisində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Təhsil Nazirliyinin və İqtisadiyyat Nazirliyinin kitabxanaları xüsusi yer tuturlar. Bu kitabxanalar respublikamızda bilavasitə elmi - tədqiqat işinin inkişafına xidmət edirlər.

Zəngin və nadir kitab fonduna, yüksək ixtisaslı mütəxəssis kadrlara, elmi statusa malik olan bu kitabxanalar respublikamızda geniş elmi funksiyalar yerinə yetirirlər.

Kitabxanalar elmi tədqiqat işinə xidmət etməyi, respublikamızın elmi potensialını möhkəmləndirməyi qarşılarına mühüm vəzifə kimi qoyduqlarından onlarda oxucuya xidmət işinin təşkili bilavasitə elmi müəssisələrin fəaliyyəti ilə əlaqələndirilir, elmi kitabxanalarda müəssisənin apardığı elmi tədqiqatlara müvafiq kitab fondlarının yaradılmasına, məlumat-biblioqrafiya və informasiya işinin təşkilinə xüsusi diqqət yetirilir. Elmi kitabxanalarda aparılan işi bilavasitə diqqət mərkəzində saxlayan sahə elmi müəssisələri kitabxanalarda aparılan informasiya işi ilə müntəzəm olaraq maraqlanmaqla onun istiqamətinin müəyyənləşdirilməsinə, müasir elmi məlumatlarla təchiz edilməsinə bilavasitə nəzarət edirlər. Müasir elmi kitabxanalarda aparılan informasiya işinin keyfiyyətli təşkilində informasiya daşıyıcılarının müasir formalarından, audiovizual materiallardan, disklərdən, kinolentlərindən və s. istifadə, onların işinə çeviklik, dinamiklik gətirmiş, elmiliyini və səmərəsini daha da artırmışdır. Doğrudur, respublikamızın ağır iqtisadi böhran keçirdiyi indiki şəraitdə bu vəzifələri yerinə yetirmək o qədər də asan deyil, bununla belə kitabxanalarımız bu vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gələ bilir. Kitabxanaların elmi funksiyalarından danışarkən kütləvi kitabxanaların fəaliyyətinə diqqət yetirmək, onu araşdırmaq yerinə düşər. Ölkəmizdə kitabxanaların mövcud tipologiyasına görə kitabxanalar iki tipə: universal və xüsusi kitabxana tipinə bölünürlər. Universal kitabxanalar da öz növbəsində universal-elmi və universal kütləvi kitabxana tipinə ayrılırlar.

Elmi kitabxanaların elmi funksiyası haqqında tam olmasa da, öz fikirlərimizi şərh etdik. İndi də universal-kütləvi kitabxanaların elmi funksiyası haqqında, onların işinin məzmununda baş verən elmi işin xüsusiyyətləri haqqında məlumat verək. İlk növbədə kitabxananın adına diqqət yetirək.

Universal-kütləvi. «Universal» sözündə bir elmilik özünü aşkarlayır. Məlumdur ki, kütləvi kitabxanaların fondunda bütün elm sahələrinə dair az da olsa ədəbiyyat toplanır. Hər bir kitabxananın elmi simasını təşkil edən fondun uni-

versal xarakteri oxuculara xidmət sahəsində onların potensial imkanlarını artırır.

Deməli, kütləvi kitabxanalar elmə xidmət imkanı əldə edirlər. Respublikamızda kütləvi kitabxanaların ərazi prinsipi üzrə yerləşdirilməsi həmin ərazidə kütləvi kitabxanaları aparıcı mövqeyə çıxarır. Kütləvi kitabxanaların ilk nümunəsi müstəqil kənd kitabxanası və ya mərkəzləşmiş kitabxana sistemi şəraitində mərkəzi kitabxanın kənd filialıdır. Kənd kitabxanalarının funksiyalarını müəyyənləşdirmək üçün müasir kəndin sosial strukturunu nəzərdən keçirək. Müasir kəndlərimizdə elm, təhsil, mədəniyyət və səhiyyə müəssisələrində məktəb, klub, kitabxana və səhiyyə məntəqələri mövcuddur. Bəzi kəndlərdə klub və səhiyyə məntəqələrinin olmamasını və ya az olmasını nəzərə alsaq, onda kənddə elm, mədəniyyət və təhsil müəssisəsi kimi iki müəssisə - məktəb və kitabxana qalır. Məlumdur ki, müasir kəndlərimizdə yüksək səviyyəli ziyalı ordumuz - müəllimlər, həkimlər, kənd təsərrüfatı mütəxəssisləri, müxtəlif elm və sənaye sahəsinin mütəxəssisləri, mədəniyyət işçiləri fəaliyyət göstərir. Bu ziyalılara kitabxana xidmətinin təşkili kənd kitabxanalarının öhdəsinə düşür və onların qarşısında böyük vəzifələr qoyur. Kənd kitabxanaları ziyalılarımıza və ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinə informasiya xidmətini təşkil edən, onların tələbatını ödəyən yeganə informasiya, elmi, mədəni müəssisə kimi fəaliyyət göstərir. Kənd kitabxanaları fondlarının universallığı onlara elmilik və bütövlük xarakteri verir. Kənd kitabxanaları fondunun universallığı qismən də olsa onlara öz oxucularının tələbatını ödəmək imkanı verir. Mərkəzləşmiş kitabxana sistemi şəraitində isə oxucuların tələbatını ödəmək üzün potensial imkanlar xeyli çoxalır. Mərkəzləşmə şəraitində müstəqil kənd kitabxanaları rayon mərkəzi kitabxanasının filialı kimi fəaliyyət göstərdiklərindən kənd kitabxanaları öz oxucularının sorğusunu ödəmək üçün mərkəzi kitabxananın fondundan istifadə etmək imkanı əldə edirlər. Beləliklə, kənd ziyalılarının kitaba və digər informasiya daşıyıcılarına tələbatının ödənilməsində təkcə bir kənd kitabxanası deyil, mərkəzləşmiş kitabxana sistemi iştirak edir ki, bu da oxucuların tələbatının ödənilməsi işini əhəmiyyətli dərəcədə yaxşılaşdırır. Əgər kənd ziyalılarının mütaliə tələbatında elmi ədəbiyyat əhəmiyyətli yer tutursa, deməli, kənd kitabxanaları bilavasitə elmə xidmət edir, oxucuların elmi sorğusunu ödəyir. Buradan da kənd kitabxanalarının regional miqyasda elmə xidmət etməsi funksiyası meydana çıxır. Bütün bunlar bir daha sübut edir ki, bütün tipdən və növdən olan kitabxanalar elmi ədəbiyyatı təbliğ etdiklərinə, bütün informasiya daşıyıcıları vasitəsilə elmə xidmət etdiklərinə görə elmi funksiya daşıyırlar.

Beləliklə, kitabxanaların sosial funksiyaları içərisində informasiya, mədəniyyət, təhsil və tərbiyə funksiyası kimi elmi funksiya da mühüm yer tutur. Doğrudur, kitabxanaşünaslar kitabxanaların elmi funksiya daşıdığını elmi cəhətdən əsaslandırmamışlar. Ancaq müasir tarixi şərait, kitabxanaların təcrübəsinə əsasən formalaşan elmi fikirlər onların digər funksiyalarla yanaşı, elmi funksiya daşıdığını da irəli sürmək imkanı verir. Bu mühüm elmi fikri kitabxanaların çoxəsrlik təcrübəsi də təsdiqləyir.

2. Kitabxanaların informasiya funksiyası

Müasir dövrdə kitabxanaların informasiya funksiyası daha böyük əhəmiyyət kəsb etməkdədir. Bunun əsas səbəbi XX əsrin axırlarından başlayaraq XXI əsrin informasiya əsri kimi formalaşmasıdır. Belə ki, son dövrlərdə elmi ədəbiyyatda informasiyalaşdırılmış cəmiyyət anlayışı daha geniş işiqlandırılmaqdadır. Əgər dünya alimləri XXI əsri informasiya əsri adlandırırlarsa, heç şübhəsiz, onda müasir cəmiyyətimiz də informasiyalaşdırılmış cəmiyyət kimi fəaliyyət göstərməlidir.

Bu baxımdan müasir dövrdə informasiya sistemlərinin, o cümlədən informasiya daşıyıcısı, cəmiyyətdə kommunikasiya vasitəsi kimi şöhrət tapmış kitabxanaların qarşısında daha mühüm, kitabxana işinin informasiyanın avtomatlaşdırılması və mexanikləşdirilməsi, informasiya xidmətinin elmi əsaslarla daha da təkmilləşdirilməsi kimi çox mühüm vəzifələr durur. Cəmiyyətdə böyük elmi-texniki tərəqqi baş verdikcə, sivilizasiya mürəkkəbləşdikcə sənəd informasiyasına olan tələbat daha da çoxalmış, müxtəlif formalar kəsb etmiş, daha geniş istifadəçi dairəsinə xidmət etməyə başlamışdır. Uzun əsrlər boyu informasiyanın, kitabın böyük daşıyıcısı kimi tanınan kitabxanalar bir ənənə olaraq sənəd informasiyasını, kitabı toplayıb saxlayan, onu oxucuların istifadəsinə verən bir müəssisə kimi formalaşmışdır. Ancaq bizim əsrimizdə xeyli sosial dəyişikliklər olmuş, təhsildə, elmi-tədqiqat işində, texniki tərəqqidə, mədəni inkişafda böyük irəliləyişlər baş vermiş, insanlara informasiya xidməti ciddi surətdə mürəkkəbləşmiş və yeniləşmişdir. Məlumdur ki, kitabxanaların ənənəvi işi ilə bu vəzifələrin öhdəsindən gəlmək mümkün deyildir. Ona görə ki, əsrimizin ikinci yarısından başlayaraq sənəd informasiyasına olan tələbat elə yüksək səviyyəyə çatmışdı ki, bu tələbatı ödəmək üçün cəmiyyətdə yeni yollar, üsullar, orqanlar axtarmağa başlamışdılar. Belə orqanlar 50-ci illərdən meydana gəlməyə başlayan və cəmiyyətin informasiya təminatında mühüm yer tutan informasiya orqanları oldu. İlk illərdə bu orqanların kitabxanaları əvəz etməsi, yaxud kitabxanaların onların tərkibinə daxil olması haqqında fikirlər meydana çıxmışdı. Ancaq zaman hər şeyi öz yerinə qoydu. Zaman keçdikcə informasiya orqanlarının fəaliyyət dairəsi ilə kitabxanaların fəaliyyət dairəsi müəyyənləşdi. Problemin həllinə böyük aydınlıq gətirildi.

Məlum oldu ki, kitabxana kimi fəaliyyət göstərməyən informasiya orqanları sənədlərin özünü yaymaqla yox, onun məzmununu dərindən açmaqla, yaymaqla məşğul olur. Daha doğrusu, jurnalların tam nömrəsinin yox, onun ayrı-ayrı məqalələrinin, kitabların tam halda deyil, onun ayrı-ayrı fəsillərinin azılmasına daha çox diqqət yetirirlər. Belə ki, kitabxanalar sənəd informasiyasını öyrənib yaydığı halda, infrormasiya orqanları daha çox jurnal və kitablarda öz əksini tapmış predmetlərin yayılmasına diqqət yetirirlər. Həmçinin ilk növbədə informasiya orqanları daha çox təbiət və texniki elmlərin öyrənilib yayılmasına geniş yer verdiklərindən humanitar və sosial elmlər onların təsir dairəsindən kənarda qalmışdı. Doğrudur, informasiya

orqanları son dövrlərdə bu boşluğu doldurmağa çalışsalar da, istənilən nəticəni əldə edə bilmədilər. Informasiya orqanları ilə kitabxanaların qarşıdurması illərində və sonralar onların arasında ümumi qarşılıqlı anlaşma əldə edildiyi dövrdə kitabxanaların iş üsulunda, kitabxana işinin məzmununda, oxucuya xidmət prosesində, sözün əsl mə'nasında böyük yeniləşmə baş verdi. Bu yeniləşmə əsasən, kitabxana proseslərinin avtomatlaşdırılması, kitabxana işinə hesablayıcı texnikanın, kompüterlərin daha sürətlə daxil olması ilə nəticələndi. Həmçinin müasir kitabxanalarda texnikanın geniş surətdə tətbiqi ilə əlaqədar onların fondunda çap materialları ilə yanaşı, çap edilməmiş audiovizual materiallar, filmlər, slaydlar, səsyazmaları, maşınla oxunan fakslar, maqnit lentlərinə köçürülmüş digər materiallar daxil olmağa başladı ki, bunları da hesablayıcı texnika olmadan emal etmək mümkün deyildir.

Doğrudur, ikinci qrup materiallarla: yəni çap edilməyən materiallarla iş heç də bütün kitabxanaların fəaliyyətində geniş tətbiq edilməsə də, demək olar ki, tədricən bu proses bütün kitabxanaları əhatə etməkdədir. Bütün bunlar isə müasir zamanda kitabxanaların informasiya funksiyasını ön plana çəkir, onun sosial funksiya kimi daha da təkmilləşməsini tələb edir. Beləliklə, getdikcə mühüm əhəmiyyət kəsb edən informasiya funksiyası kitabxanaların qarşısında daha mühüm vəzifələr qoyur. Bu vəzifələr, hər şeydən əvvəl, kitabxanaçılıq peşəsinin məzmununda da dəyişiklik edilməsini, daha da təkmilləşdirilməsini tələb edir. Kitabxana işinə və informasiya – axtarış sistemlərinə texniki vasitələr geniş şəkildə daxil olduqca, kitabxana işinin computerləşdirilməsi zəruri tələbata çevrildikcə kitabxanaçılıq sənətinin formalaşdırılmasında humanitar biliklərlə yanaşı, texniki biliklərin öyrənilməsinə böyük ehtiyac duyulmaqdadır. Məhz buna görədir ki, 70-ci illərdən başlayaraq respublikamızda ali kitabxanaçılıq tədris planlarına humanitar, sosial, ictimai fənlərlə yanaşı, ali riyaziyyat, informatika, elektron - hesablama maşın-ları, proqramlaşdırma, kompüterləşdirmə və s. texniki fənlər daxil edilmişdir. Elm və texnikanın sürətli inkişafı, cəmiyyətin idarə edilməsində informasiyanın geniş vüsət alması, informasiyalaşdırılmış cəmiyyətin formalaşması prosesi məhz belə fənlərin tədrisini ön plana çəkir. Müasir kitabxanaçı klassik kitabxanaçılıqda olan bütün qabaqcıl ənənələri mənimsəməklə, kitabxana işinin və informasiyanın texniki vasitələrinə dərindən yiyələnməli, hesablama texnikası və kompüterlə işləməyi bacarmalıdır. Bunsuz kitabxananın informasiya fəaliyyətini təşkil etmək mümkün olmaz. Qabaqcıl hesablama texnikasının, telekommunikasiya vasitələrinin və mikroyazıların, həmçinin çap edilməyən audiovizual materialların kitabxanalarda toplanması kitabxanaçıya öz xidmət vəzifəsini həyata keçirtmək üçün böyük meydan açır. Texniki vasitələrə yiyələnmək, onlardan səmərəli istifadə etməyi bacarmaq müasir və gələcək kitabxanaçıların qarşısında böyük vəzifələr qoyur. Demək olar ki, kitabxanaçılığın gələcəyi bundan xeyli asılıdır. Məhz buna görədir ki, kitabxanaçılar bu problemin həllini ön plana çəkməli, kitabxana və informasiya işinin müasir texniki vasitələrinə dərindən yiyələnməli onlarla işləməyi bacarmalıdırlar. Bu

heç də o demək deyil ki, kitabxanaçı texnoloq, mühəndis və ya proqramzı olmalıdır. Kitabxanaçı texniki vasitələri bilən, ondan baş çıxaran, kitabxana işində onları tətbiq etməyi istiqamətləndirən bir şəxsiyyət olmalıdır.

Müasir dövrdə respublikamızda elm, mədəni quruculuq, elmi-texniki tərəqqi, təhsil və tərbiyə sahəsində qazanılan nailiyyətlər, cəmiyyət üzvlərinin intellektual səviyyəsinin yüksəlməsi, ziyalı ordusunun sürətlə artımı, oxucu kontingentinin keyfiyyətçə yüksəlməsi kitabxana xidməti qarşısında professionallığın artırılmasını, xidmət prosesinin daha da optimallaşdırılması və çevikləşməsi vəzifələrini qoymuşdur. Bu vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlməyin yeganə yolu müasir informasiya texnikasından uğurla istifadə etmək, bütün kitabxanaların fəaliyyətini bu istiqamətə yönəltməkdir.

Doğrudur, hələ respublikamızda kitabxanaçıların informasiya funksiyalarını lazımi səviyyədə qiymətləndirə bilməyən və bu prosesin ancaq elmi-texniki kitabxanalara aid olunmasını başa düşən kitabxanaçılara az da olsa rast gəlmək olur. Ancaq zaman keçdikcə respublikamızda kitabxanaların informasiya funksiyası daha möhkəm özül üzərində inkişaf edir və vətəndaşlıq hüququ qazanır. Bunu da göstərmək yerinə düşər ki, kitabxanaların informasiya funksiyası mədəniyyət, təhsil və tərbiyə funksiyalarının daha yüksək səviyyədə yerinə yetirilməsinə xidmət edir, onlarla qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Bəzi hallarda informasiya funksiyasının mədəniyyət, təhsil və tərbiyə funksiyasına nisbətən məhdud xarakterdə olmasını söyləyənlər də var. Bəzən dəlil gətirirlər ki, informasiyalı olmaq heç də şəxsiyyətin inkişafına mədəniyyət, təhsil və tərbiyə funksiyası kimi təsir göstərə bilmir. Ancaq problemin mahiyyətinə diqqət yetirdikdə məlum olur ki, informasiya olmadan, informasiyadan istifadə etmədən yüksək mədəniyyətli, təhsilli və tərbiyəli şəxsiyyət yetirmək qeyri-mümkündür. Müasir dünya sivilizasiyasında informasiya vermək, cəmiyyət üzvlərinin informasiyadan istifadəsini təmin etmək insan hüquqlarının əsas göstəricilərindən biri kimi yüksək qanunvericilik aktlarında təsbit edilmişdir. Azərbaycan Respublikasının «Kitabxana işi haqqında» qanununda göstərilir: «Kitabxanalar oxucuların mədəniyyət təsisatları və mədəni sərvətlərdən istifadə etmək hüquqlarını, habelə məlumat əldə etmək azadlığını təmin etməli, onların kitabxana fondlarından tam istifadə etməsi üçün hər cür şərait yaratmalıdır».

Tipindən, növündən və tabeziliyindən asılı olmayaraq universal və xüsusi kitabxanalar informasiya funksiyasını yerinə yetirmək üçün kitabxana işinin bütün forma və üsullarından istifadə etməli, oxucularla aparılan informasiya işini cəmiyyətin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə, milli ideo-logiyamızın təbliğinə, dövlətçiliyimizin möhkəmlənməsinə yönəltməlidir. Kitabxanalar informasiya xidmətini müvəffəqiyyətlə təşkil etmək üçün digər informasiya orqanları ilə əməkdaşlığa, kitabxana işinin əlaqələndirilməsinə, informasiya ehtiyatlarından səmərəli istifadə də işinə də diqqət yetirməlidirlər.

Beləliklə, müasir şəraitdə kitabxanaların sosial funksiyaları içərisində onların informasiya funksiyaları mühüm əhəmiyyət kəsb etməklə, müasir kitabxananın statusunun müəyyənləşdirilməsində mühüm əhəmiyyətə malikdir.

3. Kitabxanaların mədəniyyət funksiyası

Mədəniyyət funksiyası kitabxananın sosial funksiyaları içərisində ən önəmli yer tutur. Bunun başlıca səbəbi mədəniyyət funksiyasının kitabxananın digər funksiyalarının formalaşmasına yaxından kömək etməsi və onlarla çox dərin qarşılıqlı əlaqələrinin olmasından ibarətdir. Məlumdur ki, kitabxanalar mədəniyyətin mühüm və ayrılmaz sahəsi, mədəni inkişafın əsas göstəricilərindən biridir. Həmçinin kitabxana öz növbəsində bəşəriyyətin yaratmış olduğu mədəni sərvətlərin qoruyucusu və yayıcısıdır. Deməli, kitabxanalar mədəniyyətin ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, həm də mədəniyyətin yayılmasının əsas vasitəsidir, bazasıdır. Məhz buna görədir ki, kitabxananın mədəniyyət funksiyası lap qədim dövrlərdən başlamış zəmanəmizə qədər cəmiyyətin diqqət mərkəzində olmuş, kitabxanaşünaslıqla yanaşı, bir çox başqa sosial, humanitar və ictimai elmlərin tədqiqat obyekti olmuşdur. Görkəmli filosoflar, pedaqoqlar, sosioloqlar humanitar elm sahəsinin böyük xadimləri kitabxanalara ideal, universal şəxsiyyətin formalaşması vasitəsi, təhsil və tərbiyə müəssisəsi kimi baxmışlar. Dünya mədəniyyətini misilsiz incilərlə zənginləşdirmiş Azərbaycan xalqının əsrlər boyu yaratdığı qədim və bənzərsiz mədəniyyəti vardır. Kitabxanalar da xalqımızın böyük mədəniyyətinin tərkib hissəsi kimi daim mənəvi sərvətlərin toplanıb saxlanılmasında və yayılmasında iştirak etmiş, öz fəaliyyəti ilə mədəniyyətin daha da zənginləşməsinə xidmət göstərmişdir. Mədəniyyət cəmiyyətin bütün tarixi boyu əldə etdiyi maddi və mənəvi sərvətlərin toplusudur. Maddi mədəniyyət insan əməyi və zəkası ilə yaradılmış maddi sərvətlərin məcmusudur, istehsal vasitələri, əmək alətləri, ictimai varlığın maddi əsaslarıdır. Mənəvi mədəniyyət isə cəmiyyətin müəyyən inkişaf pilləsində, müəyyən tarixi şəraitdə meydana gəlib inkişaf edən təhsil sistemindən, elmi işlərdən, fəlsəfədən, əxlaqdan, ədəbiyyat və incəsənətdən ibarətdir. Cəmiyyət üzvlərinin mənəviyyatı və davranış normaları, adətlər, ən'ənələr, insanların tələbat və mənafelərinin inkişaf səviyyəsi və s. mə'nəvi mədəniyyətə daxildir. Mədəniyyət sırf sosial hadisə olub, insanların həyat və fəaliyyəti ilə əlaqədardır. Mədəniyyət özündə ümumbəşəri dəyərləri cəmləşdirdiyindən xalqların intellektual inkişafına böyük təsiri vardır. Cəmiyyət mədəniyyəti istiqamətləndirir, onun konkret məzmunu isə xalqın ruhu ilə müəyyən olunur. XX əsr mədəniyyəti olduqca rəngarəngdir. XX əsr elm, texnika, yüksək texnologiya, kompüter əsridir. Kompüter cəmiyyətin qarşısında böyük vəzifələr qoyur ki, bu da mədəniyyətin səviyyəsini yüksəltmək zərurətini doğurur. Müasir şəraitdə mədəniyyətin inkişafına ən böyük təsir göstərən kommunikasiya sistemləri və informasiya vasitələridir. Mədəniyyətsiz cəmiyyət olmadığı kimi kommunikasiyasız və informasiyasız mədəniyyət də yoxdur. Təsadüfi deyil ki, üzümüzə gələn XXI əsri dünyanın görkəmli alimləri informasiya əsri, XXI əsr cəmiyyətini isə informasiyalaşdırılmış cəmiyyət adlandırırlar. Buradan da mədəniyyətin inkişafında və yayılmasında informasiya və kommunikasiya müəssisəsi olan kitabxanaların böyük rolu və əhəmiyyəti

meydana çıxır. Mədəniyyətin tərkib hissəsi kimi formalaşan kitabxanalar onun bütöv, tam şəkildə inkişafını təmin edən vasitə kimi çıxış edir. Bir bioloji varlıq kimi insanın keçdiyi tarixi yolu təhlil etdikdə aydın olur ki, bütün mədəniyyət ayrıca götürülmüş insanın yaş dövrlərinə uyğun: uşaqlıq, yeniyetməlik, gənclik, kamillik və qocalıq dövrlərini keçirir. Belə ki, tale mədəniyyəti insanın doğulduğu gündən ölümünə qədər olan yolu keçməyə məcbur edir. Deməli, mədəniyyət yetkin, kamil insan tərbiyə etməyin əsas amili kimi çıxış edir, tərbiyə prosesinə təsir göstərən, insanı formalaşdıran, bilik, peşə və intellektual səviyyəsini yüksəldən bir vasitə rolunu oynayır. Göründüyü kimi, mədəniyyətin cəmiyyətin inkişafında rolu böyükdür, o, kitabxanalarla olduqca çox bağlıdır və biri digərinin fəaliyyətinin təşkilində və formalaşmasında iştirak edir. Kitabxana mədəniyyətin tərkib hissəsi kimi cəmiyyətin həyatında baş verən qlobal mədəni proseslərdə iştirak etdiyi kimi, mədəniyyət də öz növbəsində kitabxanaların mədəni, elmi, informasiya, təhsil və tərbiyə müəssisəsi kimi formalaşmasına kömək edir. Beləliklə, mədəniyyətlə kitabxana arasındakı qarşılıqlı əlaqə və bağlılıq kitabxanaların mədəni funksiyasının böyük sosial əhəmiyyətini aşkara çıxarır. Kitabxanalar da mədəniyyətə xas olan xüsusiyyətlərə əsaslanaraq insanlara yaş dövrlərinə görə xidmət etməyə üstünlük verir, cəmiyyətdə uşaqlara xidmət etmək üçün uşaq kitabxanaları, gənclərə xidmət etmək üçün gənclər kitabxanaları, əhaliyə bütövlükdə xidmət etmək üzün isə kütləvi kitabxanalar fəaliyyət göstərir. Deməli, kitab və kitabxana hər bir insanın anadan olduğu gündən ömrünün axırına qədər onun yol yolçusu, yaxın dostu, köməkçisi, məsləhətçisidir. Məlumdur ki, hərtərəfli inkişaf etmiş, intellektual səviyyəli, yetkin insanın həyatında mütaliə ən böyük rol oynayır. Geniş mütaliəsi olmayan insan yetkin ola bilməz. Yetkinlik ardıcıl və sistemli mütaliənin məhsuludur. İnkişaf etmiş, informasiyalaşdırılmış müasir cəmiyyətdə kitabxanasız mütaliə prosesinin təşkilindən danışmaq mümkün deyildir. Deməli, zəngin və nadir kitab fondlarına malik olan kitabxanalar olmadan ardıcıl, sistemli, məqsədyönlü mütaliədən danışmaq çətindir. Mütaliə insanın idrak fəaliyyətinin növü kimi digər informasiya vasitələri ilə müqayisədə əvəzedilməz üstünlüklərə malikdir. Son zamanlar aparılan sosioloji tədqiqatlar zamanı müəyyən olmuşdur ki, soruşulanların 75 faizindən çoxu mütaliəni ən dolğun və əhəmiyyətli informasiya vasitəsi hesab etmişdir. Buna görə mütaliə insanların həyatına elə daxil olmuşdur ki, onun heç zaman sıxışdırılıb aradan çıxarılması mümkün deyildir. İnsanın idraki tələbatının mütaliə prosesində daha dolğun ödənilməsi onları ardıcıl sistemli mütaliəyə cəlb edir. İnsanların mütaliə marağının ödənilməsində kitabxanaların böyük təşkilatçılıq rolu müasir zamanda daha təsirli vasitəyə çevrilmişdir.

Son zamanlar radio və televiziyanın sürətli inkişafı, yeni-yeni radio verilişlərinin və televiziya kanallarının meydana gəlməsi bəzi tədqiqatçıları belə qənaətə gətirmişdi ki, bu proses kitaba, mütaliəyə olan tələbatı xeyli azaldacaq. Ancaq zaman keçdikcə bu fikrin səhv olduğu, cəmiyyətdə kitaba və mütaliəyə marağın nəinki azaldığı, hətta artdığı təsdiqləndi. Cəmiyyət bilikləri

və informasiyanı yaymaq üçün radio və televiziya kimi olduqca geniş auditoriya əldə etdi. Radio və televiziya nəinki mütaliənin azalmasına, əksinə, daha da genişlənməsinə səbəb oldu. Digər mühüm amillər: mütaliə vaxtının oxucu tərəfindən müstəqil seçilmək imkanı, mütaliə üçün kitabların seçilməsinin fərdi marağa uyğun gəlməsi, mütaliə vaxtında düşüncə, fikir prosesinin tam azad olması, oxucunun mütaliə etdiyi ədəbiyyata təkrar-təkrar qayıtmaq, oxuduqlarını müqayisə etmək imkanına malik olması mütaliə prosesinə həlledici təsir göstərir. Buradan da mütaliənin əsas təşkilatçısı olan kitabxanaların cəmiyyətin mədəni inkişafında mühüm əhəmiyyətə malik bir müəssisə kimi əhəmiyyəti artır. Məhz buna görədir ki, zəmanəmizin görkəmli alimləri və ziyalıları yaradıcılıq prosesində kitabxanalardan istifadəyə böyük ehtiyac hiss etdiklərini etiraf edirlər. Xüsusilə insanların mədəni inkişafına böyük təsir göstərən bədii və incəsənət ədəbiyyatının kitabxanaların fondunda geniş yer tutması və ardıcıl təbliğ edilməsi onların mədəni funksiyalarına daha geniş meydan verir. Kitabxanalarda bədii və incəsənət əsərlərinin təbliği məqsədilə həyata keçirilən kütləvi tədbirlər: ədəbi-bədii gecələr, kitab müzakirələri, oxucu konfransları, yeni kitabların prezentasiyası və s. mühüm rola malikdir. Kitabxanalar mədəniyyətin ayrı-ayrı sahələrini təbliğ etmək sahəsində də böyük rol oynayırlar. Kitabxanalar dünyada ümumbəşəri sərvətləri toplayıb, qoruyub saxlayan və ondan istifadəni təşkil edən bir müəssisə kimi milli və ümumbəşəri mədəniyyətin inkişafına və yayılmasına böyük köməklik göstərir.

Dünyada 6 milyard kitab fonduna malik 1 milyondan artıq kitabxana vardır. Heç bir mədəniyyət sahəsi belə böyük şəbəkəyə malik deyildir. Kitabxanalar həmçinin ən böyük oxucu auditoriyasına malikdir. Buna görə də kitabxana quruculuğunu inkişaf etmiş ölkənin mədəni inkişafının əsas göstəricisi kimi xarakterizə edirlər. Kitabxana başqa mədəniyyət ocaqları ilə müqayisədə mədəni sərvətləri toplayıb saxlayan, onu bütün insanların istifadəsinə verən, kitabı hər bir ailəyə, hər bir oxucuya çatdıran mədəniyyət müəssisəsidir. Kitabxanalar bəşəriyyətin mədəni sərvətlərinin, xalqların mədəni irsinin saxlayıcısıdır. Xüsusilə milli kitabxanaların fondunda müasirliklə yanaşı, keçmiş də qorunub saxlanılır. Onlar müasir dünyada elm, ədəbiyyat və mədəniyyətin təbliğatçısı, yayıcısı olmaqla, keçmişin də təbliğatçısı kimi çıxış edir, informasiya yayırlar. Kitabxanalar mədəniyyətin mühüm sahəsi kimi öz mədəni funksiyasını başqa mədəniyyət müəssisələri: klublar, mədəniyyət sarayları, teatrlar, muzeylər və s. ilə qarşılıqlı əlaqədə həyata keçirir. Kitabxanalar öz mədəniyyət funksiyalarını həyata keçirərkən informasiyanın müxtəlif forma və üsullarından istifadə edərək mədəni sərvətlərin xalq arasında yayılmasına, geniş xalq kütlələrinin informasiya tələbatının ödənilməsinə, mədəni sərvətlərin xalqın malına çevrilməsinə, ümumbəşəri sərvətlərin insanların istifadəsinə verilməsinə yaxından kömək edir. Öz fəaliyyəti ilə ideal, inkişaf etmiş, yüksək əxlaqi keyfiyyətlərə, təhsilə, intellektual səviyyəyə malik insan yetişdirilməsində fəal iştirak edir.

4. Kitabxanaların təhsil funksiyası

Təhsil insanın, cəmiyyətin və dövlətin inkişafına, maraq və mənafeyinə xidmət edən strateji əhəmiyyətə malik olan fəaliyyət sahəsidir. Respublikamızda təhsil milli zəminə, ümumbəşəri dəyərlərə əsaslanır, demokratik xarakter daşıyır. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Konstitusiyasında bütün insanların təhsil almaq hüququ təsbit edilmişdir. Təhsil sistemi geniş, əhatəli, demək olar ki, cəmiyyətin bütün üzvlərinin iştirak etdiyi bir sistem olduğundan mədəni quruculuğun bütün sahələri bu sistemdə iştirak edir, öz fəaliyyəti ilə təhsil prosesinin müvəffəqiyyətli təşkilinə töhfəsini verir.

Təhsil sistemində ardıcıl olaraq iştirak edən, onun təşkilinə kömək göstərən, sistemləşdirilmiş bilik, bacarıq və vərdişləri yaş xüsusiyyətlərindən asılı olaraq təhsil prosesinin bütün iştirakçılarına, şagirdlərdən başlamış ali məktəb tələbələrinə, gənclərdən başlamış fasiləsiz təhsillə məşğul olan yaşlı nəslə aşılayan müəssisələrdən biri də kitabxanalardır. Kitabxanalar qədim dövrlərdən başlayaraq zəmanəmizə qədər həmişə təhsillə bağlı olmuş, təhsil prosesinə xidmət etmiş, onun köməkçilərindən birinə çevrilmişdir. Məhz buna görədir ki, kitabxanalar bütün təhsil müəssisələrinin bir saylı laboratoriyası hesab edilir. Xalqımızın məktəb tarixinə nəzər saldıqda aydın olur ki, bütün məktəblərin yanında bir qayda olaraq, təhsil prosesinin müvəffəqiyyətli təşkilini təmin etmək, məktəbdə verilən bilikləri daha da dərinləşdirmək, onu möhkəmlətmək, təhsil sistemi işçilərini elmi informasiya ilə təmin etmək məqsədilə kitabxanalar yaradılmışdır. Belə kitabxanalara həmişə təcrübəli pedaqoqlar rəhbərlik etmiş, onlar sinifdənkənar oxunun məzmununu müəyyənləşdirmiş, onu istiqamətləndirmiş, beləliklə də dərsin mənimsənilməsində mühüm rolu olan sinifdənkənar mütaliənin təşkilinə kömək etmişlər. Təhsil sisteminin çoxillik təcrübəsindən məlumdur ki, sinifdənkənar mütaliə şagirdlərin əqli inkişafında, tədris olunan fənnin daha dərindən mənimsənilməsində, ümumiyyətlə, şagirdin ümumi mədəni inkişaf səviyyəsinin yüksəlməsində, hərtərəfli, ahəngdar inkişafında və tərbiyəsində olduqca mühüm rol oynayır. «Mütaliə ən yaxşı təlimdir» (A.S.Puşkin). Bu baxımdan kitabxanaların təhsil funksiyası mühüm elmi, pedaqoji əhəmiyyət kəsb etməklə təhsil sisteminin ən mühüm komponentlərindən birinə çevrilir. Kitabxanalar insanlara uşaqlıq, yeniyetməlik, gənclik, kamillik və ahıllıq dövründə xidmət edir, insanın bütün ömrü boyu yol yoldaşı kimi, mə'nəvi tərbiyəsinin əsas bazası kimi çıxış edir. Təhsil prosesində kitabxanaçının fəaliyyəti hez də müəllimin fəaliyyətindən az əhəmiyyətli deyildir. Uşaq və məktəb kitabxanalarının çoxillik fəaliyyətindən məlumdur ki, məktəblilərin kitabla dostluq etməsində, ardıcıl mütaliəyə cəlb edilməsində, kitab təbliğində kitabxanaçıların rolu misilsizdir. Kitabxanaçı sinifdənkənar mütaliənin təşkilatçısı kimi çıxış edir. Onun həyata keçirdiyi işin məzmunu sırf pedaqoji xarakter daşıyır. Kitabxanaçı məktəbdə pedaqoji kollektivin üzvü və müəllim kimi fəaliyyət göstərir. Təkcə uşaq və məktəb kitabxanaları deyil, həmçinin bütün kütləvi

kitabxanalar təhsil prosesində iştirak edirlər. Şəhər, rayon və kənd kütləvi kitabxanaları yuxarı sinif şagirdlərinin ən çox müraciət etdiyi müəssisələrdir. Xüsusilə, müstəqil uşaq kitabxanaları olmayan yaşayış məntəqələrində kütləvi kitabxanalar, yuxarı sinif şagirdlərinin kitaba olan tələbatını ödəyən, uşaq mütaliəsinə rəhbərlik edən, onların mütaliəsini istiqamətləndirən, məktəblə birlikdə təhsil prosesinin keyfiyyətini yüksəltməyə yönəldilmiş tədbirlər həyata keçirən ən əhəmiyyətli müəssisədir. Kitab-xanaların təhsil funksiyası onların məktəblilərlə yanaşı olaraq, böyük müəllimlər, pedaqoqlar ordusunun informasiya tələbatının ödənilməsinə xidmət etməkdən ibarətdir. Öz pedaqoji ustalığını, elmi intellektual səviyyəsini, peşəkarlığını daim yüksəltməyə çalışan müəllimlərin kitabxanaların informasiya xidmətindən ardıcıl olaraq istifadə etməsi təhsil sistemində onların yerini və rolunu daha da möhkəmləndirir, fəaliyyət sahəsini genişləndirir. Təhsil sisteminin əsas və mühüm pillələrindən biri ali peşə - ixtisas təhsili pilləsidir. Bu pillə təhsil sistemində çox mühüm həlledici pillə olmaqla, cəmiyyətin yüksək ixtisaslı kadr tələbatının ödənilməsində, ümumiyyətlə, cəmiyyətin formalaşmasında mühüm rol oynayır. Ali peşə-ixtisas təhsilinin əsas vəzifəsi ümumorta və orta peşə ixtisaslı şəxslərin təhsilini daha da dərinləşdirməkdən, onların ali təhsil almaq ehtiyacını ödəməkdən və dövlətin, cəmiyyətin tələbatına uyğun yüksək səviyyəli mütəxəssislər hazırlamaqdan ibarətdir. Göründüyü kimi, təhsilin bu pilləsində tələbələrin və müəllimlərin informasiya tələbatının ödənilməsi işi onun elmi əsaslarla aparılmasını tələb edir və təhsilin bu pilləsinə xidmət edən kitabxanalar qarşısında mühüm vəzifələr qoyur. Müstəqil Azərbaycan Respublikasının milli kitabxanasından başlamış bütün sahəvi respublika kitabxanaları, bütün elmi-texniki kitabxanalar ali məktəb tələbələrinin informasiya tələbatının ödənilməsində mühüm işlər görürlər. Göstərilən kitabxanaların oxucularının yarıya qədərini ali məktəb tələbələrinin təşkil etməsi göstərir ki, respublikamızda təhsil sistemində təkcə təhsil müəssisələri yox, eyni zamanda kitabxanalar da yaxından iştirak edirlər. Respublikamızın kitabxana sistemində təhsil kitabxanaları da böyük şəbəkəyə malikdir. Təsadüfi deyildir ki, respublikamızda olan kitabxanaların yarıya qədəri təhsil nazirliyinin kitabxana şəbəkəsinin payına düşür. Bu şəbəkəyə ümumtəhsil məktəblərinin, orta ixtisas məktəblərinin və ali mək-təblərin kitabxanaları daxildir. Bu kitabxanalar bilavasitə təhsil sisteminə daxil olmaqla təhsilin daha da təkmilləşməsinə, onun keyfiyyətinin yüksəldilməsinə, respublikamız üçün ali və orta ixtisas təhsilli kadrların hazırlanmasına və ümumiyyətlə, cəmiyyətimiz üçün kamil və hərtərəfli inkişaf etmiş intellektual səviyyəli insan yetişdirilməsinə xidmət edir. Bu mühüm işdə məktəblərimizin ən yaxın köməkçisi kimi fəaliyyət göstərir. Ali məktəblərin bir nömrəli laboratoriyası hesab edilən ali məktəb kitabxanaları isə təhsil sisteminin aparıcı müəssisəsi olmaqla yanaşı, həmçinin elmin inkişafında, elmi kadrların yetişdirilməsində böyük rol oynayırlar. Ali məktəb kitabxanaları tədris prosesinə xidmət etmək üçün dərslik fondu yaratmalı, bu fondun daim dinamik olmasına, yeniləşməsinə və təkmil-

ləşməsinə çalışmalıdır. Ali məktəb kitabxanalarının, həmçinin ali məktəb elminin inkişafına kömək etməkdə də mühüm xidmətləri vardır. Məlum olduüu kimi, respublikamızda aparılan elmi-tədqiqatların 60-70 faizindən çoxu ali məktəb müəllimləri tərəfindən aparılır. Bu da ali məktəb kitabxanalarında elmi fondların yaranması zərurətini və ali məktəb alimlərinə informasiya xidmətinin təşkilinin ön plana çəkilməsini tələb edir. Ali məktəb kitabxanalarından ardıcıl olaraq istifadə edən tələbələr dərsliklərdən və dərs vəsaitlərindən istifadə etməyə həmişə böyük ehtiyac duyurlar. Məlumat fondundan bilavasitə kitabxanaların qiraət zallarında istifadə edən tələbələr kitabxananın ictimai həyatı, kitabxana işinin digər forma və üsulları ilə tanış olur, ictimai tədbirlərdə iştirak edirlər. Bu da tələbələrin bir şəxsiyyət kimi formalaşmasına təsir göstərir. Təhsil kitabxanalarının qarşısında duran mühüm vəzifələrdən biri də tələbələrdə kitaba və kitabxanaya böyük maraq və məhəbbət tərbiyə etməkdən, kitabdan istifadə qaydalarını öyrətməkdən, mütaliə mədəniyyəti aşılamaqdan ibarətdir. Kitabxana tələbə oxuculara dərsliklər və dərs vəsaitləri ilə yanaşı, elmi tədqiqat əsərləri və monoqrafiyalar tövsiyə etməyə də böyük diqqət yetirməlidirlər. Son dövrlərdə ali məktəb kitabxanalarının informasiya funksiyası əhəmiyyətli dərəcədə artmışdır. Bu da ali məktəb kitabxanalarının kompüterləşdirilməsi ilə əlaqədardır. Dünyanın qabaqcıl ölkələrində hələ əsrimizin 70-80-ci illərindən tətbiq olunmağa başlayan bu proses hazırda daha geniş vüsət almışdır və avtomatlaşdırma işi oxuculara kitabxana xidməti prosesinə geniş surətdə cəlb edilməkdədir. Ölkəmizdə kitabxana işinin kompüterləşdirilməsinə ilk dəfə başlayan respublikamızın ən böyük ali məktəb kitabxanası Bakı Dövlət Universitetinin Elmi Kitabxanası olmuşdur. Kitabxananın kompüterləşdirilməsi işi 1999-cu ildə universitetin kitabxanazılıq fakültəsində, kitabxanaşünaslıq kafedrasının yanında yaradılmış «Kitabxana işinin kompüterləşdirilməsi» elmi-tədqiqat laboratoriyası tərəfindən həyata keçirilir. Laboratoriyanın yüksək elmi potensialı bu işin müvəffəqiyyətlə yerinə yetirilməsinə böyük ümidlər verir. Kitabxananın təhsil funksiyasında başlıca yerlərdən birini də insanların şəxsi və fasiləsiz təhsilində oynadığı rol tutur. Hələ XIX əsrdən bütün dünyada belə bir ictimai fikir formalaşmışdır ki, kitabxanalar rəsmi təhsilə xidmət etməklə yanaşı, şəxsi təhsilin və fasiləsiz təhsilin vasitəsi kimi də çıxış edirlər. Təhsil kitabxanaları sözün əsl mənasında, təhsil işçilərinin müxtəlif sorğularla müraciət etdikləri, öz axtardığı məlumatları tapmağa müvvəffəq olduqları bir müəssisə kimi məşhurlaşmış, şagirdlərin, tələbələrin, müəllim və alimlərin şəxsi təhsil bazası olmuşdur. Məlumdur ki, XX əsr insanlarının xarakterik xüsusiyyətlərindən biri onların fasiləsiz təhsillə məşğul olmasıdır. Yüksək inkişaf etmiş, yüksək mədəniyyətə, intellektual səviyyəyə, yüksək sənətə malik olan insan bütün ömrü boyu mütaliə edir. Belə insanların mütaliə dairəsi olduqca çoxcəhətli və əhatəli olur. Belə insanlara xidmət kitabxanaların qarşısında mühüm spesifik vəzifələr qoymur və kitabxanaçılardan xüsusi peşəkarlıq tələb edir. Kitabxanalarda bu qrupdan olan oxuculara xidmət etmək üçün yüksək professional səviyyəyə

malik kitabxanaçılar ayırmaq, onları ixtisaslaşdırmaq zərurəti qarşıya çıxır. Şəxsi təhsil və fasiləsiz təhsillə məşğul olan oxucular üçün xüsusi informasiya xidmətinin yaradılması da meydana çıxır. Beləliklə, kitabxanaların təhsil funksiyası sosial funksiyalar içərisində zox mühüm elmi və təcrübi əhəmiyyət kəsb edən bir funksiya kimi fəaliyyət göstərməli, inkişaf edib təkmilləşməli, ali və orta peşə təhsilli mütəxəssislərin hazırlanmasına yönəlməlidir. Kitabxanaların təhsil funksiyasını yerinə yetirməsində təhsil kitabxanaları ilə yanaşı, ölkəmizin bütün kitabxana şəbəkələri yaxından iştirak etməlidir.

5. Kitabxanaların tərbiyə funksiyası

Kitabxanaların sosial funksiyaları içərisində tərbiyə funksiyası da mühüm əhəmiyyət kəsb edir. Doğrudur, dünya kitabxanaşünaslığında kitabxanaların tərbiyə funksiyası birmənalı qəbul edilmir. Kitabxanaların tərbiyə funksiyasının əhəmiyyətini azaltmağa çalışan və bəzi hallarda bu funksiyanı qəbul etməyən kitabxanaşünaslar da vardır. Rusiya kitabxanaşünaslığında tarixən bu funksiya kitabxanaların əsas funksiyaları sırasında öyrədilmişdir. Ancaq nədənsə Rusiya Dövlət Dumasının 1993-cü ildə qəbul etdiyi «Kitabxana işi haqqında» qanunda kitabxanaların tərbiyə funksiyası nəzərə alınmamışdır. Bu qanunda kitabxanaların informasiya, mədəniyyət və təhsil funksiyası olduğu kimi göstərilmişdir. Beləliklə, kitabxanaların sosial funksiyaları haqqında dünya kitabxanaşünaslığında vahid konsepsiya yoxdur. Bu problemə müxtəlif ölkələrdə müxtəlif aspektdən yanaşmaq prinsipi davam etməkdədir. Kitabxanaların sosial funksiyalarını müəyyənləşdirmək üzün müxtəlif nöqteyi-nəzərlər vardır. Bunların içərisində tarixilik prinsipi, yəni kitabxanaların fəaliyyətində tarixi xidmətləri, cəmiyyətin inkişafında oynadığı rol nöqteyi-nəzərindən yanaşmaq prinsipi daha elmi xarakter daşıdığından diqqəti çox cəlb edir. Tarixə nəzər saldıqda məlum olur ki, kitabxanalar həmişə cəmiyyətə, onun qayda-qanunlarına, ideologyyasına, mədəniyyətinə, mənəviyyatına, əxlaqına xidmət etmiş, cəmiyyət üzvlərinin təhsilində, tərbiyəsində, mənəvi və intellektual inkişafında yaxından iştirak etmişlər. Azərbaycan kitabxanalarının tarixi fəaliyyətində də bu baxımdan çoxlu misallara, dəlillərə və faktlara rast gəlmək olar. Kitabxanaların tarixi rolunu təhlil edərkən onların həmişə insanla bağlı olması, onun tərbiyəsində bilavasitə iştirak etməsi meydana çıxır. Məlum bir həqiqətdir ki, hərtərəfli inkişaf etmiş kamil insanın yetişməsində mühüm və həlledici rolu olan vasitələrdən biri də mütaliədir. Ardıcıl, məqsədyönlü mütaliəsi olmayan insan kamillik zirvəsinə yüksələ bilməz. Mütaliə insanların mənəvi həyatının formalaşmasına, hərtərəfli inkişafına dərin təsir edir. Oxunan mətnin tipindən, növündən, xarakterindən asılı olmayaraq mütaliə insan həyatında mədəniyyətə yiyələnməyin ən mühüm vasitəsi kimi çıxış edir. Mütaliə bilik əldə etməyin, elmə yiyələnməyin, elmin zirvəsinə yüksəlməyin ən mühüm vasitəsi olduğu kimi, həm də tərbiyə prosesinin tərkib hissəsidir. Sosial əhəmiyyət daşıyan mütaliə

insanların sosiallaşdırılmasının əsas vasitəsi hesab edilir. Mütaliənin sosial təbiətinin, ictimai xarakterinin nədə özünü göstərməsinə diqqət yetirərkən aydınlaşır ki, o, təcrid olunmuş şəkildə baş vermir, bütün ictimai həyatın tərkib hissəsi, şəxsiyyətlərarası əlaqələrin predmeti kimi meydana çıxır. Həmçinin mütaliə üçün material seçilməsi və oxunmuş kitabın qiymətləndirilməsi meyarının bilavasitə insan və onun zoxcəhətli həyatı ilə bağlı olduğu aydınlaşır. Beləliklə, kitabxana prosesinin məzmununun və onun ideya-tərbiyəvi istiqamətinin cəmiyyətdə mütaliənin təbiətindən və funksiyalarından asılılığı aydınlaşır. Mütaliə insanın idraki fəaliyyətinin bir növü kimi tərbiyə prosesində digər informasiya növləri ilə müqayisədə əvəzedilməz üstünlüklərə malikdir. Ona görə də, mütaliəni tərbiyə prosesindən ayırmaq düzgün deyildir. Kütləvi mütaliənin təşkilatçısı olan kitabxanaların tərbiyə funksiyası elmi əsaslara malikdir. Respublikamızda kitabxana işinin inkişafı ilə əlaqədar ictimai mütaliənin təşkili və ictimai məzmunun təhlili sahəsində böyük işlər görülmüş, onun tərbiyəvi və maarifləndirici funksiyasının inkişafına diqqət yetirilmişdir. Bu sahədə kitabxanalarımızın fəaliyyətinin elmi təhlili bir daha təsdiq etmişdir ki, Azərbaycan kitabxanalarının fəaliyyətində tərbiyə funksiyası həlledici yerlərdən birini tutur və onun gələcəkdə inkişaf etdirilməsinə böyük ehtiyac duyulmaqdadır. Azərbaycanda kitabxanaların tərbiyə funksiyasına ciddi diqqət yetirilməsi 1999-cu ildə Milli Məclis tərəfindən qəbul edilmiş «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının qanununda öz əksini tapmışdır. Bu qanunda tərbiyə funksiyası əsas funksiyalardan biri kimi göstərilmiş, kitabxanalar tərbiyə ocaqları kimi qiymətləndirilmişdir. Əlbəttə, müstəqil respublikamızda ilk dəfə qəbul edilmiş bu qanun respublika kitabxanaları qarşısında yüksək vəzifələr qoymuşdur. Bu qanunun qəbulu ilə əlaqədar kitabxanaların tərbiyə sahəsində fəaliyyətində daha ciddi tədbirlər həyata keçirilməyə başlamışdır. İctimai mütaliənin təşkilatçısı olan ki-tabxanalar öz zəngin fondlarını geniş xalq kütlələri arasında təbliğ etmək, oxucuların informasiya tələbatını ödəmək yolu ilə bilavasitə insanların tərbiyəsində yaxından iştirak edirlər. Kitabxanalar oxucuların tərbiyəsində bədii ədəbiyyat və incəsənət əsərlərindən geniş surətdə istifadə edir, onların əxlaq və estetik tərbiyəsinə köməklik göstərirlər. Kitabxanaların fəaliyyətində oxucuların əmək tərbiyəsi və peşə biliklərinin təbliği də mühüm yer tutur. Kitabxanalar, mütaliənin təşkilinə ictimai şüurun formalaşmasına kömək edən tərbiyə prosesi kimi baxmalı və bu işə geniş oxucu kütləsini cəlb etməyə çalışmalıdırlar. Kitabxanalar, kütləvi mütaliə işinə geniş xalq kütlələrini cəlb etmək üçün kitab təbliğinin müxtəlif formalarından: daimi kitab sərgilərindən, tematik kitab sərgilərindən, ədəbiyyata azıq baxışdan, kitabxana plakatlarından, həmçinin şifahi informasiyalardan, yeni kitabların təqdimatından (prezentasiyasından), kitab müzakirələrindən, oxucu konfranslarından, dialoq gecələrindən, sual-cavab gecələrindən istifadə etməlidirlər. Göstərilən formalardan müvəffəqiyyətlə istifadə edilməsi kitabxanaçının professional səviyyəsindən, qabiliyyət və bacarığından çox asılıdır. Qabaqcıl kitabxanaların

çoxillik təcrübəsindən göründüyü kimi, oxucuların tərbiyəsi prosesində müxtəlif kütləvi tədbirlərin aparılması mühüm əhəmiyyətə malikdir. Müxtəlif kütləvi tədbirlərin keçirilməsi kitabxanaya yeni oxucuların cəlb edilməsinə, oxucuların mütaliə dairəsinin genişlənməsinə kömək etməklə yanaşı, kitab təbliğinin böyük vüsət almasına, tərbiyə funksiyasının fəallaşmasına da kömək göstərir. Bu mühüm işlərin yerinə yetirilməsi isə qarşı kitab təbliğinin müxtəlif formalarının fasiləsizliyini və ardıcıllığını tələb edir. Oxucuların tərbiyəsi üçün aparılan işlər məntiqi ardıcıllıq və planlılıq əsasında aparılmalıdır. Oxucuların tərbiyəsi prosesində yaxından iştirak etmək kitabxanaçıdan böyük pedaqoji ustalıq tələb edir. Doğrudur, kitabxanaçı pedaqoq olmasa da, öz fəaliyyətində tez-tez pedaqoq kimi çıxış edir, tərbiyə prosesinin təşkilində aparıcı mütəxəssis kimi iştirak edir. Son illərdə aparılan araşdırmalara, sosioloji tədqiqatlara, kitabxanaların çoxillik təcrübəsinə əsaslanaraq demək olar ki, oxucuların tərbiyə olunması prosesi kitabxana işindən ayrılmazdır, onun tərkib hissəsidir, əsas sosial funksiyasıdır. Beləliklə, biz Azərbaycan Respublikasının «Kitabxana işi haqqında» qanununda nəzərdə tutulan kitabxanaların beş funksiyasını nəzərdən keçirdik. Qanunda göstərilir: «Kitabxana, elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi po-tensialının inkişafına xidmət göstərən sosial institutdur. Göründüyü kimi, bir çox ölkələrin qanunlarından fərqli olaraq Azərbaycan Respublikasının kitabxana işi haqqında qanununda kitabxanaların sosial funksiyaları əsas funksiyalar kimi göstərilmişdir. Qanuna bu funksiyaların daxil edilməsinə təsadüfi bir hal kimi yox, Azərbaycan kitabxanalarının çoxillik təcrübəsinin yekunu, kitabxana işinin inkişaf qanunauyğunluğu kimi baxmaq lazımdır. Doğrudur, kitabxanaşünaslar kitabxanaların göstərilən funksiyalarından başqa daha bir çox funksiyalarının olması haqqında fikir söyləyirlər. Məsələn, kütləvi mütaliənin təşkili və s. Ancaq göstərilən funksiyalar elmi cəhətdən tam əsaslandırılmamışdır. Yekun olaraq göstərmək lazımdır ki, şərh etdiyimiz beş funksiyanın hamısı bütün tipdən və növdən olan kitabxanaların fəaliyyətini istiqamətləndirmək üçün fundamental əhəmiyyətə malikdir. Məlumdur ki, cəmiyyət kitabxananın hamisidir. Ona görə də, kitabxana onu yaradan cəmiyyət qarşısında öz fəaliyyəti ilə cavab verməli, cəmiyyətin qarşıda qoyduğu sosial funksiyaları yerinə yetirməlidir. Kitabxananın bütün fəaliyyəti vahid bir məqsədə, cəmiyyətin optimal informasiya təminatının ödənilməsinə yönəldilməli, cəmiyyətin hər bir üzvünə informasiya xidməti ön plana çəkilməlidir. Azərbacan Respublikası müstəqillik əldə etdikdən sonra ölkəmizdə müvəffəqiyyətlə demokratik cəmiyyət qurulmaqdadır. Bu şəraitdə insan haqları və şəxsiyyət azadlıqlarının aliliyinə, fərdi təşəbbüskarlığa və yaradıcılığa təminat verən vətəndaş cəmiyyəti mümkün sosial inkişaf variantları içərisində ən yaxşısıdır. Şəxsiyyətin hüquq və azadlıqlarına hörmət konstitusiyamızda öz əksini tapmışdır. Məsələn, Azərbaycan Konstitusiyasının 26-cı maddəsinin 2-ci bölməsində oxuyuruq:

«Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir» 47-ci maddəyə görə, hər kəsin fikir və söz azadlı-ğı, 50-ci maddəyə görə, məlumat azadlığı, 51-ci maddəyə görə, hər kəsin yaradıcılıq azadlığı vardır. Demokratik cəmiyyətin atributlarından biri olan, sosial institut kimi formalaşan kitabxanalar müasir şəraitdə konstitusiyamızın əsas müddəalarını yerinə yetirmək üçün cinsindən, yaşından, milliyyətindən, təhsilindən, siyasi mənsubiyyətindən, dini mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşa xidmət etməli, hər bir vətəndaşın informasiya tələbatını ödəməlidir. Kitabxana fəaliy-yətinin məzmunu xidmət etdiyi cəmiyyətə mənsub olan ideoloji və siyasi çoxcəhətliyi əks etdirməlidir. İnformasiyanın axtarılmasında, əldə edilməsində və ötürülməsində hər cür senzura qadağan olunduğundan kitabxanalar bütün xalq kütlələrinin üzünə açıq olmalı, ümumaçıqlıq prinsipi bütün kitabxanaların fəaliyyətində tətbiq edilməlidir. Azərbaycan Respublikasının «Kitabxana işi haqqında» qanununda göstərildiyi kimi «kitabxanalarda mühafizə olunan mədəni sərvətlərdən və informasiya vasitələrindən istifadə hamı üçün açıq olmalıdır». Müasir dünya kitabxanalarının əsas prinsipi sayılan ümumaçıqlıq prinsipi informasiya azadlığına, cəmiyyətin ən dəyərli sərvəti olan yaradıcı insanlara, intellekt daşıyıcılarına xidmət etməyin ən zəruri prinsipidir. Məhz bu mühüm sosial prinsiplərdən bəhrələnən kitabxanalar cəmiyyətin həqiqi, demokratik aləti, insan hüquqları və intellektual azadlıqların qarantı, ümumbəşəri sərvətləri xalqa çatdırmağın vasitəsi, milli mədəniyyətimizin, milli mentalitetimizin təbliğatçısı ola bilər.

"Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri və təcrübi jurnalı. 1999, № 2. s. 3-33

ИСТОРИЧЕСКАЯ РОЛЬ БИБЛИОТЕК В ИНФОРМАЦИОННОМ ОБЕСПЕЧЕНИИ ОБЩЕСТВА (Опыт библиотек Азербайджана)

Завершается XX век, внесший неоценимый вклад в развитие человеческой цивилизации. Если он считается веком атома, научно-технического прогресса, информационного взрыва, то XXI век принято представлять как период всеобщей информатизации общества.

Видный русский ученый А.И.Ратиков указывает на следующие характерные особенности информатизации общества: доступность информации; реальное обеспечение доступности информации; производство информации; ускоренная автоматизация и роботизация; преимущественное развитие сферы информационной деятельности и услуг.

Если рассматривать всеобщую история библиотек с точки зрения вышеизложенных характерных особенностей информатизированного общества, становится очевидно, что библиотеки на всех этапах своего развития, активно используя свои информационные ресурсы, эффективно

способствовали развитию науки, культуры и образования общества, человеческой цивилизации.

Опыт библиотек мира свидетельствует о том, что во все времена они выполняли великую гуманистическую миссию, направленную на то, чтобы поставить на службу обществу все ценное, что выработано человеческой мыслью. Исторические пути развития библиотек характеризовали взаимодополняющие друг друга направления деятельности: а) они собирали, хранили и организовывали безвозмездное использование знаний и тем самим способствовали развитию науки, культуры, экономики, техники; б) активно участвуя в распространении науки, философии, культуры, литературы, искусства, а также в образовательном процессе, они способствовали формированию нравственного облика и интеллектуального потенциала общества.

Библиотеки, пройдя путь от Шумер до сегодняшнего времени, внесли огромный вклад в развитие человеческой цивилизации, передавая из поколения в поколение информацию. Об этом свидетельствует и исторический опыт библиотек Азербайджана. Исследователи установили многочисленные факты, свидетельствующие о существовании библиотек в Азербайджане еще в V веке, когда принявшая христианскую религию древняя Албания создавала свою письменность и первые библиотеки в церкяах. Развитие библиотечного дела в Азербайджане продолжалось и после принятия мусульманства, в период правления арабского халифата. В древнем и средневековом Азербайджане различаются три типа библиотек: дворцовые, религиозные и личные. Известны крупные библиотеки XI-XII веков при дворцах Ширваншахов в Шемахе и Гяндже, XIII-XVIII Веков – южном Азербайджане. Среди дворцовых библиотек XVI века особо выделяется библиотека, созданная Шах Исмаилом Хатаи в Тебризе, в тот период дворцовые библиотеки по своему статусу и структуре были близки к нынешним национальным библиотекам, ибо в них были сосредоточены уникальные отечественные и зарубежные рукописные книги. Особо следует отметить значение библиотек, созданных при мечетях, в которых собиралась религиозная литература. Важнейшей составной частью библиотечной сети Азербайджана средних веков были библиотеки при медресе – наиболее крупных религиозных учебных заведениях. Библиотеки при мечетях и медресе были наиболее доступными для населения в Азербайджане. Без каких-либо серьезных ограничений они обслуживали ученых-мыслителей, всех желающих заниматься образованием, получать необходимую информацию.

Традиционными для средневекового Азербайджана являются личные библиотеки деятелей науки, литературы, ученых, философов, астрономов. Исторические источники свидетельствуют о крупных личных библиотеках, принадлежавших таким мыслителям Азербайджана, как Н.Гянджеви, Хагани, Тебризи, Н.Туси и др. Многовековой истории

библиотек Азербайджана свидетельствуют об их огромном вкладе в развитие науки, культуры и образования народа путем собирания и передачи будущим поколениям научного и культурного наследия прошлого.

На развитие библиотечного дела негативное влияние оказало частое изменение алфавита. Замена арабского алфавита латинским, затем латинского кириллицей нанесла серьезный урон книжный и библиотечной культуре народа, богатейшим книжным собраниям библиотек. Смена алфавитов сопровождалась уничтожением печатных изданий прежней графики. Однако неоспоримым фактом является и то, что именно благодаря библиотекам удалось сохранить для нынешних и будущих поколений нашего народа огромные информациионные ресурсы, документированные знания, в которых отражены достижения общечеловеческой культуры, интеллектуальной мысли народа.

С 1992 г. в Азербайджане осуществляется постепенный переход с кириллицы на латинский алфавит. Между тем в библиотеках современного Азербайджана, которых насчитывается около 10 тыс., сосредоточено более 150 млн. печатных единиц, изданных на кириллице. Все это составляет огромный информационный потенциал общества, является национальным достоянием и еще долго будет служить развитию Интеллектуального потенциала нашего народа.

К великому сожалению, в настоящее время библиотеки Азербайджана в условиях перехода к рыночным отношениям испытывают серьезные финансовые и организационные трудности в пополнении своих информационных ресурсов. Однако как ни парадоксально, все это не привело к оттоку читателей. Библиотеки несмотря на трудности продолжают в целом успешно выполнять свои исторические и социальные функции по организации общественного использования документов и информации.

Тезисы докладов Международной научной конференции. Ч.2. Москва, 1999. с. 202-104

SİLAHLI QÜVVƏLƏRİMİZ VƏTƏNİN DAYAĞIDIR

M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, Azərbaycanın əməkdar mədəniyyət işçisi, professor Abuzər Alı oğlu Xələfovla əməkdaşımızın söhbətini təqdim edirik

- Professor, bu gün qüdrətlənən, möhkəmlənən ordumuza, onun quruculuq işinə sizin ziyalı və ağsaqqal münasibətinizi bilmək maraqlı olardı.

- Müstəqil dövlətin əsas atributlarından sayılan qüdrətli ordunun yaradılması, onun nizami sıralarının gündən-günə möhkəmlənməsi işi və bu va-

cib işin yüksək səviyyədə həyata keçirilməsi xüsusilə dövlətin orduya diqqəti, qayğısı ilə şərtlənir. 1993-cü ildən etibarən ordu quruculuğu işində nəzərəçarpacaq müsbət dəyişikliklərin müşahidə edilməsi bir daha sübuta yetirir ki, ötən dövr ərzində Silahlı Qüvvələrimizdə xidmətin təşkili, onun silah və texnika ilə təchizatı xeyli yaxşılaşmışdır. Hərbi qulluqçuların nizam-intizam qaydalarına əməl etmələri sahəsində də ciddi dönüş yaranmışdır.

Əlbəttə, ordumuzun tam formalaşması və sivil ordu səviyyəsinə çatması üçün bütün qayğı və problemlərin həllini dövlətdən ummaq da düzgün deyildir. Orduda sağlam qüvvələrin xidmət etməsinin təmin olunması dövlətin, ordu komandanlığının qayğıları sırasına aiddirsə, həmin sağlam mühitin qorunması, ümumi işimizə ciddi münasibət isə əsgər, zabit heyətinin özündən asılıdır.

Ordumuza münasibətə gəldikdə isə ziyalı-alimin öz doğma ordusuna münasibəti, şübhəsiz ki, çox sağlam və yaxşıdır. Ordu Vətənin dayağıdır və hesab edirəm ki, xalqın bütün təbəqələrinin orduya münasibəti yüksək səviyyədə olmalıdır.

Hərbi xidmətə çağırışından boyun qaçırma, hərbi hissəni özbaşına tərk etmə, əmr və göstərişlərin yerinə yetirilməsi bax bu kimi hallara qarşı ümumxalq mübarizəsi geniş vüsət alanda ordumuzda xidmətin təşkili daha yüksək səviyyəyə qalxacaq və orduya gözəl münasibət tam bərqərar olacaq.

- Professor, yeri gəlmişkən, cəmiyyət və ordu münasibətlərinin spesifik xüsusiyyətləri haqda nə deyə bilərsiniz?

- Bu işdə ilk növbədə, təbliğatın rolunu qeyd etmək yerinə düşərdi. Bilirsiniz, xalq ordunu əvvəla ona görə sevir ki, bu silahlı qurum onun təhlükəsizliyini, əmin-amanlığını qoruyur. Bu missiya ordunu cəmiyyətin nəzərində müqəddəs bir rəmzə çevirir. Bir də ki, axı orduda xalqın arasından çıxmış insanlar xidmət edir. Təbliğat orqanları, mətbuat ordunu cəmiyyətə bu rakursdan təqdim etməlidir.

Yeri gəlmişkən, Azərbaycan dövlət televiziyasının bu sahədəki fəaliyyətində xeyli dönüş yaranmışdır: Gənclərimizin hərbi-vətənpərvərlik tərbiyəsi, torpağa bağlılıq hissinin təbliği daim ön plana çəkilir. Amma təəssüf edirəm ki, bəzi üzdəniraq mətbuat orqanları konkret hadisənin əsasında bütün bir idarənin, orqanın, daha dəqiq desək, elə ordunun fəaliyyəti üzərinə kölgə salmağa çalışır, cəmiyyətdə çaşqınlıq yaradır, ictimai fikri sözün əsl mənasında zəhərləyirlər. bu nə deməkdir?

Belə yaramaz. Qəribədir ki, bu əməllərə rövnəq verənlər böyük uğurlarımızı görmək istəmirlər. Orduya belə münasibəti köklü şəkildə dəyişmək lazımdır. Axı, nə vaxta qədər düşməni, pisi, alçağı içimizdə axtaracağıq. Düşmənimiz – erməni təcavüzkarıdır. Bax, soyuqda, çovğunda, dağlıq şəraitdə bu düşmənlə üz-üzə dayanıb gözlərini belə qırpmayan oğullarımızın gül çöhrəsini, nurlu simasını televiziya xalqa göstərməlidir. Qoy, onları hamı tanısın. Onlara hamının, cəmiyyətin bütün təbəqələrinin gözəl münasibəti, sevgisi adət halını almalıdır. Əsgər hiss etməlidir ki, o, qayğı ilə, diqqətlə əhatə olunub.

- Cəmiyyətin ziyalı zümrəsinin ordu ilə əlaqələri barədə nə deyə bilərsiniz? Bu əlaqələr sizi qane edirmi?

- Əlbəttə, xalqın ən qabaqcıl, nurlu zümrəsi sayılan ziyalıların müvafiq sahəyə diqqətlə yanaşmasından çox şey asılıdır. Gənclərimiz güclüdürlər, mətindirlər, qoçaqdırlar. Onların bu qüvvələrini, fəaliyyətlərini istiqamətləndirmək, səfərbərliyə almaq işi müəyyən qaydada ziyalıların da üzərinə düşür. Amma təəssüf ki, ziyalılarımızın, mən də o sırada olmaqla bu işə münasibəti məni qane etmir.

- Professor, konkret olaraq, bir ziyalı kimi, ordumuza hansı mənəvi yardımı göstərməyi planlaşdırırsınız?

- Mənim sənətim kitabxanaçılıqdır. Kitab-böyük silahdır və hesab edirəm ki, orduda xidmət edən əsgərlərimizə ərzaq, texnika, geyim necə vacib lazımdırsa, kitab da o qədər zəruridir. Mənə elə gəlir ki, ordu hissələrində, xüsusilə də böyük hərbi birləşmələrdə kitabxana fondlarını zənginləşdirmək lazımdır. Bu vacib məsələ diqqətdən kənarda qalmamalıdır. Müdafiə Nazirliyinin bu sahədə mütəxəssis köməyinə ehtiyacı olarsa, mən bu işi öz üzərimə götürər, bir ziyalı kimi məmnuniyyətlə yardımımı əsirgəməzdim. Biz hərbi mövzuda kitablar yığar, onları sistemləşdirər və hərbi kitabxanalara təqdim edə bilərik. Lazım gəlsə kadr sarıdan da köməklik göstərərik.

Bilirsinizmi, bu, doğrudan da vacibdir. Qoy əsgərlərimiz klassik dövrün ədəbi nümunələri ilə tanış olub vətənpərvərlik mövzusunda o zaman yazılmış əsərləri oxusunlar. Keçmiş döyüş sənətinə aid olan, müasir ordu quruculuğunu əks etdirən kitabları nəzərdən keçirsinlər, yeniliklər əldə etsinlər. Əsgər üçün ən vacib amil Vətəni, torpağı sevməkdir. Bu barədə isə kitablarda da yazılır...

- Professor, hərbi vətənpərvərlik tərbiyəsinin mütəmadi olaraq gənclərə aşılaması işinə məktəbdə başlanılır. Sonra bu iş ali məktəb auditoriyalarında davam etdirilir. Siz ali məktəbdə işləyirsiniz. Azərbaycan ordusunun sabahkı əsgər və zabitlərinin Azərbaycan vətəndaşları kimi yetişdirilməsi üçün çox işlər görülür. Bu barədə nə deyə bilərsiniz?

- Orduda xidmət edəcək gənc nəslin tərbiyəsi üçün məktəblərimizdə təhsil, tədris işini tərbiyə işindən ayırmaq olmaz. Hər bir müəllimin, pedaqoqun üzərinə düşən əsas vəzifə müəyyən ixtisas, sənət öyrətdiyi gəncin həm də tərbiyə işini uğurla başlamaq və davam etdirməkdir. Əgər bu iş uğurla həyata keçirilməyibsə, müəllim kollektivinin neçə illər ərzində hazırladığı yüksək ixtisaslı kadr cəmiyyətdə özünə mövqe tuta bilməz. Hər bir gənc müvafiq sahənin bilicisi, ixtisaslı kadr olmaqla yanaşı həm də əsl Azərbaycan vətəndaşı olmağı bacarmalıdır. Mən də təlim-tərbiyə və tədris prosesində bu amili əsas götürürəm. Ümumiyyətlə, BDU-da bu, ənənə halındadır. Son vaxtlar isə universitetdə tərbiyə işinin təşkili xüsusilə, ciddi nəzarətə götürülüb. Bu yaxınlarda rektor vəzifəsinə təyin olinmuş hörmətli professor Abel Məhərrəmov pedaqoji kadrların fəaliyyətinin yoxlanılması və qiymətləndirilməsi barədə göstəriş vermişdir. Vətənə, torpağa, xalqa, bu torpağın hər daşına, hər qayasına, ağacına sevgi hissinin gənclərdə formalaşdırılması pedaqoqların fəaliyyət

proqramının tərkib hissəsinə çevrilməlidir. Əgər bütün dövrlərdə, bütün tədris müəssisələrində çalşan insanlar öz fəaliyyətlərini məhz bu formada qura bilsələr, onda biz "filankəs əsgərlikdən qaçıb, çağrışdan yayınıb" kimi qorxulu xəbərləri eşitmərik.

Özü də bu işə ailədən, uşaq bağçasından, sonra isə orta məktəbdən ciddi fikir verilməlidir. Yəqin diqqət yetirmisiniz, ağac bütün qaydalara əməl edilərək əkiləndə düz, sağlam inkişaf edir. Həmin ağacın meyvəsi də sağlam, təmiz, qidalı olur. Amma insafla danışsaq, gənclərimizin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması işinə bu gün daha ciddi fikir verilir. Şəxsən mən Təhsil Nazirliyinin bu sahədəki işini yüksək qiymətləndirirəm. Təhsil naziri bu məsələni öz şəxsi nəzarətinə götürüb və bu çox sevindiricidir. Hesab edirəm ki, gənc azərbaycanlı balasını biz hələ orta məktəbdən əsgərliyə hazırlamalıyıq. Bunun üçün də birinci sinifdən başlayaraq şagirdlərin təfəkküründə, təmiz qəlbində, şüurunda Azərbaycan əsgərinin yaddaqalan nümunəvi obrazını yaratmalıyıq. Şübhəsiz ki, bayaq qeyd etdiyim kimi, təbliğat vasitələri də bu işdə sözünü deməlidir.

- *Professor, ordumuzun əsgərlərinə, gənc zabitlərinə, ümumiyyətlə, gənclərimizə ürək sözlərinizi eşitmək istərdik.*

- Gənclik böyük qüvvədir və mən inanıram ki, gənclərimiz öz üzərlərinə düşən tarixi missiyanı bütün məsuliyyəti ilə dərk edirlər. Torpaqlarımızı azad etmək, vahid və bölünməz bir Vətən kimi qorumaq, əkib-becərmək, yeraltı, yerüstü sərvətlərimizin əsl sahibinə çevrilmək, sonrakı nəsli də bu ruhda tərbiyə etmək, xalqın rifah halını yaxşılaşdırmaq, Azərbaycanı dünyaya tanıtmaq... hansını deyim. Bütün bu məsələləri gənclərimiz həll etməlidir. Nə qədər böyük məsuliyyətdir, elə deyilmi? Nə etməli? İlk növbədə, üstündə gəzdiyi torpağın qədrini bilməli, onu sevməlidir gənc. Bax onda torpaq özü gəncliyə kömək olacaq. Torpaq müqəddəsdir. Əsgər isə bu müqəddəsliyi qoruyur. Əsgər də elə bu torpaq qədər müqəddəsdir.

Qoy əsgər silahını təmiz saxlasın, ondan məharətlə istifadə etməyi öyrənsin və torpağını qorumağı bacarsın. Şüurlu tərzdə dərk etsin ki, o, Vətənin dayağıdır və onun qeyrətinə söykənən Vətənin inamını itirmək olmaz.

"Azərbaycan ordusu" qəzeti. 3 mart 1999.

ПРОБЛЕМЫ КОМПЬЮТЕРИЗАЦИИ БИБЛИОТЕК АЗЕРБАЙДЖАНА

На пороге XXI столетия в мире начался новый этап технологической и мирной социальной революции – становление информационного общества. Информация становится одним из наиболее значимых стратегических ресурсов, оказывающих решающее воздействие на изменения в социальной структуре общества, экономике, развитии инс-

титутов демократизации общества. Библиотеки, вся деятельность которых связана с созданием, хранением, обработкой и передачей основных видов информации, безусловно, не могут оставаться в стороне от этого процесса. Хорошо понимают это и в Азербайджане. Однако в настоящее время библиотеки Азербайджана не могут полноценно выполнять свой функции по обеспечению читателей необходимой информацией. Это связано как с резким возрастанием объема научно-технической информации, так и разрушением системы комплектования, существенным уменьшением финансирования, почти полным прекращением поступлений иностранной научной периодической литературы и удорожанием отечественных научных изданий.

В этих условиях обеспечение и повышение эффэктивности деятельности библиотек может быть достигнуто лишь путем автоматизации библиотечно-информационных процессов и межбиблиотечной кооперации на основе современных телекоммуникационных технологий.

С целью разработки научных основ компьютеризации библиотек Азербайджана с марта 1999 г. в Бакинском Государственном Университете им. М.Э.Расулзаде действует научно-исследовательская лаборатория «Компьютеризация библиотечных процессов» . Сотрудники лаборатории, изучая опыт передовых государств, разрабатывают проект «Создания Единой автоматизированной сети библиотек Азербайджана», целью которого является создание виртуального библиотечно-информационного пространства Азербайджана и интеграция его в мировую информационного пространства Азербайджана и интеграция его в мировую информационную инфраструктуру. Реализация проекта начата в научной библиотеке БГУ. Разработан и успешно внедряется интегрированный пакет прикладных программ «Китабхана-1.0», позволяющий автоматизировать все основные библиотечные процессы. Пакет включает в себя следующее:

- информационную поисковую систему, которая позволяет быстро найти нужную информацию простым и комбинированным способом, получать, сведения о наличии книг в фонде в данный период и т. д.;
- автоматизированные рабочие места библиографа, каталогизатора, сотрудников отделов комплектования фондов и обработки периодики.

Разработаны служебные программы: защита и безопасность информации, самодиагностика, самовосстановление. Ведется активная работа над проблемой автоматизации процессов выдачи и приема литературы на учебном абонементе, доступ к удаленным электронным каталогам зарубежных библиотек посредством Интернет, автоматизации межбиблиотечного обмена. Проект включает в себя также библиотечно-информационное обеспечение дистанционного обучения (ДО), включающее электронные книги, карты, справочники и т. д.

Разработаны и внедряются ряд проблемно-ориентированных баз данных, созданы электронные каталоги фондов библиотеки. Электронный каталог фондов библиотеки доступен в локальной сети типа Интернет. Планируется онлайновый удаленный доступ к электронным каталогам и базам данных на основе технологии клиент-сервер.

При разработке проекта обращалось внимание на решение проблем: 1) Разработки объектно-виртуальных информационно-поисковых систем, ориентированных на лингвистическую модель. 2) Кодирования азербайджанского алфавита. 3) Создания нового машиночитаемого формата на основе формата USMARC с учетом особенностей азербайджанского языка. 4) Оптимизации поиска информации.

Для решения данных задач использовались следующие математические методы: методы теории массового обслуживания, оптимизации системного и объектно-ориентированного программирования.

Тезисы докладов Международной научной конференции. Ч.2. Москва, 2000. с. 36-37

KİTABXANALARI ÖZƏLLƏŞDİRMƏK VƏ İCARƏYƏ VERMƏK OLMAZ

Bu günlərdə BDU-nun həyatında mühüm hadisə baş verib. Universitetin 80 illik yubileyi böyük təntənə ilə qeyd edilib. Bu münasibətlə hörmətli Prezidentimiz H.Əliyev cənabları universitet müəllimlərinin bir qrupunun pedoqoji fəaliyyətini yüksək qiymətləndirərək 11 fevral 2000-ci ildə M.Ə.Rəsulzadə adına BDU müəllimlərinin təltif edilməsi haqqında fərman imzalayıb. Təltif olunanlardan biri də tarix elmləri doktoru, professor A.Xələfovdur. A.Xələfovu bu münasibətlə təbrik etmək məqsədilə universitetə yollandıq.

Universitetdə ilk baxışda nəzər-diqqəti cəlb edən tikinti, abadlıq işləri, foyedə zövqlə qoyulmuş bəzək ağacları, dəhlizlərin xalçalarla döşənməsi onun bayram əhval-ruhiyyəsindən xəbər verirdi. Universitetin rektoru A.Məhərrəmovun son ildə gördüyü işlər göz qabağındadır.

Professor A. Xələfovla kabinetində görüşüb bir neçə sualla ona müraciət etdik.

Arayış: A.Xələfov Göyçə mahalının Çil kəndində anadan olub. 1950-ci ildə universitetin filologiya fakultəsinin kitabxanaçılıq şöbəsinə qəbul olunub. 1955-ci ildə oranı bitirib. O vaxtlar təcrübəsi olmayan məzunları universitetdə saxlamaq qadağan idi. Rektor Yusif Məmmədəliyev Abuzər müəllimi yanına çağırıb söhbət edəndən sonra onu burada saxlamağa qərar verir.

1962-ci ildə 28 yaşında fakültənin dekanı seçilib. Abuzər müəllim kitabxanaçılıq fakültəsini quran, yaradan və onun formalaşmasında böyük əməyi olan şəxsiyyətdir. O 45 il bu fakültədə təlim-tərbiyə işləri ilə məşğul

olub. Kitabxanaçılıq sahəsində verilən qərar və qanunların həmişə fəal iştirakçısı və tövsiyəçisi olub. 14 monoqrafiya, dərslik və dərs vəsaitinin, 110 elmi məqalənin, 150-dən çox elmi əsərin müəllifidir. 1998-ci ildə tələbələrə həsr etdiyi "Azərbaycan ali kitabxanaçılıq təhsili" kitabı çapdan çıxıb. 1970-79-cu illərdə BDU-nun elmi əsərlərinin kitabxanaşünaslıq və biblioqrafiya seriyasının redaktoru olub.

BDU-nun yubileyi günlərində onun yüksək elmi nüfuzunu təsdiqləyən daha bir diqqətəlayiq hadisə baş verib. Professor A.Xələfov Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının müxbir üzvü seçilib. BMT-nin bu mötəbər qurumunun üzvləri arasında dünyanın görkəmli alimləri, o cümlədən nobel mükafatı laureatları, dövlət və hökumət başçıları vardır.

Respublikamızda kitabxanaşünaslıq üzrə tədqiqatların elmi əsasını qoymuş professor A.Xələfovun qədim dövrdən indiyədək ölkədə kitabxana işinin tarixinə həsr edilən tədqiqatları Azərbaycan mədəniyyət tarixinin nəzəriyyə və təcrübəsini xeyli zənginləşdirmişdir. O, ölkəmizdə kitabxanaşünaslıq sahəsində ilk elmlər doktoru, professordur.

- Abuzər müəllim, sizi "Şöhrət" ordeni almağınız və beynəlxalq akademiyaya üzv seçilməyiniz münasibətilə təbrik edirik.

- Sağ olun.

-Bizə məlumdur ki, Milli Məclisdə kitabxana haqqında tarixi qanun qəbul olunarkən siz bir mütəxəssis kimi fəal iştirak etmisiniz. Bu qanun sizi qane edirmi?

-Kitabxana işi sahəsində belə bir qanun Azərbaycanın tarixində ilk dəfədir ki, qəbul olunub. Qanun üzərində iki il işləyəndən sonra MM-in müzakirəsinə vermişik. Qanun kitabxana işi sahəsində çox mühüm proqressiv bir sənəddir. Dünya kitabxanalarının fəaliyyətinin əsas cəhətləri götürülməklə, Azərbaycanda kitabxana işinin prosesi xəlbirdən keçirilməklə və milli idelogiyamız nəzərə alınmaqla əsas ideologiya kimi qəbul olunub. Qanunu çox yüksək qiymətləndirirəm.

- Qanunun 11-ci maddəsinə, yəni kitabxanaların özəlləşdirilməsi və icarəyə verilməsi bəndinə münasibətiniz?

- Bu maddə ikinci oxunuşdan sonra bizim iştirakımız olmadan qanuna salınıb. Kitabxanaları heç vaxt özəlləşdirmək və icarəyə vermək olmaz. Çox istərdim ki, bu maddəyə yenidən baxılsın.

- Abuzər müəllim, qanunun verildiyi vaxtdan xeyli keçməsinə baxmayaraq bu qanunun tətbiqi ləngiyir, kitabxana sahəsində heç bir dəyişiklik hiss olunmur.

- Qanun demokratik ölkələrin kitabxana təcrübələrindən bəhrələnərək, Avropa standartlarına uyğun olaraq verilib, hətta bəzi maddələr dünya kitabxanaları haqqında qəbul olunmuş qanunun maddələrindən də üstündür. Çox təəssüf olsun ki, qanun hələlik işləmir. Nazirlər kabineti bu qanunun işləmə mexanizmini hazırlayıb yerlərə göndərsəydi, üraiyimizcə olardı.

- Ümumiyyətlə, götürsək, kitabxanaların maddi vəziyyəti digər ziyalılara

nisbətən qat-qat aşağı səviyyədədir. Onlara qarşı bir laqeydlik hiss olunur. Sizcə bu nədən irəli gəlir?

- Kitabxanaçılara qayğısızlığı ancaq müvəqqəti iqtisadi çətinliklərlə əlaqələndirirəm. Son vaxtlar elə bu iqtisadi çətinliklər üzündən kitab ala bilməyən oxucular kitabxanalara üz tutublar. Bu baxımdan kitabxanalarda oxucuların sayı artıb. Qəbul etdiyimiz qanun işləsə, kitabxanaların və kitabxanaçıların sosial təminatı da həll olunar.

- BDU-nun kitabxanaçılıq fakultəsinə ildə nə qədər tələbə qəbul olur?

- Son illərdə axşam şöbəsi götürülüb. Gündüz və qiyabi şöbələrə 100 nəfər tələbə qəbul olunur.

- Abuzər müəllim, bu xoş günündüzdə söhbətimiz ətrafında ürəyinizdən daha nələr keçir?

- Universitetin 80 illik yubileyi münasibətilə bütün müəllim və tələbə heyətini təbrik edirəm. 45 illik sadə müəllim əməyimi belə yüksək qiymətləndirdiyinə görə hörmətli Prezidentimiz H.Əliyev cənablarına minnətdaram. Bu mükafatı universitetin tarixi fəaliyyətinə verilən böyük mükafatın bir hissəsi kimi qiymətləndirirəm. Prezidentimizin özü də bu universitetin məzunu olub və dəfələrlə çıxışlarında bununla fəxr etdiyini bildirib. Universitetin rektoru A.Məhərrəmov cənablarına biz müəllimlərə göstərdiyi etimad və qayğıya görə təşəkkürümü bildirirəm. Onu da qeyd edim ki, A.Məhərrəmovun son bir ildə təhsil islahatı, yeni dərslik və dərs vəsaitlərinin çap olunması, təzə tədris planlarının yaranması, universitetdə apardığı genişmiqyaslı tikinti-abadlıq işləri sahəsində gördüyü işlər universitetin 50 illik həyatına bərabərdir. Onun qayğısı sahəsində işçi kollektivinin maddi durumu da xeyli yaxşılaşıb.

Ucqar bir kənddən gəlib universitet həyatına qədəm qoyduğum vaxtdan bu günə kimi həmişə rəhbərliyin qayğısını öz üzəRomada hiss etmişəm və burada formalaşmışam. Çalışıram ki, mən də bacardığım qədər müəllim və tələbə heyətinə qayğı göstərim, öz borcumu verim.

- Abuzər müəllim, sizə pedaqoji fəaliyyətinizdə daha böyük uğurlar arzulayırıq.

- Çox sağ olun.

"İki sahil" qəzeti, 24 fevral 2000.

"KİTABXANA İŞİ" ANLAYIŞININ ÖYRƏNİLMƏSİNƏ DAİR

Bəşər sivilizasiyasının yaranmasına xüsusi xidmətləri olan kitabxanaların sosial institut kimi formalaşmasında və inkişafında "Kitabxana işi" mühüm rol oynamışdır.

Məlumdur ki, kitabxana fəaliyyət göstərdiyi məkan daxilində sosial vasitə kimi həmişə sosial mühitdən asılı olaraq formalaşmışdır. Kitabxanalar tarixi inkişaf prosesində öz hamisi olan cəmiyyətə xidmət etmiş, onun tələ-

batını ödəmiş, sifarişini yerinə yetirmişdir. Beləliklə, kitabxananın yaranması, formalaşması, inkişafı, fəaliyyəti və cəmiyyətdə tutduğu mövqeyi bilavasitə onu yaradan cəmiyyətlə bağlıdır. Cəmiyyət necədirsə, onun kitabxanası da özünəməxsus olmuş, ona xidmət etmişdir. Cəmiyyətin tələbatına xidmət etmək bilavasitə kitabxananın fəaliyyətində, bu fəaliyyətin təzahür forması olan "kitabxana işi"ndə özünü göstərir. Görkəmli hind kitabxanaşünas alimi Ş.R.Ranqanatanın dediyinə müfaviq kitabxananı "İnkişaf edən orqanizm" kimi qəbul etsək, bu orqanizmin inkişafını təmin edən amil "kitabxana işidir". Kitabxana işi kitabxanaların, inkişaf edən orqanizmin hərəkət formasıdır. Hər bir orqanizm hərəkətsiz mövcud olmadığı kimi kitabxana da "Kitabxana işi"ndən təcrid olunmuş şəkildə mövcud deyildir. "Kitabxana işi" kitabxananın inkişaf edən orqanizmi kimi hərəkət və inkişaf formasıdır. Onun fəaliyyətinin, cəmiyyətə xidmətinin insanlarla əlaqəsinin əsas amilidir. Kitabxana işi olmadan kitabxana cansız, hərəkətsiz kitab anbarına çevrilə bilər.

Bu baxımdan kitabxana ilə kitabxana işi arasındakı qarşılıqlı əlaqələrin öyrənilib, dəqiqləşdirilməsi müasir kitabxanaşünaslığın əsas vəzifələrindən biridir.

Müasir dünya kitabxanaşünalığında kitabxanalar cəmiyyətdə elmə, informasiyaya, mədəniyyətə, təhsilə və tərbiyəyə xidmət edən institut kimi qiymətləndirilir.

Dünya kitabxanaşünaslığında olduğu kimi bir çox ölkələrin kitabxana işi haqqında qəbul edilmiş qanunlarında kitabxanalar institut adlandırılır, mədəniyyətin mühüm sahəsi kimi onların qarşısında çox böyük sosial vəzifələr qoyulur. Belə qanunlara misal olaraq Azərbaycan milli məclisinin 1999-cu ildə qəbul etdiyi "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununu göstərə bilərik. Bu qanunda deyilir: "Kitabxana elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur.

Kitabxanaların sosial institut adlandırılması haqqında fikirlər hələ XX əsrin əvvəllərindən səslənməyə başlamışdır. Belə fikirlər Amerikada və Avropada daha geniş yayılmışdı. Hələ XX əsrin 30-cu illərində amerkan alimi L.Ballard "Sosial institutlar" adlı kitab nəşr etdirmişdi. Bu kitabda sosial institut istilahı daha geniş və hərtərəfli təhlil edilmiş, kitabxanaların sosial institut olması əsaslandırılmış, bu məsələyə ayrıca fəsil əlavə edilmişdir. L. Ballardan sonra Amerika kitabxanaşünası L.Martin 1937-ci ilin oktyabrında ("Libraru quartezi") kitabxananın sosial institut olması haqqında oçerk çap etdirmişdi (1). Bu əsərində L.Martin kitabxanaların sosial institut olması fikrini geniş elmi dəlillər əsasında təhlil etmiş, ciddi elmi nəticələr çıxarmışdır. Kitabxanaların sosial institut olması haqqında fikirlərə görkəmli Amerika alimi, müasir dünyanın ən görkəmli kitabxanaşünaslarından biri kimi tanınan C.X.Şiranın əsərlərində də geniş yer verilmişdir. C.X.Şira özünün 70-ci illərdə

nəşr etdirdiyi "Kitabxanaşünaslığa giriş" kitabında kitabxanaların sosial institut olması ideyasını bir daha təsdiq etmişdir (2).

Cəmiyyət sosial münasibətlərin sabitliyini təmin edən, cəmiyyət üzvlərinin davranışına nəzarət edən təchizatların özünəməxsus sistemini yaradır. Bu sistemdə institutların (İnstitut (latınca institution)- qurma, təsis etmək) (təsisatların) yerinə yetirdikləri vəzifələr xüsusilə əhəmiyyətlidir.

Cəmiyyətdə yerinə yetirdikləri vəzifələrə görə müxtəlif institutlar (təsisatlar) mövcuddur. Bunların içərisində: iqtisadi təsisatlar, siyasi təsisatlar, tərbiyəvi, mədəni təsisatlar və sosial təsisatlar xüsusilə fərqlənirlər. Tərbiyəvi və mədəni təsisatlar sırasına daxil olan kitabxanalar sosial institut kimi cəmiyyətin mədəni sərvətlərini xalqa çatdırmaq üçün, mədəniyyətin möhkəmləndirilməsində, gənc nəslin tərbiyəsində və təhsil prosesində yaxından iştirak edir.

Sosial institutların yaranması, cəmiyyətdə onların rolu, vəzifələri haqqında antropoloqlar, sosioloqlar və filosoflar ciddi elmi araşdırmalar aparmış, cəmiyyətdə onların yerini, əhəmiyyət və vəzifələrini müəyyənləşdirən elmi anlayışlar yaratmışlar.

Sosial institut-sosial strukturun elementi, ictimai həyatın təşkili və nizama salınmasının tarixi formasıdır. Sosial institutun köməyi ilə cəmiyyətdə insanlar arasındakı əlaqə, onların fəaliyyəti, rəftar qaydaları tənzimlənir və beləliklə də, ictimai həyatın möhkəmləndirilməsi təmin edilir. İnstitut həmçinin, mədəniyyəti hərəkətə gətirən, onun işlənməsini təmin edən sosial təsisat, sosial vasitədir. Bunlar cəmiyyəti birləşdirən, əlaqələndirən qüvvədir, bunsuz cəmiyyət dağılıb bilər, hissələrə parçalana bilər. Fikrimizi aydınlaşdırmaq üçün misallara keçək. Ailə sosial instituta aid misallardan biridir. Başqa misal kimi, dini, qanunu, təhsil və biliyi, kitabxananı göstərək. İnstitutlar öz vəzifələrini yerinə yetirmək üçün tarixi inkişaf prosesində yaranıb və təkmilləşən orqanlarını yaradır. İnstitutun yaratmış olduğu orqanlar bilavasitə onun xeyrinə fəaliyyət göstərməklə qarşısında duran vəzifələri yerinə yetirir. Beləliklə, orqan institutun xeyrinə yaranmış sosial vasitədir. Məhz orqanın vasitəsilə institutun hərəkəti meydana çıxır. Missallara müraciət edək: Əgər hüquq institutdursa, məhkəmə onun orqanıdır. Din institutdursa kilsə onun orqanıdır. Təhsil və yaxud bilik institutdursa, məktəb, universitet onun orqanıdır.

Bu misalları kitabxanalara da aid etmək olar. Əgər kitabxana institutdursa, kitabxana işi onun orqanıdır. Məlumdur ki, kitabxana işi olmadan kitabxanalar cəmiyyətin onun qarşısında qoyduğu vəzifələri: kitabla insanlar arasında əlaqə yaratmaq, kitabı təbliğ etmək, cəmiyyətin informasiyaya tələbatını ödəmək, insanların mədəni, intellektual səviyyəsinin yüksəlməsində, tərbiyə prosesinin təşkilində yaxında iştirak etmək vəzifələrini həyata keçirə bilməz. Deməli, kitabxana işi kitabxananın sosial institut kimi yaşamasını, inkişaf edib təkmilləşməsini, cəmiyyətin əsas təsisatlarından biri kimi fəaliyyət göstərməsini təmin edən əsas amilidir, orqanıdır. Məsələn kitabxana sosial institutdursa, onda ilk növbədə kitabxanada işləyən adamlar qrupu və kitabxananın yerinə yetirdiyi funksiyaların təşkilati formaları nəzərdə tutulur.

Bunlar isə bilavasitə kitabxana işinin, yəni orqanın köməkliyi və iştirakilə baş verir. Beləliklə kitabxana işi sosial institut olan kitabxananın orqanı, əsas vasitəsi kimi çıxış edir, kitabxana fəaliyyətinin kompleks təşkilini təmin edir.

Dünya kitabxanaşünaslığında XIX əsrin axırı - XX əsrin əvvələrinə qədər kitabxana ilə kitabxana işi arasında fərqlər dəqiqləşdirilməmişdi. Bunlar əksər hallarda bir-birindən fərqləndirilmədən öyrənilirdi.

İlk dəfə rus kitabxanaşünaslığında "Kitabxana işi" anlayışı XIX əsrin axırı - XX əsrin əvvələrində işlənməyə başlanmışdır. Bu vaxta qədər bir çox rus kitabxanaşünasları "kitabxana" və "kitabxana işi" anlayışlarını bir-biri ilə eyniləşdirirdilər. Bu dövr kitabxanaşünasları nəzərdən qaçırırdılar ki, ayrıca götürülmüş və bir-birindən təcrid edilmiş şəkildə fəaliyyət göstərən kitabxanalar öz sosial mənasında kitabxana işini təşkil etmirlər. Kitabxana işi o zaman geniş fəaliyyət sahəsinə çevrilir ki, o ictimai əhəmiyyət kəsb etsin, cəmiyyətin mədəni həyatının ayrılmaz hissəsinə çevrilsin, cəmiyyət üzvlərinin, tərbiyə və təhsilində yaxından iştirak etsin. Bu mühüm vəzifələrin yerinə yetirilməsi, kitabxanaların ictimai rolunun artmasına kitabxanaların fəaliyyətində, əhaliyə xidmət işi sahəsində ciddi keyfiyyət dəyişikliklərinin baş verməsinə, beləliklə kitabxana işinin ictimai xarakter almasına gətirib çıxardı. Cəmiyyətdə kitabxana işi anlayışı ayrı-ayrı kitabxanaların dar çərçivəsindən çıxaraq ümumi region, ümumölkə xarakteri almağa başladı.

Xalq kütlələrinin kitabxanalardan daha geniş istifadəyə başlaması, kitabxanaların oxucu dairəsinin genişlənməsi kitabxanalardan ictimai istifadənin forması olan kitabxana işini insanların mədəniyyətinin zirvəsinə qovuşmasını, bəşəriyyətin yaratmış olduğu milli sərvətlərdən geniş istifadəsini təmin edən sosial kommunikativ sistemə çevirdi. Məhz buna görədir ki, Rusiyada 1911-ci ildə kitabxana işi üzrə keçirilən birinci ümumrusiya qurultayı kitabxana işinə əhaliyə kitabxana xidmətinin təşkilinin əsası kimi olduqca böyük əhəmiyyət verdi, kitabxana işi sahəsində əldə edilmiş təcrübənin öyrənilməsini və yayılmasını zəruri hesab etdi. Beləliklə, "Kitabxana işi" anlayışı kitabxanaların əsas vasitəsi, orqanı kimi geniş elm, informasiya, mədəni, təhsil və tərbiyə fəaliyyəti sahəsi kimi formalaşmağa başladı.

XX əsrin 20-ci illərindən başlayaraq dünya kitabxanaşünaslığında kitabxana işinin bu və ya digər sahələrinə dair geniş elmi-tədqiqat işləri aparılmağa başladı. Kitabxana işinin qarşısında çox mühüm vəzifələr qoyan müasir şərait, bu sahədə yeni elmi, nəzəri və metodik fikirlərin meydana gəlməsi üçün şərait yaratdı. Kitabxana işinə dair qiymətli monoqrafik əsərlər, dərsliklər, dərs vəsaitləri metodik əsərlər yarandı. Dünya ölkələrində 100-lərlə belə əsərlərin meydana çıxması bu işin sosial əhəmiyyətini, cəmiyyətin mədəni tərəqqisində rol və əhəmiyyətini bir daha artırdı. Məlum olduğu kimi, ən kiçik kitabxana belə öz fondunda bütün biliklər sistemini: təbiət elmlərinə, humanitar elmlərə, sosial-siyasi elmlərə, həm də incəsənətə dair əsərləri toplayır. Kitabxana fondu ensiklopedik mərkəzi xatırladır. Müxtəlif elm sahələrinə dair kitablar kitabxana rəflərində bir yerdə toplanaraq oxucuların istifadəsinə

verilir. Kitabxana bütün biliklər xəzinəsini öz oxucularına asanlıqla, vaxt itirmədən çatdırmağı təmin etmək üçün müxtəlif iş formalarından istifadə edir ki, bu iş kitabxana işidir. Kitabxana işi məfhumu altında vətəndaş və onların birliklərinin elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə fəaliyyəti başa düşülür. Bu fəaliyyətə kitabxana şöbəsinin yaradılması və inkişafı, onların fondlarının yaradılması və işlənməsi, oxuculara (istifadəçilərə) kitabxana, informasiya və məlumat-biblioqrafiya xidmətinin təşkili, kitabxana işinin idarə edilməsi və iqtisadiyyatı, kitabxanaların inkişafının elmi-metodik və kitabxanaçı kadrların hazırlanması daxildir. Kitabxananın fəaliyyəti və kitabxana ehtiyatlarının hərəkətinə və inkişafına səbəb olur. Daha doğrusu kitabxana işinin müasir və gələcək problemi olan sənəd informasiyası sahəsində ictimai, fərdi təlabatı təmin etməyin kompleks parametrlərini xarakterizə etmək imkanlarını müəyyənləşdirir.

Kitabxana işi haqqında təlim əsasən aşağıdakı sahələrin araşdırılmasını təmin etməlidir:

1. Kitabxana işi sosial sistem kimi.

Bu bölmədə respublikamızda kitabxana işinin inkişafının ümumi yekunu, onun dövlət xarakteri, Azərbaycan dövlətinin kitabxana işi sahəsində siyasəti nəzərdə tutulur.

2. Azərbaycanda kitabxana işi təşkilinin əsas prinsipləri. Dövlətin vəzifələri.

3. Kitabxana şəbəkələri və sistemi:

Ayrı-ayrı nazirliklərin idarə və müəssisələrin kitabxana şəbəkələri və sistemləri.

4. Respublikanın vahid kitabxana sistemi, onun yaranması və vəzifələri.

5. Azərbaycanda kitabxana işinin idarə edilməsi.

"Kitabxanaşünaslıq və biblioqrafiya"
elmi, nəzəri və təcrübi jurnalı, 2000. № 2. s. 3-8

SÖHBƏT AZƏRBAYCANLI İGİD MƏLİK MƏHƏRRƏMOVDAN GEDİR

1920-ci ilin mayında Azərbaycanın Zərdab rayonunun Bıcaqçı kənd sakini

Məlik Cəfər oğlu Məhərrəmovu düşmənlər qətlə yetirdilər. Ailəsi yasa batdı. Bu faciədən üç ay sonra həmin ailədəbir oğlan uşağı dünyaya gəldi. Atasının adını yaşatsın deyə onu Məlik adlandırdılar. Amma körpə Məlik bir yaşına çatar-çatmaz daha ağır itgi ilə üzləşdi. Anası Mədinə Abdulxalıq qızı qəflətən vəfat etdi. Beləliklə böyük bir ailə -üç oğlan, dörd qız yetim və kimsəsiz qaldı. Kasıb ailəni dolandırmağın bütün ağırlığı böyük qardaş Məhəmmədəlinin çiyninə düşdü.

Günlər, aylar, illər bir-birini qovur, amansız taleyin ağır-acılarına dözmək məcburiyyətində qalan Məlik şor-çörəklə böyüyürdü. Bircə fakt: ayaqyalın gəzdiyindən ayalarının altı, dabanları çadar-çadar olmuş Məlik yalnız 7 yaşında ilk dəfə olaraq qardaşının tikdirdiyi çarığı geyinəndə sevinməyə macal tapmışdı.

1936-cı ildə 7 illik məktəbi uğurla başa vuran məlik xeyirxah insanların maddi yardımı ilə təhsilini davam etdirmək üçün Bakı şəhərinə üz tutur. Xalq Təsərrüfatının Uçotu Texnikumuna daxil olur. 1939-cu ildə təhsilini başa vurub Bakıdakı "Qırmızı Oktyabr" artelində mühasib köməkçi kimi əmək fəaliyyətinə başlayır. Bir neçə ay sonra əsgərliyə getmək arzusu ilə hərbi komissarlığa müraciət edir. Beləliklə, 1939-cu il oktyabrın 15-də Sovet ordusu sıralarına hərbi xidmətə çağrılır və 1941-ci ilədək hərbi məktəbin kursantı olur.

Faşist Almaniyasının Sovet ittifaqına qəfil hücumu Məlik Məhərrəmovun taleyində də ciddi dönüş yaradır.

O, 1942-ci ildə hərbi təhsilini başa vurur, leytnant rütbəsi alır və Ryazan vilayətində yerləşən pulemyotçular məktəbinə tağım komandiri vəzifəsinə göndərilir. Lakin ön cəbhə üçün darıxan 22 yaşlı leytnant arxa cəbhədə fəaliyyət göstərməyi şəninə sığışdırılmır və hərbi məktəb rəhbərliyinin etirazına baxmayaraq döyüşən orduya yola düşür. Əvvəlcə Birinci Belarusiya cəbhəsinin 77-ci qvardiya diviziyasına bölük komandiri vəzifəsinə təyin olunur və çox keçmir ki, çernikov şəhərinin faşist işğalçılarından azad olunması uğrunda döyüşlərdə onun bölüyü xüsusilə fərqlənir. Bu hərbi uğur münasibəti ilə bölük komandiri Məlik Məhərrəmov sovet hökümətinin ən şərəfli mükafatlarından biri olan "Qırmızı Bayraq" ordeni ilə təltif olunur. Bu qələbə azərbaycanlı zabiti maşhurlaşdırır və baş komandanlıq artıq ona daha məsuliyyətli hərbi-döyüş tapşırıqları verməyə başlayır.

1943-ilin payızında Dnepr çayı ətrafında aparılan hərbi əməliyyat zamanı bölük komandiri Məlik Məhərrəmova xüsusi bir tapşırıq verilmişdir. Spvet diviziyasının Dnepr çayının sol sahilindən saq sahilinə çıxarılması üçün çayı keçib əlverişli mövqe tutmaq! Beləliklə, 1943- çü il sentyabrın 26-dan 27-nə keçən gecə mılik məhərrəmovun komandiorlik etdiyi bölük böyük şücaət göstərərək Dnepr çayının keçir, sağ sahildə mövqe seçmiş faşistləri qəfil hücumla səngərlərdən vurub çıxarır, səhər açılana qədər azğın alman işğalçılarının 12 əks-hücumunun qarşısını elə onların özündən qənimət kimi götürdükləri silahlarla alır. Səhər tezdən diviziya ilə radio rabitəsi yaradılır və leytenant Məlik Məhərrəmovun verdiyi dəqiq kordinatlara əsasən "katyuşa"lardan açılan sürəkli atəşlət azğınlaşmış faşistləri pərən-pərən salır.

Məhərrəmovçuların hərbi nailiyyətləri yüksək qiymətləndirilən diviziya komandiri köməyə göndərilən əlavə qüvvələrə komandirlik etməyi leytnant Məlik Məhərrəmova tapşırır. Təsadüfi deyil ki, Dnepr çayının uğurla keçilməsi əməliyyatı sovet hərb tarixinə qızıl hərflərlə yazıldı.

Böyük vətən müharibəsi tarixinə parlaq səhifə kimi düşmüş bu müvəffəqiyyətli əməliyyatın iştirakçıları dövlət tərəfindən ən yüksək fəxri ada layiq

görüldülər. Belə ki, başda 23 yaşlı Azərbaycanlı komandir Məlik Məhərrəmov olmaqla bölüyün 18 nəfər əsgər və zabitinə sovet ittifaqı qəhrəmanı kimi yüksək ad verildi. Yeri gəlmişkən çox maraqlı faktdır ki, Böyük Vətən müharibəsi tarixində bu yeganə hadisədir.

Daha bir maraqlı hadisə: Dnepr əməliyyatı uğurla başa çatdıqdan sonra Məlik Məhərrəmovun başçılıq etdiyi bölük çayın sol sahilinə çıxarılmışdır. Bu zaman birinici Belarusiya cəbhəsinin komandını, ordu generalı Konstantin rokosovski umumi qəhrəmanlıq nümunəsi göstərmiş bölüklə daha yaxından tanış olmaq üçün 15 generalla birlikdə bölüyə gəlib çıxır.

General Rokosovski Leytnant Məlik Məhərrəmvun əynindəki, necə deyərlər, davadan çıxmış şinelə baxaraq:
"Qəhrəmanın paltarı niyə bu kökdədir?" soruşanda devizya komandirinin arxa cəbhə üzrə müavini polkovnik Motorin cavab verir: -Yoldaş general, onun şinelinin vaxtı hələ keçməyib." Bununla da polkovnik özünü cəncələ salıb.

General Rokosovski onun cavabından bərk hərslənir və ənənəvi rus söyüşü söyərək Motorinin öz vəzifəsindən azad olunması haqqında dərhal əmr verir. Ordu generalı Rokosovski bölükdən gedərkən gənc azərbaycanlı zabitə müraciət edərək deyir: -Leytnant Məhərrəmov mən sənə həsəd aparıram, çünki leytnant olanda məni heç kim tanımırdı. Sən isə artıq bütün Sovet ittifaqında məşhursan.

Bu təkcə Məlik Məhərrəmova yox, hər bir azərbaycanlıya baş ucalığı gətirən tarixi faktdır.

Müharibədən əsl qəhrəman kimi qayıdan Məlik Məhərrəmovu doğma vətəni Azərbaycan oğul məhəbbəti ilə qarşıladı. Gənc zabit müxtəlif illərdə Ağdaş, Xızı, Sabirabad, Kürdəmir və Bakının Nərimanov rayonunda hərbi komissar vəzifəsində işləmiş, 1965-ci ildən isə taleyini Bakı Dövlət Universiteti ilə bağlamışdır. Təbiətən istiqamlı bir şəxs olan Məlik Məhərrəmov Bakı Dövlət Universitetinin mehriban kollektivinə o qədər doğmalaşmış, o qədər qaynayıb qarışmışdır ki, bu ali təhsil müəssəsində ondan söz düşəndə hamı "Bizim Məlik" ifadəsini üräklə söyləyirlər. Dəhşətli müharibənin qanlı qadalı döyüşlərində düz altı dəfə yaralanan Məlik Məhərrəmov hazırda Qarabağ müharibəsinin sülh yolu ilə həll olunması yolunda Azərbaycan respublikasının prezidenti Heydər Əliyevin apardığı uğurlu siyasəti dəstəkləyir və müharibə iştirakçısı kimi təsdiqləyir ki, bütün münaqişələrin sonu sülhdür. Əlbətdə bu sülh əbədi və əzəli Azərbaycan torpağı olan Qarabağımıza rəsmən sahib olmağımızı beynəlxalq aləmdə təsdiqləməli, öz haqqımızı özümüzə qaytarmalıdır. Ömrünün 80-ci baharlna qədəm qoyan Məlik Məhərrəmov Azərbaycanlı Sovet ittifaqı qəhrəmanlarından həyatda olan yeganə şəxsiyyətdir. İnanırıq ki, o, indən belə də gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsinin düzgün qurulmasına yaxından kömək göstərəcəkdir.

"Xəzər Xəbər" jurnalı, 2003, № 93. s. 10-11

AZƏRBAYCAN XALQININ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEV İRSİNİN ROLU

Azərbaycan xalqının milli, siyasi mənəviyyat tarixinin son otuz ildən artıq dövrü dünya şöhrətli siyasətçi, səriştəli rəhbər, əvəzsiz şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin işıqlı adı və misilsiz fəaliyyəti ilə daha da zənginləşmişdir. Dəmir iradəsi, sarsılmaz qətiyyəti, bənzərsiz idarəçiliyi, yüksək təşkilatçılığı və dərin yaddaşı ilə fərqlənən bu düha sahibi bütün şüurlu həyatını doğma xalqın, ana vətənin tərəqqisi naminə sərf etmişdir. Heydər Əliyev bu gün də milli dövlətçiliyimizin, müstəqilliyimizin və mənəvi dəyərlərimizin yenilməz qarantıdır.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin iyirmi ildən artıq bir hissəsi respublikamızın Sovet İttifaqının tərkibində olduğu dövrə təsadüf edir. 1969-cu ilin yayında onun hakimiyyətə gəlişi Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mənəvi-mədəni həyatına uğurlu yeniliklər, dəyişikliklər gətirdi. Məhz Heydər Əliyevin qayğısı nəticəsində həmin dövrdə Azərbaycan sosial-iqtisadi və mədəni cəhətdən yüksək səviyyədə inkişaf edərək sovetlər Birliyinin ən nüfuzlu mükafatlarına layiq görülmüş, xalqımızın adı həmişə hörmət və iftixarla çəkilmişdir.

Heydər Əliyevin 1969-1983-cü illərdə elm, təhsil və mədəniyyət sahəsində gördüyü işlər, qazandığı uğurlar göz qabağındadır.

Bu böyük insan istər respublikamıza rəhbərlik edərkən, istərsə də Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyərkən Azərbaycan xalqının hərtərəfli inkişafına xüsusi qayğı göstərmiş, bütün imkanlardan səmərəli istifadə etməyi unutmamışdır.

Təəssüf ki, 80-ci illərin axırlarında respublikamıza rəhbərlik edənlərin səriştəsizliyi Dağlıq Qarabağ probleminin meydana çıxmasına, Ermənistanın Azərbaycan torpaqlarına göz dikməsinə şərait yaratdı. Müstəqilliyimizin ilk dövrlərində hakimiyyət başına gələnlər də məkrli düşmənlə - erməni terrorçuları ilə məqsədyönlü mübarizə aparmaq, milli dövlətçiliyimizi möhkəmləndirmək əvəzinə işıqlı kabinetlər, rahat kreslolar uğrunda "yarışa" çıxdılar, respublika daxilində düşmən axtarışına başladılar və nəticə etibarilə xalqı vətəndaş müharibəsi həddinə gətirib çıxardılar. Dağlıq Qarabağ ərazisinin və onun ətrafındakı rayonların bir-birinin ardınca düşmənlərimizin silahlı birləşmələri tərəfindən işğal olunmasına, soydaşlarımızın öz yurd-yuvalarından didərgin düşməsinə baxmayaraq, hakimiyyət başına gəlmiş maymaq liderlər özlərinin iqtidarda qalmaq ehtiraslarını Vətən, xalq, torpaq kimi müqəddəs anlayışlardan çox-çox yüksəkliklərdə tuturdular.

Xalqımızın belə ağrılı-acılı, qanlı-qadalı günlərində onun köməyinə çatan dahi şəxsiyyət Heydər Əliyev oldu. O, xalqın çağırışına səs verərək respublika rəhbərliyinə qayıtdı və müstəqil dövlətçiliyimizi məhvolma təhlükəsindən xilas etdi. Heydər Əliyevin siyasi uzaqgörənliyi və yüksək dühası

nəticəsində ölkəmizdə siyasi sabitlik yaradıldı. Artıq ABŞ, Fransa və Rusiya kimi nüfuzlu dövlətlərlə, ATƏT kimi beynəlxalq qurumla əməkdaşlıq edərək Qarabağ probleminin həllinə çalışması müəyyən ümüdlər yaradır ki, bu da Heydər Əliyevin uzaqgörən siyasətinin bəhrəsi sayılmalıdır.

Azərbaycanda ardıcıl sürətdə həyata keçirilən sosial-iqtisadi və hüquqi islahatlar nəticəsində milli dövlətçiliyimiz daha da inkişaf etdirilərək yeni məzmun kəsb etmişdir. Möhtərəm Prezidentimizin düşünən beyni olduğu ilk demokratik Azərbaycan Respublikası Konstitusiyasına əsasən, doğma ölkəmiz artıq hüquqi və dünyəvi dövlətə çevrilməkdədir.

Respublikamızın ictimai-siyasi həyatında baş verən mühüm, önəmli proseslər, iqtisadiyyatımızın inkişafı istiqamətində aparılan islahatlar, xarici siyasətlə bağlı görülən təxirəsalınmaz tədbirlər Heydər Əliyevin elm, təhsil, ədəbiyyat və mədəniyyət sahələrindəki fəaliyyəti ilə də şərtlənir.

Sovet dövründə olduğu kimi Azərbaycanın müstəqilliyi şəraitində də bu dahi şəxsiyyət mədəniyyətə, o cümlədən bilik mənbəyi olan kitabxana işinə çox böyük əhəmiyyət verir, cəmiyyətin inkişafında onların rolunu yüksək dəyərləndirir. Təsadüfi deyil ki, istər "Mədəniyyət haqqında", istərsə də "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanunlarının məhz milli sərvətlərimizin əsl təəssübkeşi Heydər Əliyev imzalamışdır.

Möhtərəm Prezidentimiz ölkəmizdə kitabxanaların, o cümlədən M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının fəaliyyəti və problemləri ilə daim maraqlanmış, öz qayğısını əsirgəməmişdir. O, son illərdə bir neçə dəfə bu kitabxanada olmuş, şəxsi kitabxanasından 300-dən artıq qiymətli ədəbiyyatı oraya bağışlamışdır. Ölkə başçısı bununla yeni bir ənənənin əsasını qoymuşdur. Prezidentdən sonra ayrı-ayrı ziyalılar, yazıçılar, alimlər kitabxanaya çoxlu sayda kitab bağışlamışlar.

Heydər Əliyevin kitaba və kitabxanaya münasibətini onun M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında miniatür kitablarının təqdimatı sərgisində iştirak edərkən söylədiyi bu fikirlər əyani şəkildə təsdiqləyir: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Kitabxanaya daim hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdir."

Bütün bu deyilənlər bir daha təsdiqləyir ki, möhtərəm Prezidentimiz Heydər Əliyevin Azərbaycan xalqının milli mentaliteti və milli dəyərləri ilə bağlı 2001-ci ilin avqust ayındakı bəyanatı təsadüfi xarakter daşımır. Bu aktual sənədin müddəaları dövlət başçısının ayrı-ayrı nitqlərində, çıxışlarında, müsahibələrində öz geniş əksini tapmışdır.

Heydər Əliyev öz bəyanatında demişdir: "Hər xalqın öz adət-ənənəsi var, öz milli və mənəvi dəyərləri var. Biz öz milli və mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir.

Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının minteliteti

onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm: hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edib xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək gənc nəsli daha da sağlam və saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik. Amma bunun əvəzinə, bizim cəmiyyətimizdə bəzi qüvvələr buraxdıqları ayrı-ayrı qəzetlərlə, jurnallarla xalqımızın icərisində xüsusən gənclərin icərisində pozğunluq işləri ilə məşğuldurlar!"

Heydər Əliyevin dediyi bu sözlər hər birimizi narahat edən məsələlərdir. Doğrudan da son zamanlar nəşr edilən bir çox üzdən iraq qəzet və jurnallarda Azərbyacn xalqının milli-mənəvi dəyərlərinə lələ yaxan, atəd-ənənənlərini təhqir edən cızmaqaralar özünə yer tapır. Mədəni intellektual səviyyəsi aşağı olan, adını müxbir qoyan bəzi vətəndaşlarımız ağızlarına gələn uydurmaları yazmaqla əslində xalqımızı təhqir edirdilər. Biz belə cızmaqaraçılardan yaxa qurtarmalıyıq.

Heydər Əliyevin Bakıda fəaliyyət göstərən bəzi gecə klublarında səhərə qədər müxtəlif oyunların, əyləncələrin təşkil edilməsindən böyük həyəcanla danışması da bütün ziyalıları narahat etməlidir. Axı bunlar Azərbaycan xalqının əxlaqına, mənəviyyatına ziddir və gənclərimizin əxlaqını pozur. Bu işlərə birdəfəlik son qoyulmalıdır.

Məhz buna görə də, xalqımızın tükənməz milli, mədəni, mənəvi sərvətlərini qorumaq ideyasını tələb edən Heydər Əliyev irsinin təbliği bu gün xüsusi əhəmiyyət kəsb edir. Mən bu gün Heydər Əliyev irsinin daha dərindən öyərnilməsi və daha yaxşı təbliğ edilməsi məqsədi ilə bir sıra təkliflər irəli sürmək, bir çox tövsiyələr vermək istəyirəm, Bu tövsiyə və təklifləri aşağdakı kimi qruplaşdırmaq olar: - Heydər Əliyev irsini dərindən öyrənmək, əsərlərinin akademik nəşrini hazırlayıb nəşr etdirmək üçün Azərbaycan Milli Elmlər Akademiyasının, yaxud Bakı Dövlət Universitetinin yanında "Heydər Əliyev irsini öyrənən elmi mərkəz" yaradılmalı və tezliklə fəaliyyətə başlamalıdır; - mərkəz "Heydər Əliyev və dövlətçilik məktəbi" adlı jurnal da nəşr etdirə bilər.

Məlum olduğu kimi, ABŞ Prezidentinin bir neçəsi ayrıca kitabxana binası tikdirmiş və xalqa hədiyyə etmişdir. Məncə "Heydər Əliyev irsini öyrənən elmi mərkəz"in yanında xüsusi kitabxana yaradılmasına başlanmalı və ABŞ-da olduğu kimi "Prezident Heydər Əliyev kitabxanası" adlandırılmalıdır. Heydər Əliyevin əsərləri külliyyatını hazırlamaq və nəşriyyata təqdim etmək məqsədilə müxtəlif elm sahələrində çalışan görkəmli alimlərdən və yüksək səviyyəli mütəxəssislərdən ibarət işçi qrupu yaradılmalıdır. Azərbaycan Respublikasının Nazirlər Kabineti Heydər Əliyev əsərlərinin nəşrini və onların respublikamızın bütün kitabxanalarına verilməsini təmin etməlidir. Hazırda kitablar baha olduğundan əhalinin aztəminatlı təbəqəsi kitab almaq imkanından məhrumdur. Kitabxanalar isə oxuculara pulsuz xidmət göstər-

diyindən hər bir kəs dövlət başçısının əsərlərini burada mütaliə edə biləcəkdir. Bu baxımdan iş adamları da kitabxanalara yardım göstərməyə çalışmalıdırlar. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında ayrıca "Heydər Əliyev kitab fondu" yaradılması məqsədəuyğundur. Bu fonda Heydər Əliyevin həmin kitabxanaya bağışladığı kitablar onun öz əsərləri və ona həsr olunmuş kitablar, həmçinin dövlətçiliyimizə dair ədəbiyyat toplana bilər. Dövlət Kitabxanasında xüsusi "Heydər Əliyev güşəsi" yaradılmasına da ehtiyac duyulmaqdadır.

Azərbaycan Respublikası Təhsil Nazirliyi müxtəlif elm və bilik sahələrini əhatə edən təhsil standartlarını və fənn proqramlarını təsdiq edərkən Heydər Əliyev irsindən istifadə məsələsinə xüsusi diqqət yetirməlidir, ali məktəb tələbələri üçün tərtib edilən fənn proqramlarında, dərslik və dərs vəsaitlərində Heydər Əliyev irsindən istifadə edilməsinə rektorluğun tələbatı artırılmalı və bu işin elmi-metodik proqramı hazırlanmalıdır; orta və ali məktəb tələbələri üçün yüksək səviyyədə tərtib edilmiş "Heydər Əliyev Azərbaycanın müstəqilliyi haqqında", "Heydər Əliyev milli-mənəvi dəyərlərimiz haqqında", "Heydər Əliyev müəllim haqqında", "Heydər Əliyev təhsil haqqında", "Heydər Əliyev elm haqqında" və s. mövzulu məcmuələrin hazırlanıb nəşr olunması məqsədəuyğundur; hazırda respublikamızda "Heydər Əliyev məktəbləri"nin geniş şəbəkəsi yaradılmışdır. Bu təqdirəlayiq iş davam etdirilməli, bütün məktəblərdə, mədəniyyət ocaqlarında, istehsalat və sənaye məntəqələrində bu məktəb əhatəli fəaliyyətə başlamalıdır. Həmin məktəbin kənd mədəni-maarif müəssisələrinin yanında yaradılması, kənd kitabxanalarında "Heydər Əliyev fondu" təşkil edilməsi, Azərbaycanın müstəqilliyi ilə bağlı nəşrlərin də bu fonda daxil edilməsi məqsədəuyğun olar.

Heydər Əliyevin şəxsi biblioqrafik göstəricisinin hazırlanması ən aktual məsələlərdən biridir. Təbii ki, bütün bu tədbirlərin həyata keçirilməsi vətənini, dövlətini sevən hər bir ziyalıdan diqqət və qayğı tələb edir. Əminəm ki, hər kəs bu istiqamətdə öz dəyərli töhvəsini verəcəkdir.

"Azərbaycan" qəzeti. 10 oktyabr 2001.

HİDAYƏTİN BİBLOQRAFİYASINA RƏY

Azərbaycan biblioqrafik məlumatlar sistemində şəxsi biblioqrafik göstəricilər mühüm yer tutur.

Belə biblioqrafik göstəricilərdə obyekt kimi müəyyən görkəmli şəxsin qələminə məxsus əsərlər, onun fəaliyyətinin ayrı-ayrı sahələrini işıqlandıran, əsərləri haqqında bəhs edən ədəbiyyat kütləsi kompleks şəkildə götürülür. Ona görə də görkəmli dövlət, elm və mədəniyyət xadimlərinə həsr olunmuş biblioqrafik informasiya mənbələri həmin şəxsin əsərləri və haqqında olan ədəbiyyat üzrə səmərəli biblioqrafik axtarış imkanına malik olurlar və

oxucuların o şəxslə əlaqədar informasiya tələbatını dolğun şəkildə təmin edirlər. Bununla bərabər bu tipli, əhatəli informasiya mənbələrinin əhəmiyyəti bir də ondan ibarətdir ki, həmin mənbələr konkret şəxsin məşğul olduğu bilik və fəaliyyət sahələri üzrə biblioqrafik vasitələr sisteminin tərkib hissəsi kimi bütövlükdə o sahələrin informasiya təminatına əsaslı şəkildə xidmət edir.Ona görə də görkəmli dövlət,elm və mədəniyyət xadimləri haqqında şəxsi biblioqrafik-biblioqrafik mənbələrin yaradılması milli mədəniyyətimizin zənginləşməsi, qan yaddaşının hifz olunması və yeni nəslin milli ruhda tərbiyə edilməsi prosesində mühüm rol oynayır.

Bu baxımdan tanınmış şair, publisist, nasir, dramaturq, Azərbaycanın əməkdar incəsənət xadimi Hidayətin haqqında capa hazırlanmış biblioqrafik məlumat kitabı böyük əhəmiyyət kəsb edir.

Biblioqrafik məlumat kitabı respublikamızda şəxsi biblioqrafik vasitələr sisteminin formalaşmasında xüsusi xidmətləri olan M.F.Axundov adına Dövlət Kitabxanası tərəfindən hazırlanmışdır. Onun müəllifi son dövrlər şəxsi biblioqrafik göstəricilərin tərtibi sahəsində peşakar mütəxəssis kimi formalaşmış Bəybala Ələsgərovdur.

Qeyd etmək yerinə düşər ki, belə biblioqrafik məlumat kitabları müasir dövrdə oxucularla aparılan informasiya işinin təşkilində mühüm rol oynayırlar. Çünki onlar əsasən cəmiyyətdə mühüm mövqe qazanmış görkəmli şəxsiyyətlər, elm, mədəniyyət, incəsənət və dövlət xadimləri haqqında tərtib edilir. Kitabxanalarda oxuçular arasında aparılan sosioloji tədqiqatlar göstərir ki, şəxsi biblioqrafik mənbələrə olduqça böyük tələbat vardır. Cəmiyyətdə belə şəxsiyyətlərin həyat və yaradıcılığına, fəaliyyətinə maraq və tələbat olduğundan məlumat kitablarının tərtibinə böyük ehtiyac hiss edilməkdədir.

M.F.Axundov adına kitabxananın bu xeyirxah və nəcib işi də məhz Hidayətin fəaliyyətini və maraq dairəsini, yaradıcılıq yolunu tam və ardıcıl izləməyə, bu görkəmli şəxsiyyət haqqında qiymətli əsər və məqalələr, fikirlər haqqında oxucularda təsəvvür yaratmaq məqsədinə xidmət "Hidayət" adlanan bu mühüm məlumat kitabı tərtibat metodikası, materialların təqdim edilməsi baxımından maraqlı quruluşa malikdir.

Qeyd etmək lazımdır ki, göstəriçidə Hidayətin həyat və yaradıcılığına dair verilən yazıçılar, onun əsərlərinin və haqqındakı materialların, mənbələrin biblioqrafik təsvirləri tərtibçinin apardığı çiddi və səmərəli professional araşdırmalar və axtarışların nəticəsidir.

Bütövlükdə biblioqrafik məlumat kitabı Hidayətin dövlət və ictimai xadim və vətəndaş kimi mövqeyi haqqında geniş informasiya əldə etməyə imkan verir.

Biblioqrafik vəsait "Tərtibçi müəllifdən"adlanan girişlə başlayır, sonra məntiqi ardıcıllıqla Hidayətin əsərlərinin nəşri tarixinə dair yığcam xülasə, onun cox mürəkkəb və maraqlı həyat yolunun və fəaliyyətinin mühüm anlarını əks etdirən əsas tarixlər (Azərbaycan, rus və ingilis dillərində) qələm dostlarının, ədəbiyyat və mədəniyyət xadimlərinin, o cümlədən tanınmış oxucuların

Hidayət haqqında fikirləri verilir. Bununla da Hidayətin çoxşaxəli fəaliyyəti, keçdiyi zəngin həyat yolu haqqında geniş təsəvvür yaranır.

Məlumat kitabının 2-ci hissəsində isə Hidayətin Azərbaycan dilində cap olunmuş kitablarının, tərtib etdiyi, redaktoru olduğu, ön söz yazdığı, buraxılışına məsul olduğu kitablar və müxtəlif mənbələrdə işıq üzü görən əsərlərin, dialoq və verdiyi müsahibələrin mənbələri haqqında biblioqrafik informasiyalar verilmişdir.

Hidayətin yaradıcılıq yolu, onun Azərbaycan dilində cap olunan əsərləri haqqında məlumat xüsusi bölmədə öz əksini tapmışdır. Həmin bölmə ilə ətraflı tanışlıq sözün geniş mənasında dövlətcilik və müstəqillik uğrunda mübarizədə düzgün mövqeyi olan əsil insan, vətəndaş haqqında bitkin təsəvvür yaradır.

Bu mühüm biblioqrafik informasiya mənbəyinin diqqəti çəlb edən cəhətlərindən biri də Hidayətin xarici dillərdə cap olunan əsərlərini də əhatə etməsidir. Bu baxımdan göstəricinin müfaviq bölmələri(IV,V) xususi maraq doğurur.

Dördünüçü bölmə Hidayətin rus dilində, beşinçi bölmə isə МДБ və başqa xariçi dillərdə cap olunan əsərlər haqqında məlumat əldə etməyə imkan verir. Umumiyyətlə, bu bölmələr Hidayətin yaradıçılığına dünya xalqlarının marağı, onun populyarlıq səviyyəsi, əsərlərinin yayılması, coğrafiyası haqqında cox maraqlı məlumatları əhatə etmişdir.

Bəhs edilən biblioqrafik vəsait ondan istifadə edənlərin coxçəhətli sorğularını ödəmək baxımından da diqqəti çəlb edir. Bu nöqteyi-nəzərdən biblioqrafik göstəricinin yardımcı aparatını xususi qeyd etmək lazımdır. Yüksək profesionallıqla tərtib olunmuş bu bölmədə 11 adda yardımcı aparat verilmişdir. Vəsaitin bu hissəsinin rus dilindəki variantı isə 5 köməkci göstəricidən ibarətdir.

"Hidayət. Biblioqrafiya". Bakı, 2001. s. 11-21

ALOVLU VƏTƏNDAŞ, VƏTƏNPƏRVƏR ZİYALI

Mən Hidayət haqqında düşünəndə fikirləşdim ki, onu necə adlandırım? Şair Hidayət, nasir Hidayət, dramaturq Hidayət, publicist Hidayət, diplomat Hidayət, siyasətçi Hidayət, dövlət xadimi Hidayət, böyük vətəndaş Hidayət. Bütün dediklərimin doğruluğuna dərindən inanmaqla mən Hidayəti Böyük Ziyalı adlandırmağa daha çox üstünlük verdim.

Yüksək yaradıcılıq qabiliyyətinə, hərtərəfli dünyagörüşünə, intellektual və mədəni səviyyəsinə, ensiklopedik biliyinə, zəngin mənəvi və insani keyfiyyətlərinə görə fərqlənən Hidayət sözün əsl mənasında xalqımız, millətimiz, müstəqil dövlətimiz uğrunda alovlanıb yanan Böyük ziyalıdır.

Hidayətin həyat və yaradıcılığı, ədəbi-bədii, publisistik və ictimai-siyasi fəaliyyəti ilə tanış olduqda inanmaq olmur ki, kiçik zaman kəsiyində adi bir insan bu qədər böyük iş görə bilər. Mədəniyyətimizin, ədəbiyyatımızın elə bir

sahəsi yoxdur ki, Hidayətin orda izi olmasın. O, hansı sahədən keçibsə, orada özünəməxsuz iz qoyub gedib. İz salmaq, iz qoyub getmək isə hər adama nəsib olmur. Bu iş ancaq yaradıcı şəxsiyyətlərin payına düşür. Şeirdə, nəsrdə, dramaturgiyada, publisistikada, teatrşünaslıqda, incəsənətdə böyük xidmətləri olan Hidayət həmçinin respublikamızda kitab nəşrinin təşkilatçısı, Azərbaycan kitab mədəniyyətinin görkəmli təbliğatcısı kimi də ad-san sahibidir.

Qədim Oğuz eli olan Qərbi Azərbaycanda –indiki Ermənistanda işləyərkən Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin inkişafında və təbliğində onun xidmətləri əvəzsizdir.

Ataların belə bir kəlamı var: "İnsanı dar gündə sınayırlar". Yadımdadır, Qarabağ hadisləri başlayanda, Ermənistan və Qarabağda yaşayan azərbaycanlılar öz dədə-baba yurdlarından qovulanda, respublikamızda xalq hərakatı yüksələndə Hidayət tamam dəyişmişdi, xalq hərəkatının fəal iştirakçılarının biri kimi öz əsərləri, hərəkətləri və fəaliyyəti ilə böyük fədakarlıq göstərirdi. Mən həmin dövrdə onunla tez-tez görüşürdüm.Onu tanımaq olmurdu, alışıb yanırdı. Bəli, Hidayət xalqı uğrunda,vətən torpağı uğrunda şam kimi alovlandırdı. Onun bu dövr yaradıcılığı: əsərləri, tərcümələri, tərtib etdiyi, çapa hazırladığı məcmuələri dediklərimizə sübutdur.

Bunlardan "Didərginlər" (1990), Azərbaycan xalqının tarixinə qanlı qələmlə yazılan 20Yanvar faciəsinə həsr edilmiş "Şahidlər" (1992), "Doxsanıncıil" (1995), "Əsrin müqaviləsi"(1996), "Hərdən xatırla məni"(1998), "Sözün vaxtı"(1999) və s.əsərləri göstərmək yerinə düşər.

Hidayətin bu dövr yaradıcılığında böyük ziyalının, görkəmli vətəndaşın, alovlu vətənpərvərin, vətəninə, xalqına, Azərbaycan dövlətçiliyinə sadiq bir insanın ürəyi döyünür.

Onun əsərləri millətimizi Azərbaycan xalqının düşmənlərinə, erməni faşizminə qarşı mübarizəyə çağırır.

Hidayət həmçinin respublikamızda xalqlar dostluğunun alovlu tərənnümçüsü, milli münasibətlərin mahir bilicisi, etnik qrupların yaxın dostu kimi məşhurlaşmışdır.

Müstəqil Azərbaycan dövlətinin dinə dair siyasətinin həyata keçirilməsində, islamın öyrənilməsində və yayılmasında da onun xidmətləri böyükdür.

Nəhayət, dövlət xadimi kimi Hidayətin xalqımızın milli sərvəti olan Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində xidmətləri böyükdür.

Xalqımızın böyük oğlu, görkəmli dövlət xadimi, hörmətli Prezidentimiz Heydər Əliyevin ideyalarına həmişə sadiq olan, onun daxili və xarici siyasətinin yerinə yetirilməsində fəal mübariz kimi tanınan Hidayətin siyasi fəaliyyəti xüsusilə təqdirəlayiqdir. Mən Hidayəti yaxından tanıyan bir elm adam kimi qəti əminəm ki, o hələ bundan sonra müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, xalqımızın mədəniyyətinin çiçəklənməsi naminə daha böyük işlər görəcəkdir. Bu müqəddəs yolda ona uğurlar arzulayıram .

"Hidayət. Biblioqrafiya". Bakı, 2001.s. 318-319

К ИСТОРИИ БИБЛИОТЕК АЗЕРБАЙДЖАНА

Азербайджанский народ имеет древнюю историю в области книжного и библиотечного дела начиная с VV века До н э., древних азербайджанских государствах – Кавказской Албании, Атропатене, Малой Мидии- появились книги и библиотеки.

О развитии культуры, в том числе книжной, в древней Мидии свидетельствует появление выдающегося исторического памятника древней художественной культуры «Авеста». Священная книга «Авеста» была не только воплощением идеи зороастризма, являвшегося основной религией этапов, живших на территории древнего Азербайджана, но и подлинной энциклопедией той эпохи.

Создание в V в. в Албании алфавита из 52-х букв привело к резкому увеличению в древнем Азербайджане книг, школ и библиотек.

В многочисленных источниках по истории Албании имеются упоминания о развитии книжной культуры, о появлении в этой стране «Илиады» Гомера, «Энеиды » Вергилия и др.

Замечательным памятником древнеи книжной культуры является эпос «Китаби-Деде Коркуд», который относят к XI в, а не которые исследователи – даже к VII в Эпос служит важнеишим источником для изучения истории и культуры азербайджанского народа. Экземпляры этого памятника имеются во многих крупных библиотеках мира.

После присоединения Азербайджана к Арабскому халифату с целью пропаганды. Ислама появляются много явленные мечети, медресе с библиотеками религиознои литературы, которые выполняли функции центров исламской идеологии. Первые библиотеки в мечетях были созданы в таких городах Азербайджана, как Барда, Гянджа, Нахичевань, Шемаха, Бейлаган, Ардебил, Тебриз, Марага, Урмия и т д.

Для средневекового Азербайджана характерны следующие типы библиотек: а) дворцовые б) релиноцные при мечетях, школах и медресе, в) научные г) данные библиотеки.

Дворцовые библиотеки создавались при резиденциях шахов и других равителей и опекались непосредственно первыми лицами государства Создание дворцовых библиотек правителей была традицией и эти библиотеки обычно размещались в красивых и специально построенных зданиях. В них сосредотачивались ценные книги, которые привозились из разных стран. Эти библиотеки демонстрировались зарубежным гостям. В них собиралась как приобретенная литература, так и трофецная, захваченная в результате войн. При дворновых библиотеках функционировали специальные отделы по переписке и изготовлению книг. Ученые, религиозные деятели поэты, зарубежные гости считали своим долгом преподнести правителям ценные книги, которые затем хранились в дворцовых библиотеках. При дворцовых библиотеках

средневекового Азербайджана образовались школы художественного оформления манускрипов и миниатюрной живописи.

Дворцовыми библиотеками, как правило, руководили выдающиеся ученые, поэты. В них работали известные люди, деятели науки, художники.

Дворцовые библиотеки средневекового Азербайджана были созданы в Гяндже (XI-XII вв). Шемахе (XII-XIII в.). Тебризе (XIV- XVI вв) и т д. Исторические источники свидетельствуют о наличии в XI-XII вв. в Гяндже крупной дворцовой библиотеки. В произведениях великого азербайджанского поэта Низами Гянджьи имеются неоднократные во споминания о крупных книгохранилишах Гянджи, которыми пользовался поэт. Средняя дворцовая библиотека Ширваншахов, которая обладала богатейшим фондом научной и религиозной литературы. В ней хранилис также указы шаха, другие государственные документы. Библиотекой руководило правделие состоявшее видных ученых и поэтов своего времени, при ней функционировал «Меджлис поэтов», куда входили Абулула Гянджеви, Хагани, Фелеки Иззеддин Ширвани и другие деятела науки и культуры того времени.

В XIII веке во время правления Тебриз Газан хана были осуществлены крупные формы в области культурного развития созданы библиотеки и, в том числе, богатая дворцовая библиотека выполнявшая функции государственной. В ней, наряду с книгами, хранились также государственные указы, дипломатическая переписка и другие официальные материалы.

Помимо государственной дворцовой библиотеки в местности Шенби-Газан, вблизи Тебриза, функционировали еще две библиотеки национального значения («Бейтул-клуб» «Дом книги») и «Бейтул-ганун» («Дом закона»), которые имели богатейшие фонды рукописей.

В XIV-XVI в, во время правления в Азербайджане династии Аггоюнлулар, Гарагоюнлулар и Сефевидов были продолжены традиции создания дворцовых библиотек, выполнявших функции государственных. В этот период широкое развитие получает книжное дело, приобретение книг из других государств, переписка и художественное оформление рукописей. Основатель династии Аггоюнлулар Узун Гасан, превратив Тебриз в столицу Азербайджана, учредил во дворце крупную государственную библиотеку. Вокруг библиотеки собрались известные деятели науки, поэты философы, художники. Имеются сведения о наличии в библиотеке 58 сотрудников, с выделении государством значительных средств на приобретение литературы и поддержание библиотеки.

Особое место среди дворцовых библиотек средневекового Азербайджана занимает созданная в начале XVI в. Основателем Сефевидского государства – шахом Исмаилом Хатаи (1502-1524) библиотека при его тебризском дворце. Насчитывавшая десятки тысяч гомов, эта библиотека

была богата рукописями великих писателей Востока-Низами, Фирдоуси, Саади, Тевризи. Для библиотеки были выделены лучшие помещения при дворце, которые демонстрировались гостям. В ней была создана мастерская по художественному оформлению книг и их переплету. Вокруг библиотеки группировались известные деятели науки, культуры, художники, поэты. Весьма примечательно, что во время правления в Азербайджане шаха Исмаила Хатаи библиотечному делу придавалось государственное значение. Согласно Указу руководителем дворцовой библиотеки был назначен известный художник-миниатюрист Средневековья Кемаледдин Бехзад, определены функции библиотек и его сотрудников.

Как было отмечено выше, начиная с VII в. в Азербайджане в результате арабского нашествия быстро развивается сеть религиозных библиотек с целью пропаганды учения Ислама. Это выражалось прежде всего в расширении строительства мечетей, при которых создавались религиозные библиотеки. В дальнейшем в управленческий персонал мечетей входили также «книжники» , т.е. библиотекари. К религиозным библиотекам Азербайджана можно отнести также библиотеки при медресе и духовных учебных заведениях, которые были широко распространены в Азербайджане в XII- XVIII вв.

Крупнейшей религиозной библиотекой средневекового Азербайджана была библиотека мавзолея Шейха Сафи, построенная шахом Исмаилом Хатаи в Ардебиле. Эта знаменитая во всем восточном мире библиотека функционировала в течение 300 лет и систематически пополнялась редчайшими книгами не только религиозного содержания. Многие путешественники, в том числе посетивший Ардебил в 1812 г Адам Одеари – посланник Терцета Голштеила, отмечали наличие в библиотеке рукописи на многих языках. В 1828 г. после вхождения русской армии в Ардебил по указанию А. С. Грибоедова книги этой библиотеки были отправлены в Петербургскую императорскую библиотеку (ныне РНБ).

Для средневекового Азербайджана характерно также формирование и развитие научных библиотек. Наиболее крупной из них стала библиотека, созданная в середние XIII в. великим астрономом, математиком Насреддином Туси при Марагинской обсерватории. Будучи ее основателем, он организовал при обсерватории уникальную научную библиотеку, насчитывавшую, согласно многим историческим документам, 400 тыс. книг и других материалов. Книги для этой библиотеки, находившейся в специально построенном помещении, закупались во многих странах Ближнего и Среднего Востока.

Другой значительной научной библиотекой была библиотека Тебризского университета, построенная в 1300 г. университете обучались до 7 тыс. человек из многих восточных стран. Он находился в местечке Раби-Рашиди близ Тебриза. Здесь же находилась другая универсальная

научная библиотека, насчитывавшийся в своих фондах 60 тыс. рукописей.

К числу библиотек, широко распространенных в средневековом Азербайджане, можно отнести и личные библиотеки. Имеются достоверные сведения о наличии личных книжных собраний у таких корифеев средневековой азербайджанской науки и культуры, как Низами, Хагани, Бахманяр, Хатиб Тебризи. Абул-ула Гянджеви и др.

С 1820-х гг. после присоединения Северного Азербайджана к Росии начинается новый этап развития культуры и просвещения Азербайджана.

В этот период под влиянием русской культуры здесь открываются новые типы школ, библиотек, развивается книжное дело.

По неполным данным, в 1842 г. в Азербайджане имелись 713 школ и медресе, в которых обучались 7306 учащихся. Эти учебные заведения были созданы в Баку, Шемахе, Гяндже, Нахичевани, Шеки, Ленкорани и других городах. Большинство из них имели небольшие библиотеки, не были объектом официальной статистики, и потому уточнить их точное количество, объем фондов не представляется возможным.

Начиная с 1840-х гг. в Азербайджане заметно расширяется число лиц и прежде всего представителей интеллигенции, имеющих свои богатые личные библиотеки. Здесь следует назвать выдающегося ученого-историка А.А.Бакиханова, философа, просветителя, писателя М.Ф.Ахундова.

А.А.Бакиханов имел богатейшую коллекцию востоковедческой литературы и рукописей. Эта коллекция привлекло внимание многих русских ученых, в частности, и Березина. После смерти А.Бакиханова было немало попыток со стороны официальных лиц и ученых приобрести эту библиотеку. В 1850-х гг. эта библиотека была передана вдовой ученого в Петербургский университет.

Внушительную по объему личную библиотеку имел выдающийся философ и писатель Азербайджана второй половины XIX в. Мирза Фатали Ахундов.

Он собирал редчайшие издания европейских и восточных философов, произведения поэтов и прозаиков. К сожалению, эта библиотека до наших дней дошла не полностью.

Вторя половина XIX в. для Азербайджана характеризуется появлением общедоступных общественных библиотек и читалеый. Такие библиотеки были открыты в Шемахе, Шуша, Гяндже, Баку, Ленкорани, Нахичевани.

Заметным явлением в культурной жизни Баку было создание в 1894 г. видным государственным и общественным деятелем, писателем Нариманом Наримановым в Баку общественной библиотеки-читальни. Библиотека в кратчайшие сроки, установив связи с Индией, Египтом, Болгарией, Турцией, Ираном и Россией, стала получать из этих стран новейшие газеты, журналы, сборники и другие издания на русском,

армянском, грузинском, персидском, турецком и других языках. В общей сложности в библиотеку поступало 30 названий одних только газет. В 1896 г. в библиотеке была зарегистрировано более 2500 читателей. Вокруг библиотеки собрались передовые представители интеллигенции, студенческая молодежь, здесь велась интересная массово-политическая работа. Библиотека была закрыта царской цезурой в 1898 г.

Конец XIX в. в Баку сопровождался открытием библиотек для инженерно-технических работников и рабочих нефтяной промышленности. Первая такая библиотека была открыта в местечке, именуемом Черный город, и носила имя создателя А. С. Дорошенко. В 1900 г. Библиотекой пользовались 304 читателя, из которых примерно 20% составляли рабочие. Наряду с технической литературой, там имелись также произведения русской и мировой классики.

В конце XIX- начале XX вв. в Баку открывается немало библиотек, принадлежащих различным общественным компаниям. Одной из таких организаций был Съезд Совета нефтепромышленников, который за короткий срок создал библиотеки для рабочих нефтепромыслов Балаханы. Черного города, Белого города. Баилова и других местностей вокруг Баку Фонды этих библиотек развивались довольно быстро. Если в 1910 г. общий объем их книжного фонда насчитывал 15773 экз.., то в 1915 г. он достиг 27444 экз. По сравнению с 1910 г. число читателей этих библиотек в 1914 г. выросло в три раза.

Совет нефтепромышленников открывал и школьные библиотеки для детей рабочих, систематически закупал для них книги. Только в 1911 г. для этих библиотек было приобретено 21 тыс. экз. книг учебного характера. В 1915 г. в школьных библиотеках Совета нефтепромышленников имелись 1002 названия книг только на азербайджанском языке.

В 1906 г. в Баку создается блоготворительное общество «Книга-просвещение». В дальнейшем это общество функционировало под названием «Ниджат» («Спасение»). При обществе с 1906 г. начала функционировать одноименная читальня. В печати того времени отмечалось, что данная читальня была самой большой в мусульманском мире. В ней имелось 10 тыс. книг, большое количество периодических изданий из России, Турции, Ирана и других стран.

В начале XX в. в Баку появилась специализированная библиотека Земского управления и библиотека Городской управы, которой было присвоено имя В.Г.Белинского. Последняя в 1917 г. насчитывала 12 тыс. книг и обслуживала также детей чиновников. С 1920 г. она функционировала как «Советская библиотека». В эти годы в сельских районах и населенных пунктах зарождаются общедоступные библиотеки и читальни.

Образование в 1918 г. первой Демократической республики в Азербайджане открыло широкие возможности для развития культуры и

просвещения народа. За 23 месяца своего существования Демократическая республика успела осуществить немало мероприятий для расширения сети учебных заведений и библиотек. В числе этих мероприятий- открытие общегородской библиотеки им. М.А.Сабира, библиотеки Бакинского Государственного Университета.

После установления Советской власти в кратчайшие сроки была проделана большая работа по расширению сети библиотек. Только за один год после советизации в Азербайджане было создано 45 массовых библиотек с общим книжным фондом 234218 экз. книг и другой печатной продукции.

В 1920-1925 г. были организованы Республиканский библиотечный коллектор (1923), Государственная библиотека (1923), Республиканская книжная палата (1925). Одновременно создавались библиотеки других систем и ведомств. В последующие годы поступательный рост библиотечной сети продолжался.

В 1991 г. Азербайджан приобрел государственный суверенитет и независимость. Национальный Меджлис Азербайджана принял «Закон Азербайджанской Республики о библиотечном деле». Закон предусматривает развития библиотечного дела в соответствии с мировыми стандартами, осуществление государственных программ в области библиотечного строительства, организацию библиотечного обслуживания на основе общепринятых демократических принципов. В настоящее время все основные положения закона постепенно предтворяются в жизнь.

"Вестник" БАЕ. 2001.- №4. с. 64-67

БИБЛИОТЕЧНОЕ ДЕЛО В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

Азербайджанский народ имеет древнюю историю в области книжного и библиотечного дела. Как показывают последние исследование в области истории культуры, именно Шумеры являются родоначальниками письменности, книжного и библиотечного дела в мире. Географическая близость ранних азербайджанский государств способствовали появлению в древнем Азербайджане первых книг и библиотек.

Начиная с 14 в. До н.э. в древних азербайджанских государствах Албании, Атропатене, Малой Мидии появлялись книги и библиотеки. Свидетельством развития культуры, и в том числи книжной, в древней Мидии является появление в этой стране выдающегося исторического памятника древней художественной культуры-«Авесты». Священная книга «Авеста» была не только воплощением Зороастризма, являющегося основной религией живших на территорией древнего Азербайджана,

но и подлинной энциклопедией той эпохи.

Создание в 5 веке в Албании алфавита из 52-х букв привело к резкому увеличению в древнем Азербайджане книг, школ и библиотек.

В многочисленных источниках по истории Албании имеются о развитии книжной культуры, о появление в этой стране «Илиады» Гомера, «Энеида» Вергилия и др.

Выдающимся памятников древней Азербайджанской книжной культуры является появившаяся в 7 веке книга – «Деде-Коргуд», которая в течение 1300 лет служит важнейшим источником для изучения истории и культуры народа, многочисленные экземпляры которой имеются во многих крупных библиотеках мира. Начиная с 7 века после присоединения Азербайджане к арабскому халифату, с целью пропаганды Ислама появляются многочисленные мечети, медресе с библиотеками религиозной литературы, которые выполняли функции центров исламской идеологии. Первые библиотеки в мечетях были созданы в таких городах Азербайджана, как Барда, Гянджа, Нахичевань, Шемаха, Бейлаган, Тебриз, Урмия и т.д

Для средневеково Азербайджана характерны следующие типы библиотек: а) дворцовые, б) религиозные при мечетях, школах и медресе, в) научные библиотеки и личное библиотеки.

Дворцовые библиотеки создавались при дворцах шахов и других правителей и управлялись непосредственно первыми лицами государства. Создание дворцовых библиотек правителей было традицией и эти библиотеки как правило размещались в красивых и специально построенных зданиях. В них сосредочивались ценные книги своего времени, которые привозились из разных стран. Эти библиотеки демонстрировались зарубежным гостям. В них собирались как приобретенная литература, так и трофейная, захваченная в результате войн. При дворцовых библиотеках функционировали специальные отделы по переписки и изготовлению книг.

Дворцовыми библиотеками как правило руководили выдающиеся ученые, поэты своего времени. В них работали известные люди, деятели науки, художники.

Среди них Дворцовая библиотека Ширваншахов, которая обладала богатейшим фондом научной и религиозной литературы. В ней хранились также указы Шаха, другие государственные документы.

Библиотекой руководило правление состоящее из видных ученых и поэтов своего времени. При ней функциионировал Меджлис поэтов куда входили Абул-ула Гянджави, Хагани, Фелеки и др.деятели науки и культуры того времени.

В 13 веке по время правления тебризом газан хана были осуществлены крупные реформы в области культурного развития созданы крупные библиотеки и в том числе богатая дворцовая библиотека выполнявшая функции государственной библиотеки. В ней наряду с книгами хранились также государственное указы дипломатическая переписка и другие официальные материалы.

Наряду с государственной дворцовой библиотекой в местности Шенби Газан вблизи Тебриза функционировали еще две крупные библиотеки национального значения Бейтул-кутуб и Бейтул-канун которые имели богатейшие фонды рукописей.

В 14-16 веках во время правления в Азербайджане династий Аггоюнлулар, Гарагоюнлулар, Сефевидов были продолжены традиции создания дворцовых библиотек выполнявших функции государственных библиотек. В этой период широкое развитие получает книжное дело, приобретение книг из других государств, переписка и художественное оформление рукописей создание библиотек.

Основатель династии Аггоюнлулар узун гасан превратив г. тебриз в столицу Азербайджане учредил во дворце крупную государственную библиотеку. Вокруг библиотеки собрались все известные деятели науки, поэты, философы, художники. Имеются сведения о наличии в библиотеки 58 сотрудников, и о выделении государством крупных средств на приобретение литературы и поддержание библиотеки.

Особое место среди дворцовых библиотек Средневекового Азербайджана занимает созданная в начале 16 века основателем сефевидского государства шах исмаил хатаи библиотека при его тебризском дворце.

Насчитывающая десятки тысячи томов это библиотека была богата рукописями великих писателей востока: низами, сади. Для библиотеки были выделении лучшие помещения при дворце, которые демонстрировались гостям. В ней была создана крупная мастерская по художественному оформлению книг и их переплету. Вокруг библиотеки были сосредоточены известные деятели науки, культуры, художники, поэты.

Весьма примечательно что во время правления в Азербайджане шаха исмаила хатаи библиотечному делу придавалось государственному значение. В 1522 году Шах Исмаилом был издан указ по библиотечному делу. Согласно указу руководителем дворцовый библиотеки был кемаледдин бехзад, определены функции библиотек и его сотрудников.

Наиболее крупной религиозной библиотекой средневекового Азербайджана явилась библиотека мавзолея шейх сафи, потроенная Шах Исмаилом Хатаи в Ардабиле. Эта знаменитая на всем восточном мире библиотека функционировала в течение 300 лет и систематически пополнялась редчайшими книгами не только религиозного содержания. Многие путешественники в том числе адам олеари – посланник герцега голштейна отмечали наличие в библиотеки ценнейших рукописей на многих языках.

В 1828 году после вхождения русской армии в г ардебил по указанию А.С.Грибоедова книги этой библиотеки были отправлены в Пе-

тербургскую императорскую библиотеку.

Для средневекового Азербайджана характерно также формирование и развитие научных библиотек. Наиболее крупной из них стала библиотека созданная в середине 13 в.великим астрономом, математиком Насиреддин Туси при Марагинской обсерватории. Туси основатель марагинской обсерватории организовал при обсерватории уникальную научную библиотеку, насчитывающую, согласно многим историческим документам 400 тыс. книг и других материалов. Книги для этой библиотеки находящейся в специально построенном для нее помещении закупались из многих стран ближнего среднего востока.

К число библиотек широко распространенных в средневековом Азербайджане можно отнести и личные библиотеки.

С 20-х годов 19 века после присоединения северного Азербайджана к России начинается новый этап развития культуры и просвещения Азербайджана.

В этой период под влиянием русской культуры в Азербайджане открываются новые типы школ, библиотек. Развивается книжное дело.

Начиная с 40-х годов в Азербайджане заметно расширяется количество лиц и прежде всего представителей интеллигенции имеющих свои богатые личные библиотеки.

А.А.Бакиханов имел богатейшую коллекцию востоковедческой литературы и рукописей. Эта коллекция привлекала внимание многих русских ученых в частности И.Березина. после смерти А.Бакиханова было немало попыток со стороны официальных лиц и ученых приобрести эту библиотеку. В 50-х годах эта библиотека была передана вдовой ученого в Петербургской университет.

Вторая половина 19 века для Азербайджана характеризует появлением общедоступных общественных библиотек и читален. Такие библиотеки были созданы в шемахе, шуше, баку, нахичевани.

Конец 19 века в Баку сопровождался открытием библиотек для инженерно-технических работников и рабочих нефтяной промышленности. Первая такая библиотека была открыта в местечке именуемой черный город и носила имя его создателя А.С.Дорошенко. В 1900 году библиотекой пользовались 304 читателя из которых примерно 20% составляли рабочие. В библиотеке наряду с технической литературой имелись также произведения русской и мировой классики.

Съезд нефтепромышленников открывал и школьные библиотеки для детей рабочих систематически закупал для них книги. Только в 1911 году для этих библиотек было приобретено 21 тыс. экз. книг учебного характера. В 1915 году в школьных библиотеках съезда нефтепромышленников имелись 1002 названии книг только на азербайджанском языке.

В начале XX веке в баку появилась специализированная библиотека земского управления и библиотека городской управы, которой было

присвоено имя В.Г.Белинского. Последняя в 1917 году начитывала 12 тыс. книг и обслуживала также детей чиновников. С 1920 года она функционировала как «Советская библиотека». В эти годы в сельских районах и населенных пунктах зарождаются общедоступное библиотеки и читальне многие из которых просуществовали до 1920 года.

После установления советской власти в Азербайджана в апреле 1920 года большинство библиотек были национализированы.

В 1920 году в Азербайджане имелось 965 школьных библиотек с учетом духовных заведений. В этом году только в Баку и его окрестностях имелось более 50 общественных библиотек а в сельских районах более 100.

Необходимо отметить что после установления советской власти в кратчайшие сроки библиотек. Только за один год после советизации, в Азербайджане было вновь создано 45 массовых библиотек с общим книжным фондом 234,218 экземпляров книг и другой печатной продукции.

В 20-30-е годы в обслуживание сельского населения Азербайджана особая роль принадлежала избам – читальням. В 1932 году их общее количество составляло 608.

30-е годы в республике значительное внимание уделялось развитию сети детских и школьных библиотек. К 1940 году в Азербайджане имелось 2,480 школьных и детских библиотек, с общим книжным фондом 1.367.321 экз. печатной продукции. В эти же годы в республике интенсивно развивалась сеть научных, технических и специальных библиотек. В 1934 году их общее количество составляло 537 с книжным фондом 1,662,572 экз. печатных единиц.

В годы Великой отечественной войны деятельность библиотек республики была перестроена в соответствии с задачами фронта и тыла. В 1941-1943 годах имело место сокращение количества, прежде всего массовых библиотек от 1383 в 1940 году до 575 в 1943-м. Однако в 1943 году процесс сокращения массовых библиотек был приостановлен и начался восстановительный процесс. К 1945 году в республике уже насчитывалось 765 массовых библиотек с общим книжным фондом 2,828,49 экз. книг.

В первые послевоенные годы в Азербайджане удалось полностью восстановить библиотечную сеть, создать организационную и материально-техническую базу для дальнейшего развития библиотечного дело. Плодотворную работу в этом сыграл созданный в 1945 году комитет по делам культурно-просветительной работы при совете министров республики.

Важнейшим событием в послевоенный период развития библиотечного дело в Азербайджане стало начало подготовки в республике библиотечных кадров высшей квалификации. Так в 1947 году при

филологическом факультете бакинского государственно университета было открыто библиотечное отделение. Кроме того образование в 1945 году республиканской академии наук с многочисленными научными учреждениями привело к формированию сети академических библиотек. В эти же годы значительно расширился объем научно-методических работ, выполняемых республиканской библиотекой и головными библиотеками отраслевых сетей.

К кончу 1958 года в республике имелось всего 5.776 библиотек, с общим книжным фондом более 20 млн. экз. книг. Из них 2,583 составляли только массовые библиотеки. Наиболее крупная сеть масссовых библиотек, состоящая из 1,115 библиотек с общим книжным фондом 7.921.100 тыс. книг, находились при министерстве культуры. Кроме того, в системе профсоюзов функционировали 157 массовых библиотек с книжным фондом 222,900 тыс. книг, 492 массовые библиотеки с общим книжным фондом около одного миллиона книг функционировали при колхозах республики.

Выполнение известного постановления ЦК КПСС по библиотечному делу 1959 года привело к дальнейшему развитию сети и укреплению материально- технической базы библиотек Азербайджана в 60-х годах, способствовала качественному улучшению содержания библиотечного обслуживание населения. За период с 1959-го по 1965 год в республике было выделено более 5 миллионов ассигновании на строительство новых объектов культурно – просветительной работы. За это время в 45 районах было построено 78 здании для библиотек, на 70 единиц увеличилась сеть городских библиотек.

К сожалению, в 60-е годы в библиотечной политике имели место и существенные недостатки. В результате необдуманной компании республика фактически потеряла 514 сельских библиотек. Однако в целом 60-е годы были периодом развития всех основных показателей библиотечного дела в Азербайджане.

В результате централизации в республике были созданы 69 районных ЦБС, включивших в себя 3174 филиала и 69 городских ЦБС с 111 филиалами.

В 80-х годах в результате развития библиотечного дела библиотечная книга полностью вошла в быт населения. Библиотеки начали формироваться как центры информации массового читателя, оптимизировались количественные и качественные показатели всей системы библиотечного обслуживания населения.

Позитивные перемены в показателях по обслуживанию читателей были особенно заметны в системе библиотек Минкультуры Азербайджана.

70-80-е годы характеризуются также развитием всех показателей деятельности научных, технических специальных библиотек, и библио-

тек системы образования. Среди этих библиотек Республиканская Государственная Библиотека, библиотека системы АН, библиотеки вузов, отраслевые библиотеки.

К началу 1990-х годов в республике насчитывалось около 10 тыс. библиотек, с книжным фондом более 118 млн. экз., которые обслуживали 4 млн. читателей.

В настоящее время только при библиотечном факультете успешно сотрудничают 2 доктора наук, профессора, 1 кандидат наук, профессор, 16 кандидатов наук, доцентов по специальности библиотековедение и библиографоведение, книговедение.

В 1999 году Национальной Меджлис Азербайджана принял «Закон Азербайджанской Республики о библиотечном деле». Закон предусматривает развитие библиотечного дела в республике в соответствие с мировыми стандартами, осуществление государственных программ в области библиотечного строительства, организацию библиотечного обслуживания на основе общепринятых демократических принципов. В настоящее время все основные положения закона постепенно претворяются в жизнь.

"Kitabxanaşünaslıq və biblioqrafiya"
elmi-nəzəri və təcrübi jurnalı, 2001, № 2. c. 3-16

"KİTABXANAÇILIĞI QIZ SƏNƏTİ HESAB ETMİRƏM"

Ölkənin baş kitabxanaçısı Abuzər Xələfovun sevimli tələbəsi Zəlimxan Yaqubdur

BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, BDU-nun kitabxanaşünaslıq kafedrasının müdiri, "Şöhrət" ordenli, tarix elmləri doktoru, professor... titullarını sadalayası olsa, bu ardıcıllığa diqqət yetirməliyik. Amma onun kimliyini tək bir cümlə ilə də açıqlamaq mümkündür: Azərbaycanda kitabxanaşünaslıq elminin banisi... Söhbətin Abuzər Xələfovdan getdiyini, yəqin ki, başa düşdünüz. Yetmişinci yaş onu haqlamamış kabinetinin qapısını kəsdirmişəm. Adı respublikada kitabxanaçılıq - biblioqrafiya elminin və ali kitabxanaçılıq təhsilinin yaranması və formalaşması ilə bağlı olan Abuzər Xələfov söhbətə elə yetmişdən başladı. Deyir ki, insan yaşa dolduqca kamilləşir, məsuliyyət hissi artır. Bundan sonrakı ömrünü millətinə, xalqına xidmətə sərf eləməyə çalışır. Cavanlıqdakı kəskinlikdən, emossianallıqdan əsər-əlamət qalmır, ətrafa münasibəti dəyişir. Abuzər müəllim indi o dövrü yaşayır.

- Hərdən deyirəm ki, kaş bu ağlım 40 yaşımda olaydı. Onda mən bilərdim neylərdim. Amma indisindən də gileyi yoxdur:

- Millətimizin gözəl xüsusiyyətləri var, ağsaqqala hörmət, sayğı, böyüyü eşitmək. Müdrik qocalıq yaxşı şeydir. Professor yubileyə hazırlaşır. Amma işini də unutmayıb. Moskvada hazırlanan ensiklopediya üçün Azərbaycanda kitabxanaçılığın tarixinə dair məqalə üzərində işləyir. Eyni zamanda sovet dövründə yazdığı kitablara, məqalələrə, monoqrafiyalara yenidən baxmaq fikrindədir.

- Keçmiş yazılarımın hamısından o vaxtkı ideologiyanın qoxusu gəlir. Təmizləyib latın qrafikası ilə çap elətdirəcəm.

- Azərbaycanda kitabxanaçılığa ayrıca elm sahəsi kimi yanaşan mütəxəssis kimi tarixə düşmüsünüz.

- Belə deməzdim. Kitabxanaçılıq elminin əsası, məncə, çox əvvəllər qoyulub. Ayrı-ayrı görkəmli alimlərin də, klassiklərimizin də əsərlərində bu barədə fikirlərə rast gəlmək mümkündür. Sadəcə, onları sistemləşdirmək mənim boynuma düşdü. Kitabxana işinin elmi əsaslarını yaratmaq bir zərurətə çevrilmişdi. 20-ci illərdən başlayaraq, kitabxanalar yaradılmağa başlanmışdı. Artıq bu illərdə kitabxanaçılıq elm sahəsi kimi formalaşırdı. 1923-cü ildə M.F.Axundov adına Mərkəzi Kitabxana yaradıldı. Kitabxana özü-özlüyündə elmi, həm də metodik mərkəzdir.

- Kitabxanaçılıq ayrıca bir fakültə kimi Bakı Dövlət Universitetində nə vaxt və necə yarandı?

- Hələ 1938-ci ildə Bakıda N.K.Krupskaya adına kitabxanaçılıq texnikumu yaradılmışdı. Burada Rusiyada təhsil almış mütəxəssislər dərs deyirdi. Az sonra hökumətin qərarı ilə BDU-nun filologiya fakültəsində kitabxanaçılıq şöbəsi açıldı. Mən 50-ci illərdə bu şöbəyə qəbul edilmişəm. O zaman filologiya fakültəsi böyük bir institutu xatırladırdı. Burda Azərbaycan dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı, jurnalistika, məntiq-pisixologiya, kitabxanaçılıq, bir də incəsənət şöbələri fəaliyyət göstərirdi. Filologiya fakültəsində o dövrün nəhənglərı dərs deyirdi. Həmid Araslı, Feyzulla Qasımzadə, Mircəlal Paşayev, Məmməd Cəfər Cəfərov, Məmməd Arif Dadaşzadə, Abbas Zamanov, Bəxtiyar Vahabzadə dərs alırdıq. Sonradan bu şöbələrin hamısı yavaş-yavaş fakültələrə çevrildi. MüəllimləRomadan yeganə sağ qalanı Bəxtiyar Vahabzadədir. O vaxt bizə dərs deyəndə Bəxtiyar müəllim universiteti təzə qurtarmışdı. Bu şöbəni bitirəndən sonra məni də universitetdə saxladılar. Kitabxanaçılıq elminin əsasını mən qoymuşam - deyə bilmərəm, adam gərək təvazökar olsun. Bu işi ona görə mənim adıma yazırlar ki, kitabxanaçılığın ilk dəfə sistem halında işlənib dünya elminə inteqrasiya edilməsi mənim fəaliyyətim dövründə olub.

- Azərbaycanda kitabxanaçılıq üzrə ilk elmlər doktoru da sizsiniz...

- Bəli, ilk elmi iş yazan, ilk namizəd, ilk doktor mənəm.

- Azərbaycan Ensiklopediyasının hazırlanmasında hansı xidmətləriniz olub?

- Ensiklopediyanın məsləhətçisi olmuşam. Özümün də ensiklopediyaya düşməyimin səbəbi bu oldu ki, əsasnamədə belə bir müddəa vardı - bu və ya digər sahədə hansısa elmin əsasını qoyan şəxs, elmi dərəcəsinin olub-olmamasından asılı olmayaraq, ensiklopediyaya salınsın.

- Fakültəni yaratmaq çətin olmadı ki?

- Hiyə? O qədər ağız büzən, istehza edənlər vardı ki... Məhəl qoymadım, dövlət orqanları qarşısında dəfələrlə məsələ qaldırmaqla məqsədimə nail oldum. 25 il fakültənin dekanı olmuşam. Mən enerjimi ancaq işə verdim. Kimsənin qeybətini eləmədim, kimsəyə pisliyim dəymədi. Buna görə də ətrafımdakılar həmişə hörmətimi saxlayıblar. Qaldı fakültəyə, indi də müəllimlərin içində elələri var ki, fakültəni tələbələrin yanında lağa qoyur. Eləsini o dəqiqə fakültədən kənarlaşdırıram.

- 1960-80-ci illər Azərbaycanda kitabxanaların qızıl dövrü hesab edilir. Ən ucqar dağ kəndlərində də kitabxana vardı. Kitabxanaların indiki durumu necə, sizi qane edir?

- Doğrudan da, 70-80-ci illərdə Azərbaycanda kitabxana işi elə qurulmuşdu ki, hətta ən ucqar dağ kəndindən gələn uşaqlar belə ensiklopedik biliyə malik idilər. Ancaq yarandığı gündən həmişə müstəqilliyi uğrunda mübarizə aparan bu xalq ötən əsrdə ikinci dəfə müstəqilliyini qazanandan sonra, - bundan böyük qazancımız yoxdur, - böyük çətinliklərlə üzləşib. Keçid dövrünü yaşayırıq. İqtisadiyyatımız da, sənayemiz də, kənd təsərrüfatımız da bu dövrü çox çətin keçirir. Kitabxanaların vəziyyəti lap pisdir. Hazırda kitabxanaların çoxunun vəsaiti olmadığından fondunda, bir dənə də olsun, təzə kitab yoxdur. Amma sevindirici haldır ki, Azərbaycan SSRİ-nin digər respublikaları ilə müqayisədə kitabxanalarını qoruyub saxlaya bilib. Biz, heç olmasa, kitabxana işçilərinin maaşını, kitabxana vahidini saxlamışıq. Min kitabxanamız erməni işğalçılarının güdazına gedib. 10 minə yaxın kitabxanadan indi 9 mini qalıb. Bu, böyük nailiyyətdir. Pul olsa, kitabxana işini yenidən dirçəltmək mümkündür.

- Abuzər müəllim, əksər kitabxanaların qapısı illərlə açılmır. Buna nə sözünüz?

- Düzdür, eləsi də var. Amma bir mütəxəssis kimi kitabxanaların işindən razıyam. Bilirəm ki, gələcəyi yaxşı olacaq. Sizə belə bir fakt deyim. 60-cı illərdə bizim o vaxtkı nazirimiz Bayramov "Mədəniyyət sahəsində ixtisar aparılsın" şüarına əsaslanıb kənd kitabxanalarının hamısını ixtisara salmışdı. 80-ci illərdə zorla bərpa elədik.

- Deyilənə görə, dünyanın 7 möcüzəsindən biri kitabla bağlıdır...

- Düz eşitmisiniz. Belə bir kitabxana hələ neçə min il əvvəl Makedoniyanın İsgəndəriyyə şəhərində olub. Bu kitabxanada yüz milyona yaxın papirus kitabları saxlanılıb. Şəhərə yan alan gəmilər ölkə qanunlarına görə, bac-xərac kimi mütləq nadir kitab gətirməliydilər. Yeganə nüsxələrin üzü köçürülüb qaytarılırdı. Bizdə kitaba, kitabxanaya diqqət.Şah İsmayıl Xətainin dövründən başlayıb. Xətai iki misilsiz kitabxana yaradıb: Ərdəbildə - Şeyx

Səfi məqbərəsində yaratdığı (oradakı kitabların əksəriyyəti hazırda Sankt-Peterburq Ermitajında saxlanılır) kitabxananın böyüyü də məşhur rəssam Kəmaləddin Behzad olub.

- Əlifba dəyişikliyinin kitabxanalara təsiri...

- Əlifba dəyişikliyi kitabxanaların işində böyük çətinlik yaradır. Ancaq bu çətinliyin 90 faizini kitabxanalar dəf edirlər. Ümumiyyətlə, əlifba dəyişikliyi ölkəyə böyük zərər vurur ki, bu zərərin qarşısını da qismən kitabxanalar alır. İndi fonddakı kirill əlifbasında olan kitablardan 30 il sonra da istifadə edəcəklər.

- Abuzər Xələfov əlli illik pedaqoji fəaliyyəti dövründə beş mindən artıq tələbəyə dərs deyib. Respublikanın ən məşhur kitabxanaçıları onun tələbələridir. Bu sahədə elmi iş müdafiə edənlərin hamısının elmi rəhbəri özü olub. Amma tələbələri arasında ən çox xətrini istədiyi şair Zəlimxan Yaqubdur.

- Səbəbi budur ki, bizim fakültəni bitirən məşhur adamlar heç vaxt kitabxanaçılıqda oxuduqlarını demirlər. Dosyelərində, sadəcə, BDU-nu qurtardıqlarını qeyd edirlər. Amma Zəlimxan hər yerdə deyir ki, mən kitabxanaçılıq fakültəsini bitirmişəm. Fakültəmizdən yazıçı, şair çox çıxıb - Əkrəm Əylisli, Əlisa Hicat kimi. Bu fakültə həm də arxasız uşaqların yeridi. Testdən qabaq bura ancaq köməksiz istedadlı uşaqlar qəbul ola bilirdilər. Jurnalistlərin əksəriyyəti bizim fakültəni bitirənlərdir.

- Fakültəniz həm də qızlar pansionatını xatırladır.

- Hər peşənin öz xüsusiyyəti var. Mən kitabxanaçılığı qız sənəti hesab etmirəm. Amma bu fakültəyə qız axınının səbəbini qızlarımızın psixologiyası ilə bağlayıram. Azərbaycan qızlarında kitaba, şeirə, sənətə böyük həvəs var. İkincisi, bizim sənətə qızları meylləndirən həm də valideynlərdir. Daha sakit, oturaq peşə olduğundan buranı məsləhət görürlər.

Sevindirici haldır ki, son vaxtlar fakültəmizdə oğlanların sayı artıb. Qeyd edim ki, Abuzər müəllim ömür-gün dostunu da bu fakültədən seçib: "Burda oxuyub. Amma mən ona dərs deməmişəm. Kiçik oğlum da hazırda bu fakültədə dərs deyir".

"Bizim əsr" qəzeti. 28 noyabr 2001.

ŞƏRƏFLİ ÖMRÜN ZİRVƏSİ

Bu amansız vaxt axarında insanlar həyatda zəka mülkü olmasaydı, görən neçə olardı? O insanlar ki, onlar dünyada nə üçün yaşadıqlarını dərk edirdilər. Ülvi amallarıyla insanların rifahı naminə özlərini fırtınalı ümmana atırmış kimi, çətinliklər məngənəsinin sınaqlarından çıxa-çıxa ömürlərini bu məqsədlər yolunda şam təki əridirlər. Belə şərəfli ömrün yolçusu və onun zirvəsinə ucalan şəxsiyyətlərdən biri də BDU-nun kitabxanaçılıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor, əməkdar elm xadimi Abuzər Xələfovdur.

- Abuzər müəllim, rəhbərlik etdiyiniz kafedra barədə məlumat verməyinizi xahiş edirik?

- Rəhbərlik etdiyim BDU-nun kitabxanaçılıq kafedrası respublikamızda kitabxanaşünaslıq elmlərinin elmi tədris fənləri ilə məşğul olan yeganə kafedradır. Universitetin ən güclü elmi tədris potensialına malik kafedralardan biri kimi fəaliyyət göstərən bu kafedra 1949-cu ildə yaradılıb. Bu kafedranın respublikamızda , kitabxana işinin elmi-nəzəri və metodiki problemlərinin hazırlanmasında , ciddi elmi tədqiqatlar aparılmasında və bu işin təcrübəsinin ümumiləşdirilməsində çox mühüm rolu vardır.

- Professor, siz qocaman universitetdə məsul vəzifələrdən birini icra edirsiniz. Gələcəyin ziyalıları hesab edilən indiki tələbələr sizi qane edirmi?

- 1950-ci ildən o vaxtki ADU-nun ziyalıları arasındayam. Bu 52 ilin 5 ilini tələbə olmuşam. 47 ilini də müəllim işləyirəm. Deməli mənim yaddaşımda o dövrün tələbələri də qalıb. Mən deyərdim ki, bu illər o vaxtki ali məktəb həyatında elmi inkişafın intibaha doğru addımlayan dövrü idi. Lakin insanlar həmişə keçmişi yüksək qiymətləndirirlər. Bu insanın psixologiyasından irəli gəlir. Bizdən sonra gələn nəsil də bəyənmədiyimiz bu dövrü gələcəkdə çalışacaqlar tərənnüm etsinlər. Bu nüans insanın özünün fəaliyyəti ilə bağlıdır. İnsan o zaman böyük zəhmət çəkir və o öz əziyyətini heç cür pisləmək istəmir. Bizdə indi belə bir nəticə var. İndiki tələbələri çalışqansızlıqda elmi müəllə ilə məşğul olmamaqda və keçmiş gənclikdən zəiflikdə günahlandırmaqla onları bəyənmək istəmirik. Amma mən bunun tam əleyhinəyəm. Bir müəllim kimi onu da bildirim ki hər dövrün gəncliyiniin inkişaf etmiş, xalqının layiqli dəstəsi olub. Həmçinin tənbəl, işinə biganə, təhsilə biganə yanaşan tələbələr də olub. Keçmişdə də belə olub, bu gün də var, sabah da belə olcaq. Ona görə də mən müasir gəncləri pisləmək fikrindən tam uzağam. Təbii ki mən indiki gənclərlə işləyirəm və onların içərisində millətimizə layiq olan gözəl tələbələrimiz var. Ümumiyyətlə bizim prinsipimiz onları pisləmək yox, qorumaq, tərbiyə etmək, nəhayət onların inkişafı üçün etməkdən ibarət olmalıdır. Çünki onlar bizim davamçılarımızdır. Mən hesab edirəm ki, onlar da bizi çox yaxşı əvəz edəcəklər. Əgər kim deyirsə indi dərs yoxdur, tələbə dərsə gəlmir və s. mən onlara cavb olaraq bildirirəm ki gəlsinlər kitabxanaçılıq fakültəsinə, hər hansı auditoriyanın qapısını açsın və qrupda olan tələbələrin 100 %-ni yaxud da 95%-ni dərsdə görsün və keçirilən dərslərin səviyyəsinə nəzər yetirsin.

- Sizcə ziyalılıq nədir?

- Ziyalı məsələsi çox nəhəng bir mövzudur. Ziyalı birinci növbədə öz millətini xalqını sevən və onun gələcəyi uğrunda mübarizə aparan vətənpərvər olmalıdır. Vətənin daşı olmalıdır ki vətəndaşa çevrilsin. Mən ziyalılıqda bizim XX əsrin ziyalılarında olan böyük humanizmi axtarıram. Çünki bu ziyalılardan C.Məmmədquluzadə, M.Ə.Sabir, M.Ə.Rəsulzadə, F.Xoyski, Hacinski və s. bax bunlar hamısı əsl ziyalılar idi. Ona görə ki,bu ziyalılar hamısı birləşib həm yüksək elm, xalqa, millətə sevgi, beynəlmiləlçiliyi və bütün ziyalılara xas olan

müsbət keyfiyyətləri onlar özlərində cəmləşdirmiş və öz əməllərində gerçəkləşdirmişlər.

Ziyalı gərək insanların, millətinin qarşısına işıq saçsın və onları irəliyə doğru aparmağı bacarsın. Ziyalı öz sənətin yüksək dərəcədə sevən, qiymətləndirən və onun zirvəsinə ucalmağı bacaran insana deyirəm. Əsl ziyalının sənəti ilə vətəndaşlığı daim vəhdət şəklində və yüksək zirvədə təzahür etməlidir.

Ziyalı dedikdə, bəşəriyyətin yaratmış olduğu bütün nemətlərə, sərvətlərə yiyələnmiş yüksək mədəni intelektual səviyyəyə malik böyük bir vətəndaş, millətini, xalqını, soykökünü sevən və uğrunda fəda olmağa hazır olan insanı başa düşürəm.

- Mövcud durumda ziyalılarımızın cəmiyyətdəki rolunu necə hiss edirsiniz?

- Ziyalılarımız son hadisələrdə aktiv mövqe tutdular. Doğrudur, xalq hərakatında da yaxından iştirak ediblər. Lakin bu ziyalılar sovet dövründə yetişmiş və o psixologiya ilə yaşayırdılar. Nəticədə onlar bu yeni şəraitə tez alışa bilmədi. İndi isə ziyalılarımızın yaxşı inkişafını, onların böyük əksəriyyətinin müstəqilliyimizə, dövlətçiliyimizin möhkəmlənməsinə səy göstərdiklərini görürəm. Axı müstəqil Azərbaycan dövlətçiliyi bizim milli sərvətimizdir. Nəqədər ki, dövlətçiliyimiz möhkəm olsa, biz hər bir mübarizədən qalib çıxa bilərik. Qarabağ problemini, o cümlədən bütün problemlərimizi ancaq dövlətçiliyimizi möhkəmləndirmək, qüdrətləndirmək hesabına həll edə bilərik. Mən sevinirəm ki, ziyalılarımızın əksəriyyəti dovlətimizin daxili və xarici siyasətini ürəkdən bəyənir, onun möhkəmlənməsinə çalışırlar. Mən bütün bunları onların yazılarında, çıxışlarında və insanlara münasibətlərində hiss edirəm.

- Ziyalılarımız bir araya gəlib iqtidarla müxalifətin orta məxrəcə gəlməsinə çalışırlarmı?

- Ziyalıların böyük əksəriyyətinin fikrincə, bunlar orta məxrəcə gələrsə, dövlətçiliyimizin ümumi problemlərinin həllinə xidmət edə bilərlər. Lakin bizim müxalifət hələ formalaşmayıb və onlar yalnız hakimiyyət uğrunda mübarizə aparmaqla məşğuldurlar. Bu müxalifət millət, dövlətcilik, iqtisadi, siyasi və beynalxalq inkişaf uğrunda mübarizədən uzaqdırlar. Demokratik dövlətdə güclü müxalifət olmalıdır ki, həmin müxalifət xalqa, dövlətciliyin yüksəlişinə və milli maraqların müdafiəsinə xidmət etsin. Mən onları əsl müxalifət hesab etmirəm.

- Professor, bugünkü mətbuata münasibətiniz və onların içərisində ziyalıları arayan, fikirlərini, problemlərini öz səhifələrində işıqlandıran konkret qəzet tanıyırsınızmı?

Respublika mətbuatı haqqında mənim fikirlərim son zamanlar yaxşılaşmağa doğru gedir. Mən bugünkü mətbuat bolluğundan da narahat deyiləm. Təki onlar xalqımız tərəfindən sevilsin və rəğbətlə qarşılansın. İstərdim ki, mətbuat ilk növbədə çox güclü vətənini, xalqını sevən kadrlarla və peşakar jurnalistlərimizlə möhkəmlənsin. Hazırkı jurnalistlərimiz içərisində belə

insanlar çox azdır.

Görünür mətbuat artdıqca ona çoxlu işçilər lazım olur və bunun nəticəsində təsadüfi insanlar gəlib jurnalistlik edir. Mətbuat obyektiv olsun, çünki, bu onun yeganə silahıdır.

Mətbuat gərək özünü yalandan, kiminsə ünvanına böhtan yazmaqdan qorusun. Mən əminəm ki, bu inkişaf dövründə millətimizə, xalqımıza və vətənimizə xidmət edən jurnalistlər yetişirlər. Lakin arzu edirəm ki, o biri təbəqə də jurnalist adına layiq olun. Çünki bu peşə məsuliyyətli və şərəflidir. Jurnalistlərimiz insanların qəlbinə yol tapmağı bacarsın, onların qələmindən çıxan yazılar elmi, mədəni səviyyəsi ilə insanları inkişaf etdirsin və cəmiyyətdə intelekt yaratsın.

Konkret qəzetlərə gəlincə, onların içərisində ziyalıları diqqət mərkəzində saxlayan qəzetlər çoxdur. Onlardan "Respublika", "Xalq qəzeti", "Yeni Azərbaycan", "525-ci qəzet", "Ziyalı" qəzeti bizim ziyalılara öz səhifələrində hər zaman geniş yer verirlər. Buna görə mən onlara minnətdarlığımı bildirirəm.

Ancaq yenə fikRomada qalıram ki, millətimizin xeyrinə olmayan, millətimizin əcdadları və indiki vəziyyəti haqqında xoşagəlməyən məqalələri yazan mətbuatı sevmirəm.

- Abuzər müəllim, hər bir sahədə olduğu kimi təhsildədə islashatlar öz nəticələrini göstərir.Bu nəticə BDU-da necə təzahür edir?

- Universtetimizdə islahat prosesi artıq öz bəhrəsini verməkdədir. Hörmətli rektorumuz Abel Məhərrəmov mən deyərdim ki, qarşısına bu məqsədləri qoyub: dərslik, kompüterləşmə, xarici dil və təmir-tikinti işləri.

Dərslik məsələsinə istinadən bir real arqumenti xatırlamaq istəyirəm. O zaman mən fikir verirdim ki, rus qurupu Azərbaycan qurupunun tələbələrinə nisbətən güclü oxuyurdular. Fikirləşirdim niyə? Hər iki qurupun tələbələrinin böyük əksəriyyəti azərbaycanlıdırsa, onda niyə bu belədir? Düzdür onların içərisində başqa millətlərin nümayəndələri də var idi. Bu zaman belə qənaətə gəldim ki, rus qurupunun tələbələrinin dərslik kitabı var və onlar yaxşı oxuyurlar. Elə bu səbəbdən də indi görürəm ki, elə bil ziyalılarımızın üzərindən sosializimin xofu götürülüb. Ziyalılarımız hamısı öz sahəsi üzrə dərslik yaratmaq üçün sürətlə və cürətlə işləyirlər.

Elə mən özüm də universitetimizdə nəşriyyat şurasının sədriyəm və bu dərsliklərin hamısını biz təsdiq edirik.

Mən öz sahəmi deyirəm- BDU-da son on ildə onlarla dərs vəsaitləri, dərsliklər monoqrafiyalar yaranıb. Hamısıda doğma dilimizdə yeni təfəkkür tərzinə uyğun, millətimizə xidmət edən dərs vəsaitləri çap olunub. Sovet dövründə son ildə heç bu qədər elmi tədqiqat əsəri yaranmamışdır.

Unuversitetin kompüterləşmə və maddi-texniki bazası artıq Avropa standartlarına uyğunlaşdırılıb.Hazırda BDU-nun bütün fakültələrində kompüter zalları var və tələbələr də orada hər gün dərs keçirlər.

Xarici dil məsələsinə də yüksək qiymət yetirilir. Hətta kənd məktəblərindən gələnlər də burada xarici dil öyrənirlər və biz müəllimlərdən yaxşı

bilirlər.

Universitetimiz xariclə əlaqə yaradıb və oraya tələbə göndəririk,onların tələbələri gəlib burada təhsil alırlar. Bununla yanaşı alimlərimiz gedib xaricdə və onların alimləri də gəlib burada mühazirələr oxuyurlar. BDU-da ele cavan alimlər var ki, onlar xarici dildə mühazirə oxuyanda mən heyran oluram.

Təmir-tikinti prosesi hamısı göz qabağındadır. Ümumiyyətlə A.Məhərrəmov BDU-ya rektor təyin olunandan ciddi işlər görüb. Universtetin şəhəriyi, auditoriyaları, məişət xidmətləri və idman kompleksləri Avropa standatrlarına uyğunlaşdırılıb.

BDU-da olan 1500 nəfərlik üstüörtülü stadion istifadəyə verilib. Mən xarici ölkələrin institutlarının heç birində belə stadionla rastlaşmamışam.

Biz bir həqiqəti dərk etməliyik ki, bütün bu naliyyətlərimizi müstəqilliyimizin verdiyi imkanlar hesabına əldə etmişik. Siz özünüz müqayisə edin görün 70 il sovet dövründə nə əldə etmişik və indi nəyə nail olmuşuq.

- Abuzər müəllim, 70 yaş alim ömrünün müdriklik çağıdır. Siz bu zirvədən xatirəyə çevrilən o illərə hansı aspektən nəzər salırsınız?

- Mən bu zirvədən baxanda həm kədərlənirəm,həm də sevinirəm. Kədərlənirəm ki, artıq qocalmışam. Sevinirəm, ona görə ki, universitetə daxil olanda mən kənddən gəlmiş 18 yaşlı bir gənc idim. İndi isə tarix elmləri doktoru, professor və əməkdar elm xadimiyəm. Bu zirvədən baxanda akademiklərdən Feyzulla Qasımzadə, Həmid Arashl, Məmməd Arif Dadşzadə, ən görkəmli professorlardan yaziçi Mir Cəlal Paşayev, Əli Sultanlı və nəhaytət xalq şari Bəxtiyar Vahabzadə kimi müəllimlərimi xatırlayıram. Mən nə əldə etmişəm məhz bu müəllimlərimin və bu universitetin hesabına həyata keçirmişəm.

Yeganə arzum budur ki, müəllimlərimin mənə etdiklərini məndə tələbələrimə edim və onların sevimlisinə çevrilim. Bir halda bu xalq, millət sənə hörmət bəsləyir gərək sən də onlara daim xidmət göstərəsən.

Mən xüsusi olaraq nəzərinizə çatdırım ki, 1969-cu ildə hörmətli Prezidentimiz Azərbaycan KPMK-nın 1 katibi seçiləndən onu tanımağa başladım. O vaxtdan bu günə qədər onun elə bir kitabı, yazısı və məqaləsi olayıb ki, mən onu oxumayım. Belə qənaətə gəlmişəm ki, Heydər Əliyev millətini, xalqını sevən, uğrunda mübarizə aparan və onun yolunda şam kimi yanan bir insandır. Sevinirəm ki, xalq da onu yüksək qiymətləndirir.

Heydər Əliyev 1969 cu ildə hakimiyyətə gələdiyi vaxtdan bu günə kimi mənə mükafatlar, ordenlər və fəxri adlar verib. İnanın ki, mənim heç bir havadarım yoxdur. Təvazökarlıqdan uzaq olsa da, bildirim ki, bütün bunlara mən ədalət naminə, layiq olduğum üçün nail olmuşam.

Ötən il hörmətli Prezidentimiz mənə əməkdar elm xadimi adını verdi. Mən fərmanı oxuyanda sevincimin həddi-hüdudu yox idi. Düşünürdüm ki, bu insan bütün cəfakeş ziyalılarımızı qiymətləndirməyi bacarır. Hesab edirəm ki, əməkdar elm xadimi adı təkcə mənə yox, respublikamızdakı, 30 minlik kitabxanaçı ictimayyətinə verilən qiymət idi.

Bütün bu dediklərim hamısı mənim ürək sözlərimdir. Kimsə düşünməsin ki, mənim hansısa təmənnam var. Axı yaşım yetmişi ötüb.Bundan sonra mən hec bir vəzifə iddiasinda da deyiləm. Lakin mən bütün bunları deməli və qiymətləndirməliyəm. Çünki, qəlib bundan daha mühüm deyil.

- "Ziyalı" qəzetinə arzunuz?

- Arzu edrdik ki, bu qəzet gündəlik də olmasa həftəlik nəşr olunsun. Bir haldaki qəzet öz qarşısına ziyalı məsələsini qoyubsa, onda bunun gələcəyi ugurlu olacaq və gec-tez bütün ziyalıların sevimlisinə çevriləcək. İnanıram ki bu qəzetin obyektidə çox olacaq, təkcə ziyalılardan yox, həm də ziyalı problemlərindən də yazacaq. Təbii ki, ziyaları təbliğ edən və onların uğrunda mübarizə aparan qəzet əlbəttə ki, bütün millətimizin sevdiyi qəzet olacaq.

- Müsahibə üçün təşəkkürümü bildirirəm.

- Sağ olun.

"Ziyalı" qəzeti . 27 fevral 2002.

MƏN FƏXR EDİRƏM Kİ, BAKI DÖVLƏTUNİVERSİTETİNİN MƏZUNUYAM

Xalqımızın böyük oğlu, görkəmli dövlət xadimi, Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu, Azərbaycan elm, təhsil və mədəniyyətinin inkişafında misilsiz xidmətləri olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin həyatının 50 ili milli iftixarımız olan Bakı Dövlət Universiteti ilə bağlı olmuşdur. Universitetin nəşriyyatında nəfis tərtibatla nəşr olunmuş "Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu" adlı kitab XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi bu nəhəng şəxsiyyətin millətimizin mənəviyyat və ləyaqət simvolu olan Bakı Dövlət Universiteti ilə bağlı həyatının ən maraqlı məqamlarına həsr edilmişdir.

Bakı Dövlət Universitetinin son yarım əsrlik tarixində Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab Heydər Əliyevin əvəzsiz rolunu əks etdirən bu kitabın elmi məsləhətçi və redaktoru Azərbaycan MEA-nın həqiqi üzvü, akademik, Milli Məclisin deputatı Cəlal Əliyev, kitabın buraxılmasına məsul, ön sözün müəllifi universitetin rektoru, Azərbaycan MEA-nın müxbir üzvü, professor A.Məhərrəmovdur.

Şərqdə ilk Avropa tipli universitetin yaradılması respublikamızın ali təhsil sisteminin formalaşmasında, müxtəlif sahələr üzrə yüksək ixtisaslı kadrlar yetişdirilməsində Bakı Dövlət Universitetinin müstəsna xidmətləri xalqımıza yaxşı məlumdur. Bakı Dövlət Universitetinin xalqımızın həyatında oynadığı rol 1994-cü ildə bu möhtəşəm təhsil ocağının 75 illik yubiley şənliklərində möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin nitqində də son dərəcə yüksək qiymətləndirilmişdir. O demişdir: "Universitetin 50 illiyi, 60 illiyi qeyd olunmuşdur. Amma təəssüf ki, 70 illiyi, nədənsə qeyd edilməmişdir. Bunu yaddan çıxarmışlar. İndi 75 illiyi qeyd olunur. Bu 75 illik tarixi ədalətli,

düzgün yazmaq üçün indi ən gözəl şərait yaranmışdır. Amma bu təkcə universitetinin tarixi deyil, bu Azərbaycan xalqının tarixidir, Azərbaycan Respublikasının tarixidir, Azərbaycan elminin, Azərbaycan təhsilinin, Azərbaycan mədəniyyətinin tarixidir. Ona görə də bunu təhrif etmək olmaz"

Bütün şüurlu həyatı Bakı Dövlət Universitetində keçmiş bir ziyalı kimi tam qətiyyətlə deyə bilərəm ki, doğma universitetimiz haqqında cənab Heydər Əliyev qədər sərrast fikirlər söyləyən, onun xalqımızın tarixində oynadığı müstəsna rolu belə müdrikliklə qiymətləndirən ikinci şəxs tanımıram. Bu yalnız məhz Heydər Əliyev fenomeninə xas olan yüksək mənəvi dəyərləndirmənin məhsulu ola bilər.

Müəllif Azərbaycan xalqının yetişdirdiyi nəhəng şəxsiyyəti, zəmanəmizin dünya şöhrətli dövlət xadimi Heydər Əliyevi Bakı Dövlət Universiteti ilə bağlayan qırılmaz telləri çox məharətlə açıb göstərməyə nail olmuşdur. Kitabda göstərilir ki, əgər möhtərəm Prezidentimiz Heydər Əliyev xalqımızın siyasi iradəsinin təcəssümü, Azərbaycan ziyalılarının ağsaqqalı və himayəçisi, milli təhsil quruculuğumuzun nəhəng ilhamçısı və himayəçisidirsə, Bakı Dövlət Universiteti isə mənəvi böyüklüyümüzün simvolu, elm, təhsil və mədəniyyətimizin möhtəşəm məbədidir. Xalqımızın tarixi üçün çox böyük əhəmiyyəti olan bu bağlılıq çağdaş dövrün taleyüklü problemlərinin həllində mühüm önəm daşıyır.

Möhtərəm Prezidentimizin hələ Universitetin 50 illik yubileyində ana dilimizdə etdiyi parlaq nitqini yaxşı xatırlayıram. Belə çıxışı yalnız qeyri-adi uzaq görənliyə malik respublika rəhbəri edə bilərdi. Fikrimizcə, bu o dövr üçün çox böyük vətənpərvərlik nümunəsi idi və belə nitqin milli varlığımızın rəmzi olan universitetin yubileyində edilməsi təsadüfi deyildir. Bu, Azərbaycana, ana dilimizə sonralar dünya azərbaycanlılarının lideri səviyyəsinə yüksələcək bu böyük öndərin sevgisinin və siyasi münasibətinin, fundamental baxışının parlaq nümunəsi idi. Kitabda bu məsələlərə xüsusi yer verilməsi onun dəyərini artıran cəhətlərdən biri kimi qiymətləndirilə bilər.

Müəllif haqlı olaraq göstərir ki, Bakı Dövlət Universiteti də "Heydər Əliyev kimi milli azadlıq hərəkatının önündə getmiş, milli bayrağımız ilk dəfə Naxçıvanda, bir də Bakı Dövlət Universitetində dalğalanmışdır".

Kitabda Prezident Heydər Əliyevi Bakı Dövlət Universiteti ilə bağlayan tellər xronoloji ardıcıllıqla verilmişdir. Universitetin 50 illik, 75 illik yubileylərində, 80 illik yubileyi münasibəti ilə BDU-nun və bir sıra xarici ölkə universitetlərinin rəhbərlikləri ilə görüşündə söylədiyi giriş və yekun nitqləri, BDU-nun 75 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı və digər tarixi sənədlər öz əksini tapmışdır.

Kitabda Bakı Dövlət Universitetinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki çıxışlar ardıcıllıqla verilmişdir. Burada Heydər Əliyevlə Bakı Dövlət Universitetini bağlayan tellər, onun tarixi, bu münasibətlərin ahəngdar inkişafı qırmızı bir xətt kimi keçir. Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-Prezidenti, Milli Məclisin deputatı, YAP sədrinin birinci müavini, Milli

Olimpiya Komitəsinin Prezidenti, universitet kollektivinin sevimlisi İlham Əliyevin BDU-nun tələbələri ilə keçirdiyi maraqlı görüş və İlham Əliyevin söylədiyi məzmunlu nitqi belə deməyə əsas verir ki, universitet gəncləri də onu Azərbaycanın gələcək lideri seçir. Bu görüşün bütün təfərrüatı ilə kitabda verilməsinin xüsusi əhəmiyyət kəsb etdiyi də qeyd olunmalıdır.

Azərbaycan Prezidentinin yeritdiyi daxili və xarici siyasətə uyğun olaraq Bakı Dövlət Universitetində son illərdə görülən işlər də kitabda öz əksini tapmışdır. "BDU-da Heydər Əliyev muzeyi", "Prezident Heydər Əliyevin xarici siyasəti və BDU-nun beynəlxalq əlaqələri", "Heydər Əliyev dünya azərbaycanlılarının qürur qaynağıdır", "Prezident Heydər Əliyevin qayğısı ilə yeniləşən Bakı Dövlət Universiteti", "İdman kompleksi gələcək qələbələr üçün stimuldur" adlı bölmələrdə Universitetdə respublika Prezidentinin bilavasitə himayəsi ilə görülən işlərdən, əldə edilən uğurlardan geniş və ətraflı şəkildə bəhs olunur.

Kitabda qeyd olunur ki, BDU-da çox böyük alimlər, ictimai xadimlər, yaradıcı ziyalılar yetişdirib. Lakin tam məsuliyyətlə demək olar ki, BDU-nun ən böyük məzunu öz xalqına, onun mədəniyyətinə və mənəviyyatına son dərəcə bağlı olan, Azərbaycan dövlətinin xilaskarı və qurucusu, dünya azərbaycanlılarının lideri Heydər Əlirza oğlu Əliyevdir. BDU-nun Heydər Əliyev qədər həm bütün Azərbaycan xalqının, həm də universitetimizin şöhrətini yüksəkliklərə qaldıran, millətinə xidmət göstərən ikinci məzunu yoxdur. Bakı Dövlət Universitetinin keşməkeşli sınaqlarla dolu tarixi müqəddəs bir missiyanı-xalqı maariflərdirmək, onu dünyaya tanıtmaq, görkəmli ziyalılar yetişdirmək, elmin, təhsilin səviyyəsini qaldırmaq, xalqın milli şüurunu formalaşdırmaq kimi mühüm vəzifələri ləyaqətlə yerinə yetirməyin bariz nümunəsidir. Məhz bu ali missiyanı şərəflə yerinə yetirməyi bacaran universitetin dünya şöhrətli məzunu və fəxri doktoru, möhtərəm Prezidentimiz cənab Heydər Əliyevdir.

Çox nəfis tərtibatda çap olunmuş bu kitabda hələ 1939-cu ildə Heydər Əliyevə Naxçıvan Şəhər Beynəlmiləl məktəbi tərəfindən verilmiş attestatın surəti, 1951-ci ildə universitetə qəbul olunmaq üçün yazdığı ərizəsinin surəti, qəbul yoxlaması haqqında qeydlər, 1994-cü ildə Bakı Dövlət Universitetinin fəxri doktoru diplomunun surəti və digər nadir sənədlər toplanmışdır.

"Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu" kitabı BDU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor A.Məharrəmovun təbirincə desək, "uzun, çətin, mübarizələrlə dolu və nəticəsi xalqın azadlığı, yüksək mənəviyyatı, intellektual ucalığı, milli və sağlam düşüncəsi olan mənəvi bir həyat yaşamış Heydər Əliyevlə Bakı Dövlət Universitetinin qoşa, paralel ömrünə və qarşılıqlı məhəbbətinə həsr olunmuş" bir əsərdir.

Əgər zəmanəmizin tarixi şəxsiyyəti olan möhtərəm Prezidentimiz "Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" deyirsə, universitet kollektivi də yekdilliklə "biz məzunumuzla fəxr edirik" deyir.

N.İsmayılovla birlikdə.
"Respublika" qəzeti. 24 fevral 2002.

YAZIÇI HAQQINDA İNFORMASİYA MƏNBƏYİ

Mədəniyyətimizin, ədəbiyyatımızın, demək olar, elə bir sahəsi yoxdur ki, Hidayətin orada izi qalmasın. Şeirdə, nəsrdə, dramaturgiyada, publisistikada, teatrşünaslıqda, incəsənətin başqa sahələrində xidmətləri olan Hidayət, həmçinin respublikamızda kitab nəşrinin təşkilatçısı, Azərbaycan kitab mədəniyyətinin təbliğatçısı kimi yaxşı tanınır.

Hidayətin fəaliyyəti, yaratdığı əsərlər haqqında çaq olunmuş materialların həcmi son dövrlər onun biblioqrafik baxımdan öyrənilməsinə və geniş oxucu kütləsinə təqdim edilməsinə ehtiyac doğurur.

Azərbaycan biblioqrafik məlumatlar sistemində bu funksiyanı yerinə yetirmək üçün şəxsi biblioqrafik göstəricilər sistemi yaranıb formalaşmışdır.

M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxansı tərəfindən tanınmış şair, publisist, nasir, dramaturq, Azərbaycanın əməkdar incəsənət xadimi Hidayət haqqında çapdan buraxılmış biblioqrafik məlumat kitabı lazımlı bir vəsaitdir. Göstəricinin tərtibcisi və müəllifi son dövrlər şəxsi biblioqrafik göstəricilərin tərtibi sahəsində peşakar mütəxəssis kimi formalaşmış Bəybala Ələsgərov, elmi redaktoru M.F.Axundov adına ADK-nın direktoru Leyla xanım Qafurovadır.

Bu məlumat kitabının tərtibat metodikası, materialların təqdim edilməsi baxımından maraqlı quruluşa malikdir.

Qeyd etmək lazımdır ki, göstəricidə Hidayətin həyat və yaradıcılığına dair verilən yazılar, onun əsərlərinin və haqqındakı materialların, mənbələrin biblioqrafik təsvirləri tərtibçinin ardıcıl professional səyinin nəticəsidir.

Biblioqrafik vəsait "Tərtibçi-müəllifdən"adlanan girişlə başlayır, sonra xronoloji ardıcıllıqla Hidayətin əsərlərinin nəşr tarixinə dair yığcam xülasə, onun həyat yolunun və fəaliyyətinin mühüm məqamlarını əks etdirən əsas tarixlər (Azərbaycan, rus və ingilis dillərində) və qələm dostlarının,ədəbiyyat və mədəniyyət xadimlərinin yazıçı haqqında fikirləri verilir.

Görkəmli dövlət başçısı, Gürcüstan Prezidenti Eduard Şevardnadze Azərbaycan yazıçısı haqqında deyir: "Xalqlarımızın layiqli və görkəmli oğullarının şəxsi dostluğu da hamıya məlumdur.

M.F.Axundov və Akaki Seretelinin dostluq münasibətlərini qeyd etmək yerinə düşərdi. Bu ənənə xalqlarımızın ən ağır dövrlərində də davam etdirilmişdir. Səməd Vurğunla Georgi Leonidze, Hidayət Orucovla Quram Pançikidze bu gözəl ənənənin parlaq davamçılarıdır".

Hidayət haqqında müxtəlif nəsllə mənsub şair və yazıçılardan, elm və mədəniyyət nümayəndələrindən Bəxtiyar Vahabzadə, Mişşi Yuxma, Leziya Xetoquri, Cansuğ Çarkvaiani, Nizami Cəfərov, Yəhya Taşdələn, Seyfəddin Altaylı, Quram Pançikidze, Rəsul Həmzətov, Levan Mamaladze, Məmməd Aslan, Yusif Seyidov, Söhrab Tahir, Yaşar Qarayev, Azad Nəbiyev, Sahib Azəri, İnqilab Kərimov, Paşa Qəlbinur, İlham Rəhimli, Qurban Bayramov, Yusif Hacıyev, İsa İsmayılzadə, Vüqar Bektaş və başqaları da öz ürək

sözlərini qələmə almışlar.

Bununla da Hidayətin çoxşaxəli fəaliyyəti, həyat yolu haqqında geniş təsəvvür yaranır.

Məlumat kitabının ikinci hissəsində isə Hidayətin Azərbaycan dilində çap olunmuş kitablarının, tərtib etdiyi, redaktoru olduğu, ön söz yazdığı, buraxılışına məsul olduğu kitablar və müxtəlif mənbələrdə işıq üzü görən əsərlər,verdiyi müsahibələrin mənbələri haqqında biblioqrafik informasiyalar verilmişdir.

Hidayətin yaradıcılıq yolu,onun Azərbaycan dilində çap olunan əsərləri haqqında məlumatlar xüsusi bölmədə öz əksini tapmışdır.

Bu lazımlı informasiya mənbəyinin diqqəti cəlb edən cəhətlərdən biri də Hidayərin xarici dillərdə çap olunan əsərlərini əhatə etməsidir. Bu baxımdan göstəricinin müvafiq bölmələri (IV, V) diqqəti cəlb edir.

Dördüncü bölmə Hidayətin rus dilində, beşinci bölmə isə MDB və başqa xarici ölkə xalqlarının dillərində çap olunan əsərləri haqqında məlumat əldə etməyə imkan verir. Ümumiyyətlə,bu bölmələr Hidayətin yaradıcılığına oxucu marağı, əsərlərinin yayılması coğrafiyası haqqında məlumatları əhatə etmişdir.

Bəhs edilən biblioqrafik vəsait, ondan istifadə edənlərin çoxcəhətli sorğularını cavablandırmaq baxımından da diqqəti cəlb edir. Bu cəhətdən biblioqrafik göstəricinin yardımçı aparatını xüsusi qeyd etmək lazımdır. Həmin bölmədə 11 adda yardımçı aparat verilmişdir.Vəsaitin bu hissəsinin rus dilindəki variantı isə 5 köməkçi göstəricidən ibarətdir.

Ümumiyyətlə, 841 mənbəni əhatə edən bu biblioqrafik göstəricidən Hidayətin həyat və fəaliyyəti haqqında 1963-cü ildən 2000-ci ilə qədər tam və dolğun informasiya əldə etmək mümkündür.

"Əbədi həyat" qəzeti. 29 mart 2002.

İNFORMASİYALAŞDIRILMIŞ CƏMİYYƏTİN XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ

Bəşəriyyət tarixinə nəzər salarkən belə bir qanunauyğunluq aşkar olunur ki, hər bir əsr özünəməxsus mühüm inkişaf prosesi ilə, böyük elmi və mədəni əhəmiyyətə malik hadisələrlə xarakterizə olunur. Məsələn, dünya alimləri keçən əsrin ikinci yarısından başlayaraq XX əsri "atom əsri", "elmi-texniki tərəqqi əsri", "informasiya partlayışı əsri" adlandırmağa başladılar. XXI əsr isə "informasiya əsri" hesab olunur. Bunun əsas səbəbi informasiyanın cəmiyyətin əsas aparıcı qüvvələrindən birinə çevrilməsi, sənaye cəmiyyətindən informasiya cəmiyyətinə sürətli keçidlə əlaqədar idi. Alimlər belə bir fikri formalaşdırarkən cəmiyyətdə gedən proseslərin dərin tədqiqinə və onun qanunauyğunluqlarına əsaslanmışlar.

İnformasiyalaşdırılmış cəmiyyətin yaradılması və daha da təkmilləş-

dirilməsi bilavasitə kommunikasiya sistemləri, informasiyanın alınması, işlənməsi və verilməsi prosesi ilə əlaqədar olduğundan müasir cəmiyyətdə hər cür informasiyanı cəmiyyət üzvləri arasında yaymağı qarşısına məqsəd qoyan, informasiya resurslarını toplayıb saxlayan, onu əsrdən-əsrə, nəsildən-nəslə ötürən informasiya daşıyıcısı kimi fəaliyyət göstərən informasiya müəssisələrinin ən mühüm vasitəsi kitabxana sistemləridir. Ona görə də, müasir informasiya cəmiyyətində kitabxana işi ilə informasiya arasında çox sıx, qarşılıqlı əlaqələr meydana çıxıb formalaşmışdır ki, bunları bir-birindən ayrılıqda düşünmək hər iki sahənin ümumi inkişafına mane ola bilər.

Bu məqsədlə biz kitabxanaşünaslıqla informasiyanın qarşılıqlı əlaqələri baxımından informasiyalaşdırılmış cəmiyyət haqqında bəzi mülahizələr söyləməyi lazım bilirik.

İnformasiya insanın öz hiss üzvləri vasitəsilə təbiətdən və cəmiyyətdən və mütaliə prosesi zamanı aldığı məlumatdır. İnsanlar informasiyanı yaratmaq, ötürmək, saxlamaq, istehsal və təkrar istehsal etmək imkanlarına malikdir. İnformasiya latınca informatio, yəni izah etmə, şərh etmə mənasında meydana gəlsə də, öz ilkin mənasını çoxdan dəyişmiş, olduqca mürəkkəb, öyrənilməsinə, sistemləşdirilməsinə ehtiyac duyulan bir prosesə çevrilmişdir.

Müasir dövrümüzdə elmin və texniki tərəqqinin böyük vüsət alması, elmi tədqiqatların nəticələrinin cəmiyyət həyatına, praktikaya tətbiq edilməsi, texnologiyanın, texniki proseslərin sürətli inkişafı nəticəsində informasiya axınının artımı, köhnəlməsi və səpələnməsi hədsiz dərəcədə çoxalmış və bu informasiya axınının işlənməsi, istehsal edilməsi və onun tələb olunan istiqamətlərə yönəldilməsi insanların imkanları dairəsindən kənara çıxmışdır. Bu proses həm iqtisadi, həm də sosial sahədə baş verdiyindən daha mürəkkəb xarakter daşımağa başlamışdır. Məhz buna görədir ki, bu mühüm prosesi öyrənmək, araşdırmaq üçün yeni elm sahəsinin meydana çıxması zərurətini yaratmışdır. Beləliklə, əsasən XX əsrin elmi kimi formalaşan informatika elmi yaranmışdır.

İnformatika hesablama texnikasının köməyi ilə informasiyanın qəbulu, istehsal edilməsi, arxivləşdirilib saxlanılması və istifadə üsulları ilə məşğul olan ictimai elmdir. Doğrudur, informatika mütəxəssisləri informasiyanı texniki elm hesab edirlər, amma əslində elmi məlumatın alınması, işlənməsi və verilməsi öz məzmunu və istiqaməti cəhətdən cəmiyyətdə baş verən obyektiv proses olduğundan informasiya ictimai elmlər sırasına daxildir.

Belə bir faktı qeyd etmək yerinə düşərdi ki, informatika ilk dəfə XX əsrin ikinci yarısından başlayaraq ABŞ-ın ali kitabxanaçılıq məktəblərində, kolleclərində meydana gəlmiş, elmi tədris fənni kimi öyrənilməyə başlamışdır.

Əsasən XX əsrin ikinci yarısında bir elm kimi formalaşan və cəmiyyətin iqtisadi və sosial həyatında böyük rol oynayan və ciddi dəyişikliklər edən informatika ona qohum olan bir sıra elmlərin , ilk növbədə isə kitabxanaşünaslığın bir humanitar elm kimi yeni metodlar, ideyalar, nəzəriyyələrlə zənginləşməsi yeni texnologiya, texniki vasitələrlə təmin edilməsi üçün şərait

və imkanlar yaratmış, kitabxanaşünaslıq və informatika qarşılıqlı surətdə inkişaf etməyə, təkmilləşməyə başlamışdır.

Kitabxanaşünaslıqla informatikanın inteqrasiyası nəticəsində məlum olmuşdur ki, bu iki elmin əlaqələri olmadan müasir zamanda informasiyalaşdırılmış cəmiyyəti inkişaf etdirmək, bu cəmiyyətin qarşıda qoyduğu vəzifələrə cavab vermək, cəmiyyət üzvlərinin informasiya tələbatını ödəmək mümkün deyildir.

Müstəqillik şəraitində dövlətimiz və xalqımız, alimlərimiz, ziyalılarımız, bütün qəbildən olan mütəxəssislərimiz qarşısında duran ən mühüm vəzifə müasir Azərbaycan cəmiyyətini informasiyalaşdırmaqdır.

Cəmiyyətdə informasiyalaşdırma prosesi nə qədər tez, nə qədər sürətlə getsə, dövlətimiz və xalqımız dünya dövlətləri və xalqları içərisində bir o qədər geniş inkişaf edər, qabaqcıl dünya sivilizasiyasına qovuşar.

İnformasiyalaşdırma cəmiyyət üzvlərinin, dövlət idarə orqanlarının, yerli özünüidarə orqanlarının, cəmiyyətin bütün sosial strukturlarının, ictimai təşkilatların informasiya ehtiyatlarını formalaşdırmaq və ondan istifadə etmək əsasında informasiya tələbatını ödəmək üçün optimal şərait yaradan, həmçinin bu sahədə vətəndaşların hüququnu həyata keçirən, təşkil edən sosial-iqtisadi və elmi-texniki prosesdir.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilir: "İnformasiyalaşdırma informasiya ehtiyatlarının formalaşması, təqdim edilməsi, istifadə olunması əsasında dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, vətəndaşların informasiya tələbatlarının və bu sahədəki hüquqlarının təmin edilməsinin optimal şəraitinin yaradılması üçün təşkilati, sosial-iqtisadi və elmi-texniki prosesdir".

Görkəmli rus alimi A.İ.Rakitov informasiyalaşdırılmış cəmiyyətin aşağıdakı təxmini xarakteristikasını vermişdir:

- hər bir insan, hər bir təşkilat üçün informasiyanın ümumaçıq olması;
- informasiyanın ümumaçıqlığının real təminatı. İlk növbədə texniki informasiyanın, informasiya texnologiyasının müasir səviyyəyə uyğun şəkildə təşkili;
- informasiyanın istehsalı. Cəmiyyətin bütün sahələrində, müxtəlif istiqamətlər üzrə həyat fəaliyyətini təmin etmək və inkişaf etdirmək üçün lazimi miqdarda informasiya istehsal etmək. Bu işin həyata keçirilməsi elmi əsaslara söykənməli, kompüter texnologiyasından geniş istifadə edilməlidir.

İdarəetmənin informasiya istehsalının və kitabxana informasiya xidmətinin bütün sahələrində yeni informasiya texnologiyasından istifadə edilməli, bütün kitabxana–informasiya xidməti prosesi kompüterləşdirilməlidir.

İnformasiyalaşdırılmış cəmiyyətin əsas göstəricilərindən biri də işləyən əhalinin 50%-dən çoxunun informasiya xidmətindən istifadə edə bilməsi, müasir informasiya texnologiyasından baş çıxarmasıdır. Məhz buna görədir ki,

müasir dövrdə informasiyalaşdırma və mediatirasiya prosesi qlobal xarakter almağa başlamışdır.

Belə bir məsələyə şübhə etməmək olar ki, informasiyanın yüksək inkişaf etdiyi XXI əsr informasiyalaşdırmanı cəmiyyət həyatının bütün sahələrinə tətbiq etməklə elmi-texniki tərəqqinin böyük vüsət almasında əhəmiyyətli yer tutacaq, iqtisadiyyatın, elmin, mədəniyyətin tərəqqisində xüsusi mərhələ təşkil edəcəkdir.

Məhz bu mərhələdə insanların kompüter biliyinə yiyələnməsi, kompüterlə işləmək bacarığı və vərdişi əldə edilməsi mühüm amillərdən biri kimi ortaya çıxır. Cəmiyyətdə kompüterləşdirmə və informasiyalaşdırma mədəniyyətinin təbliği mühüm əhəmiyyət kəsb edir. Bütün bunlar isə cəmiyyətin hər bir üzvünün qarşısında informasiya texnologiyasına yiyələnmək və bu texnologiyadan istifadə etmək vərdişlərinin olmasını tələb edir.

Bütün bunlar cəmiyyətin hər bir üzvünün aşağıdakı imkanlara malik olmasını zəruri edir:

1. Bütün ailələrdə qlobal informasiya şəbəkəsi olan İnternetə qoşulmuş fərdi (şəxsi) kompüterlərin olması.

2. İnformasiya şəbəkələrində fəaliyyətin yeni forması və növünün meydana çıxması.

3. Şəbəkədə iş və ticarət, şəbəkədə istirahət, şəbəkədə əyləncə və yaradıcılıq, şəbəkədə tərbiyə və təhsil, şəbəkədə tibb və s.

4. Cəmiyyətin hər bir üzvünün yaşadığı yerdən asılı olmayaraq ölkədə və xaricdə mövcud olan bütün informasiya mənbələrindən, müəssisələrdən, mərkəzlərdən istifadə etmək imkanının olması.

5. Dünya İnternet sisteminə qoşulmaqla ən yeni informasiyanın əldə edə bilməsi imkanlarına layiq olması.

6. Kütləvi informasiya vasitələrinin fəaliyyətinə, informasiya mənbələrinin açılmasına diqqət yetirilməsi, onlarla informasiya orqanları arasında əlaqələrin genişlənməsinə, inteqrasiyanın təmin edilməsinə diqqət yetirilməsi.

İnformasiyalaşdırılmış cəmiyyət şəraitində, İnternet vasitəsilə bütün coğrafi sərhədlər yox olur, ölkələrin qanunları aradan çıxır, geosiyasi sərhədlər əhəmiyyətini itirir. Bütün cəmiyyət üzvlərinə, bütün insanlara xidmət edən vahid informasiya məkanı meydana çıxır. Bu məkan hamı üçün açıqdır, bu məkandan istifadə etməkdə hamı bərabərdir. İnkişaf etmiş ölkələr informasiya cəmiyyətinə, onun əldə etmiş olduğu imkanlara yüksək inkişaf etmiş cəmiyyətin əsas atributları kimi baxır, iqtisadi, mədəni inkişafın açarı kimi qəbul edir, XXI əsrin gələcəyini bu mühüm problemin müvəffəqiyyətli həllində görür.

Belə bir cəmiyyətin yaranması bütün vətəndaşların işidir. Bu cəmiyyət haqqında onun mahiyyəti, əhəmiyyət və vəzifələri haqqında müntəzəm və ardıcıl olaraq cəmiyyət üzvlərinin bütün təbəqələri arasında məqsədyönlü ardıcıl təbliğat və izahetmə işi aparılmalı, geniş tədbirlər həyata keçirilməlidir.

Cəmiyyətin bütün təbəqələrini əhatə edən işlərin aparılması, onların bu

cəmiyyət haqqında dialoqa cəlb edilməsi bu prosesin kütləvi xarakter alması üçün şərait yarada bilər. Nəticədə informasiyanı qəbul edib, onu ötürməyi, ondan istifadə etməyi, bəhrələnməyi, öz gündəlik fəaliyyətinə, yaşayış tərzinə, məişətinə tətbiq edən, ondan bəhərlənən insanlar qrupu formalaşır ki, bu da informasiyalaşmış cəmiyyətin bünövrəsini qoya bilər. Bu, insanların və cəmiyyətin çoxdan gözlədiyi bir dövrdür. Müasir şəraitdə başlıca vəzifələrdən biri informasiya texnologiyası, onun inkişafı tutur. İnformasiya müasir, inkişaf etmiş, təkmilləşmiş elmi-texniki tərəqqinin inkişafı ilə ayaqlaşan informasiya texnologiyası olmadan, bütövlükdə informasiya işini avtomatlaşdırmadan, kompüterləşdirilmədən, yüksək texnologiyaya malik informasiya mərkəzləri yaratmadan, hər cür informasiyanın mərkəzi və saxlayıcısı olan kitabxanaları kompüterləşdirmədən informasiyalaşdırılmış cəmiyyətdən danışmaq olmaz. Bunlar cəmiyyətdə informasiya prosesi ilə əlaqədar bütün məsələlərin həllinin dövlət siyasəti səviyyəsinə qaldırılmasını tələb edir.

"Respublika" qəzeti. 17 aprel 2002.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli cənab Prezident!

İcazə verin, anadan olmağınızın 79-cu ili münasibəti ilə Sizi ürəkdən təbrik edim.

Sizin xalqımızın tərəqqisi, inkişafı və azadlığı uğrunda necə fədakarcasına çalışdığınızı, xalqın gələcəyi yolunda məşəl kimi yandığınızı gözlərimizlə görmüşük, dərk etmişik. Bütün bu xidmətlərinizə görə Sizə xalq məhəbbəti yaranmışdır.

Möhtərəm cənab Prezident! Respublikamızın iqtisadiyyat, siyasət və mədəni quruculuq sahəsində əldə etdiyi böyük nailiyyətlər Sizin müdrik, ardıcıl, dönməz və prinsipial siyasətinizin nəticəsidir. Biz sadə insanlar sizinlə fəxr edir, Sizin daxili və xarici siyasətinizi dəstəkləyir, müstəqil dövlətimizin möhkəmlənməsi, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, xalqımızın rifahı və işıqlı gələcəyi naminə Sizə dünyada ən qiymətli nemət olan can sağlığı, uzun ömür, böyük müvəffəqiyyətlər arzu edirəm. Qoy, o bir olan Allah Sizin arxanız olsun.

"Azərbaycan yolları" qəzeti. 7 may 2002.

KİTAB ÖZ «ÜNVAN»INA ÇATDIQDA OXUNUR
yaxud
müasir dövrdə kitabxana-nəşriyyat münasibətlərinin bəzi xüsusiyyətləri

Elə bir cəmiyyətdə yaşayırıq ki, informasiyasız keçinmək mümkün deyil. XXI əsri "informasiya əsri" adlandırırlar. İnformasiyalaıdırılmış cəmiyyətin formalaşmasında əsas rol oynayan fəaliyyət növlərindən biri də nəşriyyat və kitabxana sistemləridir. Nəşriyyatlar bilavasitə informasiya daşıyıcısını yaradır - kitab və digər çap məhsulları məcmusu nəşr olunaraq cəmiyyətə təqdim olunur. Kitabxanalar isə cəmiyyət üzvləri arasında informasiyanı yayır, informasiya resurslarını qoruyub saxlayır, onu əsrdən-əsrə, nəsildən-nəsilə ötürür. Mübaliğəsiz demək olar ki, kitabxanalar olmasaydı, neçə əsrlərdən bəri başəriyyətin yaratdığı elmi, mədəni, fəlsəfi, ədəbi-bədii sərvətlər bu günümüzə gəlib çatmazdı. Kitabxanalar xalqın bilik xəzinəsini formalaşdırmaqla bərabər, həm də insanların mütaliəsini, tələbatını öz zəngin fondları hesabına təmin edirlər.

Bu iki informasiya ocağı nəşriyyatlar və kitabxanalar səmərəli fəaliyyət göstərmək, cəmiyyətin informasiya tələbatını lazımınca ödəmək üçün birbirilə yüksək səviyyədə təşkil olunmuş əlaqələrə malik olmalıdırlar. Cəmiyyətin informasiya tələbatının düzgün qiymətləndirilməsi, informasiya daşıyıcılarının öz oxucusunu tapması işi birbaşa bu əlaqələrdən asılıdır.

Lakin təəssüflər olsun ki, indiki şərairdə nəşriyyatlar və kitabxanalar arasındakı qarşılıqlı əlaqə istənilən səviyyədə deyil, Azərbaycan Respublikasında 1999-cu ildə qəbul edilmiş "Kitabxana işi haqqında" və 2000-ci ildə qəbul edilmiş "Nəşriyyat işi haqqında" qanunlar bu əlaqələr üçün gözəl şərait yaratsa da, nə nəşriyyatlar, nə də kitabxanalar bu şəraitdən istifadə edib, birbirilə sıx əlaqə yaratmamışlar.

Bu gün nəşriyyatlar və kitabxanalar arasındakı əlaqələrdə ən böyük problem nəşr olunmuş kitabların kitabxana fondlarına düşməməsidir. Həm "Kitabxana işi haqqında", həm də "Nəşriyyat işi haqqında" qanunda göstərilir ki, ölkədə fəaliyyət göstərən dövlət və qeyri-dövlət nəşriyyatları çap etdikləri hər bir kitab və ya digər çap məhsulundan müəyyən sayda məcburi nüsxələri pulsuz olaraq kitabxanalara göndərməlidirlər. Lakin nışriyyatlar bu nüsxələri kitabxanalara göndərmək işinə məsuliyyətsiz yanaşır, kitabxanalar isə məcburi nüsxələrlə maraqlanmırlar.

Nəşr olunan kitablar mütləq kitabxanalara verilməlidir. Qoy kitabxanalar onları öz fondlarında əbədiləşdirsin, gələcək nəsillərə yadigar saxlasın. Əgər kitablar kitabxanaların fonduna düşməsə, onların yaşaması, gələcək nəsillərə yadigar olaraq keçməsi mümkün olmayacaq. Millətinin, xalqının gələcəyi qeydinə qalan hər bir ziyalı, kitab müəllifi, nəşriyyat işçisi bunu bilməlidir. Bu, onun vətəndaşlıq borcudur.

"Kitabxana işi haqqında" qanunda respublikamızın 10 kitabxanasına –

Respublika Milli Kitabxanasına, Respublika Milli Məclisinin Kitabxanasına, Respublika Elmi-Texniki Kitabxanasına, Respublika Tibb Kitabxanasına, Respublika Kənd Təsərrüfatı Kitabxanasına, Respublika Uşaq Kitabxanasına, Respublika Gənclər Kitabxanasına, Respublika Elmi-Pedaqoji Kitabxanasına, Respublika Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasına, Baki Dövlət Universitetinin Elmi Kitabxanasına pulsuz məcburi nüsxələr verilməsi nəzərdə tutulmuşdur. Bütün bu kitabxanalara cəmi 22 nüsxə kitab verilməlidir. Bu nüsxələri ayırmaq nışriyyatlar üçün heç bir maliyyə çətinliyi törətməz. Nəticədə, mədəniyyətimiz qazanar, xalqımızın milli sərvəti olan kitabxanalar zənginləşər.

Nəşriyyatlar çap etdiyi kitabların cəmiyyət arasında yayılmasında maraqlı olmalıdırlar. Kitab xalqın, millətin mənəvi sərvəti, gələcəyidir. Hamının istifadə edə bilməsi üçün isə ən sadə yol kitabın kitabxana fondlarına düşməsidir. Hələ XX əsrin əvvələrində xalqın maarifləmməsi işində xüsusi xidmətləri olan "Orucov qardaşları"nın mətbəəsi nəşr etdikləri əsərlərdən kitabxanalara hədiyyə verirdilər. Elə bunun nəticəsidir ki, həmin dövrdə nəşr olunmuş kitablar bu günümüzə qədər gəlib çatmışdır və "Orucov qardaşları" indi də xoş duyğularala yad edilir. Müasir dövrdə nəşriyyatlar nəinki kitab hədiyyələri, heç məcburi nüsxələri belə kitabxanalara təqdim etmirlər.

Keçmiş sovetlər məkanında bütün nışriyyatlar dövlətə məxsus olduğundan, nəşriyyata rəhbərlik edən dövlət qurumları illik nəşriyyat planları tərtib edir, bu planları kitabxanalarda və digər ideoloji müəssisələrdə müzakirə edir, onun tirajını müəyyənləşdirirlər. İndi respublikamızda 100-ə yaxın nəşriyyat fəaliyyət göstərir ki, onların da əksəriyyəti özəl nəşriyyatlardır. Bələliklə, faktiki olaraq dövlət nəşriyyatların böyük əksəriyyətinin idarə olunmasında iştirak etmir. Onlar bazar iqtisadiyyatının qanunlarına müvafiq olaraq nə istəyirlər, onu da nəşr edirlər. Kitabların tirajının müəyyənləşdirilməsində də heç bir qanunauyğunluq, oxucu tələbatı nəzərə alınmır. Ən böyük bəla isə kitabların oxuculara çatdırılmamasıdır. Bakıda və rayonlarımızda böyük şəbəkələri olan kitab mağazalarının, demək olar ki, böyük əksəriyyəti ləğv edilmiş, qalan mağazalar isə kiçik binalara köçürülmüşdür. Təəssüf ki, həmin az saylı kitab mağazaları ilə nəşriyyatların əlaqəsi yoxdur. Belə bir şəraitdə nəşr olunan kitab geniş oxucu kütləsinə gedib çatmır.

Kitabı geniş oxucu kütləsi arasında geniş yayan və başəriyyətin yaddaşı hesab edilən kitabxanalar da kitab almağa ayrılan vəsaitin azlığı üzündən onları almaqdan məhrumdurlar. Nəşr olunan kitablar mütləq kitabxanalara verilməlidir. Qoy kitabxanalar onları öz fondlarında əbədiləşdirsin, gələcək nəsillərə yadigar saxlasın. Əgər kitablar kitabxanaların fonduna düşməsə, onların yaşaması, gələcək nəsillərə yadigar olaraq keçməsi mümkün olmayacaq. Millətinin, xalqının gələcəyi qeydinə qalan hər bir ziyalı, kitab müəllifi, nəşriyyat işçisi bunu bilməlidir. Bu, onun vətəndaşlıq borcudur.

Hazırki şəraitdə kitabxanaların əksəriyyətinin nəşr olunmuş kitablar haqqında məlumatları olmur. Təəssüfləndirici hallardan biri də respublikada

kitab nəşr statistikasının aparılmamasıdır. Ölkədə istehsal olunan bütün məhsulların uçotu aparılsa da, ildə nə qədər kitabın nəşr olunduğu barədə məlumat yoxdur.

Dövlət Statistika komitəsinin rəsmi nəşri olan "Müstəqil Azərbaycan" - 10 (İndepended Azerbaydjan - 10) toplusunda (Bakı, "Səda" nəşriyyatı, 2001) kitab istehsalı haqqında məlumata rast gəlmədik. Ona görə də, kitabxanalar öz fondlarını konkretləşdirmək üçün yeni kitablar əldə edə bilmirlər.

Mədəniyyət Nazirliyinin tabeliyinə verilmiş Kitabxana Kollektoru işini elə qurmalıdır ki, kitablar respublikanın bütün kitabxanalar şəbəkəsinə yayıla bilsin.

Məcburi nüsxələrin kitabxana fondlarına düşməməsində məcburi nüsxə almaq hüquqi olan kitabxanalar da günahkardırlar. Kitabxanaların komplektləşdirmə şöbələri belə nüsxələrin əldə edilməsinə heç bir cəhd göstərmirlər. Yaxşı olar ki, məcburi nüsxə almaq hüququ olan hər bir kitabxanada xüsusi qurumlar yaradılsın ki, bu qurumlar vaxtaşırı olaraq nəşriyyatlarla əlaqə saxlasın, nəşr olunmuş kitab və digər çap məhsullarını nəşriyyatlardan alaraq kitabxanalara təqdim etsin. Belə olan təqdirdə hər bir kitab kitabxana fondlarına düşər, xalqın istifadəsinə verilər.

Kitabxanalarla əlaqələrin zəifliyi nəşriyyatlar üçün bir sıra problemlər yaradır. Məlumdur ki, kitabxanalar mədəniyyətin mühüm və ayrılmaz bir sahəsidir. Hər gün minlərlə insan bu mədəniyyət ocağından istifadə edir, informasiya toplayır, naşirlər məhz kitabxanalarda oxucularla ünsiyyət qurur, onları maraqlandıran ədəbiyyatı müəyyənləşdirə bilirlər. Bunun üçün nəşriyyatlar vaxtaşırı kitabxanalarda təqdiqatlar aparmalı, sorğu anketlərindən istifadə etməklə oxucu tələbatını müəyyənləşdirməlidirlər. Apardığımız müşahidələrə görə, heç bir nəşriyyat kitabxanalarda belə sosioloji tədqiqat aparmamışdır. Halbuki belə tədqiqatları aparmaq üçün manea yoxdur və heç bir maliyyə vəsaiti də tələb olunmur.

Kitabxanalar həmçinin nəşriyyatların marketinq fəaliyyətinin qurulmasında və çap məhsullarının reklamında da böyük rol oynaya bilər. Çünki reklam vasitələrindən (məsələn, qəzet, jurnal, televiziya, radio və s.) fərqli olaraq bura yalnız kitabsevərlər gəlir. Digər tərəfdən bu gün maliyyə ehtiyatları heç də ürəkaçan olmayan nəşriyyatlar üçün kitabxanalarda öz kitablarını reklam etmək çox sərfəlidir. Kitab sərgiləri, afişalar, plakatlar və s. vasitəsilə uğurlu reklam işi aparmaq olar.

Kitabxanalarla əlaqələrin zəif olması nəticəsində nəşriyyatlarla oxucular arasında ünsiyyət qurulmur və buna görə oxucu tələbatı düzgün qiymətləndirilmir.

İnformasiyalaşdırılmış cəmiyyətin formalaşmasında hər bir informasiya yayan, qoruyub mühafizə edən, ondan hamının istifadəsini təşkil edən müəssisələr öz fəaliyyətlərini düzgün qurmalıdırlar. Belə olarsa, əhali ona lazım olan informasiyanı istənilən vaxt əldə edə bilər.

"Azərbaycan" qəzeti. 7 iyul 2002.

XALQIN ETİMADI İLƏ UCALAN TƏŞKİLAT

Son illərdə dövlətçiliyimizin möhkəmlənməsi, hüquqi, demokratik, dünyəvi dövlətin qurulması, milli ideologiyamızın yaranması, öz soy kökümüzə qayıdışın formalaşması, iqtisadiyyatın, mədəniyyətin inkişafı, əhalinin sosial vəziyyətinin yaxşılaşması sahəsində tarixi əhəmiyyətə malik olan mühüm hadisələr baş vermiş, neft sahəsində "Əsrin müqaviləsi" imzalanmış, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişinin əsası qoyulmuş, Xəzər dənizinin statusu müəyyənləşdirilmişdir. Ordu quruculuğunda ölkəmizin əldə etdiyi nailiyyətlər bir neçə onilliklərə bərabərdir. Azərbaycan ordusu vahid komandanlığa tabe olan və beynəlxalq tələblərə cavab verən mətin bir ordu kimi formalaşmışdır. Beynəlxalq siyasətdə əldə edilən uğurlar, ölkəmizin Avropa Şurasına qəbul edilməsi, dünya diplomatiyasında özünəməxsus yer tutması göstərilən müvəffəqiyyətlərin rəhnidir.

Məlum həqiqətdir ki, görülən bu fundamental işlərin təşkilində, aparılmasında və başa çatdırılmasında iqtidar partiyası olan Yeni Azərbaycan Partiyasının böyük və həlledici xidmətləri vardır. Partiya görülən bu həyati əhəmiyyətli işlərdə fəal iştirak etmişdir. Onların həyata keçirilməsi prosesində püxtələşmiş, inkişaf etmiş, yetkinləşmiş, öz sıralarında 300 min insanı təmsil edən bir partiyaya çevrilmişdir.

Bəs Yeni Azərbaycan Partiyası qısa zaman kəsiyində bu qədər böyük nailiyyətlərə necə nail olmuşdur? Hec kəsə sirr deyil ki, bu bilavasitə partiyanın sədri Heydər Əliyev fenomeni ilə əlaqədardır. Görkəmli dövlət xadimi, nadir istedad, böyük intellektə malik olan Heydər Əliyev ilk günlərdən bu partiyanın sükanı arxasında olmuş, onu idarə etmiş, iərəliyə doğru aparmış, onun strukturunun möhkəmlənməsinə, yeni idarəetmə üsullarına və formalarına yiyələnməsinə təkan vermişdir. Cənab Heydər Əliyev tərəfindən hazırlanmış proqramı rəhbər tutan partiya öz fəaliyyətini bilavasitə Azərbaycan xalqının maddi rifah halının yüksəldilməsinə, ölkəmizdə demokratiyanın inkişaf etdirilməsinə yönəltmişdir. Məhz buna görədir ki, partiya az müddət ərzində xalqın böyük hörmətini və etimadını qazanmışdır. Heydər Əliyev tərəfindən yaradılan və idarə edilən bu partiyanın sükanı arxasında olmuş, onu idarə etmiş, irəliyə doğru aparmış, onun strukturunun möhkəmləndirilməsinə, yeni idarətmə üsullarına və formalarına yiyələnməsinə təkan vermişdir. Cənab Heydər Əliyev tərəfindən hazırlanmış proqramı rəhbər tutan partiya öz fəaliyyətini bilavasitə Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə, Azərbaycan xalqının maddi rifah halının yüksəldilməsinə, ölkəmizdə demokratiyanın inkişaf etdirilməsinə yönəltmişdir. Məhz buna görədir ki, partiya az müddət ərzində xalqın böyük hörmətini və etmadını qazanmışdır. Heydər Əliyev tərəfindən yaradılan və idarə edilən bu partiyanın sıraları sürətlə artmağa başlamışdır. Yaxın dövr ərzində bu partiyanın üzvlərinin sayının 300 min nəfərə çatması dediklərinə sübutdur. Cəmiyyətimizin ən yaxşı nümayəndələrinin – vətənini, xalqını sonsuz məhəbbətlə sevən insanların bu partiyanın üzvləri sırasına daxil olması YAP-ın əhali arasındakı nüfuzunu təsdiqləyir. Partiya üzvlərinin tərkibi göstərir ki, onun sıra-

larında yüksək intellektə malik olan ziyalılar çoxdur. Respublikamızın ən görkəmli ziyalıları, yaradıcı adamları və alimləri bu partiyanın üzvüdür. Ümumiyyətlə götürdükdə, partiyanın üzvləri arasında ziyalıların çoxluq təşkil etməsi onu böyük intellekt səviyyəsində olan bir partiya kimi xarakterizə edir.

Partiyanın say tərkibini təhlil edərkən belə bir həqiqət də ortaya çıxır ki, üzvlərin əksəriyyəti gənclərdir. Partiya sıralarında say tərkibinin onun gələcəkdə də ən nüfuzlu partiya olacağını söyləməyə imkan verir. Gənclərin bu partiyaya meylinin çoxalmasında son zamanlar cəmiyyətimizdə görkəmli diplomat, bacarıqlı dövlət xadimi kimi məhşurlaşan İlham Əliyevin partiya sədrinin birinci müavini vəzifəsinə seçilməsinin böyük rolu olmuşdur. İlham Əliyevin Milli Məclisin deputatı, Neft Şirkətinin birinxi vitse-Prezidenti, respublika Olimpiya komitəsinin sədri, AŞ PA-da Azərbaycan parlament nümayəndə heyətinin rəhbəri kimi apardığı böyük işlər, milli dövlətçiliyimizin möhkəmlənməsi istiqamətində uğurlu fəaliyyəti onu xalqımızın, xüsusilə gənclyimizin sevimlisinə çevirmiş, gənclərin İlham Əliyev siyasətinə böyük hörmət bəsləməsinə gətirib çıxarmışdır. Bütün bunlar öz növbəsində gənclərin Yeni Azərbaycan Partiyasına gəlməsinə böyük və həlledici təsir göstərmişdir.

Yeni Azərbaycan Partiyasının, ilk növbədə bu siyasi qurumun lideri, dövlətimizin başçısı Heydər Əliyevin illərdən bəri uzanan Dağlıq Qarabağ probleminin sülh yolu ilə nizama salınması istiqamətində atdığı uğurlu addımlar beynəlxalq aləmdə və ölkə daxilində çox böyük rəğbətlə qarşılanmışdır. Məhz onun müdrik siyasəti nəticəsində 1994-cü ildən bəri Ermənistan-Azərbaycan cəbhəsində atəşkəs elan olunmuş, problemin həlli istiqamətində müxtəlif səviyyələrdə danışıqlar aparılmağa başlanmışdır. Ötən illər ərzində aparılmış ikitərəfli və çoxtərəfli müzakirələr, həmçinin ATƏT xətti ilə görülən tədbirlər belə demək üçün əsas verir ki, düşmən qəsb etdiyi Azərbaycan torpaqlarından tezliklə çəkilib getməlidir. Əgər belə olmasa, onda ali baş komandanın bu günlərdə ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşü zamanı dediyi kimi Azərbaycan xalqı öz torpaqlarını erməni işğalından azad etmək üçün qəti mübarizəyə başlayacaq və düşməni qovub çıxarmağa nail olacaqdır.

Əlbəttə, bu taleyüklü məsələlərdə də xalqımız qətiyyətlə Yeni Azərbaycan Partiyasının lideri Heydər Əliyevi dəstəkləyir. Çünki, məhz o, Azərbaycanı bəlalardan xilas etməyə və işıqlı gələcəyə aparmağa qadir olan nadir tarixi şəxsiyyətdir.

Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyəti belə demək üçün əsas verir ki, o, ölkəmizin və xalqımızın istər daxili, istərsə də xarici siyasətdə qazandığı nailiyyətlərin şəriksiz təşəbbüskarı, təşkilatçısı, icraçısıdır. Müstəqil Azərbaycan dövlətinin xoşbəxt gələcəyi Yeni Azərbaycan Partiyasının məqsədyönlü fəaliyyəti ilə bağlıdır. Mən də bütün xalqımız kimi, Yeni Azərbaycan Partiyasının onillik fəaliyyətinə yüksək qiymət verir, onu dəstəkləyir, müstəqil respublikamızın daha da inkişafı, tərəqqisi naminə fəaliyyətində bu siyasi quruma yeni-yeni uğurlar arzulayıram.

"Azərbaycan" qəzeti. 20 noyabr 2002.

AZƏRBAYCANI BUNDAN SONRA DA İŞIQLI GƏLƏCƏYƏ YALNIZ YENİ AZƏRBAYCAN PARTİYASI APARA BİLƏR

Deyirlər həyatın ölçüsü onun uzunluğunda deyil, necə istifadə edilməsindədir. Doqquz il Azərbaycanı hakimiyyətdə təmsil edən Yeni Azərbaycan Partiyası artıq yaranmasının 10-cu ildönümünü qeyd edir. On il uzaq keçmiş olmadığından bu qısa zaman kəsiyində baş verən hadisələr xalqımıza gün kimi aydındır. Bu 10 ilin vaxt axarında Azərbaycan xalqının səlnaməsi böyük tarixi hadisələrlə zənginləşmiş və millətimizin övladlarının hafizəsindən heç zaman silinməyəcək unudulmaz günlər kimi yaddaşlara əbədi həkk olunmuşdur. Yeni Azərbaycan Partiyasısının yubileyin ürəkdən sevinən insanların icərisində ziyalılarımızın çoxluq təşkil edilməsi şəksizdir. Belə əsl ziyalılarımızdan biri də Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor, əməkdar elm xadimi Abuzər Xələfovdur.

- Abuzər müəllim, bu yaxınlarda yubileyini qeyd edəcək YAP-ın keçdiyi bu on ili bir ziyalı kimi necə görürsünüz?

- Tarixi zaman çərçivəsində on il o qədər də böyük dövr deyil. Ancaq elə dövrlər, zamanlar olur ki, çox illərin, hətta əsrin həll edə bilmədiyi məsələlərin həllinə nail olur. Mən sözün əsl mənasında Yeni Azərbaycan Partiyasının 10 illiyini ikincilərə aid edirəm. Doğrudan da, bu partiya kiçik bir zaman çərçivəsində çox yüksək nailiyyətlər əldə edib və böyük işlər görüb.

Düşünürəm ki, yeni yaranmış bir partiya 10 il müddətində o qədər böyük işləri, tarixi məsələləri necə həll edib? Hesab edirəm ki, bu bilavasitə respublikamızın Prezidenti Heydər Əliyevin fenomenliyi ilə bağlıdır. Çünki bu partiyanın sədri, böyük idarəçilik təcrübəsi olan, xalqını, millətini ürəkdən sevən dahi insan Heydər Əliyev şəxsiyyətinin bilavasitə göstərişini həyata keçirir. Bu partiyanın proqramının memarı da məhz Heydər Əliyevdir.

YAP-ın proqramının həyata keçirilməsi, dövlətçiliyimizin formalaşması, Azərbaycan dilinin dövlət dili səviyyəsinə yüksəlməsi, millətimizin inkişaf istiqamətini müəyyənləşdirən milli ideologiyanın formalaşması, iqtisadiyyatımızın güçlənməsi və ordu quruculuğunun möhkəmlənməsi YAP-ın adı ilə və gördüyü işlərlə bağlıdır.

On il bundan öncə AXCP-Musavat müttəfiqliyinin hakimiyyəti dövründə ölkədə yaranmış anarxiya, daxili çəkişmələr, krimnogen vəziyyət və Azərbaycanın parçalanmaq təhlükəsi hamımızın xatirindədir. O zaman insanlar həyəcan icərisində yaşayırdı, küçələrdən tez-tez atəş səsləri eşidilirdi. Vəziyyət o yerə gəlib çıxmışdı ki, evindən çıxan insanların geri qayıtmaq ümidi yox idi. Bütün bu anarxiyanın o cümlədən neqativ halların, qarşısını hörmətli Prezidentimiz Heydər Əliyev və onun yaratdığı, həmçinin rəhbərliyi ilə işləyən YAP adlı partiya yaradıldı və Azərbaycanın perspektivli gələcəyi üçün iqtisadi amillər nəzərdən keçirildi, neft sazişləri imzalandı və həyata vəsiqə aldı.

Ötən günlərə qısa nəzər salanda görürük ki, indiki Azərbaycan 10 il bundan əvvəlki deyil. Hazırda respublikamızda təhsilin səviyyəsi, iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, ordu quruculuğu böyük inkişaf yolu keçib. Baxmayaraq ki, Qarabağ problemi inkişafımıza zərbə vurur, belə çətin şəraitdə YAP-ın köməkliyi ilə ölkəmizdə yenə də yüksək nailiyyətlər əldə edilib.

- Professor, Bakı Dövlət Universiteti YAP-ın 10 illiyini hansı səviyyədə qarşılayır?

- Sizin sualınıza cavab olaraq bildirim ki, əgər YAP-ın son dövrdəki nailiyyətlərini müxtəlif sahələrdə olduğu kimi burada da görmək istəyirsənsə, Bakı Dövlət Universitetinə gəl. BDU-da Yeni Azərbaycan Partiyasının rəhbərliyi ilə, möhtərəm Heydər Əliyevin qayğısı, onun böyük hörməti, bu təhsil ocağını Azərbaycan xalqının milli sərvəti adlandırılması və burada görülən bütün işlərin nəticəsi olaraq universitetimizin siması tamamilə dəyişib.

Mən 50 il bu universitetdə çalışan bir insan kimi qəlbimin döyüntülərinə inanaraq deyirəm ki, bir neçə 10 illiyin əldə edə bilmədiyini BDU, bu 10 ildə həyata keçirib. BDU bu 10 ildə böyük inkişaf yolu keçərək hazırda dünya standartları səviyyəsinə uyğun təhsil ocağına çevrilib. Respublikamızda fəaliyyət göstərən "Heydər Əliyev məktəbi" ilk dəfə BDU-da yaranıb. Bu məktəbdə hər ay Heydər Əliyev siyasətinin digər aspektləri müzakirə olunur, onun inkişafı üçün kollektiv öz qüvvəsini səfərbər edib. "Heydər Əliyev məktəbi" işinin gedişi YAP-ın birbaşa rəhbərliyi, onun istiqaməti ilə həyata keçirilir.

- BDU-nun hazırkı inkişaf prossesini ötən 10 illiklərlə necə müqayisə edərdiniz?

Mən 1950-ci ildə BDU-nun tələbəsi olmuşam, indi professoram. Universitetimizin hazırkı təhcizat şəraiti şahid olduğum illərin heç birində olmayıb. Xarici ölkələrdən BDU-ya gələn qonaqlar həsəd aparırlar ki, sizin belə yüksək səviyyədə təhcizat şəraiti olan universitetiniz var. BDU-nun maddi-texniki bazasının möhkəmləndirilməsi nəinki Azərbaycanda hətta dünyanın digər ölkələrinin təhsil ocaqlarında olmayan idman bazasının yaradılması son illərin uğurlarıdır.

BDU-da tədrisin keyfiyyətində də müvəffəqiyyətlər əldə olunub. Müstəqilliyimizə qədər universitetdə dərslik demək olar ki, yox dərəcəsində idisə, indi 10-larla dərsliklər yaranıb. Siz bilirsiniz ki, dərslik tədrisin canı deməkdir və dərsliksiz təlabə hazırlamaq da mümkün deyil.

Mən tələbə olnada görürdümki rus qrupunun tələbələri Azərbaycan qrupuna nisbətən çox yaxşı oxuyurdu. Sonradan bunun səbəblərini araşdırarkən belə nəticəyə gəldim ki, o zaman dərsliklər rus dilində olduğundan onların oxumaq üçün kitabları var idi. Azərbaycan qrupunun isə dırsliklərı yox idi. Universitetimizin nəşriyyatı hər il çoxlu dərsliklər, dərs vəsaitləri, 200-300 adda proqramlar çap edir, bu da tədrisin keyfiyyətini qaldırmaq üçün ən mühüm amillərdən biridir.

Universitetimizin rəhbəri, böyük dünya görüşünə malik, yaxşı alim,

prezdentin siyasətinin yüksək səviyyədə təbliğini həyata keçirən millət vəkili, AMEA-nın müxbir üzvü, professor Abel Məhərrəmov BDU-da demək olar ki, çevriliş yaradıb. O, universitetin maddi-texniki bazasının möhkəmləndirilməsində, tədrisin keyfiyyətinin yüksəldilməsində, müəllimlərin monoqrafiyalarının, dərsliklərinin, dərs vəsaitlərinin çap edilməsində, tələbələrin özünün tədrisə münasibətlərinin dəyişməsində böyük bir sistem yaradıb.

YAP-ın 10 illiyi ilə əlaqədar BDU-da iki obyektin aşılışı oldu. Birincisi, universitetin elmi-tədqiqat işi elə bir cihaz yaradıbdır ki, ondan hazırda keçmiş SSRİ deyilən məkanda və dünyanın ayrı-ayrı dövlətlərinin elm ocaqlarında yoxdur. İkincisi, 250 nəfərlik oxu zalı istifadəyə verilib. Bu zalda bütün dərsliklər, dərs vəsaitləri elektron kataloqa salınıb. Tələbə zala daxil olan kimi ona lazım olan kitabın burada olub-olmadığını kompüterdən öyrənir və orada sərbəst oturub oxuyur.

- Abuzər müəllim, universitetinizin tələbələrinin hakim partiyaya münasibətini necə hiss edirsiniz?

- Gələcəyin ziyalıları hiss edilən tələbələr obyektiv və çevik düşüncə tərzinə malikdirlər. Bunun üçün də onlar partiyaları müqayisə etməkdə, əhəmiyyətini başa düşməkdə və fəaliyyətini aydın anlamaqda çətinlik çəkmirlər. Tələbələr dərk edirlər ki, YAP onların maddi-mənəvi vəziyyəti, təhsillərinin, rifahlarının gündən-günə yaxşılaşmasına şərait yaradan partiyadır. Elə bu və ya digər səbəblərə görə gənclərin partiyaya böyük axını əmələ gəlib. Bundan başqa, YAP-ın I müavini, millət vəkili İlham Əliyevi gənclər çox sevir. İndi deyəcəksiniz ki, Abuzər müəllim bunu siz hardan bilirsiniz? Bir dəfə universitetimizdə İlham Əliyevlə tələbələrimizin görüşü keçirildi. İlham Əliyevin tələbələrlə necə görüşməsi və danışması məni də maraqlandırdığı üçün orada iştirak etdim. Rektor görüşün açılışını qeyd edəndən sonra 700 tələbənin toplaşdığı bu zalda İlham Əliyev bir saat yarım çıxış etdi. Tam demokratik keçən bu görüş zamanı zalın hər tərəfində mikrafon var idi və kim hansı sualı istıyirdisə heç bir manea olmadan verirdi. Həmin görüşdə 3 saata yaxın sual-cavab oldu. İnanın ki, o, elə gözəl təmkinli, bacarıqlı, sanballı tələbələrin suallarına cavab verirdi ki, onlar sanki, İlham Əliyevlə öz həmyaşıdları kimi danışırdılar. Digər tərəfdən, İlham Əliyevin olimpiya hərakatı onu gənclərin sevimlisinə çevirmiş və respublikamızın idmançılarının yüksək müvəffəqiyyətlər əldə etməsinə dünyanın ayrı-ayrı regionalarında bayrağımızın zirvələrdə dalğalanmasına, himnimizin səslənməsinə nail olublar. Bunun üçün də gənclərin YAP-a axını çox sevindirici haldır.

- Müxalifətin YAP-ın yubileyində iştirak edib-etməməsinə necə baxırsınız?

- Mən möhtərəm Heydər Əliyevin bütün çıxışlarını izləyirəm və o, həmişə deyir ki, müxalifət xalqın bir hissəsidir. Heydər Əliyev istəyir ki, müxalifət yubileydə iştirak etsin. Lakin müxalifətin bu günə qədər formalaşa bilməməsi, həqiqəti düzgün dərk etmək istəməməsi, obyektiv olmaması bir ziyalı kimi məni təəssüfləndirir. Sizi əmin edirəm ki, onlar istəsələr bu yubileydə iştirak edə bilərlər.

Xalqın böyük oğlu Heydər Əliyev ölkəmiz üçün çox işlər görüb. Müxalifətin görülən bütün işləri və müvəffəqiyyətləri etiraf etsə nüfuzu artar. Axı, ən yaxşısı həqiqəti etiraf etməkdir. Həqiqət də göz qabağındadır, siyasətdə, iqtisadiyyatda, ordu quruculuğunda və beynəlxalq vəziyyətdə. Arzu edirəm ki, müxalifət müvəffəqiyyətləri görməyi bacarsın və etiraf etsin.

- Abuzər müəllim, YAP-a bu məhsuliyyəti və şərəfli yolda arzunuz?

- "Ulu Azərbaycan" qəzeti vasitəsilə Yeni Azərbaycan Partiyasını 10 illik yubileyi münasibətilə təbrik edir, onlara daha da yüksək nailiyyətlər və müvəffəqiyyətlər arzulayıram. Ümidvaram ki, YAP Azərbaycanın dilbər güşəsi olan Qarabağın azad olunmasına da nail olacaq və növbəti yubileylərini orada qeyd edəcək. Hesab edirəm ki, Azərbaycanı bundan sonra da işıqlı gələcəyə yalnız YAP apara bilər.

- Müsahibə üçün təşəkkür edirəm.

- Sağ olun.

"Azərbaycan" qəzeti. 21 noyabr 2002.

QƏDİM KİTAB MƏBƏDİNƏ YENİ HƏYAT VERİLDİ

Norveçli kitabxana memarı Snohetta və onun avstriyalı həmkarı Kristof Kopeller 2 era bundan əvvəl İsgəndəriyyə şəhərində ucaldılmış bu tikintinin quruluşundan heyrətləndiklərini gizlətmədilər. Qeyd edək ki, ətrafdakı köhnəlmiş evlərin fonunda gözqamaşdırıcı şüşəli kitabxana Aralıq dənizinə doğru istiqamətləndirilmiş və günəş formasındadır. Bu elmin, biliyin rəmzidir. Aralıq dənizinin dibində aparılan arxeoloji axtarışlar hələ də davam edir. Arxeoloqlar orada 1600 il əvvəl yaradılıb sonradan yerlə yeksan edilmiş kitabxana sərvətlərinin qalıqlarını toplamaq ümidindədirlər.

Oktyabrın 17-də kitabxananın yeni binasının inaqurasiyası mərasimi keçirildi. Kitabxananın həyətində keçirilmiş mərasimdə dünyanın, demək olar ki, əksər ölkələrindən gəlmiş kitabxanaçılar, ictimai xadimlər, alimlər, mətbuat nümayəndələri və başqaları, ümumiyyətlə, 1000 nəfərdən çox qonaq iştirak edirdi.

Mərasimi İsgəndəriyyə Kitabxanasının direktoru İsmayıl Serageldin açaraq iştirakçıları və qonaqları salamladı. O, kitabxananın fəaliyyəti və görülən işlər haqqında məlumat verdi.

Məlumat üçün bildirək ki, təxminən 2300 il bundan qabaq məşhur fateh makedoniyalı İsgəndər Misiri fəth etmiş, Nil çayı sahilində İsgəndəriyyə adlı yeni şəhər saldırmışdır. İsgəndərin ölümündən sonra I Ptolomey bu şəhərdə museyon adlanan əzəmətli bina tikdirmişdir. Rəsədxana müəllimlər üçün otaqlar, mühazirə oxumaq və elmi iş aparmaq üçün ayrılan zallarla yanaşı, məşhur yunan alimi Demetri Falerlinin təşəbbüsü ilə eradan əvvəl III əsrin əvvəllərində burada böyük bir kitabxana binası da tikilmişdi.

O vaxtdan etibarən bütün Misir çarları İsgəndəriyyə Kitabxanası fondunun zənginləşməsi üçün külli miqdarda vəsait xərcləmişdilər. Eratosfen, Zenodot, Kallimax və başqa görkəmli alimlər İsgəndəriyyə Kitabxanasında işləmişlər. İsgəndəriyyə kitabxanası təxminən 10 əsr, yəni e.ə III əsrdən eramızın VIII əsrinə qədər bəşəriyyətə xidmət göstərmiş, dünya mədəniyyətinin və elminin inkişafına böyük töhfələr vermişdir.

Muzey və kitabxana bir neçə dəfə, o cümlədən e.ə 47-ci ildə, eramızın 273-cü ilində yandırılmış, sonralar bərpa olunmuşdur. Bu gün tarixçilər onun məhv edilməsi vaxtını dəqiq müəyyənləşdirə bilməsələr də, İsgəndəriyyə Kitabxanasının yenidən bərpası üçün son əsrdə ciddi cəhdlər göstərilmişdir.

Belə ki, 1980-ci illərdən başlayaraq İsgəndəriyyə Kitabxanasının dünya mədəniyyəti, elmi və təhsili üçün fövqəladə əhəmiyyəti nəzərə alınaraq, Misir hökumətinin xüsusi proqramı və YUNESKO-nun ayırdığı vəsait hesabına yenidən çiçəklənməsi və beynəlxalq əhəmiyyətli kitabxana kimi bərpası üzrə işlər başlanmışdır. Kitabxananın yenidən bərpası üzrə proqram 20 illik müddəti əhatə etmiş və bu il oktyabr ayının 17-də yeni möhtəşəm İsgəndəriyyə Kitabxanasının təntənəli açılış mərasimi ilə nəticələnmişdir.

85.405 m sahəni əhatə edən, 33 metr hündürlüyü olan 11 mərtəbəli bu binada hazırda 240000 nüsxə kitab saxlanılır və fondun sayının 8000000 nüsxəyə qədər artırılmasına geniş imkanlar var.

Kitabxanada kompüter vasitəsilə istifadə edilən məlumat bazaları və İNTERNET-ə geniş texniki imkanlı çıxış vardır. Kitabxana kompleksinə aşağıdakılar daxildir: əsas kitabxana, Gənclər Kitabxanası, elm muzeyi, xəttatlıq muzeyi, konversiya və bərpa lobaratoriyası, İsgəndəriyyə konfrans mərkəzi, çoxməqsədli otaqlar və sərgi sahəsi.

Kitabxananın hamilər şurası vardır. Şuranın sədri Prezident Hüsnü Mübarəkdir. Şuraya Fransa Prezidenti, İspaniya şəhzadəsi və bir çox beynəlxalq miqyasda tanınan şəxslər daxildir.

Rektorlar şurasına isə xanım Suzanna Mübarək başçılıq edir. İsgəndəriyyə Kitabxanasında çalışan işçilərin çoxu kişilərdir. İsgəndəriyyə kitabxanasının və dünyanın başqa məşhur kitabxanalarının təcrübəsi göstərir ki kitabxanacılıq həm də əsl kişi peşəsidir və bizdə də bu sahədə dönüş aparılmalıdır. İndi fəxrlə deyə bilərəm ki, İsgəndəriyyə Kitabxanasına hədiyyə olaraq bağışladığım 4 kitab fondda öz yerini tutacaqdır.

Səfərimin yekunu ilə bağlı bu qənaətdəyəm ki,23 əsr bundan əvvəl yaradılan, 10 əsr bəşəriyyətə xidmət göstərən İsgəndəriyyə Kitabxanasının 13 əsrdən sonra yenidən bərpa olunması və oxucuların istifadəsinə verilməsi çox əhəmiyyətli bir hadisədir. Bu qədim kitabxananın külü üzərində yeni güllər bitmiş o, özünün zəngin kitab sərvətini dünya xalqlarının istifadəsinə vermişdir. İsgəndəriyyə Kitabxanası təkcə bir xalqın bir millətin deyil, bütün dünyanın, butun millətlərin zəngin mədəni sərvətləridir. Misir Ərəb Respublikasının Prezidenti Hüsni Mübarəkin mədəniyyətə, kitabxana işinə sonsuz qayğısı dünyanın başqa xalqları və ölkələri üçün örnək olmalıdır. Çunki kitabxana

cəmiyyətin inkişfının ən əsas göstəricilərindən biridir.

İrəlidə qeyd etdiyimiz kimi İsgəndəriyyə Kitabxanası yalnız bir ölkəyə, bir xalqa bir mədəniyyətə deyil, bütövlükdə bəşəriyyətə məxsusdur. Ən qədim dövrlərdə belə orada dünyanin her yerindən gətirilən kitablar toplanmışdı.Belə ki, tarixdən məlum olduğu kimi İsgəndərliyyə qədim dünyanın böyük liman şəhəri idi. Ona görə də bütün ticarət gəmiləri mütləq bu limana yan alır, sursat və ərzaq götürür, sonra yollarını davam etdirirdilər. Bu vəziyyətdən istifadə edən İsgəderiyyə şəhərinin başcilari belə bir fərman vermişdilər: İsgəndəriyyə limanına daxil olmaq istəyən bütün gəmilər ya İsgəndəriyyə Kitabxanası üçün orjinal kitab, əgər bağışlamağa kitab yoxdursa, üzü kocürülüb qaytarmaq şərti ilə başqa bir kitab gətirməlidirlər.

Müasir terminlə desək, bu bir növ kömrük haqqı idi. Əks halda, gəmi limana daxil ola bilməzdi. Bu kicik qeyddən məlum olur ki, İsgəndəriyyə Kitabxanası bütün dünya xalqlarının mədəniyyətlərinin beşiyi, dünya xalqlarının, o cümlədə ərəb xalqının zəngin kitab mədəniyyətinin fəxridir.

"Respublika" qəzeti. 27 noyabr 2002.

BÖYÜK ÖMRÜN SƏHİFƏLƏRİ

Azərbaycanın dirçəlişinin əsas rəhni kitabxanalardır.

A.Xələfov

Müsahibimiz əməkdar elm xadimi, kitabxanaçılıq elminin inikşafında müstəsna xidmətləri olmuş görkəmli alim, BDU-nun kitabxanaçılıq fakültəsinin "Kitabxanaçılıq və informasiya" kafedrasının müdiri professor Abuzər Xələfovdur.

- Abuzər müəllim, mümkündürsə, bir qədər özünüz barədə məlumat verərdiniz.

- Bilirsinizmi, mən böyük bir ömür yaşamışam. Bu ömrü bir neçə hissəyə bölmək olar. Uşaqlığım və ilk gənclik illərin füsunkar gözəlliyi, buz bulaqları, gülləri-çiçəkləri, göz işlədikcə uzanan çəmənləri, göylərə baş çəkən başı qarlı dağları olan Göyçə mahalında keçib. Orta məktəbi bitirib Bakıya gəldikdən sonra keçirdiyim təlabəlik illəri, daha sonra Moskvada aspiranturada təhsil aldığım illər... Pedaqoji fəaliyyətlə məşğul olduğum illər...

Mən 50 ildir ki, öz taleyimi bu ali məktəblə bağlamışam. Və fəxr edirəm ki, belə bir işgüzar kollektivlə çalışıram.

- Keçmiş dövrlə müqayisədə elmə olan münasibəti necə qiymətləndirirsiniz?

- Ölkəmizdə indiki məqamda elmə, təhsilə olan münasibəti müsbət qiymətləndirirəm. Vəziyyət elə gətirib ki, MDB ölkələrinin bir çoxunda Elmlər Akademiyaları ya bağlanıb, yaxud bağlanmış kimidir. Möhtərəm Prezidentimizin qayğısı nəticəsində Milli Elmlər Akademiyasının müxbir və həqiqi üzvlərinin vəzifə maaşları 10 dəfə artırılıb. Alimlərimiz öz elmi fəaliyyətlərini davam etdirirlər. Ali məktəblərimizin maddi ehtiyatlarının tam təmin olunması üçün ödənişli şöbələr açılıb ki, bunun da nəticəsi göz qabağındadır. Təkcə Bakı Dövlət Universitetinin son 10 ildəki inkişafı əvvəlki 70 ildəki dövrə bərabər inkişaf edir. Laboratoriyalar, kabinetlər, kafedralar dünya standartlarına uyğun təşkil edilir. Bütün fundamental elmlər burada tədris edilir. Dərsliklər hazırlanır, metodik vəsaitlər çap olunur və s. Bir sözlə universitetimiz müasir elmimizin flaqmanına çevrilmişdir. Dərslik yazan adam gərək təcrübəli müəllim, alim, bütün dünya təcrübəsini ümumiləşdirməyi bacaran, hərtərəfli biliyə malik mütəxəssis olsun. Sovet dövründə bizim alimlər yalnız "Azərbaycan coğrafiyası" "Azərbaycan tarixi" "Azərbaycan ədəbiyyatı" və s. respublikanın özünün ədəbiyyatını, tarixini, coğrafiyasını əks etdirən dərsliklər yaza bilirdilər. Qalan bütün dərsliklər isə rus dilindən tərcümə edilirdi. İndi universitet başdan-başa kompüterləşdirib. Tələbələr İnternet vasitəsi ilə dünya elminin nailiyyətləri ilə tanış ola bilirlər.

- Öz sahəniz kitabxanaşünaslıq barədə nə deyə bilərsiniz?

- Universitetdə kitabxanaşünaslıq fakültəsi 1947-ci ildə yaradılıb. Ona qədər isə yalnız təcrübi məlumatlar əsasında iş aparılırdı. Xalqın maariflənməsində, elm və mədəniyyətin təbliğ və inkişaf endirilməsində kitabxanalar böyük rol oynamışlar. Möhtərəm Prezidentimiz H. Əliyev görün kitabxanalara necə yüksək qiymət vermişdir: "Kitabxana, xalq, müllət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də, kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir".

- Yeni əlifbaya keçid haqqında fikrinizi bilmək maraqlı olardı.

- Yeni əlifbaya keçid dövrün tələbi idi. Yeni əlifbaya keçid kitabxanalarda toplanmış köhnə fondu məhv etmək demək deyil. Bizim bu güngü borcumuz bu fondu qoruyub saxlayaraq gələcək nəslə çatdırmağı tələb edir. Bu keçid bizim türk millətinin birliyinə xidmət edir. Biz bu keçidi çoxdan gözləyirdik.. O ki, qaldı ötən 70 ildə toplanmış ədəbiyyatın məhv edilməsinə bu haqda qəbul olunmuş kitabxana haqqında müvafiq qanun bu fondların keşiyində durur. Düzdür, etiraf etmək lazımdır ki, lazımi təşkilatlar bu gün kitabxanalarımıza soyuq münasibət bəsləyir, lakin mən əminəm ki, möhtərəm Prezidentimiz H.Əliyev cənablarının xüsusi diqqəti nəticəsində bizim kitabxanalarımız dünya standartları səviyyəsinə çatacaqdır. Bir məqamı xüsusilə qeyd etmək lazımdır ki, möhtərəm Prezidentimizin bu günlərdə mənə "Əməkdar elm xadimi" adı verməsi o deməkdir ki, artıq o, bu sahəyə müstəqil bir elm kimi baxır.

- Kitabxanalarda pullu xidmət mümkündürmü?

- Bilirsinizmi, bazar iqtisadiyyatının əsas qanunlarının təlabi belədir. Müəssisə gərək gəlirlə işləsin. Kitabxanada isə ümumi xalqa xidmət təbiq etmək olmaz. Bura yeganə yerdir ki, burada insanlar, təbəqələr arasında fərq

qoyulmur. Yalnız tutaq ki, hər hansı bir müəssisə ona lazım olan ədəbiyyatı sifariş verərsə, bura əlavə etmək sərf edilir. O zaman həmin müəssisədən pul almaq olar. Və ya kitabxanalarda müəyyən konfrans, hansısa mədəni tədbirin keçirilməsi üçün müəssisə və ya firmalardan pul almaq olar. Amma kitabxanaların ümumi fəaliyyətini pullu xidmətə keçirmək olmaz.

- Səmimi söhbətə görə Abuzər müəllimə minətdarlıq edirik.

"Yeni əsr" qəzeti. 18 dekabr 2002.

2003-cü İLİN «HEYDƏR ƏLİYEV İLİ» ELAN OLUNMASI TARİXİ ZƏRURƏTDİR

2003-cü ilin «Heydər Əliyev ili» elan olunması ilə bağlı Demokratik Azərbaycan Dünyası Partiyasının və «XXI əsr» qəzeti redaksiyasının irəli sürdüyü və respublika mətbuatında böyük əks-səda doğuran təklif, xalqımızın bütün təbəqələri tərəfindən dəstəklənməyə layiqdir. Çünki bu təklif qeyri-adi idarəçilik qabiliyyətinə, yüksək təşkilatçılıq məharətinə, uzaqgörən diplomatik çevikliyə və fenomenal intellektual səviyyəyə malik olan dünya şöhrətli bir Azərbaycan siyasətçisi ilə əlaqədardır. Heydər Əliyev dünyanın elə nadir şəxsiyyətlərindəndir ki, 30 ildən çox hakimiyyət başında olmuş, doğma xalqına, doğma vətəninə həmişə sonsuz sədaqətlə xidmət göstərmişdir.

Məlum olduğu kimi, Azərbaycan xalqı tarixi haqsızlıq ucbatından vaxtilə özünün milli müstəqilliyini itirmiş, uzun illər boyu azadlıq və suverenlik ideyaları uğrunda mübarizə aparmış, öz halal haqqına yetişmək üçün ağır məhrumiyyətlərə qatlaşmış, bu yolda çoxlu şəhidlər vermişdir. XX əsrin əvvəllərində yenidən azadlıq mübarizəsinə başlamış xalqımız 1918-ci ildə müstəqilliyə qovuşsa da, təxminən iki ildən sonra daxili və xarici düşmən qüvvələrin xəyanətkar fəaliyyəti nəticəsində milli dövlətçiliyini itirmiş, sovet hakimiyyətinin qurulması faktı ilə barışmalı olmuşdur.

Nəhəng Sovetlər birliyinin müttəfiq respublikalarından biri olan Azərbaycanı, etiraf etmək lazımdır ki, ümumiyyətlə 70-ci illərə qədər dünyanın əksər bölgələrində, tanımırdılar. Hətta SSRİ-nin bəzi respublikalarında xalqımızın adını belə bilmir, digər Qafqaz xalqları ilə qarışıq salırdılar. Azərbaycan sosial-iqtisadi cəhətdən başqa müttəfiq respublikalarla müqayisədə xeyli geri qalmışdı.

Məhz belə bir dövrdə-1969-cu ilin iyununda Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə irəli çəkilən Heydər Əliyev qısa müddət ərzində həyatın bütün sahələrində dönüş yaratmağa müvəffəq oldu. Respublikamıza rəhbərlik etdiyi ilk günlərdən o, korrupsiyaya, rüşvətxorluğa, mənəviyyatsızlığa qarşı genişmiqyaslı mübarizəyə başladı, ana dilimizə, ulu babalarımızdan bizə miras qalmış adət-ənənələrimizin qorunmasına, milli-mənəvi ideyaların inkişafına hər cür şərait yaratdı. Doğma Azərbaycanımızın hərtərəfli yüksəlişi yolunda

Heydər Əliyevin böyük xidmətlərini xalqımız həmişə dəstəkləmişdir. Onun 1970-80-ci illərdə respublika iqtisadiyyatının inkişafına, xalqın bütün sosial təbəqələrinə, ziyalılarına, elm, mədəniyyət və incəsənət xadimlərinə, zəhmətkeşlərə, xalqımızın sabahı olan gənclərə xüsusi diqqət və qayğısını çox yaxşı xatırlayırıq.

Bircə faktı xüsusi qeyd etmək istəyirəm ki, məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində o illərdə azərbaycanlı tələbələr Sovet İttifaqının ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilirdilər. Bu gün iftixarla deyə bilərik ki, 1970-80-ci illərdə Azərbaycanda yaranmış böyük ziyalılar ordusu, güclü mütəxəssislər ordusu indi müstəqil dövlətçiliyimizin əvəzsiz mənəvi sərvətinə, misilsiz elmi bazasına çevrilmişdir.

Məhz 70-ci illərin sonu - 80-ci illərin əvvəllərində Azərbaycanda sənaye, tikinti, kənd təssərrüfatı və başqa həyati əhəmiyyətli sahələr inkişaf etdi. Azərbaycan kəndi tamamilə yenidən qurulmağa, kənd əhalisi qara daxmalardan çıxmağa, xalqın maddi-rifah halı gündən-günə yaxşılaşmağa başladı.

1982-ci ilin sonunda Moskvaya dəvət edilən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi və Sov. İKP-nin Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü kimi məsuliyyətli vəzifəyə təyin olunan Heydər Əliyev orada çalışdığı dövrdə də Azərbaycan Respublikasına və doğma xalqına yüksək səviyyədə xidmət göstərirdi.

1988-ci ildə başlamış xalq hərəkatı prosesində Azərbaycan vətəndaşları Heydər Əliyevin xidmətlərini rəğbətlə xatırlayır və Ermənistanın əzəli Azərbaycan torpağına - Dağlıq Qarabağa ərazi iddiasının qarşısını məhz Heydər Əliyevin ala biləcəyi fikrini müdafiə edirdilər. Təəssüf ki, o vaxtlar bu mahir siyasi rəhbərin Azərbaycana qayıtmasına SSRİ rəhbərləri, ilk növbədə xalqımızın qatı düşməni Mixail Qorbaçov mane oldu.

1990-cı ilin 20 yanvarında Sovet ordusu hissələri Bakıda dinc əhalini qanına qəltan edərkən Heydər Əliyev vəzifədə olmasa da Moskvadakı Azərbaycan nümayəndəliyinə gedərək bu vəhşiliyi qətiyyətlə pisləmiş, SSRİ-nin başında duran simasız adamları kəskin ittiham etmiş, daha sonra Kommunist Partiyası sıralarından çıxdığını bəyan etmişdi.

1991-ci ildə yenidən müstəqillik qazanan Azərbaycan xalqı ağıllı, uzaqgörən rəhbərin olmaması ucbatından ciddi çətinliklərlə üzləşdi. Xalqımızın min bir əzab-əziyyət bahasına əldə etdiyi azadlıq bir neçə ambisiyalı adamın günahı üzündən yenidən boğulmaq, xalq isə bir daha əsarət altına düşmək, öz müstəqil dövlətini itirmək təhlükəsi ilə üzləşdi. Parçalanma və vətəndaş müharibəsi həddinə çatan Azərbaycan xalqı bütün çirkin siyasi qüvvələrə rədd cavabı verərək, öz xilas və nicat yolunu yaxşı tanıdığı, məharətinə inandığı Heydər Əliyevdə gördü. Artıq Naxçıvanda böyük quruculuq işlərinə başlamış, Muxtar Respublika Ali Sovetinin sədri kimi ciddi tədbirlər görmüş Heydər Əliyev xalqın təkidi nəticəsində 1993-cü ilin iyununda Azərbaycan Ali Sovetinin sədri vəzifəsinə gəldi, az sonra isə yekdilliklə müstəqil dövlətimizin Prezidenti seçildi.

Təəssüf ki, Azərbaycanın müstəqil, güclü dövlətə çevrilməsi bəzi düşmən qüvvələrin mənafeyinə toxunduğu üçün onlar ayrı-ayrı yollarla pozuculuq işləri aparır, terror və təxribatlar törətməyə çalışırdılar. 1998-ci ildən başlayaraq Azərbaycan iqtisadiyyatını dağıdanlar 1993-cü ildə vətəndaş müharibəsi təhlükəsi yaratdılar. Lakin Heydər Əliyevin xalqa arxalanması bu qorxunu birdəfəlik sovuşdurdu. 1994-cü ilin oktyabr ayında o, dövlət çevrilişinə cəhdin qarşısını da məhz xalqın köməyi ilə aldı. 1995-ci ilin martında isə Azərbaycanı gözləyən fəlakət uzaqlaşdırıldı. Beləliklə, respublikamız sabit siyasi və sosial – iqtisadi inkişaf yoluna qədəm qoydu.

1994-cü ildə Ermənistanla atəşkəs elan olunması, ATƏT-in Dağlıq Qarabağ probleminin həlli ilə bağlı fəaliyyətinin gücləndirilməsi, dünyanın bir sıra ölkələrinin Ermənistana qarşı mövqeyini dəyişməsi, Avropa Şurasında Ermənistanın işğalçı dövlət elan olunması kimi məsələlər Heydər Əliyevin çevik diplomatik fəaliyyətinin nəticəsidir. Mən qəti əminəm ki, Dağlıq Qarabağ problemini yalnız Heydər Əliyev dühası sülh yolu ilə nizama sala biləcək, işğal olunmuş torpaqlarımız onun rəhbərliyi ilə dinc yolla geri qaytarılacaqdır. Əks halda, Heydər Əliyevin Baş komandanlığı ilə formalaşan güclü Azərbaycan Ordusu azğın düşmənə sarsıdıcı zərbələr vuraraq respublikamızın bütövlüyünü bərpa edəcəkdir.

Bu gün Azərbaycan məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində dünyanın ən zəngin neft yataqlarına malik olan ölkə kimi tanınır. Onun uğurlu neft strategiyası artıq öz bəhrəsini verməkdədir.

İctimaiyyətə yaxşı məlumdur ki, son zamanlar xalqımızın taleyüklü problemlərindən olan Xəzər dənizinin bölüşdürülməsi problemi çox kəskinliklə qarşıya çıxmışdı. Belə bir məqamda böyük siyasi təcrübəyə malik olan möhtərəm Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, Xəzəryanı dövlətləri Azərbaycanın prinsipial mövqeyi ilə razılaşdırmağı bacardı. Artıq reallığa çevrilmiş Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə başlanması, Xəzəryanı dövlətlərdən olan Qazaxıstanın bu layihədə iştirakı ilə bağlı müraciət etməyi məhz Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir və onun bəhrəsini Azərbaycan xalqı yaxın illərdə göracəkdir.

Hazırda Azərbaycan iqtisadiyyatı, sənayesi, kənd təsərrüfatı inkişaf-dadır. Ölkəmizidə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi ardıcıl surətdə həyata keçirilir. Elm, təhsil, mədəniyyət, ədəbiyyat və incəsənət yeni xarüqələr yaradır. Xalqın həyat tərzi yaxşılaşmağa doğru gedir. 2003-cü ildə büdcədən maliyyələşdirilən bütün qurumlarda əmək haqlarının artırılacağı haqqında rəsmi informasiyalar bütün bunları bir daha təsdiqləyir.

Bu günlərdə Yeni Azərbaycan Partiyasının 10-cu ildönümü münasibəti ilə keçirilən təntənəli yığıncaqda Heydər Əliyev bir daha bəyan etdi ki, o, 2003-cü ildə keçiriləcək Prezident seçkilərində iştirak edəcək və xalqın etimadına ümüd bəsləyəcək. Mən ağsaqqal bir ziyalı kimi qəti əminəm ki, xalqımız bu seçkilərdə yekdilliklə məhz Heydər Əliyevi dəstəkləyəcək və o, yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçiləcək. O, buna

tamamilə layiqdir !

Heydər Əliyev xalqımızın fəxri, milyonların iftixarıdır. 2003-cü il bir də onunla əlamətdardır ki, möhtərəm Prezidentimizin 80 yaşı, müstəqil Azərbaycanımıza rəhbərliyinin 10 ili tamam olur. Mən də sadə vətəndaş kimi 2003-cü ilin «Heydər Əliyev ili» elan olunması təklifinə qəlbən qoşulur, bütün xalqımızı bu təklifi müdafiə etməyə, gələn ili yubiley və qələbə təntənəsinə çevirməyə səsləyirəm.

"Azad Azərbaycan" qəzeti. 20 dekabr 2002.

HEYDƏR ƏLİYEV ƏSƏRLƏRİNİN NƏŞRİ VƏ TƏBLİĞİ MƏSƏLƏLƏRİ

XX əsr Azərbaycan xalqına çox böyük bir tarixi şəxsiyyət bəxş etmişdir. Bu şəxsiyyət respublikamızın Prezidenti, görkəmli dövlət, siyasət, elm və mədəniyyət xadimi Heydər Əlirza oğlu Əliyevdir.

XX əsrin ikinci yarısında hakimiyyətə gələn, 34 il ardıcıl olaraq dövlət sükanının arxasında məharətlə dayanan, Azərbaycanın tərəqqisi və inkişafı üçün cahanşümul tarixi əhəmiyyətə malik işlər görən bu böyük insan Azərbaycan xalqının sevimli rəhbəri imicini qazanmaqla dünya şöhrətli bir şəxsiyyət səviyyəsinə qalxmış, dünyanın görkəmli siyasətçilərinin etiraf etdiyi kimi, Şərqin ulduzuna çevrilmişdir.

Heydər Əliyev çox maraqlı, mürəkkəb, zəngin, keşməkeşli bir ömür yolu keçmiş, həyatın bütün çətinliklərindən qalib çıxmış, öz zəhməti, zəkası, fikri, qabiliyyəti ilə yüksək zirvəyə yüksəlmişdir. Bu uca zirvənin yolları daşlı-kəsəkli olsa da onun polad iradəsi, dönməz xarakteri, şəxsiyyət kimi bütövlüyü bu zirvəni fəth etməkdə ona kömək göstərmişdir.

1950-ci ildə Sankt-Peterburq (Leninqrad) milli təhlükəsizlik orqanları məktəbini əla qiymətlərlə, 1957-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirən və böyük həyat təcrübəsinə malik olan Heydər Əliyev artıq gənc yaşlarından rəhbər işə irəli çəkilmiş, 1964-cü ildə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsini tutmuşdur. Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyevə qədər Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində ancaq rus millətindən olan şəxslər işləmişlər. Heydər Əliyev bu böyük vəzifəni tutan ilk azərbaycanlı olmuşdur. Heydər Əliyevin dövlətçilik məharətinə, böyük təşkilatçılıq qabiliyyətinə yuxarı dairələrin marağı gün-gündən artmış, o, böyük şəxsiyyət imici qazanmışdır.

Məhz buna görədir ki, 1969-cu ilin iyul ayında Heydər Əliyev Sov. İKP MK-nın təvsiyəsi ilə Azərbaycan Kommunist Partiyasının birinci katibi seçildi. O, bu vəzifəyə seçilərkən respublika rəhbərliyinin yuxarı eşalonunda böyük hərc-mərclik, dedi-qodu, anarxiya, qeyri-sabit hökm sürürdü. Azərbaycan

xalq və kənd təsərrüfatlarının, sənayenin inkişafı sahəsində Sovet İttifaqı respublikaları içərisində sonuncu yeri tuturdu. Dövlət planlarının heç biri yerinə yetirilmirdi. Belə ağır bir şəraitdə hakimiyyətə gələn Heydər Əliyev öz təşkilatçılıq qabiliyyəti, möhkəm iradəsi sayəsində qısa müddətdə böyük müvəffəqiyyətlər əldə etdi, xalqın məhəbbətini qazandı, Azərbaycan xalqının sevimli, ədalətli rəhbərinə çevrildi. Respublikanın zəhmətkeşləri, ziyalıları tərəfindən ardıcıl dəstəklənməyə başlandı.

Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi həyatına uğurlu yeniliklər, dəyişikliklər gətirdi. Məhz Heydər Əliyevin qayğısı nəticəsində həmin dövrdə Azərbaycan sosial-iqtisadi və mədəni cəhətdən yüksək səviyyədə inkişaf edərək Sovetlər Birliyinin ən böyük mükafatlarına layiq görülmüş, xalqımızın adı həmişə hörmət və iftixarla çəkilmişdir. Heydər Əliyevin qazandığı bu müvəffəqiyyətlər qısa bir zaman içərisində onun bir partiya və dövlət xadimi kimi nüfuzunun təkcə Azərbaycanda deyil, bütün SSRİ məkanında artmasına, böyük şöhrət qazanmasına səbəb oldu. Məhz buna görədir ki, o, 1979-cu ildə Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ildə üzv seçildi. 1982-ci ildə isə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildi. SSRİ hökumətində ikinci şəxsiyyət olan Heydər Əliyev tezliklə SSRİ məkanında, həmçinin xarici ölkələrdə müdrik dövlət xadimi kimi böyük nüfuz qazandı. Bu da Sovetlər Birliyi dövründə beynəlxalq aləmdə öz fəaliyyəti ilə böyük şöhrət və hörmət qazanmış Azərbaycan oğlunun dünya siyasətində tutduğu yüksək yerdən xəbər verirdi. O, Moskvada işlədiyi müddətdə də Azərbaycanla əlaqəsini kəsməmiş, həmişə doğma respublikanın qeydinə qalmış, onun inkişafı üçün əlindən gələni əsirgəməmişdir.

1991-ci ildə - SSRİ dağılandan sonra Azərbaycan müstəqillik əldə etdi. Azərbaycan xalqı illərdən bəri ürəyində bəslədiyi arzusuna çatdı. Ancaq bu müstəqillik Azərbaycan xalqına çox baha başa gəldi. 1988-ci ildə erməni daşnak millətçiləri tərəfindən qızışdırılan Dağlıq Qarabağ erməniləri Ermənistan Respublikasının və SSRİ dövlətinin başçılarına arxalanaraq Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi niyyətlərini həyata keçirmək üçün açıq-aşkar separatçılıq və təxribatçılıq fəaliyyətinə başladılar.

Bu məsələnin həllində o zamankı Azərbaycan rəhbərliyinin tam səbatsızlıq göstərməsi, Moskvanın tapşırıqlarını canla-başla yerinə yetirməsi torpaqlarımızın bir hissəsinin ermənilər tərəfin-dən işğal olunmasına gətirib çıxardı. Müstəqillik əldə etdikdən sonra hakimiyyət başına gəlmiş Azərbaycan Xalq Cəbhəsi və «Müsavat» cütlüyü iqtidarının səriştəsizliyi üzündən Dağlıq Qarabağ və ona bitişik olan rayonlarımızın əraziləri erməni faşistləri tərəfindən işğal edildi. Ölkədə hakimiyyət böhranı baş verdi.

Acınacaqlı haldır ki, 1993-cü ilin əvvəllərində Azərbaycanın bir neçə «müstəqil» bölgəyə parçalanması prosesi gedirdi. Respublikamızda ayrı-ayrı «xanlıqlar» yaradılması həvəsi ilə yaşayan, xalq tərəfindən tanınmayan və qətiyyətlə rədd edilən bəzi üzdəniraq liderlər üçün hakimiyyət ehtirası Vətən,

xalq, torpaq kimi müqəddəs anlayışlardan çox-çox yüksəklərdə dururdu. Məhz belə bir dövrdə - ölkəmizin real vətəndaş müharibəsi ilə üz-üzə dayandığı bir zamanda xalqın çoxdan bəri arzuladığı şəxsiyyətin - Heydər Əlirza oğlu Əliyevin Azərbaycan rəhbərliyinə qayıtması ölkəni parçalanma bəlasından xilas etdi, milli dövlətçiliyimizin qorunub saxlanılmasına əlverişli şərait yaratdı.

Heydər Əliyevin 1993-cü ildən başlayaraq respublikamızda yaranmış çətinlikləri məhz xalqla məsləhətləşərək, xalqa arxalanaraq aradan qaldırması ona bəslənilən ümidi və ehtiramı durmadan artırdı. Onun milli dövlətçiliyimiz, milli ideologiyamız və müstəqilliyimiz istiqamətində apardığı işlər əvəzsizdir, misilsizdir. Bunu zaman bir daha sübut edir.

Bütün göstərdiyimiz problemlərin həllində Heydər Əliyevin elmi, ideoloji fəaliyyəti həmişə ön planda olmuşdur. Ölkənin həyatında baş verən mürəkkəb prosesləri düzgün qiymətləndirmək, sosial-siyasi hadisələri qabaqlamaq, onun həlli yollarını zərgər dəqiqliyi ilə müəyyənləşdirmək qabiliyyətinə, böyük elmi təfəkkürə malik olan bu insan öz məruzələrində, çıxış və nitqlərində, fərman və sərəncamlarında, göstəriş və tövsiyələrində, xalqa müraciətlərində həmin problemlərin həlli yollarını açıb göstərməklə cəmiyyətin irəliyə doğru inkişafını təmin etmişdir. Onun bütün çıxışları və nitqləri əvvəlcə dövri mətbuatda: qəzetlərdə və jurnallarda dərc edilmiş, sonra isə kitab şəklində buraxılmışdır. Böyük iftixar hissi ilə demək olar ki, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi 34 illik dövrdə böyük təşkilatçılıq, nəhəng quruculuq işləri ilə yanaşı olaraq, zəngin böyük elmi-nəzəri və mənəvi bir irs yaratmışdır. Bu irs qiymətli mənəvi sərvət kimi elmimizin və mədəniyyətimizin «qızıl fondu»na daxil edilmişdir. Müasir şəraitdə bu zəngin irsin öyrənilməsinə böyük ehtiyac hiss edilməkdədir. Respublikamızın bütün vətəndaşlarının, alimlərin, mütəxəssislərin, əhalinin bütün təbəqələrinin, xüsusilə ölkəmizin gələcəyi olan gənclərin bu irsin öyrənilməsinə böyük ehtiyacı duyulmaqdadır.

Heydər Əliyevin tariximizə, dilimizə, milli ideologiyamıza, soy-kökümüzə həsr edilmiş dərin məzmunlu əsərləri bütün sahələrdəki elmi araşdırmaların metodoloji əsasıdır. Bu əsərlər Azərbaycanşünaslığa böyük hədiyyədir. Heydər Əliyevin nəzəri irsi həmçinin Azərbaycan dövlətçiliyinin yaranması, qorunması və inkişaf etdirilməsinin elmi əsasıdır. Bu əsərlər siyasi tarix, vətəndaşlıq, həmçinin dövlət quruculuğu dərsliyidir.

Heydər Əliyevin hər bir əsəri böyük əhəmiyyətə malikdir. Əsrlər keçəcək, illər bir-birini əvəz edəcək, nəsillər dəyişəcək, bu əsərlər isə yaşayacaq, neçə-neçə nəsillərə, Azərbaycan xalqının gələcəyinə xidmət edəcəkdir. Çünki bu əsərlər zamanın sifarişidir, xalqın tarixidir. Bu əsərləri zaman özü yaratdığından daim, yaşayacaq, gələcəyə işıq saçacaq.

Heydər Əliyevin əsərləri rahat kabinetlərdə yaranmamışdır, böyük natiqlik qabiliyyətinə, dərin zəkaya, məntiqi ardıcıllığa, kəskin zehinə, möhkəm yaddaşa malik olan bu böyük insan öz əsərlərini xalq qarşısında - çıxışlarında, dinləyicilərlə üzbə-üz, onların gözü qarşısında, onların iştirakı ilə yaratmışdır. Olduqca unikal bir şəxsiyyət olan Heydər Əliyevin hər bir məruzəsini, çıxışını

və nitqini redaktə etmədən nəşr etmək olar.

Dünyada çoxlu dövlətlər, onları idarə edən çoxlu dövlət başçıları var. Ancaq onların heç də hamısı onlarla və yüzlərlə kitab yazmaq qabiliyyətinə malik deyillər.

Etiraf edilməlidir ki, Heydər Əliyev kimi zəngin irsi, çoxsaylı əsərləri olan dövlət başçıları olduqca azdır.

Heydər Əliyevin əsərlərini mütaliə edərkən belə bir həqiqət aşkarlanır ki, bu əsərlərdə çox geniş elmi məlumat toplanmışdır. Bu əsərlərdə bəşəriyyətin görkəmli dövlət, elm və mədəniyyət xadimlərindən gətirilən sitatlar, misallar, məlumatlar və elmi fikirlər müəllifin çox geniş mütaliə dairəsinə, çox zəngin və dərin biliyə, elmi məlumata malik olan bir şəxsiyyət, görkəmli ziyalı və s. olduğunu sübuta yetirir.

Heydər Əliyevin əsərlərinin respublikamızda nəşrini şərti olaraq iki mərhələyə ayırmaq olar. Birinci mərhələ Sovetlər Birliyi dövrünü, yəni 1969-1993-cü illəri əhatə edir. Bu dövrdə, xüsusilə də 1982-ci ilə qədərki dövrdə respublikamızda Heydər Əliyevin nəşr olunmuş əsərləri 151 adda, 85 çap vərəqi həcmindədir.

Bunlardan təxminən 285 çap vərəqi həcmində olan 68-ci Azərbaycan dilində, 207 çap vərəqi həcmində olan 83-ü rus dilindədir. Doğrudur, bu rəqəmi tam hesab etmək olmaz. Bu rəqəmləri dəqiqləşdirmək üçün hələ ciddi tədqiqatlar aparmaq lazım gəlir.

Heydər Əliyevin 1969-1982-ci illərdə nəşr edilmiş əsərlərini məzmununa görə üç qrupa bölmək olar:

1. Qurultaylarda, plenumlarda, müşavirələrdə çıxışları;
2. Müxtəlif təntənəli yığıncaqlarda, yubileylərdə, ideoloji müşavirələrdə məruzələri, nitqləri və çıxışları;
3. Elmi məclislərdə, konfranslarda, mərasimlərdə çıxışları və nitqləri;
4. Ayrı-ayrı problemlər barədə, əsasən Azərbaycan haqqında əsərləri.

Heydər Əliyevin məruzə və çıxışlarında, həmçinin ayrı-ayrı əsərlərində Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatı yüksək şəkildə işıqlandırılmış, geniş elmi təhlillər, konkret faktlar və rəqəmlərlə ümumiləşdirmələr aparılmış, nəticələr çıxarılmışdır. Məhz buna görədir ki, göstərilən dövrün sosial-iqtisadi və ictimai-siyasi tarixini Heydər Əliyevin əsərlərini öyrənmədən yazmaq mümkün deyildir. Heydər Əliyevin əsərlərində tarixi hadisələr, ictimai siyasi proseslər, onları doğuran səbəblər və qanunauyğunluqlar çox böyük elmi uzaqgörənliklə şərh və izah edildiyindən onlar geniş oxucu kütləsi ilə yanaşı mütəxəssislər və tədqiqatçılar üçün də böyük əhəmiyyət kəsb edir.

Sovetlər Birliyi dövründə nəşr edilmiş bu kitablarla tanışlıq oxucuda belə bir qənaət yaradır ki, möhtərəm Prezidentimiz Heydər Əliyevin o dövrkü fəaliyyəti bilavasitə Azərbaycanın tərəqqi və inkişafına yönəlmişdir.

Heydər Əliyev o dövrdə Sovetlər Birliyinin xammal və aqrar bazası hesab edilən Azərbaycan iqtisadiyyatını hərtərəfli inkişaf etdirəcək, güclü

infirastruktura malik bir respublikaya çevrilməyə yönəlmiş yeni inkişaf kursunu elan etdi. Bu kursun bütün mahiyyəti, strukturu, ümummilli əhəmiyyəti Heydər Əliyevin əsərlərində öz əksini tapmışdır. Bu kursun məzmununda respublikanın iqtisadi inkişafı ilə yanaşı olaraq, mədəni inkişafa da xüsusi diqqət yetirilmişdir. Bu da tezliklə 1970-80-ci illərdə respublikanın inkişafında özünü göstərdi, misli-bərabəri olmayan nəticələr əldə edildi. Ona görə də, 1970-90-cı illərin Azərbaycan tarixini obyektiv yazmaq, cəmiyyətdə baş verən proseslərin mənfi və müsbət istiqamətlərini müəyyənləşdirmək, xalqımızın qazandığı elmi və mədəni nailiyyətləri, sosial-iqtisadi inkişafın xüsusiyyətlərini hərtərəfli öyrənib araşdırmaq üçün Heydər Əliyevin əsərləri ən qiymətli və metodoloji əhəmiyyətə malik olan qiymətli mənbədir. Heydər Əliyevin o dövrdə nəşr edilmiş əsərlərində cəmiyyətin inkişafının tam mənzərəsi verilmiş, dövrün tarixi, baş verən hadisələr, həyata keçirilən problemlər ardıcıllıqla şərh edilmişdir.

1993-cü ildə xalqın istəyi və arzusu ilə hakimiyyətə gələn bu dahi şəxsiyyətin həyatının həmin illəri sakitlik və rahatlıq içində keçməmiş, Azərbaycanın müstəqilliyinin qorunub saxlanması, milli dövlətçiliyin yaradılması və möhkəmləndirilməsi uğrunda aparılan gərgin mübarizə illəri olmuşdur. Heydər Əliyevin böyük siyasətə qayıtması dövlət müstəqilliyini qoruyub saxladı, Azərbaycanın bütövlüyünü, bu gününü və gələcəyini təmin etdi.

Dövlət başçımızın bu böyük fəaliyyəti, apardığı ölüm-qalım mübarizəsinin strategiyası və taktikası, uzaqgörən daxili və xarici siyasətin elmi-praktik əsasları onun o dövrdəki məruzələrində, çıxışlarında, nitqlərində, müraciətlərində öz əksini tapmışdır. Cəmiyyət quruculuğunun bütün sahələrini: siyasi, iqtisadi, mədəni və beynəlxalq sahələrini əhatə edən bu əsərlər böyük milli mənəvi sərvət əhəmiyyətinə malikdir. Ona görə də, müstəqillik dövründə Heydər Əliyev irsinin öyrənilməsinə, əsərlərinin nəşr edilib yayılmasına böyük ehtiyac duyulmaqda idi. Cəmiyyətin özündən doğan, zamanın sifarişi olan bu ehtiyacın ödənilməsi böyük ümumxalq, dövlət əhəmiyyəti kəsb etməyə başlamışdır.

Xatırlatmaq istəyirəm ki, 1995-ci ilə qədər bu sahədə elə bir ciddi iş görülməmişdi. Məhz buna görədir ki, bu məsələ mətbuatda qaldırılmağa başladı. 1995-ci il may ayının 17-də «Azərbaycan» qəzetində bu məqalənin müəllifinin «Milli dövlətçiliyimiz naminə» yazısında Heydər Əliyev əsərlərinin nəşrinə başlanmasının zəruriliyini əsaslandıran yazı dərc edildi. O dövrdə respublikamızda məşhur olan «Səhər» qəzetinin redaksiyası dərhal bu faydalı təşəbbüsə qoşularaq, dövlət başçısının 1989-1995-ci illərdəki fəaliyyətini əhatə edən irihəcmli, 848 səhifəlik «Qətiyyətin təntənəsi» adlı kitabını oxucuların istifadəsinə verdi.

Ümumiyyətlə, «Zəruri ön söz»dən və «Mən heç vaxt susmamışam», «Söz istəyirəm», «Naxçıvan yaşayır, döyüşür», «Xalqın iradəsi ilə», «Biz vətən müharibəsi aparırıq», «Sülhü arzulamaq azdır», «Dövlət özünü müdafiə etməyə qadirdir» başlıqlı 7 bölmədən ibarət olan «Qətiyyətin təntənəsi» kitabı Heydər Əliyevin zəngin ideya-nəzəri irsinin ayrı-ayrı nümunələrini ilk dəfə

olaraq sistemləşdirən əvəzsiz mənbə kimi olduqca böyük əhəmiyyət kəsb edir.

Təqdirəlayiq bir haldır ki, 1997-ci ildən başlayaraq latın qrafikalı Azərbaycan əlifbası ilə H.Əliyevin «Müstəqilliyimiz əbədidir» çoxcildliyinin (on-cildliyinin) nəşrinə başlanılmış və uğurla başa çatdırılmışdır. Azərbaycan Dövlət Nəşriyyatında yüksək poliqrafik icrada hazırlanan bu çoxcildliyin buraxılışına məsul Ramiz Mehdiyev və Hidayət Orucovdur. Çoxcildliyin çapa hazırlanmasında və nəşrində tərtibçilərin xüsusi xidmətini qeyd etmək yerinə düşər.

«Müstəqilliyimiz əbədidir» çoxcildliyinə H.Əliyevin xalqımızın istəyi və tələbi ilə 1993-cü ilin iyununda Azərbaycan rəhbərliyinə qayıdışından sonrakı çıxışları, nitqləri, bəyanatları, müsahibələri və s. daxil edilmişdir. Kitabdan göründüyü kimi, zəmanəmizin böyük tarixi şəxsiyyəti, dünya səviyyəli siyasi xadim, müdrik xalq rəhbəri H.Əliyev Azərbaycanın başı üzərində fəlakətlər dolaşan həmin dövrdə son dərəcə kəskin və coşqun siyasi fəaliyyətlə məşğul olmuş, özünün zaman-zaman qazandığı zəngin siyasi təcrübəsini bütövlükdə xalqımızın bəlalardan xilas olmasına, dövlət müstəqilliyimizin qorunub saxlanılmasına, qüdrətli və nüfuzlu Azərbaycan dövlətinin yaradılmasına, milli dövlətçiliyimizin inkişafına həsr etmişdir. Çox-cildlik tərtib olunarkən haqlı olaraq dahi şəxsiyyətin çıxışları, nitqləri, məruzələri, müraciətləri xronoloji ardıcıllıqla verilmişdir ki, bu da dövlətimizin başçısı Heydər Əliyevin çoxcəhətli ictimai-siyasi fəaliyyəti, gərgin iş rejimi, hadisələrə obyektiv və prinsipial mövqedən yanaşması ilə yaxından tanış olmağa şərait yaradır.

Heydər Əliyevin «Müstəqilliyimiz əbədidir» çoxcildliyinə daxil edilmiş materiallar 1993-cü ilin iyunundan bəri Azərbaycanda baş vermiş mürəkkəb ictimai-siyasi hadisələri, müstəqil milli dövlət quruculuğunun ayrı-ayrı mərhələlərini, ölkənin sosial, iqtisadi, hərbi, elmi və mədəni sahələrindəki problemləri, daxili və xarici siyasətin əsas istiqamətlərini dərindən təhlil etmək və həmin dövrü tam obyektiv qiymətləndirmək baxımından mühüm tarixi-siyasi əhəmiyyət kəsb edir.

Qeyd etməliyik ki, H.Əliyevin 4-5 illik ictimai-siyasi fəaliyyətinin salnaməsi olan «Müstəqiliyimiz əbədidir» çoxcildliyində dövlət başçısının rəsmi qəbullarındakı materiallar öz əksini tapmayıb. Buna baxmayaraq çox vaxtında nəşr edilmiş bu oncildlik Azərbaycan xalqının, müstəqil Azərbaycan dövlətinin müasir tarixinin son dərəcə ağır və məsuliyyətli bir dövrünü əhatə etdiyindən böyük elmi və tarixi mənbəə kimi dəyərlidir. Çoxcildliyin alimlər, politoloqlar, siyasətşünaslar və digər mütəxəssislər üçün, həmçinin geniş oxucular üçün qiymətli və əvəzsiz mənbəyə çevriləcəyi tamamilə şəksizdir.

Əminik ki, «Müstəqilliyimiz əbədidir» oncildliyinin hər kitabını dərindən öyrənən və mənimsəyən hər bir azərbaycanlı H.Əliyevin bütün əsərlərinin vətəndaşlıq, dövlətçilik, Vətənə sevgi dərsliyi olduğunu qətiyyətlə və məsuliyyətlə təsdiqləyəcək, respublikamızın gələcəyi naminə bu böyük şəxsiyyətin gördüyü möhtəşəm tədbirləri bir daha yüksək qiymətləndirəcəkdir.

Tamamilə maraqlı və alqışlanmalıdır ki, latın qrafikalı Azərbaycan əlifbası ilə nəşr edilən «Müstəqilliyimiz əbədidir» çoxcildliyi ilə yanaşı olaraq

«Azərbaycan» nəşriyyatında 1997-ci ildən Heydər Əliyevin «Müstəqillik yollarında» oncildliyi kiril qrafikası ilə nəşr olunmuşdur. Bu oncildliyin buraxılışına məsul Prezident Aparatının humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadədir. Nəfis şəkildə, yüksək bədii və poliqrafik tərtibatda nəşr edilən çoxcildliyin artıq dörd cildi işıq üzü görmüş və oxuculara çatdırılmışdır.

1-ci cildin «Ön söz»ündə deyildiyi kimi, «Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitq və çıxışlarını əhatə edən «Müstəqillik yollarında» çoxcildliyi siyasi tariximiz üçün xüsusi əhəmiyyət kəsb edən bir əsərdir. XX əsrin görkəmli siyasi xadimi Heydər Əliyev Azərbaycanın müstəqillik salnaməsi olan bu kitabla xalqına dövlət quruculuğu dərsliyini bəxş etmişdir. Kitabın baş qəhrəmanı Azərbaycan xalqı, əsas mövzusu isə siyasi tarix olduğundan o, eyni zamanda vətəndaşlıq dərsliyidir».

Heydər Əliyevin «Müstəqillik yollarında» çoxcildliyi Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda öz canlarını qurban verənlərə ithaf olunur, şəhidlərimizin işıqlı xatirəsini əbədiləşdirir. Bu kitab eyni zamanda ölkəmizin ziddiyyətlərlə, tələtümlərlə, problemlərlə dolu müasir dövrünün canlı şahidləri olan bugünkü Azərbaycan vətəndaşları və 90-cı illərlə bağlı tarixi həqiqətləri dərk etməyə can atan gələcək nəsillər üçün nəzərdə tutulmuşdur.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, oxuculara təqdim olunan «Müstəqillik yollarında» çoxcildliyini Heydər Əliyev rahat və yumşaq masa arxasında, geniş və işıqlı kabinetlərdə yazmamışdır. Kitaba daxil edilmiş hər bir nitq, hər bir çıxış xalqın gözü qabağında: ictimai-siyasi yığıncaqlarda, izdihamlı mitinqlərdə, əsgər səngərlərində, qaçqın düşərgələrində, rəsmi dövlət tədbirlərində, beynəlxalq məclislərdə yaranmış və Azərbaycanda dövlət quruculuğu proqramının, milli dövlətçilik ideologiyasının əsasını təşkil etmişdir. Bu çoxcildliyin hər birində müasir Azərbaycanın keçməkəşli tarixi öz geniş əksini tapmış, ölkənin iqtisadi, sosial, elmi, mədəni problemləri təhlil olunmuş, onların həlli yolları göstərilmişdir.

Onu da qeyd etmək lazımıdır ki, "Müstəqillik yollarında" çoxcilidliyinə Heydər Əliyevin yalnız Prezidentlik dövründə söylədiyi çıxış və nitqlərinin bir hissəsi daxil edilmiş, 1993-cü ilin iyun ayından oktyabr ayınadək, Azərbaycan Respublikası Ali Sovetinə rəhbərlik etdiyi dövr bu kitabda öz əksini tapmamışdır.

Bununla belə, çoxcilidliyə daxil edilmiş materiallar əslində dövrümüzün əzəmətli və nəhəng abidəsidir. Bu tarixi abidənin qeyri-adi müəllifi isə zəmanəmizin dahi şəxsiyyəti, Azərbaycan xalqının dünya şöhrətli oğlu Heydər Əliyevdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çoxcildlik əsərlərindən başqa Azərbaycan, rus və digər dillərdə 40-dan artıq adda ayrı-ayrı əsərləri nəşr edilmişdir. Bu kitablar geniş oxucu kütləsinin müxtəlif sahələrə dair sorğularını və ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuşdur.

Qeyd etmək lazımdır ki, 1970-2003-cü illərdə Heydər Əliyevin təxmi-

nən 1500 çap vərəqi həcmində 209 adda kitabı nəşr edilmişdir. Bunlardan 151 adda kitab 1970-1993 –cü illərin qalan kitablar isə müstəqillik dövrünün payına düşür.

Bu da maraqlıdır ki, bu kitabların ümumi həcmi Azərbaycan və rus dillərində 23 min səhifədən artıqdır.

23 min səhifədən artıq, 1500 çap vərəqi həcmində əsər yazmaq, onu çap etdirib xalqın istifadəsinə vermək heç də dünya dövlətlərinin başçılarından böyük əksəriyyətinə nəsib olmamışdır. Belə xoşbəxtlik ancaq nadir dövlət başçılarının, Heydər Əliyev kimi dünya şöhrətli dövlət xadimlərinin qismətinə düşmüşdür. H.Əliyevin bu əsərləri, zəngin-elmi nəzəri irsi Azərbaycan xalqının milli sərvətidir. Azərbaycan kitabının qızıl fonduna daxildir.

Bütün bunlarla yanaşı olaraq Heydər Əliyev haqqında nəşr olunmuş ədəbiyyat da xüsusi diqqət cəlb edir. Bu nəşrlər Azərbaycan, rus, ingilis, türk, fars, fransız və gürcü dillərindədir. Həmin kitablarda görkəmli dövlət xadiminin həyat və fəaliyyəti araşdırılır, zəngin və mənalı ömrünün müxtəlif sahələrinə ayna tutulur, Heydər Əliyev şəxsiyyəti dünənin bu günün və sabahın timsalında səciyyələndirilir, bütövlükdə bu dahi insanın mənəvi aləmi və ayrı-ayrı taleyüklü məsələlərə vətəndaşlıq mövqeyi xarakterizə olunur. Heydər Əliyev haqqında ədəbiyyat Azərbaycan dilində 269 adda, rus dilində 36 adda, ingilis dilində 21 adda, türk dilində 5 adda, fars, fransız və gürcü dillərinin hərəsində isə 1 adda, cəmi 334 adda kitab nəşr edilmişdir.

Bütün bunlarla yanaşı, Heydər Əliyevə həsr edilmiş bədii ədəbiyyat nümunələri də xüsusi yer tutur. Onların arasında görkəmli şairlərimizdən Mirvarid Dilbazi, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Qabil, Fikrət Qoca, Xəlil Rza, Rəfiq Zəka, Əli Vəkil, Kəmalə və başqalarının dərc etdirdikləri şeirlər bu böyük şəxsiyyətə xalq sevgisinin təzahürü kimi təqdirəlayiqdir.

Məhz buna görə də, xalqımızın tükənməz milli, mədəni, mənəvi sərvətlərini qorumaq ideyasının daşıyıcısı olan Heydər Əliyev irsinin təbliği bu gün xüsusi əhəmiyyət kəsb edir.

Mən indi Heydər Əliyev irsinin daha dərindən öyrənilməsi və daha yaxşı təbliğ olunması məqsədilə bir sıra təkliflər irəli sürmək, bir çox tövsiyələr vermək istəyirəm. Bu tövsiyə və təklifləri aşağıdakı kimi qruplaşdırmaq olar: Heydər Əliyev irsini dərindən öyrənmək, əsərlərinin akademik nəşrini hazırlayıb nəşr etdirmək üçün Azərbaycan Milli Elmlər Akademiyasının, yaxud Bakı Dövlət Universitetinin yanında «Heydər Əliyev irsini öyrənən elmi mərkəz» yaradılmalı və tezliklə fəaliyyətə başlamalıdır; mərkəz «Heydər Əliyev və dövlətçilik məktəbi» adlı elmi jurnal da nəşr etdirə bilər;

Məlum olduğu kimi, ABŞ Prezidentlərinin bir neçəsi ayrıca kitabxana binası tikdirmiş və xalqa hədiyyə etmişdir. Məncə, «Heydər Əliyev irsini öyrənən elmi mərkəz»in yanında xüsusi kitabxana yaradılmasına başlanmalı və ABŞ-da olduğu kimi, «Prezident Əliyev kitabxanası» adlandırılmalıdır;

Heydər Əliyevin əsərləri külliyyatını hazırlamaq və nəşriyyata təqdim etmək məqsədilə müxtəlif elm sahələrində çalışan görkəmli alimlərdən və

yüksək səviyyəli mütəxəssislərdən ibarət işçi qrupu yaradılmalıdır;

Azərbaycan Respublikasının Nazirlər Kabineti Heydər Əliyev əsərlərinin nəşrini və onların respublikamızın bütün kitabxanalarına verilməsini təmin etməlidir. Hazırda kitablar baha olduğundan əhalinin aztəminatlı təbəqəsi kitab almaq imkanından məhrumdur. Kitabxanalar isə oxuculara pulsuz xidmət göstərdiyindən hər bir kəs dövlət başçısının əsərlərini burada mütaliə edə biləcəkdir. Bu baxımdan iş adamları da kitabxanalara yardım göstərməyə çalışmalıdırlar;

M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında ayrıca «Heydər Əliyev kitab fondu» yaradılması məqsədəuyğundur. Bu fonda heydər Əliyevin həmin kitabxanaya bağışladığı kitablar, onun öz əsərləri və ona həsr olunmuş kitablar, həmçinin dövlətçiliyimizə dair ədəbiyyat toplana bilər. Dövlət Kitabxanasında xüsusi «Heydər Əliyev guşəsi» yaradılmasına da ehtiyac duyulmaqdadır;

Azərbaycan Respublikası Təhsil Nazirliyi müxtəlif elm və bilik sahələrini əhatə edən təhsil standartlarını və fənn proqramlarını təsdiq edərkən Heydər Əliyev irsindən istifadə məsələsinə xüsusi diqqət yetirməlidir; Ali məktəb tələbələri üçün tərtib edilən fənn proqramlarında, dərslik və dərs vəsaitlərində Heydər Əliyev irsindən istifadə edilməsinə rektorluğun tələbkarlığı artırılmalı və bu işin elmi–metodik proqramı hazırlanmalıdır;

Orta və ali məktəb tələbələri üçün yüksək səviyyədə tərtib edilmiş «Heydər Əliyev Azərbaycanın müstəqilliyi haqqında», «Heydər Əliyev müəllim haqqında», «Heydər Əliyev təhsil haqqında», «Heydər Əliyev elm haqqında» və s. mövzulu məcmuələrin hazırlanıb nəşr olunması məqsədəuyğundur;

Hazırda respublikamızda «Heydər Əliyev məktəblərinin geniş şəbəkəsi yaradılmışdır». Bu təqdirəlayiq iş davam etdirilməli, bütün məktəblərdə, mədəniyyət ocaqlarında, istehsalat və sənaye müəssisələrində, yaşayış məntəqələrində bu məktəb əhatəli fəaliyyətə başlamışdır. Həmin məktəbin kənd mədəni-maarif müəssisələrinin yanında yaradılması, kənd kitabxanalarında «Heydər Əliyev fondu» təşkil edilməsi, Azərbaycanın müstəqilliyi ilə bağlı nəşrlərin də bu fonda daxil edilməsi məqsədəuyğun olar.

"Kitabxanaşünaslıq və biblioqrafiya"
elmi-nəzəri və təcrübi jurnalı. 2002, №2. s.5-16

AVTOMATLAŞDIRILMIŞ KİTABXANA-İNFORMASİYA İDARƏETMƏ SİSTEMLƏRİ

Müasir sivilizasiyanın inkişafı qlobal dəyişikliklərə - informasiya texnologiyası və əməyin kompüterləşdirilmiş vasitələrindən geniş istifadə edən informasiyalaşdırılmış cəmiyyətin təşəkkülünə gətirib çıxarmaqdadır. Belə bir cəmiyyətdə informasiya əsas məhsuldar qüvvəyə, yəni insan fəaliyyətinin əsas məhsullarından birinə çevrilir. Böyük informasiya mənbəyi olan kitabxanalar

isə öz fəaliyyət sahələrinə ənənəvi və yeni məhsulların tərtibi vəzifələrini daxil etməklə məzmun zənginliyini, onda qorunan informasiya məhsullarının çeşidini genişləndirir, cəmiyyətin informasiyalaşdırılması prosesində əsas rol oynayırlar. Kitabxanalar, informasiya mərkəzləri kommunikasiyasının texniki vasitələri ilə birlikdə ölkənin informasiya infrastrukturunun əsasını təşkil edir. Bu səbəbdən təsadüfi deyil ki, cəmiyyətin informasiyalaşdırma səviyyəsi kitabxana-informasiya işinin inkişaf səviyyəsindən xeyli asılıdır. Bu isə ənənəvi kitabxana proseslərinin kompüterləşdirilməsini və avtomatlaşdırılmasını tələb edir.

Dünya təcrübəsi göstərir ki, kitabxanaların kompüterləşdirilməsi yüksək ixtisaslı analitik, kitabxanaçı-biblioqraf, linqivist və proqramlaşdırıcıların birgə əməyini tələb edən informasiya texnologiyası sahəsində vacib və mürəkkəb məsələlərdən biridir. Kitabxanaların avtomatlaşdırılması informatikanın mürəkkəb sahəsidir və bu prosesin inkişafı dünyada 50-ci , Rusiyada 70-ci, Azərbaycanda isə 90-cı illərin axırlarına təsadüf edir. Kitabxanaların avtomatlaşdırılması kompleks məsələ olub, avtomatlaşdırılmış kitabxana informasiya idarəetmə sistemlərinin yaradılmasını nəzərdə tutur. İndi informasiyanın həddindən çox artdığı bir şəraitdə kitabxanalar üçün onun əsas funksiyası olan fondun təşkili, biblioqrafik informasiya və abonement xidmətinin yerinə yetirilməsi getdikcə mürəkkəbləşir. Belə informasiya axını şəraitində kitabxana fondunu zənginləşdirmək, onun qorunma etibarlığını və kitabxana informasiyasından istifadəni təmin etmək yalnız kitabxanaların texniki təchizatının müasirləşdirilməsi şərti ilə mümkündür. Məhz kitabxanaların kompüter şəbəkə texnologiyası əsasında texniki təchizatından sonra kitabxanaların avtomatlaşdırılmasından və AKİİS-lərin tətbiqindən danışmaq olar.

AKİİS-lərin yaradılmasının əsas məqsədlərindən biri şəbəkə texnologiyası əsasında coğrafi məsafədən asılı olmayaraq kitabxanalar arasında informasiya mübadiləsini genişləndirmək və oxucu sorğusunu operativ yerinə yetirməkdir. Bununla yanaşı AKİİS-lərinin tətbiqi:

-informasiyanın axtarış operativliyini;

-biblioqrafik informasiyanın bazaya bir dəfə daxil edilməsi və ondan sənəd axtarışı üçün çoxməqsədli istifadə, ədəbiyyatın elektron formada sifarişi, axtarışın nəticəsinin sənəd formasında çapı, sorğunun nəticəsinin məsafədən asılı olmayaraq digər tələbatçılara ötürülməsini;

-müxtəlif əlamətlərinə görə məlumatların çoxaspektli axtarışını;

-digər kitabxanaların kataloqlarında sənəd axtarışını (online);

-Oxuculara xidmət də daxil olmaqla bütün proseslərin statistikası və avtomatlaşdırılmış uçotunu;

- Kitabxana kataloqlarının bir neçə nüsxədə etibarlı qorunmasını;

-Kitabxanaya daxil olan sənədlərin işlənməsinə, fondun komplektləşdirilməsinə sərf edilən vaxta və maliyyə vəsaitinə qənaəti;

-xidmətin yeni səviyyədə qurulmasını və s. təmin edir.

Avtomatlaşdırmanın səmərəliliyi - oxucuların sorğuları üzrə informa-

siyanın predmetə görə axtarışı, kitabxananın kitab və dövri nəşrlər bazası əsasında elektron xidmət, jurnal məqalələrinin biblioqrafik təsvirini aparma, açar sözlərə görə biblioqrafik yazıların axtarışı, elektron soraq kitabçalarının tərtibi, verilən ədəbiyyata nəzarət, oxucuların və onların formulyarlarının uçotu, verilən ədəbiyyatın oxucu formulyarlarına avtomatik yazılması, ədəbiyyatın qaytarılma müddətinə nəzarət və s. funksiyaların yerinə yetirilməsindədir.

Ümumiyyətlə effektiv, səmərəli AKİİS dedikdə kitabxananın bütün bölmələrini əhatə edən ümumkitabxana şəbəkəsinin mövcudluğu və "klient-server" şəbəkə texnologiyasına əsaslanan, biblioqrafik yazıların vahid formatına əsaslanan əsas kitabxana informasiya proseslərinin kompleks avtomatlaşdırılmasını təmin edən vahid informasiya sisteminin mövcudluğu nəzərdə tutulur.

Hər bir kitabxana informasiya idarəetmə sisteminin əsasını elektron kataloq-biblioqrafik informasiya axtarış sistemləri təşkil etdiyindən informasiya bazasının elmi əsaslarla yaradılması kitabxanaların kompüterləşdirilməsində mühüm halqadır. Qloballaşma tendensiyasının getdiyi bir dövrdə biblioqrafik informasiyanın beynəlxalq mübadiləsinin həyata keçirilməsi üçün informasiya bazası kommunikativ formatlar əsasında yaradılmalıdır. Qeyd edək ki, avtomatlaşdırılmış sistemlər elə olmalıdır ki, onun köməyilə tərtib olunan biblioqrafik ehtiyatlar heç olmasa bir kommunikativ formata asanlıqla köçürülə və ifadə oluna bilsin. Hazırda elə AKİİS-lər vardır ki, bu gün onlar bütün verilənləri MARC formatlarına konvertaetməni təmin edirlər.

AKİİS yaradıcıları komunikativ format kimi, bəzən isə kataloqlaşdırmanın daxili formatı kimi məhz MARC formatlarından istifadə edirlər. Buna baxmayaraq bəzi AKİİS-ləri vardır ki, onların öz xüsusi formatları mövcuddur, lakin konvertorların mövcudluğu bu AKİİS-lər üçün kitabxanalararası informasiya mübadiləsi zamanı vahid standartlardan istifadəyə imkan verir. AKİİS-lərin və onlarda istifadə olunan format və standartların vahid olması beynəlxalq informasiya mübadiləsi zamanı biblioqrafik yazıların, informasiyanın itməsi təhlükəsini aradan qaldırır.

İnternet beynəlxalq kompüter şəbəkəsi kitabxanalararası mübadilənin beynəlxalq səviyyədə həyata keçirilməsini təmin edir. Ona görə də, müasir AKİİS-lər UNİX, VMS, Vindovs NT tipli çoxməsələli əməliyyat sistemləri bazasında yaradılır. Həmçinin bu səbəbdən AKİİS-lərin yaradılması zamanı verilənlər bazasını idarəetmə sistemi kimi İnternet texnologiyasına inteqrasiya edə bilən Oracle, Sybase, İnformix kimi proqram məhsullarından istifadə edilməlidir.

Məsələn, son illərə kimi Rusiyada yaradılmış kitabxana sistemləri klient-server arxitekturasına əsaslansa da, müasir verilənlər bazasını idarəetmə sistemlərindən istifadə olunmamış, demək olar ki, heç bir AKİİS-lər də SQL sorğu dilindən istifadə edilməmişdir. Bundan başqa, Rusiya AKİİS yaradıcıları kataloqlaşdırma formatı kimi bütün dünyada istifadə edilən formatlardan deyil, nə Rusiya standartı, nə də Qərb formatları ilə uyğunlaşmayan özlərinin daxili formatlarını düşünüblər. Rusiyada MARC formatı ilə bağlı müzakirələr artıq

bir neçə ildir ki, davam edir və onun nə qədər davam edəcəyi məlum deyil. Elə bu səbəbdən də kommunikativ format kimi UNİMARC-dan istifadə edirlər. Lakin bu fakt Rusiyada vahid informasiya məkanının mövcudluğu haqqında danışmağa imkan vermir və kitabxanalar arasında telekommunikasiya əlaqəsinin inkişafına hələ də böyük ehtiyac var. Bundan əlavə, Rusiya kitabxanalarının böyük bir qismi DOS əməliyyat sistemi bazasında AKİİS-lərdən istifadə edirlər, çox kiçik bir qismi isə Netvare, Windovs NT, UNİX əməliyyat sistemi bazasında işləyir.

Rusiya mütəxəssislərinin bir qrupu fikirləşir ki, Rusiya AKİS-ləri perspektivli deyil. Onlar yeni milliAKİS-lər yaratmaqdansa, Qərb ölkələrində geniş tətbiq olunan və Rusiya kitabxanalarına asanlıqla uyğunlaşdırıla bilən və kitabxanaların kompleks avtomatlaşdırılmasını təmin edən sistemlərin alınmasını təklif edirlər. Belə sistemlərin seçimində rusdilli proqramları təmin etmək imkanına malik sistemlərə üstünlük verilməlidir. Rusiya AKİİS-lərinin yaradıcılarının qarşılaşdığı bu problemlər Azərbaycan kitabxana ictimaiyyətini də düşündürən məsələlərdəndir.

Dünyanın bir neçə məşhur AKİİS-ləri ilə tanış olaq:

"İRBİS"

Bu sistem Rusiya elmi-texniki kitabxanasında yaradılıb. Sistem istifadəçilərinin və oxucuların uçotu, elektron ədəbiyyat fondunun, universal kataloq, ünvan-məlumat və s. verilənlər bazasının yaradılması, İnternet kitabxana kataloqlarına və verilənlər bazasından istifadəyə nəzarət, oxucuların müxtəlif sorğuları üzrə xidmət və s. əsas kitabxana proseslərini təmin edir.

"İRBİS"-də informasiyanın analitik işlənməsi ilə əlaqədar olan nəşriyyat fəaliyyəti də verilir. Rusiya elmi-texniki kitabxanasında artıq fondun 20 %-dən çoxu elektron formaya salınmış, istifadəyə verilmişdir. Elektron kataloqun həcmi və verilənlər bazası 1.2 milyon yazıya çatıb. Sistem 250 fərdi kompüter əsasında fəaliyyət göstərir ki, bunlardan da 150-si lokal şəbəkədə birləşdirilib.

Rusiya kompaniyası "Libsoft+" eyni adlı AKİİS "Biblioteka - 2000 " adlı müasir versiyasını işləyib. Bu sistem elektron kataloqu yaratmağa və idarə etməyə, tam mətnli elektron kitabxananı formalaşdırmağa, bir çox kriteriyalara görə axtarışı həyata keçirməyə imkan verir. Bu AKİS müasir texniki təminat əsasında; Vindovs 95/98/NT və UNİX əməliyyat bazasında işləyən; üçsəviyyəli klient-server arxitekturasına malik; Oracle, İnformix və ya MS SQL verilənlər bazasını idarəetmə sistemində; İSR və ya RNR, GGİ texnologiyasını təmin edir. Sistemin əsas interfeysi kataloqlaşdırıcı, komplektləşdirici, istifadəçi və inzibatçı üçün avtomatlaşdırılmış işçi yerini özünə daxil edir.

"VTLS"

Bu AKİS kitabxanaların kompleks avtomatlaşdırılması üçün ABŞ-ın VTLS İnc. Firması tərəfindən işlənib. Sistem həmçinin geniş imkanlara malik elektron kataloqun tərtibi, kitabxanalararası abonement funksiyasını yerinə yetirilməsi, fondun komplektləşdirilməsi, statistikasının işlənməsi və s. nə-

zərdə tutulub. Sistem lazımi şəbəkə imkanlarına malikdir ki, bu da lokal və İnternet şəbəkəsindən istifadəyə icazə verir. Sistem milli, akademik, kütləvi və digər böyük xüsusi kitabxanalar, həmçinin milyonlarla nüsxə fonda malik kitabxanalarda istifadə üçün yaralıdır. "VTLS" sistemi Rusiya milli kitabxanası tərəfindən 1989-cu ildən istifadə olunur. RMK-nın avtomatlaşdırılması hələ də bitməyib. Sistemin yeni versiyası Windovs əməliyyat sisteminə uyğunlaşdırılıb və UNİCODE formatının bütün şriftlərindən istifadəni təmin edir. "VTLS" sistemi daha yüksək səviyyəli kitabxanalar, həmçinin universitet kitabxanalarının avtomatlaşdırılması tələblərini bütünlüklə ödəyir və aparat proqram vasitələrinə nöqsansız uyğunlaşdırılır.

"ALEPH"

Bu sistem Yerusəlim universiteti üçün "Ex libris" kompaniyası tərəfindən işlənilib. "ALEPH"-in ilkin versiyası 1980-ci ildə yaradılıb. Hazırda onun beşinci versiyası (1996) çıxıb ki, o da müasir kompüterlər vəUNİX əməliyyat sisteminə uyğunlaşdırılıb. Bu sistem nəinki ənənəvi kitabxana funksiyalarını özündə saxlayır, həmçinin tam mətn, referatlar, indeksləşdirilən informasiya daxil edilən verilənlər bazası ilə işi təmin edir. Sistem tam klient-server arxitekturası ilə reallaşdırılır ki, bu da "ALEPH"-dən həm lokal, həm də İnternet şəbəkəsindən istifadəyə imkan verir. Sistem bütün əlifbaları özündə saxlayan UNİCODE kodlar yığımı ilə işləyir. "ALEPH" əsasında kitabxana kataloqları sistemindən istifadə standart İnternet texnologiyasının köməyi ilə həyata keçirilir.

"ALEPH" sistemi "Oracle"verilənlər bazasını idarəetmə sisteminə əsaslanan açıq arxitektura ilə qurulub. Bundan başqa "ALEPH" elektron ədəbi kitabxanalar ilə qarşılıqlı əlaqə vasitələrini təqdim edir.

Böyük kitabxanaların avtomatlaşdırılması üçün vacib "VTLS" sistemində olan bəzi elementlər "ALEPH" sistemində yoxdur. Buna görə də, "ALEPH" çox da böyük olmayan kitabxanaların, məs. universitet, muzey, tədqiqat mərkəzlərinin kitabxanalarının avtomatlaşdırılması üçün nəzərdə tutulub.

"LIBER"

"Liber" AKİİS-lərinin yaradılmasına ilk dəfə olaraq 1985-ci ildə başlanılıb. Sistemin komersiya variantı 1987-ci ildə "Relais informatique international" fransız firması tərəfindən işlənilib. Çoxistifadəli AKİS olan Liberdə bütün əsas kitabxana funksiyaları avtomatlaşdırılıb. Liber AKİS əsasında PİCK əməliyyat sistemi götürülüb. Liber sisteminin böyük bir çatışmazlığı onun qapalılığıdır. Belə ki, bu sistemdən istifadə edən kitabxana öz tələbatına uyğun sistemdən dəyişikliklər etmək istərsə, əlavə xərc ödəməklə sistemi yaradan firmaya müraciət etməlidir. Sistem komplektləşdirmə, kataloqlaşdırma, biblioqrafik yazıların mübadiləsi və axtarışı, abonentlərin uçotu və s. kimi kitabxana proseslərini avtomatlaşdırır. Liber sisteminin xarakteristikası universitet kitabxanalarının avtomatlaşdırılması üçün kifayətdir. Prinsipcə bu AKİS-dən istifadə etmək olar, lakin yuxarıda göstərilən səbəblərdən bu sistem az perspektivlidir. Buna baxmayaraq Liber sistemi Rusiyada 100-dən çox

kitabxanada tətbiq olunur.

Azərbaycanda zəngin kitabxana fonduna malik geniş kitabxana şəbəkəsinin olmasına baxmayaraq kitabxanaların kompüterləşdirmə səviyyəsi xeyli aşağıdır. Kitabxanaların kompüterləşdirilməsi işinə diqqət Azərbaycan müstəqillik qazandıqdan sonra, kitabxana işinin beynəlxalq standartlara (İSBD, İSO) uyğun qurmaq zərurəti meydana gəldikdən sonra verilməyə başlanmışdır. 1995-ci ildən başlayaraq ayrı-ayrı əməliyyatları yerinə yetirmək məqsədilə kompüterlərdən istifadə edilməyə başladı. İlk vaxtlar kompüterlər kitabxanalarda kargüzarlıq, qismən də maliyyə xərclərinin hesablanmasını avtomatlaşdırmaq məqsədilə istifadə olunurdusa, 90-cı illərin axırlarından kitabxanaların İnternet şəbəkəsinə qoşulması oxucuların informasiya tələbatının elektron formada ödənilməsinə, kitabxanalararası əlaqələrin qurulmasına, ədəbiyyat sifarişlərinin avtomatlaşdırılmasına zəmin yaratdı. Bütün bunlara baxmayaraq kitabxana işi kollektiv əmək olduğundan onun kompüterləşdirilməsini kompleks həyata keçirən, özündə kitabxana işinin bütün sahələrini əhatə edən avtomatlaşdırılmış işçi yerlərini birləşdirən AKİİS-ləri olmadan kitabxana işini müasir səviyyədə avtomatlaşdırılmasından danışmaq olmaz. Azərbaycanda kitabxanaların kompüterləşdirilməsi probleminin həllinə kompleks və elmi yanaşma ilk dəfə olaraq 1999-cu ildə BDU-da professor A.A.Xələfovun rəhbərliyi ilə yaradılmış "Kitabxanaların kompüterləşdirilməsi" ETL-nın əməkdaşları tərəfindən həyata keçirilir. Laboratoriyada qısa müddət ərzində Azərbaycanda ilk dəfə olaraq vahid, milli KKİS elmi əsasları hazırlanmış və BDU-nun elmi kitabxanasının bazasında onun mərhələ-mərhələ həyata keçirilməsinə başlanmışdır. Tədqiqatların ilkin nəticəsi olaraq "Kitabxana 1.0 " KKİS yaradılmışdır. Sistem 20000-ə yaxın biblioqrafik yazı əsasında informasiya bazasına malik olub, BDU-nun lokal şəbəkəsində 13 axtarış göstəricisi və onların kombinasiyasına görə informasiya axtarışını həyata keçirir. Sistemin əsas xüsusiyyətləri aşağıdakılardır:

Sistem qeyri-məhdud sayda istifadəçisi olan ixtiyari tip lokal kompüter şəbəkələrində işləyə bilir. Sistem respublikamızda qüvvədə olan biblioqrafik QOST 7.1-84 format əsasında işləyir. Sistemdə əsas kitabxana prosesləri, o cümlədən sistemləşmə, kataloqlaşma, abonent xidmətinin avtomatlaşdırılmış işçi yerləri nəzərdə tutulmuşdur. O sistem qeyri-məhdud sayda verilənlər bazası yaratmaq və istifadə etmək qabiliyyətinə malikdir. Sistem oxucu sorğusunun tez formalaşması üçün müxtəlif rubrikaların avtomatik yaradılmasını təmin edir. Sistem sadə, rahat, qrafiki istifadəçi interfeysinə malik olub, səhvsiz informasiyanın daxil olmasını təmin edən xidmət vasitələrinə malikdir. Həmçinin sistem konkret kitabxana üçün asan adaptasiya oluna bilir və açıq texnologiya əsasında yaradılmışdır.

Bu sistem universitetin elmi kitabxanasında tətbiq olunaraq 150 işçi yeri olan lokal şəbəkədə oxucuların sorğularının yerinə yetirilməsinə imkan verir. "Kitabxana 1.0" KKİS Windovs/NT əməliyyat sistemləri əsasında işləyir. İnformasiya bazası yüksək səviyyədə qorunma və təhlükəsizlik tədbirləri ilə

təmin olunub. İnformasiyanın qloballaşdığı və Azərbaycana maraq sürətlə artdığından onun kitabxana ehtiyatlarından dünya oxucularının istifadəsini, həmçinin öz oxucularımızın dünyanın 250-dən çox kitabxanalarından və İnternetin elektron sənəd bazasından istifadəni təmin etmək məqsədilə 2002-ci ildə "Kitabxana 2.0" KKİS-i yaradıldı. Bu sistem elektron kataloqdan əlavə, 15 GB həcmində elektron mətn ehtiyatına və böyük informasiya mənbələrinə istinadlara malikdir. Sistem Veb texnologiya əsasında yaradıldığından sadə işçi interfeysinə malikdir. Oxucu öz informasiya tələbatını ödəmək üçün müvafiq istinadlardan istifadə etməlidir. Axtarış nəticəsinin relevantlığı çoxsaylı axtarış elementləri vasitəsilə təmin edilir. Oxucular təkcə kitablar deyil, dövrü mətbuat, hüquqi sənədlər, siyasi mədəni məlumatlar əldə edə biləcəklər.

Tanış olduğumuz KKİS-lər ilə müqayisədə "Kitabxana 2.0" sistemi müəyyən dərəcədə kitabxana proseslərinin kompleks kompüterləşdirilməsinin müasir problemlərinə tam cavab verə bilməsə də, bu Azərbaycanda virtual vahid KKİS yaradılması sahəsində atılan ilk addımdır.

N.Musayeva ilə birlikdə
"Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası". 2002, №2, s. 243-251

AZƏRBAYCAN ELMİNİN QIZIL FONDU

Hələ 60-cı illərdə akademiya şəhərciyinin əsas binası istifadəyə verilərkən orada kitabxana üçün xüsusi korpus ayrılmış kitabxana dövrün müasir avadlığı və texniki vasitələri ilə təchiz edilmişdir. MEK 90-cı illərin əvvələrinə qədər kifayət dərəcədə maliyyə vəsaiti, o cümlədən hər il orta hesabla 40-45 min məbləğində valyuta ilə təmin edilmişdir. Bunun nəticəsində, MEK-ə hər il təqribən 100 min nüsxə yeni elmi ədəbiyyat daxil olurdu.

Kitabxana hər il EA-da təmsil olunmuş elmi istiqamətlər üzrə keçmiş SSRİ məkanında rus dilində nəşr edilən bütün əsərlərin pullu məcburi nüsxələrini, eləcə də xarici ölkələrdən 13-15 min adda monoqrafiya, dissertasiya, elmi əsərlər, məcmuələr, 2 min addan artıq dövrü mətbuat materialları alırdı. Bütün bunlarla yanaşı, MEK kifayət qədər yerli nəşrlər əldə edirdi. Mübadilə fondunun hesabına dünyanın 55 ölkəsinin 500-dən artıq elmi müəssisəsi ilə kitab mübadiləsi təşkil edərək öz fondunu zənginləşdirirdi.

AMEA-nın rəyasət heyətinin diqqət və qayğısı nəticəsində vaxtaşırı kitabxananın strukturu təkmilləşir, ştatı artır, maddi texniki bazası güclənir, işçilərin fəaliyyətinin və mənəvi stimullaşdırılması siyasəti həyata keçirilirdi.

MEK hər il müxtəlif problemləri və görkəmli elm və mədəniyyət xadimlərinə həsr olunmuş, 50-60 çap vərəqi həcmində əsaslı biblioqrafik əsərlər çap edir, elmi-tədqiqat müəssisələrinə operativ informasiya xidməti sistemi tətbiq edirdi.

MEK akademiyanın elmi-tədqiqat müəssisələrindəki kitabxanaların fəaliyyətini istiqamətləndirir, onlara metodik köməklik göstərir, kitabxana işçilərinin peşə səviyyəsinin yüksəlməsi məqsədilə kurslar, seminarlar və praktikumlar təşkil edirdi.

1990-cı illərdən başlayaraq məlum səbəblərdən, o cümlədən keçmiş SSR məkanında vahid informasiya sisteminin pozulması üzündən MEK-nın fəaliyyətində böhran vəziyyəti yarandı. Belə vəziyyət özünü ilk növbədə elmi informasiya qıtlığında göstərirdi. Maliyyə çatışmamazlığından kitabxana fondunun yeni ədəbiyyatla tamamlanması işində ciddi boşluqlar yarandı, elmi tədqiqatların operativ informasiya təminatı dayandırıldı. Kitab-xananın maddi texniki bazası zəifləmdi, onun yeni, müasir kompüter texnologiyası ilə təmin edilməsi ləngidi, beynəlxalq əlaqələri məhdudlaşdırıldı.

Bütün bunlar elmi işçilərin mərkəzi kitabxanadan istifadə intensivliyini zəiflətdi, bu da öz növbəsində AMEA-da aparılan elmi tədqiqatların keyfiyyət və kəmiyyət göstəricilərinə mənfi təsir göstərdi.

Sevindirici haldır ki, son vaxtlar AMEA-nın rəhbərliyi, xüsusən akademiyanın Prezidenti Mahmud Kərimov tərəfindən MEK-ya diqqət artırılmış, onun fəaliyətinin yaxşılaşdırılması istiqamətində bir sıra əhəmiyyətli işlər görülmüşdür.

Kitabxananın maddi texniki bazasının güclənməsi kadr potensialının, strukturunun təkmilləşdirilməsi rəhbərliyin demokratik seçki üsulları ilə seçilməsi və s. tədbirlər, şübhəsiz ki, təqdirəlayiqdir.

Eyni zamanda bu gün MEA-nın elmi tədqiqatların kitabxana-informasiya təminatında hələ öz həllini gözləyən problemlər çoxdur.

Bu problemlərin həlli ilk növbədə MEK-nın fəaliyyətinin köklü şəkildə yeniləşməsi zərurətini irəli sürür. Biz bu yeniləşməni təmin edən elmi təşkilati işlərin mühüm istiqamətlərini belə görürük.

İlk növbədə MEA sistemində elmi tədqiqatların kitabxana-informasiya təminatında MEK-nın rolunu artırmaq məqsədilə yaxın gələcəkdə onun fəaliyyətinin sistemli inkişafının mühüm istiqamətlərini müəyyənləşdirən konsepsiya yaradılmalıdır.

Bu konsepsiya qarşıdakı 10-20 il ərzində MEK-nın informasiya ehtiyatlarının inkişaf meyllərini, onların istifadə səmərə-liliyinin artırılması yollarını, oxuculara kompleks xidmət proseslərinin informasiyalaşdırılması istiqamətlərini, eləcə də kitabxananın strukturunun maliyyələşdirilməsi və maddi texniki təminatının, kadr potensialının və idarəetmə mexanizminin yerləşdirilməsini təmin edə biləcək elmi əsaslarda qurulmuş strateji proqram olmalıdır.

MEK-nın fəaliyyətinin normal vəziyyətə salınması məqsədilə ən mühüm və təxirəsalınmaz tədbirlər, onun maliyyələşdirilməsinin qənaətbəxş səviyyəyə qaldırılması olmalıdır.

Kitabxananın illik büdcəsi ona yerli ədəbiyyatla yanaşı ABŞ, Rusiya ölkələrində buraxılan və MEA-nın elmi istiqamətlərinə müvafiq mühüm çap əsərlərini və xüsusən dövrü mətbuat orqanları ilə elektron nəşrlərini əldə

etmək imkanı yaratmalıdır.

Bu məqsədlə kitabxananın əvvəlki illərdə olduğu kimi kifayət məbləğdə valyuta ilə təmin edilməsi olduqca vacibdir.

MEK-nın informasiya potensialının inkişaf vəzifələri onun ədəbiyyat mübadiləsi istiqamətində beynəlxalq əlaqələrin genişlənməsi zərurətini irəli sürür. Bu sahədə zəngin təcrübəyə və ənənələrə malik olan MEK üçün ölkəmizin müstəqilliyi şəraitində daha geniş imkanlar yaranmışdır. Respublikada dünyanın aparıcı dövlətlərinin səfirliklərinin mövcudluğu, informasiya azadlığının təmin edilməsi, kitabxana işi haqqında azərbaycan respublikasının qanununda kitabxanaların beynəlxalq əlaqələrinin hüquqi bazasının yaradılması, ölkəmizdə müxtəlif beynəlxalq yardım və nkişaf fondlarının fəaliyyəti, MEK-nın dünya kitabxanaları və digər elmi təşkilatları ilə ədəbiyyat və informasiya mübadiləsi istiqamətində partnyorluq fəaliyyətinin inkişafı, əməkdaşlıq üçün əlverişli şərait yaratmışdır. Belə şəraitdən MEK daha səmərəli istifadə etməklə özünün informasiya ehtiyatlarını əsaslı sürətdə təkmilləşdirə bilər.

Beynəlxalq kitab mübadiləsi iqtisadi baxımdan çox əlverişlidir. Çünki manatla alınan yerli nəşrlərin valyuta tələb edən xarici nəşrlərlə mübadiləsi kitabxananın maliyyə vəsaitinin daha səmərəli istifadəsini təmin edir.

Beynəlxalq kitab və informasiya mübadiləsinin bir mühüm üstünlüyü ondan ibarətdir ki, mübadilə prosesində bir tərəfdən dünya elminin nailiyyətləri Azərbaycan elmi ictimaiyyətinə çatdırılırsa, digər tərəfdən ölkəmizin alimlərinin əsərləri xarici ölkə kitabxanalarına daxil olur ki, bu da öz növbəsində elmimizin uğurlarının dünya miqyasında tanınmasına və təbliğinə xidmət edir.

Müasir dövrdə MEK-da oxuculara xidmət işi elmi proseslərin informasiya təminatının dinamikliyini nəzərə almaqla keyfiyyət və təşkilati baxımdan yeni mütərəqqi iş üsulları ilə zənginləşdirilməlidir.

Bu iş üsulları kompüter texnologiyasına əsaslanan cd-rom elektron nəşrləri, elektron poçtu, elektron kataloqları, məlumat bazaları, məlumat bankları İnternet məkanında istifadəetmə, on-line ədəbiyyat axtarış sifarişi, səmərəli xidmət vasitələrini birləşdirən proqramlaşdırılmış sistemli fəaliyyət kimi həyata keçirilməlidir.

Oxuculara xidmət işinin müasir informasiya texnologiyası əsasında yeniləşməsilə əlaqədar meydana çıxan məsələlərin həlli MEK-nın maddi texniki bazasının əsaslı surətdə gücləndi-rilməsini tələb edir.

Oxuculara xidmət prosesinin kompleks avtomatlaşdırılması üçün tətbiqi proqram paketinin hazırlanması, zəruru olan texniki qurğular və vasitələrin o cümlədən kompüter şəbəkəsi kommunikasiya, elektrik, mühafizə avadanlıqlarının alınması, rabitə xətlərinin və kanallarının yaradılması, eləcə də yerləşdirmə quraşdırma işləri aparılmalıdır. Bu prosesin həyata keçirilməsində dövlət vəsaiti ilə yanaşı beynəlxalq yardım fondlarının maliyyə köməkliyindən daha fəal və məqsədyönlü istifadə edilməlidir.

Son illər MEK bu istiqamətdə müəyyən təcrübə əldə etmişdir. Lakin bu

təcrübə hələlik sistemli fəaliyyətə çevrilməmiş, alınan qrantlar isə oxuculara xidmət ilə əlaqədar əsaslı problemlərin həllinə yönəldilməmişdir.

Bu gün MEK-nın fəaliyyətində kitabxana-informasiya proseslərinin kompleks avtomatlaşdırılmasının və bu çərçivədə oxuculara xidmət işinin tam informasiyalaşdırılmasını həyata keçirən qrand proqramının tərtib edilməsi və müvafiq donor təşkilatları tərəfindən bu proqramın maliyyə dəstəyini təmin etmək paritet istiqamət olmalıdır.

MEK-nın fəaliyyətini müasir tələblər səviyyəsinə qaldırılmasının ən mühüm şərtlərindən biri də onun kadr potensialının qüvvətləndirilməsidir. Dünyanın ən qədim və humanist peşələrindən biri olan kitabxanaçılıq peşəsi keçmiş kitabdarlar və klassik kitabxanaçılardan başlayaraq müasir dövrə qədər öz missiyasını hər bir dövrün elmi, mədəni tələbatına kifayət qədər səmərəli xidmət göstərmişdir. Bu gün isə kitabxanaçı öz klassik mənasını və missiyasını cəmiyyətin inkişafının reallıqlarına uyğun şəkildə yeniləşdirmişdir. Hazırda kitabxanaçılıq peşəsi özündə kitabxanaçı-biblioqraf, kitabxanaçı-informator, kitabxanaçı-sosioloq, kitabxanaçı-analitik, kitabxanaçı-marketoloq, kitabxanaçı-texnoloq, kitabxanaçı-menecer və s. ixtisasları birləşdirən sosial, elmi, mədəni komunikasiya peşəsinə çevrilmişdir.

Beynəlxalq standartlara görə müasir kitabxanaçılar dünyada informasiya axının inkişaf qanunauyğunluqlarına bələd olan, kompüter texnologiyasını mənimsəmiş, bir neçə dildə təmasda olmaq bacarığına malik, yüksək intellektual səviyyəli ziyalı təbəqəsidir. Bu kontekstdə MEK-nın kadr potensialına, onun kollektivinə və xüsusən aparıcı mütəxəssislərinə verilən peşə tələblərində əsaslı keyfiyyət dəyişikliklərinin aparılması zərurəti aktuallaşır.

MEA sistemində elmi işçilərin əmək haqlarının artırıl-masının kitabxana işçilərinə də şamil edilməsi dövlətimizin, akademiyanın rəhbərliyinin kitabxana işinin elmi inkişafındakı rolunun yüksək qiymətləndirilməsindən xəbər verir ki, bu da sevindirici haldır.

MEK-nın rəhbərliyi ilə yanaşı kitabxananın şöbə və qrup rəhbərləri, aparıcı mütəxəssisləri də mütləq müsabiqə yolu ilə seçilməlidir.

Eyni zamanda MEK-da MEA-nın kitabxana şəbəkəsinin əməkdaşlarının peşə səviyyəsinin yeniləşməsini və yüksəlməsini təmin edən ixtisasartırma sistemi yaradılmalıdır. Müvafiq tədris planı və proqramları əsasında təşkil edilmiş prosesdə kitabxana işçiləri dünya kitabxana-informasiya məkanında baş verən yeniliklərə xüsusi diqqət yetirməlidir.

Bu məqsədlə MEK-da qrant proqramları əsasında kitabxana-informasiya problemləri üzrə beynəlxalq seminar təşkil edilməsi olduqca zəruridir.

MEK-nın kadr potensialının təkmilləşdirilməsində perspektivli əməkdaşların xarici ölkələrin kitabxanalarında və ilk növbədə Rusiya EA-nın kitabxanalarında ixtisasartırma keçməsi faydalı olardı.

MEA sisteminin kitabxana işçilərinin vaxtaşırı atestasiya edilməsi də kadr tərkibinin təkmilləşməsinə yönəlmiş tədbir ola bilər.

MEK-nın kadr potensialının qüvvətləndirilməsi istiqamətində olduqca

əhəmiyyətli tədbirlərdən biri də kitabxanaya elmi müəssisə statusunun verilməsi olardı. Bu status MEK-ə kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, elmi informasiya, və digər sahələrdə yüksək elmi potensiala malik elmi mütəxəssislərin cəlb edilməsinə əlverişli şərait yaradar, onun bazasında profilli istiqamətlər üzrə aspirantura xətti ilə elmi kadrların hazırlanması üçün geniş imkanlar açardı. Rusiya və keçmiş sovet respublikaları EA-nın MEK-nın əksəriyyəti bu statusa malikdirlər.

MEA-nın MEK-sının elmi əsaslarla qurulmuş kadr siyasətinin strateji proqramı yaradılıb həyata keçirilməlidir.

Hər bir elmi müəssisənin normal fəaliyyətini təmin edən mühüm amillərdən biri də onun struktur quruluşudur. Bu baxımdan MEK-nın müasir strukturunu qənaətbəxş saymaq olar.

Son vaxtlar kitabxananın quruluşunda edilmiş yeniliklər məntiqsiz dəyişikliklər özünü doğrultmur. Belə ki, elmi kitab-xananın fəaliyyətinin ən mühüm istiqamətlərindən birini təşkil edən elmi biblioqrafiya şöbəsinin ləğv edilib onun nəşriyyat şöbəsi ilə əvəz edilməsi, ədəbiyyatın kataloqlaşdırılması ilə əlaqədar struktur dəyişiklikləri, eləcə də elmi-tədqiqat və metodiki şöbələrin fəaliyyətinin faktiki olaraq ləğv edilməsi, bu gün ehtiyac duyulmayan yeni kütləvi işlər şöbəsinin yaradılması və s. lüzumsuz təşkilati tədbirlərin qeyri məntiqli olduğunu sübut edən kifayət qədər əsaslar vardır. Bunun üçün Rusiya və digər ölkələrin elmi kitabxanalarının strukturu ilə tanış olmaq da kifayət edər.

MEK-nın fəaliyyətinin yaxın gələcəkdə dünya standartları səviyyəsinə qaldırılmasının mühüm şərtlərindən biri də onun idarəetmə mexanizminin təkmilləşdirilməsidir.

Kitabxananın idarəolunma problemi çoxşaxəli olduğundan biz bu problemin bəzi məsələlərinə toxunmaq istəyirik.

Məqalənin əvvəlində qeyd edildiyi kimi MEK-nın fəaliyyəti onun inkişaf strategiyasını əks etdirən konsepsiya əsasında idarəolunmalı və tənzimlənməlidir.

Kitabxananın müasir sosial funksiyalarını müəyyənləşdirən nizamnaməsinin yeni variantı hazırlanmalı, eləcə də onun şöbələrinin digər bölmələrinin, həmçinin işçilərin funksional vəzifələrini və mühüm texnoloji proseslərini tənzimləyən normativ sənədlərin müasir vəzifələrə uyğun yeni variantları hazırlanıb MEA-nın rəyasət heyəti tərəfindən təsdiqlənməlidir.

MEK-nın fəaliyyətinin yeniləşməsi ilə əlaqədar meydana çıxan problemlərin operativ həllində MEA-nın Reyasət heyətinin kitabxana şurasının rolu gücləndirilməli və səlahiyyətləri geniş-ləndirilməlidir.

Kitabxana şurası ilə yanaşı MEK-nın elmi metodiki şurasında da respublikanın təcrübəli kitabxana mütəxəssislərinin iştirak etməsi onun fəaliyyətinə səmərəli təsir göstərərdi.

Müasir dövrdə MEK-nın idarə olunmasında demokratik, sağlam, işgüzar iqlim yaradılmalı, süni inzibatçılıq və digər zərərli ünsürlər aradan qaldırılmalıdır.

Nəhayət, MEK-nın fəaliyyətinin elmin müasir tələblərinə uyğun şəkildə təkmilləşdirilməsi onun müstəqil bina ilə təmin edilməsi zərurətini irəli sürür.

Bu məqsədlə yaxın gələcəkdə kitabxana üçün akademiya şəhərciyinə 5 milyonluq kitab fondu sahəsi, ixtisaslaşdırılmış oxu zalı və kabinələri olan, müasir texniki vasitələr ilə təchiz edilmiş, nadir və unikal nəşrlərin mühafizəsini təmin edən xüsusi şəraitə malik yeni binanın tikilməsi ən vacib məsələ kimi meydana çıxır.

MEK-nın müstəqil bina ilə təmin edilməsi, alimlərə həftə ərzində fasiləsiz və ikinövbəli xidmət göstərilməsi üçün şəraitin yaradılması kitabxana informasiya təminatında keyfiyyətcə yeni tarixi mərhələ olardı. Bu iş nəzərə çarpan dərəcədə kapital qoyuluşu tələb edəcəkdir. Odur ki, alimlərimizin informasiyaya malik olması naminə çəkilən xərc özünü mütləq doğruldacaqdır.

Biz əminik ki, MEA-nın möhtəşəm informasiya mənbəyi olan MEK, onun zəhmətkeş kollektivi elmimizin inkişafında daha layiqli, səmərəli xidmət göstərəcəklər.

"Elm" qəzeti. 16 yanvar 2003.

HEYDƏR ƏLİYEV VƏ BAKI DÖVLƏT UNİVERSİTETİ BİR-BİRİNDƏN AYRILMAZ İKİ BÖYÜK VARLIQDIR

Xalqımız bu il mayın 10-da görkəmli dövlət xadimi, milli mədəniyyətimizin və ədəbiyyatımızın yaxın dostu, Azərbaycan xalqının keçmişini və bu gününü dərindən öyrənən və bilən, soy kökümüzə qayıtmağın yollarını açıb göstərən, Azərbaycan dilinin inkişafında çox böyük xidmətləri olan dövlət başçısı Heydər Əliyevin 80 yaşı tamam olur. Bütün Azərbaycan xalqı kimi Bakı Dövlət Universitetinin kollektivi də bu böyük bayramı yüksək təntənə ilə qeyd etməyə hazırlaşır.

Heydər Əliyev və Bakı Dövlət Universiteti bir-birindən ayrılmayan iki böyük varlıqdır. Çünki Heydər Əliyevin tərcümeyi halına nəzər salanda aydın olur ki, o, əvvəlcə bir tələbə kimi, sonra isə ölkəyə rəhbərlik edən bir şəxs kimi son əlli ildə Bakı Dövlət Universiteti ilə bağlı olmuşdur: Universitetin tarix fakültəsinə qəbul olduğu 1951-ci ildən bu günə kimi.

Azərbaycan Prezidenti Heydər Əliyev həmişə elm və təhsil adamlarının əməklərini yüksək qiymətləndirir. Bakı Dövlət Universitetinin müəllimləri də bu qayğıdan heç zaman kənarda qalmamışdır. Universitet kollektivinin əməyinə yüksək qiymət verən cənab Heydər Əliyev Bakı Dövlət Universitetini Azərbaycanın milli sərvəti, təhsilimizin flaqmanı adlandırmışdır. Bakı Dövlət Universitetinin kollektivi də cənab Heydər Əliyevin ideyalarının təbliğində, dövlətçiliyimiz və müstəqilliyimiz uğrunda apardığı bütün mübarizələrin önündə gedir və onu dəstəkləyir.

Heydər Əliyev tərəfindən neçə illər bundan öncə bünövrəsi qoyulan

işlərin çoxunun bəhrəsi hələ irəlidədir. Heydər Əliyev təkcə bu günümüz barədə deyil, gələcək nəsillərin də xoş və firavan həyatının qayğısına qalır. Zəngin təcrübəsi, bənzərsiz dövlətçilik fəaliyyəti onun öz məqsədinə daha tez çatmasına kömək edir. Heydər Əliyev hələ Azərbaycana birinci dəfə rəhbərlik etdiyi illərdə hər il yüzlərlə azərbaycanlı gənci SSRİ-nin müxtəlif şəhərlərində, ən nüfuzlu elm ocaqlarına təhsil almağa göndərirdi. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra, vaxtilə uzaqgörənliklə hazırlanan həmin kadrlar respublikamızın köməyinə çatdı. Heydər Əliyev bu gün bütün dünyada böyük dövlət xadimi kimi yüksək qiymətləndirilir.

Müasir Azərbaycan tarixinin yeni, parlaq səhifələrinin yaranmasında böyük rolu olan bu dahi şəxsiyyətin bu gün bizim ümummilli liderimiz və Prezidentimiz olması bizi sevindirir. Və ona görə də əsrimizin böyük siyasi xadimlərindən biri olan hörmətli Prezidentimiz Heydər Əliyevi ürəkdən sevir və onun bütün uğurları ilə qürurlanırıq. Heydər Əliyevin anadan olmasının 80 illik yubileyi münasibətilə universitetimizin kollektivi adından və şəxsən öz adımdan təbrik edir, ona öz müqəddəs missiyasını yerinə yetirməkdə uğurlar arzulayıram.

"Bakı Universiteti" qəzeti. 24 aprel 2003.

KİTABXANALAR MÜASİRLƏŞDİRİLMƏLİDİR

Kiril əlifbalı ədəbiyyat isə qorunmalıdır

Müxtəlif çap və əlyazma əsərlərindən ictimai istifadəni təşkil edən kitabxanaların cəmiyyətin tərəqqisində çox mühüm rolu var. Müstəqillik əldə etdikdən sonra bir çox sahədə olduğu kimi, mədəni-maarif müəssisələrinin bu qolu da müəyyən çətinliklərlə üzləşdi.

BDU-nun Kitabxanaşünaslıq kaferdasının müdiri, professor Abuzər Xələfovla söhbətimiz çağdaş dövrdə kitabxanaların işi və inkişaf istiqaməti haqqındadır.

- Keçmiş imperiya dövründən miras qalmış kitabxanaları necə dəyərləndirirsiniz?

Bu kitabxanaları qənaətbəxş hesab etmək olar. O dövrdə kitabxanalar sayca artaraq ən yaxşı ədəbiyyatla komplektləşdirilmiş, kitabxana kadrlarının hazırlanması prosesi genişləndirilmişdi. Bu işdə ən böyük nailiyyətlərdən biri bu idi ki, respublikanın ən ucqar yaşayış məntəqələrində də belə kitabxana açılmışdı. Lakin bu sahədə ciddi nöqsanlar da var idi. Kitabxanaların yarıdan çoxunun maddi-texniki səviyyəsi aşağı, binaları isə bərbad vəziyyətdə idi. Kitabxanaların əksəriyyətinin qiraət zalı yox idi. Əmək haqqı çox aşağı olduğuna görə, bir çox qabiliyyətli işçi oradan uzaqlaşmaq məcburiyyətində qalırdı. Oxucu ilə kitabxana arasında ideoloji sədd yaranmışdı. Və kitabxanaların üzərində ciddi senzura var idi. 1993-cü ilə qədər bizim kitabxanaların da

bağlanmaq təhlükəsi var idi. Cəbhəçilərin dövründə kitabxanaları bağlayıb ofis etmək istəyirdilər. Hətta M.F.Axundov adına kitabxananı bağlayıb, binasında Ali Məhkəməni yerləşdirmək üçün cəhdlər də edilirdi. Bütün bu prosesləri görəndə mənə də elə gəlirdi ki, yəqin kitabxanalar tezliklə ləğv olunacaq. Lakin H.Əliyev hakimiyyətə gəldikdən sonra qərar qəbul edildi ki, kitabxanalar xalqın milli sərvətidir və kitabxana binalarını özəlləşdirmək olmaz.

- Latın qrafikalı əlifbanı qəbul etdikdən sonra kitabxana işində yaranan problemlər necə yoluna qoyulmalıdır?

- Yeni əlifbaya keçidlə əlaqədar hazırda müəyyən problemlər mövcuddur. Kiril əlifbalı ədəbiyyatı atılmaq əvəzinə qorunub saxlanmalıdır. Əks təqdirdə isə öz mənəviyyatımızdan uzaqlaşmalı olarıq. Bir misal çəkim; 1928-ci ildə yeni əlifba qəbul olunanda ərəb əlifbası ədəbiyyatın hamısını dini yazı adı altında məhv etdilər. Beləliklə də, nəsillər arasında əlaqə kəsildi və xalq soy – kökündən uzaqlaşdırıldı.

- Son dövrlər kitabxana oxucularının azalması cəmiyyətin inkişafında kitabxanaların rolunun azalmasına dəlalət etmir ki?

- Əslində bu heç də belə deyil. Düzdür, kitabxanaya gələnlərin sayı Sovet dönəmi ilə müqaisədə çox az olsa da, hazırda oxucuların sayı ilbəil artır. Son illər hətta kənd kitabxanalarında da oxucuların sayı getdikcə çoxalır. Bunu bura kursa gələn kənd kitabxana müdirlərinin arasında apardığım sorğuya əsasən deyirəm.

- Kitabxana sistemində əmək haqqının az olması ucbatından yeni kadrlar öz peşəsi üzrə işləməkdən boyun qaçırırlar. Kitabxanaçılıq fakültəsi isə hər il yüzə yaxın məzun buraxmaqla öz ixtisası üzrə işləmək istəməyənlərin sayını artırmır ki?

- Düzdür, kitabxana sistemində maaşın az olması qabiliyyətli kadrların bu sahədən uzaqlaşmasına səbəb olur. Bu əsasən şəhər yerlərində belədir. Kənd yerlərindəsə əksinə, kitabxana işçilərinə ehtiyac duyulur. Hazırda şəhərdə kitabxanalarda işləyənlərin əksəriyyətinin isə kitabxana təhsili yoxdur. Ona görə də kitabxanaçılıq fakültəsini bitirənləri işlə təmin etmək mümkün deyil.

"Həftə içi" qəzeti. 25 aprel 2003

XALQIMIZIN MİLLİ İFTİXARI

XX əsr Azərbaycan xalqına çox böyük bir taxrixi şəxsiyyət bəxş etmişdir. Bu şəxsiyyət resbuplikamızın Prezidenti, görkəmli dövlət, siyasət elm və mədəniyyət xadimi Heydər Əlirza oğlu Əliyevdir. XX əsrin ikinci yarısında hakimiyyətə gələn, 34 il ardıcıl olaraq dövlət sükanının arxasəndə məharətlə dayanan, Azərbaycanın tərəqqisi və inkişafı üçün cahanşümul tarixi əhəmiyyətə malik işlər görən bu böyük insan Azərbaycan xalqının sevimli rəhbəri imicini qazanmaqla dünya şöhrətli bir şəxsiyyət səviyyəsinə qalxmış, dünyanın görkəmli siyasətçilərinin etiraf etdiyi kimi şərqin ulduzuna çevrilmişdir.

Heydər Əliyev çox maraqlı, mürəkkəb, zəngin, keşməkeşli bir həyat ömür yolu keçmiş, həyatın bütün çətinliklərindən qalib çıxmış, öz zəhməti, zəkası, fitri qabiliyyəti ilə uca zirvəyə yüksəlmişdir. Bu uca zirvəyə yüksəlmişdir. Bu uca zirvənin yolları daşlı-kəsəkli olsa da, onun polad iradəsi, dönməz xarakteri, şəxsiyyət kimi bütövlüyü bu zirvəni fəth etməkdə ona kömək etmişdir.

1950-ci ildə Sankt-Peterburq (Leninqrad) milli təhlükəsizlik orqanları məktəbini əla qiymətlərlə, 1957-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirən və böyük həyat təcrübəsinə malik olan Heydər Əliyev artıq gənc yaşlarından rəhbər işə irəli çəkilmiş, 1964-cü ildə Azərbaycan Dövlət Təhlükəsizlik komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsini tutmuşdur. Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyevə qədər Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində ancaq rus millətindən olan şəxslər işləmişlər. Heydər Əliyev bu böyük vəzifəni tutan ilk Azərbaycanlı olmuşdur. Heydər Əliyevin dövlətçilik məharətinə, böyük təşkilatçılıq qabiliyyətinə yuxarı dairələrin marağı gün-gündən artmış, o, böyük şəxsiyyət imici qazanmışdır.

Məhz buna görədir ki, 1969-cu ilin iyul ayında Heydər Əliyev Sov. İKP MK-nın təvsiyəsi ilə Azərbaycan Kommunist Partiyasının birinci katibi seçildi. O, bu vəzifəyə seçilərkən respublika rəhbərliyinin yuxarı eşalonunda böyük hərc-mərlik, dedi-qodu, anarxiya, qeyri-stabillik hökm sürürdü. Respublikamız xalq və kənd təsərrüfatlarının, sənayenin, inkişaf sahəsində SSRİ respublikaları içərisində sonuncu yeri tuturdu. Dövlət planlarının heç biri yerinə yetirilmirdi. Belə ağır bir şəraitdə hakimiyyətə gələn Heydər Əliyev öz təşkilatçılıq qabiliyyəti, möhkəm iradəsi sayəsində qısa müddətdə böyük müvəffəqiyyətlər əldə etdi, xalqın məhəbbətini qazandı, Azərbaycan xalqının sevimli, ədalətli rəhbərinə çevrildi. Respublikanın zəhmətkeşləri, ziyalılar tərəfindən ardıcıl dəstəklənməyə başlandı.

Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi həyatına uğurlu yeniliklər, dəyişikliklər gətirdi. Məhz Heydər Əliyevin qayğısı nəticəsində həmin dövrdə Azərbaycan sosial-iqtisadi və mədəni cəhətdən yüksək səviyyədə inkişaf edərək Sovetlər Birliyinin ən böyük mükafatlarına layiq görülmüş, xalqımızın adı həmişə hörmət və ifitixarla çəkilmişdir. Heydər Əliyevin qazandığı bu müvəffəqiyyətlər qısa bir zaman içərisində onun bir partiya və dövlət xadimi kimi nüfuzunun təkcə Azərbaycanda deyil, bütün SSRİ məkanında artmasına, böyük şöhrət qazanmasına səbəb oldu. Məhz buna görədir ki, o, 1979-cu ildə Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ildə isə üzv seçildi və 1982-ci ildə SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini vəzifəsinə irəli çəkildi. SSRİ hökümətində ikinci şəxsiyyət olan Heydər Əliyev tezliklə SSRİ məkanında, həmçinin xarici ölkələrdə müdrik dövlət xadimi kimi böyük nüfuz qazandı. Bu da Sovetlər birliyi dövründə beynəlxalq aləmdə öz fəaliyyəti ilə böyük şöhrət və hörmət qazanmış Azərbaycan oğlunun dünya siyasətində tutduğu yüksək yerdən xəbər verirdi.

O, Moskvada işlədiyi müddətdə də Azərbaycanla əlaqəsini kəsməmiş, həmişə doğma respublikanın qeydinə qalmış, onun inkişafı üçün əlindən gələni əsirgəməmişdir.

1991-ci ildə SSRİ dağılandan sonra Azərbaycan müstəqillik əldə etdi. Azərbaycan xalqı illərdən bəri ürəyində bəslədiyi arzusuna çatdı. Ancaq bu müstəqillik Azərbaycan xalqına çox baha başa gəldi. 1988-ci ildə erməni daşnak millətçiləri tərəfindən qızışdırılan Dağlıq Qarabağ ermənilərı Ermənistan Respublikasına və SSRİ dövlətinə arxalanaraq Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi niyyətlərini həyata keçirmək üçün açıq-aşkar separatçılıq fəaliyyətinə başladılar.

Bu məsələnin həllində o zamankı Azərbaycan rəhbərliyinin tam səbatsızlıq göstərməsi, Moskvanın tapşırıqlarını canla-başla yerinə yetirməsi torpaqlarımızın Bir hissəsinin ermənilər tərəfindən işğal olunmasına gətirib çıxardı. Müstəqillik əldə etdikdən sonra hakimiyyt başına gəlmiş Azərbaycan Xalq Cəbhəsi və Müsavat cütlüyü hakimiyyətinin səriştəsizliyi üzündən Dağlıq Qarabağ və ona bitişik olan rayonlarımızın əraziləri erməni faşistləri tərəfindən işğal edildi. Ölkədə hakimiyyət böhranı baş verdi.

Acınacaqlı haldır ki, 1993-cü ilin əvvəllərində Azərbaycanın bir neçə müstəqil bölgəyə parçalanması prosesi gedirdi. Respublikamızda ayrı-ayrı xanlıqlar yaradılması həvəsi ilə yaşayan, xalq tərəfindən tanınmayan və qətiyyətlə rədd edilən bəzi üzdəniraq liderlər üçün hakimiyyət ehtirası vətən, xalq, torpaq kimi müqəddəs anlayışlardan çox-çox yüksəklərdə dururdu. Məhz belə bir dövrdə - ölkəmizin real vətəndaş müharibəsi ilə üz-üzə dayandığı bir zamanda xalqın çoxdan bəri arzuladığı şəxsiyyətin- Heydər Əlirza oğlu Əliyevin Azərbaycan rəhbərliyinə qayıtması ölkəni parçalanma bəlasından xilas etdi, milli dövlətçiliyimizin qorunub saxlanılmasına əlverişli şərait yaratdı.

Heydər Əliyevin 1993-cü ildən başlayaraq respublikamızda yaranmış çətinlikləri məhz xalqla məsləhətləşərək, xalqa arxalanaraq aradan qaldırması ona bəslənilən ümidi və ehtiramı durmadan artırdı. Onun milli dövlətçiliyimiz, milli ideologiyamız və müstəqilliyimiz istiqamətində apardığı işlər əvəzsizdir, misilsizdir. Bunu zaman bir daha sübut edir.

Müasir Azərbaycan tarixinin yeni, parlaq səhifələrinin yaranmasında böyük rolu olan bu dahi şəxsiyyətin bu gün bizim ümummilli liderimiz və Prezidentimiz olması bizi sevindirir. Və ona görə də əsrimizin böyük siyasi xadimlərindən biri olan hörmətli Prezidentimiz Heydər Əliyevi ürəkdən sevir və onun bütün uğurları ilə qürurlanırıq.

İllər, əsrlər keçəcək, ancaq Azərbaycan tarixinin Heydər Əliyev dövrü tariximizin ən parlaq səhifələrindən biri kimi qalacaq. Bu il may ayının 10-da hörmətli Prezidentimizin 80 yaşı tamam olur.

Fürsətdən istifadə edərək hörmətli Prezidentimizi anadan olmasının 80 illik yubileyi münasibətilə təbrik edir, ona möhkəm can sağlığı, uzun ömür arzulayıram.

"Qərbi Azərbaycan" qəzeti. 10 may 2003.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Möhtərəm cənab Prezident!

Azərbaycan kitabxanaçılar cəmiyyəti Sizi - xalqımızın dahi siyasi xadimini, dünya şöhrətli dövlət başçısını, müstəqilliyimizin və suverenliyimizin təminatçısını 80 illik münasibətilə ürəkdən təbrik edir, sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı və uğurlar arzulayır.

Hörmətli Heydər Əlirza oğlu!

Biz-Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxana işinin çox saylı təmsilçiləri uzun illərdən bəridir ki, sizin zəngin ictimai-siyasi fəaliyyətinizi diqqətlə izləyir, istər respublikamızda, istərsə də xarici ölkələrdə qazandığınız diplomatik nailiyyətlərdən iftixar duyur, müstəqil Azərbaycanımızın bütün sahələrdə tərəqqisi və inkişafı naminə həyata keçirdiyiniz cahanşümul tədbirləri səmimi qəlbdən dəstəkləyirik.

Siz 50-60-cı illərdən – respublikamızda bir sıra məsul vəzifələr daşıdığınız vaxtlardan öz işgüzarlığınız, prinsipiallığınız və obyektivliyinizlə əhalinin bütün təbəqələrinin dərin rəğbətini qazanmısınız. Elə bu yüksək keyfiyyətlərinizə görə də 1969-cu ildə Azərbaycan Kominist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə irəli çəkilmiş, xalqımızın inam və etimadını son dərəcədə yüksək səviyyədə doğrultmusunuz. O zamanlar Sovet İttifaqının müttəfiq respublikaları arasında demək olar ki, həyati əhəmiyyətli bütün sahələrdə geridə qalan Azərbaycan məhz sizin məqsədyönlü xidmətiniz sayəsində qısa müddət ərzində dirçəlməyə, inkişaf etməyə və tanınmağa başlamışdı. Təsadüfi deyil ki, sizin respublikamıza rəhbərlik etdiyiniz 70-80-ci illər vətənimizin və xalqımızın müasir tarixi salnaməsinə qızıl hərflərlə həkk olunmuşdur.

Bu dövrdə siz ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatının sürətli dirçəlişi istiqamətində taleyüklü işlər görmüş, xalqımızın dünya xalqları cərgəsində özünəlayiq şərəfli yer tutması üçün səmərəli nəhəng tədbirlər həyata keçirmisiniz.

Biz məmnuniyyətlə vurğulamaq istəyirik ki, siz həm də çoxsaylı mədəniyyət işçilərinin, o cümlədən kitabxanaçılar ordusunun yaxın dostu, qayğıkeşi və İlhamvericisisiniz. Sizin rəhbərliyinizlə Azərbaycanın müxtəlif tipli və növlü kitabxanaları durmadan inkişaf etmiş, bütün yaşayış məntəqələrində kitabxanaların sayı artmış, əhaliyə kitabxana xidmətinin səviyyəsi yüksəlmiş, kitabxana kitabının hər bir ailəyə çatdırılması sahəsində çox böyük müvəffəqiyyətlər qazanılmışdır.

Əziz Prezidentimiz!

Sizin 1993-cü ildə xalqımızın təkidli tələbi və istəyi ilə yenidən Azərbaycanda hakimiyyət başına gəlməyiniz bizi hədsiz sevindirdi. Çünki o zamanlar hay-küylə iqtidarda möhkəmlənmək xülyası ilə yaşayan, amma dövlət idarəçiliyindən xəbəri olmayan üzdəniraq liderlər ölkəmizi parçalanmaq təhlü-

kəsinə sürükləyirdilər. Siz vaxtında gəldiniz və xalqımızı fəlakətdən qurtara bildiniz. Buna görə Sizə minnətdarıq!

Müstəqil Azərbaycan Respublikasının inkişafı, milli dövlətçiliyimizin möhkəmlənməsi, ölkəmizin beynəlxalq aləmdə imicinin yüksəlməsi məhz sizin adınızla bağlıdır.

Bütün mühüm sahələrlə yanaşı, mədəniyyət və kitabxana işinə sonsuz qayğınız və diqqətiniz bizi daha da ruhlandırır. Sizin M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında dediyiniz: "Kitabxana, xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mənəviyyatını nümayiş etdirən amillərdən biridir", - sözləriniz kitabxana işinə yüksək qiymətinizin göstəricisidir.

Hörmətli Heydər Əlirza oğlu!

Hamıya məlum olduğu kimi bu ilin payızında Prezident seçkiləri keçiriləcəkdir. Sizi əmin edirik ki, vətənimizin daha da çiçəklənməsini arzulayan milyonlarla elm, təhsil və mədəniyyət işçiləri sırasında kitabxanaçılar ordusu da bu mühüm seçkilərdə xalqımızın yeganə layiqli namizədinə - Heydər Əlirza oğlu Əliyevə yekdilliklə səs verəcək, sizin daxili və xarici siyasətinizi hər bir zaman qətiyyətlə dəstəkləyəcəkdir. Bu yolda sizə böyük uğurlar dilәyirik!

Çoxsaylı kitabxana ictimaiyyəti adından sizi bir daha 80 illik yubileyiniz münasibətilə təbrik edir, müstəqil Azərbaycanımızın dünya dövlətləri sırasında daha uğurla addımlaması, işğal olunmuş ərazilərimizin azğın qəsbkarlardan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası və xalqımızın yeni-yeni nailiyyətlər qazanması naminə sizə dünyanın ən şirin neməti olan sağlamlıq və böyük müvəffəqiyyətlər arzulayırıq.

"Azərbaycan" qəzeti. 13 may 2003.

KİTABXANAÇILAR ADINDAN TƏŞƏKKÜR

Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevə

Hörmətli Prezident!

Bu günlərdə digər sahələrdə çalışanlarla yanaşı, mədəniyyət işçilərinin əməkhaqqının 50% artırılması ilə bağlı imzaladığınız fərman biz kitabxana işçiləri tərəfindən də böyük rəğbət hissi ilə qarşılanmışdır.

Bu, əhaliyə kitab xidməti ilə məşğul olan nəcib peşə sahiblərinə, çoxsaylı kitabxana işçilərinə əvəzsiz töhfə Sizin milli mədəniyyətimizin mühüm tərkib hissəsi olan kitabxana işinə yüksək qiymətinizin parlaq təzahürüdür.

Bir neçə il əvvəl M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasındakı çıxışınızda "Kitabxana, xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir

yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də, kitabxanaya daimi hörmət xalqımızın mənəviyyatını nümayiş etdirən amillərdən biridir" kimi dəyərli sözlər söyləməniz Sizin bu sahəyə həmişə xüsusi diqqət və qayğı bəslədiyinizi nümayiş etdirir.

Əziz Prezidentimiz!

Siz uzun illər ərzindəki çoxşaxəli fəaliyyətiniz dövründə Azərbaycanda iqtisadiyyatın, elmin, təhsilin, mədəniyyətin, ədəbiyyatın və başqa sahələrin inkişafına hər zaman qayğı ilə yanaşmısınız.

Biz həmişə sizin zəngin elmi-nəzəri irsinizi diqqətlə öyrənir, dövlətimizin daha da çiçəklənməsi naminə onları geniş oxucu kütləsi arasında məqsədyönlü şəkildə təbliğ edərək, sonsuz məhəbbətlə gələcək nəsillər üçün mühafizə edirik.

Biz Sizin çoxcəhətli və parlaq xarici və daxili siyasətinizi dəstəkləyir, Sizi həmişə Azərbaycan dövlətinin Prezidenti görmək istəyirik. Bu ilin payızında keçiriləcək seçkilərdə Sizin yenidən müstəqil ölkəmizin Prezidenti vəzifəsinə seçilməyiniz naminə bu gün əlimizdə olan bütün təbliğat vasitələrindən geniş istifadə edirik və gələcəkdə də Sizin düzgün və məqsədyönlü siyasi və iqtisadi kursunuzu müdafiə etməkdə davam edəcəyik.

Sizə milli dövlətçiliyimizin tərəqqisi və çiçəklənməsi naminə möhkəm can sağlığı, uzun ömür arzulayırıq!

"Azad Azərbaycan" qəzeti. 13 iyun 2003.

HEYDƏR ƏLİYEV MƏKTƏBİNİN LAYİQLİ YETİRMƏSİ

Son zamanlar Azərbaycan siyasətində ən perspektivli diplomat kimi yüksək nüfuz qazanan İlham Əliyev yaxın və uzaq xaricdə birmənalı şəkildə böyük gələcəyi olan parlaq siyasətçi kimi qiymətləndirilməkdədir. Bu , təsadüfi deyil. XX əsrdə dünya siyasət meydanında özünün fenomenal intellektual səviyyəsi, fitri təşkilatçılıq bacarığı, çevik diplomatik qabiliyyəti, qibtə ediləcək peşəkarlığı ilə ən müasir siyasi xadimlərlə bir sırada qərarlaşmış dünya şöhrətli Azərbaycan lideri Heydər Əliyevin yetirməsi, şagirdi və davamçısı məhz bu cür yüksək keyfiyyətlərə malik olmalı idi.

İlham Əliyev bu şöhrəti birdən-birə qazanmamışdır. Onun hələlik o qədər də geniş olmayan tərcümeyi halında elə dəyərli, elə qiymətli faktlar var ki, onların hər biri ölkəmizə , xalqımıza başucalığı gətirəcək səviyyədədir.

Kiçik yaşlarından yüksək ailə tərbiyəsi, fitri istedadı və oxuyub-öyrənmək həvəsi ilə diqqəti cəlb etmiş İlham Əliyev orta məktəb illərindən şagird dostlarının və müəllimlərinin sevimlisinə çevrilmişdir. Atasının respublikamızda yüksək vəzifə aparmasına baxmayaraq, onu yaxından tanıyanların dediyinə görə, heç vaxt özünü yaşıdlarından üstün tutmağa çalışmamış, onlara

qaynayıb-qarışmış, özünün sadəliyi və səmimiliyi ilə dərin hörmət qazanmışdır.

Orta məktəbi bitirdikdən sonra Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun beynəlxalq münasibətlər və dünya siyasəti fakültəsinə daxil olanda da özünün yüksək intellektual səviyyəyə malik olduğunu nümayiş etdirmişdir. Ali məktəb illərindən beynəlxalq münasibətlər və beynəlxalq əlaqələr sahəsində elmi dünyagörüşünü və elmi-nəzəri biliyini fasiləsiz şəkildə artıran bir gənc dünya siyasətinə kifayət qədər bələd olaraq peşəkar bir diplomat kimi püxtələşmişdir. Təsadüfi deyil ki, bu nüfuzlu institutu fərqlənmə diplomu ilə başa vuran İlham Əliyev elmi şuranın yekdil qərarı ilə həmin ali məktəbdə saxlanılmış, aspiranturada təhsilini davam etdirməsi tövsiyə olunmuşdur. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun müəllimi kimi gənclərə dünya siyasətinin incəliklərini aşılayan bu istedadlı oğlan qısa müddətdə dissertasiya işini yazıb başa çatdırmış və 25 yaşında müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

Təəssüf ki, Sovetlər Birliyi rəhbərliyinin, ilk növbədə xalqımıza düşmən münasibətlər bəsləyən Mixail Qorbaçovun məkrli hərəkətləri nəticəsində əvəzsiz öndərimiz Heydər Əliyev Bürodan və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefaya göndərilməndən sonra İlham Əliyev də dərs dediyi institutdan uzaqlaşdırıldı. Nəticədə o da ailə üzvləri ilə birgə ağır məhrumiyyətlərə düçar oldu, sıxıntılarla üzləşdi, həyatın ağrı acılarını doğmaları ilə bölüşdü, amma büdrəyib yıxılmadı. Atası ilə əl-ələ, çiyin-çiyinə verərək Azərbaycanın qara günlərində doğma xalqa arxa oldu, düşmən qüvvələrə qarşı mübarizəyə girişdi.

"Haqq nazilər, üzülməz", - deyib babalarımız. Doğrudan da belə oldu. 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycan rəhbərliyinə qayıdan Heydər Əliyevin o dar məqamlarda ən yaxın silahdaşlarından biri də məhz İlham Əliyev oldu.

Azərbaycan dövlətçiliyinin parçalanmasının qarşısının alınmasında, milli müstəqilliyimizin qorunub saxlanılmasında, vətəndaş müharibəsinə yol verilməməsində Heydər və İlham Əliyevlər doğma xalqa arxa, dayaq dura raq haqq-ədalətin qələbəsini təmin etdilər. Xalq isə öz xilaskarını heç zaman unutmur və həmişə ona güvənir.

Ötən illər ərzində İlham Əliyev siyasət aləmində çox böyük uğurlar qazanmışdır. Onun istər Azərbaycan Milli Məclisinin üzvü, istərsə də Yeni Azərbaycan Partiyasının sədrinin birinci müavini kimi gördüyü işlər çox təqdirəlayiqdir.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-Prezidenti olaraq beynəlxalq neft şirkətləri ilə birgə həyata keçirdiyi tədbirlər bu gənc diplomatın potensial imkanlarından xəbər verir. Prezident Heydər Əliyevlə birgə Azərbaycanın neft strategiyasını uğurla müəyyənləşdirən İlham Əliyevin iştirakı ilə dünyanın 15 ölkəsini təmsil edən 30 nüfuzlu şirkətlə 22 neft müqaviləsi imzalanmışdır. "Bakı-Tbilisi-Ceyhan" neft boru kəmərinin reallaşmasında da onun xidmətləri az deyil.

Ümumiyyətlə, bu yaxınlarda nəşr olunmuş "Azərbaycan Xəzər nefti" kitabı İlham Əliyevin neft siyasətini dərindən bildiyini əyani şəkildə təsdiqləyir.

Avropa Şurası Parlament Assambleyası sədrinin müavini və Büro üzvü olan İlham Əliyev Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, ölkəmizin dünyaya inteqrasiyasında, Qarabağ savaşının əsl mahiyyətinin açıqlanmasında, Ermənistanın işğalçı kimi tanınması istiqamətində də çox uğurlu siyasət yürüdür və əminik ki, yaxın gələcəkdə bütün bunlar öz bəhrəsini verəcəkdir.

Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev ölkəmizdə idmanın inkişafına xüsusi qayğı göstərir. Məhz onun rəhbərliyi ilə idmançılarımız son zamanlar olimpiya oyunlarında və digər beynəlxalq yarışlarda Azərbaycan bayrağını yüksəklərə qaldırıblar.

Hazırda Azərbaycanın baş naziri kimi səmərəli fəaliyyət göstərən İlham Əliyevin daha böyük uğurlar qazanmasına bütün xalqımız inanır.

Heydər Əliyev məktəbinin layiqli davamçısı kimi o, həm də Azərbaycan Respublikasının Prezidentliyinə namizəddir. Biz onu dəstəkləyirik və hörmətli Heydər Əliyevin məsləhət bilməyi təqdirdə ona səs verəcəyimizi bəyan edirik.

İlham Əliyev Azərbaycan diplomatiyasının, Azərbaycan siyasətinin gələcəyidir. Məhz o, Heydər Əliyev kursunu davam etdirməyə, ölkəmizi ləyaqətlə təmsil etməyə və xalqımızı daha xoşbəxt günlərə aparmağa qadirdir.

"Azad Azərbaycan" qəzeti. 1 oktyabr 2003.

HƏYATIMIZIN ƏN AĞIR İTKİSİ

Müdrik rəhbərimiz Heydər Əliyevi çoxumuz tanıyırdıq. Lakin onun elə şəxsi keyfiyyətləri var idi ki, bunu yalnız dahi siyasətçiyə yaxın adamlar bilirdilər. Onlardan biri də tarix elmləri doktoru, professor Abuzər Xələfovdur. Onun fikirləri ilə tanış olsaq, Heydər Əliyev haqqında bilgilərimizi bir az da zənginləşdirmiş olarıq. A.Xələfovun dediklərindən:"Bu dünyada gəlimlər də olur, gedimlər də. Mənim 70-dən artıq yaşım var, mənim də həyatımda gəlimlər də olub, gedimlər də. Mən deyərdim ki, Heydər Əliyev dünyasını dəyişdi, ona Heydər Əliyev öldü deyə bilmərəm, o məhz dünyasını dəyişdi. Onun dünyasını dəyişməsini mənim həyatımda ən ağır itki hesab edirəm. Ona görə ki, Heydər Əliyev Azərbaycan xalqının, dilinin, dövlətçiliyinin, Azərbaycanın ilk konstitutsiyasının, ilk müstəqil Azərbaycan dövlətinin yaradıcısıdır. Heydər Əliyev Azərbaycan xalqının varlığıdır. Heydər Əliyev Azərbaycan xalqının ən sevimli, ən böyük şəxsiyyətidir. Azərbaycan xalqı əsrlər boyu çox böyük şəxsiyyətlər yetirmişdir, biz bu şəxsiyyətləri heç vaxt unutmamışıq, biz bu şəxsiyyətləri əbədi olaraq qəlbimizdə yaşadırıq. Heydər Əliyevin böyüklüyü

ondadır ki, Azərbaycan xalqını öz soy-kökünə qayıtmasında, Azərbaycan xalqının böyük şəxsiyyətlərinin üzə çıxarılmasında, onlara yubileylər keçirilməsində, millətin bütün dünyada intellektual səviyyəli bir millət kimi təbliğ olunmasında böyük rol oynamışdır. Əgər Heydər Əliyev olmasaydı, bu gün müstəqil Azərbaycan yox idi. 1993-cü ildə Azərbaycanın həm daxili düşmənləri, həm sapı özümüzdən olan baltalar, həm də qanımıza susayan xarici düşmənlərimiz Azərbaycanı parçalamışdılar. Heydər Əliyev Azərbaycanı bu parçalanmadan xilas etdi. Heydər Əliyev Azərbaycanı bütöv bir dövlət kimi saxladı. Azərbaycan deyəndə elə bil ki, dünyanın ən böyük dövlətini nəzərdə tutursan, sonra fikirləşirsən ki, Azərbaycan xəritədə ən kiçik bir dövlətdir, hansı ki, 8 milyon əhalisi var. Doğrudur, azərbaycanlıların sayı dünyada 50 milyondur, ancaq bu ölkədə onların 8 milyonu yaşayır. Heydər Əliyev məhz bu 8 milyonluq əhalisi olan dövləti dünyanın ən inkişaf etmiş dövlətləri səviyyəsinə çatdırıb. Heydər Əliyevin bu fəaliyyəti Azərbaycan xalqını dünyada tanıtdırdı, dünyanı Azərbaycan xalqına tanıtdırdı. Ona görə də, mən bir ziyalı kimi bu gün Heydər Əliyevin dəfn mərasimini bu şəkildə təşkil edən və ürəkdən ağlayan böyük xalqım qarşısında baş əyirəm. Mənim xalqım nə qədər böyük xalq olduğunu və sevimli oğlunu nə qədər yüksək qiymətləndirdiyini sübuta yetirdi.

Həyatda pessimist olmaq olmaz. Heydər Əliyev özündən sonra böyük bir iş qoyub getmişdir. Dünya dövlətlərinin başçılarının əsərlərini, məqalələrini oxumuşam, amma Heydər Əliyev kimi dünyagörüşlü, dərrakəli, ağıllı bir sərkərdəyə heç yerdə rast gəlməmişəm. Onun sovet hakimiyyəti və müstəqillik illərində 200-dən artıq kitabı çap olunmuşdur. 10 cildlik, 2 cildlik, 4 cildlik əsərləri bunların hamısını üst-üstə gəlsək, bir mütəxəssis kimi mən deyərdim ki, 40-45 cildlik əsərləri vardır. Belə bir dövlət xadimi isə əsrlər boyu tək-tək yetişir. Mən belə hesab edirəm ki, Heydər Əliyevin bu elmi irsini, mədəni və mənəvi irsini öyrənməklə, bunları həyata keçirməklə Azərbaycan dünyanın ən qüdrətli ölkələrindən birinə çevriləcək.

Mən bir də ona görə sevinirəm ki, Heydər Əliyev öz yerində geniş dünyagörüşlü bir siyasi xadim yetişdirərək Azərbaycan xalqı üçün yadigar qoyub getdi. İlham Əliyev Heydər Əliyevin siyasətini çox böyük müvəffəqiyyətlə davam etdirəcək. Onun bütün arzu istəklərini bütöv Azərbaycanın sərhədlərini birləşdirərək, Azərbaycanın işğal olunmuş torpaqla-rını qaytararaq Heydər Əliyevin arzusunu yerinə yetirəcək. Bizim borcumuz isə İlham Əliyevin ətrafında sıx birləşərək Heydər Əliyevin arzularını yerinə yetirməsi üçün ona daha yaxından köməklik etməkdir. Mən bir daha Azərbaycan xalqına, İlham Əliyevə və onun ailəsinə dərin hüznlə başsağlığı verirəm, Heydər Əliyevin qarşısında isə baş əyirəm. Allah rəhmət eləsin."

"Azad Azərbaycan" qəzeti. 17 dekabr 2003

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham müəllim!

Sizin 2004-cü il yanvarın 12-də imzaladığınız "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" tarixi sərəncamlarınızı çox böyük sevinc hissi ilə qarşıladıq. Bu sərəncamlar müstəqil dövlətimizin elmi-mədəni həyatında ən önəmli hadisələrdən biri kimi bütün ziyalılarımızda ruh yüksəkliyi doğurmuşdur.

Məlum olduğu kimi milli ensiklopediyalar hər bir xalqın tarixinin, mədəniyyətinin, iqtisadiyyatının, ədəbiyyatının, bir sözlə, varlığının əvəzsiz göstəricisidir. Bu mənada XX əsrin 70-90-cı illərində nəşr olunmuş Azərbaycan Sovet Ensiklopediyası vaxtilə xalqımızın və respublikamızın taleyində çox mühüm ictimai-siyasi və elmi-mədəni hadisə kimi qiymətləndirilmişdir. Bu gün mən xüsusi minnətdarlıq hissi ilə vurğulamaq istəyirəm ki, sovet hakimiyyəti dövründə ilk dəfə olaraq böyük alimlər və mütəxəssislər ordusunun gücü ilə hazırlanmış ASE-nin nəşri məhz xalqımızın dahi oğlu, əvəzsiz şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin təşəbbüsü və rəhbərliyi ilə yüksək səviyyədə həyata keçirilmişdir.

Son zamanlar xalqımızın milli müstəqilliyə qovuşması nəticəsində ictimai-siyasi və mədəni həyatımızda baş vermiş əsaslı yeniliklərlə bağlı bu fundamental nəşrin tam obyektiv şəkildə işlənərək yenidən çap etdirilməsi, heç şübhəsiz ki, dövlət əhəmiyyətli mahiyyət kəsb edir.

Azərbaycan Milli Ensiklopediyasının latın dilində nəşr olunması, onun mətninin elektron daşıyıcıları və İnternet vasitəsilə yayılmasının təmin edilməsi ilə bağlı göstərişlərinizin öz gözəl bəhrəsini tezliklə verəcəyinə qəlbən əminəm.

Son zamanlar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin latın qrafikalı Azərbaycan əlifbasına keçidlə bağlı fərmanlarının davamı olaraq görkəmli ədəbiyyat xadimlərimizin vaxtilə kiril qrafikası ilə çap olunmuş həmişəyaşar əsərlərinin latın qrafikasında yenidən kütləvi şəkildə nəşri ilə bağlı sizin sərəncamınız əslində milli mədəniyyətimizə və ədəbiyyatımıza qırılmaz tellərlə bağlılığınızı və onların daha geniş təbliğinə sonsuz qayğınızı əyani şəkildə sübut edir.

Ömrünü kitabxana işinə həsr etmiş bir kitabxanaşünas alim kimi bu sənəddə mənim diqqətimi cəlb edən cəhətlərdən biri də nəşr olunacaq qiymətli kitabların ilk növbədə kütləvi kitabxanaların və orta təhsil müəssisələrindəki kitabxanalara verilməsi ilə əlaqədar göstərişiniz oldu. Digər tərəfdən latın qrafikasında Azərbaycan kitabxanasının virtual kitabxanasının yaradılması haqqında göstərişiniz də cəmiyyətin informasiyalaşdırılması dövründə çox dəyərli mahiyyət kəsb edir.

Burada çox önəmli bir məsələni qeyd etmək istəyirəm. Məlum olduğu

kimi Azərbaycan Respublikasında 8 milyon, bütün dünyada isə 50 milyon nəfərdən çox azərbaycanlı yaşayır. Ölkəmizdən kənarda yaşayan soydaşlarımızın əksəriyyəti kiril əlifbasını bilmir. Azərbaycan ədəbiyyatı klassiklərinin qiymətli əsərlərinin latın qrafikasında nəşr edilməsi milli birliyimizin, milli bütövlüyümüzün yaranmasına mühüm təsir göstərəcək ən mühüm amillərdən biridir. Bütün bunlarla yanaşı dünya ədəbiyyatı klassiklərinin ən məşhur əsərlərinin də nəşr ediləcək siyahıya daxil edilməsi gənc nəslin dünya mədəniyyətinə yaxından bələd olmasına mühüm təsir göstərəcəkdir.

Hörmətli Prezident!

Vaxtilə ümummilli liderimiz Heydər Əliyev kitabxananı müqəddəs bir yer, elm, bilik, mənəviyyat məbədi adlandırmışdır. Sizin bu sərəncamınız bu böyük şəxsiyyətin parlaq fikirlərinə və ideyalarına sədaqətinizi bir daha sübut etdi.

Azərbaycan xalqının zəngin mədəniyyətinə və ədəbiyyatına göstərdiyiniz qayğıya görə respublikamızın çoxsaylı kitabxana işçiləri adından sizə öz dərin minnətdarlığımı bildirir, milli dövlətçiliyimizin daha da çiçəklənməsi üçün böyük uğurlar arzulayıram.

"Azad Azərbaycan" qəzeti. 18 yanvar 2004.

ŞƏRƏFLİ ALİM ÖMRÜ

Ömür yolu hamar olmur. İnsan dünyaya göz açdığı gündən həyatın enişli-yoxuşlu dolayларından keçir, arzular qanadında öz xoşbəxt gələcəyinin ilğımına doğru addımlayır. Lakin tale yalnız fədakarların – öz varlığını, istedadını, qabiliyyətini təsdiqləməyi bacaranların üzünə gülür, onlara mənalı-məzmunlu ömür və xoş niyyətlərlə dolu həyat eşqi bəxş edir.

Bu günlərdə şərəfli ömür gülüstanının 75-ci baharına qədəm qoyan tanınmış kitabxanaşünas alim, Bakı Dövlət Universitetinin Kitabxana fondu və kataloqların təşkili kafedrasının müdiri, tarix elmləri namizədi, dosent Tacəddin Quliyev də keşməkeşli tale yollarını özünün yorulmazlığı, bacarığı və zəhmətsevərliyi ilə şərəfləndirən ziyalılarımızdan biridir. Tacəddin Fərhad oğlu Quliyev 1929-cu il sentyabrın 25-də Goranboy rayonunun Zeyvə kəndində dünyaya göz açıb. Böyük Vətən müharibəsi başlayan günə qədər kənddəki natamam orta məktəbdə təhsil alıb, sonra isə kolxozda işləməyə başlayıb və işləyə-işləyə də 7-ci sinfi bitirib.

Bir müddət Goranboy dəmiryolunda fəhləlik etdikdən sonra Gəncədəki Pedaqoji Texnikumda təhsil alıb, Goranboy rayonunun mədəni-maarif şöbəsində təlimatçı işləyib.

Təhsilini davam etdirmək, yüksək ixtisaslı mütəxəssis kimi yetişmək arzusunda olan T.Quliyev 1949-cu ildə N.K.Krupskaya adına Bakı Kitabxanaçılıq Texnikumunda (indiki Bakı Mədəni-Maarif Texnikumu) Orta ixtisas

təhsilini başa vuraraq, Bakı Dövlət universitetinin filalogiya fakültəsinin kitabxanaçılıq şöbəsinə daxil olub və 1949-1954-cu illərdə burada ali təhsil alıb.

Tələbəlik illərinin qayğılarını gərgin əmək fəaliyyəti ilə qoşalaşdıran T. Quliyev bir neçə il müxtəlif kitabxanalarda işlədikdən sonra 1954-cü ildə ali təhsili gənc mütəxəssis kimi Bakı Kitabxanaçılıq texnikumunda müəllim vəzifəsinə dəvət edilir. Eyni zamanda 1958-ci ildən Respublika Kitabxana Kollektorunun müdiri kimi səmərəli fəaliyyət göstərir.

Sonra aspirantura həyatı başlayır və elə bu seçim də T.Quliyevin gələcək taleyini müəyyənləşdirir. Belə ki, artıq 1965-ci ildən BDU-nun kitabxanaşünaslıq kafedrasının müəllimi olan gənc mütəxəssis cəmi bir neçə il sonra 1969-cu ildə professor A.Xələfovun elmi rəhbərliyi ilə "Azərbaycanda Həmkarlar ittifaqı kitabxanalarının tarixi (1920-1941)" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək, tarix elmləri namizədi alimlik dərəcəsinə layiq görülür.

1973-cü ildən 1986-cı ilin sonlarınadək kitabxanaçılıq fakültəsində dekan müavini vəzifəsində böyük səy və enerji ilə çalışan dosent T.Quliyev işgüzarlığı, prinsipiallığı, obyektivliyi, fakültənin o dövründəki dekanı, professor A.Xələfovla birgə kadr hazırlığına müsbət təsir göstərir.

1990-cı ildən alimin həyatında yeni dövr başlayır. Belə ki, o, universitetdə təzəcə yaradılmış Kitabxana fondu və kataloqların təşkili kafedrasının müdiri seçilir. Ona göstərilmiş yüksək etimadı bu gün də layiqincə doğruldan T. Quliyev rəhbərlik etdiyi kafedranın fakültənin aparıcı qrumlarından birinə çevrilməsi, kitabxanaşünaslıq elminin inkişafına özünəməxsus töhfə verilməsi sahəsində özünün bilik və bacarığını əsirgəmir.

Dosent T.Quliyev tanınmış kitabxanaşünas alim kimi dəfələrlə respublika və beynəlxalq miqyaslı elmi tədbirlərdə iştirak etmişdir. Bunların sırasında 1990-cı ildə Tacikistanın paytaxtı Düşənbə şəhərində "Kitabın Şərq xalqları mədəniyyətinin inkişafında rolu, tarixi və müasir vəziyyəti" mövzusunda keçirilmiş beynəlxalq elmi-nəzəri konfransındakı iştirakı və məruzəsi xüsusi qeyd olunmalıdır.

Təxminən 50 ildir ki, səmərəli elmi-pedaqoji fəaliyyətlə məşğul olan alimin qələmindən indiyə qədər yüzdən çox elmi əsər, o cümlədən bir sıra dərslik, dərs vəsaiti, monoqrafiya və elmi məqalələr çıxmışdır. Bunlardan 2 cildlik "Azərbaycanda kitabxanaçılıq işi" adlı sanballı dərs vəsaiti ölkəmizdə Həmkarlar ittifaqı kitabxanaların tarixini və bugünkü vəziyyətini çox geniş şəkildə əhatə edir.

Dosent T.Quliyev BDU-nun ictimai həyatında da fəal iştirak edir. Ona tapşırılan işlərin öhdəsindən bacarıqla gəlir. Tacəddin müəllim istedadlı alim olmaqla yanaşı, həm də sədaqətli dost, qayğıkeş yoldaş, gözəl ailə başçısıdır. Onun həyat şüarı xeyirxahlıq, səmimiyyət və insanpərvərlikdir.

Ömür-gün yoldaşı, nəcib pedaqoqumuz Gülzar xanımla birlikdə çətin və şərəfli həyat yolunda alnıaçıq-üzüağ addımlayan möhtərəm Tacəddin Quliyev ömrünün müdriklik çağlarını yaşayır.

Ötən 75 il onun üçün asan keçməyib, dünyanın qəm-kədərini də dadıb, sevinc-fərəhini də. Saçlarını gənc nəslin yüksək səviyyəli mütəxəssis və əsl vətənpərvər kimi formalaşması yolunda ağardan bu alim-vətəndaşın qəlbi həmişə doğma Azərbaycanın ürəyi ilə birgə döyünüb.

Qoy gələn illər Tacəddin müəllimə bol-bol sevinc, cansağlığı və uğurlar gətirsin!

"İnsan hüquqları" qəzeti. 15 oktyabr 2004.

ARİF BABAYEV HAQQINDA DOST SÖZÜ

Mən eşidəndə ki, görkəmli alim, fizika-riyaziyyat elmləri doktoru, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Arif Babayevin 70 illik yubleyini keçirməyə hazırlaşırlar, çox sevindim və bu işin təşəbbüskarlarına ürəyimdə «çox sağ olun» dedim. Arif Babayev xeyli vaxtdır ki, dünyasını dəyişib, cismani olaraq aramızda yoxdur. Ancaq tarix elə şəxslər yetişdirir ki, onlar dünyasını dəyişsələr də, tanıyanların qəlbində daimi yaşayır, insanlar onların qoyub getdiyi elmi-mədəni irsdən bəhrələnir, onların həyat yolunu davam etdirməyə çalışırlar.

Arif Babayev məhz belə insanlardan idi. Bakı Dövlət Universitetini Lenin təqaüdü ilə bitirən Arif Babayev aspiranturaya daxil olmuş, vaxtından əvvəl namizədlik dissertasiyası müdafiə edib fizika-riyaziyyat elmləri namizədi adını almış, kafedrada müəllim işləməyə başlamışdı. Tez bir zamanda gənc müəllim Arif Babayev istedadlı riyaziyyatçı, müəllim kimi böyük şöhrət qazandı.

1960-70-ci illərdə mexanika-riyaziyyat fakültəsi öz elmi potensialına görə həm respublikamızda, həm də SSRİ məkanında öncül yerlərdən birini tuturdu. Burada AMEA-nın akademikləri Məcid Rəsulov, Əşrəf Hüseynov, Zahid Xəlilov, AMEA-nın müxbir üzvləri Qoşqar Əhmədov, Maqsud Cavadov, Yəhya Məmmədov, həmçinin respublikamızda yaxşı tanınan olduqca istedadlı elmlər doktorları, namizədləri fəaliyyət göstərirdi. Belə bir böyük kollektivdə məşhurlaşmaq, həmkarlarının sevimlisinə çevirmək, elm xadimi kimi parlamaq hər adama nəsib olmur. Ancaq Arif Babayevin böyük işgüzarlığı, riyazi istedadı, obyektivliyi, mübarizliyi onu kollektivin sevimlisinə çevirmişdi.

Arif Babayevin elmi-tədqiqat ixtisası üzrə Bakıda müdafiə şurası olmadığından o, çox keçməmiş Tbilisi Dövlət Universitetində doktorluq dissertasiyası müdafiə edərək, fizika-riyaziyyat elmləri doktoru dərəcəsini aldı. Arif Babayev istedadlı alim olmaqla yanaşı, həm də görkəmli elm və təhsil təşkilatçısı idi. Bakı Dövlət Universitetinin Böyük Elmi Şurasının bir çox elmi jurnalların redaksiya heyətinin üzvü kimi geniş elmi-metodik və ictimai fəaliyyət göstərirdi.

On ildən artıq universitetin ən iri fakültələrindən birinə başçılıq edən

Arif Babayev yüksək ixtisaslı riyaziyyatçı kadrlar hazırlanması sahəsində də böyük əmək sərf etmişdi. Yüzlərlə tələbənin, onlarla aspirantın hazırlanmasında bilavasitə yaxından iştirak edən Arif Babayevin xidmətləri əvəzsiz olmuşdur. Onlarla elmlər namizədinin elmi rəhbəri olmuş professor Arif Babayev gənclərin ən çox hörmət etdiyi bir alimə çevrilmiş, insanların sevgisini qazanan şəxsiyyət kimi yüksəlmişdi.

Onun tədris prosesinin təşkilatçısı kimi xidmətləri də böyükdür. Riyazi analiz kafedrasının müdiri olan Arif Babayevin gənclərin xatirəsi müəllimlərin və kafedra üzvlərinin heç zaman yadından çıxmayacaq, əziz Arif müəllim həmişə hörmətlə yad ediləcək.

Mən riyaziyyatçı deyiləm, ona görə də onun elmi yaradıcılığı haqqında fikir söyləmək, təhlillər aparmaq fikrindən çox uzağam. Ancaq onu deyə bilərəm ki, mənimlə ünsiyyətdə olan, həmkarlıq və dostluq edən riyaziyyatçı alimlərin hamısı bir ağızdan Arif Babayevi böyük riyaziyyatçı alim, qüdrətli istedad sahibi, öz ixtisasını dərindən bilən nəhəng şəxsiyyət hesab edirdilər.

Mənim işlədiyim kitabxanaçılıq fakültəsi mexanika-riyaziyyat fakültəsi ilə bir mərtəbədə yerləşdiyindən, tez-tez riyaziyyatçı tələbələrlə ünsiyyətdə olurdum. Tələbələrin Arif Babayevi nə qədər sevdiklərini, ona necə hörmət etdiklərini gərək gözünlə görəydin. Tələbələr ilk növbədə Arif Babayevi bir böyük alim kimi, gözəl mühazirəçi müəllim kimi sevirdilər, onlar heç zaman Arif müəllimin dərsini buraxmazdılar, həmişə onun mühazirələrini dinləməyə can atardılar. Tələbələr həmçinin Arif Babayevi qayğıkeş bir müəllim, himanist insan sadə, onların qayğısına qalan alim kimi tanıyırdılar. O heç zaman tələbə və müəllimlərin xahişinə rədd cavabı vermədi.

Bununla bağlı mənim iştirakımla baş verən bir söhbəti oxucuların diqqətinə çatdırmaq istəyirəm. Arif müəllimlə dəhlizdə durub söhbət edirdik, bizə bir neçə tələbə yaxınlaşdı. Arif müəllimə müraciət edərək dedilər: «Arif müəllim, bizə nə üçün göndəriş vermirsiniz? Axı, Siz tələbələrə qarşı həmişə humanist olmusunuz». Arif müəllim mənim gözləmədiyim halda belə cavab verdi: «Uşaqlar, mən göndəriş verməyə etiraz etmirəm, ancaq mən nə edim, dekan müavini razı olmur». Mən çox təəcübləndim. Tələbələr gedəndən sonra soruşdum: «Arif müəllim, tələbələrə cavabınız məni qane etmədi. Dekan göndərişi verəndən sonra dekan müavini kimdir? O dedi: Abuzər, sən düz deyirsən, qaydaya görə bu tələbələrə göndəriş düşmür. Ancaq mən nə edim, üzümdən gəlib cavabı verə bilmirəm, ürəyim ağrıyır, ona görə də onların qəlbini sındırmamaq üçün belə deyirəm».

Arif müəllimə böyük hörmət və məhəbbət qazandıran cəhətlərdən biri də onun yüksək insani keyfiyyətlərə malik olması idi. Arif Babayev olduqca sadə, təvazökar, xeyirxah, doğru sözü üzə deməyi bacaran bir şəxsiyyət idi. Onun heç bir zaman ağa qara dediyini, kiminsə haqqında ədalətsizlik etdiyini görməmişəm. Onun çox yüksək nitq qabiliyyəti, natiqlik istedadı var idi. O, danışarkən insanları inandırmağı bacarırdı. Dostluqda səmimi idi. Onunla dostluq etdiyim müddətdə bir dəfə də olsa, mənə qarşı heç bir qeyri-səmimi hərəkət

etməmişdi. Mənə inandığı üçün əksər məsləhətlərimə qulaq asardı.

Arif Babayev həmçinin böyük vətəndaş alim idi. Xalqını, millətini çox sevirdi. Azərbaycan dilini, ədəbiyyatını dərindən bilirdi. Azərbaycanın dünya şöhrətli klassiklərinin əsərlərinə böyük həvəs göstərirdi. Həm də onların yorulmaz təbliğatçısı idi. Arif Babayev həmçinin böyük mütaliəçi idi.

Kitab oxumağı, oxuduğu kitablar haqqında həmkarlarına məlumat verməyi çox sevirdi. O, həmçinin təhsildə və elmdə kitabxanaların böyük əhəmiyyətini qeyd edir ki, kitabxanaçılıq peşəsini yüksək qiymətləndirirdi.

Yazımı Arif Babayev haqqında kiçik bir xatirə ilə tamamlamaq istəyirəm. Mexanika-riyaziyyat fakültəsində dekan seçkisi elan edilmişdi. Arif də ikinci dəfə seçkidə iştirak etmək üçün namizədliyini vermişdi. Səbəb isə Arifin bitərəf olması idi. Ona təklif etdilər ki, dekan seçilmək istəyirsənsə, Sov. İKP sıralarına daxil olmalısan. O, buna razılıq verdi. Əvvəllər ona bir neçə dəfə partiyaya qəbul olmağı təklif etmişdilər, lakin razılaşmamışdı. Mən sonralar partiyaya keçməyinin səbəblərini ondan soruşanda dedi: «Abuzər, mən heç zaman Kommunist Partiyasının üzvü olmaq istəməmişəm. Məni bu işə məcbur edən dekanlıq vəzifəsi deyil, bəzi ağızgöyçəklərin Arifi dekanlıqdan çıxartdılar, görünür, nəsə edib» sözləri, dedi-qoduları oldu. Mən həmişə hiss edirdim ki, bu vətəndaş alim o dövrdə həyata keçirilən böyük siyasətlə razılaşmırdı. Bəzən öz fikirlərini açıq deməkdən çəkinmirdi.

Universitet kollektivinin iftixarı olan bu böyük insana Allahdan min rəhmət diləyirəm və deyirəm: Arif ölməmişdir, o bizimlədir, qəlbimizdə əbədi yaşayacaq

"Bakı Universiteti Nəşriyyatı", 2004.s. 23-24

ELEKTRON KATALOQLARIN ƏHƏMİYYƏTİ VƏ TƏŞKİLİ PRİNSİPLƏRİ

Müasir dövrdə kitabxanalar bəşəriyyətin mədəni, elmi irsinin qoruyucusu və ən əsası dünya informasiya məkanı ilə birbaşa əlaqə yarada biləcək mərkəz olmağa doğru gedir. Yeni tipli cəmiyyət olan informasiyalaşdırılmış vətəndaş cəmiyyəti gələcək kitabxanaları yalnız müxtəlif növ çap məhsulların saxlayıcısı kimi yox, həm də avtomatlaşdırılmış xidmət komponentlərini özündə cəmləşdirməklə oxuculara lokal və online rejimdə xidmət göstərə bilən informasiya müəssisəsi kimi görmək istəyir. Bu tələbə cavab vermək və dünya informasiya bazarında mövcud rəqabətlə ayaqlaşmaq üçün isə kitabxanalar öz iş prinsiplərində dəyişiklikləri etməli, müasir dövrün qarşıya qoyduğu tələblərə uyğunlaşmalı, dünya kitabxana təcrübəsində mövcud yenilikləri öyrənməli, və fəaliyyətlərində tətbiq etməlidirlər. Bu yenilik və nailiyyətlərin kitabxanalara tətbiqi oxuculara kitabxana-informasiya xidmətinin səviyyəsinin yüksəldilməsini, onlara operativ, dolğun informasiya xidmətinin həyata keçirilməsini

təmin etməlidir. Oxucu sorğularının tam və dolğun ödənilməsi üçün kitabxanalar ənənəvi fondla bərabər zəngin elektron mətn, audiovizual fonda və müasir dövrün tələblərinə cavab verəcək elektron kataloq sisteminə malik olmalıdır.

Məlumdur ki, kitabxana kataloqu hər bir kitabxananın ədəbiyyat fondunun məzmununu açır və oxuculara xidmət prosesində bələdçilik edir. Oxuculara xidmət və kitabxananın digər bütün fəaliyyəti məhz onun üzərində qurulur. Müasir dövrdə informasiyanın sürətlə artması və köhnəlməsi oxuculara operativ və coğrafi uzaqlıqdan asılı olmayaraq xidmət göstərilməsini diqtə etdiyindən ənənəvi kitabxana kataloqlarını bu gün elektron kataloqları əvəz edir.

Elektron kataloq oxuculara şəbəkə vasitəsilə kitabxananın ədəbiyyat fondunun tərkibi ilə tanış olmağa, öz sorğularına operativ və kitabxanaçı bibliioqrafin köməkliyi olmadan uzaq məsafədən cavab almağa, ədəbiyyatı uzaq məsafədən sifariş verməyi təmin edir. Kitabxanalar üçün isə elektron kataloq kitabxana fondunun real uçotunu, oxucuların statistikasını, maraq dairəsinin müəyyən edilməsini, kitabın hərəkətinin izlənilməsini, ədəbiyyat fondunun oxucu sorğusuna uyğun komplektləşdirilməsini və yeniləşdirilməsini, oxucuların müasir səviyyədə on-line olaraq xidməti təşkil etməyə imkan verir.

İnformasiyalaşdırılmış cəmiyyətin əsas atributu olan qloballaşma aydın məsələdir ki, kitabxanalardan yan keçə bilməz. Yəni kitabxanalar yalnız konsorsium və ya digər kitabxanalarla yaradıcı əlaqələr qurmaqla müasir tələblərə uyğun öz funksiyalarını yerinə yetirə bilərlər. Qarşılıqlı əlaqələr, qarşılıqlı maraqlar isə elektron informasiya mübadiləsi əsasında qurulur. Elektron informasiya mübadiləsi isə yalnız elektron kataloq vasitəsilə həyata keçə bilər.

Elektron kataloq həmçinin kataloqlaşdırıcı və biblioqraf əməyini avtomatlaşdırmaqla kitabxananın kadr və maliyyə ehtiyatlarından səmərəli istifadəsini təmin edir. Bu isə keçid dövrünü yaşayan Azərbaycan kitabxanaları üçün önəmli amillərdən biridir. Digər tərəfdən elektron kataloq kitabxanaçı kadrlardan müasir kitabxana informasiya texnologiyalarını bilmə-yi tələb etdiyindən, kitabxanaçıların intellektual səviyyələri-nin yüksəldilməsi üçün stimul yaradır.

Elektron kataloqunun ənənəvi kitabxana kataloqundan əsas üstünlüklərindən biri oxucu sorğusunun daha dolğun yerinə yetirilməsidir. Belə ki, elektron kataloq avtoritet yazılardan istifadəni təmin edir, ədəbiyyatın təsviri daha geniş biblioqrafik ünsürlər əsasında aparıla bilir. Bu gün rəqəmli texnologiyanın inkişafı kağız üzərindəki informasiyanın elektron formaya çevrilməsinə imkan verdiyindən elektron kataloqdan istifadə edən oxucu on-line olaraq öz tələbatına uyğun ədəbiyyatın kitabxanada olması haqqında biblioqrafik məlumat almaqla yanaşı, onun elektron versiyasını da əldə edə bilər.

Elektron kataloq kitabxananın fondu haqqında biblioqrafik informasiyanın ənənəvi kataloqdan fərqli olaraq daha etibarlı qorunmasını təmin edir. Belə ki, ənənəvi kataloqdan fərqli olaraq kataloq kartoçkalarının məhv olması

ilə həmin ədəbiyyat haqqında informasiya itirilmiş olur. İtirilmiş informasiyanın bərpası üçün onun aşkar edilməsindən asılı olaraq əlavə vaxt və maliyyə resursları tələb olunur. Xüsusilə çoxmilyonlu fonda malik olan kitabxanalarda bu proses çox çətindir. Elektron kataloqda informasiyanın müntəzəm surətdə ehtiyat sürətinin saxlanılması elektron biblioqrafik informasiya bazasının xüsusi yüksək texniki göstəricilərə malik kompüterlərdə-serverlərdə saxlanılması, informasiyadan istifadənin imtiyazlı hüquq rejimi və elektron kataloqun texniki təminatına müntəzəm göstərilən diaqnostik və profilaktik tədbirlər informasiyanın təhlükəsizlik problemini həll edir.Elektron kataloqun tətbiqi kitabxana fondunun real uçotuna nail olmağı mümkün etdiyindən, həmçinin intizamsız oxucularla effektiv mübarizə aparmağa imkan yaradır. Bunun nəticəsində isə digər oxucuların ədəbiyyatdan istifadə hüquqları müdafiə edilmiş olur.

Kitabxananın elektron kataloqunun təşkili bu gün bütün dünyada tətbiq olunan və müasir kitabxana informasiya texnologiyasının əsasını təşkil edən, maşınla oxunan UNİMARC formatı əsasında həyata keçirilməlidir. UNİMARC formatı isə biblioqrafik yazıların kodlaşmış formada hazırlanmasını təmin edir. Bu isə elektron kataloqun əsas funksiyasını yerinə yetirilməsində, oxucu sorğusunun işlənilməsi nəticəsində bir qiymətli nəticələrin əldə edilməsini təmin edir. Kodlaşmış informasiya həmçinin informasiyanın daxil olması zamanı baş verə biləcək orfoqrafik səhvlərin aradan qaldırılmasına imkan verir. Bunun nəticəsində isə oxucu sorğusunun yerinə yetirilmə imkanı xeyli artır.

UNİMARC formatının tətbiqinin ən mühüm əhəmiyyəti hər bir kitabxananın elektron kataloqunun ümumdünya biblioqrafik kitabxana informasiya məkanına inteqrasiyasına təmin olunmasıdır. Bunun nəticəsində kitabxana heç bir məhdudiyyət olmadan biblioqrafik informasiya mübadiləsi edə bilər. Düzgün menecment siyasəti aparılarsa, elmi kitabxana əlavə və böyük miqdarda maliyyə gəliri əldə edə bilər.

UNİMARC formatı daha geniş təsvir ünsürlərinə malik olduğundan elektron kataloq istifadəçilərə ənənəvi kataloqdan fərqli olaraq daha geniş axtarış imkanları verir. Bunun nəticəsində oxucu sorğusu operativ və dəqiq yerinə yetirilir. Bununla da yeni xidmət üsulları formalaşır ki, bu da kitabxananın imicini artırmaqla onun oxucu kontingentinin və oxucuların davamiyyətinin yüksəlməsinə səbəb olur.

Elektron kataloqun informasiya bazası avtomatlaşdırılmış Kitabxana İnformasiya İdarəetmə Sistemi vasitəsilə kataloqlaş-dırıcı avtomatlaşdırılmış işçi yerində yaradılmalıdır. İnformasiya bazası xüsusi kitabxana üçün ayrılmış serverdə yerləşməlidir. İnformasiyanın təhlükəsizliyi üçün isə müntəzəm olaraq aşağıdakı tədbirlər görülməlidir:

-kənar şəxslərin icazəsiz informasiyadan istifadəsi;

-virusa qarşı mübarizə;

-güzgülü inikas prinsipi etibarilə avtomatik ehtiyat sürətinin alınması və s.

Ümumiyyətlə, elektron kataloq klient –server arxitekturası əsasında fəa-

liyyət göstərməlidir. İnformasiyanın daxil olunması və redaktəsi, oxucu sorğusunun formalaşması, klient kompüterdə- müvafiq avtomatlaşmış işçi yerlərində həyata keçirilir, informasiyanın saxlanılması, idarə olunması isə serverdə həyata keçirilir. Elektron kataloqun yaradılmasında ənənəvi proqramlaşdırma vasitələri ilə yanaşı müasir Web texnologiyasından istifadə olunmalıdır. Belə ki, oxucuların sorğusunun formalaşması Veb sayt vasitəsilə təmin olunmalıdır. Həmin sorğunun SQL-strukturlaşmış sorğu dilinə çevrilərək serverə ötürülməsi və elektron kataloqun biblioqrafik informasiya bazasından axtarış aparılaraq nəticənin yenidən oxucuya çatdırılması CGİ texnologiyası ilə yerinə yetirilir.

İnformasiya axtarışı informasiya bazası yaradarkən avtoma-tik yaradılan indeksləşmiş xüsusi lüğətlər əsasında aparılır. Bunun nəticəsində digər sistemlərdən fərqli olaraq informasiya axtarışına sərf olunan vaxt minimuma endirilir. CGI texnologiyasının digər veb texnologiyasından üstünlüyü ondan ibarətdir ki, istifadəçilər üçün informasiyanın axtarış alqoritmi məxfi qalır. Bunun nəticəsində qeyri-leqal digər müəssisələrdə sistemdən istifadə qeyri-mümkün olur. Digər tərəfdən oxuculara və istifadəçilərə informasiya yalnız baxış üçün təqdim olunur. Bunun nəticəsində informasiyanın dəyişilmə ehtimalı sıfıra bərabər olur.

Yuxarıda qeyd olunan prinsiplər əsasında Azərbaycanda ilk dəfə olaraq elektron kataloqun yaradılması BDU-da əməkdar elm xadimi, tarix elmləri doktoru, BMT yanında beynəlxalq informasiyalaşdırma akademiyasının akademiki prof. A.A.Xələfovun rəhbərliyi ilə kitabxanaların kompüterləşdirilməsi ETL-da həyata keçirilmişdir. Lobaratoriyanın əməkdaşları qısa müddət ərzində dövrü mətbuat, xarici, rus və Azərbaycan dilində olan ədəbiyyat fondunun, nadir kitablar və disertasiya fondunun elektron bazasının yaradılması işinə başlamışlar.

Hazırda BDU-nun elmi kitabxanasında elektron bazanın yaradılması prosesi davam edir, ümidvarıq ki, bu proses yaxın gələcəkdə müvəffəqiyyətlə başa çatacaq və BDU-nun elmi kitabxanası bir çox ölkələrin kitabxanaları ilə müqayisə ediləcək dərəcədə inkişaf edəcəkdir.

Hesab edirik ki, bu təcrübədən Azərbaycanın digər kitabxanalarının da yararlanması məqsədəuyğun olardı.

A.Hüseynova ilə birlikdə. "Bakı Universitetinin Xəbərləri: Humanitar elmlər seriyası". 2004, № 4.s 228-291

İLHAM ƏLİYEV ÖZ ANDINA SADİQDİR

Azərbaycanın o qədər də zəngin olmayan Prezident üsul-idarəsi tarixində İlham Əliyev ən gənc dövlət başçısıdır. İlham Əliyev Azərbaycanın gələcək taleyini müəyyənləşdirən Heydər Əliyev siyasi kursunun layiqli varisidir. Onun bu günə qədər siyasətdə qazandığı uğurları məhz milli dövlətçilik konsepsiyasına əsaslanan mükəmməl strategiyanın gerçəkləşdirilməsi

yolundakı müstəsna xidmətləri ilə bağlıdır. Hamıya bəllidir ki, İlham Əliyev müstəqil dövlətimizin dünyada tanınmasında böyük işlər görmüşdür. Bu gün onun diplomatiyası bütün beynəlxalq təşkilatlarda öz sözünü deyir.

Məlumdur ki, hər bir dövlət xadimi vəzifəyə gəldikdən sonra onun ilk addımları bütün dünya ictimaiyyəti tərəfindən maraqla izlənilir. Özünün təntənəli andiçmə mərasimində və sonrakı çıxışlarında xalqın ona göstərdiyi bu etimadı doğruldacağına, üzərinə götürdüyü bu yüksək ali vəzifənin öhdəsindən layiqincə gələcəyinə söz verən Prezident, ötən bir il müddət ərzində həm öz xalqının, həm də dünya ictimaiyyətinin etimadını doğrultmağa çalışmışdır. Bünövrəsi ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycanı daha qüdrətli bir dövlətə çevirmək, onun tərəqqisinə və inkişafına nail olmaq üçün İlham Əliyevin gördüyü işlər əvəzsizdir. Bu gün demokratik hüquqi və dünyəvi quruculuq yolunu tutmuş Azərbaycanda cəmiyyətin ədalət, humanizm və insanpərvərlik prinsipləri ilə idarə olunmasına böyük önəm verilir.

Beynəlxalq birliklərdə faydalı fəaliyyəti ilə seçilən ölkəmizin başçısı, xalqımızın həyatının yaxşılaşdırılması, onun firavan həyat sürməsi üçün əlindən gələni edir. O, qısa müddət ərzində perspektiv inkişaf baxımından dövləti əhəmiyyət kəsb edən qərarlar, fərmanlar vermiş, mühüm tədbirlər həyata keçirmişdir. Ən vacibi odur ki, İlham Əliyevin qısa müddətdə gördüyü işlər beynəlxalq aləmdə ölkəmizin mövqeyinin möhkəm-ləndirilməsinə, insanların maddi və mənəvi rifah halının yaxşılaşdırılmasına yönəldilmişdir.

İlham Əliyev seçkiqabağı görüşlərində, eləcə də prezidentlik fəaliyyəti müddətində işsizlik probleminə xüsusi diqqət yetirmiş və bildirmişdir ki, onun siyasətinin öncül istiqaməti məhz yeni iş yerlərinin açılması ilə bağlı olacaqdır. Onun: "Mən əminəm ki, gələcəkdə Azərbaycanda işsizlik problemi olmamalıdır" kimi qətiyyətli fikri bütün xalqımız tərəfindən böyük razılıq hissi ilə qarşılanmışdır. Son vaxtlar respublikamızın şəhər və rayonlarında yeni iş yerlərinin açılması istiqamətində müəyyən işlər görül-müşdür. Onun bir illik fəaliyyətinin təhlili göstərir ki, o öz vədinə və andına sadiqdir. Həyatımızın bütün sahələrində irəliləyişlər üçün möhkəm təməl yaranmışdır. Bu uğurlu başlanğıc bir daha təsdiqləyir ki, yaxın bir neçə ildə Azərbaycan iqtisadi cəhətdən qüvvətli dövlətə çevriləcək, sosial problemlər öz həllini tapacaq, xalqın rifah halı yüksələcək.

Azərbaycanın yeni lideri İlham Əliyevin Prezident kimi fəaliyyətinin bir ili aparıcı dövlət başçılarının, görkəmli ictimai-siyasi xadimlərin, nüfuzlu beynəlxalq təşkilatların da diqqət mərkəzindədir. Dövlətimizin başçısının atdığı cəsarətli addımlar, xüsusən də onun xarici siyasət kursu, istər qərb və şərqdə, istərsə də regionda və MDB məkanında diqqətlə izlənilir və yüksək qiymətləndirilir.

Heydər Əliyevin xarici siyasət strategiyasından bəhrələnən İlham Əliyevin diplomatiyasının mühüm məziyyəti bundadır ki, o, milli problemləri bəşəri reallığın məntiqi ilə düzgün əlaqələndirir, Azərbaycan həqiqətlərini

dünya ictimaiyyətinin diqqətinə lazımi səviyyədə çatdıra bilir. Onun son zamanlar Dağlıq Qarabağ probleminin həlli istiqamətində kəskin və birmənalı mövqeyi dünya ictimaiyyəti arasında ölkəmizin imicini qaldırmışdır.

Hesab edirəm ki, xalqımız öz seçimində yanılmamışdır və gənc Prezidentimiz İlham Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində bizi uğurlu sabahlar gözləyir.

"Bakı Universiteti" qəzeti. 13 oktyabr 2004.

AZƏRBAYCAN MEA MƏRKƏZİ ELMİ KİTABXANASI MÜSTƏQİLLİK İLLƏRİNDƏ

Ötən əsrin sonlarında Azərbaycan xalqının əldə etdiyi ən mühüm nailiyyətlərdən biri onun dövlət müstəqilliyinin bərpası, milli dövlət quruculuğuna başlanması olmuşdur. Belə ki, 1990-cı illərin əvvələrində keçmiş Sovetlər Birliyinin dağılması müstəqil Azərbaycan Respublikasının yaranması ilə, o cümlədən milli- mədəni və tarixi ənənələrə, ümumbəşəri dəyərlərə söykənən həqiqi demokratik cəmiyyət quruculuğuna başlaması ilə nəticələndi. Beləliklə, Azərbaycan tarixinin yeni erası – müstəqil inkişaf dövrü başlandı.

İlk növbədə mövcud ictimai quruluş azad bazar iqtisadiy-yatına, hüquqi dövlətə əsaslanan quruluşla əvəz olundu. Yeni ictimai quruluşun yaranması ilə bağlı həyatın bütün sahələrində dəyişikliklər yarandı ki, bu dəyişikliklər qabarıq şəkildə cəmiyyətin bütün sferalarında özünü büruzə verdi. Kitabxana işi sahəsindən də bu dəyişikliklərin yan keçməsi, əlbəttə, qeyri-mümkün idi. Odur ki, yeni yaranan ictimai şərait cəmiyyət həyatının bütün tərəflərinə olduğu kimi kitabxana işi sahəsinə də təsir etdi. Belə ki, ölkədə yeni bazar iqtisadi münasibətlərinin yaranması, iqtisadiyyatda, siyasətdə, ideologiyada, dövlət quruculuğunda baş verən dəyişikliklər kitabxana işi sahəsində də ciddi yeniliklərin yaranmaslna təkan verdi, əsaslı dəyişikliklər dövrü başlandı.

Müstəqilliklə bağlı cəmiyyətdə baş verən demokratikləşmə kitabxanaların ideoloji buxovlardan azad olmasına şərait yaratdı. Yeni şəraitə uyğun olaraq kitabxanalar üçün yeni dünyagörüşünə, milli bəşəri sərvətlərə və dəyərlərə əsaslanan inkişaf konsep-siyasının hazırlanması problemi meydana çıxdı. Bu konsepsiyanın əsas müddəaları «Kitabxana işi haqqında» Qanunda öz əksini tapmışdır.

Bütün bunların nəticəsində kitabxanaların inkişafı üçün münbit şərait yarandı. Belə ki, kitabxanaların demokratik prinsiplər əsasında yeni cəmiyyətin və hüquqi dövlətin tələblərinə uyğun olaraq inkişafı üçün böyük perspektivlər açıldı.

Onu da xüsusilə vurğulamaq lazımdır ki, kitabxana işi sahəsində baş verən müsbət dəyişikliklər görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycan Respublikasının memarı,

ümummilli liderimiz Heydər Əliyev özünün fəaliyyətində həmişə elmə, milli mədəniyyətə böyük diqqət göstərmişdir. Onun dediyi "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir" fikri bir daha göstərir ki, kitabxanalar qayğı Heydər Əliyevin çoxsahəli fəaliyyətində önəmli yerlərdən birini tutmuşdur.

Kitabxanaların tarixən əsas funksiyası olan zəngin elmi bəşəri informasiya sərvətlərinin gələcək nəsillərə ötürülməsində, yüzlərlə elmi kadrların yetişməsində, bir sözlə Azərbaycan elminin inkişafında AMEA Mərkəzi Elmi Kitabxanasının xüsusi rolu vardır. Müstəqilliyin ilk illərində digər kitabxanalar kimi Mərkəzi Elmi Kitabxana da yeni kitabxana işi quruculuğu istiqamətində qarşısına-oxuculara Kitabxana xidmətini yenidən yeni forma və üsullar əsasında qurmaq; kitabxana işini demokratikləşdirmək; kitabxana işinin informasiyalaşdırılması; kitabxananın işinin dünya standartları səviyyəsində qurmaq və s. kimi vəzifələr qoymuşdur.

Mövcud olan müstəqilliyimiz bu vəzifələri reallaşdırmaq üçün əsas təminatçıdır. Baxmayaraq ki, hazırda kitabxana işi inkişaf edir, müstəqilliyin ilk illərində (1991-1993-cü illər) mövcud müharibə şəraiti, ölkənin siyasi həyatında baş verən hərc-mərclik kitabxana işinə mənfi təsir etmişdir. Belə vəziyyət ilk növbədə özünü elmi informasiya qıtlığında göstərdi. Kitabxanalara laqeyd münasibət nəticəsində maliyyə vəsaitinin çatışmazlığından kitabxana fondlarının yeni ədəbiyyatlarla komplektləşdirilməsi demək olar ki, iflic vəziyyətinə düşdü. Bunun nəticəsində kitabxana oxucularının xeyli hissəsini itirmiş oldu. Əgər 90-cı illərə qədər Mərkəzi Elmi Kitabxana dünyanın 55 ölkəsinin 500-dən artıq elmi müəssisəsi ilə kitab mübadiləsini təşkil edir və hər il orta hesabla fonda 100 min nüsxə ədəbiyyat daxil olurdusa kitabxananın beynəlxalq əlaqələrinin pozulması, maliyyə çətinlikləri nəticəsində, xüsusilə də xarici ölkələrdə nəşr olunan elminin yeni nailiyyətlərinə, kəşflərə aid dövri nəşrlərin və digər sənədlərin əldə edilməsi imkansız oldu. Bu isə Azərbaycan elminin dünyanın yeni elmi nailiyyətlərindən bəhrələnməsinə ciddi ziyan vurdu.

Mövcud ictimai şərait kitabxananın maddi-texniki bazasına da təsir etdi. Büdcədən kifayət qədər maliyyə vəsaiti ayrılmadığına görə kitabxana uzun müddət təmir edilməmiş, kitabların qorunub saxlanması şəraiti pislənmiş, avadanlıqlar yararsız hala düşmüşdür. Kitabxana binası sahəsinin azlığı ilə əlaqədar kitab fondu təhlükə qarşısında qalmışdır. Belə bir vəziyyətdə müasir texniki vasitələrdən belə danışmaq olmazdı. Bütün bunlar kitabxananın fəaliyyətində, xüsusilə xidmət sahəsində geriliyə və bir sıra savadlı kadrların kitabxana sahəsindən uzaqlaşmasına səbəb oldu.

Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlişindən sonra onun apardığı siyasət cəmiyyətdə köklü dəyişikliklər yaratdı. İlk növbədə bu günə qədər davam edən atəşkəsə nail olundu. İqtisadiyyatda köklü dəyişikliklər, azad bazar iqtisadiyyatının bərqərar olması, torpağın kəndlilərə

verilməsi, xarici investorların Azərbaycan iqtisadiyyatına cəlb olunması Azərbaycanın dünyada siyasi nüfuzunun artması və iqtisadiyyatın dinamik inkişafı ilə nəticələndi. Xüsusilə demokratik dövlət quruculuğu sahəsində qəbul olunan qanun və aktlar cəmiyyətin bütün sahələrinin inkişafına şərait yaratdı. 1998-ci il dekabrın 29-da Azərbaycan Respublikası Milli Məclisində qəbul edilmiş "Kitabxana işi haqqında" Qanun ölkəmizdə kitabxanaların fəaliyyəti üçün yeni mərhələnin başlanmasına səbəb oldu. Qanunda da qeyd edildiyi kimi, kitabxanalar elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və s. digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial instituta çevrildilər. Respublikamızın siyasi nüfuzunun yüksəlməsi ilə bağlı bir çox xarici dövlətlərin ölkəmizə maraq və diqqətinin artması nəticəsində beynəlxalq əlaqələrimiz genişləndi. Bu da öz növbəsində kitabxana fondunun yeni ədəbiyyatlarla komplektləş-dirilməsi və beynəlxalq elmi ədəbiyyat mübadiləsi sahəsində dönüş yaratdı. Belə ki, hazırda kitabxana dünyanın 60 ölkəsinin 549 elmi təşkilatı, elmi tədqiqat müəssisələri, nəşriyyatları, cəmiyyət və assosiasiyaları, ali təhsil müəssisələri, kitabxanaları ilə beynəlxalq kitab mübadiləsini həyata keçirir və təqribən hər il 46 min nüsxə ədəbiyyat əldə edir. Kitabxananın sıx əlaqə saxladığı fəal tərəfdaşlardan ABŞ, Türkiyə, Almaniya, Çin, İngiltərə, Kanada, Yaponiya, MDB ölkələrinin kitabxanalarını, elmi-tədqiqat müəssisələrini, ABŞ Konqres Kitabxanasını, Pekindəki Çin Təbiət Elmləri üzrə Təşkilati, Alman Tədqiqat Cəmiyyətini, Potsdam şəhərindəki Alman Geoloji Cəmiyyətini, Almaniyanın Honnover şəhərindəki universitet kitabxanasını, Yaponiyanın Milli Parlament Kitabxanasını misal göstərmək olar. Bu tərəfdaşlardan kimya, mikrobiologiya, botanika, fizika, riyaziyyat və s. kimi elm sahələri üzrə sanballı nəşrlər, çoxcildli ensiklopediyalar, müxtəlif lüğətlər, nadir ədəbiyyat nümunələri alınmışdır. Belə ki, 2003-cü ildə kitabxana Alman Tədqiqat Mərkəzi ilə xüsusi proqram çərçivəsində Qmelinin 734 cildlik kimya məlumat kitabını, Rusiya dövləti ilə beynəlxalq əməkdaşlığı nəticəsində ekologiya, biokimya, fiziki plazmaya dair 1500 nüsxəyə dair jurnal əldə etmişdir.

Bununla yanaşı, kitabxananın respublikada fəaliyyət göstərən humanitar fondlarla, o cümlədən SOROS fondu ilə, bir çox səfirliklərlə əlaqələri də genişləndi. Belə ki, 2002-ci il martın 28-də Fransa səfirliyi tərəfindən Fransız dilli oxucular arasında fransa ədəbiyyatının təbliğini genişləndirmək məqsədini daşıyan "Azərbaycan-Fransa Elmi Mədəni Əlaqələr Mərkəzi"nin açılışı kitabxananın fəaliyyətində əlamətdar hadisə olmuşdur. Eyni zamanda kitabxana bir çox layihələrdə yaxından iştirak etmişdir. Məsələn, kitabxana "Puşkin kitabxanası" meqalayihəsinə qoşulduqdan sonra bu proqram çərçivəsində 1999-cu ildə 5912900 manat məbləğində 424 nüsxə, 2001-ci ildə 745 nüsxə, 2002-ci ildə isə qiyməti 75% ödənilməklə 450 nüsxə kitab və jurnal (1385 nüsxə) almışdır. Kitabxana həm də müxtəlif xeyriyyəçi kitab müəlliflərindən də hədiyyələr əldə etmişdir. Belə ki, son illər Bakıdakı Atatürk

Mərkəzi, Ərəbistan Krallığı tərəfindən kitabxanaya külli miqdarda qiymətli kitablar bağışlanmışdır.

Beynəlxalq əməkdaşlıq nəticəsində kitabxana bir sıra nüfuzlu təşkilatların o cümlədən 1998-ci ildə Beynəlxalq Kitabxanaçılıq Assosiasiyaları Federasiyasının (İFLA), Avrasiya Kitabxana Assambleyasının, Beynəlxalq Elmlər Akademiyaları Assosiasiyası Direktorlar Şurasının (MAAN), Zaqafqaziya İnformasiya Mütəxəssisləri Asssosiyasının və s. üzvlüyünə qəbul edilmişdir. Göründüyü kimi, nəşriyyat və mətbəələrdən, ayrı-ayrı kitab müəlliflərindən, humanitar təşkilatlardan hədiyyələrin alınması beynəlxalq kitab mübadiləsi hesabına və "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən məcburi nüsxələrin alınması kitabxanaların komplekləşdirmə ehtiyaclarını qismən də olsa həll etmiş oldu.

Müstəqilliyimizin bərpasından sonra ölkənin digər kitabxanaları kimi Mərkəzi Elmi Kitabxana da öz xidmət işini yeni şəraitə uyğun tələblər əsaslında qurmağa başladı.

Kitabxananın məlumat və soraq-biblioqrafiya xidməti işinə xüsusi diqqət artırırdı. AMEA Mərkəzi Elmi Kitabxanasında məlumat-biblioqrafiya xidməti üzrə ildə 60 minə yaxın şifahi arayışlar yerinə yetirir ki, onlar daha çox ictimai-siyasi, iqtisadi-texniki elmlər istiqamətində üstünlük təşkil edir. Eyni zamanda şifahi arayışlarala yanaşı yazılı biblioqrafik arayışların sayı da ildənilə artır. 2000-2002-ci ildə tələb olunan sorğulara müvafiq olaraq "Ermənі-Azərbaycan münaqişəsi haqqında (44), "Maya göbələkləri" (45), "Azərbaycan folkloru" (65) və s. adda müxtəlif səviyyədə xidmət etməkdə ədəbiyyat göstəricilərinin hazırlanması birinci dərəcəli əhəmiyyət kəsb edir. MEA-nın biblioqrafik nəşr fəaliyyəti mövzu göstəriciləri, ümumi qeyd xarakterli göstəricilər, şəxsibiblioqrafik göstəriciləri və "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasından olan göstəricilərin tərtibi istiqamətində inkişaf edir. Müstəqillik illərində "Orucov qardaşlarının mətbəəsi", "AEA nəşrlərinin biblioqrafik göstəricisi" adlı məlumat xarakterli tematik göstəricilər, 1991-ci ildən bəri "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasında respublikanın görkəmli alim və yazıçılarına, onların həyat və yaradıcılıqlarına, ictimai pedaqoji fəaliyyətlərinə həsr edilmiş 15-dən çox soraq biblioqrafik göstəriciləri çap edilmişdir. Onlardan «Zərifə Əliyeva», «Cəfər Qiyasi», «Firudin bəy Köçərli» və s. göstəricilər Azərbaycanın elm və mədəniyyətinin inkişafında dəyərli mənbələrdəndir. Oxuculara yüksək səviyyədə xidmət məqsədi ilə kitabxana son illərdə Mərkəzi Elmi Kitabxanaya Azərbaycan və rus dillərində daxil olan nəşrlərin bülletenlərini çapdan buraxır. Bununla yanaşı, Mərkəzi Elmi Kitabxana 2003-cü ildə özünün "Elmi əsərlər" məcmuəsini nəşretdirmişdir. Oxuculara səmərəli xidmətin, kitabxana fondunun təbliğinin əsas formalarından biri də sərgilərin təşkilidir ki, kitabxanada yeni ədəbiyyatlara, əlamətdar günlərə, yubileylərə dair sərgilər təşkil edilir. 1999-cu ildə kitabxanada ictimai-siyasi, mədəni hadisələrə, yeni elmi nailiyyətlərə, alimlərin yubileylərinə həsr olunmuş müxtəlif mövzularda 58 sərgi təşkil

edilmiş və bu sərgilərdə 6896 nüsxə ədəbiyyat nümayiş etdirilmişdir. Onların arasında "Azərbaycanda neft", "Cəfər Cabbarlı-100" və s. adlı sərgiləri göstərmək olar. Bundan başqa, vaxtilə fonda daxil olmuş ədəbiyyatları bir daha oxucular arasında geniş təbliğ etmək məqsədilə onların müəyyən dövr üzrə məsələn, 1990-1994-cü illərdə MEK-a daxil olmuş Şərq ədəbiyyatlarının sərgisi (978 nüsxə), Azərbaycan-Misir Dostluq Cəmiyyətindən alınmış ədəbiyyatların sərgisi təşkil olunmuşdur. Bunlarla yanaşı, xarici ölkə nəşriyyatlarının çap əsərlərinin sərgisi təşkil olunmuşdur. Bu baxımdan Qərbi Berlində fəaliyyət göstərən "Şprinqer-Verlaq", Hollandiyanın "Elseveir və Martinus Naykhoff İnternational" nəşriyyatlarının çap məhsullarına həsr edilmiş sərgilər diqqətəlayiqdir. Kitabxanada alim və mütəxəssislərlə operativ xidmət yollarının əlverişli formalarından biri kimi Ədəbiyyatın Seçilib Paylanması işinə xüsusi əhəmiyyət verilmişdir. Təəssüf ki, 1999-cu ildən bu xidmət forması mövcud çətinliklər üzündən öz fəaliyyətini dayandırmışdır. Müstəqillik illərində soraq-biblioqrafiya aparatının əsas tərkib hissələrindən biri olan kataloq və kartoteka sistemi əsaslı şəkildə yeniləşmiş, genişlənmiş müasir kataloqlaşdırma tələblərinə uyğun məlumat axtarış sisteminə çevrilmişdir.

90-cı illərdən baş verən məlum səbəblər üzündən respublikadakı kitabxanaların ağır vəziyyətə düşməsi onların yeni təsərrüfat mexanizminə keçməsinə ehtiyac doğurdu. Bazar iqtisadiyyatı şəraitində ilk addımlarını atan kitabxanaların yeni təsərrüfat şərtlərinə keçməsi kitabxanalara öz maliyyə vəziyyətlərini pullu xidmət təşəbbüsü ilə yaxşılaşdırmağa imkan yaratdı. Hazırda kitabxana bir çox xarici ölkə kitabxanalarının pullu xidmət təcrübəsi ilə tanış olaraq pullu xidmətin maliyyə mənbəyi olmasını başa düşərək, bu istiqamətdə ilk addımlarını atmaqdadır. Belə ki, kitabxana "Oxuculara təqdim olunan pullu xidmətin siyahısı", "Azərbaycan EA Mərkəzi Elmi Kitabxanasında pullu kitabxana məlumat xidməti haqqında" əsasnamə hazırlamışdır. Kitabxana oxucu sorğularının müvafiq yazılı mövzu biblioqrafik arayışlarının və ədəbiyyat siyahılarının hazırlanmasını, dissertasiya və avtoreferatlara UOT-dan indekslərin verilməsini, müxtəlif sənədlərin surətinin çıxarılma-sını, oxucu biletlərinin verilməsini pullu həyata keçirir.

Uzun illərdən bəri formalaşmış ənənəvi xidmət üsulları bugünkü oxucuların gündən-günə artan tələbatını qane etmir. Müasir informasiyalaşmış cəmiyyət quruculuğu şəraitində kitabxanaları informasiyalaşdırmadan, kitabxana proseslərinə müasir kompüter və kommunikasiya texnologiyalarını tətbiq etmədən müasir oxucunun informasiya tələbatını operativ və uzaq məsafədən ON LİNE ödəmək mümkün deyildir. Odur ki, informasiyanın bu günə qədər mövcud olan kağız daşıyıcıları ilə yanaşı onların rəqəmli elektron formaya çevrilməsi oxuculara xidmət prosesində yeni iş üsul və metodlarının-lokal və qlobal şəbəkədən istifadənin tətbiqini tələb edir. Bunun üçün isə kitabxana fondlarının, nadir nəşrlərin müasir elektron daşıyıcılarına köçürülməsi, İnternet şəbəkəsindən istifadə yolu ilə milli fondların bu şəbəkədə əks etdirilməsi, dünya informasiya bazasına inteqrasiyası, bu intellektual sərvətlərin

beynəlxalq miqyasda qarşılıqlı istifadəsi kimi vəzifələrin həyata keçirilməsi, kitabxananın müasir dünya standartları səviyyəsində qurulması, ilk növbədə isə avtomatlaşdırılması həlli vacib olan aktual, milli əhəmiyyətə malik məsələ kimi Azərbaycan kitabxanalarının qarşısında durur.

Son 10 ildə Azərbaycan kitabxanaları da artıq tam informasiyalaşdırılmağa doğru gedir. Bu istiqamətdə ilk dəfə olaraq Azərbaycanda tarix elmləri doktoru, professor A.A.Xələfovun rəhbərliyi ilə Bakı Dövlət Universiteti Elmi Kitabxanasının bazası əsasında yaradılan "Kitabxananın kompüterləşdirilməsi" elmi tədqiqat laboratoriyası ilk addımlar atmışdır. Belə ki, 1999-cu ildə Bakı Dövlət Universitetinin Elmi Şurası "Kitabxana işinin kompüterləşdirilməsi" elmi-tədqiqat laboratoriyasının yaradılması haqqında qərar qəbul etmiş və laboratoriya 2000-ci ildə fəaliyyətə başlamışdır. Qısa müddət ərzində laboratoriyada bu istiqamətdə müəyyən işlər görüldü. Belə ki, ilk növbədə laboratoriyanın yaranması respublikada kitabxana informatikasının əsas bazasının yaradılmasını təmin etdi. Laboratoriyanın gərgin fəaliyyətinin nəticəsi olaraq kitabxananın elmi, tədris və digər ədəbiyyatlardan ibarət milli kitab fondunun elektron kataloqu və verilənlər bazası yaradıldı. Görülən bu işlər respublikadakı digər kitabxanalar üçün əsas təcrübi baza rolunu oynamışdır.

Bütün çətinliklərə baxmayaraq, AMEA Mərkəzi Elmi Kitabxanası da bu təcrübədən yararlanaraq müəyyən işlər görmüşdür. Belə ki, kitabxana "MEK-da kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasının əsas istiqamətlərinin təxmini planı"nı hazırlamış və hazırda bu plan əsasında bir neçə istiqamət üzrə iş apararaq müəyyən nəticə əldə etmişdir. Kitabxana proseslərinin avtomatlaşdırılması şöbəsində oxuculara operativ səmərəli kitabxana-informasiya xidməti göstərmək məqsədilə İNTERNET ehtiyatlarından istifadə imkanı yaradılmışdır. Burada oxucular onları maraqlandıran informasiyanı İnternetdən tapır və eyni zamanda elektron poçt vasitəsilə yazışma aparmaq imkanı əldə edirlər. Bununla yanaşı müasir dövrdə kütləvi informasiya vasitələrinin əhalinin sosial-siyasi həyatında oynadığı mühüm rolunu nəzərə alaraq Rusiyanın kütləvi informasiya vasitələrinin məlumat bazası oxucuların istifadəsinə verilmişdir. O cümlədən, oxuculara xidmət məqsədilə İnternet şəbəkəsinin elektron informasiya ehtiyatlarından istifadə edərək yazılı mövzu biblioqrafik arayışları, informasiya bülletenləri, biblioqrafik göstəricilər hazırlanır.

Onu da qeyd etmək lazımdır ki, bu işin həyata keçirilməsi kompüter texnologiyasını, İnternetin imkanlarını dərindən bilmədən qeyri-mümkündür. Bunun üçün də mütəxəssis kadrlar yetişdirilməsi, xarici ölkə təcrübəsini öyrənmək, tədris kurslarında iştirak etmək lazımdır. Kitabxanada bu istiqamətdə də müəyyən işlər həyata keçirilir. Belə ki, kitabxana işçilərinin kompüter texnologiyasından istifadəyə yiyələnməsi üçün xüsusi kurslar təşkil edilmişdir. ABŞ Tədris və İnformasiya Mərkəzi ilə birlikdə "Elm və Mədəniyyətin informasiyalaşdırılması", kitab fondlarının mühafizəsi ilə əlaqədar "Keçmişin gələcəyi" adlı əməkdaşların ixtisas səviyyələrinin artırılması üçün ABŞ səfirliyində

"Kitabxana xidməti: yeni rakurslar", SOROS fondu Açıq Cəmiyyət İnstitutu xətti ilə "Ümumi biblioqrafik kontrol və UNİMARC", "Elektron rabitə", "İnternet axtarışı" adlı kurslar təşkil etmişdir.

Bunlarla yanaşı, humanitar fondlar tərəfindən əldə olunmuş qrantlar və ayrılan maliyyə vəsaiti hesabına kitabxananın maddi-texniki bazası möhkəmlənmişdir. Kitabxana SOROS Açıq Cəmiyyət İnstitutu tərəfindən kompüter, printer, disklər, faksmodem və s. kompüter avadanlıqları ilə təmin edilmişdir.

Müstəqillik illəri kitabxana üçün bir sıra əlamətdar hadisələrlə də xarakterik olmuşdur. Kitabxana 2000-ci ildə SOROS fondunun köməyi ilə özünün İnternetdə 75 illik tarixi fəaliyyətini əks etdirən xüsusi Web-saytını açmışdır. Azərbaycanın dünya şöhrətli alimi, siyasi xadim, ümummilli liderimiz Heydər Əliyevin zəngin irsinə, siyasi diplomatik fəaliyyətinə, həyatına həsr olunmuş ədəbiyyata artan oxucuların, tədqiqatçıların maraq və sorğularını nəzərə alaraq kitabxanada 2002-ci ildə "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" kitabxanası və kataloqu yaradılmışdır.

Respublikamızın latın qrafikasına keçməsi ilə əlaqədar olaraq bu qrafika ilə nəşr olunan ədəbiyyatların qıtlığı ilə üzləşən oxucuların böyük ehtiyaclarını nəzərə alan Mərkəzi Elmi Kitabxana Bakıda fəaliyyət göstərən ABŞ səfirliyinin Tədris və İnformasiya Mərkəzi ilə birlikdə latın qrafikası ilə "Azərbaycan ədəbiyyatı antalogiyası" adlı elektron kitabxana tərtib etmişdir. Azərbaycan Respublikası Prezidentinin 4 yanvar 2003-cü il tarixli fərmanı ilə təsdiq edilmiş, AMEA-nın nizamnaməsinin 5-ci maddəsinin 54-cü bəndinə əsasən Mərkəzi Elmi Kitabxananın elmi status alması kitabxananın inkişafında yeni mərhələ oldu. Elmi status aldıqdan sonra kitabxana işçiləri fəal elmi-tədqiqat işinə cəlb olundu, kitabxananın bazasında profilli istiqamətlər üzrə aspirantura xətti ilə elmi kadrların hazırlanması üçün şərait yarandı. Bütün bunlar gələcəkdə kitabxananın qarşısında duran vəzifələri uğurla həll edəcəyinə əsas verir.

S.Məmmədova ilə birlikdə.
"Kitabxanaşünaslıq və biblioqrafiya"
elmi-nəzəri və təcrübi jurnalı. 2004, № 2. s. 3-11

İNFORMASİYA CƏMİYYƏTİ VƏ KİTABXANA İŞİ

Bəşəriyyət tarixinə nəzər salarkən belə bir qanunauyğunluq aşkar olunur ki, hər bir əsr özünəməxsus inkişaf prosesi ilə böyük elmi və mədəni əhəmiyyətə malik hadisələrlə xarakterizə olunur. Məsələn, dünya alimləri keçən əsrin ikinci yarısından başlayaraq XX əsri atom əsri, elmi-texniki tərəqqi əsri, informasiya partlayışı əsri adlandırmağa başladılar. XXI əsr isə informasiya əsri hesab olunur. Bunun əsas səbəbi informasiyanın cəmiyyətin əsas aparıcı qüvvələrindən birinə çevrilməsi, sənaye cəmiyyətindən informasiya cəmiyyətinə sürətli keçidlə əlaqədar idi. Alimlər belə bir fikir formalaşdırarkən

cəmiyyətdə gedən proseslərin dərin təhqiqinə və onun qanunauyğunluqlarına əsaslanmışdılar.

İnformasiyalaşdırılmış cəmiyyətin yaradılması və daha da təkmilləşdirilməsi bilavasitə komunikasiya sistemləri, informasiyanın alınması, işlənməsi və verilməsi prosesi ilə əlaqədar olduğundan, müasir cəmiyyətdə hər cür informasiyanı cəmiyyət üzvləri arasında yaymağı qarşısına məqsəd qoyan, informasiya resurslarını qoruyub saxlayan, onu əsrdən-əsrə, nəsildən-nəslə ötürməklə informasiya daşıyıcısı kimi fəaliyyət göstərən kitabxana sistemləri mühüm vəzifə daşıyır. Ona görə də, müasir informasiya cəmiyyətində kitabxana işi ilə informasiya arasında çox sıx, qarşılıqlı əlaqələr meydana çıxıb formalaşmışdır ki, bunları bir-birindən ayrılıqda düşünmək hər iki sahənin ümumi inkişafına maneə ola bilər.

İnformasiya-insanın öz hiss üzvləri vasitəsilə təbiətdən və cəmiyyətdən, eləcə də mütaliə prosesi zamanı aldığı məlumatlardır. İnsanlar informasiyanı yaratmaq, ötürmək, saxlamaq, istehsal və təkrar istehsal etmək imkanlarına malikdir.

İnformasiya latınca informatio, yəni izahetmə, şərhetmə mənasında meydana gəlsə də öz ilkin mənasını çoxdan dəyişmiş, olduqca mürəkkəb, öyrənilməsinə və sistemləşdirilməsinə böyük ehtiyac duyulan bir prosesə çevrilmişdir.

Müasir dövrümüzdə elmin və texniki tərəqqinin böyük vüsət alması, elmi təqiqatların nəticələrinin cəmiyyət həyatına, praktikaya tətbiq edilməsi, texnologiyanın və texniki proseslərin sürətli inkişafı nəticəsində informasiya axınının artımı, köhnəlməsi və səpələnməsi həddsiz dərəcədə çoxalmış, bu informasiya axınının işlənməsi, istehsal edilməsi və onun tələb olunan istiqamətlərə yönəldilməsi insanların imkanları dairəsindən kənara çıxmışdır. Bu proses həm iqtisadi, həm də sosial sahədə baş verdiyindən, daha mürəkkəb xarakter daşımağa başlamışdır. Məhz buna görədir ki, bu mühüm prosesi öyrənmək, araşdırmaq üçün yeni elm sahəsinin meydana çıxması zərurəti yaranmışdır. Beləliklə, əsasən XX əsrin elmi kimi formalaşan informatika elmi yaranmışdır.

İnformatika hesablama texnikasının köməyi ilə informasiyanın qəbulu, istehsal edilməsi, arxivləşdirilib saxlanılması və istifadə üsulları ilə məşğul olan ictimai elmdir. Doğrudur, informatika mütəxəssisləri informasiyanı texniki elm hesab edirlər, amma əslində elmi məlumatın alınması, işlənməsi və verilməsi öz məzmunu və istiqaməti baxımından cəmiyyətdə baş verən obyektiv proses olduğundan informasiya ictimai elmlər sırasına daxildir.

Belə bir fikri qeyd etmək yerinə düşərdi ki, informatika elmi ilk dəfə XX əsrin ikinci yarısından başlayaraq ABŞ-ın ali kitabxanaçılıq məktəblərində, kolleclərində meydana gəlmiş, elmi tədris fənni kimi öyrənilməyə başlamışdır.

Əsasən XX əsrin ikinci yarısında bir elm kimi formalaşan, cəmiyyətin iqtisadi və sosial həyatında böyük rol oynayan və ciddi dəyişikliklər edən informatika ona qohum olan bir sıra elmlərin, ilk növbədə isə kitabxanaşünaslığın bir humanitar elm kimi yeni metodlar, ideyalar, nəzəriyyələrlə zən-

ginləşməsi, yeni texnologiyalar, texniki vasitələrlə təmin edilməsinə şərait və imkanlar yaratmış, kitabxanaşünaslıq və informatika qarşılıqlı şəkildə inkişaf etməyə, təkmilləşməyə başlamışdır. Kitabxanaşünaslıqla informatikanın inteqrasiyası nəticəsində məlum olmuşdur ki, bu iki elmin əlaqələri olmadan müasir zamanda informasiyalaşdırılmış cəmiyyəti inkişaf etdirmək, bu cəmiyyətin qarşıya qoyduğu vəzifələrə cavab vermək, cəmiyyət üzvlərinin informasiya tələbatını ödəmək mümkün deyil.

İnformasiyalaşdırma cəmiyyət üzvlərinin, dövlət idarə orqanlarının, cəmiyyətin bütün sosial strukturlarının, ictimai təşkilatların informasiya ehtiyaclarını formalaşdırmaq və ondan istifadə etmək əsasında informasiya tələbatını ödəmək üçün optimal şərait yaradan, həmçinin bu sahədə vətəndaşların hüququnu həyata keçirən, təşkil edən sosial-iqtisadi və elmi-texniki prosesdir.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanununda göstərilir: "İnformasiyalaşdırma-informasiya ehtiyatlarının formalaşması, təqdim edilməsi, istifadə olunması əsasında dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının, təşkilati və hüquqi, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların vətəndaşların informasiya tələbatlarının və bu sahədəki hüquqlarının təmin edilməsinin optimal şəraitinin yaradılması üçün təşkilati, sosial-iqtisadi, elmi-texniki prosesdir."

İnformasiyalaşdırılmış cəmiyyət işçi qüvvəsinin əksər hissəsinin informasiyanın, xüsusilə onun yüksək keyfiyyət səviyyəsi olan biliyin istehsalı, mühafizəsi, emalı və reallaşması ilə məşğul olan cəmiyyətdir.

İnformasiyalaşdırılmış cəmiyyət anlayışı ilk dəfə kifayət qədər aydın şəkildə XX əsrin 60-cı illərinin sonu - 70-ci illərinin əvvəllərində işlənilib. Bu termin Tokio texnologiya institutunun professoru Y.Xayaşinin adı ilə bağlıdır.

İnformasiyalaşdırılmış cəmiyyətin özünəməxsus xüsusiyyətləri vardır:

-İnformasiyalaşdırılmış cəmiyyət- yeni tipli cəmiyyətdir. Bu cəmiyyət özündən əvvəlki cəmiyyətlərdən öz texnologiyalarına görə fərqlənir. Bu cəmiyyət yeni qlobal sosial inqilabın nəticəsi olub, informasiya partlayışından doğan, informasiya və komunikasiya texnologiyalarının birləşməsi nəticəsində formalaşan yeni tipli cəmiyyətdir.

-İnformasiyalaşdırılmış cəmiyyət bilik cəmiyyətidir. Bu cəmiyyət hər bir insanın, hər bir cəmiyyətin bilik almasını təmin edir,onlara informasiya mənbələrindən maneəsiz istifadə etmək və təcrübə qazanmaq üçün şərait yaradır.

-İnformasiyalaşdırılmış cəmiyyət-qlobal cəmiyyətdir. Bu cəmiyyətdə informasiya mübadiləsinin nə vaxtı, nə məkanı, nə də siyasi sərhədləri var. Bu da cəmiyyətə və insanlara bəşəri sərvətlərdən bəhrələnmək imkanı vermələ mədəniyyətlərin bir-birinə qovuşmasını sürətləndirir, onların qarşılıqlı təsir dairəsini genişləndirir, hər bir cəmiyyətə başqa cəmiyyətlərdən faydalanmaqla yeniləşmək və təkmilləşmək imkanı verir.

Aydındır ki, hər bir inkişaf etmiş ölkə informasiyalaşdırılmış cəmiyyətə özünün siyasi, sosial-iqtisadi, mədəni faktorlarına əsaslanaraq qədəm qoyur.

Məhz buna görə də informasiyalaşdırılmış cəmiyyətin formalaşması üçün əlverişli şərtlərin yaradılması yeni cəmiyyətə keçən ölkənin informasiya mühitinin baza komponentlərinin sürətli inkişafını tələb edir.

Onlardan birincisi texniki texnoloji proseslərin inkişafıdır. Bura daxildir: informasiyanın yaranması, qorunması, yayılması və əhalinin geniş təbəqələrinin ondan istifadəsini təmin edən informasiya komunikasiya infrastrukturunun inkişafı, milli informasiya ehtiyatları sisteminin və onlardan istifadə texnologiyalarının təkmilləşdirilməsi və inkişafı, informasiyanın toplanması, qorunması, ötürülməsi və çatdırılmasını təmin edən hesablama və telekommunikkasiya texnologiyalarının təkmilləşdirilməsi və inkişafı, onun bütövlüyü, səmərəliliyi və məxfiliyi, kütləvi informasiya vasitələrinin texniki baza və inkişafı .

İkinci komponent informasiya və komunikasiya xidmətləri sənayesinin və onun infrastrukturunun formalaşdırılmasıdır. Bura aşağıdakılar daxildir: informasiyalaşdırılmış cəmiyyətə inteqrasiya proseslərinin iqtisadi potensialının gücləndirilməsi və inkişafı; informasiya məhsulları və xidmətlərinin dəstəklənməsi; informasiya texnologiyaları, məhsulları, xidmətlər bazarının iqtisadi tənzimlənməsi üçün tədbirlər, əhalinin inkişaf etmiş informasiya tələbatının və informasiya mədəniyyətinin formalaşdırılması, informasiya məhsulları və xidmətlərinə alıcılıq qabiliyyəti tələbatının stimullaşdırılması; sosial əhəmiyyətli proqramlar üçün informasiya və telekomunikasiya texnologiyalarının, məhsul və xidmətlərinin istehsalçıları ilə istehlakçılarının prioritet himayəsi; kütləvi ev kompüterləşməsinin inkişafı; informasiya və telekomunikasiya sistemlərində işləmək üçün yeni nəsil kadrların kütləvi hazırlanması sisteminin dəstəklənməsi.

Üçüncü kompanent iqtisadi, sosial-mədəni, hüquqi və təşkilati şərtlərin formalaşmasıdır. Bura isə bunlar daxildir: ümumi informasiyalaşdırma siyasətinin işlənib hazırlanmasını zəruri edən inteqrasiya problemlərinin həlli; informasiya qanun-vericilik sisteminin və onun reallaşması mexanizminin təkmilləşməsi, kütləvi informasiyanın yayılması sisteminin inkişafı və informasiyalaşdırılmış cəmiyyətə keçid üçün əlverişli ictimai-siyasi mühitin formalaşdırılması; informasiyanın ictimai təhlükəsizliyinin təmin olunması və s.

Belə bir məsələyə şübhə etməmək olar ki, informasiyanın yüksək inkişaf etdiyi XXI əsr informasiyalaşdırmanı cəmiyyət həyatının bütün sahələrinə tətbiq etməklə elmi texniki tərəqqinin böyük vüsət almasında əhəmiyyətli yer tutacaq, iqtisadiyyatın, elm və mədəniyyətin tərəqqisində xüsusi mərhələ təşkil edəcəkdir.

Məhz bu mərhələdə insanların kompüter biliyinə yiyələnməsi və kompüterlə işləmək bacarığı mühüm amillərdən biri kimi ortaya çıxır. Cəmiyyətdə kompüterləşdirmə və informasiyalaşdırma mədəniyyətinin təbliği mühüm əhəmiyyət kəsb edir. Bütün bunlar cəmiyyətin hər bir üzvünün qarşısında informasiya texnologiyasına yiyələnmək və bu texnologiyadan istifadə etmək vərdişlərinin olmasını tələb edir. Bu isə informasiyalaşdırılmış cəmiyyətə keçmək üçün cəmiyyət üzvlərinin aşağıdakı imkanlara malik olmasını zəruri edir:

-əhalinin savadlılıq və təhsil səviyyəsinin yüksək olması;

-bütün ailələrdə qlobal informasiya şəbəkəsi olan İnternetə qoşulmuş fərdi kompüterlərin olması;

-informasiya şəbəkələrində fəaliyyətin yeni forması və növünün meydana çıxması;

-şəbəkədə iş və ticarət, şəbəkədə istirahət, şəbəkədə əyləncə və yaradıcılıq, şəbəkədə tərbiyə və təhsil, şəbəkədə tibb və s.

-cəmiyyətin hər bir üzvünün yaşadığı yerdən asılı olmayaraq ölkədə və xaricdə mövcud olan bütün informasiya mənbələrindən, müəssisələrdən, mərkəzlərdən istifadə etmək imkanının olması;

-dünya İnternet sisteminə qoşulmaqla ən yeni informasiyanı əldə edə bilməsi imkanlarının olması;

-kütləvi informasiya vasitələrinin fəaliyyətinə, informasiya mənbələrinin açılmasına diqqət yetirilməsi, onlarla informasiya orqanları arasında əlaqələrin genişlənməsinə, inteqrasiyanın təmin edilməsinə diqqət yetirilməsi;

-milli layihələrdə informasiya və komunikasiya texnologiyalarının tətbiqi sahəsində geniş təcrübə olması;

-ölkədə iqtisadi fəaliyyət və investisiyaların qoyuluşu üçün əlverişli şəraitin mövcud olması və s.

Cəmiyyətin informasiyalaşdırılması prosesini yüksək səviyyədə təşkil etmək üçün bu işi ilk olaraq kitabxanalardan başlamaq lazımdır. Daha doğrusu, informasiyalaşdırılmış cəmiyyətin mahiyyəti və xüsusiyyətləri ilə ötəri tanışlıq belə bir qənaətə gəlməyə imkan verir ki, bu cəmiyyət informasiyanın ən mühüm daşıyıcısı olan kitab və kitabxanalarsız keçinə bilməz. Kitabxana informasiyalaşdırılmış cəmiyyətin əsas atributlarından biri, informasiya müəssisələrinin ən mühüm vasitəsidir. Kitabxanalar informasiyalaşdırılmış cəmiyyət üçün əsas müəssisə olduğu kimi müasir kitabxanalar da informasiya texnologiyaları olmadan keçinə bilməz. Müasir kitabxanaların yaşaması, fəaliyyət göstərməsi, cəmiyyətdə kitabxanalara xas olan mühüm sosial funksiyaları yerinə yetirməsi, cəmiyyətin tərəqqi və inkişafının əsas vasitələrindən birinə çevrilməsi üçün onun özünün bütövlükdə informasiyalaşdırılması zəruridir. İnformasiyalaşdırılmış cəmiyyətə keçid prosesində kitabxanaların əsas vəzifəsi öz nəzəri və təcrübi səviyyəsinin yüksəldilməsinin daim qayğısına qalmalı, müasir cəmiyyətin, kitabxana oxucularının ən böyük ehtiyac hiss etdikləri informasiya istehsalını genişləndirməlidir.

İnformasiyalaşdırılmış cəmiyyət şəraitində, İnternet vasitəsilə bütün sərhədlər yox olur, ölkənin qanunları aradan çıxır, geosiyasi sərhədlərdə əhəmiyyətini itirir, bütün cəmiyyət üzvlərinə, bütün insanlara xidmət edən vahid informasiya məkanı meydana çıxır. Bu məkan hamı üçün açıqdır, bu məkandan istifadə etməkdə hamı bərabərdir.

İnkişaf etmiş ölkələr informasiya cəmiyyətinə, onun əldə etmiş olduğu imkanlara yüksək inkişaf etmiş cəmiyyətin əsas atributları kimi baxır, onu iqtisadi mədəni inkişafın açarı kimi qəbul edir. XXI əsrin gələcəyini bu mühüm problemin həllində görür.

Belə bir cəmiyyətin yaranması bütün vətəndaşların işidir. Bu cəmiyyət haqqında, onun mahiyyəti, əhəmiyyət və vəzifələri haqqında müntəzəm və ardıcıl olaraq cəmiyət üzvlərinin bütün təbəqələri arasında məqsədyönlü, ardıcıl təbliğat və izahetmə işi aparılmalı, geniş tədbirlər həyata keçirilməlidir.

Cəmiyyətin bütün təbəqələrini əhatə edən işlərin aparılması onların bu cəmiyyət haqqında dialoqa cəlb edilməsi, bu prosesin kütləvi xarakter alması üçün şərait yarada bilər. Nəticədə informasiyanı qəbul edib onu ötürməyi, ondan istifadə edib bəhrələnməyi, öz gündəlik fəaliyyətinə, yaşayış tərzinə, məişətinə tətbiq edən, ondan bəhrələnən insanlar qrupu formalaşır ki, bu da informasiyalaşdırılmış cəmiyyətin bünövrəsini qoya bilər. Bu insanların çoxdan gözlədiyi bir dövrdür.

Müasir şəraitdə başlıca vəzifələrdən birini informasiya texnologiyası, onun inkişafı tutur. Elmi texniki tərəqqinin inkişafı ilə ayaqlaşan informasiya texnologiyası olmadan, bütövlükdə informasiya işini avtomatlaşdırmadan, kompüterləşdirmədən, yüksək texnologiyaya malik informasiya mərkəzləri yaratmadan, hər cür informasiyanın mərkəzi və saxlayıcısı olan kitabxanaları kompüterləşdirmədən informasiyalaşdırılmış cəmiyyətdən danışmaq olmaz.

İnformasiyalaşdırılmış cəmiyyətə keçid prosesində Azərbaycan kitabxanalarının avtomatlaşdırılması vəziyyətini öyrənmək məqsədilə Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanası açıq cəmiyyət institutu yardım fondunun dəstəyi ilə "Kitabxanalar- mədəni inteqrasiya ideyalarının daşıyıcılarıdır" layihəsi çərçivəsində respublika kitabxanaları üçün böyük əhəmiyyət kəsb edən sosioloji tədqiqat aparmışdır. Bu tədqiqatlar nəticəsində kifayət qədər maraqlı faktlar ortaya çıxmışdır. Belə ki, sosioloji sorğu materiallarına əsasən, respodentlərin böyük hissəsi hesab edir ki, kitabxanaların fəaliyyətinin prioritet istiqaməti ilk növbədə onların avtomatlaşdırılması olmalıdır. Burada maraqlı fakt ondan ibarətdir ki, bu istiqamətdə bölgələrdə aparılan sorğunun faiz göstəricisi Bakıya nisbətən daha yüksəkdir. Məsələn, Bakıda və respublikanın digər bölgələrində bu göstərici 53.2 və 60% olduğu halda, bölgələrdə bu rəqəm 61.1 faizdir. Bu konteksdə rəyi soruşulanların 57.9%-i yeni informasiya texnologiyalarının tətbiqini kitabxana fəaliyyətinin əsas istiqamətlərindən sayır. Kitabxanaların fəaliyyətinin strukturuna yeni informasiya texnologiyalarının tətbiqini respublika tabeçiliyində olan şəhərlərdə respondentlərin 90.6%-i, kənd rayonlarında 74%, Bakıda 64.2%-i dəstəkləyir.

İnformasiyalaşdırılmış cəmiyyətə keçid prosesində yaxından iştirak edən BDU-nun "Kitabxanaların kompüterləşdirilməsi" Elmi tədqiqat labaratoriyasının fəaliyyəti haqqında qısaca məlumat verək. Professor A.Xələfovun rəhbərliyi altında fəaliyyət göstərən bu ETL yarandığı ilk gündən, yəni 1999-cu ildən etibarən BDU-nun elmi kitabxanasının kompleks kompüterləşdirilməsini həyata keçirir. Belə ki, labarotoriyanın əməkdaşları tərəfindən qısa müddət ərzində ilk dəfə olaraq milli AKİS- "Kitabxana 1.0" yaradılmış, onun təkmilləşdirilmiş "Kitabxana 2.0" versiyası yaradılmışdır. Bu AKİS-lər 20 minə yaxın biblioqrafik yazı əsasında Azərbaycan dilində olan kitabların informasiya bazasına malik olub, 13 axtarış göstəricisi və onların kombinasiyasına görə informasiya axtarışını həyata keçirir. Bu AKİS-lər o zaman qüvvədə olan QOST 7.1-84 standartı əsasında hazırlanan biblioqrafik məlumat bazasına əsaslandığından, kitabxanaların müasir problemlərini, o cümlədən beynəlxalq biblioqra-fik məlumat mübadiləsini təmin etmədiyi üçün 2003-cü ildən etibarən BDU-nun elektron kataloqunun yaradılmasında keçmiş MDB-nin bir sıra qabaqcıl kitabxanalarında uzun müddət tətbiq olunan "MARC SQL-1.5" AKİS-i ilə iş aparılır. Bu proqram kitabxananın elektron kataloqunun yaradılmasını, kitabxana fondunun komplektləşdirilməsini və uçotunu, abonement, axtarış-məlumat xidmətini avtomatlaşdırır, İnternet/intranet şəbəkəsi vasitəsilə oxucuların uzaq məsafədən online ədəbiyyat axtarışı və sifarişini təmin edir. AKİS biblioqrafik məlumat bazasının UNİMARC və USMARC formatlarında hazırlanmasını təmin edir ki, bu da elmi kitabxanaya biblioqrafik məlumat mübadiləsini həyata keçirməyə və bunun əsasında əlavə maliyyə mənbələrinin əldə olunmasına imkan verir. Onu da qeyd edək ki, laboratoriyanın əməkdaşları tərəfindən UNİMARC formatı Azərbaycan dilinə tərcümə olunmuş və onun tətbiqinə kömək məqsədilə nümunələr hazırlanmışdır. Laboratoriyanın əməkdaşları kitabxananın 15 işçisinə MARC SQL-1.5 AKİS-i ilə işləmək üçün təlimlər keçmiş və UNİMARC formatı haqqında məlumat verilmişdir. Artıq bu proqram vasitəsilə Elmi kitabxananın "Nadir kitablar fondu" şöbəsində 7100 adda kitabın, "Dissertasiyalar və avtoreferatlar" şöbəsində 3170 adda rus dilində, 580 adda Azərbaycan dilində olan dissertasiyanın, "Xarici ədəbiyyat və dövrü mətbuat" şöbəsində isə bütün elm sahələri üzrə müxtəlif profilli xarici dillərdə olan 1525 jurnalın, texniki elm sahələrinə aid 13768 rus dilində jurnalın, 976 Azərbaycan dilində jurnalın elektron kataloqu yaradılıb. Həmçinin 6000 adda kimyaya aid rus dilində olan kitabların elektron kataloqu yaradılıb istifadəyə verilərək oxuculara yeni elektron xidmət göstərilir. Bunun üçün kitabxanada xüsusi kompüterlər ayrılmışdır. Həmçinin oxucular dünyanın istənilən nöqtəsindən İnternetdən www.bsu.az/lib saytı vasitəsilə elektron kataloqdan istifadə etməklə öz sorğularını yerinə yetirə bilərlər. Düzdür bu işlərin təbliği sayəsində lazımi qədər işlər görülməmişdir və bu problem tezliklə aradan qaldırılacaqdır.

Elektron dərsliklərin hazırlanması laboratoriyanın fəaliyyətində əsas istiqamətlərdən biridir. Müəllif hüquqlarının qorunması nəzərə alınmaqla BDU-nun aparıcı alimlərinin elektron kitabları hazırlanır. Həmçinin "Heydər Əliyev-80" biblioqrafik məlumat kitabı və onun Azərbaycan, rus, ingilis dillərində elektron diski hazırlanmışdır.

"Kitabxanaların kompüterləşdirilməsi" ETL praktiki işlərlə yanaşı, elmi-metodiki işlərə də diqqt yetirilir. İnformasiyalaşdırılmış cəmiyyətə keçid prosesində kitabxanaçılığın aktual problemləri haqqında bir sıra məqalələr yazılmışdır. Laboratoriyanın əməkdaşları "Kitabxanaçılıq və informasiya" fakültəsinin tədris fəaliyyətində də iştirak etməklə bərabər "Kitabxana proseslərinin avtomatlaşdırılması", "AKİS-lərin proqram təminatı" fənlərinin

tədris proqramlarını hazırlamış, "AKİS-lər" adlı metodik vəsait və iki cildlik "Kitabxana informatikası" adlı dərs vəsaiti çap etmişlər.

İnformasiyalaşdırılmış cəmiyyətə keçid prosesində AMEA-nın MEK da yaxından iştirak edir. MEK-nın "Kitabxana proseslərinin avtomatlaşdırılması" şöbəsinin yarandığı vaxtdan indiyədək gördüyü işləri qısa şəkildə nəzərdən keçirək. Şöbədə iş 3 istiqamətdə aparılır:

1. Oxuculara İnternet xidməti
2. Kataloq kartoçkalarının kompüterdə yazılması
3. Kitabxananın rəsmi sənədlərinin çapı və yığımı

2003-cü ilədək bu şöbədə aparılan işlər müasir avtomatlaşdırma parametrlərinə uyğun gəlmədiyindən, 2003-cü ilin sonlarından başlayaraq şöbənin gördüyü işlər haqqında da məlumat verək. Azərbaycanda vahid AKİS-in hələ də tətbiq olunmadığı və standart kataloqlaşdırma formatı mövcud olmadığı üçün kitabxananın fondunun elektron kataloqa daxil edilməsi istiqamətində müəyyən çətinliklər var. Maliyyə vəsaitinin azlığını nəzərə alaraq avtomatlaşdırma şöbəsinin bir qrup proqramçı-kitabxanaçı əməkdaşı Rusiyanın "Biblioteka 5.0" AKİS-i əsasında yeni "Kitabxana 4.0" AKİS-i yaratmışdır. AKİS özündə kataloqlaşdırma AİY, komplektləşdirmə AİY, kitab verilişi AİY və oxucu AİY-lərini birləşdirirdi. Proqramın "VEB kitabxana 4.0" versiyası da hazırlanmışdır ki, bu kitabxananın saytında elektron kataloqu təqdim etməyə imkan yaradırdı. Bu sistem UNİMARC formatı əsasında yaradılaraq, yeni dəyişikliklərə imkan verən interfeyslə hazırlanmışdır. İlkin yoxlama zamanı proqram normal işləsə də, sonralar burada kitabxanalararası abonement üçün vacib olan inteqrasiyalılığın çatışmaması özünü göstərdi. Bu isə o deməkdir ki, bu proqram vasitəsilə yalnız kitabxanaya gələn oxuculara xidmət etmək mümkündür. Məhz bu səbəbdən bu AKİS müasir avtomatlaşdırma standartlarına tam cavab vermirdi.

"Kitabxana proseslərinin avtomatlaşdırılması"şöbəsi tərəfindən Azərbaycanda ilk dəfə olaraq "Kitabxana axtarış portalı" hazırlanıb. Portal özündə kitabxana ilə bağlı bütün informasiyaları əks etdirir. 2004-cü ilin ikinci yarısında avtomatlaşdırma şöbəsinin əməkdaşları Şərqdə ilk dəfə olaraq İnternet saytlarının biblioqrafik göstəricisi olan "Veblioqrafiya" hazırlayıblar. Veblioqrafiya 10 cilddə nəzərdə tutulan nəşrin birincisidir. Bu veblioqrafiyada dünya kitabxanalarının saytlarının ünvanları əks olunmuşdur. Gələcəkdə dünyanın ədəbiyyat, tarix, hüquq və s. saytlarının da veblioqrafiyasının yaradılması nəzərdə tutulmuşdur. Veblioqrafiyanın bir neçə nüsxəsi ölkəmizin hüdudlarından kənarda belə xüsusi maraqla qarşılanmışdır.

Bu şöbə tərəfindən indiyədək 15 adda Azərbaycan dilində ədəbiyyatın elektron kataloqu yaradılıb. Kitabxanada 10000-dən çox elektron nəşr vahidi var.

İnformasiyalaşdırılmış cəmiyyətə keçid şəraitində M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının iş təcrübəsi böyü maraq doğurur. Milli kitabxana son beş il ərzində müxtəlif təşkilatlar sıx əlaqə yaradaraq onların elan etdiyi müsabiqələrdə iştirak etmiş və qrantlar udmuşdur. Belə layihələrdən biri və eyni zamanda birincisi 1998-ci ildə kitabxananın ABŞ-ın USAİD təşkilatının vəsaiti hesabına Avrasiya fondundan qrand udaraq, qlobal İnternet şəbəkəsinə qoşulması olmuşdur. Bununla da milli kitabxanada modernləşdirilmiş kitabxana quruculuğunun əsası qoyulmuşdur. 2001-ci ildə isə milli kitabxana ACİ YF-una təqdim olunmuş layihə əsasında kitabxanada "Kitabxanaçıların İxtisasartırma təlim mərkəzi" açılmışdır. Müasir səviyyədə yaradılan bu tədris mərkəzi texniki avadanlıqla təchiz olunmuş və mərkəzdə həm ixtisas, həm də xarici dil öyrənilməsinə dair təlimlər keçirilir. Son illər isə milli kitabxana AKİS tətbiqi üzərində çalışır. Bunun üçün kitabxana öz partnyorları ilə birlikdə avtomatlaşdırılmış bu sistemlərin öyrənilməsi və araşdırılması ilə məşğul olaraq, dünya standartlarına uyğun, beynəlxalq səviyyədə işləyəcək bir sistemin - VTLS İnc.seçilməsinə qərar vermişdir. Və bundan sonra kitabxana "Maşınla oxunan elektron kataloqun yaradılması" adlı layihə ilə 3 təşkilata müraciət edərək, maliyyə dəstəyi əldə edə bilmişdir. 2002-ci ilin sonlarında açıq cəmiyyəti nstitutu-yardım fondunun informasiya proqramı ümumdünya "Qutenberq layihəsi" çərçivəsində informasiya resurslarının Azərbaycan dilində latın qrafikası ilə yaradılması və yayılmasına dair 3 ən yaxşı layihə üzrə müsabiqə elan edib və M.F.Axundov adına milli kitabxana müsabiqədə qalib gəlmişdir. Layihənin məqsədi Azərbaycanın ədəbiyyat və incəsənət sahəsində milli sərvətlərin əsasını təşkil edən kitabxanaların, məcmuələrin və ayrı-ayrı əsərlərin elektron variantlarının bir-birilə qarşılıqlı əlaqədə olan müstəqil server-ehtiyatlar əsasında müntəzəm saxlama sisteminin təşkil edilməsidir ki, artıq bu kitabxanada şifahi xalq ədəbiyyatı nümunələri, klassik yazıçıların əsərləri latın qrafikasına çevirərək serverlərə yükləmişlər.

Bütün bunlar bir daha təsdiq edir ki, digər ölkələrdə olduğu kimi Azərbaycanda da informasiyalaşdırılmış cəmiyyətə keçid prosesində kitabxanalar yaxından iştirak edir və bu prosesin həyata keçirilməsini sürətləndirir.

"Bakı Universitetinin Xəbərləri: Humanitar elmlər seriyası", 2004. № 3. s. 316-327

GÖYÇƏ HƏSRƏTİ

Akademik Hüseyn Əhmədovun « Xatirələrim və ya nəslimizin şəcərəsi» kitabı nəfis şəkildə işıq üzü görüb

Azərbaycan elminin görkəmli nümayəndəsi, akademik Hüseyn Əhmədovun çoxsaylı əsərləri milli məktəb və pedaqoji fikir tariximizin araşdırılması, tətbiqi və ümumiləşdirilməsi baxımından əvəzsiz elmi əhəmiyyətə malikdir. Həmin əsərlər müxtəlif elm sahələrində çalışan mütəxəssislərimizin masaüstü kitabları kimi öz dəyərlərini həmişə saxlayır.

Alimin bu yaxınlarda nəşr olunmuş növbəti kitabı isə daha çox tarixi

mümuar-şəcərə xarakteri daşıyır və Hüseyn Əhmədovun mənsub olduğu nəslin və soykökün yaxın-uzaq keçmişini göz önündə canlandırır.

Bu gün erməni tapdağında qalmış Qərbi Azərbaycan torpaqlarının hayharayını özündə əks etdirən, təxminən XVIII-XIX əsrlərdən sonra bu ərazilərdə baş vermiş bir sıra tarixi hadisələrə aydınlıq gətirən, unudulan və ya unudulmaqda olan yurd yerləri ilə bağlı acılı-şirinli xatirələri yenidən yaddaşlara yazan «Xatirələrim və ya nəslimizin şəcərəsi» kitabı bütövlükdə qədim Oğuz elllərinin yazılmamış tarixinin bəzi məqamlarının öyrənilməsi nöqteyi-nəzərindən də yüksək qiymətə layiqdir.

Kitabda xronoloji ardıcıllıqla təsvir olunmuş xatirələri müəllif özünəməxsus üslubda, aydın şəkildə elə ustalıqla nəql edir ki, insan istər-istəməz oxuduğu əhvalatların təsirinə düşür, ağrılı-acılı, kədərli-sevincli xəyallarla qol-boyun olur, ağsaqqal alimimizin kövrək, həzin şirin yaşantılarını bir daha yaşayır və özününküləşdirir.

Bu dəyərli nəşrə ön söz yazan tanınmış cərrah, tibb elmləri doktoru Vaqif Qələndərin xüsusi olaraq vurğuladığı kimi, «Azərbaycanda qədimdən məşhur olan, amma sovetlər dönəmində unudulsa da, müstəqillik illərində yenidən əhəmiyyət kəsb edən şəcərə-memuar yaradıcılığı həm el-obanın, həm də soykökü və nəslin tarixini nəsillərə ərməğan etmək baxımından çox əhəmiyyətlidir».

Bu mənada xatirə-memuar kitabının zaman-zaman tarixçilərimizin, etnoqraflarımızın, həmçinin digər sahələrdə fəaliyyət göstərən mütəxəssislərimizin yardımçısına çevriləcəyi şübhəsizdir. Belə ki, bir nəfərin, bir ailənin, bir nəslin, bir kəndin, bir obanın, bir tarixi əslində bütöv bir Vətənin tarixi qədər böyük məna daşıyır. Başqa sözlə, əzəmətli saraylar, nəhəng imarətlər, başgicəlləndirici göydələnlər kiçik kərpiclərdən yarandığına görə zamanın ağır sınaqlarına sinə gərə bilir.

Kitabı maraqla oxuyub vərəqlədikcə bir yandan Göyçə mahalının buz bulaqlı, sərin yayalaqlı, bağlı-bağatlı kəndlərinin həsrəti oxucunu kövrəldir, digər yandan isə yaşı minillərlə hesablanan unudulmaz dədə-baba məskənlərimizdə mənfur erməni millərçilərin açıq-aşkar düşmənçiliyinə qarşı mərdliklə mübarizə aparan, milli mənliyini və milli ləyaqətini erməni vəhşiliyinə qurban verməyən soydaşlarımızın parlaq obrazları yaddaşlarda canlanır.

Akademik Hüseyn Əhmədovun kitabda verdiyi bir sıra tarixi faktlar bu gün xalqımıza qarşı beynəlxalq miqyasda təxribatçılıqla və terorçuluqla məşğul olan ermənilərin iç üzünü aşmaqla yanaşı, həm də əzəli və əbədi düşmənlərimiz olduqlarını, məqam yetişər-yetişməz türk millətini məhv etməyə hazır olduqlarını bir daha təsdiqləyir.

Kitabda verilmiş «7 il Göykilsədə», «Mehriban qonşuluq, yoxsa nankorluq?», «Qaxdağanlar Qərbi Azərbaycanda», «Toxluca: tarixi, sosial-iqtisadi həyatı», «Kəndimizin xeyir-şər mərasimləri » və başqa bölmələrin hər birində oxucular indiyə qədər qatı açılmamış bir çox mətləblərdən xəbərdar ola, dostumuzu-düşmənimizi tanıya və bəzi milli adət-ənənələrimizlə tanış ola bilərlər.

Akademikin gərgin zəhmət bahasına tərtib etdiyi şəcərələr onun ana və ata tərəfi, ümumiyyətlə, nəsil-nəcabəti haqqında dolğun təsəvvür yaradır.

Kitabın sonunda el ağsaqqalı, görkəmli ziyalı, xeyirxah insan Hüseyn Əhmədova həsr olunmuş bir sıra şeirlərin və məqalələrin verilməsi, həmçinin buraya 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin xəritəsinin və akademikin kitablarının fotosərgisinin daxil edilməsi diqqəti oxucunun təsəvvürünü daha da genişləndirir. Əminik ki, görkəmli akademikimiz Hüseyn Əhmədovun başdan-başa Yurd sevgisi, Vətən həsrəti, Torpaq nisgili ovqatı ilə qələmə aldığı «Xatirələrim və ya nəslimizin şəcərəsi» kitabı Ulu Göyçənin və bütövlükdə Böyük Vətəndən müvəqqəti olaraq uzaq düşmüş Qərbi Azərbaycan ellərinin keşməkeşli keçmişinin daha dərindən araşdırılmasıda mühüm rol oynayacaqdır.

Knyaz Aslanla birlikdə.
"Ulu körpü" qəzeti. 7 fevral 2004.

MƏKTƏB KİTABXANALARI MÜSTƏQİLLİK ŞƏRAİTİNDƏ

Müstəqil və suveren Azərbaycan Respublikasının yaranması xalqımızın tarixində böyük tarixi hadisədir. Müstəqillik şəraitində ölkənin sosial-iqtisadi tərəqqisi, xalqın mənəvi potensialının güclənməsi milli mədəniyyətimizin hərtərəfli inkişafı üçün geniş şərait yaratmışdır.

Məhz buna görədir ki, yeni cəmiyyət quruculuğu, bazar iqtisadiyyatı şəraitində kitabxana işinin, kitabxanaçılıq elminin elmi-nəzəri və metodoloji əsaslarının yenidən işlənməsi və kitabxanaların gələcəyinin müəyyənləşdirilməsi zərurəti meydana çıxır. Yeni iqtisadi və siyasi sistemin formalaşdığı bir şəraitdə başlıca söhbət kitabxana işi sahəsində mövcud olan prinsiplərin yeniləşdirilməsindən və qismən dəyişdirilməsindən deyil, onların köklü surətdə yenidən formalaşmasından gedir. Bu isə öz növbəsində kitabxana işinin bütün sahələrində köklü islahatların aparılmasını, kitabxana quruculuğunu informasiyalaşdırılmış cəmiyyətin tələbləri səviyyəsinə yüksəltməyi, yeni informasiya texnologiyası ilə təmin etməyi tələb edir.

Belə bir strateji əhəmiyyət kəsb edən islahat mərhələsi məktəb kitabxanalarının da təşəkkülünə və inkişafına, habelə müasir durumuna yeni baxışların və iş metodlarının yaradılmasını tələb edir. Azərbaycanda məktəb kitabxanalarının yaranması, formalaşması və inkişafı çox mürəkkəb, çətin tarixi yol keçmiş və böyük uğurlar qazanmışdır. Məhz buna görədir ki, respublikamızda məktəb kitabxanalarının tarixi, onların gənc nəslin təhsil və tərbiyəsindəki fəaliyyəti, ciddi tədqiqat obyekti kimi diqqət mərkəzində olmuşdur. Azərbaycan kitabxanaşünaslıq elminin banisi, əməkdar elm xadimi, BMT yanında Beynəlxalq informasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor Abuzər Xələfovun kitabxanaşünaslığın nəzəri və

təcrübi problemlərinin öyrənilməsi sahəsindəki səmərəli elmi-tədqiqat fəaliyyəti məktəb kitabxanalarının da tarixinin araşdırılması, həmçinin müasir dövrdəki fəaliyyəti və gələcək perspektivləri üçün geniş imkanlar açmışdır.

Məktəb kitabxanaları uşaqların mütaliəsinə, onların tədris-tərbiyə prosesinə, sinifdənkənar işlərinin təşkilinə xidmət edən mədəni-maarif müəssisələridir. Məlumdur ki, respublikamız müstəqillik qazandıqndan sonra ölkəmizdə təhsil islahatları aparılır, təhsil milli zəmin əsasında yenidən qurulur. Təhsil islahatlarının aparılması təhsil müəssisələrinin, o cümlədən bilavasitə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən məktəb kitabxanalarının işlərinin yenidən qurulmasını tələb edir. Məktəb kitabxanaları məktəbin tədris ədəbiyyatı mərkəzi, məktəbin sinifdənkənar təlim və tərbiyə mərkəzi olduğundan onların təhsil islahatlarında yaxından iştirak etməsini təmin etmək üçün kitabxanaların işinin də yenidən qurulması zərurəti böyük aktuallıq kəsb edir. Məhz buna görədir ki, beynəlxalq təşkilatlar məktəb kitabxanalarının işinin yenidən qurulmasına böyük diqqət yetirilməsini ön plana çəkirlər. Məktəb kitabxanasının ümumi və xüsusi statusunun müəyyən edilməsi, dəyişən informasiya məkanında onun yerinin və perspektivinin müəyyən edilməsi beynəlxalq kitabxana təşkilatlarının da diqqətini cəlb edir. Artıq neçə ildir ki, kitabxana elm aləmində «YUNESKO-nun kitabxanalar haqqında manifesti» fəaliyyət göstərir. Bu sənəd dünyanın 20 dilinə tərcümə edilmişdir. İfla 2000-ci ildə İsrailin Quds şəhərində keçirilmiş konqresində bu sənədin yeni variantını («Məktəb kitabxanaları haqqında manifest») qəbul etmişdir. Manifestdə məktəb kitabxanalarının statusu müəyyənləşdirilməklə onların fəaliyyət sahəsi, vəzifələri hüquqü vəziyyəti haqqında məsələlərə aydınlıq gətirilmişdir. Manifestdə göstərilir ki:

Müasir cəmiyyətdə bilik müstəsna rola malikdir, belə bir şəraitdə təhsil prosesinin uğurla həyata keçirilməsi üçün lazım olan informasiyanı təqdim edən məktəb kitabxanaları şagirdlərdə təxəyyülü həmçinin özünütəhsillə məşğul olan tələbatı inkişaf etdirir, informasiya məkanından baş çıxarmağa alışdırır, vətəndaş məhsuliyyəti tərbiyə edir.

Məktəb kitabxanaları şagirdlərə öyrədici kompüter proqramları, kitablar digər informasiya resursları təqdim etməklə onlarda tənqidi düşüncəni inkişaf etdirir və onlara informasiyanın bütün növlərindən istifadə etmək vərdişləri aşılayır. YUNESKO-nun ictimai kitabxanalar haqqında manifestinin prinsiplərinə uyğun olaraq məktəb kitabxanası daha geniş kitabxana-informasiya sisteminin tərkib hissəsidir.

Məlumdur ki, kitabxanaçılarla və müəllimlərlə əmkdaşlıq şagirdlərin savad səviyyəsinin, mütaliə vərdişlərinin, yaddaşın inkişafına və həm də informasiya kommunikasiya texnoloqlarından istifadə etmək bacarığının yaranmasına kömək edir.

Məktəb kitabxanalarından səmərəli istifadə bərabər şəkildə hamıya, həm şagirdlərə, həm də məktəb işçilərinə müyəssər olmalıdır. Bu zaman həm şagirdlərə, həm də məktəbin işçilərinə yaş, cins, irq mənsubiyyəti, dini əqidə,

milliyət, sosial status əlamətlərinə görə ayrıseçkilik qoyulmamalıdır. Əsas xidmət növlərindən və materiallardan istifadə edə bilməyən, istifadə etmək iqtidarında olmayanlara xüsusi xidmət göstərməlidir. Kitabxananın xidət növləri və fondlarının yaradılması BMT-nin ümumdünya insan haqları və azadlıqları bəyənnaməsinin prinsiplərinə əsaslanmalı və ideoloji, siyasi və dini senzuranın hər hansı bir formasının təsirinə və ya komersiya təzyiqinə məruz qalmamalıdır.

Daha sonra manifestdə göstərilir:

Məktəb kitabxanası təhsilin inkişafına, informasiyanın təbliğ edilməsinə, iqtisadi, sosial və mədəni inkişafa yönəlmiş hər hansı uzunmüddətli fəaliyyətin ən vacib sahəsidir. O yerli regional və dövlət inzibati rəhbərliyin tabeliyindədir və onun fəaliyyət göstərməsi xüsusi qanunvericilik aktları və siyasi proqramlar tərəfindən dəstəklənir. Məktəb kitabxanası sabit qaydada və kifayət miqdarda maliyyələşdirilməlidir ki, bu vəsaiti yüksək peşə səviyyəli ştat saxlamağa, lazımi materiallar, texnika və avadanlıq almaq mümkün olsun. Məktəb kitabxanaları pulsuz olamalıdır. Əgər məktəb kitabxanaları digər tip kitabxana ilə, məsələn ictimai kitabxana ilə eyni bina avadanlıq və resurslardan artıq istifadə edirsə məktəb kitabxanasının xüsusi vəzifələri tanınmalı və göstərilməlidir.

Manifestdə kitabxanaların vəzifələri aşağdakı kimi müəyyənləşdirilmişdir:

- Təhsil konsepsiyasında və məktəb proqramında nəzərdə tutulan təhsil vəzifələrini dəstəkləmək və onu təmin etmək;

- Uşaqlarda mütaliə və təlimə olan maraq və bundan sevinc duymaq qabiliyyətini inkişaf etdirmək və dəstəkləmək;

- Həm biliklərin əldə edilməsi, həm təfəkkürün inkişafı, həm də həzz almaq üçün informasiyanın yaradılması və istifadəsi imkanlarını təşkil etmək;

- Şagirdlərin sənədin növündən, formatından, maddi daşıyıcı formasından asılı olmayaraq informasiyanın tənqidi qiymətləndirilməsi və istifadəsi vərdişlərini əldə etmələrinə, əldə edilmiş məlumatları praktikada istifadə etmələrinə maraq yaradılması və bu zaman cəmiyyət daxilində kommunikasiya üsullarına ciddi diqqət yetirilməsinə kömək etmək;

- Şagirdlərin müxtəlif ideyalarla, rəylərlə və təcrübə ilə tanış olmasına imkan verən yerli regional, milli və beynəlxalq resurslarla təmin edilməsi və həm də digər imkanları yaratmaq;

- Mədəni və sosial özünüdərki tərbiyə edən, şagirdlərdə emosianal inkişafa yardım edən tədbirləri təşkil etmək;

- Müəllim və şagirdlərlə məktəb müdiriyyəti və valideyinlərlə məktəbin vəzifələri həllinə yönəlmiş iş aparmaq;

- İnformasiya ilə azad müyəssərliyin və zehni azadlığın demokratik prinsiplərinə əsaslanan fəal vətəndaş mövqeynin tərbiyə edilməsinin vacib şərti olması ideyasının təssübkeşliyi;

- Mütaliənin məktəb kitabxanasında həm məktəbdən kənarda olan resurslarının təbliğ etmək.

Bu vəzifələrin həyata keçirilməsi üçün məktəb kitabxanası öz siyasətini işləyib hazırlayır, xidmət istiqamətlərini inkişaf etdirir, resurslarını komplekt-

ləşdirir, lazımi informasiya mənbələrinə fiziki və zehni müəssəriyi təmin edir və bu zaman məsləhət xidməti təklif edir və həmin vəzifələrin həlli üçün peşəkar səviyyədə təhsil almış əməkdaşları işə götürür.

Manifestdə məktəb kitabxanalarının kadrlarla təmini və onların vəzifələri haqqında məlumat verilmişdir. Manifestdə göstərilir ki, məktəb kitabxanasının müdiri planlaşdırma və fəaliyyətin tənzimlənməsi üçün məsul olan, mövcud imkanları nəzərə almaqla kitabxananın ştatını formalaşdıran, məktəb kollektivinin bütün üzvləri ilə əməkdaşlıq şəraitində işləyən, ictimai kitabxanalar və digər müəssisələrlə əlaqə saxlayan və peşə baxımından hazırlayan məktəb kollektivinin üzvüdür. Məktəb kitabxanalarının fəaliyyəti konkret məktəbdə mövcud olan maliyyə imkanına, məktəb proqramlarının xüsusiyyətlərinə, tədris metodikalarına uyğun şəraitdə qurulur və dövlətin hüquq və maliyyə sisteminə müvafiq olaraq həyata keçirilir. Məktəb kitabxanalarının iş şəraitinin müxtəlifliyinə baxmayaraq hər bir kitabxanaçı kitabxana xidmətini səmərəli şəkildə həyata keçirmək üçün zəruri olan biliklərə malik olmalıdır ki, bunlara da informasiya resursları, kitabxana işi, informasiya siyasəti və informasiya təhsilinin metodikası sahəsində dolğun biliklər tələb edir.

İnformasiya fəzasının və informasiya şəbəkələrinin fasiləsiz inkişafı şəraitində məktəb kitabxaançılarının üzərinə şagird və müəllimlərə informasiya vasitələrinin işləməsi vərdişlərinin öyrədilməsi funksiyası qoyulur ki, bu da kitabxanaçıdan öz peşə səviyyəsinin daim artırılmasını tələb edir.

Manifestdə məktəb kitabxanalarının idarə edilməsi məsələsinə xüsusi diqqət yetirilməsi və onun əsas cəhətləri də göstərilmişdir. Manifestdə göstərilir:

Məktəb kitabxanalarının səmərəli fəaliyyəti və hesabatı üçün aşağıdakılar zəruridir:

- Məktəb kitabxanalarına müvafiq olaraq vəzifələr, prioritetlər və xidmətlər göstərilməklə kitabxana siyasətinin müəyyən edilməsi;
- Kitabxaançılıq peşəsinin standartlarına müvafiq olaraq kitabxananın fəaliyyətinin qurulması və idarə edilməsi;
- Kitabxana xidmətinin məktəb kollektivlərinin bütün üzvlərinə müyəssər olmasının qayğısına qalması və oxucu təlabatlarının nəzərə alınması.
- Məktəb kitabxanaçısının müəllimlərə, məktəb müdiriyyəti ilə inzibati rəhbərliklə, valideynlərlə digər kitabxanalarla və informasiya mütəxəssislərilə və müxtəlif ictimai qurumlarla əməkdaşlığının yaradılması.

Manifestdə sənəddə göstərilən prinsiplərin həyata keçirilməsi vəzifələrinə də diqqət yetirilmişdir.

Manifestdə göstərilir:

Dövlət orqanları təhsilə cavabdeh olan nazirliklər vasitəsilə bu manifestin prinsiplərinin həyata keçirilməsinə yönəlmiş strategiyanı, siyasəti və planlaşdırmanı təşkil edir, həm də müəllimlərin və kitabxaançıların peşə təhsili sistemi vasitəsilə həmin manefestə də əks olunmuş ideyaların təbliğini həyata keçirir. Təhsil sisteminə həm baza təhsili, həm də ixtisaslaşdırma sistemi daxildir.

Beynəlxalq səviyyədə məktəb kitabxaanalrının fəaliyyətini tənzimləyən

hüquqi sənədlərin qəbul edilməsi və rotfikasiyası Azərbaycan məktəb kitabxanalarının inkişaf perspektivlərinə səmərəli təsir göstərə bilər.

Respublikamızda böyük şəbəkəyə malik məktəb kitabxanalarının tarixi, inkişaf mərhələləri və müasir vəziyyəti onu söyləməyə imkan verir ki, bu kitabxanalar böyük tarixi inkişaf yolu keçmişdir. Məktəb kitabxanaları respublikada təhsil sisteminin yaradılmasında və inkişafında böyük rol oynamışdır. Müasir şəraitdə məktəb kitabxanalarının keçdiyi bu tarixi yola ciddi nəzər salmaqla qarşıda duran müasir problemlərin həllinə böyük ehtiyac duyulmaqdadır. Respublikamızda məktəb kitabxanalarının tarixi fəaliyyəti və müasir problemləri haqqında professor Abuzər Xələfovun tədqiqatlarında geniş yer verilmiş, onların təhsil sistemində yeri və vəzifələri müəyyənləşdirilmişdir. Gənc tədqiqatçı Elçin Əhmədovun «Uşaq kitabxanalarının tarixinə və müasir vəziyyətinə» həsr edilmiş namizədlik dissertasiyasında da məktəb kitabxanaları haqqında çox qiymətli tarixi faktlar və materiallar ümumiləşdirilmiş, elmi tövsiyələr irəli-sürülmüşdür.

Ancaq müasir dövrdə respublikamızda aparılan təhsil islahatları məktəb kitabxanalarının tarixinin və indiki vəziyyətinin müasir tələblər baxımından öyrənilməsini, ümumiləşdirilməsini, yeni elmi tövsiyələr və konsepsiyalar hazırlanmasını tələb edir. Məktəb kitabxanalarının tarixi, məktəblərimizin tarixi qədər qədimdir. Məktəb tarixini öyrənərkən məlum olur ki, Azərbaycan ərazisində lap qədimlərdən həm dünyəvi, hə dini məktəblərin, mədrəsələrin yanında kitabxanalar yaratmaq və həmin kitabxanaları tədris edilən fənlərə müvafiq ədəbiyyatla komplektləşdirmək bir ənənə halını almışdır. Beləliklə həm qədim məktəbləri, həm də müasir məktəbləri kitabxanasız düşünmək mümkün deyildir. Məktəb və kitabxana biri-birindən ayrılmazdır. Kitabxana məktəbin strukturuna daxildir, onun atributlarından biridir. Məktəb kitabxanalarının inkişafı Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonrakı dövrə təsadüf edir. 1920-ci ilin sonlarında məktəb kitabxanalarının təşkili sahəsində ilk mühüm addımlar atılmağa başlanmış, yeni açılan məktəblərin yanında çətinliklə də olsa kiçik məktəb kitabxanaları yaradılmağa başlamışdır. Məhz bu dövrdə məktəb kitabxanalarının əhəmiyyət və vəzifələri, onun şagirdlərin təhsilində və tərbiyəsində böyük rolu haqqında respublikanın maarif mətbuatında qiymətli fikirlər özünə yer tapırdı. «Maarif işçisi» jurnalı 1927-ci ilin ikinci nömrəsində dərc edilən «Məktəb və kitabxana» məqaləsində oxuyuruq: «Məktəb və kitabxana bu iki maarif müəssisələri, daha doğrusu bu iki maarif mənbələri hər ikisi bir gözlə görülməlidir. Bu müəssisələrin istər metodik, istər plan cəhətdən cəmi işləri sıx surətdə aparılmalıdır. Bu müəssisələr hər ikisi vahid və ümumi məqsədə işləyirlər».

20-ci illərdə respublikamızın şəhər və kəndlərində məktəb şəbəkələrinin sürətlə artımı nəticəsində məktəb kitabxanalarının sayı xeyli çoxalmış, onların işinin keyfiyyəti yüksəldilmişdir. Əgər 1922-ci ildə respublikamızda 1215 məktəb kitabxanası var idisə onların sayı 1930-cu ildə 2067-yə çatmışdır. Məktəb kitabxanalarının fondu da xeyli çoxalmış, məzmunca yaxşılaşmışdır.

Məktəb kitabxanalarının fəaliyyətinin qiymətləndirilməsi cəmiyyətdə onun kəmiyyət artımına gətirib çıxarırdı. 30-cu illərdə məktəb kitabxanalarının işinin təkmilləşdirilməsi ilə bağlı bir sıra dövlət qərarları qəbul edildi. Belə ki, Azərbaycan XKS 1937-ci il may ayının 17-də «məktəb kitabxana şəbəkəsinin inkişaf etdirilməsi və onlar üçün kitab nəşri haqqında» xüsusi qərar qəbul etdi. Qərarda tezliklə mövcud məktəb kitabxanalarını ədəbiyyatla təchiz etmək, kitabxanası olmayan məktəblərdə kitabxanalar açmaq və onların maddi-texniki bazasının möhkəmləndirilməsi dövlət orqanlarından tələb edilirdi. Qərarda məktəb kitabxanaları üçün 70 milyon manat vəsait ayrılması nəzərdə tutulmuşdur. Azərbaycan XKS-i qərarının yerinə yetirilməsi nəticəsi olacaq məktəb kitabxanalarına ayrılan vəsait xeyli artırılmaqla, yeni məktəb kitabxanaları yaratmaq üçün tədbirlər həyata keçilməyə başlandı. Artıq 1938-ci ildə Azərbaycanda 1628 məktəb kitabxanası fəaliyyət göstərirdi. 1940cı ilin əvvəlində məktəb kitabxanalarının sayı 2480-ə çatmışdır.

1941-1945-ci illərdə müharibə şəraitindən doğan çətinliklər nəticəsində məktəb kitabxanalarının sayı ciddi surətdə azalıb 544-ə düşmüşdür. Ancaq qeyd etmək lazımdır ki, Azərbaycan təhsil işçilərinin fədakarlığı nəticəsində məktəblərin böyük əksəriyyəti və məktəb kitabxanaları öz fəaliyyətini davam etdirmişlər. Müharibə qurtardıqdan dərhal sonra məktəb kitabxanalarının sürətlə bərpasına başlandı. Artıq 40-cı illərin axırında respublikamızda 1580 məktəb kitabxanası fəaliyyət göstərirdi. Bu dövrdə məktəb kitabxanalarının qarşısında duran əsas vəzifələrdən biri məktəb kitabxanalarının yeni ədəbiyyatla komplektləşdirilməsi idi. Nəşriyyatların az uşaq ədəbiyyatı buraxması, buraxılan ədəbiyyatın məhdudluğu məktəb kitabxanalarının yeni ədəbiyyatla təmin edilməsinə mənfi təsir edirdi. Xüsusilə Azərbaycan dilində uşaq ədəbiyyatı olduqca az nəşr edilirdi. Məhz buna görədir ki, Respublika hökuməti uşaq ədəbiyyatının nəşrini genişləndirmək haqqında xüsusi göstəriş vermişdir. Artıq 60-cı illərin əvvəlində respublikamızda fəaliyyət göstərən 2.657 məktəb kitabxanasına 2 milyon 477 min nüsxə ədəbiyyat verilmişdir. Məktəb kitabxanalarının maddi-texniki bazasının genişləndirilməsi, kitabxanaların dərs proqramlarının mənimsənilməsində şagirdlərə yaxından kömək etməklə yanaşı uşaqların ümumidünya görüşünün formalaşmasında, onların estetik tərbiyəsində yaxından iştirak etməyə imkan yaradırdı.

Respublikanın məktəb kitabxanaları ilk növbədə çoxminli şagird və müəllimlərin maraq və sorğularının öyrənilməsi, zənginləşməsini tələb edirdi. Bu dövrdə məktəb kitabxanalarının qarşısında daha ciddi vəzifələr: müəllimlərə və şagirdlərə kitabxana və informasiya xidmətini təşkil etmək vəzifəsi qoyulmuşdu.

Bu mühüm vəzifələri yerinə yetirmək üçün məktəb kitabxanaları xeyli iş görmüşdür.

1965-ci ildə Azərbaycanda 3143 məktəb kitabxanasının 4,8 milyon nüsxə ədəbiyyatı var idi. 1970-ci illərin əvvəllərindən başlayaraq məktəb kitabxanalarının fondu xeyli zənginləşdi. Bu işdə Respublika Nazirlər Sovetinin 23 yanvar 1970-ci il «Ümumtəhsil məktəbləri kitabxanalarının dərslik fondlarının pulsuz təmin edilməsi haqqında» qərar mühüm rol oynadı. Bu qərardan sonra məktəb kitabxanalarının fondu dərsliklərlə yanaşı olaraq uşaq ədəbiyyatı ilə də komplektləşməyə başladı. Məktəb kitabxanasının sistemli və ardıcıl komplektləşməsi üçün zəmin yaradılırdı. Həmçinin məktəb kitabxanalarının yenidən qurulması, məktəblərə xidmət işinin təkmilləşməsi üçün mühüm tədbirlər həyata keçirtməyə başladı. Məhz 70-80-ci illərdə öz işlərini xeyli təkmilləşdirməyə, təhsil sisteminin qarşısında duran vəzifələr səviyyəsində qurmağa nail olmuş respublikamızın qabaqcıl məktəb kitabxanaları kitabxana xidmətinin daha ciddi problemləri olan:

- Məktəb kitabxana fondlarının profilə uyğun ədəbiyyatla zənginləşməsi;
- Şagirdlərin bütövlükdə kitabxanaya cəlb edilməsi;
- Kitab təbliği formaları vasitəsilə xidmət işinin təşkili və şagird mütaliəsinə rəhbərlik;
- Şagirdlərin müntəzəm və sistemli mütaliəsini təşkil etmək üçün müəllim və valideynlərin əlaqəsini yaratmaq;
- Şagirdlər arasında kitabxana-biblioqrafik biliklərin təbliği və s. problemləri həyata keçirməyə başlamışdılar.

Göstərilən işlərin həyata keçirilməsində məktəbli oxucuların yaş xüsusiyyətləri, oxucu qrupları nəzərə alınırdı. Şagirdlərə xidmət işinin təşkilinə diferensial yanaşma üsulundan daha çox istifadə edən məktəb kitabxanaları məktəbli oxucuların yaş qruplarına bölünməsinə üstünlük verirdilər.

Qruplar aşağıdakı kimi müəyyənləşdirilirdi:

I qrup - məktəbəqədər yaşlılar
II qrup - kiçik məktəbyaşlılar(I-III sinif)
III qrup - orta məktəbyaşlılar (IV-VI sinif)
IV qrup – böyük məkətəbyaşlılar (VII-XI sinif)

Məlumdur ki, şagirdlərin sinifdən-sinifə keçməsi ilə əlaqədar olaraq oxucu qruplarında dəyişikliklər baş verildiyindən bu iş məktəb kitabxanası işçilərinin nəzarəti altında həyata keçirilir.

Oxucu qrupları üzrə oxuculara xidmət işinin təşkili şagird-lərin mütaliə prosesinə təsir etmək imkanı verməklə, sinifdən kənar mütaliənin səmərəliliyini artırır, onu daha məqsədyönlü edirdi.

80-ci illərdə respublikamızda məktəb kitabxana şəbəkəsi xeyli genişlənmiş, onların maddi-texniki bazası möhkəmlənmiş, kitabxana fondları əsaslı şəkildə inkişaf etmişdir. Məktəb kitabxanaları məktəbin təhlil və ictimai həyatında öncül mövqelərdən birini tutmaqla məktəbin pedoqoji kollektivinin dayaq bazasına çevrilmişdir.

1985-ci ildə respublikada 4189 məktəb kitabxanası fəaliyyət göstərdi ki, onların da fondunda 24,8 milyon nüsxə ədəbiyyat toplanmışdır.

80-ci illərdə Azərbaycan hökuməti məktəb kitabxanalarının işini təkmilləşdirilmək məqsədilə konkret tədbirlər həyata keçirməyə başladı. Bu tədbirlər içərisində məktəb kitabxanalarının metodiki təminat sistemini həyata keçirən Respublika Elmi Pedaqoji Kitabxanasının (REPK) yaradılması oldu.

1982-ci ildən fəaliyyətə başlayan Respublika Elmi Pedoqoji Kitabxanası tez bir müddət içərisində məktəb kitabxanalarının metodiki təminatını həyata keçirməklə, məktəb kitabxana şəbəkəsinin qaydaya salınması, onların vəzifələrinin müəyyənləşdirilməsi, məktəb kitabxanaları üçün nizamnamələr və digər rəhbər sənədlər hazırlanmasında xeyli iş gördü ki, bu da məktəb kitabxanalarının işinin yenidən qurulmasına səbəb oldu.

Məktəb kitabxanalarında dərslik fondunun yaradılması məktəblilərin kitabxanaya gəlişini artırmaqla, kitabxana ilə müəllim kollektivi arasında əlaqələrin daha da genişlənməsinə, kitabxananın apardığı kütləvi işlərdə pedaqoji kollektivin yaxından iştirakına səbəb oldu.

Kitabxanalar həmçinin şagirdlərlə yanaşı olaraq müəllimlərə xidmət göstərməyi ön plana çəkmiş, müəllimlərin informasiya sorğularını ödəməyə başlamışlar. Məktəb kitabxanalarının fəaliyyətin də baş verən bu yeniliklər onların məktəbin həyatında oynadığı rolu xeyli artırmış məktəb kitabxanaları haqqında müsbət ictimai fikrin formalaşmasına müsbət təsir göstərmişdir.

80-ci illərdə qabaqcıl məktəb kitabxanaları məktəb kollektivinin informasiya təminatını ödəmək məqsədi ilə informasiya texnologiyasından istifadə etməyə başlamışdır ki, bu da müasir dövrdə daha geniş vüsət almışdır.

80-90-cı illərdə məktəb kitabxanaları öz qarşılarında duran ən mühüm vəzifələrin məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsi, şagirdlərə və müəllimlərə xidmət işinin təşkili, şagirdlərin sinifdən kənar kütləvi işlərə cəlb edilməsi, onların mütaliə vərdişlərinə cəlb edilməsi, mütaliə vərdişlərinin aşılanması vəzifələrinin həyata keçirilməsinə səy göstərirdilər. Göstərilən bu mühüm vəzifələrin qarşılıqlı surətdə həlli məktəb kitabxanalarının dövrlə, zamanla ayaqlaşmasına, təhsil sisteminin əsas vəzifələrindən birinə çevrilməsini təmin edirdi. Məktəb kitabxanaları həmçinin məktəb pedaqoji kollektivinin və şagirdlərin informasiya təminatının ödənilməsi üçün öz işini yenidən qurmalı, informasiya texnologiyası əldə etməlidir. Artıq məktəb kitabxanalarında kompüterlərin görünməsi kitabxana işinin kopüterləşməsinin ilk mərhələsinin başlanması idi. Respublikamızda bu işin sürətləndirilməsinə böyük ehtiyac duyulmaqdadır. Çünki, orta ümumtəhsil məktəblərində «informatika» fəninin tədrisi şagirdlərin kompüterdən istifadə etmək vərdişlərini xeyli təkmilləşdmiş informasiya vasitələrinə tələbatını artırmışdır.

Müasir şəraitdə məktəb kitabxanalarının qarşısında duran ən mühüm vəzifə məktəblilərin mütaliəsinə rəhbərlik, onlara mütaliə vərdişlərinin aşılanması, vəzifəsidir. Bu məsələ işin canıdır və onun uğurlu təşkilindən məktəb kitabxanalarının təhsil sistemində tutduğu mövqedən aslıdır. Bu mühüm işin müvəffəqiyyətlə həyata keçirilməsində ən mühüm şəxsiyyət kitabxanaçıdır. Kitabxanaçı kitab mütaliəsini sevən, onu təbliğ edən, uşaqları kitabxana işinə cəlb etməyi bacaran, sinifdən kənar mütaliə prosesini istiqamətləndirən yüksək pedaqoji ustalığı olan, uşaq psixologiyasından baş çıxaran bir şəxs olmalıdır. Belə bir məsələni dərk etmək yerinə düşərdi ki, şagirdlər keçirilən dərsləri eyni səviyyədə qavraya bilmədiyi kimi, mütaliə vərdişi də eyni səviyyədə

olmur. Əgər bu vərdiş birində asan yaranırsa, digərində çətinliklə, həm də çox gec yaranır. Məktəb kitabxanası bu vərdişi şagirdlərdə yaratmaq üçün ədəbiyyatın kompleks şəkildə təbliğinə diqqət yetirilməli tövsiyə olunmuş ədəbiyyatın oxunmasına nəzarət edilməlidir. Məktəb kitabxanalarında oxuculara xidmətin elmi mahiyyətinə təsir edən aşağıdakı amillərin ön plana çəkilməsinə və onun elmi metodlarla yerinə yetirilməsinə nəzarət hər bir məktəb kitabxanasının əsas vəzifəsi olmalıdır.

Mütaliəyə rəhbərlikdə yaş xüsusiyyətlərinin nəzərə alınması;
Mütaliəyə rəhbərlikdə şagirdlərə fərdi yanaşma;
Mütaliəyə rəhbərlikdə müntəzəmliyin təmin edilməsi;
Mütaliəyə rəhbərlikdə əyanilik prinsipi;
Mütaliədə hərtərəfliliyin gözlənilməsi;
Mütaliəyə rəhbərlikdə sistemlilik və ardıcıllıq;
Mütaliənin təşkilində müstəqil uşaq kitabxanaları ilə əlaqə;
Mütaliəyə rəhbərlikdə müstəqillik və milli ideologiya amillərin nəzərə alınması.

Respublikamızın qabaqcıl uşaq kitabxanalarında bu prinsiplərin tətbiqi kitabxana təcrübəsini xeyli zənginləşdirmişdir. Nəzərə alsaq ki, respublikada 1.236. 443 nəfər məktəbli oxucuya xidmət edən 4.4.08. orta məktəb kitabxanası fəaliyyət göstərir. Onda bu prinsiplərin həyata keçirilməsinin nə qədər böyük əhəmiyyət kəsb etdiyi aşkara çıxır.

Aparılan tədqiqatlar göstərir ki, şagirdlərin az mütaliə etməsi, mütaliə mədəniyyətinin aşağı səviyyədə olması bir çox cəhətdən məktəb kitabxanasında mütaliəyə rəhbərlik edənlərin oxucularda mütaliəyə maraq və məsuliyyətli münasibət yaratmamasından, mütaliənin motivləşdirilməsi imkanlarından lazımınca istifadə edə bilməməsindən aslıdır. Unutmaq olmaz ki, mütaliəyə maraq mütaliə mədəniyyəti formalaşdırılmasının əsas amilidir. Şagirdlərin yaxşı oxuması üçün onların maraqla oxuması vacibdir, biliyi tərbiyə etmək üçün əvvəlcə ona münasibət tərbiyə etmək lazımdır.

Məktəb kitabxanalarının fəaliyyətini təkmilləşdirmək üçün ilk növbədə onun iş prosesini tədqiq etmək, mənfi və müsbət cəhətləri aşkara çıxarıb ümumiləşdirmələr aparmaq lazımdır. Bu işdə kitabxanalara ən yaxından kömək edən üsullardan biri oxucu formulyarıdır. Aparılan müşahidələr göstərir ki, oxucu formulyarı şagirdlərin marağının öyrənilməsində, mütaliəyə rəhbərliyində qiymətli pedaqoji sənəddir.

Məktəb kitabxanalarının fəaliyyətində diqqəti cəlb edən vacib istiqamətlərin biri də oxucularla aparılan kitabxana işinin müxtəlif forma və metodlarının pedaqoji səmərəliliyinin öyrənilməsi və bunların oxucu sorğularının xüsusiyyət və keyfiyyətlərinə, mütaliə vərdişlərinin təsirinin aşkar edilməsidir. Bu istiqamətdə aparılan işlər oxucunun mütaliəsini aşağıdakı qaydada öyrənir: a) fərdi, b) qrup, c) kütləvi oxucular. Qeyd edilən istiqamətdə oxucu fəaliyyətinin mürəkkəb şəkli olan mütaliənin hərtərəfli araşdırılması üçün pedaqoji, psixoloji-pedaqoji və sosioloji tədqiqatlarda tətbiq və geniş istifadə edilən metodlara müraciət etmək lazım gəlir:

1) Sənədlərin təhlili
2) Müşahidə
3) Müsahibə
4) Eksperiment

Məktəb kitabxanalarının fəaliyyətində tətbiq olunmalı mütərəqqi pedaqoji metodların işə keçməsi üçün bir sıra problemlərin həlli öz reallığını tapmalıdır. İlk növbədə məktəb kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, sonra isə məktəb kitabxanası işçilərinin peşə biliyinin təkmilləşdirilməsi problemi həll edilməlidir. Bununla yanaşı çox vacib, məktəb kitabxanaları üçün günün tələbi olan, bu tip kitabxanaların fəaliyyətinə nəzarət edən peşəkar bir qrumun yaradılması problemidir. Kəmiyyətcə ən geniş şəbəkəyə malik olan məktəb kitabxanalarının fəaliyyəti tam nəzarətdə olmalı, yeri gəlmişkən bu problemi həll etmək üçün Təhsil nazirliyində bir bölmənin yaradılması vacibdir.

Bu zənnimizcə məktəb kitabxanalarının fəaliyyətinin səmərəsinə təsir edər. Habelə məktəb kitabxanalarının fəaliyyətinin müasir standartlara uyğunlaşdırılmasını təmin edər.

E.Əhmədovla birlikdə.
«Kitabxanaşünaslıq və biblioqrafiya», elmi, nəzəri və təcrübi jurnalı, 2004. № 1. s. 3-14

HEYDƏR ƏLİYEVİN ƏMƏLLƏRİ ƏBƏDİDİR

Azərbaycan xalqının dahi oğlu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümumilli lideri Heydər Əlirza oğlu Əliyev öz imzasını vətənimizin və millətimizin tarixinə qızıl hərflərlə yazmış, fenomenal istedada malik nadir tarixi şəxsiyyətdir. Çox zəngin, keşməkeşli və ibrətamiz bir həyat yolu keçmiş, özünün fitri qabiliyyəti, möhkəm xarakteri və gərgin zəhməti sayəsində siyasi olimpin ən yüksək zirvəsini fəth etmiş bu görkəmli dövlət adamı 81 illik ömrü ərzində xalqının xoş gələcəyi naminə ölçüyəgəlməz işlər görmüşdür.

Müdrik rəhbərimiz, alovlu vətənpərvər, dünya miqyaslı siyasətçi H.Əliyevin keçirdiyi bənzərsiz tale yolu Azərbaycanın müasir tarixində çox mühüm bir mərhələ təşkil edir. Bu məşhur şəxsiyyətin istər sovet hakimiyyətinin mövcud olduğu XX əsrin 70-80-ci illərində, istərsə də Azərbaycanın müstəqilliyi şəraitində həyata keçirdiyi cahanşümul tədbirlərin hər biri hərtərəfli şəkildə araşdırılmağa, öyrənilməyə və təbliğ olunmağa layiqdir.

Son illərdə müstəqil Azərbaycan dövlətinin memarı, ölkəmizin müdrik Prezidenti H.Əliyevin gərgin fəaliyyəti, uğurlu strateji və taktiki addımları, çevik xarici və daxili siyasəti nəticəsində respublikamızın həyatında siyasi sabitlik yaranmış, beynəlxalq aləmdə ölkəmizin nüfuzu xeyli artmış və dünyanın aparıcı dövlətlərinin diqqətini özünə cəlb etmişdir.

Xüsusilə təzəcə müstəqillik qazanmış Azərbaycan respublikasının bəzi xarici dövlətlərinin köməyinə arxalanan təcavüzkar Ermənistanın məkirli siyasətinə qarşı mübarizə aparması, Dağlıq Qarabağ uğrunda gedən və geniş miqyas alan müharibədə öz dövləti maraqlarını güdən kənar qüvvələri zərərsizləşdirməyə çalışması və amansız qarşıdurmadan daha az itki ilə çıxmağa səy göstərməsi ən mürəkkəb məsələlər kimi qarşıda dururdu. Üstəlik xarici düşmənlərin dəyirmanına su tökən daxili qüvvələrin ölkədə vətəndaş müharibəsi uçurumunun kənarına sürükləməsi də problemlərin həllini qat-qat çətinləşdirirdi. Azərbaycanın rayon-rayon, kənd-kənd parçalanması qorxusunu büt ün varlığı ilə hiss edən xalq o dövrdə çox gözəl anlayırdı ki, hamının etibarını və etimadını qazanmış, yüksək təşkilatçılıq və idarəçilik bacarığına yiyələnmiş nüfuzlu bir rəhbər gəlməsə, respublikamızı ağır bəlalardan xilas etmək mümkün olmayacaq. Belə bir rəhbər isə sovet hakimiyyəti dövründə Azərbaycana başçılıq etmiş, respublikamızın sosial-iqtisadi və elmi-mədəni həyatında müsbət dönüş yaratmış, yaxşı işinə görə sovet ittifaqında rəhbər vəzifələrdən birinə irəli çəkilmiş, həmin ağır dövrdə isə Naxçıvanda işləyən Heydər Əliyev etimadında və inamında yanılmadı. 1993-cü ildə hakimiyyət başına qayıdan H.Əliyev qısa müddət ərzində milli müstəqillik kursunu məqsədyönlü şəkildə həyata keçirməyə başladı. Azərbaycanı parçalamaq qəsdində olan daxili silahlı qüvvələr tərkisilah edildi, vətəndaş müharibəsi təhlükəsi sovuşduruldu, milli ordumuzun formalaşmasında misilsiz işlər görüldü. Dağlıq Qarabağ probleminin sülh və danışıqlar yolu ilə həll olunması üçün aparıcı dünya dövlətlərinin və nüfuzlu beynəlxalq təşkilatlarının köməyi ilə Ermənistanla müharibədə atəşkəs elan edildi, bələləklə cəbhə bölgəsindən hər gün əsgər meyidinin gətirilməsinə son qoyuldu, anaların ürəyinə dağ çəkilmədi.

Az sonra H.Əliyev Azərbaycan neftinin dünya bazarına çıxarılması üçün ən optimal və əlverişli yolunu müəyyənləşdirdi. Dünyanın ən tanınmış beynəlxalq neft şirkətlərinin fəal iştirakı ilə Azərbaycanın paytaxtı Bakı şəhərində XX əsrin müqaviləsi adlandırılan Beynəlxalq neft müqaviləsi imzalandı. Bu kontraktın tərkib hissəsi olan Bakı-Tiflis-Ceyhan neft boru kəmərinin çəkilməsinə başlanılması isə bu siyasətin məqsədyönlü və uzaqgörən olduğunu bir daha sübuta yetirdi.

Azərbaycan Prezidenti Heydər Əliyev hüquqi və demokra-tik dövlət quruculuğu prosesini ardıcıl olaraq davam etdirməklə eyni zamanda Azərbaycançılıq və milli dövlətçilik ideyalarının əsasını yaratmağa başladı.

Bu gün böyük iftixar hissi ilə vurğulamaq lazımdır ki, H. Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatına əsaslı dəyişikliklər və köklü yeniliklər gətirdi. Onun respublikamızda meydana gələn çətinlikləri məhz xalqla məsləhətləşərək və xalqa arxalanaraq aradan qaldırması milli dövlətçiliyimizin və milli ideologiyamızın formalaşmasına böyük təkan verdi.

Azərbaycanın həyatında baş verən mürəkkəb prosesləri düzgün qiymətləndirən, sosial-siyasi hadisələri xeyli qabaqlayan bu taleyüklü məsələlərin həlli yollarını zərgər dəqiqliyi ilə müəyyənləşdirən bu dərin təfəkkürlü insan özünün çoxsaylı məruzələrində, çıxışlarında, nitqlərində, fərman və sərən-

camlarında, təvsiyə və göstərişlərində, müraciət və bəyanatlarında həmin problemlərin çözülməsi istiqamətlərini də təmin etmişdir.

Əlamətdar haldır ki, H.Əliyev Azərbaycana rəhbərlik etdiyi 34 illik tarixi bir dövrdə nəhəng quruculuq, misilsiz təşkilatçılıq işləri ilə yanaşı olaraq, çox zəngin elmi-nəzəri və mənəvi irs yaratmışdır. Bu zəngin irs ən qiymətli mənəvi sərvət kimi milli elmimizin və mədəniyyətimizin "qızıl fondu"na daxil olmuş, milli dövlət quruculuğu prosesində əvəzsiz mənbəyə çevrilmişdir.

Müstəqil Azərbaycan Respublikasının müasir inkişaf mərhələsində Heydər Əliyev irsinin öyrənilməsi və təbliğ edilməsi ölkəmizin bütün vətəndaşlarının, alimlərinin, mütəxəssislərin, o cümlədən dövlətimizin gələcəyi olan gənc nəslin ən əsas vəzifəsidir.

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanşünaslığa böyük töhfə kimi qiymətləndirilə biləcək əsərləri bütövlükdə qədim və müasir tariximizin, milli ideologiyamızın, rəngarəng mədəniyyətimizin və sanballı elmimizin müxtəlif sahələrində aparılan elmi araşdırmaların zəngin metodoloji əsasıdır. Bu böyük şəxsiyyətin elmi-nəzəri irsi eyni zamanda müstəqil Azərbaycan dövlətinin yaranması, qorunması, çiçəklənməsi və inkişaf etdirilməsi üçün elmi əsas rolunu oynaya bilər.

İctimai-siyasi tarix, vətəndaşlıq və vətənpərvərlik dərsliyi olan Heydər Əliyevin əsərləri böyük elmi və nəzəri əhəmiyyətə malikdir.

Azərbaycanın gələcək inkişaf perspektivlərinin hazırlanmasında və milli tərəqqi konsepsiyasının müəyyənləşdirilməsində Heydər Əliyevin irsi çox zəngin mənəvi sərvətdir. Çünki bu əsərlər zamanın diktəsi ilə yazılmış və xalqımızın müasir tarixinin təcəssümü kimi əvəzsiz dəyərə malikdir. Azərbaycanın gələcək nəsillərinin əsl şəxsiyyət kimi formalaşmasında, həqiqi vətənpərvərlər kimi tərbiyələnməsində, milli və bəşəri dəyərlərə dərindən yiyələnməsində bu irsin misilsiz rolu vardır.

Heydər Əliyevin zəngin elmi-nəzəri irsinin öyrənilməsi onun çoxsaylı əsərlərində irəli sürülmüş siyasi, iqtisadi, elmi və mədəni islahatların başa çatdırılması üçün çox gərəkli və faydalı xəzinədir.

Heydər Əliyevin istər ayrı-ayrı əsərlərində, istərsə də nitq, məruzə və çıxışlarında vmüstəqil Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və elmi–mədəni həyatı yüksək səviyyədə işıqlandırılmış, hərtərəfli elmi təhlillər, konkret faktlar və rəqəmlərlə ümumiləşdirmələr aparılmış, lazımi nəticələr çıxarılmışdır. Elə buna görədir ki, müasir dövrümüzün ictimai-siyasi və sosial-iqtisadi tarixinin öyrənilməsi və təbliğ olunması yalnız Heydər Əliyevin zəngin irsinin hərtərəfli araşdırılması vasitəsilə həyata keçirilə bilər. Azərbaycanın bu nadir şəxsiyyəti öz əsərlərində müəyyən tarixi hadisələr, sosial-siyasi proseslər, bu hadisə və prosesləri meydana gətirən səbəblər və qanunauyğunluqlar çox böyük elmi uzaqgörənliklə şərh və izah edildiyinə görə onlar geniş oxucu kütləsi ilə yanaşı müxtəlif elm sahələrinin mütəxəssisləri və tədqiqatçıları, həmçinin gənc nəsil üçün də mühüm əhəmiyyət kəsb edir. Çünki Heydər Əliyevin bütün yaradıcı fəaliyyəti bilavasitə müstəqil Azərbaycanın tərəqqisinə

və inkişafına yönəlmişdir.

Yeri gəlmişkən xatırlatmaq istəyirəm ki, 2002-ci ildə BDU elmi şurasının qərarı ilə ölkəmizdə ilk dəfə olaraq "Dünyanın görkəmli dövlət xadimləri" seriyasından Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 80 illik yubileyinə həsr olunmuş sanballı "Biblioqrafik məlumat kitabı" çox nəfis şəkildə çap edilmişdir. Azərbaycan MEA-nın müxbir üzvü, BDU-nun rektoru, professor Abel Məhərrəmovun rəhbərliyi və ümumi redaktorluğu ilə nəşr edilmiş bu biblioqrafik məlumat kitabının tərtibçi-müəllifi və biblioqrafiyaşünaslıq kafedrasının əməkdaşı Solmaz Sadıqovadır. Bu əsərin Azərbaycan dilində 5 min, rus dilində 3 min və ingilis dilində 2 min tirajla ayrı-ayrılıqda çap edilməsi həm onun elmi əhəmiyyətinin istiqamətinin miqyasını, həm kütləviliyini, həm də oxucu auditoriyasının genişliyini təsdiqləyir. Bu kitab eyni zamanda dahi rəhbərimiz Heydər Əliyevin fenomenal şəxsiyyətinə və zəngin irsinə sonsuz marağın faktiki sübutu kimi böyük əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, 1969-2003-cü illər ərzində Heydər Əliyevin 209 adda kitabı nəşr edilmişdir. Onlardan 118-i Azərbaycan, 83-ü rus, qalanları isə müxtəlif xarici dillərdədir. Eyni zamanda Azərbaycanın müstəqilliyi dövründə Azərbaycan dilində nəşr edilmiş 50 adda kitabın 16-nı çoxcildli əsərlər təşkil edir. Belə ki, 1997-ci ildən başlayaraq H.Əliyevin "Müstəqilliyimiz əbədidir" adlı 4 cildliyi kiril qrafikalı Azərbaycan əlifbası ilə, həmçinin iki cildlik əsərləri nəşr edilmişdir. Təkcə 1997-2002-ci illər arasında çapdan çıxmış 10 cildliyin ümumi həcmi 676 çap vərəqi həcmindədir.

Heydər Əliyevin əsərlərinin Respublikamızda nəşrini şərti olaraq iki mərhələyə ayırmaq mümkündür. I mərhələ sovetlər birliyi dövrünə, yəni 1969-1993-cü illərə təsadüf edir. Bu dövrdə, xüsusilə də 1982-ci ilə qədərki dövrdə respublikamızda Heydər Əliyevin nəşr olunmuş əsərləri 151 adda. 285 çap vərəqi həcmindədir.

Ümumiyyətlə, 1970-2003-cü illərdə Heydər Əliyevin təxminən 1500 çap vərəqi həcmində 209 adda kitabı nəşr edilmişdir. Bunlardan 151 adda kitab 1970-1993-cü illərin, qalan kitablar isə müstəqillik dövrünün payına düşür. Kitabların ümumi həcmi Azərbaycan və rus dillərində 23.000 səhifədən artıqdır. Bu bütövlükdə 45-50 cild kitab deməkdir. Bu bir daha sübuta yetirir ki, dünyanın çox az görkəmli dövlət xadimləri öz elmi-nəzəri əsərinin sayına və həcminə görə H.Əliyevlə müqayisə oluna bilər. Məhz bu cəhətdən də H.Əliyevin özünün şəxsiyyət bütövlüyü, yüksək intellektual səviyyəsi, dərin elmi dünya görüşü milli dövlətçilik ideyalarına dönmək sədaqəti və mənəvi zənginliyi ilə xalqımızın iftixarına çevrilir.

Heydər Əliyevin dünyasını dəyişməsi Azərbaycan xalqını dərindən sarsıtmışdı. Dövlət səviyyəsində H.Əliyevin adının əbədiləşdirilməsi istiqamətində nə qədər addımlar atılsa da yenə də azdır.

"Dahi" jurnalı. 2004. №1..s 2-4

"BAŞ VURDUM GÖYÇƏ TƏK BÖYÜK ÜMMANA..."
Akademik Hüseyn Əhmədovun "Xatirələrim və ya nəslimizin şəcərəsi" kitabı hqqında

Tanınmış el ağsaqqalı, Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının akademiki, Azərbaycan Beynəlxalq Universitetinin propektoru Hüseyn Əhmədovun bu yaxınlarda şəkildə işıq üzü görmüş "Xatirələrim və ya nəslimizin şəcərəsi" kitabı bütövlükdə qədim Oğuz ellərinin yazılmamış tarixinin qaranlıq məqamlarına ayna tutur.

Azərbaycan pedaqogika elminin görkəmli nümayəndəsi, akademik Hüseyn Əhmədovun çoxsaylı əsərləri milli pedaqoji fikir və məktəb tariximizin araşdırılması, tədbiqi və ümumiləşdirilməsi baxımından əvəzsiz elmi əhəmiyyətə malikdir. Həmin əsərlər müxtəlif elm sahələrində çalışan mütəxəssislərimizin masaüstü kitabı kimi öz dəyərini həmişə saxlayır.

Alimin bu günlərdə nəşr olunmuş növbəti kitabı isə daha çox tarixi memuar-şəcərə xarakteri daşıyır və Hüseyn Əhmədovun mənsub olduğu nəslin və soykökün yaxın-uzaq keçmişini göz önündə canlandırır.

Bu gün erməni tapdağında qalmış Qərbi Azərbaycan torpaqlarının hayharayını özündə əks etdirən, təxminən XVIII-XIX əsrlərdən sonra bu ərazilərdə baş vermiş bir sıra tarixi hadisələrə aydınlıq gətirən, unudulan və ya unudulmaqda olan yurd yerləri ilə bağlı acılı-şirinli xatirələri yenidən yaddaşlara yazan "Xatirələrim və ya nəslimizin şəcərəsi" kitabı bütövlükdə qədim Oğuz ellərinin yazılmamış tarixinin bəzi məqamlarının öyrənilməsi nöqteyi-nəzərindən də yüksək qiymətə malikdir.

Maraqlıdır ki, hörmətli akademik kitabı öz şeiri ilə belə başlayır:

Heyifsilənmədim hər ötən ana,
Baş vurdum Göyçə tək böyük ümmana.
Düzdüm ipə-sapa ağrı-acımı,
Yad etdim el-oba, qardaş-bacımı.

Kitabda xronoloji ardıcıllıqla təsvir olunmuş xatirələri müəllif özünəməxsus üslubda aydın şəkildə elə ustalıqla nəql edir ki, insan istər-istəməz oxuduğu real əhvalatların təsirinə düşür, ağrılı-acılı, kədərli-sevincli xəyallarla qol-boyun olur, ağsaqqal alimimizin kövrək, həzin, şirin yaşantılarını bir daha yaşayır və özününküləşdirir.

Bu dəyərli nəşrə ön söz yazan tanınmış cərrah, tibb elmləri doktoru Vaqif Qələndərin xüsusi olaraq vurğuladığı kimi, "Azərbaycanda qədimdən məşhur olan, amma sovetlər dönəmində unudulsa da, müstəqillik illərində yenidən əhəmiyyət kəsb edən şəcərə-memuar yaradıcılığı həm el-obanın, həm də soykökü və nəslin tarixini nəsillərə ərməğan etmək baxımından çox əhəmiyyətlidir".

Bu mənada xatirə-memuar kitabının zaman-zaman tarixçilərimizin, etno-

qrafiyalarımızın, həmçinin digər sahələrdə fəaliyyət göstərən mütəxəssislərimizin yardımçısına çevriləcəyi şübhəsizdir. Belə ki, bir nəfərin, bir ailənin, bir nəslin, bir kəndin, bir obanın, bir mahalın tarixi əslində bir millətin və ya bir Vətənin tarixi qədər böyük məna daşıyır. Başqa sözlə, əzəmətli saraylar, nəhəng imarətlər, başgicəlləndirən göydələnlər kiçik kərpiclərdən yarandığına görə zamanın ağır sınaqlarına sinə gərə bilir.

Kitabı maraqla oxuyub vərəqlədikcə bir yandan Göyçə mahalının buz bulaqlı, sərin yaylaqlı, bağlı-bağatlı kəndlərinin həsrəti oxucunu kövrəldir, digər yandan isə yaşı minillərlə hesablanan unudulmaz dədə-baba məskənlərimizdə mənfur erməni millətçilərinin açıq-aşkar düşmənçiliyinə qarşı mərdliklə mübarizə aparan, milli mənliyini və milli ləyaqətini erməni vəhşiliyinə qurban verməyən soydaşlarımızın parlaq obrazları yaddaşlarda canlanır.

Akademik Hüseyn Əhmədovun kitabda verdiyi bir sıra tarixi faktlar bu gün xalqımıza qarşı beynəlxalq miqyasda təxribatçılıqla məşğul olan ermənilərin iş üzünü açmaqla yanaşı, həm də əzəli və əbədi düşmənlərimiz olduqlarını, məqam yetişər-yetişməz türk millətini məhv etməyə hazır olduqlarını bir daha təsdiqləyir.

Alim yazır: «... 1828-ci ildə təkcə İrəvan şəhərində yaşayan 9.700 nəfərdən yalnız 2369-u, Göyçə mahalında yaşayan 5697 nəfərdən isə yalnız 90 nəfəri erməni idi ki, bunlar da yamaqçılıq, pinəçiliklə məşğul idilər ».

Ermənilərin yerləşdirilməsi və azəri türklərinin bölgədən çıxarılması işi illər boyu dövlət səviyyəsində paralel aparılmışdır. Bu səy və zorakılıq kampaniyası ilə üz-üzə qalan xalq öz azadlığı uğrunda 160 il çarpışmışdır. 1800-cü illərdən başlayan işğalçılıq siyasəti 1988-ci ildə azəri türklərinin bu ərazidən tamamilə çıxarılması ilə başa çatmışdır. Bu illər ərzində 17 dəfədən çox erməni qırğınları, talanları və müharibələri ilə üzləşmişdir. Hər kütləvi qırğın və qaçqınlıqdan sonra yenidən doğma torpağına qayıtmağa can atmışdır...

Bu gün böyük xəyanətlər və mühacirlər hesabına düşmən tapdağında qalmış Göyçə, Zəngəzur, Vedibasar, Zəngibasar, Dərələyəz, Dərəçiçək, Qaraqoyunlu, Ağbaba... mahalları haqda oxuculara, xüsusilə gələcək nəsillərə bilgi vermək olduqca önəmli və vacibdir».

Kitabda verilmiş "7 il Göykilsədə" "Mehriban qonşuluq, yoxsa nankorluq?", "Qaxdağanlar Qərbi Azərbaycanda", "Toxluca: tarixi, sosial-iqtisadi həyatı", "Kəndimizin xeyir şər mərasimləri" və başqa bölmələrin hər birində oxucular indiyə qədər qatı açılmamış bir çox mərtəbələrdən xəbərdar ola, dostumuzu-düşmənimizi tanıya və bəzi milli adət-ənənələrimizlə tanış ola bilərlər.

Akademikin gərgin zəhmət bahasına tərtib etdiyi şəcərələr onun ana və ata tərəfi, ümumiyyətlə, nəsil-nəcabəti haqqında dolğun təsəvvür yaradır.

Görkəmli alimin kitaba yazdığı «Söz ardı»ndakı ilə çırpınan hər bir soydaşımızın yaddaşını göynədir:

"Xatirə xalq hikmətinin elə bir sahəsidir ki, o nə qədər çözülsə də, tükənməz.

Bir də ordan-burdan, öz həyatının ayrı-ayrı anlarından, qohum-əqrəba-

dan, nəsildən, soy kökündən, maraqlı əhvalatlar-dan, şirin-şəkər balalardan nə qədər bəhs etsək də, yenə də bir vacib məqam Vətən, Vətən həsrəti gəlib durur gözümüzün qarşısında...

Bütövlükdə götürsək, Vətən həsrəti Qərbi Azərbaycan mənşəli olanlarda daha güclüdür. Əlində qələm tuta bilən hər bir Qərbi Azərbaycanlı kimi, dili söz tutan, ağlı kəsən, zümzümə edə bilən hər bir toxlucalının da ən ümdə nisgili Vətəndir, Vətən həsrətidir".

Kitabın sonunda el ağsaqqalı, görkəmli ziyalı, xeyirxah insan Hüseyn Əhmədova həsr olunmuş bir sıra şeirlərin və məqalənin verilməsi, həmçinin buraya 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin xəritəsinin və akademikin kitablarının fotosərgisinin daxil edilməsi diqqətli oxucunun təsəvvürünü daha da genişləndirir.

Əminik ki:

Gedir al sabaha ömür karvanı,
Ömür karvanının mənəm sarvanı, -

ovqatına köklənmiş görkəmli akademikimiz Hüseyn Əhmədovun başdan-başa Yurd sevgisi, Vətən həsrəti, Torpaq itkisi ovqatı ilə qələmə aldığı "Xatirələrim və ya nəslimizin şəcərəsi" kitabı Ulu Göyçənin və bütövlükdə Böyük Vətəndən müvəqqəti olaraq uzaq düşmüş Qərbi Azərbaycan ellərinin keşməkeşli keçmişinin daha dərindən araşdırılmasında mühüm rol oynayacaqdır.

Knyaz Aslanla birlikdə.
"Xəzər Xəbər" jurnalı. 2004, №164. s. 30-31

BÖYÜK ALİM, MÜDRİK EL AĞSAQQALI

Akademik Budaq Budaqov öz elmi tədqiqatları, ictimai – siyasi və elmi təşkilatçılıq fəaliyyəti ilə Azərbaycan elmini şöhrətləndirən, onun beynəlxalq səviyyəyə qalxmasına, dünya elminə inteqrasiyasına kömək edən şəxsiyyətlərdən biridir.

B.Budaqovun elmi fəaliyyəti böyük bir dövrü əhatə edir. 1950-ci illərdən elmə gələn, yarım əsr müddətində milli coğrafiyamızın inkişaf etdirilib təkmilləşməsində, mağistral inkişaf yoluna çıxarılmasında, yeni-yeni elmi kəşflərin, elmi nəzəriyyələrin, fundamental monoqrafiyaların, dərsliklərin, çoxcildli əsərlərin meydana gəlməsində, qeomorfoloji xəritələrin tərtib edilməsində, elmi kadrların yetişdirilməsində bu elm fədaisinin böyük xidmətləri olmuşdur.

Akademik Budaq Budaqov Azərbaycan Respublikasının qeomorfologiyası, landaftşünaslıq və toponimika elmi məktəbinin banilərindəndir. Onun

çox zəngin və qiymətli elmi irsi vardır. B. Budaqovun elmi irsi, onun əsərləri və məqalələri ilə tanış olduqda heyrətlənirsən ki, bir adam bu qədər böyük bir yükün öhdəsindən necə gələ bilmişdir.

Budaq müəllim 800-dən artıq elmi, elmi-publisistik əsərin, o cümlədən 40 monoqrafiyanın, 20 atlas və xəritənin, ali və orta məktəb dərsliklərinin müəllifidir. B.Budaqovun yaradıcılığı, elmi irsi Azərbaycan coğrafiyaşünaslığının bünövrəsinə qoyulan milli sərvət, elmimizin gələcək inkişaf yolunu işıqlandıran məşəldir.

Akademikin fəaliyyətində ən mühüm yerlərdən birini də onun Coğrafiya Cəmiyyətinin təşkilində və Azərbaycan elmini beynəlxalq aləmdə təbliği və tanıtması sahəsində apardığı işlər tutur. Yorulmaq bilmədən çalışan bu fədakar alim dünyanın bir çox ölkələrində keçirilən elmi konfrans və simpoziumların iştirakçısı olmuş, məruzələrlə çıxış etmişdir. Onun hər bir elmi kəşfi, elmi nəzəri-fikirləri, məruzə və çıxışları Azərbaycan milli coğrafiyaşünaslığına başucalığı gətirmişdir.

Respublikamızı, xalqımızı, milli dövlətçiliyimizi ürəkdən sevən, bütün şüurlu həyatını Azərbaycan xalqının xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr edən Budaq Budaqov görkəmli tədqiqatçı alim olmaqla yanaşı, fəal ictimai-siyasi, dövlət xadimidir. Onun elmi yaradıcılığının mühüm bir hissəsi respublikamızın müstəqilliyinə, Azərbaycançılıq ideologiyasının təşəkkül tapmasına yönəldilmişdir. Görkəmli söz ustası kimi dövlətçiliyimizin möhkəmləndirilməsinə, Azərbaycan Prezidenti H. Əliyevin fəaliyyətinə dair çıxışları, məqalələri və kitabları təqdirəlayiqdir. Budaq müəllimin məhz bu keﬁyyətləri onun Azərbaycan Ağsaqqallar Şurasının sədri kimi yüksək vəzifəyə ucalmasına, el ağsaqqalı olmasına şərait yaratmışdır. 1997-ci ildən bu böyük ictimai vəzifədə çalışan B. Budaqov xalqımız arasında çox nüfuz qazanmışdır.

Akademikin dağlıq Qarabağ problemi ilə əlaqədar çıxışları, məqalələri və monoqrafiyaları erməni təcavüzkarlarına ciddi elmi cavab olmuşdur. Akademik Cəlal Əliyevlə birgə yazıçıları "Türklər, azərbaycanlılar, ermənilər: Tarixi həqiqətin soyqırımı" kitabı beynəlxalq aləmdə ermənilərin iç üzünü açmaq və Azərbaycan xalqının faciəsini üzə çıxarmaq işində tutarlı mənbədir.

Budaq Budaqovun 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi torpaqlarından kütləvi surətdə deportasiya edilməsi, Ermənistanda olan yer adlarının kütləvi surətdə dəyişdirilməsi haqqında qiymətli monoqrafiyalar yazmış, ermənilərin antihumanist, qeyri-insani siyasətini ifşa etmiş, tarixi faktlara söykənərək çox qiymətli faktları aşkarlamağa müvəffəq olmuşdur. Akademikin görkəmli tarixçi Q.Ə.Qeybullayevlə birgə yazdığı "Ermənistanda Azərbaycanmənşəli toponimlərin izahlı lüğəti" kitabı ermənilərin toponomik genisidinə ağır zərbə vurdu. Ermənistandakı türkmənşəli yer adlarının həyasızcasına, ardıcıl olaraq dəyişdirildiyini aşkara çıxardı və qədim türk adlarının tarixiliyini sübuta yetirdi.

Akademik B.Budaqov görkəmli tədqiqatçı alim kimi tanınmaqla yanaşı, həm də əvəzsiz elm təşkilatçısı kimi böyük şöhrət qazanmışdır. 1955-ci ildən

Azərbaycan Respublikası MEA Coğrafiya İnstitutunda işləyən Budaq müəllim 30 ilə yaxın elmi işlər üzrə direktor müavini və direktor olmuşdur. Bu müddətdə institutun elmi-tədqiqat fəaliyyətinin istiqamətləndirilməsi üzrə əldə edilmiş elmi nailiyyətlərində onun böyük rolu danılmazdır. 1967-ci ildə doktorluq dissertasiyası müdafiə etmiş, 1976-cı ildə EA-nın müxbir üzvü, 1989-cu ildə həqiqi üzv (akademik) seçilmişdir.

Budaq Budaqovun elmi kadrların hazırlanması (30 nəfərdən artıq elmlər namizədi və elmlər doktoru) sahəsində də böyük xidmətləri vardır.

Akademiki ucaldan, respublikamızda yüksək zirvəyə Budaq müəllim zirvəsinə qaldıran onun böyük mənəvi kefiyyətlərə malik gözəl insan, ıayaqətli vətəndaş olmasıdır. Respublikamızda hamı Budaq müəllimi pak, təmiz bir insan, yaxşı adam kimi tanıyır. Onunla söhbət edən, dialoqa girən hər bir adam qarşısında çox yüksək səviyyəli bir həmsöhbətlə, tərəf-müqabili ilə üz-üzə dayandığını hiss edir, məsuliyyət hissi keçirməyə başlayır. Budaq müəllim ciddi elmi problemləri çox sadə, anlaşıqlı tərzdə insanlara aşılaya bilir. Bu, böyük fitri qabiliyyətdir. Budaq müəllim sadə olduğu qədər də ciddidir. O, hər hansı bir prinsipial məsələdə asanlıqla güzəştə getməyi sevmir. Qeyri səmimi "hə", "hə"-dən xoşu gəlmir.

Budaq müəllimin ən yaxşı keyfiyyətlərindən biri də onun Allah adamı olması, islam dininə, islamşünaslığa böyük hörmət etməsidir. Mən onunla Həcc ziyarətində olarkən bu böyük insanın müqəddəs dinimizə, peyğəmbərimizə nə qədər sədaqətli olduğunun, yaşına baxmayaraq, ziyarətin bütün qaydalarını necə dəqiqlik və ürəklə yerinə yetirdiyinin şahidi oldum. O deyirdi: "Həcc ziyarəti bizi saflaşdırdı". Budaq müəllim Həcc ziyarətini həm dini, həm də insani borc hesab edir və bu borcu yerinə yetirməyi hər bir müsəlmana arzulayır. Belə bir məsəl var: insanı səfərdə daha yaxşı tanımaq olar. Mən və mənimlə Həcc ziyarətində olanlar Budaq müəllimi yenidən kəşf etdik, onun sadə, səmimi bir insan, insanların qeydinə qalan, təvazökar, yaxşı yol yoldaşı olduğunu gördük.

Mən daim fikirləşirdim ki, Budaq müəllimin böyük elmi və ictimai fəaliyyətinin mənbəyi nədir? Onunla yaxından tanış olduqdan sonra qismən öz sualıma cavab tapdım. Birincisi, Budaq müəllim çox zəhmətkeş insandır, o, sutkanın 14-15 saatını işləyir. İkinci ən mühüm cəhəti onun böyük mütaliəçi olmasıdır. Mübaliğəsiz olaraq deyərdim ki, Budaq müəllim bizim ən çox mütaliə edən, kitab oxuyan akademiklərimizdən biridir. Bəli, böyük və ardıcıl mütaliəçi olmadan elmin zirvələrinə yüksəlmək mümkün deyil. Mütaliə insanı elmin zirvəsinə aparan ən geniş yoldur.

Budaq müəllimin 75 yaşı tamam oldu. Mən ürəkdən deyirəm: Hörmətli akademikimiz, el ağsaqqalımız Budaq müəllim, sənin 75 yaşın mübarək! Sənə uzun ömür, dünyada ən əziz nemət olan cansağlığı arzu edirəm.

"Elmimizin şah budağı"
"Oğuz eli" nəşriyyatı. 2004. s. 112-117

GÖRKƏMLİ FİLOLOQ-ALİM, İSTEDADLI JURNALİST

Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı, xalqımızın milli sərvəti olan Bakı Dövlət Universiteti respublikamızın elm və mədəniyyətinin inkişafında böyük rol oynamış, fəliyyət göstərdiyi 85 il müddətində yüz min nəfərdən artıq yüksək ixtisaslı kadr hazırlamışdır. Bakı Dövlət Universiteti Azərbaycan elminin inkişafında misilsiz xidmətləri olan yüzlərlə görkəmli alim yetişdirmiş, Azərbaycan reallığının formalaşmasına böyük töhfələr vermişdir.

Ölkəmizdə elmin, mədəniyyətin, təhsilin inkişafında mühüm xidmətləri olan məşhur alimlərimizin əksəriyyəti məhz Bakı dövlət Universitetinin yetişdirmələridir. Onlar Azərbaycan elminin yaranmasında, formalaşmasında və inkişafında yaxından iştirak etməklə yanaşı, xalqımızı dünya miqyasında uğurla təmsil etmişlər. Nəsillər nəsilləri əvəz etdikcə görkəmli alimlər də yerlərini öz şagirdlərinə vermiş, özləri xalq qarşısında xidmətlərinə görə qiymətləndirilmiş, unudulmamış, onları tanıyanların qəlbində əbədiləşmişlər. Belə alimləri əbədiləşdirən, xidmətlərini nəsildən-nəsilə ötürən onların elmi tədqiqatları, yaratdıqları və gələcək nəsilə yadigar qoyub getdikləri qiymətli əsərləri, həmişəyaşar kitablarıdır.

Bakı dövlət Universitetinin yetişdirdiyi belə alimlərdən biri də görkəmli filoloq-alim, istedadlı jurnalist Şamil Qurbanovdur.

Uzun illər Şamil müəllimlə çiyin-çiyinə işləmiş, həmsöhbət və həmfikir olmuş, dostluq etmiş, yaradıcılığını və elmi fəaliyyətini diqqətlə izləmiş bir insan kimi mənim belə bir fikir söyləməyə mənəvi haqqım çatır. Hələ gənc yaşlarından taleyini universitetlə bağlayan Şamil Qurbanov BDU-nun jurnalistika fakültəsini bitirmiş, aspiranturaya daxil olmuş, vaxtından əvvəl namizədlik dissertasiyasını müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsini almışdı.

BDU-nun filologiya fakültəsində müəllim işlədiyi illərdə Şamil Qurbanov istedadlı alim kimi formalaşmış, bir-birinin ardınca Azərbaycan ədəbiyyatının maxtəlif sahələrinə dair qiymətli kitablar nəşr etdirməyə başlamışdı. Bir müddət sonra isə o, doktorluq dissertasiyası müdafiə etmiş, professor elmi adını almışdı.

Şamil müəllim öz elmi yaradıcılığında tapdanmış yolla getməmiş, tədqiqat apardığı bütün sahələrdə yeni cığır açmış, Azərbaycan filologiyasına yeni fikir, yeni söz gətirmişdir. O, kiçik bir zaman kəsiyində filologiya fakültəsinin və universitetin böyük kollektivi arasında özünü görkəmli tədqiqatçı alim, bacarıqlı elm və təhsil təşkilatçısı kimi tanıtmış, bu keyfiyyətlərinə görə də uzun müddət dekan müavini vəzifəsində işləmişdir.

Şamil Qurbanovun elmi kadrların yetişməsində və attestasiyasında da xidmətləri böyükdür. Uzun müddət filologiya fakültəsi yanında fəaliyyət göstərən ixtisaslaşdırılmış elmi şuranın katibi onun fəaliyyəti elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir.

Şamil Qurbanov səriştəli tədqiqatçı alim olmaqla yanaşı, həm də istedadlı pedaqoq idi. Oxuduğu mühazirələri böyük həvəslə dinləyən tələbələr ona qayğikeş, bilikli müəllim kimi yüksək qiymət verirdilər. Şamil müəllim kitabxanaçılıq fakültəsində dərs deyəndən mən bunun şahidi olmuşdum.

O, həm də bacarıqlı təhsil təşkilatçısı idi. Uzun illər kafedra müdiri işləmiş, "SSRİ xalqları ədəbiyyatı" və "Türk xalqları ədəbiyyatı" kafedralarına başçılıq etmişdi. Onun tərtib etdiyi proqramlar, yazdığı dərsliklər və dərs vəsaitləri indi də müəllimlər və tələbələr tərəfindən istifadə edilməkdədir. Bacarıqlı elm və təhsil təşkilatçısının, istedadlı pedaqoqun ağır itkisinə dözmək olduqca çətindir.

Ancaq onun keçdiyi zəngin həyat yolunu, xidmətlərini, qoyub getdiyi zəngin elmi-mədəni və ədəbi irsini, qiymətli kitablarını göz önünə gətirəndə onun yaradıcılığını hiss edirsən və belə qənaətə gəlirsən ki, Şamil müəllim ölməzdir.

Şamil Qurbanov onu tanıyanların, həmkarlarının və dostlarının qəlbində əbədi yaşayacaqdır.

"Ləkəsiz bir vicdan, böyük bir ürək"
"Nurlan"nəşriyyatı, 2005. s. 55-58

MÜASİR DÖVRDƏ KİTABXANA FƏALİYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Kitabxanalar yarandığı gündən bu günə kimi insanların informasiya tələbatını ödəmək və informasiyanı gələcək nəsillərə ötürmək funksiyasını yerinə yetirirlər. Bununla da onlar cəmiyyətin bütün inkişaf mərhələlərində elmi-texniki tərəqqiyə xidmət etmiş və etməkdədir. Kitabxanalar informasiya mədəniyyətinin formalaşmasında və ümumilikdə cəmiyyətin informasiyalaşmasında, informasiyadan inkişaf resursu kimi istifadə edilməsində xüsusi, unikal rol oynayırlar.

Bu gün kitabxanalar informasiyalaşdırılan cəmiyyətin əsas göstəricisi olan qlobal informasiya mühitinin, beynəlxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin yaradılmasında, informasiyanın əmtəə çevrilməsində, informasiya və bilik bazarının yaradılması və inkişafında, təhsil sisteminin və səviyyəsinin təkmilləşdirilməsində, cəmiyyətin peşə və ümumi mədəni səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır.

Müasir dövrdə dünyada baş verən iqtisadi və sosial dəyişikliklər kitabxanaların fəaliyyətinə güclü təsir etməkdədir və onların qarşısına yeni vəzifələr qoymuşdur. Bu vəzifələr isə kitabxanaşünas alimlər və informasiya texnologiyaları üzrə mütəxəssislər qarşısında müasir kitabxananın yeni fəaliyyət modelinin hazırlanması problemini aktual edir. Kitabxanaların yeni fəaliyyət modeli müasir informasiya texnologiyalarının tətbiqi ilə yeni xidmət formalarının yaradılmasına əsaslanmalıdır.

Informasiyalaşdırma oxucuların informasiya tələbatlarının operativ və dolğun ödənilməsi üçün kitabxanaçıların qarşısına qoyulan peşəkar tələblərə, fondun növ və məzmun tərkibinə, bütün kitabxana proseslərinə, o cümlədən də oxuculara xidmət işinin təşkili və texnologiyasına mühüm dəyişiklikər edilməsini diqtə edir. Müasir dövrdə informasiyanın cəmiyyətin əsas, aparıcı qüvvələrindən birinə çevrilməsi və sənaye cəmiyyətindən informasiya cəmiyyətinə sürətli keçidlə əlaqədar olaraq ionformasiya sahəsində baş verən texnoloji inqilab bəşər sivilizasiyasının bütün inkişafının gedişinə çox güclü təsir göstərir. Müasir kitabxanalarda informasiyanın toplanması, saxlanması və yayılması vasitələrinin və metodlarının təkmilləşdirilməsi ilə yanaşı informasiya axtarışı və informasiyanın işlənməsi vasitələri də modernləşdirilməlidir. Zamanın tələbi belədir ki, kitabxanadaxili ənənəvi texnologiyalar və kitabxanaların əhaliyə xidmət formaları dəyişməlidir.

Kitabxana işinə yeni informasiya texnologiyalarının tətbiqi onların qarşısında çox geniş imkanlar açır, fondun, informasiya ehtiyatlarının mühafizə edilməsi və xidmət işində, oxucuların tələbatının ödənilməsində yaranan problemləri asanlaşdırmağa, həll etməyə imkan verir. Onlar toplanan və mühafizə olunan informasiyanın həcminin genişləndirilməsinə, axtarış sürətinin artırılmasına və bununla əlaqədar olaraq istifadəçinin vaxt itkisinin minimuma endirilməsinə, kitabxananın fəaliyyət diapazonunun genişləndirilməsinə, zaman və məkan baryerini dəf etməyə, və eyni zamanda kitabxananın fondunda olan sənədi, informasiyanı yer kürəsinin istənilən nöqtəsində olan istifadəçiyə ötürülməsinə şərait yaradır.

Cəmiyyətin informasiyalaşdırılmasının inkişafı prosesləri sosial institutların fəaliyyətinin komplektləşdirilməsi, evlərdə kompüterlərin olması insanların kitabxana xidməti sahəsinə tələblər dəyişmişdir. Bunun nəticəsində oxuculara yeni xidmət növü - online xidmət növü təklif edilməlidir. Bu xidmət növü sayəsində fiziki cəhətdən kitabxananın xidmət sferasında olan istifadəçidən başqa, kitabxanaya lokal şəbəkədən və ya İnternet vasitəsilə kitabxanaçının şəxsən tanımadığı, yalnız serverdə ünvanları qeyd olunmuş oxucular da daxil olmaq imkanı əldə edirlər. Belə virtual istifadəçi kitabxana üçün yenilikdir. Virtual istifadəçinin yeganə identifikatoru onun kitabxananın serverində fiksirə olunmuş kodu olur. İnternet bu xidmət növünün reallaşması üçün əvəzsiz vasitədir.

Online xidməti informasiya pərakəndəliyinə son qoyur, hər bir istifadəçinin onu maraqlandıran informasiyanı tapmasına və öz informasiyasını planetin istənilən guşəsində olan başqa istifadəçiyə ötürməyə və onunla dialoqa girməyə imkan verir ki, ümumdünya informasiya məkanı yaradır. Onun əsas xarakterik xüsusiyyəti informasiyanın operativliyi və qısa müddətli olmasıdır. Bundan başqa İnternet, online xidmət kitabxanalara imkan verir ki, onların informasiya resurslarından və məlumat bazalarından ölkədən kənarda da istifadə olunsun. Xarici məlumat bazalarında online axtarışı çox bahadır və

yaxşı təchiz olunmuş telekommunikasiya infrastrukturuna ehtiyacı vardır. Bu problemin həll olan, kitabxanalar CD- ROM məlumat bazalarının tətbiqi və istifadəsinə üstünlük verirlər. Çünki bunların dəyəri nisbətən ucuz və istifadəsi asandır. Bununla yanaşı kitabxanada audiovizual materiallar- kampakt və optik disklər, videodisklər, audio və videokasetlər və s. fondunun formalaşdırılması əsasında bir sıra yeni xidmət növlərinin yaradılması və oxucuların istifadəsinə verilməsi də kitabxanaların fəaliyyətində olan müsbət dəyişikliklərdən biridir. Bir sıra inkişaf etmiş ölkələrdə, o cümlədən ABŞ və Fransa kitabxanalarında video və audio fondlar yaradılmış və oxucuların istifadəsinə verilmişdir. Bu fondda əsasən uşaqlar üçün filmlər, klassik və bədii filmlər və s komplektləşdirilir.

Müasir dövrdə online xidmət əsasında aşağıdakı xidmət növləri geniş tətbiq edilir:

Elektron sənəd göndərişi və faksmil xidmət
Rəqəmli elektron audiovizual məlumat bazaları sistemi
On-line məlumat bazası
Avtomatlaşdırılmış mühasibat işi və idarəetmə sistemi – Menecment
Elektron sərgilər
Elektron veb- konferensiyalar

Qeyd edək ki, inkişaf etmiş ölkələrdə kompüterlər kitabxana fəaliyyətinin bütün sahələrinə, o cümlədən ilk olaraq xidmətin operativliyinə ən çox ehtiyac duyulan sahələrə tətbiq olunur. Bu ölkələrin kitabxanalarının qabaqcıl iş təcrübəsinin öyrənilməsi göstərir ki, on-line xidmət elektron kataloq əsasında həyata keçirilir. Buna görədə mütəxəsislərin fikrincə, kitabxanalarda informasiya texnologiyalarının tətbiqi və kompüterləşmə ilk olaraq kataloqlaşdırmadan-elektron kataloqun yaradılmasından başlamalıdır. Çünki kataloq kitabxana mühitində informasiyanın axtarışı üçün əvəzedilməz vasitədir.

Qlobal informasiya infrastrukturuna malik olan XXI əsrrdə cəmiyyətdə baş verən əsaslı dəyişikliklər kitabxana işində də özünü əks etdirir. Kitabxana işi sahəsində baş verən dəyişiklikləri daim izləmək və planlaşdırmaq lazımdır ki, bu işdə də başlıca rolu markentik fəaliyyəti oynayır. Bunun vasitəsilə kitabxanalarda qeydiyyatdan keçən oxucuların sayı, kitab verlişinin miqdarı və s. digər keyfiyyət göstəriciləri ilə öz işlərinin səmərəliliyini müəyyən edirlər. Marketink yanaşması kitabxananı əhatə eden mühitdə baş veren dəyişikliklərə reaksiya verməyə kömək edir.

Bundan başqa qeyd olunan xidmət növlərinin həyata kecirilməsi kitabxanaların müsbət imicinin və yüksək nüfuzunu formalaşdırma və qorunub saxlanması üçün kitabxanaların işini düzgün təşkil etmək lazımdır. Bunun üçün isə marketinqin əsaslarının öyrənilməsi və kitabxana işinə tətbiq edilməsi zəruridir. Kitabxana marketinqi – kitabxana xidmətlərinə və məhsullarına sorğunun (tələbin) maksimum şəkildə öyrənilməsi, real və potensial istifadəçilərin tələbatlarının ödənilməsinə yönəlmiş fəaliyyət sahəsidir. Müasir dövrün tələblərinə görə kitabxanalarda matketinq tədqiqatlarının aparılması, onun

maraqları və tələblərinin dəqiq müəyyənləşdirilməsi və təhlili vacib məsələlərdən biridir. Kitabxana marketinqi əsasən oxucu sorğularının maksimum ödənilməsi, pullu və ya pulsuz olmaqla yeni xidmət növlərinin təklif olunması, kitabxanaya yeni oxucu kateqoriyalarının (fərdi və ya kollektiv) cəlb olunması və cəmiyyətin bütün təbəqələrində kitabxananın müsbət imicinin formalaşdırılması və qorunub saxlaması və s. kimi məsələlərin həll olunmasını qarşıya məqsəd qoyur. Bu zaman əsasən aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur.

Kitabxana xidmətlərinin istiqamətləndiyi potensial istifadəci qruplarının müəyyənləşdirilməsi;
İstifadəçilərin sorğusuna uyğun xidmətlərin təşkil olunması;
Xidmət növlərinin təbliği;
Yeni xidmətlərin effektivliyinin (səmərəliliyinin) qiymətləndirilməsi və s.

Kitabxanalarda marketinq fəaliyyəti 2 istiqamətdə həyata keçirilir: pullu və pulsuz. Pullu marketinq fəaliyyəti ödənişli xidmətlərin və büdcədənkənar vasitələrin cəlb olunması hesabına maliyyə vəsaitinin əldə olunmasına imkan verir.

Qeyd olunduğu kimi, müasir dövrdə oxucuların dəqiq, dolğun və operativ informasiyaya tələbatının artması kitabxana işinin günün tələbləri səviyyəsində qurulması, kompüterləşdirilməsini zəruri etmişdi. Dövlət tərəfindən ayrılan maliyyə vəsaitinin kifayət etmədiyi bir şəraitdə bu problemləri həll etmək və kitabxanalrın normal fəaliyyət göstərməsini təmin etmk üçün alternativ maliyyə mənbələri axtarmaq lazımdır ki, bu da fandreyzinq (tərcüməsi – vəsait axtarışı) adlanır. Fandreyzinqi uğurlu həyata keçirmək üçün onun strategiyasını bilmək, insanların pulu kimə və nə üçün verdiklərini öyrənmək lazımdır. Kitabxanaların fandreyzinq fəaliyyəti aşağıdakı mərhələlərdə aparılır:

İdentifikasiya
Strategiya
Hazırlıq (İnkişaf)
Xodataylıq
Minnətdarlıq bildirmə

İdentifikasiya – potensial maliyyə mənbələrinin araşdırılıb müəyyənləşdirilməsi prosesidir. Fandreyzinqin bu mərhələsində dərin tədqiqatlar və analizlər aparılır, nəticədə kitabxanaya kömək etmək istəyən konkret şəxslər və ya təşkilatlar müəyyən edilir. Bunun əsasında potensial donorların kartotekasını yaratmaq məqsədəuyğundur. Bunlar həm yerli, həm də beynəlxalq təşkilatlar, fondlar və fiziki şəxslər ola bilər.

İkinci mərhələ-strategiya kitabxananın müsbət imicinin yaradılması və formalaşdırılması prosesidir. Öz fəaliyyəti ilə məşhur olan, geniş oxucu kütləsinə kompleks xidmətlər göstərən, özünə inam hissi yaradan kitabxanaların donorlardan yardım (kömək) əldə etməklə aşağıdakı prinsiplər nəzərə alınmalıdır.

• Kitabxananın fəaliyyətinin demokratik vətəndaş cəmiyyətinin dəyərləri

ilə uyğun gəlməsi. İlk növbədə şəxsiyyətin informasiyanı azad əldə etmə hüququnun qorunması

- Oxuculara xidmətin səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi
- Kitabxana xidmətinin və oxucu sorğularının ödənilməsinin təkmilləşdirilməsinə istiqamətləndirilmiş bütün müsbət dəyişikliklər barədə ictimaiyyətin vaxtlı-vaxtında məlumatlandırılması.
- Cəmiyyətin geniş dairələrinin kitabxanaların qorunmasına və onlara kömək edilməsinə cəlb edilməsi.

Hazırlıq mərhələsində donorlarla iş apararaq onları yardım etməyə hazırlamaq və inandırmaq lazımdır. Bu işlə xüsusi hazırlığı olan,treyninq və seminarlarda xüsusi kurs keçmiş şəxslər məşğul olmalıdırlar.

Hazırlıq işləri bitdikdən sonra ən əsas və məsuliyyətli mərhələ -kodatayлıq- kömək üçün xahiş etmə mərhələsi başlayır. Bu işin uğurlu alınması kömək eden şəxsi inandırmaq bacarığından asılıdır. Yardımın vacibliyini əsaslandırmaq üçün ciddi dəlillər gətirmək lazımdır.

Yardım əldə olunduqdan sonra təbii ki, donora minnətdarlıq etmək lazımdır. Bu gələcək əlaqələrin genişlənməsinə və kitabxana nüfuzunun artmasına səbəb olar: 1) Xeyriyyəçilik; 2) Mesenatlıq; 3) Sponsorluq; 4) Patronaj; 5) Qrantlar.

Qeyd olunduğu kimi, kitabxanaların inkişafına yardım eden maliyyə mənbələrinin axtarışında və əldə edilməsində imic böyük rol oynayır. Kitabxananın müsbət imicinin yaradılmasında düzgün təşkil olunmuş reklam mühüm əhəmiyyət kəsb edir. Ən optimal kompleks kitabxana xidmətləri (ödənişli, ödənişsiz) həyata keçirə bilmək, onları inkişaf etdirməyi, bu xidmətlərə tələbat yaratmağı, istifadəçi, oxucu tapmağı bacarmaq hər bir kitabxananın qaşısında duran vəzifələrdir. Kitabxana reklamı məhz bunu təmin etmək üçündür. Onun məqsədi kitabxana, onun fondu, oxu zalları, təklif etdiyi xidmətlər, keçrdiyi tədbirlər KAA imkanları və s. haqqında məlumat yaymaqdır. Reklam zamanı mənəvi aspektləri nəzərə almaq, onun doğru və həqiqətəuyğun olmasına çalışmaq lazımdır. Kitabxana reklamı intensiv və inandırıcı; qısa (lakonik) və eyni zamanda kifayət qədər asan yadda qalan və başa düşülən, daim yenilənən olmalıdır.

Reklam məlumatları müxtəlif reklam bukletlərində, broşüralarda bələdçilərdə, televiziya kanallarında, ayrı-ayrı Web-səhifələrində, axtaran sistemlərdə yerləşdirilə bilər. Reklam zamanı kitabxananın adı, yerləşdiyi yer, iş rejim, əlaqə telefonları, elektron poçt ünvanları, kitabxananın fondu, kitabxananın təklif etdiyi kompleks xidmətlər, onun intelektual məhsulları və s. haqqında məlumat verilir.

Yüksək səviyyədə təşkil olunmuş kitabxana işi universal informasiya axtarışında vacib komponentdir. İntellektual azadlı-ğın təmin olunmasında düzgünlük kitabxanaçılıq və informasiya peşələrinin başlıca vəzifələrindən biri də kitabxanalar və kitab-xana işçiləri intellektual azadlığın təmin olunmasında

aşağıdakı prinsiplərə ciddi əməl etməlidirlər:

Kitabxanalar informasiya, ideya və yaradıcı təxəyyülün, elmi araşdırmaların nəticələrinin əldə olunmasını təmin edir. Onlar biliklərə, ideya və mədəniyyətə yol açır.

Kitabxanalar fərdi şəxslərin və qrupların fasiləsiz təhsil prosesində, müstəqil qərar qəbul etməsində və mədəni inkişafında başlıca dayaq rolunu oynayır.

Kitabxanalar intellektual azadlığın təmin reallaşdırılması üçün vacib şəraitin yaradılmasında mühüm rol oynayır, əsas demokratik dəyərlərin və ümumilikdə vətəndaş hüququnun qorunmasına kömək edir.

Kitabxanalar informasiyanın toplanmasında, təşkilində, yayılmasında müstəqil olmalı və istənilən formada senzuraya qarşı olmalıdır.

"Kitabxanaşünaslıq və biblioqrafiya"
elmi, nəzəri və təcrübi jurnalı, 2005, №1.s. 3-10

GÖRKƏMLİ TARİXÇİ ALİM, İSTEDADLI PEDAQOQ, SADİQ DOST
(Qurban Bayramov haqqında bir neçə kəlmə dost sözü)

2004-cü ilin payız günlərindən birində, dəqiq desəm, noyabrın 8-də amansız ölüm yaradıcılığının çiçəkləndiyi bir zamanda tarix elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi Qurban Bayramovu aramızdan apardı.

Bu Bakı Dövlət Universitetinin çoxminlik kollektivi, tarixi, elmi, respublikamızın tarix ictimaiyyəti üçün böyük itki idi. Qurban Bayramov görkəmli tarixçi-alim, istedadlı pedaqoq, əməkdar müəllim səviyyəsinə gəlib çatmaq üçün olduqca ağır, keşmə keşli bir yol keçmiş öz zəhmətkeşliyi, istedadı, məqsədyönlülüyü ilə fərqlənmiş, elm aləminda özünə böyük mövqe qazanmış, Azərbaycan tarixçilərinin görkəmli simalarından biri kimi tanınmışdı. Tarix elmi ictimaiyyəti içərisində böyük nüfuz qazanan Qurban Bayramov öz qələm yoldaşlarının və dostlarının sevimlisinə çevrilmişdi. Qurban müəllimi mən tələbəlik illərindən tanıyırdım. Bizim aramızda başlanmış tanışlıq tədricən səmimi möhkəm dostluğa çevrildi. Zaman keçdikcə bu dostluq dərinləşdi. Qurbanla qaynayıb-qarışdıq, doğmalaşdıq, qardaş olduq. Bizim dostluğumuzun tarixi 50 ildən artıq bir zaman kəsiyini əhatə etdiyindən mən onu dərindən tanıdım, onda bizim xalqımızın müdrük insanlarına, ağsaqqallarına, milli dəyərlərimizə, milli mentalitetimizə, məxsus bir çox müsbət keyfiyyətlərin olduğunu, insanlıqda, dostluqda, yoldaşlıqda əvəzsiz bir şəxsiyyət olduğunu dərk etdim. Qurban Bayramov şəxsiyyətinə olan hörmət və ehtiram əbədi dostluğa çevrildi.

Qurban müəllim olduqca mədəni bir şəxsiyyət idi. O, bütün hərəkətlərini

ölçüb-biçərdi. Mən onun artıq bir söz danışdığını, yersiz hərəkət etdiyini, yoldaşlarına, dostlarına münasibətdə xoşa gəlməyən münasibətini görməmişəm. Qurban müəllim danışanda səsinin tonunu qaldırmağı sevmirdi. Mən hər cür şəraitdə, hətta gərgin şəraitdə belə onun çığıra-çığıra danışdığını görməmişəm. Öz fikrini başqalarına çatdırmaq üçün çox ehmalca, yavaş-yavaş izah edərdi. Bəzən mənə elə gələrdi ki, Qurban müəllim məsələni həddindən çox xırdalayır, ancaq ondan ayrılandan sonra hiss edirdim ki, bu, ifrata varma öz fikrini sənə izah etmək, səni inandırmaq üçün imiş.

Ruslarda belə bir misal var: Əgər insanı hərtərəfli tanımaq istəyirssənsə, ona hakimiyyət ver. Qurban müəllim uzun müddət böyük vəzifədə işləmiş. 2 il Bakı Dövlət Universiteti partiya komitəsi katibinin ideoloji işlər üzrə müavini, 8 il isə partiya komitəsinin katibi olmuş, partiya rəhbərliyində böyük nüfuz qazanmışdı. Bakı şəhər Oktyabr (indiki yasamal) Rayon Partiya Komitəsinə dəfələrlə üzv, Bakı Şəhər Partiya Komitəsi üzvlüyünə namizəd, dörd çağırış Bakı şəhər Zəhmətkeş Deputatları Sovetinə deputat seçilmişdi.

Bakı Dövlət Universiteti pariya komitəsinin katibi o dövrdə çox böyük vəzifə hesab edilirdi. Universitetdə 1000 nəfərdən artıq kommunist var idi. Ona görə də BDU partiya komitəsi rayon partiya komitəsi hüququna malik idi.

BDU-da 10 ildən artıq partiya təşkilatlarına rəhbərlik etmək heç də hər şəxsə müyəssər olmur. Bele böyük partiya təşkilatlarına rəhbərlik etmək adamdan zəngin bilik, bəcarıq, təşkilatçılıq istedadı, yüksək mədəniyyət, insanlarla dil tapmaq, ünsiyyət bağlamaq bacarığı və hər şeydən əvvəl, əsl insani keyfiyyətlər tələb edirdi. Mən cəsarətlə deyə bilərdim ki, bütün bu keyfiyyətlər Qurban müəllimdə var idi. Bununla yanaşı, Qurban müəllim insanların qeydinə qalan, onlara kömək edən, dost-tanışların xeyrinə-şərinə yarayan bir şəxsiyyət idi. Dedi- qodunu, insanların dalınca danışmağı sevməzdi.

Qurban Bayramov BDU partiya komitəsinin katibi vəzifəsində işləyərkən mən partiya komitəsinin üzvü və 6 il Qurban müəllimin müavini olmuşam. O, heç zaman birinci katib olduğunu göstərməyə calışmazdı, tapşırığı da məsləhət şəklində verərdi. Bu illər ərzində pariya komitəsinin hər həftə keçirilən iclaslarında bir dəfə də olsun əsəbləşdiyini, səsini qaldırdığını görmədim . Öz işində olduqca ciddiliyi, intizamlılığı, zəhmətkeşliyi ona böyük hörmət qazandırmışdır.

Qurban müəllimin insani keyfiyyətlərindən biri də onun sözünə bütöv olması, verdiyi vədə əməl etməsi idi. O, söz verməyi sevmirdi. Ancaq verdiyi sözü mütləq yerinə yetirməyə çalışırdı. O, həmcinin prinsipal və obyektiv idi. Dediyi sözün dalından qaçmazdı, mütləq onu yerinə yetirməyə çalışardı. Bəzi adamlar mənə deyərdilər: Qurban müəllimdə höcətçilik var, dedi qurtardı, daha onun arxasından qaçan deyil. Mən onda da deyərdim, indi də deyirəm ki, bu, Qurban müəllimin ən yaxşı keyfiyyətlərindən biri idi.

Keçən əsrin 70-80-ci illərində ali məktəblərdə işləyən müəllimlərə məlumdur ki, o dövrdə dövlət üçün və universitet rəhbərliyi üçün mühüm məsələlərdən biri tələbə qəbulunun təşkili idi. Bu işi ən ləyaqətli müəllimlərə

tapşırırdılar. Heç də təsadüfü deyil ki, o dövrdə universitet partiya komitəsinin katibi işləyən Qurban müəllim 10 ilə yaxın bir müddətdə universitetə qəbul aparmışdır. Rektor bir qayda olaraq qəbulun təşkili, müəllimlərin seçilib yerləşdirilməsi, imtahanların aparılması işini Qurban müəllimə həvalə edirdi. Olduqca gözü tox, nəfsi təmiz olan Qurban müəllim bu işin öhdəsindən müvəffəqiyyətlə gəlirdi. Məhz qəbulun aparılması illərində Qurban müəllim bir şəxsiyyət, humanist insan, insanların qeydinə qalan, fəhlə-kəndli uşaqlarına kömək edən, bu mürəkkəb işin müvəffəqiyyətlə, ədalətlə aparılmasını bacaran bir təhsil təşkilatçısı kimi formalaşmışdı. Belə bir cəhəti də qeyd etməyi özümə borc bilirəm ki, Qurban müəllim qəbul vaxtı respublikamızın görkəmli ziyalılarının, universitet müəllimlərinin uşaqlarına kömək əlini əsirgəmirdi. Məhz onun bu xidməti o dövrdə respublika ziyalıları içərisində böyük əks səda doğurmuş, bir ziyali kimi onun hörmətini xeyli yüksəltmişdi.

Qurban Bayramov öz müəllimlərinə -həm orta məktəb, həm də ali məktəb müəllimlərinə, xüsusilə elmi rəhbərinə hörmət edən, həmişə onların qulluğunda duran, xeyrinə-şərinə yarayan bir insan idi.

Namizədlik işinin elmi rəhbəri olmuş AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru Zülfəli İbrahimovun vəfatından sonra onun ailəsinə göstərdiyi xidmətlər, yaxşılıqlar gözüm önünə gələndə Qurban müəllimə məhəbbət və hörmətim bir daha artır. Qurban müıllim həmçinin dostluqda çox sadiq alim idi. Öz tələbələk, aspirantlıq illərinin doztlarının heç birini unutmamışdı. Dostlarının qulluğunda durmağı, onların övladlarına kömək etməyi özünə borc bilirdi.

Bir dəfə biz söhbət edərkən o mənə dedi: - Abuzər, mən bu günlərdə firkləşdim, gördüm ki, heç bir dostumu itirməmişəm, uzun illərdən bəri qazandığım dostların hamısı qalır. Mən dedim: Qurban müəllim, yaxşı dost böyük sərvətdir. Sizin öz dostlarınızı qoruyub saxlamağınızı mən böyük keyfiyyət hesab edirəm. Bu sözü söyləməyə mənim mənəvi haqqım var idi. Çünki mən onun dostlarının çoxunu tanıyırdım və onlara, dostlarının övladlarına münasibətini yaxşı bilirdim, həmin adamlara xidmətlərini gözümlə görmüşdüm.

Qurban Bayramov həmçinin böyük elm fədaisi idi. O, aspirantlıqdan elmlər doktorluğuna qədər olduqca şərəfli bir yol keçmiş, istedadlı tədqiqatçı, zəhmətkeş elmi işçi, nüfuzlu, savadlı, öz sənətini sevən bir müəllim, pedaqoq kimi şöhrət tapmışdı.

1965-ci ildə namizədlik, 1985-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdi. 1991-ci ildən Bakı Dövlət Universitetinin Yeni və ən yeni tarix kafedrasının müdiri vəzifəsinə seçilmiş, ömrünün axırına qədər bu vəzifədə işləmişdi. Qurban müəllim bacarıqlı elm və təhsil təşkilatçısı kimi kafedranın elmi-tədqiqat işlərinin təşkili, dərsliklərin, dərs vəsaitlərinin, proqramların hazırlanmasında faydalı işlər görmüş, 1917-1920-ci illər Azərbaycan tarixinin öyrənilməsi sahəsində elmi məktəb yaratmışdır.

Qurban Bayramov Azərbaycanı ürəkdən sevən, Azərbaycanın müstəqilliyi, Azərbaycan dövlətinin möhkəmləndirilməsi, Azərbaycan milli ideo-

logiyasının formalaşması uğrunda mübarizə aparan vətənpərvər alim idi. Onun son əsəri- Heydər Əliyev və Azərbaycan tarixi elmi kitabı (2004) azərbaycanşünaslığa qiymətli hədiyyədir.

Qurban müəllim cox məhsuldar bir tədqiqatçı olmuş, elmi kadrların hazırlanmasında xüsusi xidmətlər göstərmişdir. O, 120-dən artıq elmi əsərin, 10-a qədər monoqrafiyanın müəllifidir. 10 nəfər aspirantın elmi rəhbəri olmuş, 16 doktorluq və namizədlik dissertasiyasını opponenti kimi çıxış etmişdir. Onun elmi yaradıcılığı respublika mətbuatında yüksək qiymətləndirilmişdir. Qurban Bayramov bir çox orden və medallarla təltif edilmiş, Azərbaycan əməkdar müəllimi kimi yüksək fəxri ada layiq görülmüşdü.

Amansız ölüm Qurban müəllimi aramızdan vaxtından əvvəl aparsa da, onun əziz xatirəsini universitet kollektivinin, onu tanıyanların, Respublika ziyalılarının, tələbələrinin və çoxsaylı yaxın dostlarının qəlbində əbədi yaşayacaqdır.

"Ləkəsiz bir vicdan, böyük bir ürək"
Bakı Universiteti Nəşriyyatı, 2005. s. 56-61

KİTABXANA DÜNYASINA AÇILAN PƏNCƏRƏ

Əsas vəzifəsi cəmiyyətin sənəd-informasiya tələbatının ödənilməsi olan bir sıra digər təsisatlar kimi, kitabxanalar da son illər öz fəaliyyətlərində yeni informasiya texnologiyalarından, o cümlədən İnternetdən geniş istifadə etməyə başlamışlar və bu proses ənənəvi kitabxana texnologiyalarının sürətinin artmasına, kefiyyətcə yeni səviyyəyə yüksəlməsinə və bir sıra digər əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur.

Həqiqətən də iyirminci əsrdə bəşəriyyətin qazandığı ən böyük nailiyyətlərindən biri dünyadakı bütün kompüterləri və kompüter şəbəkələrini birləşdirə bilən "İnternet" adlı super şəbəkənin yaradılması olmuşdur. Əsası 1969-cu il yanvarın 2-də ABŞ Müdafiə Nazirliyinin ARPA proqramı ilə başlayan bu yenilik az bir müddət ərzində təkcə hərbi məqsədlərlə deyil, həm də təhsil, elm, səhiyyə, iqtisadiyyat və s. məqsədlərlə istifadə edilməyə başladı. Onun coğrafi əhatəsi də sürətlə ABŞ sərhədlərini aşaraq genişləndi və Hazırda dünyada elə bir ölkə tapmaq mümkün deyildir ki, o, ümumdünya kompüter şəbəkəsinə qoşulmamış, bu şəbəkədən bəhrələnməmiş olsun.

2002-ci ilin sonuna olan məlumatlara görə, dünyada 605,5 milyon nəfər İnternetdən istifadə edir. Onlardan 182 milyonu ABŞ-ın, 55 milyonu Yaponiyanın, 36 milyonu Almaniyanın, 30 milyonu Böyük Britaniyanın, 11,2 milyonu isə Rusiyanın payına düşür.

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin araşdırmalarına görə, hazırda Azərbaycanda təxminən 120 min kompüter var. İnternet istifadəçilərinin sayı isə təxminən 295 min nəfərdir.

Lakin nazirlik tərəfindən hazırlanan Dövlət proqramında bu rəqəmlərin sürətlə artacağı proqnozlaşdırılır.

Müasir dövrdə İnternet vasitəsilə bir çox xidmət növlərindən istifadə etmək olar ki, onlardan biri də WWW və ya WEB-dir. Maraqlıdır ki, WWW-nin əsasında dayanan prinsip-sənədlərin birinin digəri ilə qarşılıqlı istinadlar sistemi vasitəsilə əlaqəsi metodu kitabxana-informasiya elmlərində hələ İnternetdən çox əvvəl istifadə edilirdi.

İlk zamanlar nüvə fizikası üzrə təhqiqat aparan alimlərin öz aralarında tədqiqatların nəticələri barədə məlumatı mübadilə etmək məqsədilə yaradılmış WEB tezliklə digər sahələrin mütəxəssisləri-dövlət qurumları, beynəlxalq təşkilatlar, biznes strukları, təhsil müəssisələri və s. tərəfindən geniş istifadə edilməyə başladı. Onlar ətraf sosial mühitə təqdim etmək istədikləri informasiyanı İnternetə qoşulmuş WEB-servsr deyilən qurğularda yerləşdirməyə başladılar. Bundan sonra kompüterində WEB-də yerləşdirilmiş informasiyanı və ya WEB səhifəni açmaq üçün proqram olan hər hansı bir İnternet isifadəçisi asanlıqla həmin səhifəyə daxil olaraq orada yerləşdirilmiş mətni oxuya, təsvirləri nəzərdən keçirə və hətta musiqi dinləyə bilər. İndi dünyanın inkişaf etmiş ölkələrində elə bir dövlət orqanı, nazirlik, bələdiyyə, təhsil ya elm müəssisəsi, şirkət, muzey, ictimai təşkilat tapmaq çətindir ki, onların öz müstəqil WEB səhifəsi olmasın. WEB səhifələr həm də ayrı-ayrı tədbirlər, sərgilər, tarixi abidələr üçün yaradılır. WEB səhifələrin çox geniş yayılmış növü şəxsi səhifələrdir ki, sayı on milyonlarla ölçülən belə səhifələri indi hər bir özü yarada və ya sifariş verə, həm də şəbəkəyə yerləşdirə (bəzi hallarda, hətta pulsuz olaraq) bilər. WEB texnologiyalar insanlara dünyanın ucsuz-bucaqsız informasiya məkanına maneəsiz daxil olmaq imkanı verməklə artıq dünyada gedən demokratikləşmə prosesinə, azad vətəndaş cəmiyyəti quruculuğunun reallaşmasına xidmət edən güclü bir vasitəyə çevrilmişdir. Bir çox beynəlxalq sənədlərdə, ayrı-ayrı ölkələrin, o cümlədən Azərbaycan Respublikasının qanunlarında təsbit edilmiş vətəndaşların informasiyadan azad istifadəsinin təmin olunması hüququnun həyata keçirilməsi üçün WEB texnologiyalara xüsusi əhəmiyyət verilir, onun geniş imkanlarından istifadə edilir. Məhz buna görə də cəmiyyətin sənəd informasiya ehtiyatlarından istifadə edilməsini təşkil edən ilk ictimai təsisatlar olan kitabxanalar WEB texnologiyaları tətbiq edən ilk qurumlar cərgəsində olmuşdur. Əlbəttə, ilk dövrlər bu xidmətin həyata keçirilməsi xeyli maliyyə məsrəflərinin, bahalı avadanlıqların olmasını tələb edirdi. Buna görə də həmin texnologiya dünyanın ən böyük büdcəyə malik kitabxanası olan ABŞ Konqres Kitabxanası tərəfindən tətbiq edilməyə başlamışdı. Sonradan bir çox digər kitabxanalarda da WEB səhifələri yaratmağa başladılar.

Qeyd etmək lazımdır ki, yeni informasiya texnologiyalarının tətbiq edilməsində kitabxanalar həmişə qabaqcıl mövqelərdə olmuşlar. Məsələn, hələ 1936-cı ildə Texas Universitetinin kitabxanasında perfoktlardan istifadə etməklə informasiya axtarış sistemləri qurulmuşdu.

Hazırda kitabxanaçılar dünyada WEB texnologiyaları ən geniş miqyasda tətbiq edən peşə sahibləridir. Bu isə kitabxanaların ictimai funksiyasından irəli gəlir. Çünki kitabxananın əsas vəzifəsi cəmiyyətin informasiya tələbatını kitablar və fondda olan digər sənədlər vasitəsilə ödəməkdən ibarətdir. Ümumilikdə İnternetin və onun xüsusi xidmət növü olan WEB-in də məhz insanların informasiya tələbatını ödəməyə xidmət edən ən qabaqcıl bir vasitə olduğunu nəzərə alsaq, kitabxanalarda WEB texnologiyaların tətbiqinin bu müəssisənin təbiətindən doğan bir zərurət olduğu qənaətinə gəlmək mümkündür.

Kitabxanalarda WEB texnologiyaların tətbiqini şərti olaraq üç mərhələyə bölmək mümkündür. İlk əvvəl kitabxanalar öz WEB səhifələrində Ümumi İnformasiya-kitabxananın yaranma tarixi, quruluşu, bölmələri, göstərilən xidmət növləri, üzvlüyün şərtləri, ünvanı barədə məlumat verirdilərsə, ikinci mərhələdə artıq WEB səhifədən kitabxananın elektron kataloquna daxilolma funksiyası da əlavə edildi. Tələbatçı buradan kitabxananın onlayn elektron kataloquna daxil olaraq fondda hansı kitabın və ya digər sənədin olmasını müəyyənləşdirə bilir. Bu zaman səhifədə sənədin Maşınla oxuna bilən (başqa sözlə rəqəmləşdirilmiş) biblioqrafik təsvir standartı (MARC) üzrə tərtib edilmiş təsvirləri yerləşdirilir ki, dünyanın elektron kataloq yaradan, demək olar ki, bütün kitabxanaları rəqəmli biblioqrafik təsvirlərin tərtibi üçün bu standartın müxtəlif versiyalarından istifadə edir. ABŞ-ın, Böyük Britaniyanın və elektron kataloqların yaradılması üzrə zəngin təcrübəyə malik olan bir sıra digər ölkələrin kitabxanalarının əksəriyyəti artıq öz fondlarını əks etdirən kataloqların və kartotekaların əksər hissəsini elektron formata keçirmişlər. Rusiyanın aparıcı kitabxanalarında elektron kataloqlar fonda əsasən son 10-15 ildə daxil olmuş kitabları əks etdirir. Respublikamızda isə bu sahədə işlər hələ başlanğıc mərhələsindədir. Qeyd etmək yerinə düşərdi ki, respublikamızın dövlət universitetləri kitabxanaları içərisində elektron kataloqun yaradılması ilə məşğul olan ilk kitabxana BDU-nun Elmi kitabxanası olmuşdur.

Kitabxanalarda WEB texnologiyaların tətbiqinin üçüncü mərhələsi isə birbaşa ya da elektron biblioqrafik təsvirlərdən sənədin tam mətni versiyasına keçərək sənədin özünü oxumaq imkanının yaradılması oldu. İnqilabi əhəmiyyətili bu yenilik oxucuya evini və ya iş yerini tərk etmədən sənədin özündən istifadə etməyə şərait yaradır. Bu zaman İnternet istifadəçisi və ya oxucu qarşısında belə bir sual yaranır: bəs ölkənin və dünyanın hansı kitabxnalarının WEB səhifəsi vardır? Əlbəttə, əgər istifadəçinin müasir kompüter vardırsa, provayder ona yüksək sürəti İnternet verirsə və istifadəçi WEB-dən istifadə üzrə yüksək bacarığa malikdirsə, bu səhifələri o özü müəyyən vaxt sərf etməklə tapa bilər. lakin təəssüf ki, belə imkanlar nəinki bir çox istifadəçilərə, hətta kitabxanalara belə müyəssər deyil. Məhz buna görə də bu suala cavab tapmaq üçün ən yaxşı mənbə WEB səhifələrin biblioqrafik göstəricisi və ya Weblioqrafiya-dır.

Weblioqrafik mənbələrin ən geniş yayılmış növü özündə çox sayda

WEB səhifələr barədə məlumat verən "İnternetin sarı səhifələri" adlı soraq vəsaitləridir. Dünyanın bir çox ölkələrində, o cümlədən Rusiyada həmin soraq vəsaitləri hər il yerləşmiş, təshih edilmiş şəkildə nəşr edilir. Respublikamızda özündə müəssisələr, təşkilatlar və digər qurumlar barədə soraq məlumatını əks etdirən "Sarı səhifələr" adlı vəsait nəşr edilsə də, təəssüf ki, "İnternetin sarı səhifələri" kimi ixtisaslaşmış vəsait hələ də tərtib və nəşr edilməmişdir. Qeyd edək ki, "Sarı səhifələr" tipli soraq nəşrlərinin əsas qüsuru orada çox böyük miqdarda reklam materiallarının olmasıdır ki, bu da çox axtarışı çətinləşdirir. Bu baxımdan akademik tipli, mötəbər Weblioqrafik vəsaitlərin əhəmiyyəti misilsizdir. Lakin təəssüf ki, respublikamızda belə bir mənbə indiyə qədər yaradılmamışdı. Bu baxımdan Azərbaycan MEA mərkəzi Elmi Kitabxanası tərkibində ilk "Weblioqrafiya" adlı vəsaitin birinci cildinin birinci buraxılışının nəşri çox sevindirici hadisədir. Kitabxananın direktoru Aybəniz Əliyeva-Kəndərlinin rəhbərliyi ilə Cavid Cəfərov tərəfindən tərtib edilmiş bu vəsaitin 10 cilddə nəşr ediləsi nəzərdə tutulur.

Çap edilmiş bu buraxılış özündə Azərbaycanın və dünyanın bir çox ölkələrinin kitabxanalarının, kitabxanaçıların ictimai təşkilatlarının səhifələri və bir sıra digər səhifələr barədə məlumat verir.

Əvvəlcə kitabxananın və ya səhifənin sahibi olan digər qurumun Azərbaycan dilində adı, sonra xarici dildə adı və ən nəhayət, WEB səhifənin ünvanı verilir.

Vəsaiti Azərbaycan Respublikası kitabxanalarının siyahısı açır. Buradan məlum olur ki, respublikamızın 11 kitabxanasının WEB səhifəsi vardır ki, bunlardan da cəmi ikisi (MEA Mərkəzin Elmi Kitabxanası və M. F. Axundov adına Respublika Dövlət Kitabxanası) dövlət kitabxanası, qalanları isə universitet kitabxanalarıdır.

Rusiya Federasiyasını təmsil edən kitabxanaların sayı daha çoxdur. Belə ki, bu ölkənin kitabxanaları, respublika, Elmlər Akademiyası, vilayət, ali təhsil müəssisələri kitabxanaları bölmələri daxilində qruplaşdırılmışdır. Burada ayrıca yerimbölmələrdə "Rusiyaya yaxın xarici ölkələrin kitabxanaları" başlığı altında Ukrayna, Belarus və Qazaxstanın 18 kitabxanası haqqında məlumat verilir.

Göstəricinin "Türkiyə kitabxanaları" bölməsi də maraq doğurur. Burada qardaş ölkənin əksər hissəsi universitet kitabxanaları olmaqla, 58 kitabxanası barədə məlumat verilir.

Ən geniş bölmə olan "ABŞ kitabxanaları" bölməsində bu ölkənin əsasən universitet kitabxanaları olmaqla 156 kitabxanasının, ictimai və digər təşkilatın səhifələri barədə məlumat toplanmışdır. Sonrakı bölmələrdə, İtaliya, Almaniya kitabxanalarının İnternet səhifələrinin ünvanları barədə məlumat verilir.

Vəsaitin digər bölmələri – "Xarici kütləvi kitabxanalar", "Dünyanın milli kitabxanaları", "Kitabxana assosiasiyaları, cəmiyyətləri", "Müxtəlif dünya kitabxanaları", "Dünya kitabxanaçıları tərəfindən daha çox istifadə olunan saytlar", "Bestsellerlər və Mükafatlar Kitabxanası" da digər maraqlı səhifələr barədə informasiyanı özündə əks etdirir.

Respublikamızda bu tipdə ilk dəfə yaradılan həmin vəsaitdə toplanmış məlumatlar nəinki kitabxnaçılar, həm də kitabxanalardan istifadə edən hər bir şəxs üçün xeyli maraq kəsb edir. Vəsait böyük zəhmət bahasına yaradılmış və nəfis şəkildə çap olunmuşdur. Bütün bu məziyyətlərlə yanaşı, onun bir sıra nöqsanlarını da qeyd etməyi lazım bilirik.

Ən əvvəl, bizim fikrimizcə, vəsaitin adının "Veblioqrafiya" ya yox, "Webliooqrafiya" şəklində verilməsi daha düzgün olardı. Günki millətindən asılı olmayaraq dünyadakı bütün İnternet istifadəçilərinə "WWW" abbreviaturasını təşkil edən son söz olan WEB ifadəsi yaxşı tanışdır. Hər bir istifadəsi İnternet brauzerinin (MS İnternet Explorer, Netscape Naviqator və s. proqramlar) axtarış pəncərəsində "VVV" yox, məhz "WWW" hərflərini yığır. Azərbaycan istifadəçisinin hər birinin kompüterində W hərfi vardır və əksər səhifələrin WEB ünvanında məhz W hərfini yığırıq. Buna görə də "WEB" kəlməsinin "VEB" kimi transliterasiya edilməsinə bir lüzum görmürük.

Hər bir təcrübəli oxucu gözəl bilir ki, nəşriyyat sahəsində mövcud olan ənənə və qaydalara uyğun olaraq mündəricat bölməsi kitabın bütün mətni qurtardıqdan sonra, kitabın sonunda, çıxış məlumatlarından öncə və ya son zamanlar ingilisdilli kitablarda olduğu kimi, titul vərəqindən sonrakı səhifədə verilir. Bəhs etdiyimiz vəsaitdə isə müdəricat nəyə görəsə ön sözlə əsas mətnin arasına düşmüşdür. Vəsaitin məzmununa gəldikdə isə təəsüf ki, nə Azərbaycan kitabxanalarına aid bölmədə, nə də kitabxana assosiasiyalarına aid olan bölmədə Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının artıq 4 ilə yaxın müddətdə mövcud olan səhifəsi barədə məlumat verilməmişdir.

Gələcək nəşrlə bağlı bir arzumuzu da bildirmək istərdik. Bu da ondan ibarətdir ki, yaxşı olar ki, vəsaitin gələcək buraxılış və cildlərində elektron resursların (o cümlədən İnternet səhifələrin) biblioqrafik təsvirinə dair 3 il əvvəl qəbul edilmiş tətbiqi məcburi olan QOST 7,8 2001 standartının tələbləri gözlənilsin. Bu standartın tələblərinə riayət edilməsi vəsaitin elmi və praktiki əhəmiyyətinin daha da yüksək olmasına yardım edərdi.

Vəsaitdə bir sıra digər yanlışlıqlar və xətalar da vardır. Lakin bunlarla yanaşı, həmin xətalar bu vəsaitin dolğun məzmununu, praktiki əhəmiyyətini, onun respublikamızın kitabxanaçıları və İnternet istifadəçilərinin masaüstü kitabına çevriləcəyinə ümid edirik ki, vəsaitin növbəti nəşrində belə qüsurlar aradan götürüləcəkdir. Söhbət etdiyimiz, demək olar ki, bütün kitabxanaçılar belə bir vəsaitin onların biblioqrafik nəşrlər fondunda da olmasını arzu etmişlər. Lakin təəsüf ki, vəsaitin kiçik (cəmi 500 nüsxə) belə bir faydalı vəsaitə olan tələbatın tam ödənilməsinə imkan vermir. Biz ümid edirik ki, sonrakı nəşrlərdə tirajın artırılması məsələsi həll ediləcəkdir.

Biz başda MEA Mərkəzi Elmi Kitabxanasının direktoru Aybəniz xanım Əliyeva- Kəngərli olmaqda bu faydalı vəsaitin bütün yaradıcı kollektivinə uğurlar arzulayır və vəsaitin növbəti buraxılışının çapdan çıxmasını səbirsizliklə gözləyirik.

"Respublika". 28 yanvar 2005.

AMEA MƏRKƏZİ ELMİ KİTABXANASI MÜSTƏQİLLİK İLLƏRNİDƏ

Mustəqillik illərində Azərbaycan elminin baş qərargahı olan Azərbaycan Milli Elmlər Akademiyası xalqımızın ümummilli lideri, dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi Prezident Heydər Əliyevin rəhbərliyi və qayğısı sahəsində böyük inkişaf və tərəqqi yolu keçmiş, mühüm elmi nailiyyətlər əldə etmişdir. Heydər Əliyev doğma respublikamıza 30 illik rəhbərliyi dövründə daim Azərbaycan elminin hamisi olmuş, onun inkişafına böyük təkan vermiş, xalqımızın inkişafını respublikamızın dünya ölkələri içərisində qabaqcıl mövqelərə çıxmasının qarantı hesab etmişdir. Tarixi faktdır ki, müstəqilliyimizin ilk illərində sarsıntısız AXC-Müsavat hakimiyyəti dövründə AMEA-nın başının üstündə bir qara kabus dolaşmaqda idi. Akademiyanın bağlanmaq təhlükəsi var idi. Akademiya məhz bu qara kabusdan 1993-cü ildə ulu öndər Heydər Əliyev respublika rəhbərliyinə gələndən sonra xilas oldu. Azərbaycan elminin baş qərargahını milli dövlətçiliyimizin əsas atributlarından biri kimi qiymətləndirən ulu öndər nəinki AMEA-nı qoruyub saxladı, həmçinin onun gələcək inkişafı üçün çox böyük milli dəyərlərə malik olan 15 may 2001-ci ildə tarixi fərman onun taleyini həll etməklə gələcək inkişaf istiqamətini və statusunu müəyyənləşdirdi.

Fərmanda deyilir: «Azərbaycan Respublikasında milli elmi potensialın qorunub saxlanması və gücləndirilməsi, xalqımızın tarixi və mədəniyyəti ilə bağlı araşdırmaların müasir standartlar səviyyəsində aparılmasının təmin edilməsi, fundamental elmi-tədqiqatların əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, elmi fəaliyyətin həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılması məqsədi ilə qərara alıram: 1. Azərbaycan Elmlər Akademiyası ali dövlət elmi təşkilatı olduğu nəzərə alınmaqla Azərbaycan Milli Elmlər Akademiyası adlandırılsın».

Azərbaycan Elmlər Akademiyasına Milli Akademiya statusunun verilməsi onu ümumdövlət əhəmiyyətli bir müəssisəyə çevirdi. Bu fərmanla əlaqədar Akademiyanın yeni demokratik nizamnaməsi təsdiq edildi. Nizamnaməyə görə, Milli Elmlər Akademiyası Azərbaycan elminin baş qərargahı olmaqla yanaşı respublikada aparılan elmi tədqiqatların əlaqələndirmə mərkəzinə çevrildi. Azərbaycan MEA-nın strukturunda akademiyanın Mərkəzi Elmi Kitabxanası akademiya elminin informasiya mərkəzi kimi mühüm yer tutur. Respublika miqyasında təbiət, texniki və humanitar elmlər üzrə ən iri kitabxana sayılan, AMEA MEK dünya xalqlarının 50-dən artıq dilində 3 milyondan artıq ədəbiyyat saxlayan zəngin, universal kitab fonduna malikdir. İlk özəyi 1923-cü ildə Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti tərəfindən qoyulmuş bu möhtəşəm kitab məbədi 80 ildən artıq bir dövr ərzində böyük tərəqqi və inkişaf yolu keçərək Azərbaycan elminin və mədəniyyətinin qızıl fonduna çevrilmişdir. Ölkəmizdə elmin inkişafında, ayrı-ayrı elm sahələrinin yaranıb formalaşmasında, yüzlərlə elmi kadrların yetişməsində əvəzsiz rol oynayan bu böyük elm məbədgahı müstəqillik illərində də böyük inkişaf yolu

keçmiş, öz fəaliyyətini daha da təkimlləşdirmiş, yeniləşdirmiş, milliləşdirmişdir. Müstəqillik illəri kitabxananın həyatında yeni mərhələnin başlanğıcı, yenidənqurma və böyük islahatlar illəri kimi xarakterizə olunur. Doğrudur, müstəqilliyin ilk illərində akademiyanın başının üstünü almış qara buludlar kitabxananın işinə də mənfi təsir göstərmiş, oxuculara xidmət işinin zəifləməsinə gətirib çıxarmışdı. Xoşbəxtlikdən bu proses uzun sürmədi. Azərbaycan xalqının təkidli çağrışı və tələbi ilə 1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması bu mənfi prosesləri qarşısını aldı. Ulu öndərin ölkənin siyasi, iqtisadi və mədəni həyatında həyata keçirdiyi tədbirlər nəticəsində akademiya ilə yanaşı kitabxananın işində də böyük canlanma baş verdi. Hər şeydən əvvəl kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi, beynəlxalq əlaqələrin bərpası və genişlənməsi, oxuculara xidmət işinin yaxşılaşdırılması üçün tədricən tədbirlər görülməyə başladı. Doğrudur, ilk illərdə həyata keçirilən tədbirlər kifayyətləndirici olmasa da kitabxananın həyatında baş verən durğunluğu dayandırdı, inkişaf üçün gələcək perspektivləri üçün zəmin hazırladı. Müstəqilliyi böyük ruh yüksəkliyi ilə qarşılayan kitabxananın kollektivində böyük ruh yüksəkliyi yaratdı. Müstəqillik illərində kitabxananın fəaliyyətində baş verən böyük dəyişikliklər, aparılan əhəmiyyətli islahatlar dediklərimizi bir daha təsdiq edir. Müstəqillik illərində kitabxananın qarşısına çıxan ən böyük çətinlik kitab fondunun komplektləşdirilməsi sahəsindəki problemlər idi. Beynəlxalq əlaqələrin pozulması, Moskvadan alınan məcburi nüsxələrin dayandırılması, respublikada kitab nəşri sahəsində baş verən böhran, az miqdarda nəşr edilən kitabların görünməz dərəcədə bahalaşması, kitabxananın maliyyə imkanlarının azlığı kitabxananın yeni ədəbiyyatla komplektləşməsini iflic vəziyyətə salmışdı. Belə vəziyyət özünü ilk növbədə elmi-informasiya qıtlığında göstərdi. Maliyyə çatışmazlığından kitab fondunun yeni ədəbiyyatla təkmilləşməsi işində ciddi boşluqlar yarandı, elmi tədqiqatların operativ informasiya təminatı dayandırıldı. Kitabxananın maddi təhcizatı zəiflədi, beynəlxalq əlaqələri olduqca məhdudlaşdırıldı. Bütün bunlar elmi işçilərin MEK-dan istifadə intensivliyini zəiflətdi, bu da öz növbəsində MEA-da aparılan elmi tədqiqatların kəmiyyət və keyfiyyət göstəricilərinə mənfi təsir göstərdi. Çətinlikləri aradan qaldırmaq üçün kitabxana müxtəlif vəsaitlərdən, ayrı-ayrı müəlliflərin köməyindən, sponsorlardan, qrantlardan istifadə edərək mühüm tədbirlər həyata keçirməyə müvvəfəq olmuş, tədricən kitab fondunun yeni ədəbiyyatla təminatına nail olmuşdur. Bu işdə akademiyanın böyük alimlər ordusunun rolu danılmazdır.

Müstəqillik illərində kitabxana fondunun vəziyyətini əks etdirən cədvələ nəzər salaq.

1990	1737523	1998	1891684
1991	1750535	1999	2004098
1992	1859885	2000	2001362
1993	1869096	2001	2060432
1994	1873148	2002	2074916
1995	1873348	2003	2087980
1996	1872520	2004	2099691
1997	1881561		

Cədvəldən göründüyü kimi, hər cür çətinliyə baxmayaraq kitabxananın fondu nəinki azalmış, hətta 1990-cı illə müqayisədə 362.168 nüsxə artmışdır. Hazırda ölkəmizdə təbiətşünaslıq, sosial-iqtisadi, ictimai, humanitar, siyasi və texniki elm sahələri üzrə ən zəngin kitabxana olan AMEA-nın Mərkəzi Elmi Kitabxanasında dünya xalqlarının 50 dilində 30 milyondan artıq kitab vardır. Respublika elminin qızıl fondu hesab edilən bu kitabxanada Azərbaycan, rus, türk, ərəb, fars, ingilis, alman, fransız, ukrayna və s. dillərdə xronoloji ahatəsi XII - XX əsrlərə aid olan çox qiymətli və nadir kitablar saxlanılır. Kitabfondu dilə görə aşağıdakı kimi bölünür: Azərbaycan dilində 100 min, rus dilində 3 milyon, Qərbi Avropa dillərində 75.000, Nadir və qiymətli nəşrlər fondunda 6.000 nüsxədən artıq kitab vardır. Şərq dillərində ədəbiyyat fondu nadir kitabların sayına görə respublikada ən zəngin fond hesab edilir. Bu fondda nadir elmi kitablar, məcmuələr dövri mətbuat materialları, həmçinin arxiv fondu mühafizə olunur. Kitabxana təbiətşünaslıq və texnika elmləri üzrə depozitar kitabxana statusuna malik olduğundan kitabxanada saxlanılan kitablar içərisində təbiətşünaslıq və texnikaya aid mühüm yer tutur. AMEA Mərkəzi Elmi Kitabxanasına akademiya kitabxana şəbəkəsinin elmi-metodik mərkəzi olduğundan bütün elmi-tədqiqat insititutları kitabxanalarının işinin istiqamətləndirilməsində, ilk növbədə isə onların fondlarının təkmilləşdirilməsində yaxından iştirak edir. Müstəqillik illərində kitabxana öz fondunun komplektləşməsi ilə yanaşı elmi-tədqiqat insitutlarının kitabxanalarının komplektləşdirilməsi işinə böyük qayğı göstərmiş, kitabxana fondlarını dinamik, oxucu tələblərinə cavab vermək durumunda saxlamağa müvvəfəq olmuşdur.

Hazırda Mərkəzi kitabxananın metodiki rəhbərlik etdiyi 27 elmi–tədqiqat insititutlarının yanında fəaliyyət göstərn filial kitabxanalarında elmin müxtəlif sahələrinə dair, instutların profilinə uyğun 1.354902 nüsxəkitab oxucuların istifadəsindədir. Müstəqillik illərində Mərkəzi kitabxananın və institutt kollektivinin köməyindən faydalanan filial kitabxanaları öz fəaliyyətlərini müvəffəqiyyətlə davam etdirmiş, inistutların elmi–tədqiqat informaiya bazası rolunu oynamışlar.

Müsəqillik illərində kitabxana fondu aşağıdakı mənbələrdən təkmilləşməyə başlamışdır. Yerli nəşrləri və xarici nəşirləri satan kitab mağazaları, ayrı-ayrı müəlliflərin hədiyyələri, beynəlxalq kitab mübadiləsi və nəhayyət 1999-cu ildən sonra «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının qanununda respublikada nəşr edilən ədəbiyyatdan pulsuz məcburi nüsxələr almaq hüququ olan kitabxanalara aid edilməsi kitabxananın milli ədəbiyyat fondunun inkişafi üçün böyük imkanlar açdı.

Müstəqillik illərində respublikamızda kitabxana fondunun komplektləşdirilməsində respublikamızın görkəmli ziyalıları, alimləri, yazıçıları və mədəniyyət xadimləri tərəfindən öz yeni kitablarını və kitab kolleksiyalarını kitabxanalara hədiyyə etmək kimi yeni ənənənin meydana gəlib formalaşması mühüm əhəmiyyət kəsb etmişdir. Bu işdə AMEA Mərkəzi Elmi Kitabxanası daha fəal mövqe tutmuş, yüzlərlə müəlliflərdən hədiyyə olaraq çoxlu sayda kitablar əldə etmişdir. Həmçinin kitabxana akademiklərdən M.Ə.Useynovun

(1997), İ.D.Mustafayevin (1999) və xalq yazıçısı M.İbrahimovun (1999) şəxsi kitab kolleksiyalarını hədiyyə almışdır. Yeni alınan şəxsi kitabxanalardan 6 başqa kitabxanada görkəmli alimlərdən B.N.Zaxoderin, Y.E.Bertelsin, Y.A.Belyayevin, Y.A.Paxomovun, Z.Hüseyinzadənin, Niyazinin və s. elm və mədəniyyət xadimlərinin şəxsi kitabxanaları saxlanılır. Sevindirici haldır ki, kitabxana kataloqunu hazırlamağa bvaşlamışdır. Artıq B.N.Zoxoderin, M.Ə.Useyinovun, L.D.Mustafayevin, Y.E.Bertelsin şəxsi kitabxanalarının kataloqu oxucuların istifadəsinə verilmişdir.

Kitabxana 1994-cü ildən başlayaraq Rusiya Federasiyası və MDB ölkələri ilə keçmiş əlaqələri bərpa etmiş, kitab və dövri mətbuat əldə etməyə müvəffəq olmaqla kitab mübadiləsi işini genişləndirmişdir. Kitabxana xüsusilə Rusiya Federasiyasında nəşr edilən yeni elmi ədəbiyyatı əldə etmək üçün beynəlxalq əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Rusiya Elmlər Akademiyası AMEA-nın xahişi ilə 1999-cu ildə «Hayka» nəşriyyatının nəşr etdiyi jurnalların Mərkəzi Elmi Kitabxanaya göndərilməsi haqqında sərəncam kitabxananın yeni nəşr edilən jurnallarla təkmilləşməsi üçün böyük imkanlar açdı ki, bu da respublikada elmi-tədqiqatların müasir səviyyədə aparılmasında mühüm əhəmiyyət kəsb etdi.

Kitabxana müstəqillik illərində Beynəlxalq əlaqələrin qurulması sahəsində böyük tədbirlər həyata keçirməyə başladı. Keçmiş SSRİ dövründən fərqli olaraq beynəlxalq əlaqələrin yaradılması sahəsində yaranmış əlverişli şərait kitabxanaya tez bir müddət içərisində dünyanın 63 dövləti ilə əlaqə yaratmağa imkan verdi. Hazırda kitabxana dünyanın 63 dövləti ilə 610 kitabxanaları, təşkilatları, cəmiyyətləri, elmi mərkəzləri, nəşriyyatları ilə sıx əlaqə saxlayır. Bu əlaqələrin intensivliyi nəticisində təkcə 1994-2004-cü illərdə kitabxana kitab mübadiləsi yolu ilə 35859 nüsxə elmi ədəbiyyat almağa müvəffəq olmuşdur ki, bu da olduqca böyük nailiyyət idi. Kitabxananın xarici ölkə səfirlikləri ilə əlaqələr yaratmasını və əməkdaşlığının böyük rolu olmuşdur. Buəməkdaşlıq sayəsində Fransa səfirliyinin köməyilə 2002-ci ildə kitabxanada Azərbaycanda və Fransa arasında dövlətlərarası dostluq əlaqələrinin möhkəmlənməsində və elmi-mədəni əlaqələrin təşkilində böyük rolu olan «Azərbaycan – Fransa elmi-mədəni əlaqələr zalı» açılmış, bu zal üçün Fransadan 1000 avro dəyərində qiymətli ədəbiyyat gətirilmişdir.Həçinin Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı səfirliyi tərəfindən kitabxanaya ərəb dilində 600 nüsxə kitab, Almaniya səfirliyi vasitəsilə «Alman tədqiqat cəmiyyəti» tərəfindən Leopold Qmelinin 734 cildlik «Kimya məlumat kitabı» hədiyyə verilmişdir. Son illər kitabxananın fəaliyyətində müxtəlif müsabiqələrdə iştirak etmək, qrantlar almaqda xüsusi əhəmiyyət kəsb etmişdir. Kitabxana qrantlar vasitəsilə əldə etdiyi vəsait hesabına kitab fondunun təkimləşməsinə, kitabxananın yeni avadanlıqla təhciz edilməsinə, kitabxana binasının təmir edilməsinə nail olmuşdur. Bu işdə Açıq Cəmiyyət İnstitutunun Soros fondu kitabxanaya yaxından kömək etmiş, 2000-ci ildə kitabxanada müasir avadanlıqla, kompüterlərlə təhciz edilmiş İnternet zalı açılmışdır.

Kitabxana müstəqillik illərində Azərbaycan elminin baş qərargahı olan

Milli Elmlər Akademiyasının informasiya bazası kimi ölkəmizdə dövlətçilçk, azərbaycançılıq ideyalarının, milli ideologiyanın təbliğində mühüm işlər görür. Kitabxana 2003-cü ildə ümumilli liderimiz, Müstəqil Azərbaycan dövlətçiliyinin memarı Heydər Əliyev elmi-nəzəri irsini təbliğ etmək üçün «Azərbaycan dövlətçiliyi və Heydər Əliyev kitabxanısını» təşkil etmişdir. Heydər Əliyevin əsərlərini və onun haqqında olan əsərləri dövlətçilik, azərbaycançılıq, milli ideologiyaya aid əsərləri özündə əks etdirən bu kitabxana oxucuların böyük marağına səbəb olmuş, geniş oxucu auditoriyası ilə əhatə edilmişdir. Müasir Azərbaycan Cəmiyyətini elmi – nəzəri əsasları geniş, elmi müddəalarla şərh edilmiş, onun gələcək inkişaf istiqaməti müəyyənləşdirilmiş Heydər Əliyevin kitabxanası üçün ayrıca bina ayrılmış, Heydər Əliyevin əsərləri ilə yanaşı, dövlətçiliyə, azərbaycançılığa, azərbaycanşünaslığa, milli ideologiyaya dair çox qiymətli və zəngin ədəbiyyat yaratmağa müvəffəq olmuşdur. Hazırda kitabxananın fondunda 1000-dən artıq toplanmış, onun elektron kataloqu yaradılıb oxucuların istifadəsinə verilmişdir.

Kitabxananın əməkdaşları oxucuların daimi sorğusunu nəzərə alaraq Azərbaycan dövlətçiliyinə dair mövzu biblioqrafiq göstəriciləri tərtib edir, geniş kütləvi işlər aparırlar. Burada görkəmli alimlərin, mütəxəssislərin bilavasitə iştirakı və köməyilə elmi-kütləvi tədbirlər respublika elmi ictimaiyyətinin diqqətini cəlb edir. Kitabxanada tərtib edilən mövzu kitab sərgiləri isə bütün oxucuların marağına səbəb olur. Kitabxanada hər il müxtəlif mövzularda orta hesabla 130-150 sərgi təşkil edilir. Ancaq 2003-2005-ci illərdə kitabxananın sərgi zalında «Azərbaycan Cümhuriyyəti 85», «Azərbaycan neft strategiyası», «Xəzər dənizinin problemləri», «Avtomatlaşdırma texnologiyaları və kitabxanalar», «Azərbaycan alimlərinin respublikanın iqtisadi inkişafında rolu», «Heydər Əliyev 80», «M.Ə.Sabir 140», «Nəsrəddin Tusi 800» və s. sərgilər təşkil edilmişdir.

Son zamanlar sərgilərin təşkilində müasirlik, sistemlik, elmilik, əyanilik və kütləvilik daha çox hiss edildiyindən onun praktik əhəmiyyəti artmış, rəyçilərin və istifadəçilərin sayı çoxalmışdır.

Müstəqillik illərində kitabxana öz işini iniformasiya cəmiyyətinin qarşıda qoydığu vəzifələrə müvafiq qurmaq, oxuculara kitabxana-informasiya xidmətini beynəlxalq standartlar səviyyəsində təşkil etmək üçün mühüm struktur və təşkilatı islahatlar həyata keçirmişdir. Bu islahatların həyata keçirilməsinə, kitabxananın maddi-texniki bazasının yaradılmasına, kadr potensialının daha da möhkəmlənməsinə və təkmilləşməsinə AMEA-nın kitabxana işinə daimi qayğısı və 1998-ci ildə kitabxana işinin yaxşılaşdırılması haqqında qəbul etdiyi qərarın böyük rolu olmuşdur. İslahatlar nəticisində, demək olar ki, kitabxananın ayrı-ayrı şöbələrinin işi yenidən qurulmuş, onların nizamnamələri təsdiq edilmiş, şöbələr arasında əlaqələrin genişlənməsinə diqqət yetirilmiş, yeni şöbələr yaranmış, kitabxananın kadr tərkibinin yaxşıldaşdırılmasına, yüksək ixtisaslı, elmi dərəcələri olan kadrlarla təmin edilməsinə kadr korpusunun cavanlaşdırılmasına xüsusi diqqət yetirilmişdir. Kitabxana rəhbərliyinin seçki yolu ilə seçilib yerləşdirilməsi kitabxana işinin demokratikləşməsinə olduqca müsbət təsir göstərmişdir. Kitabxana ictimayyətinin mütləq səs çoxluğu

ilə seçilmiş respublikanın istedadlı kitabxana işi təşkilatçılarından biri filologiya elimləri namizədi Aybəniz Əliyeva-Kəngərli tez bir zaman kəsiyində kitabxana işində böyük dönüş yaratmağa müvəffəq olmuş, kitabxana kollektivinin və respublika kitabxana ictimayyətinin böyük hörmətini qazanmışdır.

2003-cü ildə ulu öndər Heydər Əliyevin fərmanı ilə Mərkəzi Elmi Kitabxanaya elmi müəssisə statusunun verilməsi kitabxanada aparılan islahatlara daha böyük təkan verməklə onun kitabxanaşünaslıq, biblioqrafiya və informasiya sahəsində apardığı elmi-tədqiqatların daha intensiv xarakter almasına, aktual elmi problemlərin həllində yaxından iştirak etməsinə və elmi dərəcələri olan yüksək ixtisaslı mütəxəssisləri kitabxana işinə cəlb etmək imkanı yaratmışdır. Kitabxana, kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və informasiya sahəsində elmi-tədqiqat işlərinin mərkəzlərindən biri və metodik mərkəz kimi fəaliyyət dairəsini əsaslı surətdə yaxşılaşdırmağa müvəffəq olmuşdur.

Son dövrlərdə kitabxananın oxucularına xidmət işinin təşkili, onun səmərəliliyi, nadir nəşrlərin mühafizəsi və konservasiyası, kitabxana işinin avtomatlaşdırılması sahəsində apardığı elmi işlər uğurlu nəticələr vermişdir. Kitabxana kollektivinin elmi-tədqiqat işinin nəticələrini işıqlandırmaq üçün dövri elmi nəşrlər buraxmağa nail olmuşdur. Bu elmi əsərlər də Azərbaycan kitabxanaşünaslığının son nailiyyətlərinin işıq üzü görməsi respublika kitabxanaşünaslıq ictimaiyyətinin böyük rəğbətinə səbəb olmuşdur. Kitabxananın elmi araşdırmalarının nəticələri son dövrdə nəşr edilən elmi əsərlərin 4 nömrəsində öz əksini tapmışdır. Bu əsərlərdən başqa kitabxana 2000-2004-cü illərdə «Orucov qardaşları mətbəəsi», «Qafqaz ərazilərinin və xalqlarının təsvirinə dair materiallar toplusu», «ABŞ Konqres Kitabxanası», «Füzuli şəhri», «AMEA kitabxana sisteminin fəaliyyətini təmzimləyən sənədlər toplusu» (1-2 buraxılış), «Vebibliqrafiya» kimi elmi, nəzəri və metodiki əsərlər çap etdirmişdir. Hazırda kitabxana statusuna müvafiq elmi-tədqiqat və nəşriyyat fəaliyyətini genişləndirmək üçün böyük perspektiv əhəmiyyət kəsb edən proqram hazırlamışdır. Bu proqramda respublikamızda kitabxanaşünaslıq, biblioqrafiyaşunaslıq və informasiya sahəsində əsaslı elmi-tədqiqat işlərinin aparılması və yüksək ixtisalı kadr hazırlamaq üçün kitabxananın yanında aspirantura şöbəsinin açılması nəzərdə tutulmuşdur.

AMEA Mərkəzi Elmi Kitabxanası öz statusuna görə həmçinin Akademiyanın kitabxana sisteminin metodik mərkəzidir. Kitabxananın metodik funksiyasının təşkilində onun bütün yaradıcı kollektivi və aparıcı şöbənin təcrübəli əməkdaşları iştirak edir. Kitabxana bir qayda olaraq elmi-tədqiqat institutların kitabxanalarının komplektləşdirilməsində, yeni kitablar alınmasında, oxuculara xidmət işinin yeni forma və metodlarının formalaşdırılmasında, şəbəkə kitabxanalarının fəaliyyətini tənzimləyən təlimatlar, əsasnamələr, müxtəlif normativ sənədlərin hazırlanmasında yaxından iştirak edir. Kitabxana, həmçinin kitabxanaçı kadrların peşə səviyyəsini yüksəltmək və qabaqcıl iş təcrübəsini yaymaq uçun kurslar, seminarlar, praktikumlar, praktiki konfranslar keçirir. Mərkəzi kitabxananın ayrı-ayrı aparıcı şöbələrində fəaliyyət göstərən metodistlər vaxtaşırı olaraq şəbəkə kitabxanalarının işi ilə tanış olur,

mənfi və müsbət cəhətləri aşkara çıxarır, işin yaxşılaşdırılması üçün tədbirlər görülməsində bilavasitə iştirak edir.

Son zamanlar MEK şəbəkə kitabxanaları müasir dövrün ən mühüm problemi olan kitabxana işinin kompüterləşdirilməsində, onların İnternetə qoşulmasında, müasir informasiya texnologiyası ilə təmin edilməsində, kitabxanaçı-informator kadrların hazırlanmasında yaxından kömək edir. Müstəqillik illərində MEK-nı metodiki təminat sistemi daha da təkmilləşdirilmiş, yeni iş forma və metodlarının aşkara çıxarılıb ümumiləşdirilməsi, oxuculara kitabxana-informasiya xidmətinin daha da təkmilləşdirilməsi üçün mühüm tədbirlər həyata keçirilmişdir.

Müstəqillik şəraitində dövlətimiz, xalqımız, alimlərimiz, ziyalılarımız və bütün qəbildən olan mütəxəssislərimizin qarşısında duran ən mühüm vəzifə müasir Azərbaycan cəmiyyətinin informasiyalaşdırılmasıdır. Məhz buna görədir ki, AMEA və onun MEK-i mühüm dövlət əhəmiyyətli məsələnin həllini ön plana çəkmiş və mühüm tədbirlər həyata keçirməyə başlamışdır. Bu tədbirlər içərisində MEK-nı informasiya fəaliyyəti kitabxana işi təcrübəsində yeni mərhələnin başlanğıcı kimi xüsusi əhəmiyyət kəsb edir. Bu mühüm işdə 2003-cü ildə MEK-da yaradılmış «Kitabxana proseslərinin avtomatlaşdırılması» şöbəsinin mühüm əhəmiyyəti olmuşdur. Kitabxana işinin bütün fəaliyyət sahələrinin bütövlükdə avtomatlaşdırılması və kompüterləşdirilməsini qarşısında məqsəd qoyan bu şöbə tez bir zaman kəsiyində ölkəmizdə və xarici ölkələrdə kitabxana işinin kompüterləşməsində baş verən prosesləri öyrənməklə, dünya təcrübəsindən istifadə əsasında öz işini yerli şəraitə uyğun qurmağa müvəffəq olmuşdur. Kitabxananın rəhbərliyinin ciddi səyi nəticəsində bu şöbə tez bir müddət içərisində kitabxana informasiya texnologiyası ilə kompüterlər və digər texniki vasitələr və avadanlıqla təmin edilmiş kompüter texnologiyasından, elektron kitabxana-informasiya proqramlarından başı çıxan mütəxəssislərlə komplektləşdirilmişdir. Şöbə 2002-ci ildə kitabxana-informasiya proseslərinin avtomatlaşdırılmasının əsas istiqamətlərinin təxmini planını hazırlamışdır. Bu planda kitabxana-inforomasiya işi sahəsində görüləcək işlər ardıcıl olaraq öz əksini tapmış, avtomatlaşdırılmış kitabxana-informasiya sistemi proqramlarının mərhələlər üzrə həyata keçirilməsi müəyyənləşdirilmişdir. Şöbə ilk gündən öz işini düşünülmüş və təcrübədə sınanmış elmi əsaslar üzərində qurduğundan onun işində tezliklə ilk müvəffəqiyyətlər görünməyə başladı. Bu plan əsasında kitabxana fondunun komplektləşdirilməsinə Azərbaycan dilində ədəbiyyatın elektron kataloqunun yaradılmasına, oxucuların qeydiyyatına, biblioqrafik-informaisya xidmətinə, beynəlxalq kitab mübadiləsinə, elektron kitabxananın yaradılmasına başlanmışdır. 2002-ci ildə MEK-nın Web saytı yaradılmış, burada kitabxananın tarixi, strukturu, fondları, zalları, şəbəkə kitabxanaları və MEK-ya daxil edilən yeni ədəbiyyat haqqında məlumat yerləşdirilmiş, həmçinin yeni xidmət növü kimi saytın «elektron xidmət» rubrikası təqdim edilmişdir. MEK az bir müddətdə oxucuları maraqlandıran mövzulara («Heydər Əliyev şəxsiyyəti Rusiya mətbuatında», «İlham Əliyev», «Bakı-Tbilisi-Ceyhan», «Terrorizm», «Rusiyanın müasir ədə-

bi jurnallarının elektron kitabxanası», «Gender problemi» və s.) dair elektron məlumat bazaları yaratması alimlərin və mütəxəssislərin böyük marağına səbəb olmuşdur. Kitabxana Azərbaycan Kitabxana-İnformasiya Konsorsiumuna daxil olmuş EBSCO elektron məlumat bazasından 40000 xarici tammətnli elmi jurnaldan İnternet vasitəsilə istifadə etməyə başlamışdır. Kitabxana işinin kompüterləşdirilməsi sahəsində son vaxtlar daha da irəliyə getmiş, kitabxana işini kompleks komplektləşdirmək üçün 2005-ci ildə Rusiyanın «İRBİS-64» (avtomatlaşdırılmış kitabxana informasiya sistemi) proqramını tətbiq etməyə başlamışdır. Müstəqillik illərində kitabxana AMEA-nın əsas informasiya ehtiyatları bazası kimi oxuculara xidmət işini ön plana çəkmiş və demək olar ki, bu sahədə çox əhəmiyyətli uğurlar əldə etməyə müvəffəq olmuşdur. Doğrudur, 90-cı illərin əvvəllərində AMEA maliyyə çətinliyi ilə üzləşdiyindən elmi işçilərin bir hissəsini itirmiş, elmi-tədqiqat işlərinin aparılmasında böyük çətinliklərlə üzləşmişdi. Bu vəziyyət kitabxana işinə də öz mənfi təsirini göstərmişdi. Kitabxana yeni ədəbiyyatla, dövri mətbuatla lazımi səviyyədə komplektləşmədiyindən və AMEA-ya olan qeyri-normal münasibətdən oxucularının bir hissəsini itirmişdi. Lakin bu vəziyyət uzun sürmədi. 1994-cü ildən başlayaraq respublikamızın ümumi inkişafı fonunda kitabxana işində də canlanma baş verdi. Oxuculara xidmət işi qaydaya düşdü və oxucuların sayı ilbəil artmağa başladı.

MEK-da onun filiallarında oxuculara xidmət

	İllər			
	1990	1995	2000	2004
Oxucuların miqdarı	39931	39475		42375
O cümlədən: a) MEK	26915	27942		30570
a) filiallar	13016	6485		11805
Kitab verilişi	3147694	3249135		2370806
O cümlədən: a) MEK	1832894	2118235		1247333
a) filiallar	1314800	1130900		1132563

Göründüyü kimi, kitabxana müstəqillik dövrünün, xüsusilə onun ilk illərinin hər cür çətinliyinə baxmayaraq öz işini müvəffəqiyyətlə davam etdirmiş, oxuculara xidmət işinin zəifləsinə, oxucuların sayının və kitab verilişinin azalmasına imkan verməmişdir. Son illərdə kitabxananın maliyə durumunun yaxşılaşması, maddi-texniki bazasının möhkəmlənməsi, kitabxana-informasiya texnologiyası və texniki avadanlıqla təmin edilməsi, kitabxanada aparılan uğurlu islahatlar bilavəstə oxuculara kitabxana-informasiya xidmətinin keyfiyyətcə yaxşılaşdırılmasına səbəb olmuşdur. Kitabxana sözün əsl mənasında respublikamızda elmin informasiya bazası kimi formalaşmışdır. Kitabxananın elmi müəsisə statusu alması gələcək inkişafı üçün böyük prespektivlər açmış, MEK kitabxanaşünaslığın, biblioqrafiyaşünaslığın, kitabşünaslığın, və informasiyanın elmi-tədqiqat və metodik mərkəzinə çevrilmişdir.

EA MEK-nın Elmi əsərləri.
(VI buraxılış) 2005. s. 3-11

ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ, GÖRKƏMLİ ŞAİR-DRAMATURQ HİDAYƏTƏ

Hörmətli Hidayət müəllim!

Bu günlərdə 60 yaşınızın tamam olması xəbərini eşidənədə məni acılı-şirinli duyğular öz qoynuna aldı.Nədənsə öncə sizin keşməkeşli ömür yolunuzu, cavanlıq illərində əvvəlcə Qərbi Azərbaycanın qədim Zəngəzur mahalında, sonralar İrəvanda qaynar fəaliyyət göstərmənizi, hələ sovet hakimiyyəti illərində mənfur erməni millətçiləri ilə döş-döşə gələrək yad bir ədəbi-mədəni mühitə milli əhval-ruhiyyə gətirmək uğrunda mübarizənizi xatırladım.

Siz məhz bu dövrdə -XX əsrin 60-cı illərində ali təhsilli gənc mütəxəssis kimi yüksək enerji ilə əmək fəaliyyətinə başlamış, bir müddət doğma Zəngəzurun Maralzəmi kəndində məktəb müdiri işləmiş, sonra İrəvana dəvət olunaraq o vaxtlar böyük nüfuza malik olan "Sovet Ermənistanı" qəzeti redaksiyasında ədəbi işçi vəzifəsinə təyin edilmisiniz. Daha sonra düz 16 il C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrına rəhbərlik etmiş və bu dövr ərzində teatrın səhnəsində göstərilmiş rəngarək tamaşalarla doğma xalqın mənəvi –estetik inkişafına kömək göstərmiş, bu teatrı əsl mədəniyyət və incəsənət ocağına çevirmişdiniz.

1970-ci illərdə İrəvanda, Bakıda və Moskvada bir-birinin ardınca nəşr etdirdiyiniz "Məni səsləyəndə","Məhəbbət qocalmır","Ucan nəğmələr", Bir az gözləyin məni", "Dənizi harayladım", "İrəvanda xal qalmadı" və başqa şeir kitablarınız sizə gənc şair şöhrəti bəxş etmişdir.

Təsadüfi deyil ki, məhz bu kitablarda toplanmış şeirlərinizlə çoxsaylı oxucuların qəlbində özünəməxsuz yer tutmusunuz. Poeziya həvəskarları çox yaxşı bilir ki, Siz Lirik-romantik duyğulu, həyatı real cizgilərlə əks etdirən sənətkarlardansınız.

Sizin ədəbi-publisistik yaradıcılığımızın əsas xüsusiyyətləri doğma yurda məhəbbət, müqəddəs vətənə əbədi övlad sədaqəti hisslərı ilə sıx bağlıdır. Şeirləriniz onları mütaliə edən insanların kamil şəxsiyyət kimi yetkinləşməsi prosesinə çox böyük təsir göstərir.

Siz öz mənalı və məzmunlu poetik, publisistik və dramatik əsərlərinizlə müasir oxucuları əsl vətəndaş kimi tərbiyə etməyə çalışan və bu yolda uğurlu sənət nümunələri yaradan ziyalıları-mızdan birisiniz .

XX əsrin 80-ci illərinin axırlarında yüz minlərlə azərbaycanlının Qərbi Azərbaycandakı dədə-baba torpağından silah gücünə çıxarılması Sizin yaradıcılığınızın yeni motivlərlə zənginləşməsinə gətirib çıxarmışdır. Bu dövrdə qələmə aldığınız ədəbi-publisistik əsərlərin ideyasını həqiqi vətənpərvərlik hiss və duyğuları təşkil edir.

Aktual mövzularda yazdığınız "Doxsanıncı il", "Sözün vaxtı", "Sabaha çox var" və başqa ədəbi-bədii, publisistik əsərləriniz yaxın keçmişinizdə baş verən ağrıl-acılı ictimai-siyasi hadisələri real əks etdirməklə yanaşı, eyni zamanda ölkəmizin gələcəyinə ümid və inamla baxmağa, düşmənə qarşı birgə

mübarizə aparmağa, bir xalq, bir millət kimi özümüzü tarix meydanında təsdiqləməyə səsləyir.

Hörmətli Hidayət müəllim!

Artıq 10 ildən çoxdur ki, Siz Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə Dövlət müşaviri kimi fəaliyyət göstərir, ulu öndərimiz ümummilli liderimiz Heydər Əliyevin ölməz ideyalarının–millətlər və dövlətlər arasında dostluq və əməkdaşlıq münasibətləri yaratmaq və inkişaf etdirmək sahəsindəki siyasətinin məqsədyönlü şəkildə həyata keçirilməsi, uzun mübarizələr nəticəsində qazandığımız müstəqilliyimizin, dövlətçiliyimizin möhkəmləndirilməsi naminə çox böyük işlər görürsünüz. Bu yolda sizə müvəffəqiyyətlər arzulayırıq.

Hörmətli Hidayət müəllim!

60 illik yubileyiniz ərəfəsində Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyev Sizi "Şöhrət"ordeni ilə təltif etməsi ziyalılarımızı hədsiz sevindirdi. Sizin zəngin ədəbi və ictimai fəaliyyətinizin yüksək qiymətləndirilməsi müstəqil dövlətimizin ziyalılara qayğısının bariz nümunəsidir.

Hörmətli Hidayət müəllim!

Bir daha ad gününüz və "Şöhrət"ordeni almağınız münasibətilə Sizi ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayıram!

"Zəngəzurda doğuldum". Bakı, 2005. s. 321-323

ÖLKƏMİZDƏ İLK FUNDAMENTAL ELEKTRON KİTABXANA

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin bütün dövlət strukturları qarşısında informasiya texnologiyalarından səmərəli istifadə etmək, təhsil və mədəniyyət müəssisələrini yaxın gələcəkdə tamamilə kompüterləşdirilməklə bağlı göstərişinə uyğun olaraq respublikamızın kitabxanalarında oxuculara xidmətinin yeni forma və üsullarının axtarışı, müasir informasiya texnologiyalarının tətbiqi sahəsində böyük işlər görülür. Bu istiqamətdə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Kitabxanasında aparılan işlər daha diqqətə layiqdir. İctimaiyyət arasında Prezident Kitabxanası kimi tanınan bu mədəniyyət ocağında ölkəmizdə ilk dəfə fundamental elektron kitabxana yaradılmış, avtomatlaşdırılmış kitabxana proqramı və oxuculara məsafədən xidmət texnologiyası tətbiq edilmişdir.

Müstəqillik illərində bütün sahələrdə olduğu kimi, Azərbaycan Respublikasının mədəni həyatında da bir çox mühüm hadisələr baş vermişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Kitabxanası (Prezident Kitabxanası) və Azərbaycan Respublikası Milli Məclisinin Kitabxanası (Parlament Kitabxanası) yaradıldı.

Hər iki kitabxana Azərbaycanın dövlət müstəqilliyinin hədiyyəsidir. Müstəqil dövlətlərin atributları sırasında Prezident kitabxanaları və parlament kitabxanaları mühüm yer tutur. Belə kitabxanalar öz statusu etibarilə dövlət kitabxanaları hesab olunurlar. Kitabxana işinə olduqca böyük qiymət verən, onu cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik və zəka mənbəyi adlandıran ümummilli lider Heydər Əliyev bu sahənin dövlət, ümumxalq qayğısı ilə əhatə edilməsini lazım bilirdi: "Kitabxanaya daimi hörmət xalqımızın mənəviyyatını nümayiş etdirən amillərdən biridir". Ulu öndər dövlət aparatında çalışan işçilərə yüksək kitabxana-informasiya xidməti göstərmək, qanunları, fərmanları, sərəncamları, qərarları və digər zəruri sənədləri toplayaraq qoruyub saxlamaq və onlardan istifadə edilməsi üçün Prezident Kitabxanasının yaradılmasını zəruri saymışdı. Prezident Kitabxanası öz fondunun zənginliyi və oxuculara xidmətinin yeni forma və üsulları, müasir kitabxana-informasiya texnologiyası ilə təmin edilməsi baxımından hazırda respublikamızda çox mühüm mədəni, elmi və informasiya əhəmiyyəti kəsb edən bir mərkəzə çevrilmişdir. Prezident Kitabxanasına onun yaradılmasının təşəbbüskarı və müasir kitabxana-informasiya mərkəzi kimi formalaşmasına xüsusi diqqət göstərən, bütün həyatı boyu Azərbaycan mədəniyyətinin və incəsənətinin çiçəklənməsi üçün var qüvvəsini əsirgəməyən Heydər Əliyevin adının verilməsi ümummilli liderimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində atılan növbəti addım olar və ictimaiyyət tərəfindən rəğbətlə qarşılanardı.

Kitabxana 2003-cü ildə Bakı şəhərinin iki zəngin kitabxanasının – Mərkəzi Şəhər Kitabxanasının və Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin nəzdində olan kitabxananın (keçmiş Siyasi Maarif Evinin Kitabxanası) bazasında təşkil edildi. Prezident Kitabxanasını Mərkəzi Şəhər Kitabxanasının binasında təşkil etmək qərara alındı. Bu, çox düzgün seçim oldu. Çünki tez bir müddətdə fəaliyyətə başlamalı olan kitabxananı "quru yerdə" yaratmaq mümkün olmazdı. Mərkəzi Şəhər Kitabxanası şəhərimizin qocaman və zəngin kitabxanası olduğundan onun nadir kitab fondu qorunub saxlanıldı və oxucuların istifadəsinə verildi. Kitabxanada zəngin bədii ədəbiyyat fondu ilə yanaşı, xarici ədəbiyyat və nadir kitablar fondu, xüsusilə Bakı kitabxanalarının heç birində olmayan incəsənət ədəbiyyatı fondu da var idi. Lakin şəhərin mərkəzində yerləşən bu tarixi bina baxımsızlıq üzündən qəza vəziyyətində idi.

Hazırda kitabxananın binası müasir Şərq memarlığı üslubunda və tikinti texnologiyasının son nailiyyətləri əsasında yüksək zövqlə təmir edilmiş, dünya standartlarına cavab verən kitabxana binası halına gətirilmişdir. Kitabxana ancaq Prezident Aparatının işçiləri üçün deyil, bütün oxucuların üzünə açıldı ki, bu da respublikamızda müstəqillik dövründə kitabxana işinin demokratik əsaslar üzərində qurulmasına bariz sübutdur.

Burada incəsənət ədəbiyyatı, böyük oxu, xüsusi, elektron resurslar, neft və elmi-kütləvi ədəbiyyat, nadir kitablar salonları və müxtəlif mədəni-kütləvi tədbirlər, mühazirələr, elmi seminarlar, dəyirmi masalar, görüşlər, mətbuat konfransları, sərgilər, disputlar, təqdimatlar keçirmək üçün 100 nəfərlik

konfrans salonu yaradılmışdır. İki kitabxananın kitab fondunun birləşdirilməsi nəticəsində kitabxananın zəngin və nadir fondu var. Kitabxana öz fondunu yeni kitablarla da ardıcıl komplektləşdirir. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən imzalanmış "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa görə, kitabxanalara Azərbaycanda nəşr edilən bütün kitablardan öz profilinə uyğun pulsuz məcburi nüsxə almaq hüququnun verilməsi də kitabxananın yerli nəşrlərlə davamlı komplektləşdirilməsinə imkan verir. Kitabxana həmçinin öz fondunu komplektləşdirmək üçün xarici nəşrlərin əldə edilməsinə xüsusi diqqət yetirir, bu da xarici ədəbiyyat fondunun zənginləşməsi üçün əlverişli şərait yaradır. Komplektləşdirmə zamanı üstünlük siyasətə, hüquqa, tarixə, iqtisadiyyata, qanunvericiliyə, Azərbaycanşünaslığa dair ədəbiyyata verilir. Nadir kitablar fondunda dünyanın müxtəlif xalqlarının dillərində olan xeyli kitab toplanmışdır.

Kitabxana oxucuların arzu və sorğularını nəzərə alaraq geniş dövri mətbuat fondu yaratmağa nail olmuşdur. Azərbaycanda nəşr edilən dövri mətbuatla yanaşı, xarici dövri mətbuatın da alınması fondun əhəmiyyətini artırmışdır. Hazırda bu fondda 200 addan artıq qəzet və jurnal komplekti toplanır. Kitabxana qarşısında Azərbaycan Respublikası Prezidenti İcra Aparatının və digər mərkəzi icra orqanlarının, həmçinin iqtisadiyyatın, mədəniyyətin müxtəlif sahələrində çalışan görkəmli alimlər, mütəxəssislər, yaradıcı ziyalılar üçün kitabxana-biblioqrafiya və informasiya bazası yaratmaq, müasir kitabxana-informasiya texnologiyasını tətbiq etməklə kitabxana işini kompüterləşdirmək kimi çox mühüm bir vəzifə qoyulmuşdur. Kitabxana həmçinin Azərbaycan dövlətçiliyinin, milli ideologiyanın, azərbaycançılığın təbliğat mərkəzi kimi ümummilli lider Heydər Əliyev irsinin toplanıb saxlanmasında və təbliğində mühüm rol oynayır. Bunun üçün müxtəlif şöbələr yaradılarkən kitabxananın qarşısında duran bütün vəzifələr nəzərə alınmış , hər bir şöbə öz profilinə uyğun kadrla komplektləşdirilmişdir.

Kitabxananın rəhbərliyi bu işə xüsusi əhəmiyyət vermiş, kadr seçərkən tələsməmiş, kitabxana və informatika sahələri üzrə təcrübəli mütəxəssisləri seçib yerləşdirməyə müvəffəq olmuşdur. Həmçinin kitabxananın işinə politoloqlar və sosioloqlar cəlb edilmişdir ki, bütün bunlar qarşıda duran çox mürəkkəb problemlərin uğurla həyata keçirilməsinə imkan yaradır.

Kitabxanaya Bakı Dövlət Universiteti kitabxanaçılıq-informasiya fakültəsinin yetirməsi, təcrübəli kitabxana təşkilatçısı kimi tanınan Mayıl Əhmədov başçılıq edir. Gənc kollektiv qısa bir müddət içərisində kitabxananı müasir tələbata, dünya standartlarına uygun formalaşdırmaga, oxuculara xidmət işini günün tələbləri səviyyəsində təşkil etməyə müvəffəq olmuşdur.

Bəşəriyyətin informasiya əsri kimi qəbul etdiyi XXI əsr kitabxanaların qarşısında olduqca mühüm, keyfiyyətcə yeni vəzifələr qoymuşdur. Müasir kitabxanalar ənənəvi kitabxanaçılıq təcrübəsi ilə kifayətlənməməli, oxuculara xidmət işini informasiya cəmiyyətinin tələbləri səviyyəsinə yüksəltmək üçün dünya informasiya məkanına daxil olmagı, ümumbəşəri intellektual potensialdan operativ istifadə etməyi bacarmalıdır. Bu məqsədlə kitabxanalarda müasir informasiya texnologiyası tətbiq edilməli, informasiya mühiti üçün şərait yaradılmalıdır. Bu da hər şeydən əvvəl kitabxana işinə müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqini tələb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2003-cü ilin dekabrında Cenevrədə informasiya cəmiyyəti problemlərinə həsr edilmiş ümumdünya sammitindəki çıxışında ölkəmizdə informasiya texnologiyalarının inkişafını dövlətimizin prioritet vəzifələrindən biri elan etmişdir. Məhz buna görədir ki, dövlət kitabxanası kimi fəaliyyətə başlayan Prezident Kitabxanası öz işini müasir dünya standartlarına cavab verə biləcək səviyyədə qurmaq üçün avtomatlaşdırılmanı ön plana çəkmiş, avtomatlaşdırılmış sistem tətbiq etmişdir. Kitabxana bu məqsədlə geniş araşdırmalar aparmış, dünya kitabxanalarında tətbiq edilmiş sistemləri öyrənmiş, respublikamızın şəraitinə, xüsusilə kitabxananın öz şəraitinə və profilinə uygun olan sistem seçmişdir.

Kitabxana öz daxili imkanlarını, avtomatlaşdırılmış sistem tətbiqinin səmərəliliyini nəzərə alaraq 2004-cü ilin may ayında MDB məkanında geniş yayılmış IRBIS-64 sistemini tətbiq etmişdir. Rusiya Dövlət Ümumi Elmi-Texniki Kitabxanasında yaradılmış bu sistem hazırda Rusiyanın və bir sıra xarici ölkələrin 1000-dən çox kitabxanasında müvəffəqiyyətlə tətbiq edilməkdədir. Kitabxanalarda tətbiqi və istifadə baxımından olduqca sadə olan bu sistem bütün beynəlxalq standartlara cavab verir. Sistem həmçinin beynəlxalq biblioqrafik standartlara və formatlara uygunlaşdırılmışdır. Bu sistemin qəbul edilməsi kitabxananın kompleks kompüterləşdirilməsinə və kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasına şərait yaratmışdır. Prezident Kitabxanası respublikamızda IRBIS sistemini ilk dəfə tətbiq edən kitabxana oldugundan, hazırda bu sahədə böyük təcrübə toplamışdır. Prezident Kitabxanasının mütəxəssisləri bu sistemi sonradan tətbiq edən Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının, eləcə də Mədəniyyət Nazirliyi sisteminə daxil olan şəhər və rayon mərkəzi kitabxanalarının əməkdaşlarına proqram tətbiqi işində hərtərəfli yardım edirlər. Hazırda mədəniyyət və təhsil nazirlikləri də öz kitabxana şəbəkələrində IRBIS sisteminin müxtəlif variantlarını tətbiq etməyə başlamışlar. Respublikamızda bu sistemin geniş surətdə tətbiqi ölkəmizdə kitabxana işinin əlaqələndirilməsi üçün geniş perspektivlər açа bilər.

Hazırda bu sistem vasitəsi ilə kitabxananın aldıgı yeni ədəbiyyat elektron kataloqa daxil edilir, dövri mətbuat materiallarının biblioqrafik təsvirinin elektron kartotekası yaradılır, bütün kitabxana prosesləri avtomatlaşdırılır. Elektron kataloqdan, biblioqrafik nəşrlərin elektron kartotekasından və məlumat bülletenlərindən kitabxananın, "Web" səhifəsi vasitəsi ilə də istifadə etmək olar. Xüsusi oxucu qruplarına elektron poçt vasitəsilə də kitabxana-informasiya xidməti göstərilir. Prezident Kitabxanası bu proqram vasitəsilə respublikada ilk dəfə oxucuya məsafədən xidmət etməyə başlamışdır.

Kitabxanada "Elektron resurslar oxu salonu" yaradılmışdır. 15 oxucu yeri və İnternetə daimi çıxışı olan bu salonun xidmətindən oxucular hərtərəfli

faydalana bilərlər. Qısa müddətdə əməkdaşlarımızın hazırladığı 11 adda tammətnli elektron nəşr (resurs), 7 adda elektron-biblioqrafik nəşr, 4 prioritet mövzu üzrə elektron-məlumat bülletenləri, müxtəlif mövzularda elektron kitablar bu salonda oxucuların istifadəsinə verilmişdir.

İstifadəçilərin böyük maraqına səbəb olan və müxtəlif yönlü axtarışa xidmət edən tammətnli elektron nəşrlər (resurslar) barədə oxuculara daha ətraflı məlumat vermək istəyirəm. İlk dəfə olaraq Ümummilli lider Heydər Əliyevin 1993-2003-cü illəri əhatə edən bütün nitqlərinin, məruzələrinin, çıxışlarının, müsahibələrinin mətnlərinin elektron variantı hazırlanmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2003-cü ilin oktyabr ayından etibarən bütün nitqlərinin, məruzələrinin, çıxışlarının və müsahibələrinin də tammətnli elektron nəşri hazırlanmışdır. "Sabitlik və dinamik inkişaf ili" adlanan tammətnli elektron nəşrdə Prezident İlham Əliyevin birillik fəaliyyətinin xronikası (oktyabr 2003 – oktyabr 2004) öz əksini tapmışdır. "Əsrin müqaviləsi – 10 il", "İlham Əliyev və Azərbaycanın neft diplomatiyası" adlanan tammətnli nəşrlər də ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən Azərbaycanın neft strategiyasına, indiyədək imzalanmış neft müqavilələrinə, Azərbaycan neftinin dünya bazarlarına nəqli ilə bağlı keçirilən rəsmi görüşlərə, təntənəli mərasimlərə, Dövlət Neft Fonduna dair materiallar toplanmışdır. "Xoş məramlı səfir" adlanan tammətnli nəşrdə isə Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun Prezidenti, YUNESKO-nun xoş məramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyətinə dair materiallar verilmişdir. Xalqımızın başına gətirilən faciələrin xronikası "Əsrin faciəsi – Xocalı soyqırımı" və "Dağlıq Qarabağ münaqişəsi" tammətnli nəşrlərdə tam dolgunluğu ilə əhatə olunmuşdur. "Azərbaycan diasporu" adlanan digər tammətnli nəşrdə diasporumuzun yaranma tarixçəsinə, Dünya azərbaycanlılarının forumlarına, Həmrəylik Gününə, diaspor təşkilatlarına dair rəsmi materiallar və məqalələr öz əksini tapmışdır. Yerli özünüidarə orqanı olan bələdiyyələrə dair materiallar "Bələdiyyə hakimiyyəti" adlanan tammətnli elektron nəşrdə cəmləşmişdir.

Kitabxanada həmçinin elektron biblioqrafik informasiya göstəriciləri tərtib edilir. Belə göstəricilərdən "Azərbaycan Respublikasının Prezidenti: gündəlik fəaliyyətin xronikası" (rüblük), "Azərbaycanı dünyaya tanıdan lider", "İlham Əliyev. Azərbaycanın neft diplomatiyası", "Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları" (rüblük), "Azərbaycan Respublikasının qanunları" (rüblük), "Yeni kitablar"(rüblük) biblioqrafik nəşrləri göstərmək olar. Yuxarıda göstərilən göstəricilər və kitabxananın tərtib etdiyi digər nəşrlərlə İnternet vasitəsilə də tanış olmaq mümkündür.

Kitabxana-informasiya xidmətini daha da təkmilləşdirmək məqsədilə azərbaycanşünaslıq, yeni kitabxana-informasiya texnologiyasının tətbiqi və biblioqrafik-analitik nəşrlərlə iş üzrə qruplar yaradılmış və ən təcrübəli, xidmət prosesini yaxşı bilən mütəxəssislər cəlb edilmişdir. Bu qrupların qarşısına ənənəvi kitabxana xidməti ilə yanaşı, yeni kitabxana-informasiya texnologiyalarını və metodlarını tətbiq etmək vəzifəsi də qoyulmuşdur.

Müstəqillik əldə etdikdən sonra dövlətçilik tariximizin, azərbaycanşünaslığın öyrənilməsinə, xüsusilə onun iqtisadi, sosioloji və politoloji aspektlərinin dərindən tədqiq edilib öyrənilməsinə böyük təlabat yaranmışdır. Oxucular Azərbaycan tarixinə, iqtisadiyyatına, mədəniyyətinə, elmin müxtəlif sahələrinə dair əsərlərə və müstəqillik dövründə yeni təfəkkür tərzi, milli ideologiya baxımından yazılmış əsərlərin öyrənilməsinə böyük maraq göstərirlər. Bu baxımdan Prezident Kitabxanasında "Prezident, dövlət idarəçiliyi və ölkəşünaslığa dair ədəbiyyatın biblioqrafiyası" şöbəsinin təşkili təqdirəlayiqdir. Bu şöbədə Azərbaycanın tarixini, iqtisadiyyatını, siyasətini, mədəniyyətini yaxşı bilən yüksək ixtisaslı mütəxəssislərin toplanması azərbaycanşünaslığın mühüm bir sahə kimi öyrənilməsinə, təblig edilməsinə, oxuculara çatdırılmasına, oxucu sorğularının ödənilməsinə olduqca böyük təsir edəcək. Şöbə bu məqsədlə azərbaycanşünaslığa dair yeni nəşrləri izləyir, onun əldə edilməsini təmin etməklə yanaşı, oxuculara, xüsusilə, Prezident Aparatının işçilərinə çatdırmaq, vaxtlı-vaxtında onları məlumatlandırmaq üçün kitab icmaları, biblioqrafik göstəricilər, tövsiyə siyahıları hazırlamağı nəzərdə tutur. Şöbə, həmçinin dövri mətbuat materiallarının toplanmasını və azərbaycanşünaslığın ayrı-ayrı sahələrinə dair biblioqrafik siyahıların tərtib edilməsini, məqalələr toplusu qovluqlarının yaradılmasını təmin edir. Bu materialların və sənədlərin kitabxananın İnternet saytına daxil edilməsi onun əhəmiyyətini daha da artırır.

Kitabxanada fəaliyyət göstərən biblioqrafik-analitik işçi qrupu ənənəvi biblioqrafik fəaliyyətlə elektron biblioqrafik fəaliyyəti əlaqələndirir, ənənəvi biblioqrafik materialların elek-tron variantını hazırlayır.

Bu günlərdə yolum yenə də Prezident Kitabxanasına düşmüşdü. Hər dəfə ora gedəndə hansısa ciddi bir yeniliyin şahidi oluram. Artıq kitabxanada görülmüş işləri xarici mütəxəssislər də yüksək qiymətləndirirlər. ABŞ-dan gəlmiş kitabxana idarəetməsi və treninq üzrə nüfuzlu mütəxəssis doktor Kennet Oberembtin kitabxananın "Xatirə kitabı"na yazdığı "Prezident Kitabxanası mənim Azərbaycanda gördüyüm ən yaddaqalan kitabxanadır. O, gözəldir, yaxşı təşkil olunmuşdur və düzgün idarə olunur" sözləri məni çox sevindirdi. Mən də bu müasir mədəniyyət ocağının — respublikamızda ilk fundamental elektron kitabxananın kollektivini qazandığı uğurlara görə təbrik edir, ona gələcək fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayıram.

"Xalq qəzeti". 18 fevral 2006.

İNFORMASİYA XİDMƏTİ

XXI yüzillik kitabxanaların qarşısında çox böyük həyati əhəmiyyət kəsb edən yeni bir vəzifə-informasiya xidmətinin təşkili vəzifəsini qoymuşdur. Cəmiyyətin iqtisadi, sosial-siyasi və mədəni həyatına çox ciddi təsir göstərən informasiya xidməti-ənənəvi kitabxana xidmətindən, oxucu tələbatının daha dolğun və operativ ödənilməsi baxımından fərqlənən yeni xidmət növüdür.

İnformasiya xidmətinin məqsəd və vəzifələrini dərk etmək, məzmununu açmaq üçün onun yaranmasına və formalaşmasına təsir göstərən informasiya cəmiyyətinin mahiyyətini açmaq, strukturunu dərindən təhlil edib öyrənmək zərurəti qaçılmazdır. Müasir elmi ədəbiyyatda informasiya cəmiyyəti iki formada «informasiyalaşdırılmış cəmiyyət» və «informasiya cəmiyyəti» formasında işlənilir.[1]

İnformasiya latınca «informatio», yəni «izah etmə, şərh etmə» mənasında meydana gəlib işlənsə də, öz ilkin mənasını çoxdan dəyişmiş müasir dünyada cəmiyyət həyatına tətbiq edilən olduqca mürəkkəb, öyrənilməsinə, sistemləşdirilməsinə böyük ehtiyac duyulan bir prosesə çevrilmişdir.

XX əsr «atom», «informasiya partlayışı», «elmi-texniki tərəqqi əsri» kimi xarakterizə edilirdi. XXI əsr isə XX əsrə məxsus olan bütün prosesləri yaradıcı surətdə davamını və inkişafını təmin edən, yeni elmi kəşflərdən və xüsusilə informasiya texnologiyasından geniş surətdə istifadə edən, inkişaf etməkdə olan cəmiyyətin informasiyalaşdırılmasını təmin edən, informasiya cəmiyyətinə bilik cəmiyyətinə doğru irəliləyən bir əsrə çevrilmişdir.

Məhz XXI əsrdə informasiyanın istehsalı, toplanması, qorunub saxlanması və yayılması cəmiyyətin əsas istehsal sahələrindən birinə çevrilməkdə, informasiya istehsalı maddi nemətlər istehsalına bərabər tutulmaqla, hətta maddi nemətlər istehsalını sürətləndirən, maddi nemətlər bolluğu yaradan bir vasitə kimi böyük əhəmiyyət kəsb etməkdədir. İnformasiya istehsalının, hər cür informasiya xidmətinin təşkilinin əhəmiyyəti və cəmiyyətdəki tutduğu mövqe bununla bitmir. İnformasiya elmi-texniki tərəqqinin, elmi kəşflərin əsas bazası olmaqla, bütün cəmiyyətlərin təşkilində aparıcı qüvvə olan yeni insanın yetişməsində, formalaşmasında, təhsil və tərbiyəsində öncül rol oynayan bir vasitəyə çevrilmişdir.

Beləliklə, bəşər elmi, mədəniyyəti və dövlətlərin, cəmiyyətlərin iqtisadi tərəqqisi üçün informasiyadan istifadə və onun cəmiyyətin bütün sahələrinə tətbiqinə böyük ehtiyac vardır. Xüsusilə elektron informasiya vasitəsilə bütün elmlərin son nailiyyətləri, elmi kəşflər, yeni texnologiyalar olduqca qısa zaman kəsiyində, dövrümüzün möcüzəsi olan İnternet vasitəsilə bəşəriyyətin malına çevrilir. Bununla da «informasiya» beynəlxalq ünsiyyət vasitəsi kimi böyük əhəmiyyət kəsb edir. Bütün bunlar müasir, sürətlə inkişaf edən, qloballaşan dünyada cəmiyyətin informasiyalaşdırılmasını və informasiyalaşdırma prosesini daha sürətlə aparmaq üçün informasiya xidmətinin daha səmərəli təşkilini tələb edir.

İnformasiyalaşdırma nədir?

İnformasiyalaşdırma-informasiya ehtiyatlarının formalaşması, təqdim edilməsi, istifadə olunması əsasında dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün

[1] *Bu istilahın ayrı-ayrı formada işlənməsinə baxmayaraq mənası eynidir. Elmi ədəbiyyatda yazılan və dildə deyilən zaman «informasiyalaşdırılmış cəmiyyətə» nisbətən informasiya cəmiyyəti daha sadə və münasib olduğundan bir çox müəlliflər kimi mən də bu istilahın informasiya cəmiyyəti kimi işlənməsinə üstünlük verdim.*

müəssisə, idarə və təşkilatların cəmiyyətin bütün strukturlarının, vətəndaşların informasiya tələbatını və bu sahədəki hüquqlarının təmin edilməsi məqsədilə optimal şəraitin yaradılması üçün həyata keçirilən təşkilati, sosial-iqtisadi və elmi-texniki prosesdir.

Göstərdiklərimizdən aydın olur ki, informasiyalaşdırma çox çevik və hərtərəfli bir proses kimi cəmiyyətin bütün strukturunu, sahələrini bazisdə və üstqurumda baş verən bütün hadisə və qanunauyğunluqları əhatə edə bilən, bu hadisələri və qanunauyğunluqların inkişafına geniş zəmin yaradan olduqca geniş həcmli, böyük əhatəli, mürəkkəb bir prosesdir. Bu proses öz əhəmiyyəti və mahiyyəti etibarilə cəmiyyətdə baş verən proseslərin ən önəmlisi, cəmiyyətin hərtərəfli inkişafına təkan verən, kömək edən, insan fəaliyyətini təşkil edən, onu istiqamətləndirən çox mürəkkəb çoxşaxəli, sosial-iqtisadi və elmi-texniki bir prosesdir.

İndi isə informasiyalaşmanın geniş miqyasda və böyük uğurla tətbiq olunduğu informasiya cəmiyyətinin mahiyyətini açmağa, onun özündən əvvəlki cəmiyyətlərdən nə ilə fərqləndiyinə diqqət yetirək.

İnformasiya cəmiyyətinin sırf özünəməxsus xüsusiyyətləri vardır. Alimlər onun aşağıdakı xüsusiyyətlərini ön plana çəkirlər:

-İnformasiya cəmiyyəti yeni qlobal sosial inqilabın nəticəsi olub, XX əsrin informasiya partlayışından doğan, informasiya və telekommunikasiya texnologiyalarının sintezi prosesində formalaşan yeni tipli cəmiyyətdir. Bu cəmiyyətin yeniliyi əsasən informasiya texnologiyası, elektron texniki vasitələrlə informasiyanın toplanması, saxlanması, ötürülməsi və yeni informasiya istehsalı ilə şərtlənir. Bu cəmiyyətdə azad cəmiyyətlərə məxsus demokratikləşmə prinsipləri, vətəndaşların informasiya almaq hüquqlarının təminatı, hər bir insan; hər bir təşkilat üçün informasiyanın ümumaçıqlığı mühüm əhəmiyyət kəsb edir. İnformasiyanın ümumaçıqlığının təmin edilməsi öz növbəsində informasiya texnologiyasının əsaslı inkişafını və onun sürətlə informasiya xidməti prosesinə tətbiq edilməsini tələb edir. İnformasiya cəmiyyətində informasiyanın ümumaçıqlığının təmin edilməsi, informasiyanın «hamı üçün» olması, informasiyanın, xüsusilə onun keyfiyyət sahəsi olan biliyin istehsalı mühafizəsi, emalı və reallaşması üçün işçi qüvvəsinin əksər hissəsinin ciddi iş aparmasını tələb edir.

- İnformasiya cəmiyyəti, həmçinin bilik cəmiyyətidir. Bu cəmiyyət müasir dünyada baş verən yeniləşmə və dəyişikliklərin baza komponentlərindən biri olduğundan cəmiyyətdə biliyin daha da sistemləşdirilməsinə, biliyin bütün sahələrdə yayılmasına xidmət etməlidir. Alimlər iqtisadi inkişaf nöqteyi nəzərindən müasir cəmiyyəti üç mərhələyə ayırırlar: sənaye cəmiyyəti, post sənaye cəmiyyəti, informasiya cəmiyyəti. Dünya ölkələrinin böyük əksəriyyəti sənaye cəmiyyəti mərhələsindədir. Dünyanın yüksək inkişaf etmiş kapitalist ölkələri isə post sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid mərhələsindədir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra iqtisadiyyatın bütün sahələrində: sənayedə, kənd təsərrüfatında, xüsusilə neft sənayesində böyük iqtisadi

və sosial-siyasi inkişaf baş verdi. Ölkə sürətlə bazar iqtisadiyyatına keçməkdədir. Ölkənin iqtisadi yüksəlişi öz növbəsində elmin, mədəniyyətin, xalq təhsilinin inkişafına şərait yaradır. Ölkəmizdə gedən bu inkişaf prosesi respublikamızı inkişaf etmiş ölkələr sırasına çıxarmaqla, onun böyük sürətlə sənaye cəmiyyətindən post sənaye və informasiya cəmiyyətinə keçməsi üçün zəmin yaradır. Ölkəmizin Prezidenti İlham Əliyevin cəmiyyətin informasiyalaşdırılmasına yüksək qiymət verməsi, Azərbaycanda informasiya texnologiyasının geniş sürətlə tətbiqi, respublikamızın informasiya texnologiyası istehsal edən bir ölkəyə çevrilməsi haqqında göstərişləri, ölkəmizdə informasiya cəmiyyətinin qurulmasına və bilik cəmiyyətinə keçilməsinə böyük təkan verir. Prezident «informasiya kommunikasiya texnologiyasına» həsr edilmiş elmi konfransdakı çıxışında ölkədə biliyin yüksəldilməsini cəmiyyətin inkişafının mühüm amili kimi qiymətləndirməsi dediklərimizi bir daha təsdiq edir. Prezident İlham Əliyev deyir: «Dünyada uğur qazanmış, inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, o inkişafın, tərəqqinin əsas səbəbləri təbii ehtiyatlar deyil, yaxud daha hansısa başqa iqtisadi nailiyyətlər deyil, məhz bilik, məhz savad, yeni texnologiyalardır bunlar ölkəyə uğur gətirir, inkişaf, müasirlik gətirir.

Beləliklə, informasiya cəmiyyətində istehsalatın əsas məhsulu bilikdir. Bu cəmiyyət hər bir insanın, hər bir cəmiyyət üzvünün bilik almasını təmin edir, onlara informasiya mənbələrindən maneəsiz istifadə etmək və təcrübə qazanmaq üçün şərait yaradır. Məhz buna görədir ki, bu cəmiyyətdə informasiya, bilik, informasiya istehsalı və informasiya xidməti aparıcı yer tutur və informasiya müəssisələri sürətlə inkişaf edir. İnformasiya istehsalatın inkişafında hakim mövqe tutur.

-İnformasiya cəmiyyəti-qlobal cəmiyyətdir. Bu cəmiyyətdə informasiya mübadiləsinin nə vaxtı, nə məkanı, nə də siyasi sərhədləri var. Bu da bəşəriyyətə və insanlara bəşəri sərvətlərdən bəhrələnmək imkanı verməklə, mədəniyyətlərin bir-birinə qovuşmasını sürətləndirir, onların qarşılıqlı təsir dairəsini genişləndirir, hər bir ölkəyə və cəmiyyətlərə başqa ölkələrdən və cəmiyyətlərdən faydalanmaqla yeniləşmək, təkmilləşmək və zənginləşmək imkanı verir. Qloballaşma dünya ölkələri arasında inteqrasiya və beynəlxalq əlaqələr sisteminin intensivləşməsi nəticəsi kimi meydana çıxan bir prosesdir. Bu proses əvvəllər öz iqtisadi-sosial inkişafında geridə qalmış ölkələrin nisbətən qısa tarixi dövr ərzində daha uğurla irəliləməsinə əlverişli şərait yaratdığından, qloballaşma prosesinin müdafiəçiləri onu bəşəriyyətin minillikləri əhatə edən tarixi təkamül yolunun təbii, zəruri yekunu kimi qiymətləndirirlər. Bu baxımdan dünya miqyasında qloballaşma prosesi mahiyyət etibarilə yeni bir hadisə sayılmalıdır. Müxtəlif formada və həcmdə olsa da bu proses davam etmiş, cəmiyyətlər tədricən yaxınlaşmağa, iqtisadiyyatın, mədəniyyətin, ticarətin və s. mühüm sahələrində inteqrasiya etməyə meyilli olmuşdur. Bu meyl zaman keçdikcə qloballaşma prosesinin intensivləşməsinə və böyük beynəlxalq miqyas almasına səbəb olmuşdur. Məhz buna görədir ki, Birləşmiş

Millətlər Təşkilatının millətlərin minillik bəyannaməsində göstərilir: «Biz inanırıq ki, bu gün qarşımızda duran əsas vəzifə qloballaşmanın bütün dünya insanlarının həyatında müsbət bir qüvvəyə çevrilməsini təmin etməkdən ibarətdir».[1]

Müasir tariximizin ən böyük möcüzələrindən biri kimi formalaşan İnternet dünyada qloballaşma prosesinin gedişinə və inkişafına, vahid, bütov informasiya məkanının yaranmasına təsir göstərən ən mühüm vasitədir. İnternet XX əsrin 70-ci illərində dünyada elmi-texniki tərəqqi sahəsində böyük müvəffəqiyyətlərə nail olan ABŞ-da yaranmışdır.[2] İnternet ingilis sözü olub hərfi mənası beynəlxalq şəbəkə (international netware) deməkdir. Şəbəkə dedikdə, əlbəttə, kompüter şəbəkələri nəzərdə tutulur.

Kompüter şəbəkələrinin iki tipi: lokal və qlobal kompüter şəbəkələri geniş yayılmışdır. Lokal kompüter şəbəkələri bir müəssisə daxilində fəaliyyət göstərir və informasiya mübadilələrinə, informasiya və periferiya avadanlıqlarından birgə istifadəyə şərait yaradır. Bir ranqlı, serverli[3] lokal şəbəkələri geniş yayılmışdır. Bir ranqlı şəbəkələrdə hər bir kompüter «eyni hüquqludur», kompüterlər arasında tabeçilik iyerarxiyası yoxdur, hər kompüter həm klient, həm də server rolu oynayır. Serverli şəbəkələrdə ümumi verilənlərdən istifadəyə icazə əməliyyat sisteminin şəbəkə adminstratorunun sistem siyasəti vasitəsilə həyata keçirilir.

Ən böyük qlobal kompüter şəbəkələsi İNTERNET kompüter-informasiya şəbəkəsidir. İNTERNET vahid qaydalarla işləyən özündə milyonlarla kompüterləri birləşdirən, kompüter şəbəkələrinin ümumdünya toplusudur.

Hazırda İNTERNET-lə informasiyanı mübadilə etmək, müsahibə aparmaq, iclas, video konfrans keçirmək mümkündür. Hər bir şəxs öz idarəsindən min kilometrlərlə uzaqda işləyə, sənədləri, şəbəkə vasitəsilə qəbul edə və göndərə bilər. Başqa sözlə, «İnternet bütün aləmdə müxtəlif kompüterlər arasında ünsiyyət üçün imkan yaradan və informasiya mübadiləsini təmin edən şəbəkələr şəbəkəsidir».[4] İnternet beynəlxalq əlaqə sistemi kimi özündə milyonlarla fərdi kompüterləri birləşdirir. Son dövrlərin statistik hesablamalarından məlum olur ki, İnternet sistemi ilə ABŞ-da 20 milyon, dünyada isə 100-dən çox ölkənin 60 milyona qədər istifadəçisi bir-biri ilə əlaqə saxlayır. İnternetdə hər ay istifadəçilərin sayı 2 milyona qədər çoxalır, hər dəqiqədə isə sistemə 50-yə yaxın istifadəçi qoşulur.[5]

Kompüter şəbəkələri məcazi mənada desək hörümçək toru kimi dünyanın bütün ölkələrini əhatə etmişdir və informasiya texnologiyası inkişaf etdikcə bu artım olduqca böyük sürətlə bütün dünyaya yayılır. Dünyada 60 milyondan çox istifadəçinin və milyonlarla kompüter şəbəkəsinin İnternet

[1] «Azərbaycan» jurnalı.-2005.-№8. s.139.
[2] Dünyada müasir INTERNET-in sələfi sayılan ilk şəbəkə - ARPANET 1969-cu ildə Pentaqonun sifarişi ilə yaradılmışdır.
[3] Server – xüsusi yüksək texniki göstəricilərə malik kompüter olub, şəbəkənin idarə olunmasını həyata keçirir.
[4] Abbasov Ə., Əlizadə M. və b. İnformatika və kompüterləşmənin əsasları. Dərslik.- Bakı., 2005.- s.797
[5] Yenə orada. s. 799.

sisteminə qoşulması bu sistemin olduqca böyük bəşəri əhəmiyyətə malik və böyük gələcəyi olan bir sistem olmasını bir daha sübut edir.

Ümumiyyətlə, ölkənin informasiyalaşdırılması yolu ilə informasiya cəmiyyətinin formalaşması təşkilati, sosial-iqtisadi, elmi-texniki, texnoloji və ən başlıcası siyasi amillərə malik olan bir prosesdir. Onun müvəffəqiyyətlə həyata keçirilməsinə cəlb olunan siyasi, inzibati, maliyyə, insan, texniki və s. resursların səmərəli istifadə olunmasını, priaritetlərinin və fəaliyyət istiqamətlərinin düzgün müəyyən edilməsinin, görülən işlərin tənzimlənməsini və əlaqələndirilməsini təmin edir. Dövlət informasiya cəmiyyətinə keçid üçün «katalizator» rolunu oynayır, onun reallaşdırılması üçün maliyyə ayırır və hüquqi baza yaradır.

Tarixən əhaliyə «kitabxana», «məlumat-biblioqrafiya» və «informasiya xidməti» təşkili sahəsində qiymətli təcrübəsi olan kitabxanalar cəmiyyətin informasiyalaşdırılması prosesinin təşkilində böyük rol oynayırlar. Məhz buna görə cəmiyyətin informasiyalaşması prosesini müvəffəqiyyətlə təşkil etmək üçün kitabxanalardan hərtərəfli istifadə etmək, kitabxana işini müasir informasiya texnologiyaları ilə təmin etmək zəruridir. Kitabxana informasiyalaşmış cəmiyyətin əsas atributlarından biri, informasiya müəssisələrinin ən aparıcı sahəsidir. Kitabxanalar informasiyalaşdırılmış cəmiyyətin aparıcı müəssisəsi olduğu kimi, müasir kitabxanalar da informasiya texnologiyası ilə silahlanmadan oxuculara informasiya xidmətini həyata keçirə bilməz. Müasir kitabxanaların yaşaması, fəaliyyət göstərməsi, cəmiyyətin kitabxanalar qarşısında qoyduğu sosial funksiyaları yerinə yetirməsi, cəmiyyətin tərəqqi və inkişafının, oxucuların informasiya tələbatının ödənilməsində əsas müəssisəyə çevrilməsi üçün kitabxanaların özünün kompüterləşdirilməsi, informasiyalaşdırılması zəruridir. Kitabxanaların informasiyalaşdırılması dedikdə, kitabxana işinə informasiya texnologiyalarının tətbiqi, elektron kataloqların, elektron kitabxanaların yaradılması, ənənəvi kitabxana proseslərinin avtomatlaşdırılması nəzərdə tutulur. Bunun üçün Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemlərinin tətbiqi ön plana çəkilməlidir. İnformasiyalaşdırma işi bununla bitmir, əsas məqsəd oxuculara kitabxana xidməti işini elmi əsaslar üzərində qurmaq, mühüm məzmun və mahiyyət etibarilə daha da dərinləşdirməkdir. Kitabxana və biblioqrafiya xidmətinin daha da təkmilləşməsi, onun kəmiyyətcə və keyfiyyətcə dəyişməsi nəticəsində yeni xidmət növü - «informasiya xidməti» yaranır ki, məhz bu da «kitabxana-biblioqrafiya» xidmətinin əsas mahiyyətini özündə birləşdirən, onların üzərində yüksələn, müasir tələblərə cavab verə bilən bir xidmət növüdür.

İnformasiya xidməti nədir? Bizcə, informasiya xidməti uzun illər ərzində oxuculara göstərilən «kitabxana xidmətinin» və «biblioqrafiya xidmətinin» bünövrəsi üzərində yüksələn, onların bütün yaxşı cəhətlərini, toplanmış qiymətli təcrübələri özündə əks etdirən, formaca yeni xidmət növüdür. Deməli, informasiya xidməti formaca yeni bir xidmət növü kimi səslənsə də, başa düşülsə də məzmunca «kitabxana-biblioqrafiya xidmətinin» davamıdır,

onun məhəng daşıdır. Dialektikanın inkarı inkar qanununa nəzər saıdıqda məlum olur ki, «kitabxana xidmətinin» informasiya xidmətinə çevrilməsi prosesi məhz dialektik yolla baş vermiş qanunauyğunluqdur. Dialektikada bir predmetin (prosesin) digər predmetə elə çevrilməsidir ki, bu prosesdə birinci predmetin «məhvi» baş verir. Lakin bu elə bir «məhv»dir ki, gələcək inkişaf üçün meydan açır və keçmişin bütün müsbət cəhatlərinin saxlanmasına şərait yaradır. Köhnənin, vaxtı keçmiş hadisələrin və proseslərin məhv olması, yeninin yaranması, dərin keyfiyyət dəyişmələrinin baş verməsinə, bir keyfiyyət halından digər, daha mükəmməl keyfiyyət halına keçməsinə səbəb olur. Bu da özlüyündə inkişaf üçün meydan açır, keçmiş dövrlərdə əldə edilmiş mütərəqqi elmi biliklərin itirilməməsi üçün şərait yaradır. Keçmiş tarixi biliklər, bəşəriyyətin yaratmış olduğu mənəvi sərvətlər, yeni biliklərin tərkibində yeni formada, daha mükəmməl, mütərəqqi və elmi formada meydana çıxır.

İnformasiya xidməti oxucuların informasiya tələbatına tam cavab verə bilən müasir informasiya texnologiyasının tətbiqi və ondan istifadə əsasında İnternet vasitəsilə dünya müstəvisinə çıxan, elektron vasitələrin köməyilə oxucuların qarşısında böyük informasiya məkanı yaradan, bəşəri biliklər xəzinəsini xəyali-virtual kitabxanaların köməyilə oxucuların malına çevirə bilən, indiyə qədər heç bir analoqu olmayan xidmət növüdür.

Bəşəriyyətin keçdiyi tarixi yola ötəri də olsa nəzər saldıqda məlum olur ki, bütün sivilizasiyalarda cəmiyyət insanlara xidmət etmək, onların tələbatını ödəmək üçün yüzlərlə müxtəlif xidmət növlərindən və formalarından istifadə etmişdir. Fərəhləndirici haldır ki, bu xidmət növləri içərisində «kitabxana xidməti», «biblioqrafiya xidməti», «informasiya xidməti» həmişə cəmiyyət üzvlərinin, xüsusilə yüksək intellektə, mədəni və elmi səviyyəyə malik olan insanların diqqət mərkəzində olmuş, öz mahiyyəti, məzmunu ilə fərqlənmiş, bilik və zəka daşıyıcıları kimi nəsildən-nəslə ötürülməklə, cəmiyyətin maddi və mənəvi mədəniyyətinin yaranıb inkişaf etməsinə, formalaşmasına, elmi-texniki tərəqqinin sürətlənməsinə xidmət etmiş, insanların böyük hörmət və məhəbbətini qazanmışdır.

Beləliklə, müasir informasiya cəmiyyəti bəşəriyyətin gələcəyinə xidmət edən «informasiya xidməti» «kitabxana və biblioqrafiya xidmətinin» sütunları üzərində yüksəlmiş, olduqca təkmilləşmiş, cəmiyyətin gələcək inkişafına təkan verən bir xidmət növüdür. İnformasiya xidməti bilavasitə informasiya orqanlarının, kitabxanaların fəaliyyəti ilə əlaqədardır. Məlumdur ki, informasiya fəaliyyətinin məzmununa informasiyanın toplanması, onun işlənməsi, qorunub saxlanması və informasiya xidmətinin təşkili daxildir. İnformasiya fəaliyyəti prosesində obyekt-informasiya sisteminin ayrı-ayrı elementləri bir-biri ilə əlaqəyə girirlər ki, bu da informasiya işçiləri ilə informasiya resursları arasında ikitərəfli əlaqələrin meydana çıxmasını təmin edir. Bu ikitərəfli əlaqə prosesi nəticəsində informasiyanın toplanması, onun analitik, sintetik işlənməsi baş verir. İnformasiya işçiləri – kitabxanaçılarla istifadəçilər (oxucular) arasında maddi-texniki baza və informasiya texnologiyasından istifadə zamanı iki

tərəfli və çox tərəfli əlaqələr meydana çıxır. İnformasiya xidməti zamanı isə istifadəçilər ilə bilavasitə informasiya ehtiyatları arasında əlaqələr yaranır. Bu əlaqələr zaman keçdikcə daha da genişlənir, qloballaşır və İnternetdən istifadə ilə nəticələnir ki, bu da informasiya xidmətinin daha geniş meydan alması ilə nəticələnir, qloballaşan cəmiyyətin əsas vasitələrindən birinə çevrilir. İnformasiya xidməti prosesində informasiya fəaliyyəti ilə xarici mühit arasında əlaqələr meydana çıxıb formalaşır. Bu baxımdan informasiya xidmətinin analiz və sintezi informasiya fəaliyyətinin cəmiyyətdə və mədəni quruculuqda əhəmiyyətini və yerini aşkara çıxarmaq imkanı verir.

Beləliklə, informasiya xidmətinin nəzəri cəhətdən təhlili göstərir ki, informasiya xidməti bütöv bir sistem olmaqla istifadəçilərin (oxucuların) informasiya tələbatını ödəməyə yönəlmiş fəaliyyət sahəsidir. Bütöv bir sistem olan informasiya xidməti istifadəçilərin sorğu və tələbatlarına xidmət göstərən, informasiya və biliklərin yayılmasına yol açan çox mürəkkəb bir mexanizmdir. Mədəniyyətin, kommunikasiyanın əsas fenomenidir. İnformasiya xidmətinin sosial həyatla bilavasitə əlaqəsi olduğundan cəmiyyətdə baş verən bütün xidmət sahələrini əhatə edir. Geniş şəbəkəyə malik informasiya müəssisələrinin təsnifləşdirilməsi, onların cəmiyyətdə tutduqları yerin və vəzifələrin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Təsnifatlar, bölgü prinsipləri elə aparılmalıdır ki, informasiyanın müasir cəmiyyətimizdə oynadığı rol və vəzifələr düzgün müəyyənləşdirilsin, hər bir informasiya müəssisəsinin cəmiyyətdə tutduğu mövqe və onun vəzifələri aşkara çıxarılsın.

Alimlər cəmiyyətin informasiya təminatını yerinə yetirən müəssisələri 3 qrupa ayırmağı məsləhət görürlər.[1]

1-ci qrup: inzibati idarələr, apteklər, məişət xidməti idarələri və s. Bu müəssisələr üçün informasiya xidməti əsas yox, köməkçi fəaliyyət sahəsi hesab olunur. Bu müəssisələr əsasən öz müştərilərinə öz iş rejimi haqqında reklam xarakterli məlumat verirlər.

2-ci qrupa ali məktəblər daxildir. Ali məktəblərdə informasiya xidməti onların əsas fəaliyyətinin mühüm komponentləridir, tədris prosesinin tərkib hissəsidir.

3-cü qrup informasiya müəssisələrinə bilavasitə öz fəaliyyətini cəmiyyətin informasiya tələbatının ödənilməsinə yönəldən, insanların informasiya hüquqlarını təmin edən, informasiya azadlığına xidmət edən müəssisələr daxildir. Mütəxəssislər belə müəssisələrə kitabxanaları, elmi-texniki informasiya müəssisələrini, arxivləri, muzeyləri, statistika idarələrini, nəşriyyatları, kitab yayım mərkəzlərini və s. aid edirlər.

İnformasiya xidmətinin böyük vüsət aldığı müasir cəmiyyətdə mühüm rol oynayan bu müəssisələr, xüsusilə kitabxanalar və elmi-texniki informasiya müəssisələri insanların informasiya tələbatını təmin etməklə yanaşı informasiya istehsal edən müəssisələr kimi də şöhrət tapmışlar. İnformasiya

[1] *Дворкина М. Информационное обслуживание: Социокультурный подход. – Москва, 2001, с.10.*

XXI yüzilliyin ən önəmli sahəsi olduğundan, informasiya istehsal edən müəssisələr də informasiya cəmiyyətinin hərəkətverici qüvvəsidir. Məhz informasiya istehsal edən kitabxanalar və digər müəssisələr cəmiyyətin informasiya tələbatını ödəyən əsas müəssisələr onların qarşısında informasiya vasitələrini toplamaq, qoruyub saxlamaq, sistemləşdirmək və informasiya texnologiyasının son nailiyyətlərindən bəhrələnmək yolu ilə onu əhalinin istifadəsinə verməlidirlər. Kitabxanalar və digər informasiya müəssisələri tərəfindən həyata keçirilən proseslər bilavasitə informasiya xidmətinin - informasiya servisinin tərkibinə daxildir. İnformasiya servisi, onun yaranması və işlənməsi prosesi müasir cəmiyyətin mühüm atributlarından biri olduğundan bilavasitə cəmiyyətin inkişaf strukturuna daxildir. Doğrudan da cəmiyyətdə elə bir adam tapmaq olmaz ki, o bu və ya digər məsələ ilə, problemlə maraqlanmasın, onlara dair informasiyaya tələbatı olmasın. İnformasiya almaq, nə ilə isə maraqlanmaq, nəyi isə öyrənmək, necə öyrənmək marağı insanın təbiətindən, onun psixoloji durumundan, təbiət və cəmiyyət hadisələri ilə gündəlik təmasından doğur. İnsan övladı anadan olduğu gündən, dünyasını dəyişən günə qədər öz bilik dairəsini, dünyagörüşünü zənginləşdirməyə, nəyi isə öyrənməyə və yeri gəldikcə, öz biliklərini başqalarına öyrətməyə çalışır. Yəni insan özü ardıcıl olaraq informasiya qəbul etdiyi kimi, mütəmadi olaraq öz biliyi və bacarığı dairəsində informasiya da verir. Beləliklə, ayrılıqda götürülən hər bir insan informasiya məkanında iştirak edir. Hər bir insanın informasiya marağı, onun mədəni səviyyəsindən, intellektindən asılı olaraq zaman keçdikcə insanın biliyi artdıqca, zənginləşdikcə sadədən mürəkkəbə doğru inkişaf edir, dərinləşir. Həmişə inkişafa can atan insanın maraq dairəsi hüdudsuzdur, ona görə də onların informasiya tələbatı daim genişlənir. İnsan öz informasiya tələbatını ödəmək üçün informasiya müəssisələrinə, ilk növbədə isə kitabxanalara müraciət edir. Kitabxanaların tarixinə nəzər saldıqda məlum olur ki, bütün dövrlərdə kitabxanalar xalqın yaratmış olduğu elmi, mədəni sərvət kimi, həmişə başəriyyətin işıqlı gələcəyinə, təhsilinə, maarifinə, mədəniyyətinə, elminə, tərbiyəsinə xidmət etmiş, bilik, elm, informasiya mərkəzi kimi bəşər sivilizasiyasının yüksəldilməsi vasitəsi olmuşdur. Hələ miladdan öncə bəşər mədəniyyətinin beşiyi olan Şumerdə, Assuriyada, Kiçik Asiyada, Qədim Misirdə, Romada, Ərəb və Avropa ölkələrində, informasiya daşıyıcısı olan kitabları və s. yazı materiallarını toplayıb qoruyan, onu nəsildən-nəslə ötürən kitabxanalar çox böyük elmi əhəmiyyət kəsb edən, mədəni və informasiya müəssisəsi kimi hörmət qazanmışlar.

Kitabxanalar bəşəriyyətin yaratmış olduğu elmi sərvətləri toplayıb, qoruyub, saxlayıb, onları davamlı olaraq, təmənnasız insanların istifadəsinə verməklə, mədəniyyətin, iqtisadiyyatın, texniki biliklərin, elmi kəşflərin təraqqisi və yayılması üçün şərait yaratmışdır. Məhz kitabxanaların bəşəriyyətin inkişafındakı bu mühüm tarixi missiyası və müasir cəmiyyətdə onların fəaliyyətinin nəzərə alınması, onların statusunu, informasiya xidmətində yerini müəyyənləşdirmək zərurətini irəli sürür. Bu baxımdan kitabxanalar elm,

informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi qiymətləndirilirlər. Sosial institut statusuna malik müəssisə hesab edilirlər. Son dövrlərdə kitabxana işinə informasiya texnologiyalarının tətbiqi kitabxanaların müasir informasiya cəmiyyətində kommunikativ rolunu və əhəmiyyətini o qədər artırmışdır ki, kitabxanasız cəmiyyətin informasiya tələbatını ödəmək mümkün deyildir. Müasir dövrdə elmin və texniki tərəqqinin böyük vüsət alması, elmi-tədqiqatların nəticələrinin sürətlə praktikaya tətbiq edilməsi, texnologiyaların və texniki proseslərin sürətli inkişafı informasiya axınının artımına, köhnəlməsinə, səpələnməsinə səbəb olmuşdur. Bu da informasiya müəssisələrinin ilk növbədə isə kitabxanaların qarşısında informasiya axınının işlənməsi, istehsal edilməsi və onun tələb olunan istiqamətə yönəldilməsi kimi çox mühüm vəzifələr qoyur. Bu yeni vəzifələrin öhdəsindən gəlmək üçün kitabxanalar öz işini yenidən qurmalı, kitabxana işinə müasir informasiya texnologiyasını sürətlə tətbiq etməli, ənənəvi kitabxana xidməti ilə yanaşı yeni islahatlar aparmalı, müasir xidmət metodikasına yiyələnməlidir.

Burada göstərdiklərimizə yekun olaraq, demək olar ki, informasiya xidməti heç də yeni bir xidmət növü olmayıb, qədim dövrlərdən kitabxanada meydana gəlmiş, tarixən inkişaf edib formalaşmış, zaman keçdikcə zənginləşmiş kitabxana-biblioqrafiya xidmətinin yeni, inkişaf etmiş, təkmilləşmiş, müasir informasiya texnologiyası ilə silahlanmış mərhələsidir. Kitabxanalar isə bu yeni mərhələnin qarşıda qoyduğu vəzifələri yerinə yetirmək üçün öz işini informasiya cəmiyyətinin tələblərinə müvafiq yenidən qurmalı, informasiya xidmətini keyfiyyətcə yaxşılaşdırmalıdır.

"Kitabxanalar biliklər cəmiyyətində". "Nurlar" nəşriyyatı. 2006. s. 64-74

AZƏRBAYCAN GƏNCLİYİ DÖVLƏT PROQRAMININ HƏYATA KEÇİRİLMƏSİNDƏ RESPUBLİKA GƏNCLƏR KİTABXANASININ ROLU

Son illərdə ölkəmizdə gedən demokratik dəyişikliklər və görülən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şərait yaradılmasını sürətləndirmiş, onların ictimai-siyasi fəallığının artmasına müsbət təsir göstərmişdir. Hələ 1999-cu ildə ölkədə Prezident, ümummilli liderimiz Heydər Əliyev tərəfindən imzalanmış Dövlət gənclər siyasəti haqqında fərmanı dövlət gənclər siyasətinin həyata keçirilməsinə uşaq və gənclərlə işləyən kadrların hazırlanmasına, gənclərin həyatında baş verən proseslərin elmi şəkildə öyrənilməsinə, ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsində əlaqəli və məqsədyönlü fəaliyyət göstərməsinə uşaq, yeniyetmə və gənclərin üzləşdikləri problemlərin həlli istiqamətində əməli tədbirlərin görülməsinə şərait yaratmışdır.

Həmin fərmanla müəyyənləşdirilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə 1999-2004-cü illər ərzində bir sıra məqsədyönlü tədbirlər həyata kecirilmiş, o cümlədən normativ hüquqi aktlar qəbul edilmiş, Azərbaycan Respublikası Gənclər, İdman və Turizm (indiki Gənclər və İdman) Nazirliyinin nəzdində Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi və Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzi yaradılmışdır.

Uşaq və gənclərin hərtərəfli inkişafını təmin etmək onların problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində daha təsirli tədbirlər görmək, həyata kecirilən gənclər siyasətini təmzimləmək məqsədilə 2002-ci ildə Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmşdir.

Qanunda gənclər siyasətinin əsas prinsipləri öz əksini tapmış gənclərin vətənpərvərlik, azərbaycanlıq, dövlətcilik, dünyavilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumibəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, onların yaradıcılıq potensialının ölkənin inkişafına və ümumimilli problemlərin həllinə səfərbər olunması hüquq və azadlıqların hər hansı şəkildə məhdudlaşdırılmasının yolverilməzliyi əsas istiqamətlər kimi müəyyənləşdirilmişdir.

Azərbaycan respublikasında dövlət gənclər siyasətini daha da inkişaf etdirmək, gəncləri dövlət idarəciliyində aprıcı yerlərdən birini tutan qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə ölkə Prezidenti cənab İlham Əliyev 30 avqust 2005-ci ildə Azərbaycan Gəncliyi Dövlət Proqramının təsdiq edilməsi haqqında sərəncam imzalamışdır. 2005-2009-cu illər üçün nəzərdə tutulmuş Azərbaycan Gəncliyi Dövlət proqramının məqsədi gənclərin hərtərəfli inkişafını cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək üçün sosial-iqtisadi və təşkilati-hüquqi şərait yaratmaqdır.

Dövlət Proqramının məqsədinə uygun olaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

-gənc nəslin vətənə məhəbbət, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə olunması;

-gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi, onların hərbi xidmətə hazırlanması;

-gənclər arsında hüquq pozuntularının,narkomaniyanın və digər zərərli vərdişlərin profilaktikası sahəsində tədbirlərin həyata kecirilməsi;

-istedadlı gənclərin aşkar edilməsi, onların öz qabiliyyətlərini inkişaf etdirə bilmələri üçün şəraitin yaradılması;

-gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, bazar iqtisadiyatının əsaslarına dair biliklərə yiyələnməsi, peşə hazırlığının yüksəldilməsi və məşğulluğunun təmin edilməsi məqsədilə tədbirlərin həyata kecirilməsi;

-sosial müdafiəyə ehtiyacı olan gənclərin, o cümlədən gənc ailələrin problemlərinin həllinə köməklik göstərilməsi;

-gənclərin sağlamlığının qorunması sahəsində tədbirlərin həyata keçirilməsi, kütləvi bədən tərbiyəsinin və idmanın inkişaf etdirilməsi;

-ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı, uşaq və gənclər üzrə təşkilatın formalaşması və inkişafı üçün şəraitin yaradılması;

-gənclərin beynəlxalq əməkdaşlığı sahəsində layihələrin həyata keçirilməsinə, gənclər təşkilatlarının beynəlxalq əlaqələrinin qurulmasına, onların nümayəndələrinin beynəlxalq tədbirlərdə iştirakına köməklik göstərilməsi.

Azərbaycan Gəncliyi Dövlət Proqramı 7 bölmədən ibarət olub aşağıdakı məsələləri əks etdirir:

1. Gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi;

2. Gənclər arasında hüquq pozuntuları, narkomanlıq, QİÇS və digər neqativ halların profilaktikası;

3. İstedadlı və yaradıcı gənclərə dövlət qayğısı;

4. Gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və məşğulluğun təmin edilməsi;

5. Gənc ailələrə dövlət yardımı;

6. Ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı üçün şəraitin yaradılması. Uşaq və gənclər təşkilatına dövlət yardımı;

7. Gənclərin beynəlxalq əməkdaşlığının və turizmin inkişafı.

Proqramın hər bir bölməsi bir neçə yarımbölməyə bölünərək 2005-2009-cu illərdə həyata keçiriləcək tədbirlər planını özündə əks etdirir. Ayrı-ayrı yarımbölmələrdə Azərbaycan Gəncliyi Dövlət Proqramı üzrə həyata keçiriləcək tədbirlərin adı, məqsədi, icraçıları və icra müddəti dəqiqliklə göstərilmişdir.

Dövlət proqramında heyata keçirilməsi nəzərdə tutulan əsas tədbirlərdən biri Azərbaycan gənclərinin IV forumunun keçirilməsi olmuşdur. 14 oktyabr 2005-ci ildə keçirilən bu möhtəşəm tədbirin əsas məqsədi forumlararası işlər haqqında hesabatların ictimaiyyətə çatdırılması, dövlət gənclər siyasəti sahəsində yeni vəzifələrin müəyyən edilməsi və digər məsələlər təşkil etmişdir.

Qeyd edilməlidir, ki Azərbaycan Gənclərinin III forumundan ötən dövr Azərbaycanın əsaslı iqtisadi inkişafı və siyasi yüksəliş mərhələsi olmuşdur. Bu müddət ərzində respublikamızın Prezidenti İlham Əliyev tərəfindən daxili ictimai-siyasi sabitliyin qorunması, ölkənin iqtisadi qüdrətinin artırılması və xalqın həyat səviyyəsinin yüksəldilməsi, beynəlxalq aləmdə Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirilmiş, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına xidmət edən fərmanlar, sərəncamlar imzalanmış, dövlət proqramları təsdiq olunmuşdur.

Azərbaycan Gəncliyi Dövlət Prqramının tərkib hissəsi olan Azərbaycan Gənclərinin IV forumunda çıxış eden ölkə Prezidenti forumlararası müddət ərzində görülən işlərlə yanaşı mövcud problemləri, o cümlədən məşğulluq problemi, məişət problemləri, ev və digər problemlər haqqında məlumat vermiş və onların aradan qaldırılması yollarını göstərmişdir.

Azərbaycan Gəncliyi Dövlət Proqramında bilavasitə Mədəniyyət

Nazirliyi tərəfindən icrası nəzərdə tutulan bir sıra məsələlər öz əksini tapıb. Bura daxildir: gənclərin vətənpərvərlik tərbiyəsinin aktual məsələləri üzrə elmi-praktik konfransların, müşavirələrin, dəyirmi masaların, mədəni-kütləvi tədbirlərin keçirilməsi; yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsinə xidmət eden bədii-tərbiyat işlərinin aparılması; yeniyetmə və gənclərin hərbi xidmətə həvəsləndirilməsi məqsədilə mədəni-kütləvi tədbirlərin keçirilməsi; gənclərə sağlam həyat tərzi aşılayan bədii tərtibat materiallarının, əyani vəsaitlərin hazırlanması və s.tədbirlərin keçirilməsi.

Dövlət proqramında qarşıya qoyulan bütün bu və digər məsələlərin yerinə yetirilməsində Mədəniyyət Nazirliyinin mühüm tərkib hissəsi olan kitabxanalar mühüm rol oynamalıdırlar. Mədəniyyət Nazirliyinin tərkibində fəaliyyət göstərən bütün kitabxanalar özlərinin fəaliyyət planlarında Azərbaycan Gəncliyi Dövlət Proqramının ayrı-ayrı müddəalarını əsas götürməli və onların yerinə yetirilməsinə səy göstərməlidirlər. Bu cəhətdən Azərbaycan Mədəniyyət Nazirliyinin tərkibində müstəqil qurum kimi fəaliyyət göstərən C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası daha böyük imkanlara malikdir. 1976-cı ildə Azərbaycan Mədəniyyət Nazirliyinin 5 fevral tarixli 54 №li əmrinə əsasən yaradılmış Respublika Gənclər Kitabxanası universal məzmunlu kitabxana olub, IX sinif şagirdlərindən başlayıb ali məktəb tələbələrinə qədər uşaq və gənclərə xidmət edir. Kitab fondu və bütün iş üsulları gənclərin təhsil sisteminə, onların mənəvi tərbiyəsinə, əmək tərbiyəsinə, peşə yönümünə, elmi-siyasi dünyagörüşünə, bədii-estetik zövqünə xidmət etməyə yönəlmişdir. Eyni zamanda bu kitabxana respublikanın digər Gənclər Kitabxanasına metodik köməklik edir, onların fəaliyyətini istiqamətləndirir. Bundan əlavə orta ixtisas peşə təmayüllü liseylərin kitabxanaları da Gənclər Kitabxanası vasitəsilə istiqamətləndirilir. Kitabxanada çoxlu sayda mədəni-kütləvi tədbirlər keçirilir: ədəbi-bədii gecələr, şair və yazıçılarla görüşlər, kitab müzakirələri, oxucu konfransları və s.

Azərbaycan Gəncliyi Dövlət Proqramında irəli sürülən bir cox mühüm vəzifələr digər təhsil, tərbiyə, təbliğat və informasiya müəssisələri ilə yanaşı sosial institut kimi formalaşan kitabxanaların, ilk növbədə məhz gənc nəslin nümayəndələri ilə bir başa iş aparan gənclər kitabxanalarının fəaliyyətində ciddi dönüş yaradılmasını tələb edir. Çünki gənc oxucuların ümumi və elmi dünyagörüşünün genişlənməsində, milli vətənpərvərlik və dövlətçilik duyğularının formalaşmasında, əsl vətəndaş kimi yetkinləşməsində gənclər kitabxanaları mühüm rol oynamaq iqtidarındadırlar. Başqa sözlə kitaba süurlu və fəal münasibət bəsləyən müxtəlif elm sahələrinə dair ədəbiyyatı yaradıcı şəkildə mütailə edən, oxuduqlarını dərk eden, mənimsəyən və ondan faydalanan yüksək səviyyəli oxucunun yetişdirilməsi nəticəsində cəmiyyətimizə, müstəqiliyimizə layiq yetkin şəxsiyyətlərin meydana çıxması deməkdir.

Bu baxımdan Azərbaycan gənclərinin ayrı-ayrı təbəqələrinin müəyyən qismi ilə əlaqə saxlayan C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası böyük iş təcrübəsinə malikdir. Gənclər Kitabxanası gənc nəslin müxtəlif kateqo-

riyaları ilə kitabxanaların işi üçün gənclərin ideya-siyasi, estetik, əxlaqi tərbiyəsinə kömək olaraq elmi cəhətdən əsaslandırılmış tövsiyələr işləyib hazırlayır və həyata keçirir. Bu kitabxananın strukturunda abonementdən və oxu zallarından əlavə sorğu və tələblərə müvafiq olaraq incəsənət və fonetika şöbəsi, bibliqrafiya, elmi-metodika və digər şöbələr yaradılmışdır.

Kitabxananın əsas şöbələrindən biri hərbi vətənpərvərlik və kütləvi işlər şöbəsidir. Hazırda bu şöbənin əsas vəzifəsi Azərbaycan gənclıyi dövlət proqramının ayrı-ayrı bəndlərini diqqətlə öyrənib gənclər arasında yaymaqdan ibarət olmalıdır. Belə ki, şöbə əməkdaşlarının yaxından köməkliyi ilə 90-cı illərdə Beyləqan və Zaqatala rayonlarında keçirilən zona müşavirələrində gənclərin hərbi vətənpərvərlik tərbiyəsi ilə əlaqədar mədəni-maarif müəssisələri, o cümlədən kitabxanaların qarşısında duran məsələlər müzakirə edilmiş, respublikamızın iqtisadi, siyasi və hərbi qüdrətinin möhkəmləndirilməsi üçün tövsiyələr verilmişdir.

Respublika Gənclər Kitabxanasının 1995-ci ildə "Azərbaycan Ordusu" qəzeti ilə birlikdə Cəlilabad rayonunda müasir dövr və gənclərin hərbi vətənpərvərlik tərbiyəsində kitabxanaların iştirakı mövzusunda elmi-praktik konfransı da maraqlı keçmişdir. Çıxışlarda müasir dövrdə gənclərin hərbi vətənpərvərlik tərbiyəsi sahəsində kitabxanalar, hərbi komissarlıqlar, pedoqoji kollektivlər və başqa ictimai təşkilatların birgə fəaliyyətinin aktual məsələlərinə toxunulmuşdur. Konfransda Cəlilabad, Biləsuvar, Masallı, Lənkəran, Astara, Yardımlı rayon mədəniyyət şöbə müdirləri, qabaqcıl kitabxana işçiləri və ümumtəhsil məktəblərinin müəllimləri iştirak etmişlər.

Hazırda kitabxana rəhbərliyinin qarşısında duran ən mühüm vəzifə Azərbaycan gənclıyi dövlət proqramının həyata keçirilməsi ilə əlaqədar tədbirlər planını işləyib hazırlamaqdır. Şübhəsiz ki, tədbirlər planında respublikanın ictimai-siyasi həyatında gənclərin iştirakı, elm, təhsil və mədəniyyət sahələri üzrə dövlət idarəetmə orqanlarında gənclərin məsul işlərə cəlb olunması, Azərbaycan gənclıyi dövlət proqramının ən mühüm məsələləri üzrə təkliflərin hazırlanması, gənclərin sosial problemləri, ordu quruculuğu, hərbi vətənpərvərlik tərbiyəsi və kitabxananın vəzifələri öz geniş əksini tapmalıdır.

Son illərdə Respublika Gənclər Kitabxanasında aparılan quruculuq işləri qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə tam zəmanət verir. Belə ki, kitabxana 2003-cü ildə mədəniyyət nazirliyinin göstərişi ilə tam təmir olunmuş, bu məqsədlə son beş ildə kitabxanaya 90 milyon manat vəsait ayrılmışdır. Kitabxananın girişi, sərgi salonu, dövri mətbuat fondu və oxu zalları yüksək səviyyədə təmir olunmuş, mebellərlə təchiz edilmiş, oxucuların istifadəsinə verilmişdir.

Məlum olduğu kimi, C.Cabarlı adına Respublika Gənclər Kitabxanası ölkəmizdə ən iri kitabxanalardan biridir. Kitabxananın respublikamızın ayrı-ayrı rayonlarında 50-dən çox filialı fəaliyyət göstərir. Kitabxananın elmi-metodik şöbəsi müntəzəm olaraq filial kitabxanaları ilə əlaqə saxlayır, onların fəaliyyətinə nəzarət edir, hesabatları alınır və ildə bir dəfə rayon kitabxa-

nalarına məzuniyyətlər təşkil edir.

Son 5-6 ildə Mədəniyyət Nazirliyinin kitabxana işinə və onun fondunun lazımi ədəbiyyatla müntəzəm şəkildə komplektləşdirilməsi məsələlərinə xüsusi diqqət verilməsinin nəticəsi olaraq kitabxana fonduna hər il 1000-dən çox ədəbiyyat daxil olur. Kitabxana fondunda saxlanılan ədəbiyyatın çox hissəsinin rus dilində olmasının əsas səbəbi sovet hakimiyyəti illərində kitabxananın rus abonementi şöbəsinə daha çox diqqət yetirilməsi olmuşdur.

Kitabxanaya ayrılan maliyyə vəsaitinin bir hissəsi də dövri nəşrlərin alınmasına xərclənir. Məlum olduğu kimi dövri nəşrlər ən operativ informasiya forması olub oxucular tərəfindən daha çox istifadə olunur. Bunu nəzərə alaraq kitabxananın rəhbərliyi hər il 20-25 adda dövri və ardı davam edən nəşrlərə abunə yazılırlar. Hazırda kitabxana 16 adda qəzet və 7 adda jurnal alır.

Son illərdə kitabxanada oxuculara xidmət sisteminin modernləşdirilməsi məqsədilə yeni informasiya texnologiyasının tətbiqi sahəsində də bəzi işlər görülmüşdür. Kitabxana soros fondunun yerli açıq cəmiyyət institutunun yardım fondu ilə müqavilələr bağlamış və 2003-cü ildə Puşkin kitabxanası layihəsi çərçivəsində 88 nüsxə kitab alaraq fonda daxil etmişdir. Ümumiyyətlə, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası son illərdə soros fonduna iki layihə təqdim etmişdir.

Gənclər Kitabxanasının soraq biblioqrafiya aparatının yenidən təşkili adlı layihəsi kitabxanada soraq biblioqrafiya aparatının qısa müddət ərzində yenidən qurulması məqsədilə tərtib edilmişdir. Layihədə biblioqrafiya şöbəsi üçün mebel, kompüter, printer və digər avadanlıqların alınması nəzərdə tutulmuşdur.

2002-ci ilin dekabr ayından başlayaraq biblioqrafiya şöbəsi kitabxananın öz vəsaiti hesabına əsaslı təmir edilmişdir. Bundan başqa, 2003-cü ilin yanvar ayından layihənin icrasına başlanmış və ilk növbədə şöbə üçün 2.496.000 manat həcmində 3 kitab şkafı, 3 kompüter, 1 printer və sürətçıxarma aparatı alınmışdır.

Soros fondu layihənin həyata keçirilməsi üçün 2525 ABŞ dolları məbləğində vəsait ayırmışdır.

Kitabxananın rəhbərliyi mövcud layihə əsasında kitabxananın veb səhifəsinin yaradılması və kitabxana fondunda mövcud olan Azərbaycan dilində ədəbiyyatın MS vord proqramının köməyilə kompüter yaddaşına keçirilməsi prosesinə başlanmışdır. Lakin sonralar maliyyə çatışmazlığından bu iş müvəqqəti olaraq dayandırılmışdır.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası 2003-cü ilin sonunda soros fondunun yerli açıq cəmiyyət institutunun yardım fondunun elan etdiyi müsabiqədə yardımçı təşkilat kimi iştirak etmişdir. Müsabiqənin nəticəsinə əsasən ACİYF bu layihənin həyata keçirilməsini məqsədəuyğun hesab etmiş və 2003-cü ilin noyabr ayının 20-dən 2004-cü ilin noyabr ayının 20-dək icrası nəzərdə tutulan bu layihə üçün öz maliyyə dəstəyini elan etmişdir.

Regionların ümumi inkişafına dəstək vermək üçün irəli sürülən bu layihə Azərbaycan respublikası Ucar rayon MKS-ni müasir texniki avadanlıqlarla təmin etməklə, bu kitabxananı kompüterləşdirmək məqsədi daşımışdır.

Bu layihə əsasında kitabxana Soros fondundan 2550 ABŞ dolları məbləğində qrand udmuş və bu məbləğlə Ucar rayon MKS-də avtomatlaşdırma və kompüterləşdirmə prosesinə başla-maq məqsədilə aşağıdakı avadanlıqları alaraq kitabxanaya bağış-lamışdır:

1. Kompüter
2. Fax-modem
3. UPS
4. Printer
5. Copier
6. Scaner
7. OSR softvare fine reader

Hazırda Respublika Gənclər Kitabxanasında yeni informasiya texnologiyasının tətbiqi sahəsində planlı işlər həyata keçirilir. 2005-ci ildə 7254 oxucuya xidmət edən kitabxana malik olduğu sənəd-informasiya resursları, kadr potensialı, maddi texniki bazası və ən başlıcası isə respublika mədəniyyət nazirliyinin rəhbərliyi tərəfindən göstərilən qayğı onun Azərbaycan Gəncliyi Dövlət Proqramının yerinə yetirilməsinə yardımçı olmasına imkanları artırır.

"Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri metodik və təcrübi jurnalı. 2006, №2. s. 3-13

BDU-NUN ELMİ KİTABXANASININ ELEKTRON KATALOQU

Məlum olduğu kimi, müasir dövrlə informasiyanın cəmiyyətin əsas aparıcı qüvvələrindən birinə çevrilməsi və sənaye cəmiyyətindən informasiya cəmiyyətinə sürətli keçidlə əlaqədar olaraq XXI əsri « İnformasiya əsri » adlandırırlar. İnformasiya əsrinin tələblərinə uyğun olaraq yeni informasiya texnologiyalarının kitabxanalara tətbiqi onların qarşısında yeni imkanlar açır. Web-saytlardan elektron kataloqa çıxışın olması kitabxananın öz fondu və digər kitabxanaların fondları haqqında informasiya ümumaçıq etməyə, oxucular üçün dünyanın istənilən nöqtəsindən İnternet qlobal informasiya məkanına daxil olaraq bu informasiyadan istifadə etməyə imkan verir.

Bu gün əksər kitabxanalar zəmanənin tələblərinə uyğun olaraq öz oxucularının informasiya tələbatını daha dolğun və operativ ödəyə bilmək üçün kompleks xidmətə keçid dövrünü yaşayır. Bu xidmətlərə kitabxananın ənənəvi məlumat-axtarış aparatının təşkili ilə yanaşı, sənəd axtarışının həm avtomatlaşdırılmış şəkildə, həm də ənənəvi kartoçka kataloqlarından istifadə etməklə həyata keçirilməsini və s. göstərmək olar. Bu sadalanan informasiya mənbə-

lərinin hər birinin qiymətləndirilməsinin mühüm kriteriyalarından biri ona olan tələbat və axtarışın səmərəli nəticələnməsidir.

Bir çox mütəxəssislər əsaslı şəkildə elektron və kartoçka kataloqlarında axtarışın keyfiyyəti və səmərəliliyi məsələlərini qarşıya problem olaraq qoyur. Kitabxananın oxucu audito-riyasının daim dəyişib yeniləşdiyi bir şəraitlə bu problemlərin öyrənilməsi biblioqrafik informasiya xidməti ilə məşğul olan şöbənin üzərinə düşür. Oxucu auditoriyasının informasiya tələbatının və onların lazımi xidmətlə təminatının səviyyəsinin öyrənilməsi işi ənənəvi və elektron informasiya ehtiyatlarına çıxışı, elektron və kartoçka kataloqları sistemini yaxşılaşdırmağa və optimallaşdırmağa və ümumilikdə bu işləri mərkəzləşdirməyə imkan verir.

Müasir dövrdə informasiyalaşdırılmış cəmiyyətin tələbi oxuculara operativ və coğrafi uzaqlıqdan asılı olmayaraq xidmət göstərilməsini diqtə etdiyindən bu gün ənənəvi kitabxana kataloqlarının elektron kataloqlarla əvəz edilməsi zəruridir. Elektron kataloq oxucuların şəbəkə vasitəsilə kitabxana fondu ilə tanış olmalarını, öz sorğularına operativ və kitabxanaçı-biblioqrafın köməyi olmadan uzaq məsafədən cavab almağı, ədəbiyyatı uzaq məsafədən sifariş verməyi təmin edir.

Bu məsələlərin həllini qarşıya məqsəd qoyan Bakı Dövlət Universitetinin «Kitabxananın kompüterləşdirilməsi» Elmi-tədqiqat laboratoriyası Qafqazda ilk dəfə olaraq vahid virtual Azərbaycan elektron kitabxana şəbəkəsinin yaradılmasının elmi istiqamətləri üzərində işləməyə başlamışdır. İlk növbədə beynəlxalq biblioqrafik informasiya mübadiləsini təmin etmək məqsədilə beynəlxalq təsvir və mübadilə formaları üzərində araşdırmalar aparılmışdır. Laboratoriya yaradılan gündən BDU-nun Elmi Kitabxanasının Elektron kataloqunu yaratmağı qarşısına məqsəd qoymuş, 2-3 il ərzində kitabxananın kataloq sisteminin elektron maşınlara konversiyasını nəzərdə tutmuşdur. Artıq 2000-ci ildə «Kitabxana 1.0» Avtomatlaşdırılmış Kitabxana Sistemi əsasında BDU-nun elmi kitabxanasının mövcud Azərbaycan dilində olan kitabların elektron kataloqunun yaradılması başa çatdırılmış, bütünlüklə 20 minə yaxın kartoçka buraya daxil edilmişdir.

Qeyd edək ki, BDU-nun Elmi Kitabxanasının kataloq və kartoteka sistemi 2049 vahiddən ibarətdir. Buraya kitabların həm rus, həm də Azərbaycan dilində sistemli və əlfba kataloqu, məqalələrin sistemli kartotekası və BDU alimlərinin elmi əsərlərinin sistemli kataloqu daxildir. Bu ümumi kataloq və kartoteka sistemi birlikdə Elmi Kitabxananın çoxmilyonlu fondunu tərkib və məzmun cəhətdən oxucuların qarşısında çoxaspektli şəkildə açmağa, işıqlandırmağa xidmət edir və geniş miqyaslı biblioqrafik axtarışı həyata keçirməyə imkan verir. Göründüyü kimi bu sistemin qurulması və istifadəsi həddindən artıq əmək və vaxt tələb edən bir prosesdir. Belə ki, kataloqların həmçinin böyüklüyü, onlarda olan ədəbiyyatın təsnifləşdirilməsində müxtəlif təsnifat sistemlərinin istifadəsi, operativ informasiyanın daxil olmasının gecikməsi üzündən əhəmiyyətli dərəcədə vaxt itkisi yaranır. Bunun müqabili-

ndə Elmi Kitabxananın elektron kataloqundan istifadə etməklə bir neçə dəqiqə ərzində oxuculara lazım olan ədəbiyyat haqqında informasiyanı tapmağa imkan verir və ümumiyyətlə, kataloqun İnternet-də, BDU-nun rəsmi saytında yerləşdirilməsi sayəsində oxucular və elektron kataloqdan istifadə etmək istəyən hər bir şəxs kitabxananın fondunda sənəd axtarışını evdən, iş yerindən və hətta başqa şəhərdən belə həyata keçirə bilər.

(http://www.bsu.az/lib/cat/cgi1/mare/OPACForm-az.html).

Elektron kataloqun istifadəçi interfeysinə nəzər saldıqda aydın görünür ki, təcrübəli, az çox informasiya texnologiyaları barəsində məlumatı olan oxucu üçün ondan istifadə etmək heç də çətin olmayacaqdır. Belə ki, bu kataloqun iki versiyası mövcuddur: Azərbaycan versiyasında informasiya axtarışını beş baza üzrə həyata keçirmək mümkündür. Bu bazalar aşağıdakılardır:

- Yeni kitablar (burada 2002-ci ildən bu günə qədər kitabxanaya daxil olan Azərbaycan dilində nəşrlər yerləşdirilmişdir.)
- Kitablar (1921-2001)
- Jurnallar
- Dissertasiyalar
- Məqalələr

Axtarışa başlanan zaman lazım olan nəşrin dili müəyyənləşdirildikdən sonra oxucunun sorğusuna uyğun olaraq bu bazalardan biri seçilir. Daha sonra mövcud axtarış sahələri («Müəlliflər», «Sərlövhə», «Açar sözlər», «Nəşr yeri və ya mənbə», «Nəşriyyat», və «Nəşr ili») içərisindən müfaviq gələn sahələrdən biri və ya kompleks axtarış aparmaq üçün bir neçəsi seçilir. Bundan sonra seçilən sahəyə uyğun olan axtarış sözü lazımi qrafaya yazılır və **AXTAR** düyməsi sıxılır. Əgər bazada sorğuya uyğun ədəbiyyat varsa, bu siyahı şəklində təqdim olunur. Elektron kataloqun rus versiyasında da axtarış eyni qayda ilə aparılır. Sadəcə olaraq burda məlumat bazalarının sayı digərinə nisbətən daha çoxdur. Burada 8 baza mövcuddur ki, onlar da aşağıdakılardır:

- Книги по химии
- Новые книги
- Редкие книги
- Диссертации
- Журналы (Гуманитарные науки)
- Журналы (Технические науки)
- Иностранные журналы
- Статьи

Elektron kataloqun daimi istifadəçiləri kitabxananın ümumi oxucuların təxminən 25-30%-ni təşkil edir. Təqdirəlayiq haldır ki, istifadəçilərin çox hissəsi əsasən də gənclər fərdi kompüterlərdə işləmək bacarığına malikdirlər və bunun da elektron kataloqla işləyən zaman onlara böyük köməyi olur. Onu da qeyd etmək lazımdır ki, istənilən halda, şübhəsiz ki, istifadəçilərdə informasiya axtarışı mədəniyyətinin, alınan nəticələri qiymətləndirmək və səmərəli

istifadə etmək bacarığının, ənənəvi və elektron informasiya daşıyıcıları ilə əlaqəli işləmək vərdişlərinin olması vacibdir.

Kitabxanada informasiya istehsalçıları ilə istifadəçi (oxucu) arasında vasitəçi rolunu məlum olduğu kimi növbətçi biblioqraf və məsləhətçilər oynayırlar ki, onlar da ehtiyac olduqda oxuculara lazımi nəşrlərin tapılmasında və elektron kataloqdan istifadə etməklə yardımçı olurlar, onların elektron kataloqda sərbəst şəkildə axtarış apara bilmələri üçün istifadə qaydalarını oxuculara öyrətməyə çalışırlar. Bu, xüsusilə müxtəlif təsnifat sistemləri ilə sistemləşdirilmiş çoxlu kataloqu olan böyük kitabxanalar üçün daha vacibdir.

İnternet kataloqlar daha geniş və məsləhətçiyə ehtiyac olmadan işləyə bilən oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Bu istifadəçi interfeysinə olan kəskin tələbləri asanlaşdırır. Təbii ki, istənilən informasiya axtarışı üçün müraciət edən istifadəçilərdən, ilk növbədə informasiyanın tamlığı (dolğunluğu), axtarışın dəqiqliyi və işin rahatlıq səviyyəsi tələb olunur. Təcrübə göstərir ki, BDU-nun Elmi kitabxanasının elektron kataloquna müraciət edən oxucuların miqdarı müntəzəm olaraq artır. Bununla yanaşı elektron kataloqla işləyən oxucuların sayı təkcə kitabxana daxilində deyil, həmçinin İnternet vasitəsilə ondan uzaq məsafədən istifadə edənlərin miqdarı da yüksələn xətt üzrə inkişaf etməkdədir. Buna görə də xidməti səmərəliləşdirmək üçün daimi olaraq kitabxananın elektron kataloqu haqqında, onun bir axtarış sistemi kimi oxucuların informasiyaya olan mövcud tələbatını nə dərəcədə ödəyə bilməsi haqqındakı fikirləri öyrənmək vacibdir.

Tədqiqatlar göstərir ki, hazırda kitabxananın elektron kataloquna ən çox bu və ya digər mövzu üzrə ədəbiyyat toplamaq üçün müraciət edirlər. Bundan başqa, oxucuların əksər hissəsi biblioqrafik təsviri olan konkret nəşrin, sənədin axtarışı üçün elektron kataloqa müraciət edirlər. buna görə də istifadəçilərə kitabxananın fondunda olan ədəbiyyat haqqında daha dolğun informasiya vermək üçün elektron kataloq tərtib edilərkən ünsürləri daha dəqiq daxil etmək lazımdır. Oxucuların fikrinə görə axtarış üçün ən prioritet sahə «sərlövhə» və «açar sözlər» sahələridir və bu sahələr üzrə axtarış aparmaq çox uğurlu nəticə verir. Elektron kataloqla iş zamanı oxucular bir sıra problemlərlə üzləşirlər ki, bunlardan da ən əsası onların bəzilərinin axtarışın strategiyası haqqında kifayət qədər məlumatlarının olmamasıdır. Bundan əlavə axtarış üçün sorğunun düzgün qoyulmaması və yaxud lazımi ədəbiyyat haqqında heç bir məlumatın olmaması bəzən səmərəli nəticə əldə etməyə mane olur. Burdan da göründüyü kimi elektron kataloqdan istifadə zamanı meydana çıxan problemlər sistemin çətinliyi və ya qeyri stadi olması ilə əlaqədar deyil, bütün bunların əsas səbəbi oxucuların bir axtarış sistemi kimi elektron kataloq və ondan istifadə qaydaları haqqında informasiyalarının azlığından irəli gəlir. Bu işdə də BDU-nun «Kitabxananın kompüterləşdirilməsi» Elmi-tədqiqat laboratoriyası öz köməyini əsirgəmir. Belə ki, elektron kataloqun yaradılması və müntəzəm olaraq təkmilləşdirilməsi işləri ilə bilavasitə məşğul olan laboratoriya əməkdaşları oxucularla da sıx təmasdadır, onların elektron kataloqla bağlı ortaya çıxan bütün suallarına

cavab verir, elektron kataloqdan istifadə bacarıq və vərdişlərinə yiyələnməkdə, lazımi informasiyanı axtarmaqda onlara kömək edir, məsləhətlər verirlər.

Aparılan tədqiqatlar elektron kataloqun gələcək inkişafı üçün böyük praktiki əhəmiyyət daşıyır. Alınan nəticələr kitabxananın bu istiqamətdə işini mükəmməlləşdirməyə kömək edəcək.

"Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası". 2007. s.198-203

KİTABXANA SAHƏSİ DÖVLƏTİN QAYĞISI İLƏ ƏHATƏ OLUNMUŞDUR

Prezident İlham Əliyev 20 aprel 2007-ci il tarixində "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" sərəncam imzalamışdır. Bu sərəncam ölkədə kitabxana işinin inkişafına, onun təkmilləşdirilməsinə, kitabxana fondu və kataloqların qısa bir Müddətdə elektronlaşdırılıb avtomatlaşdırılmasına böyük təkan verəcəkdir. Sərəncama öz münasibətini bildirmək məqsədilə əməkdar elm xadimi, BMT yanında Beynəlxalq informasiyalaşdırma akademiyasının akademiki, tarix elmləri doktoru, professor, "Şöhrət" ordenli kitabxana mütəxəssisi Abuzər Xələfovla həmsöhbət olduq.

A.Xələfov Prezidentin bu sərəncamının böyük sevinc və ruh yüksəkliyi ilə qarşıladığını bildirdi. Qeyd etdi ki, ömrümün 54 ilini kitabxana işinin tarixinin araşdırılmasına, kitabxanaların fəaliyyətinin öyrənilməsinə, ali kitabxanaçılıq təhsilinin təşkilinə həsr etmiş ağsaqqal bir mütəxəssis kimi qətiyyətlə deyə bilərəm ki, bu ölkəmizdə milli mədəniyyətimizin mühüm bir sahəsinin inkişafına təkan verəcək çox qiymətli sənəddir.

Ulu öndərimiz Heydər Əliyev vaxtilə söyləmişdir ki, "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir." Bu fikrin daha bir təsdiqi isə mərhum Prezidentimiz Heydər Əliyevin fərmanı ilə 1999-cu ildə qüvvəyə minmiş "Kitabxana işi haqqında" Azərbaycan respublikasının qanunudur və həmin qanun bu uğurla həyata keçirilməkdədir.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli sərəncamları da ölkəmizdə kitab nəşrinin və kitabxanaların inkişafına ciddi təkan vermişdir.Ölkə başçısının son sərəncamının ən mühüm cəhətlərindən biri odur ki, burada Azərbaycan xalqının uzun əsrlərdən bəri yaradıb formalaşdırdığı və inkişaf etdirərək hazırkı səviyyəyə çatdırdığı kitabxana işinə çox yüksək qiymət verilmiş və qızıl xətlə yazılmağa layiq olan belə bir dəyərli fikir vurğulanmışdır:"Azərbaycan kitabxanaları Azərbaycan

xalqının milli sərvətidir."

Sənəddə ən qədim dövrlərdən indiyə qədər keşməkeşli bir yol keçmiş düzgün və xalqa səmərəli xidmət göstərmiş kitabxanaların inkişafına tarixi bir nəzər salınmış və müasir dövrdə cəmiyyətin informasiya təminatında ölkə kitabxanalarının tutduğu mühüm yer müəyyənləşdirilmişdir. Olduqca təqdirəlayiq haldır ki, hazırda Azərbaycan kitabxanalarının dünya informasiya məkanına daxil olmasının təmin edilməsi məqsədilə Nazirlər Kabinetinə və digər müvafiq nazirliklərə konkret tapşırıqlar verilmişdir.

Sərəncama əsasən Azərbaycan Milli Kitabxanasının modernləşdirilməsi, müasir informasiya texnologiyaları ilə təmin edilməsi və maddi texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər planının hazırlanması nəzərdə tutulmuşdur. Fikrimizcə, Milli Kitabxana ilə yanaşı Azərbaycanın regionlarında fəaliyyət göstərən kitabxanaların təmirinin, müasir informasiya daşıyıcılarına ehtiyacın ödənilməsinin yaxın gələcəkdə reallaşdırılmasının nəzərdə tutulması da xüsusi əhəmiyyətə malikdir.

Ölkənin iri kitabxanalarının elektron kataloqu və elektron kitabxanasının müasir standartlar səviyyəsinə qaldırılması və onun bazasında "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın oxucuların istifadəsinə verilməsi isə respublikamızın kitabxana işi sahəsində mühüm hadisəyə çevriləcəkdir.

Sərəncamda məktəb kitabxanalarının maddi texniki bazasının möhkəmləndirilməsi, müasir informasiya texnologiyaları ilə təchizatı, həmçinin AMEA-nın mərkəzi elmi kitabxanası üçün yeni binanın tikilməsi və s. kimi tədbirlərin həyata keçirilməsinin nəzərdə tutulması, kitabxana işinə dövlət qayğısının daha bir parlaq nümunəsidir.

Sərəncamda qeyd olunduğu kimi, hazırda geniş kitabxana-informasiya şəbəkələrinə malik Azərbaycanda 12 mindən artıq müxtəlif tipli kitabxana vardır. Mədəniyyət və Turizm Nazirliyinə "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illər üzrə dövlət inkişafi proqramı"nın hazırlanması işinin tapşırılması təqdirəlayiq bir hal kimi dəyərləndirilməlidir. Bu proqramın yüksək səviyyədə həyata keçirilməsi xalqımızın mənəvi-mədəni inkişafına xeyli kömək göstərəcəkdir.

Bütövlükdə "Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında" ölkə Prezidentinin sərəncamı çox aktual bir dövlət sənədidir və əminəm ki, o, çoxəsrlik milli kitab və kitabxana mədəniyyətimizin beynəlxalq standartlar səviyyəsinə qaldırılması baxımından misilsiz rol oynayacaqdır.

A.Xələfov onu da vurğuladı ki, ölkənin kitabxana sistemində elektronlaşdırma və avtomatlaşdırılma işinin həyata keçirilməsinə baxmayaraq, bütün bu təkmilləşdirmələrin fövqündə hərtərəfli və intellektual biliyə malik, kitabxana-informasiya işini mükəmməl mənimsəyən və kompüter vasitəsilə İnternetə çıxmağı bacaran yüksək səviyyəli kitabxanaçı kadrlar durur. Onların bu sahədəki əməyinə qayğı ilə yanaşılması məsələsi də Prezident İlham Əliyevin diqqət mərkəzindədir.

"İki sahil" qəzeti. 24 aprel 2007.

GÖRKƏMLİ PEDAQOQ ALİM

Mən BDU-da təhsil aldığım və işlədiyim 55 il müddətində xalqımızın bir çox görkəmli ziyalıları, alimləri, müəllimləri ilə çiyin-çiyinə çalışmış, təmasda, ünsiyyətdə olmuşam. Bunların içərisində xalqımızın elə görkəmli şəxsiyyətləri var ki, mən onları bir müəllim-alim kimi yetişməyimin əsas səbəbkarları hesab edirəm və onların qarşısında baş əyirəm.

Belə şəxsiyyətlərdən biri də görkəmli filosof-alim, isdedadlı pedaqoq,o dövrdə ictimai xadim, elm və təhsil təşkilatçısı kimi şöhrət tapmış, adı ürəyimdə həmişə əziz olan Həsən İsmayıl oğlu Şirəliyev idi. H.Şirəliyev 1947-ci ildə sözün əsl mənasında fundamental baza təhsil verən ADU-nun tarix fakültəsinin fəlsəfə şöbəsinə daxil olmuş, orada A.Makovelski, H.Hüseyinov, M.Qasımov və başqa körkəmli filosof-alimlərdən dərs almış esl müəllim kimi yetişmişdir. Bunu demək yerinə düşərdi ki, o dövrdə fəlsəfə şöbəsini bitirən məzunların respublikamızda fəlsəfə elminin gələcəkdə inkişaf edib formalaşmasında, dünya və milli Azərbaycan fəlsəfəsinə dair fundamental elmi-tədqiqat əsərlərinin, monoqrafiyaların, dərsliklərin, dərs vəsaitlərinin yaranmasında böyük xidmətləri olmuş, demək ki, Azərbaycan milli fəlsəfəsi bu məzunların çiynində yüksəlmişdir.

Məhz xatirəsini yad etdiyimiz fəlsəfə elmləri doktoru, Azərbaycan Respublikasının əməkdar elm xadimi Həsən Şirəliyev də bu məzunlardan olmuşdur. 1958-ci ildən ömrünün sonuna qədər öz şüurlu həyatını BDU ilə bağlayan H.Şirəliyev universitetin ictimai, elmi-pedaqoji həyatında yaxından iştirak etmiş, 1958-ci ildə namizədlik, 1975-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1962-ci ildə dosent, 1978-ci ildə professor elmi adına layiq görülmüşdür. Yüksək elmi nailiyyətlər əldə edən, 10-dan artıq monoqrafiya, dərslik, dərs vəsaiti, 100-dən artıq elmi məqalə yazan Həsən Şirəliyev gözəl bir müəllim, pedaqoq kimi də məşhurlaşmış, universitet tələbələrinin sevimlisinə çevrilmişdir. Həsən müəllim universitetdə işlədiyi illərdə hamımızın gözü qarşısında pillə-pillə yüksəlib, tələbələrinin, dostlarının, müəllim yoldaşlarının hörmətinin qazanmışdır. Uzun illər geniş ictimai fəaliyyət göstərən, 30 ilə yaxın ixtisas kafedrasına rəhbərlik edən Həsən müəllim bir elm və təhsil təşkilatçısı, təcrübəli metodist kimi də yetkinləşmiş, sözün əsl mənasında universitetimizdə hamı tərəfindən qəbul edilən görkəmli şəxsiyyət, ağsaqqal kimi də tanınmışdır.

Onun yüksək ixtisaslı elmi kadrların hazırlanması sahəsindəki fəaliyyəti xüsusilə diqqəti cəlb edir. Həsən müəllimin rəhbərliyi ilə 75 nəfərdən çox elmlər namizədinin hazırlanması bu elm fədaisinin gərgin elmi fəaliyyətindən xəbər verir. Məhz buna görədir ki, Həsən müəllim 1980-ci ildə elm sahəsində ən yüksək fəxri ada-əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Yüksək ictimai, elmi, pedaqoji uğurlar qazanmış, kiçik zaman kəsiyində yüksək nailiyyətlər əldə etmiş Həsən müəllim həm də layiqli vətəndaş idi. O, doğma vətəni Azərbaycanı dərindən sevən, xalqımızın ən yaxşı keyfiyyətlərini

özündə cəmləşdirən, olduqca ciddi, xeyirxah, sözünə bütöv bir şəxsiyyət idi.

Yaxından tanıyanlar onu mərd, sözü üzə deyən, ikiüzlülüyü sevməyən, insanlara yaxşılıq etməyi sevən bir insan kimi qiymətləndirirdilər. Həsən müəllim, həmçinin, xalqımıza layiq qiymətli bir ailə qurmuş, nümunəvi ailə başçısı, sədaqətli ər, mehriban ata kimi də təqdirəlayiq insan olmuşdur.

Mən Həsən müəllimi 40 ildən artıqdır ki, tanıyırdım. Universitet həyatının çətin və keşməkeşli yollarını onunla birlikdə çiyin-çiyinə keçmişdik. Onun sevinci və kədəri mənim, mənim sevincim və kədərim isə onun olub. Bu 40 ildə mən ondan ancaq köməklik, xeyirxahlıq, yaxşılıq görmüşəm. Mənim inkişafımda və formalaşmağımda onun dost məsləhətlərinin və köməyinin böyük rolunun olduğunu etiraf etməklə bərabər indi aramızda olmayan əziz Həsən müəllim "Allah rəhmət etsin" deyirəm, onun müqəddəs ruhu qarşısında baş əyirəm.

Zaman keçəcək, illər bir-birini əvəz edəcək, Həsən müəllim kimi insanlar onu tanıyanların, həmkarlarının, dostlarının, tələbələrinin qəlbində həmişə yaşayacaqdır.

"Ölüm sevinməsin qoy"
"Nurlan", 2007. s. 73-75

KİTABXANALAR BARƏDƏ MƏLUMATLAR VƏ STATİSTİK GÖSTƏRİCİLƏR TOPLUSU

Bəşəriyyətin qədəm qoyduğu XXI əsr informasiya əsri adlanaraq qlobal informasiya mühitini təşkil edir. Qlobal informasiya mühitində müstəqil Azərbaycan dövləti bütün inkişaf sferalarında öz dinamik inkişafı ilə öz sözünü deyir. İnkişaf istiqamətləri sıralarında Azərbaycan mədəniyyəti dövlətin müdrik siyasəti nəticəsində daim inkişaf edərək dünya miqyasında özünü bütün çalarları ilə büruzə verir.

XX əsrin sonunda Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ümummilli liderimiz Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi suveren dövlətimizin tədricən inkişafı ilə əlamətdar oldu. Heydər Əliyev 1999-cu ilin iyun ayında M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasına gələrkən öz çıxışında demişdir: "Kitabxana xalq, millət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daim hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir".

Məhz H.Əliyevin kitabxana işinə böyük qayğısının təzahürü olaraq 1998-ci ildə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu qanun Azərbaycan kitabxana işinin əsas hüquqi bazasını təmin edərək kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini və vəzifələrini müəyyənləşdirdi, bu mühüm işin demokratik əsaslar üzərində qurulması və inkişaf etdirilməsi üçün perspektiv imkanlar açdı. H.Əliyevin kitabxana işi ilə bağlı gördüyü sanballı işlər Əməkdar elm xadimi, professor

A.Xələfovun "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" adlı monoqrafiyasında öz əksini çox geniş tapmışdır.

Hazırda respublikamızda kitabxana işinin modernləşdirilməsi gənc Prezidentimiz İlham Əliyevin fəaliyyət proqramı çərçivəsində həyata keçirilir. İlham Əliyevin kitabxana işinə qayğısının bariz nümunəsi olaraq onun 2007-ci il aprel ayının 20-də "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" sərəncam imzalaması daha böyük aktuallıq kəsb etmişdir. Bu sərəncama əsasən "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının hazırlanıb həyata keçirilməsi tələb edilir".

Göründüyü kimi, Azərbaycan Respublikasında kitabxana işinin dövlət siyasəti prioritet xarakter daşıyaraq dövlətin strateji maraqlarına xidmət edir. Respublikada kitabxana işi sahəsində Dövlət Proqramının yerinə yetirilməsi sahəsində Heydər Əliyev Fondu əməli və təcrübi işlər görür. Heydər Əliyev Fondunun sədri, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər Proqramı" çərçivəsində yeni modernləşmiş kitabxanalar istifadəyə verilmişdir. Hazırda respublika kitabxanaları virtual məkana daxil olaraq öz fəaliyyətini modernləşdirirlər. Respublika kitabxanalarında tətbiq edilən İRBİS-64 proqramının tələbləri kitabxana-informasiya fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılmasına xidmət edir. Digər dövlətlərlə birgə əməkdaşlıq təcrübəsi Respublika Mədəniyyət və Turizm Nazirliyi və onun rəhbəri, nazir Ə.Qarayevin gərgin fəaliyyəti nəticəsində daha da genişlənir. Bu baxımdan Mədəniyyət və Turizm Nazirliyi və Rusiya Federasiyası Mədəniyyət və Kütləvi Kommunikasiya Nazirliyi tərəfindən birgə hazırlanıb iki dildə - Azərbaycan və rus dillərində çap edilmiş "Kitabxanalar bilik cəmiyyətində" adlı məqalələr məcmuəsinin çapı olduqca təqdirəlayiqdir. Böyük zəhmətin və yaradıcılıq işinin nəticəsi kimi meydana çıxan, 32 çap vərəqi həcmində olan bu məcmuə kitabxanaların informasiya cəmiyyətində vəzifələrini, inkişaf istiqamətlərini müəyyənləşdirmək üçün olduqca böyük əhəmiyyət kəsb edir. Məcmuə Mədəniyyət və Turizm naziri Ə.Qarayevin giriş sözü və Rusiya Federasiyası Mədəniyyət və Kütləvi Kommunikasiya nazirinin təbrik məktubu ilə başlayır. Məcmuədə Mədəniyyət və Turizm nazirinin müavini, AMEA-nın müxbir üzvü S.Məmmədəliyevanın, tarix elmləri namizədi L.Məmmədovanın, əməkdar elm xadimi, prof. A.Xələfovun, dos. R.Kazımovun və başqalarının məqalələri çap olunmuşdur. Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə çap edilmiş bu məcmuədəki ayrı-ayrı məqalələrdə toxunulan problemlər Azərbaycan kitabxanalarının beynəlxalq imicinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir edir.

Respublikamızda kitabxana quruculuğu sahəsində Dövlət Proqramına uyğun olaraq Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin təşəbbüsü ilə son vaxtlar kitabxana işinin səmərəlilik meyarına təsir edə biləcək amillərə uyğun əməli tədbirlər həyata keçirilir. 2007-ci ildə "Nurlar" nəşriyyatı

tərəfindən çap edilmiş "Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında (Rəqəmlər və faktlar)" 2 cildlik ensiklopedik məlumat kitabının işıq üzü görməsi dediklərimizə sübutdur. 102 çap vərəqindən ibarət bu nəşrin layihə rəhbəri Ə.Qarayev, tərtib edənlər AMEA-nın müxbir üzvü S.Məmmədəliyeva və tarix elmləri namizədi L.Məmmədovadır. Kitabın rəyçiləri isə prof. A.Xələfov, dos. R.Kazımov, e.n. A.Kəngərlidir.

Mütəxəssislər və geniş oxucu kütləsi üçün təqdim olunan bu məcmuədə ilk dəfə olaraq respublikanın bütün kitabxanaları haqqında ensiklopedik məlumat verilmişdir. Məcmuənin əvvəlində son 4 il ərzində kitabxana işi, kitab nəşri sahəsində Azərbaycan mədəniyyətinin böyük təəssübkeşi olan möhtərəm Prezidentimiz İlham Əliyevin sərəncamının verilməsi kitabın qiymətini bir daha artırır.

Məcmuə 2 cilddən ibarətdir:

I cildə Mədəniyyət və Turizm Nazirliyinin kitabxana-informasiya şəbəkəsinə daxil olan kütləvi və uşaq kitabxanaları haqqında məlumat daxil edilmişdir.

II cildə isə müxtəlif nazirlik, idarə və komitələrin tabeçiliyində olan kitabxanalar haqqında məlumat daxil edilmişdir.

Məcmuənin I cildində Bakı şəhəri qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər proqramının kitabxanalar üzrə statistik cədvəli verilmişdir. Proqrama əsasən Bakının 5 inzibati rayonunun qəsəbələrində 13 kitabxananın modernləşməsi və 2 yeni kitabxana binasının inşası nəzərdə tutulmuşdur.

Məcmuənin I cildində respublikanın kitabxanaları 3 bölmə əsasında qruplaşdırılmışdır. I bölmədə ali dövlət orqanları kitabxanaları verilmişdir. Bura Prezident Kitabxanası və Parlament Kitabxanası daxil edilmişdir. II bölmədə Mədəniyyət və Turizm Nazirliyinin kitabxana-informasiya şəbəkəsi verilmişdir. Bu şəbəkəyə Milli Kitabxana, respublika əhəmiyyətli kitabxanalar, Bakı şəhərinin rayonları üzrə müxtəlif tip kitabxanalar, şəhər MKS-ləri və rayon MKS-ləri daxil edilmişdir. III bölmədə Naxçıvan Muxtar Respublikasının muxtar respublika əhəmiyyətli kitabxanaları və MKS-ləri ardıcıllıqla öz əksini tapmışdır.

Məcmuənin II cildi daha çox gərgin əmək tələb etmişdir. Burada bütün tip kitabxanalar 3 bölmə əsasında sistemli qaydada verilmişdir. Belə ki, I bölməyə Azərbaycan Milli Elmlər Akademiyasının kitabxana şəbəkəsi, II bölməyə nazirlik, dövlət komitələrinin tabeçiliyində olan respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar, III bölməyə isə nazirlik və dövlət komitələri, məhkəmə və prokurorluq orqanları, dövlət və konsernlərin tabeçiliyində olan kitabxanalar daxil edilmişdir,

Bir sözlə, qeyd etmək lazımdır ki, bu məcmuə ensiklopedik xarakter daşıyaraq respublikanın bütün tip kitabxanaları haqqında informasiya xarakterli məlumatları özündə əks etdirir.

Məcmuədə həmçinin əlavə olaraq ümummilli lider Heydər Əliyevin

kitabxana işi ilə bağlı çıxışları və kəlamları verilmişdir. Əlamətdar hal kimi qeyd etmək istəyirik ki, Azərbaycan kitabxanalarının inkişaf tempi məhz ümummilli lider Heydər Əliyevin hakimiyyətinin hər iki mərhələsində daha sürətlə artmışdır.

Beləliklə, Azərbaycan Respublikasının kitabxana işi tarixində ilk təşəbbüs olan "Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında" olduqca böyük həcmli ensiklopedik nəşrin meydana gəlməsi müstəqilliyimizə qiymətli töhfədir.

İnformasiya cəmiyyəti şəraitində respublikanın kitabxanaları haqqında ətraflı məlumat verən bu nəşrə həm elm, təhsil və mədəniyyət işçilərinin, ziyalıların, mütəxəssislərin, həm də geniş oxucu kütləsinin böyük tələbatı vardır. Bizcə, oxucu tələbatının ödənilməsində kitabın əvəzsiz əhəmiyyəti vardır.

Respublika Mədəniyyət və Turizm Nazirliyi respublika kitabxana şəbəkələrinin kompüterləşdirilməsi sahəsində böyük işlər görür, kitabxanaların virtual mühitə daxil olması üçün birgə layihələrdə iştirak edir. Qeyd etmək lazımdır ki, "Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında (Rəqəmlər və faktlar)" ədli ensiklopedik məcmuə Azərbaycan kitabxanalarının simasını özündə əks etdirir. Mədəniyyət və Turizm Nazirliyi, xüsusilə də nazir Ə.Qarayevin layihəsi əsasında tərtib edilmiş bu məcmuə Azərbaycan kitabxanalarının gələcək perspektivlərinin müəyyən edilməsində əsas prioritetlərindən biri olacaqdır.

E.Əhmədovla birlikdə.
"Respublika" qəzeti. 7 dekabr 2007

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA KİTABXANA QURUCULUĞU

Azərbaycanda kitabxana işinin inkişafının Heydər Əliyev mərhələsi kimi xarakterizə olunan 70-80-ci illərdə böyük öndərin həyata keçirdiyi müdrik siyasət nəticəsində geniş islahatlar aparılmış, kitabxana işi həm kəmiyyət, həm də keyfiyyətcə inkişaf edib təkmilləşmişdir. Dövlətin kitabxana işi sahəsində apardığı islahatlar nəticəsində kitabxanaların sayı artmış, yeni kitabxanalar yaradılmış, mövcud kitabxanaların maddi texniki bazası möhkəmləndirilmiş, binaları təmir edilmiş, yeni avadanlıqla təmin edilmiş, kitab fondları əsaslı şəkildə inkişaf etmiş, metodik təminat sistemi təkmilləşmiş, oxuculara xidmət sistemi tamamilə yenidən qurulmuş, yüksək ixtisaslı kadrlarla təmin edilmiş və nəhayət 70-ci illərdə bütün SSRİ miqyasında həyata keçirilən kitabxanaların mərkəzləşdirilməsi müvəffəqiyyətlə başa çatdırılmışdı. Bu dövrdə yüksək ixtisaslı kitabxanaçı kadrlar Bakı Dövlət Universitetinin kitabxanaçılıq-informasiya fakultəsi tərəfindən hazırlanırdı. 70-80-ci illərdə kitabxanaçılıq-informasiya fakultəsində qəbul planı iki dəfə artırılmış, fakultənin maddi

texniki bazası, kadr potensialı xeyli güclənmişdi. Ulu öndər Heydər Əliyev kitabxanaçı kadrların hazırlanmasına ciddi qayğı göstərirdi. Azərbaycanın uzaq kənd rayonları üçün kadrlar yetişdirilməsinə xüsusi qaydalar hazırlanmışdı. Respublikada nadir ixtisaslar üçün ali məktəblərə müsabiqədənkənar qəbul aparılırdı. Kitabxanaçılıq ixtisası da bu plana daxil edilmişdi. İldə təxminən 60-70 nəfər Azərbaycanın uzaq kənd rayonlarında yaşayan gənclərdən əlavə olaraq kitabxanaçılıq fakültəsinə qəbul edilirdi. Bu tədbir 70-80-ci illərdə kənd kitabxanalarını yüksək ixtisaslı mütəxəssis kadrlarla təmin etməkdə böyük rol oynadı.

Həmçinin 60-70-ci illərdə respublikamızın mənəvi həyatında xalqımızın öz soy kökünə, milli adət-ənənələrinə qayıtması prosesi geniş vüsət almış, bütün xalq kütləsini əhatə etmişdir. Milli özünüdərk, milli mənlik şüurunun yeniləşməsi, milli ideologiyanın formalaşması kitabxana işinə də öz təsirini göstərmiş, kitabxana işinin məzmununda yeni dünyagörüşü, xalqın tarixini, dilini, ədəbiyyatını, mədəniyyətini, vətən məhəbbətini və vətənpərvərlik ideyalarını təbliğ etmək prosesi geniş vüsət almışdı. Bu proses kitabxana işinin bütün formalarını, kitab fondunun komplektləşdirilməsi, oxuculara xidmət, kitabxanaların idarə olunması, məlumat-biblioqrafiya, kütləvi işlər və s. sahələri əhatə etmişdi. Bütün bunlar ölkəmizdə sovet senzurasının hökm sürdüyü, milli ideologiyaya düşmən ideologiyası kimi baxıldığı, milləti sevməyin millətçilik kimi qiymətləndirildiyi, böyük rus şovinizminin hökmranlıq etdiyi bir dövrdə baş verirdi. Bütün bunlar ulu öndərin ölkə miqyasında həyata keçirdiyi siyasət sahəsində mümkün olmuşdur.

Beləliklə, 1970-1980-ci illərdə kitabxana işinin inkişafının Heydər Əliyev mərhələsində əldə edilmiş nailiyyətləri daha dəqiq göstərmək üçün rəqəmlərə müraciət edək.

Əgər 1970-ci ildə Azərbaycanda 25 milyon 400min nüsxə kitab fonduna malik 2923 kütləvi kitabxana var idisə, 1985-ci ildə 38 milyon 800 min kitab fondu olan 4245 kütləvi kitabxana fəaliyyət göstərirdi. Son 15 ildə kitabxanaların sayı 1322 ədəd. Kitab fondu isə 13 milyon 400 min nüsxə artmışdır. Əgər kütləvi kitabxanalarda orta hesabla hər oxucuya 90 kitab düşürdüsə, 1985-ci ildə 578 kitab düşürdü. Yəni son 15 ildə hər 100 nəfərə düşən kitabların miqdarı 488 nüsxə artmışdır. Açılan yeni kitabxanaların bilavasitə indiyə qədər kitabxanası olmayan yaşayış məntəqələrində açılması olduqca böyük nailiyyət idi. Dövrün əsas xüsusiyyətlərindən biri uzun illərdən bəri dövlət orqanlarının diqqətindən kənarda qalmış kənd kitabxana şəbəkəsinin inkişafına böyük qayğı olmuşdur. Bu dövrdə kənd yerlərində 1192 yeni kitabxana açılmış, onların fonduna 7 milyon 800 min nüsxə kitab daxil olmuşdur.

1970-1985-ci illərdə əhaliyə kitabxana xidməti sahəsində əldə edilmiş ən böyük nailiyyət kitabxana oxucularının sayının və onlara verilən kitabların miqdarının artması olmuşdur. Əgər 1980-ci ildə bütün kütləvi kitabxanalarda 2.7 milyon oxucu olmuş, onlara 61.3 milyon kitab və jurnal verilmişdirsə, 1985-ci ildə 3.2 milyon oxucu olmuş, onlara 68 milyon nüsxə kitab və jurnal

verilmişdir. İl ərzində hər bir oxucuya verilən kitab və jurnalların sayı da xeyli çoxalmışdır. Orta hesabla hər bir oxucuya 23 kitab düşürdü.

Respublikamızda "Kitabxana işinin inkişafında Heydər Əliyev mərhələsi" kimi xarakterizə edilən 1970-1985-ci illərdə kütləvi kitabxana şəbəkəsi ilə yanaşı olaraq Azərbaycan təhsil, səhiyyə, kənd təsərrüfatı və s. nazirliklərin, AMEA-nın, idarə və müəssisələrin, partiya və həmkarlar təşkilatlarının kitabxana şəbəkələri ilə böyük inkişaf yolu keçmiş, oxuculara kitabxana xidmətinin təşkili sahəsində böyük nailiyyətlər əldə etmişdir. Ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin, kitabxana şəbəkələrinin miqdarı əhəmiyyətli dərəcədə artmışdır. Xüsusilə ölkəmizdə elmin, texnikanın , təhsilin inkişafı ilə əlaqədar təhsil, elmi və xüsusi kitabxana şəbəkələrinin miqdarı artmış, onların ölkənin elmi-informasiya təminatında rolu güclənmişdir. Artıq 1981-ci ildə respublikada 8905 kitabxana fəaliyyət göstərirdi. Onların fondunda təxminən 70 milyon nüsxəyə qədər kitab toplanmışdır. Respublikamız kitabxana şəbəkələrinin sıx yerləşdiyi böyük kitab sərvəti ölkəsinə çevrilmişdir.

Bu göstəricilərin arxasında Azərbaycan mədəniyyətinə, kitab və kitabxana işinə xalq qayğısı xalqın böyük oğlu Heydər Əliyevin dönməz iradəsi dayanmışdı.

1982-ci ildə Heydər Əliyevin Moskvaya rəhbər vəzifəyə getməsilə əlaqədar onun fəaliyyətinin Azərbaycan mərhələsi başa çatdı. Bu mərhələ Azərbaycanın həyatında çox uğurlu mərhələ kimi tarixin səhifələrinə həkk olundu. Bu mərhələnin yaradıcı və təşkilatçısı ulu öndər Heydər Əliyev öz doğma xalqının yaddaşında görkəmli dövlət xadimi, böyük siyasətçi, yüksək şəxsiyyət, müqəddəs bir insan kimi əbədiləşdi.

Heydər Əliyevin respublikadan getməsi tezliklə hiss edilməyə başladı. Respublikanın inkişafında tənəzzül baş verdi. Bu tənəzzül 80-ci illərin axırlarında və 90-cı illərin əvvəllərində daha da dərinləşdi, böhran həddinə gəlib çatdı.

1991-ci ilin oktyabrında Azərbaycan Ali Sovetinin sessiyası Azərbaycan Respublikasının dövlət müstəqilliyini elan etdi. Lakin dövlət müstəqilliyini qoruyub saxlamaq və daha da möhkəmləndirmək mümkün olmadı. Hakimiyyəti ələ keçirmiş iradəsiz, idarəçilik qabiliyyəti olmayan, azğın erməni faşizminə qarşı mübarizə aparmaq, torpaqlarımızı qorumaq qabiliyyətindən uzaq rəhbərlər tezliklə rəhbərlikdən uzaqlaşdırıldılar. 1992-ci ildə hakimiyyətə gələn Xalq Cəbhəsi-Müsavat cütlüyü də nə daxili, nə də xarici siyasətdə bir dönüş yarada bilmədilər. Səriştəsiz insanlardan ibarət olan bu dövlət ölkə daxilində gedən prosesləri tənzimləyə bilmədi. Ölkədə xaos, anarxiya hökm sürməyə başladı. Ölkə iqtisadiyyatı dağılmağa, xalqın milli sərvəti talan edilməyə başladı. Cəbhədəki məğlubiyyətlər hökuməti iflic vəziyyətə saldı. Ölkə vətəndaş müharibəsi və etnik toqquşmalar meydanına çevrilmişdi. Vətəndaş müharibəsi getdikcə reallaşırdı. Azərbaycanın ayrı-ayrı "xanlıqlara" bölünməsi təhlükəsi reallaşırdı.

Bax belə bir fəlakət anında müdrik Azərbaycan xalqı vətənin yeganə

ümid yeri, qurtuluş məşəli, xalqın böyük vətənpərvər oğlu Heydər Əliyevi hakimiyyətə gətirdi. Heydər Əliyev boş qalmış idarəçilik sükanının arxasına keçdi. Bununla da Azərbaycanın xarici və daxili düşmənlərinin arzusu gözlərində qaldı.

Məhz həmin gün - 1993-cü ilin iyun günləri ilə Azərbaycanın qurtuluşu başladı. Xalqımız bu günü öz xilaskar oğlu Heydər Əliyevin şərəfinə "Qurtuluş günü" adlandırdı.

Heydər Əliyev olduqca çətin bir dövrdə hakimiyyətə gəlmişdi. Azərbaycan dövlətçiliyinin xilaskarı olan Heydər Əliyev ölkəmizi parçalanmaq təhlükəsinin, vətəndaş müharibəsinin və torpaqlarımızın işğal edilməsinin qarşısını aldı. Ölkədə iqtisadi, ictimai-siyasi, ideoloji-mənəvi həyatın normallaşmasına, ən mühümü isə sabitləşməsinə nail oldu. Ölkədə xaos, hərcmərclik aradan qaldırıldı. Hər şey öz axarına düşdü. Ölkənin iqtisadi, siyasi inkişafında baş verən dəyişikliklər, mədəniyyət, təhsil, elm və ümumiyətlə sosial sahədə böyük islahatlar aparmaq, göstərilən sahələri inkişaf etdirmək imkanı verdi.

Müstəqilliyin ilk illərində ulu öndərin bilavasitə rəhbərliyi və qayğısı nəticəsində mədəniyyətimizin ayrılmaz hissəsi olan kitabxana işi sahəsində əsaslı islahatlar aparmaq, kitabxanaları qoruyub saxlamaq və inkişaf etdirmək mümkün oldu. Doğrudur, sovetlər ittifaqı dövründə, xüsusilə 1970-80-ci illərdə respublikamızda kitabxana işinin inkişafı sahəsində xeyli müvəffəqiyyətlər əldə edilmişdir. Ancaq 80-ci illərin axırı - 90-cı illərin əvvələrində ölkədə baş verən hakimiyyətsizlik, xaos, anarxiya, iqdisadi böhran kitanxana işinə olduqca zərbə vurmuş, onu məhv olmaq təhlükəsi qarşısında qoymuşdur. Sözün əsl mənasında Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsi ölkənin bütövlükdə qurtuluşu olduğu kimi kitabxanaları da məhvdən qurtardı. Azərbaycan kitabxana ictimaiyyəti Heydər Əliyevi Azərbaycanımızın, millətimizin, xalqımızın xilaskarı olduğu kimi kitabxanalarımızında xilaskarı hesab edir.

80-ci illərin axırı-90-cı illərin əvvəllərində kitabxana işinə ayrılan büdcə yarıbayarı azaldılmışdı. Kitabxanalara kitab almaq üçün ayrılan vəsait dayandırılmışdı. Kitabxanaların binalarının alınması, digər sosial obyektlərə çevrilməsi haqqında dövlət səviyyəsində səslər ucalmağa başlamışdı.

Məhz 1993-cü ildə AXCP müsavat cütlüyünün hakimiyyəti dövründə Bakı şəhərində və respublikanın digər regionlarında kitabxanaların binaları əlindən alınır, kitabxanalar yararsız binalara köçürülürdü. Bu dövrdə AXC-nin müsavat rəhbərliyinin yuxarı dairələrində elmi müəssisələrin, mədəniyyət ocaqlarının bağlanması haqqında sərsəm fikirlər söyləməyə başlamış, bir çox mədəniyyət müəssisələrinin binası alınmış, kitabxanalar bağlanmışdır. 1992-ci ildə respublika tibb kitabxanasının binası Qubkin adına həmkarlar ittifaqı kitabxanasının binası, həmçinin onlarca həmkarlar təşkilatı kitabxanaların binaları, ölkədə zavod və fabriklərin bağlanması ilə əlaqədar texniki kitabxanaların binaları, partiya təşkilatlarının kitabxana binaları alınışdı. Kitabxana binalarının alınmasında işbazlara kömək edən əsas bəhanələrdən biri binaların özəlləşdirilməsi olmuşdur. Məhz 1992-1993-cü illərdə kiçik bir zaman kəsi-

yində yüzdən artıq partiya kitabxanası, həmkarlar təşkilatının 326 kitabxanası həmçinin 100-ə yaxın texniki kitabxana bağlanmağa məruz qalmışdı.

1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi mədəniyyəmizin ayrılmaz tərkib hissəsi olan kitabxanaların bağlanması onların binalarının əlindən alınması təhlükəsinin qarşısı alındı. Kitabxanaların qorunub saxlanılması və maliyyələşdirilməsi haqqında dövlət orqanlarına göstərişlər verildi.

1995-ci il sentyabrın 29-da "Azərbaycan Respublikasında 1995-1998-ci illər dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının qanunu ilə fərman imzalandı.Bu fərmanın birinci bölməsində "özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlərin siyahısı" verilmişdir. Bu siyahıya kitabxanaların daxil edilməsi kitabxanaları özəlləşdirmək və binalarını ələ keçirmək bəlasından xilas etdi.

1993-1999-cu illər keçid dövrü Azərbaycanda kitabxana işinin tarixinə kitabxanaların qorunub saxlanılması uğrunda mübarizə illəri kimi daxil olmuşdur. Bu mübarizənin başında kitabxananı yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev dururdu. Keçid dövrünün hər cür çətinliyinə baxmayaraq bir sıra ictimai təşkilatların kitabxanaları istisna olmaqla Azərbaycan keçmiş SSRİ məkanında bütünlükdə dövlət kitabxana şəbəkəsini qoruyub saxlamağa müvəffəq olmuş yeganə dövlət olmuşdur.

1996-cı ildə bilavasitə Prezidentin tövsiyəsi ilə Azərbaycan Nazirlər kabineti "Kitabxana işi haqqında" qərar qəbul etdi. Bu qərarda kitabxana şəbəkələrinin qorunub saxlanılması və əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılması vəzifəsi qarşıda qoyulmuşdur.

Doğrudur, keçid dövrünün çətinlikləri ilə əlaqədar kitabxanalara kitab almaq üçün dövlət büdcəsindən vəsait ayrılması bu çətinliyin aradan qaldırılmasına vəzifəsi qarşıda qoyulmuşdur.

90-cı illərin axırlarında çətinliklə və zəif olsa da, ayrı-ayrı nazirliklərin, elmi müəssisələrin böyük kitabxanaları informasiya texnologiyası ilə təmin olunmağa, kompüterləşdirilməyə və İnternetə qoşulmağa başladı.

Kitabxana işində demokratik prinsiplər geniş yer alır, müstəqil, suveren, dünyəvi, demokratik, hüquqi Azərbaycan dövlətinin kitabxana işi sahəsində siyasəti formalaşırdı. Bu siyasətin əsasında ulu öndər Heydər Əliyevin mədəniyyət, təhsil, elm, kitab və kitabxana işi haqqında ideyaları dururdu.

Ulu öndər Heydər Əliyevin kitabxana işinə yüksək münasibətini və qayğısını göstərən əsas amillərdən biri M.F.Axundov adına Milli Kitabxanaya göstərdiyi böyük diqqətdir. Vaxtının məhdud olmasına baxmayaraq hörmətli Prezident 1995-1997-ci illərdə üç dəfə həmin kitabxanaya gəlmiş, onun işi ilə tanış olmuş, burada kitabxana işçiləri və oxucular qarşısında olduqca böyük elmi-mədəni və fəlsəfi əhəmiyyətə malik tarixi nitq söyləmişdir.

Məlum həqiqətdir ki, dünyanın görkəmli dövlət, elm və mədəniyyət xadimləri, alimləri və mütəfəkkirləri çox qiymətli elmi mədəni, fəlsəfi əhəmiyyət kəsb edən fikirlər söyləmişlər. Bu fikirlər içərisində Heydər Əliyevin kəlamları öz məzmunu, elmi əhəmiyyəti və mahiyyəti etibarilə çox yüksəkdə durur.

Heydər Əliyev deyir: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir". Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin böyük əhəmiyyət kəsb edən bu kəlamları dünya mədəniyyəti tarixində kitabxanaya verilən ən müdrik qiymətdir.

90-cı illərin axırında ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə respublikamızda mədəniyyətin ayrı-ayrı sahələri haqqında qanunlar qəbul edildi. 1998-ci ildə ölkəmizin tarixində ilk dəfə olaraq Milli Məclis "Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu"nu qəbul etdi. 6 fəsil, 34 maddədən ibarət olan bu qanun "kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işi və kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdırılması və mühafizəsi tələblərini, kitabxanalardan istifadə sahəsində vətəndaşların hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən edir".

Ulu öndər Heydər Əliyev tərəfindən imzalanmış bu qanun respublikamızda kitabxana quruculuğu sahəsində mühüm dövlət sənədi kimi kitabxana işinin gələcək inkişaf yolunu işıqlandırmaqla, respublika kitabxana ictimaiyyətinə ulu öndər tərəfindən bir hədiyyə oldu.

Bu qanun Azərbaycanda kitabxana işində dövlət münasibətinin, dövlət qayğısının və dövlət siyasətinin əsası, onun məhək daşıdır, respublikada kitabxana işinin qorunub saxlanılmasının və inkişafının hüquqi bazasıdır. Müstəqillik illərində respublikamızda keçid dövrünün çətinliyinə baxmayaraq ulu öndər Heydər Əliyevin böyük dövletçilik siyasəti nəticəsində MDB ölkələrindən fərqli olaraq bir dənə də olsun dövlət kitabxanası baglanmadı. Ölkəmizdə ən böyük şəbəkə olan Mədəniyyət Nazirliyinin kitabxana şəbəkəsi çətinliklə də olsa yaşadı, fəaliyyət göstərdi, əhaliyə kitabxana xidməti təşkilini müvəffəqiyyətlə davam etdirdi. Kitabxanalar dövlətçiliyimizin, milli ideologiyamızın, xalqımızın ümummilli lideri Heydər Əliyevin irsini təbliğ etməkdə mühüm işlər görür. Bu şəbəkəyə bir milli kitabxana, bir Muxtar Respublika Dövlət Kitabxanası, iki respublika əhəmiyyətli sahəvi kitabxana, 74 şəhər və mərkəzləşdirilmiş rayon kitabxanası, 3774 kənd kitabxanası daxildir. Orta hesabla əhalinin hər 700 nəfərinə bir stasionar kitabxana düşür. Kitabxanaların fondunda 40 milyona yaxın kitab toplanmışdır. Orta hesabla ildə kitabxanalara 130 min nüsxə kitab, 30 min audiovizual sənəd daxil olur. Daxil olan ədəbiyyatın əksəriyyətini - 110 min nüsxədən artığını Azərbaycan dilində ədəbiyyat təşkil edir. Keçid dövrünün çətin şəraitində Mədəniyyət Nazirliyinin respublika əhəmiyyətli kitabxanaları: M.F.Axundov adına Respublika Milli Kitabxanası, Naxçıvan Muxtar Respublika Dövlət Kitabxanası, F.B.Köçərli adına Respublika Uşaq Kitabxanası və C.Cabbarlı adına Gənclər Kitabxanası öz fəaliyyətini davam etdirmiş, oxuculara xidmət işini daim yaxşılaşdırmağa nail olmuşlar. Təkcə kütləvi kitabxanalar 2000-ci ildə 3 milyondan artıq oxucuya

xidmət etmişdir.

Müstəqillik illərində böyük çətinliklə də olsa, kitabxanaların kadr potensialını qoruyub saxlamaq mümkün olmuşdur. Bu dövrdə respublikamızın kitabxanalarında təxminən 30 minə yaxın kitabxana işçisi çalışırdı. Bunlardan 8167 nəfəri Mədəniyyət Nazirliyinin kitabxana sistemində işləyirdi. Onların 1552 nəfəri ali təhsilli, 3273 nəfəri isə orta və orta ixtisas təhsilli işçilərdir.

Müstəqillik dövründə ali peşə təhsilli kitabxana işçilərini Bakı Dövlət Universitetinin kitabxanaçılıq-informasiya fakültəsi hazırlayırdı. Keçid dövrünün çətinliklərinə baxmayaraq fakültə ali təhsilli kitabxanaçı kadrların hazırlanmasını dayandırmamış, fakültənin qəbul planı azalmamışdı. Müstəqillik illərində fakültə 3 mindən artıq peşə ixtisas təhsilli kadr hazırlanmışdır. Fakültədə kadr hazırlığında ciddi islahatlar aparılmış, kadr hazırlığı keyfiyyətcə yaxşılaşdırılmışdır. İndi Bakı Dövlət Universiteti kitabxanaçılıq- informasiya fakültəsinin yetirmələri müstəqil respublikamızın kitabxana və informasiya müəssisələrində aparıcı mütəxəssis kimi çalışmaqdadırlar.

Müstəqillik illərində Azərbaycanda ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi və qayğısı sayəsində ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin kitabxana şəbəkələri cəmiyyətin informasiya təminatında yaxından iştirak etməklə oxuculara kitabxana xidmətinin təşkilində mühüm mədəni əhəmiyyətə malik tədbirlər həyata keçirdilər. Respublikamızda Mədəniyyət Nazirliyindən sonra ən böyük şəbəkəyə malik Təhsil Nazirliyinin kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsində və yeni kitabxanalar yaradılmasında mühüm işlər görüldü. Hazırda Təhsil Nazirliyinin kitabxana sistemində 4500-dən artıq kitabxana fəaliyyət göstərirdi.

Müstəqillik illərində respublikamızın digər kitabxana şəbəkələri: Azərbaycan Səhiyyə Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, İqdisadiyyat Nazirliyinin, həmçinin AMEA-nın kitabxana şəbəkələri də qarşıya çıxan bütün çətinlikləri müvəffəqiyyətlə dəf edərək oxuculara kitabxana xidmətini davam etdirmiş və daha da təkmilləşdirmişdir. Xüsusilə elmi və xüsusi kitabxanalar informasiya cəmiyyətinin qarşıda qoyduğu vəzifələrə müvafiq olaraq kitabxanaların informasiya texnologiyası ilə təchiz olunmasına kitabxana işinin kompüterləşdirilməsinə və İnternetə qoşulmağa nail oldular.

Müstəqillik illərində respublikamızda yeni dövlət statusuna malik kitabxanalar yaradılmış və bir sıra kitabxanalara ali status verilmişdir.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə 2003-cü ildə Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Kitabxanası yarandı. Kitabxana Bakı şəhərinin iki ən qədim kitabxanasının: Mərkəzi şəhər kitabxanasının və Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi təsərrüfat şöbəsi nəzdində olan kitabxananın bazasında təşkil edildi. İndi kitabxana yüksək kitabxana-informasiya texnologiyası ilə təchiz edilmiş, respublikamızda dövlət idarə orqanlarının işçilərinin informasiya təminatını həyata keçirən böyük mədəniyyət mərkəzinə çevrilmişdir.

Müstəqillik illərində Heydər Əliyevin bilavasitə təşəbbüsü və qayğısı ilə

yaranan kitabxanalardan biri də Azərbaycan Respublikasının Milli Məclisinin kitabxanası olmuşdur. Parlament kitabxanası statusuna malik olan bu kitabxana Milli Məclis aparatının işçilərinə xidmət etməklə yanaşı, deputatların informasiya təminatında yaxından iştirak edir, bilavasitə onların tələb və sorğularının ödənilməsinə xidmət edir.

Müstəqillik illərində respublikamızın böyük elmi kitabxanaları da yüksək status almağa müvəffəq olmuşdur. M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının (Milli Kitabxana) elmi tədqiqat müəssisəsi statusu alması ölkəmizin kitabxana işi tarixində mühüm əlamətdar hadisə kimi qiymətləndirilməlidir.

Həmçinin respublika elminin baş qərargahı olan AMEA-nın Mərkəzi Elmi Kitabxanasının elmi tədqiqat statusu alması da təqdirəlayiq hadisələrdən biridir, respublika kitabxanaçılığına böyük hədiyyədir. İftixar hissi ilə demək olar ki, hər iki kitabxana ulu öndər Heydər Əliyevin sərəncamı ilə yüksək statusa layiq görülmüşdür.

Beləliklə, XX əsrin II yarısı və XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin tarixinin tədqiq edilib öyrənilməsi bir daha təsdiq edir ki, göstərilən dövrdə kitabxana işinin inkişafı bilavasitə ulu öndər, xalqımızın ümummilli lideri, Azərbaycan xalqının, Azərbaycan dövlətçiliyinin xilaskarı, müstəqil Azərbaycan dövlətinin memarı, Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin böyük hamisi, türk dünyasının ulduzu Heydər Əliyevin adı ilə, onun böyük xidmətləri ilə bağlı olmuşdur. Hazırda Heydər Əliyev dühası Azərbaycan kitabxana işinin yolunu işıqlandırır.

Müstəqil Azərbaycan Respublikasında əsası müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyev tərəfindən qoyulmuş kitabxana siyasətini son illərdə respublikamızın müdrik Prezidenti İlham Əliyev böyük məharətlə həyata keçirir. Ölkəmiz son beş ildə Heydər Əliyev strategiyasını layiqincə davam etdirərək böyük uğurlar qazanmışdır. Bu uğurlarda Heydər Əliyev ideya irsini, azərbaycançılıq fəlsəfi konsepsiyasını dərindən mənimsəyən İlham Əliyevin Azərbaycan cəmiyyətini bacarıqla irəli aparan məqsədyönlü siyasəti olduqca böyük rol oynayır. Qısa zaman kəsiyində İlham Əliyev ölkənin iqtisadi, siyasi və mədəni inkişafında, xalqın sosial vəziyyətinin yaxşılaşmasında böyük uğurlar qazandı.Bu uğurlar ölkə daxilində və beynəlxalq aləmdə onun dövlət başçısı kimi imicini yüksəklərə qaldırdı. Ölkəmizdə xalq təsərrüfatının, mədəniyyətin bütün sahələri ilə yanaşı mədəniyyətin mühüm tərkib hissələrindən biri olan kitabxana işi sahəsində məqsədyönlü mütərəqqi tədbirlər görüldü. Bu illər mədəni quruculuğun bütün sahələrində dönüş illəri olmuşdur. Mədəniyyətə, o cümlədən kitabxana işinə ayrılan dövlət vəsaiti 3 dəfəyə yaxın artmış, kitabxana işinə dair ölkə Prezidentinin çox böyük əhəmiyyətə malik olan sərəncamları imzalanmışdır. Ölkəmizdə latın qrafikasına keçidlə əlaqədar tezliklə ədəbiyyat qıtlığı hiss edilməyə başladı. Respublikamızda kitablar 64 il ərzində kiril əlifbası ilə çap edilmişdir, kitabxanalarımızın fondunda kiril əlifbası ilə çap edilmiş 150 milyondan artıq kitab saxlanılırdı.

Bütün dünya ədəbiyyatı klassiklərimizin, alimlərin əsərləri kiril əlifbası ilə çap olunmuşdu. Bu böyük milli mədəni sərvəti gənc nəslin istifadəsinə vermək dövlət əhəmiyyətli bir vəzifə idi. Bu böyük ideoloji, mənəvi, milli problemin həllində Heydər Əliyev siyasətinin görkəmli davamçısı Prezident İlham Əliyevin 12 yanvar 2004-cü ildə imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncam böyük əhəmiyyət kəsb etdi. Kiril əlifbası ilə çap edilən kitablar Prezident tərəfindən təsdiq edilmiş siyahıya əsasən çap edilməyə başladı. Bu sərəncama görə nəşr edilən kitablar dövlət büdcəsi hesabına çap edilir, bütün kütləvi kitabxanalara və məktəb kitabxanalarına pulsuz verilir. Son 3 il ərzində 9 milyon nüsxədən artıq kitab nəşr edilib kitabxanalara verilmişdir. Böyük iftixar hissi ilə demək olar ki, bu tədbir Azərbaycan kitabxanalarına, Azərbaycanın çox saylı oxucularına böyük dövlət qayğısıdır. Bu yaxınlarda (20 aprel 2007-ci il) hörmətli Prezidentimizin imzaladığı "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" sərəncam bir daha sübut edir ki, İlham Əliyev vaxtilə kitabxanaları "müqəddəs bir yer, bilik və zəka mənbəyi" kimi qiymətləndirmiş, ulu öndər Heydər Əliyevin bütün sahələrdə olduğu kimi kitabxana işi sahəsində apardığı siyasətin layiqli davamçısıdır. Azərbaycan kitabxanalarını xalqın milli sərvəti kimi qiymətləndirən bu sənət ilk dəfədir ki, kitabxana işinin əhəmiyyəti, əhəmiyyətdə tutduğu mövqe, müasir informasiya cəmiyyəti şəraitində kitabxanaların vəzifələri, gələcək inkişaf istiqamətləri və perspektivlərini müəyyənləşdirən böyük proqram əhəmiyyətinə malikdir. Sənəddə qarşıda qoyulan vəzifələrin yerinə yetirilməsi respublikamızda kitabxana işinin perspektiv inkişafının rəhnidir, Heydər Əliyev tərəfindən əsası qoyulub formalaşan kitabxana siyasətinin daha da inkişaf etdirilməsidir.

Ulu öndər Heydər Əliyev ideya irsinin ardıcıl olaraq yerinə yetirilməsini. özünün mühüm vəzifəsi hesab edən möhtərəm Prezidentimiz İlham Əliyev deyir: "Heydər Əliyevin ideyaları onun fəlsəfi ideyaları yaşayır və onun qurduğu, yaratdığı müasir Azaərbaycan yaşayır və onun yolu ilə inkişaf edir."

"Respublika" qəzeti. 8 aprel 2008

BƏNZƏRSİZ FİLOSOF, MAHİR PEDAQOQ

Elə alimlərimiz var ki, onların qazandığı nailiyyətlər təkcə özünə deyil, bütövlükdə Azərbaycan elminə ucalıq gətirir, nəsillərin iftixar mənbəyinə çevrilir. Bu baxımdan ölkəmizin hüdudlarından kənarda da görkəmli filosof kii məşhur olan əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor Camal Mustafayev, adı həmişə ehtiramla çəkilən elm fədaisidir. O, sözün həqiqi mənasında, özünün zəngin mənəvi dünyası, güclü zəkası, möhkəm iradəsi, yüksək ziyalılığı ilə ictimaiyyət arasında çox böyük nüfuz qazanmış alim, el ağsaqqalıdır. Məncə, bu, çox böyük məsələdir.

Ömür yolu Qarayazının - Gürcüstanın indiki Qardabani rayonunun Kosalı kəndindən başlayan Camal Vəli oğlu Mustafayev şərəfli və ibrətamiz bir həyat yaşamış, nəsillərin güvənc yerinə çevrilmişdir.

Unudulmaz şairimiz Səməf Vurğunun zəmanəti ilə Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsini bitirən Camal Mustafayev sonralar SSRİ EA Fəlsəfə İnstitutunun əyani aspiranturasında təhlilini uğurla davam etdirmiş, böyük şairin etimadını layiqincə doğruldaraq elm və insanlığın zirvəsinə yüksəlməyi bacarmış, özünü hərtərəfli təsdiqləyə bilmişdir.

Camal müəllim cavanlığında bir müddət doğma Qarayazı rayonunda pedaqoji fəaliyyətlə məşğul olmuş, gəclərin maarifləndirməsində müstəsna xidmətlər göstərmişdir. Böyük fəxrlə deyə bilərik ki, onun dərs dediyi şagirdlərin əksəriyyəti sonradan elmin müxtəlif sahələrində ad qazanmış, alimlik dərəcələri almış yurda şərəf gətirmişlər.

Camal Mustafayev sonralar Azərbaycan EA Fəlsəfə və Hüquq İnstitutunda işləmiş, Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda fəlsəfə kafedrasının müdiri, Bakı Dövlət Universitetinin etika və estetika kafedrasının müdiri vəzifələrində çalışmış, həmişə də ona göstərilən etimadı yüksək səviyyədə doğrultmuşdur.

Bu gün fəxrlə deyə bilərik ki, o, elə gənclik illərindən dahi Nizami Gəncəvinin fəlsəfəsini, etik görüşlərini kompleks şəkildə araşdırmağa başlamış, bu elmi sahənin orjinal tədqiqatçısı kimi böyük şöhrət qazanmışdır. Təsadüfi deyil ki, onun həm namizədlik, həm də doktorluq dissertasiyaları ulu Nizaminin ölməz irsi ilə əlaqədar olmuşdur.

Professor Camal Mustafayev Nizami fəlsəfəsini, Nizami dünyasını kompleks şəkildə yüksək səviyyədə ilk dəfə tədqiq edən bir filosofdur. Fikrimi bir az da dəqiqləşdirərək cəsarətlə deyə bilərəm ki, Azərbaycan fəlsəfə tarixini tədqiq edən alimlər arasında professor Camal Mustafayev ən böyük şəxsiyyətdir.

Onun orta əsrlər Azərbaycan fəlsəfi fikri sahəsində apardığı sanballı araşdırmaları, Şərq xalqlarının düşüncə tərzinə dair tədqiqat işləri Moskvanın və başqa şəhərlərin nüfuzlu jurnallarında çap olunmuş fəlsəfi əsərləri geniş mütəxəssis oxucu kütləsinə çox yaxşı tanışdır və çox böyük rəğbət qazanmışdır.

Professor Camal Mustafayev eyni zamanda Azərbaycan ədəbiyyatının cəfakeş tədqiqatçısı, müasir Azərbaycan yazıçısı və şairlərinin sədaqətli dostudur.

Mən dəfələrlə şahidi olmuşam ki, xüsusilə klassik ədiblərimizin zəngin irsi, müasir şeirimizin inkişaf istiqamətləri, müxtəlif nəsillərə mənsub şairlərimizin yaradıcılığı haqqında alimin poetik düşüncələri həmişə hörmətlə qarşılanır, çox zaman ustad bir tənqidçinin fikri ki, etalon hesab edilir. Bu onunla bağlıdır ki, Camal müəllim olduqca obyektiv, olduqcaprinsipial bir ziyalıdır. O, Azərbaycan və dünya ədəbiyyatına dərindən bələd olan ədəbiyyatşünas və filosof kimi hər bir yaradıcı şəxsə layiq olduğu qiymәti verməyi çox yaxşı bacarır.

Bir cəhətidə mütləq qeyd etməliyəm ki, Camal müəllim həm də milli folklorumuzun əvəzsiz xiridarı, aşıq sənətinin bilicisi, ulu sazın təbliğatçısıdır.

Onun hüzurunda hər aşıq sazı sinəsinə basıb dilləndirməyə cəsarət etmir. Bu, faktın özü də Camal müəllimin ustadlığını bir daha təsdiqləyir.

Camal Mustafayevi yarım əsrdən bəri taniyan bir insan kimi deye bilərəm ki, o mütaliə dairəsi çox geniş, dünyagörüşü çox zəngin olan bənzərsiz alimdir. Bəlkə də gününü kitabxanalarda, kitablar arasında keçirən ziyalıların siyahısı yazılsaydı, Camal müəllim mütləq birinci yeri tutardı. Elə yaşının müdrik çağlarında da onu tez-tez M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasında, Milli Elmlər Akademiyasının Mərkəzi Elmi kitabxanasında və başqa kitabxanalarda axtarış apararaq mütaliə ilə məşğul olan görmək olar. Mənca, cavan tədqiqatçılarımız onun kitaba, mütaliəyə, kitabxanaya olan sönməz sevgisinindən də öyrənməlidirlər.

Yeri gəlmişkən, mən Camal müəllimin bir xeyirxahlığını heç vaxt unuda bilmərəm. 1961-ci il idi. Sovet dövlətinin qaydalarına uyğun olaraq namizədlik dissertasiyamın avtoreferatı rus dilinə tərcümə olunmalıdı idi. Bir neçə adama müraciət etdim. Dedilər ki, biu işi Camal Mustafayev daha yaxşı görə bilər. Gğrüşüb xahişimi bildirdim. Dərhal gülümsünüb:"Narahat olma, qısa müddətə tərcümə edərəm,"- dedi. Bir neçə gündən sonra avtoreferatımın rus dilinə yüksək səviyyədə tərcüməsini mənə təqdim edəndə ona sonsuz təşəkkürümü bildirmək istədim. O dedi:" Abuzər, sənin uğurlu müdafiən mənim üçün ən böyük mükafat olar. Unutma ki, sən Azərbaycanda kitabxana işi sahəsində dissertasiya yazıb müdafiə edən ilk azərbaycanlı alim olacaqsan! Bundan böyük mükafatmı var?! Get, yaxşı hazırlaş! Uğur olsun!

Bax, o zamandan dünya malında gözü olmayan, gördüyü heç bir işdən təmanna güdməyən böyük insan, xeyirxah ziyalı Camal müəllimin bu böyüklüyü qəlbimdə silinməz iz saldı. Sonralar çoxlarında eşitdim ki, sən demə, o, yüzlərlə gənc tədqiqatçıya bu cür təmənnasız kömək göstəribmiş!...

Halal olsun bu mənəvi təmizliyə!...

Tale elə gətirib ki, mən uzun illər Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı olmuşam. Bu müddət ərzində fakültəmizdə etika dərslərinin tədrisini ənənəvi olaraq xətrini çox istədiyim əziz dostum Camal Mustafayevə həvalə edirdim. Səbəbi bu idi ki, Camal müəllim bir pedaqoq kimi dərsləri çox ustalıqla aparırdı. Tələbə- müəllim münasibətlərini o qədər yüksək səviyyədə qururdu ki, haqqında həmişə xoş sözlər eşidirdim. Bəlkə də o yeganə müəllimlərdən biridir ki, heç vaxt hər hansı bir müəllim və ya tələbə ondan dekanlığa şikayət etməyib. Bax, bu da Camal müəllimin pedaqoji ustalığının, müəllimlik bacarığının bariz göstəricisidir. Bu baxımdan Camal müəllim həm də tələbələrin böyük dostu kimi şöhrətlənmişdi. Həqiqətən tələbələr onu çox sevirdilər.

Professor Camal Mustafayevin filosof-ədəbiyyatşünas olduğunu bu yazımda qeyd etmişdim. Onu da vurğulamaq istəyirəm ki, biz onu həmişə kitabxanaçılıq-informasiya fakültəsinin əməkdaşı, sədaqətli dostu kimi qəbul etmişik. Elə buna görə də, həm sovet dövründə, həm də müstəqilliyimizin ilk illərində görkəmli şair və yazıçılarımızla tez-tez keçirilən görüşlərdə Camal

müəllim ev sahibi kimi mütləq iştirak edərdi. Eyni zamanda dəvət olunmuş qonağın yaradıcılığı barədə tələbələrə çox dəqiq və müfəssəl məlumat verir, əzbərdən şeirlər söyləyir, diqqəti özünə cəlb edirdi. Xalq yazıçısı Süleyman Rəhimov, xalq şairləri Tofiq Bayram, Xəlil Rza, Rəfiq Zəka, Cabir Novruz, Zəlimxan Yaqub fakültəmizin müəllimi, gənc şairi Knyaz Aslan və başqaları ilə müxtəlif vaxtlarda təşkil edilən tədbirlərdə professor Camal Mustafayevin yüksək səviyyəli təhlilli çıxışlarını mən indi də minnətdarlıqla xatırlayıram.

Prof. Camal Mustafayev Azərbaycan miqyasını çoxdan keçmiş, xarici ölkələrdə böyük nüfuz qazanmış alimlərimizdəndir.

O, beynəlxalq və respublika səviyyəli çoxlu elmi tədbirlərdə iştirak etmiş, həmişə də öz səviyyəli çıxışları ilə diqqət mərkəzinə çevrilmişdir.

Bütün bu müsbət keyfiyyətlərinə görə Camal müəllimi hər yerdə nəcib insan, gözəl ziyalı, vətənpərvər alim, əsl azərbaycanlı kimi tanıyır və rəğbət bəsləyirlər. Bunu da deməliyəm ki, o həmişə Qarabağ. Borçalı, Qarayazı, Göyçə, Zəngəzur, Təbriz, Dərbənd ağrılarını ürəyində gəzdirən, müqəddəs Vətənin xoşbəxt gələcəyinə inanan ziyalıdır.

"Alim" sözünün ərəbcə lüğəti mənası elmlə məşğul olan, düşünən və yaradıcı təbəqənin nümayəndəsi olan şəxs deməkdir. Alim olan şəxs başqa insanlardan öz bacarığı, savadı, düşüncəsi ilə fərqlənir. Camal müəllimin şəxsində bu izaha bir keyfiyyəti də əlavə edərdim: İnsanlıq! Çünki babalarımızın belə bir məsəli var: "Alim olmaq asandır, insan olmaq çətin"

Bu baxımdan professor Camal Mustafayev alimliyin və insanlığın fövqündə dayanan bir ziyalı, bütöv bir şəxsiyyətdir. Başqa sözlə, Camal müəllim saf mənəviyyatlı bir insan, namuslu bir şəxsiyyət, fədakar alimdir.

Bu gün ömrünün müdriklik çağlarını yaşayan, həyatın 80-ci baharına qədəm qoyan görkəmli filosofumuz, məşhur alimimiz professor Camal Mustafayev ən ali sözlərə, görkəmli alqışlara layiq olan bir insan kimi özünə üräklərdə çoxdan heykəl qoyub. Mən əziz dostum Camal müəllimə, mənəvi ustadı Səməd Vurğun demişkən, həyatda ən gözəl nemət olan cansağlığı, yeni-yeni elmi yaradıcılıq uğurları və ailə səadəti arzulayıram.

80 yaşın mübarək, Camal müəllim!

"Pedaqogika" nəşriyyatı, 2008. s. 26-30

XX ƏSRDƏ TÜRKİYƏDƏ KİTABXANA İŞİ
(Qısa tarixi icmal)

Türkiyə Yaxın və Orta Şərqin ən böyük dövlətlərindən biridir. XIV əsrdə Kizik Asiya ərazisində yaranan Türk dövləti XV əsrdə Osmanlı imperiyasına cevrildi və intensiv fəthlər, işğüzar siyasət nəticəsində XVI əsrin əvvəllərində artıq zox geniş bir əraziyə malik idi. Ancaq arası kəsilməyən müharibələr ölkənin iqtisadiyyatına ağır zərbə vurdu və ordunun döyüş bacarığını, qabiliyyətini zəiflətdi. Getdikcə artan hərbi məğlubiyyətlər nəticəsində Türkiyə əldə etdiyi torpaqları itirməyə başladı və XIX əsrin axırıncı rübündə

imperialist dövlətlərin yarım müstəmləkəsinə çevrildi. Birinci dünya müharibəsindəki məğlubiyyətdən sonra isə ölkə dövlət müstəqilliyini itirmək təhlükəsi qarşısında qalmışdı. Türk xalqının Antanta dövlətlərinin (1918-1923) hərbi qüvvələrinə qarşı apardığı milli azadlıq hərəkatı 1923-cü il oktyabrın 29-da Türk Xalq Cümhuriyyətinin yaranması ilə sonuncland. Türkiyə Cümhuriyyəti, I Dünya Müharibəsindən sonra məğlub olan və torpaqları paylaşdırılan Osmanlı dövlətinin son ordusu və polis qüvvələrindən ibarət olan Kuvayi Milliyə deyilən bir xalq mübarizəsi təşkilatının Atatürk tərəfindən təşkil edilərək işğalçı dövlətlərə qarşı qoyulması ilə qurulmuşdur. Türkiyə milli azadlıq hərəkatının rəhbəri, Türkiyə Böyük Millət Məclisinin ilk sədri və ölkənin ilk Prezidenti Mustafa Kamal Atatürk (1881-1938) böyük siyasi xadim, vətənini və millətini təmiz və ali duyğularla sevən, gerçəkci öndər, türk millətinin yetişdirdiyi ən böyük türk idi. O, Türkiyə tarixində çox böyük, önəmli dəyişikliklərin həyata keçirilməsində mühüm rol oynamış, Vahid Milli Ordunun yaradılması, Konstitusiyanın (Anayasa) qəbulu (20 yanvar 1921), Türk Mədəni Qanunu və Türk Cəza Qanununun qəbulu (1926), Tədris Birliyi Qanunu və mədrəsələrin ləğv edilməsi (1924), Yeni türk hərflərinin qəbulu (1928), geyimdə dəyişiklik (1925-ci il 25 noyabrda Şapka geyilməsi haqqında qanunun qəbul edilməsi), təqvimdə dəyişiklik (1925-ci il 26 dekabr tarixində çıxan qanunla miladi təqvim qəbul edildi), ölçü vahidlərində dəyişiklik (1 aprel 1931) Soyadı qanununun qəbulu, türk qadınlarına seçkilərdə iştirak etmə haqqının verilməsi (1930) və iqtisadi, ticarət, sənaye, tibb və bir sıra başqa sahələrdə olan yeniliklər Atatürkün adı ilə bağlıdır. Yeni yaranmış dövlətin qarşısında iqtisadi problemlərlə yanaşı əhalinin maariflənməsi məsələləri də kəskin şəkildə dururdu. əhalinin çox hissəsi savadsız idi, yüksək ixtisaslı kadrlara böyük ehtiyac olduğu ay-231.dın şəkildə hiss olunurdu. Türk dövlətinin başçısı Atatürkün ən böyük idealı Türk millətini «ən mədəni və rifah səviyyəsi yüksək bir millət olaraq varlığını yüksəltmək» idi. O, yaxşı bilirdi ki, milli təhsili gücsüz olan bir millət heç bir şəkildə inkişaf edə bilməz, «Təhsil bir millətı ya azad, şanlı, yüksək bir cəmiyyət olaraq yaşadar, ya da bir milləti əsarət və səfalətə sürükləyər» deyə qeyd edirdi. Hər bir cəmiyyətdə və hər bir dövlətdə olduğu kimi, burada da maarifin və mədəniyyətin inkişafında ən mühüm rolu türk kitabxanaları oynamalı idilər. Belə ki, Osmanlı imperiyasından Türkiyəyə miras qalmış kütləvi və təhsil müəssisələrinin kitabxanaları qarşılarında duran vəzi-fələri yerinə yetirəcək səviyyədə deyildi. Kitabxana işində köklü dəyişikliklərə, yenidənqurmaya ehtiyac vardı. Bu da müəyyən qanunvericilik aktlarının qəbulunu tələb edirdi. 1920-ci ildə Maarif Nazirliyi nəzdində Mədəniyyət Idarəsi (Hars dairesi) yaradıldı. Onun vəzifəsi əsasən kitabxana və muzeylərin təşkili və onlara rəhbərlikdən ibarət idi. 1921-ci ildə Kitabxana Müfəttişliyi yaradıldı. 1924-cü ildə Vahid təhsil haqqında qanuna əsasən əvvəllər Şəriət və Vakıflar Nazirliyinin tərkibində olan bütün mədəni-maarif müəssisələri (o cümlədən kitabxanalar) dövlət müəssisəsi elan edildi və Maarif Nazirliyinə verildi. Vakıf (dini qurumların nəzdində) kitab-

xanalarının yenidən təşkili və kitabxana fondlarının inventarlaşdırılması ilə əlaqədar olaraq maddi vəsaitin ümumi uzot və təlimatı haqqında qanun qəbul edildi (1927). Bütün bu qərar və qətnamələr ölkənin milli xəzinəsi olan kitabxana fondlarının qorunub saxlanmasının təşkilinə imkan yaratdı. 1928-ci ildə həyata keçirilən əlifba reformasiyası (ərəb əlifbasının latın əlifbası ilə əvəz olunması) ölkədə mədəniyyətin və maarifin inkişafına xeyli təsir göstərdi: nəşr olunan kitabların tirajı çoxaldı (çap texnikası, mətnlərin yığımı asanlaşdı), savadlılıq artmağa başladı. 1929-cu ildə Türkiyə kitabxanalarına rəhbərlik edən bir müəssisə - Kitabxana İdarəsi (Kütüphaneler genel müdürlüğü) yaradıldı. 1930-cu ildə bütün bölgələrdə kitabxanalar, oxu zalları və muzeylərin azılmasını diktə edən Qanun nəşr olundu. 1934-cü ildə isə «Məcburi nüsxə haqqında» və Türkiyədə adlandırıldığı kimi desək, «Dövlət nüsxəsi haqqında» Qanun qəbul edildi. Bu qanun vətən ədəbiyyatının çap nəşrlərinin sistemli uçotunun (qeydiyyatının) və qorunub saxlanmasının əsasını qoydu. Beş böyük kitabxana ölkə ərazisinə daxil olan nəşrlərin bir pulsuz nüsxəsini almağa başladı. Məcburi nüsxələrin toplanması və paylanması üçün İstanbulda xüsusi idarə təşkil olunmuşdu. 1920-1930-cu illər üçün kitabxana işinə dair qanunvericilik aktları yuxarıda qeyd etdiklərimizdən ibarət idi. O vaxtdan 1978-ci ilə kimi Qanunvericilikdə kitabxana işinə dair köklü bir dəyişiklik olmamışdır. Ancaq bir sıra yeni qanunların qəbulu (məcburi nüsxə, kitabxana işçilərinin statusu və hüquqi vəziyyəti və ümumilikdə, kitabxana işi haqqında qanunların) zəruri idi. Bu qanun layihələri mütəmadi olaraq Türkiyə Böyük Millət Məclisində müzakirəyə qoyulmuşdur.

Qeyd etmək lazımdır ki, 1963-cü ildən Türkiyədə kitabxana binalarının planlı inşasına başlandı. 1965-ci ildə kitabxana binalarının standartlaşdırılması və rasionallaşdırılması problemləri, kadr təminatı, komplektləşdirmə işlərinin nizama salınması ilə məşğul olan, kitabxana texnikasının unifikasiyası (qaydaya salınması) üzrə işlərə rəhbərlik edən Komissiya yaradılmışdı.

Türkiyədə əlyazma və çap əsərlərinin işlənməsi, kataloqlaşdırma və təsnifləşdirmə üzrə çox sayda ədəbiyyat nəşr olunmuşdur. Bunlardan ən çox yayılanları «Çap əsərlərinin əlifba kataloqu üzün qaydalar» (Ankara, 1957), «Əlyazma və köhnə nəşrli kitabları təsnifləşdirmə və kataloqlaşdırma üzrə dərslik» (İstanbul, 1958), kütləvi kitabxanalar üzün 1961-ci ildə «Kitabları kataloqlaşdırma qaydaları», «Məktəb kitabxanaları üçün dərslik» (1959), «Uşaq kitabxanalarına rəhbərlik» (1958) və s.-dir. Türk kitabxanalarında vahid təsnifat sxemi yox idi. Bu işlər Universal Onluq Təsnifat, Konqres Kitabxanasının təsnifat sistemi və Düi-nin Onluq Təsnifat sxeminə əsasən aparılırdı. Beləliklə də təsnifləşdirmə zamanı türk nəşrlərinin özünə xas ərazi-coğrafi xüsusiyyətləri çox vaxt nəzərə alınmırdı. Ən xoşa gəlməyən cəhət isə o idi ki, kitabxana fondu kataloqlarda tam əks olunmurdu. Komplektləşmədə, xidmətdə, toplu kataloqların tərtibində yaranan çətinliklərin səbəblərindən biri də bu idi. Kataloqlaşdırmaya mərkəzləşdirilmiş rəhbərliyin olmaması kitabxanaların əməkdaşlığını və işlərin əlaqələndirilməsini də çətinləşdirirdi.

I. Türkiyədə kitabxanaların tipləri

Kitabxanalar xidmət formalarına görə milli kitabxanalar, umumi və ya xalq kitabxanaları, uşaq kitabxanaları, məktəb kitabxanaları, universitet kitabxanaları, özəl kitabxanalar, şəhər kitabxanaları və gəzici kitabxanalar kimi tiplərə ayrılır. Bunlardan başqa əlyazma kitab fondlarına sahib kitabxanalar da vardır. Türkcə, farsca və ərəbcə əlyazmaların ən zəngin fondları Türkiyədə, xüsusilə İstanbuldakı kitabxanalarda saxlanılır. 150000 əlyazma kitabı, mikrofilm fondu və modern təsisi ilə Süleymaniyə Kitabxanası bütün əlyazma əsər kitabxanalarının öndə gələnidir. Ayrıca məscid (cami) və digər yerlərdəki əlyazma kitablar da Süleymaniyə Kitabxanasında toplanmışdır. Bayezid Dövlət Kitabxanası, Millət Kitabxanası, İstanbul Universiteti Mərkəzi Kitabxanası, Atıf əfəndi Kitabxanası, Hacı Səlim Aüa, Köprülü və Ragıb Paşa kitabxanaları da əlyazma əsər baxımından Türkiyənin zəngin kitabxanalarıdır. Yüzillər boyunca yazılan və bu gün çap olunan milyonlarca kitablar da bu kitabxanaların fondunda öz yerini tapmışdır. Ancaq Osmanlılar və daha öncəki dövrlərdə yazılmış olan kitabları oxuyub başa düşə biləcək çox az insan qaldığı və günümüzdəki texnoloji irəliləyişlər nəticəsində ortaya çıxan səsli və görüntülü nəşrlərə daha çox rəğbət göstərildiyi üçün kitabxanalardan faydalanan şəxslər nisbətən azalmışdır. Ümumilikdə isə Türkiyədə kitabxanalar 2 tipə bölünür: dövlət və özəl sektor.

Dövlət sektorunun kitabxanaları ən böyük kitabxana şəbəkəsidir. Buraya Milli kitabxana, əksər təhsil müəssisələrinin kitabxanaları, idarə kitabxanaları və xüsusi kitabxanaların çox hissəsi, memorial və müzey kitabxanaları, kütləvi (şəhər) və kənd kitabxanaları, uşaq kitabxanaları daxildir.

Özəl sektora müxtəlif siyasi partiyaların kitab topluları, klubların, təbliğat təşkilatlarının, özəl təhsil müəssisələrinin (o cümlədən, xarici dövlətlər tərəfindən təşkil olunan), məscid kitabxanaları, qeyri-müsəlman dini qurumların kitabxanaları, elmi cəmiyyətlərin və digər təşkilatların kitabxanaları daxildir.

Türkiyə Milli Kitabxanası (MK), dünyanın ən gənc milli kitabxanalarından biridir. Quruluş çalışmaları, 15 Aprel 1946-cı ildə Milli Təhsil Nazirliyi Yayımlar Müdirliyində kiçik bir büroda başlanılmış, qısa bir vaxt ərzində 8000 əsəri özündə saxlayan bir fond yaradılmışdır.1 Aprel 1947-ci ildə müvəqqəti bir zaman üçün başqa bir binaya daşınmış və bu dönəmdə fondun ümumi miqdarı 60000-ə çatmışdır. Adı çəkilən kitabxana fondunu xidmətə verə bilmək üzün Ankara Kumrular küçəsində yerləşən və günümüzdə Ankara II Xalq Kitabxanasına ev sahibliyi edən bina verilmiş və MK, 16 Avqust 1948-ci ildə istifadəçilərin üzünə açıldı. 1974-cü ildə Mədəniyyət Nazirliyi yarandıqdan sonra isə kitabxana onun rəhbərliyi altına keçdi. 1950-ci ildə onun Milli kitabxana statu-sunu təsdiq edən qərar qəbul edildi. Bunun nəticəsində kitabxana dövlət mülkiyyətinə keçirildi. Milli Kitabxana 29 mart 1950-ci il tarixində qəbul edilən «Quruluş Kanunu» ilə hüquqi mövcudluq qazandı. 18 May 1955-ci ildə qəbul edilən "Milli Kitabxananın Yaradılması Haqqında

Qanuna əlavə" ilə Milli Kitabxananın tərkibində bir Biblioqrafiya Institutunun yaradılmasına nail olundu. Ilk binanın gələcəkdəki tələbatları qarşılaya bilməyəcəyi öncədən görülərək 1965-ci ildə yeni bir binanın planlaşdırılması çalışmalarına başlandı. 1965-1973-cü illəri əhatə edən uzun bir planlaşdırma mərhələsi nəticəsində inşa işlərinin təməli qoyul-muş və bina 1982-ci ildə tamamlanmışdır. Milli Kitabxana 5 Avqust 1983-cü ildə yeni binasında istifadəzilərinə xidmət etməyə başlamışdır. Kitabxanaya əsasən müxtəlif müəssisələr, nazirliklər, banklar maddi köməklik göstərirdi. Milli Kitabxana ölkədə müasir şəkildə təşkil olunan ən böyük kitabxanadır. Kitabxana öz fondunu məcburi nüsxələr, hədiyyələr və kitabların mübadiləsi və satın alınması yolu ilə komplektləşdirir. 1975-ci ildə onun fondunda 560 min nüsxə kitab türk və xarici dillərdə, 3522 nüsxə əlyazma, 955555 nüsxə ardı davam edən nəşrlər, 9137 əlyazmaların mikrofilmləri olmuşdur. Kitabxanada həm də xəritə-lər, atlaslar, notlar, afişalar, plastinkalar və s. audiovizual nəşrlər də saxlanılır. Burda həm də təsviri incəsənət əsərləri də vardır.

Binası: Milli Kitabxana 39000 kvadrat metrlik, yeni layihəyə əla-vələr etməyə imkan verəcək genişlikdə bir sahədə tikilmişdir. Modern bir quruluş tərzində üz blokdan ibarət olan Milli Kitabxana binası rəhbər bürolardan, ümumi və xüsusi təyinatlı oxu zallarından, qrupla işləmə otaqlarından, personal bürolarından, gözəl sənətlərlə bağlı iş otaqlarından, havalandırma və siqnalizasiya ilə təmin olunmuş depolardan ibarətdir. Ayrıca, bir sərgi zalı ilə bir çox məqsədlər üçün istifadə oluna biləcək iki iclas zalı da mövcuddur. Eyni zamanda yeni binada: İnformasiya İşləm Mərkəzi, Danışan Kitablıq, Atatürk Belgəliyi (Sənəd), Kitab Təmiri və Restavrasiya Laboratoriyası, Mikrofilm Arxivi ilə ofset zap texnikasını istifadə edən tam təminatlı bir Nəşriyyat, Mikrofilm və Foto Laboratoriyası ilə yeni vəzifələr həyata keçirməyə başlamışdır. Milli Kitabxananın missiyası - milli mədəniyyət araşdırmalarını dəstəkləmək, bu məqsədə yararlı ölkə daxilində çap olunmuş bütün əsər və sənədləri, ölkədən xaricdə türk mədəniyyətinə aid bütün nəşrləri bir araya toplayaraq əsaslı bir mərkəz meydana gətirmək, dünyada Türk dövlətini maraqlandıran nəşrləri izləmək və təmin etmək, eyni zamanda hər növ elm və sənət çalışmalarını asanlaşdırmaq məqsədilə tədqiqatçılara və oxuculara xidmət etmək, milli mədəni xəzinə mərkəzi olaraq ölkə daxilində və xaricində informasiya axınını təqib etmək, toplayıb saxlamaq, bütün bunlara bağlı olaraq ölkənin milli-mədəni əlaqələrinin siyasi təsirlərdən uzaq olaraq yönləndirilməsində iştirak etməkdən ibarətdir. Milli kitabxana, Türk mədəniyyətinin aynası, milli-mədəni xəzinə və Türk millətinin yaddaşıdır. Milli Kitabxananın qarşıya qoyduüu məqsəd, beynəlxalq informasiya axınının mərkəzi halına gələrək, cəmiyyətin mədəni inkişafına və iqtisadi cəhətdən genişlənməsində, informasiya cəmiyyətinin yaradılmasında mühüm rol oynamaqdır.

Fondu: Milli Kitabxana kitab, əlyazması, nadir əsər, ərəb hərfli çap əsərləri, günlük qəzet, jurnal, bülleten, illik, afişa, xəritə, not, səs yazısı (CD və kaset), rəsm və s. materiallardan ibarət olan 2560372 əsərlik bir fonda sahib-

dir. MK-nın fondunda kitabların sayı 1120940 ədəd olub, günlük qəzet, jurnal, bülleten, illik və buna bənzər materiallardan ibarət olan 1302528 cildlik bir dövri nəşr fondu da mövcuddur. Bundan başqa, 26262 ədəd əlyazma əsəri olan kitabxanada, afişa, xəritə, not, səs yazısı, rəsm, atlas, tablo kimi xüsusi qaydada yığılmış 85.809 əsərdən ibarət bir qeyri-kağız material fondu vardır. Milli Kitabxana fonduna əsərlər aşağıda göstərilən yollarla daxil olmaqdadır:

a) Derleme yoluyla: 1934-cü ildə qəbul edilən çap Yazı və Rəsmləri Derleme Qanununun maddələri əsasında Türkiyədə nəşr olunan hər əsərin bir nüsxəsinin Milli Kitabxanaya göndərilməsi mütləqdir. Ancaq qanun bütün material növlərini əhatə etmədiyi (CD-ROM, yeni texnologiya materialları) və kifayət qədər icra gücü olmadığı üçün, bu qanunun aktuallaşdırılması məqsədilə başlanmış çalışmalar davam etdirilməkdədir.

b) Satınalma yoluyla: ölkə xaricində nəşr olunan Türkiyə və türklərə aid nəşrlər əsas olmaq şərtilə müxtəlif müraciət mənbələri və gözəl sənətlərlə bağlı əsərlər satın alınmaqdadır.

c) Hədiyyə yolu ilə: Müxtəlif insanlar və qurumlar tərəfindən hədiyyələr qəbul edilməkdədir.

d) Mübadilə yoluyla: Türkiyə Cümhuriyyəti ilə müxtəlif ölkələr arasında hazırlanan Mədəni Mübadilə Proqramları ilə Kitabxanalararası əməkdaşlıq zərz ivəsində xaricdəki kitabxanalar, Türkologiya İnstitutu və müxtəlif təşkilatlarla qarşılıqlılıq ilkesi əsasında kitab mübadiləsi aparılmaqdadır.

1.1. Ali təhsil müəssisələrinin kitabxanaları

Türk universitetləri və onların kitabxanaları müxtəlif sistemlər üzrə qurulmuşdur. Buna görə də, universitet kitabxanalarının bir hissəsi fakültə işçilərinin daxil olduüu xüsusi komissiyanın rəhbərliyi altındadır. Universitet kitabxanalarına vahid rəhbərlik sistemi formalaşmayıb. 1950-ci illərə qədər yaranan universitetlərdə mərkəzi və fakültə kitab saxlayıcısından başqa, bir çox xüsusi kitabxanalar da vardır ki, bu da belə kitabxanaların idarə olunmasını, maliyyələşdirilməsini və komplektləşdirilməsini çətinləşdirir. 1950-ci ildən sonra yaranan universitetlərdə isə kitabxanaların sayının məhdudlaşdırılması, bütöv bir kitabxana sisteminin yaradılmasına cəhd olunduğu müşahidə olunur.

Ankara universitetinin kitabxanası (1950) Türkiyənin ali məktəb kitabxanalarından ən böyüyüdür. Təkcə Dil, Tarix və Coğrafiya fakültəsinin kitabxanasının fondunda 200000 nüsxəyə qədər kitab var idi. Ankarada yerləşən Haccetepe universiteti (1967) kitabxanası da universitetin özü kimi əvvəllər Ankara Universitetinin tərkibinə daxil olan tibb institutları və tibb fakültələrinin bazasında yaradılmışdır.

235.*Gazi Universiteti* 1982-ci ildə Ankarada Dövlət Universiteti olaraq yaradılmışdır. (1926-cı il də yaranma ili qəbul edildiyindən universitet logosunda hər iki tarix də göstərilməkdədir.) Türkiyənin ən böyük universitetlərindən biridir. Türkiyədə ən böyük Eğitim Fakültəsinə sahibdir.

Türk Cümhuriyyətləri, ona qohum və yaxın ölkələrdən gələn 1500-dən

çox tələbəsi ilə Gazi Universiteti, xaricdən ən çox tələbə qəbul edən universitetdir. Gazi Universitetinin hazırda təhsil-təlimi davam etdirən 22 fakültəsi, 7 yüksək okulu, 12 məslək yüksək okulu, 26 araşdırma Mərkəzi və 5 Institutu vardır. Gazi Universiteti Kitabxanası 2004-cü ildə Rektorluq binası içində yer alan yeni və çağdaş xidmətlər təqdim edən binasında xidmətə başlamışdır. Kitabxana Ankaranın ən geniş miqyaslı (əhatəli) fondlarından birinə sahibdir. Kitabxana, 150.346 ədəd kitab, 61.938 ədəd cildli jurnal, 10.474 ədəd yüksək lisans tezi (magistr dissertasiyası) olmaqla, ümumilikdə 222.758 cild nəşr fonduna sahibdir. Dövri nəşrlərin sayı 702-si xarici, 583-ü Türkcə olaraq ümumilikdə 1.285 ədəddir. 2006-cı ildə təxminən 20.000 ədəd electron jurnal və 30 ədəd online məlumat bazasına çıxışı olmuşdur. Kitabxanaya daxil olunan yeni nəşrlərin sayı hər il 10.000-15.000 arasındadır. Kitabxanada təxminən 200 kompüter tədqiqatçıların xidmətinə verilmişdir. Universitetə yeni başlayanlar üçün hər tədris ilinin əvvəlində kitabxana ilə tanışlıq (tanıtım) proqramları keçirilir.

İstanbul universitetinin kitabxanası (1925) mərkəzi kitabxanadan başqa 7 fakültə və müxtəlif ixtisaslaşmış kitabxanalardan ibarətdir. Kitabxana məcburi nüsxə alır. Ümumilikdə onun fondunda 1 mln. nüsxə ədəbiyyat, o cümlədən mərkəzi kitabxanada 250 min nüsxə kitab və dövri nəşrlər vardır. İstanbul Universiteti Kitabxana və Sənəd Dairə Başqanlüünün tarixiləri İstanbul Universitetinin başlanğıcını Fateh Sultan Mehmetin XV əsrin ikinci yarısında tikdirdiyi mədrəsədən götürdüyünü qeyd edirlər. İstanbul Üniversiteti Mərkəzi Kitabxanasının fondu XV əsrdən qalma türkcə və xarici dilli əsərlərdən ibarətdir. XX əsrin ilk rübündə, əsasən əlyazma və əski hərfli türkcə zap əsərlərindən ibarət olan fondu, 1928-ci il əlifba dəyişməsindən sonra, yeni türk əlifbasıyla çap edilmiş əsərlərlə zənginləşməkdə davam etmiş, çap Yazı və Rəsimləri Derleme Qanunu (1934) qəbul edildiyindən, Türkiyə Cümhuriyyəti Dövlətinin sərhədləri daxilində nəşr edilən əsərləri toplamağa başlamışdır. Öz fondu ilə əsərləri, dilləri və yazıları üst-üstə toplamağı bacaran ən əski və ən böyük universitet kitabxanasıdır. Türkiyə Böyük Millət Məclisi Hökumətinin yaradılması (23 aprel 1920) və Türkiyə Cümhuriyyətinin elanını (29 ekim 1923) izləyən illərdə Darülfünun Kitabxanası adını daşıyan bu kitabxana, 1933-cü ildə həyata keçirilən universitet reformu ilə İstanbul Universiteti Mərkəzi Kitabxanası adını almışdır. İlk rəhbəri Hasan Fehmi Ethem Karatay, xaricdə kitabxanaçılıq ali təhsili almış bir memardır. Türkiyənin digər universitet kitabxanalarına nisbətdə avtomatlaşdırmaya keçməsi daha gec və yavaş olsa da, əski və yeni binalarında milli və beynəlxalq səviyyədə istifadəçilərinə verdiyi xidmətlər, kəmiyyət olaraq yüksək sayda; keyfiyyət olaraq da çox müasirdir. Bu müasirləşmədə son yeddi ilin gətirdiyi yeniliklər üstünlük təşkil edir. Onun kataloq sistemi, inkişaf etdirilərək bu gün də mövcuddur.

İstanbul Texniki Universitetində (1944) mərkəzi kitabxana ilə yanaşı, fakültə kitabxanaları da fəaliyyət göstərir. Onun fondunda 60 236.min nüsxə ədəbiyyat olmuş, bu da əsasən universitetin tərkibinə daxil olan texniki məktəb

və liseylərin kitabxanalarının toplularıdır.

Ortadoğu Texniki Universitetinin kitabxanası Ankara şəhərində yerləşir, 1957-ci ildə əsası qoyulmuşdur. Müasir tipli kitabxanadır, 70 min nüsxə ədəbiyyatdan ibarət fonda malikdir.

Çukurova Universiteti Kitabxanası (Adana) Universitetin Kitabxanası 4 aprel 1979-cu il tarixində Kitabxanaçılıq İnstitutu tərəfindən Tibb Fakültəsinin Dekanlıq binasında açılmış və 1997-ci ilin yanvar ayında yeni binasına köçürülmüşdür. Kitabxana fondu 155.000 kitab, 90.000 nüsxə dövri nəşr, 797 ədəd əski əsər, 2161 ədəd dissertasiya avtoreferatları və 9 çeşid CD verilənlər bazasından ibarətdir. Çukurova Universiteti Kitabxanasında müəllimlərin, tələbələrin və digər tədqiqatçıların ehtiyac duyduqları informasiya axtarışı xidmətləri üzün kifayət qədər PC və CD-ROM məlumat bazaları mövcuddur. Kitabxana fərqli elm sahələrinə aid 20 ədəd məlumat bazası ilə istifadəçilərinə xidmət etməkdədir. Kitabxanada 155.355 kitab, 5.200 dissertasiya, 890 ədəd əski hərfli zap əsər, 80 ədəd əlyazma, 2.734 avtoreferat, 614 elmi dövri nəşr, 9 CD məlumat bazası, 1500 ədəd müxtəlif mövzularda film, kitab, jurnal və elmi CD mövcuddur. Kitabxananın müxtəlif yerlərindən toplam 90 İnternet bağlantı nöqtəsi vardır. Kitabxana, Türkiyədəki 12 Avropa Birliyi Sənədləri Mərkəzindən biridir. Kitabxana; Konfrans Zalı, Oxu Zalı, Dövri Nəşr Zalı, Yeni Adana Qəzeti Xüsusi Fondu, Müraciət mənbələri və Informasiya Mərkəzi, CD-ROM Fondu, Sərbəst çalışma zalı, Aktual Nəşrlər, əski və Nadir əsərlər Fondu, Dissertasiyalar və Avtoreferatlar Fondu, Avropa Birliyi Nəşrləri Fondu, İnternetə çıxışı olan Terminallar, Xüsusi çalışma kabinetləri və Sərgi Zalı ilə xidmət etməkdədir. İbtidai və orta ümumtəhsil məktəblərinin I və II pilləları və peşə məktəbləri kitabxanaları Türkiyədə bir ad - məktəb kitabxanaları adı altında fəaliyyət göstərir. 70-ci illərin əvvəllərində ölkədə ümumilikdə 700 min nüsxə fonda malik olan 1800 məktəb kitabxanasının olduğu mənbələrdə qeyd olunur. əksər ibtidai məktəblərdə, əsasən də türk fəhlə və kəndlilərinin uşaqları üzün olan məktəblərdə kitabxana mövcud olmayıb. Məktəb kitabxanaları 1975-ci ildən Maarif Nazirliyinin rəhbərliyinə verilmişdir. Uzun illər bu kitabxanalar (xüsusilə də ibtidai məktəblərdə) maarif və mədəniyyət orqanlarının fəaliyyət dairəsindən kənarda qalmışdır. Hesab edilirdi ki, məktəb kitabxanalarının xüsusi diqqətə ehtiyacı yoxdur, onların təşkili və inkişaf etdirilməsi ilə məktəblər özləri məşğul olmalıdırlar.

1.2. İdarə-müəssisə kitabxanaları

Buraya mərkəzi dövlət təsisatlarının, nazirliklərin, müxtəlif idarə və müəssisələrin kitabxanaları daxildir. ən böyük kitabxana Türkiyə Böyük Millət Məclisinin kitabxanasıdır, fondunu türk və xarici dillərdə olan 100 min addan kitab və min addan çox dövri nəşrlər əhatə edir. Bu kitabxananın fondunun əsasını I Osmanlı məclisinin (1876) üzvlərinin kitabxanaları təşkil edir.

1.3. Xüsusi kitabxanalar

Bu şəbəkəyə elmi və kütləvi idarələrin və müxtəlif qeyri-dövlət təşkilatlarının kitabxanaları daxildir.Bu tip kitabxanalar fondunu mənsub olduqları idarələrin profilinə və mövzusuna uyüun olaraq satınalma, kitab mübadiləsi və hədiyyələr vasitəsilə komplektləşdirilir. Belə kitabxanaların ən böyükləri Türk Tarix Cəmiyyətinin kitabxanası (Ankara, 1931), Geoloji araşdırmalar Institutunun kitabxanası (1935), Türk Linqvistika Cəmiyyətinin kitabxanası (1932) və s.-dir. Onların fondunda 15 mindən 60 min cildə qədər kitab və dövri nəşrlər saxlanılır.

1.4. Memorial və muzey kitabxanaları

Dünya üzrə ərəb, türk və fars dillərində olan əlyazmaların 80%-I Türkiyənin bu tip kitabxanalarında saxlanılır. Burada, həmçinin erməni, yunan, latın və s. dillərdə olan əlyazmalara da rast gəlinir. əlyazmaların dəqiq sayı məlum deyil, zünki onların çox hissəsi təsvir olunmamışdır. Bundan başqa şəxsi külliyyatlardan əlyazmaların kitabxanalara verilməsi prosesi tam başa çatdırılmamışdır. Əlyazmalardan başqa, bu kitabxanalarda həm də köhnə nəşrli kitablar da saxlanılır. Belə kitabxanaların ən böyüklərindən: Topqapı sarayının muzey kitabxanasını (1718), Süleymaniyyə məscidinin kitabxanasını (1752), Aya-Sofya məscidinin kitabxanasını (1740), Nuruosmaniyyə kitabxanasını (XVIII əsr), Millət kitabxanasını (1916) və s. göstərmək olar. Süleymaniyyə kitabxanasında 1975-ci ilə olan məlumata görə öz müəlliflərinin adını daşıyan 94 kolleksiya vardır ki, bu da 63908 əlyazmadan, 32629 köhnə nəşrli kitablardan, 4381 mikrofilm və 222 əlyazmanın fotosurətindən ibarətdir. Adları çəkilən kitabsaxlayıcılardan başqa Türkiyədə və xaricdə yaxşı tanınan, məşhur Köprülü kitabxanası (1616), Atıf əfəndi kitabxanası (1741), Raqib Paşa kitabxanası (1763), Murat Hoca kitabxanası (1745) və bir çox başqa bu kimi kitabxanaların da adlarını qeyd etmək olar. Onların fondunda 2 mindən 17 mindək əlyazma və köhnə nəşrli kitablar qorunub saxlanılır. Bütün bu memorial və muzey kitabxanaları İstanbulda yerləşir.

1.5. Kütləvi (şəhər) və kənd kitabxanaları

Kütləvi kitabxanalar bir çox nöqteyi-nəzərdən (təşkilati, maliyyə təminatı, fondunun həcmi və tərkibi, komplektləşdirmə, kadrların vəziyyəti, oxuculara xidmət və s. baxımdan) kifayət qədər geniş və bir-birindən fərqli şəhər kitabxanaları şəbəkəsidir. Onların bir çoxlarının fondunda köhnə nəşrli və əlyazma kitabları da vardır. 1975-ci ilin məlumatına görə 3 mln. çap əsərlərindən və 160 mindən çox əlyazma kitablarından ibarət fondu olan 334 kütləvi kitabxana mövcud olmuşdur. Bu kitabxanalar öz fondlarını Kitabxana idarəsinin köməkliyi ilə satın almaqla, pulsuz rəsmi nəşrlərin və hədiyyələrin verilməsi yolu ilə komplektləşdirir. Türkiyədə 3 ən böyük kütləvi kitabxana - Ankara kütləvi kitabxanası (1928), Bəyazid məscidi yanındakı kitabxana (1882) və İzmir Milli Kitabxanası (1912) məcburi nüsxə alırlar. Böyük kütləvi

kitabxanalar sırasına İstanbul bələdiyyəsinin kitabxanasını (1929) və Bursa kütləvi kitabxanasını (1948) da aid etmək olar. Onların fondunda 10 mindən 100 minədək kitab saxlanılır. Kütləvi kitabxanalar Mədəniyyət Nazirliyi tabeziliyində olan Kitabxana idarəsinin rəhbərliyi altındadır. Onlar əsasən dövlət tərəfindən maliyyələşdirilir. 1975-ci ildə bu kitabxanalara 85 mln. türk lirəsi həcmində maliyyə vəsaiti ayrılmışdır. Qeyd edildiyi kimi kütləvi kitabxanaların təşkilində bələdiyyələr də iştirak edirdi. Kitabxana binalarının inşasında, onların fondunun təşkilində yerli kitabxana cəmiyyətləri və xüsusi şəxslər böyük rol oynayırdılar. Bundan başqa şəhərlərdə xalq evlərinin, kənd yerlərində isə oxu zallarının (halk odaları) kitabxanaları da əhaliyə kitabla xidməti həyata keçirirdilər. Onlar Xalq Maarif İdarəsi (Halk eğitim genel müdürlüğü) tərəfindən yaradılır, təşkil olunurdu və əsasən adı çəkilən idarənin qərarı ilə nəşr olunan ədəbiyyatla komplektləşdirilirdi. Kitabların müəllifini və mövzusunu xüsusi komissiya müəyyən edirdi. 1955-ci ildə Maarif Nazirliyinin qərarı ilə kütləvi kitabxanalar kənd yerlərində evə kitab verilişi bölmələri açmış, «yeriyən» (səyyar) və ya stasionar kitabxana təşkil etmişdilər. Bu kitabxanalar maliyyə imkanları və məkan şərtlərindən asılı olaraq avtobuslarda gətirilirdi. 70-ci illərin əvvəllərində ölkədə 2 min-dən artıq xalq evləri və oxu zalları var idi. 1974-cü ildə Ankara, ərzurum, əskişəhər, Qaziantep, Adana, İstanbul, İzmir, Kayseri, Konya, Ordu və digər şəhərlərin ətrafındakı kənd yerlərində 15 «bibliobus» xidmət göstərmişdir. Rəsmi məlumatlara görə «yeriyən» kitabxanalarda 377486 oxucuya 55012 kitab verilmişdir, 31313 oxucu qeydə alınmışdır. Ümumilikdə 1974-cü ildə 372 bölgədə əhaliyə bu cür xidmət göstərilmişdir. Belə ki, türk kəndlərinin böyük hissəsi kitabxana xidmətindən məhrum qalmışdır, çünki bu işin təşkili üçün kütləvi kitabxanaların çox cüzi hissəsi Kitabxana idarəsindən maliyyə vəsaiti, nəqliyyat və kadrlar ala bilirdi. Uşaq kitabxanaları və kütləvi kitabxanaların uşaq bölmələri Türkiyə Respublikası üçün yeni kitabxana növü idi. Ilk uşaq kitabxanaları 1952-ci ildə açılmışdır. 1975-ci ildə onların sayı 300-dən çox olmuşdur. Onların kitab fondları və kitabxanaya davamiyyəti haqqında məlumatlar çox təzadlıdır. Ölkə ərazisində uşaq kitabxanalarının paylanması qeyri-bərabərdir. Heç də bütün türk uşaqları kitabxanadan istifadə edə bilmir. Çünki uşaqların təxminən 20%-nin ibtidai təhsili yoxdur.

II. Türkiyədə kitabxana-biblioqrafiya işinin vəziyyəti

1934-cü ildən İstanbulda milli «Türkiyə biblioqrafiyası» çap olun-mağa başladı. 1952-ci ildə Milli kitabxananın yanında Biblioqrafiya İnstitutu yaradıldı və o, Türkiyədə biblioqrafik nəşrlərin hazırlanmasında koordinasiya mərkəzinə çevrildi. Bu institut «Türkiyə biblioqrafiyası»nın hazırlanması üzrə işləri aparırdı, 1954-cü ildən sonra isə «Türkiyə məqalələr biblioqrafiyası»nı nəşr etməyə başladı. Hər iki biblioqrafik göstərici ölkənin və xarici dövlətlərin bir çox müəssisələrinə və kitabxanalarına göndərilirdi. Bundan başqa, institut «Türk dövri nəşrlərinin toplu kataloqu (1729-1928)»nu, «Xarici dillərdə olan

dövri nəşrlərin toplu kataloqu»nu və s. buraxır. Vətən ədəbiyyatının və dövri nəşrlərin toplu kataloqlarının daha geniş şəkildə hazırlanması planlaşdırılır. 70-ci illərin əvvəllərində Institut tətbiqi elmlər üzrə dövri nəşrlərin toplu kataloqunu hazırlamağa başladı. Toplu kataloqdan başqa sahəvi biblioqrafik vəsaitlər, göstəricilər, bələdçilər də tərtib edilirdi. Milli kitabxanada həm də biblioqrafik informasiya işləri də aparılırdı. Kitabxananın Sənədləşmə mərkəzi 1971-ci ildən «Türkiyə Cümhuriyyətinin rəsmi dövlət nəşrlərinin biblioqrafiyası» və bir sıra bu kimi digər nəşrləri buraxmağa başlayır. Mərkəz yazılı sorğulara (respublika üzrə və xarici ölkələrdən gələn) da cavab verirdi. Türkiyə Elmi-Texniki Sənədləşmə Mərkəzi 1965-ci ildə Elmi-texniki sənəd üzrə Şura tərəfindən yaradılmışdır. O, Türkiyə ərazisinə daxil olan elmi-texniki dövri nəşrlərin toplu kataloqunu aparır, kimya, texniki elmlər, baytarlıq, zoologiya, kənd təsərrüfatı və s. sahələr üzrə referativ bülletenlər hazırlayıb nəşr edir, Türkiyədə olan xarici dövri nəşrlərin biblioqrafik göstəricisini hazırlayır, Sənədləşmə üzrə kurslar təşkil edirdi və s. Mərkəzdə yüksək səviyyəli peşəkar mütəxəssislər çalışırdı. Bu təşkilat dövlət idarələrinə, universitetlərə, sənaye müəssisələrinə, o cümlədən xüsusi şəxslərə informasiya xidməti göstərirdi.

III. Kadr hazırlığı

Kadr hazırlığı Türkiyədə kitabxana işinin ən böyük problemlərindən biridir. 20-30-cu illərdə respublikada kitabxana işçilərinin qısamüddətli hazırlıq kursları təşkil edildi. 1925-1926-cı illərdə İstanbul və 1936-cı ildə Ankara Kənd Təsərrüfatı Universitetində kurslar təşkil olunur. O zaman müəllim kadrların çatışmazlığı və maliyyə çətinlikləri müşahidə olunurdu. 40-cı illərin əvvəllərində kitabxana işçilərinin təhsili nisbətən stabilləşməyə başladı. 1942-ci ildə Ankara universitetində kitabxanaçılar üçün kurslar təşkil olundu. 1954-cü ildə bu kurslar Kitabxana şöbəsinə çevrildi. 1964-cü ilə qədər burada əsasən xarici mütəxəssislər dərs keçirdi. Şöbədə təhsil müddəti 4 il idi. İlk məzunlar 1958-ci ildə buraxıldı. 1965-ci ildən etibarən şöbədə günorta təhsili ilə yanaşı, axşam dərsləri də aparılmağa başladı. 1955-ci ildən 1975-ci ilə qədər bu şöbəni 568 nəfər bitirdi ki, bunun da 198 nəfəri kişi, 370 nəfəri qadın idi. 1964-cü ildə İstanbul Universitetinin ədəbiyyat fakültəsi yanında keçirilən kitabxanazılıq kurslarında Universitetin öz kitabxanaları üçün kadr hazırlanırdı. 1972-ci ildə Ankarada Haccetepe Universitetində Kitabxana işi və Sənədləşmə şöbəsi azıldı. Burada təhsil müddəti 4-5 il idi. Hər il şöbəni 25 nəfər bitirirdi. Alınan biliklərin təkmilləşdirilməsi üçün bəzi məzunlar ölkədən kənara yollanırdı. Orta səviyyəli (ixtisaslı) mütəxəssislər isə öz biliklərini Kitabxana İdarəsinin və Türk Kitabxanaçılar Dərnəyinin təşkil etdiyi müxtəlif qısamüddətli kurslar və seminarlarda artırırdı. Məs., 1975-ci ildə kitabxanaçılar, kütləvi və uşaq kitabxanalarının müdirləri üçün inventarlaşdırma və kitabxana statistikası, cildləmə işi və s. üzrə kurslar təşkil olunmuşdu. Bu kursları təxminən 200 nəfər bitirmişdi. Qəbul edilən tədbirlərə baxmayaraq

1975-ci ilin əvvəlləri kütləvi və uşaq kitabxanalarında 1460 nəfər çalışırdı ki, 1983-cü ilə kimi bu rəqəmin 2,5 minə çatdırılması vacib idi. 1949-cu ildə Türk kitabxanaçılar dərnəyinin əsası qoyuldu. Bu dərnəyin məqsədi Türkiyədə kitabxanaların və kitabxana işinin inkişafına təsir göstərməkdən ibarət idi. O, kitabxanaçıların hüquqlarının qorunmasını, peşəkar kursların, seminarların, konfransların təşkili, kitabxana işinin nəzəriyyəsi və təcrübəsinə aid işləri hazır layıb çap etmək və s. məsələləri öz üzərinə götürürdü. 1961-cü ildən dərnək öz şöbələrini azmaq imkanı qazandı. Bu şöbələrin sayı sabit deyildi. çünki onların əksəriyyəti əsasən kitabxanaların bu və ya digər yerlərdə inşasını həyata keçirmək üzün təşkil olunurdu. Türk kitabxanaçılar dərnəyi maddi cəhətdən bir sıra dövlət və özəl müəssisələr, həm də ayrı-ayrı şəxslər tərəfindən dəstəklənirdi. 1952-ci ildə Dərnək «Türk kütüphaneciler derneğinin bülteni»ni buraxmağa başladı. 1962-ci ildən 1974-cü ilə qədər Dərnək kitabxanaçılar üçün 7 syezd təşkil edib. Bu dərnək kitabxana assosiasiyaları və cəmiyyətlərinin beynəlxalq federasiyasının kollektiv üzvüdür, UNESKO-dakı Türkiyə milli komissiyasının tərkibinə daxildir.

***

Türkiyə Cümhuriyyətinin mövcudluğu müddətində ölkədə kitabxana işi sahəsində önəmli nailiyyətlər əldə edilmişdir. Kitabxanalar, onların təşkili artıq xüsusi şəxslərin işi olmaqdan çıxmağa başlamışdı. Hazırda Türkiyədə əksər kitabxanalar artıq dövlət idarələri hesab olunurlar. Kitabxana şəbəkələri genişlənmiş, yeni tip kitabxanalar yaranmış, yeni iş növləri (informasiyaya açıq çıxış sistemi, sərgilər, kitab həftələri və s.) tətbiq edilir. Ali və orta səviyyəli kitabxanaçı kadrların hazırlanması üçün xüsusi kurslar fəaliyyət göstərir. Türk Kitabxanaçılar dərnəyi, Milli Kitabxana və Biblioqrafiya Institutu yaradılmışdır. Ölkənin 5 kitabxanası respublikaya daxil olan əbədiyyatın pulsuz məcburi nüsxəsini alır. Son olaraq onu qeyd etmək lazımdır ki, kitabxana işi sahəsi üzrə Türkiyə dövləti qarşısında duran ən ümdə vəzifələr məcburi nüsxə haqqında yeni qanunun, kitabxana işçilərinin statusu, onların hüquqi vəziyyəti, vəzifələri, əmək haqqı və ümumilikdə kitabxana işi haqqında qanunun qəbulu, kitabxana təhsili olan mütəxəssislərin sayının artırılması (xüsusilə də kənd və uşaq kitabxanalarında), kitabxanaların inkişafı üçün maliyyə vəsaitinin ayrılması və s. kimi məsələlər durur.

N.Mehdiyeva ilə birlikdə
"Bakı Universitetinin Xəbərləri:
Humanitar elmlər seriyası. 2008. s. 231-243

O, KİTABI TƏHSİLİN, ELMİN, İNSANIN HƏYAT FƏALİYYƏTİNİN ƏSAS VASİTƏSİ KİMİ QİYMƏTLƏNDİRİRDİ

Kitaba və kitabxanaya böyük qiymət verən Heydər Əliyev özü də dünya dövlət başçılarının çoxuna müyəssər olmayan qiymətli, çoxcildli kitabların müəllifi kimi tanınmışdır. İftixar hissi ilə demək olar ki, özünün respublikaya rəhbərlik etdiyi 34 illik fəaliyyəti dövründə Heydər Əliyev böyük təşkilatçılıq, nəhəng quruculuq işləri ilə yanaşı, zəngin elmi-nəzəri və mənəvi bir irs yaratmışdır. Bu irs qiymətli mənəvi sərvətimiz kimi elmimizin və mədəniyyətimizin qızıl fonduna daxil edilmişdir.

Heydər Əliyevin tariximizə, dilimizə, ədəbiyyatımıza, milli ideologiyamıza, soy-kökümüzə həsr edilmiş dərin mazmunlu əsərləri bütün elm sahələrindəki elmi araşdırmaların metodoloji əsasıdır. Bu əsərlər azərbaycanşünaslığa böyük hədiyyədir. Bu əsərlər siyasi tarix, vətəndaşlıq, dövlət quruculuğu dərsliyidir.

Heydər Əliyevin hər bir əsəri böyük elmi- mədəni əhəmiyyətə malikdir. Əsrlər keçəcək, illər bir-birini əvəz edəcək, nəsillər dəyişəcək, bu əsərlər isə yaşayacaq, neçə-neçə nəsillərə, Azərbaycan xalqının gələcəyinə xidmət edəcəkdir. Çünki bu əsərlər zamanın sifarişidir, xalqın tarixidir. Bu əsərləri zaman özü yaratdığından daim yaşayacaq, gələcəyə işıq salacaq. Heydər Əliyevin əsərlərini oxuyarkən məlum olur ki, bu əsərlərdə çox geniş elmi məlumat toplanmışdır. Bu əsərlərdə bəşəriyyətin görkəmli dövlət, elm və mədəniyyət xadimlərindən gətirilən sitatlar, məlumatlar və elmi fikirlər müəllifin çox geniş mütaliə dairəsinə, çox zəngin və dərin biliyə, elmi məlumata malik olan bir şəxsiyyət, görkəmli bir ziyalı olduğunu sübuta yetirir. Hazırda respublikamızda Heydər Əliyevin ayrı-ayrı əsərləri ilə yanaşı olaraq Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən "Müstəqilliyimiz əbədidir" başlığı ilə çoxcildli əsərləri çap edilir. Bu cildlərin 20-ci cildi çapdan çıxmışdır. Mütəxəssislərin təxmini hesablamalarına görə onun əsərləri tam nəşr edilsə, 40-45 cild olmalıdır.

Etiraf edilməlidir ki, Heydər Əliyev kimi zəngin elmi-ədəbi irsi, çoxsaylı əsərləri olan dövlət başçıları olduqca azdır. Kitabı təhsilin, elmin, insanın həyat fəaliyyətinin əsas vasitəsi kimi qiymətləndirən Heydər Əliyev yazırdı: "Hər birimiz ancaq kitab vasitəsilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də, hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir".

Azərbaycanda kitabxana işinin inkişafının Heydər Əliyev mərhələsi kimi xarakterizə olunan 70-80-ci illərdə böyük öndərin həyata keçirdiyi müdrik siyasəti nəticəsində geniş islahatlar aparılmış, kitabxana işi həm kəmiyyət, həm də keyfiyyətcə inkişaf edib təkmilləşmişdir. Dövlətin kitabxana işi sahəsində apardığı islahatlar nəticəsində kitabxanaların sayı artmış, yeni kitabxanalar yaradılmış, mövcud kitabxanaların maddi-texniki bazası möhkəmlənmiş, binalar təmin edilmiş, kitab fondları əsaslı şəkildə inkişaf etmiş, metodik təminat

sistemi təkmilləşmiş, oxuculara xidmət sistemitamamilə yenidən qurulmuş, yüksək ixtisaslı kadrlarla təmin edilmiş və nəhayət 70-ci illərdə bütün SSRİ miqyasında həyata keçirilən kitabxanaların mərkəzləşdirilməsi müvəffəqiyyətlə başa çatdırılmışdır.

Əgər 1970-ci ildə Azərbaycanda 25 milyon 400 min nüsxə kitab fonduna malik 2923 kütləvi kitabxana var idisə, 1985-ci ildə 38 milyon 800 min kitab fondu olan 4245 kütləvi kitabxana fəaliyyət göstərirdi. Son 15 ildə kitabxanaların sayı 1322 ədəd kitab fondu isə 13 milyon 400 min nüsxə artmışdır. Əgər kütləvi kitabxanalarda orta hesabla 1970-ci ildə hər oxucuya 90 kitab düşürdüsə, 1985-ci ildə 578 kitab düşürdü. Yəni son 15 ildə hər 100 nəfərə düşən kitabların miqdarı 488 nüsxə artmışdır.Açılan yeni kitabxanaların bilavasitə indiyə qədər kitabxanası olmayan yaşayış məntəqələrində açılması olduqca böyük nailiyyət idi.Dövrün əsas xüsusiyyətlərindən biri uzun illərdən bəri dövlət orqanlarının diqqətindən kənarda qalmış kənd kitabxana şəbəkəsinin inkişafına böyük qayğı olmuşdur. Bu dövrdə kənd yerlərində 1192 yeni kitabxana açılmış, onların fonduna 7 milyon 800 min nüsxə kitab daxil edilmişdir.

1992-ci ildə Heydər Əliyevin Moskvaya rəhbər vəzifəyə gətməsi ilə əlaqədar onun fəaliyyətinin Azərbaycan mərhələsi başa çatdı. Heydər Əliyevin respublikadan getməsi tezliklə hiss edilməyə başladı. Respublikanın inkişafında tənəzzül baş verdi. Bu tənəzzül 80-ci illərin axırında və 90-cı illərin əvvəllərində daha da dərinləşdi, böhran həddinə gəlib çatdı.

80-ci illərin axırı - 90-cı illərin əvvəllərində kitabxana işinə ayrılan büdcə yarıbayarı azaldılmışdı. Kitabxanalara kitab almaq üçün ayrılan vəsait dayandırılmışdı. Kitabxanaların binalarının alınması, digər sosial obyektlərə çevrilməsi haqqında dövlət səviyyəsində səslər ucalmağa başlamışdı.

1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan kitabxanaların məhv olması təhlükəsinin qarşısını aldı. Kitabxanaların qorunub saxlanılması və maliyyələşdirilməsi haqqında dövlət orqanlarına göstərişlər verildi.

1995-ci il sentyabr ayının 29-da "Azərbaycan Respublikasında 1995-1998-ci illər dövlət mülkiyyətininn özəlləşdirilməsinin dövlət proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bağlı fərman imzalandı. Bu fərmanın birinci bölməsində "Özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlərin siyahısı" verilmişdir. Bu siyahıya kitabxanaların daxil edilməsi kitabxanaları özəlləşdirmək və onların binalarını ələ keçirmək bəlasından xilas etdi.

1996-cı ildə bilavasitə Prezidentin tövsiyəsi ilə Azərbaycan Respublikası Nazirlər Kabineti "Kitabxana işi haqqında" qərar qəbul etdi. Bu qərarda kitabxana şəbəkələrinin qorunub saxlanması və əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılması vəzifəsi qarşıda qoyulmuşdu. 90-cı illərin axırında ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə respublikamızda mədəniyyətin ayrı-ayrı sahələri haqqında qanunlar qəbul edildi. 1998-ci ildə ölkəmizin tarixində ilk dəfə Milli Məclis "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının

Qanununu qəbul etdi. 6 fəsil, 34 maddədən ibarət olan bu qanun "kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işi və kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdırılması və mühafizəsi tələblərini, kitabxanalardan istifadə sahəsində vətəndaşların hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən edir".

Ulu öndər Heydər Əliyev tərəfindən imzalanmış bu qanun respublikamızda kitabxana quruculuğu sahəsində mühüm dövlət sənədi kimi kitabxana işinin gələcək inkişaf yolunu işıqlandırmaqla, respublika kitabxana ictimaiyyətinə ulu öndər tərəfindən bir hədiyyə oldu.

Beləliklə, XX əsrin II yarısı və XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin tarixinin tədqiq edilib öyrənilməsi bir daha təsdiq edir ki, göstərilən dövrdə kitabxana işinin inkişafı bilavasitə ulu öndər, xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə, onun böyük xidmətləri ilə bağlı olmuşdur.

"TV plyus" jurnalı. 2008. s. 149-150

KİTABXANAŞÜNASLIQ FƏLSƏFƏSİ

Elm fəlsəfəsinin, o cümlədən kitabxanaşünaslıq fəlsəfəsinin hələ çox-çox əvvəllərdən tədqiq olunmasına, bu sahədə ciddi elmi əsərlər yazılmasına, kitabxana işi nəzəriyyəsinin və praktikasının müxtəlif sahələrində tətbiq edilməsinə baxmayaraq bu mühüm problem Azərbaycan elmində son zamanlar öyrənilməyə başlamışdır. Bu problemin öyrənilməsi tarixinə nəzər salsaq məlum olur ki, Sovetlər Birliyində, o cümlədən bu birliyə daxil olan Azərbaycanda hakim marksizm-leninizm ideologiyası kitabxanaşünaslıq fəlsəfəsinin öyrənilməsinə ciddi mane olmuşdur.

Monoideologiyanın hökm sürdüyü Sovetlər İttifaqında bütün ictimai və humanitar elmlərin elmi-nəzəri və metodoloji əsası kimi marksizm-leninizm fəlsəfəsi qəbul edilmişdi. Humanitar elm kimi formalaşan kitabxanaşünaslıq da marksizm-leninizm ideologiyasına, kommunist partiyalılığı prinsipinə əsaslanmışdır. Sovet hakimiyyəti illərində Sovetlər Birliyində sinfilik və kommunist partiyalılığı prinsiplərinə əsaslanan qondarma «Sosialist kitabxanaşünaslığı» termini yaradılmışdı. Sosialist kitabxanaşünaslığı dünya kitabxanaşünaslığından təcrid olunmuş halda inkişaf edir, bilavasitə kommunist ideologiyasına, marksizm-leninizm fəlsəfəsinə əsaslanırdı.

Sosialist kitabxanaşünaslığı nəzəriyyəçiləri onun elmi-nəzəri və metodoloji əsasını marksizm-leninizm fəlsəfəsinin təşkil etdiyini əsaslandırmağa çalışır, mövzusundan asılı olmayaraq bütün kitabxanaşünaslıq tədqiqatları bu metodologiyaya müvafiq aparılırdı. Sovet dövründə kitabxanalar öz statusuna görə ideoloji müəssisə kimi təbliğat-təşviqat və ideoloji işdə kommunist partiyasının dayaq bazası hesab edilirdi.

Marksist-leninçi ideologiyanın əsas prinsipləri olan sinfilik və partiyalılıq həm də kitabxana işinin əsas prinsipləri kimi, kitabxanaların bütün iş proseslərində, kitabxana fəaliyyətinin bütün sahələrində tətbiq edilirdi. Məhz buna görədə Sovetlər Birliyinə daxil olan ölkələrdə kitabxanaşünaslıq fəlsəfəsinin öyrənilməsinə, kitabxanaların fəlsəfi problemlərinin araşdırılmasına şərait yaradılmırdı. Marksizm-leninizmin nəzəri müddəaları bu problemin öyrənilməsinə ciddi maneçilik törədir, buxov rolunu oynayırdı.

SSRİ dağıldıqdan sonra bu birliyə daxil olan ölkələrdə marksizm-leninizm ideologiyasından imtina edilməsi, bazar iqtisadiyyatının yaradılması, ölkədə demokratikləşmə prosesinin genişlənməsi, yeni dünyəvi ideologiyanın, milli ideologiyanın bərqərar olmasına, yeni demokratik və bəşəri prinsiplərə əsaslanan yeni dünyagörüşünün, təfəkkür tərzinin, yeni metodologiyanın meydana gəlməsinə səbəb oldu.

Elmlərin fəlsəfəsini öyrənmək, onu inkişaf etdirmək yeni mərhələyə daxil oldu. Hələ XX əsrdə inkişafa başlayan «Elmin fəlsəfəsi» fənni geniş inkişaf tapdı.

Fransız filosofu, neorializmin banisi Başlyar (1884-1962) elmin inkişafı ilə əlaqədar olaraq yeni epistemologiya yaratmağa çalışmışdır. Başlyarın rassional və empirik biliklərin daim qarşılıqlı əlaqəsi konsepsiyasında nəzəriyyə ilə praktikanın qarşılıqlı təsiri elmin dialektik inkişafının mühüm aspektini təşkil edir. onun rəyinə görə biliyin birinci mərhələsində üstünlük empirizmə, ikinci mərhələsində isə mücərrəd təfəkkürə məxsusdur.

Beləliklə, elmin fəlsəfəsi sanki idrakın iki qütbünə çəkilir. Filosoflar üçün bu proses kifayət qədər ümumi prinsipləri öyrənməkdir, alim üçün isə bu, daha çox xüsusi nəticələri öyrənməkdir. Elm fəlsəfəsi, nəticə etibarilə, bu iki əks idrakı maneələri aradan qaldırır. Elm fəlsəfəsi gah apriori, gah da aposteriori səviyyələrdə dəyərləndirilir. Müasir elmi fikir özünü eksperment və rassional xarakterli dəyərlər arasında ifadə edir.[1]

Elm tarixindən məlumdur ki, elmlərin inkişafında, tərəqqisində, elmi-nəzəri və metodoloji əsaslarının müəyyənləşdirilməsində və formalaşmasında fəlsəfə böyük istiqamətverici rol oynamışdır. Məhz buna görədir ki, ayrı-ayrı konkret elmlərin fəlsəfə ilə qarşılıqlı əlaqəsi, onların fəlsəfi problemlərinin öyrənilməsi, fəlsəfənin müddəalarından metodoloji baza kimi istifadə edilməsi həm filosofların, həm də ayrı-ayrı konkret elm sahələrində çalışan alimlərinin diqqət mərkəzində olmuş, «Elmin fəlsəfəsi» adlı xüsusi kompleks fənn meydana gəlmişdir.

«Elmin fəlsəfəsi» fənninin əsas vəzifəsi: elmi fəlsəfənin üzərində sistematik inikası, dövrün sosial-mədəni kontekstində mövcud elmin naliyyətlərinin nəzərə alınması (qeyd edilməsi) fəlsəfi və xüsusi biliklərin sintezinin həyata keçirilməsidir. Həmçinin «Elm fəlsəfəsi» biliklərin xüsusi sahəsi kimi bəşəri mədəniyyətin birliyini təmin edən mühüm inteqrasiya funksiyasını

[1] «Мир философии». Ч.1. Москва, 1991, с.117.

yerinə yetirir. Elmin fəlsəfəsi fəlsəfə ilə elm arasında zəruri əlaqə formalarından biri kimi onların qarşılıqlı inteqrasiyasına və zənginləşməsinə xidmət edir. Bu fənnin inkişafında həm fəlsəfə, həm də xüsusi elmlər maraqlıdır.

«Fəlsəfəni insan mədəniyyəti sferasında baş verən müxtəlif ziddiyyətlər və qarşılıqlı təsirlə əlaqədar olan, eyni zamanda bir sahədən digərinə keçmək və onda təcəssüm olmaq məharətinə malik olan mənəvi-ruhi proses kimi anlamaq lazımdır».[1]

«Elm fəlsəfəsi»nin problemlərinə elm üzərində fəlsəfənin inikası, elmin strukturunun inkişafı və məzmununun ayrıca elmi fənn kimi, bütövlükdə elm kimi öyrənilməsi daxildir.

«Elm fəlsəfəsi» fənninin üç mühüm səviyyəsini ayırmaq mümkündür: 1) Bütövlükdə fəlsəfə; v 2) Ayrı-ayrı elm sahələrinin fəlsəfəsi (təbiətşünaslıq, humanitar elmlər); 3) Ayrı-ayrı elmlər, fənlər (mexanika, astronomiya, tarix, sosiologiya, kitabxanaşünaslıq, filologiya, dilçilik və s.).[2]

Elm fəlsəfəsini, onun strukturunu, predmetini öyrənərkən ayrı-ayrı elmlərin klassik fəlsəfə tərəfindən öyrənilməsini, onların irəli sürdüyü ideyaları, gəldiyi nəticələri öyrənmək, onlara isnad etmək hər bir tədqiqatçı üçün zəruridir.

Belə fəlsəfi əsərlər içərisində görkəmli alman filosofu Hegelin «Hüquq fəlsəfəsi»[3] «Tarix fəlsəfəsi», «Dinin fəlsəfəsi» böyük maraq doğurur. Hegelin bu məşhur fəlsəfi əsəri ayrı-ayrı elmlərin fəlsəfəsini öyrənmək üçün məhək daşı, elmi-nəzəri metodoloji bazadır. Hegel bu əsərdə hüquq haqqında fəlsəfi elmin predmetindən bəhs edərkən yazır: «Hüquq haqqında fəlsəfi elmin predmeti hüquq ideyasıdır, hüquq anlayışı və onun gerçəkləşməsidir... Hüquq haqqında elm fəlsəfəsinin bir hissəsidir. Odur ki, o predmetin təfəkkürü, zəkası kimi ideyanı anlayışdan inkişaf etdirməli və ya predmetin özünün immanent inkişafını müşahidə etməlidir. Fəlsəfənin hissəsi kimi hüquq haqqında elmin müəyyən çıxış nöqtəsi və həqiqətindən və bunun sübutundan ibarət olmalıdır».[2]

Hegel hüquqşünaslığı, onun anlayışlarını, qanunlarını və hüquq nəzəriyyələrini hüquq fəlsəfəsinin predmeti kimi müəyyən etməklə yanaşı onun vəzifələrini izah edərək yazır: «Hüquq haqqında fikir hər kəsin bilavasitə malik olduğu şey deyildir; yalnız düzgün təfəkkür predmetin dərki və onun haqqında bilik ola bilər, ona görə də idrakımız elmi olmalıdır».[3]

Hegelin Hüquq fəlsəfəsi»nin əsas xüsusiyyətlərindən biri də tarixilik prinsipidir. Hegel hüququn inkişafında iki aspekti irəli çəkir: birincisi, hüququn tarixi əsaslar üzərində inkişafı, ikincisi, onun öz anlayışlarından irəli gələn inkişafı Hegel fəlsəfəyə gətirdiyi tarixilik prinsipindən özünün bütün

[1] İmanov H. Fəlsəfənin əsasları. -Bakı, 2007, s.23.
[2] Основы философских наук. Москва, 2005, с. 37-38.
[3] Hegel. Hüquq fəlsəfəsi. Bakı, 2007, 375 s.
[1] Yenə orada s.65
[2] Yenə orada s.7

fəlsəfi araşdırmalarında olduğu kimi hüquq fəlsəfəsi tədqiqatlarında da ardıcıl olaraq istifadə edir».[1]

Beləliklə, «Elmin fəlsəfəsi»nin öyrənilməsində görkəmli filosof Hegelin «Hüquq fəlsəfəsi» əsəri böyük elmi-nəzəri və metodoloji əhəmiyyətə malik olmaqla, ayrı-ayrı elmlərin öyrənilməsi yolunu işıqlandırır, onu düzgün elmi istiqamətə yönəldir. Ayrı-ayrı elmlərin fəlsəfi problemlərində hüquq fəlsəfəsinə oxşar cəhətlər olduqca çoxdur. Hüquq fəlsəfəsinin öyrənmə üsulları və metodlarını bütün elmi araşdırmalara tətbiq etmək və ondan istifadə etmək, fəlsəfi tədqiqatların səmərəliliyini artırar və elmlərin fəlsəfə elminin əsas müddəalarına əsaslanaraq inkişaf etməsinə gətirib çıxarar.

Müasir dünyada «Elmin fəlsəfəsi»nin inkişafı onun predmetinin və vəzifələrinin müəyyənləşdirilməsini, bu sahədə qiymətli əsərlərin meydana çıxması, ayrı-ayrı elmlərin fəlsəfəsinin öyrənilməsi üçün şərait yaratdı və mühüm elmi mənbə rolunu oynadı. «Elm fəlsəfəsi» fəninin elmi fənn kimi formalaşması başqa elmlərlə yanaşı olaraq kitabxanaşünaslıq fəlsəfəsinin yaranıb inkişaf etməsinə böyük kömək etdi. Bütün bunların nəticəsində kitabxanaşünaslıq elminin yeni elmi metodoloji əsaslar üzərində inkişaf edən, dünya kitabxanaşünaslığının nəliyyətlərinə, elmi müddəalarına əsaslanan yeni kitabxanaşünaslıq formalaşdı. Yeni kitabxanaşünaslıq kommunist ideologiyasının, marksist-leninçi fəlsəfənin buxovlarından azad olmaqla, yeni təfəkkür tərzinə, yeni demokratik, bəşəri prinsiplərə söykənərək, müasir informasiya cəmiyyətinin kitabxanaşünaslıq elminin qarşısında qoyduğu vəzifələri həll etməyə başladı. Məhz bu şəraitdə kitabxanaşünaslıq fəlsəfəsinin öyrənilməsi ciddi bir zərurət kimi qarşıya çıxdı.

Kitabxanaşünaslıq fəlsəfəsini öyrənmək və onu formalaşdırmaq üçün hər şeydən əvvəl terminoloji məsələləri həll etmək qaçılmazdır. Son zamanlar kitabxanaşünas alimlər, mütəxəssislər bu termini müxtəlif formada işlədirlər. Bu formalar içərisində üçü: «Kitabxana fəlsəfəsi», «Kitabxana işi fəlsəfəsi», «Kitabxanaşünaslıq fəlsəfəsi» diqqəti daha çox cəlb edir. Çətin də olsa (təvazökarlıqdan uzaq olsa da) biz bu terminlər içərisində «kitabxanaşünaslıq fəlsəfəsi»nin işlədilməsinə üstünlük veririk. Çünki «Kitabxanaşünaslıq fəlsəfəsi» həm kitabxana, həm də kitabxana işi problemlərini özündə birləşdirir, onu öyrənir, təhlil edir, elmi nəticələr çıxarır.

Doğrudur, Sovetlər Birliyi dövründə Azərbaycanda kitabxanaşünaslığın elmi-nəzəri əsasları və metodologiyası sahəsində elə bir ciddi monoqrafik tədqiqatlar aparılmamış, elmi diskussiyalar, müzakirələr keçirilməmişdi. Respublikamızın alimləri bu sahədə rus kitabxanaşünaslığının təsiri altında tədqiqatlar aparırdılar.

Sovetlər Birliyi dağıldıqdan sonra «Sovet kitabxanaşünaslığı»nın əsas prinsiplərindən imtina edildi. Yeni təfəkkür tərzinə, yeni ideologiyaya, bəşəri prinsiplərə əsaslanan kitabxanaşünaslıq inkişaf edib təkmilləşməyə, kitabxanaşünaslığın məzmun və prinsiplərində islahatlar aparılmağa başladı. Məhz bu dövrdə «Kitabxanaşünaslıq fəlsəfəsi», Kitabxanaşünaslığın fəlsəfəsi problemləri haqqında yeni fikirlər, elmi məqalələr, tədqiqatlar meydana çıxdı.

Dünya kitabxanaşünaslıq elmində xüsusi yeri və ciddi elmi nailiyyətləri olan rus kitabxanaşünaslığının görkəmli alimləri «Kitabxanaşünaslıq fəlsəfəsi» və kitabxanaların fəlsəfi problemləri haqqında ciddi elmi fikirlər irəli sürməyə və məqalələr çap etdirməyə başladılar. Belə alimlərə misal olaraq K.İ.Abramovu, A.N.Vanayevi, N.S.Kartaşovu, O.P.Korşunovu, Y.N.Stolyarovu, V.V.Skvortsovu, A.N.Sokolovu, M.Y.Dvorkinanı, E.İ.Kuzmini, T.F.Karatıginanı, S.A.Poroşinanı, N.V.Babilovanı, L.N.Qusevi, E.B.Smolinanı, N.F.Fyodorovu, V.D.Stelmaxı, L.V.Luçkaşovu, A.V.Liçutini və M.Y.Opuonkovu və s. başqalarını göstərmək olar.

Adları çəkilən görkəmli rus alimlərinin yazmış olduğu bu dəyərli əsərlər və məqalələr yeni rus kitabxanaşünaslığını qiymətli ideyalarla zənginləşdirməklə yanaşı dünya kitabxanaşünaslığına qiymətli töhfə vermişlər. Bu əsərlərdən MDB ölkələrində, o cümlədən Azərbaycan Respublikasında da müvəffəqiyyətlə istifadə edilməkdədir.

Məlum olduğu kimi, Sovetlər İttifaqı dağılana qədər Azərbaycanda da kitabxanaşünaslıq sahəsində aparılan tədqiqatlar rus kitabxanşünaslığının təsiri altında idi. Kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji əsasları Moskvada işlənib hazırlanırdı. Kitabxanaşünaslığın nəzəri problemlərinə həsr edilmiş bütün elmi konfranslar, müzakirə və diskussiyalar Moskvada keçirilirdi. Müttəfiq respublikaların kitabxanaçılıq ali məktəbləri Moskvada hazırlanmış tədris planları və proqramları əsasında işləyirdilər.

Digər müttəfiq respublikalarda olduğu kimi milli Azərbaycan kitabxanaşünaslığı da böhran keçirirdi. Kitabxanaşünaslığın elmi-nəzəri məsələlərinə dair ciddi elmi-tədqiqatlar aparılmırdı. Azərbaycan kitabxanaşünaslığı bilavasitə rus kitabxanaşünaslığının təsiri altında formalaşırdı.

1991-ci ildə SSRİ dağıldıqdan sonra Azərbaycan Respublikası müstəqillik əldə etdi. Müstəqil və suveren Azərbaycan Respublikasının yaranması xalqımızın taleyində böyük tarixi hadisə oldu. Müstəqillik şəraitində ölkənin sosial-iqtisadi tərəqqisi, xalqın mədəni-mənəvi potensialının güclənməsi, milli mədəniyyətimizin, elmimizin hərtərəfli inkişafı üçün geniş imkanlar açıldı. Mədəniyyətimizin mühüm sahələrindən biri kimi kitabxana işinin inkişaf və tərəqqisi üçün əlverişli şərait yarandı. Kitabxana işinin, kitabxanaşünaslıq elminin elmi-nəzəri və metodoloji əsasları yenidən işlənməyə, kitabxana işi problemləri köklü surətdə təzədən formalaşmağa başladı. Bu da hər şeydən əvvəl keçmiş totalitar rejimdən miras qalmış kitabxanaların ideologiyalaşdırılması, sinfilik, partiyalılıq kimi anti-elmi və qeyri-humanist prinsiplərdən azad olmasını, onun dünyəvi humanist prinsiplərlə əvəz edilməsini tələb edirdi.

Marksizm-leninizm nəzəriyyəsindən imtina etmək onun antielmi prinsipləri olan sinfilik və partiyalılıq prinsiplərini rədd etmək, Azərbaycan milli kitabxanaşünaslığına dünya kitabxanaşünaslığının ümumbəşəri prinsiplərinə

[1] *Hegel. Hüquq fəlsəfəsi. Bakı, 2007, s.9*

qovuşmaq imkanı verdi.

Müstəqillik illərində respublikamızda milli dəyərlərə söykənən kitabxanaşünaslığın bir elm kimi inkişafı sahəsində ciddi addımlar atılmış, bir çox qiymətli elmi-tədqiqat əsərləri, məqalələr, monoqrafiyalar, dərsliklər meydana çıxmış, yeni ümumbəşəri, dünya kitabxanaşünaslığına söykənən müasir kitabxanaşünaslıq formalaşmağa başlamışdır.

Bu sahədə Azərbaycan kitabxanaşünaslarından milli kitabxanaşünaslığımızın banisi, Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor A.A.Xələfovun xüsusi xidmətləri olmuşdur. Professor A.A.Xələfov müstəqillik əldə edildikdən sonra ölkədə baş verən siyasi, iqtisadi, ideoloji dəyişikliklərlə əlaqədar olaraq, dövrün tələbinə, yeni milli ideologiyaya, müvafiq olaraq kitabxanaşünaslığın elmi-nəzəri, metodoloji, fəlsəfi məsələlərini yenidən, yeni təfəkkür tərzinə, dünya kitabxanaşünaslığının təcrübəsinə əsaslanaraq, yeni baxımdan işlədi. Prof. A.Xələfovun 1997-ci ildə çap etdirdiyi «Müasir şəraitdə Azərbaycanda kitabxana quruculuğu nəzəriyyə və təcrübəsinin, elmi əsasları» adlı məqaləsində müasir kitabxanaşünaslığın «Sosialist kitabxanaşünaslığından» fərqli cəhətləri, yeni kitabxanaşünaslığın elmi-nəzəri əsasları, metodologiyası, demokratik inkişaf istiqamətı, dünya kitabxanaşünaslığına inteqrasiyası göstərilmiş, müasir kitabxanaşünaslığın inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

2001-2003-cü illərdə prof. A.Xələfovun öz tədqiqatlarını davam etdirməsi nəticəsində respublikanın tarixində ilk dəfə kitabxanaşünaslığın ümumi fəlsəfi məsələlərindən bəhs edən, kitabxanaşünaslıq fikrinin inkişaf tarixini, kitabxanaşünaslığın bir elmi fənn kimi meydana gəlməsini, elmi-nəzəri və metodoloji əsaslarının formalaşmasını elmi dəlillərlə ümumiləşdirən «Kitabxanaşünaslığa giriş» adlı ikicildlik dərsliyi meydana çıxdı. Bu dərslikdə müəllif «sosialist kitabxanaşünaslığının» bir çox müddəalardan cəsarətlə imtina etdi, öz yeni fikirlərini irəli sürdü. İlk növbədə uzun illər SSRİ-nin ali kitabxanaçılıq məktəblərində əsas fənn kimi tədris edilən «Ümumi kitabxanaşünaslıq» fənninin adı dəyişdirilərək «Kitabxanaşünaslığa giriş» adlandırıldı. «Kitabxana haqqında təlim» və «Kitabxana işi haqqında təlim» yenidən işlənərək kitabxanaların yaranması, tarixi, inkişafı, təkamülü, kitabxana işinin məzmunu və vəzifələri yeni dünyagörüşü, dünya kitabxanaşünaslığının müddəaları əsasında ümumiləşdirildi. Müəllif kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji əsaslarını yenidən işləyərək, kitabxanaşünaslıq fəlsəfəsi haqqında, kitabxanaşünaslığın metodoloji əsasını dünya fəlsəfəsinin təşkil etdiyini, fəlsəfənin elmi-nəzəri müddəalarının və kateqoriyalarının kitabxanaşünaslığa tətbiqi məsələlərinə aydınlıq gətirdi.

Bu dərslikdə diqqəti cəlb edən nəzəri yeniliklərdən biri də kitabxanaşünaslığın humanitar elmlər bölməsinə daxil edilməsidir. Məlumdur ki, sosialist kitabxanaşünaslığında və sovet elm təsnifatlarında «Kitabxanaşünaslıq» ictimai elmlər bölməsində öyrənilirdi. Müəllifin dünya kitabxanaşünaslığına

əsaslanaraq Kitabxanaşünaslığın humanitar elm olması fikrini irəli sürməsi və əsaslandırması kitabxanaşünaslıq aləmində yenilikdir. Prof. A.Xələfov kitabxanaların tipologiyasını kitabxanaşünaslıq elminin əsas nəzəri problemi kimi qiymətləndirərək ümumiyyətlə kitabxana işi və təsnifat probleminə böyük diqqət yetirmiş, elmlər təsnifatı ilə kitabxana təsnifatının əlaqələrini, onların oxşar və fərqli cəhətlərini elmi araşdırmağa səy göstərmiş, kitabxanaların tiplərə və növlərə bölünməsinin yeni variantını hazırlanmışdır. Prof. A.Xələfovun kitabxanaların tipləri və növləri haqqında təklif etdiyi yeni variant respublika kitabxana işçilərinin böyük marağına səbəb olmuşdur. Professor A.Xələfov müasir informasiya cəmiyyəti, onun xüsusiyyətləri, informasiya cəmiyyəti və kitabxana işi, informasiya və kitabxana texnologiyası, kitabxanaların kompüterləşdirilməsi, elektron kataloq və elektron kitabxana haqqında çox qiymətli məqalələr və dərsliklər yazılmışdır.

Prof. A.Xələfovla yanaşı Azərbaycan kitabxanaşünas alimlərindən prof. X.İ.İsmayılov, dosentlərdən R.Ə.Kazımov, K.İ.Aslan, E.Y.Əhmədov, M.Ə.Məmmədov, S.Rzayev və s. öz əsər və məqalələrində kitabxanaşünaslığın müasir problemlərinə toxunmuş, Azərbaycan milli kitabxanaşünaslığının müəyyən sahələrini tədqiq etmişlər.

Bütün bunlarla yanaşı 2007-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Rusiya Federasiyasının Mədəniyyət və Kütləvi Kommunikasiyaları Nazirliyi, Rusiya Federasiyasının Mədəniyyət və Kinematoqrafiya üzrə Federal Agentliyi və İnformasiya üçün YUNESKO Proqramının Rusiya Komitəsi tərəfindən «Kitabxanalar biliklər aləmində (iki dilli: Azərbaycan-Rusiya Layihəsi)» məqalələr məcmuəsinin çap edilməsi kitabxanaşünaslığın, müasir problemlərinin öyrənilməsinə qiymətli hədiyyə olmuşdur. Məqalələr məcmuəsində Azərbaycan və Rusiyanın görkəmli alimlərindən və mütəxəssislərindən Ə.M.Qarayevin, İ.Y.Məmmədəliyevanın, L.M.Məmmədovanın, A.A.Xələfovun, M.Q.Əhmədovun, R.Ə.Kazımovun, A.İ.Əliyeva-Kəngərlinin, S.Kondratyevin, T.Məmmədovun, Y.İ.Kuzminin, V.M.Krasilşikovanın, M.Usoçevuon, T.Y.Kuznetsovanın, E.V. Smolinovanın, Y.A.Qrixanovun, İ.B.Mixnovanın, N.İ.Xaxalevanın, M.Y.Opuonkovun, A.V.Liçutinin, İ.P.Tikunovanın müasir kitabxanaşünaslığın, «Kitabxanaşünaslıq fəlsəfəsinin» öyrənilməsi üçün olduqca böyük əhəmiyyət kəsb edən, onun elmi, nəzəri və metodoloji əsaslarının tədqiqinə və istiqamətləndirilməsinə mühüm köməyi olan məqalələri dərc edilmişdir. Məcmuədə çap edilən məqalələr içərisində informasiya cəmiyyətində kitabxanaçıların yeri və vəzifələri əhatəli şəkildə şərh edilmiş, çox ciddi tövsiyələr hazırlanmışdır.

Məcmuədə kitabxanaşünaslığın fəlsəfi problemlərinə, «Kitabxanaşünaslıq fəlsəfəsi»nə dair də çox qiymətli məqalələr vardır. Bu məqalənin görkəmli filosoflar M.S.Opuonkov və A.V.Liçutin tərəfindən yazılması böyük maraq doğurur.

Bütün burada göstərilənlərdən məlum olur ki, müasir şəraitdə həm Rusiyada həm də Azərbaycanda cəmiyyətin strukturunda baş verən dəyişilik-

lər, keçmiş Sovet imperiyasının yerində yaranmış müstəqil dövlətlərdə, o cümlədən müstəqil Azərbaycan Respublikasında kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji problemlərinin öyrənilməsinə, milli kitabxanaşünaslığımızın dünya kitabxanaşünaslığına inteqrasiyasına böyük şərait yaranmışdır. Müasir şəraitdə meydana çıxan yeni problemlər içərisində «İnformasiyanın ümumaçıq olması fəlsəfəsi»nin və «Kitabxanaşünaslıq fəlsəfəsi»nin öyrənilməsinə böyük maraq əmələ gəlmişdir.

İnformasiya cəmiyyəti şəraitində hər cür informasiyanı cəmiyyət üzvləri arasında yaymağı qarşısına məqsəd qoyan, informasiya resurslarını toplayan, qoruyub saxlayan, onu insanların informasiya təminatının ödənilməsinə yönəldən kitabxanalar informasiya daşıyıcısı kimi mühüm əhəmiyyət kəsb edir. Kitabxanalar bilavasitə informasiyanın hamı üçün açıq olması missiyasını yerinə yetirən ideal bir müəssisədir. Belə bir bəşəri missiyanı öhdəsinə götürən kitabxanaların XXI əsrdə strateji vəzifəsi tamamilə dəyişmişdir. Müasir kitabxanalar informasiyanı təkcə təqdim etməklə kifayətlənməməli onunla necə davranmağı, onu necə nizamlamağı, ondan necə istifadə etməyi aşılamalı, onun yaradılması və ötürülməsi prosesinə müdaxilə etməlidirlər. Beləliklə, müasir kitabxanalar təkcə informasiyanın oxuculara çatdırılması yox, biliklərin əldə edilməsi və idarə edilməsi missiyasını həyata keçirir. Biliklərin idarə edilməsi isə bilavasitə idrak nəzəriyyəsində aparılan tədqiqatlarla əlaqədardır, onların böyük oxşarlıqları vardır.

Müasir dünyada baş verən bu proseslər kitabxanaların elmi nəzəri və metodoloji əsaslarını tədqiq edib öyrənən kitabxanaşünaslığın dünya elmləri ilə əlaqələndirilməsi, kitabxana, kitabxana işi və kitabxanaşünaslığın fəlsəfi problemlərinin öyrənilməsini, başqa sözlə, «Kitabxanaşünaslıq fəlsəfəsi»nin yaradılmasını tələb edir.

Müasir dövrdə humanitar elm kimi formalaşan kitabxanaşünaslıq bir elm kimi əhəmiyyətli dərəcədə inkişaf edib təkmilləşmiş, strukturunda ciddi dəyişikliklər baş vermiş, yeni-yeni elm sahələri yaranmış, elmi-nəzəri cəhətdən daha da zənginləşməklə, bilik və onun əldə edilməsi və mütaliə prosesinə, insanlara kitabxana-informasiya xidməti prosesinin təşkilinə dərindən nüfuz etmiş, beləliklə də, kitabxana praktikasının səmərəliliyinin artmasına geniş şərait yaratmışdır.

İnformasiya cəmiyyətinin kitabxanaların qarşısında qoyduğu böyük vəzifələr: informasiyanın hamı üçün olması, yeni informasiya texnologiyasının kitabxana və informasiya işinə tətbiqi, kitabxanalarda tətbiq edilən ənənəvi üsullardan öz məzmunu və formasına görə tamamilə fərqlənən yeni xidmət formalarının, elektron kataloqun, elektron kitabxananın yaranmasını, kitabxana proseslərinin kompüterləşdirilməsi, oxuculara xidmət prosesində kompüterlərdən istifadə edilməsi, oxucuların kompüter savadının təkmilləşməsi, kitabxanaların İnternetə qoşulması, kitabxanaşünaslığın yeni tərkib hissəsi olan elektron kitabxanaşünaslığın meydana gəlməsi kitabxanaşünaslığın nəzəriyyəsində və metodologiyasında əsaslı dəyişikliklər edilməsini, yeni elmi

fənlər yaradılmasını, elmi ümumiləşdirmələr aparılmasını, əldə edilmiş elmi nəticələrin sürətlə praktikaya tətbiq edilməsini tələb edir. Bütün bunlar isə öz növbəsində kitabxanaşünaslıq tədqiqatlarını bilavasitə cəmiyyətin tələbatına müvafiq istiqamətlərə yönəltmək, informasiyanın hamı üçün sosial mühitinin hazırlanması zərurətini doğurur. Bu həyati proseslərin həlli isə bütövlükdə kitabxanaşünaslıq fənlərinin elmi-nəzəri və metodoloji əsası olan «Kitabxanaşünaslıq fəlsəfəsi»nin öyrənilməsini ön plana çəkir. Beləliklə, «Kitabxanaşünaslıq fəlsəfəsi» kitabxanaçılıq elmlərinin elmi-nəzəri əsası, metodoloji bazasının məhək daşıdır.

Hər bir elmi fənnin mahiyyətini açan, vəzifələrini müəyyənləşdirən predmeti olduğu kimi «Kitabxanaşünaslıq fəlsəfəsi»nində özünəməxsus predmeti mövcuddur. Bu predmeti düzgün müəyyənləşdirmək, onun mahiyyətini və məzmununu açmaq olduqca böyük elmi ümumiləşdirmələr aparmağı, kitabxanaçılıq elmlərini dərindən bilməyi, onun dərinliklərinə nüfuz etməyi bacarmaq zərurəti doğurur.

«Kitabxanaşünaslıq fəlsəfəsi» hələ lazımi səviyyədə öyrənilmədiyindən onun predmeti haqqında müxtəlif fikirlər vardır. Hazırda əsas vəzifə bu müxtəlif fikirlər aləmindən ən optimalını, səmərəlisini seçib ümumiləşdirməkdən ibarətdir.

Kitabxaşünaslıq fəlsəfəsi, hər şeydən əvvəl, kitabxana fəaliyyətinin təşkilinin məqsəd və prinsipləri haqqında ideyalar və anlayışlar sistemini, kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji əsaslarını öyrənməyə səy göstərir. «Elm fəlsəfəsi»nin öyrənilməsində tarixilik prinsipi əsas prisiplərdən biri kimi qəbul edildiyindən «Kitabxanaşüanslıq fəlsəfəsi» öz tədqiqatlarında kitabxanaların yaranması və inkişafı tarixinə, təkamül prosesində kitabxanaların təkmilləşməsinə, cəmiyyətin mədəni inkişafında insanların biliklərə yiyələnməsində, informasiya təminatında, maarif və mədəniyyətin inkişafında keçdiyi yola, oynadığı rola da geniş nəzər salmaqla kitabxanaların tarixi missiyasını ümumiləşdirir.

Kitabxanaların bəşəriyyətin, ayrı-ayrı xalqların, dövlətlərin inkişafında oynadığı böyük tarixi missiyanı yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev deyir: «Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də, kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir».[1]

Mübaliğəsiz demək olar ki, H.Əliyevin böyük fəlsəfi mahiyyət kəsb edən bu fikirləri, dünya mədəniyyəti tarixində kitabxanaya verilən ən qiymətli kəlam, dərin metodoloji əhəmiyyət kəsb edən fikirlərdir. Heydər Əliyevin kitabxananı müqəddəs bir yer (ilahi qüvvəyə malik, toxunulmaz, sarsılmaz, pak, təmiz bir yer) adlandırması, kitabxanaların cəmiyyətin mənəvi tərbiyəsində, maariflənməsində böyük məsuliyyət daşımasını ön plana çəkir. Həmçinin kitabxanaları mənəviyyat, bilik, zəka mənbəyi kimi xarakterizə etməsi, onun

[1] *Heydər Əliyev. Müstəqillik yollarında.- B., 1977, III cild, s. 397.*

cəmiyyət qarşısındakı, elmi, informasiya, mədəniyyət, təhsil, tərbiyə kimi çox mühüm sosial funksiyaları yerinə yetirmək vəzifələrini elmi cəhətdən əsaslandırır, fəlsəfi mahiyyətini aşkara çıxardır.

Kitabxana haqqında dünyanın bir çox görkəmli şəxsiyyətləri, filosofları, yazıçıları, şairləri, alimləri, incəsənət xadimləri olduqca yüksək fikirlər söyləmiş, kitabxanaların bəşəriyyətin bilik xəzinəsi ideya və baxışlar mənbəyi kimi qiymətləndirmişlər. Belə görkəmli şəxsiyyətlərdən rus kitabxanaşünaslığının görkəmli simaları olan N.F.Fyodorov və N.Rubakinin «Kitabxanaşünaslıq fəlsəfəsi» haqqında fikirləri daha çox diqqəti çəkir.

25 il Rumyantsev muzeyi kitabxanasında xidmət edən Nikolay Feodoroviç Fyodorov (1829-1903) özündən sonra kitabxanaşünaslığa dair çox qiymətli əsərlər qoyub getmişdir.[1] Onun əsərləri içərisində kitabxanaşünaslığın fəlsəfəsinə (elmi-nəzəri və metodoloji problemlərinə) dair əsərləri mühüm elmi əhəmiyyət kəsb edir. N.F.Fyodorovun əsərlərində kitabxanaların mahiyyəti və vəzifələri haqqında fikirləri kitabxana işinin fəlsəfi anlamı üçün olduqca əhəmiyyətlidir. N.F.Fyodorovun nəzəri irsində kitabxanın iki istiqaməti: ideal və ruhi istiqaməti göstərilir, çap əsərlərinin real toplayıcısı hesab edilir. Kitabxanaya bir tərəfdən «ideal», digər tərəfdən «maddi» obyekt kimi baxılması onun baxışlarının mahiyyətini təşkil edir. O, bütün kitabxana fonduna bəşəriyyətin bütövlükdə fikri, həmçinin hissi və ruhu kimi baxırdı. Ona görə də o, kitabxanaları hiss və fikirlərin müqəddəs məbədgahı hesab edir, onu aqillik məbədi kimi qiymətləndirirdi. N.F.Fyodorov fəlsəfəsinin əsas ideyası ölümün üzərində qələbə çalmaq, dünyasını dəyişənləri həyata qaytarmaq, onları diriltmək idəyasıdır. O, əsərlərində özünün bu utopiyasının həyata keçirilməsinə böyük yer verirdi. Onun anlamına görə kitabxana ancaq kitab toplusu deyil, əcdadlarımız tərəfindən yaradılmış abidədir, yazarların ruhudur. Ona görə də, kitabxana müqəddəs məbəd kimi təbiətin əksinə olaraq, ölən atalarımızın, babalarımızın ideya, fikir və düşüncələrini yenidən dirildir kitabxana dünyasını dəyişənlərin xatirəsini qoruyub saxlamaqla onların yazdıqları əsərlər vasitəsi ilə həyata qaytarılmasına xidmət edir. N.F.Fyodorov yazır: inasan öləndən sonra onun cəsədi qəbirstanda dəfn edilir, ancaq onun ruhu kitablar formasında kitabxanaya müzeyə qayıdır.

N.F.Fyodorov öz əsərlərində kitabxananın böyük maarifçilik fəaliyyətini ön plana çəkir, ona ali məktəb kimi baxırdı. O, kitabxanaya elmi-tədqiqat işi aparan alimlərlə ali məktəb arasında yer verir. Onun fikrincə, kitabxana ali tədris müəssisələrindən üstün olmalıdır. Ona görə ki, müəllimlər özü də kitabxanadan öyrənir.[2]

Beləliklə, böyük mütəfəkkir, kitabxanaşünas N.F.Fyodorovun əsərlərində kitabxanaşünaslığın bir çox fəlsəfi problemlərini öyrənməklə, «Kitabxanaşünaslıq fəlsəfəsinin» öyrənilməsinin zəruriliyini ortaya çıxarıldı.

[1] *Библиотековедение. - 2001, №3,с. 80-88.*

[2] *Yenə orada.*

Klassik rus kitabxanaşünaslığında «Kitabxanaşünaslıq fəlsəfəsi»nə, kitabxanaçılığın fəlsəfi problemlərinə aid böyük və dərin nəzəri irs qoymuş, şəxsiyyətlərdən biri də görkəmli rus kitabxanaşünası N.A.Rubakin olmuşdur.[1] Bütün mənalı həyatını kitab, kitabxana və mütaliə problemlərinə həsr etmiş N.A.Rubakin dünyada ilk dəfə «Bibliopsixologiya»nın əsasını qoymuş, kitabxanaşünaslığın elmi, nəzəri və metodoloji problemlərinin yeni elmi əsaslar üzrəində öyrənilməsini əsaslandırmışdır. Onun elmi-nəzəri irsində kitab, kitabxana və mütaliənin fəlsəfi problemlərinin öyrənilməsinə geniş yer verilir. Bu problem N.A.Rubakin yaradıcılığından qızıl xətt kimi keçir.

Kitabxana işini fəlsəfə kimi qiymətləndirən N.A.Rubakin yazır: «Kitabxana işi kitab rəflərinin fəlsəfəsi deyil, biliyin, anlayışların fəlsəfəsidir». Deməli, A.N.Rubakinə görə kitabxana işi biliyin və anlayışların fəlsəfəsidir. A.N.Rubakinin kitabxana, onun cəmiyyətdəki yeri, tarixi missiyası, elmin, mədəniyyətin inkişafında, insanın yetişdirilməsində rolu əhəmiyyət və vəzifələri haqqında çox qiymətli fikirləri vardır.

N.A.Rubakin deyir: «Bəşəriyyətin ruhi enerjisinin anbarı olan kitabxana elə bir mərkəzdir ki, burada toplanan enerji canlı qüvvəyə çevrilir». «Kitabxana canlı orqanizm, kollektiv, yüksək təhsilli şəxsiyyət, bəşəriyyətin ən yaxşı nümayəndələrindən fərdi təşkil edilmiş müəssisədir».

Daha sonra N.A.Rubakin kitabxananın bəşəri biliyin toplanıb saxlanılmasında, onun nəsildən-nəslə ən qiymətli yadigarlar kimi ötürülməsində böyük fövqəl əhəmiyyətini dilə gətirərək söyləyir: «Kitabxana bəşəriyyətin ən yaxşı aqillərinin əməyinin məcmusudur, onların biliyinin, fikrinin, hissinin, ciddi-cəhdinin və ümidinin xəzinəsidir. Kitabxana kainatın kitabla əks etdirilməsidir».[2]

Klassik rus kitabxanaşünasları ilə yanaşı müasir rus kitabxanaşünaslarından K.İ.Abramovun, A.H.Vaneyevin, A.B.Sokolovun, V.V.Skvortsovun, Y.N.Stolyarovun, M.Y.Dvorkinanın, A.E.Matelinanın son məqalələrində də «Kitabxanaşünaslıq fəlsəfəsi»nin bu və ya digər aspektləri haqqında qiymətli fikir söylənilmiş və kitabxanaşünaslıq fəlsəfəsinin öyrənilməsi müasir kitabxanaşünaslığın əsas vəzifələrindən biri kimi qiymətləndirilmişdir.

Müasir kitabxanaşünas alimlər belə bir ümumi nəticəyə gəlmişlər ki, kitabxanaşünaslıq tədqiqatlarının aparılmasında, kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji əsaslarının hazırlanmasında, elmi-tədqiqat işləri nəticələrinin kitabxana praktikasına tətbiq edilməsində, kitabxanaşünaslığın digər elmlərlə inteqrasiyasında «Kitabxanaşünaslıq fəlsəfəsinin» böyük əhəmiyyəti vardır.

Bu məsələdən danışarkən fəlsəfə elmləri doktoru A.Q.Spirkin fəlsəfə dərsliyində fəlsəfə ilə konkret elmlərin nisbətini şərh edərək yazır: «Hər bir elmin istər-təbiətşünaslıq, istərsədə humanitar elmlər olsun öz predmeti vardır.

[1] *Библиотековедение.- 2001, №3,с. 80-88.*

[2] *Библиотечная энциклопедия. - М., 2006, с. 187.*

Bütün bunlar inkişaf prosesində dəyişər, yanlış nəzəriyyələrin əvəzində daha mükəmməl nəzəriyyələr yarana bilər».[1]

Bütün burada dediklərimizi nəzərə alaraq, həmçinin görkəmli alimlərin, filosofların, kitabxanaşünasların «Kitabxanaşünaslıq fəlsəfəsi» haqqında söylədiyi ideya və fikirlərə söykənərək, bizcə «Kitabxanaşünaslıq fəlsəfəsi»nin predmetini aşağıdakı şəkildə formalaşdırmaq olar. «Kitabxanaşünaslıq fəlsəfəsinin predmeti bilik, onun əldə edilməsi, informasiya və onların idarə edilməsidir». «Kitabxanaşünaslıq fəlsəfəsi» kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji məsələləri haqqında təlim, kitabxana işi fəaliyyətinin təşkilinin məqsəd və prinsipləri haqqında ideyalar və baxışlar sistemidir. O, həmçinin kitabxana ideyaları və kitabxana siyasətini hazırlamaq üçün metodoloji əsasdır.

Bəşəriyyət həmişə biliyə can atır, bilik əldə edilməsində insanların ən yaxın köməkçisi, bilik əldə etməyin vasitəsi, bilik mənbəyi olan mətnləri toplayıb saxlayan, onları nəsildən-nəsillərə ötürən kitabxanalar olmuşdur. Kitabxanalar özünün bu tarixi missiyası ilə insanlığın maariflənməsinə, elmə, mədəniyyətə yiyələnməsinə sərf etmiş, svilizasiyanın inkişafına böyük töhfələr vermişdir.

Bilik ictimai nemətdir. Bilik hər bir insan üçün əlyetərli olmalıdır. Cəmiyyət bilik dalınca gedən, bilik qazanmaq istəyən insana şərait yaratmalı, onun informasiya tələbatının ödənilməsini təmin etməlidir ki, kitabxana şəbəkələri insana informasiyanın biliyə çevrilməsi prosesində yardımçı olsun.

Məhz buna görədir ki, görkəmli rus alimi, fəlsəfə elmləri doktoru, professor M.Y.Opuonkov və fəlsəfə elmləri namizədi A.B.Lituçin «Kitabxana şəbəkələrində biliklərin idarə edilməsi» adlı məqaləsində biliklərin əldə edilməsində kitabxanaların roluna böyük qiymət verərək (kitabxana fəlsəfəsi və onun əhəmiyyətindən danışarkən) yazırlar: «Kitabxana fəlsəfəsi insanın biliklərlə necə davranması, onu necə sistemləşdirməsi və yeni biliklər necə yaratması məsələlərini tədqiq edir. Biliyin strukturlaşdırılması, təşkili və onunla iş metodlarının yaradılması məsələsi idrak nəzəriyyəsində aparılan tədqiqatlara oxşayır. Biliklərin hər hansı şəkildə sistemləşdirilməsi üçün dərin nəzəri hazırlıq, bəşər biliklərinin bütün məcmusunun moritorinqi və mümkün qədər dəqiq formalaşdırma tələb olunur. Biliklərin hər bir rubrikası konkret bilik strategiyasına əsaslanır».[2]

Beləliklə, insanın bilik qazanmaq, onları sistemləşdirmək, yeni biliklər yaratmaq sahəsində həyata keçirdiyi bütün təfəkkür prosesi daim hərəkətdə, yeniləşməkdə olan kitabxana işi ilə bağlıdır. İnsanla kitabxana arasında baş verən bu dinamik fəlsəfi proses «Kitabxanaşünaslıq fəlsəfəsi»nin yaranması və inkişafı üçün təkan verir. Kitabxana ilə insan (oxucu) arasında baş verən bu yaradıcı proses öz inikasını bilavasitə kitabxanaşünaslıq tədqiqatlarında tapır.

[1] *İmanov H. Fəlsəfənin əsasları. - B., 2007, s.4.*

[2] *Kitabxanalar biliklər cəmiyyətində (iki dilli Azərbaycan-Rusiya layihəsi).- B., 2006. s.304.*

Kitabxanaşünaslıq insan və bilik, insanın biliklə davranması və biliklərin idarə edilməsi haqqında elmə çevrilir. Göstərilən müddəaların hamısı təfəkkür, dərk etmə prosesi ilə əlaqədar olduğundan «Kitabxanaşünaslıq fəlsəfəsi»nin yaranması və inkişafı labüddür.

Elm tarixindən məlumdur ki, biliklərin sistemləşdirilməsi olduqca mürəkkəb, ciddi araşdırmaları və ümumiləşdirmələri tələb edən, həmişə inkişafda olan, dinamik bir prosesdir. Ona görə də elmlərin sistemləşdirilməsi kitabxanaçıdan geniş elmi eredusiya, nəzəri bilik, təcrübi vərdiş, bəşəri biliklərin bütün məcmusundan baş çıxarmaq, onları elmi, məntiqi ardıcıllıqla əks etdirmək bacarığı tələb edir. Bütün elmlər əsirlər boyu sistemləşdiirlmiş biliklərin məcmusudur. Fasiləsiz olaraq davam edən sistemləşmə prosesi elmlərin təsnifinə də şərait yaradır. Beləliklə də, elmlərin sistemləşdirilməsi ilə təsnifləşdirilməsi arasında böyük oxşarlıq və üzvü əlaqə vardır. Hər bir yeni bilik və elm konkret bilik strategiyasına əsaslanır. Məhz buna görə universal və dəyişməz elm və kitabxana təsnifatı yaradılması müasir zaman gerçəkliyindən olduqca uzaqda olan sonsuzluqdur.

Elmlər durmadan inkişaf etdiyindən gələcək elmi biliklər, kəşflər haqqında məlumat vermək, gələcəyi indiki dövrə sıxışdırmaq mümkün deyildir.

Beləliklə, yeni biliklərin və elmlərin meydana gəlməsi sonsuz olduğundan bitkin və müfəssəl təsnifatlar yaratmaq da sonsuzdur.

Müasir informasiya cəmiyyəti şəraitində biliklər okeanından əldə edilən bilik xüsusi əhəmiyyət kəsb edir. İnformasiya insanın şəxsi fəaliyyətinə, təcrübi iş prosesinə daxil olduqda, ona məlum olmayan yeniliyi mənimsədikdə, onu dərk edib özünüküləşdirdikdə, təcrübəyə tətbiq edə bildikdə biliyə çevrilir.

Aydındır ki, insanın duyğu orqanları vasitəsi ilə əldə etdiyi hər bir informasiya bilik deyildir. Deməli, insan informasiyanı biliyə çevirmək üçün onu olduqca ciddi bir təfəkkür süzgəcindən keçirməlidir. Başqa sözlə, informasiyaya belə tərif vermək olar: bilik, minus şəxsi təcrübə. İnformasiyanın biliyə çevrilməsi prosesində bir çox müəssisələr iştirak edir. Bunların içərisində ən səmərəli və perspektivli müəssisə kitabxanalardır. Kitabxana ən mükəmməl informasiya bazası olan, onu oxuculara çatdırmaq üçün olduqca dinamik texnologiyaya malik, ən məhsuldar, ən kütləvi, həmçinin ən çevik, bilikləri idarə sistemlərdən biridir. Kitabxana təkcə bəşəriyyətin yaddaşını qoruyub saxlayan müəssisə deyil, həm də yeni biliklər istehsal edən, elm və mədəniyyətin inkişafını əvvəlcədən görən, proqramlaşdıran idrak vasitəsidir. Ona görə də, elmlərin strukturunda baş verən dəyişikliklər kitabxananın ənənəvi və elektron informasiya vasitələrində öz əksini tapmalı, elmlərin sistemləşdirilməsində ondan istifadə edilməlidir. Bu işin təşkili isə elm xadimləri ilə tədqiqatçı kitabxanaçıların birgə fəaliyyətinin elmi əməkdaşlığını tələb edir. İndiyə qədər kitabxanaçı peşəsi insanların axtardığı informasiyanı əldə etməsində onları müşayiət etməkdən ibarət idi. Hazırda müasir texnologiyanın inkişafı sahəsində kitabxananın öhdəsinə düşən vəzifəni oxucu

özü müstəqil həyata keçirmək imkanına malikdir. «Ona görə də, XXI əsrdə kütləvi kitabxanaların strateji vəzifəsi informasiyanı təqdim etməkdən çox, onunla necə davranmağı, onu necə nizamlamağı, ondan necə istifadə etməyi, onun yaradılması və ötürülməsi üsullarını öyrənməkdən ibarət olacaqdır. Buna görə də, kitabxana işinin gələcək missiyası biliklərin istehsal olunması və əldə edilməsi mühitini yaratmaqdan ibarətdir».[1]

Beləliklə, informasiya cəmiyyəti şəraitində kitabxanaların qarşısında duran olduqca mühüm, siyasi, iqtisadi, ideoloji və sosial vəzifələri yerinə yetirməkdə kitabxanaşünaslıq elminin inkişaf edib təkmilləşməsi, onun digər fundamental elmlərlə inteqrasiyası olduqca zəruridir.

Kitabxanaşünaslıq kitabxanaçılıq prosesinin inkişaf qanunauyğunluqlarını, xassələrini, xarakterini, strukturunu, kitabxanaçılıq ideyasını, anlayışlarını və çap əsərlərindən ictimai istifadənin təşkili problemlərini tədqiq edib öyrənən humanitar elmdir. Kitabxanaşünaslığın humanitar elm olması kitabxanaların sosial müəssisə kimi cəmiyyətin mənəvi həyatına əsaslı təsir göstərməsi ilə əlaqədardır. Kitabxanalar humanist, demokratik, bəşəri ideyaların daşıyıcısı kimi insanların tərbiyə və təhsilində mədəni inkişafında yaxından iştirak edir. Kitabxanaşünaslıq kitabxanaçılıq elmlərinin kompleks tədqiqinin öyrənilməsi və ümumiləşdirilməsini həyata keçirərkən, kitabxanaçılıq elmlərinin fəlsəfi problemlərini də öyrənir.

Beləliklə, «Kitabxanaşünaslıq fəlsəfəsi» dedikdə kitabxanaçılıq elmləri kompleksinə daxil olan bütün elmi fənləri, həmçinin kitabxanaların sosial funksiyaları, kitabxana və kitabxana işi haqqında təlimləri bütövlükdə əhatə edilir. Müasir informasiya cəmiyyətində kitabxanalar elmi-informasiya müəssisəsi kimi cəmiyyətin əsas atributlarından biri hesab durur. Kitabsız, kitabxanasız, təhsilsiz, elmsiz, mədəniyyətsiz, informasiya cəmiyyətini düşünmək qeyri-mümkündür. Biliklər cəmiyyətinin inkişaf konsepsiyası ən səmərəli elm, kitabxana-təhsil layihəsinə əsaslanır. Bu layihəni həyata keçirə bilən ölkənin, heç şübhəsiz, böyük, iqtisadi, elmi, mədəni üstünlüklər əldə etməsi labüddür.

Müasir dünyanın informasiya təminatında kitabxanalar ümumbəşəri əhəmiyyət kəsb etdiyindən dünya birliyinin diqqət mərkəzindədir.

Bu baxımdan kitabxanaşünaslıq tədqiqatlarının səmərəliliyinə və təsirliliyinə böyük kömək göstərən «Kitabxanaşünaslıq fəlsəfəsi»nin elmi fənn kimi öyrənilməsinə və tədrisinə olduqca böyük ehtiyac duyulmaqdadır.

«Kitabxanaşünaslıq fəlsəfəsi» «Elm fəlsəfəsi»nin tərkib hissəsi olduğundan, elm fəlsəfəsinin tədqiqat üsulları, metodologiyası və metodları «Kitabxanaşünaslıq fəlsəfəsi»nə şamil edilməli, fəlsəfi ideyalar və anlayışlar kitabxanaçılıq tədqiqatlarının elmi-nəzəri və metodoloji əsasını təşkil etməlidir.

Məlum olduğu kimi, kitabxanaşünaslığın strukturuna elmi fənn kimi aşağıdakı fənlər daxildir:

1. Kitabxanaşünaslığın ümumi nəzəri və metodoloji məsələləri.

[1] *Kitabxanalar biliklər cəmiyyətində (iki dilli Azərbaycan-Rusiya layihəsi).- B., 2006. s.304.*

2. Kitabxana-informasiya kütləsinin formalaşması nəzəriyyəsi.
3. Kitabxanaçılıq-informasiya axtarış sistemləri nəzəriyyəsi.
4. Oxuculara (tələbatçılara) kitabxana xidməti nəzəriyyəsi.
5. Kitabxana işinin strateji idarəedilməsi nəzəriyyəsi.
6. Kitabxana işi və kitabxanaçılıq fikirlərinin tarixi.
7. Kitabxana-informasiya texniki vasitələri.
8. Kitabxana işinin kompüterləşdirilməsi.
9. Kitabxanaçılıq informatikası.
10. Elektron kitabxana.
11. Elektron kataloq və s.

Göründüyü kimi, kitabxanaşünaslığın quruluşu ona daxil olan fənlərin çoxsəhəliliyi və müxtəlifliliyi ilə xarakterizə olunur. Bu fənlərin hər birinin özünün predmeti, vəzifələri, məzmunu, tədqiqat sahəsi vardır. Bu fənlər içərisində «Kitabxanaşünaslığa giriş» fənni kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji problemlərini tədqiq etdiyindən əksər hallarda digər kitabxanaşünaslıq fənlərinin elmi-nəzəri və fəlsəfi əsası kimi də öyrənilir və ondan istifadə edilir. Bu baxımdan gələcəkdə «Kitabxanaşünaslığa giriş» fənninin strukturunu və proqramını yenidən işləyib təkmilləşdirərək «Kitabxanaşünaslıq fəlsəfəsi» kimi qəbul etmək və tədris etmək fikrinin reallaşmasına səy göstərmək zəruridir.

"Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri, metodik və təcrübi jurnalı. 2008. s. 5-27

BÖYÜKLƏR HAQQ VERGİSİDİR

Bu ad mənim yaddaşıma düz 65 il bundan qabaq həkk olunub. Onda mənim 11 yaşım vardı. Keçən 65 il müddətində bu müqəddəs insanın adı nəinki yaddaşdan silinməyib, illər keçdikcə daha da möhkəmlənib, əbədiləşib, yeni-yeni çalarlar kəsb edib.

İndi də bu ad çəkiləndə, onun haqqında düşünəndə, böyük qürur hissi keçirirəm, fəxr edirəm ki, mənim gör necə ləyaqətli həmyerlim, ağsaqqalım olmuşdur. Belə bir insanla rastlaşmaq, həmfikir olmaq, onun müdrik kəlamlarından, ağıllı fikirlərindən, nəsihət və söhbətlərindən faydalanmaq hər bir insan üçün fəxr deyilmi?

Allah-Təala Cahan dayıya hər şey vermişdir. Yaxşı boy-buxun, yaraşıqlı qamət, nurani sifət, gözəl avaz, danışıq qabiliy-yəti, insanlıq, vətənpərvərlik, millətini sevmək, mərdlik, mübarizlik, hər şeydən əvvəl isə, böyük səmimilik vermişdir. O, əzəmətli bir insan idi. Nitqində böyük səlistlik, ardıcıllıq, inandırıcılıq var idi. Düz danışan, həqiqəti deyən adam onun gözündə ən yaxşı insan hesab edilirdi. Yalanın, ikiüzlülüyün, xüsusilə paxıllığın düşməni idi. Qeybəti sevməzdi.

İndi də Cahan dayı ilə münasibətlərin yaranması və inkişafı tarixinə ba-

laca bir səyahət edək.

Cahan dayı Ermənistan SSR Krasnoeselo rayonunun Əmirxeyir kəndindən idi. O zaman Krasnaselo rayonunda 12 Azərbaycanlı kəndi var idi. Bu kəndlərin beşi – Cil, Ardanış, Şorça, Ağbulaq, Toxluca-Göyçə mahalında, yeddisi isə - Qaraqaya, Yanıxpəyə, Çaykənd, əmirxeyir, bəryabad, gölkənd, çıvıxlı qaraqoyunlu dərəsində idi. Böyük vətən müharibəsi illəri idi. 1942-43-cü illər olardı. Kəndə xəbər yayıldı ki, Cahan Əliyevi Cil kəndinə kolxoz sədri qoyublar. Bu zaman kəndin vəziyyəti olduqca ağır idi. Kişilər hamısı əsgər getmişdi. Çoxlu başsız ailələr, yiyəsiz uşaqlar var idi. Cahan dayı qısa müddət ərzində kənddə müəyyən işlər görməyə müvəffəq oldu. Ərzağa böyük ləbatı olan insanları qismən də olsa ərzaqla təmin etdi, kolxozda da işlər qaydaya düşməyə başladı. Cahan dayı çox humanist adam idi. Heç kəsi incitməzdi. Kənd camaatı tədricən təzə sədrdən razılıq etməyə başladı. Mən onda kənd məktəbində beşinci sinifdə oxuyurdum. Məktəbdə vəziyyət olduqca ağır idi. Müəllimlərin böyük əksəriyyəti cəbhəyə getmişdi. Məktəbdə o qədər də səriştəsi olmayan adamlar dərs deyirdi. Sinif otaqları soyuq idi. Avadanlıqla pis təmin olunurdu. Şagirdlərin çoxu ağır iqtisadi vəziyyət üzündən dərsə gəlmirdi. Yadımdadır, bir gün Cahan dayı məktəbə gəldi. Sinif otaqlarına baş çəkdi. Müəllimlərlə söhbət etməyə başladı. O dedi: "Mən bilirəm sizin də o qədər dərs demək səriştəniz yoxdur. Sinif otaqları soyuqdur. Şagirdlərin bir çoxu məktəbdən yayınmışlar, bu yol verilməzdir. Biz öz millətimizin balalarını savadsız qoya bilmərik. Bunu bizə gələcək nəsil bağışlamaz. Mən də kömək edəcəm, siz də çalışın sinif otaqlarını qızdıraq, şagirdlərin məktəbdən yayınmasının qarşısını alaq. Valideynlər arasında da iş aparmaq lazımdır, gözləmə mövqeyi tutmamalıyıq, evlərə getmək, məktəbə gəlməyən şagirdləri məktəbə qaytarmaq lazımdır.

Bəli, Cahan dayı əsl maarif xadimi kimi, əsl vətənpərvər kimi çıxış edirdi. Onun bu xidməti unudulmazdır.

Uşaq olmağıma baxmayaraq sonralar Cahan dayı ilə dostlaşdıq. O, bizim evin qonşuluğunda yaşayırdı. Bir gün gördüm, burada mənim yaşda oğlan uşağı var. Uşaqlar bir-birinə daha tez yaxınlaşarlar. Mən də bu uşaqla tezliklə yaxınlaşdım. Məlum oldu ki, bu uşaq Cahan dayının balaca qardaşı Avıldır. Biz Avılla tez-tez Göyçə-Sevan gölünə balıq ovuna gedərdik. Beləliklə mən Avıl vasitəsilə Əliyevlər ailəsinə daha da yaxınlaşdım. İllər keçdi, müharibə qurtardı. Bizim kənddə onillik məktəb olmadığından qonşu Toxluca kəndində orta məktəbə oxumağa getdim. Burada mənimlə çox savadlı, nəcib bir oğlan oxuyurdu. Bu qonşu Ağbulaq kəndindən Miryaqub ağanın oğlu Mirələkbər idi. Biz Mirələkbərlə dostlaşdıq. Bu şagird dostluğu sonralar daha da möhkəmlənib əbədi dostluğa çevrildi. Sonralar məlum oldu ki, Mirələkbər Cahan dayının doğmaca qaynıdır. Bu mənə Cahan dayı ilə daha da dostlaşdırdı.

Nəhayət, mən orta məktəbi bitirib, Bakıya gəldim. BDU-nun filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinə daxil oldum. Universitet yataqxanasında mənə yer vermədilər. Yer tapmağa çox çətinlik çəkirdim. Mən universitetin qabağında Cahan dayının kiçik qardaşı Mahmud müəllimə rast gəldim. O məni

tanıdı, hal-əhval tutdu. Mən ona qalmağa yerimin olmamasını dedim.

Mahmud müəllim dedi: Mən də bu il ikiillik hüquq fakültəsinə daxil olmuşam, məktəb mənə Poluxin küçəsində yataqxana verib, gəl bir neçə gün orada qal, sonra bir yer taparıq. Elə də oldu. Sonra mən kirayənişin yaşamağa başladım.

Mahmud müəllimlə yaxınlıq məni Əliyevlər ailəsinə daha da yaxınlaşdırdı.Cahan dayı getdikcə mənim nəzəRomada əlcatmaz zirvəyə cevrilirdi.

Cahan dayı məni atam Alı Alıyevin yaxın dostu idi. İş və mübarizə yoldaşı idilər. Göycə mahalında Alı Alıyev Qaraqoyunlu dərəsindən Cahan Əliyev birliyi sanki bu bölgələrin birliyi idi.Xain ermənilər Azərbaycanlılara qarşı hiylə-fəsad işlədəndə, onların mənafeyinə toxunanda, hüquqlarını tapdayanda bu birlik haraya gəlirdi. Birlikdə mübarizə öz nəticəsini verirdi.

Cahan dayının gözəl insani keyfiyyətlərindən biri də onun gənclərə münasibəti idi. O həmişə deyərdi. Oxumaq istəyən uşaqlara kömək etmək lazımdır.

Bəzən kəndlərdə kolxoz sədrləri gənclərə pasport almaq üçün arayış vermirdilər. Mən Qaraqoyunlu dərəsindən necə belə gənc tanıyıram. Onlar Cahan dayıya müraciyət etmiş və arayış ala bilmişdilər.

Mənə də böyük hörməti var idi.Bir dəfə 1959-cu ildə mən qış tətilində kəndə getmişdim. Tətil qurtardıqdan sonra atam gətirib məni yola salırdı. Rayon mərkəzində Cahan dayıya rast gəldim. Dərslərimin necə getməyi ilə, qiymətlərimlə maraqlandı. Sonra dedi. Alı bu Abuzərlə maraqlanıram. Bizim dərə kəndlərindən Universtetdə oxuyaan usaqlar Abuzəri çox tərifləyirlər. Bunun böyük gələcəyi var. Uşaqdan mugayət ol. İndi onu yola salırsan Əməlli-başlı yola sal. Cibinə yaxşı xərclik qoy.

Atam gülüb dedi: "Cahan kişi, yaxşı sözlərinə görə çox sag ol. Elə sən deyən kimi də edirəm".

Cahan dayının ən mühüm fərqləndirici xüsusiyyətlərindən biri də hər şeydə yaxşını, müsbəti secmək,ona üstünlük vermək idi. Mən onunla ünsiyyətdə bunu dəfələrlə hiss etmişdim.

70-ci illər idi. Mənim həmyerlim öz arvad qohumları ilə dalaşmışdı. Qohumların şikayəti ilə onu saxlamışdılar. Mənə telefonla zəng vurub xaiş etdilər ki, sən bu işə qarışsan məsələ həll olar, onlar barışarlar. Mən fikirləşib rayona getməyi qərara aldım. Rayon mərkəzində Cahan dayıya rast gəldim. Xoş təsadüf, mənim həmyerlimin qohumu, xahiş edəcəyimiz adam dayanına idi, onlar dost idilər. Cahan dayı məni cox böyük hörmətlə qarşıladı. Dedi, yoldan gəlmisən, gedək biraz istirahət edək. Biz üçümüz yeməkxanaya gəldik, istirahət etdik. Elə bu məqamda mən gəlməyimin səbəbini açdım. Dedim: Cahan dayı, gərək sizin dostunuz şikayətini geri götürə, mənim həmyerlimi azad etdirə. Amma qohum qəti ehtiraz etdi. Mən dayanıb nəticəni gözləməyə başladım. Cahan dayı dostuna dedi: Qardaş mən dəfələrlə sənə demişəm təmkinli ol, elə iş tutma ki, sonra onun peşmançılığın cəkəsən. Mən sənə deyirəm, Abuzər müəllim kimi adam Bakıdan buraya gəlib, biz onun xahişini yerinə yetirməliyik.Qohum çox dəlillər gətirdi. Ancaq Cahan dayı öz fikrində qəti idi. İş qaydaya düşdü, mən də qayıtdım Bakıya.

Bəli, Cahan dayı elə ağsaqqal idi. Hamının işinə yarayardı. Xeyirxahlıq, yaxşılıq, heç bir rütbədən asılı olmayaraq bütün insanlara eyni gözlə baxmaq onun həyat amal idi. İnsan ləyaqətinin başlıca göstəricisi onun xeyirxah olmasıdır. Xeyirxah insan mülayim, səmimi, mərd, sözübütöv olur, adamlara yardım etməkdən həzz alır.

Cahan dayının ən yüksək keyfiyyətlərindən biri də onun qrxmaz, qətiyyətli bir şəxsiyyət olması idi. İnsanın qorxmazlığı, mərdliyi, cəsarəti özünə dərin hörmət qazandıra bilər.

Cahan dayı bütün ömrü boyu xain qonşumuz ermənilərin əhatəsində, onların rəhbərliyi altında fəaliyyət göstərib. Amma o heç zaman sınmayıb, həmişə qürurlu olub, yeri gəldikdə öz sözünü deməyi bacarıb. Ona görə də, rayonumuzda böyük nüfuza malik idi. O, bu nüfuzu öz hərəkətləri, davranışı, fəaliyyəti, mənəviyyatı, əxlaqı ilə özü qazanmışdı.

Cahan dayının həyatında baş verən belə bir hadisə xatırlayıram. 50-ci illərdə Cahan dayı Krasnoselo rayon icraiyyə komitəsinin torpaq şöbəsinin müdiri vəzifəsində işləyirdi. Bu zaman rayon partiya komitəsinin birinci katibi vəzifəsində daşnak ideologiyasının qızğın tərəfdarı, Martirosyan işləyirdi. Rayonda ona "dəli Martiyosyan" ləqəbi verilmişdi. O, hər dəfə Azərbaycan kəndlərinin torpaq sahələrinin dövlət fonduna daxil edilməsi, yaylaq hesab edilməsi haqqında qeyri-obyektiv tələblər irəli sürürdü. Onun bu tələblərini yerinə yetirmək istəməyən, ona mane olan Cahan dayıya qarşı təxribatlara əl atmaq, həbs etdirmək istəmişdi.

Səbəb təkcə bu deyildi. O dövrdə ermənilər Ermənistanda yaşayan azərbaycanlıların deportasiyasına hazırlıq görürdülər. Azərbaycan kəndlərində Azərbaycana köçürülmək haqqında ciddi təbliğat kompaniyasına başlamışdılar. Bu işin tam əleyhidarı olan Cahan dayı kompaniyaya mane olmağa çalışırdı. Ona görə də, onu qorxulu türk adlandırırdılar. Əsl səbəb elə bu idi.

Nəhayət Cahan dayının mərdliyi, qorxmazlığı, uzaqgörənliyi qalib gəldi. İnsan vəzifədə, işdə qarşısına qoyduğu məqsədə o zaman çatır ki, onun hərəkətləri şəxsi marağa yox, ümummilli marağa söykənsin.

Mən əlavə olaraq bunu bildirməyi özümə borc bilirəm ki, Cahan dayı ilə mənim aramda olduqca böyük yaş fərqi olmasına baxmayaraq, o, həmişə məni özünün yaxın dostu hesab etmiş, mənə hörmət bəsləmişdir. Bütün bunlara görə mən el ağsaqqalı Cahan dayının şəxsiyyəti qarşısında baş əyirəm. Ona ulu Tanrıdan rəhmət diləyirəm.

Cahan dayı 97 il ömür sürmüşdür. Bu şərəfli insan ömrünün 50 ilindən artığını kolxoz sədri və digər rəhbəri vəzifələrdə çalışmış, xalqına sədaqətlə xidmət etmiş, millətin yolunda şam kimi yanmışdır.

İndi Cahan dayı aramızda yoxdur. Ancaq onun əməlləri, doğma xalqı, milləti qarşısındakı xidməti yüzlərlə qədirbilən insanların qəlbində əbədi məskən salmışdır.

Görkəmli şəxsiyyət, gözəl insan, bütün şüurlu həyatını insanlara yaxşılıq üzərində qurmuş Cahan Əliyevin nurlu xatirəsi qəlbimizdə daima yaşayacaqdır.

"Səda" jurnalı. 2008. s. 315-321

DİLÇİ ALİMİN ŞÖHRƏTİ

Görkəmli dilçi alim, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Nizami Cəfərov yüksək elmi potensialı, fitri istedadı, dərin zəkası və mənəvi keyfiyyətləri ilə seçilən ziyalılarımızdan biridir. O, öz düşüncə tərzi və xeyirxah əməlləri ilə çoxlarından dərin hörmətini qazanmışdır. Hələ tələbəlik illərindən-Bakı Dövlət Universitetinin Filologiya fakültəsində təhsil aldığı illərdən elmi işə ciddi maraq göstərən, ali məktəbi fərqlənmə diplomu ilə başa vuran, universitetin aspiranturasında təhsilini davam etdirən Nizami Cəfərov az müddətdə dilçi, tənqidçi və ədəbiyyatşünas kimi tanınmağa başlamşdır. Onun müasir Azərbaycan dilçiliyinin və nəzəri linqvistikanın ayrı-ayrı problemlərinə həsr etdiyi məqalələri mütəxəssislərin diqqətini cəlb edir, elm potensialından xəbər verirdi. Alim öz yaradıcılığında daha çox sözün bədii funksiyasına, ayrı-ayrı yazıçıların əsərlərinin bədii-estetik özünəməxsusluğuna, üslub məsələlərinə, qədim türkdilli ədəbi abidələrin dilinə tədqiqatçı linqvist kimi diqqət yetirmiş, öz elmi mövqeyini təsdiqləməyə nail olmuşdur. Elə "XVIII əsr Azərbaycan türk ədəbi dili" mövzusunda yazdığı və uğurla müdafiə etdiyi doktorluq dissertasiyasının əsasını da məhz həmin problemlər təşkil edirdi.

Bütövlükdə götürüldükdə XX əsr Azərbaycan dilçiliyinin inkişafını elm xəzinəsinə böyük töhfələr vermiş professor Nizami Cəfərovsüz təsəvvür etmək mümkün deyil. Onun qələmindən çıxmış fundamental əsərlər mütəxəssislərin rəğbətini qazanmışdır.

Sevindirici haldır ki, professor Nizami Cəfərovun elmi fəaliyyəti yüksək qiymətləndirilmiş və o, cavan yaşında Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Professor Nizami Cəfərovun ictimai-siyasi fəalliyyəti də göz önündədir. Təkcə "Azərbaycanşünaslığın əsasları" adlı fundamental əsəri belə deməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü Nizami müəllimin idealıdır. Alim, Milli Məclisin deputatı, Mədəniyyət komissiyasının sədri kimi də çox uğurlu və səmərəli iş aparır. Nizami müəllimin elmin yüksək zirvəsinə, böyük nüfuza, cavanlıqda ağsaqqal məqamına yüksəlməsi onun mənəvi dəyərlərindən sayılmalıdır. O, eyni zamanda yüksək nitq mədəniyyətinə və natiqlik məharətinə mükəmməl şəkildə yiyələnmiş ziyalılarımızdan biridir.

Professor Nizami Cəfərov Bakı Dövlət Universitetinin Filologiya fakültəsində dil-ədədbiyyat ixtisası üzrə yüksək ixtisaslı elmi kadrların hazırlanmasında da özünəməxsus üstünlüklərə malikdir. O, universitetin Türkologiya kafedrasında işləmiş, eləcə də filologiya fakültəsinin dekanı kimi də fəal təşkilati iş aparmışdır. Onun rəhbərliyi ilə bir sıra elmlər namizədi və elmlər doktoru yetişib.

Nizami Cəfərovun zəngin həyat təcrübəsi, mükəmməl təhsil fitri istedadı bir çox elm xadimlərinə müyəssər olmayan universal missiyaları yerinə yetirməyə imkan yaratmışdır. O həmişə dilçilikdə, ədəbiyyatşünaslıq elmində baş verən proseslərin nəbzini tutmağı bacarmış, özünün məntiqli mülahizələri ilə mübahisəli məsələlərin düzgün həlli yollarını göstərə bilmişdir.

Elmi yaradıcılıqla məşqul olmaq, fundamental əsərlər yaratmaq, insanları elmə, kitaba, mütaliəyə yönəltmək yolunu seçmiş professor Nizami Cəfərov hazırda Azərbaycandakı Atatürk Mərkəzinin rəhbəri kimi çox nəhəng və faydalı bir işi ləyaqətlə yerin yetirir.

Cavan dostum Nizami müəllimi yarım əsrlik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona uzun ömür, can sağlığı şəxsi həyatında və ictimai fəaliyyətində yeni-yeni uğurlar diləyirəm!

"Nurlan" nəşriyyatı. 2009. s. 90-93

BU GÜNÜN MÜHAZİRƏSİ NECƏ OLMALIDIR?

Mən 55 ildən artıq ali məktəbdə mühazirə oxuyan bir müəllim kimi cəsarət edib mühazirələr oxunarkən aşağıdakı amillərə fikir verməyi lazım bilərdim.

Mühazirələr bilavasitə Azərbaycan Respublikası Təhsil Nazirliyi proqramı əsasında oxunmalıdır. Hər bir mövzunun öz planı olmalı, mühazirə planında olan ardıcıllıq müvafiq oxunmalıdır. Ardıcıllıq, bir qayda olaraq, asandan mürəkkəbə doğru istiqamətinə yönəlməli, planda olan bölmələr arasında ciddi məntiqi əlaqəyə fikir verilməlidir.

Keçmiş SSRİ məkanında mühazirələr, bir qayda olaraq, monoloq şəraitində Azərbaycan ali məktəbləri Boloniya sistemini qəbul etmiş bu sistemə görə mühazirələr dialoq şəklində oxunmalıdır. Əlbəttə, 100 nəfərdən artıq auditoriyada dialoq şəklində mühazirə oxumaq çətin olar. Ancaq kiçik auditoriyalarda və magistrantlara mühazirə dialoq şəklində oxunsa, daha yaxşı olar, tələbə fəallığını artırır.

Ali məktəblərdə oxunan mühazirələrin ən mühüm xüsusiyyətlərindən biri də onun elmi-nəzəri yüksək səviyyədə oxunmasıdır.

Yaxşı mühazirəyə xas olan xüsusiyyətlərdən biri də materialların şərhi gedişində mühazirəçinin şəxsi yaradıcılığının meydana çıxmasıdır. Mühazirə zamanı müəllim izah etdiyi mövzuya aid öz elmi fikirlərini də bildirə bilər. Mövzunun problem şəklində şərhi tələbələr tərəfindən diqqətlə dinləməklə onların marağına səbəb olur. Mühazirənin dili sadə, rəvan olmalı, ardıcıllıq gözlənilməli, müzakirə mütləq ədəbi dildə oxunmalı, əcnəbi sözlərdən xali olmalıdır.

Son zamanlar respublikanın pedaqoji mühitində belə bir məsələ də müzakirə obyektinə çevrilmişdir ki, müəllim mühazirəni oxunmalıdırmı, yoxsa şifahi danışmalıdır?

Müəllim görkəmli mütəxəssis, elm adamı-pedaqoq olduğundan ancaq yazdığını üzündən oxumaq düz olmazdı. Müəllim mühazirəyə hazır getməli, onun mühazirəsi kürsünün üstündə olmalı, lazım gəldikdə isə mühüm bir sitatı, yaxud rəqəmi oxunmalıdır. Mən əlində heç bir yazısı qeydi mühazirəsi olmayan müəllimin auditoriyaya girməsinin tərəfdarı deyiləm.

"Azərbaycan müəllimi" qəzeti. 25 dekabr 2009.

AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN QIZIL FONDU
(Kitabxanalar vasitəsilə gələcəyə doğru)

Ölkəmiz qədim dövrlərdən başlayaraq öz yüksək kitab mədəniyyəti ilə seçilmiş və zəngin kitabxanaları ilə tanınmışdır.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Son zamanlar oxucuların böyük hörmətini qazanmış, respublikamızda nəşr edilən çoxsaylı mətbuat orqanları içərisində özünə məxsus yeri və dəsti xətti olan, cəmiyyətdə baş verən mühüm proseslərin həllinə, ehtiyac duyulan problemlərə, vaxtında və həssaslıqla reaksiya verən "Azərbaycan" qəzeti informasiya cəmiyyəti şəraitində insanların təhsil və tərbiyəsində mühüm əhəmiyyət kəsb edən kitab və kitabxana işinə dair çox qiymətli yazılar dərc edir. Bu baxımdan Xalid Niyazovun "Anamın kitabı", ("Azərbaycan" qəz., 20 fevral 2009-cu il), Adilə Qocayevanın "Kitabxanalar tarixi yaddaşımız, milli-mənəvi xəzinəmizdir" ("Azərbaycan" qəz., 14 may 2009-cu il) və İradə Əliyevanın Səbail Rayon İcra Hakimiyyətinin "Azərbaycan" qəzeti ilə birlikdə keçirilən dəyirmi masada aparılan fikir mübadiləsi haqqında "Kitaba həsrət oxucu, yoxsa oxucuya həsrət kitabxanalar" ("Azərbaycan" qəz., 21 may 2009-cu il) adlı yazıları xüsusi maraq doğurur.

Mən respublikamızda uzun illərdən bəri şüurlu həyatını kitab və kitabxana işinə həsr edən, kitab və kitabxanaların ölkəmizin iqtisadi, siyasi-ictimai və elmi-mədəni həyatında, millətimizin mədəniyyətinin, intellektual səviyyəsinin yüksəldilməsində böyük əhəmiyyətini və rolunu dərk edən bir tədqiqatçı kimi zamanın tələbinə müvafiq belə yazıların meydana gəlməsi və dərc edilməsinə yüksək qiymət verməklə yanaşı redaksiyaya öz minnətdarlığımı bildirirəm və bu maraqlı yazıları vaxtında səslənən "həyəcan təbili" kimi qiymətləndirirəm.

Doğrudur, müstəqillik illərində kitabxana işi sahəsində çox böyük dövlət tədbirləri həyata keçirilmiş, geniş islahatlar aparılmış, kitabxana işinə dair dövlət siyasəti formalaşmış və müvəffəqiyyətlə həyata keçirilməyə başlamışdır. Kitabxanalarımız keçmiş cəmiyyətdən miras qalmış ideoloji buxovlardan, senzura nəzarətindən azad olmuş, kitabxana işində böyük demokratikləşmə, milliləşmə prosesi baş vermişdir. Kitabxanalar ulu öndər Heydər Əliyev tərəfindən hazırlanmış Azərbaycançılıq fəlsəfi konsepsiyasının həyata keçirilməsində mühüm rol oynayan, Heydər Əliyev irsini təbliğ edən, cəmiyyətin mənəvi inkişafına, insanların mədəniyyətinin və intellektual səviyyəsinin yüksəlməsinə kömək edən bir mədəniyyət və ideoloji müəssisəyə çevrilmişdir. Müstəqillik illərində kitabxana işi sahəsində əldə edilmiş bu nailiyyətlər xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

Kitabxana işinə böyük qiymət verən, "Kitabxanam xalq, millət üçün,

cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyi" kimi qiymətləndirən ulu öndərin 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlməsi qurtuluş illəri hesab olunur. Bu illər həmçinin kitabxanaların qurtuluş illəri kimi xarakterizə olunur. Belə ki, həmin dövrdə-Xalq Cəbhəsinin hakimiyyəti dövründə kitabxanaların kütləvi surətdə bağlanmasının və onların binalarının alınmasının qarşısı alındı. Heydər Əliyevin ciddi səyi, qayğısı və imzaladığı fərmanlar nəticəsində respublikamızın dövlət kitabxana şəbəkəsi qorunub saxlandı. Azərbaycan MDB ölkələri içərisində kitabxana şəbəkəsini qoruyub saxlayan yeganə respublika oldu.

Keçid dövrünün çətinliklərinə baxmayaraq 90-cı illərin ikinci yarısından başlayaraq kitabxana işinə ayrılan vəsait ilbəil artırılmağa başladı. Heydər Əliyevin təşəbbüsü ilə 1999-cu ildə ölkəmizin tarixində ilk dəfə olaraq "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu qanuna və ulu öndərin Azərbaycançılıq konsepsiyasına əsaslanmış Azərbaycan dövlətinin kitabxana siyasəti formalaşdı. Kitabxana işi mədəni quruculuğun tərkib hissəsi kimi dövlətimizin qayğısı nəticəsində yeni inkişafa qədəm qoydu.

Kitabxana işi sahəsində ulu öndər tərəfindən əsası qoyulmuş bu inkişaf yolu Heydər Əliyevin siyasi varisi, onun işini məharətlə davam etdirən İlham Əliyev tərəfindən daha da irəli aparılmağa başlandı. İlham Əliyevin məqsədyönlü fəaliyyəti bütün cəmiyyətin diqqətini cəlb etmiş, yeni siyasi şəraitdə o, bir lider kimi xalqın böyük etimadını qazanmışdır.

İlham Əliyevin son dövrlərdə kitab və kitabxana işinə dair imzaladığı böyük strateji əhəmiyyət kəsb edən: "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" (2004-cü il), "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" sərəncamlarını imzalaması mühüm əhəmiyyət kəsb edir. Bu siyahıya 546 adda kitab daxil edilmişdir ki, hər bir kitabın tiraji 2500 min nüsxə nəzərdə tutulmuşdu. Beləliklə, 13 milyon 650 min nüsxə kitab nəşr edilməli idi. Sərəncamda adı çəkilən bu kitablar 2005-2009-cu illərdə çap edilib, pulsuz olaraq respublika kitabxanalarına hədiyyə edilmişdir. Dünyada analoqu olamyan bu tədbir Azərbaycan dövlətinin mədəni siyasətinin parlaq təzahürüdür.

Adlarını çəkdiyimiz sərəncamlarla yanaşı dövlətimizin başçısı İlham Əliyev 2007-2008-ci illərdə böyük strateji əhəmiyyəti kəsb edən "Azərbaycanda kitabxana fəaliyyətinin yaxşılaşdırılması haqqında (2007-ci il)" sərəncamını və "Azərbaycan Respublikasında kitabxana İnformasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nı imzalamışdır.

Azərbaycan kitabxana işi tarixində ilk dəfədir ki, kitabxana işini, onun əhəmiyyətini, cəmiyyətdə tutduğu mövqeyi, müasir informasiya cəmiyyəti şəraitində kitabxanaların vəzifələrini, gələcək inkişaf istiqamətlərini və perspektivlərini müəyyənləşdirən böyük proqram əhəmiyyətli bir sənəd qəbul edilmişdir. Bu sənəd kitabxana işinin yaxın gələcək üçün inkişaf proqramıdır.

Son beş ildə respublikamızda bütün sahələrdə olduğu kimi kitabxana işi sahəsində də böyük nailiyyətlər qazanılmışdır. Kitabxana işinin inkişafı sahəsindəki nailiyyətlər özünü, hər şeydən əvvəl, respublika kitabxana şəbəkəsinin artımında özünü göstərmişdir. Əgər 90-cı illərin əvvəllərində respublikamızda 120 milyon kitab fonduna malik 10 min kitabxana var idisə, indi onların sayı 12 mindir. Bu sistemə yalnız kütləvi kitabxanalar deyil, həmçinin ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin, ictimai təşkilatların kitabxana şəbəkələri daxildir. Təkcə Mədəniyyət və Turizm Nazirliyinin 4500-dən artıq kitabxanasında 40 milyondan artıq kitab və digər sənədlər oxucuların istifadəsindədir. Mədəniyyət və Turizm Nazirliyi müasir informasiya cəmiyyətinin qarşıda qoyduğu vəzifələrə müvafiq çox ciddi layihələr həyata keçirməyə müvəffəq olmuşdur. Nazirlik bilavasitə Əbülfəs Qarayevin ciddi səyi və rəhbərliyi ilə müasir şərairdə çox böyük əhəmiyyət kəsb edən kitabxana işinə dair sənədlərin, dövlət proqramlarının, sərəncamların və normativ aktların hazırlanmasında yaxından iştirak etmişdir.

Beləliklə, son beş ildə ölkəmizdə iktabxana işinin maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxana işinə ayrılan vəsaitin artırılması, müasir dövrün tələblərinə müvafiq olaraq kitabxanalarımızın müəyyən hissəsinin kitabxana-informasiya texnologiyası ilə təmin edilməsi, onların kompüterləşdirilməsi və internitə qoşulması üçün əlverişli şərait yaradılmışdır. Kitabxanalarımızın ölkənin ictimai-siyasi və mənəvi həyatında rolu və əhəmiyyəti xeyli artmış, ölkə iqtisadiyyatına, mədəniyyətinə, elminə və təhsilinə kitabxana-informasiya xidmətinin təşkilində böyük uğurlar əldə edilmişdir. Kitabxanalarımızın YUNESKO-nun "İnformasiya hamı üçün" proqramını dönmədən həyata keçirməyə səfərbər olmuşdur.

Müstəqillik illərində Azərbaycanda kitabxana quruculuğu sahəsində qazanılmış böyük uğurlara baxmayaraq kitabxana işində həll edilməsinə böyük ehtiyac hiss edilən nöqsanlar və çatışmazlıqlar qalmaqdadır.

Azərbaycan Respublikasında kitabxana-informasiya şəbəkəsinə daxil olan kitabxanaların 90 faizi müasir tələblərə cavab vermir. Bir neçə kitabxana istisna olmaqla kitabxanaların əksəriyyəti yararsız vəziyyətdədir. Kitabxanaların bir çoxu qəza vəziyyətində olan uyğunlaşdırılmamış və yardımçı binalarda fəaliyyət göstərir. Respublikanın rayonlarında kənd kitabxana filiallarının bir hissəsi şəxsi evlərdə yerləşir. Kənd və qəsəb kitabxana filiallarının 79,2 faizinin sahəsi darısqal olduğundan oxu zalları təşkil etmək qeyri-mümkündür.

Bu səbəbdən əhalinin 66,8 faizi kitabxanalardan istifadə edə bilmir ("Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"). Onların yeni kitabxana-informasiya texnologiyası ilə təminatı və İnternetə qoşulması vəsait çatışmazlığı üzündən olduqca ləng gedir. Kitabxanaların informasiyalaşdırılması sahəsində aparılan işlər ürək açan deyil. Kitabxanalarda beynəlxalq əlaqələrin təşkili sürətlə qloballaşan dünyanın tələblərindən çox geri qalır. İnformasiya texnologiyalarının

çatışmazlığı elektron kitabxanaların və elektron kataloqun yaradılmasına imkan vermir.

"Kitabxana fondlarının tələbata uyğun, sistemli və məqsədli komplektləşdirilməməsi daim yeniləşən informasiya axınında oxucu kontingentinin itirilməsinə, bütövlükdə əhalinin mütaliə marağının azalmasına səbəb olur" ("Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illər üzrə Dövlət Proqramı").

Bütün bunlar bir daha təsdiq edir ki, müasir şəraitdə respublikamızda əhaliyə kitabxana-informasiya xidmətinin təşkilində çox ciddi nöqsanlar və çatışmamazlıqlar qalmaqda davam edir. Bu nöqsanların tezliklə aradan qaldırılması geniş kitabxana şəbəkəsinə malik olan nazirliklərin, idarə və müəssisələrin respublika ictimaiyyətinin və ziyalılarımızın qarşısında çox böyük problemlər qoyur.

Müasir informasiya cəmiyyətnin kitabxanalarının qarşısında qoyduğu problemlər içərisində kitab-kitabxana-oxucu və kitabxanaçı problemi olduqca mühüm yer tutur. Müasir kitabxana bilik okeanın (kitabın) toplanıb saxlandığı, müasir insanın (oxucunun) tez-tez müraciət etdiyi bir sosial təsisat olduğundan cəmiyyətin mədəni səviyyəsi bu təsisatdan olduqca çox asılıdır. Kitabxanalar olmasa mədəniyyətin yaddaşı itirilə bilər.

İnsan beyninin, zəkasının, təfəkküründün yüksək məhsulu olan kitab Şumer dövründən başlayaraq zəmanəmizə qədər 3 min ildən artıq bir yol keçmiş, cəmiyyətin inkişaf və tərəqqiyə gedən yolunu işiqlandırmış, bəşəriyyətin yaratmış olduğu bilikləri qoruyub saxlamış, unudulmaqdan, məhv olmaqdan xilas etmiş beləliklədə bəşəriyyətə, insanlığa, insanların tərəqqi və inkişafına kamilləşməsinə xidmət etmişdir.

Kitabların keçdiyi bu xeyirxahlıq, humanizm, elmə, təhsilə mədəniyyətə xidmət edən tərəqqi və inkişaf yolu həmişə insanlar tərəfindən yüksək qiymətləndirilmiş, bütün zamanlarda kitaba böyük sevgi, məhəbbət, hörmət olmuş, müqəddəs sayılmışdır.

Dünyada kitab mədəniyyətinin tərkib hissəsi olan Azərbaycan kitabı da öz qədimliyi, elmiliyi, humanizmi, demokratikliyi ilə fərqlənmiş, xalqımızın təhsilinə, elminə, mədəniyyətinə, tərbiyəsinə, əxlaqına, mənəvi yetkinliyinə, texniki tərəqqisinə xidmət etmiş, Azərbaycan xalqının, azadlığının, müstəqilliyinin carçısı olmuşdur. Bu keyfiyyətlərinə görə xalqımız kitabı sevmiş, onu müqəddəs bilmiş, qoruyub saxlamış, xalqımızın kitabçılıq ənənələrini daim davam etdirmişdir. Kitab nəşrinə böyük qiymət verən ulu öndər Heydər Əliyev yazır: "Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə mənəvi-ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə, kitab vasitəsilə təhsil, elm almışıq. Həyatda yaşamağa fəaliyyət göstərməyə hazırlaşmışıq, ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir."

Heydər Əliyevin bu ibrətəmiz fikirləri müasir şəraitdə bir daha təsdiq olunur, insanların kitaba, olan tələbatı gündən-günə artır.

Ancaq təəssüflə qeyd etmək lazımdır ki, nəşriyyatlarımız bu tələbatı ödəməkdən çox-çox uzaqdadır. Müstəqillik illərində nəşriyyatların, xüsusilə özəl nəşriyyatların sayının artmasına baxmayaraq onların məhsuldarlığı, nəşr edilən kitabların tirajı dövrün tələblərinə cavab vermir.

Ölkəmizdə hazırda 150-dən çox özəl nəşriyyat fəaliyyət göstərir. Sovetlər Birliyi zamanı respublikamızda cəmi 10-a yaxın nəşriyyat var idi. Bu nəşriyyatlar ildə 1200 adda 15-16 milyon nüsxə tirajlarla kitablar nəşr edirdilər. Bir kitabların tirajı orta hesabla 12-13 minə qədər olurdu. İndi isə nəşriyyatların buraxdığı kitabların tirajı təxminən 200-500 nüsxə arasında olur.

Bu da əhalinin kitaba olan tələbatını ödəmir. Respublikamızda nəşriyyatlara rəhbərlik edən bir qurum və yaxud da mətbuat şurası kimi bir şura yoxdur. Nəşriyyat planları tərtib edilmir. Kitab nəşrini planlaşdırmaq üçün əhali arasında sosioloji tədqiqatlar aparılmır. Nəşriyyatlarda profillər üzrə ixtisaslaşmaya diqqət yetirilmir. Nəşriyyatların böyük əksəriyyəti öz işini kommersiya prinsipi əsasında qurur. Qazanc götürmək məqsədilə bəzən "boz" kitablar buraxırlar. Çünki belə kitabların müəllifləri kitabın çapı üçün pula qızırğalanmırlar.

Beləliklə, kitabın nəşrində ən çətin problemlərdən biri kitabın yayılması və onun alınması ilə bağlıdır. Bu problem həmişə nəşriyyat işçilərini düşündürmüş onun həlli üçün əllərindən gələni əsirgəməmişlər. Bu problem olduqca mürəkkəb və həllinə böyük ehtiyac olduğundan bütövlük də cəmiyyət, mədəni qrumlar, bütün ziyalılar həmçinin dövlət idarələri yeni nəşr edilən kitabların yayımında iştirak etməlidir.

Respublikamızda nəşriyyat işinin günün tələbləri səviyyəsində təşkilinə mənfi təsir göstərən amillərdən biri də kadr problemidir. Nəşriyyatlarımızda xüsusilə son zamanlar yaranmış özəl nəşriyyatlarda kitabçılıq işini, kitab nəşri fəaliyyətini dərin bilən peşəkar kadrlar olduqca azdır. Kitab nəşri işinin böyük dövlət əhəmiyyətinə malik bir məsələ olduğundan nəşriyyatlarımızda kitabın ideoloji, elmi, mədəni əhəmiyyətini dərk edən, nəşriyyat fəaliyyətindən başı çıxan mütəxəssis kitabxanaşünaslar işləməlidirlər.

Məhz buna görə də respublikamızda fəaliyyət göstərən böyük nəşriyyatların direktorları kadrların seçilib yerləşdirilməsinə ciddi fikir verməli, Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin "Kitabşünaslıq və nəşriyyat işi" şöbəsini bitirən yüksək ixtisaslı gənc mütəxəssislərdən istifadə etməlidir.

70-90-cı illərdə ölkəmizdə kitab ticarətinin vahid sistemi formalaşmışdı. Böyük şəhərlərdə və rayon mərkəzlərində kitab mağazaları təşkil edilmiş, kəndlərdə isə kitablar kənd qarışıq mallar mağazalarında satılırdı. Şəhərlərimizdə Bakıda, Gəncədə, Naxçıvanda, Sumqayıtda və digər şəhərlərdə ümumi kitab mağazaları ilə yanaşı ixtisaslaşmış kitab mağazaları da fəaliyyət göstərirdi. Təkcə Bakı şəhərində 100-dən artıq kitab mağazaları var idi. Elə bu qədər kitab mağazaları da rayonlarda fəaliyyət göstərirdi. Kitabların tirajının böyük olmasına baxmayaraq, nəşr edilən kitablar demək olar ki, satılırdı.

Sovetlər birliyi dövründə respublikamızın Ali məktəblərində də universal kitab mağazaları fəaliyyət göstərirdi. İndi Bakı Dövlət Universitetindən başqa heç bir ali məktəbdə kitab yayımı mərkəzi yoxdur. 2005-ci ildən fəaliyyətə başlayan BDU-nun kitab yayımı mərkəzinin təcrübəsi göstərir ki, belə mərkəzlər bütün ali məktəblərdə təşkil edilsə kitab mütaliəsinə, kitabın yayılmasına mühüm təsir göstərə bilər.

Son üç ildə BDU-nun nəşriyyatı 40-dan artıq adda dərslik və dərs vəsaiti nəşr etmişdir. Bu dərsliklərin əksəriyyəti Azərbaycan kitabçılığı tarixində ilk dəfə nəşr edilən nüsxələrdir. Sevindirici haldır ki, nəşr edilən dərsliklər və dərs vəsaitləri tələbələr tərəfindən böyük həvəslə alınır.

Müstəqilliyin ilk illərində işbazlar özəlləşdirmə adı ilə bütün kitab mağazalarını ələ keçirib, onların binasından başqa məqsədlər üçün istifadə etməyə başladılar. Halhazırda Bakı şəhərində cəmi 4-5 kitab mağazası qalmışdır. Əlbəttə vəziyyətin bu cür formalaşması kitabın yayılmasına ciddi təsir göstərmiş, kitab oxuyanların sayı azalmış, kitab mütaliəsi, ümumiyyətlə əhalinin mütaliə marağı olduqca azalmışdır.

Göstərdiyimiz acınacaqlı vəziyyətin aradan qaldırılması üçün təcili surətdə Bakının hər bir rayonunda və digər böyük şəhərlərdə və kənd rayonlarında kitab mağazaları açılmalı, kitabın reklamına və təbliğinə ciddi fikir verilməli, kütləvi informasiya vasitələrində radio və televiziyada yeni kitabları təbliğ etmək üçün daimi rubrikalar yaradılmalıdır. Böyük şəhərlərdə təhsil sistemi müəssisələrində, mədəni-maarif müəssisələrində, mədəniyyət saraylarında, parklarda kitab günləri təşkil edilməli, görkəmli kitab müəllifləri, yazıçılarla, alimlərlə, jurnalistlərlə görüşlər keçirilməli, kitaba, onun tərbiyəvi, elmi əhəmiyyətinə dair təbliğat xarakterli kinofilimlər çəkilməli, yeni kitabların satış təqdimatı keçirilməlidir.

Respublikamızda elə bir ictimai mühit və şərait yaradılmalıdır ki, bu insanları oxumağa, mütaliəyə vadar edə bilsin, kitabı xalqa yaxınlaşdırsın, kitabla xalq arasında yaranmış maneələri dəf etsin, kitabı hər bir Azərbaycan ailəsinin yaxın dostuna, silahdaşına, evinin bəzəyinə çevirsin.

Mütaliə prosesinə-milli qiraətə ictimai təsir göstərən əhəmiyyətli müəssisələrdən biri də kitabxanalardır. Kitabxanalar lap qədim zamanlardan zəmanəmizə qədər. Insanlarda mütaliə marağının formalaşmasına, milli qiraətin istiqamətləndirilməsinə xidmət etməklə ümumbəşəri xarakter daşımışdır.

Bəşəriyyət qlobal informasiya cəmiyyətinin qurulması mərhələsinə daxil olmuşdur. İndi hər bir ölkənin tərəqqisi elə növbədə informsiyanın toplanması qorunub saxlanması onun keyfiyyəti və bütün cəmiyyətdə ümum açıq olması və cəmiyyət üzvləri tərəfindən mənimsənilmə dərəcəsi ilə müəyyənləşir. İnformasiya cəmiyyətində informasiyanın toplanıb saxlanılmasında, informasiya istehsalının təşkilində, "informasiya hamı üçün" proqramının həyata keçirilməsində, informasiya mədəniyyətinin, mütaliə mədəniyyətinin tərbiyyəsində mühüm və aparıcı rol oynayan kitabxanaların problemlərinin həlli ciddi bir məsələ kimi cəmiyyətimizi düşündürməyə bilməz.

Müstəqillik illərində ölkəmizdə kitabxana quruculuğu sahəsində aparılan islahatlara, əldə edilən müvəffəqiyyətlərə baxmayaraq həllinə böyük ehtiyac duyulan bir çox problemlər hələ də qalmaqdadır.

Müasir dövrdə kitabxanalarımızın qarşısında duran ən mühüm problem mütaliə problemidir. Mütaliə təkcə kitabxanaların yox, bütün cəmiyyətin problemidir. Mütaliə edən xalqın intellektual və şüur səviyyəsi daim yüksəlir. Xalqın yüksək şüurlu olması dövləti daha da gücləndirir. Dövlətin gücü insanların şüurlu olmasındadır desəm yerinə düşər.

Mütaliə - yazılı informasiyanın mənimsənilməsi, ardıcıl və davamlı oxu deməkdir. Yazılı informasiya daha etibarlı, sınanmış, dəfələrlə yoxlanışmış mötəbər informasiyadır. İnsanlara gərəkli olan belə informasiyanı isə kitablardan, jurnallardan və qəzetlərdən əldə etmək olar. Təkcə kitabları və bədii ədəbiyyatı oxumaqla kifayətlənmək olmaz, həm də elm, texnika, iqtisadiyyat, sosiologiya, tarix, fəlsəfə, psixologiya, filologiya və s. sahələr üzrə çap edilən dövri nəşrlərin də oxunması insana dünyada baş verən proseslər haqqında son elmi məlumatları verməklə ətraf mühiti, gələcəyi dərk etməyə imkan yaradır və özünü reallaşdırmaq üçün istiqamətləndirir.

Ölkəmizdə son dövrlərdə mütaliə edən insanların, xüsusilə gənclərin sayının azalması günbəgün mütaliəni və oxu mədəniyyətini sistemili böhran həddinə gətirib çıxarır. Doğrudur, respublikamızda mütaliə prosesinin səviyyəsini göstərən statistik məlumat olmadığından mütaliədən uzaqlaşan insanların miqdarı haqqında fikir söyləmək çətindir. Ancaq Mədəniyyət və Turizm Nazirliyi kitabxana şəbəkəsinin hesabatlarına görə respublikanın yaşlı əhalisinin ancaq 50 faizindən çoxu kitabxanaların oxucusudur. Bu oxucuların xeyli hissəsi də kitabxanaların daimi oxucuları olmayan, özlərinə müəyyən sahəyə dair informasiya lazım olanda kitabxanaya müraciət edən insanlardır.

Beləliklə, kitabxana işinin son dövr fəaliyyətinin təhlili və ümumiləşdirilməsi əsasında belə qənaətə gəlmək olur ki, bütün dünyada olduğu kimi respublikamızda da son illərdə mütaliəyə münasibət dəyişmiş, mütaliənin səviyyəsi aşağı düşmüş, oxucuların sayı xeyli azalmışdır. Bu acınacaqlı vəziyyətin uzun müddət davam etməsi millətin faciəsinə çevrilə bilər.

Doğrudur, mütaliəyə marağın azalması bütün dünyanı bürümüş bir meyldir. Bu olduqca təhlükəli meylin qarşısını almaq üçün bir çox ölkələr xüsusi strateji proqramlar qəbul edib, səmərəli üsullar həyata keçirirlər. Bu taleyüklü problemin həllində kitabxanaların mühüm rol oynaya biləcəyini nəzərə alaraq kitabxanaların vəziyyətini yaxşılaşdırmaq, onun oxuculara xidmət işini günün tələbləri səviyyəsinə qaldırmaq zərurəti qacılmazdır.

Məlumdur ki, müasir kitabxana, hər şeydən əvvəl, möhkəm maddi-texniki bazaya malik olmalı müasir informasiya texnologiyaları ilə təchiz edilməlidir. Maddi-texniki baza dedikdə ilk növbədə kitabxanaların binası göz önünə gəlir. Çox təəssüflə deməliyəm ki, kitabxanalarımızın binasının 90 faizdən artığı müasir tələblərə cavab vermir. Keçmişdən müasir Azərbaycan dövlətinə çox pis bir miras qalıb. Azərbaycanda Sovet hakimiyyəti illərində

cəmisi 10-a yaxın rayonda nümunəvi kitabxana binası tikilib. Demək olar ki, bütün kitabxanalar mövcud iş şəraitinə uyğunlaşdırılmış köhnə binalarda fəaliyyət göstərir. Müstəqilliyin ilk illərində respublikamızda maliyyə çətinliyi üzündən yeni nümunəvi kitabxana binası tikmək mümkün olmamışdır. Son beşillikdə respublikanın maliyə imkanlarının artması ilə əlaqədar 14 yeni kitabxana binası tikilmişdir. Dövlətin bu təşəbbüsü müvəffəqiyyətlə davam edir. Ümid etmək olar ki, yaxın gələcəkdə respublikamız digər sahələrdə olduğu kimi yeni müasir dünya standartlarına cavab verən kitabxana binaları ilə də təmin olunacaq.

Hazırda respublikamızın kütləvi kitabxanalarının 70 faizindən çoxu bir otaqda yerləşir, oxu zalları yoxdur. Oxu zalı olmayan kitabxanalar oxuculara ancaq abonement vasitəsilə xidmət edir ki, bu da oxucuların kitabxanadan uzaqlaşmasına səbəb olur. Məlumat ədəbiyyatı və dövri mətbuat evə verilməsə də oxucular kitabxana-informasiya xidməti ilə tam təmin olunmur. Həmçinin kitabxanaların müasir avadanlıqla, kitabxana-informasiya texnologiyası ilə zəif təmin edilməsi, kitabxanada oxucunun yeni kitablar haqqında informasiya ala bilməməsinə səbəb olur bəzilərində də tədricən kitabxanadan uzaqlaşır.

Müasir şəraitdə kitabxanalarımızın ən böyük bəlası onların fondlarının kasıblığı, müasir oxucunun tələbatını ödəyə biləcək kitab fondunun olmamasıdır.

Bunun bir çox obyektiv və subyektiv səbəbləri vardır. Ölkəmizdə yeni əlifbanın qəbul edilməsi kitabxana fondlarının operativliliyinin azalmasına, fondun sürətlə köhnəlməsinə səbəb oldu. Digər tərəfdən keçid dövrünün çətinlikləri ilə əlaqədar kitabxanaların zəif maliyyələşdirilməsi, kitabxana fondlarının yeni ədəbiyyatla komplektləşdirilməsini heçə endirdi. 90-cı illərdə kütləvi kitabxanalar yeni kitablar və dövri mətbuat almaqdan məhrum oldular. Kitabxanaya ayrılan maliyyə vəsaiti ancaq onun yaşamasını təmin edə bilirdi. Yeni kitablar almayan kitabxana suyu sorulan dəyirmana bənzəmirmi? İşləməyən dəyirmana kim gələr? Oxucunun tələbatını ödəməyən kitabxanada oxucunun nə işi var? Doğrudur, son zamanlar kitabxanalara ayrılan vəsaitin artırılması bu işi nisbətən də olsa qaydaya salmışdır, Prezidentin fərmanı ilə çap edilən kitablardan hər bir kütləvi kitabxanaya 4-5 nüsxə göndərilməsi də bu kitabxana fondlarının dirçəlməsinə, canlanmasına səbəb olmuşdur.

Təəssüfki, Maliyyə Nazirliyi tərəfindən rayon kitabxa-nalarına kitab alınmasına dair qəbul etdiyi sənəd kitabxanalara yeni kitablar alınması işini xeyli çətinləşdirir. Bu sənəd görə kitabxana işinə ayrılan vəsait bütün sosial, mədəniyyət müəssisələrinə ayrılan vəsaitə daxil olmuşdur. Yerlərdə isə əksər hallarda ayrılan vəsaiti digər müəssisələrə verdiklərindən kitabxanalara vəsait qalmır. Bizcə, bu maddə Azərbaycan Respublikasının "Kitabxana işi haqqında" Qanununa müvafiq olmalıdır. Qanunda göstərilir: "Dövlət kitabxanaları maliyyələşdirilərkən büdcədən kitab fondlarının komplektləşdirilməsinə yönəldilən vəsait ayrıca maddədə göstərilməli və bu vəsait müntəzəm olaraq

artırılmalıdır". Bizcə, ulu öndər Heydər Əliyev tərəfindən imzalanmış "Kitabxana işi haqqında" Qanuna hörmət etmək vaxtı gəlib catmışdır.

Təkcə kitabxanaların maddi-texniki bazasını möhkəmləndirməklə, kitabxana fondlarını lazımi ədəbiyyatla komplektləşdirməklə iş bitmir. Əsas vəzifə kitabxanaların imkanlarından istifadə edərək oxucuya xidmət işini, əhalini kitabxana oxucuları sırasına cəlb etmək işini, günün tələbləri səviyyəsinə qaldırmaq, mütaliə prosesini idarə etməkdir. Mənəvi-intellektual tələbat insan üçün ədəbi ehtiyacdır. Təbiət və cəmiyyət haqqında, onun inkişaf qanunları haqqında lazımi biliklər əldə etmədən cəmiyyətin fəal üzvü olmaq mümkün deyildir. Bu baxımdan öyrənməyin, məlumatlandırmağın, dövrlə-zamanla ayaqlaşmağın ən mühüm vasitəsi mütaliədir, fasiləsiz təhsildir. Məlumdur ki, insan müxtəlif şəraitdə, evdə, işdə, istirahət müəssisələrində mütaliə edə bilər. Lakin tələbatına müvafiq olaraq hər hansı mövzu və ya problem haqqında mükəmməl elmi məlumat əldə etmək məqsədi daşıyan mütaliə isə yalnız kitabxana şəraitində baş verə bilər. Belə ki, kitabxanaların zəngin kitab fondu, fondun araşdırılması üçün məlumat aparatı, müxtəlif lüğətlərin, ensiklopediyaların və digər məlumat ədəbiyyatının mövcudluğu lazımi texniki vasitələr, eləcə də istənilən zaman mütəxəssis kitabxanaçının köməyindən istifadə etmək imkanı burada mütaliə prosesinin daha effektli və ona sərf edilən vaxtın daha səmərəli olmasına zəmin yaradır. Bu baxımdan informasiya cəmiyyəti şəraitində kitabxanaların qarşısında bütün əhalini kitabxana oxucuları sırasına cəlb etmək kimi çox mühüm vəzifə qoyulmuşdur. Sovetlər Birliyi dövründə kitabxanalar əhalinin 50 faizini kitabxana oxucuları sırasına cəlb edə bilirdisə, o, ən yaxşı kitabxana hesab edilirdi.

O dövrdə oxucular kitabxanaya informasiya almaq üçün müraciət edirdilərsə, indi bilavasitə bilik almaq, elmi araşdırmalar aparmaq üçün müraciət edirlər. İndiki oxucu daha tələbkeş, daha səviyyəli, ciddi, elmi axtarışlara meyilli oxucudur. Belə oxucuların tələbatını ödəmək üçün qarşıda duran mühüm problemlərdən biri də kitabxanaların ölkə ərazisində planauyğun yerləşdirilməsidir. Hazırda respublikamızda 20 faizdən çox yaşayış məntəqəsində kitabxana yoxdur. Ancaq elə yaşayış məntəqələri var ki, orada 2 kitabxana vardır. Gələcəkdə respublikamızda kitabxana şəbəkələrinin yerləşdirilməsinin yeni planı hazırlanarkən bu mühüm məsələyə diqqət yetirmək lazımdır. Şəhər rayonlarında bəzi hallarda bir yaşayış massivində bir neçə kitabxana olduğu halda, digər yaşayış massivində bir kitabxana belə yoxdur. Bakı şəhərində elə mikrorayonlar var ki, orada heç bir kitabxana da yoxdur. Bütün bunlar ciddi araşdırmalar aparmağı, kitabxanaları ölkə ərazisində planauyğun yerləşdirməsi üçün ciddi tədbirlər görülməsini ön plana çəkməyi zəruri edir. Elə planlaşdırmaq lazımdır ki, kitabxana ilə oxucu arasında 15-20 dəqiqəlik (piyada getməklə) məsafə olsun. Bakı şəhərində elə yaşayış massivləri, mikrorayonlar vardır ki, oradan ən yaxın kitabxanaya getmək üçün bir saatdan artıq vaxt tələb olunur. Uzun illərdən bəri formalaşmış bu problemin həlli də uzun müddət tələb edir.

Bizcə, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ölkə ərazisində kitabxana şəbəkəsinin planauyğun və səmərəli yerləşdirilməsi üçün proqram hazırlamalı və imkan olduqca bu proqramın həyata keçirilməsinə səy göstərməlidir.

Kitabxanalar oxucuları mütaliə prosesinə cəlb etmək, onlarda mütaliə mədəniyyəti tərbiyə etmək məqsədi ilə vaxt aşırı əhali arasında kitabxana fondu, kitabxananın aldığı yeni kitablar və dövri mətbuat haqqında, kitabxananın iş saatı haqqında öz yerləşdiyi rayonun ərazisində reklam xarakterli informasiyalar verməlidir. Kitabxanalarımızın təcrübəsindən məlumdur ki, kitabxanaların oxucular arasında apardığı ictimai-siyasi və kütləvi işlər kitabxananın daimi oxucularının miqdarının çoxalması ilə bərabər oxucu fəallığının artmasına səbəb olur. Əvvəllər kütləvi kitabxananın ənənəvi olaraq oxucular arasında böyük maraq doğuran kütləvi tədbirlər: daimi və yeni kitablar sərgisi, kitabxana plakatları, yeni kitabların müzakirələri, oxucu konfransları keçirir, yazıçılarla, şairlərlə, görkəmli alimlərlə, kitab nəşrləri ilə hüquq mühafizə orqanlarının işçiləri ilə dövlət qulluqçuları ilə hərbi xadimlərə və s. görüşlər keçirirlər. Kitabxanalarımızda böyük canlanma var idi. Hər bir kütləvi tədbir öz arxasına kitabxanalarımızı onlarla oxucu gətirirdi. Ziyalılarımız insanlarla ünsiyyət əldə edir, öz yaradıcılıqları, cəmiyyətdə baş verən proseslər haqqında fikirlərini onlarla bölüşürdü. Belə görüşlər rəsmiyyətdən uzaq olduqlarından çox səmimi xarakter daşıyır, insan mənəviyyatına, psixologiyasına olduqca müsbət təsir göstərir, insanların əhval ruhiyyəsini yaxşılaşdırırdı.

Son zamanlarda kitabxanalarımızda belə kütləvi tədbirlərin keçirilməsinə lazımi dərəcədə diqqət yetirilmir. Kitabxanaların ictimai mühitində bir boşluq hökm sürür. Arzu etmək olar ki, respublikamızda baş verən iqtisadi, siyasi, mədəni tərəqqi kitabxanalarımızın fəaliyyətinə də müsbət təsir edəcək kitabxana işi canlanacaqdı.

Müasir oxucunu kitabxanadan uzaqlaşdıran, mütaliə marağının azalmasına səbəb olan problemlərdən biri də mövcud kitabxanalarda oxuculara kitabxana xidmətinin lazımi səviyyədə təşkil edilməməsidir.

Məlum həqiqətdir ki, əhaliyə keyfiyyətli kitabxana-informasiya xidmətinin təşkili və insanların mütaliəyə cəlb edilməsi yüksək ixtisaslı, peşəkar kitabxanaçı kadrlardan da olduqca çox asılıdır. Müasir informasiya cəmiyyəti şəraitində yüksək ixtisaslı, sürətlə yeniləşən informasiya texnologiyasından baş çıxaran, cəmiyyətin inkişaf sürəti ilə ayaqlaşan, öz ixtisasını sevən peşəkar kitabxanaçılara olduqca böyük ehtiyac vardır. Ancaq təəssüflə qeyd etmək lazımdır ki, respublikamızın kitabxanaçılarının müasir vəziyyəti bu tələbata cavab vermir. Respublikamızda təxminən 30 minə qədər kitabxanaçı çalışır. Kitabxanaçıların təxminən 80 faizdən çoxunun kitabxanaçılıq təhsili yoxdur. Kitabxanalarda işə yeni işçi qəbul edərkən onun ixtisas təhsilinin olub-olmaması soruşan yoxdur. Kitabxanaçı peşəsi bir növ tramplinə çevrilmişdir. Müxtəlif ixtisaslar üzrə ali məktəbi bitirmiş şəxslər öz ixtisasları üzrə iş tapa bilmədikdə kitabxanalarda işə düzəlir, ixtisasları üzrə iş tapan kimi kitabxanaçılığı buraxıb gedirlər.

Beləliklə də, kitabxanalarda müntəzəm olaraq kadr axını davam edir. Respublikamızda ali peşə təhsilli mütəxəssis kitabxanaçı kadrları Bakı Dövlət Universitetinin kitabxanaçılıq-informasiya fakültəsi, orta ixtisas təhsilli kadrları isə Bakı Mədəni-Maarif məktəbi hazırlayır. Son illərdə göstərilən təhsil müəssisələrinə qəbul 2 dəfədən çox azalmış, göstərilən tədris müəssisələrini qurtaran məzunlar üçün təyinat aparılmamışdır. Bu da kitabxanaların kadr potensialının tədricən zəifləməsinə, yeni yüksək ixtisaslı kadrlardan məhrum olmasına gətirib çıxarmışdır. Həyatın tələbi isə tamamilə başqadır. Əgər hər hansı bir idarə və müəssisəyə yeni yüksək ixtisaslı gənc gəlmirsə, o müəssisə inkişaf etmir, əksinə zəifləyir.

Bu mühüm problemin həlli hər şeydən əvvəl, respublika kitabxanalarının kadr tərkibini araşdırmağı tələb edir. Bu sahədə əldə edilən nəticələri təhlil edərək ümumiləşdirib böyük kitabxana şəbəkələri olan ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin rəhbərlərinin nəzərinə çatdırmaq olduqca zəruridir.

Çatışmazlıqları qaydaya salmaq üçün Mədəniyyət və Turizm Nazirliyi respublika hökuməti qarşısında kitabxanaçı kadrlar hazırlayan tədris müəssisələrinin qəbul planının artırılması haqqında məsələ qaldırmalı, ali və orta ixtisas məktəblərini bitirən məzunları kitabxanalara göndərmək üçün iş yerləri ayırılmalıdır.

Müasir şəraitdə respublikamızda kitabxana işinə dövlət rəhbərliyi və metodik rəhbərlik sahəsində də ciddi problemlər qalmaqdadır. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda kitabxana işinə dövlət rəhbərliyi Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinə tapşırılmışdır. Halbuki respublikamızda fəaliyyət göstərən 1200 kitabxanadan ancaq 550-si Mədəniyyət və Turizm Nazirliyinin tabeliyindədir. Yerdə qalan 700 kitabxana ayrı-ayrı nazirliklərə, idarə və müəssisələrə, ictimai təşkilatlara və s. tabedir. Respublikamızda formalaşmış ənənələrə görə hər bir nazirlik, idarə müəssisə və təşkilatlar tabeçiliyində olan kitabxanalara özləri rəhbərlik edirlər. Başqa sözlə, Mədəniyyət və Turizm Nazirliyinin vahid rəhbərliyindən söz gedə bilməz. Keçmiş Sovetlər Birliyində belə idi.

Ancaq keçmiş Sovetlər Birliyində kitabxana işinə dair dövlət siyasətini və kitabxana işinə metodik rəhbərliyi həyata keçirmək üçün Mədəniyyət Nazirliyinin yanında ictimai əsaslarla təşkil edilmiş "İdarələrarası kitabxana şurası" yaradılmışdı. Bu şura 80-ci illərin axırında Dövlət Kitabxana Komissiyası adı altında fəaliyyət göstərməyə başladı. Bu şuraya bütün nazirliklərin, böyük kitabxana şəbəkələri olan idarə və müəssisələrin təşkilatların məsul nümayəndələri daxil edilirdi. Şura vaxtaşırı olaraq kitabxana işinin aktual problemlərinə dair məsələlər müzakirə edir qərarlar qəbul edirdi. Bu qərarlar bütün kitabxanalar tərəfindən sözsüz yerinə yetirilirdi. Bizcə, kitabxana işinin geniş vüsət aldığı indiki şəraitdə buna bənzər bir ictimai qurumun yaradılmasına böyük ehtiyac vardır. Belə bir qurumun təşkili respublikamızda kitabxana işinə rəhbərlik sahəsində pərakəndəliyi aradan qaldırar kitabxana işinə dövlət rəhbər-

liyini daha da təkmilləşdirər.

Müstəqillik illərində respublikamızda təhsilin inkişaf etdirilməsi sahəsində mühüm dövlət əhəmiyyətinə malik işlər görülmüş, təhsil islahatları aparılmış, təhsil müəssisələrinin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmişdir. Son beş ildə (2004-2008-ci illərdə) respublikamızda dövlətin qayğısı nəticəsində 1600-dən artıq yeni məktəb binası tikilmiş, məktəblərimiz müasir təhsil avadanlığı, yeni informasiya texnologiyası ilə təmin edilmişdir. Respublikamızın sosial-mədəni həyatında olduqca mühüm rol oynayan "Heydər Əliyev Fondu"da məktəb quruculuğunda yaxından iştirak etmiş, respublikamızın regionlarında 170-dən artıq məktəb binası tikdirib onu müasir avadanlıqla təmin etmişdir.

Belə ki, son beşilliklə müasir standartlara cavab verən 2 minə yaxın məktəb binası tikilib istifadəyə verilmişdir. Mübaliğəsiz demək olar ki, sovet hakimiyyətinin yetmiş illik fəaliyyəti dövründə heç bu qədər məktəb tikilməmişdir. Bu müstəqil Azərbaycan dövlətinin mədəniyyətimizə böyük hədiyyəsidir.

Məlum həqiqətdir ki, bütün biliklərin və mütaliənin əsasları bilavasitə məktəbdə qoyulur. Bilik mənbəyi olan kitablara sevgi, məhəbbət də gələcəyimiz olan uşaqlarda məhz məktəb illərində formalaşır. Kitabı sevən, daim mütaliə edən şagirdlər həmişə yaşıdlarından yüksək biliyi, mədəniyyəti, intellektual səviyyəsi ilə fərqlənirlər. El arasında belə bir kəlam var: "Uşaqlar bizim gələcəyimizdir". Sual olunur: "Bu gələcəyə erkən yaşda kim təhsil və tərbiyə verməlidir? Kim onu cəmiyyətə layiq bir insan kimi formalaşdırmalıdır?" Əlbəttə, bu şərəfli vəzifə yaşlı nəslin: ataların, anaların, babaların, nənələrin, tərbiyəçilərin, müəllimlərin, kitabxanaçıların, bütün ziyalıların öhdəsinə düşür. Beləliklə də gələcəyimizi uşaqlar yox, biz, hazırda cəmiyyətin idarə edilməsində iştirak edən, cəmiyyətin aparıcı qüvvəsi olan yaşlı nəsil müəyyənləşdirir. Məhz bugünkü yaşlı nəsil öz hərəkətləri ilə həm uşaqların, həm də özünün gələcəyini yaradır. Əgər bu gün yaşlı nəsil mütaliə etməsə, mütaliənin böyük həyati əhəmiyyətini başa düşməsə, kitabın gücünə, bütün biliklərin mənbəyi, yüksək insani keyfiyyətlərin, mənəviyyatın daşıyıcısı olmasına inanmazsa, özü mütaliə etməzsə, mütaliəçi kimi nümunə göstərməzsə, gənc nəslin tərbiyəsində, heç şübhəsiz ki, yaxından iştirak edə bilməyəcək. Beləliklə, mütaliədən uzaqlaşmağa can atan nəsil yetişməyə başlayacaq ki, bu da millətin faciəsidir.

Məhz buna görədir ki, uşaqlarda mütaliə marağının formalaşmasında məktəb kitabxanalarının qarşısında mühüm vəzifələr durur. Respublikamızda 4500 məktəb kitabxanası fəaliyyət göstərir. Deməli, minimum 4500 kitabxanaçı vardır. Bu böyük qüvvədir. Respublikamızın kitabxanaçılar ordusunun ən çevik, dinamik dəstəsidir. Təkcə son beş ildə respublikamızda dövlətimizin böyük qayğısı nəticəsində 2000-ə yaxın məktəb tikilmişdir ki, bu məktəblərin yanında görkəmli alimlərin təbirincə desək, məktəblərin bir nömrəli laboratoriyası olan məktəb kitabxanaları fəaliyyətə başlamışdır. Dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin məktəblərə və kitabxanalara bu

böyük qayğısına cavab olaraq məktəb kitabxanaları gənc nəslin təhsil və tərbiyəsində yaxından iştirak etməyə böyük səy göstərir, kitab təbliğinin yeni forma və üsullarından istifadə edərək şagirdlərdə mütaliə marağı tərbiyə etməyə can atırlar.

Son zamanlar respublikamızda məktəb kitabxanalarının maddi-texniki bazalarının möhkəmlənməsi, yeni abad binalarla, kitabxana işinin texniki vasitələrilə daha intensiv təmin edilməsinə baxmayaraq, məktəb kitabxanalarının işində həll edilməsinə böyük ehtiyac hiss edilən problemlər qalmaqdadır.

Hər şeydən əvvəl məktəb kitabxanalarının maddi-texniki bazası olduqca zəifdir. Demək olar ki, məktəblərin əksəriyyətində kitabxanalar bir otaqda yerləşir. Kitabxanalarda oxu zallarının olmaması şagirdlərlə iş aparmaq imkanı vermir. Kitabxanaların şagirdlərin mütaliəsinə rəhbərlik etmək, onlarda mütaliə marağı aşılamaq, fərdi iş aparmaq imkanı yoxdur. Məktəb kitabxanalarının fondu çox zəifdir. Sinifdənkənar oxu üçün istənilən ədəbiyyat yoxdur. Şagirdlərin çox maraq göstərdiyi yeni bədii ədəbiyyat olduqca azdır. Kitabxanalara yeni ədəbiyyat almaq üçün ayrılan vəsait kitabxanaların kitaba olan tələbatını ödəmir. Məktəblərdə dərsliklərlə iş, yeni dərsliklərin alınıb şagirdlərə paylanması və onlardan geri alınması kitabxanaya tapşırıldığından kitabxanaçının oxuculara kitabxana-informasiya xidməti göstərməsinə ciddi mane olur. Yaxşı olar ki, dərsliklərlə iş üçün ayrıca ştat ayrılardı. Kadrların seçilib yerləşdirilməsi lazımi səviyyədə təşkil edilmir. Məktəb kitabxanaları içərisində yüksək ixtisaslı peşəkar kitabxanaçı kadrların sayı azlıq təşkil edir. Belə kadrların sayı respublika üzrə təxminən 10 faizdən bir az çoxdur.

Məktəb kitabxanalarına müdir vəzifəsinə əksər hallarda pedaqoji fəaliyyətdən uzaqlaşmış müəllimləri təyin edirlər. Son illərdə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsini bitirən bir nəfər məzun belə məktəb kitabxanalarına təyinatla işə göndərilməmişdir. Məktəb kitabxanalarına rəhbərlik ürəkaçan vəziyyətdə deyil. Təhsil Nazirliyinin 5000-ə yaxın kitabxanası olmasına baxmayaraq nazirliyin aparatında kitabxana işinə rəhbərlik edəcək bir qurum və ya bir mütəxəssis belə yoxdur. Məktəb kitabxanaları nədənsə oxuculara xidmət edərkən ənənəvi iş forma və üsullarından, yeni kitab sərgilərindən, kitab müzakirələrindən, oxucu konfranslarından, yeni kitabların təqdimatlarından, yazıçılarla, şairlərlə, incəsənət xadimləri ilə görüşlərdən və s. az istifadə edilir. Məktəb kitabxanalarının işini daha da yaxşılaşdırmaq haqqında göstərdiyim tənqidi qeydlər qətiyyən son dövrdə respublikamızda məktəb kitabxanalarının işinin yaxşılaşdırılması sahəsində görülən işlərə kölgə salmır. Ümid edirəm ki, yaxın gələcəkdə göstərilən nöqsanların aradan qaldırılması üçün ciddi tədbirlər görüləcək.

Bütün bunlara əsasən demək olar ki, respublikamızda kitabxana işini günün tələbləri səviyyəsinə qaldırmaq üçün olduqca ciddi tədbirlər görməyin, islahatlar aparmağın, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun işlənməsini təmin etməyin vaxtı çatmışdır.

"Kitabxana. az" jurnalı.№ 4 (07) 2009. s. 4-13

PROFESSOR V.İ.RAZUMOVSKİDƏN AKADEMİK A.M.MƏHƏRRƏMOVA QƏDƏR KEÇİLMİŞ İNKİŞAF VƏ TƏRƏQQİ YOLU

Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir.
Heydər Əliyev
Ümummilli lider

Bu il sentyabr ayının 1-də respublikamızın ilk elm və təhsil məbədgahı olan Bakı Dövlət Universitetinin 90 illiyi tamam oldu. Bu şərəfli tarixi günü dövlətimiz, xalqımız, bütün Azərbaycan ziyalıları, elm və təhsil xadimləri böyük fərəh və iftixar hissi ilə qeyd edir.

Bakı Dövlət Universitetinin cəmiyyətdə tutduğu böyük mövqeyə, elm, təhsil və mədəniyyətin tərəqqisində oynadığı böyük rola yüksək qiymət verən dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev universitetin şanlı 90 illik yubileyini keçirmək üçün 2009-cu il 24 aprel tarixli sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Bakı Dövlət Universitetinin müsəlman Şərqində ilk Avropa tipli ali məktəb kimi yarandığı vaxtdan bəri ötən müddət ərzində ölkəmizdə ali təhsilin və elmin tərəqqisi naminə əvəzsiz xidmətlər göstərmişdir. Yüksək ixtisaslı milli kadrların hazırlanması, yeni-yeni elmi istiqamətlərin formalaşdırılması, dünya təhsil təhsil sisteminə inteqrasiya, eləcə də mədəni-mənəvi dəyərlərimizin yaşadılması istiqamətində universitet üzərinə düşən vəzifələrin öhtəsindən həmişə layiqincə gəlir".

Görkəmli dövlət və siyasi xadim, ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin universitetə verdiyi yüksək qiymət bu ali təhsil ocağının 90 illik yubileyinə olduqca qiymətli hədiyyədir.

Azərbaycan xalqının milli sərvəri, milli iftixarı olan Bakı Dövlət Universitetinin keçdiyi 90 illik keşməkeşli inkişaf və tərəqqi yolu, hər şeydən əvvəl, Azərbaycan milli təhsilinin, elminin, mədəniyyətinin, mənəviyyatının inkişaf yoludur. Azərbaycanın intellektual sərvəti olan milli ziyalılarımızın təşəkkül tapıb formalaşdığı yoldur. Bu yolun yolçuları olan Azərbaycanın görkəmli alimləri, ziyalıları, elm, ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərinin böyük səyi, fədakarlığı, vətənpərvərliyi nəticəsində Azərbaycan ali təhsilinin, elminin təməli, bünövrəsi qoyulmuş, Azərbaycan tarixinin, ədəbiyyatının, dilinin öyrənilməsində, tərəqqisində, soykökümüzə qayıdışda böyük elmi əhəmiyyətə malik uğurlar əldə edilmişdir.

Bakı Dövlət Universitetinin professor-müəllim heyətinin böyük səyi nəticəsində Azərbaycan dilinin elmi əsasları işlənmiş, onun lüğət fondunda olan, az işlənən, araşdırılmayan sözlər ortaya çıxarılmış, Azərbaycan dilinin lüğət tərkibi yeni sözlərlə zənginləşmiş, geniş elmi araşdırmalarda, elmi məhazirələrdə müvəffəqiyyətlə işlənən, lüğət tərkibi türk sözləri ilə zənginləşən bir

dilə çevrilmişdir. Azərbaycan dilində ilk elmi mühazirələr məhz 1922-ci ildən başlayaraq Bakı Dövlət Universitetinin Şərq və filologiya fakültələrində Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan tarixi fənlərindən oxunmağa başlanmışdır. Çox sevindirici hal idi ki, qısa bir zaman kəsiyində mühazirələr hazırlayıb oxuyan müəllimlər cəmisi bir-iki il əvvəl işləməyə başlayan milli kadrlar idi.

Beləliklə, fəaliyyətə başladığı ilk günlərdən Bakı Dövlət Universiteti Azərbaycan dilinin qorunmasında onun daha da inkişaf etdirilməsində Azərbaycan ədəbiyyatı və Azərbaycan tarixinin ən mürəkkəb məsələlərinin araşdırılmasında milli şurun, milli ruhun formalaşmasında universitetin misilsiz rolu vardır. Bakı Dövlət Universitetinin professor-müəllim heyəti zamanın keşməkeşli, çətin dövrlərində belə hər cür təqib və təzyiqlərlə üzləşsədə həmişə öz milli tarixi missiyasına sadiq qalmış, milli-mənəvi özünəməxsusluğunu uğurla davam etdirmişdir. Məhz buna görədir ki, ulu öndər Heydər Əliyev Bakı Dövlət Universitetinin milli mənəviyyatın formalaşmasındakı roluna yüksək qiymət verərək yazır: "Universitet, həqiqətən, axtaran, milli ruhu inkişaf etdirən bir ocaq, bir məktəb olmuşdur."

Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin və mənəviyyatının inkişafında mühüm rol oynayan Bakı Dövlət Universiteti 1919-cu ilin sentyabrında Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən yaradıldı. Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin xalqımıza böyük yadigarı idi.

Universitetin yaranmasını xalqımızın böyük gələcəyi kimi qiymətləndirən Xalq Cümhuriyyətinin liderləri ölkənin mövcud durumunda böyük çətinliklər, fikir birliyi olmamasına, universitetin təşkili əlehinə mühafizəkar səslər ucalmasına baxmayaraq hökumət öz qərarında israrlı idi. Azərbaycan hökuməti Bakı Dövlət Universitetinin təsis edilməsinə dair qanun layihəsini parlamentin müzakirəsinə verməyə nail oldu. Uzun müzakirələrdən sonra böyük çətinliklə olsa da 1919-cu il sentyabrın 1-də parlament Bakı şəhərində Dövlət Universitetinin təsis edilməsi haqqında qanun qəbul etdi. Bu qərarı səbirsizliklə gözləyən universitetin ilk rektoru V.İ.Razumovski yazırdı: "Azərbaycan öz maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovşağında yeni məşəl yandı. Bu böyük tarixi hadisənin şahidləri kimi biz özümüzü xoşbəxt hesab edirdik."

Parlamentin qəbul etdiyi qanunda dörd fakültədən: Şərq şöbəsi olan tarix-filologiya fakültəsindən, fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət Dövlət Universitetinin Bakıda təsis edilməsi göstərilmişdi. Həmçinin universitetin maddi-texniki bazasının yaradılması və fəaliyyətinin davam etdirilməsi üçün 15 milyona yaxın vəsait ayrılmışdı. 1919-cu ilin sentyabrın 15-də hökumət tərəfindən 1919-cu ilin may ayının əvvəllərində universitetin təsisi ilə əlaqədar rəsmi sənədləri və tədbirləri hazırlayan komissiyanın son iclası oldu. İclasda müvəqqəti Şura və universitetin idarə heyəti təşkil edildi. 1919-cu il noyabrın 15-i birinci dərs günü kimi qərarlaşdırıldı.

Azərbaycan hökuməti universitet komissiyasının tövsiyəsini və Xalq Maarif Nazirliyinin təqdimatını nəzərə alaraq 1919-cu il sentyabr ayının 8-də

Bakı Dövlət Universitetinin rektoru və dekanlarının təsdiqi haqqında qərar verdi. Beləliklə, Azərbaycanda ilk milli təhsil ocağı fəaliyyətə başladı. Onun ilk rektoru vəzifəsinə görkəmli rus alimi, professor V.İ.Razumovski təyin edildi.

Bacarıqlı elm və təhsil təşkilatçısı, sovet cərrahı, tibb elmləri doktoru, professor, əməkdar qəhrəmanı, RSFSR Əməkdar elm xadimi Vasili İvanovic Razumovski rus tibb elminin görkəmli nümayəndəsi kimi məşhur olmuş, müstəqil cərrahlıq məktəbi yaratmış, onlarla elmi monoqrafiyaların, yüzlərlə məqalələrin müəllifi olmuşdur. O, Rusiya və SSRİ məkanında bir neçə universitetin: Saratov (1909), Tiflis (1918), Bakı (1919) universitetlərinin yaradılmasında fəal iştirak etmişdir. V.İ.Razumovski 1919-cu ilin sentyabrından 1920-ci ilin mayına qədər Bakı Dövlət Universitetinə rəhbərlik etmiş, onun təşəkkül tapıb formalaşmasına böyük əmək sərf etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti qırmızı ordunun müdaxiləsi ilə süqut etdikdən sonra Azərbaycan Sovet hökumətinin maarif naziri Dadaş Bünyadzadə 1920-ci il mayın 11-də universitetin rektoru professor Razumovskiyə məktub göndərərək universitetin sosialist prinsiplərinə uyğun yeni nizamnaməsini hazırlamağı tapşırdı. Lakin mütərəqqi elm və təhsil quruculuğuna sadiq olan prof. V.İ.Razumovski bir il əvvəl çox çətinliklə tərtib etdiyi nizamnaməni ləğv etməkdən imtina etdi və mayın 26-da rektor vəzifəsindən istefa verdi. Bir neçə aydan sonra Bakını tərk edib, Saratov universitetinə işləməyə getdi.

Görkəmli alim akademik R.Mehdiyevin dediyi kimi, universitetin tarixini dörd mərhələyə bölmək olar. Bu, Azərbaycan Xalq Cümhuriyyəti dövrü (1919-1920), 1920-1922-ci illər Azərbaycanın ittifaqa daxil olana qədərki nisbətən müstəqil inkişaf dövrü, SSRİ tərkibindəki dövr və Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövrdür. Universitetin keçdiyi inkişaf yolu heç də hamar olmamışdır. İnkişaf mərhələlərinin hər birinin özünə məxsus cəhətləri olmuş, çox zaman bu mərhələlərdə baş verən proseslər nəinki bir-birinə oxşamamış, hətta bir-birinə zidd xarakter daşımışdır.

Universitet öz inkişaf prosesində baş verən fərqlərə və ziddiyyətlərə baxmayaraq qarşısına qoyduğu məqsədə: yüksək ixtisaslı kadr hazırlamaq, tədris prosesini təkmilləşdirmək, elmi araşdırmaların səviyyəsini yüksəltmək, üçün milli təhsilimizin falaqmanı kimi daim ləyaqətlə irəli getmiş, xalqımızın milli sərvətinə çevrilmişdir.

1920-ci ildə Azərbaycanda Sovet hökuməti qurulduqdan sonra universitetin strukturunda bir sıra dəyişikliklər edildi. Universitetin nizamnaməsi və adı dəyişdirildi. 20-ci ildə qəbul edilmiş yeni nizamnaməyə görə universitetin Şərq fakültəsi istisna olmaqla, digər fakültələrdə məcburi kurslar və məşğələlərdə rus dilinin də aparılması nəzərdə tutulmuşdu.

1922-ci ildə universitetin adı dəyişdirilərək Bakı Dövlət Univresiteti qoyuldu. 1924-cü ildə isə universitetə V.İ.Leninin adı verildi.

Bakı Dövlət Universitetinin tarixində onun fəaliyyətinin ilk onilliyi

məhsuldar, zəngin hadisələrlə dolu olmuş, universitetin maddi-texniki bazasının möhkəmlənməsi, yeni fakültələrin və ixtisasların açılması, yeni laboratoriyaların, elmi kitabxananın yaradılması, tələbə qəbulunun qaydaya salınması, professor-müəllim heyətinin formalaşması milli kadrların hazırlanması, doğma Azərbaycan dilində mühazirələr oxumağa başlanması, Azərbaycan dili və ədəbiyyatının, Azərbaycan tarixinin araşdırılması, elmi-tədqiqat işlərinin aparılması üçün hazırlıq görülməsi, universitetin elmi xəbərlərinin çap edilməsi, ölkədaxili və beynəlxalq əlaqələrin yaradılması, demək olar ki, bütün ali məktəbin fəaliyyət dairəsinə daxil olan iş proseslərin əsasının qoyulduğu illər olmuşdur.

Bakı Dövlət Universiteti təşkil edilərkən onun iki fakültəsi: tibb və tarix-filologiya fakültələri var idi. Tarix-filologiya fakültəsinin tərkibinə üç şöbə - tarix, filologiya və şərq şöbələri fəaliyyət göstərirdi. Artıq 1919-cu ilin noyabrında təşkilat işləri başa çatdırılmış, universitetin elmi şurasının ilk iclasında professor-müəllim heyətinin tərkibi təsdiq edilimişdi. Yeni təsis edilmiş universitetin professor-müəllim heyəti 44 nəfərdən - 12 professor, 3 dosent və 29 müəllimdən ibarət idi.

15 noyabr 1919-cu ildən sistemli tədris fəaliyyətinə başlayan universitet birinci kurslara qəbulu aparmaqla öz tələbə korpusunu yaratmağa müvəffəq oldu. Tələbələr sırasına qəbul edilən abituriyentlərədən 297 nəfərinin azərbaycanlı olması uğurlu başalanğıc idi.

1920-1921-ci tədris ilində universitet özünün üçüncü fakültəsini - fizika-riyaziyyat fakültəsini yaratdı. Fizika-riyaziyyat fakültəsinin yaranması universitetin tədris və elmi potensialını daha da gücləndirdi, universitetin yeni elmi qüvvələrinin gəlməsinə səbəb oldu. 1922-ci ildə universitet daha bir yeni fakültə Şərqşünaslıq fakültəsi yaratmağa müvəffəq oldu. Bu yeni fakültə Tarix-filologiya fakültəsinin şərq şöbəsinin bazasında yaradılmışdı. İki şöbəsi-tarix və dil şöbələri var idi. Dil şöbəsi də sonralar iki şöbəyə - Türk və İran dili şöbələrinə bölünmüşdü. Həmin ildə Xalq Maarif Komissarlığının tövsiyəsi ilə şərqşünaslıq fakültəsinin tərkibindən tarix şöbəsi götürüldü. 1928-ci ildə isə şərq fakültəsinin yanında etnoqrafiya şöbəsi yaradıldı.

Dövrün tələbinə müvafiq olaraq 1923-cü ildə tarix-filologiya fakültəsi yenidən təşkil edildi. Fakültə üç şöbəsi olan ictimai elmlər fakültəsinə çevrildi. Fakültənin dil-ədəbiyyat, ictimai-tarix və hüquq şöbələri xeyli genişlənməklə onların qəbulu artırıldı.

20-ci illərdə respublikada xalq təhsilinin inkişafı ilə əlaqədar müəllim kadrlara böyük tələbat əmələ gəlmişdi. Bu məqsədlə də 1924-cü ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat və ictimai elmlər fakültəsinin bazasında üç şöbədən – ictimai, riyaziyyat və təbiət şöbələrindən ibarət pedaqoji fakültə yaradıldı. Həmçinin 1929-cu ildə universitetin nəzdində Azərbaycan və rus bölməsi olan qiyabi pedaqoji fakültələr fəaliyyətə başaldı. Bu fakültənin 4 şöbəsi - məktəb, fiziki-texniki, Azərbaycan dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı şöbələri var idi. 1928-1929-cu tədris illində universitetədə

yeni bir fakültə - hüquq fakültəsi yaradıldı. Bütün göstərilən fakültələrlə yanaşı universitetin yanında 1920-ci ildə təşkil edilmiş fəhlə fakültəsi də fəaliyyət göstərirdi. Fəhlə fakültəsinə bilavasitə istehsalatda çalışmış gənclər qəbul edilirdi. Universitetin rəhbərliyi fəhlə fakültəsini genişlənməsinə və orada tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə xüsusi əhəmiyyət verirdi. Fəhlə fakültəsinin müvəffəqiyyətlə bitirənlər universitetin tələbələri sırasına qəbul edilirdilər. Bu da tələbələr sırasında fəhlə gənclərin miqdarının çoxalmasına səbəb olurdu.

Bakı Dövlət Universitetinin birinci onillikdəki fəaliyyəti diqqətlə nəzərdən keçirildikdə belə bir həqiqət aşkara çıxır ki, universitet zamanın keşməkeşlərinə, hakimiyyət dəyişikliklərinə, siyasi arenada baş verən ab-havaya baxmayaraq öz fəaliyyətini uğurla davam etdirmiş, respublikanın elm, təhsil və mədəni həyatında, milli şürun formalaşmasında, yüksək ixtisaslı milli kadrların yetişməsində, milli ziyalılar ordusunun daha da sıxlaşmasında və mətinləşməsində misilsiz rol oynamış, elmimizin və təhsilimizin inkişaf və tərəqqi yolunu işiqlandırmışdır.

Beləliklə, universitetin birinci onilliyi respublikamızın elm, təhsil və mədəniyyətinin inkişafında silinməz dərin izlər qoymuşdur.

Birinci onillikdə universitetin maddi-texniki bazası möhkəmlənmiş, yeni tədris korpusları lazımi avadanlıqlarla təmin edilmiş, laboratoriyalar, fənn kabinetləri və s. ilə təchiz edilmiş, universitetin maliyyələşdirilməsinə diqqət artırılmışdır.

Birinci onillikdə universitetdə ən mühüm yeri yüksək ixtisaslı mütəxəssis kadrların hazırlanması tutmuşdur. Bu dövrdə Bakı Dövlət Universitetinin üzərinə respublikanın ilk ali təhsil müəssisəsi kimi təhsil, elm, mədəniyyət və iqtisadiyyatın bütün sahələri üçün yüksək ixtisaslı kadr hazırlamaq vəzifəsi qoyulmuşdu. Universitet respublikada sürətlə inkişaf edən təhsil, iqtisadiyyat, elm və təhsil müəssisələrini ixtisaslı kadrlarla təmin etməli idi. Bu mühüm dövlət vəzifəsini həyata keçirmək üçün universitet ilbəil yeni-yeni ixtisaslar açır, tələbə qəbulunu artırırdı. Rəqəmlərə diqqət yetirək: Əgər 1919-1920-ci illərdə universitetin 1094 tələbə qəbul edilmişdisə onların sayı 1928-1929-cu ildə 1925 çatmışdı. Universitetin ilk buraxılışı 1922-ci ildə olmuşdur. Universiteti tibb fakültəsini 30 nəfər bitirmişdi ki, bunun da ancaq 10 faizi azərbaycanlı idi. 1929-cu ildə universiteti 1154 nəfər bitirmişdi ki, bunun da 18 faizindən çoxu azərbaycanlılar idi.

On ildə universitetdə tələbə qəbulunun artımı ilə yanaşı professor-müəllim heyətinin tərkibi də həm kəmiyyət həm də keyfiyyətcə dəyişmişdir. Əgər 1919-20-ci tədris ilində universitetdə 3 nəfər professor, 3 nəfər dosent, 29 nəfər müəllim cəmisi 44 nəfər çalışırdısa, 1928-29-cu dərs ilində 52 nəfər professor, 30 nəfər dosent, 229 nəfər müəllim, cəmi 311 nəfər çalışırdı. Sevindirici hal idi ki, professor-müəllim heyətinin tərkibində azərbaycanlıların sayı müntəzəm olaraq artır. Belə ki, əgər 1919-20-ci tədris ilində azərbaycanlıların sayı 9 nəfər idisə, yəni professor-müəllim heyətinin 20,5 faizini

təşkil edirdisə, 1928-29-cu tədris ilində azərbaycanlıların sayı 128 nəfər olmuşdur ki, bu da professor-müəllim heyətinin 42,2 faizini təşkil edirdi. Burada göstərdiyimiz rəqəmlər Bakı Dövlət Universitetinin yüksək ixtisaslı kadr hazırlığı sahəsində böyük müvəffəqiyyətlərdən xəbər verir. 1919-1920-ci illərdə universitetin kollektivi tələbə hazırlığını genişləndirməklə yanaşı elmi tədqiqat işlərinin aparılmasında, elmi əsərlərin yaradılmasında dərsliklərin dərs vəsaitlərinin, monoqrafiyaların çap edilməsində də əhəmiyyətli uğurlara nail olmuşdu. 1921-ci ildən "Bakı Universitetinin Xəbərləri" nəşrə başladı. Bu, respublikada ilk mətbu orqan idi. "Xəbərlər"in dörd şöbəsi - təbiətşünaslıq və tibb, ictimai elmlər, şərqşünaslıq və hüquq şöbələri var idi. 1924-cü ildə universitet həmçinin özünün ikinci nəzəri orqanı olan "Tibbin nəzəri praktiki jurnalı"nın nəşrinə başladı.

Qarşıya çıxan böyük çətinliklərə baxmayaraq Bakı Dövlət Universitetinin 10 il ərzində xalq təsərrüfatının, elm, təhsil və mədəniyyətin müxtəlif sahələri üçün 1500-dən artıq kadr hazırlaması onun böyük uğurları millətimiz qarşısında şərəfli xidməti idi.

Universitetin 20-ci illərdə əldə etdiyi nailiyyətlərdə universitet rektorlarının fəaliyyəti də mühüm əhəmiyyət kəsb etmişdir. Belə fədakar insanlara misal olaraq universitetin ilk azərbaycanalı rektoru olan Tağı Şahbazini (1926-1929) və Maqsud Məmmədovu (1929-1930) göstərmək olar.

Universitet özünün birinci onilliyində 500 çap vərəqi həcmində kitab, jurnal və salnamə buraxmışdı. Elmi əsərlərdən başqa, universitet 1923-1939-cu illərdə çox qiymətli elmi kitablar nəşr etməyə müvəffəq olmuşdu. Bunlardan E.A.Paxamovun "Azərbaycan tarixinin qısa kursu" (Bakı, 1923); A.V.Baqrinin "Azərbaycan biblioqrafiyası üçün materiallar" (I-III buraxılışda); yenə də onun III buraxılışa aid "Predmet göstəriciləri" (Bakı, 1924); A.O.Makovelskinin "Demokrit: həyatı və təlimi" (Bakı, 1926); yenə onun "V.İ.Lenin adına Azərbaycan Dövlət Universiteti: birinci onillik" (Bakı, 1930); "Elmi nəşrlər. 1919-1930" (Bakı, 1930) və s. kitablar nəşr edilmişdir. Bakı Dövlət Universitetinin Elmi Xəbərləri və nəşr etdiyi elmi əsərlər Azərbaycan elminin bünövrəsinə qoyulan ilk daşlar idi. Azərbaycan elmi məhz bu bünövrə üzərində bərqərar olmuş, inkişaf və tərəqqi etmişdir.

1920-ci ildə universitet nəşriyyatının yaranması və onun gələcək fəaliyyəti respublikada elmi və tədris ədəbiyyatının təşəkkül tapıb formalaşmasında və fənn proqramlarının, metodik göstərişlərin nəşrində mühüm rol oynamışdır.

Bakı Dövlət Universitetinin 20-ci illərdə əldə etdiyi elmi mədəni fəaliyyətlərdən biri də onun zəngin, nadir kitab fonduna malik, universitet təhsilinə və elminə xidmət edən elmi kitabxanasının yaranması olmuşdur.

1919-cu ildə universiteti təşkil etmək üçün yaradılmış komissiya universitetin bir nömrəli laboratoriyası hesab etdiyi kitabxananın yaradılması üçün xüsusi layihə hazırladı və kitabxananın təşkilinə maliyyə vəsaiti almaq üçün hökumətə müraciət etdi. Kitabxananı təşkil etmək üçün bina və 3 milyon

manat vəsait ayrıldı. Bakıda yerləşən ayrı-ayrı təhsil və elmi müəssisələr öz kitab fondlarını kitabxanaya bağışladılar. 1919-cu ilin sentyabrında kitabxananın tibb şöbəsi fəaliyyətə başladı. 1919-cu ilin noyabrında kitabxanada qiraətxana açıldı. Beləliklə artıq 1919-cu ildə kitabxananın fonduna 4660 kitab toplanmışdı. Universitet rəhbərliyinin, xüsusilə professor-müəllim heyətinin səyi nəticəsində 1922-ci ildə kitabxananın fondunda 14434 kitab toplanmışdı. 1930-cu ildə isə kitabxanada artıq 109309 kitab var idi.

Böyük çətinliklə olsa da 1926-cı ildən başlayaraq kitabxana beynəlxalq əlaqələr yaratmağa, 1996-cı ilə 700 artıq xarici jurnal almağa müvəffəq olmuşdur. Kitabxanada universitetin tələbə və professor-müəllim heyətinə xidmət olduqca səmərəli təşkil edildiyindən demək olar ki, tələbə və professor-müəllim heyətinin əksəriyyəti kitabxananın oxucuları idi. Kitabxana son on ildə 20 minə qədər oxucuya xidmət etmişdi. Kitabxana Zaqafqaziya universitetləri içərisində ən zəngin və ən nadir kitab fonduna malik ilk elmi alimətəb kitabxanası idi.

Beləliklə, 20-ci illərin axırında Bakı Dövlət Universiteti böyük elmi potensiala malik yüksək ixtisaslı kadr hazırlayan təhsil və elm məbədgahına çevrilmiş, Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin inkişafında həlledici rol oynamağa başlamışdı. Məhz buna görədir ki, universitetin fəaliyyətinə böyük qiymət verən Azərbaycan hökuməti Bakı Dövlət Universitetinin 10 illik yubileyinin qeyd olunması haqqında qərar qəbul etdi. Yubiley 1930-cu il yanvarın 12-də Bakı Opera və Balet Teatrında keçirildi. Təntənəli yubiley iclasında Bakı Dövlət Universitetinin on il müddətində respublikanın təhsil, elm və mədəni həyatında böyük xidmətləri qeyd edildi. Xüsusilə yüksək ixtisaslı mütəxəssis kadrların hazırlanmasında əldə etdiyi nəaliyyətlər haqqında məruzələr dinlənildi. Universitetin bir çox əməkdaşları yüksək dövlət mükafatlarına layiq görüldü.

Ancaq çox təssüflə qeyd etmək lazımdır ki, Avropa və Asiyanın qovşağında məşəl kimi parlayan bu elm və təhsil məbədgahı öz inkişafının çiçəklənməsi dövrdə Moskvanın göstərişi ilə 1930-cu ilin iyunun 19-da Azərbaycan Xalq Komisarlar Sovetinin qərarı ilə fəaliyyətini dayandırıldı onun fakültələri ayrı-ayrı instutlara çevrildi. Onun əmlakı və 100 min nüsxədən artıq kitab fondu olan kitabxanasıda yeni yaradılan institutlar arasında bölüşdürüldü.

Beləliklə, inzibati-amirlik sisteminin formalaşdığı bir zamanda mərkəz hər vasitə ilə milli respublikalarda milli mədəniyyətin və ədəbiyyatın, milli şurun inkişafına mane olur, müxtəlif vasitələrlə və məkrli üsullarla milli oyanışın və milli özünü dərkin inkişafının qarşısını almağa çalışırdı. Bakı Dövlət Universiteti də belə məkrli siyasətin qurbanı oldu.

Respublikamızda universitetin ləğv edilməsinin səhv siyasət olması tezliklə ölkənin elm, təhsil və mədəni həyatında özünü göstərməyə başladı. Məhz buna görədir ki, Azərbaycan SSR Xalq Komisarlar Soveti 1934-cü ilin mayında Azərbaycan Dövlət Universitetinin yenidən təşkili haqqında qərar qəbul etdi. Beləliklə, 1934-cü ilin sentyabrından Bakı Dövlət Universitetinin

fəaliyyəti bərpa edildi. Keçmiş "Kommunist" (indiki "İstiqlal") küçəsində 6 saylı binanın yarısı universitetə verildi. Artıq 1935-ci ildə universitetdə 4 fakültə, 13 kafedra fəaliyyət göstərirdi.

Bakı Dövlət Universitetinin bərpa edilməsi respublikamızın elm, təhsil və mədəniyyət tarixində mühüm hadisə oldu. 1930-cu ildə buraxılmış səhv düzəldildi. Məhz buna görədir ki, Azərbaycan xalqı respublikamızın elm, təhsil ictimaiyyətinin bütün ziyalılar ordusu bu hadisəni böyük rəğbətlə qarşıladılar. İlk günlərdən başlayaraq universitetin kadr korpusunu yaratmağa başladı. İlk növbədə universitetdə əvvəllər işləmiş, görkəmli alimləri, təcrübəli mütəxəssisləri və universitetin keçmiş məzunlarını universitetə dəvət etdilər. Respublikamızın görkəmli ziyalıları universitetdə işləməyə üstünlük verdiklərindən, qısa zamanda universitetdə çox yüksək elmi potensilala malik kadr korpusu formalaşdı.

Belə ki, 1939-cu ildə professor-müəllim heyətinin sayı 226 nəfərə çatmışdı. Bunlardan 17 nəfəri elmlər doktoru, 54 nəfəri elmlər namizədi, dosent idi. Universitetdə son beş ildə 500-ə yaxın yüksək ixtisaslı kadr hazırlanmışdı. Universitetin tarixini ardıcıl olaraq izləyərkən onun Azərbaycan xalqı, Azərbaycan elmi, təhsili və mədəniyyəti qarşısındakı fəaliyyətini araşdırarkən 19201944-cü illərdə universitetə başçılıq etmiş V.İ.Razumovskinin (1919-1920), S.V.Davidenkonun (1920-1923), A.D.Quliyevin (1923-1926), T.A.Şahbazinin (1926-1929), V.S.Yelipotevsikinin (1929-1929), M.Q.Məmmədovun (1929-1930), K.M.Ələkbərlinin (1934-1935), Ə.Ə.Əliyevin (1937-1937), C.A.Ələsgərovun (1937-1941), Ş.R.Əliyevin (1941-1944) böyük xidmətləri göz önünə gəlir. Onlar öz dövrlərinin görkəmli elm və təhsil xadimləri, təşkilatçıları olmaqla yanaşı, həm də vətənpərvər ziyalılar olmuşlar. Məhz buna görədir ki, xalqımız, universitetin professor-müəllim heyəti, tələbələri və məzunları onların əziz xatirəsini həmişə uca tutur.

Bakı Dövlət Universiteti və onun şanlı-şöhrətli kollektivi 1941-1945 Böyük Vətən müharibəsi illərində ölkədə yaranmış çox çətin və mürəkkəb şəraitdə belə öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirdi. Universitetin bütün fəaliyyəti hər şey müharibə üçün, hər şey cəbhə üçün istiqamətinə yönəldi. 1941-ci ilin 22 iyunundа universitetin böyük akt zalında izdihamlı mitinq keçirildi. Mitinqdə çıxış edən professor-müəllimlər və tələbələrin nümayəndələri ölkənin müdafiəsinə qalxmağı, bütün qüvvələrini faşistlər üzərində qələbəyə yönəldəcəklərini söylədilər. Müharibənin başlandığı ilk gündən universitet kollektivi səfərbər olmağa başladı. Universitetin rektoru S.A.Ələsgərov və bir çox müəllim və tələbələri cəbhəyə getdilər. Təkcə 1941-ci ildə universitetdən 1285 nəfər cəbhəyə səfərbər edilmişdi. 1941-ci ilin sentyabrında universitetin rektoru vəzifəsinə Ş.R.Əliyev təyin edildi. O, 1945-ci ilin aprelinə qədər bu vəzifəni böyük şəraflə yerinə yetirdi.

Müharibə illərində mövcud şəraitlə əlaqədar Azərbaycan ali məktəblərinin strukturunda böyük dəyişiklik oldu. 1941-1942-ci illərdə V.İ.Lenin adına Pedaqoji İnstitut, Qiyabi Pedaqoji İnstitut həmçinin Azərbaycan Dövlət

Bədən Tərbiyəsi İnstitutu və Xarici dillər fakültəsi universitetə birləşdirildi.

Beləliklə, 1943-44-cü tədris ilində universitetdə 10 fakültə: fizika-riyaziyyat, kimya, biololgiya, tarix, filologiya, hüquq, iqtisadiyyat, xarici dillər, bədən tərbiyəsi, geoloji-coğrafiya fakültələri və 49 kafedra fəaliyyət göstərirdi.

Müharibə illərində Azərbaycan ali məktəb sistemi hərbi şəraitə uyğun olaraq yenidən quruldu. Ali məktəblərin tələbə və müəllimlərinin orduya səfərbər edilməsi ilə əlaqədar olaraq təhsil müddəti qısaldıldı. Yeni keçici xarakter daşıyan tədris planları və ixtisar edilimiş proqram üzrə kadr hazırlığına başlandı. 1941-1942-ci tədris ilində üç illik tədris planına keçildi. Qış tətilləri ləğv edildi, daha intensiv tədris prosesi tətbiq edilməyə başlandı.

1944-1945-ci illərdə müharibənin ilk illərinə universitetə birləşdirilmiş institutların ayrılıb müstəqil fəaliyyətə başlaması, müharibə illərində universitetin hospitala çevrilmiş binasının özünə qaytarılması onun işində yeni quruculuq mərhələsinin başlanmasını təmin etdi. Universitet öz işini yenidən qurmağa başladı.

Müharibə illərində böyük çətinliklərə, müəllim kadrların çatışmamasına baxmayaraq universitet kollektivi yüksək ixtisaslı kadr hazırlığı işini müvəffəqiyyətlə davam etdirmiş, 4 ildə 719 nəfər kadr hazırlanmışdı. Universitetdə tədris prosesinin təşkili ilə yanaşı, elmi-tətqiqat işinin aparılmasına, aspirantura yolu ilə elmi kadrların hazırlanmasına, namizədlik və doktorluq dissertasiyalarının müdafiəsinədə xüsusi diqqət yetirilmiş, bu mühüm işlər bir an belə dayanmamışdı. 1940-1945-ci illərdə 211 aspirant təhsil almış, demək olar ki, onların böyük əksəriyyəti öz namizədlik dissertasiyalarını müdafiə etmişlər. 1941-1945-ci illərdə universitetin elmi şuralarında 13 doktorluq və 118 namizədlik dissertasiyaları müdafiə edilmişdir. Müharibə illərinin hər cür çətinliklərinə baxmayaraq universitetin kadr korpusu da daim təkmilləşmiş, universitetin müəllimləri sırasına xeyli cavan kadrlar daxil olmuşdur. Artıq 1945-ci ildə universitetdə 331 müəllim çalışırdı. Bunlardan 29 nəfəri elmlər doktoru professor, 107 nəfəri elmlər namizədi dosent, 195 nəfəri isə müəllim idi. Bu, o dövr üçün çox böyük rəqəm idi.

1945-ci ildə Böyük Vətən müharibəsi qələbə ilə qurtardıqdan sonra universitetin inkişafında yeni mərhələ başlandı. Məhz bu mərhələdə universitetin sturkturu təkmilləşdi, maddi-texniki bazası möhkəmləndi, müharibə illərində alınan binalar özünə qaytarıldı, universitetin tədris prosesində islahatlar aparılmaqla yeni təkmilləşmiş tədris planına keçirildi, kadr potensialı güclləndi, elmi-tətqiqat işi aparılmasında, yeni daha aktual mövzuların tətqiqində, yeni elim istiqamətlərin müəyyənləşməsində böyük canlanma baş verdi. Müharibədən sonrakı beş illikdə Bakı Dövlət Universitetinə Azərbaycan elminin görkəmli korifeylərindən biri görkəmli filoloq, Əməkdar elm xadimi, akademik Abdulla Qarayev başçılıq etmişdir. Professor A.Qarayev müharibə illərində universitetdə elmi işlər üzrə prorektor işləmiş, 1945-ci ilin aprelində rektor vəzifəsinə təyin edilmiş, bu vəzifədə 1950-ci ilin noyabrına qədər işləmişdir. Onun rektorluğu dövründə universitetin strukturunda böyük

dəyişikliklər baş vermiş, yeni fakültələr, şöbələr, kafedralar, elmi labaratoriyalar, ixtisaslar açılmışıdır. 1945-1946-cı illərdə universitetin filoloji fakültəsinin yanında jurnalistika, 1946-1947-ci illərdə incəsənətşünaslıq, yenə həmin tədris ilində məntiq psixologiya, kitabxanaçılıq şöbələri açılmışıdır.

Beləliklə, 1946-1947-ci tədris ilində universitetdə 8 fakültə: filologiya, tarix, şərqşünaslıq, geoloji-coğrafiya, hüquq, fizika-riyaziyyat, kimya və biologiya fakültələri fəaliyyət göstərirdi. Bu fakültələrdə 52 kafedra, 52 kabinet və labaratoriya, 2 muzey var idi. Təkcə 1948-49-cu tədris ilində 7 yeni kabinet və labaratoriya yaradılmışdır. Universitetin strukturunda baş verən yeniliklər professor-müəllim heyətnin tərkibində böyük dəyişikliyə səbəb olmuş, professor-müəllim heyətinin tərkibində əhəmiyyətli kəmliyyət və keyfiyyət dəyişikliyi baş vermiş, universitetin professor-müəllimləri sırasına çox güclü alimlər, xüsusilə istüdadlı gənclər gəlmişdi. 1950-ci ildə artıq universitetdə 21 elmlər doktoru professor və 155 elmlər namizədi işləyirdi. Universitetin professor-müəllim heyətinin cəmi 316-ya çatmışdı. Müharibədən sonrakı beşilliklə universitetin qəbul planı ilbəil artmış, beş il ərzində (1946-1950) universitetə 3397 nəfər tələbə qəbul edilmiş, universiteti 1515 nəfər yüksək ixtisaslı mütəxəssislər bitirmişdir.

50-60-cı illərdə də müharibədən sonrakı beşillikdə əldə edilmiş nailiyyətlər müvəffəqiyyətlə davam etdirildi. 1950-ci ildə universitetdə kadr dəyişikliyi baş verdi. Əməkdar elm xadimi, görkəmli ədəbiyyatşünas alim Cəfər Xəndan Hacıyev universitetə rektor təyin edildi. Rektor təyin edilənə qədər o filoloji fakültənin dekanı vəzifəsində çalışmışdır. Təhsil prosesini və universitetin elmi işlərinə yaxından bələd olan bu işi inkişafını universitet kollektivinin əsas vəzifəsi hesab edən professor Cəfər Xəndan akademik A.Qarayevin işini onun apardığı islahatları müvəffəqiyyətlə davam etdirdi. Professor Cəfər Xəndanın rektor kimi uğurlu fəaliyyəti universitet kollektivinin uğurları kimi şərəfli bir yer tutur. Bu dövrdə hər şeydən əvvəl universitetə ayrılan maliyyə vəsaiti bir neçə dəfə artırıldı. Respublika tələbə qəbulu planında universitetin əyani, axşam və qiyabi şöbəsinə ayrılan yerlərin miqdarı əhəmiyyətli dərəcədə artmışdı. Bu da respublikada müəllim kadrlara olan böyük tələbatla əlaqədar idi. Məhz buna görədə 1940-cı illərdən fəaliyyətə başlayan universitetin qiyabi şöbəsinin işi əsaslı şəkildə yeindən qurulmağa başladı. Əgər 50-ci illərdə universitetin tərkibində 4 fakültənin - filologiya, tarix, riyaziyyat və hüquq fakültələrinin qiyabi şöbəsi var idisə, artıq 60-cı illərdə 7 fakültənin qiyabi şöbəsi fəaliyyət göstərirdi. 50-60-cı illərdə qiyabi şöbə ilə yanaşı axşam şöbəsi də yaradılmağa başladı. İlk axşam şöbəsi 1958-1959-cu illərdə fizika və kimya fakültələrində yaradıldı. 1950-60-cı illərdə universitetdə 5 yeni fakültə: şərqşünaslıq (1957), fizika (1959), iqtisadiyyat (1959), əmtəəşünaslıq (1959), kitabxanaçılıq (1962), jurnalistika (1969) fakültələri yaranmışdır. 1950-60-cı illərdə universitetdə yeni fakültələrin yaranması və tələbə qəbulunun ilbəil artması ilə əlaqədar universitetdə bina çatışmazlığı hiss edildi. Bu cətinliyi nəzərə alan respublika hökuməti universitetə iki yeni bina vermişdir. 1954-

1955-ci illərdə universitet 11460 kv.m sahəsi olan 4 binada yerləşdirildi. 1964-cü ilin sentyabrında Bakı Dövlət Universiteti üçün 50-ci illərdən Zahid Xəlilov küçəsində tikilən yeni binanın istifadəyə verilməsi universitetin auditoriya vəziyyətini xeyli yaxşılaşdırdı.

Beləliklə, artıq 60-cı illərin axırlarında Bakı Dövlət Universitetində, demək olar ki, təbiət və humanitar elmlərin mühüm sahələrini əhatə edən 12 fakültə: mexanika-riyaziyyat, fizika, kimya, biologiya, ekoloji-coğrafiya, tarix, filologiya, şərqşünaslıq, kitabxanaçılıq-informasiya, hüquq, jurnalistika, ixtisasartırma və xarici tələbələr fakültələri həmçinin 64 kafedra, 86 lobaratoriya, o cümlədən 4 problem lobaratoriyası, 42 kabinet, 2 muzey fəaliyyət göstərirdi. Professor-müəllimlərin miqdarı 710 nəfərə çatmışdı. Universitetin əyani, qiyabi və axşam şöbələrində 12 mindən artıq tələbə təhsil alırdı.

1950-1960-cı illərdə universitetə xalqımızın görkəmli şəxsiyyətləri, elm və təhsil təşkilatçıları, Azərbaycan elminin tərəqqi və inkişafına böyük töhfələr verən, öz əsərləri ilə keçmiş SSRİ məkanında və beynəlxalq aləmdə tanınan akademik Y.H.Məmmədəliyev və akademik Ş.F.Mehdiyev başçılıq etmişlər. Onların böyük təşkilatçılıq qabiliyyəti nəticəsində universitet böyük yol keçmiş, beynəlxalq miqyasda tanınmağa başlamışdır. Məhz buna görədir ki, bu görkəmli şəxsiyyətlərin əziz xatirəsi universitet kollektivi tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycanın müasir tarixinə dönüş mərhələsi kimi daxil olan 60-70-ci illər Bakı Dövlət Universitetinin həyatında da əlamətdar illər olmuşdur.

1969-cu ildə Heydər Əliyevin siyasi hakimiyyətə ilk gəlişi ilə Azərbaycan özünün həqiqi inkişaf yolunu tapdı. 60-cı illərdə baş verən sosial-iqtisadi böhran aradan qaldırıldı. Bu dövrdə respublika əli məktəblərinin bayraqdarı olan Bakı Dövlət Universiteti Heydər Əliyevin qayğısı sahəsində bir çox uğurlar əldə etdi. Universitet Azərbaycan elm, təhsil, mədəniyyəti kimi çiçəklənmə dövrünə qədəm qoydu.

1969-cu ildə universitetin 50 illiyi tamam oldu. Azərbaycan dövlətinin qərarına müvafiq təntənəli yubiley iclası 1969-cu il noyabrın 1-də keçirildi. Təntənəli iclasda yubiley komissiyasının sədri kimi Heydər Əliyev çıxış etdi. Bu tarixi çıxış universitetin həyatında çox əlamətdar hadisə idi. Çünki universitetin yarım əsrlik yubileyində onun dünya şöhrətli məzunu Heydər Əliyev çıxış edirdi. Universitetin çoxminli kollektivi həmişə bu tarixi hadisə ilə iftixar hissi keçirmişdir. Heydər Əliyevin indiyə qədər respublikamızda formalaşan ənənələrin əksinə olaraq Azərbaycan dilində çıxış etməsi, xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmaqla milli şurun formalaşmasına, milli dilin statusunun möhkəmlənməsinə səbəb oldu.

Heydər Əliyev bu parlaq nitqində universitetin 50 ildə keçdiyi inkişaf və tərəqqi yolunu yüksək qiymətləndirərək deyirdi: "Bu gün Azərbaycan Dövlət Universitetinin keçdiyi yarım əsrlik yola yekun vurarkən tam əsasla deyə bilərik ki, yubiliyar bu yüksək ada layiq olduğunu özünün bütün fəaliyyəti ilə sübut etmişdir". Heydər Əliyevin bu proqram xarakterli nitqində universitet

kollektivinin qarşısında elmin, təhsilin və mədəniyyətin inkişafına mühüm əhəmiyyət verməklə yüksək ixtisaslı mütəxəssis kadrlar hazırlamaq kimi çox mühüm vəzifə qoymuşdu. Universitetin çox minli kollektivi bu vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlmək üçün əlindən gələni etmiş və böyük uğurlar qazanmağa müvəffəq olmuşdu. Məhz 70-80-ci illərdə universitetin maddi-texniki bazası 60-cı illərə nisbətən qat-qat yüksəlmiş, tələbə qəbulu ilbəil artmış yeni ixtisaslar açılmış, kadr hazırlığının keyfiyyəti yüksəlmiş, universitet yeni elmi istiqamətlərdə inkişaf etməyə başlamış, universitetin beynəlxalq əlaqələri xeyli genişlənmişdi. 1970-78-ci illərdə universitetə 12428 tələbə qəbul edilmiş, hər il 1200-dən artıq tələbə universiteti bitirmişdir.

Bu illərdə elmi-tədqiqat işlərində böyük vüsət almış, 1676 mövzuda elmi-tətqiqat işi yerinə yetirilmiş, 148 adda monoqrafiya 325 adda dərslik və dərs vəsaiti, 8423 adda dərs vəsaiti nəşr edilmişdir.

1977-78-ci tədris ilində 9 mərtəbəli 1-ci tədris korpusunun istifadəyə verilməsi universitetin auditoriya problemini həll etmiş, tədris prosesinin səmərəli təşkilinə səbəb olmuşdur. Universitet tələbələri üçün yataqxana şəhərciyinin salınmasına da 70-ci illərdə başlanmışdır. Bu dövrdə universitetə Faiq Məmmədov rəhbərlik etmişdir. O, bu vəzifədə 1970-ci ildən 1987-ci ilə qədər işləmişdir.

Universitetin inkişafında mühüm xidməti olan akademik F.M.Bağırzadə universitetin tarixində ən çox işləyən rektor olmuşdur.

Məhz bu illərdə Bakı Dövlət Universitetində yeni fakültələr, kafedralar, tədris və elmi lobaratoriyalar yaradılmışdır. 1961-ci ildə fəaliyyəti dayandırılmış universitet nəşriyyatı 1979-80-ci tədris ilində yenidən fəaliyyət başladı. 70-ci illərdə universietdə tədris prosesinə texniki vasitələrin tətbiqinə başlanmış, tədris kinosu və televiziyası lobaratoriyası, həmçinin tədris prosesinin texniki vasitələri ilə təchiz edilmiş, 15 ixtisaslaşdırılmış auditoriya yaradılmışdı. Artıq 70-ci illərdə unversitetdə 12 fakültə, 70 kafedra, 15 kabinet və laboratoriya fəaliyyət göstərirdi. Universiettin beynəlxalq əlaqələri xeyli genişlənmiş, universitet SSRİ-nin və dünyanın 170-dən artıq universiteti, elmi və tədris müəssisəsi ilə əlaqə yaratmışdı. Bu işdə universitetin 1974-cü ildə elmi kitabxana statusu almış Elmi kitabxanası mühüm rol oynayırdı. Kitabxana SSRİ-nin və dünyanın 171 elmi və tədris müəssisələri ilə elmi nəşrlərin mübadiləsini aparırdı. Həmçinin universitet xarici ölkələr üçün kadr hazırlayan ali məktəblər içərisində aparıcı yerlərdən birini tuturdu. 1983-cü ildə universitetdə dünyanın 61 ölkəsindən 500-dən artıq tələbə təhsil alırdı. 70-80-ci illər Bakı Dövlət Universitetinin tarixində universitetin maddi-texniki bazasının əhəmiyyətli dərəcədə möhkəmləndirilməsi, kadr hazırlığının keyfiyyətcə yüksəldilməsi, müasir dövrün, dünya elminin aktual problemlərinə həsr edilmiş elmi tətqiqatların aparılması, beynəlxalq əlaqələrin genişləndirilməsi uğrunda mübarizə illəri olmuşdur.70-80-ci illərdə Bakı Dövlət Universi-tetinin əldə etmiş olduğu ən böyük nailiyyət onun kadr potensialının professor-müəllim heyətinin tərkibinin həm kəmiyyətcə həm də keyfiyyətcə inkişaf edib

möhkəmləndiyi illər kimi xarakterizə edilir. Fikrimizi rəqəmlərin dili ilə ifadə edək. Əgər 1970-71-ci tədris ilində universitetdə 710 professor-müəllim çalışırdısa, bunların 56 nəfəri professor, 223 nəfəri dosent, 240 nəfəri baş müəllim, 191 nəfəri müəllim idi. On ildən sonra, yəni 1988-89-cu dərs ilində müəllimlərin sayı 1137-yə, professorların sayı 170, dosentlərin sayı 442, baş müəllimlərin sayı 342, müəllimlərin sayı isə 198 çatmışdı. Yəni on ildə müəllimlərin sayı 427 nəfər o cümlədən professorların sayı 114 nəfər, dosentlərin sayı 219 nəfər, baş müəllimlərin sayı 198 nəfər, müəllimlərin sayı 7 nəfər artmışdır.

Universitetdə son on ildə tələbə qəbulu da ilbəil artmışdı. 1978-79-cu dərs ilində 13425 nəfər tələbə təhsil alırdı. Bunlardan 6325 nəfər gündüz, 3092 nəfər axşam, 3192 nəfər qiyabi şöbənin tələbələri idi.

Beləliklə, 70-80-ci illər Bakı Dövlət Universitetinin həyatında yeni mərhələ - Heydər Əliyev mərhələsi olmuşdur. Məhz bu illərdə Heydər Əliyev dühası universitetin inkişaf yolunu işıqlandırmış, yeni uğurlu gələcəyə istiqamətləndirmişdir.

80-ci illərin axırı - 90-cı illərin əvvəllərində respublikada baş verən proseslər, iqtisadi, siyasi və sosial böhran Bakı Dövlət Universitetindən də yan keçməmişdi. Ölkədə hökm sürən anarxiya universitetin tədris prosesinə ciddi təsir göstərirdi. Tələbələr arasında dərsə gəlməmək halları ciddi xarakter almışdı. Müəllimlərin sosial durumunun çox aşağı olması bir çox görkəmli alimlərin xarici ölkələrə getməsinə və öz peşəsindən uzaqlaşmasına səbəb olmuşdu. Universitetə dövlət büdcəsindən ayrılan vəsait dəfələrlə azalması onun maddi-texniki bazasının zəifləməsinə səbəb olmuş, tədris və elmi-tədqiqat laboratoriyaları yeni avadanlıq almaqdan məhrum edilmişdi. Universitetdə tez-tez rektorların dəyişməsi ümumi işə olduqca mənfi təsir göstəridi. 1987-93-cü illərdə universitetdə dörd rektor - Məmmədov Y.M. (1987-1989), Quliyev C.B. (1989-1990), Qasımov M.G. (1990-1992), Səməndərov F.V. (1992-1993)) dəyişmişdi.

Bakı Dövlət Universitetinin 90 il ərzində keçdiyi yolun əsas və olduqca zəngin mərhələlərindən biri Azərbaycan Respublikasının ər dövlət müstəqilliyini bərpa etdikdən sonrakı mərhələdir. Bilavasitə ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan bu mərhələ bir çox cəhətdən əlamətdar olmuş böyük hadisələrlə dolu olan bir mərhələ kimi universitetin tarixində dərin izlər qoymuş, onun fəaliyyətinə yeni müstəqilliyin ab-havasını gətirmişdir.

Heydər Əliyevin 1993-cü ilin iyununda hakimiyyətə gəlməsi universitetin böhran vəziyyətindən çıxmasına, təhsil islahatlarının aparılmasına, universitet təhsilinin müasir dünya təhsil sisteminə inteqrasiya edilməsi üçün əlverişli prespektivlər açdı.

1993-cü ildən başlayaraq Bakı Dövlət Universitetinin təhsil və elmi həyatında olduqca böyük dəyişiklik baş verdi. Universitetin maddi-texniki bazasını möhkəmləndirmək üçün ciddi tədbirlər həyata keçirildi. İlbəil universitetə ayrılan vəsait və tələbə qəbulu artırıldı. Tədris prosesində ciddi

islahatlar həyata keçirildi. Tədris intizamı möhkəmləndi. Universitetə avadanlıq almaq üçün vəsait ayrılması xeyli artdı. Universitetin beynəlxalq əlaqələri genişlənirdi, belə ki, o, artıq müstəqil dövlətin aparıcı universiteti kimi dünyanın qabaqcıl dövlətləri ilə əlaqələr qurmaq imkanı əldə etdi.

Universitetdə yeni fakültələr - İlahiyyat fakültəsi və Beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültəsi açıldı. Universitetin kadr potensialının güclənməsi və müstəqil respublikamızın ayrı-ayrı nadir ixtisaslara tələbatının artması ilə əlaqədar yeni ixtisaslar açıldı. Müstəqillik illərində məhz Heydər Əliyevin atalıq qayğısı nəticəsində BDU-da bir çox yeni ixtisaslar açılmışdır.

BDU-nun Universitetlərin Beynəlxalq Assosiasiyasının üzvü olması onun beynəlxalq əlaqələrini daha da genişləndirirdi. BDU beşdən artıq beynəlxalq assosiasiyanın üzvüdür. 1993-cü ildən başlayaraq universitetin 100-dən artıq tələbə, magistrant və aspirantı xarici ölkə universitetlərində təhsil almışdır.

Bakı Dövlət Universitetinin respublikamızda elm, mədəniyyət və təhsilin inkişafında böyük xidmətlərini yüksək qiymətləndirən, universitetin məzunu olması ilə fəxr edən ulu öndər Heydər Əliyev demişdir: «Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır».

Bakı Dövlət Universitetini xalqımızın milli iftixarı kimi qiymətləndirən XX əsrin görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin özü də Bakı Dövlət Universitetinin məzunu və böyük iftixarıdır. Heydər Əliyev Bakı Dövlət Universitetinin məzunu olması ilə fəxr etdiyi kimi, bu gün Bakı Dövlət Universitetinin kollektivi də Heydər Əliyevin adı ilə, doğma universitetimizin ləyaqətli məzunu olması ilə fəxr edir. Ona görə ki, dünya şöhrətli dahi şəxsiyyət, beynəlxalq nüfuza malik siyasi lider, Yer kürəsində böyük hörmətə malik «İlin adamı», Müstəqil Azərbaycan dövlətçiliyinin etibarlı qarantı, bugünkü inkişaf etmiş dövlətimizin memarı, görkəmli ictimai və dövlət xadimi, bütün həyatını və mənalı ömrünü Azərbaycan xalqının və Azərbaycan dövlətinin inkişafına və çiçəklənməsinə həsr edən və Azərbaycan xalqının ümummilli lideri səviyyəsinə qədər yüksələn, Tanrı möcüzəsi olan Heydər Əliyev Bakı Dövlət Universitetinin tarix fakültəsini 1957-ci ildə bitirmişdir. Bu dahi şəxsiyyətin adı tarix fakültəsinin və Bakı Dövlət Universitetinin Qızıl fonduna düşmüşdür.

Heydər Əliyevin universitetdə təhsil aldığı illərdə və respublikaya rəhbərlik etdiyi dövrdə universitetlə əlaqələri Bakı Dövlət Universitetinin şanlı tarixinin böyük və əlamətdar bir mərhələsini təşkil edir. Bakı Dövlət Universitetinin tərəqqi və inkişafının ən məhsuldar dövrü olan son 30 il məhz onun adı ilə qırılmaz tellərlə bağlıdır.

Məhz buna görədir ki, Bakı Dövlət Universitetinin Böyük Elmi Şurası 1994-cü il 28 oktyabr tarixli geniş iclasında Azərbaycan xalqı, dövləti, elmi və təhsili qarşısında əvəzsiz xidmətlərinə görə Heydər Əlirza oğlu Əliyevə Universitetin Fəxri Doktoru adının verilməsi haqqında yekdil qərar qəbul etdi.

Universitetimizin kollektivi bununla fəxr edir. Ulu öndər Heydər Əliyev universitet rəhbərliyinin yeni kadrlarla möhkəmləndirilməsinə olduqca böyük diqqət yetirirdi.

1994-cü ildə görkəmli hüquqşünas alim, hüquq elmləri doktoru, professor Murtuz Ələsgərov universitetə rektor təyin edildi. Professor M.Ələsgərov 1996-cı ildə Milli Məclisin sədri seçildikdən sonra görkəmli elm və təhsil təşkilatçısı, fizika-riyaziyyat elmləri doktoru, Əməkdar elm xadimi, professor Misir Mərdanov universitetin rektoru vəzifəsinə irəli çəkildi. 1998-ci ildə professor M.Mərdanov Azərbaycan Respublikasının təhsil naziri təyin edildikdən sonra rektor vəzifəsinə görkəmli kimyaçı alim, Əməkdar elm xadimi, akademik Abel Məhərrəmov təyin edildi.

Göründüyü kimi, hər üç şəxs, respublikamızın görkəmli alimləri, elm və təhsil təşkilatçıları, dövlət xadimləri olmaqla respublika ictimaiyyəti tərəfindən tanınan və müsbət qarşılanan şəxsiyyətlərdir. Məhz 1994-cü ildən başlayaraq Bakı Dövlət Universiteti kollektivinin əldə etdiyi müvəffəqiyyətlərdə bu görkəmli şəxsiyyətlərin rolu az olmamışdır.

Professor M.Ələsgərov tərəfindən başlanan islahatlar professor M.Mərdanov tərəfindən davam etdirilmişdir. Lakin bu islahatların başa çatdırılması və universitetdə böyük quruculuq işinin aparılması universitet kollektivi tərəfindən «qurucu rektor» kimi qəbul edilən akademik Abel Məhərrəmovun adı ilə bağlıdır.

Abel Məhərrəmov rektor təyin edildiyi ilk gündən bütün bilik və bacarığını, daxili enerjisini və potensial imkanlarını doğma universitetin tərəqqisinə, təhsil sisteminin yüksəldilməsinə və təkmilləşdirilməsinə istiqamətləndirdi, bu ali təhsil ocağını beynəlxalq standartlara cavab verən dünya universitetləri sırasına çıxara bildi. A.M.Məhərrəmov sözün əsl mənasında çoxsaylı kollektivi vahid bir orqanizm kimi hərəkətə gətirdi və onun ahəngdar mexanizm kimi zərgər dəqiqliyi ilə sistemli və fasiləsiz fəaliyyətinə, hamını bir nəfər kimi universitetin tədris-metodik, elmi tədqiqat işinə cəlb etməyə nail oldu. Qısa zaman çərçivəsiondə universitetin tədris-maddi bazası xeyli möhkəmləndi.

Abel Məhərrəmovun düzgün və məqsədyönlü rəhbərliyi sayəsində BDU-nun maddi-texniki bazası xeyli möhkəmlənmiş, yeni tədris korpusları istifadəyə verilmiş, tələbələr üçün idman kompleksləri tikilmiş, müəllimlər və tələbələr üçün hər korpusda yeməkxanalar istifadəyə verilmiş, gözəl və yaraşıqlı universitet şəhərciyi yaradılmış və ən mühümü güclü elmi-pedaqoji potensiala malik olan mehriban kollektiv formalaşmışdır. Universitetdə aparılan işlərin miqyasına görə son on ili universitetin intibah dövrü kimi xarakterizə etmək olar. Bu intibah özünü universitetin hərtərəfli, kompleks inkişafında göstərmişdir. Zənnimizcə, bu kompleks inkişafa daxil olan amillər içərisində:

1) universitetin madi-texniki bazasının möhkəmləndirilməsi, onmərtəbəli yeni tədris korpusunun istifadəyə verilməsi, tələbə qəbulunun ilbəil

artırılması, kadr potensialının möhkəmləndirilməsi;

2) universitetin tədris prosesinin daha da təkmilləşdirilməsi, tədrisin keyfiyyətini yaxşılaşdırmaq üçün islahatlar aparılması, tədrisin texniki vasitələrlə təmin edilməsi, tədris prosesində kompüter texnologiyasından istifadə edilməsi, yeni fakültələr, ixtisaslar, kafedralar açılması, tədris intizamının möhkəmləndirilməsi, dünyanın qabaqcıl ölkələrinin iş təcrübəsindən istifadə edilməsi, müstəqilliyimizə müvafiq dərsliklərin və dərs vəsaitlərinin yazılıb çap etdirilməsi;

3) universitetdə bu yeni elmi-tədqiqat laboratoriyalarının yaradılması, elmi laboratoriyaların yeni cihazlarla, avadanlıqlarla təchiz edilməsi, kafedrada aparılan elmi-tədqiqatların istiqamətlərinin müasir şəraitlə, respublikanın qarşısında duran çağdaş vəzifələrlə əlaqələndirilməsi, doktorluq və namizədlik dissertasiyalarının keyfiyyətcə yaxşılaşdırılmasına diqqətin artırılması, elmin müxtəlif sahələrinə dair monoqrafiyaların, dərs vəsaitlərinin və dərsliklərin, metodik göstərişlərin çap etdirilməsi kimi mühüm məsələlər geniş yer tutmuşdur. Universitetin elmi xəbərlərinin nəşrinin daha da təkmilləşməsi, universitet nəşriyyatının fəaliyyətinin genişləndirilməsi kimi mühüm problemlərə də geniş diqqət yetirilmişdir.

Bu yaxınlarda ulu öndər Heydər Əliyevin akademik Abel Məhərrəmovu Bakı Dövlət Unisersitetinə rektor təyin etməsindən on il keçir. 1998-ci ildə universitetin keçmiş rektoru professor Misir Mərdanov Azərbaycan Respublikasının təhsil naziri təyin edildikdən sonra rektorluq vəzifəsi bir ilə yaxın boş qaldı. Bu müddətdə möhtərəm Prezident Heydər Əliyev universitetə kimin rektor göndərilməsini ciddi şəkildə araşdırırdı. Seçim xeyli uzandı. Nəhayət, ulu öndərin seçimi Abel Məmmədəli oğlu Məhərrəmov oldu. Öz uzaqgörənliyi ilə həmişə fərqlənən ulu öndər bu seçimində də yanılmamışdı.

Ali məktəb sistemini dərindən bilən Abel Məhərrəmov kiçik bir zaman kəsiyində müstəqilliyin universitetin qarşısında qoyduğu vəzifələrə, dövlətin ardıcıl həyata keçirdiyi təhsil islahatının tələblərinə uyğun olaraq universitet təhsilində və elmində mühüm nailiyyətlər əldə etməyə, böyük quruculuq işləri aparmağa müvəffəq oldu. Onun on il müddətində quruculuq sahəsində əldə etdiyi nailiyyətləri sovet dövründə bir neçə onillikdə aparılan işlərə bərabər tutmaq olar.

Hər şeydən əvvəl, rektor universitetin maddi-texniki bazasını möhkəmləndirmək üçün ciddi tədbirlər görməyə başladı. Rektorun səyi nəticəsində maddi-texniki bazanın möhkəmləndirilməsinə ayrılan vəsait orta hesabla ilbəil 2-3 dəfədən çox artırıldı. Universitetin əsas binası 60-cı illərdən bəri son 40 ildə təmir edilməmişdi. Binanın həm xarici görünüşü, həm daxili, həm də dam örtüyü bərbad vəziyyətə düşmüşdü. Rektorun ciddi səyi nəticəsində universitetin əsas binasına yeni həyat verildi. Onun çöl divarları təmizləndi, daxilində bütün dərs otaqları, auditoriyalar, laboratoriyalar, böyük və kiçik akt zalları, inzibati binalar əsaslı surətdə, müasir dünya standartlarına müvafiq təmir olunmuş, çox qiymətli avadanlıqlarla təchiz edilmişdir. Son 80 ildə

universitetin auditoriyaları və laboratoriyaları belə yüksək səviyyəli mebellə təmin edilməmişdir.

Abel Məhərrəmovun ən böyük xidməti universitet şəhərciyinin yaradılması oldu. İnsanların gözü qarşısında xarici ölkələrdə olan universitet şəhərciklərini xatırladan şəhərciyin yaradılması və tədricən bu şəhərciyin gözəl istirahət və mədəniyyət parkına çevrilməsi universitetin çoxminli kollektivi üçün böyük hədiyyə idi. Bu şəhərciyin bəzəyi olan idman kompleksi, 1000 nəfərə qədər tutumu olan örtülü stadionu, müasir texnologiyanın son nailiyyətlərinə müvafiq tikilmiş üzgüçülük hovuzu tələbə və müəllimlərin ən çox sevdiyi bir idman qurğusuna çevrilmişdir.

Rektorun böyük xidmətlərindən biri də universitetin yeni tədris korpusunun tikintisinin başa çatdırılması olmuşdur. Göz oxşayan və yaraşıqlı bu tədris korpusunda tarix, mexanika-riyaziyyat və tətbiqi riyaziyyat fakültələri yerləşir. Müasir standartlara uyğun tikilən və istifadəyə verilən bu korpusda müəllim və tələbələr üçün hər cür şərait yaradılmışdır. Yeni tədris korpusunun təntənəli açılış mərasimində çıxış edən möhtərəm Prezident İlham Əliyev demişdir: «Mən bu gün çox şadam ki, Bakı Dövlət Universiteti təzə korpusunun açılışı ilə tələbələrə və müəllimlərə yeni şərait yaradır...» Cənab Prezidentimiz bu gözəl gün münasibəti ilə universitetin bütün kollektivini ürəkdən təbrik etdi. Bu, universitet kollektivi üçün böyük fəxrdir və fəaliyyətimizə verilən dəyərli qiymətdir.

Respublikamızın dövlət büdcəsində ciddi gərginlik olduğu bir zamanda böyük çətinliklə də olsa, Abel Məhərrəmov rektorluğa başladığı ilk günlərdən universitetin yarımçıq qalmış (ancaq tədris korpusunun bünövrəsi qoyulmuşdu) yeni tədris korpusunun tikintisini davam etdirməyə müvəffəq oldu. İndi 10 mərtəbədən 250 otaqdan, 13500 kv metr sahədən ibarət olan bu korpusun tikintisi başa çatdırılmışdır. Tələbələrə və professor-müəllim heyətinə xidmət etmək üçün yeni binada 300 m^2 sahədə poliklinika və 350 m^2 sahədə yeməkxana yerləşir ki, bu da müasir dünya standartlarına cavab verir. Bu bina universitetin 90 illiyinə dövlətimizin böyük hədiyyəsidir.

Bakı Dövlət Universitetinin tarixinə intibah dövrü kimi daxil olan son on ildə bütün sahələrdə onilliklərə bərabər böyük inkişaf baş vermişdir. Bu inkişafı daha dəqiq və hərtərəfli göstərmək üçün rəqəmlərə müraciət edək: Fakültələrin miqdarı 1999-cu ildə 15, 2008-ci ildə 16; kafedraların miqdarı 1999-cu ildə 113, 2008-ci ildə 125; ixtisasların miqdarı (kadr hazırlığı) 1999-cu ildə 50, 2008-ci ildə 55; tədris laboratoryalarının miqdarı 1999-cu ildə 70, 2008-ci ildə 73; tələbələrin sayı 1999-cu ildə 14.000-ə yaxın, 2008-ci ildə 17081nəfər; professor-müəllim heyəti 1999-cu ildə 1287, 2008-ci ildə 1317 nəfər (onlardan elmlər doktoru, professor 1999-cu ildə 213, 2008-ci ildə 242 nəfər, elmlər namizədi, dosentlər 1999-cu ildə 700, 2008-ci ildə 745 nəfər) olmuşdur.

1999-cu ildə universitetdə 8 akademik və AMEA-nın müxbir üzvü işləyirdisə, 2008-ci ildə 10 akademik və 14 müxbir üzv fəaliyyət göstərir.

Universitetin son on illik fəaliyyətində diqqətəlayiq işlərdən biri də müasir dövrün tələblərinə cavab verən nəşriyyat işinin təşkili olmuşdur. Universitetin nəşriyyatına ikinci tədris korpusunda 1500 kv.metrlik sahəsi olan bina ayrılmış, nəşriyyat üçün 1 milyon 500 min ABŞ dolları qiymətində yeni mətbəə avadanlığı, çap maşınları, elektron cihazlar və digər müasir çap texnikası alınmışdır.

Universitetin büdcəsindən dərsliklər, dərs vəsaitləri, metodiki göstərişlər, fənn proqramları çap etmək üçün müntəzəm olaraq vəsait ayrılmışdır. Son on ildə universitet nəşriyyatında min ada yaxın dərslik, dərs vəsaiti, metodiki göstəriş, monoqrafiyalar, fənn proqramları və s. çap edilməsi universitetin çox böyük nailiyyətidir. Universitet nəşriyyatında çap edilən dərsliklərin, demək olar ki, əksəriyyəti universitet alimləri tərəfindən müstəqillik illərində yazılan orijinal dərsliklərdir.

Beləliklə, müstəqillik illərində böyük inkişaf yolu keçmiş Bakı Dövlət Universiteti təkcə respublikamızda deyil, respublikamızdan çox-çox uzaqlarda, dünyanın inkişaf etmiş ölkələrin də böyük ad-san, şöhrət, qazanmış, dünya universitetləri içərisində özünəlayiq yer tutmuşdur.

Son on ildə Bakı Dövlət Universitetinin rektoru, akademik A.M.Məhərrəmovun xidmətləri dövlətimiz, respublikanın elm və təhsil ictimaiyyəti, xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Abel Məhərrəmovun xidmətləri universiteti ucaltdığı kimi universitetin nailiyyətləri də Abel Məhərrəmovu ucaltmışdır. Abel Məhərrəmov 11 fevral 2000-ci ildə kimya elmi sahəsində əldə etdiyi böyük nailiyyətlərə görə Prezident H.Əlievin fərmanı ilə «Azərbaycan Respublikasının Əməkdar elm xadimi» fəxri adına, 10 iyun 2000-ci ildə Tehranda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının qızıl medalına layiq görülmüşdür. A.Məhərrəmov 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

A.M.Məhərrəmov 2002-2004-cü illərdə Qara Dəniz Hövzəsi Ölkələri Universitetləri Assosiasiyasının Prezidenti olmuş, 2004-cü ildən isə vitse-Prezidentidir.

A.M.Məhərrəmov elm və təhsil sahəsində göstərdiyi təşəbbüskarlığa, milli təhsilin inkişafı və beynəlxalq təhsil məkanında inteqrasiya proseslərinə verdiyi töhfələrə görə 2004-cü ildə Rumıniya Respublikasının ali dərəcəli «Komandoz» ordeninə layiq görülmüşdür.

2008-ci ildə akademik Abel Məhərrəmov Avropanın aparıcı elm və təhsil mərkəzlərindən biri sayılan Rumıniya Respublikasının Konstansa şəhərində yerləşən Ovidus Universitetinin Fəxri doktoru seçilmişdir.

A.M.Məhərrəmov 2005-ci ildən Azərbaycan Respublikasının Milli Məclisinə millət vəkilidir.

2007-ci ildə A.M.Məhərrəmov AMEA-nın həqiqi üzvü seçilmişdir.

Prof. A.M.Məhərrəmov dəfələrlə bir sıra beynəlxalq elmi konfranslarda və simpoziumlarda, o cümlədən ABŞ, Türkiyə, Yaponiya, İtaliya, Rusiya, İran, Bolqarıstan, Macarıstan və b. ölkələrdə maraqlı elmi məruzələrlə çıxışlar

etmişdir.

A.M.Məhərrəmov bir çox ixtiraların, elmi kəşflərin və beynəlxalq patentlərin müəllifidir. A.M.Məhərrəmov 33 müəlliflik şəhadətnaməsinin, 8 monoqrafiyanın, 37 dərslik və dərs vəsaitinin, o cümlədən Azərbaycan dilində ilk dəfə nəşr olunmuş «Kiçik kimya ensiklopediyası»nın həmmüəlliflərindən biri, həmçinin Azərbaycanda və xarici jurnallarda nəşr olunmuş 600-ə qədər elmi əsərin müəllifidir.

Akademik A.M.Məhərrəmovun rəhbərliyi altında 21 kimya elmləri doktoru və namizədi hazırlanmışdır.

Hazırda Bakı Dövlət Universitetində 16 fakültə, 121 kafedra, 2 elmi tədqiqat institutu, 4 elmi tədqiqat mərkəzi, 1 elmi tədqiqat hissəsi, 20 elmi tədqiqat laboratoriyası fəaliyyət göstərir. Bu struktur bölmələrdə 2897 nəfər əməkdaş çalışır.

Universitetin professor-müəllimlərindən 300 nəfəri elmlər doktoru, 900 nəfərə qədəri elmlər namizədidir. Müəllimlərin 217 nəfəri professor, 530 nəfəri dosent, 318 nəfəri baş müəllim, 214 nəfəri müəllim, 16 nəfəri isə assistent vəzifəsini tutur. professor-müəllim heyətinin tərkibində 8 nəfər AMEA-nın həqiqi üzvü, 16 nəfər müxbir üzvü, 18 nəfər Azərbaycan Respublikasının Əməkdar elm xadimi, 20 nəfər digər fəxri adlara layiq görülmüş şəxslər, 40 nəfər orden və medallarla təltif edilmiş əməkdaşlar vardır. Həmçinin universitet əməkdaşlarından 13 nəfəri Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.

Fikrimizcə, bu rəqəmlər ötən müddət ərzində Bakı Dövlət Universitetinin elmi-pedaqoji potensialının inkişaf dinamikasını aydın şəkildə göstərir və kollektivimiz bu böyük nailiyyətlərlə fəxr edə bilər.

Bakı Dövlət Universitetinin Azərbaycan təhsilinin inkişafında böyük müvəffəqiyyətləri olduğu kimi, Azərbaycan elminin inkşafına da mühüm töhfələr vermişdir.

Müstəqillik illərində Bakı Dövlət Universitetinin maddi-texniki bazasının möhkəmləndirilməsi, tədris prosesinin yenidən qurulması, tədrisin keyfiyyətinin daha da yüksəldilməsi ilə yanaşı olaraq o, respublikamızda elmin inkişafında mühüm və həlledici rol oynamış, aparılan elmi tədqiqatların həcminə və nəticələrinə görə öncül yerlərədn birini tutmaqla beynəlxalq aləmdədə xüsusi nüfuz qazanmışdır.

Universitet kollektivinin son on ildə elmi tədqiqat işini təşkili, əldə etdiyi böyük elmi uğurlar və kəşflər deyilənləri bird aha təsdiq edir. Hazırda Bakı Dövlət Universitetinin bütün fakültə, kafedra və digər elmi tədqiqat qurumlarında təbiət və humanitar elmlərin aktual problemlərinə dair respublikamızın elm, təhsil, mədəniyyət və xalq təsərrüfatının müxtəlif sahələrini əhatə edən, mühüm nəzəri və təcrübi əhəmiyyət kəsb edən elmi tədqiqat işləri aparılır. Bakı Dövlət Universitetində aparılan elmi tədqiqat işləri öz aktuallığı ilə yanaşı geniş istiqamətləri ilə də fərqlənir. Məsələn, son ildə 81 istiqaməti əhatə edən 230 mövzuda 1160 elmi iş yerinə yetirilmişdir.

Bakı Dövlət Universitetində təbiət və humanitar elmlər üzrə aparılan elmi işlər böyük elmi-nəzəri və praktik əhəmiyyət kəsb etdiyindən onların bir çoxu AMEA-nın elmi hesabatına mühüm elmi nəticə kimi daxil olur. Məhz buna görədir ik, son on ildə universitet əməkdaşları 85 ixtiraya patent ala bilmişdir.

Universitetdə elmi tədqiqat işlərinin nəticələri rektor, akademik Abel Məhərrəmovun ciddi səyi nəticəsində təkmilləşmiş, 4 serya üzrə "Bakı Dövlət Universitetinin Xəbərləri"nin nəşri işi qaydaya salınmışdır. Bununla yanaşı universitetin ayrı-ayrı fakültələrinin müxtəlif elm sahələrinə dair nəşr etdirdiyi 10 elmi-nəzəri və metodik jurnallar da xüsusi əhəmiyyət kəsb edir.

Respublikamızda elmi-pedaqoji kadrların hazırlanmasında Bakı Dövlət Universitetinin xüsusi yeri vardır. Böyük həyati əhəmiyyət kəsb edən bu işə universitet hələ XX əsrin 20-ci illərindən başlamış, sonralar bu prosesi davam etdirmiş, müstəqillik illərində isə onu daha da intensivləşdirmişdir. Universitetdə elmi-pedaqoji kadrların hazırlanması aspirantura, dissertantura və doktorantura yolu ilə həyata keçirilir. Hazırda Bakı Dövlət Universitetinin əyani və qiyabi şöbələrində 60-dan artıq ixtisas üzrə 200-ə yaxın aspirant, 85 ixtisas üzrə 429 nəfər dissertant təhsil alır.

Elmi-pedaqoji kadrların hazırlanması sahəsində hələ 1997-ci ildən fəaliyyətə başalayan magistratura şöbəsi də mühüm əhəmiyyət kəsb edir. Hazırda Bakı Dövlət Universitetinin magistratura pilləsində 33 istiqamət, 156 ixtiasalaşma üzrə 1200-dən artıq magistrant təhsil alır ki, onların da 40 nəfəri xarici vətəndaşdır.Bütövlükdə Bakı Dövlət Universitetində 90 il ərzində 80 tələbə buraxılışı olmuş, xalq təsərrüfatının, elm, mədəniyyət və təhsilin müxtəlif sahələri üzrə 120 mindən artıq yüksək ixtisaslı kadr hazırlanmışdır.

Bakı Dövlət Universitetinin 90 ildə keçdiyi inkişaf və tərəqqi yolu, əldə etdiyi böyük uğurlar bir daha təsdiq edir ki, universitet bundan sonra da Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin tərəqqi və inkişaf yolunu nurlu bir məşəl kimi işıqlandıracaqdır.

"Kitabxanaşünaslıq və biblioqrafiya"
elmi-nəzəri, metodik və təcrübi jurnalı. 2009. s. 28-47

ABUZƏR XƏLƏFOV: "SON 10 İL BDU-nun TARİXİNDƏ İNTİBAH DÖVRÜDÜR"

Bəxtiyar Vahabzadə ən sevimli müəllimim olub

Abuzər Xələfovun bir çox titulları var... BMT yanında Beynəlxalq informasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor, əməkdar elm xadimi, əməkdar mədəniyyət işçisi, kafedra müdiri, "Şöhrət" ordeni laureatı, Prezident təqaüdçüsü... Amma onun üçün ən böyük titul, ən böyük ad ölkənin baş kitabxanaçısı adidir. Bir neçə il bundan əvvəl qəzetlərdən biri onun haqqında bu sözü yazıb və bu ifadə onun olduqca xoşuna gəlib.

Beləliklə, müsahibimiz ölkənin baş kitabxanaçısı Abuzər Xələfovdur.

- Abuzər müəllim hazırda universitetin 90 illiyi ilə bağlı hansı işlər görülür?

- Əvvəlcə, mən sizə təşəkkür eləyirəm ki, Bakı Dövlət Universiteti haqqında yazı hazırlayırsınız. Universitet haqqında danışmaq mənim üçün çox xoşdur. 2009-cu ilin oktyabrında BDU-nun 90 illiyi xalqımız tərəfindən təntənəli surətdə qeyd olunacaq. Bu barədə möhtərəm Prezidentimiz İlham Əliyevin xüsusi sərəncamı olmuşdur. Bu sərəncamda BDU-nun xalqımız və dövlətimiz qarşısında olan böyük xidmətləri xüsusi qeyd olunmuş və Təhsil Nazirliyinə universitetin 90 illiyini qeyd etmək üçün tədbirləri planı hazırlayıb həyata keçirmək tapşırılmışdır. Mən Prezidentin bu sərəncamını BDU-nun qocaman alimi kimi yüksək qiymətləndirirəm. İnşallah, bu ilin payızında bütün xalqımız BDU-nun təntənəli yubiley tədbirlərinin şahidi və iştirakçısı olacaq.

BDU 1919-cu ilin sentyabrında Şərqdə ilk demokratik Respublika olan Azərbaycan Xalq Cümhurriyyəti tərəfindən təsis edilmişdir. Bu mənada universitet Azərbaycan Xalq Cümhuriyyətinin yadındadır. Bu məsələdən danışan ulu öndər Heydər Əliyev BDU-nun yaranması tarixini çox yüksək qiymətləndirmiş və demişdir ki, Bakı Dövlət Unuversiteti Azərbaycan xalqının milli sərvətidir. Bu fikri BDU-ya verilmiş ən yüksək qiymət hesab edirəm. Eyni zamanda Heydər Əliyev BDU-nun məzmunu olması ilə fəxr etdiyini bildirmişdir. O, universitetlə əlaqə saxlamış, ona hər zaman kömək etmişdir. Mən yada salıram BDU-nun 50 illik yubileyini – o zaman Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1-ci katibi idi və 50 illiyi qeyd edən komissiyanın sədri idi. Universitetin 50 illik təntənəsi indiki Şəhriyar adına klubda keçirildi. Heydər Əliyev orada məzmunlu bir məruzə ilə çıxış elədi. Bu məruzə Azərbaycanda, SSRİ məkanında və mən deyərdim ki, bütün dünyada sensasiyaya səbəb oldu. Çünki ilk dəfə idi ki, birinci katib Azərbaycan dilində çıxış edirdi. Mən o yubileyin iştirakçılarından biriyəm. Biz gözləyirdik ki, Heydər Əliyev tribunaya çıxanda deyəcək: "Tovarişi"- amma biz eşitdik: "Yoldaşlar!" Elə bil zalın üstünə su səpildi. Hamı həyəcan və heyranlıq içində idi.

-Professor, bir neçə kəlmə də universitetin yaranması haqqında danışardınız....

- Oktyabr çevrilişindən sonra Zaqafqaziyada yeni bir hökumət yarandı və tezliklə dağıldı. Bu zaman Tiflisdə Zaqafqaziya Universiteti var idi. 1918-ci ilin əvvəllərində isə gürcülər Gürcüstan Universitetini yaratdılar. Bu zaman Zaqafqaziya Universiteti dağıldı və onun işçiləri yeni universitet açmaq üçün səy göstərdilər Həmin vaxt Azərbaycanda Xalq Cümhuriyyəti qurulmuşdu. Ermənistanda isə daşnaklar öz hökümətlərini qurmuşdu. Belə bir şəraitdə dağılmış universitetin harada bərpa olunması mübahisələrə səbəb oldu. Ermənilər bunu İrəvana aparmaq istəyirdilər. Xalq Cümhuriyyəti isə o vaxtkı

rektor Razumovskiyə teleqram vurdu ki, universiteti Bakıya gətirsin. O vaxt bir komissiya yaratdılar, gördülər ki, Bakıdakı şərait daha yaxşıdır, İrəvanda belə bir şərait yoxdur. Nəhayət, razılıq olandan sonra bu məsələni Parlamentin iclasında müzakirəyə çıxardılar.

Razumovski yazır ki, bu müzakirə 8 saat çəkdi. Burada universitetin tərəfdarları da var idi, əleyhdarları da. Universitetin tərəfdarları deyirdi ki, bütün xalqların universiteti var, qoy bizim də olsun, əleyhdarları isə deyirdilər ki, bizə rus dilində universitet lazım deyil. Bizim dərs deməyə kadrımız yoxdur, biz öz uşaqlarımızı göndərək İstambula, Almaniyaya və s. qoy orada oxusunlar. Amma o zaman proqressiv qüvvələr qalıb gəldilər və parlament universitetin açılmasına səs verdi. Razumovski yazır ki, parlamentin qərarından sonar biz iştirakçıların sevinc içində göz yaşlarını gördük. 1919-cu ilin 15 oktyabrında ilk dərslər başladı. Bütün tələbələr ocnəbilər idi. Professor-müəllim heyətinin içərisində isə, 1-2 nəfər Azərbaycanlı asisstent var idi. 1930-cu ildə universitetin 10 illiyi qeyd olundu, universitet ordenlə mükafatlandırıldı, hökümətin təbrikləri oxundu.

Cəmi 2 ay sonra isə universitetin bağlanması haqqında qərar qəbul edildi. Başa düşmək olmadı ki, bu niyə bağlandı. Bizim tarixçilərin də bu barədə yekdil bir fikri yoxdur. O zaman belə arqument gətirirdilər ki, Azərbaycanda yeni ali məktəblər açmaq lazımdır, bunu etmək üçünsə maddi-texniki baza və kadr potensialı yoxdur, ona görə bu iş universitetin bazası əsasında həyata keçirilməlidir. Universitetin ayrı-ayrı fakültələrini institutlara çevirdilər. Hüquq fakültəsi Hüquq institutuna, iqtisadiyyat fakültəsi İqtisadiyyat institutuna və s.

Ancaq mən universitet kitabxanasının tarixini işləyərkən bu məsələ haqqında öz fikrimi bildirmişəm. O zaman müttəfiq respublikalarda olan universitetlər böyük bir milli oyanış mərkəzlərinə çevrilmişdi. Bu isə yuxarıları narahat edirdi. Bu mərkəzləri dağıtmaq lazım idi. Bu adla respublikalarda olan universitetləri ləğv elədilər. Mən sual verirəm: "Bu yeni inistutlar açamaq üçün edilirdisə, onda niyə Moskva Universiteti, Peterburq, Minsk universitetləri ləğv olunmadı?" Burada ancaq yuxarıda dediyim məqsəd ola bilərdi. Lakin bütün bunlara baxmayaraq universitet 1934-cü ildə yenidən bərpa olundu.

-Abuzər müəllim, müəllimlərinizi necə xatırlayırsınız?

- Mənim unudulmaz müəllimlərim olub. Mir Cəlal Paşayev, Məmməd Arif Dadaşzadə, Məmməd Cəfər Cəfərov, elmi rəhbərim akademik Zülfəli İbrahimov... Müəllimlə Romadam iki nəfər yaşayırdı, onlardan biri bu yaxınlarda rəhmətə gedən Bəxtiyar Vahabzadə idi. Bəxtiyar Vahabzadə mənim ən sevimli müəllimim olub və o mənim xətrimi çox istəyirdi. 2 il mənə dərs deyib. Həyatda olan yeganə müəllimim isə Pənah Xəlilovdur. Mən bu gün bütün müəllimlərimin ruhu qarşısında baş əyirəm. Onlar hər şeydən əvvəl mənə nəfsimi saxlamağı öyrətdilər. Mən çalışıram ki, onlara oxşayam. Necə ki, onlar mənə kənddən gəlmiş kimsəsiz bir uşağa hörmət elədilər, məni bu günkü səviyyəyə gətirdilər, mən də çalışıram ki, tələbələrimə bu cür yanaşım.

-60 ildir ki, universitetdəsiniz, neçə rektorla işləmisiniz?

- 13 rektorla işləmişəm, bütün rektorlar da mənə böyük hörmətlə yanaşıblar. Mən belə hesab edirəm ki, bu hörmətli şəxsiyyətimlə qazanmışam. Mən heç bir zaman millətimə, xalqıma, müəllim adıma xəyanət eləməmişəm, sevimli tələbələrimə qarşı kobud münasibət göstərməmişəm və bütün bunlar məni tanıyan bütün insanlar kimi çalışdığım rektorlar tərəfindən də yüksək qiymətləndirilib.

- Abuzər müəllim, siz BDU-nun Kitabxanaçılıq-İnformasiya fakültəsinin yaradıcısı və ilk dekanı olmusunuz. Yaradıcısı olduğunuz fakültə bu gün universitetin həyatında hansı şəkildə iştirak edir?

- Kitabxanaçılıq fakültəsi 1947-48-ci tədris ilində filologiya fakültəsinin yanında şöbə kimi fəaliyyətə başlamışdır. Şöbənin yaranması haqqında olan qərarda yazılmışdı ki, bu şöbə gələcəkdə ayrıca fakültəyə çevrilsin. Mən bu şöbəyə daxil olan ilk tələbələrdənəm. 1950-ci ildə buraya daxil olmuşam. 55-ci ildə qurtarmışam, elmi və ictimai fəaliyyətimə görə universitetdə müəllim saxlanılmışam. 1962-ci ildə şöbə fakültəyə çevrildi və mən ilk dekan oldum. 1961-ci ildə mən Azərbaycanda ilk dəfə olaraq kitabxana işinin tarixi mövzusunda namizədlik dissertasiyası müdafiə edərək alimlik dərəcəsi aldım. Mənim bu tədqiqatlarım əsasında Azərbaycanda kitabxanaşünaslıq elminin bünövrəsi qoyuldu. 70-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə fakültəyə qəbulun sayı artırıldı, fakültəyə müsabiqədənkənar yerlər verilməyə başladı. Əlbəttə ki, bütün bunlar bizim inkişafımızla nəticələndi.

Son illərdə isə nailiyyətlərimiz daha böyükdür. Biz Azərbaycançılıq fəlsəfəsini özündə ehtiva edən yeni dərsliklər, proqramlar hazırlamışıq. Fakültənin adı informasiya dövrünün tələblərinə uyğun olaraq dəyişilərək Kitabxanaçılıq-İnformasiya adlandırılıb. Mən fakültəmizin müstəqillik dövründə ən böyük nailiyyətlərindən birini isə, onun tərkibində kitabın redaktə, çap yayım və s. kimi ciddi problemləri ilə məşğul olan, bu sahələrdə kadr hazırlayan Kitabxanaşünaslıq və Nəşriyyat işi kafedrasının yaradılmasını hesab edirəm.

- Abuzər müəllim, bir qədər də Universitetdə son illər aparılan quruculuq işləri, islahatlar, Boloniya prosesinə keçid barədə məlumat verərdiniz...

Universitetin son 10 ildəki fəaliyyəti haqqında mən deyərdim ki, o 1 əsrə bərabərdir, bu dövr universitetin tarixində intibah dövrüdür, onun və onun timsalında bütünlüklə Azərbaycan təhsilinin, elminin dünya miqyasında tanınması mərhələsidir. Bu mərhələ universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi, kadr potensialının gücləndirilməsi, yeni labaratoriyaların açılması ilə səciyyələnir. Bu illərdə universitetdə yeni idman kompleksi, stadion tikildi, yeni korpus istifadəyə verildi. BDU-nu bu səviyyəyə gətirilib çatdıran hörmətli rektorumuz akademik Abel Məhərrəmovdur. Onun universitetə gətirdiyi yeniliklər əvəzedilməzdir. Bu gün BDU-da təhsil təkmilləşib. Burada aparılan bütün islahatlar, Boloniya prosesinə keçid bilavasitə tədrisin keyfiyyətinin yüksədilməsinə yönəlmişdir. Cənab Prezidentin BDU-ya olan qayğısı isə onun nüfuzunu daha da artırmışdır. Möhtərəm Prezidentimiz bu yaxınlarda universitetin yeni korpusunun açılışında şəxsən iştirak etdi və BDU-nu ölkənin ən

nüfuzlu ali məktəbi adlandırdı.

- Sonuncu sualımız mövzudan kənar olsa da, bu sualın tərəfinizdən cavablandırılması bizim üçün çox maraqlıdır. Abuzər müəllim, siz qədim yurd yerimiz olan və Azərbaycana bir sıra görkəmli insanlar bəxş edən Göyçə mahalının yetirməsiniz. O yurdlara dönmək ümidiniz varmı?

- Bilirsiz, insan ümidsiz yaşaya bilməz. Şəxsən mənim buna böyük ümidim var. Hesab edirəm ki, mən olmasam da, mənim övladlarım, nəvələrim o torpağa qayıdacaqlar və bu qayıdış əbədi olacaq. Tarixdə 10 il, 15 il çox qısa mərhələdir və mən bir tarixçi kimi də bu məsələdə ümidiyəm. Gec-tez biz o torpaqlara qayıdacağıq, mütləq qayıdacağıq!

"Bizim söz" qəzeti, 4 iyun 2009.

BAKI DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCAN XALQININ MİLLİ SƏRVƏTİ, İFTİXARIDIR

Mən universitetin uğurlarında 90 ildə ona rəhbərlik etmiş rektorların xidmətlərini xüsusi qeyd etmək istərdim. Bakı Dövlət Universiteti fəaliyyət göstərdiyi bu illərdə ona 24 rektor rəhbərlik etmişdir. Bütün dünyada klassik universitet rektoru olmaq ən şərəfli peşə hesab edilmiş, dünyanın qabaqcıl ölkələrində onlara ən görkəmli alimlər, elm və təhsil təşkilatları, cəmiyyət tərəfindən qəbul edilən, xalq tərəfindən tanınan ziyalılar başçılıq etmişlər. 90 ildə Bakı Dövlət Universitetinə rəhbərlik etmiş rektorların sırası ilə tanış olduqda, onların həyat yolunu, elmi fəaliyyətini araşdırdıqda məlum olur ki, bu insanların böyük əksəriyyəti Azərbaycan xalqının sayılıb – seçilən korifeyləri olmuşlar. Universitetin ilk rektoru həyatını təhsilə, elmə, mədəniyyətə həsr edən çox görkəmli rus alimi, tibb doktoru, RSFSR-in əməkdar elm xadimi, Rusiyada müstəqil cərrahlıq məktəbinin yaradıcısı Vasili İvanoviç Razumovski olmuşdur. O, Bakı Dövlət Universitetini Avropa ilə Asiyanın qovşağında yanan məşəl adlandırmışdır. Ali məktəbin ilk azərbaycanlı rektoru isə Tağı Şahbazi olmuş, bu görkəmli ziyalı 1937-ci ilin repressiyaları zamanı güllələnmişdir.

Ötən əsrin 30-80-ci illərində M. Məmmədov, Məmməd Ələkbərli, Əziz Əliyev, A. Qarayev, Cəfər Xəndan, Yusif Məmmədəliyev, Şəfayət Mehdiyev, Faiq Bağırzadə universitetə ardıcıllıqla başçılıq etmişlər. Müstəqillik illərində görkəmli elm və dövlət xadimləri Murtuz Ələsgərov, Misir Mərdanov rəhbərlik etmişlər. 1999-cu ildə Heydər Əliyevin sərəncamı ilə rektor təyin olunmuş əməkdar elm xadimi. Akademik Abel Məhərrəmov böyük təşkilatçı və istedadlı alim kimi universitetin inkişafına bu gün də böyük töhfələrini verir.

"Azərbaycan" qəzeti, 25 sentyabr 2009

ƏNƏNƏLƏRİ YAŞADAN MƏBƏDGAH

Bu il ilk elm və təhsil məbədgahı olan Bakı Dövlət Universitetinin yaradılmasından 90 il keçir. Ölkə Prezidenti İlham Əliyev təhsil ocağının şanlı yubileyinin dövlət səviyyəsində qeyd olunması üçün 24 aprel 2009-cu il tarixli sərəncam imzalamışdır. Sərəncamda deyilir: \"Bakı Dövlət Universiteti müsəlman Şərqində ilk Avropa tipli ali məktəb kimi yarandığı vaxtdan bəri ötən müddət ərzində ölkəmizdə ali təhsilin və elmin tərəqqisi naminə əvəzsiz xidmətlər göstərmişdir. Yüksək ixtisaslı milli kadrların hazırlanması, yeni-yeni elmi istiqamətlərin formalaşdırılması, dünya təhsil məkanına inteqrasiya, eləcə də mədəni-mənəvi dəyərlərimizin yaşadılması istiqamətində universitet üzərinə düşən vəzifələrin öhdəsindən həmişə layiqincə gəlir". Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin xalqımıza böyük yadigarıdır. 1919-cu il sentyabrın 1-də Cümhuriyyət parlamenti Bakıda Dövlət Universitetinin təsis edilməsi haqqında qanun qəbul etmişdi. Bu qərarı səbirsizliklə gözləyən universitetin ilk rektoru V.İ.Razumovski yazmışdı: "Azərbaycan öz maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovşağında yeni məşəl yandı. Bu böyük tarixi hadisənin şahidləri kimi biz özümüzü xoşbəxt hesab edirdik". Parlamentin qəbul etdiyi qanunda dörd fakültədən - Şərq şöbəsi olan tarix-filologiya, fizika-riyaziyyat,. hüquq və tibb fakültələrindən ibarət Bakı Universitetinin təsis edilməsi göstərilmişdi. Həmçinin universitetin maddi-texniki bazasının yaradılması və fəaliyyətinin davam etdirilməsi üçün 15 milyona yaxın vəsait ayrılmışdı. 1919-cu il noyabrın 15-i birinci dərs günü kimi qərarlaşdırılmışdı. 1920-ci ildə Azərbaycanda Sovet hökuməti qurulduqdan sonra universitetin strukturunda bir sıra islahatlar aparılmışdı. 1922-ci ildə ali məktəbin adı dəyişdirilərək Azərbaycan Dövlət Universiteti qoyulmuş, 1924-cü ildə isə V.İ.Leninin adı verilmişdi. 15 noyabr 1919-cu ildən sistemli tədris fəaliyyətinə başlayan universitet birinci kurslara qəbulu aparmaqla öz tələbə korpusunu yaratmağa müvəffəq olmuşdu. Tələbələr sırasında abituriyentlərdən 297 nəfərin azərbaycanlı olması uğurlu başlanğıc idi.

1920-21-ci tədris ilində universitet özünün üçüncü, fizika-riyaziyyat fakültəsini yaratmışdı. Fakültənin yaranması ali məktəbin tədris və elmi potensialını daha da gücləndirmişdi, yeni qüvvələrin gəlməsinə səbəb olmuşdu. 1922-ci ildə şərqşünaslıq fakültəsi fəaliyyətə başlamışdı.

Dövrün tələbinə müvafiq olaraq 1923-cü ildə tarix-filologiya fakültəsi yenidən təşkil edilmişdi. Fakültənin dil-ədəbiyyat, tarix-ictimai elmlər və hüquq şöbələri xeyli genişləndməklə onların qəbulu artırılmışdı.

Ötən əsrin 20-ci illərində respublikada xalq təhsilinin inkişafı ilə əlaqədar müəllim kadrlara böyük tələbat əmələ gəlmişdi. Bu məqsədlə 1924-cü ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat və ictimai elmlər fakültəsinin bazasında üç - riyaziyyat, təbiət, ictimai elmlər şöbələrindən ibarət pedaqoji fakültə yaradıldı. Həmçinin 1929-cu ildə universitetin nəzdində

Azərbaycan və rus bölməsi olan qiyabi pedaqoji fakültələr fəaliyyətə başlamışdı. 1928-1929-cu tədris ilində hüquq fakültəsi yaradılmışdı. Bütün bunlarla yanaşı, BDU-nun nəzdində 1920-ci ildə təşkil edilmiş fəhlə fakültəsi də fəaliyyət göstərmişdi. Fəhlə fakültəsinə bilavasitə istehsalatda çalışmış gənclər qəbul edilirdi. Universitetin rəhbərliyi fəhlə fakültəsinin genişlənməsinə və orada tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə xüsusi əhəmiyyət vermişdi. Bu fakültəni müvəffəqiyyətlə bitirənlər universitetin tələbələri sırasına qəbul edilmişdilər. Birinci onilliklə təhsil ocağında ən mühüm yeri yüksək ixtisaslı mütəxəssis kadrların hazırlanması tutmuşdur. Əgər 1919-20-ci tədris ilində ali məktəbə 1094 tələbə qəbul edilmişdisə, onların sayı 1928-1929-cu ildə 1925-ə çatmışdı. Universitetin ilk buraxılışı 1922-ci ildə olmuşdu. Tibb fakültəsini 30 nəfər bitirmişdi ki, bunun da ancaq 10 faizi azərbaycanlı idi. 1929-cu ildə isə 1154 məzunun 18 faizindən çoxu azərbaycanlılar idi. On ildə universitetdə tələbə qəbulunun artımı ilə yanaşı professor-müəllim heyətinin tərkibi də həm kəmiyyət, həm də keyfiyyətcə dəyişmişdi. Azərbaycanlı müəllimlərin sayı müntəzəm olaraq artmışdı. Çətinliklərə baxmayaraq, 10 il ərzində BDU-da xalq təsərrüfatının, elm, təhsil və mədəniyyətin müxtəlif sahələri üçün 1500-dən artıq kadr hazırlanmışdı. 1921-ci ildən "Bakı Universitetinin Xəbərləri" nəşrə başlamışdı. "Xəbərlər"in dörd - təbiətşünaslıq və tibb, ictimai elmlər, şərqşünaslıq və hüquq şöbələri var idi. 1924-cü ildə təhsil ocağı, həmçinin, özünün ikinci nəzəri orqanı olan "Tibbin nəzəri praktiki jurnalı"nın nəşrinə başlamışdı. Universitet özünün birinci onilliyində 500 çap vərəqi həcmində kitab, jurnal və salnamə buraxmışdı. Elmi əsərlərdən başqa, 1923-1939-cu illərdə çox qiymətli elmi kitablar nəşr olunmuşdu.

Universitetin 20-ci illərdə əldə etdiyi nailiyyətlərdə universitet rektorlarının fəaliyyəti də mühüm əhəmiyyət kəsb etmişdir. İlk azərbaycanlı rektor Tağı Şahbazi (1926-1929) və Maqsud Məmmədov (1929-1930) belə fədakar insanlardan olmuşlar.

1920-ci ildə universitet nəşriyyatının yaranması və onun gələcək fəaliyyəti respublikada elmi və tədris ədəbiyyatının təşəkkül tapıb formalaşmasında və fənn proqramlarının, metodik göstərişlərin nəşrində mühüm rol oynamışdır. 20-ci illərdə BDU-nun əldə etdiyi elmi mədəni nailiyyətlərdən biri də onun zəngin, nadir kitab fonduna malik elmi kitabxanasının yaranması idi. Kitabxananı təşkil etmək üçün bina və 3 milyon manat vəsait ayrılmışdı. Universitetin fəaliyyətinə böyük qiymət verən Azərbaycan hökuməti təhsil ocağının 10 illik yubileyinin qeyd olunması haqqında qərar qəbul etmişdi. Yubiley 1930-cu il yanvarın 12-də Bakı Opera və Balet Teatrında keçirilmişdi. Universitetin bir çox əməkdaşları yüksək dövlət mükafatlarına layiq görülmüşlər.

Ancaq çox təəssüflə qeyd etmək lazımdır ki, Avropa və Asiyanın qovşağında məşəl kimi parlayan bu elm və təhsil məbədgahı öz inkişafının çiçəkləndiyi dövrdə Moskvanın göstərişi ilə 1930-cu il iyunun 19-da Azərbaycan Xalq Komissarları Sovetinin qərarı ilə fəaliyyətini dayandırmış, onun fakültələri ayrı-ayrı institutlara çevrilmişdi. Əmlakı və 100 min nüsxədən artıq kitab

fondu olan kitabxanası da yeni yaradılan institutlar arasında bölüşdürülmüşdü.

Respublikamızda universitetin ləğv edilməsinin səhv olması tezliklə ölkənin elm, təhsil və mədəni həyatında özünü göstərməyə başlamışdı. Ona görə də, Azərbaycan SSR Xalq Komissarları Soveti 1934-cü ilin mayında universitetin yenidən təşkili haqqında qərar qəbul etmişdi. Beləliklə, 1934-cü ilin sentyabrından BDU-nun fəaliyyəti bərpa edilmişdi. Keçmiş Kommunist, indiki İstiqlal küçəsində 6 saylı binanın yarısı universitetə verilmişdi. Artıq 1935-ci ildə burada 4 fakültə, 13 kafedra fəaliyyət göstərirdi.

1939-cu ildə professor-müəllim heyətinin sayı 226 nəfərə çatmışdı. Bunlardan 17 nəfəri elmlər doktoru, 54 nəfəri elmlər namizədi, dosent idi. Universitetdə son beş ildə 500-ə yaxın yüksək ixtisaslı kadr hazırlanmışdı. BDU-nun tarixini izləyərkən və onun fəaliyyətini araşdırarkən 1920-1944-cü illərdə universitetə başçılıq etmiş V.İ.Razumovskinin (1919-1920), .V.Davidenkonun (1920-1923), A.D.Qulyayevin (1923-1926), T.A.Şahbazinin (1926-1929), V.S.Yelipotevskinin (1929), M.Q.Məmmədovun (1929-1930), K.M.Ələkbərlinin (1934-1935), Ə.Ə.Əliyevin (1937), C.A.Ələsgərovun (1937-1941), Ş.R.Əliyevin (1941-1944) böyük xidmətləri göz önünə gəlir. Onlar öz dövrlərinin görkəmli elm və təhsil xadimləri, təşkilatçıları olmaqla yanaşı, həm də vətənpərvər ziyalıları idi. Məhz ona görə xalqımız, universitetin professor-müəllim heyəti, tələbələri və məzunları bu insanların əziz xatirəsini həmişə uca tutur.

Bakı Dövlət Universiteti və onun kollektivi 1941-1945-ci illər müharibəsində ölkədə yaranmış çox çətin və mürəkkəb şəraitdə belə öz fəaliyyətini davam etdirmişdi. 1941-ci ilin 22 iyununda universitetin böyük akt zalında izdihamlı mitinq keçirilmişdi. Mitinqdə çıxış edən professor-müəllimlər və tələbələr ölkənin müdafiəsinə qalxmağı, bütün qüvvələrini faşistlər üzərində qələbəyə yönəldəcəklərini söyləmişdilər. Həmin il universitetin rektoru C.A.Ələsgərov, bir çox müəllim və tələbələr cəbhəyə getmişdilər. Təkcə 1941-ci ildə təhsil ocağından 1285 nəfər cəbhəyə səfərbər edilmişdi. 1941-ci ilin sentyabrında universitetin rektoru vəzifəsinə Ş.R.Əliyev təyin edilmişdi. O, 1945-ci ilin aprelinə qədər bu vəzifəni layiqincə yerinə yetirmişdi.

Müharibə illərində mövcud şəraitlə əlaqədar Azərbaycan ali məktəblərinin strukturunda böyük dəyişiklik olmuşdu. 1941-1942-ci illərdə V.İ.Lenin adına Pedaqoji İnstitut, Qiyabi Pedaqoji İnstitut, həmçinin Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu və Xarici dillər fakültəsi universitetə birləşdirilmişdi.

Beləliklə, 1943-44-cü tədris ilində BDU-da 10 fakültə - fizika-riyaziyyat, kimya, biologiya, tarix, filologiya, hüquq, iqtisadiyyat, xarici dillər, bədən tərbiyəsi, geoloji-coğrafiya fakültələri və 49 kafedra fəaliyyət göstərirdi. Müharibə illərində böyük çətinliklərə, müəllim kadrların çatışmamasına baxmayaraq, universitet kollektivi yüksək ixtisaslı kadr hazırlığı işini müvəffəqiyyətlə davam etdirmiş, 4 ildə 719 nəfər müxtəssis hazırlanmışdı.

1944-1945-ci illərdə universitetə birləşdirilmiş institutların ayrılıb müs-

təqil fəaliyyətə başlaması, onun hospitala çevrilmiş binasının özünə qaytarılması ali məktəbin işində yeni quruculuq mərhələsinin əsasını qoymuşdu. Universitetdə tədris prosesinin təşkili ilə yanaşı, elmi-tətqiqat işinin aparılmasına, aspirantura yolu ilə elmi kadrların hazırlanmasına, namizədlik və doktorluq dissertasiyalarının müdafiəsinə də xüsusi diqqət yetirilmiş, bu mühüm işlər bir an belə dayanmamışdı. 1940-1945-ci illərdə 211 aspirant təhsil almış, demək olar ki, onların böyük əksəriyyəti öz namizədlik dissertasiyasını müdafiə etmişdir. 1941-1945-ci illərdə universitetin elmi şuralarında 13 doktorluq və 118 namizədlik dissertasiyası müdafiə edilmişdir. Müharibə illərində universitetin kadr korpusu da daim təkmilləşdirilmiş, müəllimlərin sırasına xeyli cavanlar daxil olmuşlar. Artıq 1945-ci ildə universitetdə 331 müəllim çalışırdı. Bunlardan 29 nəfəri elmlər doktoru, professor, 107 nəfəri elmlər namizədi, dosent, 195 nəfəri isə müəllim idi. Bu, o dövr üçün çox böyük rəqəm sayılırdı. Müharibədən sonrakı beşillikdə Bakı Dövlət Universitetinə Azərbaycan elminin görkəmli korifeylərindən biri, fizioloq, əməkdar elm xadimi, akademik Abdulla Qarayev başçılıq etmişdir. A.Qarayev bu vəzifədə 1950-ci ilin noyabrına qədər işləmişdi. Onun rektorluğu dövründə təhsil ocağının strukturunda böyük dəyişikliklər baş vermiş, yeni fakültələr, şöbələr, kafedralar, elmi laboratoriyalar, ixtisaslar açılmışdı. 1945-1946-cı illərdə universitetin filoloji fakültəsinin nəzdində jurnalistika, 1946-1947-ci illərdə incəsənətşünaslıq, yenə həmin tədris ilində məntiq-psixologiya, kitabxanaçılıq şöbələri açılmışdı.

Beləliklə, 1946-47-ci tədris ilində universitetdə 8 fakültə - filologiya, tarix, şərqşünaslıq, geoloji-coğrafiya, hüquq, fizika-riyaziyyat, kimya və biologiya fakültələri fəaliyyət göstərirdi. Bu fakültələrdə 52 kafedra, 52 kabinet və laboratoriya, 2 muzey var idi. Təkcə 1948-49-cu tədris ilində 7 yeni kabinet və laboratoriya yaradılmışdı. 1950-ci ildə artıq burada 21 elmlər doktoru, professor və 155 elmlər namizədi işləyirdi. Professor-müəllim heyətinin sayı 316-ya çatmışdı. Qəbul planı ilbəil artmış, beş il ərzində (1946-1950) 3397 tələbə qəbul edilmiş, 1515 nəfər yüksək ixtisaslı mütəxəssis universiteti bitirmişdir. 1950-ci ildə universitetə əməkdar elm xadimi, görkəmli ədəbiyyatşünas alim Cəfər Xəndan Hacıyev rektor təyin edilmişdi. Rektor təyin edilənə qədər o, filoloji fakültənin dekanı vəzifəsində çalışmışdı. Təhsil prosesinə və universitetin elmi işlərinə yaxından bələd olan professor Cəfər Xəndan akademik A.Qarayevin işini, onun apardığı islahatları müvəffəqiyyətlə davam etdirmişdi. Respublikada müəllim kadrlara olan böyük tələbatla əlaqədar 1940-cı illərdən fəaliyyətə başlayan qiyabi şöbənin işi əsaslı şəkildə yenidən qurulmağa başlamışdı. Əgər 50-ci illərdə universitetin 4 fakültəsi - qiyabi şöbəsi var idisə, artıq 60-cı illərdə 7 fakültənin qiyabi şöbəsi fəaliyyət göstərmişdi. 50-60-cı illərdə qiyabi şöbə ilə yanaşı, axşam şöbəsi də yaradılmışdı. 1950-1960-cı illərdə təhsil ocağında 5 fakültə - şərqşünaslıq (1957), fizika (1959), iqtisadiyyat (1959), əmtəəşünaslıq (1959), kitabxanaçılıq (1962), jurnalistika (1969) fakültələri fəaliyyətə başlamışdı. Beləliklə, artıq 60-cı illərin axırlarında Bakı Dövlət Universitetində, demək olar ki, təbiət və humanitar

elmlərin mühüm sahələrini əhatə edən 12 fakültə - mexanika-riyaziyyat, fizika, kimya, biologiya, ekoloji-coğrafiya, tarix, filologiya, şərqşünaslıq, kitabxanaçılıq-informasiya, hüquq, jurnalistika, ixtisasartırma və xarici tələbələr fakültələri, həmçinin 64 kafedra, 86 laboratoriya, o cümlədən 4 problem laboratoriyası, 42 kabinet, 2 muzey var idi. Professor-müəllimlərin sayı 710 nəfərə çatmışdı. Universitetin əyani, qiyabi və axşam şöbələrində 12 mindən artıq tələbə təhsil alırdı. 1950-1960-cı illərdə universitetə xalqımızın görkəmli şəxsiyyətləri, elm və təhsil təşkilatçıları, keçmiş SSRİ məkanında və beynəlxalq aləmdə tanınan akademiklər Y.H.Məmmədəliyev və Ş.F.Mehdiyev başçılıq etmişlər. Azərbaycanın müasir tarixinə dönüş mərhələsi kimi daxil olan 60-70-ci illər Bakı Dövlət Universitetinin həyatında da əlamətdar illər olmuşdur. 1969-cu ildə Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə Azərbaycan özünün həqiqi inkişaf yolunu tapmışdı. Ötən əsrin 60-cı illərində baş verən sosial-iqtisadi böhran aradan qaldırılmışdı. Bu dövrdə respublika ali məktəblərinin bayraqdarı olan Bakı Dövlət Universiteti Heydər Əliyevin qayğısı sayəsində bir çox uğurlar əldə etmişdi. 1969-cu ildə universitetin 50 illiyi tamam olmuşdu. Azərbaycan dövlətinin qərarına müvafiq təntənəli yubiley iclası 1969-cu il noyabrın 1-də keçirilmişdi. Təntənəli iclasda yubiley komissiyasının sədri kimi Heydər Əliyev çıxış etmişdi. Bu tarixi çıxış universitetin həyatında çox əlamətdar hadisə idi. Ulu öndərin o dövrün tələblərinin əksinə olaraq Azərbaycan dilində nitqi xalqımız tərəfindən rəğbətlə qarşılanmaqla yanaşı, milli şüurun formalaşmasına, ana dilinin statusunun möhkəmlənməsinə səbəb olmuşdu.

Heydər Əliyev bu parlaq nitqində universitetin 50 ildə keçdiyi inkişaf və tərəqqi yolunu yüksək qiymətləndirmişdi. Ulu öndər bu proqram xarakterli nitqində universitet kollektivinin qarşısında elmin, təhsilin və mədəniyyətin inkişafına mühüm əhəmiyyət verməklə yüksək ixtisaslı kadrlar hazırlamaq kimi çox mühüm vəzifə qoymuşdu. 1970-1978-ci illərdə universitetə 12428 tələbə qəbul edilmiş, hər il 1200-dən artıq tələbə bitirmişdir.

Bu illərdə elmi-tədqiqat işləri də böyük vüsət almış, 1676 mövzuda elmi-tədqiqat işi yerinə yetirilmiş, 148 adda monoqrafiya, 325 adda dərslik və dərs vəsaiti, 8423 dərs vəsaiti nəşr edilmişdir. 1977-1978-ci tədris ilində 9 mərtəbəli birinci tədris korpusunun istifadəyə verilməsi nüfuzlu ali məktəbin auditoriya problemini həll etmiş, tədris prosesinin səmərəli təşkilinə səbəb olmuşdur. Universitet tələbələri üçün yataqxana şəhərciyinin salınmasına da ötən əsrin 70-ci illərində başlanmışdır. Bu dövrdə universitetə akademik Faiq Bağırzadə rəhbərlik etmişdir. O, bu vəzifədə 1970-ci ildən 1987-ci ilə qədər işləmişdir. 70-ci illərdə universitetdə 12 fakültə, 70 kafedra, 15 kabinet və laboratoriya fəaliyyət göstərmişdi. 80-ci illərin axırı, 90-cı illərin əvvəllərində respublikada baş verən proseslər, iqtisadi, siyasi və sosial böhran Bakı Dövlət Universitetində də özünü göstərmişdir. Ölkədə hökm sürən anarxiya universitetin tədris prosesinə ciddi təsir etmişdir. Tələbələr arasında dərsə gəlməmək halları artmış, müəllimlərin sosial durumunun çox aşağı olması görkəmli

alimlərin xarici ölkələrə getməsinə və öz peşəsindən uzaqlaşmasına səbəb olmuşdu. Universitetə dövlət büdcəsindən ayrılan vəsaitin dəfələrlə azalması onun maddi-texniki bazasının zəifləməsinə gətirib çıxarmış, tədris və elmi-tədqiqat laboratoriyaları yeni avadanlıqlardan məhrum edilmişdi. Təhsil ocağında tez-tez rektorların dəyişməsi ümumi işə olduqca mənfi təsir göstərmişdi. 1987-1993-cü illərdə universitetə dörd rektor - Məmmədov Y.M. (1987-1989), Quliyev C.B. (1989-1990), Qasımov M.G. (1990-1992), Səmədərov F.V. (1992-1993) rəhbərlik etmişdir. Bakı Dövlət Universitetinin 90 il ərzində keçdiyi yolun əsas və olduqca zəngin mərhələlərindən biri Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etdikdən sonrakı mərhələdir. Bilavasitə ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan bu mərhələ bir çox cəhətdən əlamətdar olmuş, universitetin tarixində dərin izlər qoymuş, onun fəaliyyətinə müstəqilliyin ab-havasını gətirmişdir.

Ulu öndərin 1993-cü ilin iyununda hakimiyyətə qayıdışı təhsil ocağının böhrandan çıxmasına, islahatların aparılmasına, universitet təhsilinin müasir dünya təhsil sisteminə inteqrasiyasına əlverişli perspektivlər açmışdır. Bakı Dövlət Universitetini xalqımızın milli iftixarı kimi qiymətləndirən ümummilli lider Heydər Əliyevin özü də BDU-nun məzunu və böyük iftixarıdır. Bu gün hər birimiz Heydər Əliyevin adı, doğma universitetimizin ləyaqətli məzunu olması ilə fəxr edirik. Heydər Əliyev Bakı Dövlət Universitetinin tarix fakültəsini 1957-ci ildə bitirmişdir. Bu dahi şəxsiyyətin adı tarix fakültəsinin və BDU-nun Qızıl fonduna düşmüşdür. Ulu öndər Heydər Əliyev həmişə universitet rəhbərliyinin yeni kadrlarla möhkəmləndirilməsinə böyük diqqət yetirmişdir. 1994-cü ildə görkəmli hüquqşünas alim, hüquq elmləri doktoru, professor Murtuz Ələsgərov universitetə rektor təyin edilmişdir. Professor M.Ələsgərov 1996-cı ildə Milli Məclisin Sədri seçildikdən sonra elm və təhsil təşkilatçısı, fizika-riyaziyyat elmləri doktoru, əməkdar elm xadimi, professor Misir Mərdanov universitetin rektoru vəzifəsinə irəli çəkilmişdir. 1998-ci ildə professor M.Mərdanov Azərbaycan Respublikasının təhsil naziri təyin edildikdən sonra rektor vəzifəsinə görkəmli kimyaçı alim, əməkdar elm xadimi, akademik Abel Məhərrəmov təyin edilmişdir. Göründüyü kimi, hər üç şəxs, respublikamızın görkəmli alimləri, elm və təhsil təşkilatçıları, dövlət xadimləri olmaqla respublika ictimaiyyəti tərəfindən tanınan və müsbət qarşılanan insanlardır. Professor M.Ələsgərov tərəfindən başlanan islahatlar professor M.Mərdanov tərəfindən davam etdirilmişdir. Lakin bu islahatların başa çatdırılması və böyük quruculuq işinin aparılması universitet kollektivi tərəfindən "qurucu rektor" kimi qəbul edilən akademik Abel Məhərrəmovun üzərinə düşmüşdür. O, rektor təyin edildiyi ilk gündən bütün bilik və bacarığını, daxili enerjisini və potensial imkanlarını doğma universitetin tərəqqisinə, təhsil sisteminin yüksəldilməsinə və təkmilləşdirilməsinə istiqamətləndirmiş, təhsil ocağını beynəlxalq standartlara cavab verən dünya universitetləri sırasına çıxara bilmişdir. Bu gün BDU-nun maddi-texniki bazası xeyli möhkəmlənmiş, yeni tədris korpusları istifadəyə verilmiş, tələbələr üçün idman kompleksləri

tikilmiş, hər korpusda yeməkxanalar istifadəyə verilmiş, gözəl və yaraşıqlı universitet şəhərciyi yaradılmış və ən mühümü, güclü elmi-pedaqoji potensiala malik mehriban kollektiv formalaşmışdır. Aparılan işlərin miqyasına görə son on ili universitetin intibah dövrü kimi xarakterizə etmək olar. Ali məktəb sistemini dərindən bilən rektor az vaxtda müstəqilliyin qarşıya qoyduğu vəzifələrə, dövlətin ardıcıl həyata keçirdiyi təhsil islahatının tələblərinə uyğun olaraq universitet təhsilində və elmində mühüm nailiyyətlər əldə etməyə, böyük quruculuq işləri aparmağa müvəffəq olmuşdu. İnsanların gözü qarşısında xarici ölkələrdə olan universitet şəhərciklərini xatırladan şəhərciyin yaradılması və tədricən buranın gözəl istirahət və mədəniyyət parkına çevrilməsi çoxminli kollektivə böyük hədiyyə idi. Bu şəhərciyin bəzəyi olan idman kompleksi, 1000 nəfərə qədər tutumu olan örtülü stadion, müasir texnologiyanın son nailiyyətlərinə müvafiq tikilmiş üzgüçülük hovuzu tələbə və müəllimlərin ən çox sevdiyi yerlərdən biridir.

Ötən ildən universitetin yeni tədris korpusu istifadəyə verilmişdir. Korpusun təntənəli açılış mərasimində çıxış edən möhtərəm Prezident İlham Əliyev demişdir: "Mən bu gün çox şadam ki, Bakı Dövlət Universiteti təzə korpusunun açılışı ilə tələbələrə və müəllimlərə yeni şərait yaradır..." Bakı Dövlət Universitetinin tarixinə intibah dövrü kimi daxil olan son on ildə bütün sahələrdə böyük inkişaf baş vermişdir. Diqqətəlayiq işlərdən biri də müasir dövrün tələblərinə cavab verən nəşriyyat işinin təşkili olmuşdur. Universitetin nəşriyyatına ikinci tədris korpusunda 1500 kv.metrlik sahəsi olan bina ayrılmış, nəşriyyat üçün 1 milyon 500 min ABŞ dolları məbləğində yeni mətbəə avadanlığı, çap maşınları, elektron cihazlar və digər müasir çap texnikası alınmışdır.

Son on ildə Bakı Dövlət Universitetinin rektorunun xidmətləri dövlətimiz, respublikanın elm və təhsil ictimaiyyəti, xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. A.Məhərrəmov 11 fevral 2000-ci ildə kimya elmi sahəsində əldə etdiyi böyük nailiyyətlərə görə Prezident Heydər Əliyevin fərmanı ilə "Azərbaycan Respublikasının əməkdar elm xadimi" fəxri adına, 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2007-ci ildə isə həqiqi üzvü seçilmişdir. O, 2005-ci ildən Milli Məclisin deputatıdır.

Hazırda Bakı Dövlət Universitetində 16 fakültə, 121 kafedra, 2 elmi-tədqiqat institutu, 4 elmi-tədqiqat mərkəzi, 1 elmi-tədqiqat hissəsi, 20 elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. Bu struktur bölmələrdə 2897 nəfər əməkdaş çalışır. Universitetin professor-müəllimlərindən 300 nəfəri elmlər doktoru, 900 nəfərə qədəri elmlər namizədidir. Müəllimlərin 217 nəfəri professor, 530 nəfəri dosent, 318 nəfəri baş müəllim, 214 nəfəri müəllim, 16 nəfəri isə assistent vəzifəsini tutur. Professor-müəllim heyətinin tərkibində 8 nəfər AMEA-nın həqiqi üzvü, 15 nəfər müxbir üzvü, 18 nəfər əməkdar elm xadimi, 20 nəfər digər fəxri adlara layiq görülmüş şəxslər, 40 nəfər orden və medallarla təltif edilmiş əməkdaşlar var. Həmçinin universitet əməkdaşlarından 13 nəfəri Milli Məclisin deputatıdır. Bakı Dövlət Universiteti Azərbaycan elminin inkişafına

da mühüm töhfələr vermişdir. Hazırda BDU-nun bütün fakültə, kafedra və digər elmi-tədqiqat qurumlarında təbiət və humanitar elmlərin aktual problemlərinə dair mühüm nəzəri və təcrübi əhəmiyyət kəsb edən elmi-tədqiqat işləri aparılır. Elmi-tədqiqat işləri öz aktuallığı ilə yanaşı, geniş istiqamətləri ilə də fərqlənir. Məsələn, son ildə 81 istiqaməti əhatə edən 230 mövzuda 1160 elmi iş yerinə yetirilmişdir. Universitetdə elmi-tədqiqat işlərinin nəticələri 4 seriya üzrə "Bakı Dövlət Universitetinin Xəbərləri"ndə çap olunur. Bununla yanaşı, universitetin ayrı-ayrı fakültələrinin müxtəlif elm sahələrinə dair nəşr etdirdiyi 10 elmi-nəzəri və metodik jurnallar da xüsusi əhəmiyyət kəsb edir. Hazırda ali məktəbin əyani və qiyabi şöbələrində 60-dan artıq ixtisas üzrə 200-ə yaxın aspirant, 85 ixtisas üzrə 429 nəfər dissertant təhsil alır. Elmi-pedaqoji kadrların hazırlanması sahəsində hələ 1997-ci ildən fəaliyyətə başlayan magistratura şöbəsi də mühüm əhəmiyyət kəsb edir. Magistratura pilləsində 33 istiqamət, 156 ixtisaslaşma üzrə 1200-dən artıq magistrant təhsil alır ki, onların da 40 nəfəri xarici vətəndaşdır.

Bütövlükdə Bakı Dövlət Universitetində 90 il ərzində 80 dəfə tələbə buraxılışı olmuş, xalq təsərrüfatının, elm, mədəniyyət və təhsilin müxtəlif sahələri üzrə 120 mindən artıq yüksək ixtisaslı kadr hazırlanmışdır. Bakı Dövlət Universitetinin 90 ildə keçdiyi inkişaf və tərəqqi yolu, əldə etdiyi böyük uğurlar bir daha təsdiq edir ki, təhsil ocağı bundan sonra da Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin tərəqqi yolunu nurlu bir məşəl kimi işıqlandıracaq.

"Azərbaycan" qəzeti, 4 oktyabr 2009.

ELM VƏ TƏHSİL QURUCUSU

Bu günlərdə Azərbaycan xalqı respublikamızın ilk elm və təhsil məbədgahı olan Bakı Dövlət Universitetinin 90 illik yubileyini böyük təntənə ilə qeyd etdi. Bu yubileydə MDB ölkələrinin görkəmli alimləri ilə yanaşı, dünyanın bir çox qabaqcıl universitetlərinin elm və təhsil xadimlərinin iştirak etməsi onun mühüm beynəlxalq əhəmiyyət kəsb etdiyini təsdiqləyir. Bakı Dövlət Universitetinin öz fəaliyyəti dövründə əldə etdiyi nailiyyətlər onun elmi-tədris prosesinin dünya elm və təhsil standartlarına cavab verməsi, eləcə də bu ali təhsil ocağının Yaxın Şərqin ən böyük təhsil müəssisələrindən birinə çevrilməsi haqqında fikirləri bir daha sübut edir.

Yubileydən əvvəl Bakı Dövlət Universitetinin 90 illik yubileyi ilə bağlı keçirilmiş beynəlxalq elmi konfransın materiallarından və yubiley zamanı verilən hesabatlardan məlum oldu ki, Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin böyük qayğısı və köməyi sayəsində Bakı Dövlət Universiteti mühüm tərəqqi yolu keçmiş, müasir tarixi şəraitdə tamamilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Universitet kollektivi çox haqlı olaraq həmin mərhələni intibah dövrü

kimi qiymətləndirir. Cəsarətlə demək olar ki, bu mühüm mərhələdə Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmovun adı, onun titanik fəaliyyəti universitetin son illərdəki tərəqqisi və burada həyata keçirilən islahatlarla bağlıdır. 1998-ci ildə universitetin keçmiş rektoru professor Misir Mərdanov Azərbaycan Respublikasının təhsil naziri təyin edildikdən sonra rektorluq vəzifəsi bir ilə yaxın boş qaldı. Bu müddətdə möhtərəm Prezident Heydər Əliyev universitetə kimin rektor göndərilməsini ciddi şəkildə araşdırırdı. Seçim xeyli uzandı. Nəhayət, ulu öndərin seçimi Abel Məmmədəli oğlu Məhərrəmov oldu. Öz uzaqgörənliyi ilə həmişə fərqlənən ulu öndər bu seçimində də yanılmamışdı.

Ali məktəb sistemini dərindən bilən Abel Məhərrəmov kiçik bir zaman kəsiyində müstəqilliyin universitetin qarşısında qoyduğu vəzifələrə, dövlətin ardıcıl həyata keçirdiyi təhsil islahatlarının tələblərinə uyğun olaraq universitet təhsilində və elmində mühüm nailiyyətlər əldə etməyə, böyük quruculuq işləri aparmağa müvəffəq oldu. Onun son illər ərzində quruculuq sahəsində əldə etdiyi nailiyyətləri sovet dövründə bir neçə onillikdə aparılan işlərə bərabər tutmaq olar.

Doğrudan da Azərbaycanın müstəqilliyi illərində elm və təhsil sahəsində başlanan islahatların başa çatdırılmasında və universitetdə böyük quruculuq işinin aparılmasında universitet kollektivi tərəfindən "qurucu rektor" kimi qəbul edilən akademik Abel Məhərrəmovun mühüm xidmətləri vardır. Abel Məhərrəmov rektor təyin edildiyi ilk gündən bütün bilik və bacarığını, daxili enerjisini və potensial imkanlarını doğma universitetin tərəqqisinə, təhsil sisteminin yüksəldilməsinə və təkmilləşdirilməsinə istiqamətləndirmiş, bu ali təhsil ocağını beynəlxalq standartlara cavab verən dünya universitetləri sırasına çıxara bilmişdir. A.Məhərrəmov, sözün əsl mənasında, çoxsaylı universitet kollektivini vahid bir orqanizm kimi hərəkətə gətirmiş və onun ahəngdar mexanizm kimi zərgər dəqiqliyi ilə sistemli və fasiləsiz fəaliyyətinə, hamını bir nəfər kimi universitetin tədris-metodik, elmi-tədqiqat işinə cəlb etməyə nail olmuşdur.

Hər şeydən əvvəl, rektor universitetin maddi-texniki bazasını möhkəmləndirmək üçün ciddi tədbirlər görməyə başladı. Rektorun səyi nəticəsində maddi-texniki bazanın möhkəmləndirilməsinə ayrılan vəsait orta hesabla ilbəil 2-3 dəfədən çox artırıldı. Universitetin əsas binası 60-cı illərdən bəri son 40 ildə təmir edilməmişdi. Binanın həm xarici görünüşü, həm daxili, həm də dam örtüyü bərbad vəziyyətə düşmüşdü. Rektorun ciddi səyi nəticəsində universitetin əsas binasına yeni həyat verildi. Onun çöl divarları təmizləndi, daxilində bütün dərs otaqları, auditoriyalar, laboratoriyalar, böyük və kiçik akt zalları, inzibati binalar əsaslı surətdə, müasir dünya standartlarına müvafiq təmir olundu, çox qiymətli avadanlıqlarla təchiz edildi. Qeyd edək ki, son 80 ildə universitetin auditoriyaları və laboratoriyaları belə yüksək səviyyəli mebellə təmin edilməmişdir. Abel Məhərrəmovun rektor kimi ən böyük xidmətlərindən biri də universitet şəhərciyinin yaradılması oldu. İnsanların gözü

qarşısında xarici ölkələrdə olan universitet şəhərciklərini xatırladan şəhərciyin yaradılması və tədricən bu şəhərciyin gözəl istirahət və mədəniyyət parkına çevrilməsi universitetin çoxsaylı kollektivi üçün böyük hədiyyə idi. Bu şəhərciyin bəzəyi olan idman kompleksi, 1000 nəfərə qədər tamaşaçı tutumu olan örtülü stadion, müasir texnologiyanın son nailiyyətlərinə müvafiq tikilmiş üzgüçülük hovuzu tələbə və müəllimlərin ən çox sevdiyi bir idman qurğusuna çevrilmişdir.

Rektorun böyük xidmətlərindən biri də universitetin yeni tədris korpusunun tikintisinin başa çatdırılması olmuşdur. Gözoxşayan və yaraşıqlı bu tədris korpusunda tarix, mexanika-riyaziyyat və təbiiqi riyaziyyat fakültələri yerləşir. Müasir standartlara uyğun tikilən və istifadəyə verilən bu korpusda müəllim və tələbələr üçün hər cür şərait yaradılmışdır. Yeni tədris korpusunun təntənəli açılış mərasimində çıxış edən möhtərəm Prezident İlham Əliyev demişdir: "Mən bu gün çox şadam ki, Bakı Dövlət Universiteti təzə korpusunun açılışı ilə tələbələrə və müəllimlərə yeni şərait yaradır". Cənab Prezidentimiz bu gözəl gün münasibəti ilə universitetin bütün kollektivini ürəkdən təbrik etdi. Bu, universitet kollektivi üçün böyük fəxrdir və fəaliyyətimizə verilən dəyərli qiymətdir.

Abel müəllimin düzgün və məqsədyönlü rəhbərliyi sayəsində BDU-nun maddi-texniki bazası xeyli möhkəmlənmiş, yeni tədris korpusları istifadəyə verilmiş, tələbələr üçün idman kompleksləri tikilmiş, müəllimlər və tələbələr üçün hər korpusda yeməkxanalar istifadəyə verilmiş, gözəl və yaraşıqlı universitet şəhərciyi yaradılmış və ən mühümü güclü elmi-pedaqoji potensiala malik olan mehriban kollektiv formalaşmışdır.

Universitetdə aparılan işlərin miqyasına görə son on ili universitetin intibah dövrü kimi xarakterizə etmək olar. Bu intibah özünü universitetin hərtərəfli, kompleks inkişafında göstərmişdir. Zənnimizcə, bu kompleks inkişafa daxil olan amillər içərisində universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi, on mərtəbəli yeni tədris korpusunun istifadəyə verilməsi, tələbə qəbulunun ilbəil artırılması, kadr potensialının möhkəmləndirilməsi mühüm diqqətə layiqdir. Eyni zamanda universitetin tədris prosesinin daha da təkmilləşdirilməsi, tədrisin keyfiyyətini yaxşılaşdırmaq üçun islahatlar aparılması, tədrisin texniki vasitələrlə təmin edilməsi, tədris prosesində kompüter texnologiyasından istifadə edilməsi, yeni fakültələr, ixtisaslar, kafedralar açılması, tədris intizamının möhkəmləndirilməsi, dünyanın qabaqcıl ölkələrinin iş təcrübəsindən istifadə edilməsi, müstəqilliyimizə müvafiq dərsliklərin və dərs vəsaitlərinin yazılıb çap etdirilməsi də çox ciddi uğurlar sırasındadır. Bununla yanaşı, akademik A.Məhərrəmovun rəhbərliyi ilə universitetdə yeni elmi-tədqiqat laboratoriyalarının yaradılması, elmi laboratoriyaların yeni cihazlarla, avadanlıqlarla təchiz edilməsi, kafedrada aparılan elmi-tədqiqatların istiqamətlərinin müasir şəraitlə, respublikanın qarşısında duran çağdaş vəzifələrlə əlaqələndirilməsi, doktorluq və namizədlik dissertasiyalarının keyfiyyətcə yaxşılaşdırılmasına diqqətin artırılması, elmin müxtəlif sahələrinə dair monoqra-

fiyaların, dərs vəsaitlərinin və dərsliklərin, metodik göstərişlərin çap etdirilməsi kimi mühüm məsələlər də geniş yer tutmuşdur.

Abel Məhərrəmovun rəhbərliyi ilə universitetin son onillik fəaliyyətində diqqətəlayiq işlərdən biri də müasir dövrün tələb-lərinə cavab verən nəşriyyat işinin təşkili olmuşdur. Universitetin nəşriyyatına ikinci tədris korpusunda 1500 kvadratmetrlik sahəsi olan bina ayrılmış, nəşriyyat üçün 1 milyon 500 min ABŞ dolları qiymətində yeni mətbəə avadanlığı, çap maşınları, elektron cihazlar və digər müasir çap texnikası alınmışdır.

Universitetin büdcəsindən dərsliklər, dərs vəsaitləri, meto-dik göstərişlər, fənn proqramları çap etmək üçün müntəzəm olaraq vəsait ayrılmışdır. Son on ildə universitet nəşriyyatında min ada yaxın dərslik, dərs vəsaiti, metodik göstəriş, monoqrafiyalar, fənn proqramları və s. çap edilməsi universitetin çox böyük nailiyyətidir. "Bakı Universiteti" nəşriyyatında çap edilən dərsliklərin, demək olar ki, əksəriyyəti universitet alimləri tərəfindən müstəqillik illərində yazılan orijinal dərsliklərdir. Hazırda Bakı Dövlət Universitetində 16 fakültə, 121 kafedra, 2 elmi-tədqiqat institutu, 4 elmi-tədqiqat mərkəzi, 1 elmi-tədqiqat hissəsi, 20 elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. Bu struktur bölmələrdə 2897 nəfər əməkdaş çalışır. Bakı Dövlət Universitetinin professor-müəllimlərindən 300 nəfəri elmlər doktoru, 900 nəfərə qədəri elmlər namizədidir. Müəllimlərin 217 nəfəri professor, 530 nəfəri dosent, 318 nəfəri baş müəllim, 214 nəfəri müəllim, 16 nəfəri isə assistent vəzifəsini tutur. Professor-müəllim heyətinin tərkibində 8 nəfər AMEA-nın həqiqi üzvü, 16 nəfər müxbir üzvü, 28 nəfər Azərbaycan Respublikasının əməkdar elm xadimi, 57 nəfər digər fəxri adlara layiq görülmüş şəxslər, 100 nəfərdən artıq orden və medallarla təltif edilmiş əməkdaşlar vardır. Həmçinin universitet əməkdaşlarından 13 nəfəri Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Fikrimizcə, bu rəqəmlər ötən müddət ərzində Bakı Dövlət Universitetinin elmi-pedaqoji potensialının inkişaf dinamikasını aydın şəkildə göstərir və kollektivimiz bu böyük nailiyyətlərlə fəxr edə bilər.

Bakı Dövlət Universitetinin Azərbaycan təhsilinin inkişa-finda böyük müvəffəqiyyətləri olduğu kimi, Azərbaycan elminin inkşafına da mühüm töhfələr vermişdir. Müstəqillik illərində Bakı Dövlət Universitetinin maddi-texniki bazasının möhkəmləndirilməsi, tədris prosesinin yenidən qurulması, tədrisin keyfiyyətinin daha da yüksəldilməsi ilə yanaşı olaraq, o, respublikamızda elmin inkişafında mühüm və həlledici rol oynamış, aparılan elmi tədqi-qatların həcminə və nəticələrinə görə öncül yerlərdən birini tutmaqla beynəlxalq aləmdə də xüsusi nüfuz qazanmışdır.

Universitet kollektivinin son illərdə elmi-tədqiqat işinin təşkili, əldə etdiyi böyük elmi uğurlar və kəşflər deyilənləri bir daha təsdiq edir. Hazırda Bakı Dövlət Universitetinin bütün fakültə, kafedra və digər elmi-tədqiqat qurumlarında təbiət və humanitar elmlərin aktual problemlərinə dair respublikamızın elm, təhsil, mədəniyyət və xalq təsərrüfatının müxtəlif sahələrini əhatə edən, mühüm nəzəri və təcrübi əhəmiyyət kəsb edən elmi-tədqiqat işləri

aparılır. Bakı Dövlət Universitetində aparılan elmi-tədqiqat işləri öz aktuallığı ilə yanaşı olaraq, geniş istiqamətləri ilə də fərqlənir. Məsələn, son ildə 81 istiqaməti əhatə edən 230 mövzuda 1160 elmi iş yerinə yetirilmişdir.

Bakı Dövlət Universitetində təbiət və humanitar elmlər üzrə aparılan elmi işlər böyük elmi-nəzəri və praktik əhəmiyyət kəsb etdiyindən onların bir çoxu AMEA-nın elmi hesabatına mühüm elmi nəticə kimi daxil olur. Məhz buna görədir ik, son on ildə universitet əməkdaşları 85 ixtiraya patent ala bilmişdir.

Universitetdə elmi-tədqiqat işlərinin nəticələri rektor, akademik Abel Məhərrəmovun ciddi səyi nəticəsində təkmilləşmiş, 4 seriya üzrə "Bakı Dövlət Universitetinin Xəbərləri"nin nəşri işi qaydaya salınmışdır. Bununla yanaşı, universitetin ayrı-ayrı fakültələrinin müxtəlif elm sahələrinə dair nəşr etdirdiyi 10 elmi-nəzəri və metodik jurnallar da xüsusi əhəmiyyət kəsb edir.

Respublikamızda elmi-pedaqoji kadrların hazırlanmasında Bakı Dövlət Universitetinin xüsusi yeri vardır. Böyük həyati əhəmiyyət kəsb edən bu işə universitet hələ XX əsrin 20-ci illərindən başlamış, sonralar bu prosesi davam etdirmiş, müstəqillik illərində isə onu daha da intensivləşdirmişdir. Universitetdə elmi-pedaqoji kadrların hazırlanması aspirantura, dissertantura və doktorantura yolu ilə həyata keçirilir. Hazırda Bakı Dövlət Universitetinin əyani və qiyabi şöbələrində 60-dan artıq ixtisas üzrə 200-ə yaxın aspirant, 85 ixtisas üzrə 429 nəfər dissertant təhsil alır.

Elmi-pedaqoji kadrların hazırlanması sahəsində hələ 1997-ci ildən fəaliyyətə başlayan magistratura şöbəsi də mühüm əhəmiyyət kəsb edir. Hazırda Bakı Dövlət Universitetinin magistratura pilləsində 33 istiqamət, 156 ixtisaslaşma üzrə 1200-dən artıq magistrant təhsil alır ki, onların da 40 nəfəri xarici vətəndaşdır.

Bütövlükdə Bakı Dövlət Universitetində 90 il ərzində 80 tələbə buraxılışı olmuş, xalq təsərrüfatının, elm, mədəniyyət və təhsilin müxtəlif sahələri üzrə 120 mindən artıq yüksək ixtisaslı kadr hazırlanmışdır.

Beləliklə, akademik A.Məhərrəmovun rəhbərliyi ilə müstəqillik illərində böyük inkişaf yolu keçmiş Bakı Dövlət Universiteti təkcə respublikamızda deyil, respublikamızdan çox-çox uzaqlarda, dünyanın inkişaf etmiş ölkələrində böyük ad-san, şöhrət qazanmış, dünya universitetləri içərisində özünəlayiq yer tutmuşdur.

Son on ildə Bakı Dövlət Universitetinin rektoru, akademik A.M.Məhərrəmovun xidmətləri dövlətimiz, respublikanın elm və təhsil ictimaiyyəti, xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Abel Məhərrəmovun xidmətləri universiteti ucaltdığı kimi, universitetin nailiyyətləri də Abel Məhərrəmovu ucaltmışdır. Abel Məhərrəmov 11 fevral 2000-ci ildə kimya elmi sahəsində əldə etdiyi böyük nailiyyətlərə görə Prezident Heydər Əlievin fərmanı ilə "Azərbaycan Respublikasının əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Alim eyni zamanda 10 iyun 2000-ci ildə Tehranda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının qızıl medalı ilə

təltif edilmişdir.

Görkəmli alim A.Məhərrəmov 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2007-ci ildə isə həqiqi üzvü-akademiki seçilmişdir.

A.Məhərrəmov 2002-2004-cü illərdə Qara Dəniz Hövzəsi Ölkələri Universitetləri Assosiasiyasının Prezidenti olmuş, 2004-cü ildən isə vitse-Prezidentidir.

A.Məhərrəmov elm və təhsil sahəsində göstərdiyi təşəbbüskarlığa, milli təhsilin inkişafı və beynəlxalq təhsil məkanında inteqrasiya proseslərinə verdiyi töhfələrə görə 2004-cü ildə Rumıniya Respublikasının ali dərəcəli "Komandoz" ordeninə layiq görülmüşdür. 2008-ci ildə akademik Abel Məhərrəmov Avropanın aparıcı elm və təhsil mərkəzlərindən biri sayılan Ruminiya Respublikasının Konstansa şəhərində yerləşən Ovidus Universitetinin fəxri doktoru seçilmişdir. A.Məhərrəmov 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvü-millət vəkilidir.

Professor A.Məhərrəmov dəfələrlə bir sıra beynəlxalq elmi konfranslarda və simpoziumlarda, o cümlədən ABŞ, Türkiyə, Yaponiya, İtaliya, Rusiya, İran, Bolqarıstan, Macarıstan və b. ölkələrdə maraqlı elmi məruzələrlə çıxışlar etmişdir. A.Məhərrəmov bir çox ixtiraların, elmi kəşflərin və beynəlxalq patentlərin müəllifidir. A.Məhərrəmov 33 müəlliflik şəhadətnaməsinin, 8 monoqrafiyanın, 37 dərslik və dərs vəsaitinin, o cümlədən Azərbaycan dillində ilk dəfə nəşr olunmuş "Kiçik kimya ensiklopediyası"nın həmmüəlliflərindən biri, həmçinin Azərbaycanda və xarici jurnallarda nəşr olunmuş 600-ə qədər elmi əsərin müəllifidir.

Akademik A.Məhərrəmovun elmi rəhbərliyi ilə 21 kimya elmləri doktoru və namizədi hazırlanmışdır. Sevindirici haldır ki, Bakı Dövlət Universitetinin 90 illik yubileyi ərəfəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə akademik Abel Məhərrəmov "Şöhrət" ordeni ilə təltif edilmişdir.

90 yaşlı Bakı Dövlət Universitetinin müstəqillik illərində, xüsusilə akademik Abel Məhərrəmovun rektorluğu dövründə keçdiyi inkişaf və tərəqqi yolu, əldə etdiyi böyük uğurlar bir daha təsdiq edir ki, universitet bundan sonra da Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin tərəqqi və inkişaf yolunu nurlu bir məşəl kimi işıqlandıracaqdır. Bu yolda doğma universitetimizin işgüzar kollektivinə, ilk növbədə bu kollektivə uğurla başçılıq edən hörmətli rektorumuz akademik Abel Məhərrəmova möhkəm cansağlığı, yeni-yeni elmi nailiyyətlər arzulayırıq.

"Respublika" qəzeti, 29 dekabr 2009

AZƏRBAYCANIN İLK ELM MƏBƏDGAHI

Azərbaycan mədəniyyətinin, elminin, təhsilinin, ədəbiyyatının və incəsənətinin inkişafında böyük xidmətləri olan Bakı Dövlət Universitetinin 90 yaşı tamam olur. Azərbaycanda ilk ali təhsil və elm məbədgahı olan Bakı Dövlət Universiteti yarandığı gündən indiyədək şərəfli bir ömür yaşamış, əhəmiyyətli tarixi yol keçmiş, sönməz bir məşəl kimi Azərbaycan təhsilinin, elminin yolunu işıqlandırmış, qüdrətli elm ocağına çevrilmiş, öz elmi-intellektual potensialı və tədrisin yüksək keyfiyyəti ilə ölkənin hüdudlarından çox-çox uzaqlarda tanınaraq böyük beynəlxalq nüfuz qazanmışdır.

Yarandığı gündən indiyə qədər BDU-da elm, texnika, iqtisadiyyat və xalq təsərrüfatının müxtəlif sahələri üzrə 120 mindən artıq yüksək ixtisaslı kadr hazırlanmışdır. Böyük iftixar hissi ilə deyə bilərik ki, hazırda universitetin məzunları təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində uğurla fəaliyyət göstərirlər. Onların bir çoxu respublikamızda ayrı-ayrı elm sahələrində rəhbər vəzifələrdə çalışır, müxtəlif dövlət strukturlarında layiqincə təmsil olunurlar. Azərbaycan elminin və mədəniyyətinin, ədəbiyyatının və incəsənətinin böyük korifeyləri də məhz BDU-nun auditoriyalarında təhsil almışlar. BDU-nun məzunlarının dövlət quruculuğunda rolu böyükdür. Hakimiyyət strukturlarında onlar geniş mövqeyə malikdirlər.

Bu gün Bakı Dövlət Universiteti özünün dünya şöhrətli məzunu, dahi dövlət xadimi, Azərbaycan milli dövlətçiliyinin xilaskarı, müstəqil Azərbaycan Respublikasının memarı, xalqımızın ümummilli lideri Heydər Əliyevlə fəxr edir. Bu ali təhsil ocağına yüksək qiymət verən, onu xalqımızın milli sərvəti adlandıran dahi şəxsiyyət Bakı Dövlət Universitetinin məzunu olması ilə fəxr etdiyini dəfələrlə bildirmiş, onun fəaliyyətini, Azərbaycanda elmin, təhsilin və mədəniyyətin inkişafında böyük rolunu yüksək qiymətləndirmişdir.

Təsadüfi deyil ki, Heydər Əliyev Bakı Dövlət Univer-sitetinin 80 illik yubileyi münasibəti ilə 1999-cu il dekabrın 28-də universitet kollektivinə göndərdiyi təbrik məktubunda yazırdı: "Bakı Dövlət Universiteti 80 illik fəaliyyəti dövründə Azərbaycan həyatının bütün sahələrinə güclü təsir edərək xalqımız qarşısında əvəzsiz xidmətlər göstərmişdir. Əslində universitetimizin tarixi Azərbaycan təhsilinin və mədəniyyətinin inkişafı tarixidir. Respublikamızda ali təhsilin inkişafında universitetin müstəsna rolu olmuşdur. İndi ölkəmizdə onlarla ali məktəbin mövcud olması, Azərbaycan Respublikasının böyük ali təhsil potensialına malik olması məhz Bakı Dövlət Universitetinin fəaliyyəti nəticəsində mümkün olmuşdur".

Ulu öndərin Bakı Dövlət Universitetinə verdiyi bu yüksək qiymət universitetin çoxminli kollektivinin fədakar əməyinə verilən qiymətdir. Universitetin çoxsaylı professor-müəllim və tədris-köməkçi heyəti, çoxminli tələbə kontingenti ulu öndərin bu qiyməti ilə böyük qürur hissi keçirir.

Azərbaycan elminin fizika, riyaziyyat, tətbiqi riyaziyyat, informatika, geologiya, biologiya, fiziologiya, kimya, coğrafiya, hüquq, tarix, etnoqrafiya,

arxeologiya, regionşünaslıq, psixologiya, pedaqogika, fəlsəfə, sosiologiya, şərqşünaslıq, kitabxanaşünaslıq, bibliioqrafiyaşünaslıq, kitabşünaslıq, jurnalistika, filologiya, ədəbiyyatşünaslıq, dilçilik, türkologiya, iqtisadiyyat, beynəlxalq hüquq, beynəlxalq əlaqələr və s. kimi müxtəlif sahələrinin inkişafında BDU- nun böyük rolu olmuşdur. Bu elm sahələrinin hər biri haqqında geniş tədqiqatlar aparılmış, namizədlik, doktorluq dissertasiyaları müdafiə edilmiş, yüzlərlə monoqrafiya, dərslik, dərs vəsaitləri, minlərlə elmi məqalə yazılıb çap edilmişdir.

Bakı Dövlət Universiteti alimlərinin yaradıcılığı respublikamızın elmi həyatının ayrılmaz tərkib hissəsi olmaqla xalqımızın qədim tarixinin, mədəniyyətinin araşdırılmasında, milli mədəniyyətimizin, ana dilimizin qorunubsaxlanılmasında, vətənpərvərlik, azərbaycançılıq ideologiyasının təbliğində böyük rol oynayır. Xalqımızın milli-mənəvi dəyərlərə söykənən adət-ənənələrinin qorunub saxlanılmasında, milli mentalitetimizin inkişafında da BDU alimlərinin böyük xidmətləri vardır.

Azərbaycanın ilk ali məktəbi olan Bakı Dövlət Universiteti respublikamızda ali təhsilin inkişafında, ali məktəblərin yaradılmasında, ali məktəblər üçün elmi-pedaqoji kadrların hazırlanmasında əvəzedilməz xidmətlər göstərmişdir. Belə ki, hazırda respublikamızda fəaliyyət göstərən Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Dillər Universiteti məhz BDU-nun bazasında yaradılmışdır. Bakı Dövlət Universiteti həmin ali təhsil ocaqlarının işinin təşkilinə, kadr təminatına, maddi-texniki bazasının möhkəmləndirilməsinə, xüsusilə kitabxanalarının təşkilinə yaxından kömək etmişdir. Universitet həmçinin elmin inkişafında, elmi-tədqiqat işinin, elmi araşdır-maların təşkilində ötən əsrin 20-ci illərinin əvvəllərində respublikada ilk elmi mərkəzlərin yaranmasında elmi ictimaiyyətə yaxından kömək etmişdir.

BDU-nun elmi potensialının qüvvəsi ilə respublikamızda ali məktəblərlə yanaşı, Elmlər Akademiyasının açılması zamanın tələbinə çevrildi. Belə ki, BDU 1923-cü ildə respublikamızda ilk elmi mərkəz olan Azərbaycanı Tədqiq və Tətəbbö (araşdırma) Cəmiyyətinə, sonralar bu cəmiyyətin bazasında yaranan elmi-tədqiqat institutuna, 30-cu illərdə fəaliyyətə başlayan SSRİ EA-nın Azərbaycan filialına kadr potensialı baxımından mühüm kömək göstərmişdir. Həmin elmi-tədqiqat müəssisələrində BDU-nun əməkdaşları da çalışırdılar. Bu, zamanın tələbi idi. Çünki respublikamızda olan ən görkəmli elmi qüvvələr BDU-da fəaliyyət göstərdiklərindən onların köməyi olmadan hər hansı bir iş görmək mümkün deyildi. 1945-ci ildə Azərbaycanda Elmlər Akademiyası təşkil edilərkən BDU-nun elmi potensialından geniş istifadə olunmuş, demək olar ki, bu potensial akademiyanın əsas elmi bazasını təşkil etmişdir. Belə ki, akademiyaya üzv seçilən 15 nəfərdən 6-sı universitetin məzunu və ya professoru olmuşdur. Belə bir faktı da qeyd etmək yerinə düşər ki, son 55 ildə Azərbaycan Elmlər Akademiyasına rəhbərlik etmiş şəxslər ya universitetin məzunu, ya da professoru olmuşlar.

Bakı Dövlət Universitetinin Azərbaycan elminin inkişafında oynadığı rola yüksək qiymət verən ulu öndər Heydər Əliyev demişdir: "Azərbaycan elmi dünyanın qabaqcıl elmləri sırasındadır. Onun inkişafında Bakı Dövlət Universitetinin fəaliyyəti əvəzsizdir. Bakı Dövlət Universiteti yarandığı gündən Azərbaycanda elmi inkişaf etdirən mərkəzə çevrilmişdir. Sonrakı dövrlərdə Azərbaycanda yaranmış elmi-tədqiqat institutlarının əksəriyyəti, elmi ocaqların hamısı öz başlanğıcını Bakı Dövlət Universitetindən götürmüşdür. Təsadüfi deyil ki, 1945-ci ildə Azərbaycanda ilk Dövlət Milli Akademiyası da Bakı Dövlət Universitetinin əsasında, başqa ali məktəblərin yetişdirdiyi alimlərin fəaliyyəti nəticəsində yaradılmışdır. Ona görə də, biz Bakı Dövlət Universiteti haqqında danışanda Azərbaycanın həm elmini, həm təhsilini, həm mədəniyyətini, həm də bütün xalqımızın savadlanmasını düşünürük". Bu sözlər BDU-nun XX yüzilliyin 30-40-cı illərində göstərdiyi fəaliyyətə verilən ən yüksək qiymətdir.

Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın qarşısında göstərdiyi ən böyük xidmətlərindən biri də Bakı Dövlət Universitetinin yaradılması olmuşdur. Azərbaycan xalqının milli-mədəni tarixində mühüm hadisə olan BDU-nun fəaliyyətə başlaması əslində müsəlman Şərqində böyük bir əks-səda doğurdu. Qısa zaman çərçivəsində Avropanın və Şərq ölkələrinin tanınmış alimləri BDU-ya dəvət edildilər. Dövrünə görə qısa müddətdə qüvvətli kadr potensialı toplayan bu elm məbədgahı Azərbaycanda mədəni-maarif işinin genişlənməsinə, xalqın savadlanmasına, milli kadrların yaranmasına xüsusi diqqət yetirdi. 1919-cu ildə BDU fəaliyyətə başlayarkən onun müəl-limlərinin 90 faizindən çoxu əcnəbilər olmuşdur. Buna baxmayaraq, respublika hökuməti BDU-nun milli kadrlarla təmin edilməsinə, dərslərin Azərbaycan dilində keçilməsinə xüsusi diqqət yetirirdi. Bu məsələ barəsində bir neçə rəsmi dövlət sənədi qəbul edilmişdi.

BDU-nun ilk rektoru olan V.İ.Razumovski milliyyətcə qeyri-azərbaycanlı olsa da, o, milli kadrların hazırlanmasını diqqət mərkəzində saxlayırdı. 1919-1920-ci tədris ilində BDU-da işləyən 33 müəllimin ancaq 4 nəfəri azərbaycanlı idisə, artıq 1924/25-ci dərs ilində 188 nəfərdən 42 nəfəri azərbaycanlı idi. 5 il müddətində azərbaycanlı müəllimlərin sayı 12 faizdən 22 faizə qalxmışdı. 1921-22-ci tədris ilindən xüsusilə humanitar fakültələrdə dərslərin müəyyən hissəsi Azərbaycan dilində keçirilməyə başlanmışdı. Bu, həmin dövr üçün böyük tarixi hadisə idi.

İnzibati-amirlik sisteminin formalaşdığı bir zamanda xalqımızın milli-mənəvi dəyərlərinə, qədim adət-ənənələrimizə və əslində milli soykökümüzə vurulan zərbələrdən biri də BDU-ya dəydi. 20-ci illərin sonu – 30-cu illərin əvvəlində qeyri-müəyyən səbəblərə görə BDU-nun fəaliyyətinə xitam verildi. Ermənilərin əli ilə vurulan bu zərbə mərkəzdən istiqamətləndirilmişdi. Ancaq bununla barışmayan və öz mübariz ruhunu xüsusi bir qüvvə ilə göstərən xalqımız istədiyinə nail oldu və 1934-cü ildə BDU yenidən fəaliyyətə başladı. Universitet fəaliyyətini bərpa etdikdən sonra onun kadr potensialının əksəriy-

yətini azərbaycanlılar təşkil edirdilər. 1970–80-ci illərdə isə Bakı Dövlət Universitetində milli kadrların hazırlanması sahəsində böyük dönüş yarandı. Demək olar ki, professor-müəllim heyətinin 99 faizi azərbaycanlılar idi.

Azərbaycan elmi dilçilik məktəbinin yaranması da Bakı Dövlət Universitetinin dilçilik kafedrasının və görkəmli dilçi alimlərin adı ilə bağlıdır. Respublikamızda Azərbaycan dilinin tədrisi və təbliğində BDU-nun dilçi məzunlarının fəaliyyəti diqqətəlayiqdir.

Respublikamızın həyatında dönüş mərhələsinin başlanğıcı olan 70-ci illər Bakı Dövlət Universitetinin tarixində də əlamətdar olmuşdur. Belə ki, Azərbaycan KP MK-nın 1969-cu il iyulun 14-də keçirilən plenumunda Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildi. Heydər Əliyevin siyasi hakimiyyətə ilk gəlişi ilə Azərbaycan özünün həqiqi inkişaf yolunu tapdı. O dövrdə ən geridə qalmış respublikalardan hesab edilən Azərbaycanın inkişaf və tərəqqisinin əsası qoyuldu. Bu, Azərbaycan xalqının tarixi müqəddəratında mühüm hadisə oldu, respublikamızın gələcək inkişafında əhəmiyyətli rol oynadı. Bununla da, Azərbaycan xalqının tarixində Heydər Əliyev dövrü - böyük dönüş mərhələsi başlandı.

Heydər Əliyev hakimiyyətə gələn kimi 1969-cu il avqust plenumunda respublikada mövcud nöqsanları, ayrı-ayrı sahə strukturlarında, o cümlədən təhsildə və maarifdə olan qüsurları kəskin tənqid etdi, onların aradan qaldırılması yollarını və inkişafın istiqamətlərini müəyyənləşdirdi. Avqust plenumu respublikanın ictimai-siyasi və sosial-iqtisadi həyatında kəskin dönüş yaratdı, xüsusilə Azərbaycan təhsilinin inkişafında mühüm rol oynadı. Xalqın milli mənlik şüurunun formalaşması, Azərbaycan dilinin, Azərbaycan tarixinin öyrənilməsi, ali təhsil sisteminin daha da demokratikləşməsi sahəsində ciddi irəliləyiş baş verdi.

Bu dövrdə Azərbaycan ali məktəblərinin bayraqdarı olan Bakı Dövlət Universitetinin respublika ali məktəbləri içərisində tutduğu aparıcı mövqe, Azərbaycan təhsil sisteminə, onun inkişaf istiqamətlərinə göstərdiyi təsir daha da gücləndi. 1969-cu ildə BDU-nun 50 illik yubileyi dövlətimiz tərəfindən yüksək səviyyədə keçirildi. Həmin ərəfədə təşkil edilən yubiley komissiyasına ümummilli lider Heydər Əliyevin başçılıq etməsi və təntənəli yubiley iclasında Azərbaycan dilində məruzəsi universitetin şöhrətini daha da yüksəltdi. Heydər Əliyevin bu parlaq çıxışı Azərbaycanın elmi və mədəni ictimaiyyəti arasında böyük marağa səbəb oldu. Çünki Sovet Azərbaycanının tarixində ilk dəfə idi ki, Azərbaycan KP MK-nın birinci katibi Azərbaycan dilində çıxış edirdi. Bu çıxış bir tərəfdən onun böyük cəsarətindən, digər tərəfdən isə onun güclü milli hissindən, Azərbaycan dilinə olan böyük məhəbbətindən irəli gəlirdi. Ulu öndərin bu nitqini böyük rəğbət və sevinc hissi ilə qarşılayan Bakı Dövlət Universitetinin çoxminli kollektivi Heydər Əliyevin məruzəsini qarşıda qoyulan böyük vəzifələrin proqramı kimi qəbul etdi və gələcək fəaliyyətlərində rəhbər tutdu.

70-80-ci illərdə Azərbaycanda Heydər Əliyevin milli oyanış siyasəti

nəticəsində təhsilin, elmin və mədəniyyətin inkişafı sahəsində geniş imkanlar açıldı. Respublikamızın elmi potensialı olduqca gücləndi. Ölkəmizdə altı yeni ali məktəb yaradıldı, onların maddi-texniki bazası möhkəmləndirildi. Bu dövrü Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin inkişafında Heydər Əliyev mərhələsi kimi xarakterizə etmək yerinə düşər.

Həmin illər Bakı Dövlət Universitetinin tədris və elmi həyatına da dönüş dövrü kimi daxil olmuşdur. Belə ki, ulu öndər Heydər Əliyevin bilavasitə qayğısı sayəsində universitetin maddi-texniki bazası möhkəmlənmiş, yeni tədris korpusu istifadəyə verilmiş, hesablama mərkəzi yaradılmış, yeni fakültələr, ixtisaslar, elmi-tədqiqat laboratoriyaları açılmış, tədris və elmi-tədqiqat laboratoriyaları üçün qiymətli avadanlıqlar alınmışdır. Tədris prosesinin təkmilləşdirilməsində də mühüm yeniliklər baş vermişdi. Tədrisin texniki vasitələri üçün laboratoriya yaradılmış və laboratoriya üçün əldə edilən texniki vasitələr, hesablama materialları, kino aparatları tədris prosesinin avtomatlaşdırılmasında istifadə edilməyə başlanmışdı.

Təhsil və elmi işlərin səviyyəsinin yüksəlməsi, yüksək ixtisaslı elmi kadr potensialına malik olması universiteti nəinki respublikamızda, eləcə də SSRİ miqyasında qabaqcıllar sırasına çıxarmışdı. Odur ki, Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1987-ci il 13 mart tarixli qərarı ilə Azərbaycan Dövlət Universiteti ittifaqın aparıcı universitetləri sırasına daxil edildi.

80-ci illərin sonu 90-cı illərin əvvəllərində və Xalq Cəbhəsinin hakimiyyəti dövründə ölkədə baş verən hərc-mərclik, anarxiya Bakı Dövlət Universitetinin həyatına da mənfi təsir etmişdi. Universitet lazımi səviyyədə maliyyələşdirilmirdi. Tələbələrin və müəllimlərin sosial vəziyyəti ağırlaşmışdı. Tədris prosesi iflic vəziyyətinə düşmüşdü. Universitetin maddi-texniki bazasını möhkəmləndirmək, yeni avadanlıq və cihazlar almaq, kitabxananı yeni ədəbiyyatla təmin etmək üçün vəsaitin ayrılmaması universiteti çətin vəziyyətə salmışdı.

Xalqın tələbi ilə ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi Azərbaycan dövlətçiliyini, çətin vəziyyətə düşmüş xalqımızı xilas etdi. Ulu öndərin məqsədyönlü daxili və xarici siyasəti nəticəsində tədricən respublikanın iqtisadiyyatı, sənayesi və kənd təsərrüfatında sabitlik yarandı, dirçəliş baş verdi. Respublikada baş alıb gedən anarxiya aradan qaldırıldı, hakimiyyət böhranına son qoyuldu. Dövlət intizamı bərpa edildi. Bütün bunlar respublikanın elmində, təhsilində, mədəniyyətində yeni ab-havanın yaranmasına səbəb oldu.

Həmin vaxt Bakı Dövlət Universitetinin rəhbərliyi möhkəmləndirildi. Tədris prosesi əvvəlki axarına qayıtdı. Dövlət böyük çətinliklə də olsa universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün tədbirlər gördü. 1993-cü ildən başlayaraq universitetin maliyyə vəziyyəti ilbəil yaxşılaşdırıldı. Ulu öndər Heydər Əliyevin sərəncamı ilə 1994-cü ilin noyabrında universitetin 75, 1999-cu ildə isə 80 illik yubileyi qeyd edildi. Hər iki tədbirin keçirilməsi üçün yaradılmış yubiley komissiyasına Prezident Heydər Əliyevin başçılıq etməsi universitetin mövqeyini daha da möhkəmləndirdi, nüfuzunu artırdı.

Universitetin tədris, elm və mədəni quruculuq sahəsindəki xidmətlərini yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev 80 illik yubiley münasibətilə universitet kollektivinin 69 nəfər üzvünü yüksək dövlət mükafatlarına, fəxri adlara layiq gördü.

Bakı Dövlət Universitetinin 80 illik fəaliyyətini yüksək qiymətləndirən xalqımızın ümummilli lideri Heydər Əliyev 28 dekabr 1999-cu ildə Bakı Dövlət Universitetinə göndərdiyi təbrik məktubunda yazırdı: "Universitet 80 illik tarixi ərzində respublikamızın elm, təhsil və ədəbiyyat sahələrinə görkəmli simalar bəxş etmişdir. Diqqətəlayiqdir ki, Bakı Dövlət Universiteti öz fəaliyyətinin bütün dövrlərində elm və təhsil məbədi olmaqla yanaşı, həm də Azərbaycan dilinin inkişafında, milli şüurun, vətənpərvərlik hissinin inkişafında xidmətlər göstərmiş, bir mərkəz rolunu oynamışdır". Onu da qeyd etmək lazımdır ki, müstəqillik illərində ulu öndər Heydər Əliyev Bakı Dövlət Universitetini həmişə diqqət mərkəzində saxlamış, onu Azərbaycan ali məktəblərinin bayraqdarı hesab etmiş, universitetin məzunu olmağı ilə fəxr etdiyini bildirmişdir. BDU-nun çoxminlik kollektivi Heydər Əliyev kimi dünyəvi şəxsiyyət yetişdirməsi ilə qürur hissi keçirir. Heydər Əliyevin burada təhsil aldığı illər və respublikaya rəhbərlik etdiyi dövrdə bu elm məbədgahı ilə əlaqələri Bakı Dövlət Universitetinin şanlı tarixinin mühüm və əlamətdar bir mərhələsini təşkil edir.

Bakı Dövlət Universitetinin tərəqqi və inkişafının ən məhsuldar dövrü olan son 30 ildə ulu öndərin adı və fəaliyyəti ilə qırılmaz tellərlə bağlıdır. Məhz buna görədir ki, universitetin çoxminlik qədirbilən kollektivi öz böyük məzununun xatirəsini daim əziz tutur. Təsadüfi deyil ki, Bakı Dövlət Universitetinin Böyük Elmi Şurası 1994-cü il 28 oktyabr tarixli geniş iclasında Azərbaycan xalqı, dövləti, elmi və təhsili qarşısında mühüm xidmətlərinə görə Heydər Əlirza oğlu Əliyevə universitetin Fəxri doktoru adı verilməsi haqqında yekdil qərar qəbul etmişdir. Maraqlı bir faktı yada salmaq yerinə düşər ki, AMEA Heydər Əliyevi özünün akademiki seçmək istədikdə o, bunu lazım bilmədi. Ancaq universitetin Fəxri doktoru adını və onun diplomunu böyük məmnuniyyət hissi ilə qəbul etdi.

Müstəqillik illəri Bakı Dövlət Universitetinin tarixində intibah dövrü kimi xarakterizə edilir. 1999-cu ildə ulu öndər Heydər Əliyevin sərəncamı ilə Əməkdar elm xadimi Abel Məhərrəmov bu ali təhsil ocağına rektor təyin edildiyi ilk gündən bütün bilik və bacarığını, potensial imkanlarını doğma universitetin tərəqqisinə, təhsil sisteminin yüksəldilməsinə və təkmilləşdirilməsinə istiqamətləndirmiş və bu təhsil ocağını beynəlxalq standartlara cavab verən dünya universitetləri sırasına çıxara bilmişdir. O, sözün əsl mənasında çoxsaylı kollektivi vahid bir orqanizm kimi hərəkətə gətirmiş, hamını bir nəfər kimi universitetin tədris-metodik, elmi-tədqiqat işinə cəlb etməyə nail olmuşdur.

Son illər Bakı Dövlət Universitetinin maddi-texniki bazası xeyli möhkəmləndirilmiş, geniş abadlıq işləri aparılmış, idman kompleksi, örtülü stadion, dünya standartlarına cavab verən üzgüçülük hovuzu tikilib istifadəyə

verilmiş, tədris binaları, demək olar ki, yenidən qurulmuş, böyük mədəniyyət və istirahət parkını xatırladan universitet şəhərciyi yaradılmışdır. Universitetin yeməkxanası yenidən qurulmuş, bütün tədris korpuslarında professor-müəllim heyətinə, tələbələrə və universitet əməkdaşlarına yüksək xidmət göstərən bölmələr yaradılmışdır.

Ötən müddətdə Bakı Dövlət Universitetində dünya elm və tədrisinin son nailiyyətlərini öyrənməyə imkan verən elmi laboratoriyalar və kafedralar, bütün tədris binalarında zəngin kitabxanalar və oxu zalları yaradılmış, universitetin fundamental kitabxanasının maddi bazası zənginləşmiş, kitab fondu xeyli çoxalmışdır. Mövcud tədris və elmi laboratoriyalar dünya standartlarına cavab verən ən müasir avadanlıqla təchiz edilmişdir. Təhsilin kompüterləşdirilməsi və tələbələrin kompüter savadına yiyələnməsinin mühüm rolu nəzərə alınaraq universitetdə lokal kompüter şəbəkəsinin İnternetə çıxışı təmin edilmiş, müəllim və tələbələrin dünya virtual sisteminə qoşulması üçün əlverişli şərait yaradılmışdır.

Son illərdə görülən təqdirəlayiq işlərdən biri də 1500 kvadratmetr sahəsi olan, 1 milyon yarım ABŞ dolları dəyərində yeni avadanlıqla təchiz olunmuş "Bakı Universiteti" nəşriyyatının yenidən qurulmasıdır. Bu, universitetin kollektivi üçün qiymətli hədiyyədir. Geniş çap imkanlarına malik olan bu nəşriyyat ildə onlarca dərslik, dərs vəsaiti, metodik göstəriş, proqram nəşr edir ki, bu da təhsil islahatının keçirildiyi dövrdə tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Müstəqillik illərində Bakı Dövlət Universitetinin beynəlxalq əlaqələri də genişlənmiş, universitet dünya təhsil sisteminə sürətlə inteqrasiya etməyə başlamışdır. Hazırda universitetdə Boloniya təhsil sisteminə qoşulmaq üçün böyük islahatlar aparılır, biologiya, jurnalistika, şərqşünaslıq, filologiya, hüquq, beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültələrində bu proses uğurla tətbiq edilir.

Bu illərdə Bakı Dövlət Universitetinin böyük bəşəri əhəmiyyətə malik xidmətlərindən biri də dünyanın onlarca ölkəsi üçün yüksək ixtisaslı mütəxəssis kadrlar hazırlamasıdır. Xarici ölkələr üçün kadr hazırlığı 1968-ci ildən başlamış, tezliklə SSRİ məkanında xarici ölkələr üçün kadr hazırlığında böyük mərkəzlərdən biri kimi ad-san qazanmış və böyük şöhrət sahibi olmuşdur. Belə ki, 30 il müddətində BDU 51 xarici ölkə üçün (Almaniya, Polşa, Çexiya, Slovakiya, Bolqarıstan, Türkiyə, Misir, Suriya, İordaniya, Əlcəzair, Yəmən, İran, Əfqanıstan, Kuba, Meksika, Çili, Çin, Hindistan, Vyetnam, Cənubi Koreya, Monqolustan və b.) 2 min nəfərdən artıq yüksək ixtisaslı mütəxəssis, o cümlədən 112 elmlər namizədi, 17 elmlər doktoru hazırlamışdır.

Bakı Dövlət Universiteti respublikamızın ən böyük təhsil və elm mərkəzi kimi böyük elmi potensiala malikdir. Hazırda universitetin 16 fakültəsində 17.037 tələbə 43 ixtisas üzrə bakalavr, 33 istiqamət, 156 ixtisaslaşma üzrə 1270 magistr təhsil alır. Bütövlükdə isə 90 il müddətində universitet 120 mindən artıq yüksək ixtisaslı mütəxəssis hazırlamışdır. İndi universitetin 130-

dan artıq kafedrasında 300-ə qədər elmlər doktoru, professor və 800-dən çox elmlər namizədi, dosent fəaliyyət göstərir.

Bakı Dövlət Universitetinin təşkilində, inkişafında idarə edilməsində, onun elm məbədgahına çevrilməsində görkəmli xidmətləri olan fədakar insanlar, elm və təhsil xadimləri olan universitet rektorları: V.İ.Razumovski, N.Davıdenko, T.A.Şahbazi, E.Ə.Əliyev, S.A.Ələsgərov, Ş.R.Əliyev, M.K.Ələkbərli, A.İ.Qarayev, C.Z.Hacıyev, Y.H.Məmmədəliyev, Ş.F.Mehdiyev, M.Ç. Əliyev, F.M.Bağırzadə, Y.C.Məmmədov, M.E.Qasımov, M.N.Ələsgərov, M.S.Mərdanov, A.M.Məhərrəmov və başqaları mühüm işlər görmüşlər.

Universitetin keçdiyi bu şərəfli yola nəzər salarkən məlum olur ki, bu elm məbədgahı həmişə xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursuna, azərbaycançılıq ideyalarına sadiq olmuşdur. Bakı Dövlət Universitetinin bugünkü fəaliyyəti ulu öndər Heydər Əliyevin layiqli davamçısı, xalqımızın sevimlisi Azərbaycan Respublikasının Prezidenti sənəb İlham Əliyevin daxili və xarici siyasətinə böyük dəstəkdir. Universitetin yeni tədris korpusunun açılışında çıxış edən möhtərəm Prezident cənəb İlham Əliyev demişdir: "Bakı Dövlət Universiteti Azərbaycanın aparıcı təhsil ocağıdır. Burada çox güclü professor-müəllim heyəti vardır və bütün dövrlərdə universitet Azərbaycanda peşəkar kadrların hazırlanması işində çox böyük işlər görmüşdür. Bu gün isə universitet inkişafının yeni mərhələsini yaşayır".

Beləliklə, bu kəşməkeşli yolu böyük qürurla keçən Bakı Dövlət Universiteti hər cür çətinliyə sinə gərərək mətinləşmiş, zaman-zaman inkişaf edərək formalaşmış və Azərbaycan xalqının böyük bir elm və təhsil məbədgahına çevrilmişdir.

Bu yolda sənə böyük uğurlar diləyirik, doğma və əziz Bakı Dövlət Universiteti!

"Xalq qəzeti", 9 iyul 2009

MÜSTƏQİLLİK İLLƏRİNDƏ ALİ KİTABXANAÇILIQ TƏHSİLİNİN İNKİŞAFI

Müstəqilliyin ilk illərində ölkənin iqtisadi, siyasi, mədəni və mənəvi həyatında baş verən və getdikcə dərinləşən böhran və ziddiyyətlər təhsil sistemini böyük çətinliklər qarşısında qoymuşdu. Müsavat və Xalq Cəbhəsi cütlüyünün uğursuz siyasəti nəticəsində yaranmış iqtisadi çətinliklər, xaos, hərc-mərclik, hökumətin həyata keçirdiyi düşünülməmiş tədbirlər ali məktəblərin, o cümlədən Bakı Dövlət Universitetinin həyatında da güclü tənəzzülə səbəb olmuşdu.

Maddi vəziyyətin ağır olduğundan onlarla ali məktəb müəllimləri təhsil sistemini tərk etmişdi. Yalnız 1993-cü ilin yayında Heydər Əliyevin xalqın təkidi ilə ölkə rəhbərliyinə gəlməsi Azərbaycan təhsilini böhrandan xilas etdi. Ulu öndər təhsil sisteminə müstəqil Azərbaycan quruculuğunun ayrılmaz tərkib hissəsi kimi baxırdı. Məhz buna görədir ki, dövlətin təhsil sahəsində

həyata keçirdiyi tədbirlər, təhsil sistemində yeni islahatların aparılması, dünyanın qabaqcıl ölkələrinin təhsil sahəsindəki təcrübələrindən istifadə edilməsi ali məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, professor-müəllim heyətinin və tələbələrin sosial vəziyyətinin yaxşılaşdırılması, ali məktəblərdə demokratiyanın gücləndirilməsi, yeni azərbaycançılıq ideyalarına, yeni dünya baxışına, təfəkkür tərzinə söykənən dərsliklərin və dərs vəsaitlərinin yazılması və s. tədbirlər müstəqil Azərbaycan təhsil sisteminin yaradılması və daha da inkişafı üçün əlverişli şərait yaratdı.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 34 illik fəaliyyəti dövründə "xalqın milli sərvəti" hesab etdiyi Bakı Dövlət Universitetinə böyük diqqət və qayğı göstərmişdi. Müstəqilliyin ilk illərində Heydər Əliyev universitetin inkişafını təmin etmək, yeni şəraitdə fəaliyyətini canlandırmaq, tədris və təhsilin keyfiyyətini yüksəltmək, maddi-texniki bazasını möhkəmləndirmək, təhsil islahatının həyata keçirilməsi işini sürətləndirmək, əməkdaşların sosial problemlərini yaxşılaşdırmaq, universitet təhsilinin nüfuzunu artırmaq məqsədi ilə ciddi tədbirlər həyata keçirməyə başladı.

Heydər Əliyevin sərəncamları ilə universitetin 80, 85 illik yubileyləri keçirildi. Heydər Əliyevin sərəncamları və tövsiyələri əsasında BDU-nun rəhbərliyi yeni şəraitə uyğun olaraq təhsilin və tədrisin keyfiyyətini yüksəltmək məqsədilə konsepsiya işləyib hazırladı. Keçən illər boyu bu konsepsiyanın yerinə yetirilməsi uğurla davam etdirilmişdir. İndi böyük iftixar hissi ilə demək olar ki, Bakı Dövlət Universiteti müstəqillik illərində böyük inkişaf yolu keçmiş, dünyanın qabaqcıl universitetlərindən biri kimi şöhrət qazanmışdır.

Müstəqilliyin ilk illərində Bakı Dövlət Universitetinin Kitabxanaşılıq fakültəsi də böyük çətinliklərlə üzləşdi. Fakültənin qəbul planı yarıbayarı azaldı. Tələbələrin yeni dərsliklər, dərs vəsaitləri, proqramlarla təmin edilməsi işi olduqca çətinləşmişdi. Məlum olduğu kimi, SSRİ dövründə fakültə tədris planlarını, kitabxanaşünaslıq və biblioqrafiyaya dair bütün fənn proqramlarını Moskvadan alırdı. Moskva ilə əlaqə kəsildikdən sonra onları əldə etmək olduqca çətinləşdi. Yaxın müddətdə hazırlanması böyük vaxt və səriştə tələb edən belə vəsaitləri çap etmək və tələbələrin istifadəsinə vermək mümkün deyildi. Bu da özlüyündə tədris prosesinin təşkilinə və onun keyfiyyətinin yüksəlməsinə mənfi təsir göstərməyə bilməzdi.

Universitetdə aparılan yenidənqurma işləri və islahatlar, əldə edilən uğurlar fakültənin işinə də müsbət təsir göstərməyə, qəbul planı ilbəil artırılmağa başlandı. Kafedraların kadr potensialı möhkəmləndi. Yüksək ixtisaslı müəllim kadrları hazırlamaq üçün şərait yarandı.

Müstəqillik illərində fakültənin işinin yenidən qurulmasında, fakültə kollektivinin universitetdə aparılan təhsil islahatlarına cəlb edilməsində fakültə dekanlığının və ixtisas kafedralarının işi təqdirəlayiq olmuşdur. Müstəqilliyin ilk illərində fakültə dekanı vəzifəsində Kitabxanaşünaslıq kafedrasının müdiri prof. A.Xələfov işləmiş, 1993-1994-cü tədris ilindən isə bu vəzifəni fakültənin yetişdirməsi prof. X.İsmayılov tutmuşdur. O, indiyə qədər bu vəzifədə fəaliy-

yət göstərməkdədir.

Müstəqilliyin ilk illərində fakültədə 4 kafedra - Kitabxanaşünaslıq, Biblioqrafiyaşünaslıq, Kitabxana fondu və kataloqların təşkili və Kitabşünaslıq kafedraları, 3 tədris laboratoriyası - Kitabxana işinin təşkili və idarə olunması, Kitabxana fondu və kataloqların təşkili və Biblioqrafik axtarış sistemlərinin təşkili laboratoriyaları fəaliyyət göstərirdi. Fakültədə 40 nəfərə yaxın professor-müəllim və köməkçi texniki heyət çalışırdı.

Müstəqilliyin ilk illərində keçid dövrünün çətinlikləri ilə əlaqədar fakültəyə tələbə qəbulu azalmağa başladı. 1995-ci ildə universitetin axşam şöbəsində tələbə hazırlığından imtina etməsi ilə əlaqədar fakültənin axşam şöbəsi və qiyabi rus bölməsi bağlandı. Bütün bunlar tələbə qəbuluna mənfi təsir göstərdi. Fakültə rəhbərliyi tələbə qəbulu məsələsinə çox həssaslıqla yanaşır, qəbulun azalmaması üçün universitet rəhbərliyi və dövlət orqanları qarşısında məsələ qaldırırdı. Fakültənin bu səyi nəticəsiz qalmadı. 90-cı illərin ikinci yarısından başlayaraq tələbə qəbulu tədricən artmağa başladı. Artıq 90-cı illərin axırında hər il fakültəyə 130 nəfər tələbə qəbul edildi. 90-cı illərin əvvəllərində fakültədə iki ixtisas üzrə: kitabxanaşünaslıq, biblioqrafiya, kitabşünaslıq və kitab ticarətinin təşkili ixtisası üzrə kadr hazırlandı. 1997-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi kitab əmtəəşünaslığı ixtisası üzrə tələbə qəbulunu dayandırdı. Bu vəziyyəti düzgün hesab etməyən fakültə rəhbərliyi çox düzgün mövqe tutaraq, fakültədə kitab ticarətinin təşkili ixtisasının əvəzinə, respublikamızda indiyə qədər kadr hazırlanmayan, ancaq yüksək ixtisaslı mütəxəssis kadrlara böyük ehtiyac duyulan "Nəşriyyat işi və redaktə etmə" ixtisası üzrə şöbə yaratmağa müvəffəq oldu. Beləliklə, 1997-ci ildən başlayaraq Nəşriyyat işi və redaktə etmə ixtisasının gündüz şöbəsinə 30 nəfər tələbə qəbul edildi. Bu şöbənin ilk buraxılışı 2000-ci ildə oldu. Nəşriyyat işi və redaktə etmə ixtisası üzrə 2008-ci ilə kimi 387 nəfər yüksək ixtisaslı kadr hazırlanmışdır.

Kadr hazırlığı fəaliyyətini müvəffəqiyyətlə davam etdirən Kitabxanaçılıq-informasiya fakültəsi 1991-2009-cu illərdə iki ixtisas: Kitabxanaşünas-biblioqrafiya və Nəşriyyat işi və redaktəetmə ixtisasları üzrə 2481 nəfər yüksək ixtisaslı bakalavr kadr hazırlamağa müvəffəq olmuşdur. Fakültə həmçinin müstəqillik illərində kadr hazırlığının keyfiyyətində böyük dəyişiklik etməyə müvəffəq oldu. İnformasiya cəmiyyətinin kitabxana işi qarşısında qoyduğu vəzifələrə müvafiq olaraq tədrisin təşkilində yeni keyfiyyət dəyişikliyi etmək üçün tədris planında dəyişikliklər edildi. Tədris planına cəmiyyətin informasiya tələbatını ödəmək üçün informasiya texnologiyasına, kitabxana işinin kompüterləşdirilməsinə dair yeni fənlər salındı. Bu mühün problemi həll etmək üçün isə fakültənin adının dəyişdirilməsi ideyası irəli sürüldü. 2004-cü ildə fakültə elmi şurası fakültənin adının dəyişdirilib "Kitabxanaçılıq-informasiya" fakültəsi qoyulması haqqında fikir irəli sürdü. Bu təklif son on ildə universitetin maddi-texniki bazasının yüksəldilməsində, universitet təhsilinin dünya standartları səviyyəsinə yüksəldilməsində böyük işlər görmüş rektor,

akademik Abel Məhərrəmov tərəfindən müsbət qarşılandı və 2004-cü ildən fakültə Kitabxanaçılıq-informasiya fakültəsi adlandırılmağa başladı. Fakültənin adının dəyişdirilməsi ilə əlaqədar, fakültədə informasiyaya aid fənlərin keçirilməsinə geniş şərait yarandı. Fakültənin tədris planına müasir informasiya cəmiyyətinin tələblərini ödəyə biləcək yeni fənlər salındı.

Kitabxanaşünaslıq kafedrası üzrə: "Kitabxana işinin kompüterləşdirilməsinin əsasları", "Kitabxana iqtisadiyyatı, kitabxana işinin texniki vasitələri", "Uşaqlara və gənclərə kitabxana xidməti", "Dünya kitabxanalarının tarixi", "Kitabxana marketinqi", "Kitabxana informatikası", "Patent və normativ texniki sənədlər", "Kitabxanalarda patent informasiya texnologiyası", "Dünya milli kitabxanaları", "Kitabxanaşünaslığın tarixi, nəzəriyyəsi və metodologiyası", "Kitabxanaşünaslığın müasir problemləri".

Biblioqrafiyaşünaslıq kafedrası üzrə: "Biblioqrafik proseslərin texniki vasitələri və avtomatlaşdırılmış informasiya axtarış sistemləri", "Normativ texniki və patent sənədlərinin biblioqrafiyası".

Kitabxana resursları və informasiya – axtarışı sistemləri kafedrası üzrə: "Mərkəzləşdirilmiş kitabxana sistemlərində (MKS)informasiya axtarış sistemləri", "Kataloqlaşdırmanın müasir problemləri", "Sənədlərin elmi sistemləşdirilməsi metodikası", "Sənədlərin predmetləşdirilməsi", "Predmet kataloqu və onun avtomatlaşdırılması".

Kitabşünaslıq və nəşriyyat işi kafedrası üzrə: "Kitabşünaslığın müasr problemləri", "Kitabşünaslığın tarixi, nəzəriyyəsi və metodologiyasının əsasları", "Kitab sosial və kütləvi kommunikasiya sistemində, mətn nəzəriyyəsi", "Nəşriyyat işində menecment və marketinq" və s.

Azərbaycan Respublikasının Milli Məclisi 1992-ci ilin dekabrında "Azərbaycan Respublikasının Təhsil Qanunu"nu qəbul etdi. Respublikamızda təhsil islahatlarının aparılmasında bu qanunun mühüm rolu oldu. 6 bölmə 58 maddədən ibarət olan bu qanunda təhsilin bütün sahələri: təhsil sahəsində dövlət siyasəti, vətəndaşların təhsil hüquqları, təhsilin dili, təhsil və din, təhsil sisteminin idarə olunması, təhsil prosesinin iştirakçıları, onların hüquqları, vəzifələri və sosial müdafiəsi, təhsil sisteminin maliyyələşdirilməsi, maddi-texniki bazası, təhsil sahəsində beynəlxalq əməkdaşlıq məsələləri əksini tapmışdır. Burada ali təhsil sistemində ciddi dəyişikliklərin aparılması nəzərdə tutulmuş, Azərbaycanın tarixində ilk dəfə olaraq çoxpilləli təhsilə keçilmişdir.

1992-1993-cü dərs ilində yeni Təhsil Qanunu respublikamızın ali məktəblərində tətbiq edilməyə başladı.

BDU yeni Təhsil Qanununa keçən ilk tədris müəssisələrindən biri olmuşdur. Yeni təhsil sisteminə keçmək üçün universitetin bütün fakültələrində hazırlıq işləri görüldü, komissiyalar yaradıldı. Həm fakültələr, həm də universitet miqyasında qanunun əsas müddəalarını öyrənmək və onu tezliklə tətbiq etmək üçün müzakirələr, metodik müşavirələr, elmi şuralar keçirildi.

Universitetin Elmi Şurası 1993-cü ildə bütün fakültələrdə çoxpilləli təhsil sisteminin ardıcıl həyata keçirilməsi üçün dördillik "Bakalavr" tədris

planlarının tərtib edilməsi haqqında qərar çıxardı. Məlumdur ki, qərar qəbul edilənə qədər Azərbaycanda ali təhsilli kadrların hazırlanması SSRİ ali təhsil sisteminə əsaslanırdı və təhsil birpilləli idi. Ali təhsil ali məktəbin tipindən asılı olaraq 4 və 5 illik idi. Bir qayda olaraq bütün universitetlərdə (o zaman universitetlər olduqca az idi, Azərbaycanda cəmi bir universitet BDU fəaliyyət göstərirdi. Xalq təsərrüfatının ayrı-ayrı sahələri üçün kadr hazırlayan ali məktəblər institut adlanırdı) beşillik təhsil sistemi tətbiq edilirdi.

Azərbaycan Respublikasının Təhsil Qanununa görə bütün universitetlərdə çoxpilləli təhsil sistemi tətbiq edildi. İlk dəfə olaraq respublikamızda Avropa təhsil sisteminə keçildi. Yeni təhsil sistemi üç pillədən ibarət idi: bakalavr, magistr, doktor.

İkipilləli ali təhsil müəssisələrinin birinci pilləsini bitirənlər mövcud dövlət standartlarına müvafiq olaraq ümumi ali təhsili başa vurur, öyrəndiyi ixtisasın ümumi məsələlərinə yiyələnir. Fakültə elmi şuralarının qərarı ilə "Bakalavr" ixtisas və elmi dərəcəsi alan tələbələrin ali məktəblərdə və elmi müəssisələrdə işləmək hüququ yoxdur.

"Bakalavr" təhsil pilləsi buraxılış işi yazıb dövlət imtahan komissiyası qarşısında müdafiə etmək və istiqamət üzrə yekun dövlət imtahanı verməklə başa çatır. "Bakalavr" dərəcəsi almış mütəxəssislər qəbul imtahanı verib magistraturaya qəbul olunurlar. Magistratura əsasən dərin ixtisaslaşmalar aparılmaqla fərqlənir. Bu və ya digər elmin ayrı-ayrı sahələri araşdırmalar, tədqiqatlar vasitəsilə öyrədilir. Belə araşdırmalarda magistrlərin bilavasitə iştirak etməsi, buraxılış dissertasiya işi yazması onların elmi işçi kimi formalaşmasına imkan yaradır. Magistraturada həmçinin gələcək mütəxəssislərin yüksək dərəcəli elmi işçi, müəllim, aparıcı alim olacağını nəzərə alaraq, dünya elmi və mədəni sərvətlərinə yiyələnə bilmək bacarığı aşılamaq üçün xarici dillərdən heç olmasa birini mükəmməl bilməsi tələb olunur. Magistraturanı başa vuranlar müdafiə etdikləri elmi işə görə ixtisaslaşdırılmış elmi şuranın qərarı ilə "Magistr" ixtisası və elmi dərəcəsi alır. Bu dərəcə ona seçdiyi ixtisas üzrə ən yüksək pillələrdə, ali məktəblərin "Bakalavr" pilləsində, elmi tədqiqat müəssisələrində, birpilləli institutlarda, kolleclərdə işləmək hüququ verir. "Magistr" ixtisası və elmi dərəcəsi almış şəxslər istehsalatda da yüksək vəzifələrdə işləmək hüququna malikdirlər.

Kadr potensialı və maddi-texniki bazası imkan verən, müxtəlif ixtisaslar üzrə böyük laboratoriyalara, elmi-təcrübi bazalara malik olan bəzi universitetlər və akademiyalar üçpilləli təhsil sisteminə keçə bilərlər. Magistr hazırlığına icazə verən ali məktəblərə magistraturaya test vasitəsilə qəbul imtahanları verən şəxslər qəbul edilirlər. Magistraturanı qurtaran şəxslər doktoranturaya qəbul edilə bilirlər. Üç il müddətində doktoranturada tədqiqatlarını davam etdirən, öz elmi işlərinin nəticələrini doktorluq dissertasiyası kimi ixtisaslaşdırılmış elmi şuralarda müdafiə edən şəxslər doktoranturanı bitirmiş hesab edilirlər. Doktorlar universitetlərdə, institutlarda, elmi tədqiqat müəssisələrində, təcrübə bazalarında və s. işləyə bilərlər.

Azərbaycan Respublikası Təhsil Qanununun əsas müddəalarını tətbiq etmək üçün kitabxanaçılıq fakültəsinin kollektivi mühüm tədbirlər həyata keçirməyə başladı. İlk əvvəl qanunu öyrənmək məqsədilə ixtisas kafedralarında və fakültə elmi şurasında qanunun müzakirəsi keçirildi, tədbirlər planı tərtib edildi. Qərara alındı ki, yeni qanuna müvafiq "Bakalavr" hazırlamaq üçün tədris planı hazırlansın. Əlbəttə, bu iş o qədər də asan deyildi. Çünki 1993-cü ilə qədər fakültə 5 illik tədris planı əsasında işləmişdi. Yeni plan isə 4 illik olmalı idi.

4 illik tədris planı hazırlamaq üçün o qədər də zəruri olmayan bir sıra fənlər çıxarılmalı, bir sıra fənlərin, o cümlədən ixtisaslaşma fənlərinin saatları isə azaldılmalı idi. Bu planda istehsalat təcrübələrinin də saatları xeyli azalmışdı. Ciddi müzakirələrdən sonra "Bakalavr" ali baza tədris planı tərtib etmək mümkün oldu. Tədris planı fakültə elmi şurasında, universitet elmi şurasında, sonra Təhsil Nazirliyində təsdiq edildi. Yeni 4 illik "Bakalavr" ali baza tədris planı təsdiq edilənə qədər fakültə 1989-cu ildə Moskvada kitabxanaşünaslıq təhsili üzrə ümumittifaq elmi metodik şurası tərəfindən təsdiq edilmiş 5 illik tədris planı ilə işləyirdi. Tədris planı tərtib etmək sahəsində kitabxanaçılıq fakültəsinin böyük təcrübəsi var idi. 1989-cu ildə SSRİ dövründə tərtib edilmiş beşillik tədris planı fakültənin dekanı prof. Abuzər Xələfov tərəfindən tərtib edilmiş və Moskva şəhərində kitabxanaşünaslıq təhsili üzrə ümumittifaq elmi-metodik şurasında müzakirə və təsdiq edilmişdi. Şura bu tədris planının yüksək elmi və tədris keyfiyyətlərini, dünya standartlarına cavab verdiyini nəzərə alaraq onun SSRİ-nin bütün universitetlərində tətbiqini tövsiyə etmişdi. Bu plan məzmunu etibarılə kitabxanaçı kadrların hazırlanması sahəsində dünya standartlarına cavab verən, ən mükəmməl və gələcək perspektivləri nəzərə alan bir tədris planı idi. Avropa ölkələrində kitabxanaçı kadrlar hazırlayan tədris planlarına uyğun gələn bu planda riyazi və texniki elmlərin tədrisinə geniş yer verilmiş, kompüter texnikasının öyrənilməsinə xeyli vaxt ayrılmışdı. Bu da fakültəyə imkan verirdi ki, respublikanın şəraitinə və tələbatına uyğun kadrlar hazırlasın.

1993-cü ildə Azərbaycan Respublikasının Təhsil Qanununa müvafiq çoxpilləli təhsil prosesinə keçərkən kitabxanaçılıq fakültəsində yeni tədris planı hazırlandı. Bu planın əsasında 1989-cu ildə Moskvada təsdiq edilmiş tədris planı dururdu. Planda müasir şəraitdə Azərbaycanın müstəqilliyi ilə əlaqədar bir sıra ciddi dəyişikliklər edildi. Hər şeydən əvvəl Azərbaycan tarixi, Azərbaycan dili və ədəbiyyatı, xarici dil fənlərinin tədrisinə xüsusi diqqət yetirildi. Tədris planında olduqca geniş yer tutmuş ictimai fənlərin saatları azaldıldı və bir sıra fənlər çıxarıldı. Bundan başqa, ixtisas fənlərinin tədrisində də bir sıra yeniliklər baş verdi. 4 illik təhsil müddətinə keçilməsinə baxmayaraq ixtisas fənlərinin saatları nəinki azaldılmadı, əksinə, yeri gəldikcə kitabxanaşünaslıq, biblioqrafiya və kitab tarixi fənləri üzrə artırıldı. Belə ki, respublikamızın milli xüsusiyyətləri nəzərə alınaraq "SSRİ-də və xarici ölkələrdə kitabxana işinin tarixi" fənninin tərkib hissəsi kimi tədris edilən "Azərbay-

canda kitabxana işinin tarixi", həmçinin "Azərbaycanda kitab tarixi" və "Azərbaycan biblioqrafiyası tarixi" fənlərinin müstəqil fənn kimi tədris edilməsi nəzərdə tutuldu. Yeni təhsil sisteminə birbaşa yox, tədricən keçməyin daha məqsədəuyğun olmasını nəzərə alan fakültə elmi şurası "Bakalavr" tədris planlarında müvəqqəti olaraq keçid dövründə ixtisaslaşmalar aparılmasının saxlanılmasını lazım bildi. Bu, əsas etibarilə dərs saatlarının azalmasının qarşısının alınması və "Bakalavr" ixtisas dərəcələrində keçilməsi zəruri olan fənlərin formalaşdırılmasına qədər ənənəvi ixtisaslaşmalardan istifadə edilməsi üçün saxlanılmışdı.

Lakin 4 illik "Bakalavr" tədris planı uzunömürlü olmadı. Cəmisi 4 il keçdikdən sonra bu planı yenisi ilə əvəz etmək zərurəti meydana çıxdı. Keçən müddət ərzində respublikamızın ali məktəbləri "Bakalavr" hazırlamaq sahəsində müəyyən təcrübə əldə etdilər, həmçinin xarici ölkələrdəki ali məktəblərin işi ilə tanış olmaq imkanı qazandılar. Bu müddətdə Təhsil Nazirliyinin yaratdığı yüksək ixtisaslı mütəxəssislərdən ibarət komissiya təhsil standartlarını hazırladı. Ayrı-ayrı ixtisaslar, o cümlədən kitabxanaşünaslıq-biblioqrafiya ixtisası üzrə standartların yaradılması yeni tədris planlarının tərtibinə və təhsil prosesinin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərdi. Standartda müəyyən bir ixtisas üzrə kadr hazırlığı zamanı tədris planına daxil ediləcək bütün predmetlərin qısa proqramının verilməsi və öyrənilmə dərəcəsinin müəyyənləşdirilməsi tədris planlarının tərtibində mühüm rol oynadı.

1996-cı ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən hazırlanıb təsdiq edilən ixtisas standartları 1997-ci ildə "Bakalavr" pilləsi üzrə yeni tədris planlarının hazırlanmasına kömək etdi. Azərbaycan Respublikası Təhsil Nazirliyində təhsil standartları hazırlayan komissiyanın kitabxanaşünaslıq və biblioqrafiya ixtisasları üzrə sədri Kitabxanaşünaslıq kafedrasının müdiri prof. Abuzər Xələfov olmuşdur.

Kitabxanaşünaslıq və biblioqrafiya üzrə ixtisas standartı fakültəmizin tarixində ilk dəfə hazırlanmışdı. Komissiya uzunmüddətli axtarışlar aparmış, bir çox xarici ölkələrin ixtisas standartları ilə tanış olmuş, yerli şəraiti və tarixi ənənələrimizi nəzərə alaraq bu standartı tərtib etmişdir.

Bu standarta müvafiq olaraq tərtib edilən yeni "Bakalavr" ixtisası tədris planı daha da təkmilləşdirilmiş, Avropa ölkələrinin çoxpilləli "Bakalavr" tədris planlarına uyğunlaşdırılmışdır. Planda respublikamızın milli xüsusiyyətləri, tarixi, tədris ənənələri nəzərə alınmış, elmi-texniki tərəqqinin son nailiyyətləri öz əksini tapmışdır.

1997-ci ildə tərtib edilmiş kitabxanaşünaslıq və biblioqrafiya üzrə tədris planında ixtisaslaşmalar çıxarılmış, onların yerini ümumi ixtisas kurslarının daha mükəmməl tədrisi tutmuşdur.

Həmçinin yeni dövrün tələblərinə uyğun olaraq ixtisas fənləri üzrə bir sıra ümumi kurslar plana daxil edilmişdir. Kitabxanaşünaslıq üzrə "Kitabxana iqtisadiyyatı", "Uşaqlara kitabxana xidməti", "Normativ-texniki və xüsusi növ sənədlərin təsviri, təsnifləşdirilməsi", "Kitabxanada kataloqlaşdırma proseslə-

rinin mexanikləşdirilməsi və avtomatlaşdırılması" fənlərini; biblioqrafiya üzrə: "Uşaq və gənclər üçün ədəbiyyatın biblioqrafiyası", "Normativ-texniki sənədlərin və patent ədəbiyyatının biblioqrafiyası" fənlərini buna misal göstərə bilərik.

1997-ci ildə respublika ali məktəblərinin bütün fakültələrində "bakalavr" ixtisas dərəcəsi üzrə, yəni təhsilin birinci pilləsi üzrə ilk buraxılış oldu. Bununla əlaqədar Azərbaycan Respublikasının Təhsil Nazirliyi təhsilin ikinci pilləsini - "Magistratura" pilləsini davam etdirmək haqqında xüsusi sərəncam verdi və bu sərəncamda respublika üzrə "Magistr" hazırlanan ixtisasların siyahısı sadalandı. Bu siyahıya "Kitabxanaşünaslıq", "Biblioqrafiyaşünaslıq", "Kitabşünaslıq və nəşriyyat işi" ixtisasları da daxil edilmişdir.

Fakültə nazirliyin əmrinə müvafiq olaraq "Kitabxanaşünaslıq", "Biblioqrafiyaşünaslıq" və "Kitabşünaslıq və nəşriyyat işi" magistr tədris planını tərtib etməyə başladı. Təhsil Nazirliyi tərəfindən müəyyən təlimati məktublar, standartlar, nümunələr göndərilməsinə baxmayaraq, fakültə üçün yeni olan "Magistr" tədris planının tərtibi ciddi axtarışlar və müzakirələr tələb edirdi. Kollektivin qarşısında mühüm vəzifə qoyulmuşdu. Fakültənin kollektivi və elmi şurası bu işin öhdəsindən müvəffəqiyyətlə gəldi. Kitabxanaçılıq fakültəsi 1997-ci ildə magistr planını tərtib edib başa çatdırdı. Bu planda ayani şöbədə təhsil müddəti iki il nəzərdə tutulmuşdur. Fakültənin tərtib etdiyi magistr təhsil planı 1997-ci ilin iyun ayında Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir.

1999-2000-ci tədris ilindən başlayaraq Kitabxanaçılıq – informasiya fakültəsinə üç ixtisas: Kitabxanaşünaslıq, Biblioqrafiyaşünaslıq, Nəşriyyat işi və redaktə etmə ixtisasları üzrə magistr qəbuluna başlandı. 2000-ci ildə magistraturaya 6 nəfər qəbil edildi. İlk illər çətin olsa da fakültənin kafedraları magistr hazırlamaq işinin öhdəsindən müvəffəqiyyətlə gəldi. 2002-ci ildə fakültədə ilk magistr buraxılışı oldu. Fakültəni altı nəfər magistr bitirdi. Universiteti bitirən magistrlər hazırda BDU-da və respublikanın elmi-texniki kitabxanalarında müvəffəqiyyətlə çalışırlar. Müstəqillik illərində fakültənin magistratura şöbəsini 75 nəfər müvəffəqiyyətlə bitirmişdir.

90-cı illərdə respublikamızın müstəqilliyi ilə əlaqədar yeni dövrün tələbatına uyğun böyük təşkilati və elmi metodik işlər həyata keçirilmişdir.

Respublikamızda müstəqil, suveren, demokratik dünyəvi dövlətin qurulması, sosializm quruculuğundan, marksizm-leninizm nəzəriyyəsindən imtina ediləməsi, hər şeydən əvvəl təhsilin demokratikləşdirilməsini və humanistləşdirilməsini, onun məzmununda böyük ideoloji dəyişikliklər aparılmasını, başqa sözlə, onun elmi-nəzəri və metodoloji əsaslarının yeni təfəkkür tərzi, yeni dünyagörüşü baxımından işlənilməsini tələb edirdi. Göstərilən vəzifələrin öhdəsindən tez bir müddət içərisində gəlmək o qədər də asan iş deyildi. Bu işin yerinə yetirilməsində bütün kollektivin səyi tələb olunurdu.

Kollektiv 90-cı illərin əvvəllərindən başlayaraq ilk növbədə fakültədə tədris edilən bütün dərs proqramlarını yenidən işləməyə başladı. Proqramların

yenidən işlənməsi, bəzi proqramların isə yenidən tərtib edilməsi olduqca məsuliyyətli idi. Bütün proqramlar suverenliyimizin qarşıya qoyduğu tələblərə cavab verməli, milli ideologiyamıza uyğun yenidən işlənməli, başəri sərvətlərlə zənginləşməli idi. Proqramların məzmununda kommunist ideologiyasının çıxarılması, yeni demokratik əsasda işlənilməsi tələb edilirdi. Məlumdur ki, kommunist rejimi zamanı SSRİ-də kitabxanaşünaslıq səhv olaraq iki yerə ayrılmışdır: sovet kitabxanaşünaslığı və burjua kitabxanaşünaslığı. Sovet kitabxanaşünaslığı dünya kitabxanaşünaslığının əsas müddəalarını burjua ideologiyası adlandıraraq ondan imtina edirdi. Bu da sovet kitabxanaşünaslığı deyilən kitabxanaşünaslığın dünya kitabxanaşünaslığından təcrid olunmasına, ümumbəşəri sərvətlərdən məhrum edilməsinə gətirib çıxarmışdı.

Məhz buna görədir ki, yeni cəmiyyət quruculuğu bazar iqtisadiyyatı şəraitində kitabxana işinin, kitabxanaşünaslıq elminin demokratik, elmi-nəzəri və metodoloji əsaslarının yenidən işlənməsi və kitabxanaşünaslığın gələcəyinin müəyyənləşdirilməsi zərurəti meydana çıxırdı.

Yeni iqtisadi və siyasi sistemin təşəkkül tapdığı bir zamanda başlıca söhbət kitabxana işi sahəsində mövcud prinsiplərin yeniləşdirilməsindən və qismən dəyişdirilməsindən deyil, onların köklü surətdə təzədən formalaşdırılmasından gedirdi. Bu da hər şeydən əvvəl keçmiş totalitar rejimdən, sosializm quruculuğu illərindən miras qalmış kitabxanaların ideologiyalaşdırılması, sinfilik, partiyalılıq kimi antielmi və qeyri-humanist prinsiplərin rədd edilməsini, onun dünyəvi, humanist prinsiplərlə əvəzlənməsini tələb edirdi.

Bütün bu nəzəri müddəalar kitabxanaşünaslığa dair tərtib edilmiş yeni proqramlarda öz əksini tapdı. Kitabxanaşünaslıq, Kitabxana fondu və kataloqların təşkili, Biblioqrafiyaşünaslıq və Kitabşünaslıq kafedraları da yeni cəmiyyət quruculuğu və bazar iqtisadiyyatına keçid şəraiti ilə əlaqədar öz proqramlarını yenidən, müstəqilliyimizlə əlaqədar nəzəri cəhətdən təkmilləşdirmişlər. Kitabxanaşünaslıq fənləri üzrə 30-dan artıq proqram, Biblioqrafiyaşünaslıq fənləri üzrə 27 proqram, Nəşriyyat işi və redaktə etmə ixtisası üzrə 20-dən artıq proqram yenidən işlənib nəşr edilmişdir. Demək olar ki, fakültədə tədris edilən bütün fənlər proqramlarla təmin edilmişdir.

Fakültə kollektivinin 90-cı illər fəaliyyətində tərtib edilmiş yeni fənn proqramlarına uyğun dərsliklərin, dərs vəsaitlərinin, metodik vəsaitlərin yazılıb nəşr edilməsi də mühüm yer tutur. Keçid dövrünün hər cür çətinliyinə baxmayaraq fakültə alimlərinin ciddi səyi nəticəsində Azərbaycanın tarixində ilk dəfə olaraq orijinal dərsliklər və dərs vəsaitlərinin yazılıb çap etdirilməsinə nail olunmuşdur.

Kitabxanaşünaslıq kafedrası üzrə:

Dərsliklər:

1. Abuzər Xələfov. Kitabxanaşünaslığa giriş: Dərslik. I hissə. Bakı: 2001, 400 s.

2. Abuzər Xələfov. Kitabxanaşünaslığa giriş: Dərslik. II hissə. Bakı: 2003, 314 s.

3. Abuzər Xələfov. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. I hissə (ən qədim dövrlərdən XX əsrə qədər). Bakı: 2004, 328 s.

4. Abuzər Xələfov. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. II hissə (XX əsrin birinci yarısında Azərbaycanda kitabxana işi). Bakı: 2007, 552 s.

5. Abuzər Xələfov. Kitabxanaların kompüterləşməsinin əsasları: Dərslik. Bakı: 2006, 106 s.

6. Əli Rüstəmov. Kitabxana informatikası. Bakı: 2002, 551 s.

Dərs vəsaitləri:

1. Abuzər Xələfov. Kitabxanaşünaslığa giriş. Bakı, 1996. 58 s.

2. Abuzər Xələfov. Kitabxana işinin tarixi kursuna giriş. Bakı: 1996. 38 s.

3. Xəlil İsmayılov. Kitabxana işinin idarə edilməsinin metodikası və təşkilati məsələləri. Bakı, 1995. 96 s.

4. Xəlil İsmayılov. Kitabxana menecmentinin əsasları.-Bakı, 2005, 200 s.

5. Rasim Kazımov. Bazar iqtisadiyyatı və kitabxanalar.- Bakı: 1996, 3 s.

6. Rasim Kazımov. Kitabxana işinin iqtisadiyyatı: Dərs vəsaiti.-Bakı: 2004.- 88 s.

7. Rzayev Sahib. Oxuculara xidmət (Kitabxana xidməti): Dərs vəsaiti.-Bakı: BUN, 2002, 64 s.

8. Əli Rüstəmov. Respublika soraq-informasiya fondlarının avtomatlaşdırılması.-Bakı: 1990, 203 s.

9. Əli Rüstəmov İnformatika: Dərs vəsaiti.-Bakı: 2001, 190 s.

10. Zöhrab Baxşəliyev. Kitabxanaşünaslığa giriş.-Bakı: 1998, 92 s.

11. Murtuz Zəngibasarlı və b. Azərbaycan Respublikası Elmi Pedoqoji kitabxanası.-Bakı: 1997, 98 s.

12. Elçin Əhmədov. Dünya milli kitabxanaları: Dərs vəsaiti.-Bakı: 2007, 140 s.

13. Knyaz Aslan. Azərbaycanda təhsil sisteminə kitabxana xidməti: Dərs vəsaiti.-Bakı: BUN, 2005, 300 s.

14. Knyaz Aslan. Qədim və orta əsrlər dünya kitabxanaları: Dərs vəsaiti.-Bakı: BUN, 2008, 288 s.

15. Knyaz Aslan. Dünya kitabxanalarının tarixi: Dərs vəsaiti.-Bakı: BUN, 2008, 296 s.

16. Mehmanəli Məmmədov. Oxucu sorğularının ödənilməsində kitabxanalararası abonementin rolu. M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanası.-Bakı: 1993, 34 s.

17. Mehmanəli Məmmədov. Kitab çeşidi işinin nəzəriyyəsi və metodikası: Dərs vəsaiti.-Bakı: Mütərcim, 2005,112 s.

18. Məmmədov Mehmanəli. Respublika Elmi-Texniki Kitabxanasında KAA-nın təşkili.-Bakı: 1994, 42 s.

Müstəqillik illərində fakültənin kollektivi dərslik və dərs vəsaitləri ilə yanaşı olaraq kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığın aktual problemlərinə dair ciddi elmi-tədqiqatlar aparmış və öz tədqiqatlarının

nəticələrini monoqrafiya kimi nəşr etdirmişlər. Uzun müddətli elmi-tədqiqatların elmi nəticəsi olan milli kitabxanaşünaslıq elmini yeni elmi-nəzəri və metodoloji müddəalarla zənginləşdirən bu qiymətli elmi-tədqiqat əsərləri milli kitabxanaşünaslığımıza dəyərli töhfələrdir.

Monoqrafiyalar:

1. Abuzər Xələfov. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.-Bakı: Azərnəşr, 2006, 312 s.
2. Abuzər Xələfov XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər, proqramlar).-Bakı: 2006, 106 s.
3. Abuzər Xələfov. Azərbaycanda ali kitabxanaçılıq təhsili. Bakı: 1998, 130 s.
4. Xəlil İsmayılov. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi.-Bakı: 200. 416 s.
5. Knyaz Aslan. Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu (Azərbaycan kitabxanalarının materialları əsasında).-Bakı: 2005.- 300 s.
6. Knyaz Aslan. Elm və təhsil fədaisi. (Prof. A.Xələfovun 75 illiyinə həsr olunur).-Bakı: 2006, 240 s.
7. Əli Rüstəmov. Rayon (bölgə) mərkəzləşdirilmiş kitabxana sistemlərində informasiya texnologiyaları: planlaşdırılması və tətbiq mexanizmi: Monoqrafiya.-Bakı: 1993, 152 s.
8. Ə.Rüstəmov. Avtomatlaşdırılmış kitabxana informasiya sistemləri (layihələşdirilməsi, işlənməsi və tətbiqi). Monoqrafiya.-Bakı: 2007, 362 c.

Biblioqrafiyaşünaslıq kafedrası üzrə:
Dərslik:

1. Zöhrab Əliyev. Azərbaycan biblioqrafiyasının tarixi.-Bakı: 2007, 186 s.

Dərs vəsaitləri:

1. Hacıyeva Q. Xarici biblioqrafiya.-Bakı: 2008, 140 s.
2. Raifə Vəzirova Biblioqrafik tərtibatın metodikası Nadir İsmayılov.-Bakı: 2004, 60 s.
3. Nadir İsmayılov, Qəmzə Hacıyeva Kitabxanada ölkəşünaslıq (diyarşünaslıq) üzrə biblioqrafik fəaliyyət.- Bakı: 2004, 120 s.

Monoqrafiyalar:

1. Nadir İsmayılov. Azərbaycan Respublikasının kitabxana və informasiya ehtiyatları: İnkişaf mərhələləri, nəzəriyyəsi və təkmilləşdirilməsi yolları.-Bakı: Mütərcim, 2005, 300 s

Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrası üzrə
Dərs vəsaitləri:

1. Kitabxanaşünaslıq (Kitabxana kataloqları) (Prof. A.Xələfovun redaktəsilə). Bakı: 1996, 212 s.
2. Tacəddin Quliyev və b. Təbiətşünaslığa dair ədəbiyyatın təsviri və təsnifləşdirilməsi metodikası.-Bakı: 1997, 82 s.
3. Tacəddin Quliyev və b. Biblioqrafik təsvirin tərtibi qaydaları.-Bakı: 1996, 68 s.
4. Tacəddin Quliyev. Azərbaycanda kitabxanaçılıq işi. (Respublika Həmkarlar İttifaqının materialları əsasında).-Bakı: 2004, 230 s.
5. Mayıl Həsənov. Kitabxana fondunun formalaşdırılması və idarə edilməsi . Bakı: 2004, 144 s.
6. Aşur Əliyev. Kitabxanaşünaslıq (Kitabxana kataloqları 3-cü fəsil).-Bakı: 1996, 212 s.
7. Aşur Əliyev. Kitabxanaşünaslığa dair ədəbiyyatın təsviri, təsnifləşdirilməsi metodikası.-Bakı: 1997, 90 s.
8. Çap əsərlərinin biblioqrafik təsviri qaydaları.-Bakı: 2001, 86 s.
9. Normativ-texniki sənədlərin təsviri və təsnifləşdirilməsi.- 2001, 214 s.
10. Biblioqrafik təsvirin tərtibi qaydaları.Bakı, 2007, 136 s.

Monoqrafiyalar:

1. Sevda Xələfova. Azərbaycanda dövlət kütləvi kitabxanalar şəbəkəsinin inkişafı (1970-1990).-Bakı: 2007, 160 s.

Kitabşünaslıq və nəşriyyat işi kafedrası üzrə
Dərsliklər:

1. İsmayıl Vəliyev. Ədəbi-bədii və uşaq kitablarının redaktəsi.-Bakı: 2002, 200 s.
2. İsmayıl Vəliyev. Redaktənin əsasları: I hissə: Nəzəriyyə və təcrübə.-Bakı: 2002, 96 s.
3. İsmayıl Vəliyev. Redaktənin əsasları: II hissə: Redaktənin metodikası mətnin redaktor təhlili.-Bakı: 2003, 184 s.
4. İsmayıl Vəliyev. Redaksiya - nəşriyyat işinin əsasları.-2004, 140 s.

Dərs vəsaitləri:

1. Bayram Allahverdiyev, R.Məmmədzadə. Müasir mərhələdə kitab ticarətinin təşkili.-Bakı: 1996, 225 səh.
2. Nailə Mehrəliyeva. Yeniyetmələrin mənəvi tərbiyəsində məktəb kitabxanalarının yeri.-Bakı: 2006, 230 s.
3. Quliyeva Şəhla. Müəllif hüququ.-Bakı: 2007, 210 s.

Monoqrafiyalar:

1. Bayram Allahverdiyev. Ümumi kitab tarixi.-Bakı: 2003, 384 s.

2. Vüsalə Azərqızı. XV-XVII əsr türk təzkirəçiliyi.-Bakı: 2007, 270 s.
3. Sevda Quliyeva. Azərbaycan soraq-məlumat ədəbiyyatı. -Bakı: 2006, 176 s.

Doğrudur, indiki şəraitdə fakültə tələbələrinin dərsliklərə və dərs vəsaitlərinə böyük tələbatı baxımından bu nəşrlər olduqca azdır. Demək olar ki, bu tələbatın ancaq 20%-i təmin edilmişdir.

Belə bir vəziyyət fakültə kollektivinin qarşısında yaxın gələcəkdə tələbələri dərsliklər və dərs vəsaitləri ilə təmin etmək vəzifəsi qoyur. Məlum həqiqətdir ki, bu cür nəşrlər olmadan öz sənətinin kamil mütəxəssislərini hazırlamaq qeyri-mümkündür.

Müstəqillik illərində fakültənin kollektivi öz elmi tədqiqatlarının müəyyən hissəsini bu və ya digər elmi jurnallarda və məcmuələrdə məqalələr şəklində də dərc etdirmişlər. 200-ə yaxın məqalə dərc etdirmiş müəllimlər kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslığın müasir elmi problemlərinin öyrənilməsində əhəmiyyətli nailiyyətlər əldə etmişlər.

Bütün dünyada unikal elmlərdən biri sayılan kitabxanaşünaslıq və biblioqrafiya sahəsində az müddət ərzində 30 nəfər yüksək elmi potensiala malik kadrın yetişdirilməsi təqdirəlayiq bir hadisədir. Hazırda fakültədə yüksək ixtisaslı kadr hazırlanması üçün məqsədyönlü, ardıcıl siyasət yeridilir. Belə kadrların hazırlığı əsasən əyani və qiyabi aspirantura, dissertantlıq yolu ilə həyata keçirilir. Doğrudur, keçid dövrü fakültədə elmi dərəcəyə malik müəllim kadrların hazırlanmasına mənfi təsir göstərdi. Cəmiyyətdə baş verən iqtisadi çətinliklər, fakültədə ixtisaslaşdırılmış elmi şuranın olmaması müdafiələrin azalmasına səbəb oldu. Ancaq bu çətinlik uzun sürmədi. 90-cı illərin axırı və 2000-ci ilin əvvəllərindən başlayaraq fakültədə doktorluq və namizədlik dissertasiyalarının müdafiəsi sahəsində ciddi dönüş baş verdi. Bir doktorluq, 7 namizədlik dissertasiyası müdafiə edildi. Bu sahədə Kitabxanaşünaslıq kafedrası xüsusilə fərqləndi. Fakültə üzrə müdafiə edilən 8 dissertasiyadan 7-si Kitabxanaşünaslıq kafedrasında hazırlanmışdır.

Müstəqillik illərində respublikamızda müdafiə edilən doktorluq dissertasiyasını xüsusilə qeyd etmək yerinə düşər. Kitabxanaçılıq-informasiya fakültəsinin yetirməsi, 1994-cü ildən fakültəyə başçılıq edən dos. Xəlil İsmayılov uzun illərdən bəri işlədiyi "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi"nə həsr edilmiş dissertasiya işini müdafiə edib tarix elmləri doktoru elmi dərəcəsi aldı. Bu müdafiə Azərbaycan milli kitabxanaşünaslığı tarixində mühüm hadisə idi.

Həmçinin kitabxanaşünaslıq kafedrasının aspirant və dissertantlarından: Knyaz Aslan, E.Əhmədov, M.Məmmədov, Ə.Nəcəfov, Ş.İslamova və S.Xələfova müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə edib elmlər namizədi alimlik dərəcəsi almışlar.

Müdafiə edilən doktorluq dissertasiyasının elmi məsləhətçisi və namizədlik dissertasiyalarının elmi rəhbəri kafedranın müdiri, əməkdar elm xadimi, prof. Abuzər Xələfov olmuşdur. Kitabxanaşünaslığın aktual problemlərinə həsr edilən

bu qiymətli tədqiqat əsərləri Azərbaycan milli kitabxanaşünaslığının inkişafında mühüm mərhələ təşkil edir. Bu mərhələnin əsas xüsusiyyətləri mövzu rəngarəngliyidir. Müxtəlif aktual problemlərə həsr edilən bu tədqiqatlar kitabxanaşünaslığın mövzu əhatəliyinin genişləndirilməsi və onun bütövləşməsi üçün əlverişli şərait yaradır, kitabxanaşünaslıq elmləri arasında inteqrasiya, bir-birinə qoşulma və biri digərinin hesabına zənginləşmə prosesini təmin edir. Fikrimizi təsdiq etmək üçün müdafiə edilən mövzulardan bir neçəsinin adını çəkmək yerinə düşər: "Azərbaycanda uşaqlara kitabxana xidmətinin təşkili", "Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu", "Azərbaycan Respublikası kitabxanalarında kitabxanalararası abonement sistemi, Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilatətində kitabxana işinin tarixi", "Azərbaycan Respublikası Elmlər Akademiyası kitabxana şəbəkəsinin təşəkkülü və inkişafı", "Azərbaycanda kitabxana şəbəkəsinin inkişafı" və s.

Müstəqillik illərində fakültə kollektivi tərəfindən çap edilmiş dərsliklər, dərs vəsaitləri və monoqrafiyaların siyahısından görünür ki, Kitabxanaçılıq-informasiya fakültəsində elmi-tədqiqat işlərinin istiqaməti, mövzu dairəsi, tədqiqat obyektləri xeyli genişlənmiş, mücərrəd mövzuların tədqiqinə az yer verilmiş, daha çox yer isə kitabxana işi təcrübəsinə həsr edilmiş mövzulara verilmişdir ki, bu da respublikamızda kitabxana xidməti prosesinə, kitabxana işinin günün tələbləri səviyyəsində qurulmasına müsbət təsir göstərmişdir.

Fakültədə aparılan elmi-tədqiqat işlərinin işıq üzü görməsində 1997-ci ildə fakültənin dekanı prof. Xəlil İsmayılov tərəfindən təsis edilmiş və elmi redaktorluğu ilə nəşr edilən "Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri və təcrübi jurnalının böyük rolu olmuşdur. Jurnalın səhifələrində fakültənin professor-müəllim heyətinin elmi-tədqiqat işlərinin yekunları, elmi araşdırmaları, yeni fikir və ideyaları, təhsil sistemində aparılan islahatların xarakter və xüsusiyyətləri, həmçinin kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, nəşriyyat işi və redaktə fənlərinin tədrisi metodikası haqqında çox qiymətli elmi məqalələr dərc edilir. Jurnal respublikamızın elmi kitabxanalarında çalışan əməkdaşların məqalələrini də nəşr edir ki, bu da onun coğrafiyasını xeyli genişləndirməklə kitabxanaların təcrübi fəaliyyətinə müsbət təsir göstərir. Jurnal son zamanlar fakültədə təhsil alan magistrlərin ilk tədqiqatlarını və magistr dissertasiyalarının nəticələrini də dərc etməyə başlamışdır ki, bu da fakültədə magistr hazırlığına olduqca müsbət təsir göstərir. Jurnal müntəzəm olaraq kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində yeni fikir və ideyaların, yeni araşdırmaların elmi nəticələrini çap etməklə kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin inkişafına əhəmiyyətli təsir göstərir. Jurnalda fakültədə tədris edilən fənlərə dair məqalələrin dərc edilməsi tələbələr üçün də böyük əhəmiyyətə malikdir.

Jurnalda respublikamızla yanaşı olaraq digər xarici ölkələrin (Gürcüstan, Ukrayna, Belorusiya və s.) mütəxəssislərinin də məqalələri dərc edilir ki, bu da fakültənin beynəlxalq əlaqələrinin genişlənməsinə olduqca müsbət təsir göstərir.

"Kitabxanaşünaslıq-biblioqrafiya" elmi-nəzəri, metodik və təcrübi jurna-

lının hər il 2 nömrəsi; hər bir nömrə 9 çap vərəqi həcmində çap edilməklə indiyə qədər 23 nömrəsi işıq üzü görmüşdür. Jurnalda 11 il müddətində 4 92 adda, 207 çap vərəqi həcmində məqalə dərc edilmişdir ki, bunu da fakültə kollektivinin mühüm nailiyyəti kimi qiymətləndirmək olar.

62 il bundan əvvəl, 1947-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin yanında əsası qoyulan və cəmi 16 nəfər tələbə qəbul edilən Kitabxanaçılıq şöbəsi indi ən aparıcı fakültələrdən birinə çevrilmişdir. Şöbə təşkil edilən zaman onun yeganə kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında cəmi iki nəfər müəllim işləyirdi. Bu müəllimlərin heç birinin nə elmi adı, nə də baza təhsili yox idi. 1962-ci ildə Kitabxanaçılıq şöbəsinin həyatında mühüm bir hadisə baş verdi. Şöbə müstəqil fakültəyə çevrildi. Fakültənin dekanı vəzifəsinə kitabxanaçılıq şöbəsinin yetişdirməsi olan tarix elmləri namizədi Abuzər Xələfov təyin edildi. Müstəqil Kitabxanaçılıq fakültəsinin təşkilinin təşəbbüskarı və yaradıcısı fakültənin ilk dekanı Abuzər Xələfov olmuşdur. Müstəqil Kitabxanaçılıq fakültəsinin tarixində 1970-1980-ci illər xüsusi inkişaf və tərəqqi mərhələsi kimi xarakterizə olunur.

1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlməsi ölkənin inkişafında dönüş mərhələsinin başlanmasına səbəb oldu. Xalq təsərrüfatının bütün sahələrinin inkişafında, elm, mədəniyyət və təhsil sisteminin tərəqqisində böyük nailiyyətlər əldə edildi. Bu dövrdə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi də böyük uğurlar əldə etmişdir. Ulu öndərin bilavasitə göstərişi və qayğısı sahəsində Kitabxanaçılıq fakültəsinə tələbə qəbulu ilbəil artırılmış, fakültə SSRİ-nin müttəfiq respublikalarının ali məktəblərinin Kitabxanaçılıq fakültələri içərisində ən böyük fakültəyə çevrilmişdir.

70-ci illərdə fakültənin əyani şöbəsinə 125, axşam şöbəsinə 50, qiyabi şöbəsinə 100 nəfər tələbə qəbul edilmişdir. Artıq 1975-ci ildə fakültənin bütün şöbələrində 2 mindən artıq tələbə təhsil alırdı. 80-ci illərin axırlarında fakültənin inkişaf tempi xeyli aşağı düşmüş, qəbul planı yarıbayarı azalmışdır. Müstəqilliyin ilk illərində daha da böyük çətinliklə üzləşmiş fakültə bağlanmaq təhlükəsi qarşısında qalmışdır. 1993-cü ildə ulu öndər xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra bütünlükdə təhsil sistemi, o cümlədən Kitabxanaçılıq fakültəsi hər cür çətinliklərdən qurtardı və 90-cı illərin ikinci yarısından təhsil sistemində inkişaf başlandı.

Beləliklə, Azərbaycan mədəniyyətinin mühüm tərkib hissəsi olan kitabxanalar üçün yüksək ixtisaslı kadr hazırlayan Kitabxanaçılıq-informasiya fakültəsi müstəqillik illərində keçid dövrünün hər cür çətinliklərinə baxmayaraq hərtərəfli inkişafa nail olmuş, dünya standartlarına uyğun kadr hazırlamağa başlanmışdır. Fakültədə bakalavr və magistrlərlə yanaşı olaraq doktorlar hazırlamaq üçün də geniş şərait yaranmış, kadr potensialı xeyli güclənmişdi.

2008-2009-cu tədris illərində Kitabxanaçılıq-informasiya fakültəsinin bakalavriat pilləsinin əyani və qiyabi şöbələrində 451 nəfər tələbə təhsil alır. Bunlardan 259 nəfər əyani şöbədə, 192 nəfər isə qiyabi şöbədə oxuyur. Magistr pilləsinin əyani və qiyabi şöbələrində 41 nəfər magistr təhsil alır.

Bunlardan 17 nəfəri təhsilini əyani, 24 nəfəri qiyabi davam etdirir.

Həmçinin müstəqillik illərində fakültənin yanında elmi kadrlar yetişdirmək üçün kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, nəşriyyat işi və redaktə etmə ixtisasları üzrə aspirantura və dissertantura şöbələri fəaliyyət göstərmişdir. Hazırda fakültənin 4 nəfər əyani, 2 nəfər qiyabi aspirantı və 6 nəfər dissertantı vardır.

Fakültədə 40 nəfərdən artıq əməkdaş fəaliyyət göstərir. Bunlardan 4 nəfər elmlər doktoru, professor, 1 nəfər elmlər namizədi professor, 10 nəfər elmlər namizədi, dosent, 2 nəfər elmlər namizədi, müəllim, 9 nəfər baş müəllim, 4 nəfər müəllim, 1 nəfər baş metodist, 4 nəfər baş laborant, 2 nəfər laborantdır. Bu da MDB ölkələri içərisində yüksək göstərici hesab edilə bilər.

Dünyada unikal elmlərdən biri sayılan kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində yaxın müddətdə 30 nəfər elmi potensiala malik kadr yetişdirmək təqdirəlayiq bir hadisədir. Hazırda fakültədə yüksək ixtisaslı kadr hazırlanması üçün məqsədyönlü, ardıcıl siyasət yeridilir.

Fakültənin əməkdaşları respublikamızda ali məktəblərin bayraqdarı sayılan BDU-nun yüksək elmi potensiala malik böyük kollektivinin tərkib hissəsi kimi onun etimadını doğrultmağa ciddi səy göstərir.

"Kitabxanaşünaslıq və biblioaqrafiya" elmi-nəzəri, metodik və təcrübi jurnalı. 2009. s. 10-27

İNFORMASİYA CƏMİYYƏTİ VƏ KİTABXANAŞÜNASLIĞIN MÜASİR PROBLEMLƏRİ

Müstəqil, suveren Azərbaycan dövləti özünün çiçəklənmə dövrünü yaşayır. Son dövrdə ölkəmizdə iqtisadiyyat, siyasət, elm, təhsil, mədəni quruculuq, sosial tərəqqi, o cümlədən doğma vətən torpağını erməni faşistlərindən azad etmək üçün xalqımıza, dövlətimizə ən çox gərək olan ordu quruculuğu sahəsində böyük nailiyyətlər qazanılmışdır.

Eyni zamanda dərin ardıcıl təhsil islahatları keçirilmiş, Təhsil Qanunu qəbul edilmişdir. Vətən elminin inkişafı üçün elmin perspektiv inkişaf strategiyası qəbul edilmiş, elm və təhsilin inkişaf etdirilməsi üçün böyük perspektivlər açılmışdır.

Respublikamızda müstəqillik illərində humanitar elmlərin mühüm tərkib hissələrindən biri olan kitabxanaşünaslıq elminin inkişafı sahəsində də böyük tərəqqi və yeniliklər baş vermiş, kitabxanaşünaslığın mühüm problemlərinə dair geniş elmi tədqiqatlar aparılmış, elmi məqalələr, monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri nəşr edilmişdir. Sovetlər Birliyi zamanı respublikamızda ali və orta ixtisas kitabxanaçılıq müəssisələrində bir dənə də milli dərslik olmadığı halda hazırda onlarla milli dərslik və dərs vəsaitləri meydana gəlmişdir. Elmi dərəcəsi olan milli kadrların sayı 3 dəfədən çox artmışdır.

Hazırda Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültə-

sində və respublikamızın elmi kitabxanalarında 10 nəfərə yaxın elmlər doktoru və 30-a qədər elmlər namizədi çalışır. Bakı Dövlət Universitetində və AMEA-nın Mərkəzi Elmi Kitabxanasında 20 nəfərdən artıq doktorant və dissertant elmi tədqiqat işi aparır. BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsində 30 nəfərə qədər magistr təhsil alır. Magistrlər kitabxanaşünaslıq və informasiyanın aktual problemlərinin araşdırılmasında yaxından iştirak edirlər. Böyük elmi və praktik əhəmiyyətə malik olan magistr dissertasiyaları yazılan zaman əldə edilən nəticələri, təklif edilən nəzəri fikirləri çap etmək, onları kitabxanaların təcrübəsinə tətbiq etmək zərurəti meydana çıxır.

BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin kafedralarında çox güclü elmi potensiala malik alimlər-fəlsəfə doktorları və elmlər doktorları fəaliyyət göstərir. Bu alimlər bir qayda olaraq BDU-nun elmi tədqiqat planına müvafiq müasir dövr kitabxana quruculuğunun aktual problemlərinə dair araşdırmalar aparırlar. Belə tədqiqatların çap edilməsi, respublikamızın çoxsaylı kitabxana ictimaiyyətinə çatdırılması böyük elmi-nəzəri və praktik əhəmiyyət kəsb edir, əldə edilən elmi nəticələrin kitabxana praktikasına tədbiq edilməsinə şərait yaradır.

Müstəqillik illərində bir sıra kitabxanalar elmi status almış, geniş elmi tədqiqat işləri aparmağa başlamışdılar. Belə kitabxanalara misal olaraq M.F.Axundov adına Milli Kitabxananı, AMEA-nın Mərkəzi Elmi Kitabxanasını, Prezident Kitabxanasını, Bakı Dövlət Universitetinin Elmi Kitabxanasını və s. sahəvi kitabxanaları göstərmək olar. Bu kitabxanaların elmi-metodik və informasiya şöbələrində onlarla elmi əməkdaş çalışır. Bu kitab-xanalarda kitabxanaşünaslığın və informasiyanın aktual problemlərinə dair ciddi araşdırmalar aparılır, olduqca böyük elmi-nəzəri və praktik əhəmiyyətə malik olan nəticələr əldə edilir. Bu baxımdan böyük elmi kollektivlərin və ayrı-ayrı tədqiqatçıların əldə etdiyi nəticələrin çapı da böyük aktuallıq kəsb edir.

Bütün bu göstərdiklərimizlə yanaşı informasiya cəmiyyəti kitabxanaşünaslıq elmləri qarşısında daha ciddi problemlər qoymuşdur. Təəssüf ki, informasiya cəmiyyətinin inkişafında mühüm rol oynayan informatika elminin bəzi nümayəndələri, informasiya texnologiyasına, kompüterə, informasiyalaşdırma prosesinə, İnternetə, məlumatın elektron daşıyıcılarına aludə olaraq, elektron kitabxanaların yaradılmasını mühüm amil hesab edərək, ənənəvi kitabxanaçılığın əhəmiyyətini azaltmağa meyl göstərirlər.

Bizcə, belə meylləri təhlil etmək, onun mənfi və müsbət cəhətlərini göstərmək, perspektivlərini müəyyənləşdirmək və kitabxana işində elektron vəsaitlərdən istifadə etmək işini araşdırmaq, klassik kitabxanaçılıqla yeni kitabxanaçılığın inteqrasiyası prosesini ön plana çəkmək zərurəti meydana çıxır. Hər şeydən öncə informasiya cəmiyyətinin mahiyyətini dərk etmək, onun inkişaf istiqamətlərini, məqsəd və vəzifələrini müəyyənləşdirərkən belə bir inkaredilməz həqiqət ortaya çıxır ki, informasiya cəmiyyəti kitabxanasız keçinə bilməz. Oxucuların informasiya tələbatının ödənilməsi bilavasitə maddiləşmiş biliyə, həqiqi biliyə, yəni kitaba əsaslanmalıdır. Kitablar isə kitabxanalarda toplanmışdır.

Deməli, obrazlı şəkildə desək, kitabxanalar informasiya cəmiyyətinin döyünən ürəyidir. Bu ürək nə qədər sağlam olsa, ritmik döyünsə, informasiya cəmiyyəti bir o qədər sürətli inkişaf edən, böyük nemət olan biliyin idarə olunmasında daha yaxından iştirak edə bilər. Bütün bunlar isə ən böyük sosial funksiyalar: biliklə insan arasında etibarlı və əbədi körpü olan, biliyin idarə olunmasında və kitabın cəmiyyət üzvlərinə çatdırılmasında etibarlı vasitə olan, cəmiyyətin informasiya fəaliyyətini təmin edən kitabxanaların missiyasıdır.

Beləliklə, kompüter texnologiyalarının nailiyyətlərinə və qlobal informasiya şəbəkələrinin inkişafına əsaslanan "informasiya cəmiyyəti" və xüsusən daha geniş əhatəli sosial, etik və siyasi parametrləri əhatə edən "biliklər cəmiyyəti" kitabxanasız keçinə bilməz. Məhz buna görədir ki, YUNESKO-nun əsas sənədlərində kitabxanalar informasiya cəmiyyətinin əsas atributlarından biri kimi qiymətləndirilir. Cəmiyyətin sosial təsisat (institut) kimi formalaşdırdığı kitabxanalar tarixən mədəniyyətin normal fəaliyyətinin mühüm şərti olmuş, mədəniyyətin yaddaşını itirilməkdən qorumuş, gələcək nəsillərə çatdırılmasında əvəzsiz xidmət göstərmişdir.

Kitabxanaların tarixinə nəzər saldıqda məlum olur ki, bütün dövrlərdə kitabxanalar xalqın yaratmış olduğu elmi və mədəni sərvətləri qorumuş, bəşəriyyətin işıqlı gələcəyinə, təhsilinə, maarifinə, mədəniyyətinə, elminə, tərbiyəsinə xidmət etmiş, bilik, elm, informasiya mərkəzi kimi bəşər sivilizasiyasının yüksəldilməsi vasitəsi olmuşdur. İlk kitabxanalar hələ b.e.ə III minillikdə bəşər mədəniyyətinin beşiyi olan Şumerdə yaranmışdır. Sonrakı əsrlərdə Assuriyada, Kiçik Asiyada, Qədim Misirdə, Romada, Ərəb və Avropa ölkələrində informasiya vasitələri olan kitabları və s. yazılı materialları toplayıb saxlayan, onu nəsildən-nəslə ötürən kitabxanalar dövrün-zamanın keşmə-keşli yollarından keçərək mədəniyyət və informasiya vasitəsi kimi xidmət etdikləri cəmiyyətin və insanların böyük hörmətini qazanmışlar.

Belə kitabxanalara misal olaraq Assuriya çarı Aşşurbanipalın öz fondunda 200 mindən artıq gil lövhəciklərdən ibarət kitabxanasını, dünyanın mədəni möcüzələrindən biri olan İsgəndəriyyə Kitabxanasını, Perqam padşahlığının kitabxanasını, orta əsrlərin ümumi kitabxanalarını, müasir dünyanın böyük dövlətlərinin milli kitabxanalarını göstərmək olar. Dünya tarixində bəşəriyyətə 5 min ildən artıq xidmət edən bu kitabxanalar elm və mədəniyyətin inkişafı zəminində daim inkişaf etmiş, "öz qiymətli yükünü" bəşəriyyətin inkişafı naminə irəliyə aparmışdır. Kitabxanaların daim inkişaf edən, təkmilləşən, daha həyati, səmərəli xarakter daşıyan tarixi missiyası xalqların yaddaşına həkk edilmişdir.

İlk kitabxanaların tarixindən 5 min il keçir. Bu beş min ildə milyonlarla oxucuya xidmət edən kitabxanalar öz ilk forma və strukturlarını əsasən saxlamış, ancaq daim təkmilləşmiş, dövrlə, zamanla ayaqlaşmağa çalışmışlar. Lap qədim zamanlardan kitabxanaların iki funksiyası fəaliyyət göstərməkdədir. Kitabxanaların ilk və ən mühüm funksiyası sənədləri (əlyazmaları, çap kitablarını və s.) toplamaq başqa sözlə, fond yaratmaq funksiyasıdır. Arxivdən fərqli olaraq kitabxana fondları həmişə oxucuların üzünə açıq olmuşdur. Bəzi vaxt-

larda kitabxana fondlarının qapalı xarakter daşıdığı halda belə onlar müəyyən qrup oxuculara xidmət etmişdir.

Kitabxanaların ikinci mühüm funksiyası oxuculara xidmət funksiyasıdır. Bu iki funksiyanın qarşılıqlı əlaqəsi, birləşdirilməsi və işlək vəziyyətə gətirilməsi kitabxanaçıların fəaliyyəti nəticəsində mümkün olmuşdur. Kitabxanaçılar tarixən kitabxana işinin hərəkətverici qüvvəsi olmaqla, cəmiyyətlə kitabxanalar arasında əlaqələndirici vasitə rolunu oynamışdır. Kitabsız, oxucusuz kitabxana olmadığı kimi kitabxanaçısız da kitabxana ola bilməz. Beləliklə, kitabxana bu üç sütun üzərində bərqərar olmaqla inkişaf edib zəmanəmizə gəlmişdir. Deməli, 5 min il tarixi olan kitabxanalar cəmiyyətin yaratdığı ən mühüm təsisatlardan (institutlardan) biri kimi daim onu yaradan cəmiyyətə xidmət etmiş, cəmiyyət kitabxanaların hamısı kimi çıxış etmişdir. Cəmiyyətlə kitabxanalar arasında olan bu üzvi bağlılıq kitabxanaların yaşamasını təmin etmiş, onun fəaliyyətindən cəmiyyət üzvləri elm, təhsil, mədəniyyət və tərbiyə sahəsində bəhrələnmişdir.

Ancaq çox təəssüflə qeyd etmək istəyirəm ki, müasir informasiya cəmiyyətində kitabxanalara münasibət heç də birmənalı deyildir. Bəzi informatika mütəxəssisləri, müasir elektron kitabxanaların, elektron kataloqların inkişafına daha çox diqqət yetirməyə, İnternetin fəaliyyətindən bəhrələnməyə və bütün informasiyaları elektron vasitələrlə əldə etməyə üstünlük verməklə ənənəvi kitabxanalardan tədricən əl çəkməyi məsləhət bilirlər.

Əgər kitabxanalar yalnız informasiya cəmiyyəti nəzəriyyəçilərinin öyrənmə obyekti kimi qalarsa, deməli, kitabxanaların uzun müddət əldə etdiyi təcrübə, ənənəvi kitabxanaçılığın bütün nailiyyətləri, biliklərin idarə edilməsi texnologiyası, oxucu və kitabxanaçı probleminin davamlı öyrənilməsi və proqnozlaşdırılması imkanlarından, müasir informasiya cəmiyyəti şəraitində kitabxanalarda aparılan yeniliklərin, yeni iş forma, metodlarından istifadə kitabxana informasiya və kommunikasiya texnologiyasının ənənəvi kitabxanaçılıqla əlaqələndirilməsi prosesindən istifadə etmək olduqca çətin olacaqdır.

Bütün bunları nəzərə alan kitabxanalar və kitabxanaşünaslıq elmləri bu düzgün olmayan elmi, praktik və tarixi cəhətdən əsaslandırılmayan, səhv tendensiyaya qarşı çıxmalı böyük sosioloji tədqiqatlar, kitabxanaların 5 min illik təcrübəsinə əsaslanan informasiya cəmiyyətinin qarşıya qoyduğu aktual problemlərin öyrənilməsinə dair ciddi elmi araşdırmalar aparılmalı, əldə edilən nəticələri nəzəri cəhətdən əsaslandırmaqla müasir dövr üçün ciddi tövsiyələr hazırlamalıdır. Ancaq bundan sonra müasir kitabxana, onun quruluşu, strukturu, statusu, cəmiyyətdə tutduğu mövqe və onun vəzifələri haqqında elmi fikir söyləmək olar. Bunun üçün isə ölkənin kitabxana ictimaiyyəti ilə kitabxanaşünas alimlərin birgə fəaliyyətinin zəruriliyi ortaya çıxır.

Qeyd etdiyimiz kimi, son illərdə həm beynəlxalq, həm də regional səviyyədə mübahisələrin, müzakirələrin ardı-arası kəsilmir; kitabxanalar hamının vərdiş etdiyi kimi öz ənənəvi formasını (bina, kitabsaxlayıcı, kataloqlar, oxu zalları və s.) saxlayacaqmı? Və yaxud kitabxanalar yaşamağa qadirdimi?

Müxtəlif fikirlərin ortaya çıxdığı belə bir şəraitdə kitabxana-informasiya texnologiyası sürətlə inkişaf edir, elektron kataloqlar, elektron kitabxanalar yaranır, kitabxanalar İnternetə qoşulur. Kitabxanalardan İnternetə çıxış yolundan oxucular müvəffəqiyyətlə İnternetdən istifadə edir. İnternet müstəqil informasiya vasitəsinə çevrilir. Həmçinin kitabxana fondlarında elektron kitabların və elektron jurnalların miqdarı artır. Tammətnli elektron nəşrlərə abunələrin genişlənməsi ənənəvi abunələri üstələyir və ona qalib gəlir. Gələcək elektron kitabxanaların əsasını təşkil edən bu ünsürlər getdikcə daha geniş meydan alır, sonra ənənəvi kitabxanalara "Mən sənin gələcəyinəm" deyir.

Ancaq bu dediklərimiz və müasir dövrdə kitabxanaçılıq aləmində baş verən proseslər heç də göründüyü kimi deyil və mikrodaşıyıcılar, nə audio-video kasetlər, qrammofon valları, nə də CD-ROM-lar kitabxanaların bir institut kimi mövcudluğunu şübhə altına ala bilməz. Tarixə nəzər salaq: 5 min ildən artıq tarixi olan ənənəvi kitabxanalar bütün zamanlarda və dövrlərdə bəşəriyyətə uğurla xidmət edib, təkmilləşərək, yeniləşərək zəmanəmizə qədər gəlib çıxmışdır. Məhz buna görə də, kitabxanaların gələcəyinə nəzər salarkən, kitabxana quruculuğunun gələcəyini proqnozlaşdırarkən keçmişi dərindən öyrənilməli, kitabxanaların 5 min illik təcrübəsi nəzərə alınmalıdır.

Beləliklə, elektron daşıyıcıların inkişafı ənənəvi kitabxanaların yaşamasına, fəaliyyət göstərməsinə, cəmiyyətin informasiya tələbatının ödənilməsində onların roluna heç bir xələl gətirmir, əksinə, onun daha da təkmilləşməsinə, oxuculara xidmət işinin daha səmərəli təşkilinə, operativliyinə kömək edir.

İnformasiya cəmiyyətində kitabxana işi sahəsində sürətlə baş verən bu inqilabi dəyişikliklər, onların dərindən öyrənilməsi, ümumiləşdirmələr aparılması kitabxanaşünaslıq elmləri qarşısında olduqca mühüm vəzifələr qoyur. Məhz kitabxanaşünaslıq kitabxana işinin yeni şəraitə uyğunlaşmasına, informasiya elmi ilə inteqrasiyasına dair araşdırmalar aparmalı, kitabxanalarımızı elmi-nəzəri müddəalarla silahlandırmalıdırlar.

Yadda saxlamaq lazımdır ki, axtarış məharətinin bütün növlərini məhz kitabxanalarda təkmilləşdirmək mümkündür. Bu baxımdan görkəmli Amerikan kitabxanaşünası Cessi Şiranın kitabxanaların gələcəyə yönəlmiş fəaliyyəti haqqında sözləri olduqca maraqlıdır. O yazır: "Fundamental sosial tələbatı təmin etməkdən ötrü cəmiyyətin yaratdığı kitabxana sivilizasiyanın nəhəng abidələri içərisində demək olar ki, yeganə abidədir ki, indi əvvəlkindən daha yüksəkdə durur və zülmətə qarşı çıxır. Onlar belə bir fikrin universal təsdiqidir ki, insan varlığının ulu sənədli sübutları yaşamaqda davam edir və bizə çox şey söyləyir, həm də hər biri ayrı-ayrılıqda yox, hamısı birlikdə və onlar buna ehtiyacı olan hər bir kəsin üzünə açıq olmalıdır".

"Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktiki jurnalı. № 1. *2010. s. 9-14*

"KİTABXANALAR BƏŞƏR MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA MÜHÜM TARİXİ MİSSİYA YERİNƏ YETİRİB"

- Abuzər müəllim, cəmiyyətin informasiya təminatında kitabxanaların tarixi roluna nəzər salmağınızı istərdik.

- Müasir informasiya cəmiyyətinin döyünən ürəyi olan kitabxanalar hələ çox qədim zamanlardan insanların informasiyaya-biliyə, təbiət və cəmiyyət hadisələrini daha dərindən dərk etməyə can atdığı tarixi dövrdə yaranmış və bəşəriyyətin inkişaf yolunu daim işıqlandırmışdır. İlk kitabxanaların meydana gəlməsi, yazılı sənədlərin, kitabların toplanması, qorunması və insanları istifadəsinə çevrilməsi bəşər cəmiyyətinin həyatında böyük dəyişikliklərə səbəb olmuş, informasiya daşıyıcılarının gələcək nəsillərə ötürülməsinə şərait yaratmışdır.

Təxminən 10-12 min il bundan əvvəl yaranmış ilk Şumer kitabxanalarından başlamış müasir kitabxanalara qədər bütün kitabxanalar ardıcıl olaraq cəmiyyətin informasiya tələbatının ödənilməsində, elm, təhsil və mədəniyyətin inkişafında mühüm rol oynamışdır.

Kitabxanalar bəşəriyyətin yaratmış olduğu elmi sərvətləri toplayıb, qoruyub, saxlayıb, onları təmənnasız və davamlı olaraq insanların istifadəsinə verməklə, mədəniyyətin, iqtisadiyyatın, texniki biliklərin, elmi kəşflərin tərəqqisi və yayılması üçün şərait yaratmışdır. Məhz kitabxanaların bəşər mədəniyyətinin inkişafında bu mühüm tarixi missiyası və müasircəmiyyətdə onların böyük informasiya fəaliyyəti kitabxana işinin böyük perspektivlərindən xəbər verir.

- İnformasiya cəmiyyəti qurulması istiqamətində elektron kitabxanalar infrastrukturunun formalaşması problemləri nə ilə bağlıdır?

- İnformasiya cəmiyyəti qurulması istiqamətində elektron kitabxanalar infastrukturunun formalaşması mürəkkəb elmi və texniki məsələdir. O, böyük maliyyə vəsaiti və yüksəkixtisası kadrların olması tələb edir. Elektron kitabxanalar infrastrukturunun formalaşması prosesi zamanın tələbidir. Müasir informasiya cəmiyyəti şəraitində cəmiyyətin informasiya tələbatını elektron resurslar olmadan, kitabxana işinə informasiya texnologiyası tətbiq edilmədən ödəmək mümkün deyildir. Biliklər iqtisadiyyatına keçid və onun formalaşması elektron kitabxanalarımızın yaradılmasını zəruri amil kimi irəli sürü.

Müasir şəraitdə elmi-tədqiqat işlərinin geniş vüsət alması da elektron kitabxanalar tələbatı artırır.

- Kitabxana-informasiya xidmətinin təşkili və onun elmi-tədqiqatlara təsiri necədir?

- Qlobal informasiya cəmiyyətinin coşğun inkişafı, yeni elmi biliklərin

əldə edilməsi elmin tərəqqi və inkişafı zərurətini qarşıda qoyur. Bilik ictimai nemətdir. Məhz buna görədir ki, informasiya cəmiyyəti şəraitində, onun hər bir insan üçün əlverişli olmasını, onun asanlıqla əldə edilməsini təmin etmək lazımdır. Dünyanın dərk edilməsi və biliklərin əldə edilməsi prosesi özünün ən yüksək ifadəsini elmdə tapır. Elm insan fəaliyyətinin gerçəkliyin dərk edilməsinə və praktikanın dəyişdirilməsinə yönəldilmiş formasıdır. Müasir şəraitdə biliklər iqtisadiyyatının inkişaf etdirilməsi, onun ayrı-ayrı komponentlərinin müəyyənləşdirilməsi, təhlili və əməli nəticələr çıxarılması geniş elmi tədqiqatlar aparılmasını qarşıda qoyur.

Məhz buna görədir ki, son dövrdə respublikamızda elmi-tədqiqat işlərinin aparılmasına ciddi diqqət yetirilir. Elmi-tədqiqatlar müəssisələr və ayrı-ayrı alimlər tərəfindən aparılır. Elmi tədqiqat işləri, bir qayda olaraq, mərhələlərlə yerinə yetirilir. Hər bir elmi tədqiqat işinin ən mühüm mərhələsi problemin mənbəşünaslığını yaratmaqdadır. Tədqiqatçı, hər şeydən əvvəl, özünə qədər araşdırdığı problem haqqında və mövcud informasiyanı, yazılan kitabları, dövri mətbuat materiallarını toplamalı, oxuyub öyrənməli və bundan sonra öz tədqiqatlarını aparmalıdır.

Məlumdur ki, tədqiqatçı bu materialları ancaq kitabxanalarının köməyi ilə, kitabxanalrın məlumat-informasiya vasitələrinin köməyi ilə, İnternetdən istifadə etməklə əldə edə bilər. Kitabxanalar, onların zəngin kitab və dövri mətbuat fondları, məlumat-informasiya aparatı, elektron vəsaitləri, kataloq-kartoçka sistemləri olmadan heç bir elmi-tədqiqat işini müffəqiyyətlə başa çatdırmaq olmaz.

Müasir informasiya cəmiyyətində, biliklər iqtisadiyyatının yaranıb formalaşdığı bir şəraitdə respublikamızda elm və texnikanın müxtəlif sahələrinə dair elmi inkişafına, elmi tədqiqatların problematikasının genişlənməsinə ciddi zərurət yaranır. Bu zərurətin reallaşdırılması istiqamətində isə, şübhəsiz ki, kitabxana-informasiya resursları mühüm rol oynamağa qadirdir. Azərbaycanda üzün illərdən bəri yaranıb formalaşmış elmi kitabxanaların informasiya ehtiyatlarının hazırda dünya elminə inteqrasiya üçün kifayət qədər zəmin yaratdığını nəzərə alsaq, onda müxtəlif elm sahələrində mühüm elmi-tədqiqat işləri aparan mütəxəssislərin və alimlərin birinci köməkçisi kimi yeni kitabxanalar göz önünə gəlir.

Müasir elmi kitabxanalrın İnternetə qoşulmasının da tədqiqatçıların elmi tələbatının ödənilməsində mühüm rol oynadığını qeyd etmək yerinə düşərdi.

- Kitabxanalarda oxucular üçün yaradılan şərait və oxucunun bu işin kitaba münasibəti barədə nə deyə bilərsiniz?

- Respublikamızda oxuculara geniş kitabxana şəbəkələri xidmət göstərir. Bu şəbəkələrə elmi, elmi-texniki, təhsil və kütləvi kitabxanalar daxildir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda elmi kitabxanalrın geniş şəbəkəsi yaranıb formalaşmış, onlar oxuculara xidmət sahəsində zəngin təcrübə qazanmışdır. Elmi kitabxanaların maddi-texniki bazası möhkəmlənmiş, onlar müasir

kitabxana-informasiya avadanlıqları və kompüter texnologiyaları ilə təchiz edilmişdir. Bu kitabxanaların əksəriyyətində kitabxana-informasiya xidmətinin müasir dövrün tələblərinə uyğun səviyyədə qurulması üçün lazımi şərait yaradılmışdır.

Bununla yanaşı onu da qeyd etmək lazımdır ki, respublikamızın kütləvi kitabxanaları bu sahədə elmi kitabxanalardan geri qalır. Belə ki, son illərdə kütləvi kitabxanaların maddi-texniki bazalarının yaxşılaşdırılması üçün müəyyən dövlət tədbirləri həyata keçirilsə də, hələlik bu kitabxanalarda oxuculara günün tələbləri səviyyəsində xidmət göstərilməsi baxımından çox iş görmək lazım gəlir. Əlbəttə, bu, bəzən əhalinin kitabxanalardan uzaqlaşmasına, mütaliə səviyyəsinin aşağı düşməsinə səbəb olur. Aydındır ki, hazırda bütün dünyada elektron vasitələrin, İnternetin genişləndirilməsi, kütləvi informasiya vasitələrinin çoxalması da əhalinin kitabxanalara az müraciət etməsinə təsir göstərmişdir. Lakin mən bir mütəxəssis kimi qəti əminəm ki, kitab olmadan heç bir inkişafdan söhbət belə gedə bilməz. Kitabı əvəz edəcək heç bir elektron informasiya daşıyıcısı yoxdur. İnanıram ki, hər yerdə olduğu kimi, ölkəmizdə də gec-tez kitabxanalardan uzaq düşmüş kütlələr yenidən bu elm, bilik xəzinəsinə üz tutacaqlar. Hər halda Azərbaycan kitabxanaların bugünki inkişafı belə nikbin qərara gəlməyə imkan verir.

- Hazırda dünyada əhalinin kitabxanalara marağının azalması və mütaliədən uzaqlaşması probleminin səbəblərini necə görürsünüz?

- Bəşəriyyətin keçdiyi tarixi yola nəzər saldıqda məlum olur ki, insanlar həmişə kitaba, kitabxanaya və mütaliəyə böyük əhəmiyyət vermiş, kitab və kitabxana bütün dövrlərdə sivilizasiyanın, mədəniyyətin əsas silahı olmuş, bəşər mədəniyyətinin inkişafına böyük və həlledici təsir göstərmişdir. Doğrudur, son zamanlar bütün dünya miqyasında, MDB dövlətlərində və ölkəmizdə kitaba, mütaliəyə marağın xeyli azalması hiss edilir.

Qeyd etdiyim kimi, mən bunun əsas səbəbini dünyada kütləvi informasiya vasitələrinin və İnternetin geniş miqyas almasında, əhalinin böyük əksəriyyətinin, xüsusilə informasiya vasitələrinə və İnternetə meylinin artmasında görürəm. Ancaq mən optimist bir insan kimi bəzi informasiya vasitələrində kitaba, mütaliəyə marağın azalması haqqında fikirlərin şişirdilməsini də hiss edirəm və belə bir qənaətə gəlmişəm ki, hələ də dünya əhalisinin böyük hissəsi kitabı, mütaliəni yüksək qiymətləndirir, kitabı bütövlükdə elmin, təhsilin, mədəniyyətin əsas vasitəsi hesab edir və ondan bəhrələnir. Son zamanlar bütün dünyada, Avropa və MDB ölkələrində kitaba, mütaliəyə tələbatən az da olsa yüksəldiyi hiss edilir ki, bu da gələcək perspektivlərin sevindirici oacağına inamı artır.

"Vətəndaş cəmiyyəti" qəzeti. Fevral 2010.

KİTABXANAÇILIQ FİKİRLƏRİNİN MEYDANA GƏLMƏSİ, TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

Kitabxana və kitabxana işi haqqında kompleks elm olan kitabxanaşünaslığın bir elm kimi formalaşması olduqca böyük tarixi inkişaf yolu keçmişdir. Kitabxanaşünaslıq elminin ilk rüşeymləri hələ b.e.ə III-cü əsrdə qədim dünyanın ilk sivilizasiyalı dövləti olan Şumerlərdə kitabxanaların yaradılması dövrünə təsadüf edir.

Məhz ilk Şumer kitabxanalarında kitabxanaşünaslığın ilk elmi əsası kimi qəbul edilən kitabxana təcrübəsinə əsaslanan kitabxanaçılıq fikirləri meydana gəlmişdir.

Kitabxanaşünaslıq fikiri dedikdə kitabxana və kitabxana işi haqqında ən ilkin, ən elementar, ən bəsit hələ elmi fikir səviyyəsinə yüksəlməyən, sistemləşdirilməyən, kitabxana işinin təcrübi cəhətdən öyrənilməsinə cəhd göstərən ideyalar və baxışlar başa düşülür. Kitabxanaçılıq fikirləri kitabxana və kitabxana işi haqqında elmi fikir olmasa da, ilk kitabxanaçılıq fikirləri kitabxanaşünaslığın başlanğıc mərhələsi kimi onun tədrici inkişafına, elm və tədris fənni kimi formalaşmasına əlverişli şərait yaratmışdır. Məhz buna görədir ki, kitabxanaşünaslığın tədqiq edilib öyrənilməsində tarixilik prinsipi həmişə aparıcı əhəmiyyət kəsb etmişdir. İlk kitabxanaçılıq fikirlərinin meydana gəlməsinin təqribən 5 min ildən artıq tarixi vardır. B.e.ə III əsrdə Şumerlərdən kitabxanaların yaranmasından başlayan bu keşmə-keşli olduqca çətin yol XVIII əsrə qədər davam etmiş, XIX əsrdən başlayaraq tədricən sistemləşdirilmiş elmi fikirlərə, kitabxanaşünaslıq elminin yaranmasına, təşəkkülünə və inkişafına gətirib çıxarmışdır.

Cəmiyyətə kitabxanaçılıq proseslərinin tarixini və inkişaf qanunauyğunluqlarını, xassələrini, xarakterini, strukturunu, çap əsərlərindən ictimai istifadənin təşkili problemlərini tədqiq edib öyrənən kitabxanaşünaslıq humanitar elm kimi bəşər mədəniyyətinin inkişafında olduqca böyük əhəmiyyət kəsb etmişdir.

Məlumdur ki, elm ictimai şüurun forması kimi təcrübəni əks etdirir. Bununla belə elmin öz inkişaf qanunları və öz məntiqi vardır. O öz inkişafı prosesində bəzən təcrübədən geri qalır, bəzən də təcrübəni irəliləyir, mücərrədləşir.

Kitabxanaşünaslığın humanitar elm kimi formalaşması və inkişafı, cəmiyyətdə sosial rolunun artması onun qaynaqlandığı kitabxanaçılıq fikirlərinin xüsusi obyekt kimi dərindən öyrənilməsini tələb edir. Kitabxanaşünaslıq fikirlərinin yaranması, onun tədrici inkişafı kitabxanaşünaslığın təkamül prosesidir. Yəni kitabxanaçılıq fikri kitabxanaların iş təcrübəsi bazasında yaranır, inkişaf edib təkimlləşir, bu proses dərinləşdikcə təcrübəyə müsbət təsir göstərir, onun yeni keyfiyyətə keçməsinə şərait yaradır. Təəssüf ki, dünya kitabxanaşünaslığında kitabxanaşünaslığın təməl daşı olan kitabxanaşünaslıq fikirlərinin öyrənilməsinə olduqca az diqqət yetirilmişdir.

Son dövrdə kitabxanaşünaslıq elminin tədqiqatçıları kitabxanaşünaslığın

inkişaf tarixini iki mərhələyə: 1) tarixə qədərki kitabxanaşünaslıq. Bu mərhələ ilk kitabxanaşünaslıq fikrinin meydana gəlməsindən, yəni b.e.ə II min illiyin axırlarından XVIII əsrə qədər olan dövrü əhatə edir. İkinci mərhələ isə kitabxanaşünaslığın elm və tədris fənni kimi təşəkkülü və inkişafı mərhələsidir. Bu mərhələ XIX əsrdən zəmanəmizə qədər olan dövrü əhatə edir.

Dünya kitabxanaşünaslıq tədqiqatlarında kitabxanaşünaslığın ilk mərhələsinin öyrənilməsində olduqca az iş görülməsinə bu mərhələnin ayrıca tədqiqat obyekti olmasına baxmayaraq son dövürdə kitabxana və mədəniyyət tarixçilərinin əsərlərində ilk kitabxanaçılıq fikirlərinə dair qiymətli faktlar və məlumatlar aşkara çıxarılmışdır. Ciddi elmi araşdırmaların nəticəsində əldə edilmiş bu qiymətli məlumatlar kitabxanaçılıq fikrinin meydana gəlməsi, təşəkkülü və inkişaf istiqamətlərini müəyyənləşdirməyə imkan verir. Belə qiymətli faktların və məlumatların elmi təhlili kitabxanaçılıq fikirlərinin bilavasitə kitabxanaların iş təcrübəsindən qaynaqlandığı və tədricən kitabxanaçılıq ideyalarına çevrildiyi həqiqətini təsdiqləmişdir.

Beləliklə, ilk kitabxanaçılıq fikirləri kitabxanaların yaranması, kitab fondlarının formalaşması, qorunub saxlanması, nəhayət, kitabxana-oxucu münasibətlərinin təşəkkülü, xidmət prosesinin meydana gəlməsi ilə əlaqədar olmuşdur.

Dünyada ilk kitabxanaların vətəni qədim Şərq olmuşdur. Erkən qədim dünya mədəniyyətinə dair son tədqiqatlar təsdiq etmişdir ki, ilk kitabxanalar b.e.ə. III minillikdə dünya sivilizasiyasının beşiyi olan Şumerdə meydana gəlmişdir.

Dünya Şumerşünasları belə hesab edirlər ki, yer üzündə tarix elminə malik olan ən qədim xalq Şumerlərdir. Şumerlər ilk bəşər mədəniyyətinin yaradıcılarıdır. Məşhur Amerikan Şumerşünası S.Kramer "Tarix Şumerlərdən başlanır" kitabında yazır: "İlk məktəblər, ilk iki palatalı parlament, ilk tarixçi, ilk qanunlar, ilk kitabxanalar, ilk kitabxana kataloqları, ilk biblioqrafiya Şumerlərdən başlanır."

Şumerlər bəşəriyyət tarixində birinci informasiya inqilabı da hesab edilən yazınında müəllifi olmuşlar. B.e.ə 4-cü minilliyin ortalarında Şumerdə mixi yazı meydana gəldi. Yazının meydana gəlməsi Şumer mədəniyyəti tarixində yeni mərhələnin şifahi informasiyanın maddiləşməsi mərhələsinin başlanğıcı kimi kitabın yaranmasına səbəb oldu. Şumerlər yazı materialı kimi gil lövhəciklərdən istifadə edirdilər. Beləliklə, Şumerdə yazının meydana gəlməsi kitabın yaranmasına və onun yayılmasına şərait yaratdı. Mixi yazının kəşfi Şumerin bəşər mədəniyyətinə ən önəmli töhvəsi oldu. Yazının yaranması, kitabçılığın inkişafına böyük təsir etdi. Kitabı hazırlamaq işinə daha çox insan: yazı materialları (gil lövhələr hazırlayanlar, yazı mətnlərini gil lövhələr üzərinə köçürən mirzələr, onun möhkəmliyini təmin etməyə xidmət edən emalatxana işçiləri və nahayət hazır kitabələri toplayıb saxlayan, onun qorunmasını təmin edən kitabxanaçılar cəlb edilmişdi. Kitab yazıb oxuya bilən adamların sayı çoxalmışdı. Cəmiyyətdə baş verən bu mühüm proses məktəblərin yaranmasına

səbəb oldu. Dünyada ilk məktəblərin yaranması haqqında məlumat verən Şumerşünas alim S.Kramer yazır: "Şumer məktəbi yazının kəşfi və təkmilləşdirilməsi nəticəsində yaranmışdır. Yazının yayılması, kütləviləşməsi yeni sənətkarların mirzələrin meydana gəlməsinə səbəb oldu. İlk dövrdə mirzələr ancaq kitab yazır, oxumaqla məşqul olurdularsa, zaman keçdikcə onlar yazı yazıb oxumağı öyrətməyədə başladılar. Beləliklə, ilk məktəblər meydana gəldi. İlk məktəblər (edubbalar) " mirzələrin evlərində, sonra isə məbəd və saraylarda yaranmışdı. Məktəb (edubba) kitabələr evi adlanırdı. Şumer məktəbləri ilk zamanlar məbədlərin yanında fəaliyyət göstərmiş, tədricən müstəqilləşmişlər. Şumerdə kitabələr evi adlanan məbədlər isə zaman keçdikcə təkamülə məruz qalaraq mədəni-maarif mərkəzlərinə çevirlmişdir. Belə mərkəzlər bilik evi adlanırdı. Bilik evlərinin yanında kitabələri (lövhəcikləri) saxlayan kitabxanalar fəlaiyyət göstərirdi. İlk kitabxanalar Şumerdə yarandığı kimi ilk kitabxanaçılıq fikirləridə Şumerlərə məxsusdur. Şumerlərdə məktəblər şəbəkəsinin genişlənməsi, təhsilin cəmiyyətin əsas tələbatına çevrilməsi kitaba böyük tələbat əmələ gəlmişdi. Həmçinin cəmiyyətdə yazıb oxumağı bacaran, kitabın üzünü köçürüb çoxaldan mirzələrin formalaşması kitabçılığa böyük tələbat əmələ gətirmişdi. Yeni-yeni yaranan məktəb kitabxanaları və məbəd kitabxanaları da kitabların çoxaldılmasında yaxından iştirak edirdilər. Beləliklə, Şumer kitabxanalarında yüzlərlə kitabələr (lövhəciklər) toplanmışdı. Bu böyük kitab tpolularının saxlanması, idarə olunması yeni metodların, üsulların yaradılmasını, bu işi bacaran adamların formalaşmasını tələb edirdi. Məhz belə bir şəraitdə kitabxana yaradılması, onun fondunun təsniflşdirilməsi, düzülüb saxlanması, oxucuların istifadəsinə verilməsi, oxucu tələbatının ödənilməsi kimi zərurət yaranmışdı. Bu zərurət isə ilk kitabxanaçılıq fikirlərinin meydana gəlməsinə səbəb oldu.

Dünya kitabxanaları tatixində ilk dəfə kitabxana fondlarını əks etdirən kitabxana kataloqları meydana çıxdı. İlk kitabxana kataloqu Şumerlərdə meydana gəlmişdi. Şumerlərdə məbəd və məktəb kitabxanalarının çoxalması, yazı və mütaliə işi ilə məşğul olan insanların sayının artması belə kitabxanalarda kitab fondunun yaradılması, fondda kitabların düzülüb saxlanması, lazım gəldikdə yüzlərlə kitabələr (lövhəciklər) icərisindən mirzələr və müəllimlərə kitabın tapılıb verilməsi kitabxanaların əsas vəzifəsi kimi qarşıya çıxdı. Bu və ya buna bənzər vəzifələrin öhdəsindən gəlmək kitabxanaların müəyyən üsullar və yollar axtarmasına gətirib çıxardı. İlk dəfə Şumer kitabxanalarında saxlanılan kitabların siyahısı (kitabxana kataloqları) meydana çıxdı. Şumer kitabxanalarında ilk kitabxana kataloqlarının yaranması haqqında məlumata görkəmli Şumerşünas alim S.Kramerin "Tarix Şumerlərdən başlayır" əsərində rast gəlirik. O yazır: "Pensilvani universitetinin muzeyində 29-15-166 nömrəli lövhəcik saxlanılır. Bu qədim Şumer kitablarının siyahısıdır". O həcmcə elə böyük deyil. Lövhəciyin 6,5 sm uzunu, 3,5 sm eni var. Bununla belə mirzə lövhəciyin hər üzünü iki sütuna bölmüş və çox xırda xətlə bu dar sahədə 62 ədəbi əsərin adını yaza bilmişdir. Birinci 40 adı hər birində on ad olmaqla 4

qrupa bölmüş və onları biri-birindən defslə ayrılmışdır. Qalan 22 ad iki qrupa bölünmüşdür. Birində cəmi 9, ikincidə isə 13 ad var. Həmin kataloqdan 24 ad tam, yaxud hissə-hissə gəlib çatan əsərlərin adlarıdır.

Daha sonra müəllif yazır ki, ilk tanışlıqda bu lövhəciklərin kataloq olduğunu anlamaq olduqca çətin idi. Belə ki, lövhəcik mətin kimi oxunurdu. Diqqətlə araşdırma zamanı məlum oldu ki, lövhəcikdəki yazılar mətin deyil, ayrı-ayrı kitabların adlarıdır. Bu işdə mənə Şumerlərə aid əldə edilən bir çox kitabların adlarını bilməyim kömək etdi.

Həmçinin S.Kramer fransanın Lüvr müzeyində saxlanılan Şumerdə tapılmış lövhəciklərlə də tanış olduqdan sonra hər iki müzeydə saxlanılan lövhəciklərin kitabxana kataloqu olduğunu bir daha təsdiq etmişdir. Bu lövhəciklərdə 32 əsərin adı olduğu aşkarlanmışdır. Bu kataloqun nə məqsədlə tərtib edilməsini söyləmək çətin olsa da belə bir fərziyyə irəli sürmək olar ki, bu kataloq ya kitabı fond da saxlayarkən və yaxud da fondda düzərkən tərtib edilmişdir. Həmçinin bəsit halda tərtib edilmiş bu kataloqda kitabların sistemləşdirilməsi və qruplara ayrılmasıda diqqəti cəlb edir. Beləliklə, ilk kitabxana kataloqu tərtib edilərkən istifadə edilən qaydaları ilk kitabxanaçılıq fikirlərinin rüşeymləri kimi qiymətləndirmək yerinə düşərdi. Əsası Şumerlər tərəfindən qoyulan kitabxanaçılıq fikirləri sonrakı əsrlərdə qədim dünyanın böyük kitabxanalarında daha da inkişaf etmiş, yeni-yeni müddəalarla zənginləşmişdir.

Şumerşünasların tədqiqatlarında məktəb kitabxanalarının fondunun tərkibi və komplektləşmə mənbələri haqqında az da olsa məlumatlara rast gəlmək olur. Məktəb "lövhəciklər" evində (kitabxanalarda) saxlanılan lövhəciklərin böyük əksəriyyəti məktəb proqramlarına müvafiq kitablar olmuşdur. Həmçinin bir qayda olaraq məktəb kitabxanalarında elmin müxtəlif sahələrinə və bədii ədəbiyyata aid kitablarda saxlanmışdı.

Qədim Şumerlərdə məktəb kitabxanaları ilə yanaşı məbəd kitabxanalarında kitablarla yanaşı müxtəlif məzmunlu sənədlər də saxlanılırdı. Şumer ərazisində aparılan arxeolloji qazıntılar çoxlu gil lövhəciklər, kitablar, qədim xəritələr, ədəbiyyat mətinləri, riyaziyyata, botanikaya, kənd təsərrüfatına və digər elm sahələrinə aid kitabələr tapılmışdı. Ən çox gil lövhəciklərə Loqaş şəhərində rast gəlinmişdir. Gil lövhəciklərin sayı 20 mindən artıq idi. Ən maraqlı tapıntı ölkənin dini mərkəzi hesab edilən Nippure şəhərində tapılan ən qədim kitabxananın qalıqları idi. Kitabxananın binası 62 otaqdan ibarət olmuşdur. Burada aşkar edilən gil lövhəciklərin yazılma tarixinin göstərilməsi bu tapıntının elmi və mədəni əhəmiyyətini artırmaqla, kitaba və kitabxanaçılıq işinin tarixinin öyrənilməsi sahəsində də böyük əhəmiyyət kəsb edirdi.

Tapılan gil lövhəciklərin analiz edilməsi o dövrdə kitabxanalarda saxlanılan kitabların sistemləşdirilməsi, fondda düzülüşü qaydalarının olmasını aşkara çıxarır.

Beləliklə, kitabxana fondlarının yaradılmasında, düzülüb saxlanmasında, kitabların sistemləşdirilməsində kitabxana kataloqlarının yaradılmasında mövcud qaydaların meydana gəlməsi, zaman keçdikcə təkmilləşdirilməsi ilk

kitabxanaçılıq fikirlərinin hələ 10-12 min il əvvəl qədim şərq ölkələrində yaranması haqqında söz söyləmək imkanı verir.

Şumerlərdən sonra zəngin kitab və kitabxanaçılıq ənənələri olan dövlətlərdən biri də Xett dövləti omuşdur. Xett çarlığı b.e.ə II min illiyə qədər 7 əsr fəaliyyət göstərmişdir. Uzun müddət dövlətciliyi olan Xett çarlığında zəngin mədəniyyət formalaşmışdı. Burada təhsil sistemi xeyli təkmilləşmiş, kitab və kitabçılıq işi ölkənin mədəni həyatında mühüm əhəmiyyət kəsb etməyə başlamışdı. 1906-1907-ci illərdə Türkiyənin Boğazköy şəhərində arxeoloji qazıntılar aparılan zaman Xett mədəniyyətinə aid 11 min gil lövhəciklər tapılmışdır. Bu lövhəciklər Xett saray kitabxanasının qalıqları idi. Tapılan gil lövhəciklərin araşdırılması zamanı məlum olmuşdur ki, lövhəciklər icərisində rəsmi dövlət sənədləri, carın müraciətləri ilə yanaşı müxtəlif bilik sahələrinə aid çox qiymətli kitablar, letopislər, müəlliflərin əlifba sırasına görə hazırlanmış əlifba kataloqları var imiş.

Şumer lövhəciklərindən fərqli olaraq Xett lövhəciklərində kitabın müəllifi, onun ünvanı, kitabın titulu və tərcümaçisi haqqında məlumatlar var idi. Kitabcılıq və kitabxanaçılıq işində bu mühüm yeniliklərin olması zaman keçdikcə kitabxanaçılıq fikrinin tədricən inkişafını göstərən əsas əlamətlərdən biridir.

Qədim dünyada kitabxanaçılıq fikrinin inkişafında Assuriya kitabxanalarının iş təcrübəsinin mühüm rolu olmuşdur. 1841-ci ildə Tigir çayının sahilində indiki İraqın ərazisində arxeoloji qazıntılar aparan Mosuldakı fransız səfiri Polemil Botta qədim Assuriyanın mərkəzi Ninevanın xarabalıqlarını tapdı. Səfirin bu tapıntısı qədim dünyanın sirlərini açıqlamaqla və bəşər mədəniyyəti tarixinin öyrənilməsində böyük tarixi hadisə oldu. Bottun tapıntısı tarix üçün çox mühüm olan belə bir həqiqəti aşkara çıxardı ki, hələ qədim dünya sivilizasiyasından çox-çox əvvəl Assuriya sivilizasiyası mövcud olmuşdur.

1852-ci ildə isə ingilis alimi Henri Osten Beyyad Assuriyanın axırıncı ən böyük carı Aşşurbanipalın sarayının qalıqlarını aşkara çıxardı. Bu tapıntı nəinki şərq, demək olar ki, bəşər elminin və mədəniyyətinin, qədim şərq sivilizasiyasının öyrənilməsinə böyük töhvə oldu. O dövrdə Aşşurbanipalın "Öyüdnəsihət və məsləhət evi" adlanan sarayında qədim Şərqin ən böyük kitabxanası olan Aşşurbanipalın saray kitabxanası yerləşirdi. Bu kitabxana fondunun həcminə və zənginliyinə görə öz dövrünün ən böyük kitabxanası olmuşdur. Tarixi qaynaqların məlumatına görə kitabxanada 20 min gil lövhələr (kitablar) saxlanılırdı. Bəzi qaynaqlarda isə kitabxanada 100.000 gil lövhələrin saxlanması haqqında məlumatlar vardır. Car Aşşurbanipal ölkədə elmin, təhsilin, mədəniyyətin inkişafına xüsusi qayğı göstərən, böyük kitab həvəskarı olmuş, kitabların yazılmasına, toplanıb saxlanmasına kitabxanalar yaradılmasına xüsusi qayğı göstərmişdir. Məhz Car Aşşurbanipalın təşəbbüsü ilə qədim dünyanın ən böyük kitabxanası kimi şöhrət tapan Nineva kitabxanası yaranmış, onun inkişafına, saray kitabxanası kimi formalaşmasına, öz dövrü üçün olduqca böyük mədəni əhəmiyyət kəsb edən kitabxana işi ənənələri meydana gəlmişdir.

Aşşurbanipal qədim dünyanın ən böyük kitab sevən şəxsi ilk bibliofillərdən biri olmuşdur. Onun kitabı qiymətləndirmək, müqəddəs hesab etmək, kitabxana yaratmaq, kitabı toplayıb saxlamaq sahəsindəki, böyük fəaliyyəti bu fikri söyləməyə onu qədim dünyanın ilk bibliofillərindən biri adlandırmağa imkan verir. Aşşurbanipalın Nineva saray kitabxanasında kitabxana işini təkmilləşdirmək üçün bir çox yeniliklər meydana gəlmişdir. Bu yeniliklər dünya kitabxanaçılıq fikrinin inkişafına, kitabxanaçılıq təcrübəsinin zənginləşməsinə müsbət təsir etmiş, kitabxanaçılıq ənənələrinin əsasının qoyulmasına, formalaşmasına səbəb olmuşdur. Bu ənənələr ilk növbədə kitabxana binalarının tikilməsində, kitabxana fondlarının ardıcıl komplektləşməsində, kitabların təsnifində, fondda düzülüşündə, kitabxanalardan istifadə işinin kütləviləşməsində peşəkar kitabxanaçıların formalaşmasında özünü göstərmişdir. Məlumdur ki, qədim dövrlərdə kitablar gil lövhəciklər üzərində yazılır, odda bişirilirdi. Gil lövhəciklərdən hazırlanan kitablar əsasən nəmişlikdən daha tez xarab olduğunu nəzərə alaraq Ninevada kitabxana binaları tikilərkən onun üzünün şərqə, gün doğana qoyulması fikri irəli sürülmüşdü. Həmçinin bu məqsədlə də kitab fondlarının ikinci mərtəbədə yerləşdirilməsi zəruri hesab edilirdi. Kitabxana binalarının tikilməsinə dair Assuriyada hazırlanan elmi layihələr sonrakı nəsillərə də təsir etmiş, bu layihələrin müsbət cəhətlərindən istifadə edilməsi ənənəyə çevrilmişdir. Nineva kitabxanasının ardıcıl olaraq komplektləşdirilməsinə əsas diqqət Car Aşşurbanipal tərəfindən həyata keçirilirdi. O, belə hesab edirdi ki, bu kitabxanada öz dövrünün kitabları ilə yanaşı olaraq böyük tarixi və mədəni əhəmiyyət kəsb edən qədim kitablarda toplanmamalıdır. Bu məqsədlə də o işğal etdiyi bütün ölkələrdən əldə etdiyi bütün kitabları Nineva kitabxanasına göndərirdi. O bununla kifayətlənməyib Assuriya çarlığına daxil olan bütün regionlara agentlər göndərib. Kitabları, qədim yazılı mətinləri, kitabələri topladaraq Ninevaya gətirir, onları bərpa etdirir, yenidən üzünü köcürdürərək Nineva kitabxanasının fonduna daxil edilirdi. Həmçinin bir qayda olaraq yeni kitabların kitabxana fonduna daxil edilməsinə də xüsusi diqqət yetirilirdi. Kitab fondunun komplektləşməsi işində baş verən bu yenilik fondun daha da təkmilləşməsinə və zənginləşməsinə səbəb olurdu. Kitabxanada kitabxanaçılıq ənənələrinin yaranmasına səbəb olan amillərdən biri də kitabxana işinə görkəmli alimlərin, peşəkar kitabxanaçıların və kitabxanaların cəlb edilməsi olmuşdur. Kitabxanada kitabların üzünü köçürüb çoxaldan, xarici dillərdən tərcümə etməyi bacaran mirzələrin, peşəkar kitabxana işçiləri sırasına isə görkəmli alimlərin cəlb edilməsi kitabxana işinin daha da təkmilləşməsini, elmi-mədəni mərkəzə çevrilməsini təmin etmişdir.

Qədim dünyanın bu böyük elm məbədgahının taleyində çox acınacaqlı sonluqla nəticələnmiş kitabxana b.e.ə. 609-cu ildə Assuriya çarlığı Midyalılar tərəfindən işğal edilən zaman dağılıb yerlə yeksən edildi. Assuriya carı Aşşurbanıpalın yaratmış olduğu bu elm və mədəniyyət məbədgahı – Nineva kitabxanası min illər bundan qabaq məhv olsa belə onun arxeoloji qazıntılar zamanı tapılan qalıqları qədim dünyanın yaratmış olduğu sivilizasiyanı müsir dünyanın gözü qabağında canlandırmaqla bəşər mədəniyyətinin gələcək inkişafına böyük töhfələr vermişdir. Assuriya çarlığında və xüsusi ilə Nineva kitabxanasında yaranmış iş təcrübəsi və kitabxanaçılıq fikirləri dünya kitabxanaçılıq fikirlərinin inkişafına böyük köməklik etməklə onun məhəng daşına çevrilmişdir.

Bəşər elminə, mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına və s. böyük töhfələr verən antik Yunanıstan ilk qədim və zəngin kitabxanalarında vətəni olmuşdur.

Antik Yunanıstanda erkən yazının meydana gəlməsi, məktəblərin açılması, təhsil sisteminin təkmilləşdirilməsi kitaba olan tələbatı olduqca artırmış, artıq Yunan kitabxanaçılığında böyük tərəqinin baş verməsinə şərait yaratmışdır.

Antik Yunanıstanda elmin müxtəlif sahələrinin: fəlsəfənin, riyaziyyatın, həndəsənin, biologiyanın, botanikanın, zoologiyanın, astranomiyanın, tibbin, dilciliyin, ədəbiyyatşünaslığın və s. inkişafı elmi məktəblərin yaranması və həmçinin bədii ədəbiyyat, dramaturgiya, memarlıq, təsviri sənəd və musiqi sahəsində qiymətli əsərlərin meydana gəlməsi kitabın məzmununda böyük dəyişikliklər etməklə onun çeşidini çoxaltmış, cəmiyyətin mənəvi tələbatını ödəyən bir vasitəyə çevrilmişdir.

O dövrdə ən çox yayılmış yazı materialı olan "papirusun" qədim Yunanıstanda istehsal olunması, kitabın sayının (tirajının) artmasına səbəb olmuşdu. Kitaba böyük tələbatın əmələ gəlməsi Qədim Yunan cəmiyyətində kitabxanalar yaradılması zərurətini meydana çıxarmışdı.

Artıq Yunanıstanda ilk kitabxanalar artıq b.e.ə VI əsrdə meydana gəlməyə başladı. Onları Afinada Somas adasının hökmdarı Polikart və Afinanın hökmdarı Psistrat yaratmışdı. Yunanıstanda kitabxanaların yaradılmasında və inkişafında Psistratın xüsusi xidməti olmuşdur. Məhz onun dövründə kitabxanalar qaydaya salınmış, kitabxana quruculuğu, kitabxana fondlarının təkmilləşməsi, oxuculara xidmət işinin təşkili sahəsində yeniliklər baş vermiş, "İlliada" və "Odessa" əsərlərinin siyahısı qaydaya salınmışdı. Həmçinin bu dövrdə Yunanıstanda şəxsi kitabxanalar meydana gəlmişdi. Yunana alimləri və yazıçıları cəmiyyətin inkişafında kitabın böyük mənəvi əhəmiyyət kəsb etdiyini dərk edərək özləri də şəxsi kitabxanalar yaratmağa başladılar. Tarixi qaynaqlarda göstərilir ki, ilk şəxsi kitabxana şair Evripid tərəfindən təşkil edilmişdir. Şəxsi kitabxanalar yaratmaq ideyası antik yunan cəmiyyətində baş verən böyük mədəni proseslərə, alim və yazıçıların sıralarının daha da çoxalması ilə, elmi araşdırmalara diqqətin artırılması ilə əlaqədar idi. Elmi və bədii yaradıcılıqla məşğul olan hər bir alim və yazıçı kitabsız keçinməyin, kitab olmadan elmi araşdırmalar aparmağın mümkün olmadığını dərk etdiklərindən şəxsi kitabxanalar yaratmağa üstünlük verməyə başladılar. Beləliklə, şəxsi kitabxanalar yaratmaq bir dəb halını almışdı.

Belə ilk şəxsi kitabxanalara misal olaraq filosof Evkilidin, filosof Aristotelin kitabxanalarını göstərə bilərik. Şəxsi kitabxanaların yaranması haq-

qında ideyaların meydana gəlməsi o dövür kitabxanaçılıq fikirlərinin təkmilləşməsinə, kitabxanaların cəmiyyətin əsas təsisatlarından birinə çevrilməsinə, cəmiyyətdə onun mədəni rolunun artmasına səbəb olmuşdu.

Antiq Yunan cəmiyyətində elmə, təhsilə, mədəniyyətə, kitaba, mütaliəyə əmələ gələn böyük tələbat kitabxanalar qarşısında yeni vəzifələr qoymuşdu. Kitabxanalar elm və mədəniyyətin yayılmasında yaxından iştirak etməklə, təhsil sisteminin əsas atributlarından birinə çevrilmişdi. Ölkənin təhsil sistemi əlaqəli şəkildə fəaliyyət göstərən kitabxanaların strukturunda, yeni kitablarla zənginləşməsində kitabxana fondlarının düzülüşündə, təsnifləşdirmə və kataloqlar yaratmaq işində yeni iş üsulunun və formalarının yaranmasını irəli sürürdü. Kitabxanaların idarə edilməsi və oxuculara xidmət prosesinin mürəkkəbləşməsi yeni elmi kitabxanaçılıq fikirlərinin və ideyalarının yaranması zərurətini qarşıya qoyurdu. Qədim Yunan kitabxanalarında kitabxanaçılıq fikrinin formalaşmasında kitabxanalarda kitabxanaçı vəzifəsində işləyən görkəmli yunan alimlərinin də böyük rolu olmuşdur.

Yunan kitabxanalarında fond yaratma metodikası xeyli dəyişmiş, kitablarla yanaşı olaraq digər sənədlərin: xəritələrin, dövlət sənədlərinin, sərəncamların, qaydaların, nizamnamələrin, ticarət və digər sənədlərin toplanmasına diqqət artırıldı. Həmçinin oxuculara xidmət etmək, oxucu-kitabxana və oxucu-kitabxanaçı prosesində formalaşmağa başladı. Bütün kitabxanalarda ümumacıqlıq fikrinin tədbiqi əsas ideya kimi irəli sürüldü.

Beləliklə, antik Yunan kitabxanaları cəmiyyətin elmə, təhsilə, mədəniyyətə artan tələbatını ödəmək üçün kitabı toplayıb saxlayan bir müəssisədən cəmiyyət üzvlərinin informasiya və mənəvi tələbatını ödəyən bir müəssisə kimi fəaliyyət göstərərək antiq cəmiyyətin etimadını doğrultmağa müvəffəq olmuşdur.

Məhz antiq Yunan cəmiyyətində baş verən bu proses bəşər mədəniyyəti tarixinə mühüm töhvələr verən qədim dünyanın elm və mədəniyyət məbədgahı olan, müasir elmi kitabxanaların əjdadı kimi böyük şöhrət qazanan İsgəndəriyyə Kitabxanasının yaranmasına səbəb oldu.

İsgəndəriyyə Kitabxanası antik dünyanın ən böyük kitabxanası kimi qədim dünyanın elmi və mədəni inkişafına böyük töhfələr vermişdir.

İsgəndəriyyə Kitabxanasının yaranması Makedoniyalı İsgəndərin adı ilə bağlıdır. 2300 il bundan əvvəl böyük sərkərdə Makedoniyalı İsgəndər Misiri işğal etdi. O, Nil çayının deltasında yerləşən Rokotis adlı kiçik bir kəndin yerində şəhər salınmasını əmr etdi. Yeni salınmış bu şəhərə böyük sərkərdənin şərəfinə İsgəndəriyyə adı verildi. B.e.ə 323-cü ildə İsgəndəriyyə Yunanıstanın paytaxtı elan edildi. B.e.ə III əsrin əvvəllərində İsgəndəriyyə Kitabxanası yaradıldı.

Tarixi qaynaqlardan məlumdur ki, İsgəndəriyyə Kitabxanasının yaranan gündən Misir hökmdarları qədim dünyanın bu böyük kitabxanasının inkişafı üçün əllərindən gələni etmiş, kitabxananın fondunu dünyanın ən nadir kitabları ilə zənginləşdirmək üçün vəsaitə qızırqalanmamışlar. Misir hökmüdarlarının

bu səyləri nəticəsiz qalmamış, kitabxana sözün həqiqi mənasında qədim dünyanın ən nadir elm və mədəniyyət mərkəzlərindən birinə çevrilmiş dünya şöhrəti qazanmışdı. Artıq 246-cı ildə filadelfin hakimiyyətinin sonlarında kitabxananın fondunda 400 min kitab toplanmışdı. Bir çox tarixçilər belə bir fikir irəli sürürlər ki, b.e.ə. I əsrdə kitabxanada 700 min kitab olmuşdur. Bir qayda olaraq kitabxanaya görkəmli filosoflar rəhbər təyin edilirdilər. Müxtəlif vaxtlarda kitabxanaya filosoflar – Erostofen, Aristofon, Virantey, Apollon, Eydoqraf, Aristorx, Zekodad, Efesski və s. olmuşdur. Böyük alimlərin kitabxanaya rəhbərlik etməsi, kitabxana işinin strukturunun formalaşmasına, kitabxana fondunda kitabların düzülüş qaydalarının işlənib hazırlanmasına, kitabların təsnifləşdirilməsinə, ümumiyyətlə elmlər təsnifatının və kitabxana təsnifatının rüşeym halında olsa da əsasının qoyulmasına, kitabxanada oxuculara xidmət işini asanlaşdırmaq üçün kitabxana kataloqlarının yaradılmasına, ilk biblioqrafik vəsaitlərin hazırlanmasına müsbət təsir göstərmişdir.

Qədim Yunanıstanda 700 mindən artıq kitab fondu olan İsgəndəriyyə Kitabxanasının yaranması, kitabxanaların sayının getdikcə artması, onlardan istifadə edən insanların çoxalması, kitabxanaların elmi-mədəni mərkəzlər kimi əhəmiyyətinin ön plana çəkilməsi, kitabxanaların idarə edilməsinin təkmilləşməsini və kitabxana işində baş verən mürəkkəb proseslərdən baş çıxaran, mütəxəssis insanların yetişməsini tələb edirdi.

Qədim kitabxanalar öz fondlarında minlərlə gil lövhəciklər, papirus bükümləri, perqament və s. yazı materialları üzərində yazılmış kitablar saxlayırdılar. Belə kitabsaxlayıcıları kitab dənizinə bənzətsək bu dənizdən baş çıxaran onun bələdçiləri lazım idi. Məhz belə dəniz bələdçiləri losmanlar oldu. Bu losmanlar o dövrün kitabxanaçıları-biblioqrafları idi. Bu dövrdə minlərlə kitab yazan alimlər yetimişdi. Belə alimlərə misal olaraq Misir alimi Didim Aleksadirini göstərmək olar o, 3500 əsər yazmışdı ki, onlar 8000 kitabda toplanmışdı. Hətta çox da böyük olmayan əsərlər bir neçe papirus bükməsindən ibarət olurdu. Bu vəziyyət kiçik bir əsərin bir neçə cilddən ibarət olması onların kitabxanalarda yığılıb saxlanması problemini qarşıda qoymuşdu. O dövrün kitabxanaçı biblioqrafları bu problemi həll etməli kitabxana fondunda kitabların düzülüşünü elə aparmalı idilər ki, müəyyən kitab lazım olanda minlərlə kitabın içərisindən onu tapıb oxucuya verə bilsin. Qədim kitabxanaların belə və buna bənzər digər problemləri üzərində aparılan araşdırmalar, əldə edilən nəticələr, yaradılan yeni metodlar və üsullar ilk kitabxanaçılıq fikirlərinin meydana gəlməsi və formalaşması üçün şərait yaratmışdı. Yeni hazırlanan metod yüzlərlə bükmələr (kitablar) içərisindən oxucuya lazım olanı tapmaq, kitabın adı nədir, kim tərəfindən yazılıb, hansı elm sahəsinə aiddir. Bu suallara cavab vermək o qədər də asan deyildi. Ən görkəmli alim, ən təcrübəli kitabxanaçı belə suallar qarşısında aciz qalırdılar. Bu da kitabxana yaratmaq, onu fondda toplayıb saxlamaq, cəmiyyətin istifadəsinə vermək, kitabxanaya daxil olan kitabların ucotunu aparmaq, sistemləşdirmək, müəyyən qayda əsasında kitabsaxlayıcıda düzülüş qaydaları yaratmaq işini qarşıda qoyurdu.

Bu yeni şərait kitabxana oxucularının tərkibində ciddi dəyişikliklərin baş verməsi, yeni oxucu kontingentinin savadlı insanların meydana gəlməsi, oxuculara kitab dənizindən baş çıxarmaqda, özlərinə lazım olan kitabları əldə etməkdə onlara yardımçı olan kitab losmanlarının yaranmasını tələb edirdi. Məhz zamanın qarşıda qoyduğu tələbi ödəmək üçün qədim dünya kitabxanaları losmanları-kitabxanaçı-biblioqraflar meydana gəldi. Biblioqrafiya termini qədim Yunanıstanda meydana gəlmişdir. "Biblio" - kitab, "qrappo" - yazıram. Tərcümədə bu termin "Kitab yazıram" mənasını verir. O dövr kitabxana işini daha mükəmməl təşkil etmək üçün aparılan işlərə baxmayaraq hələlik qədim dövür kitabxanalarında aparılan kitabxanaçılıq işi olduqca bəsit şəkildə idi. Dövrümüzə gəlib çatan tarixi sənədlərdən məlum olur ki, b.e.ə. III əsrdə ən böyük kitabxanalarda belə kitabxana texnikası sadə və bəsit olmuşdur. Məsələn, b.e.ə III əsrdə Misir çarı Amenimxetin kitabxanasında papirus kitabları fərqləndirmək, onun sərlövhəsini göstərmək üçün, kitabın üzərində onun adını göstərən etiketlər yazılıb asılırdı. Belə etiketlərdən zamanəmizə gəlib çatanları Britaniya muzeyi kitabxanasında saxlanılır. Aşşurbanipalın kitabxanasında kitabın sərlövhəsi kimi onun birinci səhifəsinin başlanğıcında yazılan cümlə kitabın sərlövhəsi kimi qəbul edilir və bu çümlə kitabın bütün səhifələrində təkrar olunurdu. Məsələn, kitabın birinci cümləsi ilə başlayırdısa bütün səhifələrdə "Dünaynın yaranması", bir, iki, üç və s. səhifələnirdi. Belə kitabxana kataloqunun əjdadı olan yazılara, Şumerdə, Assuriyada, Misirdə, Romada və s. qədim kitabxanaların xarabalıqlarında qazıntı aparılarkən tapılmışdır.

Göstərdiklərimizə baxmayaraq qədim kitabxanaların tarixini araşdıran tarixçilər belə hesab edirlər ki, göstərdiyimiz sadə və bəsid üsullarla və metodlarla qədim dünyanın nəhəng kitabxanalarını idarə etmək minlərlə kitab fondundan baş çıxarmaq, onu qoruyub saxlamaq, sistemləşdirmək onu oxucunun istifadəsinə vermək qeyri mümkün olardı.

Ancaq tarixdə İsgəndəriyyə Kitabxanasını idarə edən görkəmli alim-kitabxanaçı-biblioqraf haqqında onun dünaynın bu nəhəng kitabxanasını idarə etməsi kitabxanaçılıq fikrinin elmi bünövrəsinin qoyulması və inkişaf etdirilməsi haqqında çox inandırıcı məlumatlar vardır. Belə görkəmli kitabxanaçılara misal olaraq İsgəndəriyyə Kitabxanasının kitabxanaçısı Kallimaxı göstərmək yerinə düşərdi.

Alimlər belə hesab edirlər ki, Kallimax b.e.ə. 310-240-cı illərdə yaşamışdır. O, öz dövrünün böyük alimi və istedadlı şairi kimi məhşur olmuş, özündən sonra 800-dən artıq elmi və bədii əsər qoyub getmişdir. Bizim zəmanəmizə onun 6 himni və 78 epiqramması gəlib çatmışdır. Gənc vaxtı İsgəndəriyyə gedən Kallimax İsgəndəriyyə Kitabxanasında işləməyə başlayır. Tezliklə kitabxananın kollektivi bu gəncin böyük istedadının şahidi olur və o kitabxananın ən aparıcı işçisinə çevrilir. Görkəmli alim bütün şüurlu həyatını İsgəndəriyyə Kitabxanasının inkişafına və onun bütün dünya kitabxanalarının alduruna çevrilməsinə xidmət etmişdir.

Uzun müddət İsgəndəriyyə Kitabxanasına rəhbərlik edən görkəmli alim

Zenadotun ölümündən sonra Ptolomey Filodelf təxminən b.e.ə 260-cı ildə Kallimaxı İsgəndəriyyə Kitabxanasının birinci baş kitabxanaçısı vəzifəsinə təyin edir. Kallimax ömrünün son 20 ilini bu vəzifəni yerinə yetirir.

Kallimaxı bütün dünyada məhşurlaşdıran ən mühüm əsəri olan "Bütün bilik sahələrində məhşur olanların yazdığı 120 kitabın cədvəli" başər elminə, ədəbiyyatına, mədəniyyətinə qiymətli töhvə oldu. Çox təəssüf ki, bu fundamental əsər bizim zəmanəmizə gəlib çata bilmədi. Ancaq müasir dünya bu əsər haqqında məlumatı Kallimaxdan çox-çox sonra yaşayan müəlliflərin əsərlərindən ala bildi. Bu kitab haqqında ən ətraflı məlumat verən alim yunan qramatiki Afiniy Navratski olmuşdur. Bizim eranın III əsrində yaşayan Afiniy Navratski təxminən Kallimaxdan beş əsr sonra yazdığı "Bir yerdə işləyən alimlər" adlı əsərində məlumat vermişdir. Müəllif yazır: Kallimax öz cədvəlində çalışırdı ki, hər bir mühüm kitab haqqında onun müəllifi haqqında məlumat versin. Əgər kitabın müəllifi məlum deyilsə onu bərpa etməyə çalışırdı. Əgər sərlövhəsi yoxdursa özü sərlövhə verirdi. Qədim Şərq ölkələrində qəbul edilmiş ənənələrə müvafiq olaraq Kallimaxda kitabın sərlövhəsi kimi kitabın birinci səhifəsinin başlanğıcını qəbul etmişdir. Dünyada kitabı bu çür təsvir etmək ənənəsi XVI yüzilliyə qədər davam etmişdir.

Kallimaxın cədvəli qədim dünyanın tarixi məlum olan ilk biblioqrafik əsəri kimi olduqca böyük əhəmiyyət kəsb edir. Kallimax yunan ədəbiyyatını sistemləşdirərək onu daxildə növ və janrlara ayırmış əsərləri öz məzmununa görə qiymətləndirməyə səy göstərmişdir. Bir çox alimlər belə hesab edirlər ki, bu "cədvəl" təkcə İsgəndəriyyə Kitabxanasının deyil qədim Yunanıstanın böyük kitabxanalarının toplu kataloqudur.

Kallimax "cədvəli" neçə-neçə yüzilliklər boyu ilk kitabxana kataloqu, qədim dünya kitabxanalarının biblioqrafiyası kimi bəşər elm və mədəniyyətinə xidmət etmiş, kitabxanaşünaslıq və biblioqrafiyanın təməl daşı olmuşdur.

Heç də təsadüfi deyil ki, Kallimaxdan 400 il sonra yaşayan görkəmli Yunan alimi Qereniy Filon 12 hissədən ibarət çap etdirdiyi "Kitabın əldə edilməsi və seçilməsi" əsərində və görkəmli alim qrammatik Telef "Kitab təcrübəsi" adlı əsərində Kallimax əsərlərindən bəhrələnmişlər. Beləliklə, bu gün hec bir elmin keçinə bilmədiyi kitabxanaçılıq və biblioqrafiyanın təməl daşları qoyulmuşdur.

Qədim Yunanıstan ilk elmi kitabxanaçılıq fikirlərinin vətəni olduğu kimi ilk peşəkar kitabxanaçının da vətəni olmuşdur. Belə ki, tarixçi Dioder Misirdə Fiv məbədini təsvir edərkən göstərmişdir ki, Nilin sahilində yerləşən Karnakadan qazıntı işləri aparılan zaman iki nəfər kitabxanaçının ata və oğul Miamunların qəbri aşkar edilmişdir. Bu kitabxanaçılar b.e.ə 1200-cü ildə hökmdar Ramzesin kitabxanasında xidmət etmişlər. Deməli, 3200 il əvvəl Misirdə peşəkar kitabxanaçı sənəti mövcud olmuşdur. Doğrudur, biz əvvəllər göstərdiyimiz kimi hələ 5 min il əvvəl Şumerlərdə ilk kitabxanalar yaranarkən bu kitabxanaları yaradıb onu idarə edən müxtəlif peşə sahibləri müəllimlər, mirzələr, alimlər olduğu kimi hec şübhəsiz kitabxanaçılar da olmuşlar. Ancaq tarixi əsərlərdə belə ilk kitabxanaçılar haqqında məlumatlara rast gəldiyi-

mizdən Misir kitabxanaçıları Meamunlar tarixi əsərlərdə adı çəkilən ilk peşəkar kitabxanaçılardır. Bu məsələyə münasibət bildirən görkəmli Amerika kitabxanaşünası C.Şira deyir: Qədim Misirdə başqa dövlət vəzifələri kimi kitabxanaçı vəzifisinidə varisliyə əsaslandığını söyləmək olar.

Bu fikir bir daha təsdiq edir ki, Qədim Misirdə kitabxanaçı sənətinə bir peşə kimi baxılmış və qədim dünyada meydana gələn və formalaşan ilk kitabxanaçılıq sənətinin ənənələrindən istifadə edilmişdir. Kitab dənizinin losmanları kimi meydana çıxıb formalaşan kitabxanaçılıq sənəti zaman keçdikcə daha da inkişaf etmiş, yeni-yeni keyfiyyətlər əldə edərək şərəfli bir peşəyə çevrilmişdir.

Dünya kitabxanaçılıq tarixində qədim Misirdən sonra ən böyük kitabxanalar Romada meydana gəlmişdir. Romalılar b.e.ə II əsrdə Karfaqeni, Makedoniyanı, Siryanı, Yunanıstanı və Kiçik Asiyanın qərb hissəsini, sonralar Şimali Afrikanı və Misiri işğal edərkən hərbi qənimət kimi həmin ölkələrin kitabxanalarını da gətirmişdilər. Beləliklə, Roma kitabxanaları dünyanın ən böyük və tarixi təcrübəsi olan kitabxanaların üzərində qurulmuşdu. Romalılar işğal ölkələrindən dünyanın ən nadir kitabxanalarını gətirməklə böyük kitabxanaların təcrübəsini də mənimsəmiş, o dövrün kitabxanaçılıq fikirlərindən bəhrələnmişdilər. Roma kitabxanaları öz struktur quruluşuna, kitabxana işinin yeni forma və üsullarına, oxucu kontingentinə, kitabxana xidməti sahəsindəki yeniliklərə görə qədim dünya kitabxanalarına nisbətən xeyli irəliyə getmişlər.

Roma kitabxanaları özündən əvvəlki kitabxanalara nisbətən demokratik əsaslarda da qurulduğundan onlara ümumi kitabxanalar adı verilmişdi. Roma kitabxanaları öz dövrünün xarakterinə görə ümumacıq kitabxanalar hesab edilə bilərdi.

Romada ilk ümumacıq kitabxana açmaq fikri b.e.ə 100-44-cü illərdə imperator Yuli Sezar tərəfindən irəli sürülməsinə baxmayaraq kitabxananı açmaq ancaq onun ölümündən sonra b.e.ə təxminən 39-28-ci illərdə Sezarın yaxın silahdaşlarından biri olan Qeam Ariney Pollion tərəfindən təşkil edildi. Bu dövrdən başlayaraq Roma imperatorları kitabxanalar yaratmaq, onları qiymətli kitablarla zənginləşdirmək və oxuculara xidmət işini təşkil etməyə mühüm əhəmiyyət verirdilər. Artıq eramızın birinci əsrində Romada 28 böyük kitabxananın mövcud olması haqqında məlumat vardır.

Romada kitabxanaların kəmiyyətcə artımı, qədim kitabxanalara nisbətən kitabxanadan istifadə edən insanların çoxalması dövrün kitaba olan tələbatının artması, kitabxana-oxucu münasibətlərində daha mürəkkəb proseslərin meydana çıxması, kitabxanaçılıq fikirlərinin daha da təkmilləşməsini tələb edirdi. Məhz buna görə də Romada kitabxana fondlarının yaradılması, qorunub saxlanması, təsnifi, düzülüşü, kitabxana kataloqlarının təşkili, oxuculara xidmət işinin forma və üsullarının təkmilləşməsi sahəsində daha elmi, daha praktik fikirlər formalaşmağa başladı. Məhz Romada yaranan bu yeni elmi kitabxanaçılıq fikirləri bəşər kitabxanaçılıq fikirlərinin gələcək inkişafına böyük təkan verdi.

ELM VƏ TƏHSİL FƏDAİSİ

XX əsr Azərbaycan elminin, mədəniyyətinin və ədəbiyyatının inkişafında görkəmli xidmətləri olan şəxsiyyətlərdən biri də ədəbiyyatşünas alim, tənqidçi, şair, jurnalist, filoloji elmlər doktoru, professor Cəfər Zeynal oğlu Hacıyev olmuşdur. Azərbaycan ədəbiyyatı və filoloji elmlər sahəsində böyük yaradıcılıq yolu keçmiş, öz elmi-nəzəri tədqiqatları və ədəbi-bədii yaradıcılığı ilə elmimizi və ədəbiyyatımızı zənginləşdirən professor Cəfər Xəndan Hacıyev XX əsr elm, ədəbiyyat və mədəniyyət tarixində öz yerini əbədiləşdirmişdir.

Professor Cəfər Xəndan, Hacıyev öz fəaliyyəti dövründə bir neçə şeir kitabları: "Bəyaz gecələr" (1936), "Cəbhə şeirləri" (1942) nəşr etdirmiş, "Ədəbiyyat nəzəriyyəsi", " XX əsr Azərbaycan ədəbiyyatı tarixi" və bir sıra digər dərsliklər və dərs vəsaitləri, monoqrafiyalar çap etdirmiş, bir çox orta məktəb dərsliklərinin müəllifi olmuşdur.

Professor Cəfər Xəndan həmçinin dövlət xadimi, elm və təhsil təşkilatçısı kimi də çox şərəfli bir yol keçmişdir. Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmiş, Bakı Dövlət Universiteti filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri, fakültə dekanı işləmiş, universitetin rektoru kimi olduqca məsul bir vəzifəyə yüksəlmişdir. Bütün mənalı ömrünü universitetə bağlayan bir elm və təhsil fədaisi kimi universitet təhsilinin və elminin inkişafı və tərəqqisinə böyük töhfələr vermiş, beləliklə də öz adını əbədi olaraq universitetini inkişaf salnaməsinə yazmışdır.

Professor Cəfər Xəndan Hacıyev həm də öz tələbələrini sevən, öz növbəsində tələbələrin sevimlisi olan, gözəl müəllim, istedadlı pedaqoq, məşhur mühaziraçi idi. Böyük natiqlik məharətinə malik olan Cəfər Xəndanın mühazirələri tələbələr tərəfindən toy - bayram kimi qarşılanır. Onun mühazirələrində, demək olar ki, yüz faiz davamiyyət olardı. Mən o dövrdə şahidi olduğum bir hadisəni danışsam yerinə düşər. Mən fakültə dekanlığının qarşısında dayanmışdım, tələbə yoldaşlarımdan biri o birinə sual verdi:

- Sabah gedirikmi?
- Yox.
- Niyə? Söz vermişdim.
- Bağışla, Cəfər müəllimin dərsi olduğunu unutmuşdum. Qardaş, bilirsən ki, onun dərsini buraxmaq olmaz! Biz onun dərsindən yüksək bilik, həm də zövq alırıq.

Bax bu tələbənin öz müəlliminə verdiyi qiymətdir.

Cəfər Xəndan müəllimə xas olan ən böyük kefiyyətlərdən biri də onun sadiqliyi və xeyirxahlığı idi. O dövrdə ən gənc elmlər doktoru, professor, universitet rektoru olmasına baxmayaraq bu insan nə qədər sadə idi. İnsanlarla danışanda həmişə üzündə təbəssüm olardı. Gülərdi, həm tələbəni, həm də müəllimi xoş üzlə qarşılayardı. Universitetin bütün tələbələrinin, o cümlədən də mənim, qəlbimdə sadəliyi ilə özünə böyük ter tutmuşdur. O, çox səliqəli

geyinirdi. Tələbələr və onunla ünsiyyətdə olan bütün insanlarla rəftar qabiliyyətinə, böyüklə-böyük, kiçiklə-kiçik olmasına, insanlar arasında fərq qoymamasına heyran qalmaya bilmirdik.

Onun xeyirxahlığına öz həyatımla bağlı bir hadisəni yada salıram. 1957-ci ilin avqust ayı idi. Universitetdə qəbul imtahanları qurtarmışdı. Qəbul komissiyasının iclaslarında tələbələr sırasında qəbul keçirilirdi. Qəbul komissiyasının iclaslarına universitetin rektoru, akademik Şəfayət Mehdiyev sədrlik edirdi. İclaslar rektorun otağında keçirilirdi. Bir qayda olaraq fakültə dekanları qəbul komissiyasının üzvü olurdular. Şərqşünaslıq fakültəsinin dekanı üzürlü səbəblərdən şəhərdə olmadığından məni partiya bürosunun katibi kimi qəbul komissiyasının iclasına dəvət etmişdilər (o dövrdə kitabxanaçılıq şöbəsi şərq fakültəsinin tərkibində idi). Professor Cəfər Xəndan da qəbul komissiyasının üzvü kimi iclasda iştirak edirdi. Komissiyanın iclasının gedişi zamanı birdən hökumət telefonu zəng çaldı. Rektor Şəfayət müəllim dəstəyi qaldırdı. İclasın gedişi dayanmışdı. Hamının diqqəti rektora dikilmişdi. Hiss edilirdi ki, nə isə ciddi bir məsələdən söhbət gedir. Bunu rektorun əhval-ruhiyyəsindən də hiss etmək olardı. Telefon danışığı qurtardıqdan sonra rektor qayğılı halda Universitet Partiya Komitəsinin katibi dosent Əjdər İbrahimova üz tutub dedi: "Əjdər müəllim, zəng edən Azərbaycan Kommunist partiya Mərkəzi Komitəsinin Katibi Abdulla Bayramov idi. O Stalin prospekti (indiki Neftçilər prospekti), 67 saylı evdə dosent Abuzər Cahangirovun boşaltdığı bir otağı universitet əməkdaşlarından birinə verib onlara, Mərkəzi Komitəyə, xəbər verməmizi tələb edir. Siz bilirsiniz ki, bu mənzildə üç ailə, prorektor Mehdi Əliyevin, professor Abdulla Muxtarovun və Abuzər Cahangirovun ailəsi yaşayırdı. Biz belə hesab edirik ki, bu mənzilə üçüncü adam göndərməyək. Nə etməli, deyirlər gərək göndərək. Namizədiniz varmı?" "Bəli var, mən belə hesab edirəm ki, bu bir otağı şərqşünaslıq fakültəsi partiya bürosunun katibi, bu gün iclasda iştirak edən Abuzər Xələfova verək" Rektor mənə sual verdi. "Abuzər sən evlisən?" "Mən cavab verdim: subayam" Rektor soruşdu biz subay adamı ümumi mənzilə göndərə bilərikmi? Bu zaman prof. Cəfər Xəndan yerindən dedi: "Abuzər get evlən, otağı əldən çıxartma". Hamının diqqəti mənə dikildi. Mən dedim: "hörmətli professor mən bir otağa görə özümü bədbəxt edim? Tanıdığım, seçdiyim qız yoxdur. Təsadüfü qıznan evlənməyin nəticəsi yaxşı olmaz". Mənim sözün iclasda höküm sürən atmosferi xeyli yüngüləşdirdi. Gülüşmə baş verdi. Rektor yenə sual verdi: "Yaxşı bəs otağı sənə versək orada kiminlə yaşayacağam?" Mən dedim bacımla, bacım bu il universitetin kitabxanaçılıq şöbəsinə daxil olub.

Tez yerdən prof. Cəfər Xəndan dilləndi: "Şəfayət müəllim, məncə vermək olar".

Məhz bu xeyirxah insanların: akademik Şəfayət Mehdiyevin, dosent Əjdər İbrahimovun və professor Cəfər Xəndanın sahəsində mənzil sahibi oldum. İndi də mən bu böyük insanların ruhu qarşısında baş əyirəm, onlara Allahdan rəhmət diləyirəm.

Bu mənzili almaq mənim ikinci xoçbəxtliyimə, prof. Cəfər Xəndanla qonşu olmağıma səbəb oldu. Mən Cəfər müəllimlə bir blokda yaşamalı oldum. Bu gündən başlayaraq onun mənə qayğısı daha da artdı. Mənimlə daha dərindən tanış olmağa, mənim işimlə, xüsusilə elmi işimlə maraqlanmağa başladı. O, hər dəfə məni görəndə dayanır, hal-əhval soruşur, yaşayış tərzimlə maraqlanır, özü haqqında, keçdiyi olduqca çətin həyatı haqqında məlumatlar verir, deyirdi: "darıxma, hər şey yaxşı olacaq, hər şey insanın öz əlindədir. Çalış elmi iş götür, yaz, müdafiə elə, sənin seçdiyin ixtisasın böyük gələcəyi var: kitab və kitabxanalar xalqımızın mədəni inkişafında böyük rol oynamış, indi də oynayır. Kitabı xalqa çatdırmaq böyük sənətdir".

Söhbətlərimizin birində o, məndən soruşdu: dissertasiya mövzusu götürmüsənmi? Dedim: "Sovet Azərbaycanında kitabxana işinin tarixi" mövzusunu götürmüşəm. Çox bəyəndi. Dedi: təkcə sovet dövrünü yox qədim kitabxanalarımızın tarixini də öyrən, xalqımızın çox qədim və zəngin kitab və kitabxana tarixi var. Bu, Azərbaycan mədəniyyəti tarixinin tərkib hissəsidir. İndi bunun öyrənilməsinə böyük ehtiyac duyulur. Sonrakı görüşlərimizdən birində soruşdu: elmi rəhbərin kimdir? Dedim hələ elmi rəhbər tapmamışam. Dedi: Azərbaycan tarixi sahəsində ən nüfuzlu alimlərdən biri Akademiyanın müxbir üzvü, Akademiyanın Tarix İnstitutunun direktoru, prof. Z. İbrahimovdur. Mən məsləhət bilirəm, xahiş edək qoy sənə rəhbər olsun. Belə də oldu. Prof Cəfər Xəndan müəllimin tövsiyəsi və xahişi əsasında prof. Z. İbrahimov mənə elmi rəhbər olmağa razılıq verdi. Prof. Cəfər Xəndan müəllimin bu xeyirxahlığı mənim taleyimdə çox böyük rol oynadı. Mən prof. Z. İbrahimovun rəhbərliyi ilə həm namizədlik, həm də doktorluq dissertasiyası müdafiə etdim.

Namizədlik dissertasiyam hazır olduqdan sonra Zülfəli müəllim mənə dedi ki: prof. Cəfər Xəndan Hacıyevi sənə opponent təyin edəcəyik. Get razılığını al. Mən bu fikri Cəfər Xəndan müəllimə çatdıranda məmnuniyyətlə razı olmasını bildirdi. Dedi: qonşu, yadındadır, mən sənə demişdim, hər şey insanın özündən asılıdır. Zəhmət insanı yüksəldir. Darıxırdın, indi görürsənmi elmlər namizədi olursan. Mən Cəfər müəllimin mənim dissertasiyama yazdığı rəydən bir parçanı burada vermək istəyirəm. Prof. Cəfər Xəndan yazırdı: "Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün Abuzər Əli oğlu Xələfovun müdafiəyə təqdim etdiyi "Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)" adlı elmi əsəri tarix, filologiya və kitabxanaşünaslıq elmlərinin çox mühüm, zəruri və ən aktual bir məsələlərinə həsr edilmişdir. Xüsusən Azərbaycanda kitabxana işinin tarixinə dair heç bir elmi əsərin olmaması bu dissertasiyanın mövzusunu daha da aktuallaşdırır və əhəmiyyətini artırır. Məlum olduğu kimi, kitabxana tarixi mədəniyyət tarixinin ayrılmaz hissəsindən biridir. Mədəniyyət tarixinin hərtərəfli tədqiq edilib öyrənilməsində kitabxana tarixinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. İndiyədək Azərbaycanda bu mövzuya dair nəinki elmi-tədqiqat əsərlərinin olmaması, hətta nəzəri cəlb edən kitabça və jurnal materiallarının yoxluğu, dissertantı böyük çətinliklər qarşısında qoymasına baxmayaraq o, bu elmi yollarda ilk addım atmış,

məlum yollarla getməmiş, arxivlərdən, dövrü mətbuatdan kitabxanaçının elminə yaxın olan elm sahələrindəki cüzi məlumatlardan və s. mənbələrdən istifadə edərək orjinal söz demək istəmişdir. Bu orjinallıq dissertasiyanın bütün fəsillərində nəzərə çapmışdır".

Təxminən yarım əsr bundan əvvəl bir çox başa bəla alimlərin kitabxanaşünaslığı elm hesab etmədikləri bir dövrdə prof. Cəfər Xəndan Hacıyevin kitabxanaçılıq tədqiqatlarına belə yüksək qiymət verməsi kitabxana tarixini mədəniyyət tarixinin, filologiyanın tərkib hissəsi kimi qiymətləndirməsi bu görkəmli filoloq-alimin dərin biliyindən, yüksək elmi, intellekt səviyyəsindən və uzaqgörənliyindən xəbər verir.

Mən bu yazıları qələmə alarkən Cəfər Xəndan müəllimi bir daha xatırlayıb, onun müqəddəs ruhu qarşısında baş əyirəm.

"İnformasiya texnologiyaları" jurnalı.
Bakı, 2010. s. 40-47

GÖRKƏMLİ AZƏRBAYCAN ALİMİNİN HƏYAT SALNAMƏSİ

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin qərarı ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasının "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyası ilə akademik, Milli Məclisin deputatı, Bakı Dövlət Universitetinin rektoru Abel Məmmədəli oğlu Məhərrəmovun şəxsi biblioqrafik məlumat kitabını çap etdirməsi ölkəmizin informasiya məkanında mühüm hadisədir. Tərtibçi müəlliflər Jurnalistika fakültəsinin müəllimi Pərvanə İbrahimova və BDU-nun mətbuat və informasiya şöbəsinin mütəxəssisi Anzulə Əmirova, redaktoru dosent Fikrət Şiriyev, elmi redaktoru prof. Mirzə Allahverdiyev və k.e.n. Polad Məmmədov, ixtisas redaktorları dosent Namiq Şıxəliyev və k.e.n İnarə Nağıyeva olan bu monumental məlumat kitabı Azərbaycan, rus və ingilis dillərində 512 səhifədən ibarət "Çaşoğlu" nəşriyyatı tərəfindən nəfis şəkildə oxuculara və mütəxəssislərə təqdim olunmuşdur. Biblioqrafik məlumat kitabının I hissəsi rəsmi məlumatları əhatə edir. Buraya Azərbaycan Respublikasının Prezidentinin Abel Məmmədəli oğlu Məhərrəmovun M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin rektoru təyin olunması barədə 1 yanvar 1999-cu il tarixli, M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin 80 illiyi münasibəti ilə elm və təhsil sahəsindəki nailiyyətlərinə görə Abel Məmmədəli oğlu Məhərrəmova "Əməkdar elm xadimi" fəxri adının verilməsi barədə 11 fevral 2000-ci il tarixli, Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Abel Məmmədəli oğlu Məhərrəmovun "Şöhrət" ordeni ilə təltif edilməsi barədə 30 oktyabr 2009-cu il sərəncamları, Abel Məmmədəli oğlu Məhərrəmovun Azərbaycan Respublikası Milli Məclisinə deputat seçkilərinin nəticələrinə görə 16 saylı Yasamal ikinci seçgi dairəsində Millət vəkili seçilməsi barədə dekabr 2005-ci il tarixli Azərbaycan Respub-

likası Konstitutsiya Məhkəməsi Plenumunun qərarından çıxarış üç dildə (azərbaycan, rus, ingilis) daxil edilmişdir.

Biblioqrafik məlumat kitabında məqsəd və vəzifəsi, informasiya mənbələrinin əhatə dairəsi, kitabın quruluşu, informasiya bazası haqqında "Ön söz" geniş məlumat verilmiş, sonrakı bölmədə akademik A.M.Məhərrəmovun həyatı və elmi-ictimai fəaliyyətinin əsas tarixləri xronoloji qaydada təqdim olunmuşdur.

"Akademik Abel Məmmədəli oğlu Məhərrəmov Bakı Dövlət Universitetinin rektoru" məqaləsində akademikin həyat və elmi inkişaf yolu barədə bioqrafik məlumat verilməklə yanaşı, onun Bakı Dövlət Universitetinə rektorluq etdiyi dövrdə elm, təhsil təşkilatçısı, görkəmli alim, ictimai xadim kimi yaradıcılıq laboratoriyası haqqında bitkin məlumat verilmişdir. AMEA-nın Prezidenti, akademik Mahmud Kərimov "Akademik Abel Məhərrəmovun elmi və ictimai – siyasi fəaliyyəti haqqında" adlı geniş məzmunlu və əhatəli məqaləsində A.Məhərrəmovun mənalı ömür yolu, sanballı elmi yaradıcılığı, millət və dövlət qarşısındakı layiqli xidmətləri, vətənpərvər alim kimi fəaliyyəti, kimya elmi sahəsində bir sıra yeniliklərin müəllifinə çevrilməsinin köklü səbəblərini - ziyalı ailəsində tərbiyə almasını, dünya elmində və təhsilində yeri olan Bakı Dövlət Universitetində, sonra isə Moskva Dövlət Universitetində təhsil alıb formalaşmasını, yaratdığı yeni elmi istiqamət, Azərbaycan həqiqətlərinin, elm və təhsilinin xarici ölkələrdə təbliği sahəsində görkəmli alimin fəaliyyətinin ən mühüm nəticələrini şərh etmişdir.

Məqalədə akademik A.M.Məhərrəmovun son on ildə BDU-nun rektoru kimi apardığı çoxşaxəli fəaliyyətinin nəticəsi kimi Azərbaycan təhsil sisteminin dünya təhsilinə inteqrasiyasına, dünya təhsil sistemində Bakı Dövlət Universitetinin mövqelərinin möhkəmləndirilməsinə, Qafqaz regionunda lider universitetə çevrilməsinə sanballı töhvə verdiyi, təhsildə islahatları, strateji hədəflərin uyğun daha inamla davam etdirilməsini, onun aydın, ardıcıl dövlətçilik mövqeyini böyük məmnunluq hissi ilə təqdim etmişdir.

Biblioqrafik məlumat kitabının maraqlı bölmələrindən biri də "Görkəmli alimlər, tanınmış ictimai, siyasi xadimlər Abel Məhərrəmov haqqında" adlanır. Burada görkəmli alim haqqında MDU-nun rektoru V.A.Sadovnici, Rumuniyanın sabiq Prezidenti İ.İliyesko, YUNESKO-nun Baş Direktoru K.Matsuura, KMDU-nun sabiq rektoru, akademikV.Skapenko, Polşanın sabiq Prezidenti A.Kvasnevski, Təhsil Naziri M.Mərdanov, Rusiya E.A-nın akademikləri V.Lunin, N.S.Zefirov, Moskva Dövlət Universitetinin Bakı filialının rektoru N.Paşayeva, İranın Azərbaycanlı məşhur alimi Cavad Heyət, xalq şairi B.Vahabzadə, professor Hacı Allahşükür Paşazadə, akademik A.Əlizadə, Rusiyanın EA-nın müxbir üzvü Ю.Н.Вивнов, millət vəkili, professor M.Ələsgərov, akademik V.Məmmədəliyev, yazıçı Anar, xalq şairi Nəbi Xəzri, Musiqi Akademiyasının rektoru, xalq artisti F.Bədəlbəyli, akademik M.Rüstəmov, akademik B.Budaqov və başqa dünyanın görkəmli dövlət, elm və təhsil xadimlərinin fikir və arzularından seçmələr verilmişdir.

Biblioqrafik məlumat kitabının III bloku "Əsərlərin biblioqrafiyası" adlanır. Burada alimin monoqrafiyaları, dərslik və dərs vəsaitləri, kitabları, elmi məqalələri və tezisləri, patentləri, yetişdirdiyi elmlər doktorları və namizədləri, redaktoru olduğu kitablar və haqqında yazılmış kitabları, ictimai-siyasi fəaliyyəti ilə bağlı məqalələri, müxtəlif mövzulara həsr olunmuş məqalələr və açıqlamaları, müsahibələri, ictimai-siyasi çıxışları, haqqında və rektor olduğu dövrdə Bakı Dövlət Universiteti ilə bağlı materiallar, xarici səfərləri və BDU-da xarici qonaqlarla keçirilən görüşlərdən bəhs edən məqalələr ayrı-ayrı bölmələrdə xronoloji ardıcıllıqla verilmişdir.

Məlumat kitabının monitorinqi vasitəsilə müəyyən etmək olur ki, 1973-2009-cu illər ərzində akademik A.M.Məhərrəmovun 9 monoqrafiyası, (o cümlədən azərbaycan dilində - 4 rus dilində - 3 ingilis dilində - 1 fars dilində - 1), 47 dərslik, dərs vəsaiti və kitabı (Azərbaycan dilində 42, rus dilində 5), 710 elmi məqaləsi, o cümlədən bunlardan 180-i Azərbaycan dilində, 395-i rus dilində, 126-ı ingilis dilində, 9-u türk dilində dərc olunmuşdur.

Maraqlı arxitekturaya malik olan bu biblioqrafik məlumat kitabında görkəmli alimin 1986-cı ildən 2009-cu ildək müəllifi olduğu Kimyanın aktual tətbiqi sahələri üzrə 44 patentin təsviri verilmişdir ki, bunlardan 24-ü Azərbaycan dilində, 20-i isə rus dilindədir.

"Rəhbərliyi altında müdafiə etmiş elmlər doktoru və namizədlərin siyahısı" bölməsində xronoloji ardıcıllıqla akademikin elmi istiqaməti və elmi məktəbinin formalaşması prosesini izləmək olur. İndiyə kimi akademik A.Məhərrəmov 23 elmlər namizədi, 3 elmlər doktoru yetişdirmişdir.

Biblioqrafik mənbənin "İctimai siyasi fəaliyyəti" adlanan blokunda 1999-cu ildən 2009-cu ilə kimi 821 adda müxtəlif xarakterli material öz əksini tapmışdır.

Biblioqrafik məlumat kitabında verilmiş zəngin informasiya axtarış sistemi onun informasiya tutumunu və axtarış imkanlarını artıran keyfiyyəti kimi qeyd edilməlidir. Bu baxımdan bəhs edilən kitab Azərbaycan biblioqrafiyası tarixində zəngin axtarış aparatı olan çox nadir biblioqrafik abidələr hesab olunan mənbələrlə müqaisə oluna bilər. Belə ki, "Azərbaycan kitabı" adlı retrospektiv xarakterli repertuar tipli göstəricidə cəmi 10 adda köməkçi aparat verilmişdir. Təqdim olunan məlumat kitabında 16 adda yardımçı göstərici verilmişdir. Buraya akademik A.M.Məhərrəmovun əsərlərinin əlifba göstəricisi (monoqrafiya, dərs vəsaitləri və kitablar, elmi məqalələri, tezisləri, patentləri), rəhbərlik etdiyi namizədlərin və doktorantların əsərlərinin əlifba göstəricisi, redaktoru olduğu və haqqında yazılmış kitabların əlifba göstəricisi, müştərək müəlliflərin əlifab göstəricisi, elmi məqalə və tezisləri çap olunan xarici ölkə sahələrinin əlifba göstəricisi, ictimai-siyasi fəaliyyəti ilə bağlı materialların əlifba göstəricisi və s. göstəricilər daxildir.

Haqqında yazan müəlliflərin əlifba göstəricisi ilə tanışlıq göstərir ki, Akademik A.Məhərrəmovun elmi və ictimai fəaliyyəti həmişə görkəmli elm və mədəniyyət xadimlərinin diqqət mərkəzində olmuşdur.

İndiyə kimi akademik haqqında 130-dan çox əsər yazılmışdır. Bu müəlliflərdən A.Əmirov 8, R.İbrahimova 14, A.Xələfov 5, F.Şiriyev 5, K.Niftəliyev 5, M.İmanlı 3 adda əsər çap etdirmişlər.

Xarici səfərləri və xarici qonaqlardan bəhs edən məqalələrin əlifba göstəricisi vasitəsilə akademik A.M.Məhərrəmovun xarici səfərlərinin cağrafi arealı, xarici qonaqlarla universitetdə keçirdiyi görüşlərin palitrasını müəyyən etmək olur.

Bütövlükdə akademik A.M.Məhərrəmova həsr edilmiş öz tərtibatı texnologiyası və metodologiyasına görə şəxsi bilioqrafik məlumat kitabı kimi Azərbaycan biblioqrafiyasının mühüm nailiyyəti hesab oluna bilər . Müasir Azərbaycanın görkəmli alimi, ziyalısı təhsil təşkilatçısının – Bakı Dövlət Universitetinin rektoru, Universitetin beynəlxalq nufuzunun yüksəlməsində son onillikdə universitetdə elm, təhsil sahəsində ciddi islahatların aparılmasında böyük xidmətləri olan Abel Məhərrəmovun informasiyaloji portiretini yaradır və onun əsl həyat salnaməsi hesab edilə bilər.

Bu mühüm biblioqrafik əsər respublikamızın elm və təhsil işçiləri, tələbələr, magistrlər, doktorantlar və ali məktəblərin professor - müəllim heyəti üçün olduqca faydalıdır.

N.İsmayılovla birlikdə.
"Respublika" qəzeti. 3 fevral 2010

AZƏRBAYCAN ALİMİNİN BEYNƏLXALQ UĞURU

Bakı Dövlət Unisersitetinin rektoru, akademik Abel Məhərrəmov Avrasiya Universitetləri Assosiasiyasının medalı ilə təltif olunmuşdur. Bu günlərdə Bakı Dövlət Unisersitetinin rektoru, millət vəkili, Azərbaycan MEA-nın akademiki Abel Məmmədəli oğlu Məhərrəmov Avrasiya Universitetləri Assosiasiyasının "Avrasiya əməkdaşlığı sahəsindəki töhfələrinə görə" medalı ilə təltif olunmuşdur. Beynəlxalq mükafatın diplomunu Avrasiya Universitetləri Assosiasiyasının Prezidenti, Rusiya Elmlər Akademiyasının akademiki V.A.Sadovniçi təqdim etmişdir.

Xatırladırıq ki, 2010-cu il aprelin 23-24-də Moskva şəhərində Avrasiya Universitetləri Assosiasiyasının və M.V.Lomonosov adına Moskva Dövlət Unisersitetinin birgə təşkilatçılığı ilə Moskva şəhərində Universitetlərin III beynəlxalq elmi-praktik konfransı keçirilmişdir. Konfrans "Universitetlər və cəmiyyət. XXI əsrdə universitetlərin əməkdaşlığı və inkişafı" adlanırdı.

Son zamanlar "Universitetlər və cəmiyyət" konfransları artıq ənənə şəklini almış və universitetlərin beynəlxalq forumuna çevrilmişdir. Bu tədbirə ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən universitetlərin rəhbərləri, fakültə dekanları, kafedra müdirləri, ali məktəb müəllimləri və elmi əməkdaşlar dəvət olunurlar.

Bu il konfransın işinə müxtəlif dövlətlərin aparıcı universitetlərini və elmlər akademiyalarını təmsil edən 1000 nəfərdən çox mütəxəssis qatılmışdı.

Onların arasında digər xarici ölkələrlə yanaşı, Azərbaycanı təmsil edən görkəmli alimlər, habelə Avrasiya Universitetləri Assosiasiyasının üzvü olan universitetlərin, Xəzəryanı Dövlətlərin Universitetləri Assosiasiyasının və Qara Dəniz Hövzəsi Ölkələri Universitetləri Assosiasiyasının nümayəndələri də vardı. Burada plenar və bölmə iclasları, elmi-metodik seminarlar və tematik iclaslar keçirilmiş, elmin mühüm problemləri, universitet təhsili, eləcə də universitetlərin digər fəaliyyət istiqamətləri üzrə bir sıra məsələlər geniş müzakirə edilmişdir.

Konfransda Bakı Dövlət Unisersitetinin rektoru, millət vəkili, Azərbaycan MEA-nın akademiki Abel Məhərrəmov "Azərbaycanda universitet təhsilinin və elminin perspektivləri və əhatəsi" mövzusunda çıxış etmiş, Azərbaycan Respublikasında, eləcə də BDU-da aparılan uğurlu elm və təhsil islahatları haqqında ətraflı məlumat vermişdir. Akademik A.Məhərrəmovun Avrasiya Universitetləri Assosiasiyasının işindəki fəallığı yüksək qiymətləndirilmiş və o, beynəlxalq mükafatlara layiq görülmüşdür. Belə ki, ona Avrasiya Universitetləri Assosiasiyasının medalı ilə yanaşı, Qara Dəniz Hövzəsi Ölkələri Universitetləri Assosiasiyasının ödülü də təqdim edilmişdir.

Məlumat üçün qeyd etmək yerinə düşər ki, Abel Məhərrəmov rektor təyin edildiyi ilk gündən bütün bilik və bacarığını, daxili enerjisini və potensial imkanlarını doğma universitetin tərəqqisinə, təhsil sisteminin yüksəldilməsinə və təkmilləşdirilməsinə istiqamətləndirmiş, bu ali təhsil ocağını beynəlxalq standartlara cavab verən dünya universitetləri sırasına çıxara bilmişdir. A.Məhərrəmovun düzgün və məqsədyönlü rəhbərliyi sayəsində BDU-nun maddi-texniki bazası xeyli möhkəmlənmiş, yeni tədris korpusları istifadəyə verilmiş, tələbələr üçün idman kompleksləri tikilmiş, gözəl və yaraşıqlı universitet şəhərciyi yaradılmış və ən mühümü güclü elmi-pedaqoji potensiala malik olan kollektiv formalaşmışdır.

Ali məktəb sistemini dərindən bilən Abel Məhərrəmov qısa bir zaman kəsiyində müstəqilliyin qarşıda qoyduğu vəzifələrə, dövlətin ardıcıl həyata keçirdiyi təhsil islahatının tələblərinə uyğun olaraq universitet təhsilində və elmində mühüm nailiyyətlər əldə etməyə, böyük quruculuq işləri aparmağa müvəffəq olmuşdur. Elə buna görə də müstəqillik illərində böyük inkişaf yolu keçmiş Bakı Dövlət Universiteti təkcə respublikamızda deyil, həm də çox-çox uzaqlarda, dünyanın inkişaf etmiş ölkələrində də böyük şöhrət qazanmış, dünya universitetləri içərisində özünəlayiq yer tutmuşdur.

Son on ildə Bakı Dövlət Universitetinin rektoru, akademik A.Məhərrəmovun xidmətləri dövlətimiz, respublikamızın elm və təhsil ictimaiyyəti, eləcə də xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Abel Məhərrəmov 11 fevral 2000-ci ildə kimya elmi sahəsində əldə etdiyi böyük nailiyyətlərə görə Prezident Heydər Əliyevin fərmanı ilə "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" fəxri adına, 10 iyun 2000-ci ildə Tehranda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Qızıl medalına layiq görülmüşdür. A.Məhərrəmov 2002-2004-cü illərdə Qara Dəniz

Hövzəsi Ölkələri Universitetləri Assosiasiyasının Prezidenti olmuşdur, 2004-cü ildən isə vitse-Prezidentdir. O, elm və təhsil sahəsində göstərdiyi təşəbbüskarlığa, milli təhsilin inkişafı və beynəlxalq təhsil məkanında inteqrasiya proseslərinə verdiyi töhfələrə görə 2004-cü ildə Rumıniya Respublikasının "Komandor" dərəcəli Qızıl Ulduz medalına layiq görülmüşdür. 2008-ci ildə akademik Abel Məhərrəmov Avropanın aparıcı elm və təhsil mərkəzlərindən biri sayılan Rumıniya Respublikasının Konstansa şəhərində yerləşən Ovidus Universitetinin Fəxri doktoru seçilmişdir.

Akademik A.Məhərrəmov Beynəlxalq EKO təşkilatının elm üzrə Qızıl medalının laureatıdır. A.Məhərrəmov 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2007-ci ildə isə həqiqi üzvü (akademik) seçilmişdir. 2005-ci ildən isə o, Azərbaycan Respublikası Milli Məclisinin üzvü - millət vəkilidir.

Akademik A.Məhərrəmov dəfələrlə bir sıra beynəlxalq elmi konfranslarda və simpoziumlarda, o cümlədən ABŞ, Türkiyə, Yaponiya, İtaliya, Rusiya, İran, Bolqarıstan, Macarıstan və b. ölkələrdə maraqlı elmi məruzələrlə çıxışlar etmişdir. Alim bir çox ixtiraların, elmi kəşflərin və beynəlxalq patentlərin, Azərbaycanda və xarici jurnallarda nəşr olunmuş 820-dən çox elmi əsərin, o cümlədən 33 müəlliflik şəhadətnaməsinin, 40 patentin, 9 monoqrafiyanın, 47 dərslik və dərs vəsaitinin müəllifidir. O, eyni zamanda Azərbaycan dilində ilk dəfə nəşr olunmuş "Kiçik kimya ensiklopediyası"nın həmmüəlliflərindən biridir. Onun 5 cildlik seçilmiş əsərləri 2010-cu ildə nəfis şəkildə nəşr edilmiş və mütəxəssislərin rəğbətini qazanmışdır. A.Məhərrəmovun rəhbərliyi ilə 26 elmlər doktoru və elmlər namizədi hazırlanmışdır.

Akademik Abel Məhərrəmov Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 30 oktyabr 2009-cu il tarixli sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Müstəqillik illərində Bakı Dövlət Universitetinin maddi-texniki bazasının möhkəmləndirilməsi, tədris prosesinin yenidən qurulması, tədrisin keyfiyyətinin daha da yüksəldilməsi, sözün əsl mənasında, akademik Abel Məhərrəmovun fəaliyyəti ilə bağlıdır. Məhz buna görə də Bakı Dövlət Universiteti respublikamızda elmin inkişafında mühüm rol oynamış, elmi tədqiqatların həcminə və nəticələrinə görə öncül yerlərdən birini tutmaqla beynəlxalq aləmdə xüsusi nüfuz qazanmışdır. Fikrimizcə, Azərbaycan elmini xarici ölkələrdə uğurla təmsil edən akademik Abel Məhərrəmovun Moskvada layiq görüldüyü növbəti mükafatlar bu nüfuzun gündən-günə daha da artmasından xəbər verir. Hörmətli Abel müəllimi bu beynəlxalq mükafatlara layiq görülməsi münasibətilə bir daha ürəkdən təbrik edir, ona Azərbaycan elminin, Bakı Dövlət Universitetinin elm, tədris və mədəni həyatının çiçəklənməsi naminə yeni-yeni uğurlar arzulayırıq!

"Respublika" qəzeti. 1 may 2010.

"MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR" KİTABININ 31, 32-ci CİLDLƏRİ VƏ "İNKİŞAF MƏQSƏDİMİZDİR"

XX əsr Azərbaycan xalqına çox böyük bir tarixi şəxsiyyət bəxş etmişdir. Bu ümummilli lider, görkəmli dövlət, siyasət elm və mədəniyyət xadimi H.Ə.Əliyevdir. 34 il ardıcıl olaraq dövlət sükanının arxasında məharətlə dayanan, Azərbaycanın tərəqqisi və inkişafı üçün cahanşumul tarixi əhəmiyyətə malik işlər görən ən böyük insan, Azərbaycan xalqının sevimli rəhbəri imicini qazanmaqla dünya şöhrətli bir şəxsiyyət səviyyəsinə qalxmış, dünyanın görkəmli siyasətçilərinin etiraf etdiyi kimi? Şərqin ulduzuna çevrilmişdir. Böyük iftixar hissi ilə demək olar ki, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi 34 illik dövründə böyük təşkilatçılıq, nəhəng quruculuq işləri ilə yanaşı zəngin elmi nəzəri və mənəvi bir irs yaratmışdır.

Bu irs qiymətli mənəvi sərvət kimi elmimizin mədəniyyətimizin qızıl fonduna daxil edilmişdir. Onun çoxcildli əsərlərini mütaliə edərkən belə bir həqiqət aşkarlanır ki, bu əsərlərdə çox geniş elmi məlumat toplanmışdır. Bəşəriyyətin görkəmli dövlət, elm və mədəniyyət xadimlərindən gətirilən sitatlar, misallar, məlumatlar və elmi fikirlər müəllifin çox geniş mütaliə dairəsinə, çox zəngin və dərin biliyə, elmi məlumata malik olan bir şəxsiyyət, görkəmli ziyalı olduğunu sübuta yetirir.

H.Əliyev irsinin davamçısı, onun ideyalarını uğurla həyata keçirən Prezident İlham Əliyevin məruzə və çıxışlarında, həmçinin ayrı-ayrı əsərlərində, Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatı yüksək şəkildə işıqlandırılmış, geniş elmi təhlillər, konkret faktlar və rəqəmlər əsasında ümumiləşdirmələr aparılmış nəticələr çıxarılmışdır.

Hazırda akademik Ramiz Mehdiyevin rəhbərliyi ilə Azərnəşr H.Əliyevin əsərlərinin çoxcildlik "Müstəqilliyimiz əbədidir", İ.Əliyevin əsərlərini isə "İnkişaf məqsədimizdir" seriyaları altında davamlı nəşr edir. Son günlərdə Heydər Əliyevin əsərlərinin 31 və 32-ci cildləri, İ.Əliyevin isə əsərlərinin 5-ci cildi nəfis şəkildə nəşr olunub elmi ictimaiyyətin istifadəsinə verilmişdir.

Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" seriyası altında yeni nəşr olunan 31-ci cildi 2000-ci il noyabrın 5-dən 2001-ci il yanvarın 5-nədək olan dövrü əhatə edir. Kitabda ümummilli liderin 2001-ci il 3-cü minillik münasibətilə Azərbaycan xalqına, ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza müraciətdə xronoloji ardıcıllıqla ötən əsrin tarixi gercəkliyi, bəşəri dəyərləri, qazanılmış nailiyyətləri, azadlığa çıxması dövlət müstəqilliyini əldə etməsi əks olunmuşdur. Əsərdə həmçinin Heydər Əliyevin Minskdə MDB-nin üzvü olan ölkənin dövlət başçılarının zirvə görüşü zamanı və Azərbaycana gələn Rusiya, İran, Türkiyə, AŞPA-nın rəsmi nümayəndə heyəti ilə keçirdiyi görüşlərə, apardığı danışıqlara, ikitərəfli münasibətlərin, səmərəli beynəlxalq əməkdaşlığın inkişafına dair materiallar verilmişdir.

Yeni nəşr olunan 32-ci cilddə Müstəqil Azərbaycan dövlətinin ümummilli lideri Heydər Əliyevin Azərbaycana gələn beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərinin, danışıqlarının, Rusiya Federasiyası ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin inkişafını əks etdirən Bakı bəyannaməsinin

materialları dərc olunmuşdur.

Kitaba ulu öndərin Fransaya rəsmi səfəri zamanı bu ölkənin Prezidenti Jak Şirak ilə və digər yüksək vəzifəli şəxslərlə apardığı danışıqların, Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul edilməsi ilə əlaqədar təntənəli mərasimdə, Avropa Şurası Parlament Assambleyasının sessiyasında Azərbaycan milli mənafeyini əks etdirən nitqi, mətbuat orqanlarına verdiyi müsahibələri, Azərbaycan, Fransa və Ermənistan Prezidentlərinin görüşləri və bəyanatları, Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması prosesinə aid materiallar öz əksini tapmışdır.

Bütün cildlərdə olduğu kimi, bu cildə də Prezident Heydər Əliyevin Respublikamızın sürətli iqtisadi tərəqqisi və yüksəlişinə, eləcə də ictimai-siyasi həyatın mühüm mərhələlərinə dair materialların şərhi verilmişdir.

Azərnəşr həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İnkişaf məqsədimizdir" seriyasından V cildini nəşr etdirmişdir. Azərbaycançılıq milli ideologiyasına, dövlətçiliyimizin daha da möhkəmlənməsinə böyük töhfə olan bu cilddə ümummilli liderimiz H.Əliyev tərəfindən təməli qoyulmuş siyasət, dost və qonşu ölkələr arasında bütün sahələrdə qarşılıqlı faydalı əlaqələrin möhkəmləndirilməsindən və daha da genişləndirilməsindən bəhs edən materiallar toplanmışdır. Kitabda İlham Əliyevin NATO-nun İstanbul zirvə görüşündə "Avroatlantik ittifaqı yol ayrıcında" mövzusunda beynəlxalq konfransda çıxışı, Almaniya Federativ Respublikasına ilk rəsmi səfəri zamanı bu ölkələrin dövlət və hökümət rəhbərləri ilə keçirdiyi yüksək səviyyəli görüşlər, söhbətlər Dağlıq Qarabağ probleminin həlli və münaqişənin nizama salınması ilə əlaqədar ölkəmizin prinsipial mövqeyi geniş yer tutmuşdur. Bununla bərabər Prezident İlham Əliyevin regionların sosial iqtisadi inkişafına dair Dövlət Proqramının icrası ilə əlaqədar şimal bölgəsinə səfəri zamanı rayon sakinlər ilə görüşərkən Azərbaycanın sürətli inkişafına, xalqımızın rifahı və tərəqqisi naminə aparılan geniş iqtisadi və siyasi islahatlara həsr olunmuş çıxış və nitqləri öz əksini tapmışdır.

Prezident İlham Əliyevin əsərlərinin nəşri bir daha göstərir ki, ümummilli lider Heydər Əliyevin ideyaları İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Hazırda respublikamızın ictimai-siyasi həyatında ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin əsərlərinin nəşrinə və yayılmasına böyük ehtiyac duyulmaqdadır. Belə əsərlərə elm adamlarının, bütün ziyalıların, tələbə və müəllimlərin, gənclərin, ümumilikdə götürüldükdə bütün xalqımızın böyük ehtiyacı vardır. Əsərlərin nəşri ardıcıl sürətdə davam etdirilməli, onların tirajı artırılmalıdır. Bu nəşrlər ilk növbədə geniş oxucu kütləsinə xidmət edən kitabxanalara verilməlidir.

Kitabxanalarda ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin milli ideologiyaya, dövlətçilik və Azərbaycançılıq ideyasına dair əsərlərinin toplanmasına, qorunub saxlanmasına və təbliğinə dair geniş işlər aparılmalı, vaxtaşırı kütləvi tədbirlər keçirilməlidir.

"Azad Azərbaycan" qəzeti. 11 fevral 2011.

KİTABXANALAR İNFORMASİYA CƏMİYYƏTİNDƏ

Kitabxanalar informasiya cəmiyyətinin ürəyidir
YUNESKO-nun bəyanatından

İnformasiya əsri olan XX əsr müstəqil Azərbaycan Respublikası qarşısında çox mühüm, təxirəsalınmaz vəzifələr qoymuşdur. Bu vəzifələr hər şeydən əvvəl, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafının sürətlə, intensiv yüksəldilməsini, müdafiəsinin güclləndirilməsini, həmçinin Azərbaycançılıq fəlsəfi konsepsiyasının, milli ideologiyanın təbliğini tələb edir.

İnformasiya cəmiyyətinin qarşıda qoyduğu bu vəzifənin həyata keçirilməsində, bütün xalqımızla, bütün peşə sahibləri ilə yanaşı respublikamızın kitabxanaları və informasiya mütəxəssisləri də yaxından iştirak etməli, ölkədə cəmiyyətimizin, xalqımızın informasiyaya artan tələbatını ödəməkdə onların köməkçisi olmalıdır.

Cəmiyyətin inkişafının mühüm amili olan bilik ictimai nemətdir. Elmsiz, biliksiz cəmiyyət tərəqqi və inkişafdan məhrumdur. İctimai nemət olan biliklərin kitabxanalarda toplanması, kitabxanalar vasitəsilə xalqa çatdırılması kitabxanaların ən qiymətli xəzinə olmasını bir daha təsdiq edir.

Artıq müasir informasiya cəmiyyətində kitabxanaların kommunikasiya sistemində rolu və əhəmiyyəti o qədər artmışdır ki, kitabxanasız cəmiyyətin informasiya tələbatını ödəmək mümkün deyildir. Kitabxanalar cəmiyyətdə elmin və mədəniyyətin inkişafında, təhsil və tərbiyənin yüksəldilməsində, həmçinin insanların informasiya təminatında mühüm sosial institut kimi yaxından iştirak etməklə ən çox istifadə olunan müəssisəyə çevrilmişdir.

Keçmiş ABŞ Prezidenti Corc Buşun belə bir fikri yerinə düşür: "Qüvvətli texnika ilə təchiz edilmiş Amerika kitabxanaları ABŞ-ın iqtisadiyyatında və demokratiyada dünya liderliyinin əsasıdır."

Kitabxanaşünaslıqla informatikanın inteqrasiyası nəticəsində məlum olmuşdur ki, bu iki elmin əlaqələri olmadan müasir zamanda informasiyalaşdırılmış cəmiyyəti inkişaf etdirmək, bu cəmiyyətin qarşıya qoyduğu vəzifələrə cavab vermək, cəmiyyət üzvlərinin informasiya tələbatını ödəmək mümkün deyildir.

Kitab ilk növbədə milli sərvətdir. Milli sərvət olan kitablar onu yaradan xalqın milli sərvəti olmaqla yanaşı ümumbəşəri sərvətdir. Biliyin, elmin vətəni yoxdur. Bir ölkədə yaranmış elm bütün dünyaya məxsusdur. Mütəfəkkirlərin yaratmış olduğu elm, mədəniyyət tez bir zaman içərisində bütün bəşəriyyətin malına çevrilir. Bütün elmi nailliyyətləri əks etdirən kitablar ölməzdir. Dünyanın böyük şəxsiyyətlərinin, filosoflarının, alimlərin, yazıçı və şairlərinin yaratdığı sənət inciləri bilik mənbəyi olan kitablar böyük mütəfəkkirlərin ruhudur. Ruh isə ölməzdir. Min illər bundan əvvəl dünyanın dahi şəxsiyyətlərinin ölməz əsərləri bu gün də insanlara, onların elminə, təhsil və tərbiyəsinə, mədəni inkişafına xidmət edir. Bu kitabı dünya mədəniyyətinə bəxş edən insanların milli mənsubiyyətindən asılı olmayaraq, bu kitablar dünyanın bütün millətlərinə, bəşəriyyətə xidmət edir. Deməli, hər şey insanlara qalır. Kitablar da

insanlara qalır və insanlığa xidmət edir.

İnformasiya cəmiyyətinin qarşıya qoyduğu vəzifələr və texnoloji tərəqqi nəticəsində ümumiyyətlə kitabxana işi quruculuğunda, həmçinin fondların formalaşması prosesində ciddi islahatların baş verdiyi meydana çıxır. Bu islahatların aparılması qaçılmazdır. Çünki yeni zaman, yeni cəmiyyət özü ilə birlikdə yeni texnologiya, texnoloji tərəqqi, ümumiyyətlə yeni inkişaf gətirir. Əgər kitabxanalar informasiya cəmiyyətinin qarşıya qoyduğu yeni islahatlarla ayaqlaşa bilməsə, öz sosial funksiyalarını yerinə yetirməkdə çətinlik çəkər, sosial institut kimi öz fəaliyyətini dayandıra bilər.

Doğrudur, hələ də cəmiyyətdə bu islahatların normal şəraitdə, dialektik inkişaf baxımından aparılmasına mane olan sağ və sol qüvvələr (kitabxanaçılar və informatiklər) vardır. Bu qüvvələr içərisində mən sağlar adlandırdığım mühafizəkar kitabxanaçılar ancaq ənənəvi kitabxanaçılıqdan bərk-bərk yapışaraq cəmiyyətin informasiya tələbatının ödənilməsi şəraitində baş verən yenilikləri görmürlər, aparılması zəruri olan islahatlara qarşı çıxmağa çalışırlar, elektron kitabxanaçılıqdan yan keçməyə üstünlük verirlər. Bu isə yeniliyə qarşı çıxmaq, inkişafı görməməkdir. İkinci qrup sollar isə informatiklərdir. Bunlar isə ultra yeniçiliklər, keçmiş təcrübəni qiymətləndirə bilməyən, yeni informasiya texnologiyasına aludə olan insanlardır. Onlar açıq-açığına ənənəvi kitabxanaların əleyhinə çıxış edir, kitabxananın struktur quruluşunu dəyişməyə çalışırlar, kitabxananın bütün iş prosesini elektronlaşdırmağı təklif edirlər. Sola nüfuz edən belə mütəxəssislər də mən deyərdim ki, sağa meyl göstərənlərdən də təhlükəlidirlər. Onlar dərk etməlidirlər ki, 5 min illik tarixi təcrübəsi olan bəşəriyyətin yaddaşı olan kitabxanaların fəaliyyətinə son qoymaq ideyası heç də müasir cəmiyyət üzvlərinin böyük əksəriyyəti tərəfindən müsbət qarşılanmır.

XX əsrin ikinci yarısından geniş fəaliyyət sahəsi kimi inkişaf edib təkmilləşən informatika elmi də ənənəvi kitabxanaçılığın cəmiyyətin gələcək inkişafı üçün səmərəsizliyi haqqında elə əsaslı bir ideya irəli sürə bilmədi. Qloballaşan dünyada bu problemin həllinə ənənəvi kitabxanaçılıqla informasiyanın naliyyətlərinin inteqrasiyası kimi baxılmağa daha çox səslər ucalmağa başladı. Bizcə, belə dünyabaxışı daha səmərəli, müasir dünyanın inkişaf strategiyasına daha müqabil baxış ola bilər. Dünyanın inkişafı tarixinə nəzər saldıqda belə bir xüsusiyyət daha çox nəzəri cəlb edir ki, tarixən yaranmış, uzun əsrlər boyu fəaliyyət göstərən, bəşəriyyətin inkişafına böyük töhfələr verən dəyərləri məhv edib onun yerində hələ sınaqdan keçməyən mədəniyyət yaratmaq o qədər də asan deyildir. Qurulanı yıxmaqdansa, onu təkmilləşdirmək həm maddi, həm də mənəvi cəhətdən daha sərfəli ola bilər. Bu baxımdan son zamanlar informasiya cəmiyyəti şəraitində ənənəvi kitabxanaçılığa qarşı dünyada gedən proses daha dözümlüdür. Hiss edilmədən ənənəvi kitabçılığa, kitabxanaçılığa və ümumiyyətlə, kitaba münasibət müsbət mənada daha pozitiv xarakter daşımağa başlayıb. Dünyanın böyük ölkələrində son dövrlərdə ənənəvi kitabxanaçılıqla elektron kitabxanaçılığın inteqrasiyasına, ənənəvi kitabxanaçılığın elektron vasitələrdən daha geniş və səmərəli istifadə edilməsinə diqqət yetirmək ön plana çəkilmişdir.

YUNESKO-nun informasiya cəmiyyətində kitabxanaların yeri haqqında

bəyanatında "Kitabxana informasiya cəmiyyətinin ürəyidir"[1] fikrinin irəli sürülməsi bu dediklərimizə sübut deyildirmi?

Son zamanlar həm respublikamızda, həm də bütün dünyada kitabxana-informasiya xidmətinə, elə ayrılıqda cəmiyyətin informasiya təminatına həsr edilmiş elmi konfranslarda, seminarlarda, simpoziumlarda demək olar ki, bu problemin müzakirəsi gündəlikdən çıxıb, əsas məsələ kimi kitabxana-informasiya infrastrukturunun bizim yaşadığımız informasiya təcavüzü əsrində inkişafı prinsipləri gündəmə gəlmişdir.[2] Kitabxana işinin bütün strukturunda yeniliklər baş verməyə, islahatlar aparılmağa başladı. İlk növbədə kitabxanaların avtomatlaşdırılması, kitabxana işi fəaliyyətinin kompüterləşdirilməsi, kitabxana işinin kompleksləşdirilməsindən başlamış, kitabların və digər sənədlərin, elektron vasitələrinin kitabxana qaydası ilə işlənməsi, kitabxana-uçot və hesabat işlərinin həmçinin kitabxana işinin canı olan oxuculara, tələbatçılara, hüquqi və fiziki şəxslərə kitabxana-informasiya xidmətinin kompüterləşməsi prosesi geniş meydan almağa, yeni iş üsulu və formaları, metodiki təminat sistemi meydana gəlməyə başladı. Kitabxana fondlarında elektron nəşrlər, şəbəkə texnologiyası, elektron sənədlər əhəmiyyətli dərəcədə artmaqla, ənənəvi kitabxana fondlarını məzmunca zənginləşdirməklə kitabxana-informasiya infrastrukturunun inkişafını təmin etməyə başladı. Kitabxana fondlarında fiziki cəhətdən ona məxsus olmayan sənədlər axını başladı. İnternet vasitəsi ilə elektron resursları ilə işləyən oxucu bunların haradan əldə edilməsini bilmir və heç maraqlanmır. Bütün bunlar gələcək kitabxana texnologiyasının innovasiyası kimi formalaşır.

Kitabxana işinə yeni texnologiyanın tətbiqi, kitabxananın kompüterləşdirilməsi prosesi kitabxana fondu anlayışı, onun formalaşdırılmasına, struktur quruluşuna heç bir dəyişiklik gətirmir, əksinə, fondun tərkibinin elektron vasitələrlə təkmilləşməsinə, məzmunca zənginləşməsinə, oxuculara kitabxana-informasiya xidmətinin yeni mərhələyə qalxmasına səbəb olur. Bütün bunlar bir daha təsdiq edir ki, ənənəvi kitabxanaçılıqdan imtina etmədən, yeniliyin, keçmiş ənənələrlə inteqrasiyasını yaratmaq, yeni kitabxana-informasiya texnologiyasını kitabxana işinə tətbiq etmək daha böyük iqtisadi səmərə verməklə bəşəriyyətin əsrlərlə topladığı kitabxanaçılıq təcrübəsini və ənənələrini qoruyub saxlayır. Amerika filosofu Djorji Santayaka hələ XX əsrin əvvəllərində ənənə məsələlərindən danışarkən demişdir: "Tərəqqinin əsasında baş verən dəyişiliklərdən daha çox ənənə durur. Kim ki, keçmişi yadda saxlamağa qadir deyil, onu təkrar etmək məcburiyyətindədir."[3]

Ümumrespublika elmi-praktiki konfransın materialları (Çıxışlar). Bakı, 2011. s. 27-32

[1] Байашов С.А. Библиотека в контексте цивилизации и культуры. Библиотековедение, 2020, №1, с.26.
[2] Шрайберг Я.Л. Библиотеки, электронная информация и меняющееся общество в информационном веке. Москва, 2006, с.9.
[3] Шрайберг Я.Л. Библиотеки, электронная информация и меняющееся общество в информационном веке. Москва, 2006, с.11

QAFQAZ REGİONUNA HƏSR OLUNMUŞ İLK FUNDAMENTAL ENSİKLOPEDİYA

Ensiklopedik nəşrlərin hazırlanması və nəşri hər bir xalqın mədəniyyətinin və elminin səviyyəsini müəyyən edən mühüm faktorlardan biridir. Bu nəşrlərin yaradılması çox mürəkkəb və zəngin elmi informasiya bazasına söykənən, konkret fakt və hadisələr haqqında bitkin məlumatların toplusudur. Ensiklopediyalar tarixən kitabın bir tipi kimi formalaşmışdır. Universal və sahəvi, mövzu xarakterli ensiklopediya nəşrlər daha geniş yayılmışdır. Deməli, Ensiklopediya yaratmaq bütövlükdə yazı və kitab mədəniyyətinin formalaşmasında bir mərhələni təşkil edir. Bəşər mədəniyyəti tarixinə çox qiymətli incilər bəxş etmiş Azərbaycan xalqının ensiklopediya nəşrlər yaratmaq sahəsində çox zəngin təcrübəsi vardır.

Ensiklopediyaların informasiya bazasının mükəmməlliyi və dolğunluğu, onların dünya kitabxanalarının soraq-biblioqrafik nəşrlər fondunun əsasını təşkil etməsinə gətirib çıxarmışdır. Təsadüfi deyildir ki, dünyanın məşhur kitabxanalarında bu tipli nəşrlər xüsusi şəraitdə mühafizə olunur və bir qayda olaraq onların mütailəsi kitabxana şəraitində mümkün olur.

Bu günlərdə oxuculara təqdim olunan görkəmli alim, tarix elmləri doktoru, professor, Azərbaycan Respublikası təhsil nazirinin müavini, əməkdar müəllim İradə Hüseynovanın "Qafqazın tarix ensiklopediyası" monumental əsəri məhz bu qəbildən olan nəşrlərdəndir və ensklopediyalar haqqında qeyd etdiyimiz fikirləri bir daha tamamlayır.

İradə Hüseynovanın "Qafqazın tarix ensiklopediyası" bəşər mədəniyyətinin ilk məskənlərindən biri olan Qafqaz regionuna həsr olunmuşdur. Bu soraq məlumat kitabı bütövlükdə Qafqaz haqqında universal informasiya mənbəyidir və öz miqyası, tərtibatı metodikası, elmi informasiyaların sistemləşdirilməsi, ümumiləşdirilməsi və təqdim edilməsi metodikasının müvəfəqiyyətli həlli baxımından təqdir olunmağa layiqdir.

Oxucuların istifadəsinə verilən bu ensiklopediya Qafqaz regionunda ilk insan məskənlərindən bu günümüzə qədər yaşayan etnos və xalqların tarixini kompleks şəkildə xarakterizə edən ilk universal ensiklopediya mənbə kimi çox böyük elmi, siyasi və mədəni əhəmiyyətə malikdir.

Ensiklopediyanın elmi redaktoru M.V.Lomonosov adına Moskva Dövlət Universiteti Bakı filialının rektoru, filologiya elmləri doktoru, professor Nərgiz Paşayeva ensiklopediyaya ön söz yazmış və əsəri yüksək qiymətləndirərək onun milli elmə, eləcədə dünya elminə sanballı töhvə olduğunu xüsusi qeyd etmişdir.

İradə Hüseynovanın "Qafqazın tarix ensiklopediyası"-nın elmi redaktorlarından biri də tarix elmləri doktoru, professor Tofiq Vəliyevdir.

Təqdirəlayiq haldır ki, çox zəngin milli, siyasi, mədəni və etnik xüsusiyyətlərə malik olan Qafqaz xalqlarının tarixi inkişaf proseslərini kompleks şəkildə öyrənmək üçün mühüm əhəmiyyət əmalik olan bu əsər Azərbaycan

Milli Elmlər Akademiyasının hesabatında mühüm elmi nailiyyət kimi qeyd edilmişdir.

Təqdim olunan nəşrin elmi yenilyi ondan ibarətdir ki, ilk dəfə olaraq Qafqaz regionunda baş verən hadisələr kompleks şəkildə, onların vəhdəti və qarşılıqlı əlaqəsi konteksində konseptual baxımdan öz həllini tapmışdır.

Elə əsl, həqiqi tarixin də missiyası məhz ondan ibarətdir ki, bir sıra millətlərarası, etnik münaqişələrin obyektiv həllində, millətlərarası münasibətlərdə pozitiv meylərin yaranmasında tolerantlığın formalaşmasında, cəmiyyətin demokratik və hüquqi əsaslarla möhkəmlənməsində, sosial iqtisadi sferada nailiyyətlərin əldə edilməsində mühüm rol oynasın.

Ensiklopediya tarixi faktların zənginliyi, ayrı-ayrı tarixi hadisə, fakt və proseslərə yeni baxışların ümumiləşdirilməsi, tarixi xronologiyanın mükəmməliyi, Qafqaz xalqlarının etnogenezi, dövlətçiliyinin təkamülü konteksində materialların dürüst və dolğun təqdim edilməsi ilə də diqqəti cəlb edir.

Əsərdə dünyanı nadir tarixi və coğrafi areali olan Qafqaz, onun xalqları və etnoslarının formalaşması proseslərini izlənilməsi qiymətli məlumatların verilməsi həm mütəxəssislər, həm də geniş oxucu kütləsi üçün çox maraq doğurur.

Milli ensiklopediyanın direktoru Tofiq Nağıyevin fikrincə, "Qafqazın tarix ensiklopediyası" son dərəcə qiymətli, nüfuzlu tarixi mənbə, tarix elminin inkişafı yolunda yeni uğurlu addımları təcəssüm etdirən stolüstü kitabdır". Təcrübəli tədqiqatçı alim, professor İradə Hüseynova Qafqaz xalqlarının təsərrüfat və mədəni həyatında. Onların sosial-iqtisadi sistemində, dillərində, adətlərində, ənənələrində, tarixi inkşafın müxtəlif dövrlərində baş vermiş dəyişiklikləri təhlil etməyə müvəffəq olmuşdur.

"Azərbaycan" qəzetinin 07 oktyabr 2010-cu il tarixli sayında əsər haqqında yazılmış rəydə göstərildiyi kimi, müəllif bu nəşrdə Qafqaz regionunun bütün tarixi inkişaf dövrünü əhatə edir. İstedadlı alim qədim tarixə geniş ekskurs edərək etnosların yaranması, onların qarşılıqlı münasibətləri, qarşılıqlı təsiri, mədəniyyətlərin bir-birinə nüfuz etməsi problemlərinə toxunur, konkret tarixi faktlar və hadisələr nümunəsində Qafqaz xalqlarının, çoxşaxəli həyatını işıqlandırır.

Yüksəl milli, mənəvi-əxlaqi və ümumbəşəri dəyərləri əsas tutan müəllif müasir mərhələdə uğurlu daxili və xarici siyasət yeridən, dünya səhnəsində mehriban qonşuluq, əməkdaşlıq və tolerantlıq prinsiplərinə əsaslanaraq öz münasibətlərini quran Azərbaycanın lider mövqeyini şərtləndirmiş amilləri hərtərəfli və dərindən təhlil edir. O, tamamilə haqlı olaraq görkəmli dövlət xadimi və siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin yaradılmasında və möhkəmlənməsində müstəsna rol oynadığını göstərir.

Azərbaycan Respublikasının Prezidenti, Heydər Əliyev kursunun ləyaqətlə davam etdirən İlham Əliyevin ölçülüb-biçilmiş siyasəti və yorulmaz fəaliyyəti sayəsində Respublikamız dünyanın inkşaf etmiş və Qafqazın lider

dövlətlərindən birinə çevrilmişdir. Azərbaycan mühüm beynəlxalq və regional inteqrasiya proseslərinin təşəbbüsçüsü olmuş, təkcə öz xalqının deyil, bütövlükdə regionun rifah səviyyəsinin artmasını təmin etmişdir.

İradə Hüseynovanın "Qafqazın tarix ensiklopediyası"nın əhəmiyyətini artıran amillərdən biri də Azərbaycan mədəniyyətinin, elminin, təhsilinin, incəsənətinin və bütövlükdə sosial sferada köklü dəyişikliklərin baş verməsi üçün böyük səy göstərən Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev fondunun fəaliyyətinə mühüm yer ayrılmasıdır.

İradə Hüseynovanın "Qafqazın tarix ensiklopediyası"nın informasiya tutumunun genişlənməsində əsərin sonunda "Ərazi və demoqrafik məlumatlar", "Qafqaz regionu: tarixi hadisə və faktlarda", "Hadisə və terminlərin kataloqu"nun verilməsinin oxucular üçün çox böyük əhəmiyyəti olduğunu qeyd etmək lazımdır.

"Ərazi və demoqrafik məlumatlar" yardımçı aparatında cənubi və şimali qafqazın respublikaları, onların ərazisi, əhalisi, paytaxtları haqqında müfəssəl məlumatların verilməsi Qafqaz regionunda olan dövlət və xalqlar haqqında oxuculara operativ informasiya əldə etməyə imkan verir.

İkinci köməkçi göstərici "Qafqaz regionu: tarixi hadisə və faktlarda" adlanır. Ensiklopediyanın dəyərini artıran bu bölmə çox böyük zəhmətin bəhrəsidir və Qafqazın ərazisində qədim dövrdən müasir dövrə qədər baş verən ən mühüm tarixi hadisə və faktlar üzrə sinxron cədvəl şəklində tərtib edilmişdir.

Ensiklopediyada diqqəti cəlb edən cəhətlərdən biri də "Hadisə və terminlərin kataloqu"dur. Bu kataloq iki hissədən ibarətdir. Birinci hissədə tarixi hadisə və faktların əlifba siyahısı verilmiş və onlar haqqında ensiklopediyanın hansı səhifəsində bəhs olunduğu qeyd edilmişdir. Təqdimatın bu forması ensiklopediyadan istifadəni asanlaşdırmaq üçün tərtib edilmişdir və ona müraciət edən mütəxəssislərin vaxt itkisinin qarşısını almağa xeyli kömək edəcəkdir.

Bu bölmənin ikinci hissəsi isə ensiklopediyada adı keçən tarixi-ictimai termin və anlayışların əlifba siyahısından ibarətdir. Bu yarımbölmə "Qafqazın tarix ensiklopediyası" adlı nəşrin müasir elmi və məlumat ədəbiyyatının hazırlanmasında çox zəruri olan və təəssüf ki, az istifadə edilən köməkçi aparatdır. Onun ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, ensiklopediyanın termin və anlayış aparatının dairəsini müəyyən etməyə imkan verir. Mükəmməl tərtib olunmuş bu hissənin də ensiklopedik və digər bu tipli məlumat nəşrlərində istifadə edilməsini arzu etmək olar.

"Qafqaz tarix ensiklopediyası" zəngin informasiya baza əsasında yaradılmışdır. Burada Azərbaycan və rus dillərində 844 adda Qafqaz regionu haqqında qaynaq, o cümlədən siyasi, tarixi, elmi-metodoloji, mədəniyyət, təhsil, etnoqrafiya, beynəlxalq münasibətlər. beynəlxalq hüquq, ədəbiyyat, folklor, etnopsixologiya, konfliktologiya və digər sahə və problemlər üzrə görkəmli dövlət xadimləri və tanınmış alimlərin əsərlərindən istifadə olunmuşdur. Bu da region haqqında ensiklopediya məlumat kitabının arxitekturasının mükəmməliyini, elmi çəkisinin obyektivliyini təmin etməyə imkan verir.

Müasir elmi, nəzəri, metodoloji və tarixi yanaşmanın yeni konsepsiyasına əsaslanan müəllif dünya düzənində və Qafqazda uğurlu siyasətin inkişafına böyük töhfələr vermiş ümummilli liderimiz Heydər Əliyevin əsərlərini ensiklopediyanın elmi aparatına daxil etmiş, bu da əsərin informasioloji və elmi dəyərini artımışdır. Təqdim olunan materiallar içərisində Azərbaycan mədəniyyətinin, elminin, təhsilinin, incəsənətinin, bütövlükdə cəmiyyətin sosial həyatının bütün sferalarının inkişaf üçün son illər böyük xidmələr göstərmiş Mehriban xanım Əliyevanın fəaliyyətinə mühüm yer ayrılması da xüsusilə qeyd edilməlidir.

"Qafqaz tarix ensiklopediyası" Qafqaz regionunun tarixi, etnoqrafiyası, mədəniyyəti, elmi, təhsili, regionda geosiyasi vəziyyəti, inkşaf meylərini, region xalqlarının adət-ənənələri, folkloru, ədəbiyyatı, incəsənəti ilə maraqlanan alim və mütəxəssislər və geniş oxucu auditoriyası üçün nəzərdə tutulması onu da arzulamağa imkan verir ki, bu sanballı əsərin müəllifi onu həm Azərbaycan, həm də ingilis dilinə tərcümə edərək ondan daha geniş istifadə etmək imkanlarını yaratmağa müvəffəq olacaqdır.

Digər bir arzumuz isə ensiklopediyanın çox böyük əhəmiyyətini nəzərə alaraq müvafiq icra hakimiyyəti orqanlarının 12 mindən çox kitabxanası olan Respublikamızda bu nəşrdən ictimai istifadəni səmərəli təşkil etmək üçün tədbirlər həyata keçirməsi ilə bağlıdır. Nəşrə oxucuların böyük tələbatını nəzərə alaraq onun Mədəniyyət və Turizm Nazirliyi kitabxanalarına, Təhsil Nazirliyi sistemi kitabxanalarına, kitabxanası olan digər ali və icra hakimiyyət orqanlarının kitabxanalarına göndərilməsi ölkə vətandaşlarının Qafqaz regionu haqqında biliklərini genişləndirər, onlarda bizim apardığımız ədalətli mübarizəyə inamı bir daha möhkəmləndirər və gənc nəslin vətənə məhəbbət ruhunda tərbiyə olunmasına qiymətli töhvə ola bilər.

Müəllif ensiklopediyanın quruluşu haqqında yazır: "Ensiklopediyanın quruluşu bir-biri ilə məntiqi və qarşılıqlı əlaqədə olan bölmələrdən ibarətdir. Onlar əsas informasiya kütləsi, cədvəl formalı ümumiləşdirici materiallardan, tarixi-biblioqrafik mənbə bazası və həmçinin illüstrativ blokdan ibarət axtarış sistemindən ibarətdir".

Nəşrdə diqqəti cəlb edən əsas məsələlərdən biri də ondan ibarətdir ki, informasiyanın bir hissəsi Qafqaz xalqlarının tarixi keçmişində, müasir dövrdə böyük xidmətləri olan görkəmli dövlət xadimləri haqqında olan məlumatlar verilir.

Belə bir ensiklopediyanın Bakıda hazırlanması və nəşri həm onun müəllifi prof İradə Hüseynovanın peşəkar tarixçi kimi nailiyyəti və həm də Azərbaycan tarixşünaslığı və nəhayət Qafqazın tarixinun öyrənilməsi sahəsində Azərbaycan tarix elminin regionda aparıcı mövqeyinin nümayişi və təsdiqi kimi qiymətləndirilə bilər.

"Xalq" qəzeti. 2 fevral 2011.

KİTABXANA VƏ KOMMUNİKASİYA

Sosial institut olan kitabxanalar mədəniyyətin inkişafı naminə sosial proqramların yaradıcısı və icraçısı kimi davamlı, ictimai infrastrukturun kommunikasiya sahəsidir. Məhz buna görə də oxuculara xidmət prosesində kommunikasiyanın müxtəlif formalarının yaradılmasında və istifadə edilməsində yaxından iştirak etməyə borcludurlar.

Kitabxanalar müasir informasiya cəmiyyətində biliklərin idarə olunmasında, cəmiyyətlə-insan, insanla-informasiya arasında qarşılıqlı informasiya kanallarının yaradılmasında və əlaqələndirilməsində, ardıcıl olaraq təkmilləşdirilməsində, sürətlə islahatlar aparmaq və yeniləşmək vəzifəsi qarşısında dayanmışdır. Böyük sürətlə qloballaşan dünya "elektron inqilab" erasına qədəm qoyur. Bu böyük inqilabı prosses bütövlükdə bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxanalar qarşısında da mühüm vəzifələr qoyur. Bu vəzifələrin həllində yarındığı gündən zəmanəmizə qədər, ilk Şumer kitabxanalarından milli kitabxanalara qədər, keçdiyi yolda kitabxanaları kommunikasiya sistemləri yaxından müşayəcət etmişdir.

Kommunikasiya ilə daimi yol yolcusu olmuş kitabxanalar adətləri, davranışı və əqidələri bir-biri ilə bölüşən, insanların ünsiyyət vasitəsi kimi istifadə etdiyi kommunikasiya sistemində vacib həgadir. Əlaqəsiz, ünsiyyətsiz insan qrupları, cəmiyyət olmadığı kimi, bilavasitə insanlara xidmət edən, insanlar arasında birlik vasitəsi olan kitabxanalarda kommunikasiyasız yaşaya bilməzlər. Məhz buda kommunikasiya prosseslərini öyrənməyi kitabxanaşünaslar qarşısında mühüm vəzifə kimi qoyur.

Kommunikasiya (communicatio-latın sözüdür) mənası 1) ümumi etmək, bağlamaq, ünsiyyətdə olmaq; 2) iki və ya daha çox şəxs arasında olan və qarşılıqlı anlaşmaya əsaslanan ünsiyyət; bir şəxsin əldə etdiyi məlumatı başqasına (başqalarına) çatdırması və s. [1]

Kommunikasiya məlumatın insandan-insana verməsinə deyilir. İnsan mahiyyət etibarı ilə biri-digəri ilə ünsiyyətdə olan varlıqdır. Ünsiyyət insanın sosiuma daxil olması və orada fəaliyyət göstərməsi üçün mühüm vasitədir. Məhz buna görədir ki, insan həyatında arakəsilməz informasiya mübadiləsi, yeni vərdişlər, təcrübələr əldə etmək həyati zərurətdir. Ünsiyyətin məqsəd və məzmunundan asılı olaraq onun vəzifələri də müxtəlif ola bilər. Ünsiyyət həmişə hərəkətdə olan dinamik bir proses olduğundan partnyorlar arasında yeni münasibətlər formalaşa bilər.

Son zamanlar elmi ədəbiyyatda "ünsiyyət" termini ilə yanaşı olaraq "Kommunikasiya" termini daha çox işlədirlir. Bizcə, "ünsiyyət" terminino nisbətən kommunikasiya terminin daha əhatəli və çox mənalı xarakter daşıdığından, bu terminin kommunikasiya kimi işlədilməsi daha məqsədə müvafikdir. Müasir informasiya cəmiyyəti şəraitində insanların böyük sürətlə

[1] *Məhərrəmli Q. Mediada özlənən alınma sözlər izahlı lüğət. Bakı, 2008, 112 s.*

inkişaf edən müntəzəm olaraq yeniləşən, dərinləşən, yeni keyfiyyətlər kəsb edən informasiya tələbatının ödənilməsi kommunikasiyanın yeni, daha mürəkkəb formalarının aşkarlanmasını tələb edir.

Cəmiyyət inkişafının ən erkən dövrlərində insanlar biri-birilə əlaqə yaratmaq, birləşmək, ünsiyyətdə olmaq, informasiya toplamaq məqsədi ilə kommunikasiyanın müxtəlif vasitələrindən istifadə etmişlər. Zaman keçdikcə cəmiyyət inkişaf etdikcə, insanların bilik səviyyəsi, ətraf mühiti dərk etmək qabiliyyəti artdıqca, yeni kommunikasiya kanalları meydana gəlmiş, kommunikasiya bəşər fikrini aktuallaşdırmaq vasitəsinə çevrilmişdir. Qarşılıqlı təsir prosesində insanlar birinin o birinə köməyi, ünsiyyəti, birləşməsi hesabına zənginləşir, bəşəriyyət tərəfindən toplanan təcrübə hamının malına çevrilirdi.

Kommunikasiyanın inkişaf tarixini 4 mərhələyə bölən sosialoqlar bu dövrləri kommunikasiya inqilabı adlandırırlar. 1) yazının ixtira edilməsi, 2) kitab çapının başlanması, 3) radio televiziyanın meydana gəlməsi, 4) dünyanın böyük möcüzəsi zühur İnternetin etməsi kommunikasiyan cəmiyyətin formalaşması və inkişafı, insan bilik və bacarığının təkmilləşməsi sahəsində əsas amilə çevrildi. Cəmiyyətin kommunikasiya proseslərinə onun vasitələrinin öyrənilməsinə, tədqiqinə diqqət artdı. Kommunikasiya inqilablarına nəzər salarkən belə bir elmi fikir diqqəti cəlb edir ki, bu inqilablar arasında onların, birinin digərinə keçməsi prosesində də ciddi bir əlaqə vardır. Bu proseslər hec də biri-birini inkar etmir, varislik prinsipi gözlənilir. Köhnə məhv edilmir, onun səmərəli toxumları saxlanılır beləliklə yeni yaranan vasitələr daha mükəmməl daha müasir formada özünü göstərir.

Kommunikasiyanın cəmiyyətin çox erkən dövrlərindən yaranmasına baxmayaraq "Kommunikasiya" termini elmi ədəbiyyatda XX əsrin əvvəllərində meydana gəlmişdir. Bu termin altında informasiyanın iansandan-insana ötürülməsi, cəmiyyətdə qarşılıqlı təsiri, informasiya mübadiləsini başa düşülür[2].

Beləliklə yuxarda dediklərimizə və sosialoqların qiymətli araşdırmalarına və elmi nəticələrinə əsaslanaraq deyə bilərikki: Kommunikasiya ünsiyyətdir, informasiyanın insandan-insana ötürülməsidir. Cəmiyyətdə qarşılıqlı təsirdir, informasiya mübadiləsidir[3]. Həmçinin maddi və mənəvi dünyanın müxtəlif obyektlərinin əlaqəsi vasitəsidir.

Cəmiyyətin tarixi inkişafı prosesində kommunikasiyada tədricən, təkamül yolu ilə inkişaf etmiş, onun yeni-yeni növləri, kanalları, vasitələri meydana gəlmişdir.

Kommunikasiyanın növləri Kommunikasiyanın insanlar arasında ünsiyyət, əlaqə və insanların biri-birini qarşılıqlı anlama vasitəsi kimi bir çox növləri vardır. Sosialoqlar və kitabxanaşünaslar kommunikasiya proseslərini

[2] *Kokonovka Z.T., Akuliç M.M., Kuznecov V.N.. Ümumi sosiologiya. Bakı, 2007, s.318.*
[3] *Yenə orda, s.329.*

üç növə ayırırlar[4].

1. Şəxsiyyətlər arası kommunikasiya. Bu növə həmçinin kommunikasiyanın xüsusi forması olan qruplar, birliklər və s. kommunikasiyalarda daxildir.

2. Kütləvi kommunikasiya. Bu kommunikasiyanın ən çox yayılmış və demək olar ki, cəmiyyətin bütün üzvlərinin, bütün idarə və müəssisələrin, xüsusi ilə informasiya orqanlarının və kitabxanaların istifadə etdiyi kommunikasiyadır. Cəmiyyətdə hakim mövqe tutan kütləvi kommunikasiya insanlar sosial hisslərin açıq ümumiliyinə və ümumi sosial təcrübəyə malik olduqları vaxt həyata keçirilir, reallaşır[5]. Cəmiyyətin informasiya təminatında və insanların informasiya mübadiləsində mühüm rol oynayan kütləvi informasiya vasitələri – (qəzet, jurnal, sənədli kino, radio və televiziyadan ibarət sistem) kütləvi kommunikasiyanın klassik nümunəsidir.

3. Mədəniyyətlər arası kommunikasiya. Mədəniyyətlər arası kommunikasiya iki və daha çox müxtəlif mədəniyyətlərin əlaqəsi prosesində informasiya mübadiləsi və mədəni sərvətlərin, qarşılıqlı əlaqələrin yaranmasına xidmət edir. Mədəniyyətlər arası kommunikasiya insanları cəmiyyətin mənəvi dəyərlərinə qovuşdurur.

Qloballaşan dünayada mədəniyyətlərarası kommunikasiyanın fəaliyyət sahəsi sürətlə genişlənməklə, daha intensiv xarakter alır. Həmçinin mədəniyyətlər arası kommunikasiya ölkələr, dövlətlər və millətlər arasında beynəlxalq əlaqələrin genişlənməsində, davamlı və ardıcıl xarakter almasında mühüm əhəmiyyət kəsb edir. Mədəniyyətlər arası kommunikasiya mədəniyyətlərin zənginləşməsinə səbəb olmaqla, xalqlar arasında dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsində, ayrı-ayrı mədəniyyətlərin birləşərək, zənginləşərək, ümum bəşəri mədəniyyətə qovuşmasında mühüm amilə çevrilir.

Kitabxana və kommunikasiya problemlərinin son zamanlarda araşdırılması xüsusi ilə sosioloji eksperimentlərin ümumiləşdirilməsi bir daha təsdiq etmişdir ki, kitabxanalar tarixən kommunikasiya müəssisəsi – vasitəsi kimi formalaşmış, özünün keçdiyi tarixi təkamül yolunda kommunikasiyanın formalaşması və inkişafına kömək etməklə, özüdə bir kommunikasiya müəssisəsi kimi inkişaf etmiş, insanların ünsiyyət təcrübə bazasına, informasiya mübadiləsi mərkəzinə çevrilmişdir. Kommunikativ insanlar birliyinin yaradılması vasitəsi olmuşdur. Kitabxanalar bilavasitə insanla, onun formalaşması ilə informasiya tələbatının ödənilməsi sahəsində fəaliyyət göstərdiyindən, kommunikasiyanın müxtəlif növlərindən, kommunikasiya vasitələrindən, kommunikasiya kanallarından geniş istifadə etməklə oxucuya xidmət prosesini təşkil etməlidir. Oxucu fenomeni müasir kitabxanaşünaslığın əsas tədqiqat obyekti kimi, bilavasitə insan amili ilə bağlı olması, insanın (oxucunun) hərtərəfli fəlsəfi, pedaqoji, psixoloji nöqteyi nəzərdən öyrənildiyi kimi, onun kommuni-

[4] *Гешева Е. Библиотека как центр межкультурной коммуникации. М., 2008, с.32.*
[5] *Kokonovka Z.T., Akuliç M.M., Kuznecov V.N.. Ümumi sosiologiya. Bakı, 2007, s.318.*

kativliyi, informasiyanı əldə etmək, öyrənmək, biliyə çevirmək biliklərin idarə edilməsində iştirak etmək bəşəriklə mədəniyyətin inkişafına öz töhfələrini vermək prosesidə öyrənilməlidir.

Ümumiyyətlə götürdükdə kommunikasiya iki və ya bir neçə şəxsin iştirak etdiyi sosial hadisə olsada, insan orqanizmi daxilində də əlaqələr sistemi vardır. İnsanlar müxtəlif olduğu kimi, onların daxili aləmlərində də birbirinə bənzəmir. Buradan da hər bir insana-oxucuya, informasiya tələbatçısına fərdi yanaşma meydana çıxır.

Kommunikasiyanın daxili və xarici xarakter daşımasından asılı olmayaraq kommunikasiya dörd elementdən ibarətdir. Ötürücü, qəbul edici, informasiya və ötürmə vasitəsi[6]. Şifahi nitq vaxtı ötürücü vasitə hava dalğasının növbələnən qalxıb enməsidir, başqa sözlə titrəyişidir. Ötürücü ilə qəbul edici hansısa bir aralıq vasitənin olub-olmamasından asılı olaraq kommunikasiya yaxud da bilavasitə ola bilər. Birinci halda məlumatın ötürülməsində oxucu və kitabxanaçı iştirak edirsə, ikinci halda əlavə vasitə, sənəd, qram yazılar, audiovirtual material, elektron vasitələr ola bilər. Beləliklə, birincini bilavasitə kommunikasiya, ikincini isə bilavasitə kommunikasiya adlandırmaq olar.

Kommunikasiyanın bu dörd elementi icərisində kitabxanalar üçün öyrənməsi və fəaliyyət prosesinə tətbiqi ən mühümü informasiya və ötürmə vasitəsidir. İnformasiya şifahi və yaxud maddiləşmiş halda ola bilər. Şifahi informasiya maddiləşdikdən sonra sənədə, yəni kitaba çevrilir. Kitab isə minilliklər boyu bəşəriyyətə sədaqətlə xidmət edən, cəmiyyətin yaratdığı bütün maddi və mənəvi sərvətlər haqqında elmi, fəlsəfi, tarixi, ədəbi-bədii fikirləri öz səhifələrində qoruyub saxlayan, bütün mənəvi fikirlərin, ideyaların, əqidələrin, inacların ölməzliyini təmin edən, dahilərin ruhunu yaşadan vasitə kimi böyük əhəmiyyət kəsb edir. Dövürlər, zamanlar, nəsillər arasında əlaqə yaradır. Xalq arasında belə bir fikir var ruh ölmür. Bəli insanlar ölür, ancaq onların yaratmış olduğu kitablar yaşayır, deməli ruh kitablarda yaşayır. Kitabın şifahi informasiyalardan fərqi odur ki, kitab məkan və zaman sərhədlərini aşa bilir. Kitab vasitəsi ilə insan min il ondan əvvəl yaşamış adamdan informasiya qəbul edə bilir. Keçmiş, dünyasını dəyişmiş müəlliflərlə ünsiyyətdə ola bilir. Keçmiş nəslin gələcək nəsillərə vəsiyyəti olan kitabları zamanı birləşdirən əfsanəvi əsərlər adlandırmaq yerinə düşərdi.

Beləliklə, bəşəriyyətə xidmət edən kommunikasiya vasitələri icərisində kitab, kitab vasitəsi ilə informasiyanı qəbul etmək xüsusi, əvəzsiz bir vasitə kimi böyük əhəmiyyət kəsb edir. Məhz bəşəriyyət kitabın bu xüsusi əvəz edilməz rolunu, bu möcüzəli sənədsiz keçinməyin mümkünsüzlüyünü nəzərə alaraq, onun gələcək nəsillərə qorunub saxlanması üçün kitabxanaları yaratdı. Kitabları qoruyub saxlamaq, nəsillərdən-nəsillərə ötürmək, insanlara informasiya daşıyıcısı kimi xidmət etmək üçün yaranan kitabxanalar məhz ən zəruri kommunikasiya vasitəsi kimi formalaşmışdır.

[6] *Шера Дж.Х. Введение в библиотековедение. М., 1983, с.70.*

Böyük sosial funkisiyaları yerinə yetirməyə borclu olan kitabxanalar şəxsiyyətin kommunikasiyasının daşıyıcıları kimidə diqqət mərkəzinə çevrilmişdi. Şəxsiyyət kommunikasiyası fərdiləşmiş xarakter daşıyır. Kitabxanaya gələn fərd (oxucu) özünə lazım olan sənədi seçmək üçün kitabxana fondundan istədiyi məlumatı əldə edir. Ayrı-ayrı fərdlər (oxucular) bu məlumatları əldə etmək üçün kitabxana daxili kommunikasiya formalarından və kanallarından öz intellekt səviyyəsindən asılı olaraq ya bilavasitə ya da bilvasitə istifadə edirlər. Bu mühüm mürəkkəb prosesdə kitabxanalarında yaxından iştirakı oxucu və kitabxanaçı arasında ünsiyyətin - birliyin kommunikasiyanın yaranmasını fəallaşdırır.

Zaman keçdikcə, cəmiyyətdə təhsil, mədəniyyət, elmi tərəqqiyə nail olduqca, təhsilli, elmli insanların miqdarı əhəmiyyətli dərəcədə artmış kitabxana oxucularının sayı çoxlamışdı. Oxucuların artması ilə kitabxanada gedən proseslər kütləvi xarakter almağa başlayır. Ancaq bu prosesə dərindən diqqət yetirdikdə məlum olur ki, kitabxanaya çoxlu insanların gəlməsinə baxmayaraq onu kütləvi kommunikasiya orqanı hesab etmək olmaz. Çünki bu insanların hamısı kütləvi informasiya vasitələrində olduğu kimi eyni məlumat almır və həmdə həmin insanlar eyni məlumat üçün kitabxanaya gəlmirlər. Əksinə hər bir oxucu fərdi qaydada onun tələbatına və marağına cavab verən informasiyanı axtarır. Üstəlik oxucu ehtiyac duyarsa eyni məlumata bir neçə dəfə müraciət edə bilər.

Bəşər mədəniyyətinə xidmət edən kitabxanaların dinamik inkişaf tarixi bir daha sübut etmişdir ki, onlar həmişə demokratikləşmə prinsiplərinə və təcrübəsinə sadiq qalmış, demokratiya kitabxana işinin mahiyyətinə hopmuşdur. Belə sədaqət kitabxananın yarandığı gündən yaranmış ənənələrin yeniləşməsi ilə nəticələnmişdir. Kitabxana yarandığı ilk dövrlərdən elita, elmi nüfuzu, yaxud elmi marağı olan intellektual səviyyəli şəxslər üçün nəzərdə tutulmuşdur. Bunun nəticəsində də onun oxucu kontingenti nisbətən az olmuşdur.

Lakin demokratiyanın kitabxanalara yol tapması ilə kitabxanaların geniş oxucu kütləsi dairəsi meydana gəlmişdir. Yeni oxucu kütləsinin marağı olduqca müxtəlif və qeyri müəyyən olduğundan bu maraqları öyrənmək və ödəmək xeyli çətinliklər ortaya çıxartdı. Kitabxanaların qarşısına çıxan bu problemlər kitabxana işinin məzmununda və formasında yeni dəyişikliklərin, yeni kommunikasiya formalarının və kanallarının yaranmasını və daha da təkmilləşməsini tələb edirdi.

Cəmiyyətdə kitabxanaların sosial rolu artdıqca onların strukturunun və əsas elementlərinin öyrənilməsinə ciddi tələbat əmələ gəlmişdir.

Struktur latın sözüdür, hərfi mənası "quruluş" deməkdir. Struktur sistemin təşkilinin ünsürləri arasındakı qarşılıqlı əlaqələri və bu əlaqələrin qanunauyğunluqlarını aşkara çıxarır. Məhz buna görədir ki, son zamanlar dünya kitabxanaşünaslığında "Kitabxana" ayrı-ayrı hissələrdən təşkil olunmuş sistem

(bütöv, tam) kimi tədqiq edilir[7].

Dünya kitabxanaşünasları genetik təhlil metoduna əsaslanaraq belə bir nəticəyə gəlmişdilər ki, kitabxana quruluşca dörd elementdən ibarətdir. Bu elementlərsiz hec bir kitabxananın mövcudluğu və fəaliyyəti mümkün deyildir. Bu elementlər aşağıdakılardır:

1. Sənəd (kitab və digər nəşrlər, o cümlədən elektron vasitələr)
2. Oxucu (istifadəçi)
3. Kitabxanaçı
4. Maddi-texniki baza

Kitabxananın əsas elementlərinin müəyyən edilməsində görkəmli Amerikan alimi D.X.Şiranın mühüm xidmətləri vardır. O, 1970-ci ildə nəşr etdirdiyi "Kitabxana işinin sosioloji əsasları" adlı əsərində yazır: "Əgər bir kitabxananın modelini üçbucaq formasında təsəvvür etsək üçbucağın bir tərəfi kitab (sənəd), yaxud ümumiyyətlə qrafik yazılar*, başqa tərəfi insan, oturaçağı isə kitab (sənəd) qrafik yazı, və insan (kitabxanaçı) olaraq"[8].



kitab və insan

Bu üçbucaqdan görünür ki, kitabxana-kitab (sənəd, insan (oxucu)) və kitabxanaçı elementlərinin birgə fəaliyyəti sayəsində yaranır və fəaliyyət göstərir. Dünya kitabxanaşünaslığının da kitabxanaların strukturu haqqında tədqiqatlar XX əsrin 80-90-cı illərində daha da intensivləşmiş və bir sıra yeni elmi fikrilər irəli sürülmüşdür. Öz elmi əhəmiyyəti, orijinallığı ilə fərqlənən yeni fikir görkəmli rus kitabxanaşünası Y.N.Stolyarovun 1981-ci ildə nəşr etdirdiyi "Библиотека: структурно-функциональный падход" [9] əsərində belə bir qənaətə gəlmişdir ki, kitabxananın strukturuna daxil olan elementlərdən biri də "Kitabxananın maddi-texniki bazasıdır". Maddi-texniki baza olmadan heç bir kitabxana öz işini müvəffəqiyyətlə apara bilməz. O göstərir ki, fondun, oxucunun və kitabxanaçının dialektik birliyi həmişə müəyyən maddi-texniki baza mühitində mövcud olur[10]. Bina, təchizat, mexanizm, texniki vasitələr, kitabxana-informasiya texnologiyası, kompüterlər və s. bərabərhüquqlu elementlər kimi kitabxana elementləri sırasına artıq elə daxil olmuşdur ki, bunu ayırmaq olmaz.

* *Müasir şəraitdə elektron vasitələrdə buraya əlavə etmək olar.*

[7] *Xəlilov A. Kitabxanaşünaslığa giriş. B., 2001, s.266.*

[8] *Ширя Дж.Х. Социологические основы библиотечного дела. М., 1973, с.7.*

[9] *Столяров Ю.Н. Библиотека: структурно-функциональный подход. М., 1981, с.29.*

[10] *Столяров Ю.Н. Библиотека: структурно-функциональный подход. М., 1981, с.30.*

Sistem halında kitabxananın 4 elementli modeli aşağdakı kimidir.



Bu modeldən göründüyü kimi, kitabxana biri-biri ilə əlaqədar olan, biri-birinə qarşılıqlı təsir edən, biri digəri üçün şərt olan, biri-birindən ayrılmaz dörd elementdən ibarətdirki, bu da kitabxananın bütövlüyünü təmin edir. Nə sənəd (S), nə oxucu (O), nə kitabxanaçı (K), nə də maddi-texniki baza (MTB) özü özlüyündə, nə də onların əlaqəsi biri digərindən ayırldıqda götürüldükdə kitabxananın bütövlüyünü təmin etmir.

Yuxarda kitabxanaların struktur quruluşu haqqında verdiyimiz qısaca məlumatdan aşkar olduki göstərilən elementlərin özlərinin biri-biri ilə daxili üzvü əlaqəsi olmadan kitabxananın struktur bütövlüyü, yəni kitabxananın özü belə bir müəssisə kimi mövcud ola bilməz.

Beləliklə kommunikasiya vasitəsi olan kitabxananın struktur quruluşu və bilavasitə onun elementləri arasında canlı kommunikasiya sistemi fəaliyyət göstərir. Kitabxananın strukturunda baş verən kommunikasiya prosesi: (sənəd-lə-oxucu, oxucu ilə-kitabxanaçı, sənəd-oxucu və kitabxanaçı ilə maddi-texniki baza ilə əlaqələr) kitabxananın bir sosial institutut kimi kitabxananın elm, informasiya, təhsil, tərbiyə funkisiyalarının yerinə yetirilməsi vəzifələridə kommunikasiya sistemindən, bütövlüklə onun, müxtlif növlərindən, ayrı-ayrılıqda səmərəli istifadə edilməsindən asılıdır. Beləliklə kommunikasiyasız bütöv struktura malik kitabxana yoxdur.

Kitabxanaların fəaliyyət sahəsi olan kitabxana işi bilavasitə kommunikasiya prosesləri ilə əlaqədar olduğundan kitabxananın bütün fəaliyyəti xüsusi ilə oxuculara xidmət işi bu prosesin mühüm tərkib hissəsisir. Kitabxana işi bir fəaliyyət sahəsi kimi elm, informasiya mədəniyyət, təhsil, tərbiyə sahəsində, həmçinin kitabxana şəbəkələrinin təşkil və inkişafını, kitabxana fondlarının formalaşdırılmasını, kitabxana-informasiya xidmətinin təşkili, kitabxanaların elmi-maddi təminatı sistemlərini tənzimləyən bir proses kimi həmişə kommunikasiya və onun forma və kanalları ilə sıx əlaqədə olmuşdur. Hələ çox qədim kitabxanalarda kitabxana işi bir fəaliyyət sahəsi kimi formalaşarkən kommunikasiya bu prosesin təminatçısı kimi kitabxana fəaliyyəti sisteminin ayrı-ayrı komponenetlərinin əlaqələndirilməsində, kordinasiya edilməsində, təcrübə mübadiləsində yaxından iştirak etmişdir. Kitabxana kommunikasiya münasibətləri demək olar ki, kitabxana fəaliyyətinin bütün sahələrində, xüsusi ilə oxucu ilə kitabxanaçı arasında, kitabxananın məlumat axtarış sistemləri ilə oxucu arasında, İnternet şəbəkəsinə qoşulmuş kitabxana, kitabxanaçı ilə oxucu

arasında daha geniş baş verir.

Bu proseslərdə kitabxanaçı ilə oxucu arasında baş verən kommunikasiya növləri icərisində ən çox istifadə edilən ünsiyyət, söhbət və məsləhət formalarıdır. Kitabxanaçı ilə oxucu arasında baş verən ünsiyyət kommunikasiyanın bilavasitə fərdlə üzbə-üz aparılan canlı təsiri növü kimi olduqca böyük əhəmiyyət kəsb edir. Ünsiyyət vaxtı oxucu ilə kitabxanaçı arasında baş verən kommunikasiya oxucu haqqında kitabxanaçının geniş məlumat almasını, oxucunun maraq dairəsini, şəxsiyyətini, sənətini, öyrənməsini və oxucu marağının gələcəkdə ödənilməsini müəyyənləşdirmək imkanı verir. Məlumdur ki, "Maraq" kateqoriyası elmi kateqoriya kimi bir çox elmlərin tədqiqat obyektidir. Kitabxanaşünaslıqda maraq subyektin-oxucunun sənətini, intellektual səviyyəsini, həyat şəraitini, sorğusunu, kitaba münasibətini öyrənmək kimi başa düşülür. Məlumdur ki, kitabxana oxucu münasibətləri həmişə kitabxanaların əsas problemi hesab edilmiş, informasiya cəmiyyəti şəraitində bu münasibətlər daha ciddi xarakter almışdır. Müasir şəraitdə kommunikasiya sistemləri və kanallarından hərtərəfli istifadə etmədən bu problemi həll etmək olduqca çətindir. Kommunikasiya həmçinin kitabxana-İnternet-oxucu münsibətlərinin həllində, xüsusi ilə İnternetdən istifadə, ən zəruri ədəbiyyatın, sənədin seçilməsi audiovizual və elektron vasitələrdən istifadənin təşkilində mühüm əhəmiyyət kəsb edir.

Məqalədə şərh və təhlil edilmiş elmi araşdırmalara əsaslanaraq yekun olaraq demək olar ki, sosial institutut kimi formalaşmış müasir kitabxana kommunikasiyasız keçinə bilməz.

Beləliklə, yeni informasiya texnologiyası əsasında yaradılan kommunikasiya sistemləri və kanallarından istifadə müasir kitabxananın əsas vəzifəsidir.

"Kitabxanaşünaslıq və informasiya"
elmi-nəzəri və praktik jurnalı. 2011, №1(4). s. 7-16

KİTABXANA FONDU ÜMUMBƏŞƏRİ SƏRVƏTİN MƏCMUSUDUR

Beş min ildən artıq tarixi olan kitabxanalar bəşər mədəniyyətinin formalaşmasında həmişə öncül cərgədə olmuş, təhsilin, elmin, mədəniyyətin inkişafına böyük töhfələr vermişdir. Kommunikasiya sistemlərinin əsas həlqələrindən biri kimi kitabxanaların ənənəvi rolu mədəni irsin toplanıb saxlanmasından, qorunmasından və nəsildən-nəsilə ötürülməsindən ibarət olmuşdur.

Kitabxanalar həmçinin cəmiyyətin formalaşmasında və təkmilləşməsində iştirak edən digər mədəni sistemlərin də dəyərlərini ötürə bilər və həqiqətən də bunu etməyə borcludur. Ancaq kitabxanaların tarixi inkişaf prossesində məlum olmuşdur ki, kitabxanalar bilavasitə onların qarşısında duran vəzifələrdən, dəyərlər sistemindən uzaqlaşsa, mədəniyyətdə baş verən dəyişikliklərə cavab verə bilməsə, yeniliklə ayaqlaşmaqdan məhrum olsa, bir də görər ki,

sosial məqsədi yoxdur və mədəniyyət onu taleyin hökmünə buraxıb[1]. Belə bir mürəkkəb şərait kitabxanalara öz vəzifələrini daha dərindən düşünməyi, öz işini ciddi elmi əsaslar üzərində qurmağı tələb edir.

Məlumdur ki, kitabxananın strukturunu təşkil edən 4 elementdən biri kitabdır (sənəd). Kitabsız kitabxananı düşünmək mümkün deyildir. Qədim dünyada yaranmış ilk kitabxanalardan başlamış zəmanəmizə qədər kitabxanalar milli, mədəni sərvət kimi qiymətləndirilərkən, həmişə qiymətləndirilmə kriteriyası kitabxanalarda saxlanılan kitablar olmuşdur. Kitab bilik mənbəyidir, bəşəriyyətin tarixi yaddaşıdır, mənəviyyatıdır, elmi kəşfləridir, mədəniyyətidir, texniki nəaliyyətidir, xalqların soy köküdür, dilidir, milli mentalitetidir. Əsirlərin arxasından gələn səsidir, ünüdür. Bir sözlə keçmişlə bu günü bağlayan, bu günlə sabahı əlaqələndirən əsas ünsiyyət vasitəsidir. Məhz buna görədir ki, hər bir xalq öz milli varlığının, öz düşüncə tərzinin, öz mənəviyyatının əsası hesab etdiyi kitab mədəniyyətini yüksək qiymətləndirir, kitabı sevir, onun qorunub saxlanması, kitabxanalar yaradılması uğrunda mübarizə aparır. Kitab hər bir xalqın mədəniyyət göstəricisidir, elmi-mədəni irsidir, əcdadlarının, ata-babalarının, böyük şəxsiyyətlərinin, filosoflarının, mütəfəkkirlərinin, görkəmli şəxsiyyətlərinin, alimlərinin, yaradıcı ziyalılarının ruhudur, onların gələcək nəsilə vəsiyyətidir.

Mən deyərdim ki, xalqımızın fəlsəfi təfəkküründün, mənəvi ruhunun, əxlaqi kamilliyinin məhsulu olan qiymətli kitablarını: Avesta, Kitabi Dədə Qorqud, böyük Nizaminin, Füzulinin, M.F.Axundovun, A.Bakıxanovun, N.Nərimanovun, S.Vurğunun, Heydər Əliyevin və s. kitabları, xalqımızın kitab mədəniyyəti xəzinəsi, həmişə xalqımızın qürur mənbəyi olub. İşıq və enerji mənbəyi olan bu kitablar daim xalqımızın mədəniyyətə, tərəqqiyə doğru yönəlmiş inkişaf yolunu işıqlandırmışdır.

Beləliklə kitabxanaların inkişaf və təkamül yolu kitab mədəniyyətinin yaranması, formalaşması və təkmilləşməsi yolundan keçmiş, kitab toplamaq, onun kolleksiyasını yaratmaq, onu qoruyub saxlamaq gələcək nəsillərə ötürmək qaydaları meydana gəlib, bəşəri təcrübəyə çevrilmişdir.İlk kitabxanaların kitab toplamaq təcrübəsi kitab fondlarının yaranması üçün örnək olmuşdur.

Fond latın sözü olub, hərifi mənası "alt", "torpaq", "bünövrə", "nüvə" deməkdir. Qədim kitabxanalar kitabsaxlayıcı (biblioteka) adlanırdı. Sonralar kitabxanalar inkişaf etdikcə, kitabxana anlayışı ilə kitab fondu anlayışı biribirindən kəsgin sürətdə fərqləndiyi ortaya çıxdı. Kitabxana bir çox komponentləri özündə birləşdirən sosial institutdursa kitbaxana fondu onun ayrılmaz tərkib hissəsidir.

Kitabxanaşünaslıqda fond termini XX əsrdən işlənməyə başlanmışdır. "Kitabsaxlayıcı" termini uzun illər keçdiyi təkamül prossesində daha anlaşıqlı və elmi bir termin olan "fond" termini ilə əvəz edilmişdir. "Fond" terminin meydana gəlməsi, və yaxın zaman kəsiyində beynəlxalq istilaha çevrilməsi,

[1] *Шира Дж.Х. Введение в библиотековедение. М., 1983, с.72.*

onun dünya kitabxanaşünaslığında xüsusi anlayış kimi qəbul edilməsinə səbəb oldu. Kitabxana fondu anlayışı kitabxanaşünaslığın mühüm anlayışlarından biri kimi elmi dövriyəyə daxil edilərək tədqiq edilməyə, kitabxana fondunun yaradılması üçün yeni elmi üsulların, ideya və nəzəriyyələrin yaradılmasına gətirib çıxardı.

Kitabxana fondu anlayışı

Kitabxana fondunun formalaşdırılmasının əsas əlamətlərini, xüsusiyyətlərini ümumiləşdirən, kitabxanâ fondu anlayışı, bilavasitə kitabxana-informasiya kütləsinin formalaşması nəzəriyyəsinə əsaslanaraq, olduqca mürəkkəb bir proses olan kitab fondunun formalaşdırılmasının elmi əsaslarını, kitabxana fondunun bütövlüyü, tamlığı prinsiplərini və perspektiv inkişaf istiqamətlərini müəyyənləşdirir.

Kitabxana fondunun formalaşması olduqca mürəkkəb, dinamik, cəmiyyətdə baş verən hadisələrlə əlaqədar, daim yeniləşən və təkmilləşən bir proses olduğundan, onun həmişə diqqət mərkəzində olmasına və bu işin təşkilinə kitabxananın bütün kadr potensialının cəlb edilməsinə böyük tələbat vardır. Kitabxanaların formalaşdırılması onların qarşısında duran vəzifələrə, kitabxanaların yerləşdiyi ərazinin xüsusiyyətlərinə, iqtisadi inkişaf problemlərinə, oxucu kontingentinin sosial və elmi mədəni tələblərinə uyğun olaraq aparılmalıdır.

Kitabxana fondlarının formalaşmasına kitabxananın fəaliyyət göstərdiyi ərazidə yaşayan görkəmli ziyalıların, alimlərin müəllimlərin, həkimlərin müxtəlif sahələr üzrə mütəxəssislərin və fəal oxucuların cəlb edilməsidə olduqca zəruridir.

Kitab ilk növbədə milli sərvətdir. Milli sərvət olan kitablar, onu yaradan xalqın milli sərvəti olmaqla yanaşı ümumbəşəri sərvətdir. Biliyin, elmin vətəni yoxdur. Bir ölkədə yaranmış elm, bütün dünyaya məxsusdur. Mütəfəkkirlərin, yaratmış olduğu elm, mədəniyyət tez bir zaman icərisində bütün bəşəriyyətin malına çevrilir. Bütün elmi nəailiyyətləri əks etdirən kitablar ölməzdir. Dünyanın böyük şəxsiyyətlərinin filosoflarının, alimlərinin, yazıcı və şairlərin yaratdığı sənət inciləri, bilik mənbəyi, elm və mərifət mənbəyi olan kitablar böyük mütəfəkkirlərin ruhudur. Ruh isə ölməzdir. Min illər bundan əvvəl yaşamış dünyanın dahi şəxsiyyətlərinin ölməz əsərləri bu gündə insanlara onun elminə, təhsil və tərbiyyəsinə, mədəni inkişafına xidmət edir. Bu kitabları dünya mədəniyyətinə bəxş edən, insanların milli mənsubiyyətindən asılı olmayaraq dünyanın bütün millətlərinə, bəşəriyyətə xidmət edir. Deməli, hər şey insanlara qalır. Kitablarda insanlara qalır, insanlığa xidmət edir. Bəşər mədəniyyətinin qoyub getdiyi elmi, ədəbi-bədii fəlsəfi irs bütövlükdə bəşəriyyətə məxsusdur. Ona görə də kitabxana statusuna malik bütün müəssisələr formalaşarkən əsirlərin yadigarı olan əsərlərlə komplektləşməyə xüsusi qayğı ilə yanaşılmalı, bəşəri dəyərə malik olan qiymətli yadigarları kitabxana fondlarında toplanmalıdır.

Beləliklə, aydın oldu ki, kitabxana fondunun formalaşması prosesi

mürəkkəb və daim diqqət tələb edən bir sistemdir. Bu sistemin yaradılması və idarə edilməsi üçün kitabxana özünün bütün maddi və kadr potensialından məqsədyönlü istifadə etməli, sistemin qüsursuz işləməsini təmin etməlidir. Kitabxana fondu təkcə kitabdan (sənəddən) ibarət deyildir kitabxana fonduna kitab, jurnal, qəzet, not, kart, izoqrafiya, audiovizual materiallar (diofilmlər, mikrofilmlər, maqnit lentləri, plastinkalar) elektron vasitələr, disklər, elektron kitablar, video kasetlər, telofilmlər, patentlər, disklər və s. daxildir. Kitabxana fondunun yaradılması, sistemləşdirilməsi, təsnifləşdirilməsi, düzülməsi və onun idarə edilməsini təmin edən amillər icərisində, kitabsaxlayıcının yaradılması, onun müasir texniki vasitələrlə təmin edilməsi, avtomatlaşdırılması işi mühüm elmi-texniki əhəmiyyət kəsb edir. Beləliklə kitabsaxlayıcının qurulması fondun formalaşması üçün şərait yaratmaqla vahid kitabxana fondu yaratmağa, fondun bütövlüyünü təmin etməyə imkan verir. Kitabxana fondunda saxlanılan nəşrlərin tipindən və növündən asılı olaraq böyük kitabxanalarda kitabxana fondunun strukturunda ixtisaslaşdırılmış müxtəlif fondlar: kitab fondu, qəzet fondu, jurnal fondu, əlyazmalar fondu, audiovizual vasitələr fondu, elektron kitablar fondu, nadir kitablar fondu və s. ola bilər.

Fondun tərkibini diqqətlə nəzərdən keçirdikdə, müasir informasiya cəmiyyəti şəraitində zamanın tələbi ilə informasiya cəmiyyətinin qarşıda qoyduğu vəzifələr və texnoloji tərəqqi nəticəsində ümumiyyətlə kitabxana işi quruculuğunda, həmçinin fondların formalaşması prosesində ciddi islahatların baş verdiyi meydana çıxır. Bu islahatların aparılması qaçılmazdır. Çünki yeni zaman, yeni cəmiyyət özü ilə birlikdə yeni texnologiya, texnoloji tərəqqi, ümumiyyətlə yeni inkişaf gətirir. Əgər kitabxanalar informasiya cəmiyyətinin qarşıda qoyduğu yeni islahatlarla ayaqlaşa bilməsə, öz sosial funksiyalarını yerinə yetirməkdə çətinlik çəkər, sosial institut kimi öz fəaliyyətini dayandıra bilər.

Doğrudur, hələ də cəmiyyətdə bu islahatların normal şəraitdə, dialektik inkişaf baxımından aparılmasına mane olan sağ və sol qüvvələr (kitabxanaçılar və informatiklər) vardır. Bu qüvvələr içərisində mən sağlar adlandırdığım mühafizəkar kitabxanaçılar, ancaq ənənəvi kitabxanaçılıqdan bərk-bərk yapışaraq cəmiyyətin informasiya tələbatının ödənilməsi şəraitində baş verən yenilikləri görmürlər, aparılması zəruri olan islahatlara qarşı çıxmağa çalışırlar, elektron kitabxanaçılıqdan yan keçməyə üstünlük verirlər. Bu isə yeniliyə qarşı çıxmaq, inkişafı görməməkdir.

İkinci qrup sollar isə informatiklərdir. Bunlar isə ultra yeniciliklər, keçmiş təcrübəni qiymətləndirə bilməyən, yeni informasiya texnologiyasına aludə olan insanlardır. Onlar açıq-açığına ənənəvi kitabxanaların əleyhinə çıxış edir, kitabxananın struktur quruluşunu dəyişməyə çalışır, kitabxananın bütün iş prosesini elektronlaşdırmağı təklif edirlər. Sola nüfuz edən belə mütəxəssislər də mən deyərdim ki, sağa meyl göstərənlərdən də təhlükəlidirlər. Onlar dərk etməlidirlər ki, 5 min illik tarixi təcrübəsi olan bəşəriyyətin yaddaşı olan kitabxanaların fəaliyyətinə son qoymaq ideyası heç də müasir cəmiyyət üzvlərinin böyük əksəriyyəti tərəfindən müsbət qarşılanmır.

Son zamanlar həm respublikamızda, həm də bütün dünyada kitabxana-informasiya xidmətinə, elə ayrılıqda cəmiyyətin informasiya təminatına həsr edilmiş elmi konfranslarda, seminarlarda, simpoziumlarda demək olar ki, bu problemin müzakirəsi gündəlikdən çıxıb, əsas məsələ kimi kitabxana-informasiya infrastrukturunun bizim yaşadığımız informasiya təcavüzü əsrində inkişafı prinsipləri gündəmə gəlmişdir.[1] Kitabxana işinin bütün strukturunda yeniliklər baş verməyə, islahatlar aparmağa başlandı. İlk növbədə kitabxanaların avtomatlaşdırılması, kitabxana işi fəaliyyətinin kompüterləşdirilməsi, kitabxana işinin kompleksləşdirilməsindən başlamış, kitabların və digər sənədlərin, elektron vasitələrinin kitabxana qaydası ilə işlənməsi, kitabxana-uçot və hesabat işlərinin həmçinin kitabxana işinin canı olan oxuculara, tələbatçılara, hüquqi və fiziki şəxslərə kitabxana-informasiya xidmətinin informasiyaqlaşdırılması prosesi geniş meydan almağa, yeni iş üsulu və formaları, metodiki təminat sistemi meydana gəlməyə başladı. Kitabxana fondlarında elektron nəşrlər, şəbəkə texnologiyası, elektron sənədlər əhəmiyyətli dərəcədə artmaqla, ənənəvi kitabxana fondlarını məzmunca zənginləşdirməklə kitabxana-informasiya infrastrukturunun inkişafını təmin etməyə başladı. Kitabxana fondlarına fiziki cəhətdən ona məxsus olmayan sənədlər axını başladı. İnternet vasitəsi ilə elektron resursları ilə işləyən oxucu bunların haradan əldə edilməsini bilmir və heç maraqlanmır. Bütün bunlar gələcək kitabxana texnologiyasının innovasiyası kimi formalaşır.

Beləliklə kitabxana işinə yeni texnologiyanın tətbiqi, kitabxananın kompüterləşdirilməsi prosesi kitabxana fondu anlayışı, onun formalaşdırılmasına, sturuktur quruluşuna heç bir dəyişiklik gətirmir, əksinə, fondun tərkibinin elektron vasitələrlə təkmilləşməsinə, məzmunca zənginləşməsinə, oxuculara kitabxana-informasiya xidmətinin yeni mərhələyə qalxmasına səbəb olur. Bütün bunlar bir daha təsdiq edir ki, ənənəvi kitabxanaçılıqdan imtina etmədən, yeniliyin, keçmiş ənənələrlə inteqrasiyasını yaratmaq, yeni kitabxana-informasiya texnologiyasını kitabxana işinə tətbiq etmək daha böyük iqtisadi səmərə verməklə bəşəriyyətin əsrlərlə topladığı kitabxanaçılıq təcrübəsini və ənənələrini qoruyub saxlayır. Amerika filosofu Djorji Santayaka hələ XX əsrin əvvəllərində ənənə məsələlərindən danışarkən demişdir: "Tərəqqinin əsasında baş verən dəyişiliklərdən daha çox ənənə durur. Kim ki, keçmişi yadda saxlamağa qadir deyil, onu təkrar etmək məcburiyyətindədir."[2]

Beləliklə kitabxana fondu – kitabxananın qarşısında duran məqsəd və vəzifələri, sosial funkisiyaları həyata keçirmək, əhaliyə (müxtəlif tip oxuculara) kitabxana-informasiya xidməti göstərmək məqsədi ilə formalaşmış, çap əsərlərinin, müxtəlif növ sənədlərin, elektron daşıyıcıların məqsədyönlü, seçilmiş, sistemləşdirilmiş, qaydaya salınmış, təsniflşdirilmiş elm, bilik və

[1] *Шрайберг Я.Л. Библиотеки, электронная информация и меняющиеся общество в информационном веке. Москва, 2006, с.9.*

[2] *Шрайберг Я.Л. Библиотеки, электронная информация и меняющиеся общество в информационном веке. М., 2006, с.11.*

mərifət xəzinəsidir. Cəmiyyətin inkişafının mühüm amili olan bilik ictimai nemətdir. Elmsiz, biliksiz cəmiyyət tərəqqi və inkişafdan məhrumdur. İctimai nemət olan biliklərin kitabxanalarda toplanması, kitabxanalar vasitəsi ilə xalqa çatdırılması kitab fondlarının ən qiymətli xəzinə olmasını bir daha təsdiq edir. Məhz buna görədir ki, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanununda "Kitabxana fondu"nun formalaşması məsələlərinə ayrıca fəsil ayrılmışdır. Ölkəmizin kitabxana fondları Azərbaycan Respublikasının Dövlət kitabxana fondu adlandırılmışdır. Qanunda deyilir: "Azərbaycan Respublikasının Dövlət Kitabxana fondu kitabxanalar arası əlaqələndirilmiş kompleklləşdirmə, qarşılıqlı istifadə, depozitar mühafizə və mübadilə prinsipləri əsasında təşkil edilən, məlumat axtarış sisteminə malik olan kitabxana fondlarından ibarətdir. Kitabxanalarda olan nadir və qiymətli nəşrlər, xüsusi kolleksiyalar qanunvericilikdə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının milli-mədəni sərvətlər reyestirinə daxil edilir və xüsusi rejimdə mühafizə olunur.... Azərbyacan Respublikası dövlət kitabxana fondu dövlət mülkiyyətidir"[1].

Daha sonra qanunda kitabxana fondlarının təchizi, milli kitabxana və böyük elmi-mədəni əhəmiyyət kəsb edən kitabxanaları pulsuz məcburi nüsxələr verilməsi məsələləri öz geniş həllini tapmışdır. Həmçinin qanunda kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri bölməsində böyük uzaq görənliklə kitabxanaların informasiyalaşdırılması vəzifələri öz əksini tapmışdır. Qanunda deyilir "Kitabxana işinin avtomatlaşdırılması və kitabxana fondlarının tədricən müasir informasiya daşıyıcılarına köçürülməsi, elektron mübadilə sistemlərindən (İnternetdən və s.) istifadə və milli fondların həmin sistemlərdə əks olunması; milli və dünya mədəniyyəti sərvətlərinə yiyələnməyə yönəldilən informasiya sisteminin yaradılması"[2].

Göstərdiklərimiz bir daha kitabxana fondunun formalaşmasının kitabxana informasiya xidməti binasının bünövrəsi olduğunu və bu prossesin bilavasitə yüksək təhsilli, geniş dünya görüşlü, təcrübəli kitabxanaçılardan daha çox asılı olduğunu aşkara çıxardı. Kitabxanaçı bilavasitə xidmət etdiyi kitabxananın tipindən və profilindən asılı olaraq kitabxanının yerləşdiyi ərazinin iqtisadiyyatını, əhalinin məşğuliyyət sahəsini, insanların tələb və sorğusunu, mədəni səviyyəsini dərindən bilməli, kitabxananı formalaşdırarkən kitabxananın yerləşdiyi ərazidə yaşayan ziyalıların, mütəxəsislərin, təhsil işçilərinin köməyindən, tövsiyələrindən istifadə etməlidirlər.

Keçmiş sovet kitabxanaşünaslığında kitabxana fondlarının iki mühüm tərkib hissəsindən ibarət olması göstərilirdi. Bunlardan 1-ci növə 2-ci komplektləşmə. Kitabxana fondlarının formalaşması prosesini tarixi aspektdən yanaşdıqda məlum olur ki, fondun əsas özəyi olan növə bütün dövrlərdə həm bilik mənbəyi olan kitabın qorunub saxlanmasında, həmdə kitabxananın bir

[1] *Mədəniyyət fəaliyyətində qanunlar toplusu.B., 2003, s.122.*

[2] *Mədəniyyət fəaliyyətinə aid qanunlar toplusu. B, 2003, s.117.*

sosial institut kimi formalaşmasında mühüm əhəmiyyət kəsb etmiş, tarixi təkamül prosesi nəticəsində kitabxana müəssisələrinin bütövlüyünü təmin etmişdir.

Növündən, tipindən, profilindən asılı olmayaraq milli kitabxanalardan başlamış kütləvi kitabxanalara qədər bütün kitabxanalarda bəşəriyyətin yaratmış olduğu, bütün bilik, elm sahələrinə, incəsənətə və texniki ədəbiyyata dair ən mühüm fundamental əsərlər kitabxanaların nüvə fonduna daxil olmalıdır.

Nüvə - hər bir kitabxana fondu əsas tərkib hissəsidir. Nüvə kitabxananın ən zəruri, ən unikal tərkib hissəsi olduğundan burada kitabxananın tipinə və növünə münasib ən qiymətli bəşəri elmi nailiyyətləri əks etdirən təbiət, texniki, humanitar ədəbiyyat və incəsənətə dair biliklərin əsası olan kitablar, sənədlər, elektron vasitələr və s. toplanmalı qorunub saxlanmalıdır.

Milli, böyük elmi kitabxanalarda fondun nüvə tərkibi üçün demək olar ki, bütün çap əsərlərinin seçilib toplanması zəruridir. Sahəvi kitabxanalarda isə sahəvi ədəbiyyatın toplanması ön plana çəkilməlidir. Kütləvi kitabxanalarda isə bütün elm, texniki ədəbiyyat, incəsənət əsərlərinin ən yaxşı qiymətlərinin əsərlərinin ən qiymətlilərinin seçilib toplanması böyük əhəmiyyət kəsb edir.

Kitabxanaların nüvə fondu nə qədər zəngin və əhatəli olsa kitabxananın cəmiyyətdə tutduğu xüsusi elmi-mənəvi cəkisi bir o qədər artıq olar.

Kitabxana fonduna dair mövcud ədəbiyyatda fondunun ikinci tərkib hissəsi kimi ikinci seçim adlanır. Müasir şəraitdə kitabxanalarda kitabxana fondlarının formalaşması sahəsində baş verən prosesləri diqqətlə irəlilədikdə belə bir nəticəyə gəlmək olur ki, bu istehsal həm adına həm də məzmununa görə yerində işlənməmişdir. Əgər fondun iki tərkib hissədən birincisi nüvədirsə onda ikinci tərkib hissəsini adı nə üçün seçim adlanır. Çünki nüvə özüdə seçim nəticəsində formalaşır. Bizcə kitabxana fondunun ikinci tərkib hissəsinin adı çap məhsulunun və elektron vasitələrin "mükəmməl repertuarı" kimi adlandırıla bilər. Ola bilsin ki, bizim "mükəmməl repertuar" kimi adlandırdığımız istehsalda o qədərdə müvəffəqiyyətli səslənmir. Hal hazırda bu istehsal barədə fikirləşməyin vaxtı çatmışdır. Kitabxana fondunun tərkib hissəsi olan bu iki növün formalaşmasında da fərqli cəhətlər vardır. Əgər "nüvə"-nin formalaşmasında bəşəriyyətin yaratmış olduğu ən dəyərli elmi, mədəni, mənəvi sərvətləri, elmi kəşfləri əks etdirən nəşrlər və elektron vasitələr daxil edilərsə, "mükəmməl repertuar" adlandırdığımız ikinci tərkib hissəsinə daha böyük həcmidə, cəmiyyətdə gedən bütün prossesləri, yeni elmi, mədəni, mənəvi yenilikləri, elmi kəşfləri, innovasiya xarakterli nəşrləri və informasiya daşıyıcıları daxil edilməlidir. Kitabxana fondunun "nüvə" tərkib hissəsi əsasın təcrübəli, yüksək intellekt səviyyəli kitabxana işçiləri, görkəmli alimlər və təcrübəli mütəxəssislər tərəfindən, həmçinin oxucu marağı nəzərə alınaraq formalaşırsa, ikinci tərkib hissəsi bilavasitə oxucuların tələb və sorğuları əsasında formalaşdırılır. Hər iki halda formalaşma prosesi çox mühüm iş hesab edildiyindən çox prosesin təşkilinə kitabxana olduqca ciddi yanaşmalıdır. Məlumdur ki, oxuculara kitabxana-informasiya xidmətinin

təşkili bilavasitə bu prosesin müvəffəqiyyətli aparılmasından asılıdır.

Kitabxana fondunun həm "nüvə" həm də "mükəmməl repertuar" növlərinin formalaşmasında oxucu sorğuları və tələbatları mühüm amildir. Oxucu tələbatının öyrənilməsi, elmi ümumiləşdirmələr aparılması, fonda alınacaq çap əsərlərinin və audiovizual materialların, elektron daşıyıcıların müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl oxucu tələbatını öyrənmək üçün xüsusi araşdırmalar aparılmalı nəzəri cəhətdən əsaslandırılmalıdır. Sahəvi kitabxanalara nisbətən ümumi kütləvi kitabxanalarda ədəbiyyatın seçilməsi prosesi xüsusi ilə çətindir. Ümumi (kütləvi) kitabxanaların vəzifəsi olduqca qeyri müəyyən, mürəkkəb və çox cəhətli olduğundan kompleksləşmə işini olduqca çətinləşdirir. Buna görə də ümumi (kütləvi) kitabxanalarda ədəbiyyatın seçilməsində iki istiqamət meydana gəlir. Birinci istiqamət tələbat nəzəriyyəsi istiqamətidir. Ümumi (kütləvi) kitabxanalar dövlət müəssisəsi olduğundan dövlət tərəfindən maliyyələşdirilir. Kitabxana əhalinin tələbatını ödəməyə borcludur. Bunun üçün isə daha keyfiyyətli, az vəsait tələb edən layihələr hazırlanmalı, komplektləşdirilərkən ədəbiyyatın elektron daşıyıcıların miqdarı və məzmunu müəyyənləşdirilməlidir. Şübhəsizdir ki, bu problemin həllində ümumi (kütləvi) kitabxanaların üzərinə daha ciddi məsuliyyət düşür. Tələbat nəzəriyyəsini yaradılması və bu nəzəriyyənin ayrı-ayrı komponenetlərinin hazırlanması, tələbat nəzəriyyəsinin mahiyyəti, məzmunu, predmeti və anlayışı haqqında araşdırmalar aparmaq müasir şəraitə uyğun konsepsiyalar hazırlamaq kitabxanaşünaslığın əsas vəzifəsi olmalıdır. Bu nəzəriyyənin hazırlanması bilavasitə kitabxanaların i təcrübəsinin ümumiləşdirilməsinə əsaslanmalıdır. Ümumi (kütləvi) kitabxanaların komplektləşməsində ikinci mühüm istiqamət dəyər nəzəriyyəsidir. Dəyər nəzəriyyəsi kitabxanaçının qarşısında daha mühüm vəzifə kitabxanaların ən yaxşı, qiymətli, yüksək elmi səviyyəli, daha uzun ömürlü kitablarla komplektləşdirmək vəzifəsi qoyur.

Dəyər nəzəriyyəsi istiqaməti kitabxananın maddi bazasına, büdcəsinə, kitab almaq üçün ayrılan vəsaitə əsaslanır.

Kitabxanaçı qarşısında çox ciddi bir sual meydana çıxır: "yaxşı" kitablara, "uzun ömürlü" kitablara hansı kitabları aid etmək olar? Kitabxanaçı bu suala cavab vermək üçün yenə də oxucu dairəsinə, mütəxəsislərə güvənməli onların sorğu və tələbatlarını öyrənib ümumiləşdirmək əsasında dəyər nəzəriyyəsi əsaslandırılmalı, ümumiləşdirmələr əsasında komplektləşdirmənin perespektiv layihəsini hazırlamalıdır.

Kitabxanaçı komplektləşdirmə layihəsini hazırlayarkən öyrəndiyi və əldə etdiyi biliklərə əsaslanmaqla öz fəlsəfi düşüncələri baxımından həll etməlidir. Kitabxanaçı belə bir fəlsəfi konsepsiyanı rəhbər tutmalıdır ki, kitablara məhəbbət yox, həqiqətə məhəbbət ön plana çəkilməlidir. "Çünki biliyin nəticəsi – müdriklikdir müdriklik isə bütün qarşılıqlı əlaqələri ilə birlikdə həqiqətə yetişmək qabiliyyətidir."[1]

[1] *Шира Дж.Х. Введение в библиотековедение. М., 1983, с.78.*

Kitabxanaların komplektləşdirilməsi zamanı istifadə edilən müxtəlif forma və üsullar oxucuların tələbatının ödənilməsi prinsipinə xidmət etməlidir. Məhz bu prinsiplər kitabxana işində baş verən təzahürlərin vəhdətini təmin edir. Bəzi tədqiqatçılar kitabxana fondlarını yaxşı seçilmiş, məntiqi ardıcıllıqla tərtib edilmiş, antalogiyaya bənzədirlər. Bu və ya digər elm sahəsinə, bədii ədəbiyyata aid tərtib edilmiş antalogiyalar oxucular tərəfindən ona görə böyük maraqla qarşılanırlar ki, bu antalogiyalar oxucu öz axtardığını orada tapmaq imkanı əldə edir. Kitabların təsadüfən bir yerə toplanması hələ kitabxana deyil, bu kitabların cəmidir. Antalogiyada olduğu kimi kitabların məqsəd yönlü, seçilməsi ardıcıllıqla toplanması, cəmiyyətin qarşıda qoyduğu tələb, vəzifələrə, oxucuların tələblərinə cavab verə bilməsi zəruridir.

Kitabxana fondu elə seçilib formalaşmalıdır ki, insan biliyinin sistemləşməsinə, biliklərin idarə olunmasına, bilik mənbəyi olan kitablar vasitəsi ilə insanların mütaliəsinə, tərbiyə, təhsil prosesinə təsir etsin. Görkəmli filosof Frensiz Bekonun ifadəsi ilə desək mütaliə məqsədli cəmiyyət, o isə məqsədli insan yaradır. Böyük filosofun bu kəlamı öz peşəsini sevən hər bir kitabxanaçının həyat devizi olmalıdır.

"Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktik jurnalı. 2011, № 2(5) s. 7-16

KİTABLAR İÇİNDƏ KEÇƏN ÖMÜR.

Kitabxanalar sanki ruhlar aləmidir. Bunları o özü deyir: Kitab xalqın sərvətidir. Insanlar öləndən sonra onların ruhları yaşayır. Mən deyirəm ki, böyük alimlərin ruhu onların kitablarıdır.

Müsahibimiz milli kitabxanaşünaslıq elminin banisi, Azərbaycanda kitabxana işinin tarixinin ilk tədqiqatçısı, BDU-nun kitabxanaçılıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki Abuzər Xələfovdur. Ömrünün yarıdan çoxunu Azərbaycan kitabxanaçılığının inkişafına həsr etmiş bu insanı əksərimiz xüsusilə kitaba sevgisi olan insanlar daha yaxşı tanıyır. XX əsrin 60-cı illərindən başlayaraq kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq sahəsində doktorluq dissertasiyası və namizədlik müdafiə etmiş alimləri demək olar ki, hamısı Abuzər Xələfov elmi məktəbinin yetirmələridir. Gəlin onun həyatına qısa bir nəzər salıb sonra suallarımıza cavab alaq.

Abuzər Alı oğlu Xələfov 1931-ci il dekabrın 25-də Qərbi Azərbaycanın Göyçə mahalının Cil kəndində anadan oçuşdur. 1950-ci ildə Toxluca kənd orta məktəbini bitirdikdən sonra BDU-nun filolgiya fakültəsinin Kitabxanaçılıq şöbəsində təhsil almışdır. 1962-ci ildə onun fəal səyi nəticəsində kitabxanaçılıq şöbəsi müstəqil fakültə olmuş və Abuzər müəllim bu fakültənin ilk

dekanı olaraq 25 il bu vəzifədə faəliyyət göstərmişdir. 1963-cü ildən indiyə qədər kitabxanaşünaslıq kafedrasının müdiridir. Abuzər Xələfov SSRİ məkanında Kitabxana işinin tarixi sahəsində ilk tarix elmləri doktoru kimi şöhrət qazanmış və Azərbaycan kitabxanaşünaslıq elmi məktəbinin əsasını qoymuşdur. Bir çox orden və medallarla fəxri fərmanlarla təltif edilmişdir.

- Göyçə mahalı və kiçik Abuzər. Sizi keçmişlə hansı xatirələr bağlayır.

Göyçə mahalı xalqımızın ən qədim yaşayış məskənlərindən olub adı hələ XII əsrdən çəkilirdi. Burada həmişə azərbaycanlılar yaşayıb. Mahal öz aşıqları, görkəmli şəxsiyyətləri ilə məşhurdur. Yüzə yaxın kəndi var idi. Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra Göyçə mahalı ayrılıb Ermənistana verildi. Bu indiyə qədər hökm sürən tarixi ədalətsizlikdir. Universitetə daxil olana qədər mənim büten uşaqlığım Göyçədə keçib. Atam Alı Alıyev Göyçə mahalının ən ziyalı adamlarından biri olub. Nəslimiz Göyçənin tanınan nəsillərindən olan Xələflilərdəndir. Babam Xələf kişinin savadı yox idi. Ancaq sinə dəftər idi Zalimxan Yaqub kimi.(O da mənim ən çox sevidiyim tələbələrimdən olub.) Babamın aşıq Qasım adında bir dostu var idi. Onunla birgə həmişə həyətimizdə divarın dibiniə stol düzər orada aşıq məclisi təşkil edər, dastanlar söylərdilər. Məclislər 3-4 gün davam edərdi. Məndə onların söhbətlərinə uşaqlıqdan maraq var idi. Bütün xalq ədəbiyyatını da onların sayəsində əzbərləmişdim. Göyçə mahalında folklor bu cür yüksək inkişaf etmişdir. Bunlar həm də məndə o vaxtdan milli folklorumuza, aşıq sənətinə maraq yaratmışdır. O zamanlar "Aşıq qoşmaları" çıxırdı. Nə babam oxuya bilirdi, nə də aşıq Qasım. Bunları alardılar, onlar üçün oxuyardım, həm də söhbətlərində qulaq asırdım. Bu da məndə ziyalılıq formalaşdırırdı.

- Yeniyetməliyiniz böyük vətən müharibəsi illərinə təsadüf edir. Müharibə dövrünün uşaqlığı və müharibənin insanların həyatına təsiri necə idi?

- Müharibə insan həyatında ən ədalətsiz bəşəriyyətli sivilizasiyanı məhv edən dağıdıcı bir şeydir. Müharibə edən dövlət nə mədəniyyətə, nə təhsilə, nə də insanlığa baxır. Yeniyetməliyim müharibə dövrünə düşüb. Onun ağırlığı insanların üzərində çiyinlərində idi. Sanki bir-biri ilə danışmaqdan çəkinirdilər. Biz arxa cəbhədə olmağımıza baxmayaraq yenə də ağır idi. Əldə olunan məhsulun əksər hissəsini ön cəbhəyə göndərirdilər. Gündə bir dəfə çörək payı verilirdi. İstəyərdim hamısını ye, istəyərdin hissə-hissə. Gün ərzində olna o idi. Ağır işlərə uşaqlarda qoşulurdu. Mən məsələn gedib meşədən odun gətiridim çiyinlərimdə. Azyaşlılardan biri kimi kolxozda işləyirdim və bunun nəticəsi olaraq kolxoz rəhbərliyi tərəfindən 1946-cı ildə "Böyük vətən müharibəsində rəşadətli əməyə görə" medalı ilə təltif edilmişəm.

- Tələbəlik illəri insana həyat dərsi keçir. Abuzər müəllimin həyat dərsi necə keçib?

- 1950-ci ilədək Bakıya ali məktəbə qəbul imtahanı verməyə gəldim. Kitaba böyük marağım var idi deyə, elə ərzəmi də kitabxanaçılıq və biblioqrafiya şöbəsinə verdim və müvəffəqiyyətlə daxil oldum. Filologiya fakültəsi o zaman çox böyük fakültə hesab olunurdu. Bu fakültənin 5-6 şöbəsi var idi.

Azərbaycan dili və ədəbiyyatı, russ dili və ədəbiyyatı, jurnalistika, psixologiya və incəsənət. Mən bütün məlumat bazamı elə bu fakültəmdə almışam. M.C.Paşayev, H.Araslı, F.Qasımzadə, B.Vahabzadə, Ə.Sultanlı kimi müəllimlərim olub. Əvvəl onların tələbəsi olmuşam. Sonra isə bu elm yolunda çiyin-çiyinə çalışmışıq. Ömrüm böyu arzulamışam ki, onlar kimi olum. Mən- ucqar bir kənddən gəlmiş uşaq və digər mənim kimiləri müəllimlərimizin etmadı nəticəsində gəlib bu səviyyəyə çatmışıq. O vaxt Universitetin rektoru Yusif Məmmədəliyev idi. O əmri ilə burada müəllim kimi saxlanıldım. Yüsif Məmmədəliyevdən sonra Şəfaət Mehdiyev rektor oldu. Onun dövründə kitabxanaçılıq şöbəsi müstəqil fakültəyə çevrildi. O vaxt Təhsil Nazirliyi yox idi. Əvəzində ali və orta ixtisas təhsili adlı bir komitə var idi. Komitənin sədri Abdulla Qarayev idi. Mən ondan xahiş etdim ki, kitabxanaçılıq fakültəsinin yaradılması ideyasını nəzərə alsın, razılıq verdi. Şəfaət müəllim özü də bilirdi ki, bu sahədə kadrlarımız yoxudur. Bizə Azərbaycan kitab mədəniyyətinin inkişafı üçün kadr lazımdır. 1962-ci ildən fakültə yaradıldı və mən oranın dekanı təyin edildim. 25 il bu fakültədə dekan kimi çalışmışam. 50 illə yaxındır ki, kitabxanaşünaslıq kafedrasının müdiriyəm. Bizim Universitetin böyük elmi şurası var. Oranın üzvləri görkəmli alimlərdir. Mən 1962-ci ildən böyük elmi şuranın daimi üzviyəm. Kitabxanaçılıq fakültəsi açılandan buranı 6 min tələbə bitirib. İndi ölkənin bütün kitabxanalarında bizim kadrlar çalışır. Mən fəxr edirəm ki, onlar bizim yetirmələrimizidir və xalqa xidmət edirlər.

- Bu gün Bakı Dövlət Universiteti öz fəaliyyətinin hansı mərhələsindədir?

- 60 ildi bu universitetin divarları arasındayam. BDU mənim taleyimdir, həyat suyumdur. Mən fəxr edirəm ki, ulu öndər Heydər Əliyevin məzunu olduğu universitetin məzunuyam. Bilirsiniz ki bu günlərdə Avropa komissiyasının sədri Barrozo da Universitetimizidə qonaq oldu. O çıxışında qeyd etdi ki, görkəmli dövlət xadimi H.Əliyevin məzunu olduğu bir universitetin fəxri doktoru olmaqla fəxr edir.

Mən hansı rayona, hansı məkana gedirəm, görürəm ki, camaat BDU-nu tanıyır və mənə hörmət edir. H.Əliyev deyib: "BDU- azərbaycan xalqının milli sərvətidir." "BDU-nun elmi kitabxanası 90 il elm və təhsilin xidmətində" adlı kitabım nəşr olunub. 1919-cu ildən bu günə kimi kitabxananın fəaliyyəti haqqında bütün tarixi özündə əks etdirən bir kitabdır. Materialların toplanması çox əziyyətli oldu. Onu yazmaq əziyyətli də olsa, uiversitetin bir hissəsinin tarxini özündə yaşadır. Universitet son 11 ildə çox böyük tərəqqi edib. Mən yazmışam ki, bu dövr universitetin intibah dövrüdür. Misir Mərdanov nazir vəzifəsinə təyin olunandan sonra universitetin rektoru vəzifəsini o vaxtki professor, prorektor icra edirdi. Mən bir dəfə vəzifəli şəxslərin birindən soruşdum ki, niyə rektor təyin olunmur? Dedilər ki, H.Əliyev rektor təyin etməyi öz boynuna götürüb. Bu seçim bir il çəkdi. Onun etimadını Abel Məhərrəmov bu 11 ildə doğrultdu. Universitetin maddi texniki bazası, təhsilin keyfiyyətcə yüksəlməsi, elmi tədqiqat işlərinin genişlənməsi sahəsində böyük naliyyətlər

əldə edildi. Yeni təhsil islahatları həyata keçirildi. Onun sayəsində tələbə universitetin aparıcı qüvvələrindən birinə çevrildi. Moskva universitetinin rektoru bura gələndə demişdi ki, əvvəllər siz bizdən öyrənirdiniz, indi bizim də sizdən öyrənəcəyimiz çox şey var.

- Siz BDU-nun rektoru Abel Məhərrəmov haqqında danışdınız. Bəs özünüz 1982-87-ci illərdə fəaliyyət göstərmiş Xalq Universitetinin keçmiş rektoru kimi universitetinizin fəaliyyəti haqqında nə deyərdiniz?

- O dövrün tələbinə uyğun müxtəlif sahələrə aid xalq universitetləri fəaliyyət göstərirdi. Mən də kitab xalq universitetini yaratmışdım. Məqsədimiz kitabın nəşri, yazılması, çapa hazırlanması və yayılması idi. Mühazirələr oxuyur, seminarlar keçirirdik. Universitet iki illik idi, sonda diplom verilirdi. Kadrlar yetişdirirdik. O vaxtlar kitabsevərlər cəmiyyəti fəaliyyət göstərirdi. İndi də var. Direktoru Tahir Salahovun bacısı indiki miniatür kitab müzeyinin direktoru Zərifə Salahovadır. Kim universitetdə oxumaq istəyirdi, müəssədən adını yazıb göndərir-dilər. Bir də görürdün seminarda 30-40 nəfər var. Sonradan digərləri kimi onun da fəaliyyəti dayandırıldı.

- Azərbaycan oxucusunun bü gün kitaba marağı artan yoxsa, azalan səviyyədədir?

- Kitab ruhun qidasıdır. Belə bir şey təsəvvür edək. Bir səhraya insanlar gəlir, addımlayır və gedirlər, gedənlər bir də geri dönmürlər, amma izləri torpaqda qalır. İndi yazılarda, məqalələr də, kitablar da gedənlərin izləridir. Mən ona görə bu sənəti sevirəm ki, kitab insanı yaddaşlandırır. Yaddaşı olmayan xalq manqurtdur. Kitab insanı manqurtluqdan insaniliyə yüksəldir. İndi 80 yaşım var. Mənə təzədən ömür verələr ki, haradan başlayarsan, yenə də kitabxanaçılıqdan başlayaram. Bütün sənətlər içərisində ən pakı kitabxanaçılıqdır. Kitabxana kim gəlir? Sadə xalq.

Kitabxanaya gedirsən, görürsən i ali təhsili olmayan sadə insan səninlə elə danışır ki utanırsan. Nədən? Bu insan çox mütaliə edir. Mən hiss edirəm ki, millət oxuyur.

- Bir neçə ziyarətlərdə, xarici səfərlərdə olmusunuz, təsuratlarınızı oxucularla bölüşərdiniz.....

- Mən həmmişə inancımıza inanan adam olmuşam. Ancaq mövhumatçı, xurafatçı dindar deyiləm. Mən Hz. Məhəmmədin gətirdiyi İslama, "Quran"ın söylədiyi islama inanıram. İslam fəlsəfəsini sevirəm. Səudiyyə ərəbistanın kralı H.Əliyevdən soruşub ki, "Mən azərbaycanlı müsəlmanlara necə hörmət edə bilərəm?" H. Əliyev deyib ki, öz hesabına 200- nəfərə qədər müsaəlmanı ziyarətə göndər. Biz Kralın qonağı kimi 1998-ci ildə Həccə getdik. 2001-ci ildəki kərbala ziyarətim də yadda qalan səfərlərdən olub. Füzulinin, Nəsrəddin Tusinin qəbrlərini ziyarət etmişik. Misir səfərimə gəlincə, Misir hökumətinin qonağı kimi İsgəndəriyyə kitabxana-sının açılışına dəvət edilmişdim. İsgəndəriyyə kitabxanasına kitablarımdan bağışladım. Bildilər ki, mən də kitabxanaçıyam, və daha çox maraqlanmağa başladılar. Bizim oradakı əsərlərdən əlyazma şəklində olanların hamısını mənə göstədilər.

- Abuzər müəllimin həyat fəlsəfəsini hansı şüar ifadə edir?
- Həyat devizim budur ki, çalışıb insanlara yaxşılıq edəm. Yaxşılıqdan heç bir zərər gəlmir. Övladına, xalqına hər zaman kömək etməlisən. Mənim həyat konsepsiyam budur.
- Abuzər Müəllimə hansı kitabın qəhrəmanı yaxındır?
- Bu cür suala cavab vermək mənim üçün çox çətindir. İnanın ki, həmişə Azərbaycan ədəbiyyatındakı əsər qəhrəmanlarının yaxşı keyfiyyətlərini əxz etmək istəmişəm. Deyə bilmərəm bunu nə dərəcədə bacarmışam. Məsələn mirzə İbrahimovun "Gələcək Gün" romanında millətini sevən bir obraz var. Firudin İbrahimi- mən özümü onda görürəm. İlyas Əfəndiyevin söyüdlü arxındakı kitabxanaçı surəti və Bəxtuyar Vahabzadənin "Sadə adamlar"ındakı kitabxanaçı ülkər- bunlar mənim ideyalımdır. Əsasən həqiqət tərəfdarı olan qəhrəmanlar xoşuma gəlir. Həqiqət tərəfdarları müdrik insandırlar.
- Abuzər müəllimin ailəsi və kitablar. Hansı daha yaxındır?
- Həyat yoldaşşım Adilə xanım kitabxanaçıdır. Bizi kitaba olan ümumi sevgi, maraq birləşdirib. Uzun müddər uşaq kitabxanasında işləyib. Təqaüdçüdür. Üç oğlum var, üçü də universiteti bitirib. Böyük oğlum Azər polkovnik leytnantdır. İxtisası ərəb dili və ədəbiyyatıdır. Özü qanun keşikçisidir. İkinci oğlum Asəf tarix fakültəsini bitirib. Hazırda gömrük üzrə məsul işçilərdəndir, mayordur. Kiçik oğlum Elçin hüquq fakültəsini bitirib. Mülki hüquq kafedrasının dosentidir. Elçinin hüquq elmi üzrə böyük kitabxanası var. Şəxsi kitabxanamda 3-4min kitab var. Kitablara ayrıca bir otaq ayırmışam. Orada əsasən ensiklopediyalar, məlumat kitabları, lüğətlər var.

Hər bir alimin kitabxanasında ilk növbədə məlumat kitabaları olmalıdır. Bura ensiklopediylar, izahlı lüğətlər, dünya ədəbiyyatı, ixtisas ədəbiyyatı və s. daxildir.

- Bugünkü gəncliyə sözünüz...
- Bir zaman M.F. Axundov adına Milli kitabxananın əsərləri çıxmışdır. Orada mənim də, Bəxtiyar Vahabzadənində təbriklərimiz var. Mən həmişə tələbələrə onun təbrikini oxuyuram. Görün nə yazır:

Kitab işıq dolu bir laləzardır,
Kitab olan yerdə işıq da vardır.
Torpağa dönsə də onu yazan əl,
Ruhu çırpınır onun bu gün də.

Gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Qüvvətli olmaq üçün məlumatlı olmaq lazımdır. Bunun üçün daimi mütaliəyə ehtiyyac var

"Bakı Universiteti" qəzeti. 21 yanvar 2011

AKADEMİK RAMİZ MEHDİYEVİN "GORUS - 2010: ABSURD TEATRI MÖVSÜMÜ" ƏSƏRİNİ OXUYARKƏN

Akademik Ramiz Mehdiyevin Azərbaycan xalqının tarixini saxtalaşdıranlara qarşı yazdığı "Gorus-2010: absurd teatrı mövsümü" adlı əsəri sanballı və dəyərlidir. Xalqımızın soykökünün, qədim və müasir tarixinin, 5 min illik şərəfli keçmişimizin hərtərəfli və geniş tədqiq edilib öyrənilməsi, ümumiləşdirilməsi, bir sıra tarixi mənbələrin, o cümlədən dünyanın məşhur alimlərinin Qafqaz və Azərbaycan tarixinə dair əsərlərinin sistemləşdirilməsi baxımından bu kitab böyük əhəmiyyət kəsb edir və ciddi maraq doğurur. Qədim tarixə, qüdrətli dövlətçilik ənənələrinə, zəngin milli-mənəvi dəyərlərə malik olan Azərbaycan xalqı özünün təqribən beş min illik möhtəşəm tarixi ilə fəxr edir. Yaxın və Orta Şərq ölkələri tarixində, türkdilli xalqların dövlətçiliyi və antik sivilizasiyanın mədəni-siyasi tarixində ilk dövlətçilik qurumlarına və müstəqil dövlət yaratmaq qabiliyyətinə və bacarığına malik olan Azərbaycan xalqı hazırkı müstəqillik şəraitində milli dövlət quruculuğunun inkişafı və təkmilləşdirilməsi istiqamətində dərin və köklü islahatlar keçirərək böyük əhəmiyyətə malik fundamental nailiyyətlər, daxili və xarici siyasətdə uğurlar qazana bilmişdir. İnkişaf etmiş dünya dövlətlərinin qabaqcıl təcrübəsindən faydalanaraq hüquqi, dünyəvi, demokratik dövlət qurmuş, dövlətimizin yeritdiyi ardıcıl, qətiyyətli və düzgün siyasət sayəsində respublikamızın beynəlxalq əlaqələri xeyli genişlənmiş dünya birliyinin möhkəm və daimi üzvlərindən birinə çevrilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Respublikamız artıq böyük bir dövlətdir. Bu dövləti biz öz gücümüzlə, vətənpərvər insanların gücü ilə qoruyuruq və qoruyacağıq".

Müstəqil Azərbaycan Respublikasının daha da möhkəmlənməsi və gücləmməsi, siyasi-iqtisadi inkişafına görə regionda və beynəlxalq müstəvidə lider dövlətə çevrilməsi artıq dünyanın bir çox dövlətləri tərəfindən qəbul və təsdiq edilir. Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev proqram əhəmiyyətli nitqində göstərmişdir ki, ölkəmizdə aparılan dərin islahatlar nəticəsində əhalinin sosial-iqtisadi müdafiəsi xeyli yaxşılaşmış, mədəni sahədə yeni-yeni nailiyyətlər əldə edilmiş, müdafiə sənayemiz müasir standartlara uyğun qurulmuş, son illərdə 900 mindən artıq iş yeri açılmışdır. Prezident İlham Əliyev demişdir: "Bütövlükdə deyə bilərəm ki, 2010-cu il ölkəmizin inkişafı üçün çox əhəmiyyətli il olmuşdur".

Ölkəmizin sürətli inkişafı bədnam qonşularımızı razı salmır. Zəhərli ideoloji vasitələrinin bütün kanallarını işə salan erməni millətçi təbliğatçıları dünyanın müxtəlif ölkələrində özlərinin antiazərbaycan siyasətindən əl çəkmir və yeni-yeni uydurma tezislərlə beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışırlar. Hətta iş o yerə çatmışdır ki, qonşu xalqlar arasında düşmənçilik toxumu səpən erməni təbliğatçılarına "istiqamət" verən Ermənistan Respublikasının prezi-

denti Serj Sarkisyan özü də uydurma "tezislər" irəli sürməyə, dolaşıq fikirləri ilə tarixi saxtalaşdırmağa, yalançı məlumatları ilə tarixi faktları və hadisələri təhrif etməyə girişmişdir. Tariximizin ayrı-ayrı dövr və mərhələlərini, xalqımızın ən qədim zamanlardan bu günə qədər keçdiyi inkişaf yolunu, dövlətçilik ənənələrinin zəngin təcrübəsini və qüdrətli dövlətlər yaratmaq bacarığını elmi faktlarla, qədim və orta əsr mülliflərinin mənbə və qaynaqları ilə əsaslandırması və sübuta yetirməsi, tarixi saxtalaşdırmaq istəyənlərə elmi cavablar verməsi bu gün daha çox əhəmiyyət kəsb edir. Bu baxımdan tariximizin müxtəlif dövrlərini təhlil edən, düşmən təbliğatına konkret elmi sübutlarla cavab verən, akademik Ramiz Mehdiyevin "Gorus-2010: absurd teatrı mövzusu" adlı əsəri çox böyük əhəmiyyətə malikdir. Bu əsər, eyni zamanda, xalqımızın tarixi inkişaf prosesində qazandığı uğurlu nailiyyətləri, Azərbaycan xalqının yerli aborigen xalq olmasını göstərməklə yanaşı, ermənilərin başqa-başqa yerlərdən köçəri tayfalar kimi gəlməsini tarixi-elmi mənbələrlə sübut etmək və Qafqaz xalqlarının iqtisadi və siyasi tarixini öyrənmək baxımından da olduqca təqdirəlayiqdir.

Bu tarixi əsərin başlanğıcından aydın olur ki, 2010-cu il oktyabrın 16-da erməni absurd teatrının səhnəsində növbəti tamaşa təşkil edilib. Bu dəfə tamaşa qədim Azərbaycan torpağı olan Gorus şəhərində göstərilib. Tamaşanın baş qəhrəmanı hansısa sıravi artist deyil, Ermənistan prezidenti Serj Sarkisyan özüdür. Bu həmin Serj Sarkisyandır ki, əli Azərbaycan xalqının qanına batıb, XX əsrin ən ağır faciəsi - Xocalı soyqırımına bais olub, neçə-neçə günahsız insanların ölümünə fitva verib, Dağlıq Qarabağda hərbi əməliyyatlara və insan qırğınlarına başçılıq edib.

Tarix sübut edir ki, antik dövrdən başlayaraq çağdaş zamanımızadək əsrlər boyu Azərbaycan və Türkiyə torpaqlarına göz dikən erməni daşnakları və erməni millətçiləri hiyləgər və fitnəkar siyasət yeridərək monoetnik və "türksüz Ermənistan" uğrunda qərinələr boyu gizli və bəzən leqal müharibələr aparmış, "dənizdən-dənizə" böyük imperiya yaratmaq üçün türk xalqlarına qarşı soyqırımı siyasəti yeritmiş, Azərbaycan torpaqlarına və sərvətlərinə sahib olmaq üçün dəridən-qabıqdan çıxaraq özlərinin məkrli və avantürist niyyətlərini həyata keçirmək məqsədilə görünməmiş cinayət və vəhşiliklərdən, kütləvi qırğınlar və vandalizmdən istifadə etmişlər.

"Gorus-2010: absurd teatrı mövsümü" əsərini oxuyarkən aydın olur ki, Azərbaycan və türk xalqlarına qarşı uzun illər ərzində soyqırımı və deportasiya siyasəti yeridən, zaman-zaman və mərhələ-mərhələ onu gerçəkləşdirən erməni millətçilərinin iç üzünün, məkrli və avantürist siyasətinin mahiyyətinin açılması, obyektiv faktlarla onların ifşa edilməsi və bələləklə, tarixi həqiqətlərin bərpa edilməsi indi olduqca vacibdir. Məhz bu baxımdan xalqımızın tarixinin həqiqət dili ilə yazılmasına, hadisələrin və tarixi faktların obyektiv işıqlandırılmasına, onun dünya ictimaiyyətinə düzgün çatdırılmasına çox böyük ehtiyac vardır. Doğrudur, bu istiqamətdə respublika tarixçiləri tərəfindən çox iş görülmüş və əhəmiyyətli elmi-tədqiqat əsərləri yazılmışdır. Bununla

belə, bu iş davam etdirilməli və erməni millətçilərinin dezinformasiyalarının qarşısı vaxtında alınmalı, onların xain əməlləri və iblis xislətləri haqqında faktlar dünyaya çatdırılmalıdır.

Erməni millətçiləri tarix boyu ən qəddar və qanlı mübarizə formalarından istifadə edərək sərsəm "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək üçün saxta ideoloji tezislər formalaşdırmış, terrorçu təşkilatlar yaratmış, türk xalqlarına və azərbaycanlılara qarşı genişmiqyaslı qətllər və vəhşiliklər törətmiş, yüzlərlə yaşayış məntəqəsini və minlərlə azərbaycanlını məhv etmişlər.

Xüsusilə XIX-XX əsrlərdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə məruz qalmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" imzaladığı fərmanda deyildiyi kimi, mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

Akademik Ramiz Mehdiyevin zəngin sənədlərə malik olan bu sanballı əsərində tariximizin hər hansı mərhələsinə böhtan atanlara tutarlı cavablar verilir, əsaslandırılmış arqumentlər gətirilir. Kitabda deyilir: "Serj Sarkisyan çıxışında hiddətlənmişdir ki, Stepan Şaumyanı Azərbaycanda "bandit" adlandırırlar". Tarixi həqiqət belədir ki, erməni cəlladları başqa vaxtlarda olduğu kimi, 1918-ci ilin mart-aprelində Bakı şəhərində və Azərbaycanın digər bölgələrində minlərlə dinc azərbaycanlı əhalini yalnız milli mənsubiyyətinə görə məhv etmiş, evlərə və tarixi abidələrə od vurmuş, insanları diri-diri yandırmış, hamilə qadınların qarnını nizəyə keçirmiş, xəstələrə, qocalara, hec kimə aman verməmişlər. Erməni cinayətkarları bu vəhşilikləri Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, Naxçıvanda, İrəvanda, Lənkəranda və başqa yerlərdə xüsusi qəddarlıqlar həyata keçirmişlər.

1918-ci ilin mart-aprelində Şaumyanın göstərişi ilə erməni qaniçənləri yüzlərlə azərbaycanlı kəndini yandırdı, 50 mindən çox dinc müsəlmanın ölümünə qərar verdi. On minlərlə azərbaycanlı əhalisi doğma yurdundan didərgin düşdü.

Tarixi faktlardan aydın olur ki, qatı cinayətkar Şaumyanın əməllərini onun varisləri Dağlıq Qarabağda davam etdirdilər. Nəticədə on minlərlə azərbaycanlı qanına qəltan edildi, dədə-baba yurdlarından qovuldu, tarixi abidələri dağıdıldı, Xocalı faciəsi törədildi.

Kitabda faktlarla göstərilir ki, hər il 27 minə qədər adam Ermənistanı tərk edir. 1991-ci ildən bəri 1,5 milyon nəfər ölkəni tərk etmişdir, demoqrafik vəziyyət həyəcanlıdır, ermənilərin sayı 40 faiz azalmışdır. Hətta ölkənin ali rütbəli məmurları da ölkədən gedirlər. "...Belə getsə, tezliklə prezident özü də qaçacaqdır".

Bəzi arxiv sənədlərini və faktları elmi dövriyyəyə cəlb etməklə bildirirlik ki, 1918-ci il mayın 29-da yeni yaranmış Azərbaycan Milli Şurası tərəfindən

İrəvan şəhəri Ermənistana paytaxt kimi "bağışlandı", 1920-ci ilin sonunda Zəngəzurun qərb hissəsi, sizin çıxış etdiyiniz Gorus şəhəri də daxil olmaqla, təqribən 4504,4 kv.km ərazimiz Ermənistana "bağışlandı", 1921-ci ildə Zəngəzurun yuxarı hissəsi, Şərur-Dərələyz qəzası, Göyçə dairəsi, üst-üstə 11 min kvadratmetr ərazimiz, 1926-cı ildə Naxçıvanın 658,4 kvadratkilometr torpaq sahəsi, 1929-cu ildə Zaqafqaziya MİK-in səhv qərarı ilə 657 kvadratkilometr ərazimiz Ermənistana verildi.

Yenə Zaqafqaziya MİK-in bədnam qərarı ilə 1929-cu ildə Loru-Pəmbək ərazisi, təqribən 4844 hektar torpaq sahəsi Ermənistana "bağışlandı". Ümumiyyətlə, XX əsrin 20-90-cı illərində 40.681 kvadratmetr ərazimiz Ermənistan tərəfindən işğal olunmuşdur. Halbuki Batum müqaviləsinin şərtlərinə görə, Ermənistan ərazisi 10 min kvadratmetrə qədər nəzərdə tutulmuşdu.

Ancaq S.Sarkisyan bu faktları bilməmiş deyil! Kitabda oxuyuruq: "Əvvəllər Azərbaycana məxsus olmuş İrəvan xanlığının ərazisində yüzlərlə toponimin sovet dövründə vaxtilə həmin torpaqlarda yaşamış Azərbaycan türklərinin izlərini məhv etmək məqsədilə adları dəyişdirilərək onlara erməni adları qoyulmuşdur".

Böyük maraqla oxunan kitabın diqqəti cəlb edən yerlərindən biri də Qafqaz Albaniyası məsələsi və xüsusilə ermənilərin başqa yerlərdən köçüb gəlmələri məsələsinin tarixi qaynaqlarla əsaslandırılmasıdır. Hörmətli akademikimiz tarixi məsələlərin dərin bilicisi kimi həmin məsələlərə o qədər aydınlıq gətirir və onları mənbələrlə əsaslandırır ki, bununla S.Sarkisyanın bütün uydurma "ideyalarını" alt-üst edir. Kitabın 55-ci səhifəsində düzgün olaraq belə bir obyektiv fakt gətirilir ki, haylar Van gölü ətrafına Balkanlardan köçüb gəlmişdilər. Herodot yazırdı ki, ermənilərin əcdadları Finikiya torpaqlarından köçürülmüşlər.

Ermənilərin bu yerlərə köçüb gəlmələri barədə çoxlu mənbələr və faktlar vardır. Onlardan bəzilərini bir daha yada salaq: Herodot 2500 il bundan əvvəl bu ərazilərdə qədim türklərin yaşamasından xəbər verir. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, qədim erməni tayfaları təqribən eramızdan əvvəl II minilliyin sonu - I minilliyin əvvəllində Fərat çayının yuxarı vadisində təşəkkül tapmışdılar. Bunu həm Azərbaycan, həm də Ermənistan ərazisindəki türk mənşəli əksər etnonimlərin eyniliyi bir daha təsdiq edir.

Strabon yazır: "...Ermənilərin ölkəsi qabaq zamanlarda kiçik idi, onlar qonşuları gürcülər, albanlar, atropatenalılar və başqa xalqlarla müharibəyə başlayaraq onlardan əyalətlər qopardılar..." Akademik V.L.Veliçko yazır: "...Ermənilər Qafqazda köklü əhali deyillər, kütləvi surtədə buraya XIX əsrin birinci yarısında Türkiyəni tərk edən qaçqınlar kimi gəlmişlər". İ.Şopen yazırdı: "Ermənilər gəlmədirlər..."

Akademik Ramiz Mehdiyev problemin bilicisi kimi 2000-ci ilin martında 20 yanvar faciəsinin 10-cu ildönümünə həsr edilmiş əsərində yazmışdır: "...Fundamental elmi tədqiqatlarla sübuta yetirilmişdir ki, müasir Ermənistan ərazisi tarixən Azərbaycana mənsub olmuşdur. Doğrudur, burada kiçik qruplarla, dağınıq halda ermənilər də yaşayırdılar, lakin onlar gəlmə etnos idi və bu bölgəyə müasir İranın, İraqın, Suriyanın və Türkiyənin ərazilərindən köçmüşdülər". Həmin elmi məqalədə Ramiz Mehdiyev daha sonra yazır: "...Protoerməni tayfalarının vətəni Balkan yarımadası olmuşdur. Bu barədə erməni tədqiqatçıları özləri də yazmışlar. Məsələn, nüfuzlu erməni alimləri hesab edirlər ki, "protoerməni tayfaları hələ e.ə II minilliyin birinci yarısında Balkan yarımadasında yaşamışlar". Kiçik Asiyaya onlar e.ə. təqribən XIII əsrin ortalarında köçüb gəlmişlər. ...E.ə. I minilliyin ortalarında Ermənistan yaylası ərazisinə qalib çıxmışlar..." Konkret elmi faktlardır. VI əsr ərəb tarixçisi Ubeyd ibn Şəriyyə əl-Cürhumi yazmışdır ki, Azərbaycan çoxdan türk torpağıdır və türklər lap qədimdən burada məskunlaşmışdır. Ərəb tarixçisi Ət-Təbəri (X əsr) yazırdı ki, VII əsrdə türklər bu ərazilərdə hökmran olmuşlar. V əsr erməni tarixçisi Moisey Xorenasi ermənilər barədə açıq yazır ki, "biz (yəni "hay"lar)" kiçik, azsaylı, zəif və çox hallarda özgələrinin hakimiyyəti altında yaşayan xalqıq".

Erməni tarixçisi K.Patkanyan etiraf etmişdir ki, "Ermənistan heç bir zaman bəşər tarixində xüsusi rol oynamamışdır..." Həm də erməni tarixçilərinin özləri dəfələrlə yazmışlar ki, ermənilərin Qafqaz torpaqlarında hec bir ərazisi olmamış, uzaq-uzaq diyarlardan indiki ərazilərə köçüb gəlmişlər. 1951-ci ildə nəşr edilmiş "Erməni xalqının tarixi" kitabında yazılıb: "Qədim erməni tayfaları Zaqafqaziyada deyil, məhz yuxarı Fərat vadisində məskunlaşmışlar". Tanınmış rus alimi İ.M.Dyakonov yazır: "...Qədim ermənilər təqribən e.ə birinci minillikdə Fərat çayının yuxarı vadisində meydana gəlmişlər". Başqa bir yerdə İ.M.Dyakonov yazır ki, e.ə XII-IV əsrlər arasında Balkanlardan gəlmiş friqler (firq tayfasının bir qolu ermənidir) Kiçik Asiyanın Şərqində, Fərat çayının yuxarı axınının hövzəsində məskunlaşmışlar. Erməni tarixçisi H.Pastermacanyan yazmışdır: "...E.ə VII-VI əsrlərdə meydana gələn hind-Avropa xalqı olan ermənilərin gəlişindən qabaq, indi Ermənistan adlanan ərazidə Urartu mənşəli Koldis və ya Xaldes xalqı yaşayırdı. Onların ölkəsi Urartu adlanırdı. Ermənistandan şimalda iki ölkə yerləşirdi: İberiya və Albaniya (Azərbaycan)". Digər tarixçilər belə hesab edirlər ki, ermənilərin əsl vətəni Balkan yarımadasında Tasaliya deyilən kiçik bir ərazi olmuşdur. Məşhur ABŞ tarixçiləri Castin Makkarti və Karolin Makkarti özlərinin "Turki i armyane" (B., 1996) adlı kitabında yazırlar ki, Ermənistan Respublikasının indiki ərazisi ermənilərə deyil, azərbaycanlılara məxsusdur. Məhz bu səbəbdən də Ermənistan ərazisindəki coğrafi adların böyük əksəriyyəti azərbaycanlılara aiddir.

Azərbaycan MEA-nın müxbir üzvü İqrar Əliyev tədqiqatlarında yazır ki, ermənilər öz istəklərinə uyğun gəlməyənləri əksinə göstərməkdə və bu barədə bütün dünyaya car çəkməkdə mahirdirlər. Ədalət naminə etiraf etmək lazımdır ki, onlar bu iyrənc təbliğat işini böyük ustalıqla görür, dinləyicilərini və oxucularını "palıd ağacında alma yetişir" fikrinə inandıra bilirlər. Azərbaycan MEA-nın müxbir üzvü, professor Yaqub Mahmudov yazır: "Tarixdə heç zaman üç dəniz arasındakı geniş əraziləri əhatə edən "böyük Ermənistan" adlı

dövlət olmayıb. Bu uydurmadır. Və bu uydurmaları elmə sırıyarkən erməni saxtakarları coğrafi termini siyasiləşdirmişlər..."

Beləliklə, tarixi qaynaqlarla, mənbələrlə, antik və müasir müəlliflərin tədqiqatları və arqumentləri ilə tutuşdurulduqda akademik Ramiz Mehdiyevin sözləri ilə desək, "Sarkisyanın "gedişi" yumşaq desək, erməni tarixçilərinin yazdıqları ilə uyğun gəlmir". Həm də köçürüldükləri yerlərdə Sarkisyanın babaları özlərini hec də yaxşı aparmırdılar. İş o yerə çatmışdı ki, ermənilərin köçürülmə əməliyyatlarına rəhbərlik edən A.Qriboyedov sonralar peşmançılıqla yazmışdı: "...Ermənilər ilk dəfə buraxıldıqları torpaqlara həmişə sahib çıxırlar, çünki acgöz və tamahkardırlar". Qriboyedov mərkəzə belə bir məlumat da ötürmüşdü ki, gəlmə ermənilər yerli müsəlman əhali ilə yaxşı dolanmır, ermənilərin bu hərəkəti isə gələcək münaqişələrdən xəbər verirdi.

Akademik Ramiz Mehdiyevin kitabında obyektiv olaraq belə bir tarixi fakt da öz əksini tapıb: 1828-ci il martın 21-də imperator I Nikolay öz fərmanı ilə qondarma erməni vilayəti yaratdı (səh. 64). Bununla da qədim Azərbaycan torpaqları hesabına başabəla "dövlət" qurdu. "Erməni vilayəti"nin tərkibinə İrəvan xanlığının, Naxçıvan xanlığının və Ordubad dairəsinin əraziləri daxil edilmişdi.

Təqribən 26.966,4 kv.km ərazini əhatə edən "Erməni vilayəti"nin erməni sakinləri özlərini yaxşı aparmadıqları üçün çar hökuməti "öz səhvini" düzəltdi və 1840-cı ildə "Erməni vilayəti"ni ləğv etdi. Ancaq az sonra 1849-cu ildə İrəvan qubernyası təşkil edildi, onun tərkibinə Zəngibasar, Kərnibasar, Qırxbulaq mahalları daxil edildi.

Beləliklə, "böyük Ermənistan" yaratmaq yolunda ermənilərin əlinə tarixi bir fürsət düşdü və onun yaradılması istiqamətində erməni təbliğatı genişlənməyə və tarixin saxtalaşdırılmasına yönəlmiş proqramlar hazırlamağa başlandı. Bununla da Azərbaycanın zaman-zaman məruz qaldığı təcavüzdə düşmən də məlum olur, ona havadarlıq edən qara qüvvələr də!

Antik müəlliflər, orta əsr müəllifləri və hətta erməni tarixçiləri də yazmışlar ki, Qarabağ torpağı qədim Azərbaycanın - Albaniya dövlətinin ərazisi olmuşdur. Tanınmış alim T.Svyataxovski yazırdı ki, ermənilərin Qarabağ haqqındakı tələbləri qeyri-qanunidir və əsassızdır. Bu yer tarixən Azərbaycan torpağıdır. Ermənilər bu yerlərə sonralar köcüb gəlmişlər. O ki qaldı 1921-ci il iyulun 4-də və 5-də Qafqaz bürosunun qərarları məsələsi, bu, müstəqil bir mövzudur. Həmin problemə ümummilli lider Heydər Əliyev aydınlıq gətirmişdir: "...Tarixi bilənlər yaxşı bilirlər ki, N.Nərimanov və başqaları o vaxt nə qədər kəskin mübarizə aparmışlar..." Tarixçilər yaxşı bilirlər ki, Nərimanovun qətiyyətli və kəskin mübarizəsinin nəticəsində, nəhayət, belə bir qərar (5 iyul) qəbul edilmişdir.

Tarixi faktlardan o da məlumdur ki, N.Nərimanovun "yüksək" vəzifəyə irəli çəkilməsi ilə əlaqədar Bakıdan gedən kimi erməni ideoloqu olan L.Mirzəyan kommunist cildinə girərək özünün yaramaz və hiyləgər niyyəti ilə Dağlıq Qarabağ planını S.M.Kirovun köməyi ilə həyata keçirə bildi, Dağlıq

Qarabağ Muxtar Vilayəti yaradıldı. Hörmətli akademikimizin sözləri ilə desək, "Dağlıq Qarabağ Muxtar Vilayəti süni qurum idi". Erməni işğalçıları tərəfindən zəbt edilən Qarabağ torpaqlarında yeni bir dövlət yaratmaq istəyən Ermənistan rəsmiləri bilməmiş olmazlar ki, hər hansı bir ərazidə 2 eyniadlı dövlət yaratmaq yolverilməzdir və beynəlxalq müstəvidə qanunaziddir. Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir, o, Azərbaycanın beynəlxaq səviyyədə tanınmış hissəsidir və "Azərbaycan dövləti hec vaxt imkan verməz ki, Azərbaycanın tarixi torpaqlarında ikinci erməni dövləti yaradılsın".

Hörmətli akademik kitabda düzgün olaraq bildirir: "Ermənistanda ümid edirlər ki, tarixi primitiv şəkildə saxtalaşdırıb beynəlxalq təşkilatlara Dağlıq Qarabağın guya qədim erməni torpağı olduğunu sübut etməklə onu özlərinə birləşdirməyə nail olacaqlar. S.Sarkisyan və tarixi saxtalaşdıran erməni "intellektualları" çoxdan bilməli idilər ki, tarixi prosses irəliyə doğru hərəkət edir, geriyə yox".

Prezident İlham Əliyevin dediyi kimi, bu gün Azərbaycan hökumətinin qarşısında iki mühüm vəzifə durur: birincisi, ərazilərimizin işğaldan azad olunması, məcburi köçgünlərin öz doğma torpaqlarına qaytarılmasına nail olmaq və ikincisi, azərbaycanlıların soyqırımı haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, hiyləgər erməni təbliğatının saxta tezislərini ifşa etmək. Bəli, bu gün qabaqlayıcı təbliğat maşınına, güclü və monolit hücüm taktikasına, əks-təbliğat mexanizminə malik sağlam düşüncə strategiyasına əsaslanmaqla tarixi həqiqətləri dünyaya çatdırmaq, erməni yalanlarını ifşa etmək və erməni rəsmilərinin böhtançı "ideyalarını" əsaslandırılmış elmi arqumentlərlə darmadağın etmək istiqamətində akademik Ramiz Mehdiyevin kitabı hər birimizin əlində kəsərli silahdır. Biz bu silahın potensial gücü ilə erməni saxtakarlarının yalanlarının və böhtanlarının mahiyyətini bir daha dünya ictimaiyyətinə çatdırmaq sahəsində çox iş görə bilərik. Düşünürük ki, həmin faktları və arqumentləri bildikdən sonra bütün dünya anlayacaq ki, ermənilər kimdir, haradan gəlib, qədim Azərbaycan torpaqlarında necə məskunlaşıblar, qonşularına qarşı necə xain əməllər törətmiş, azərbaycanlılara qarşı hansı soyqırımlar həyata keçirmiş, ərazilərimizi necə olub ki, işğal etmişlər. Hansı şəraitdə monoetnik Ermənistan dövləti yarada biliblər, necə olur ki, yalançı və böhtançı tezislərlə çıxış etməyi Ermənistan rəhbərliyi özünə rəva bilir və əslində dünya ictimaiyyətinə dezinformasiyalar ötürürlər. Akademik Ramiz Mehdiyevin dövlətə və dövlətçilik prinsiplərinə sadiq qalaraq elmi və zəngin dünyagörüşünün qiymətli məhsulu olan bu dəyərli tarixi kitabını oxuyandan sonra inanırıq ki, hər kəs tarixi həqiqətləri biləcək və erməni millətçilərinin şovinist ruhlu böhtanlarını lənətləyəcək.

Kitabda aparılan analitik təhlillərdən aydın olur ki, Qafqazda yaranmış geosiyasi vəziyyəti və bugünkü reallığı tarixi həqiqətlərə uyğun, doğru-düzgün aydınlaşdıraraq tərəqqipərvər bəşər övladlarına, dünya dövlətlərinin prezidentlərinə, parlament və hökumət rəhbərlərinə bildirmək istəyirik ki, yüz il bundan

əvvəl olduğu kimi, bu gün də erməni millətçilərinin yeritdiyi məkrli və hiyləgər daşnaq siyasəti qonşu dövlətlər üçün olduqca təhlükəlidir. "Dənizdəndənizə böyük Ermənistan dövləti" yaratmaq istəyən erməni şovinistlərinin nə tarixi həqiqətlərə, nə də bugünkü siyasi reallıqlara uyğun gəlməyən sərsəm xəyalları Azərbaycan da daxil olmaqla, Rusiya, Türkiyə, Gürcüstan dövlətlərinə qarşı ərazi iddiaları, Qafqazda və bütün dünyada sülh və sabitlik üçün real təhlükə törədən çox böyük münaqişə ocağının yaranmasına gətirib çıxara bilər. Buna görə də təhlükənin qarşısının alınması və müvafiq tədbirlərin həyata keçirilməsi üçün bütün dünya dövlətlərinə və beynəlxalq təşkilatlara vaxtında məlumat vermək və ciddi siyasi nəticələr çıxarmaq lazımdır. Kitabda Azərbaycanın qədim və müasir dövrlərinin dünya birliyi tərəfindən tanınmış, xəritələrin verilməsi kitabın elmi dəyərini bir daha artırır.

Dünyanın tarixçi alimləri və beynəlxalq ictimaiyyət bilməlidir ki, Qafqaza qonaq kimi gələn ermənilər yerli azərbaycanlı əhalini sıxışdırıb dədə-baba yurdlarından qovdu və iri dövlətlərin dəstəyi ilə Cənubi Qafqazda özlərinə yeni bir dövlət yaratdılar. Ancaq hec paytaxtı da yox idi. 1918-ci il may ayının 29-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti İrəvan şəhərini Ermənistana "bağışladı". Bununla da paytaxtsız bir dövlətin yeni siyasi mərkəzi yaradıldı. Prezident İlham Əliyev demişdir: "Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır. Ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Halbuki sürə bilərik, çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbyacan torpaqlarıdır".

Akademik Ramiz Mehdiyev kitabın sonunda haqlı olaraq yazır ki, S.Sarkisyan Gorusdakı nitqi ilə özünü pis vəziyyətə salmış və qonaqlara yalnış məsləhətlər vermişdir. Ermənistanın gələcək nəsilləri bu səhvlərin ağır nəticələrini öz üzərlərində hiss edəcəklər. İnanırıq ki, zəka, ağıl və müdriklik qalib gələcək, haqq-ədalət qələbə çalacaq.

"Azərbaycan" qəzeti. 1 mart 2011

GÖRKƏMLİ ALİM HAQQINDA MÜKƏMMƏL BIBLIOQRAFİYA

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası tərəfindən 1964-cü ildən bəri "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyası ilə hazırlanıb çap edilən universal xarakterli, geniş əhatəli retrospektiv şəxsi biblioqrafik vəsaitlər ölkəmizin biblioqrafik informasiya ehtiyatlarının çox mühüm tərkib hissəsi kimi böyük əhəmiyyət kəsb edir. Müxtəlif elm sahələrində çalışan görkəmli alimlərin həyat və fəaliyyətinə həsr edilmiş səciyyəvi tərtib metodikasına malik çoxsaylı şəxsi göstəricilər həm zəngin biblioqrafik vəsaitlər sırasında özünəməxsus yer tutur, həm də cəmiyyətin biblioqrafik informasiya tələbatının ödənilməsində mühüm rol oynayır.

Bu yaxınlarda nəfis şəkildə, yüksək poliqrafik icrada işıq üzü görmüş biblioqrafiya Dövlət mükafatı laureatı, AMEA-nın və bir sıra beynəlxalq akademiyaların akademiki, fizika-riyaziyyat elmləri doktoru, professor Arif Paşayevin həyat və fəaliyyətinə həsr edilmişdir.

Biblioqrafik göstəricinin tərtibçi-müəllifləri MEK-in direktoru, filologiya elmləri doktoru Aybəniz Əliyeva-Kəngərli və texnika elmləri üzrə fəlsəfə doktoru Ənvər Həzərxanov, redaktorları MEK-in mütəxəssisləri Firəngiz Hüseynova və İsmət Səfərovdur.

"Arif Mir Cəlal oğlu Paşayev: biblioqrafiya" göstəricisinin üstün cəhətlərindən biri materialların 3 dildə - Azərbaycan, rus və ingilis dillərində verilməsidir. Bu da qloballaşan dünyada Azərbaycan elminin nailiyyətlərinin beynəlxalq aləmin qabaqcıl ölkələrində yayılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bəri başdan qeyd edək ki, Azərbaycan elminin görkəmli nümayəndələrindən biri olan Arif Paşayevin həyat və yaradıcılığı haqqında aydın təsəvvür yaratmağa kömək edən bu biblioqrafik əsər sahə mütəxəssisləri üçün əvəzsiz informasiya mənbəyidir.

Biblioqrafiyada akademikin 1970-2009-cu illərdə Azərbaycan, rus, ingilis və digər dillərdə çap edilmiş monoqrafiyaları, dərsliklərı, dərs vəsaitləri, elmi məqalələri, beynəlxalq simpozium və konfranslardakı çıxışlarının tezisləri, müəlliflik şəhadətnamələri, ixtira patentləri, bütövlükdə 533 ədəbiyyat öz əksini tapmışdır. Göstərici "Həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri", "Alim ömrünün elmi təfəkkürə köklənmiş kodları" (müəllifi akademik Mahmud Kərimovdur), "Arif Mir Cəlal oğlu Paşayevin elmi, elmi-təşkilati və pedaqoji fəaliyyəti haqqında qısa oçerk" (oçerkin müəllifi akademik Arif Mehdiyevdir), "Elmi əsərlərin biblioqrafiyası", "İxtiralar və müəlliflik şəhadətnamələri", "Patentlər", "Aspirant və dissertantlara elmi rəhbərlik", "Həyatı və yaradıcılığı haqqında" bölmələrindən, eləcə də "Veblioqrafiya", "Əsərlərin əlifba göstəricisi", "Müştərək müəlliflərin əlifba göstəricisi", "Haqqında yazan müəlliflərin əlifba göstəricisi" adlı köməkçi aparatdan ibarətdir.

"Həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri" bölməsində akademik Arif Paşayev haqqında geniş informasiya verilmişdir.

Biblioqrafik göstəricinin əvvəlində verilmiş 2 mühüm məqalə də diqqəti cəlb edir. Onlardan biri Azərbaycan MEA-nın prezidenti akademik Mahmud Kərimovun "Alim ömrünün elmi təfəkkürə köklənmiş kodları" məqaləsi, digəri Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri akademik Arif Mehdiyevin qısa oçerkidir.

Biblioqrafiyadan aydın olur ki, 1934-cü ildə görkəmli yazıçı-pedaqoq Mir Cəlalın ailəsində doğulub boya-başa çatan Arif Paşayev 1941-1951-ci illərdə Bakı şəhərindəki 164 saylı orta məktəbdə təhsil almışdır. O, orta məktəbi bitirən kimi Moskva Elektrotexnika Rabitə İnstitutuna daxil olmuş, sonra təhsilini Odessa Elektrotexnika Rabitə İnstitutunda davam etdirmişdir. 1957-ci ildə ali təhsilini radiofizika ixtisası üzrə bitirərək Bakı Dövlət Universitetində laborant kimi əmək fəaliyyətinə başlamış, 1959-cu ildən Azərbaycan MEA-nın

Fizika İnstitutunun astrofizika bölməsinə keçmişdir.

Arif Paşayev 1960-1964-cü illərdə Moskvada "QİREDMET" İnstitutunda aspirant olmuş, 1966-cı ildə isə "Yüksək və ifratyüksək tezliklərdə yarımkeçiricilərin parametrlərini ölçmək üçün kontaktsız üsul və cihazların işlənməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

Arif Paşayev 1978-ci ildə "Yarımkeçiricilərin tədqiqində qeyri-dağıdıcı üsulların fiziki əsasları, inkişaf prinsipləri və tətbiqi perspektivləri" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

1971-1996-cı illərdə Azərbaycan MEA-nın Fizika İnstitutunda Zədəsiz ölçmə və nəzarətin fiziki üsulları laboratoriyasına rəhbərlik etmiş, yüksək və ifratyüksək tezlikli diapazonlarda materialların zədəsiz tədqiqatlarının fiziki əsaslarını hazırlamış, bu sahədə yeni istiqamətlərin yaradılması və onların tətbiqi ilə probleminin həllinə böyük əmək sərf etmişdir.

Elmi axtarışlarının əsas istiqaməti yarımkeçiricilər fizikası və texnikası olan Arif Paşayev ilk dəfə yarımkeçirici materialların elektrofiziki parametrlərinin kontaktsız ölçülməsi üsullarının elmi əsaslarını işləmiş və bu üsulları reallaşdıran elmi cihazlar yaratmışdır.

Akademik Arif Paşayev 1996-cı ildən indiyədək "Azərbaycan Hava Yolları" Dövlət Konserni Milli Aviasiya Akademiyasının rektorudur. Onun rəhbərliyi ilə akademiyada tədris prosesi, elmi-metodik işlər yüksək səviyyədə təşkil edilmiş, yeni kafedra və ixtisaslar açılmış, burada ilk dəfə Azərbaycan dilində təhsilin aparılmasına başlanılmışdır.

Akademik Arif Paşayevin rəhbərliyi ilə Milli Aviasiya Akademiyasının elmi fəaliyyəti buradakı dozimetrlərin, pilotsuz uçan aparatların, minaların axtarılması və zərərsizləşdirilməsi üzrə radioidarəolunan robotların, radiotexniki təminat obyektlərinin texniki vəziyyətinə avtomatlaşdırılmış nəzarət sistemlərinin yaradılmasına və s. yönəldilmişdir.

Bütün bu uğurların nəticəsi kimi Milli Aviasiya Akademiyası Dövlətlərarası Aviasiya Komitəsinin qərarı ilə "Mülki Aviasiya ali təhsil müəssisəsi" sertifikatına layiq görülmüş və Beynəlxalq Mülki Aviasiya Təşkilatının ali təhsil müəssisələrinin siyahısına daxil edilmişdir.

Dünyada ilk dəfə akademik Arif Paşayevin rəhbərliyi ilə işlənib hazırlanmış "Təyyarə salonlarının dezinfeksiyası üçün ozonlaşdırma üsulu və qurğusu"na İsveçrədə PCT Beynəlxalq Patent Təşkilatının patenti verilmişdir.

Akademik Arif Paşayevin rəhbərliyi ilə Milli Aviasiya Akademiyası, AMEA-nın Təcrübə-Sənaye Zavodu və "Zeytun" Elm-İstehsalat Müəssisəsi birgə yüksək elektrik izolyasiyalı, korroziyaya və rütubətə davamlı, səs dalğalarının yayılması üçün şəffaf kipləndirici olan yeni poliefiruretan əsaslı lak-kompaundun, aviasiya təyinatlı aşağı temperaturlu sürtkü materialları və hidravlik mayelərin, həlledicilərin istehsalı texnologiyasını işləmişdir. Alınan nailiyyətlərin orijinallığı, ilkinliyi Azərbaycanın və Rusiya Federasiyasının

patentləri ilə təsdiqlənmişdir.

Akademik Arif Paşayevin rəhbərliyi ilə dünyada ilk dəfə həm yaşıl, həm də yetişmiş zeytunun ekoloji cəhətdən təmiz, iqtisadi cəhətdən səmərəli elektrik üsulu ilə emalı və konservləşdirilməsi texnologiyası işlənmiş, bir neçə müasir qurğu yaradılmış və istehsalat bazasının layihəsi hazırlanmışdır. Bu üsulla işlənmiş qurğulara Azərbaycan Respublikası və Rusiya Federasiyasının patentləri alınmışdır.

Milli Avrasiya Akademiyasında elmi işlər və mütəxəssis hazırlığının müasir səviyyəsi nəinki "AZAL" üçün yüksək ixtisaslı, səriştəli kadrların hazırlanmasına, hətta beynəlxalq aviasiya təşkilatlarının da səriştəli mütəxəssislərlə təmin edilməsinə və aviasiyada istifadə olunan nadir cihazların yaradılmasına imkan verir.

Akademik Arif Paşayev ölkəmizdə aviasiya təhsilinin müasir səviyyədə inkişafına gərgin əmək sərf edən, gənc nəslin təlimini və yüksək vətənpərvərlik ruhunda tərbiyəsini həmişə diqqətdə saxlayan qayğıkeş rəhbər, təəssübkeş məsləhətçidir.

Biblioqrafiyada da qeyd edildiyi kimi, son vaxtlar Azərbaycanda kosmik sənayenin inkişafına xüsusi diqqət yetirilir. Ölkə rəhbəri bununla əlaqədar 4 noyabr 2008-ci ildə "Azərbaycan

Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peykinin orbitə çıxarılması haqqında", 17 avqust 2009-cu ildə "Kosmik sənayenin yaradılması və inkişafı Dövlət Proqramının təsdiqlənməsi haqqında" sərəncamlar imzalamışdır. Dövlət Proqramının əsas hissələrindən biri telekommunikasiya peykinin orbitə çıxarılmasıdır. Bu məqsədlə də dövlət başçısının müvafiq sərəncamı ilə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Bununla bağlı təşkil edilən Kosmik Məsələlər üzrə Şuranın məqsədi sərəncamdan irəli gələn tapşırıqların həlli, kosmik sənayenin yaradılması, beynəlxalq təcrübədən uğurla istifadə olunması, kosmik fəaliyyət sahəsində qabaqcıl təcrübənin və elmi-texniki nailiyyətlərin öyrənilməsi, bu sahədə səmərəli təkliflərin hazırlanması və dövlət siyasətinin reallaşdırılmasıdır. Azərbaycanın Kosmik Məsələlər üzrə Şurasının ilk sədri vəzifəsinə isə akademik Arif Paşayev seçilmişdir. Bu da təsadüfi deyil.

Biblioqrafik göstəricinin əsas bölmələrindən biri olan "Elmi əsərlərin biblioqrafiyası"nda akademik Arif Paşayevin 1970-2009-cu illərdə Azərbaycan, rus və ingilis dillərində çapdan çıxmış 390 adda kitab, monoqrafiya, dərslik, dərs vəsaiti və elmi məqalələri xronoloji qaydada öz əksini tapmışdır. Bölmədən aydın olur ki, alimin İ.Baxşıyevlə birlikdə yazdığı ilk kitabı 1970-ci ildə "Maarif" nəşriyyatında buraxılmış 70 səhifədən ibarət "Məktəbli - radio həvəskarı" adlanır. Bu kitabçada elementar şəkildə radiotexnikanın və radioelektronikanın əsasları izah olunmuşdur.

Bu bölmə oxucuya akademikin elmi yaradıcılığının sadədən mürəkkəbə, ilk məqalələrindən dərin elmi tədqiqatlara qədər keçdiyi inkişaf yolunu pillə-pillə, mərhələ-mərhələ izləmək imkanı verir.

Biblioqrafik göstəricinin "İxtiralar və müəlliflik şəhadətnamələri" bölməsində görkəmli alimin 24 ixtira və müəlliflik şəhadətnaməsi, "Patentlər" bölməsində isə 37 patenti barədə biblioqrafik yazılar toplanmışdır. Burada alimin texniki yaradıcılığında baş verən yeniliklər, nailiyyətlər, kəşflər, ixtira etdiyi cihazlar və qurğular barədə yığcam məlumat verilir.

Akademik Arif Paşayevin elmi-pedaqoji fəaliyyətində elmi kadrların hazırlığı ayrıca yer tutur. Biblioqrafik göstəricinin "Aspirant və dissertantlara elmi rəhbərlik" bölməsindən göründüyü kimi, alim gərgin elmi-tədqiqat işi aparmaqla yanaşı, yüksək ixtisaslı kadr hazırlığı sahəsində də mühüm uğurlara nail olmuşdur. Onun elmi rəhbərliyi ilə 10-dan çox aspirant, dissertant və doktorant namizədlik və doktorluq dissertasiyası müdafiə etmişdir. Akademik Azərbaycanla yanaşı, Rusiya, Ukrayna, Latviya və Estoniyada müdafiə olunmuş bir çox doktorluq dissertasiyaları üzrə rəsmi opponent kimi çıxış etmişdir.

Akademik Arif Paşayevin Azərbaycan və dünya elmini zənginləşdirən araşdırmaları həm ölkəmizdə, həm də respublikamızın hüdudlarından kənarda layiqincə dəyərləndirilmişdir. Hələ 1991-ci ildə avtonom hidroakustika informasiya sisteminin yaradılması sahəsində kompleks işlərinə görə Azərbaycan Respublikasının Dövlət mükafatına, fizika sahəsindəki yüksək nailiyyətlərinə görə "SSRİ ixtiraçısı" medalına, akademik Y.Məmmədəliyev adına medala layiq görülmüşdür.

Sonralar akademik Arif Paşayevin mükafatları sırasına İngiltərə Beynəlxalq Bioqrafiya Mərkəzinin "Qızıl medal"ı, "VEKTOR" Beynəlxalq Elm Mərkəzinin "XXI əsrin tanınmış alimi" beynəlxalq diplomu, Beynəlxalq Elmlər Akademiyasının "Qızıl döş nişanı", Beynəlxalq Mühəndislik Akademiyasının "Qızıl medal"ı, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının "Qızıl medal"ı, "Dədə Qorqud" Milli Fondunun "Dədə Qorqud" mükafatı, "Azərbaycan dünyası" jurnalının "Vətən övladı" qızıl medalı, Təhsil Nazirliyinin "Azərbaycanın qabaqcıl təhsil işçisi" diplomu və medalı, Rusiya Elmlər Akademiyasının P.L.Kapitsa adına qızıl medalı, Ukraynanın "Şərəf və ləyaqət" qızıl ulduzu, Ukrayna Milli Aviasiya Universitetinin "Böyük Qələbə" ordeni, Dövlətlərarası Aviasiya Komitəsinin "Qızıl medal"ı əlavə olunmuşdur.

Azərbaycanda elmin və təhsilin inkişafında yüksək xidmətləri olan akademik Arif Paşayev 2004-cü ildə ölkə Prezidentinin fərmanı ilə "Şöhrət" ordeni, 2009-cu ildə "Şərəf" ordeni ilə təltif edilmişdir.

Bütün bunlar barədə biblioqrafik göstəricidə əhatəli məlumat verilmişdir.

Akademik Arif Paşayev Dövlətlərarası Aviasiya Komitəsi nəzdində aviasiya mütəxəssislərinin hazırlanması üzrə Əlaqələn-dirmə Şurasının, Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının Ekspert Şurasının, Tbilisi Texniki Universitetində Ərazi Şurasının üzvü, Azərbaycan MEA-da cihazqayırma üzrə Elmi Şuranın sədri, Azərbaycan Milli Aerokosmik Agentliyi və Milli Aviasiya Akademiyası nəzdində birləşmiş ixtisaslaşdırılmış şuranın həmsədridir.

Azərbaycan MEA-nın həqiqi üzvü olan Arif Paşayev eyni zamanda

Beynəlxalq Nəqliyyat, Beynəlxalq Mühəndislik, Beynəlxalq Ekoenergetika, Beynəlxalq Elmlər, Beynəlxalq İnformasiyalaşdırma akademiyalarının akademiki, bir sıra universitetlərin fəxri doktoru və professorudur.

Biblioqrafik vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə göstəriciyə "Veblioqrafiya", "Əsərlərin əlifba göstəricisi", "Müştərək müəlliflərin əlifba göstəricisi", "Haqqında yazan müəlliflərin əlifba göstəricisi" kimi köməkçi aparat tərtib edilmişdir. Bu köməkçi aparatı tərtib etməkdə əsas məqsəd daxildə xronoloji ardıcıllıqla düzülmüş materialların əlifba qaydası ilə tez tapılmasına yardım etməkdən, alimin müxtəlif dillərdə nəşr olunmuş əsərlərini daha tez müəyyənləşdirməkdən, haqqında yazmış müəlliflər barədə informasiya almaqdan ibarətdir.

Göründüyü kimi, akademik Arif Mir Cəlal oğlu Paşayevin elmi, pedaqoji, ictimai fəaliyyəti haqqında mükəmməl məlumat verən bu biblioqrafik vəsait müvafiq sahənin biblioqrafik informasiya təminatında mühüm rol oynayacaqdır. Ümumiyyətlə, yeni göstərici Azərbaycanın zəngin biblioqrafik sərvəti içərisində mühüm yer tutmaqla yanaşı, texniki elmlərin biblioqrafik informasiya təminatında xüsusi əhəmiyyətə malik olan vəsaitlərdən biri kimi olduqca dəyərlidir.

Knyaz Aslanla birlikdə.
"Azərbaycan" qəzeti. 26 aprel 2011

MÜNDƏRİCAT

Ön söz ... 3
Kitabxanaçılıq təhsilinin inkişafı ... 7
Реальные шаги к суверенитету системы образования ... 13
Sovet Azərbaycanında kitabxana işinin nailiyyətləri ... 15
Parlament kitabxanası necə olmalıdır? ... 24
Dövlət qayğısına möhtacdır ... 26
Milli dövlətçiliyimiz naminə ... 29
Mərkəzləşdirilmiş kataloqlaşdırma ... 31
Müasir şəraitdə Azərbaycanda kitabxana quruculuğu nəzəriyyə və təcrübəsinin elmi əsasları ... 41
Azərbaycanın müstəqilliyinə və milli idealogiyasına qiymətli töhfə ... 46
H.Ə.Əliyevin rəhbərliyi dövründə Azərbaycanda kitabxana işinin inkişafı /1970-1980-ci illər/ ... 50
1998-ci ili kim necə başa vurdu? ... 51
Из опыта подготовки бакалавров и магистров По специальностям «библиотековедение и библиографоведение» на библиотечном факультете Бакинского Государственного Университета им. М.А.Расулзаде ... 51
Cəmiyyətin informasiya təminatında kitabxanaların tarixi rolu ... 53
Müasir kitabxanaların sosial funksiyaları ... 59
Историческая роль библиотек в информационном обеспечение общества (опыт библиотек Азербайджана) ... 81
Silahli qüvvələrimiz vətənin dayağıdır ... 83
Проблемы компьютеризации библиотек Азербайджана ... 86
Kitabxanaları özəlləşdirmək və icarəyə vermək olmaz ... 88
"Kitabxana işi" anlayışının öyrənilməsinə dair ... 90
Söhbət Azərbaycanlı igid Məlik Məhərrəmovdan gedir ... 94
Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin formalaşmasında Heydər Əliyev irsinin rolu ... 97
Hidayətin biblioqrafiyasına rəy ... 100
Alovlu vətəndaş, vətənpərvər ziyalı ... 102
К Истории библиотек Азербайджана ... 104
Библиотечное дело в Азербайджанской Республике ... 109
"Kitabxanaçılığı qız sənəti hesab etmirəm" ... 115
Şərəfli ömrün zirvəsi ... 118
Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam ... 123
Yazıçı haqqında informasiya mənbəyi ... 126
İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri ... 127
Azərbaycan Respublikasının Prezidenti Cənab Heydər Əliyevə ... 131
Kitab öz «ünvan» ına çatdıqda oxunur yaxud müasir dövrdə kitabxana – nəşriyyat münasibətlərinin bəzi xüsusiyyətləri ... 132
Xalqın etimadı ilə ucalan təşkilat ... 135
Azərbaycanı bundan sonra da işıqlı gələcəyə yalnız Yeni Azərbaycan Partiyası apara bilər ... 137

Qədim kitab məbədinə yeni həyat verildi ... 140
Böyük ömrün səhifələri ... 142
2003-cü ilin «Heydər Əliyev ili» elan olunması tarixi zərurətdir ... 144
Heydər Əliyev əsərlərinin nəşri və təbliği məsələləri ... 147
Avtomatlaşdırılmış kitabxana informasiya idarəetmə sistemləri ... 155
Azərbaycan mədəniyyətinin qızıl fondu (Kitabxanalar vasitəsilə gələcəyə doğru) ... 161
Heydər Əliyev və Bakı Dövlət Universiteti bir-birindən ayrılmaz iki böyük varlıqdır ... 166
Kitabxanalar müasirləşdirilməlidir ... 167
Xalqımızın milli iftixarı ... 168
Azərbaycan Respublikasının Prezidenti Cənab Heydər Əliyevə ... 171
Kitabxanaçılar adından təşəkkür ... 172
Heydər Əliyev məktəbinin layiqli yetirməsi ... 173
Həyatımın ən ağır itkisi ... 175
Azərbaycan Respublikası prezidenti cənab İlham Əliyevə ... 177
Şərəfli alim ömrü ... 178
Arif Babayev haqqında dost sözü ... 180
Elektron kataloqların əhəmiyyəti və təşkili prinsipləri ... 182
İlham Əliyev öz andına sadiqdir ... 185
Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanası müstəqillik illərində ... 187
İnformasiya cəmiyyəti və kitabxana işi ... 193
Göyçə həsrəti ... 201
Məktəb kitabxanaları müstəqillik şəraitində ... 203
Heydər Əliyevin əməlləri əbədidir ... 212
Baş vurdum Göyçə tək böyük ümmana ... 216
Böyük alim, müdrik el ağsaqqalı ... 218
Görkəmli filoloq-alim istedadlı jurnalist ... 221
Müasir dövrdə kitabxana fəaliyyətinin əsas istiqamətləri ... 222
Görkəmli tarixçi alim, istedadlı pedaqoq, sadiq dost (Qurban Bayramov haqqında bir neçə kəlmə dost sözü) ... 227
Kitabxana dünyasına açılan pəncərə ... 230
AMEA Mərkəzi Elmi Kitabxanası müstəqillik illərində ... 235
Əməkdar incəsənət xadimi, görkəmli şair–dramaturq Hidayətə ... 243
Ölkəmizdə ilk fundamental elektron kitabxana ... 244
İnformasiya xidməti ... 249
Azərbaycan Gəncliyi Dövlət Proqramının həyata kecirilməsində Respublika Gənclər Kitabxanasının rolu ... 258
BDU- nun Elmi kitabxanasının elektron kataloqu ... 264
Kitabxana sahəsi dövlətin qayğısı ilə əhatə olunmuşdur ... 268
Görkəmli pedaqoq alim ... 270
Kitabxanalar barədə məlumatlar və statistik göstəricilər toplusu ... 271
Heydər Əliyev və Azərbaycanda kitabxana quruculuğu ... 274
Bənzərsiz filosof, mahir pedaqoq ... 282
XX əsrdə Türkiyədə kitabxana işi ... 285
O, kitabı təhsilin, elmin, insanın həyat fəaliyyətinin əsas vasitəsi kimi qiymətləndirirdi ... 297

Kitabxanaşünaslıq fəlsəfəsi 299
Böyüklər haqq vergisidir 313
Dilçi alimin şöhrəti 317
Bu günün mühazirəsi necə olmalıdır? 318
Azərbaycan mədəniyyətinin qızıl fondu 319
Professor V.İ.Razumovskidən akademik A.M.Məhərrəmova qədər keçilmiş inkişaf və tərəqqi yolu 332
Abuzər Xələfov: "son 10 il BDU-nun tarixində intibah dövrüdür
"Bəxtiyar Vahabzadə ən sevimli müəllimim olub 351
Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvəti, iftixarıdır 355
Ənənələri yaşadan məbədgah 356
Elm və təhsil qurucusu 363
Azərbaycanın ilk elm məbədgahı 369
Müstəqillik illərində ali kitabxanaçılıq təhsilinin inkişafı 376
İnformasiya cəmiyyəti və kitabxanaşünaslığın müasir problemləri 391
"Kitabxanalar bəşər mədəniyyətinin inkişafında mühüm tarixi missiya yerinə yetirib" 396
Kitabxanaçılıq fikirlərinin meydana gəlməsi, təşəkkülü və inkişafı 399
Elm və təhsil fədaisi 411
Görkəmli Azərbaycan alliminin həyat səlnaməsi 414
Azərbaycan aliminin beynəlxalq uğuru 417
"Müstəqilliyimiz əbədidir – 31, 32-ci cildləri və İnkişaf məqsədimizdir" 420
Kitabxanalar informasiya cəmiyyətində 422
Qafqaz regionuna həsr olunmuş ilk fundamental ensiklopediya 425
Kitabxana və kommunikasiya 429
Kitabxana fondu ümumbəşəri sərvətin məcmusudur 436
Kitablar içində keçən ömür 444
Akademik Ramiz Mehdiyevin "Gorus - 2010: Absurd Teatrı mövsümü" əsərini oxuyarkən 449
Görkəmli alim haqqında mükəmməl biblioqrafiya 456

Çapa imzalanmışdır 16.09.2011. Kağız formatı 70x100 1/16.
Sifariş 54. Həcmi 29,0 ç.v. Sayı 200.

«Bakı Universiteti» nəşriyyatı, Bakı, AZ 1148, Z.Xəlilov, 23.

Hrf-265509



Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezidentin təqaüdçüsü, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov 60 ilə yaxındır ki, Bakı Dövlət Uuiversitetində səmərəli elmi-pedaqoji fəaliyyət göstərir.

Professor Abuzər Xələfov Kitabxanaçılıq-informasiya fakültəsinin ilk dekanı olmuş, 25 il bu vəzifədə çalışmışdır. 1963-cü ildən bu günə kimi Kitabxanaşünaslıq kafedrasının müdiridir. Öz fəaliyyəti dövründə 20 nəfərə yaxın fəlsəfə doktoru və elmlər doktoru yetişdirmiş, 20-dən artıq dissertantın opponenti olmuşdur. Azərbaycanda ali kitabxanaçılıq təhsilinin, müstəqil Kitabxanaçılıq-informasiya fakültəsinin inkişafında müstəsna xidmətləri olan prof. A.Xələfov milli kitabxanaşünaslıq elmi məktəbinin yaradıcısıdır.

Prof. A.Xələfov 300-dən artıq elmi əsərin, 30-dan artıq monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir.

2000-ci ildə prof. A.Xələfov Azərbaycanda kitabxanaşünaslıq elminin və ali kitabxanaçılıq təhsilinin inkişafındakı xidmətlərinə görə Prezident Heydər Əliyevin fərmanı ilə "Şöhrət" ordeni ilə təltif edilmiş, 2001-ci ildə isə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

BAKI UNİVERSİTETİ NƏŞRİYYATI